NAXÇIVAN

TARİXİ

Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri

NAXÇIVAN TARİXİ

Üç cilddə

NAXÇIVAN TARİXİ

Üçüncü cild

Baş məsləhətçi: **Vasif Talıbov**
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri

Redaksiya heyəti: **İ.M.Hacıyev, İ.Ə.Həbibbəyli,**
F.Y.Səfərli, Q.İ.Qədirzadə,
V.B.Baxşəliyev

Naxçıvan tarixi. Üç cilddə, III cild.- Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2015, 560 səh.

Naxçıvan tarixinin üçüncü cildi Naxçıvanın 1941-ci ilin iyun ayından 2015-ci ilədək olan mürəkkəb, ziddiyyətli, lakin əhəmiyyətli tarixi dövrünü əhatə edir. Kitab yeddi fəsildən ibarətdir. Burada İkinci Dünya müharibəsi dövrü tarixi, Naxçıvanın müharibədən sonrakı bərpa dövrü və ötən əsrin 50-60-cı illərində sosial-iqtisadi həyatda baş verən dəyişikliklər, 1970-1980-ci illərdə ictimai-siyasi həyat, iqtisadi və mədəni yüksəliş tədqiq edilmişdir. Kitabda həmçinin ötən əsrin 80-ci illərinin sonlarında başlanan milli oyanış, demokratik hərəkat, erməni təcavüzü, ulu öndər Heydər Əliyevin Naxçıvana qayıdışı, demokratik dəyişikliklər, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi, müdafiənin təşkili, Naxçıvanın blokadadan çıxarılması istiqamətində həyata keçirilən tədbirlər, müstəqilliyin möhkəmləndirilməsi sahəsində əldə olunan uğurlar, muxtar respublikanın mədəni inkişafı arxiv sənədləri, dövri mətbuat materialları və mövcud elmi ədəbiyyat əsasında şərh olunur.

ISBN 978-9952-8237-6-9

4700000000
053-2015

© "Əcəmi" 2015.

“Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması və nəşr olunması barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Azərbaycanın Naxçıvan Muxtar Respublikası böyük bir tarixi keçmişə malikdir. Aparılmış elmi tədqiqatlar sübut edir ki, Naxçıvan Muxtar Respublikasının yerləşdiyi ərazi bəşər sivilizasiyasının mühüm ocaqlarından biri olmuşdur. Bu ərazi antik, orta əsrlər və müasir dövr mədəniyyət nümunələri və tarixi abidələrlə - ilk insanların yaşadığı mağaralar, qədim yaşayış yerləri, qədim şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir.

Muxtar respublika ərazisindəki 2000-ə yaxın tarix və mədəniyyət abidəsi, o cümlədən Paleolit dövrünə aid Ovçular təpəsi və Qazma mağarası kimi ilkin insan məskənləri, eradan əvvəl V-III minilliyin yadigarları olan Əshabi-Kəhf ziyarətgahı və Gəmiqaya daşüstü rəsmləri bu torpağın qədim sakinləri olan Azərbaycan türklərinin həyat tərzini, adət-ənənələrini və dini- ideoloji təsəvvürlərini dövrümüzə qədər gətirib çıxarmışdır.

Muxtar respublikanın yerləşdiyi ərazinin əlverişli coğrafi mövqeyi və təbii sərvətlərlə bolluğu ən qədim dövrdən insanların burada məskunlaşmasına və daş dövrünün özünəməxsus mədəniyyətini yaratmasına səbəb olmuş, sonrakı dövrlərdə bu ərazi Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin, o cümlədən Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin əsas mərkəzlərindən birinə çevrilmişdir. Zaman keçdikcə Naxçıvanla Yaxın Şərqin qədim şəhərləri arasında iqtisadi-mədəni əlaqələr təşəkkül tapmış, əkinçiliyin, maldarlığın, ilkin duz emalının, ticarətin və sənətkarlığın inkişafı sosial-iqtisadi və mədəni yüksəlişə də təkan vermiş, nəticədə müasir Naxçıvan şəhəri ərazisində 5 min il bundan əvvəl ilkin şəhər mədəniyyəti formalaşmışdır.

Lakin Azərbaycanın böyük bir yol keçmiş Naxçıvan diyarının tarixi lazımı səviyyədə öyrənilməmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyi dövründə və bu gün də ulu öndərin yolunun layiqincə davam etdirilməsi nəticəsində xalqımızın tarixinin, dilinin, ədəbiyyatının, arxeologiya və etnoqrafiyasının, folklorunun və milli dəyərlər sisteminin elmi dəlillər və aşkar edilmiş yeni faktlar əsasında araşdırılmasına başlanılmış, Azərbaycan, o cümlədən Naxçıvan tarixinə dair bir sıra elmi nəşrlər meydana çıxmışdır. Son dövrlərdə aparılan araşdırmalar nəticəsində Naxçıvanın mədəniyyəti, tarixi və abidələri, arxeologiya və etnoqrafiyası, təbii sərvətləri müxtəlif tədqiqatların predmetinə çevrilmiş, yeni elmi istiqamətlər müəyyənləşdirilmiş və bir sıra nəticələr əldə olunmuşdur.

Naxçıvan tarixinin müxtəlif dövrlərinə və problemlərinə dair xeyli sayda elmi-tədqiqat materiallarının nəşr olunması və keçirilmiş arxeoloji ekspedisiyalar nəticəsində yeni və zəngin materialların əldə edilməsi "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması üçün əsas yaratmışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. 2012-2015-ci illərdə "Naxçıvan tarixi" çoxcildliyi hazırlansın və nəşr edilsin.

2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi və Naxçıvan Dövlət Universiteti bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **VASİF TALIBOV**

Naxçıvan şəhəri, 06 avqust 2012-ci il

GİRİŞ

Üçcildlik "Naxçıvan tarixi"nin üçüncü cildi xronoloji baxımdan 1941-ci ilin iyunundan 2015-ci ilədək olan 75 ilə yaxın bir dövrü əhatə edir. Bu dövr Azərbaycanın, eləcə də Naxçıvanın siyasi, iqtisadi və mədəni həyatında xarakterik xüsusiyyətləri ilə fərqlənən üç mühüm mərhələni – 1941-1945-ci illər müharibəsi, 1946-1991-ci illərdəki quruculuq, 1991-2015-ci illərdə Azərbaycanın dövlət müstəqilliyinin bərpası və möhkəmlənməsi dövrlərini özündə əks etdirir.

Birinci fəsil – Naxçıvanın İkinci Dünya müharibəsindəki iştirakına həsr edilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi, "1941-1945-ci illər Azərbaycan xalqının tarixində çox görkəmli yer tutur, xalqımızın tarixinin parlaq səhifələrindəndir... İkinci Dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır... Faşizm üzərində qələbədən sonra xalqımızın keçdiyi yol Azərbaycanın gələcək milli azadlığına, müstəqilliyinə gedən yol olmuşdur. Azərbaycan yüksək inkişaf yolu keçdi və böyük iqtisadi, intellektual potensial topladı. Bunların əsasında... öz müstəqilliyini əldə etdi və dünya birliyində öz yerini tutdu".

Azərbaycan xalqının, eləcə də naxçıvanlıların böyük fədakarlıq, ümid və qürurla keçdiyi bu tarixi yolun ciddi, qərəzsiz elmi tədqiqi mühüm nəzəri və əməli əhəmiyyət kəsb edir.

Azərbaycan tarixinin bu mühüm problemi bir sıra elmi-tədqiqat əsərlərində, monoqrafiyalarda, ümumiləşdirici əsər və dərsliklərdə müxtəlif yönüm və mövqelərdən işıqlandırılmışdır. Bu dövrə aid ilk ümumiləşdirici kitab – böyük müəllif kollektivi tərəfindən yazılmış üçcildlik "Azərbaycan tarixi" respublikanın görkəmli tarixçiləri İ.A.Hüseynov, Ə.S.Sumbatzadə, Z.İ.İbrahimov, Ə.N.Quliyev və Y.A.Tokarjevskinin redaktəsi ilə 1963-cü ildə çap olunmuş, onun bu gün də əhəmiyyətini itirməmiş üçüncü cildinin ikinci hissəsində Azərbaycan SSR-in 40-50-ci illər tarixi geniş, lakin o zaman açıqlanması mümkün olmayan bir çox problemlərdən yan keçməklə işıqlandırılmışdır.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan tarixinin bir sıra problemlərinə yenidən qayıtmaq, vaxtı ilə səthi öyrənilmiş, yaxud tədqiqata cəlb edilməmiş məsələlər haqqında obyektiv söz demək, tədqiqat aparmaq imkanı yaranmışdır. 1998-2003-cü illərdə hazırlanmış yeddicildlik "Azərbaycan tarixi"nin VII cildinin I bölməsi (üç fəsil) "Azərbaycan İkinci Dünya müharibəsi dövründə" adlanır. Bu bölmə Q.Mədətov, M.Abasov, T.Qaffarov, T.Novruzov, C.Bəhramov, Ə.Ələkbərov tərəfindən yazılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 1997-ci il 24 sentyabr tarixli qərarı ilə çoxcildlik "Azərbaycan tarixi" əhəmiyyətli dərəcədə yenidən işlənib təkmilləşdirilərək 2007-

2008-ci illərdə çap edilmişdir.

Azərbaycanın İkinci Dünya müharibəsində iştirakına aid Azərbaycan tarixçilərindən Q.Mədətov, M.Abasov, Ə.Bağırzadə, İ.Hacıyev, T.Qaffarov, İ.İsmayılov, N.Əlizadə, A.Bağırov, E.Edlinski, Q.Əbdülsəlimzadə, R.Zeynalov, T.Novruzov, A.Qritçenko, L.Borodetski, B.Mehdiyev, Q.Orucov, M.Alıcanov, M.Əmrahov, S.Məmmədov, C.Rəfiyev, S.Sadıqov, X.Mütəllimov və b. tədqiqatlar aparmış, elmlər doktoru və fəlsəfə doktoru dissertasiyaları müdafiə etmiş, monoqrafiya, kitab və elmi məqalələr nəşr etdirmişlər.

"Azərbaycan SSR Böyük Vətən müharibəsi dövründə" adlı sənəd və materiallardan ibarət iki cildlik kitab (I c., Bakı, 1976; II c., Bakı, 1977) hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikasının İkinci Dünya müharibəsində iştirakına yuxarıda bəhs olunan müəlliflərin tədqiqatlarında ötəri də olsa toxunulmuş, bir sıra müəlliflər bu problemlə bağlı tədqiqat işləri aparmışlar. Tarix üzrə fəlsəfə doktoru İ.Şükürzadə müharibə illərində Naxçıvanda arxa cəbhədə əməkçilərin fəaliyyəti haqqında fəlsəfə doktoru dissertasiyası müdafiə etmişdir. Ə.Qasımov, F.Cəfərov, A.Hüseynov, X.Hüseynov və b. Naxçıvan MR-in müharibədə iştirakı, ön və arxa cəbhədəki fəaliyyətləri, partizan dəstələrində iştirakına aid məqalələr yazmışlar. Tədqiqatçı V.Bağırov Ordubad və ordubadlıların müharibədə iştirakı ilə bağlı kitab nəşr etdirmişdir.

"Naxçıvan tarixi"nin III cildində ilk dəfə olaraq İkinci Dünya müharibəsi illərində Naxçıvan Muxtar Respublikasının fəaliyyəti sistemli və bütün sahələr əhatə edilməklə işlənilmişdir.

İ k i n c i f ə s i l – "Naxçıvan müharibədən sonrakı bərpa dövründə və 50-60-cı illərdə" adlanır.

"Azərbaycan tarixi"nin həm üçcildliyində, həm də yeddicildlikdə müharibədən sonra xalq təsərrüfatının bərpasına xüsusi yer verilmişdir. Üçcildlik "Azərbaycan tarixi"nin 3-cü cildinin II hissəsinin VI bölməsinin IV fəsli xalq təsərrüfatının bərpası və inkişafı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsinə həsr edilmişdir.

Yeddicildlik "Azərbaycan tarixi"nin VII cildinin üç fəslində 1945-1960-cı illərdə respublikada ictimai-siyasi, sosial-iqtisadi inkişafı və mədəni quruculuqdan bəhs edilir. Görkəmli tədqiqatçı-alimlərdən A.Nadirov, B.Qurbanov, N.Qədirova, T.Qaffarov, H.Əmirov, E.Qədirova, T.Musayeva, C.Bəhramov və b. bu dövrün tarixinin obyektiv və əhatəli mənzərəsini yarada bilmişlər.

İkinci Dünya müharibəsindən sonra – 1946-1960-cı illərdə həm xalq təsərrüfatının bərpası və inkişafı, həm də respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı ilə bağlı çoxsaylı tədqiqatlar aparılmışdır. Xalq təsərrüfatının bərpası və inkişafı ilə bağlı Ş.Haqverdiyevin, O.Əhmədovun, R.Sadıxovun, T.Qaffarovun, R.Qəhrəmanovun; ağır sənayenin, neftçıxarma, neftkimya və kimya sənayesinin

inkişafı ilə bağlı R.Qədimovun, R.İsmayılovun, S.Aslanovun; azərbaycanlıların deportasiyası ilə bağlı İ.Məmmədov və S.Əsədovun, A.Paşayevin, B.Nəcəfovun; fəhlə sinfinin fəaliyyəti və inkişafı ilə bağlı B.Qurbanovun, B.Abdullayevin tədqiqatları həmin dövrün mənzərəsini kifayət qədər göstərə bilmişdir. Həmin illərdə yeni şəhərlərdən Daşkəsənin, Sumqayıtın salınması və inkişafı haqqında B.İmanovun, Z.Dulayevanın araşdırmaları müharibədən sonra tikinti və mədəni quruculuq sahəsində uğurlar əldə edilməsi sahəsində kifayət qədər inandırıcı faktlar ilə əsaslandırılmışdır.

Həmin illərdə kənd təsərrüfatının inkişafı, fəhlə sinfinin formalaşması, şəhərlərin yaranması ilə əlaqədar namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmişdir.

Naxçıvan Muxtar Respublikasının həmin dövr tarixi bu günə qədər lazımi səviyyədə öyrənilməmişdir. Yalnız dos. A.Hüseynov və dos. X.Hüseynovun tədqiqatları 1946-1960-cı illər kənd təsərrüfatı və sənayenin inkişafı ilə bağlıdır. Deportasiya tarixinə gəldikdə isə bununla əlaqədar V.Talıbovun, İ.Həbibbəylinin, İ.Hacıyevin, Z.Şahverdiyevin, A.Mustafayevin kitab və məqalələri nəşr olunmuş, "Azərbaycanlıların deportasiyası və Naxçıvan" mövzusunda elmi konfrans keçirilmişdir.

Bəhs olunan dövr haqqında ilk dəfə olaraq burada hərtərəfli tədqiqat aparılmış, maraqlı nəticələr əldə edilmişdir.

Üçüncü fəsil – Naxçıvan Muxtar Respublikasının 1970-1980-ci illər tarixinə həsr edilib.

Bu dövr haqqında Azərbaycan tarixində kifayət qədər tədqiqatlar aparılmış, çoxsaylı dissertasiyalar müdafiə edilmiş, monoqrafiya və kitablar yazılmışdır. Həmin dövr ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsindən sonra ölkədə dönüş və inkişaf mərhələsi başladı.

70-80-ci illər tarixi yeddicildlik "Azərbaycan tarixi"nin VII cildinin üç fəslində öz əksini tapmışdır. Həmin fəsillər A.Nadirov, T.Qaffarov, N.Qədirova, H.Əmirov, E.Qədirova, T.Musayeva və S.Sayadov tərəfindən işlənilmişdir.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü –70-80-ci illər tarixinin müxtəlif istiqamətləri haqqında Azərbaycanın görkəmli tarixçilərindən M.Qasımlı, T.Qaffarov, Ə.Qasımov, İ.Hüseynova, İ.Zeynalov və b. fundamental kitablar yazmışlar. Tədqiqatçı-jurnalist E.Axundovanın "Heydər Əliyev: şəxsiyyət və zaman" çoxcildliyi 70-80-ci illər haqqında da geniş məlumat verir. Rus tədqiqatçısı N.Zenkoviçin "Heydər Əliyev: tale yolları" kitabı fakt zənginliyi, hadisələrin obyektiv qiymətləndirilməsi baxımından Azərbaycan tarixini zənginləşdirən bir əsər təsiri bağışlayır.

70-80-ci illər Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafına görə uğurlu və yadda qalan illərdir. R.Quliyev bu döv-

rə aid 1990-cı ildə "Naxçıvan MSSR-in sosial-iqtisadi və mədəni inkişafı (1971-1980-ci illər)" mövzusunda dissertasiya müdafiə etmişdir. X.Hüseynovun fəlsəfə doktoru dissertasiyasında da Naxçıvan MR-də 70-80-ci illərdə sənayenin inkişafından bəhs edilmiş, dövrün ayrı-ayrı problemlərinə aid tədqiqatlar aparılmışdır. Professor N.Əhmədovun tədqiqatları Naxçıvanın 70-80-ci illər sosial-iqtisadi inkişafına həsr edilmişdir. M.Şabanovun "Azərbaycan tarixində Heydər Əliyev mərhələsi" kitabında 70-80-ci illərdə Naxçıvan məsələlərinə də yer verilmişdir. Həmin illərin iqtisadi, mədəni və elmi inkişafı haqqında İ.Həbibbəylinin, İ.Hacıyevin, H.Cəfərovun, A.Hüseynovun, A.Şirəliyevin, F.Cəfərovun, M.Quliyevin tədqiqatları tarixi faktların və hadisələrin dəqiqləşməsinə xidmət edir.

D ö r d ü n c ü f ə s i l – "Naxçıvanın ictimai-siyasi və sosial-iqtisadi həyatına (1988-1990-cı illər)" həsr edilib.

80-çi illərin sonu ölkə üçün çox çətin və ağır olmuşdur. SSRİ rəhbərlərinin ikiüzlü siyasəti ermənilərin Azərbaycan ərazilərini zəbt etmək həvəsini artırmış, bunun üçün onlar silahlı mübarizəyə başlamış və bu, Dağlıq Qarabağın və onun ətrafındakı 7 rayonun işğalı ilə nəticələnmişdir. Dağlıq Qarabağ münaqişəsi Naxçıvanın ictimai-siyasi həyatına da ciddi təsir göstərmişdir.

Dördüncü fəsil üç illik mürəkkəb və çətin bir dövrü əhatə edir.

Azərbaycan tarixşünaslığında 80-ci illərin sonunda respublikada baş vermiş ictimai-siyasi hadisələr, Dağlıq Qarabağ konflikti, milli hərəkatın başlanması, ölkədə siyasi vəziyyət, xalq hərəkatını boğmaq cəhdləri və Qanlı Yanvar hadisələri haqqında tədqiqatlar aparılmış, ümumiləşdirici əsərlər, kitab və monoqrafiylar yazılmışdır. Yeddicildlik "Azərbaycan tarixi"nin VII cildinin II bölməsinin V fəsli "Respublikanın ictimai-siyasi həyatına (80-ci illərin II yarısı)" həsr edilmişdir. Həmin fəsil tarix elmləri doktoru Tahir Qaffarov tərəfindən yazılmışdır. T.Qaffarov "Azərbaycan tarixi (1920-1991)" kitabında da Dağlıq Qarabağ münaqişəsinə geniş yer vermişdir. Tədqiqatlarda belə bir müddəa xüsusilə vurğulanır ki, Ə.Vəzirovun Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gətirilməsi, onun xalqa, milli mənafeyə zidd siyasəti, hakimiyyət uğrunda çəkişmələr Dağlıq Qarabağ məsələsində ermənilər işğalçılıq niyyətlərini həyata keçirməyə daha da həvəsləndirdi.

Problemlə bağlı Azərbaycan alimlərindən Y.Mahmudov, İ.Hacıyev, M.Qasımlı, O.Sultanov, H.Məmmədova, H.Sadıqov, E.Əhmədov, M.Süleymanov, K.Rzayev, A.Rzayev, N.Hacıyev, F.Zeynalov və başqaları tədqiqatlar aparmış, hadisələrin obyektiv mənzərəsini yaratmağa çalışmış, kitab, monoqrafiya və elmi məqalələr çap etdirmişlər. "Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011)", "80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə", "Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri", "Qarabağ müharibəsi haqqında həqiqət və yalan", "Bakı qırğını", Dağlıq Qarabağın tarixindən sənədlər", "Dağlıq Qarabağ münaqişəsi, ədalətli sülh, yoxsa qaçılmaz müharibə: tarixi, geosiyasi və hüquqi baxış" və b. əsərlər Dağlıq Qarabağ münaqişəsi

haqqında obyektiv mənzərə yaradır. "Qayıdış", "Qətiyyətin təntənəsi", "Dağlıq Qarabağ: ağıl qalib gələcək. Sənədlər və materiallar", "Ermənistan Respublikası: Terrorizm – Dövlət siyasətinin tərkib hissəsi kimi: faktlar və rəqəmlər" və b. əsərlərdə, sənəd və materiallarda hadisələr haqqında kifayət qədər obyektiv məlumatlar verilmişdir.

Xarici müəlliflərdən Y.Pompeyevin "Qarabağ qan içində" (1992), "Qarabağ gündəliyi" (2010), R.Arakelovun "Dağlıq Qarabağ: faciənin günahkarları məlumdur"" (1991), A.Alstadın "Azərbaycan türkləri" (1992), Tomas de Vaalın "Ermənistan və Azərbaycan: sülh və savaş yollarında" (2008), Səmyuel A. Uimzin "Ermənistan terrorçu "xristian" ölkənin gizlinləri. Ermənilərin böyük fırıldaq seriyaları" (2004) kitablarında məsələyə obyektiv yanaşma öz əksini tapmışdır.

Dağlıq Qarabağ münaqişəsi Naxçıvanın da ictimai-siyasi həyatına əsaslı təsir göstərmişdir. Həmin illərdə ermənilər Naxçıvana da basqınlar edir, muxtar respublikanı blokadada saxlayır, Naxçıvana gələn bütün kommunikasiyaları kəsirdilər. Sovet rəhbərlərinin ikiüzlü siyasəti burada da özünü göstərirdi. Naxçıvanlılar buna etiraz olaraq 1990-cı il yanvarın 19-da Naxçıvan MSSR-in SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etdi.

Naxçıvanda baş verən hadisələr tədqiqatçıların diqqətini cəlb etmiş, bununla əlaqədar müəyyən əsərlər yazılmışdır. İ.Hacıyevin "Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011)", "Sərhəd hərəkatı: milli birlik və həmrəylik", M.Məmmədovun "Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər)", Y.Mahmudov və K.Şükürovun "Naxçıvan: tarixi və abidələri", N.Quliyevin "Şərur fəryadı", Ş.Məmmədovun "80-cı illərin sonu – 90-cı illərin əvvəllərində Naxçıvanda milli-demokratik hərəkat", V.Məmmədovun "Sədərəkdə yazılan gündəlik", "Sədərək şəhidləri", A.Mustafayevin "Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan", H.Cəfərov və A.Mustafayevin "Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri)" və başqalarının əsərlərində Naxçıvanda baş verən hadisələr geniş tədqiqata cəlb edilmişdir. Kitabın dördüncü fəslində ilk dəfə olaraq Dağlıq Qarabağ münaqişəsinin Naxçıvanın ictimai-siyasi, sosial-iqtisadi həyatına təsiri, diyara erməni təcavüzü və ona qarşı mübarizə, Naxçıvan MSSR-in SSRİ tərkibindən çıxması, Heydər Əliyevin Naxçıvana qayıdışı, xalq hərəkatının başlaması və demokratik dəyişiklərin həyata keçirilməsi sistemli şəkildə araşdırılmışdır.

Beşinci fəsil – "Naxçıvan müstəqilliyin ilk illərində (1991-1993-cü illər)" adlanır.

Azərbaycan tarixində 1991-1993-cü illər "itirilmiş illər" kimi xarakterizə olunur. Bu sözləri Naxçıvana aid etmək olmaz, çünki ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşaması, Naxçıvan Muxtar Respublisı Ali Məclisinin Sədri işləməsi Naxçıvanı gözləyən bəlalardan xilas etdi və qoruyub saxladı.

Bu fəsil 1991-ci ilin sentyabrından 1993-cü ilin iyun ayınadək olan dövrü əhatə edir. Bu dövrün xarakterik xüsusiyyəti SSRİ-nin süqutu və Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin elan edilməsi ilə daha çox bağlıdır.

Müstəqil Azərbaycan Respublikası ilk günlərdən böyük çətinliklərlə qarşılaşmışdı. A.Mütəllibov hakimiyyəti ilə AXC-Müsavat cütlüyü arasında hakimiyyət çəkişməsi respublikanı siyasi, hərbi, iqtisadi böhran həddinə gətirib çıxarmışdı. Kitabın beşinci fəslində bu dövrdə Naxçıvan Muxtar Respublikasında baş verən proseslər tədqiqata cəlb olunmuşdur.

Altıncı fəsil – "Naxçıvan müstəqilliyin möhkəmləndirilməsi dövründə (1993-2015)" adlanır. Bu fəsildə Naxçıvan Muxtar Respublikasının 22 illik tarixi öz əksini tapmışdır. Bu illər Naxçıvanın həyatında inkişafın "Naxçıvan modeli" kimi xarakterizə olunur, inkişafdan intibaha yüksəldiyi qeyd edilmişdir.

1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycan sanki özünə gəldi, səriştəsiz rəhbərlərdən yaxa qurtardı. Qısa müddətdə dəyişikliklər özünü göstərdi, böhran aradan qaldırıldı, silahlı dəstələr buraxıldı, Milli ordu yaradıldı. Atəşkəsə nail olundu. Ümummilli liderin qətiyyətli qərarları ilə vətəndaş qarşıdurmasına son qoyuldu, ölkənin parçalanmasına yönəldilmiş təhdidlərin və dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. Düzgün daxili və xarici siyasət həyata keçirildi. Demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna başlandı. Əsaslı iqtisadi islahatlar inkişafa səbəb oldu. Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyası və sosial siyasəti müəyyən edildi və müvəffəqiyyətlə yerinə yetirilməyə başlandı. Azərbaycan Respublikası görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin on illik ikinci hakimiyyəti dövründə çox böyük inkişafa nail oldu, Əsrin müqaviləsi inkişafa stimul yaratdı.

Heydər Əliyev siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. On ilin (2003-2013) nəticələri faktlarda öz dolğun ifadəsini göstərir. İqtisadiyyat 3,4 dəfə, qeyri-neft sektoru 2,7 dəfə, dövlət büdcəsi 19 dəfə artmışdır.

Azərbaycanın son 22 illik tarixi tədqiqatçıların maraq dairəsindədir. İlk növbədə kollektiv əsərlərdə, eləcə də "Azərbaycan tarixi"nin VII cildində on illik bir dövr əks olunmuşdur. Həmin əsərin III bölməsinin II və III fəsilləri müstəqil Azərbaycan dövlətçiliyinin qurulması və möhkəmləndirilməsinə, əsaslı iqtisadi islahatların aparılmasına və sosial dirçəlişə həsr olunmuşdur. Kollektiv müəlliflər tərəfindən hazırlanmış "Azərbaycan Respublikası 1991-2001-ci illər" əsəri də Azərbaycanın müstəqilliyinin bərpasının 10 illik yubileyinə həsr olunmuşdur. Ulu öndər Heydər Əliyev haqqında yazılan əsərlərdə həm də "Azərbaycan tarixi"nin müəyyən dövrləri də əks olunur. Bu cəhətdən E.Axundovanın "Heydər Əliyev: şəxsiyyət və zaman" roman-tədqiqatının 6-cı kitabının hər iki hissəsi 1993-2003-cü illəri əhatə edir. Tədqiqatçılardan İ.Həbibbəyli, Y.Mahmudov, İ.Hacıyev,

F.Səfərli, İ.Hüseynova, A.Məmmədov, Ə.Məmmədov və başqalarının kitab və monoqrafiyalarında da bəhs olunan dövrün tarixi səciyyəsi təhlil edilmişdir.

Naxçıvan Muxtar Respublikasının 1995-ci ildən sonrakı dövrünün tarixi kitabın VI fəslində geniş və dolğun işlənilmişdir. Burada Naxçıvanın ictimai-siyasi həyatı, Naxçıvan Muxtar Respublikasında Yeni Konstitusiyasının qəbul edilməsi, Ali Məclisə seçkilərin keçirilməsi, sosial-iqtisadi inkişafda baş vermiş dəyişikliklər əhatəli şəkildə verilmişdir. Bu məsələlərlə bağlı Naxçıvanın tarixçi alimlərindən İ.Hacıyev, F.Səfərli, H.Cəfərov, E.Cəfərli, E.Şıxəliyev, iqtisadçı N.Əhmədovun əsərləri bəhs olunan dövrün tarixi və iqtisadi təhlilinə həsr edilmişdir.

Yeddinci fəsil – "Mədəniyyət" adlanır.

Burada Naxçıvan Muxtar Respublikasının 1991-2015-ci illərdəki mədəni inkişafından bəhs edilir. Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı mədəniyyət sahəsində də özünü göstərmişdir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə yaradılmış mədəni infrastruktur, qazanılmış uğurlar keçən əsrin 90-cı illərində ölkədə yaranmış özbaşınalıq, xaos nəticəsində tam sıradan çıxmaq təhlükəsi ilə qarşılaşmış, maddi-mədəniyyət abidələrinin bir çoxu baxımsızlıq üzündən dağılmışdır. Bu problemlər Azərbaycan xalqının ümummilli lideri, mədəniyyət və incəsənətimizin hamisi Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra öz həllini tapdı.

Mədəniyyətin inkişafı və milli-mədəni irsimizin qorunması sahəsində ümummilli liderin böyük səyləri olmuşdur. Azərbaycan artıq öz mədəniyyəti, ədəbiyyatı, incəsənəti və şəxsiyyətləri ilə dünya meridianlarına çıxır. Ümummilli lider dəfələrlə qeyd etmişdir ki, hər bir xalqı mədəniyyət qədər dünyada tanıdan ikinci bir vasitə yoxdur. 1991-2015-ci illərdə dünyanın onlarla ölkəsində, yüzlərlə şəhərlərində Azərbaycanla və Naxçıvan Muxtar Respublikası ilə bağlı mədəniyyət tədbirləri həyata keçirilmişdir.

Azərbaycan Respublikasında son 20 ildən artıq bir dövrdə mədəniyyətin inkişafı ilə bağlı kollektiv əsərlərdə, toplularda, sənəd və materiallar külliyatlarında məlumatlar verilmiş, tədqiqat əsərlərində özünün dolğun əksini tapmışdır.

Naxçıvan Muxtar Respublikasında mədəniyyət ən inkişaf etmiş sahələrdən biridir. Bu da səbəbsiz deyildir. Ulu öndər Heydər Əliyevin mədəniyyət siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ən yüksək səviyyədə davam etdirilir. Muxtar Respublikada da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu sahələrin inkişafını prioritet hesab etmiş, mədəniyyətin inkişafına yüksək diqqət və qayğı göstərmişdir. Təhsil, elm, mədəni-maarif müəssisələri, ədəbiyyat, mətbuat, incəsənət heç bir vaxt indiki kimi dövlət qayğısı ilə əhatə olunmamışdır. Yeni təhsil ocaqları, mədəniyyət obyektləri, elmi-tədqiqat müəssisələri yaradılmış, onların maddi-texniki bazası möhkəmləndirilmişdir.

Bütün bunlar naxçıvanlı tədqiqatçıların araşdırmalarında öz əksini tapmışdır.

İ.Həbibbəyli, İ.Hacıyev, S.Məhərrəmov, O.Həsənli, İ.Əliyev, F.Səfərli, Q.Qədirzadə, V.Baxşəliyev, Ə.Quliyev, S.İbrahimov, H.Cəfərov, F.Cəfərov, S.Surə, M.Məmmədov, S.Kəngərli, Ə.Qəhrəmanov, Z.İsmayılova və başqalarının tədqiqatlarında Naxçıvan mədəniyyətinə yer verilmişdir.

"Naxçıvan tarixi"nin III cildi müxtəlif tarixi mənbələr, arxiv sənədləri, dövrü mətbuat materialları, mövcud elmi ədəbiyyat əsasında yazılmışdır. Müəlliflər muxtar respublikanın ayrı-ayrı nazirliklərinin, dövlət komitələrinin arxivlərindən, dövri mətbuatdan, statistika toplularından, çap olunmuş dövlət və partiya sənədlərindən, Azərbaycana 30 ildən artıq rəhbərlik etmiş ümummilli lider Heydər Əliyevin nitq və çıxışlarından, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun nitq və çıxışlarından, rəsmi sənədlərdən geniş istifadə etmişlər.

Müəlliflər və redaksiya heyəti III cildin, bütövlükdə çoxcildliyin hazırlanması, müzakirəsi və nəşri zamanı köməklik göstərmiş mütəxəssislərə, təşkilat və müəssisələrə dərin minnətdarlığını bildirir.

FƏSİL VƏ PARAQRAFLAR AŞAĞIDAKI MÜƏLLİFLƏR TƏRƏFİNDƏN YAZILMIŞDIR

Giriş – *İsmayıl Hacıyev*

I FƏSİL. NAXÇIVAN İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ
– Fəxrəddin Cəfərov

II FƏSİL. NAXÇIVAN MÜHARİBƏDƏN SONRAKI BƏRPA DÖVRÜNDƏ VƏ 50-60-CI İLLƏRDƏ

Naxçıvan müharibədən sonrakı bərpa illərində –*Allahverdi Hüseynov*
Azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiyası
(1948-1953-cü illər) və Naxçıvan – *Allahverdi Hüseynov*
Sosial-iqtisadi həyat–*Allahverdi Hüseynov*
Kənd təsərrüfatının və sənayenin inkişafı –*Allahverdi Hüseynov*
Mədəniyyət:
Təhsil – *Vaqif Məmmədov*
Elm – *İsa Həbibbəyli*
Ədəbiyyat – *İsa Həbibbəyli*
Teatr – *Fəxrəddin Səfərli*
Musiqi – *Fəxrəddin Səfərli*
Təsviri-sənət – *Fəxrəddin Səfərli*
Memarlıq – *Fəxrəddin Səfərli*

III FƏSİL. NAXÇIVAN 1970-80-Cİ İLLƏRDƏ

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi. Dönüş və inkişaf mərhələsi – *Elman Cəfərli*
70-80-ci illərdə Naxçıvanda ictimai-siyasi həyat – *Elman Cəfərli*
Naxçıvanda iqtisadi yüksəlişin başlanması – *Elman Cəfərli*
Sosial inkişaf – *Elman Cəfərli*
Naxçıvan MSSR-in Konstitusiyası (1978) – *Elman Cəfərli*
Mədəniyyət:
Təhsil – *Vaqif Məmmədov*
Elm – *İsa Həbibbəyli*
Ədəbiyyat – *İsa Həbibbəyli*
Mətbuat – *İsa Həbibbəyli*
Teatr – *Fəxrəddin Səfərli*
Musiqi – *Fəxrəddin Səfərli*
Təsviri-sənət – *Fəxrəddin Səfərli*
Memarlıq – *Fəxrəddin Səfərli*

IV FƏSİL. NAXÇIVANIN İCTİMAİ-SİYASİ VƏ SOSİAL-İQTİSADİ HƏYATI (1988-1990-CI İLLƏR)
–İsmayıl Hacıyev

V FƏSİL. NAXÇIVAN MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ (1991-1993-CÜ İLLƏR)
–İsmayıl Hacıyev

VI FƏSİL. NAXÇIVAN MÜSTƏQİLLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ DÖVRÜNDƏ (1993-2015-Cİ İLLƏR)
–İsmayıl Hacıyev

VII FƏSİL. MƏDƏNİYYƏT
–İsmayıl Hacıyev

M.S. Ordubadi adına
Naxçıvan Muxtar Respublikası
KİTABXANASI

I FƏSİL

NAXÇIVAN İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ

1. İkinci Dünya müharibəsinin başlanması

Faşist Almaniyası 1941-ci il iyunun 22-də SSRİ-yə hücum etdi. Hitler Almaniyasının və onun müttəfiqlərinin təpədən dırnağa qədər müasir hərbi texnika ilə silahlanmış 190 diviziyası Barents dənizindən tutmuş Qara dənizə qədər geniş cəbhə boyunca Sovet Ordusuna qarşı hərbi əməliyyata başladı. Alman faşistlərinin hərbi hava qüvvələri Ukrayna və Belorusiyanın, Pribaltika respublikalarının şəhər və kəndlərini, ölkənin hərbi obyektlərini, hərbi-dəniz bazalarını, təyyarə meydanlarını, dəmir yol stansiyalarını güclü bombardman edirdilər [25, s.10].

Sovet hökuməti 1941-ci il 22 iyun tarixli bəyanatında, ÜİK(b)P MK və SSRİ XKS-nin 23 iyun tarixli qərarında, SSRİ XKS və ÜİK(b)P MK-nın 29 iyun tarixli dekretlərində və Dövlət Müdafiə Komitəsinin sədri İ.V.Stalinin radio ilə 3 iyul tarixli çıxışında partiya və sovet orqanlarının, ictimai təşkilatların və bütün zəhmətkeşlərin müharibə şəraitində vəzifələri müəyyən edildi. Sovet İttifaqının faşist Almaniyasına qarşı müharibəsinin siyasi və strateji məqsədləri aydınlaşdırıldı, düşmənə qarşı mübarizənin konkret proqramı işlənib hazırlandı.

Düşmənə qarşı mübarizədə bütün qüvvələri səfərbər etmək üçün SSRİ Ali Soveti Rəyasət Heyətinin, SSRİ Xalq Komissarları Sovetinin və ÜİK(b)P Mərkəzi Komitəsinin 1941-ci il 30 iyun tarixli qərarı ilə İ.V.Stalinin sədrliyi altında Dövlət Müdafiə Komitəsi yaradıldı. DMK fövqəladə səlahiyyətə malik olub, ölkənin bütün siyasi və inzibati hakimiyyətini, ictimai və hərbi idarəsini öz əlində cəmləşdirmişdi [25, s.14-15]. O zaman SSRİ-yə daxil edilmiş bütün respublikalar, o cümlədən Azərbaycan SSR də müharibəyə cəlb olundu.

Geniş cəbhə boyu hücuma keçmiş alman faşist qoşunları ölkəmizin içərilərinə doğru üç istiqamətdə - "Şimal" qrupu orduları Pribaltika və Leninqrad istiqamətində, "Mərkəz" qrupu orduları Minsk-Smolensk-Moskva istiqamətində, "Cənub" qrupu orduları isə Ukrayna-Krım-Rostov istiqamətində irəliləyirdilər.

Müharibənin birinci on günü ərzində alman ordusu sürətlə irəliləyərək Litvanın, Latviyanın, Belarusiyanın və Ukraynanın xeyli hissəsinin ələ keçirə bildi [25, s.25]. Lakin cəbhədəki ilk müvəffəqiyyətsizliklər sovet xalqını sarsıtmadı. Vətənin müdafiəsində köksünü sipərə çevirən sovet adamları, o cümlədən azərbaycanlıların yüksək mənəvi keyfiyyəti özünü parlaq surətdə göstərdi.

Çoxmillətli sovet ordusunun əsgər və komandirləri müharibənin ilk günlərindən misilsiz qəhrəmanlıq nümunələri göstərərək müharibə tarixinə şanlı səhifələr yazdılar. Düşmən bütün sərhəd boyu sovet adamlarının ciddi müqavimətinə, mətin iradəsinə rast gəldi. Sərhəddi qoruyan hər bir əsgər əsl alovlu vətənpərvər kimi hərəkət edir, düşmənlə son nəfəsədək vuruşurdu.

Sovet Azərbaycanı SSRİ-nin tərkibində olduğu üçün hələ 1939-cu ilin payızından müharibəyə cəlb olunmuşdu. Onun igid oğul və qızları sovet-fin müharibəsinə getmişdilər. 1941-ci ilin iyununda Sovet İttifaqı müharibəyə qoşulduqdan sonra Azərbaycan da faşizmə qarşı müharibəyə cəlb olundu, cəbhəyə kütləvi səfərbərlik elan olundu. Müharibə illərində Azərbaycan döyüşən cəbhəyə 683 min oğlan və qız göndərdi. Onlardan 40 mini könüllü olaraq cəbhəyə yollanmışdı. Müharibədə azərbaycanlılardan ibarət 77-ci, 223-cü, 271-ci, 402-ci, 416-cı diviziyalar formalaşdırıldı. 227-ci və 396-cı diviziyaların tərkibində də azərbaycanlılar çoxluq təşkil edirdilər.

Müharibənin birinci həftəsi ərzində respublikada 40 min nəfərdən çox oğlan və qız cəbhəyə getmək üçün ərizə ilə hərbi komissarlıqlara müraciət etmişdilər. Onlardan 5 mindən çoxunu naxçıvanlılar təşkil edirdi. 10 mindən çox naxçıvanlı xalq qoşunu və qırıcı batalyonların sıralarına yazılmışdı [97, s.116].

Respublikamızın fəhlələri, kəndliləri və ziyalıları düşməni dəf etmək üçün bütün ölkəni vahid ordugaha çevirmək haqqında göstərişi həyata keçirərək, şəhər və kəndlərdə xalq qoşunu dəstələrinə yazılır, qırıcı batalyonlar təşkil edir, müəssisələrdə və evlərdə özünümüdafiə dəstələri yaradırdılar. Ümumiyyətlə, Azərbaycan SSR-də 186704 nəfər xalq qoşunu dəstələrinə yazılmışdı. Xalq qoşunu dəstələrinə fəhlələr, kolxozçular və qulluqçularla yanaşı, respublikanın ziyalıları, yazıçıları, incəsənət işçiləri, təqaüddə olan hərbçilər də daxil olurdular [11, s.25].

1941-ci il 22 iyul tarixə olan məlumata görə muxtar respublika üzrə 10595 nəfər xalq qoşunu sıralarına yazılmışdı. Bunlardan 3208-i qadınlar idi [32, v.2].

Naxçıvan şəhərində və rayonlarda 185 hava hücumundan və kimyəvi hücumdan müdafiə dərnəkləri yaradılmış, onların işinə şəhər və kəndlərdən gəlmiş 6212 nəfər cəlb olunmuşdur. Bunlardan əlavə, mülki müdafiə ilə bağlı müəssisələrdə, evlərdə və kolxozlarda 1134 nəfəri əhatə edən 31 özünümüdafiə qrupu yaradılmışdır [97, s.117].

İkinci Dünya müharibəsi cəbhələrində vuruşan naxçıvanlılar öz iş yerlərinə, ata-analarına göndərdikləri məktublarında Vətənə axıradək sadiq olacaqlarına, Azərbaycan xalqının qəhrəmanlıq ənənələrini qoruyacaqlarına, düşmənlə amansız olacaqlarına müqəddəs and içdiklərini yazırdılar.

17 iyun 1943-cü ildə bir qrup azərbaycanlı döyüşçü Naxçıvan MSSR zəhmətkeşlərinə göndərdikləri məktubda yazırdılar: "Hörmətli ata, ana, bacı və qardaşlarımız! Sizdən çox uzaq məsafədə yerləşən Vətən müharibəsi cəbhələrindən göndərdiyimiz səmimi döyüşçü salamımızı qəbul edin.

Azərbaycan xalqının bizə, öz istəkli balalarına yazdığı məktubun hər bir kəlməsi bizi düşməndən yeni və amansız intiqam almağa ruhlandırır. Doğma xalqımızın tapşırığını bir dəqiqə də olsun yaddan çıxarmır və çıxarmayacağıq. Bütün fikrimiz doğma sovet torpağını alman faşistlərinin məzarına çevirmək və bu torpağı tezliklə onlardan təmizləməkdir. Buna görə də biz Sovet İttifaqının qardaş

xalqları ilə birlikdə çiyin-çiyinə gedərək, Vətən torpağının hər bir qarışını köksümüzlə qoruyuruq.

İgid babalarımızın döyüş məharətini davam etdirmək, tezliklə həyasız düşmənin axırına çıxmaq müqəddəs borcumuzdur.

Əzizlərimiz, sizi inandırırıq ki, biz Azərbaycan oğulları ata-analarımızın, bacı-qardaşlarımızın və öz övladlarımızın yanında həmişə alnıaçıq olacağıq. Vətən yolunda öldü var, döndü yoxdur!" [72, v.26-28]

Məktubu naxçıvanlı Abbasəli Bayramov, Hüseyn Hüseynov, Şərur rayonundan Təhməz Vəliyev, maştağalı Məstan Məstanov və gəncəli İsgəndər İsgəndərov imzalamışdılar.

İkinci Dünya müharibəsi illərində sovet adamları faşizmə qarşı müxtəlif mübarizə üsullarından məharətlə istifadə etmişdilər. Onlar gizli antifaşist təşkilatlar yaradır, əsirlərin qaçıb partizan dəstələrinə qoşulmasını təşkil edir, faşistlərə işləyən sənaye müəssisələrində təxribat işləri ilə məşğul olurdular. 1942-1944-cü illərdə azərbaycanlı əsirlər Polşanın Yedlina, Almaniyanın Noyqammer-Ştrans, Fransanın Rodez, İtaliyanın Udine, Triyestin Opçina şəhərlərində gizli antifaşist təşkilatlar yaratmağa nail olmuşdular [25, s.422-423].

İkinci Dünya müharibəsi illərində sovet xalqının alman faşist işğalçılarına qarşı mübarizəsi cəbhədəki və ölkəmizin müvəqqəti işğal olunmuş ərazisindəki partizan müharibəsi ilə məhdudlaşmırdı. On minlərlə sovet adamı Fransada, Yuqoslaviyada, İtaliyada, Polşada, Çexoslovakiyada, Albaniyada, Bolqarıstanda, Rumıniyada, Norveçdə və başqa ölkələrdə silaha sarılaraq, bu ölkələrin xalqlarının oğulları ilə çiyin-çiyinə faşistlərə qarşı vuruşurdu. Bu mübarizədə misilsiz əsgəri rəşadət göstərən Əli Babayev, Cəlil Rəfiyev, Cavad Həkimli, Mehdi Hüseynzadə, Zəfər Qədimov, Sadıq Nadirli, Məmmədhüseyn Kərimov, Mirdaməd Seyidov və başqalarının adlarını nəinki SSRİ xalqları, eyni zamanda Avropa ölkələrinin xalqları da böyük iftixar hissi ilə yad edir və onların xatirəsini əziz tuturlar.

İkinci Dünya müharibəsində qazanılmış qələbənin çox böyük tarixi əhəmiyyəti oldu. Bütün xalqların, o cümlədən Azərbaycan xalqının bu qələbədəki rolu hamılıqla qəbul edilmişdir.

Müharibə illərində Moskva, Leninqrad, Sevastopol, Odessa, Stalinqrad, Kiyev və digər şəhərlərin azad edilməsində, Qafqaz uğrunda gedən şiddətli döyüşlərdə, sovet ordusunun sonrakı hücumlarında, partizan əməliyyatlarında, Berlin uğrundakı döyüşlərdə azərbaycanlı, eləcə də naxçıvanlı döyüşçülər igidlik göstərmişlər. Alman faşist ordusu komandanlığının məlumatına görə 1941-ci il iyulun ortalarına qədər hitlerçilər 100 min əsgər və zabit, 1000 təyyarə, 1500 tank və xeyli miqdarda digər hərbi texnika itirmişdilər [25, s.33].

Azərbaycanın İkinci Dünya müharibəsində iştirakı, faşizm üzərində qələbədə xalqımızın payı ilə bağlı ümummilli lider Heydər Əliyev demişdir: "Biz onu xatırlayırıq ki, faşizm üzərində qələbə kimi ümumi işə Azərbaycan xalqı özünün çox

böyük və misilsiz töhfəsini vermişdir. Azərbaycan sakinlərinin beşdə biri bizim ümumi vətənin müdafiəsinə qalxmışdır. 3- 4 milyon əhali arasında 680 mindən çox kişi və qadın cəbhəyə getmiş, onların 300 mindən çoxu qəhrəmancasına həlak olmuşdur" [22, s.12].

1941-1945- ci illərdə Azərbaycan SSR-dən olan on minlərlə döyüşçü, hitlerçi işğalçılarla vuruşlarda böyük rəşadət və qəhrəmanlıqlar göstərmiş, Həzi Aslanov, Ziya Bünyadov, İsrafil Məmmədov, Qafur Məmmədov, Abbas Quliyev, Gəray Əsədov, Qəzənfər Əkbərov, Səməd Abdullayev, Müseyib Allahverdiyev, Adil Quliyev, Aslan Vəzirov, Nəcəfqulu Rəfiyev və başqaları Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdülər.

2. Naxçıvan MSSR-də hərbi səfərbərlik

Arxiv sənədlərindən aydın olur ki, müharibənin ilk günlərində vətənimizin ayrı-ayrı yerlərində keçirilən saysız-hesabsız mitinq və yığıncaqlar xalqın tam birliyinin parlaq nümunəsinə çevrilmişdi. O ağır, qanlı-qadalı günlərdə fəhlələr, qulluqçular, kolxozçular və ziyalılar dəstə-dəstə hərbi komissarlığa gəlir, döyüşən ordu sıralarına göndərilmələrini xahiş edirdilər. 1941-ci il iyulun 3-ə olan məlumata görə Naxçıvan Muxtar Respublikası üzrə 10495 nəfər, o cümlədən 7287 kişi və 3208 qadın müharibəyə getmək üçün ərizə vermişdir. Bunların 1127-si partiyaçı, 2158-i komsomolçu və 7210-u isə bitərəf idi. Ərizə verənlərdən 1127 partiyaçı, 2156 komsomolçu, 3208 bitərəf səfərbərliyə alınaraq ordu sıralarına yola salınmışdı [35, v.6; 42, v.88-89].

Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinin hərbi şöbəsinin müdirinin məlumatından aydın olur ki, 22 iyun 1941-ci ildə səfərbərlik elanı ilə əlaqədar Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinə və Naxçıvan Hərbi Komissarlığına Naxçıvanın şəhər və rayonlarında 150 zəhmətkeş tərəfindən Sovet Ordusuna erkən çağırış xahişi ilə ərizələr vasitəsilə müraciət olunmuşdur [107, c.81-82]. Sovet hökumətinin orduya səfərbərlik haqqında qərarı alınan kimi, Azərbaycanda, o cümlədən Naxçıvan MSSR-in şəhər və rayon mərkəzlərində, kəndlərdə çağırış-səfərbərlik məntəqələri təşkil edildi. Respublikada onlarca ailə var idi ki, onlar müharibəyə 5-7 döyüşçü göndərmişdilər. Naxçıvan MSSR-dən qocaman kommunist Ə.Əliyevin 7 oğlu bir gündə sovet ordusu sıralarına yola düşmüşdü [25, s.20-21].

1942-ci ilin fevral ayına olan məlumata görə Naxçıvan şəhəri üzrə 116, Culfa rayonu üzrə 14 , Ordubad rayonu üzrə 11, Əbrəqunus rayonu üzrə 40, Şahbuz rayonu üzrə 60, Şərur rayonu üzrə 177 və Naxçıvan (indiki Babək) rayonu üzrə 52 müəllim hərbi komissarlığa ərizə verərək səfərbərliyə alınmış, cəbhələrdə vuruşmaq üçün göndərilmələrini xahiş etmişdilər [37, v.19].

Naxçıvan rayon partiya təşkilatı partiya üzvlüyünə namizədlərin 677 nəfərini,

komsomol təşkilatı isə 2567 nəfəri Sovet Ordusu sıralarına göndərmişdir. Onların bir çoxu 416-cı Qızıl Bayraqlı Taqanroq diviziyasında döyüşmüşdür [47, v.44-45].

İkinci Dünya müharibəsi illərində təkcə Sədərək kəndindən 462 nəfər döyüşçü ordu sıralarına getmiş, bunlardan 199 -u geri qayıtmışdır [97, s.28].

Ordubad rayonunda təqribən 5600 nəfərə yaxın rayon hərbi komissarlığı tərəfindən səfərbərliyə alınmış və onlardan 760-ı geri qayıtmışdır [14, s.4-5].

Şərur rayonu üzrə 4007 nəfər döyüşən ordu sıralarına səfərbər edilmiş, onlardan 394-ü həlak olmuş, 2395-i itkin düşmüşdür [106, 2007,14 may].

Ölkədə səfərbərlik edildiyi gündən əli silah tutan 250 Zeyvə-Düdəngə (Şərur rayonu) könüllüsü ordu sıralarına getmiş, onların 106-sı döyüşlərdə həlak olmuşdur. Müharibə illərində bu kənddən bir nəfər də olsun əsgəri çağırışdan yayınmamış, səfərbərlik yaşına çatmış hər kəs cəbhəyə yola düşmüşdür. Müharibəyə gedənlər içərisində 16 müəllim,10 həkim, 19 peşəkar hərbçi olmuşdur. Onların 17-si müxtəlif rütbəli zabitlər, 20-dən çoxu isə starşina və serjant olmuşdur [105, 2005, 9 may].

Naxçıvan (indiki Babək) rayonundan müharibəyə 1250 nəfər göndərilmiş, onların 1050-si döyüş meydanlarında həlak olmuş və ya itkin düşmüşdü [103, 2009, 4 may]. Bu ağır, qanlı müharibədə Cəhri sovetliyindən 613 nəfər faşizmə qarşı döyüşdə ölüm-dirim mübarizəsi aparmış, onların yarıdan çoxu geri qayıtmamış, sağ qalanların əksəriyyəti isə əlil olmuşdur [104, 2005, 30 aprel]. Rayonun Nehrəm kəndindən müharibəyə 641 nəfər yollanmış, onlardan 409-u qəhrəmancasına həlak olmuşdur [103, 2005, 8 may].

İkinci Dünya müharibəsinin ilk günlərində muxtar respublikanın həkim və orta təhsilli tibb işçilərinin xeyli hissəsi Vətənin çağırışına cavab olaraq Sovet Ordusu və Hərbi Dəniz Donanması sıralarına səfərbərliyə alınmışdır. Həkimlərdən Tofiq Sultanov, Mehdi Bağırov, Abbas Əliyev, Əbdüləli Tahirov, Əkbər İsmayılov, Camal İbrahimov, Əkbər Fəttahov, Valentina Suxova, Abdulla Abdullayev, Əzim Kazımov, Hacı Mehdiyev, Cabbar Cəfərov, orta təhsilli tibb işçilərindən Dilbər Təhməzbəyova, Zərifə Camalbəyova, Xeyrənsə Abdullayeva, Səffiyyə Sultanova və başqalarının düşmən üzərində qələbədə böyük xidmətləri olmuşdur [26, s.86-87].

Müharibə günlərində vacib məsələlərdən biri də SSRİ Dövlət Müdafiə Komitəsinin "Əhali arasında ümumi hərbi hazırlığın keçirilməsi" haqqında qərarını həyata keçirməkdən ibarət idi. Şəhər və rayon partiya komitələrinin hərbi şöbələri bu tədbirə fəal qoşulmuşdular. Nəticədə respublikada I, II, III, IV dərəcəli 5118 nəfər atıcı əsgər, 1425 nəfər minamyotçu, avtomatçı və pulemyotçu hazırlanmışdır ki, bunların da 25 nəfəri qadın idi [29, v-9].

Şahbuz rayonunda müharibə dövründə 2300 nəfər Voroşilov nişançısı, 380 avtomatçı,1020 nəfər "Hava hücumundan müdafiə" nişançısı hazırlanmışdır [98, 1945, 30 oktyabr].

Müharibə günlərində muxtar respublikanın komsomol təşkilatlarının işi haqqında yazılan arayışdan aydın olur ki, respublikanın komsomol təşkilatları gənclərin hərbi tərbiyəsi üzrə əhəmiyyətli işlər görmüşdü. Müharibə dövründə 6485 komsomolçu cəbhəyə göndərilmişdir. Sovet ordusu üçün respublikada komsomol təşkilatlarının köməyi ilə hərbi mütəxəssislərin hazırlanması ilə bağlı mütəmadi işlər aparılırdı. Müharibə dövrü ərzində 2889 komsomolçu 110 saatlıq ümumi məcburi hərbi təhsil proqramını keçərək müxtəlif hərbi ixtisaslara yiyələnmişlər.Təkcə müharibə vaxtı komsomolçulardan 100 pulemyotçu, 155 avtomatçı, 70 minomyotçu, 432 topçu, 527 snayperçi, 35 əl pulemyotçusu, 166 tibb bacısı, 467 sanitar drujinaçı, 38 teleqrafçı,10 telefonçu, 143 döyüş süngülərinin təlimatçıları hazırlanmışdı [34,v.34].

Sənədlərdən məlum olur ki, müharibə illərində 29500 nəfərdən çox naxçıvanlı səfərbərliyə alınmış, düşmənə qarşı rəşadətlə vuruşaraq misilsiz şücaət göstərmişdir. Müharibədə 15500 nəfər naxçıvanlı həlak olmuşdur [83, v.3].

3. Naxçıvanlılar müharibə cəbhələrində

İkinci Dünya müharibəsi cəbhələrində mərdliklə vuruşan Naxçıvanın oğul və qızlarından bir çoxu Qafqazın ətəklərindən Berlinə qədər şanlı döyüş yolu keçmiş, Vətən uğrunda qəhrəmanlıqla vuruşmuşdur. Bu qəhrəmanlardan Qəzənfər Əkbərov, Abbas Quliyev, Nəcəfqulu Rəfiyev, Rəhim Rəhimov partizan dəstəsinin komandiri Əli Babayev, Buhenvald qəhrəmanı Əkbər Ağayev, İtaliya partizan hərəkatının fəal iştirakçısı Cəlil Rəfiyev, general-mayor Akim Abbasov və on minlərlə digər naxçıvanlı ölkəmizdən çox-çox uzaqlarda ümumi düşmənə qarşı mübarizə aparmışlar.



Qəzənfər Əkbərov

Qəzənfər Əkbərov topçu komandir kimi Ukraynanın, Belarusun alman faşistlərindən təmizlənməsində fəal iştirak etmişdir. O, 1944-cü il avqustun 3-də Belarusun Volojin şəhəri ətrafında gedən döyüşlərdə misilsiz qəhrəmanlıq göstərmişdir. Onun başçılığı altında üç nəfər topçu almanların beş ağır tankına qarşı qeyri-bərabər döyüşə girmiş, bir neçə saat davam etmiş döyüşdə düşmənin 4 tankı, 60-dan artıq əsgər və zabiti məhv edilmişdi. Bu döyüşdə Q.Əkbərov qəhrəmanlıqla həlak olsa da, düşmənin hücumunu dayandırmağa və beləliklə də öz döyüş yoldaşlarının mühasirəyə düşməsinin qarşısını almağa nail olmuşdu. Bu qəhrəmanlığına görə Q.Əkbərova SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 26 oktyabr tarixli fərmanı ilə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir [72,v.68].

Faşistlər 1942-ci ilin axırlarından etibarən Sovet Ordusunun başladığı



Abbas Quliyev

zəfərli hücumu Dnepr sahillərində dayandırmaq fikrində idilər. Lakin qəhrəman döyüşçülərin qarşısıalınmaz hücumu nəticəsində düşmənlər Dneprin sahillərindən qovuldular. Bu döyüşdə yüksək şücaəti ilə fərqlənənlər sırasında Abbas Quliyev də var idi. Hücum zamanı onun komandirlik etdiyi topçu dəstəsi düşmənə sarsıdıcı zərbələr endirərək qəhrəmanlıq nümayiş etdirmişdi.

Cəsur komandir Poltava torpağında misilsiz döyüş rəşadəti, dönməz iradəsi və hərbi bacarığı ilə şöhrət qazanmışdı. 1944-cü ilin avqustunda o, vacib hərbi tapşırığı yerinə yetirdi. Gecə ikən Visla çayının sağ sahilinə keçərək mövqe tutmuş və üç gün fasilələrlə gedən qeyri-bərabər döyüşdə sovet əsgərlərinin çayı maneəsiz keçib, düşməni darmadağın etmələri üçün əlverişli şərait yaratmışdı. O, Poltava və Xarkov ətrafında gedən döyüşlərdə də igidlik və qəhrəmanlıq göstərmişdi. Bütün bunlara görə Abbas Quliyev I dərəcəli "Vətən müharibəsi", "Aleksandr Nevski", "Qızıl Ulduz" və "Qırmızı Bayraq" orden və medalları ilə təltif edilmişdi.

Visla çayının sahillərində gedən döyüşlərdən ağır yaralı çıxan Abbas Quliyevə 1945-ci il fevralın 25-də Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. [72, v.3].

1941-ci ilin avqustunda Poltava ətrafındakı vuruşmalarda Nəcəfqulu Rəfiyevin tankçılar dəstəsi düşmənin 2 ağır tankını, 6 topunu, 50-dən çox əsgərini məhv etmişdir. 1941-ci ilin sentyabrında isə N.Rəfiyevin tankçılar dəstəsi düşmənin 16-ya qədər müxtəlif topunu, 1 tankını, 40 düşmən əsgərini məhv etmiş, 3 əsgərini isə əsir tutmuşdu [25, s.76].



Nəcəfqulu Rəfiyev

1943-cü ilin payızında Çerniqov və Qomel vilayətlərinin birləşdikləri yerdə qanlı döyüşlər gedirdi. Düşmən ağır tələfata uğramasına baxmayaraq, Terexovka yaşayış məntəqəsini ələ keçirməyə nail olmuşdu. Bu zaman polkovnik Kovalyov kiçik leytenant N.Rəfiyevə dedi: "Düşməni Terexovkadan vurub çıxarmalısınız. Zərbə sarsıdıcı və qəti olmalıdır". Hücum gözlənilmədən olduğundan faşistlər özlərini itirdilər. Nəcəfqulu Rəfiyev iki atəş nöqtəsini darmadağın etdi. Bu döyüşlərdəki qəhrəmanlığına görə "Qırmızı Bayraq" ordeni ilə təltif edildi [96, s.14].

Nəcəfqulu Rəfiyev həmçinin Ukraynanın faşist işğalçılarından azad edilməsi əməliyyatlarında rəşadətlə vuruşmuşdur. Təkcə bir döyüşdə o, düşmənin bir neçə tankını və topunu məhv etmiş, 29 avtomaşınını yandırmış, əsirlikdə olan 200 nəfər əsgərin həyatını xilas etmişdir. Cəbhədə göstərdiyi şücaətə görə N.Rəfiyev "Lenin" ordeni, iki dəfə "Qırmızı Ulduz" ordeni və çoxlu

medalla təltif edilmişdir.

O, tank bölməsi komandiri kimi Cənub-Qərb, Şimali Qafqaz, 1-ci Belarusiya cəbhələrində alman faşist işğalçılarına qarşı vuruşmalarda iştirak etmişdir. 1944-cü ilin yayında Minsk şəhəri yaxınlığında gedən vuruşmalarda Baronoviçi şəhərin azad edilməsində şücaət və qəhrəmanlıq göstərmişdir. O, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 9 sentyabr tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür [77, v.2].

Terek sahilində və Mozdok rayonunda müdafiə döyüşləri zamanı Azərbaycan oğulları yüksək vətənpərvərlik, misilsiz igidlik göstərirdilər. Düşmən Qroznı-Bakı istiqamətində hücuma keçərkən Sovet Silahlı Qüvvələrinin müqavimətini qırmaqda öz tank hissələrinə böyük ümid bəsləyirdi. Odur ki, faşistlər Qroznı-Bakı istiqamətinə daha çox tank və mexanikləşdirilmiş hərbi qüvvələr yeritmişdilər. Mozdok rayonunda gedən müdafiə döyüşlərində Zaqafqaziya cəbhəsi şimal qrupunun tərkibində olan 44-cü ordu düşmənə ağır zərbə endirmişdir. Döyüşlərdə 402, 416, 223, 77-ci Azərbaycan diviziyaları böyük şücaət və igidlik göstərmişdir [92, s.50-51].

Şimali Qafqazdakı 44-cü ordunun hücum əməliyyatlarında 402-ci Azərbaycan diviziyası da fəal iştirak etmişdir. 1942-ci il noyabrın 3-dən dekabrın 11-dək diviziya 10-a qədər yaşayış məntəqəsini azad etmişdir. Bu döyüşlərdə diviziyanın döyüşçüləri düşmənin 108 tank və zirehli maşınını sıradan çıxarmışdır [5, v. 62].

1942-ci ilin dekabrında bu diviziyanın tərkibində mayor Akim Abbasovun komandanlıq etdiyi 833-cü polk Mozdokun şimal-şərqində İşşersk-Kapustino-Novo-Lednev-Mojorsk yaşayış məntəqələri xəttində vuruşurdu. Almanlar polkun mövqeyinə 100-ə qədər tank və zirehli maşınla hücuma keçdilər. Lakin onlar igid Azərbaycan döyüşçülərinin müqavimətini qıra bilmədilər. Əlavə qüvvə alan düşmən ikinci dəfə hücuma keçdi. Akim Abbasov döyüşçüləri qələbəyə ruhlandırdı. Döyüşdən əvvəl o, yoldaşlarına faşistlərə qarşı igid bir azərbaycanlı kimi döyüşməliyik, biz burada ya qəhrəman olub qayıtmalıyıq, ya da qəhrəman kimi ölməliyik, - dedi. Sevimli komandirin alovlu müraciətindən ruhlanan döyüşçülər düşmənin canlı qüvvəsini və texnikasını məhv etməyə başladılar. Düşmən döyüş meydanında 17 tank, 2 zirehli maşın, çoxlu əsgər və zabit itirdi [92, s.51-52].



Akim Abbasov

Sonrakı gün düşmən yenidən hücuma keçdi. On saat davam edən döyüşdə almanların 13 hücumu dəf edildi. Bu döyüşdə A.Abbasovun döyüş yoldaşları misilsiz şücaət göstərdilər. Akim Abbasovun polku iki gündə düşməni 34 kilometr geri qovmuş, 4 yaşayış məntəqəsini azad etmiş, düşmənin 36 tankını, 3 avtomaşınını, 5 minomyot artilleriya batareyasını və 500-dən çox əsgər və zabitini məhv

etmişdi. Döyüşdə igidlik göstərdiyinə görə polkun 72 döyüşçüsü SSRİ orden və medalları ilə təltif edilmişdir. Mayor A.Abbasov isə "Qırmızı Bayraq" ordeni ilə təltif edilmiş və ona podpolkovnik rütbəsi verilmişdir .

Zaqafqaziya cəbhəsinin komandanı, ordu generalı İ.V.Tulenev yazmışdı: "Faşistlər A.Abbasovun bölməsi tərəfindən müdafiə olunan mövqelər üzərinə 70-dən 100-ə qədər tankla 30 dəfə hücum etdi. Almanlar top və pulemyotlardan atəş açır, tankların tırtılları ilə hər şeyi əzib məhv edirdilər. Azərbaycanlı döyüşçülər bir çox yoldaşlarının həlak olduğunu görürdülər. Lakin onlar düşmənin 36 tankını yandırdılar və məhv etdilər, həm də hər dəfə sübut etdilər ki, qoçaq əsgər tankdan güclüdür" [24, 1943, 25 fevral].



Rəhim Rəhimov

1943-cü ilin martında 167-ci qvardiya atıcı alayının minaatanlar vzvodu komandirinin köməkçisi Rəhim Rəhimov Velikiye Luki və Vitebsk ətrafında faşistlərlə vuruşmada başçılıq etdiyi vzvod düşmənin 3 tankını və başqa texnikasını məhv etmiş, 100-dən çox canlı qüvvəsini sıradan çıxarmış və əsir almışdılar. Bütün bunlara görə R.Rəhimov üçüncü dərəcəli "Şöhrət" ordeni ilə təltif olunmuşdur [102, 1985, 22 iyun]. Vitebskidə ağır döyüşlərin birində yaralanan Rəhim Rəhimov Kalininqrad hərbi xəstəxanasında müalicə aldıqdan sonra onu 252-ci qvardiya atıcı alayının 82-ci minaatanlar vzvoduna komandir təyin edirlər.

1944-cü ilin fevralında Rəhimgilin hissəsinə Berezin çayının ətrafını və Borisov şəhərini azad etmək tapşırığı verilmişdi. Bu döyüşlərdə Rəhimgilin alayı düşmənin çoxlu döyüş texnikasını və canlı qüvvəsini sıradan çıxardı. Həmin vuruşda göstərdiyi şücaətə görə Rəhim Rəhimov ikinci dərəcəli "Şöhrət" ordeni ilə, 3 avqust 1944-cü ildə Şərqi Prussiyanın faşistlərdən azad olunmasında yaxından iştirak etdiyinə görə ikinci dəfə üçüncü dərəcəli "Şöhrət" ordeni ilə təltif olundu. Lakin bu ağır döyüşlərin yaratdığı anlaşılmazlıq idi.

9 aprel 1945-ci ildə Pillau şəhərinin və qalasının azad edilməsində fərqləndiyinə görə R.Rəhimov "Qırmızı Ulduz" ordeninə layiq görülür. Bundan on gün sonra isə Lenisberqin azad olunması uğurunda gedən döyüşlərdə fərqləndiyinə görə "Qırmızı Bayraq" ordeni ilə təltif olunur [102,1985,22 iyun].

Müharibənin qələbəmizlə başa çatmasından 29 il sonra 7 may 1974-cü ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin xüsusi fərmanı ilə üçüncü dərəcəli "Şöhrət" ordeni birinci dərəcəli "Şöhrət" ordeni ilə əvəz edildi. Beləliklə, cəsur döyüşçü Rəhim Rəhimovun sinəsini "Şöhrət" ordeninin hər üç dərəcəsi bəzədi. O, muxtar respublikamızda "Şöhrət" ordeninin hər üç dərəcəsini almış yeganə adamdır [103, 1985, 8 may].

Sovet Ordusunun başqa hissələri kimi, Azərbaycan diviziyaları da öz xilaskar

rollarını axıradək şərəflə yerinə yetirdilər. 1944-cü il sentyabrın axırlarında 223-cü atıcı diviziya Yuqoslaviyanı faşistlərdən təmizləməyə başladı. Oktyabrın birinci yarısında diviziya Bor və Bakra şəhərlərindəki faşist qarnizonlarını məhv edib mis mədənlərini azad etdi. Təkcə Boqovina kəndi yaxınlığındakı döyüşdə diviziya 2500 nəfərlik faşist hissəsini əzib, onlardan 700-nü öldürmüş və 250-ni əsir almışdı. 1944-cü ilin oktyabrında 223-cü diviziya Şərqi Serbiya ərazisində 7 şəhəri, 15 dəmiryol stansiyasını və 100-dən çox kəndi düşməndən azad etmişdi. Bu döyüşlərdə diviziya 5000-dən çox faşisti məhv etmiş və 3327-ni əsir almışdı. Belqrad şəhərinin faşistlərdən azad edilməsindəki döyüş xidmətlərinə görə 223-cü diviziya "Lenin" ordeni ilə təltif edilmiş və ona "Belqrad" diviziyası adı verilmişdi [25,s.482].

Sovet Ordusunun 1945-ci ilin yanvar hücumunda və Berlinin alınmasındakı döyüş əməliyyatlarında Azərbaycan xalqının fəxri olan 416-cı atıcı diviziya öz şanlı qələbələri ilə böyük şöhrət qazandı.

1945-ci ilin yanvarında diviziya 1-ci Belarusiya cəbhəsi 5-ci ordusunun tərkibində Varşavanın cənubunda döyüş mövqeyi tutmuşdu. Bu zaman diviziyanın şəxsi heyəti respublika zəhmətkeşlərinə göndərdiyi məktubda yazmışdı: "Biz döyüşçülər qəti və son döyüşə hazırıq! Biz Azərbaycan xalqını əmin edirik ki, zəfər bayrağının Berlin üzərində sancılmasında əlimizdən gələni edəcəyik. Sovet xalqının və onun müzəffər silahlı qüvvələrinin şan və şöhrətini daha da yüksəkliklərə qaldıracayıq. Biz Berlin üzərinə gedirik, orada bizi qələbə gözləyir" [25, s.486].

Azərbaycan xalqının fəxri, Qırmızı Bayraqlı, II dərəcəli Suvorov ordenli 416-cı Taqanroq atıcı diviziyası İkinci Dünya müharibəsi cəbhələrində Qafqazdan Berlinə qədər şanlı döyüş yolu keçmiş, 22996 faşist öldürmüş, 5474-nü isə əsir tutmuşdur. Diviziyanın döyüşçülərindən 8-i Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 11-i "Lenin" ordeni almış, 14369 əsgər və zabit SSRİ orden və medalları ilə təltif edilmişdi. Təltif olunanların arasında çoxlu naxçıvanlılar da var idi [25, s.491].

Bütün xalqların qadınları kimi, Azərbaycan qadınları, qızları da həmişə öz vətənpərvərlikləri ilə fərqlənmişlər. Lakin onların vətənə məhəbbəti və sədaqəti müharibə illərində özünü xüsusilə parlaq surətdə təzahür etdirmişdir. Naxçıvanın bir çox qızları düşmənin darmadağın edilməsində bilavasitə iştirak etmək üçün könüllü surətdə cəbhəyə yollanmışdı.



Səfiyyə Sultanova

Ümumiyyətlə, müharibədə Naxçıvandan 127 qadın iştirak etmişdir. Onlardan bir çoxu Naxçıvan tibb məktəbinin yetirmələri idilər [1, s.94].

Naxçıvan tibb məktəbini bitirmiş onlarla naxçıvanlı qız müharibənin ilk günlərində Hərbi Komissarlığa ərizə



Dilbər Təhməzbəyova

verərək könüllü surətdə ordu sıralarına alınmışdılar. Səfiyyə Sultanova, Zərifə Camalbəyova, Firuş Məmmədəliyeva, Surə Allahverdiyeva, Fövqiyyə Cəfərova, Xeyrənsə Abdullayeva, Xeyrənsə Axundova, Dilbər Təhməzbəyova, Səkinə Şəfiyeva, Zeynəb Şirəliyeva, Lora Abdullayeva, Səkinə Quliyeva, Zina Şirzadova, Gültac Zülfüqarova, Asiya Hüseynova, Vera Abbasova, Səkinə Vəliyeva və başqaları tibb bacısı və feldşer ixtisasına yiyələnərək cəbhələrə getmiş, hərbi xəstəxanalarda, batalyonlarda, polklarda xidmət etmişdilər.

Qafqazın müdafiəsində əsasən Cənubi Qafqaz xalqlarından təşkil olunmuş 18 milli və 15 qarışıq diviziya iştirak etmişdir. Bunlardan 77, 223, 402 və 416-cı diviziyalar milli Azərbaycan diviziyaları idi. 227, 271-ci diviziyaların isə şəxsi heyətinin 30 faizindən 70 faizə qədərini azərbaycanlı döyüşçülər təşkil edirdi [11.s.53].

Qafqaz uğrunda döyülərdə göstərdiyi igidliyə görə onlarla döyüşçüyə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Onların arasında Azərbaycan oğullarının adları da var idi. Qafqazda faşist ordusunun darmadağın edilməsinin 30 illiyi şərəfinə 1973-cü il oktyabrın 31-də Bakıda keçirilən təntənəli yığıncaqda Heydər Əliyev demişdir: "Azərbaycanın şanlı oğulları Həbibullah Hüseynov, Qəzənfər Əkbərov, Şəmsulla Əliyev, Səməd Abdullayev, Məhərrəm Dadaşov və başqaları Qafqaz uğrunda müdafiə və hücum əməliyyatlarında misilsiz igidlikləri ilə fərqlənirdilər. Onlar qəhrəman kimi həlak olmuşlar. Vətən bu döyüşçülərin hünərlərini yüksək qiymətləndirib, onlara Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir" [24,1973, 1 yanvar].

Alman faşist işğalçıları ilə son döyüşlərdə və Berlinin alınmasında Sovet ordusunun digər hissələrində xidmət edən azərbaycanlı döyüşçülər də fəal sürətdə iştirak etmişlər.

Alman faşistlərinin SSRİ-yə xaincəsinə basqınının 1417-ci günü, 1945-ci il mayın 8-də hitlerçilər Berlində danışıqsız təslim olmaq haqqında aktı imzaladılar. Sovet xalqının və bütün sülhsevər xalqların çoxdan bəri həsrətini çəkdiyi Qələbə günü gəlib çatdı. 1945-ci il mayın 9-u bəşər tarixinə sovet xalqının alman faşizmi üzərində qələbəsinin bayramı günü kimi daxil oldu.

Naxçıvanlılar həmişə öz igid həmyerliləri ilə fəxr etmişlər. Tarix boyu bu diyarın övladları qəhrəmanlıq salnaməsinə parlaq səhifələr yazmışlar. İkinci Dünya müharibəsində göstərdikləri şücaətə görə həmyerlilərimizdən üç nəfəri Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüşdür. 8 nəfər "Lenin" ordeni, 1 nəfər I, II, III dərəcəli "Şöhrət "ordeni, 102 nəfər "Şöhrət" ordeninin ayrı-ayrı dərəcələri, 105 nəfər I və II dərəcəli "Böyük Vətən müharibəsi" ordeni, 315 nəfər

"Qırmızı Ulduz", 29 nəfər "Qırmızı Bayraq" ordenləri ilə təltif olunmuşdur. Minlərlə döyüşçü müxtəlif medallar və Ali Baş Komandanlığın təşəkkürünü almışdır [79, v.12].

4. Naxçıvanlılar partizan döyüşlərində və antifaşist müqavimət hərəkatında

Müharibə illəri Sovet ordusu və xalqları üçün ən ağır dövr idi. Bu mübarizədə Azərbaycanın on minlərlə oğul və qızı, hitlerçilərlə vuruşlarda böyük rəşadət və qəhrəmanlıqlar göstərmişdilər. Azərbaycan xalqının qəhrəman övladları Cavad Həkimli, Əhmədiyyə Cəbrayılov, Hadi Qiyasbəyli, Mirzəxan Məmmədov, Mehdi Hüseynzadə, İsmayıl Əliyev, Məmməd Axundov, Hümmət Namazov, Mirdamət Seyidov, Mikayıl Qulubəyov, Cəmil İsmayılov, Ələsgər Əliyev, Səlim Səttarov, İzzətulla Nəsurullayev, Hilal Cavadov, Sara İbrahimova və başqaları doğma vətən torpaqlarından uzaqlarda–Çexoslovakiya, Polşa, İtaliya, Yuqoslaviya, Fransa, Avstriyada partizan və antifaşist müqavimət hərəkatı sıralarında cəsarətlə vuruşmuşlar.

Vətəndən uzaqda olan cəsur azərbaycan oğullarını faşistlər tərəfindən salınmış Buhenvald, Osvensim, Maydanek, Treblinkan, Dahay, Maythazen kimi ölüm düşərgələri də sarsıda bilməmişdir.

İkinci Dünya müharibəsi illərində Sovet adamları partizan hərəkatına müxtəlif yollarla qoşulurdular. Partizan dəstələri əsasən faşist Almaniyasının müvəqqəti işğal etdiyi rayonlarda – RSFSR, Ukrayna, Belarusiya və əsarət altına aldığı Avropa ölkələrində yaradılmış və fəaliyyət göstərmişdir.

1942-1944-cü illərdə azərbaycanlı əsirlər tərəfindən Polşanın Yedilka, Almaniyanın Hoyhamer-Etrans, Fransanın Rodez, İtaliyanın Ydina və Triyestin Opçina şəhərlərində və yaşayış məntəqələrində yaradılmış gizli antifaşist təşkilatlar böyük üstünlüklərə malik idi. 1942-ci ilin yazında Polşanın Yedilka şəhərində yaradılmış gizli təşkilatın üzvləri Hadı Qiyasbəyov, Mirzəxan Məmmədov, Əşrəf Süleymanov, İsmayıl Heydərov, Yunis Mirzəyev, Hüseyinrza Məmmədov, Feyzulla Qurbanov, Xələf Hacıyev və başqalarını göstərmək olar. Gizli təşkilat "zəncir üsulu" ilə fəaliyyət göstərirdi. Burada bir təşkilat üzvü ancaq bir və ya iki nəfəri tanıyırdı. Gizli təşkilat hərbi əsirlər arasında geniş təbliğat işi aparırdı. Təşkilat 1942- ci ildə əsirlər arasında faşistlərin əleyhinə 300- dən çox vərəqə yaymışdır [94, s.13].

Zəfər Qədimov, Bəşir Qaziyev, Əlipaşa Rəcəbov, Yunis Mirzəyev, Əli Babayev, Məmmədhüseyn Əliyev, Məmməd Kərimov, Sadıq Nadirli, Firudin Hüseynov, Rüstəm Hüseynov, Qafar Cəfərov, Cəlil Rəfiyev, Abış Dünyamalıyev, Əkbər Ağayev, Zeynal Zeynalov, Həsən Novruzov, Mirzəli Abdullayev və başqa naxçıvanlılar partizan hərəkatında yaxından iştirak etmişlər.

1944-cü ilin əvvəllərində Fransa ərazisində öz sıralarında 25 mindən çox döyüşçünü birləşdirən 30-dan çox partizan dəstəsi fəaliyyətdə idi. Döyüşçüləri əsasən Sovet vətəndaşlarından ibarət olan "Çapayev", "Azadlıq", "Vətən", "Donbus",

"Kotonski" və digər partizan dəstələrinin şöhrəti hələ o dövrdə bütün Fransaya yayılmışdır. Həmin partizan dəstələrinin tərkibində Azərbaycan xalqının oğulları da qəhrəmanlıqla vuruşmuş və fransız xalqının rəğbətini qazanmışdılar [11, s.82].

Ümumiyyətlə, 1941-1945-ci illərdə Fransa antifaşist müqavimət hərəkatında 2000 nəfərə yaxın azərbaycanlı iştirak etmişdir [11, s.83].

Şimali İtaliya və Yuqoslaviya partizanları ilə çiyin-çiyinə bir ildən artıq faşistlərlə vuruşmuş, "Çapayev" adına beynəlmiləl partizan batalyonunun komandiri, naxçıvanlı Əli Baba oğlu Babayevin özünəməxsus döyüş yolu vardır. Cəsur partizan, vətənpərvər mübariz, ölümün gözünə dik baxan Əli Babayev haqqında Azərbaycan Sovet Ensiklopediyasının birinci cildində qeyd olunur: "İtaliyada partizan hərəkatının iştirakçılarından biri 1940-cı ildə Sovet Ordusuna çağrılmışdır". 1944-1945-ci illərdə "Qaribaldi" briqadasında batalyon komandiri olmuşdur. Babayevin batalyonu vuruşlarda igidlik göstərdiyi üçün on dəfə partizan briqadası komandanlığının təşəkkürünə layiq görülmüşdür. Babayev İtaliyanın yüksək əsgəri mükafatı "Hərbi şücaətinə görə" gümüş medalı ilə təltif edilmişdir [95, s.25].

İkinci Dünya müharibəsi illərində Azərbaycan SSR-dən və onun tərkib hissəsi olan Naxçıvan MSSR-dən olan hərbi əsirlər Almaniya, İtaliya, Avstriya, Yuqoslavi-ya, Fransa, Polşa və digər ökələrin ərazilərində yerləşən hərbi düşərgələrdə faşistlərə qarşı müxtəlif formalardan istifadə edərək mübarizə aparmışdılar. Onlar gizli təşkilatlar yaradıb, faşistlərlə işləyən müxtəlif hərbi obyektlərdə təbliğat işləri aparır və əsirlərin qaçıb antifaşist müqavimət hərəkatına qoşulmasını təşkil edirdilər.

Bu gün Avropa xalqları faşizmə qarşı vuruşan vətənpərvərlərin adlarını böyük hörmət və ehtiramla yad edirlər. Öz Vətənindən uzaqlarda-Avropa ölkələrində faşizmə qarşı cəsarətlə mübarizə aparan azərbaycanlıların qəhrəmanlığı antifaşist və partizan hərəkatı tarixində parlaq səhifə təşkil edir.

5. Naxçıvanlılar arxa cəbhədə

Müharibə dövründə SSRİ-nin digər xalqları kimi Naxçıvan zəhmətkeşləri də var qüvvələri ilə cəbhəyə köməklik göstərmişlər.

Naxçıvan zəhmətkeşlərinin vətənpərvərliyi arxa cəbhəni hər vasitə ilə möhkəmləndirməkdə, orduya hərtərəfli kömək etməkdə, döyüşçülərə sovqat və hədiyyələr göndərməkdə, müdafiə fonduna pul və qiymətli əşyalar verməkdə, azad olunmuş rayonların sakinlərinə qardaşlıq köməyində öz ifadəsini tapmışdır.

Naxçıvan MR Dövlət arxivində olan sənədlərdən aydın olur ki, 1941-ci ilin iyul ayında muxtar respublika üzrə rəhbər işçilərin, idarə və müəssisə başçılarının müşavirəsi keçirilmişdir. Bu müşavirədə faşist işğalçılarına qarşı qəhrəmanlıqla vuruşan döyüşçülərimizin ailələrinə yardım göstərmək məqsədilə fondların təşkil edilməsi və ön cəbhədə vətənimizin müdafiəsində qəhrəmanlıqla vuruşan əs-

gərlərə hədiyyələr göndərilməsi müzakirə edilmişdir. Dövlət tərəfindən ayrılmış komissiyaların və həmçinin zəhmətkeşlərin təşəbbüsü ilə cəmi 4 ay ərzində muxtar respublika üzrə müdafiə fonduna 120800 manat nağd pul, 1727000 manatlıq istiqraz vərəqəsi, 7 kq 700 qram qızıl-gümüş toplanaraq dövlət bankına verilmiş, tədarük məntəqələrinə 66,1 ton taxıl, 64,3 ton ət, 2155 kq yun, 897 kq yağ, 10,6 ton tərəvəz, 3634 cüt yun corab, 1461 cüt yun əlcək toplanılıb cəbhəyə göndərilmişdir [53, v.8].

Şərur rayonundan olan cəbhəçi anası K.Əliyeva 1941-ci ilin oktyabrında şəxsi bağlama hazırlayıb cəbhəyə göndərmişdir. O, Moskvanın müdafiəçilərinə məktubunda yazırdı: "Qoy mənim bu balaca ana sovqatım sizin düşməni məhv edən əllərinizi qızdırsın. Düşmənə qəzəbinizi artırsın, qələbənizi yaxınlaşdırsın" [53, v.9].

2 sentyabr 1941-ci il tarixdə "Şərq qapısı" qəzeti "Naxçıvan qadınları Azərbaycanın qabaqcıl qadınlarının müraciətinə qoşulurlar" başlıqlı məqalədə yazırdı: "Azərbaycanın qabaqcıl qadınlarının Azərbaycanın bütün qadınlarına olan müraciətini müzakirə edən biz Naxçıvan şəhərinin bir qrup qadını ölkəmizin müdafiə fondunu daha da möhkəmləndirməyə yönəldilmiş bu vaxtlı müraciəti bəyənir və çox böyük həvəslə ona qoşuluruq.

Bu müraciətnamə doğma vətənini canından da artıq sevən biz Naxçıvan qadınlarının fikrini dəxi ifadə edir.

Sizin dediyiniz kimi, vətən müharibəsi cəbhələrində cəllad Hitler faşizminə qarşı qəhrəmanlıqla vuruşan qardaşlarımıza ana qayğısı və nəvazişi göstərmək vaxtıdır. Bəli, bacılarımız, igid döyüşçülərimizə daha çox hədiyyələr vermək, hünər və təşəbbüslər göstərmək vaxtıdır!

Başımızın üstünü böyük qorxu aldığı bir zamanda, vətən müharibəsinin bu ciddi vaxtında artıq nəyimiz varsa, hər nə-qızıl, gümüş və başqa qiymətli şeylərimiz varsa hamısı vətən yolunda qurbandır!

Biz sizin müraciətinizdən bütün nəticələri çıxararaq aşağıda göstərilən ən qiymətli şeylərimizi vətəni müdafiə fonduna verməyi layiq bilirik: Talıbova Rübabə-qızıl qol saat, 300 manat pul, 800 manatlıq istiqraz vərəqəsi; Quliyeva Leylan (evdar qadın) -3 misqal ağırlığında qızıl boğazaltı, 2 mis qazan və 300 manatlıq istiqraz; Abbasova Siddiqə - 1 qızıl üzük, mis və 300 manatlıq istiqraz; Həsənova Qumru - 650 manat pul, 1000 manat istiqraz vərəqəsi; Abbasova Züleyxa -qızıl üzük, mis; Abbasova Vasilə - qızıl sırğa; Fətullayeva Əqiyyə - bir misqal qızıl, 1500 manatlıq istiqraz vərəqəsi; Səfiyeva Pəri - bir qızıl bacaxlı, 900 manatlıq istiqraz; Qədimova Simuzər - qızıl üzük, 2 gümüş qaşıq, 800 manat pul və 1000 manatlıq istiqraz; Aslanova Məryəm - 600 manat pul, müharibə qurtaranadək ayda 350 manat pul, 2000 manatlıq istiqraz və mis; Abbasova Anna- qızıl cib saatı, 2 gümüş qaşıq, 2000 istiqraz və mis; Vəliyeva Güllü- 600 manat nağd pul; Məmmədova Səkinə - bir misqal ağırlığında qızıl qarabatdağ, 1000 manatlıq istiqraz;

Qədimova Lida- 2 qızıl üzük, 1500 manatlıq istiqraz və müharibə qurtaranadək hər ay 2 günlük əmək haqqı; Həkim Knıtkova- 1500 manatlıq istiqraz; Xəlilova Təyyiba-8 parça qızıl, 300 manat pul, qızıl sırğa, müharibə qurtaranadək ayda 3 günlük əmək haqqı və mis; Kazımova Güllü-1 qızıl üzük, 500 manatlıq istiqraz, mis; Əliyeva Xavər - 300 manat pul, 500 manatlıq istiqraz və mis; Behbudova Gülabə - 1 qızıl üzük, 1000 manatlıq istiqraz; Həsənova Bəni - qızıl sırğa, 1000 manatlıq istiqraz; Səkinə Rzalı - 6 q qızıl, 300 manat pul, 500 manatlıq istiqraz, 10 kq mis və müharibə qurtarınca hər ay 3 günlük əmək haqqı".

Şərur rayon zəhmətkeşləri ön cəbhədəki döyüşçülərimizə 1941-ci il noyabr ayının 1-dən 20-dək əşya və isti paltarlar: 411 ədəd yarım şuba, 740 yun əlcək, 49 ədəd isti papaq, 80 ədəd pambıq gödəkcə, 11 ədəd şalvar, 40 ədəd isti köynək, 16 ədəd isti tuman, 625 cüt yun corab, 92 ədəd sırıqlı, 3 ədəd kürk, 19 ədəd adyal, 3 ədəd balınc üzü, 216 ədəd cib dəsmalı, 99 ədəd üz dəsmalı, 117 ədəd əl-üz sabunu, 66 ədəd paltar sabunu, 9 kq tütün və s. toplayıb göndərmişlər [64,v.80-81].

20 noyabr 1941-ci ilə kimi Naxçıvan Muxtar Respublikası üzrə vətəndaşlardan və təşkilatlardan ölkənin müdafiəsi üçün dövlət müdafiə fonduna 1251000 manat nağd pul, 1738000 manatlıq istiqraz vərəqəsi, 1 kq 217 q qızıl, 6 kq 388 q gümüş dövlət bankına təhvil verilmişdir. Bundan başqa müdafiə fonduna 66432 kq taxıl, 64318 kq ət, 888 kq yağ, 2155 kq yun, 797 kq pendir, 425 kq bal, 7138 kq üzüm, 3894 kq tərəvəz və başqa kənd təsərrüfatı məhsulları vermişdilər [64,v.89-90].

1 yanvar 1942-ci ildən 31 dekabr 1942-ci ilə kimi Naxçıvan zəhmətkeşləri müharibədə döyüşən əsgərlərə isti paltarların alınması üçün 167222 manat pul və 10556 ədəd müxtəlif əşyalar, "Azərbaycan kolxozu" tank kaloniyasının yaradılması üçün 935 min manat və tibbi təyyarə düzəldilməsi üçün 20450 manat vermişlər [65, v.89-90].

Tank kaloniyasının yaradılması üçün Şərur rayonunun "Engels" adına kolxozun sədri Məmməd Əliyev 350 min manat, "Sosializm" adına kolxozun sədri Hüseyn Əliyev 100 min manat və Allahverdiyev 80 min manat pul vermişlər [41, v.11].

1941-ci ildə və 1942-ci ilin birinci və ikinci rüblərində Naxçıvan rayon (indiki Babək rayon) zəhmətkeşləri müdafiə fonduna və qızıl əsgərlərə 230 sırıqlı, pencək, 1980 cüt yun əlcək və yun corab, 940 dəst isti alt paltarı, 2200 ədəd dəri, 413 kq yun, 1 kq 112 qram qızıl, 6 kq 961 qram gümüş, 872000 manat pul, 1255000 manatlıq istiqraz vərəqəsi və sahibsiz uşaqlar üçün 11467 manat pul vermişlər [103,1942, 26 sentyabr].

25 iyul 1942-ci ildə Naxçıvan MSSR gənclərinin Naxçıvan şəhər parkında birinci antifaşist mitinqi keçirilmişdir. Azərbaycan gənclərinin birinci antifaşist mitinqinin yekunlarına həsr edilmiş yığıncaqda 5000 nəfər gənc arxa cəbhədə çalışaraq iməcilik yolu ilə müdafiə fonduna 324 min 422 manat nağd pul, döyüşçülərimizə 10 min ədəddən çox müxtəlif isti paltar və Qara Dəniz Donanmaçılarına

12 min manatlıq hədiyyələrin göndərilməsini qərara almışlar.

Həmin mitinqdə çıxış edən Səkinə Mustafayeva, kolxozçu gənclərdən Sənəm Allahverdiyeva, Fatma Kərimova, Fatma Ramazanova hər hektardan 7 sentner əvəzinə 40 sentner gənəgərçək məhsulu verməyi qət etmişlər. Keçirilən bu mitinqdə komsomolçu gənclərdən Fövqiyə Cəfərova, Leyla Qəhrəmanova və başqaları çıxış edərək müdafiə fondunun güclənməsi, arxa cəbhənin gücləndirilməsi və s. işlərdən danışmışlar [104,1942, 28 iyul].

Müdafiə fondunun möhkəmləndirilməsi haqqındakı göstərişlərini alqışlayan evdar qadınlar qiymətli hədiyyələrini müdafiə fonduna vermişlər. Bunlardan Səkinə Məmmədova 3 qızıl üzük, Rübabə Talıbova 9 qram qızıl, Leyla Rzayeva 9 qram qızıl, Şura Bəktaşi 3 qızıl üzük, Səkinə Rzalı 6 qızıl üzük göndərmişdir [32,v.8].

Naxçıvan MSSR zəhmətkeşləri Qızıl Ordunun döyüşçülərinə bayram hədiyyələri və isti paltarlar göndərməklə ölkənin müdafiə fonduna xeyli vəsait toplayıb vermişlər. Onlar 1942-ci ilin sentyabr-oktyabr aylarında qəhrəman döyüşçülərə və ölkənin müdafiəsi fonduna 60 kürk, 45 isti köynək, 25 dəst alt paltarı, 1033 cüt yun corab, 79 cüt keçə çəkmə, 127 yun əlcək, 30 ədəd qulaqlı papaq, 20 sırıqlı pencək, 10 jilet, 35 qoyun, 2625 qutu sovqat, 13719 manat nağd pul vermişlər [104, 1942, 7 noyabr].

Müharibənin birinci günündən 1943-cü ilin oktyabr ayına kimi Naxçıvan Muxtar Respublikasının zəhmətkeşləri müdafiə fonduna 1080085 manat pul, 244000 manat istiqraz vərəqəsi, 1 kq 233 q qızıl, 10 kq 283 q gümüş, bunlardan əlavə 38811 cüt əlcək, corab, qızıl ordu əsgərlərinə 6520 sovqat qutusu, 4452 pud taxıl, 4046 pud ət, 1118 kq yağ, 692 pud tərəvəz, 786 kq pendir, 43 kq bal, 742 ədəd dəri və 2135 kq yun toplayaraq göndərmişlər [46, v.4] .

Yerli sovetliklərin və partiya təşkilatlarının səyi nəticəsində 7142 cəbhəçi ailəsinə 12462 manat məbləğində yardım və 374047 manat məbləğində müavinət verilmişdir [46, v.4].

Müharibə dövründə arxa cəbhədə göstərilən əmək qəhrəmanlıqlarında qadınların böyük rolu olmuşdur. Belə ki, bu zaman sənayedə və kənd təsərrüfatında çalışan zəhmətkeşlərin əksəriyyəti qadınlar olmuşdur. 1943-1945-ci illərdə kənd təsərrüfatını cəbhənin ehtiyacını ödəmək səviyyəsində yüksəltmək ölkəmizin fəhlə sinfindən, kolxozçu kəndlilərindən və ziyalılarından böyük səy göstərməyi tələb edirdi. Müharibə illərində naxçıvanlı qızlar kənd təsərrüfatı texnikasının idarə edən əsas qüvvəyə çevrilmişdilər. Belə ki, müharibədən əvvəl qadınlar mexanizator kadrların cüzi bir hissəsinin təşkil etdikləri halda, 1943-cü ildə mexanizatorların yarıya qədəri qızlar idi.

1943-cü ildə Naxçıvan MSSR zəhmətkeşləri fədakarcasına çalışaraq kənd təsərrüfatı məhsulları istehsalını artırmaq sahəsində ciddi müvəffəqiyyətlər əldə etmişlər. Respublikanın kolxozları böyük hərbi təsərrüfat əhəmiyyəti olan gənəgərçək

bitkisinin əkilib-becərilməsini mənimsəmişdilər.

1942-1943-cü illərdə Naxçıvan MSSR-in kolxozçuları dövlətə 13179 pud yun, 677613 pud taxıl, 165970 pud ət, 6760 pud yağ təhvil vermişdilər. Naxçıvan zəhmətkeşləri qısa müddət ərzində tank və təyyarə dəstələri yaratmaq fonduna 800107 manat nağd pul vermişdir [104, 1975, 9 may].

"Azərbaycan kolxozçusu" tank kaloniyasının yaradılmasına və qırıcı təyyarələrin artırılması fonduna yardım edilməsi haqqında Azərbaycan KP Naxçıvan rayon Komitəsinin 8 mart 1943-cü il tarixli qərarını əldə rəhbər tutan Naxçıvan rayon (indiki Babək rayonu) kolxozçuları ölkəmizin müdafiə qüdrətinin möhkəmlətmək, alman faşist quldur dəstələrinin darmadağın edilməsi və bütün xalqların gələcəkdə dinc yaşaması uğrunda özlərinin vətənə olan sədaqətini bir daha əməli işlə sübut edərək qısa müddətdə rayon üzrə tank dəstəsi yaradılması fonduna 2087463 manat, təyyarə hazırlanması fonduna isə 492497781 manat pul ödəmişlər [45, v.1].

1943-cü ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının komsomolçuları tərəfindən müdafiə fonduna 300 q qızıl, 1561q gümüş, 15 qızıl üzük, 2 ədəd qolbaq, 5 qızıl saat və bir çox şeylər verilmişdir. Komsomolçular "Azərbaycan kolxozçusu" tank dəstəsi fonduna 1369709 manat vəsait vermişlər. Müharibə dövründə komsomolçuların qüvvəsilə 6631 ədəd isti geyim şeyləri toplanaraq Qızıl Ordu döyüşçülərinə göndərilmişdir. Qızıl Ordu döyüşçülərinə və sovet partizanlarına 436708 manatlıq hədiyyə göndərilmişdir.

1943-cü ilin yaz əkininə hazırlaşarkən, respublikanın komsomolçularının və gənclərinin qüvvəsilə 40000 ton yerli gübrə toplanmış və tarlalara daşınmış, 95000 metr uzunluğunda su kanalı təmizlənmiş və qaydaya salınmışdır. Təkcə komsomolçuların qüvvəsilə 6000 hektar sahə şumlanmışdır. Komsomolçuların təşəbbüsü ilə plandan artıq 500 hektar sahədə dənli bitki, ot, tütün və başqa bitkilər əkilmişdir. Komsomolçuların və gənclərin qüvvəsilə 25 traktor, 2 toxumsəpən, 15 taxıl döyən maşın təmir edilmişdir.

Məhsul toplanışı zaman respublikanın 4850 nəfər komsomolçusu kolxoz təsərrüfatında işləmişdir. Tarlalarda çalışan komsomolçu gənclər cəbhə briqadası 5000-dən artıq gənci əhatə etmişdir. Kolxoz komsomolçularının qüvvəsilə 25000 hektardan artıq sahənin taxılı biçilmişdir [104,1943, 29 oktyabr].

Mal-qaranın qışlamasına hazırlıq işində də komsomolçular az iş görməmişlər. Komsomolçuların qüvvəsilə 1000 hektar sahənin otu biçilmiş, 400 sentner silos basdırılmışdır [39, v.2].

Müharibə illərində cəbhəyə kömək üçün Ordubad rayon zəhmətkeşləri "Azərbaycan kolxozçusu" tank koloniyasına və təyyarə hazırlanması üçün 1950250 manatlıq istiqraz, 77 ton rəngli və qara metal, 4500-ə qədər bağlama, 2500 qrama qədər qızıl, gümüş məmulatı, çoxlu miqdarda isti paltar və ərzaq məhsulları toplayıb göndəmişlər [39, v.1].

Bundan başqa əsgər ailələrinə kömək məqsədi ilə 61860 kq taxıl, 16533 kq

müxtəlif ərzaq məhsulları, 2436 cüt ayaqqabı, 1620 ədəd paltar, 3873 sentner yanacaq (odun), 2375 sentner yem (heyvanlar üçün), 179000 manat nağd pul, 2862 ədəd cürbəcür sənaye malları toplanıb verilmişdir [39, v.2].

Əsgər ailələrindən 183 nəfərinin evi təmir edilmiş, 37 nəfərə yeni yaşayış evləri, 428 nəfərə isə dirrik yerləri verilmişdir. Bu müddət ərzində Ordubad rayonunun qızıl əsgər ailələrinə 3229677 manat yardım edilmiş və hərbi ailələrə 228494 manat pensiya verilmişdir [39, v.2].

Müharibə illərində sahibsiz uşaqların tərbiyə edilməsinə xüsusi diqqət yetirilirdi. 1942-ci ildə 2 uşaq evində 200 uşağın tərbiyə edilməsinə 583800 manat sərf olunmuşdur.1943-cü ildə 400 uşağı əhatə edən 3 uşaq evinə 1056300 manat, 1944-cü ildə isə 1108900 manat pul buraxılmışdır [54, v.9].

16 yanvar 1943-cü ilə qədər Naxçıvan MSSR-in rayonları üzrə komsomolçuların və pionerlərin "Azərbaycan kolxozçusu" tank dəstəsinə yığılan vəsait rayonlar üzrə aşağıdakı kimi olmuşdur:

Naxçıvan (indiki Babək) rayonu üzrə-230000 manat; Şərur rayonu üzrə - 381645 manat; Ordubad rayonu üzrə - 50433 manat; Şahbuz rayonu üzrə - 41718 manat; Əbrəqunus rayonu üzrə-35000 manat; Culfa rayonu üzrə-10000 manat; cəmi: 748796 manat [30, v.1].

"Azərbaycanın gənc pioneri" tank dəstəsinə yardım rayonlar üzrə aşağıdakı kimi olmuşdur:

Naxçıvan rayonu üzrə-78000 manat; Şərur rayonu üzrə-318000 manat; Ordubad rayonu üzrə - 9897 manat; Şahbuz payonu üzrə - 4000 manat; Əbrəqunus rayonu üzrə - 500 manat; cəmi: 410447 manat.

"Azərbaycanın gənc pionerləri" hərbi təyyarənin inşası üçün yardım rayonlar üzrə aşağıdakı kimi olmuşdur: Naxçıvan rayonu üzrə -24710 manat; Şərur rayonu üzrə-72720 manat; Ordubad rayonu üzrə - 11504 manat; Şahbuz rayonu üzrə - 3180 manat; Əbrəqunus rayonu üzrə - 2000 manat; Culfa rayonu üzrə - 6000 manat; cəmi: 120114 manat [30,v.3].

Naxçıvan zəhmətkeşləri, o cümlədən respublika komsomolçuları və pionerləri xüsusilə Tambov kolxozçularının təşəbbüsünə cavab olaraq "Daha çox tank verək" tank dəstələrinin yaradılması fonduna 1279357 manat pul toplayıb keçirmişlər.

Ali baş komandanın pioner Əliyeva Maral Bayram qızının adına göndərdiyi alqış teleqramını Naxçıvan MSSR-in bütün komsomolçu və pionerləri böyük ruh yüksəkliyi ilə qarşıladılar. 12 yanvar 1943- cü ildə Muxtar Respublikanın komsomolçu və pionerləri əlavə olaraq 20000 manat pul və 20 qoyun toplayaraq həmin fonda keçirmişlər.

Naxçıvan MSSR Xalq Komissarlar Sovetinin sədri Azərbaycan SSR Xalq Komissarlar Sovetinə "Azərbaycan kolxozçusu" tank dəstəsinin yaradılması üçün kolxozçulardan toplanan vəsaitlər haqqında 23 dekabr 1943-cü il tarixli teleqramında yazır: "Azərbaycan kolxozçusu" tank dəstəsinin tikintisi üçün Naxçıvan kolxoz-

çularından dövlət bankına 3 milyon 40 min manat daxil olmuşdur. Gücləndirilmiş ödəmə davam edir. Respublikada payız əkini- 91 faizdir, keçən ilə nisbətən 3654 hektar çox əkilib. Əkin davam edir" [108, c.298].

Naxçıvan MSSR üzrə 1943-cü ildə "Azərbaycan kolxozçusu" tank koloniyasına 6779771 manat və hərbi təyyarələrin tikintisi üçün 2326406 manat yığılıb göndərilmişdir [46, v.8].

Şərur rayonunun zəhmətkeşləri, xüsusən komsomolçu gənclər daima vətənimizi yırtıcı düşməndən mərdliklə təmizləməkdə olan 416-cı Taqanroq diviziyasının qorxmaz döyüşçülərinə 1943-cü ilin sentyabr ayında 21 kq yağ, 560 yumurta və digər ərzaq şeyləri toplayıb göndərmişlər [104, 1943, 28 sentyabr].

Sənədlərdən məlum olur ki, müharibənin ilk günlərindən başlayaraq 1943-cü ilin sentyabrına kimi Şərur rayon zəhmətkeşləri 244 min manat nağd pul, 98510 manatlıq istiqraz vərəqəsi, 30000 cüt yun corab, 10252 kq taxıl, 9717 kq ət, 154 kq yağ, 1082 kq yun, 34 qr 19 ml qızıl, 1880 kq mis və 55500 kq metal toplayaraq müdafiə fonduna vermişdilər. 1 oktyabr 1943-cü ildə isə Şərur rayon zəhmətkeşləri müdafiə fonduna 12600 kiloqram taxıl, 11657 kq ət, 184 kq yağ və 1138 kq yun toplayaraq göndərmişdilər.

Naxçıvan rayon zəhmətkeşləri müharibənin ilk günlərindən cəbhəyə yekdilliklə böyük yardımlar etmişlər. Belə ki, 1943-cü ilin oktyabr ayına kimi 1 kq 12 q qızıl, 6 kq 965 q gümüş, 556602 manat pul, 1541055 manat istiqraz, 47000 kq taxıl, 414 kq yağ, 1700 kq noxud, 106 baş iri və xırda buynuzlu heyvan, 300 kq kartof, 179618 kq metal, tank kaloniyası üçün 2918458 manat və təyyarə dəstələri yaradılmasına 329000 manat nağd pul vermişlər [47, v.13-16].

Əkilmiş müdafiə hektarlarından 839 kq noxud, 50139 kq taxıl, Qızıl Ordu döyüşçülərinə 4523 bağlama, 30600 manat pul, 7250 cüt yun corab və əlcək, 273 sırıqlı, 2553 ədəd dəri, 940 dəst alt paltarı, 372 ədəd müxtəlif geyim əşyaları göndərilmişdir [47, v.20].

Döyüşçülərə isə paltar alınması üçün Naxçıvan dövlət bankına 31663 manat nağd pul verilmişdir. Bunlardan əlavə kolxoz və kolxozçuların artıq olan taxıllarından dövlət qiyməti ilə 500 ton taxıl satılmışdır [47, v.24].

Naxçıvan rayonunun kolxozçuları, fəhlə və qulluqçuları cəbhəçi ailələrinə xüsusi qayğı göstərərək birdəfəlik 48037 kq taxıl, 22400 manat nağd pul, heyvanların saxlanması üçün 125 ton yem, 236 kq ət, 100 kq yağ, 6000 müxtəlif yeyinti şeyləri, 5 ton yanacaq və bunlardan başqa süd, pendir, üzüm və s. ərzaqla yardım etmişdir [47, v. 30].

1944-cü ildə Naxçıvan MSSR-də 58 qadın rəhbər təsərrüfat işinə irəli çəkilmişdi. Ümumiyyətlə, kənd təsərrüfatı üzrə həmin il 73 kolxoz sədri, 24 ferma müdiri, 161 mexanizator kadrları hazırlanmışdı. Kursları bitirən qadınlar kolxozlara sədr təyin edilmişdilər.

Müharibə illərində Naxçıvan MSSR-də qadınların sovet aparatı işinə irəli çə-

kilməsi, onların şəhər, rayon, kənd sovetlərinə rəhbərlik etməsi halları artmışdı. Ümumiyyətlə, bu işdə 120-dən artıq qadın çalışırdı. Onların əksəriyyəti müharibə dövründəki işlərinə görə orden və medallarla təltif edilmişdilər [19, s.58-59; 75].

Ümumiyyətlə, muxtar respublikamızın zəhmətkeşləri faşist işğalçılarını darmadağın etmək üçün müharibə illərində müdafiə fonduna 180 milyon 89 min manat nağd pul, 12 kq qızıl və gümüş, yarım milyon pud taxıl, 150 mindən çox isti paltar, 10 mindən çox bağlama göndərmişlər. O vaxt hamı qələbə ruhu ilə yaşayır, işləyirdi.

Vətənə məhəbbət, torpağa bağlılıq hissi bir an belə arxa cəbhə qəhrəmanlarını tərk etmirdi. Odur ki, 1943-cü ildəkinə nisbətən 1944-cü ildə respublikamızda kolxozçuların gəliri 80 faiz artmış, hər əmək gününün dəyəri xeyli çoxalmışdır. Təkcə Cəhri kəndindəki kolxozda 1944-cü ildə 1941-ci ildəkinə nisbətən 60 sentner çox taxıl istehsal edilmiş, dövlətə məhsul satışı planları üç qat artıqlaması ilə yerinə yetirilmişdir [9,1975, №4].

Müharibə illərində Naxçıvan MSSR-in kolxozçuları və kolxozçu qadınları yüksək vətənpərvərlik nümunələri göstərmişdilər. Əgər 1940-cı ildə Naxçıvan MSSR üzrə dövlətə 2899 ton taxıl verilmişdisə, 1944-cü ildə 3861 ton taxıl verilmişdir ki, bu da 1940-cı ilə nisbətən 962 ton, yaxud 133,8 faiz çoxdur.

Bu faktlar Böyük Vətən müharibəsi illərində, ağır imtahan günlərində Naxçıvan zəhmətkeşlərinin vətənə hədsiz sədaqətini parlaq şəkildə nümayiş etdirir. Bu faktlar göstərir ki, cəbhə ilə arxanın birliyi alman faşizmi üzərində tarixi qələbəmizin həlledici amili olmuşdur.

Naxçıvanlıların işğaldan azad olmuş rayonlara köməyi. Müharibə illərində SSRİ-nin işğaldan azad olunmuş rayon və vilayətlərinə kömək hərəkatı çox geniş yayılmışdı. Bu məqsədlə 1941-ci ilin dekabrından başlayaraq müxtəlif təşəbbüslər irəli sürülür və müraciətlər edilirdi. Hətta həmin təşəbbüs və müraciətlərə cavab olaraq Azərbaycan hökuməti 1942-ci ilin aprelində xüsusi qərar qəbul etmiş, respublika əhalisini azad olunmuş rayonlara yardım fondu yaratmağa çağırmışdı.

Muxtar respublikanın zəhmətkeşləri də Azərbaycan hökumətinin çağırışına ürəkdən qoşulmuş və hələ 1942-ci ildə Naxçıvan (indiki Babək) rayonunun kolxozları plandan əlavə əkdikləri 92 ha sahədən topladıqları 833 kq noxudu, 27753 kq taxılı azad olunmuş rayonlara göndərmişlər [101, s.124].

1943-cü ilin fevral ayında Şərur rayon zəhmətkeşləri Qızıl Ordu tərəfindən alman faşist işğalçılarının zülmündən azad edilmiş rayonların əhalisinə yardım olaraq 110 baş qoyun-keçi, 645 pud buğda, 244 pud arpa, 11 pud çəltik, 49 pud noxud, 11 min ədəd yumurta, 205 cüt əlcək, 389 cüt corab, 104188 manat pul, 99 kq yun, toplayaraq göndərmişlər [40, v.25].

Alman faşist işğalçılarından azad edilmiş rayonlara qardaşlıq yardımı etmək məqsədi ilə 1943-cü ilin sentyabr ayının 25-də Şərur rayonunun kolxoz və kənd soveti sədrlərinin, ilk partiya və komsomol təşkilatçılarının, təşkilat və rəhbər işçi-

lərinin geniş yığıncağı keçirilmiş, azad olunmuş rayon və şəhərlərin sakinlərinə xeyli maddi köməklik göstərmişlər [105, 2009, 8 may].

27 sentyabr 1943-cü ildə Naxçıvan MSSR Xalq Səhiyyə Komissarlığında alman faşist işğalçılarından azad edilmiş Çərkəs vilayətinin əhalisinə və tibb müəssisələrinin bərpa edilməsinə köməklik haqqında yığıncaq keçirilmişdir. Yığıncaqda Çərkəz vilayətində tibb müəssisələrinin bərpa edilməsi üçün inventarların göndərilməsi qərara alınmışdır. 36 yerlik bir bağça üçün bütün inventarlar, bir aptek təşkilində hər cür material və dərman, bir rentgen aparatı, 4 ədəd "Rəhmanov çarpayısı" göndərilməsi və Çərkəs vilayətinin hər hansı bir yerində açılacaq xəstəxanasına Naxçıvandan 20 çarpayı, 20 nəfərlik geyim və xalat verilməsi qərara alınmışdır. "Şərq qapısı" qəzetinin 28 sentyabr 1943-cü il tarixli sayından aydın olur ki, Sənaye İttifaqının əhatə etdiyi Naxçıvan şəhərindəki artellərdə çərkəzlilərə yardım edilməsi haqqında yığıncaq keçirilmişdir. Yığıncaqda 3 arteldən 7000 manatadək pul toplanılmışdır.

Şahbuz rayonunun kolxozçuları arasında Çərkəz vilayətinin bərpa edilməsinə kömək işi günü-gündən genişləndirilmişdir. Çərkəz vilayətinin yenidən bərpa edilməsi üçün Şahbuz rayon zəhmətkeşləri 25 min manat pul, 130 kq quru meyvə, 150 kq pendir, 99 kq yun, 105 müxtəlif ev əşyası vermişlər [104, 1943, 7 oktyabr].

Çərkəz vilayətinin xilas edilmiş əhalisinə yardım edilməsi haqqında Naxçıvan rayonunun Hacıvar kəndindəki kolxozda kolxozçuların və kolxozçu qadınların yığıncağı olmuşdur. Təsərrüfat sahəsində çalışan kolxozçular və kolxozçu qadınlar böyük ruh yüksəkliyi ilə 400 kq qədər taxıl və xeyli miqdarda yun, dəri, qabqacaq, balınc və sair toplamışlar [104, 1943, 28 sentyabr].

29 sentyabr 1943-cü ildə Naxçıvan şəhər və rayon müəllimlərinin yığıncağı keçirilmişdir. Yığıncaqda müəllimlər Çərkəs vilayətinin bərpa edilməsində zəhmətkeşlərə kömək göstərməkdə fəal iştirak edəcəyini bildirmişlər. Yığıncaqda iştirak edənlər Naxçıvan MSSR-in bütün müəllimlərinə məktub qəbul etmiş, onları da çərkəzlilərə yardım etməyə çağırmışlar. Həmin məktubda deyilir: "Alman-faşist quldurları qəhrəman Qızıl Ordumuzun zərbələrini Tivin, Moskva, Rostov, məğrur Stalinqrad ətraflarında və Oryol, Kursk, Belqorod, Xarkov istiqamətlərində yaxşıca dadmışlar. İndi Hitlerin "məğlubedilməz" diviziyaları Dnepr sahillərində dalbadal məhv edilir və onlar sürətlə qərbə doğru qaçırlar. Hər gün yüzlərlə şəhər və kəndlərimiz düşməndən təmizlənir. İndi bizim əsas vəzifəmiz alçaq faşist köpəklərinin müvəqqəti ağalıq etdikləri yerlərdə dağıdılmış, külə döndərilmiş kəndləri və şəhərləri bərpa etməkdən, zəhmətkeşlərə qardaşlıq köməyini genişləndirməkdən ibarətdi. Biz bu vəzifəni yerinə yetirməyə başlayaraq ikinci növbədə 25000 manat pul, 500 dəftər, 500 ədəd müxtəlif kitab və s. verməyi öhdəmizə almışıq" [104, 1943,1 oktyabr].

Naxçıvan MSSR-in zəhmətkeşləri alman faşist işğalçılarından azad edilmiş Çərkəz vilayətinin zəhmətkeşlərinə və bu vilayətin bərpa edilməsinə 1943-cü ildə 394478 manat pul, 611 sentner taxıl, 994 kq noxud, 1662 kq darı, 1978 kq quru meyvə toplamış və göndərmişlər [25, s.338].

Naxçıvan MSSR-nin fəhlələri, kolxozçuları, ziyalıları ölkənin azad olunmuş rayonlarına hamilik köməyini gündən-günə daha da genişləndirmiş və Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Çərkəz vilayətini hamiliyə götürmüşdür.

Naxçıvan MSSR zəhmətkeşləri alman-faşist işğalçılarından azad olunmuş Stalinqrad vilayətinə isə 1943-cü ildə 132795 manat pul, 881 pud taxıl, 2741 kq quru meyvə, 1134 baş iribuynuzlu və xırdabuynuzlu heyvan, 946 cüt corab, 521 cüt əlcək, 836 kq yun, 305 ədəd alt paltarı, 994 kq noxud, 1556 kq kartof, 6972 kq çəltik, 314 kq yağ, 38 kq bal, 512 kq pendir, 1743 ədəd ev əşyaları toplayaraq göndərmişlər [31, v.8].

1943-cü ildə muxtar respublika zəhmətkeşləri azad olunmuş rayonlara kömək kampaniyasına daha fəal surətdə qoşulmuş və Stavropol diyarının zəhmətkeşlərinə 483840 mant pul, 8348 pud buğda, 4168 pud arpa, 429 pud düyü, 700 pud noxud, 30 pud qarğıdalı, 901 pud meyvə qurusu, 450 baş qaramal, 226 baş davar, çoxlu paltar və ev əşyaları göndərmişlər [97, s.124; 104.1975, 6 may].

6. Sosial-iqtisadi həyat

Müharibə illərində muxtar respublikanın zəhmətkeşləri arxa cəbhədə mətanətlə çalışaraq xalq təsərrüfatının ayrı-ayrı sahələrində görülən işləri bir an belə zəiflətməmişdir.

1942-ci ilin fevral ayında Ordubad ipək fabrikinin komsomolçu gəncləri Naxçıvan MSSR-nin bütün komsomolçularına və gənclərinə göndərdikləri məktubda yazırdılar: "Ordubad ipək fabrikinin biz komsomolçuları və gəncləri Moskva avtomobil zavodu gənc fəhlələrinin çağırışını müzakirə edərək vətən müharibəsi günlərində əldə etdiyimiz müvəffəqiyyətlərə yekun vurduq və yeni öhdəliklər qəbul etdik. Fabrikimiz 1941-ci ilin istehsalat planını 134,3 faiz yerinə yetirmişdir. Fabrikin fəhlə kollektivinin 90 faizini təşkil edən komsomolçu gənclərimizin gücü ilə 1942-ci ilin yanvar ayında məhsul buraxılışı planı 20 gün müddətində 101,3 faiz yerinə yetirilmişdir. Fabrikimiz 160000 manatlıq xammala və 20300 manatlıq yanacağa qənaət etmişdir.

Biz öhdəmizə aldığımız bütün öhdəlikləri vaxtında və müvəffəqiyyətlə yerinə yetirmək üçün fabrikimizdə olan bütün resursları aşkara çıxaracaq və onlardan səmərəli istifadə edəcəyik.

Muxtar respublikamızın bütün komsomolçu gəncləri fəhlə qadınlarını, kolxozçularını, kolxozçu qadınlarını və ziyalılarını Moskva avtomobil zavodu gənclərinin çağırışına qoşularaq öhdələrinə götürdükləri təəhhüdləri şərəflə yerinə yetirməkdə bütün qüvvələri ilə çalışmağa çağırırıq. Qoy bizim fədakar əməyimiz və cəbhəyə köməyi hər gün artırmağımız şanlı Ordumuzun düşmən üzərindəki qələbələrini getdikcə daha da möhkəmləndirsin. Hər şey cəbhə üçün! Hər şey düşmənin darmadağın edilməsinə!" [104, 1942, 8 fevral].

1943-cü ilin məhsul planında 17200 hektara qarşı 17305 hektar əkin aparılmışdır. Bundan 12700 hektarı payızlıq, 4605 hektarı yazlıq bitkilər olmuşdur. 1942-ci ilə nisbətən 1943-cü ildə kolxozlarda dənli bitkilərin sahəsi 2517 hektar artmışdır.

1943-cü ildə tarla işində 3152 nəfər qadın, 1861 nəfər kişi, 1768 nəfər yeniyetmə çalışaraq yüksək vətənpərvərlik nümunələri göstərmişlər [47,v 38-39].

Müharibə dövründə arxa cəbhədə göstərilən əmək qəhrəmanlıqlarında qadınların böyük rolu olmuşdur. Bu dövrdə sənayedə və kənd təsərrüfatında çalışan zəhmətkeşlərin əksəriyyəti qadınlar idi. 1943-1945-ci illərdə kənd təsərrüfatını cəbhənin ehtiyacını ödəmək səviyyəsində yüksəltmək ölkəmizin fəhlə sinfindən, kolxozçu kəndlilərindən və ziyalılarından böyük səy göstərməyi tələb edirdi. Müharibə illərində Naxçıvanlı qızlar kənd təsərrüfatı texnikasını idarə edən əsas qüvvəyə çevrilmişdilər. Belə ki, müharibədən əvvəl qadınlar mexanizator kadrların cüzi bir hissəsinin təşkil etdikləri halda, 1943-cü ildə mexanizatorların yarıya qədəri qızlar idi.

1943-cü ildə Naxçıvan MSSR zəhmətkeşləri fədakarcasına çalışaraq kənd təsərrüfatı məhsulları istehsalını artırmaq sahəsində ciddi müvəffəqiyyətlər əldə etmişlər. Respublikanın kolxozları böyük hərbi təsərrüfat əhəmiyyəti olan gənəgərçək bitkisinin əkilib becərilməsini mənimsəmişdilər. 1943-cü ildə 1942-ci ilə nisbətən iribuynuzlu mal-qaranın sayı 42, qoyun və keçilərin sayı isə 25 faiz artmışdı. 1942-1943-cü illərdə Naxçıvan Muxtar respublikasının kolxozçuları dövlətə 677613 pud taxıl, 165970 pud ət, 6760 pud yağ və 13179 pud yun təhvil vermişdilər [25, s.293]. Dövlətə 1944-cü ildə 1310 ton ət təhvil verilmişdir ki, bu da 1940-cı ildəkindən 202 ton, yaxud 18,3 faiz artıq idi. 1940-cı ildə dövlətə 40 ton kartof təhvil verilmişdirsə, həmin rəqəm 1944-cü ildə 148 ton olmuşdur ki, bu da 1940-cı ilə nisbətən 370 faiz təşkil edirdi. Dövlətə yumurta təhvili 1942-ci ildə 1940-cı ilə nisbətən 215 faiz, yaxud 467000 ədəd artmışdır. Müharibə illərinə qədər muxtar respublikamızda gənəgərçək bitkisi əkilmirdi. 1944-cü ildə muxtar respublikamızın zəhmətkeşləri dövlətə 860 ton gənəgərçək təhvil vermişdir [8, 1975, №4].

Ciddi çətinliklərə baxmayaraq muxtar respublikanın təsərrüfat təşkilatları müharibə illərində məhsul istehsalını artırmış, məhsuldarığı yüksəltmək və daxili imkanlarını tam səfərbərliyə almaq sahəsində çox iş görmüşdülər. Bütün bunlara görə Naxçıvan MSSR Azərbaycan K/b/P MK-nın və Azərbaycan Xalq Komissarlar Sovetinin Keçici Qırmızı bayrağını və birinci dərəcəli pul mükafatını almışdır [82, v. 2].

Müharibə illərində muxtar respublikada ittifaq əhəmiyyətli sənaye müəssisələri də fəaliyyət göstərmişdir. Belə sənaye müəssisələrindən Ordubad konserv, barama toxumu zavodlarını, Ordubad ipək fabrikini, Parağaçay dağ kəşfiyyat partiyasını, duz mədənini, pambıq təmizləmə, çörək zavodlarını göstərmək olar [104, 2005, 7 may].

Müharibə dövründə əsgər ailələrinə yardımlar bütün rayonlar üzrə aparılırdı. Həmin dövrdə Naxçıvan rayon Zəhmətkeş Deputatlar Soveti İcraiyyə Komitəsi

yanında hərbi qulluqçu ailələrinin dövlət təminatı və yaşayış quruluşu şöbəsinin təşkilindən sonra Naxçıvan rayonunun ayrı-ayrı kəndlərində də hərbi qulluqçu ailələrinin vəziyyəti xeyli yaxşılaşmışdı. Təkcə 1942-ci ildə əsgər ailələrinə 5523837 manat dövlət yardımı verilmişdi. Əsgər ailəsi üzvlərindən 4179 nəfəri müxtəlif işə cəlb olunmuşdu. Həmin ailələrin uşaqlarından 1265 nəfəri körpələr evinə və 3519 nəfəri bağçaya qoyulmuşdu. Kolxoz kassalarından 891 nəfər əsgər ailəsinə 33745 manat yardım edilmişdi. Bundan başqa Naxçıvan MSSR Xalq İctimai Təminat Komissarlığı əsgər ailələrinə və vətən müharibəsi əlillərinə 5000 manat yardım etmişdi [104,1942, 29 sentyabr].

"Şərq qapısı" qəzetinin 8 fevral 1942-ci il sayındakı "Yardımı genişləndirirlər" başlıqlı yazıdan aydın olur ki, Naxçıvan Dövlət Müəllimlər İnstitutunda yığıncaq keçirilmiş və yığıncaqda institutdan ordu sıralarına səfərbərliyə alınmış müəllimlərin ailələrinə yardım haqqında məsələ müzakirə edilmişdir. Ümumi yığınçaqda qızıl ordu sıralarına səfərbərliyə alınmış müəllimlərin ailələrinə yardım işlərinə rəhbərlik üçün daimi komissiya seçilmişdir [104, 1942, 8 fevral].

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1942-ci il 26 iyul tarixli fərmanından sonra Naxçıvan MSSR İctimai Təminat Komissarlığı üzrə 1943-cü ilin aprelinədək əsgər ailələrinə 6712760 manat dövlət yardımı verilmişdir. 4875 nəfər müxtəlif peşələr üzrə işə düzəldilmiş, 64430 nəfər əsgər bağça və körpələr evinə qoyulmuş, komissarlığın fondundan 4000 manat, kolxoz yardım kassalarından isə bir dəfəlik olaraq əsgər ailələrinə 35690 manat pul yardımı edilmişdir [46, v.54].

Müharibə illərində həlak olmuş şəxslərin ailə üzvlərinə 429400 manat dövlət yardımı verilmişdir. 7174 əsgər ailəsi kolxoz, sovxoz, fabrik, zavod, idarə, müəssisə və təşkilatlarda işə düzəldilmiş, 1901 ailəyə isə 148970 manat birdəfəlik pul yardımı olmuşdur. 1944-cü ilin 9 ayı ərzində 972 əsgər ailəsinə və məzuniyyətə gəlmiş 117 döyüşçüyə tibbi yardım göstərilmişdir [60, v. 23-29].

Sovet döyüşçülərinin ailələrinə ümumxalq qayğısı Qızıl Orduya göstərilən yardımın tərkib hissəsini təşkil edirdi. 1941-1943-cü illərdə Naxçıvan MSSR-də 9 min əsgər ailəsinə 1130 ton taxıl, 40 ton başqa ərzaq məhsulları, 460 baş mal-qara, 2659 dəst paltar, 6219 cüt ayaqqabı, 21424 manatlıq digər sənaye malları verilmiş, 73 ailə yeni mənzil almış, 511 ailənin mənzili isə əsaslı surətdə təmir edilmişdir [25, s.322].

Ümumilikdə 1941-ci ilin birinci yarısından 1943-cü ilin birinci yarısına kimi 1338 əsgər ailəsinə dövlət tərəfindən 1820872 manat maddi yardım edilmişdi. 2968 əsgər ailəsinin maddi vəziyyətinin yaxşılaşdırılması üçün 1242 hektar torpaq sahəsi verilmişdi ki, bundan da tamamilə istifadə edilərək, həmin sahədə dənli və başqa bitkilər əkilmişdi. Həmin yerlərin pulsuz olaraq sürülməsi və əkilməsi bil-avasitə kolxozların köməkliyi ilə başa çatdırılmışdı.

Müharibənin ilk günlərindən 1943-cü ilin birinci yarısına kimi ordu sıralarına alınmış 140 nəfərin sənədləri hazırlanmış və çatacaq pullarını almışdılar. 1943-cü

ildə 1260 əsgər ailəsinə hərbi vergidən, 70 nəfər kənd təsərrüfatı məhsulları vergisindən güzəştlər edilmişdi. Təkcə 1943-cü ilin aprel ayı içərisində 15 nəfər hərbi vergidən azad edilmişdi. 1943-cü ildə əsgər ailələrinə kolxozlar və kolxozçular tərəfindən 17200 manat nağd pul, 115 metr parça, 507 cüt ayaqqabı, 26400 litr süd, 197 kq sabun, 603 sentner yem üçün ot məhsulu köməkliyi edilmişdi [46, v.54].

Müharibə dövründə general və zabit ailələrinə yardım edilməsi haqqında bir sıra mühüm qərarlar qəbul edilmişdi. Buna misal olaraq Naxçıvan MSSR Xalq Komissarlar Sovetinin və Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinin Bürosunun "Qızıl Ordunun, vuruşmalarda həlak olmuş və cəbhədə itkin düşmüş generalların və baş rəislərin heyətində olan şəxslərin ailələrini təmin etmək haqqında" 8 iyun 1943-cü il 165№-li qərarını göstərmək olar. Həmin qərara əsasən generalların ailələrinə 50000 manat, baş rəislərin ailələrinə isə 10000 manat dəyərində pul verilmişdi. Bundan başqa həmin şəxslərin ailələrinə pensiya almaq hüququ, onların məktəblərdə oxuyan bütün uşaqlarına yaşından asılı olmayaraq təhsil alıb qurtarana kimi maddi yardım almaq hüququ da verilmişdi [33, v.169]. 1 yanvar 1943-cü ilə kimi müharibə əlillərinə və hərbi qulluqçulardan 8302 ailəyə 7674552 manat təqaüd və yardım verilmişdir [51,v. 34].

Əsgər ailələri uşaqlarından 1943-cü ildə yaşlılara 2514, bağçalara 9398, uşaq evlərinə 309 nəfər cəlb edilmişdir. Ata-anasını itirən uşaqlardan 98-i zəhmətkeşlər tərəfindən oğulluğa və qızlığa götürülmüşdür. 1931 əsgər ailəsinə xəstəxanada və 20000 nəfərdən yuxarı isə poliklinikalarda və evlərində tibbi yardım göstərilmişdir [83,v. 36].

Naxçıvan MSSR Xalq İctimai Təminat Komissarlığının 7 dekabr 1943-cü il tarixli əmrindən məlum olur ki, müharibə əlillərinə kolxoz yardım kassaları və təşkilatlar tərəfindən xeyli köməklik göstərilmişdir. Şərur rayonunda 97 hərbi əlilə 2896 kq taxıl, 4750 manat pul, 29 nəfərin evinin xırda və böyük təmiri aparılmış, kənd məhsulları ilə köməklik edilmişdir. Naxçıvan rayonunda 141 nəfərə 7000 kq taxıl, 60 cüt corab, 100 cüt ayaqqabı köməklik edilmişdir.

Müharibə illərində respublikada Vətən müharibəsi əlillərinə geniş miqyasda tibbi yardım təşkil edilmişdi. Onlara dövlət pensiyası, pulsuz protez verilir, yüksək dərəcədə ixtisaslı tibbi yardım göstərilirdi, xüsusi əlillər evi yaradılmışdı. Sanatoriya, istirahət evləri və sağlamlıq ocaqlarının geniş şəbəkəsi onlara xidmət göstərirdi [26, s.83].

Müharibə illəri ərzində Naxçıvan MSSR-də sovet, partiya və ictimai təşkilatlar və rayon hərbi komissarlıqları tərəfindən hərbi qulluqçu ailələrinə, cəbhəçilərə və Vətən müharibəsi əlillərinə aşağıda göstərilən maddi yardımlar edilmişdir: 23126 ailəyə 2895 sentner ərzaq məhsulu, 20412 ailəyə 2447 sentner taxıl verilmişdir. 5164 nəfər 5243 ədəd geyimlə, 4305 ailə 7698 ədəd sənaye malları ilə, 8968 nəfər isə 10168 cüt ayaqqabı ilə təmin edilmişdi. 7546 sentner odun, 629 ailəyə 781 baş mal-qara, mal-qara üçün 10240 sentner yem, 4197 ailə 930 hektar

bostan üçün torpaq sahəsi ilə, 740 ailə 9387 kq toxumla təmin edilmiş və 982 ailəyə 33 hektar bostan üçün yer şumlanmışdır. 892 ailəyə 172778 manat birdəfəlik pul yardımı edilmiş, 214 ailə mənzil sahəsilə təmin olunmuş və 820 ailənin mənzili təmir edilmişdir. 7852 nəfər müxtəlif peşələri öyrənmiş, 17039893 manat dövlət yardımı və pensiya verilmişdir. 1178 nəfər müharibə əlili işlə təmin edilmişlər [37, v.9].

7. Mədəniyyət

Təhsil. Müharibə dövründə muxtar respublikanın təhsil müəssisələri də çətin şəraitdə fəaliyyət göstərirdilər. 771 məktəb müəllimindən 570-dən çoxu müharibəyə səfərbər olunmuşdu. Orduya gedən müəllimlərin yerinə qısa müddətli kursları bitirənlər təyin olunurdu ki, bu da dərsin keyfiyyətinə öz təsirini göstərirdi.

1942-ci ilin fevral ayına olan məlumata görə Naxçıvan şəhəri üzrə 116, Culfa rayonu üzrə 14, Ordubad rayonu üzrə 11, Əbrəqunus rayonu üzrə 40, Şahbuz rayonu üzrə 60, Şərur rayonu üzrə 177 və Naxçıvan rayonu üzrə 52 müəllim hərbi komissarlığa ərizə verərək müharibəyə göndərilmələrini xahiş etmişdilər [37, v.19].

Müharibənin ilk günlərindən Naxçıvan şəhərindən 10, Ordubad rayonundan 8, Naxçıvan rayonundan 9, Əbrəqunus rayonundan 6, Şərur rayonundan 13, Culfa rayonundan 7, bütövlükdə muxtar respublikadan 53 müəllim 22 iyun 1941-ci ildən 1 sentyabr 1942-ci ilə kimi ordu sıralarına göndərilmişdilər.

1941-ci il avqust ayının 1-də Naxçıvan şəhər müəllimlərinin müşavirəsi olur. Müşavirədə ölkə müdafiəsini möhkəmləndirmək məqsədilə müəllimlərin öz əmək haqqlarından 5 günlük miqdarında dövlət müdafiə fonduna verilməsi qərara alınır.

Muxtar respublikamızın məktəbləri tank dəstəsinin yaradılması fonduna 1942-ci ilin yanvarına kimi 1279357 manat pul toplayıb keçirmişdilər. Bundan başqa Şərur rayonundakı Dəmirçi məktəbinin pionerləri bir gün ərzində 25836 manat toplayıb həmin fonda vermişdilər. Şərur rayonunun Maxta kənd məktəbinin komsomolçu və pionerləri də "Azərbaycanın gənc pionerləri" tank dəstəsinin yaradılması üçün 13550 manat toplayıb keçirmişdilər. Qarabağlar kənd məktəbinin komsomolçu və pionerləri isə bu işə daha böyük təşəbbüslə qoşulmuşdular.

1942-ci ilin avqustun 26-da Ordubad rayon müəllimlərinin müşavirəsi olmuşdur. Müşavirədə Ordubad rayon XMŞ-in müdiri Əsgərov çıxış edərək demişdir ki, müharibənin ağır günləri məktəb həyatına öz təsirini göstərmişdir. Rayonun müəllimləri və məktəbliləri vətənimizin başının üstünü alan ciddi təhlükəni başa düşürlər. Məqsəd düşməni darmadağın etmək üçün cəbhəyə və vətənə kömək etməkdir. Bu işdə müəllimlər və məktəblilər öz qüvvə və bacarıqlarını əsirgəmirlər. Onlar istirahətlərini təxirə salmışlar. Yay günlərində rayon kolxozlarında 61 müəllim və 726 şagird işləyərək 19155 əmək günü qazanmışlar. Xüsusilə Dəstə məktəbinin 103 nəfər şagird və müəllimi 4537 əmək günü, Parağa orta məktəbindən

87 nəfər 875 əmək günü, Xurs məktəbindən 21 nəfər 764 əmək günü, Dırnısdan 39 nəfər 875 əmək günü qazanmışlar. Rayon müəllimləri və məktəblilərinin gördükləri işlər təkcə bundan ibarət deyildi. Rayon məktəbləri keçən dərs ili ərzində 295 ton metal qırıntısı, 143 sovqat, 21469 manat nağd pul, 25000 istiqraz vərəqəsi, 121 dəst isti paltar və sairə toplayıb ölkənin müdafiə fonduna vermişlər [78, v.66].

Naxçıvan rayon XMŞ-nin müdiri H.Məmmədov 1941-1942-ci dərs ilinin ikinci yarısı haqda məruzəsində qeyd edirdi ki, vətənimizin müdafiəsində Azərbaycan xalqının fəxr etdiyi qəhrəman oğullarından Kamal Qasımov, İlyas İsmayılov, Hüseynbala Əliyev, İsrafil Məmmədov cəbhə qarşısında öz qəhrəmanlıqlarını göstərdiyi kimi, müəllimlər də arxa cəbhədə var qüvvələri ilə çalışaraq 1941-ci ilin noyabr ayına kimi rayon məktəblərinin müəllim və şagirdləri tərəfindən qızıl ordu döyüşçülərinə və müdafiə fonduna 1 ədəd qızıl sırğa, 26696 manat istiqraz vərəqəsi, 10087 manat nağd pul, 120 kq mis, 700 ədəd dəri, 190 cüt yun corab, 170 cüt əlcək, 150 ədəd sabun, 55 ədəd sovqat bağlaması, 50 ton dəmir və şagirdlərimizin yay tətili zamanı kolxozda qazandıqları əmək günü hesabına 54564 manat pulu müdafiə fonduna vermişlər.

"Şərq qapısı" qəzetinin 21 sentyabr 1943-cü il tarixli nömrəsində yazırlırdı: "Şərur rayonunun zəhmətkeşləri, xüsusən komsomolçu gənclər doğma vətənimizi yırtıcı düşməndən mərdliklə təmizləməkdə olan şanlı Qızıl Ordumuzun 416-cı Taqanroq diviziyasının qorxmaz döyüşçülərinə böyük sevinclə hədiyyə toplayırlar [105, 1943, 21 sentyabr].

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1943-cü il 1 iyul tarixli fərmanı ilə Xalq maarifi sahəsindəki xidmətlərinə və fədakarlıqla işlədiklərinə görə Ordubad şəhərindəki Pedaqoji Texnikumun direktoru Əli Həsənəli oğlu Qənbərliyə, Naxçıvan şəhərindəki ikilillik Dövlət Müəllimlər İnstitutunun müəllimi Lətif Talıb oğlu Hüseynova və həmin institutun müəllimi Həsən Xəlil oğlu Qazıyevə "Əməkdar müəllim" fəxri adı verilmişdir [78, v.66].

1940-1941-ci ildə muxtar respublikada 144 məktəbdə 18000 şagird oxuyurdusa, 1941-1942-ci il dərs ilində müəllimlərin sayı 153-ə, məktəblərdə oxuyan şagirdlərin sayı isə 18850-ə çatdırılır. Müharibə başlamazdan əvvəl muxtar respublikada 27 orta məktəb vardısa, 1943-1944-cü dərs ilində 36 orta məktəb fəaliyyət göstərirdi [74, v.1-6]. 1943-1944-cü dərs ilində muxtar respublika üzrə 180 məktəbdə 25201 şagird təhsil alırdı.

Muxtar respublikada 1941-ci ildə 575 uşağı əhatə edən 23 uşaq bağçası, 1942-ci ildə 625 uşağı əhatə edən 25 uşaq bağçası, 1943-cü ildə 675 uşağı əhatə edən 27 uşaq bağçası, 1944-cü ildə isə 850 uşağı əhatə edən 32 uşaq bağçası fəaliyyət göstərmişdir [74, v.110].1944-1945-ci dərs ilində muxtar respublikada müəllimlərin sayı 978 nəfər təşkil edirdi. Bunlardan 27-si ali təhsilli, 169-u ali orta, 693-ü orta və 89-u natamam orta təhsilli idi [75, v.1-6].

Muxtar respublikanın məktəblərində pedaqoji kadrlara olan ehtiyacı nəzərə alaraq Naxçıvan MSSR Xalq Komissarları Soveti 2 fevral 1945-ci il tarixli qərarı ilə Naxçıvan şəhərində yenidən pedoqoji texnikumun açılması haqda qərar qəbul edir. Həmin qərarda yazılır: "Naxçıvan MSSR-nin məktəblərində pedaqoji kadrlara olan ehtiyacı nəzərə alaraq 1945-ci il sentyabrın 1-dən Naxçıvan şəhərində iki fakültədən ibarət 60 nəfərlik pedaqoji texnikumun açılması üçün Naxçıvan MSSR Xalq Maarif Komissarlığına icazə verilməsi Azərbaycan SSR Xalq Maarif Komissarlığından xahiş edilsin" [75,v.6]

Əgər 1942-ci ildə Xalq Maarif Komissarlığına 5597000 manat vəsait ayrılmışdırsa, 1944-cü ildə 16611100 manat vəsait ayrılmışdı ki, bu da respublika büdcəsinin 55 faizini təşkil edirdi [75,v.111].

Naxçıvan MSSR-in rayonlarında minlərlə ziyalı-müəllimlər, aqronomlar, zootexniklər və həkimlər təşviqat məntəqələrində və onun briqadalarında təşviqatçı, mühazirəçi və təbliğatçı kimi fəaliyyət göstərir, partiya təşkilatlarının rəhbərliyi altında böyük siyasi-kütləvi iş aparırdı. Onlar cəbhəyə hər vasitə ilə kömək üçün kolxozçular arasında qızğın təşviqat işi aparır, partiya və hökumətin qərarlarını izah edirdilər.

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında 1942-ci ilin birinci rübündə 1888 təşviqatçını birləşdirən 208 təşviqat məntəqəsi var idi [12, s.103-104].

Muxtar respublikanın mərd oğulları, o cümlədən müəllimləri alman-faşist işğalçılarına qarşı aparılan azadlıq mübarizəsində yüksək adlar qazanmışdır. Naxçıvan müəllimlərindən Qəzənfər Əkbərov "Sovet İttifaqı Qəhrəmanı" adı almışdır. Müəllimlərdən Məmmədov Məhərrəm "Aleksandr Nevski", Camalov Məmməd "Boqdan Xmelnitski", Hüseynov Cəlal "Qırmızı Ulduz", Bağırov Məmmədbağır "Şöhrət", Vəliyev Kərəm "Qafqazın müdafiəsi" və "Qələbə" medalı ilə, Qurbanov İsfəndiyar "Qələbə" medalı ilə, Rəcəbli Qasım "Hərbi xidmətə", "Stalinqradın müdafiəsinə görə", "Qələbə" və "Varşavanın alınmasına görə" , Seyidli Səməd "Hərbi xidmətə görə", "Qafqazın müdafiəsinə görə" və "Qələbə" medalı ilə, Axundov Abdulla "Şərəf" ordeni ilə, Cəfərli Əsəd, İmanov Cəfər, Abdullayev Məhəmmədəli, Məmmədov Əkbər "Qələbə" medalı ilə, Əsgərov Abbas "Qələbə" və "Qafqazın müdafiəsinə görə", Eminov Ağa "Şərəf " ordeni ilə, Abdullayev Qəzənfər "Qələbə" medalı ilə təltif olunmuşlar.

Naxçıvan rayonu üzrə Məmmədov Müzəffər "Qələbə" medalı ilə, İmanov Səyyad "İgidliyə görə" medalı ilə, Əliyev Əkbər "Stalinqradın müdafiəsinə görə", Həsənov İbadulla "Qələbə" medalı ilə, Allahverdiyev Yaqub "İgidliyə görə", Nəcəfov Məmmədbağır "Şərəf" medalı ilə, Məmmədov Allahverdi "İgidliyə görə", "Qələbə" və "Kensberqin alınmasına görə" medalları ilə, Məmmədov Qulam "Şərəf" ordeninin 2-ci və 3-cü dərəcələri, "Qələbə" və " Praqanın alınmasına görə" medalı ilə, Kələntərli Süleyman "İgidliyə görə", "Qafqazın müdafiəsinə görə" və "Qələbə" medalları ilə, Teymurov Əli "Qafqazın müdafiəsinə görə"

medalı ilə, Səfərov Adil "Qələbə " medalı ilə, Əliyev Bəhlul "Stalinqradın müdafiəsinə görə", Qasımov Həsən "Qafqazın müdafiəsinə görə ", Sultanov Tarxan "İgidliyinə görə" və "Qafqazın müdafiəsinə görə" medalları ilə, Məmmədov Əkbər, Məmmədov Hüseyn, Məmmədov Hidayət "Qafqazın müdafiəsinə görə" medalı ilə, Abbasov Nəcəf "Qələbə" medalı ilə mükafatlandırılmışlar.

Şərur rayonu üzrə Camalov Məmməd "Boqdan Xmelnitski" ordeni və "Qafqazın müdafiəsinə görə" medalı ilə, Abdullayev Abdulla "Şərəf " ordeni ilə, İsmayılov Məmməd "Qafqazın müdafiəsinə görə" medalı ilə, Həsənov Əziz "Qırmızı Ulduz" ordeni ilə, Həsənov Abdulla "Qırmızı Ulduz" ordeni və "İgidliyə görə" medalı ilə, Məmmədov Qulam "Qırmızı Ulduz" ordeni və "İgidliyə görə" medalı ilə, Rəhimov Əli "Qırmızı Ulduz" ordeni, "İgidliyə görə", "Qələbə" və "Qafqazın müdafiəsinə görə" medalları ilə, Nəcəfov Nəcəf "Qafqazın müdafiəsinə görə" və "Qələbə" medalları ilə, Tağıyev Həsən "İgidliyə görə", "Qafqazın müdafiəsinə görə" medalları ilə, Ağayev Həsən "Aleksandr Nevski" ordeni, "Qafqazın müdafiəsinə görə" və "Qələbə" medalları ilə, Məmmədov Məhərrəm "Qələbə" medalı ilə, Məmmədov Həbib "İgidliyə görə" medalı ilə, Qafarov Əli "İgidliyə görə" və "Qələbə" medalları ilə, Qafarov Kamil "Qırmızı Ulduz" ordeni və "Qələbə" medalı ilə, Əliyev Həsənalı "İgidliyə görə" və "Qafqazın müdafiəsinə görə" medalları ilə, Mərdanov Əhməd "Qırmızı Ulduz" ordeni və "İgidliyə görə", "Qafqazın müdafiəsinə görə" medalları ilə, Rzayeva Asiya "Qafqazın müdafiəsinə görə" medalı ilə, Əbdülhüseynov Hüseyn "İgidliyə görə" və "Qələbə" medalları ilə, Əliyev Əli "İgidliyə görə" və "Qafqazın müdafiəsinə görə" medalları ilə, Məmmədov İbrahim "Qələbə" ordeni və "İgidliyə görə" medalı ilə təltif olunmuşlar.

Ordubad rayonu üzrə Bayramov Sadıq "İgidliyə görə" medalı ilə, Abbasov Nadir "Qafqazın müdafiəsinə görə" medalı ilə, Səfərov Səfər "Qafqazın müdafiəsinə görə" medalı ilə; Əbrəqunus rayonundan Mirzəyev Məmmədəli "Qırmızı Ulduz" və II dərəcəli "Şöhrət" ordenləri, "Stalinqradın müdafiəsinə görə" və "Qələbə" medalı ilə, Fərəcov Yusif "İgidliyə görə" və "Qələbə" medalları ilə, Nəsirov Hüseyn "Qırmızı Ulduz" ordeni, "Stalinqradın müdafiəsinə görə", "Hərbi xidmətə görə" və "Qələbə" medalları ilə, Əliyev Zellabdın "Hərbi xidmətə görə" və "Qələbə" medalları ilə, Əliyev Abbasqulu "Qırmızı Ulduz" ordeni və "Qələbə" medalı ilə, Səfərov Səfər "Qafqazın müdafiəsinə görə" medalı ilə, Məmmədov İmran "Qələbə" medalı ilə təltif olunmuşlar.

Şahbuz rayonu üzrə Rüstəmov Seyfulla "Qırmızı Ulduz" ordeninə, Hacıyev Əşrəf "Qələbə" və "Qafqazın müdafiəsinə görə" medallarına layiq görülmüşlər.

Həmçinin müharibə illərində arxa cəbhədə əmək rəşadətləri göstərmiş onlarca müəllim də orden və medallarla təltif edilmişdir. Bunlarla yanaşı, müharibə illərində muxtar respublikada xalq maarifinin inkişafında və şagirdlərə elmi biliklərin öyrədilməsində və tərbiyəsində böyük əmək sərf etmiş 13 müəllimə

"Azərbaycan Respublikasının Əməkdar müəllimi", "Naxçıvan MSSR Əməkdar müəllimi" fəxri adları, 35 müəllimə isə müxtəlif adlar verilmişdir [55, v.21] .

Azərbaycan SSR və Naxçıvan MSSR-in məktəblərində pedaqoji kadrlara olan ehtiyacı nəzərə alaraq Azərbaycan SSR Xalq Komissarları Sovetinin 23 iyul 1939-cu il 3041 nömrəli qərarına əsasən Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 14 avqust 1939-cu il tarixli 450 nömrəli qərarı ilə yaradılan Naxçıvan Dövlət Müəllimlər İnstitutu 1939-cu il sentyabrın 15-də cəmi iki fakültə ilə (dil-ədəbiyyat, fizika-riyaziyyat) fəaliyyətə başlamışdır [50, v.80].

Naxçıvan Dövlət Müəllimlər İnstitutunun ilkin fəaliyyət illəri çox ağır dövrə, 1941-1945-ci illərə təsadüf etsə də, institutun pedaqoji heyətinin fədakar əməyi sayəsində institut öz fəaliyyətini dayandırmadı. Həmin illərdə əyani şöbənin 4 fakültəsi üzrə institutu 166 nəfər bitirdi [68, v.24-25].

Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 17 dekabr 1943-cü il tarixli fərmanı ilə Naxçıvan Dövlət Müəllimlər İnstitutuna böyük mütəfəkkir Cəlil Məmmədquluzadənin adı verilmişdir [104, 1943, 23 dekabr].

Müharibənin ilk günlərindən Naxçıvan Dövlət Müəllimlər İnstitutunun müəllim və tələbələrinin də xeyli hissəsi səfərbər edilərək döyüş cəbhələrinə göndərilmişdi. Müharibə illərində müxtəlif cəbhələrdə vuruşan həmin döyüşçülərin keçdiyi döyüş yoluna nəzər salınarkən onların əsl vətənpərvər kimi şanlı bir yol keçdikləri və Vətən qarşısında öz borclarını ləyaqətlə yerinə yetirdikləri məlum olur.

İnstitut tələbələrindən və məzunlarından Qəzənfər Əkbərov (1917-1944), Nəcəfqulu Rəfiyev (1912-1972) və Abbas Quliyev (1916-1998) Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü [28, s.31].

İnstitutun müəllim, tələbə və məzunlarından Yunis Qasımovun, Əsgər Əhmədovun zabit kimi cəbhədə böyük şücaətlər göstərməsi, Əli Talıbovun müharibənin ilk günlərindən Leninqrad cəbhəsində qəhrəmanlıqla vuruşaraq 1-ci və 2-ci dərəcəli "Vətən müharibəsi", "Qırmızı Ulduz" ordenləri ilə təltif olunması, Əli Babayevin Oryol və Kursk döyüşlərindəki qəhrəmanlıqlarına görə bir neçə orden və medalla təltif olunması, Kamil Qafarovun 1941-ci ildən Berlinin alınmasına qədər ağır bir döyüş yolu keçməsi, Həbib Rzayevin, Sultan Zeynalovun, Abbasqulu Quliyevin və onlarla digərlərinin şücaətləri Naxçıvan Dövlət Müəllimlər İnstitutunun qələbə uğrunda mübarizəyə köməyinin təcəssümü idi.

İnstitutun müəllim və tələbələri arxa cəbhədə də böyük fədakarlıqlar göstərirdilər. Müharibə illərində Naxçıvanda əməkdar müəllim adına layiq görülənlərdən 4-ü (Əsəd Cəfərli, Abbas Əsgərov, Həsən Qazıyev, Nəsir Məmmədov) Naxçıvan Dövlət Müəllimlər İnstitutunun əməkdaşları idi.

Müəllim və tələbələrin cəbhəyə göndərilməsi mövcud tələbə kontingentini xeyli aşağı saldığı kimi, 1941-1942-ci tədris ilindən etibarən tələbə qəbulunda da xeyli çətinliklər yaratdı. Belə ki, 1941-1942-ci tədris ilindən 1944-1945-ci tədris

ilinə qədər institutun bütün fakültələri üzrə tələbə qəbulu ciddi kəsirlə yerinə yetirilməklə yanaşı, qəbul olunanların da xeyli hissəsi müharibə şəraitində obyektiv səbəblər üzündən institutu bitirə bilmədi [28, s.31-32].

Ziyalıların yaradıcı qüvvələrini azğın düşmənin darmadağın edilməsinə doğru yönəltmək üçün partiya-kütləvi işin əsas formalarından biri də mitinq və yığıncaqlar keçirilməsi idi. Naxçıvanda keçirilən mitinqdə tibb elmləri namizədi Hacı Qasımov sanki bütün sovet ziyalılarının fikir və iradəsini ifadə edərək demişdi: "Biz, sovet həkimləri qudurmuş Hitleri və onun alçaq dəstəsini tamamilə darmadağın etmək üçün bolşevik partiyamızın, qüdrətli Sovet hökumətimizin hər bir göstərişini dərhal yerinə yetirməyə hazırıq" [12, s.29-31].

Ümumiyyətlə, belə nəticəyə gəlmək olar ki, müharibə illərində kollektivin əzmkarlığı və gərgin fəaliyyəti institutun iş tempinin zəifləməsinə imkan vermədi. Bu, həm də Azərbaycanda elmin, ictimai-siyasi fikrin və xalq təhsilinin inkişafında mühüm rol oynayan Naxçıvan Dövlət Müəllimlər İnstitutunun müharibə illərində qələbə uğrunda mübarizəyə köməyi idi [28,s.30-35].

Elm. Naxçıvan diyarı qədimdən Azərbaycanın mühüm elm mərkəzlərindən olmuşdur. Azərbaycan EA-nın yaradılması (1945) muxtar respublikada da elmin inkişafına güclü təkan verdi. Muxtar respublikada elmi idarələr, o cümlədən Araz (Naxçıvan) Kompleks-Zona Təcrübə Stansiyası, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Stansiyası, Elm və Texnika Mərkəzi, Şamaxı Astrofizika Rəsədxanasının Günəşi Müşahidə Stansiyası yaradıldı.

Bu dövrdə Naxçıvan Dövlət Müəllimlər İnstitunda aparılan elmi-tədqiqat işləri diqqəti cəlb edirdi. SSRİ XKS yanında Ümumittifaq Ali Məktəb İşləri Komitəsinin "Ali məktəblərdə aspirantlar hazırlanmasını yaxşılaşdırmaq tədbirləri haqqında" 2 yanvar 1944-cü il tarixli əmrinə müvafiq olaraq C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu da həmin sahəyə diqqəti artırdı. Azərbaycan XMK Ali və Pedaqoji Məktəblər İdarəsinin 30 iyun 1945-ci il tarixli geniş arayışında Naxçıvan Dövlət Müəllimlər İnstitutunda iki nəfərin namizədlik dissertasiyasını tamamlaması və əlavə olaraq 6 nəfərin namizədlik imtahanlarına hazırlaşdıqları qeyd olunmuşdur.

Həmin arayışda 1945-ci il iyunun 26-dək institut Elmi şurasının 8 iclasının keçirildiyi, 6 kafedrada 3 elmi konfrans, 2 tələbə elmi konfransı keçirilməsi, hərbi, siyasi və elmi mövzuda 28 mühazirə oxunması, tələbələrin vətənə məhəbbət, qələbəyə inam ruhunda tərbiyə olunmalarına xüsusi fikir verilməsi göstərilmişdir.

28 sentyabr 1944-cü ildə Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinin büro iclasında "Naxçıvan MSSR-də Azərbaycan Elmlər Akademiyasının elmi bazasının təşkili haqqında" məsələ müzakirə edilərək qərar qəbul edilmişdir. Qərarda göstərilir: Azərbaycan SSR Xalq Komissarları Soveti və Azərbaycan K(b)P MK-nin "Naxçıvan MSSR-də Elmlər Akademiyası filialının elmi bazasının təşkili haqqında" 4 noyabr 1943-cü il tarixli qərarına əsasən Naxçıvan MSSR

Xalq Komissarlar Soveti və Azərbaycan K(b)P Naxçıvan Vilayət Partiya Komitəsi bürosu qərara alır:

1. 1 sentyabr 1944-cü ildən Naxçıvan şəhərində Elmlər Akademiyası filialının Elmi bazası təşkil edilsin.

2. Naxçıvan şəhər sovetinə (Hüseynov yoldaşa) 2 ay müddətində elmi işlərin aparılması üçün yararlı 10-12 otaqdan ibarət yer seçməsi və Azərbaycan Elmlər Akademiyası filialının Elmi bazasına təqdim etməyi tapşırılsın.

3. Naxçıvan MSSR Xalq Komissarlar Sovetinin nəzdində Dövlət Plan Komitəsinə (Vəkilov yoldaşa) Elmi baza üçün zəruri avadanlıqlar və materiallar ayrılması tapşırılsın [36, v.57-58].

AMEA Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş (2002) müşavirədə ulu öndər Heydər Əliyev qeyd edirdi ki, "...Vaxtilə Azərbaycanda ilk dəfə 1945-ci ildə Elmlər Akademiyası təşkil ediləndə onun bir neçə bölgədə şöbələri, yaxud təşkilatları yaradılmışdı. Akademiyanın Naxçıvan şöbəsinə bizim hörmətli, qocaman müəllimimiz Lətif Hüseynzadə başçılıq etmişdir..."

Elmi mərkəz öz fəaliyyəti dövründə, xüsusən Böyük Vətən müharibəsi ərəfəsində və müharibə illərində respublikada elmin daha da tərəqqisində mühüm rol oynamış, respublikamızda elmi tədqiqatın böyük mərkəzinə çevrilmişdir. Bu dövrdə elmi idarələrin və elmi işçilərin əməyi alman faşizmi üzərində qələbəyə öz töhfəsini verdi [93, s.143].

Ədəbiyyat. Müharibə dövründə ədəbiyyat mühüm missiyanı həyata keçirmişdir. Yazıçı və şairlər, dramaturq və publisistlər əsərlərində faşist Almaniyasına qarşı mübarizəyə öz töhfəsini vermişdir. Naxçıvanlı şair və yazıçılardan Nağı Nağıyev, İslam Səfərli, Məmmədəli Tarverdiyev, Əbülfəz Abbasquluyev, Əhməd Mahmudlu, Əsgər Səfərov, Ruqiyyə Nadirova, Rəfiqə Bağırova, Hüseyn Əzim, Əli Kazımov, Cavad Cavadov, Yusif Zeynalov, Hüseyn İbrahimov, Hüseyin Razi, Əli Hüseynov, Həsən Nehrəmli (Sultanov), İzzət Tağıyeva, Yəhya Seyidov və başqaları həmin dövrlərdə yazdıqları əsərlərini əsasən Naxçıvanda fəaliyyət göstərən qəzet və jurnallarda nəşr etdirirdilər.

"Şərq qapısı" qəzetinin redaksiyasında işləmiş İ.Səfərli əsasən şeirlər yazırdı. Şair ədəbi yaradıcılığa başlayanda 17 yaşı vardı və ilk şeirini də "Ədəbiyyat qəzeti"ndə çap etdirmişdir. İslam Səfərli müharibənin ilk günlərindən orduya getmiş, sıravi döyüşçü, sonralar bir kəşfiyyatçı kimi şöhrətlənmişdir. O, Şimali Qafqazda, Krımda, Ukrayna, Pribaltika cəbhələrində döyüşmüşdür. Bu barədə o illərin mətbuatında bir neçə maraqlı yazıya, habelə onun şəklinə rast gəlinir. Azərbaycan KP MK-ya göndərilmiş 28 yanvar 1943-cü il tarixli bir İ. Səfərlinin şəkli verilən məktubda da onun xalqımızın "qəhrəmanlıq ənənlərinə layiq vuruşduğu", Dnepr sahillərində bir kəşfiyyatçı kimi səmərəli fəaliyyət göstərdiyi qeyd olunur. O, istər müharibənin əvvəlindən cəbhəyə gedənə kimi və istərsə də, cəbhədə olduğu zaman özünün coşğun və alovlu şeirləri ilə döyüşçüləri və arxadakıları vətənpərvərliyə çağırmışdır [81,v.2].



Məmməd Səid Ordubadi

1942-ci il avqustun 21-də yazıçı Məmməd Səid Ordubadi öz doğma şəhəri Ordubada gəlmişdir. Həmin gün axşam M.S.Ordubadinin 70 illiyi və ədəbi fəaliyyətinin 50 illiyi münasibəti ilə respublika fəalların nümayəndələrinin iştirakı ilə Ordubad rayon Mədəniyyət evində ədəbi-bədii gecə keçirilmiş və yazıçı ilə səmimi görüş təşkil olunmuşdur. Gənc şair H.Əzimov M.S.Ordubadiyə yazdığı şeirini oxumuşdur [105, 1942, 23 avqust]. M.S.Ordubadinin anadan olmasının 70 illiyi və ədəbi fəaliyyətinin 50 illiyi ilə əlaqədar olaraq Ordubad şəhər xəstəxanasına və mədəniyyət parkına M.S.Ordubadinin adı verilmişdir [105, 1942, 9 oktyabr]. Ordubad şəhərindəki M.S. Ordubadi adına muzeyin direktoru T.İbrahimovun "El həyatı" qəzetinin 25 iyul 2005-ci il tarixli nömrəsində "M.S.Ordubadi yaradıcılığı Böyük Vətən müharibəsi illərində" məqaləsində deyilir: "M.S.Ordubadi xalqımızın tarixini nəzərdən keçirərək milli istiqlaliyyət və azadlıq uğrunda vuruşmuş qəhrəmanları seçmiş, onlar haqqında oçerk-məqalələr yazmışdır [16, 2005, 28 iyul].

Əziz Şərif qəzetin 10 oktyabr 1942-ci il tarixli nömrəsində "Naxçıvanlı gənc şairlər Böyük Vətən Müharibəsi günlərində" adlı məqalədə yerli şairlərdən Hüseyn Əzim, Hacı Əsgərov, Əsgər Səfərov və müəllim Əli Məmmədovun yaradıcılığındakı vətənpərvərlik motivlərinə toxunur, bəzi nümunələri oxuculara təqdim edir. O yazır ki, Naxçıvanın gənc şairləri də ana yurdun döyüş cəbhəsindən çox uzaqda olmalarına baxmayaraq, müharibənin ilk günündən, vətən qarşısında öz müqəddəs vəzifəsini düzgün anlamış, qələmini qalibiyyət uğrunda işlətmiş, əsərlərini sovet xalqının tarixində görünməmiş qəhrəman mübarizəsinə həsr etmişdir.

Hüseyn Əzim müharibə illərində "Cəbhədən məktub", "Yadigar", "Terek sahilində", "Vətən", "Gözü yolda qalan yar" kimi dolğun və təsirli şeirlərində öz həmyerlilərinin igidliyini böyük məhəbbətlə təsvir edirdi. O, şeirlərinin birində vətən eşqini döyüşçünün əsas xüsusiyyəti kimi təqdim edir, vətən oğullarını cəbhələrdə qəhrəmanlıqla vuruşmağa çağırırdı.

Döyüşdə yüksəlir igidin adı.
Ana da çox sevir igid övladı.
Azadlıq istəyən versin gərək qan,
Gərək ad qazansın hər işdə insan.
Hər kimin qəlbində vətən eşqi var,
Onun mərd əlləri dağı parçalar [2, s.71-72].

Naxçıvanın tanınmış şairlərindən Hüseyn Razinin ilk yaradıcılıq məhsulu sayılan şeirləri də müharibə illərində qələmə alınmış və mütəmadi olaraq "Şərq qa-

pısı" qəzetində nəşr olunmuşdur. Qəzetin 10 oktyabr 1941-ci il tarixli 183-cü sayında dərc olunmuş "Partizanın andı" şeirində gənc şair qəlbinin harayı hiss olunur:

Dünyalar baş əysin bu həqiqətə,
Xoş həyat yaradaq bəşəriyyətə,
Qıraq zəncirləri, daş qəfəsləri,
Ucalsın göylərə zəfər səsləri [104, 1941, 10 oktyabr].

1941-1945-ci illərdə kəsərli silah olan sözdən məharətlə istifadə etmək bacarığı olan şairlərdən Adil Babayevin yaradıcılığı da diqqətəlayiq nümunələrlə zəngindir. Yaradıcılığa yeni başlayan Adil Babayevin şeirlərindəki kəsərlilik sözün təsirini artırmaqla yanaşı, oxucuya çatdırmaq istədiyi qayəni daha aydın təqdim etməyə imkan verir:

Əzminlə yerləri, göyləri titrət,
Söylə ki, bitməzdir məndəki qüdrət,
Çəkil qabağımdan, ey cani düşmən!
Günəşi örtərmi bir qara zülmət?!

Ədiblərimiz öz arzu və düşüncələrini nəzmlə yanaşı, oçerk, hekayə, pyes, dram janrlarında da qəhrəmanlıq tarixini canlandıran və mətbuat səhifələrində yaşadan nümunələrlə çıxış edirdilər.

Müharibə illərində jurnalist-yazıçı Məmmədəli Tarverdiyev döyüşlərdə iştirak etmiş həmyerlilərimiz haqqında bir sıra oçerklər qələmə almışdır. Bundan başqa o, müharibə dövründə arxa cəbhə ilə atəş xətti arasındakı sarsılmaz əlaqəni əks etdirən "Zaman" pyesini yazmış və həmin pyes "Şərq qapısı" qəzetinin 1945-ci il iyul tarixli nömrələrində hissə-hissə oxuculara təqdim olunmuşdur.

Müharibə dövründə ədəbi yaradıcılıq sahəsində Nağı Nağıyevin xidməti diqqətəlayiqdir. O, müharibə illərində ciddi ədəbi yaradıcılıqla məşğul olub, "Polad" adlı pyes yazmışdır. Pyesdə sovet ordusunun qəhrəman və mübariz döyüşçülərinin vətənin azadlıq və istiqlaliyyəti uğrundakı misilsiz hünəri, Azərbaycan xalqının igid oğlu Poladın cəbhədəki qəhramanlığı öz əksini tapmışdır. Nağı Nağıyevin vətənpərvərlik ruhunda yazıdığı bu pyes 1945-ci ildə Naxçıvan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

Müharibə dövründə Naxçıvanda yaşayıb-yaradan şairlərdən biri də Əkbər Məftun idi. O, hələ tələbə ikən ədəbi yaradıcılığa başlayaraq bir sıra şeirlərlə mətbuatda çıxış etmişdir. Onun uşaqlar üçün yazdığı "Kiçik heykəltaraş" şeirlər kitabı Bakıda "Uşaq və gənclər" nəşriyyatı tərəfindən çap olunmuşdur.

Əkbər Məftun müharibə dövründə öz yaradıcılığını davam etdirərək Azərbaycan oğullarını qəhramanlığa çağıran şeirlər yazmışdır. Bunlardan Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevə həsr etdiyi "Sən könül mülkünün iftixarısan",

"Xilaskar Ordu", "Ey vətən" kimi lirik şeirlərini göstərmək olar. Əkbər Məftun özünün vətənə sədaqətini, alman-faşist işğalçılarına qarşı apardığı mübarizəsini "Partizanın hekayəsi" adlı şeirində də ifadə etmişdir.

Mətbuat. Vətənin işğalçılardan azad edilməsi uğrunda mübarizədə mətbuatın təsiri əvəzsizdir. Müharibə illərində Naxçıvanda bir sıra qəzet və jurnallar fəaliyyət göstərirdi.

Yarandığı gündən muxtar respublikanın tarixini öz səhifələrində əks etdirən "Şərq qapısı" qəzeti müharibə illərində cəbhə qəhrəmanları ilə daim əlaqə saxlamış, onların qəhrəmanlıqlarından, muxtar respublika əməkçilərinin ön cəbhələrdə döyüşən oğul və qızlarımıza göndərdikləri hədiyyə və sovqatlardan, müdafiə fonduna və faşist işğalçılarından azad edilmiş şəhər və vilayətlərin sakinlərinə edilən yardımlardan geniş bəhs etmişdir. Qəzet, eləcə də həmyerlilərimizin göstərdikləri igidliklərə görə aldıqları orden və medallardan, komandirlərin onların valideynlərinə, Naxçıvan Vilayət Partiya Komitəsinə, işlədikləri idarə, müəssisə və təşkilat rəhbərlərinə göndərdikləri məktubları dərc etmiş, eyni zamanda bu illərdə muxtar respublikanın ictimai-siyasi həyatında baş verən məlumatları vaxtaşırı öz səhifələrində işıqlandırmışdır.

Müharibənin başlanması haqqında ilk məlumat "Şərq qapısı" qəzetinin 25 iyun tarixli sayında dərc olunmuş, Sovet Sosialist Respublikaları İttifaqı Xalq Komissar-ları Soveti sədrinin müavini və Xarici İşlər Komissarı V.M.Molotovun 22 iyun 1941- ci ildə radio ilə çıxışının tam mətni verilmişdir [99, s.98-99].

Qəzetin 22 oktyabr 1941-ci il tarixli nömrəsi faşist işğalçılarına qarşı qəhrəmanlıqla vuruşan döyüşçülərimizin ailələrinə yardım fondlarının təşkil edilməsi və ön cəbhədə vuruşan əsgərlərə hədiyyələr göndərilməsindən bəhs edərək yazır ki, partiya və sovet təşkilatları tərəfindən ayrılmış komissiyaların və həmçinin əməkçilərin təşəbbüsü ilə 4 ay ərzində muxtar respublika müdafiə fonduna 120800 manat nağd pul, 1 milyon 727 min manatlıq istiqraz vərəqəsi, 7 kq 700 qram qızıl və gümüş toplanaraq dövlət bankına verilmiş, tədarük məntəqələrinə 66 ton taxıl, 64 ton ət, 2155 kiloqram yun, 897 kq yağ, 10,6 ton tərəvəz, 3634 cüt yun corab, 1461 cüt yun əlcək və müxtəlif geyimlər toplanılıb cəbhəyə göndərilmişdir [104, 1941, 22 oktyabr]. Qəzetin 2 fevral 1942-ci il tarixli nömrəsində Naxçıvan (indiki Babək) rayonunun Sirab, Cəhri, Çalxanqala və Xıncab kəndlərindəki kolxozlarda əsgər ailələrinə 2520 kq buğda, 1260 kq odun, mal-qara üçün 2700 kq saman, 332 kq arpa verilməsi qeyd edilmişdir [104, 1942, 2 fevral]. Qəzetin 1942-ci il 6-22 və 26 mart nömrələrində Cənub-Qərb cəbhəsində alman-faşist işğalçılarına qarşı böyük mərdlik və qəhrəmanlıq göstərən həmyerlimiz, Şərur rayonunun Qıvraq kənd kolxozunun üzvü Cəboş Şıxəliyev haqqında geniş materiallar verilmişdir. Döyüşdə fərqləndiyinə görə Cəboş Şıxəliyevin "İgidliyə görə" medalı ilə təltif edilməsi barədə məlumat və gənc şair Ə.Hacının (Əsgərov) Cəboş Şıxəliyevə ithaf etdiyi " Alqış vətənin sadiq oğluna" şeiri dərc edilmişdir [104, 1942, 6, 26 mart]

Qəzetin 7 mart 1942-ci il tarixli nömrəsində dərc edilmiş "Gənclərin səsi" adlı yazıda Şərur rayonunda keçirilən mitinqdə qabaqcıl kolxozçu Səkinə Mustafayevanın çıxışı verilmişdir. Səkinə Mustafayeva deyir ki, "lazım gələrsə biz traktorçu qızlar da öz traktorumuzu böyük tanklar ilə əvəz edərək düşmən üzərinə gedəcəyik... Mən sizi bol məhsul uğrunda mübarizəyə çağırıram. Çünki bol məhsul düşmən üzərində qələbəmiz deməkdir" [104, 1942, 7 mart].

Qəzetdə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1942-ci il 26 iyun tarixli fərmanından sonra Naxçıvan MSSR Xalq İctimai Təminat Komissarlığı üzrə qızıl əsgər ailələrinə 6 milyon 612 min 760 manat, cəbhədə döyüşən əsgərlərin ailə üzvlərinə 429 min 400 manat dövlət yardımı verilməsindən danışılır [104, 1942, 26 iyun].

Qəzetin 28 iyul 1942-ci il tarixli nömrəsində gənclərin Naxçıvan şəhərindəki parkda keçirilən mitinqindən, həmçinin gənclərin arxa cəbhədə əməyindən, onların iməcilik yolu ilə müdafiə fonduna 329 min 422 manat pul verməsindən, döyüşçülərimizə müxtəlif isti geyim əşyalarının, Qara Dəniz Donanmasının qəhrəman döyüşçülərinə 12 min manatlıq hədiyyələr göndərmələrindən bəhs edilir.

Həmin qəzetin 23 avqust 1942-ci il tarixli nömrəsində cəbhədə vuruşan naxçıvanlı komsomolçu-gənclərdən baş serjant Məmməd Bağırovun, serjant Zeynalabdın Kazımovun, starşina Ağoş Mirişlinin, baş serjant Həmid Mürsəlovun, serjant Əli Şeyxovun, serjant Əli Əliyevin, serjant Yunis Əliyevin, sürücü Qəşi Abbasovun, baş serjant İsmayıl İsmayılovun və siyasi rəhbər İslam Səfərlinin Azərbaycan LKGİ Naxçıvan Vilayət Komitəsinə göndərdikləri məktub dərc olunmuşdur. Məktubda deyilir: "Naxçıvanın bütün zəhmətkeşlərinə, kolxozçularına, kolxozçu qadınlarına, fəhlələrinə, fəhlə qadınlarına, ziyalılarına bizdən alovlu qızıl əsgər salamı! Biz əlimizə silah alaraq əziz vətənimizin müdafiəsinə qalxmışıq... İşimizin haqq olduğunu biz yaxşı bilirik. Qoy bütün atalarımız, analarımız, qohum-qardaşlarımız bilsinlər ki, biz haqq işi uğrunda vuruşuruq [102, 1981, 26 dekabr].

Qəzetin 1942-1944-cü ildə çıxmış nömrələrində Sovet İttifaqı Qəhrəmanları Abbas Quliyev, Qəzənfər Əkbərov, Nəcəfqulu Rəfiyev, cəsur komandirlərdən Akim Abbasov, Əsgər Əhmədov, Nemət Kərimov, Əli Məmmədov, Allahverdi Kərimov, Mehdi Mahmudov, İsmayıl Sayılov, Əsgər Hüseynov, Cəfər Məmmədov və onlarla başqalarının müharibə qəhrəmanlıqlarından danışılır [102,1981, 26 dekabr]. Qəzetin 7 noyabr 1942-ci il tarixli nömrəsində muxtar respublika gənclərinin həmyerlimiz mayor Akim Abbasova göndərdikləri məktubu da maraqlıdır. Məktubda deyilir: "Əziz dostumuz və həmyerlimiz. Sən ümumi iş dairəsində həmişə bizimləsən. Sizin, eləcə də ölkədə arxa ilə cəbhənin əlaqəsi və dostluğu getdikcə möhkəmlənir və artır. Biz çox yaxşı başa düşürük ki, yaxşı işləməyimiz sizin qələbənizi təmin edir. Düşmənin tamamilə darmadağın və məhv olmasını yaxınlaşdırır.

Hörmətli Abbasov yoldaş! Biz Naxçıvan gəncləri sənin adına yeni bayram sovqatları göndərməklə öz məhəbbət və hörmətimizi sizə bildirir, vətən uğrunda,

xalqımızın şərəfi və namusu uğrunda sonadək sönməz bir qüvvə ilə mübarizə etməyinizi arzu edirik. Bu yalnız bizim deyil, bütün ölkənin və xalqımızın arzusudur."

Qəzetin 1,18 və 23 sentyabr 1943-cü il tarixli nömrələrində azərbaycanlı döyüşçülərdən təşkil olunmuş 416-cı Taqanroq diviziyasının döyüş şücaətindən və onun qorxmaz döyüşçülərinə hədiyyələrin göndərilməsindən danışılır.

Şərur rayon əməkçilərinin, xüsusən komsomolçu gənclərin 416-cı Taqanroq diviziyasının cəsur döyüşçülərinə 1943-cü ilin sentyabr ayında yardım göndərdikləri haqqında yazı 28 sentyabr 1943-cü il tarixli nömrədə verilmişdir.

Kənd təsərrüfatını və heyvandarlığı inkişaf etdirmək haqqında hökumət tapşırıqlarını yerinə yetirdiklərinə görə Azərbaycan SSR-in 4585 qabaqcıl kolxozçusu, kənd təsərrüfat işçisinin orden və medallarla təltif edilməsi, bunların sırasında Naxçıvan MSSR-dən Yusif Hüseynovun, Allahverdi Hüseynovun "Lenin" ordeni, Şəmil Rəsulzadənin "Qırmızı Əmək Bayrağı" ordeni, İmamalı Hacıyevin, Heydər Qənbərovun və Mirzəmməd Yaqubovun "Əmək igidliyinə görə" medalı, Hüseynqulu Əliyevin, Səhər Ələsgərovanın, Səfəralı Cəfərovun, Qurbanəli Pənahovun və Məmməd İbrahimovun "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmaları haqda yazı qəzetin 30 noyabr 1943-cü il tarixli nömrəsində dərc edilmişdir.

Müharibə illərində qəzetlə yanaşı, gündəlik məlumatlar və Ali baş komandanlığın əmrləri vərəqə halında çap olunaraq zəhmətkeşlərə çatdırılırdı. Bu iş heç bir əmək haqqı almadan redaksiyanın əməkdaşı Əli Mirzəyev tərəfindən aparılırdı.

Qəzetin 17 oktyabr 1944-cü il tarixli nömrəsində bir çox yazılarla yanaşı Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan filialı, Naxçıvan Vilayət Partiya Komitəsinin təbliğat-təşviqat şöbəsi ilə birlikdə keçirilən Naxçıvanın gənc yazıçılarının yığıncağından danışılır. Yığıncaqda gənc yazıçı Hüseyn İbrahimov özünün "Baloğlan" pyesini oxumuşdur. Sonra Lətif Hüseynov, Əli Hüseynov, Əsgər Axundov, Əsəd Cəfərli, Kamil Bektaşi, Pəri İbrahimova, İsa Musayev, Məmmədəli Tarverdiyev çıxış edərək əsər haqqında öz fikirlərini söyləmiş və müəyyən məsləhətlər vermişlər [104, 1944, 17 oktyabr].

Qəzetin 7 fevral 1945-ci il tarixli nömrəsində muxtar respublikada əkinçilik və heyvandarlığı inkişaf etdirmək sahəsində yüksək göstəricilərə görə Şərur və Şahbuz rayonlarına Naxçıvan MSSR Xalq Komissarları Soveti və Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin Keçici Qırmızı bayraqlarının verilməsi qeyd olunmuşdur [104, 1945, 7 fevral].

Mətbuat işi təkcə Naxçıvanda deyil, həmçinin Şərur, Şahbuz, Ordubad və Əbrəqunus rayonlarında da təşkil olunmuşdu. Müharibə dövründə Şərur rayonunda "Pambığa doğru", Şahbuz rayonunda "Sosializm maldarlığı", Ordubad rayonunda "Ordubad fəhləsi" və Əbrəqunus (indiki Culfa) rayonunda "Zərbəçi heyvandar" qəzetləri nəşr olunurdu. Bu qəzetlərdə müharibə dövründə rayon yetirmələrinin düşmənlə mübarizəsi, arxa cəbhədə görülən işləri işıqlandırılır, cəbhədən təzə

xəbərlər, həmyerlilərimizin şücaətindən bəhs edən materiallar və foto-şəkillər dərc edilirdi.

İncəsənət. Müharibə dövründə əlinə silah alaraq cəbhəyə yollananların arasında Naxçıvan teatrının da əməkdaşları var idi. Naxçıvan Dövlət Dram Teatrının 26 iyun 1941-ci il tarixli 140 №-li əmrindən məlum olur ki, müharibənin ilk günündən teatrın işçilərindən A. Quliyev, Ə.Abbasov, R. Məmmədov, Ə.Həsənov, M.Cəfərov, Ə.İmanov, F.Zalov, R.Qulubəyov, A.Hüseynov, V. Muxtarov, T. Nəcəfov, M.Qasımov, Ə. Hüseynov və başqaları müharibəyə getmişdilər [63,v.30].

Müharibənin ilk aylarında dövrün hadisələrini əks etdirən əsərlər dramaturgiyada hələ özünə yer tapa bilməmişdi. Müharibə mövzusuna həsr edilmiş pyeslərin bədii səviyyəsi aşağı idi, onlarda həyat həqiqəti əks oluna bilmirdi. Tələsik yazılmış əsərlərdə mövzu aktuallığı əsas götürülür, obrazların xarakteri açılmır, dərin ümumiləşdirmələr aparılmırdı. Naxçıvan Dövlət Dram Teatrı ölkəmizin digər qabaqcıl teatrlarının təcrübələrindən istifadə edərək tamaşaçılarina kiçik səhnəciklər və kompozisiyalar göstərirdi. Müharibənin ilk ağır aylarında, 1941-ci ilin 20 sentyabrında Naxçıvan teatrının aktyorları tərəfindən Ə.Haqverdiyevin "Pəri cadu", 5 oktyabrda S.Rəhmanın "Toy", 17 sentyabrda isə O.Sarıvəllinin "Babək" əsərləri tamaşaya qoyulmuşdur [63, v.53-54].

Həmin il teatrın kollektivi hospitallarda 248 konsert vermişdilər. 1942-ci ildə döyüşçülər üçün teatrın kollektivi tərəfindən orduya 12 ədəd bağlama, 3633 manat 50 qəpik nağd pul, 88 ədəd dəri və 107 ədəd isti paltar göndərilmişdir. Musiqi məktəbinin kollektivi tərəfindən isə 2 yeşik bağlama və 1000 manat nağd pul qızıl ordu döyüşçülərinə göndərilmişdir [59,v.29].

Sənədlərdə 1942-ci ilin əvvəllərində Naxçıvan Dövlət Dram Teatrının aktyorları tərəfindən Osman Sarıvəllinin "Babək" (13 fevralda), Ü.Hacıbəyovun "Leyli və Məcnun" (15 fevral və 6 mayda), "Əsli və Kərəm" (28 fevral), Abdulla Şaiqin "Vətən oğlu", Mirzə İbrahimovun "Məhəbbət" əsərləri hazırlanıb tamaşaya qoyulmuşdur [63,v.75-78].

21 iyul 1942-ci ildə "Şərq qapısı" qəzeti yazırdı: "M.F.Axundov adına Naxçıvan Dövlət Dram Teatrının kollektivi iyun ayının 20-dən qastrola çıxmışdır. Kollektiv qastrolda olduğu müddətdə, iyunun 20-dən iyulun 15-dək Culfa və Ordubad rayonunun zəhmətkeşləri tərəfindən böyük məhəbbət hissi ilə qarşılanmışdır. Həmin rayonun kolxozçuları, fəhlələri və ziyalıları "Arşın mal alan", "Əsli və Kərəm", "Aşıq Qərib", "Leyli və Məcnun", "Beş manatlıq gəlin", "Bu toy kimindir", "Babək" və "Aslan yatağı" pyeslərinə tamaşa etmişlər [104, 1942, 21 iyul].

Müharibə illərində Naxçıvan teatrının yaradıcı kolektivi muxtar respublikanın rayon və kəndlərində maraqlı tamaşa və konsert proqramı ilə çıxış edirdi. "Şərq qapısı" qəzetinin 1942-ci il 26 iyul tarixli nömrəsində deyilir ki, M.F Axundov adına Naxçıvan Dövlət Dram Teatrının konsert briqadası Şərur rayonunda olmuşdur. Briqada rayonun Yengicə, Baş Noraşen (Cəlilkənd- ***red***), Təzəkənd və Kərimbəyli

kəndlərində geniş konsert proqramı ilə çıxış etmişdir [104,1942, 26 iyul].

Naxçıvan teatrı 1942-ci il mövsümə Zülfüqar Hacıbəyovun "Evliykən subay" musiqili komediyası ilə başlayır. Teatrın repertuarı xeyli zənginləşdirilmiş və artırılmışdır. Ordenli şair S.Vurğunun "Fərhad və Şirin", şair Zeynal Xəlilin "İntiqam", N.B.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", M.H.Təhmasibin "Aslan yatağı", Osman Sarıvəllinin "Babək", M.S.Ordubadinin "5 manatlıq gəlin", Məhərrəm Əlizadənin "Toy kimindir", Zülfüqar Hacıbəyovun "Aşıq Qərib", SSRİ xalq artisti, ordenli kompozitor Üzeyir Hacıbəyovun "Arşın mal alan", "Leyli və Məcnun", "Əsli və Kərəm" əsərləri repertuara daxil edilmişdir".

Müharibə dövründə teatrla yanaşı, incəsənətin digər sahəsi olan kinematoqrafiya idarəsi də fəaliyyətini davam etdirmişdir. Bu dövrlərdə Naxçıvan MSSR XKS yanında Kinolaşdırma idarəsi həm Naxçıvanda, həm də digər rayonlarda səyyar kino avtomobilləri vasitəsi ilə kino göstərirdi.

"Şərq qapısı" qəzetinin 29 avqust 1942-ci il tarixli nömrəsində dərc olunmuş "Baş kino-prokat Naxçıvan şöbəsində" başlıqlı yazıdan aydın olur ki, şöbə müharibə dövründə bütün imkanlardan istifadə edirmiş. Kino nöqtələrinin müxtəlif yeni inqilabı, tarixi, bədii, müharibə cəbhələrindəki epizodlara dair filmlərlə təmin edilməsində Naxçıvan Başkinoprokat şöbəsinin müdiri Adil Əliyev fəallıqla çalışmışdır. 1942-ci ildə Naxçıvanda 12 kino nöqtəsi əvəzinə 14-ü fəaliyyət göstərirdi. 1942-ci ilin birinci rübündə 538 əvəzində 546 kino tamaşası nümayiş etdirilmişdir. [104, 1942, 29 avqust]. Təkcə 1943-cü ildə Şərur rayonunun 13 kəndində 25 kino tamaşası göstərilmiş və həmin tamaşalarda 5 mindən artıq kolxozçu iştirak etmişdir [104, 1943, 17 noyabr].



İbrahim Həmzəyev Mehdi Hüseynin "Nizami" pyesində Nizami rolunda 1942-ci il

24 oktyabr 1942-ci ildə Naxçıvan Dövlət Dram Teatrının aktyorları tərəfindən S.Vurğunun "Fərhad və Şirin" əsəri tamaşaya qoyulmuşdur. Bu tamaşa haqda "Şərq qapısı" qəzeti yazırdı: "Fərhad və Şirin" əsəri tamaşaya qoyulmaqla öz yaradıcılıq tarixində irəliyə doğru yeni bir addım atmışdır. Fərhad rolunda İbrahim Həmzəyev, Şirin rolunda Zəroş Həmzəyeva, Şapur rolunda Səməd Mövləvi, Şiruyyə rolunda Yunis Qasımov və başqaları oynamışlar" [63, v.7]

Teatrda 10 yanvar 1943-cü il tarixdə S.Vurğunun "Fərhad və Şirin, 19 və 27 yanvar 1943-cü il tarixdə Z.Hacıbəyovun "Evlikən subay", 21yanvar 1943-cü il tarixdə isə Z.Xəlilin "İntiqam" pyesləri tamaşaya qoyulmuşdur [63, v.20-22]. Naxçıvan Dövlət Dram Teatrının

1943-cü il 13 fevral tarixli əmrində C.Cabbarlının "Yaşar" əsərinin səhnələşdirilməsi və həmin tamaşada oynayacaq aktyorlar barədə məlumat verilir. Bu tamaşanın quruluşçu rejissoru İbrahim Həmzəyev, bədii tərtibatçısı Şəmil Qazıyev, rejissor assisenti isə Xədicə Qazıyeva olmuşdur [63, v.20-29].

Azərbaycan incəsənətinin inkişafı sahəsində xidmətlərinə görə Azərbaycan SSR Ali Sovetin Rəyasət Heyətinin 17 iyun 1943-cü il tarixli fərmanı ilə bir qrup aktyora, o cümlədən Naxçıvan Dövlət Dram Teatrının aktyorlarından İbrahim Həmzəyevə, Səməd Mövləviyə, Əyyub Haqverdiyevə və həmyerlimiz, Quba Dram Teatrında bədii rəhbər və rejissor işləyən İsa Musayevə Azərbaycan SSR-nin əməkdar artisti fəxri adı verilmişdir [104, 1943, 22 iyun]

1943-cü ilin avqustunda M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının bədii briqadası 15 gün müddətində Naxçıvanda olmuşdur. Bədii briqadanın tərkibinə Azərbaycan SSR-in Xalq artistləri Fatma Qədri, Kazım Ziya, Azərbaycan SSR-in Əməkdar artistləri Haşım Kələntərli, Əjdər Sultanov, Hökümə Qurbanova daxil idilər. Briqadaya M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının direktoru, Əməkdar İncəsənət xadimi S.Turabov rəhbərlik edirdi. Briqadanın üzvləri qastrolda S.Vurğunun "Vaqif", "Fərhad və Şirin", M.İbrahimovun "Məhəbbət", S.Rəhmanın "Toy" əsərlərini göstərmişlər. Naxçıvan teatrı 1943-cü il-də Azərbaycan xalqının mübariz keçmişini, qəhrəmanlığını, müasir həyatını qəhrəman övladlarının müharibə illərində göstərdikləri igidliyi əks etdirən əsərləri uğurla tamaşaya qoymuşdur [15, s.163].

Naxçıvan teatrı 1943-cü il mövsümünü 10 sentyabr tarixdə S.Vurğunun "Vaqif" mənzum faciəsi ilə açmışdır. Teatr 1943-1944-cü il repertuarına Rəsul Rzanın "Vəfa", Abdulla Şaiqin "Vətən", C.Cabbarlının "Oqtay Eloğlu", "Yaşar", A.Şirvanzadənin "Namus", N.B.Vəzirovun "Adı var, özü yox", Şeksprin "Otello", Şillerin "Məkr və Məhəbbət", S.Rüstəmin "Qaçaq Nəbi", A.Ostrovskinin "Günahsız müqəssirlər" pyeslərini və bir sıra başqa əsərləri daxil etmişdir.

Naxçıvan teatrı müharibə illərində muxtar respublikanın rayon və kəndlərində maraqlı tamaşa və konsert proqramı ilə çıxış etmişdir. 1943-cü ilin taxıl və eləcə də pambıq yığımı kampaniyasında teatrın aktyorları muxtar respublikanın Şərur, Şahbuz, Ordubad, Culfa rayonlarında rayon əməkçilərinə tarixi dramlardan tamaşalar göstərmiş, bədii konsertlər vermişlər [63,v.4-7].

1943-cü ildə Naxçıvan MSSR XKS yanında İncəsənət İşləri İdarəsinin təşəbbüsü ilə Naxçıvanda Dövlət cazı təşkil edilmişdir. Həmin caz orkestrinin iştirakçılarının ilk vaxtlarda sayca az olmasına baxmayaraq, orkestrin bədii rəhbəri Məmməd Cavadov və adminstrator Daniel Jivovun ciddi çalışması nəticəsində məzmunlu proqram yaradılmışdı. Bu caz orkestrinin təkcə Naxçıvanda deyil, digər rayon mərkəzlərində və kolxozlarda da çıxışları olmuşdur [104,1943, 24 noyabr].

Naxçıvan teatrında 1944-1945-ci illərdə A.Şirvanzadənin "Namus", A.Şaiqin

"Vətən", Q.Musayevin "Arsenal", K.Simonovun "Vətən oğlu", V.Şeksprin "Otello", C.Məmmədquluzadənin "Ölülər", N.Nağıyevin "Polad", Şkvarkinin "Şən nəğmə" və sair əsərlər tamaşaya qoyulmuşdur. 7 yanvar 1944-cü il tarixdə M.S.Ordubadi və S.Rüstəmovun "Beş manatlıq gəlin", 24 mart 1944-cü il tarixdə A.Şaiqin "Vətən", 7 may 1944-cü il tarixdə A.Şirvanzadənin "Namus", 24 noyabr 1944-cü il tarixdə isə C.Məmmədquluzadənin "Ölülər" əsərinin tamaşaya qoyulması teatrın əmrlərində öz əksini tapmışdır [63, v.24-11].

1944-cü ildə Naxçıvan teatrının aktyorlarının döyüşçülər və zəhmətkeşlər qarşısında uğurlu çıxışları və onların ifaçılıq qabiliyyəti nəzərə alınaraq M.H.Mirişliyə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti fəxri adı verilmiş, Əyyub Haqverdiyev isə Zaqafqaziya Hərbi dairəsi komandanlığının, Azərbaycan SSR Ali Sovetinin və Naxçıvan MSSR Ali Sovetinin fəxri fərmanları ilə təltif edilmişdir [104,1966, 13 dekabr].

Müharibə dövrünün çətinliklərinə, kadrların böyük əksəriyyətinin cəbhəyə getməsinə, maddi çatışmazlığa baxmayaraq, respublikamızın maarif və mədəniyyət müəssisələri nəinki öz fəaliyyətlərini genişləndirir, eyni zamanda bir sıra yeni incəsənət ocaqları və ədəbi birliklər yaradırlar. Müharibə illərində (1944) teatra olan maraq nəzərə alınaraq Ordubadda Dövlət Dram Teatrı təşkil edilir. M.F.Axundov adına Naxçıvan Dövlət Dram Teatrı Ordubad Dövlət Dram Teatrında kadr və bacarıqlı aktyor heyətinin az olmasını nəzərə alaraq onları himayəyə götürmüşdü. Naxçıvan MSSR Ali Soveti Rəyasət heyyətinin 31 iyul 1944-cü il tarixli fərmanı ilə həmin teatra M.S.Ordubadinin adı verilmişdi.

Naxçıvan teatrının 60 illik yubileyi ilə əlaqədar Naxçıvanda yeni tikilmiş beş yüz yerlik yay kinoteatrına C.Məmmədquluzadənin adı verilir [60,v.57-58].

21 avqust 1944-cü il tarixdə Naxçıvan MSSR Xalq Komisarları Soveti yanında İncəsənət İşləri İdarəsinin rəisi İsa Musayev Azərbaycan İncəsənət işləri İdarəsinin rəisi Rəhimova xalqımızın mədəni tələbini ödəmək məqsədi ilə bir sıra incəsənət obyektlərinin yaradılması barədə müraciət etmişdir. Göndərilən sənəddə Naxçıvan şəhərində orta musiqi məktəbinin açılması, Dövlət Flarmoniyası, Şəxsi yaradıcılıq evi, Rəssamlıq məktəbi, İncəsənət muzeyi, Ordubad rayonunda musiqi məktəbi, Şərur rayonunda dövlət teatrı kimi bir sıra obyektlərin yaradılmasını nəzərə çatdırmışdır. Sənəddə göstərilən obyektləri təşkil etmək üçün bina və kadr olduğu da vurğulanmışdır. Eyni zamanda bildirilmişdir ki, Azərbaycan XKS-ninin 1944-cü ildəki qərarında Rəssamlıq məktəbi muzeyinin açılması göstərilsə də, lazım olan vəsaitin alınması üçün Naxçıvan XMK sərəncam verməmişdir.

1944-cü il yanvar ayının 1-nə olan incəsənət üzrə məlumat cədvəlindən aydın olur ki, Naxçıvan şəhərində bir teatr olmaqla, burada 20 kişi, 10 qadın aktyor, 2 kişi rəssam,12 kişi və 2 qadın şair fəaliyyət göstərirdi. Eyni zamanda bir caz orkestri olmaqla, burada 15 kişi və 5 qadın aktyor fəaliyyət göstərirdi. Ordubad şəhərində bir teatr fəaliyyət göstərmiş, burada 14 kişi, 5 qadın aktyor, 1 kişi aşıq

və 1 kişi rəssam olmuşdur. Naxçıvan rayonu üzrə 1 ansambl olmaqla, burada 5 kişi, 3 qadın aktyor və 9 kişi aşıq olmuşdur. Şərur rayonunda 3 kişi aşıq, Şahbuz rayonunda 2 kişi, 1qadın aşıq, Əbrəqunus rayonuda isə 2 kişi aşıq olmuşdur [63,v.64].

1944-cü ilin birinci yarım illində Naxçıvan M.F.Axundov adına Dövlət Dram Teatrı planda nəzərdə tutulmuş 137 tamaşa əvəzinə 140 tamaşa vermişdir. Həmçinin yeni əsərlərdən 4-ü tamaşaya qoyulmuş, tamaşaçıların sayı isə 17839 nəfər olmuşdur. Kolxozlarda 30, hərbi hissələrdə 6 konsert verilmiş, tamaşaçıların sayı isə 9000 nəfər olmuşdur. Ordubad teatrında 3 yeni əsər tamaşaya qoyulmuş, 53 tamaşa göstərilmiş və kolxozlarda 18 konsert verilmişdir.Tamaşaçıların sayı 10600 nəfər olmuşdur.

1944-cü il oktyabrın 10-da Naxçıvan musiqi məktəbinin müəllim kollektivinin yığıncağı keçirilir. Məktəbin təmirinə büdcədən pul ayrılsa da bu təmir ehtiyaclarını qarşılamadığı üçün, yığıncaqda iştirak edən məktəbin müəllimləri qərar qəbul edirlər ki, istirahət günləri kolxozlarda konsert keçirib alınan pulu məktəbin hesabına versinlər [60,v.124].

Naxçıvan MSSR-in 24-cü ildönümü münasibəti ilə Naxçıvan İncəsənət İşləri İdarəsinin görəcəyi iş planında göstərilmişdir ki, kolxozlara, hərbi hissələrə və yaylaqlara bədii briqadalar göndərilsin. Həmçinin Naxçıvan şəhərindəki yay teatrına C.Məmmədquluzadənin, Ordubad Dövlət Dram Teatrına isə M.S.Ordubadinin adı verilsin [60,v.27].

Naxçıvan teatrının aktyor kollektivi tərəfindən 1944-cü il noyabrın 25-də Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi tamaşaya qoyulmuşdur. Tamaşanın rejissoru İbrahim Həmzəyev və Səməd Mövləvi olmuşdur.

İkinci Dünya müharibəsinin son günlərində (8 may 1945- ci ildə) Naxçıvan teatrının keçmiş rəssamı, Böyük Vətən müharibəsi iştirakçısı, yerli dramaturq Nağı Nağıyevin "Polad" əsəri tamaşaya qoyulur [104, 1945, 8 may].

Naxçıvan teatrının müharibə dövrünün əsas tamaşaları aktual və həyati əhəmiyyətə malik olub, teatrın yaradıcılıq həyatında keyfiyyət dəyişikliyi əks etdirir. Bu tamaşalar insanları mənəvi cəhətdən saflaşdırır, onlarda milli qürur hissi tərbiyə edir, düşmənə qarşı nifrət hissini gücləndirir və qələbəyə inamı artırırdı [88, s.167].

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYATLAR

1. *Abbasova S.Z.* Naxçıvan Muxtar Respublikasında qadın hərəkatının inkişaf tarixi. Bakı: Elm və təhsil, 2014, 228 s.
2. *Axundov A., Vəliyev S.* Naxçıvan ədəbi mühiti. Bakı: Nurlan, 2008, 216 s.
3. *Alıcanov M.* Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı. Bakı: Elm,1975, 250 s.

4. Azərbaycanın Qızıl Ulduzları. Bakı: İşıq, 1975, 313 s.
5. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİ SSA), f.1. siy.280, iş 3.
6. ARPİİ SSA, f.2, siy.42, iş 17.
7. "Azərbaycan gəncləri" qəzeti.
8. "Azərbaycan kommunisti" jurnalı.
9. "Azərbaycan komsomolçusu" jurnalı.
10. "Azərbaycan qadını" jurnalı.
11. Azərbaycan tarixi: Yeddi cilddə, 7-ci cild, Bakı: Elm, 2003, 676 s.
12. *Bağırzadə Ə.* Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində. 1941-1945. Bakı: Azərnəşr, 1970, 441 s.
13. *Bağırov A.N.*İbrahım Bağırov-75. Bakı: Nurlan, 2002, 236 s.
14. *Bağırov V.* II Cahan müharibəsində Ordubad və ordubadlılar. Bakı: Elm və təhsil, 2010, 208 s.
15. *Cəfərov F.,Qəhrəmanov Ə., İbrahimov S.* Naxçıvan teatrının salnaməsi (1886-2008). Naxçıvan: Əcəmi NPB, 2010, 734 s.
16. "El həyatı" qəzeti.
17. *Əmrahov M.İ.* İkinci Dünya müharibəsi.1939-1945. Bakı: Mütərcim, 2010, 552 s.
18. *Əmrahov M.İ.* Azərbaycan mədəniyyəti İkinci Dünya müharibəsi illərində (Avtoreferat). Bakı: Mütərcim, 2006, 46 s.
19. *Hacıyev İ.M.* Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında qadınların iştirakı (1941-1945-ci illər). Bakı: Elm, 2008,150 s.
20. *Hacıyev İ., Məmmədov Ş.* Naxçıvan və naxçıvanlılar. Bakı: Elm, 2001, 280 s.
21. *Hüseynov X.A.* Avropa ölkələrində partizan və antifaşist müqavimət hərəkatında Azərbaycan SSR-in Naxçıvan MSSR-dən olan döyüşçülərinin döyüş yolu (Dərs vəsaiti). Bakı: ADPU, 2012, 53 s.
22. *İsmayılov.İ.Z.* Azərbaycanlıların II Dünya müharibəsində iştirakı. Bakı: Qızıl Şərq, 2000,128 s.
23. "İşıqlı yol" qəzeti.
24. "Kommunist " qəzeti.
25. *Mədətov Q.Ə.* Azərbaycan Böyük Vətən müharibəsində.1941-1945. Bakı: Azərbaycan SSR EA, 1965, 503 s.
26. *Məmmədov A.N.* Naxçıvan MSSR-də səhiyyənin tarixi və mərhələli inkişafi (1826-1966). Bakı: Nurlan, 2006, 190 s.
27. *Məmmədov S.* Azərbaycanın şanlı qızları. Bakı: İşıq,1988,160 s.
28. *Məmmədov V.* C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu. Bakı: Çənlibel, 2001, 220 s.
29. Naxçıvan Muxtar Respublika Dövlət Arxivi (NMR DA), f.1,siy.1, iş 1.
30. NMR DA, f.1, siy.1, iş 9.

31. NMR DA, f.1, siy.1, iş 10.
32. NMR DA, f.1, siy.1, iş 14.
33. NMR DA, f.1, siy.1, iş 19.
34. NMR DA, f.1, siy.1, iş 26.
35. NMR DA, f.1, siy.1, iş 30.
36. NMR DA, f.1, siy.1, iş 36.
37. NMR DA, f.1, siy.1, iş 53.
38. NMR DA, f.1, siy.1, iş 90.
39. NMR DA, f.1, siy.1, iş 644.
40. NMR DA, f.1, siy.1, iş 1750.
41. NMR DA, f.1, siy.1, iş 2119.
42. NMR DA, f.1, siy.1, iş 2132.
43. NMR DA, f.1, siy.2, iş 3.
44. NMR DA, f.1, siy.2, iş 8.
45. NMR DA, f.1, siy.2, iş 12.
46. NMR DA, f.1, siy.2, iş 14.
47. NMR DA, f.2, siy.1, iş 18.
48. NMR DA, f.2, siy.1, iş 22.
49. NMR DA, f.2, siy.1, iş 29.
50. NMR DA, f.2, siy.1, iş 81/86
51. NMR DA, f.2, siy.2, iş 16.
52. NMR DA, f.2, siy.3, iş 10.
53. NMR DA, f.2, siy.3, iş 38.
54. NMR DA, f.2, siy.3, iş 118.
55. NMR DA, f.2, siy.3, iş 418.
56. NMR DA, f.2, siy.4, iş 10.
57. NMR DA, f.3, siy.1, iş 14.
58. NMR DA, f.7, siy.1, iş 66.
59. NMR DA, f.15, siy., iş 25.
60. NMR DA, f.15, siy.1, iş 28.
61. NMR DA, f.34, siy.12, iş 106.
62. NMR DA, f.50, siy.1, iş 27.
63. NMR DA, f.50, siy.2, iş 9/12.
64. NMR DA, f.116, siy.1, iş 419.
65. NMR DA, f.215, siy.1, iş 52/53.
66. NMR DA, f.224, siy.5, iş 72.
67. NMR DA, f.224, siy.5, iş 79.
68. NMR DA, f.224, siy.5, iş 83/93.
69. NMR DA, f.294, siy.6, iş 33.
70. NMR DA, f.299, siy.1, iş 28.

71. NMR DA, f.299, siy.1, iş 30.
72. NMR DA, f.299, siy.1, iş 48.
73. NMR DA, f.299, siy.1, iş 58.
74. NMR DA, f.299, siy.1, iş 66.
75. NMR DA, f.299, siy.1, iş 72.
76. NMR DA, f.299, siy.1, iş 156.
77. NMR DA, f.299, siy.1, iş 157.
78. NMR DA, f.299, siy.3, iş 53.
79. NMR DA, f.314, siy.5, iş 428.
80. NMR DA, f.448, siy.2, iş 3.
81. NMR DA, f.578, siy.1, iş 4/4.
82. NMR DA, f.613, siy.1, iş 139.
83. NMR DA, f.728, siy.1, iş 21-22.
84. NMR DA, Kino-foto şöbəsi, iş 30085.
85. NMR DA, Kino-foto şöbəsi, iş 30090.
86. NMR DA, Kino-foto şöbəsi, iş 30094.
87. NMR DA, Kino-foto şöbəsi, iş 32846.
89. Naxçıvan teatrı (məqalələr, xatirələr). Naxçıvan: Əcəmi NPB, 2014, 296 s.
90. *Nəbiyev B.* Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı. Bakı: Elm, 1977, 330 s.
91. "Nuh yurdu" qəzeti.
92. "Oğuz səsi" qəzeti.
93. *Orucov Q.* Azərbaycan Qafqaz döyüşlərində. Bakı: Azərnəşr, 1984, 158 s.
94. *Paşayev N.* Nəriman Nərimanov və Azərbaycan mədəniyyəti. Bakı: Azərnəşr,1986,176 s.
95. *Rəfiyev C.R.* Vətəndən uzaqlarda. Bakı: Elm,1974,129 s.
96. *Rəfiyev C.R.* Getsin o günlər. Bakı: Yazıçı, 1982,122 s.
97. *Rəfiyev C.R.* Nəcəfqulu Rəfiyev. Bakı: Azərnəşr,1985, 32 s.
98. *Sadıqov S.* Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı: Azərbaycan EA,1995,144 s.
99. "Sosializm maldarlığı" qəzeti
100. *Seyid Surə.* "Şərq qapısı" qəzeti və Naxçıvanda ədəbi mühit. Bakı: Elm və təhsil, 2010, 208 s.
101. *Seyidzadə Hacı Tofiq.* Sədərək kəndi müharibə illərində. Bakı: ADPU, 2014,120 s.
102. *Seyidzadə Hacı Tofiq, Əhməd Türk Sədərəkli.* 408 Sədərəkli Vətən uğrunda. Bakı: ADPU, 2010, 175 s.
103. "Sovet Naxçıvanı" qəzeti.
104. "Şərqin səhəri" qəzeti.
105. "Şərq qapısı" qəzeti.

106. “Şərurun səsi” qəzeti.
107. “Yeni həyat” qəzeti.
108. Азербайджанская ССР в период Великой Отечественной войны. Том I. (1941-1945 гг.) Баку: Азернешр, 1976, 628 с.
109. Азербайджанская ССР в период Великой Отечественной войны. Том II. (1941-1945 гг.) Баку: Азернешр, 1977, 376 с.
110. *Багирзаде А.З.* Азербайджанская интеллигенция в годы Великой Отечественной войны. Баку: Азернешр, 1989, 311 стр.
111. *Мадатов Г.А.* Азербайджан в Великой Отечественной войне. Баку: Элм,1975, 403 с.
112. *Муталлимов Х.* 51-я гвардейская многонациональная.Баку: Азернешр, 1978, 294 с.

II FƏSİL

NAXÇIVAN MÜHARİBƏDƏN SONRAKI BƏRPA DÖVRÜNDƏ VƏ 50-60-CI İLLƏRDƏ

1. Naxçıvan müharibədən sonrakı bərpa illərində

İkinci Dünya müharibəsinin başlanması və gedişi, faşist işğalçılarının SSRİ-yə hücumu sovet imperiyasının bütün iqtisadi regionları kimi, Azərbaycan Respublikasının və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MSSR əhalisinin də dinc həyat tərzini pozdu, onun xalq təsərrüfatının inkişafını müəyyən qədər ləngitdi, iqtisadiyyatını müharibə dövrünün tələbləri əsasında qurmağı tələb etdi. Bu dövrdə muxtar respublika xalq təsərrüfatının maddi-texniki bazası xeyli zəiflədi. Naxçıvan ərazisində müharibə getməsə də, muxtar respublikanın xalq təsərrüfatı müharibə dövrünün bütün ağırlıq və gərginliyini tamamilə hiss etmişdi.

İkinci Dünya müharibəsi başa çatdıqdan sonra muxtar respublika zəhmətkeşləri müharibənin vurduğu yaraları sağaltmağı, dağılmış xalq təsərrüfatını bərpa və daha da inkişaf etdirməyi bir vəzifə olaraq qarşıya məqsəd qoymuşdu.

Bərpa dövründə muxtar respublikanın iqtisadi geriliyini aradan qaldırmağın yeganə və düzgün yolu xalq təsərrüfatını hər vasitə ilə inkişaf etdirmək idi. 1946-cı il sentyabr ayının 9-da Naxçıvan MSSR Ali Sovetinin sessiyası "1946-1950-ci illərdə Naxçıvan MSSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair dördüncü beşillik plan haqqında" Qanun qəbul etdi [112, 1946, 11 sentyabr].

1946-cı il sentyabrın 9-da Naxçıvan MSSR Ali Sovetinin VII sessiyasında qəbul olunan "1946-1950-ci illər üçün Naxçıvan MSSR xalq təsərrüfarının bərpa və inkişafına dair beşillik plan"ın əsas vəzifələri sırasında - kənd təsərrüfatını, tikinti quruculuq işlərini, sənayenin yüksəlişini müharibədən əvvəlki səviyyəyə çatdırmaq və onu ötüb keçmək, zəhmətkeşlərin alıcılıq qabiliyyətini yaxşılaşdırmaq, geoloji-kəşfiyyat işlərini genişləndirmək kimi təsərrüfat və siyasi məsələlər nəzərdə tutulmuşdu [81, v. 3]. 1946-1950-ci illərdə Naxçıvan MSSR-də xalq təsərrüfatının inkişafı üçün 24,5 milyon manat əsaslı vəsait müəyyən edilmişdi [81, v. 4].

Xalq təsərrüfatının mühüm sahələrindən biri olan kənd təsərrüfatının muxtar respublikada inkişaf etdirilməsi dördüncü beşilliyin qarşısında dayanan mühüm vəzifələrdən biri idi. 1946-1950-ci illərdə kənd təsərrüfatı istehsalını müharibədən əvvəlki səviyyəyə çatdırmaq və onu ötüb keçmək, heyvandarlığı daha da inkişaf etdirmək kimi mühüm vəzifələr nəzərdə tutulmuşdu. Beşilliyin sonunda muxtar respublikada bütün kənd təsərrüfatı məhsulları 1940-cı ilə nisbətən 21,2 faiz artırılmalı idi [81, v. 7].

Naxçıvan MSSR-də 1950-ci ildə ümumi əkin sahəsi 56 200 hektara çatdırılmalı idi ki, bu da 1940-cı ildə olan ümumi əkin sahəsindən 532 hektar çox idi [84, s. 36]. Beşilliyin sonunda qaramalın sayı 57,9 faiz, davarların sayı 15,6 faiz, ev quşlarının



Naxçıvan MSSR 1930-1991-ci illərdə

sayı 3 dəfə artırılmalı idi [81, v. 6]. 1946-1950-ci illərdə Naxçıvan MSSR-də kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, onun traktor, kənd təsərrüfatı maşınları və alətlərlə, habelə energetika, mineral gübrə ilə təchizatı, kənd təsərrüfatı mütəxəssisləri hazırlanması, torpaq, su və s. problem məsələlərin həlli diqqət mərkəzində olmuşdu.1946-1950-ci illərdə kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırmaq, növbəli əkin üsulunu və suvarma işlərini bərpa etmək, 2500 hektar yeni əkin sahəsini su ilə təchiz etmək, 10 yerdə artezian quyusu qazmaq, 5 il ərzində 50 kəhrizin kürəsini uzatmaq, 5 yeni kəhriz qazmaq, gölləri, kanalları təmir etmək, kəndlərdə kiçik su elektrik stansiyalarının tikilməsi kimi mühüm məsələlər də nəzərdə tutulurdu [81, v. 9-10].

Muxtar respublikanın kənd təsərrüfatı əməkçiləri dördüncü beşillik planı yüksək qarşılayaraq, onu yerinə yetirmək uğrunda geniş fəaliyyətə başladılar. Məhz bunun nəticəsində 1946-1950-ci illərdə Naxçıvan MSSR-də kənd təsərrüfatının inkişafına ciddi fikir verilmişdi. Əkin sahələri xeyli artmış, maddi-texniki baza

möhkəmləndirilmiş, traktorların sayı çoxalmış, kənd təsərrüfatı maşın və alətləri, energetika, mineral gübrə, su ilə təmin edilmiş, kənd təsərrüfatı mütəxəssislərinin sayı artırılmışdı.

Naxçıvan MSSR-də keçirilən qabaqcıl taxılçıların, pambıqçıların, tütünçülərin, üzümçülərin, heyvandarların, baramaçıların, kənd təsərrüfatı mütəxəssislərinin respublika müşavirələri və fəallar yığıncaqlarında kənd təsərrüfatının inkişafının ən mühüm məsələləri müzakirə olunmuş, nöqsanlar göstərilmiş, yüksək məhsul əldə etmək üçün tövsiyələr verilmiş, qabaqcıl təcrübələrdən istifadə etməyin səmərəli nəticələr verdiyi göstərilmişdi. Kənd təsərrüfatının inkişafı, məhsuldarlığının yüksəldilməsi və artırılması uğrunda mübarizəyə həsr olunmuş bu müşavirə və yığıncaqların müsbət əhəmiyyəti olmuşdu. Nəticədə 1946-1950-ci illərdə muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı və dövlətə satışı planları vaxtından əvvəl yerinə yetirilmişdi.

Müharibədən sonra muxtar respublikada kənd təsərrüfatının bərpası və inkişafı ilə əlaqədar olaraq, 1946-1950-ci illərdə kənd təssərrüfatı istehsalı və kənd təssərüfatı məhsularının dövlətə satış planları vaxtından əvvəl yerinə yetirilmişdi. Belə ki, 1950-ci ildə muxtar respublikada əkinçilik və heyvandarlıq məhsullarının dövlətə satış və tədarükü planı yerinə yetirilmiş, 3 438 ton taxıl, 17 yun, 80 ton barama və sair kənd təsərrüfatı məhsulları təhvil verilmişdi [40, s.111; 101, s. 73-74].

Müharibə dövründə muxtar respublikanın kənd təsərrüfatının ən mühüm sahəsi olan pambıqçılıq dayandırılmış, onun yerində gənəgərçək bitkisi əkilmişdi. Müharibədən sonra pambıqçılıq yenidən bərpa edilərək, onun məhsuldarlığı xeyli artırılmışdı. Ümumiyyətlə, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının kənd təsərrüfatı işçiləri 1946-1950-ci illərdə kənd təsərrüfatını dinc quruculuq illərinin tələbləri əsasında yenidən qurmuş, kənd təsərrüfatını inkişaf etdirmək, dövlət plan və tapşırıqlarını yerinə yetirmək sahəsində muxtar respublika iqtisadiyyatının inkişafında mühüm nailiyyətlər qazanmışdılar.

Naxçıvan MSSR-də işçi qüvvəsi, xammal və materiallar yeni qaydada bölüşdürülmüş, kənd təəsərrüfatının inkişafına əsaslı sərmayə qoyuluşu artırılmış, muxtar respublikada kənd təsərrüfatı yenidən qurulub, dinc inkişaf yoluna keçmişdi. Nəticədə xalqın güzəranı xeyli yaxşılaşmışdı. 1946-1950-ci illərdə Naxçıvan MSSR-də tikinti quraşdırma işlərinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilmişdi. Naxçıvan MSSR Sənaye Nazirliyi üzrə nəzərdə tutulmuş 5 907,6 min manat vəsaitin hesabına muxtar respublikada zavodlar, yeni tikintilər, tikintisi başa çatmayan sənaye müəssisələri tikilib istifadəyə verilməli idi.

Beşillik plana görə Ordubad ipək və konserv zavodlarında, Naxçıvan mebel, mərmər fabriklərində, Culfa dağ metal kombinatında istehsal xeyli genişləndirilməli, Ordubad rayonunda Parağa kombinatı işə salınmalı idi. Əsaslı tikinti sahəsində Naxçıvan duz mədəninə su kəmərinin çəkilməsi, kərpic zavodunun mexanikləşdirilməsi, Badamlı mineral sular zavodunun, Naxçıvan şəhərində yeni stadion,

Ordubad şəhərində idman zalı, Naxçıvan Vilayət Partiya Komitəsinin, Naxçıvan MSSR Nazirlər Sovetinin, rayon icrayə komitələrinin binaları, Naxçıvan Dram Teatrının, yaşayış binalarının və s. müəssisələrinin tikilməsi də nəzərdə tutulmuşdu.

Beşillikdə Naxçıvan Sənaye İttifaqı üzrə əsaslı vəsait qoyuluşu 2150,5 min manat, Yerli Sənaye Nazirliyi üçün 2 150,0 min manat müəyyən edilmişdi ki, bu hesaba yeni sənaye sahələri yaradılsın.

1946-1950-ci illərdə muxtar respublikada olan Sabir adına Əlillər arteli üzrə 950,0 manat əsaslı vəsait nəzərdə tutulmuşdu ki, istehsal müəssisəsi tikilsin, təmir işlərinə sərf olunsun [84, v.21]. Naxçıvan Kooperativlər İttifaqı və səhiyyə müəssisələri üzrə 2 107,0 min manat nəzərdə tutulmuşdu ki, yeni mağazaların tikilməsinə, tikintisi yarımçıq qalmış müəssisələrin, uşaq bağçalarının, xəstəxanaların və "Soyuz mişyak" sanatoriyasının tikilməsinə sərf olunsun.

Beşillikdə Naxçıvanda mebel, mərmər fabrikləri, Badamlı mineral sular zavodu tikildi. Ordubad ipək fabriki və konserv zavodu tamamilə yenidən quruldu. Ordubadın Parağaçay, Şərurun Gümüşlü dağında böyük əhəmiyyəti olan yeni dağ mədənləri kəşf olundu, muxtar respublikanın ərazisində müalicə əhəmiyyəti olan mədən sularının zəngin bulaqları aşkar edildi, tikinti quraşdırma işləri aparıldı.

1950-ci illərdə Ordubad rayonunda yerləşən Parağaçay molibden mədəni və saflaşdırma fabriki istifadəyə verildi. Şərur rayonunda Gümüşlü qurğuşun yataqları istismara verildi [42, s.376]. Əsaslı tikinti sahəsində nəzərdə tutulmuş Naxçıvan duz mədəninə su kəməri çəkilmiş, kərpic zavodları mexanikləşdirilmiş, Badamlı mineral sular zavodu istifadəyə verilmiş və digər bu kimi tikinti quraşdırma işləri aparılmışdı. Bərpa illərində muxtar respublikada tikinti işlərinin xəritəsi genişləndirilmişdi.

1946-cı il sentyabrın 9-da Naxçıvan MSSR Ali Sovetinin VII sessiyası tərəfindən qəbul edilmiş dördüncü beşillik planın problem məsələlərindən biri də Naxçıvan MSSR-də sənayeni bərpa və inkişaf etdirmək idi. Bu məqsədlə 1946-1950-ci illərdə dövlət büdcəsində Naxçıvan MSSR Yerli Sənaye Nazirliyi üzrə 5 907,6 min manat, Naxçıvan MSSR Yeyinti Sənaye Nazirliyi üzrə 2 550,0 min manat, Sabir adına Əlillər arteli üzrə 950,0 min manat sərmayə müəyyən edilmişdi [84, v. 12, 15, 21]. Beşillikdə Naxçıvan MSSR Sənaye Nazirliyi və idarələri üzrə ümumi məhsul istehsalı 12,4 milyon manat, o cümlədən yerli sənaye üzrə 5,1 milyon manat (1926-1927-ci illərin qiyməti ilə) müəyyən edilmişdi ki, bu da 1940-cı ilə nisbətən 63 faiz artıq idi [69, s. 169].

Muxtar respublikanın sənaye işçiləri beşillik planı öz həyatı mənafelərinə tam müvafiq bir mübariz proqramı kimi qarşıladılar, onu yerinə yetirmək uğrunda mübarizəyə başladılar. 1946-cı ilin ilk günlərindən muxtar respublikanın sənaye müəssisələrində gərgin əmək həyatı vardı. Kütlələrin yaradıcı fəaliyyətini yüksəltmək məqsədilə Naxçıvan MSSR-də istehsal müşavirələri keçirilirdi. İstehsal müşavirələrində beşilliyin vəzifələri izah olunur, əmək kollektivlərinin işini yaxşılaşdırmaq

üçün əməli təkliflər irəli sürülürdü. Bu təkliflərin bir çoxu həmin vaxt istehsalata tətbiq olunurdu.

Muxtar respublika sənaye işçiləri 1946-cı il istehsalat planını müvəfəqiyyətlə yerinə yetirmişdilər. Naxçıvan Vilayət Partiya Komitəsinin XVI konfransının (1947-ci il, 16-17 yanvar) materiallarında deyilir: "Beşilliyin birinci ilində muxtar respublika sənaye işçiləri böyük müvəffəqiyyətlər qazandı. 1946-cı ildə muxtar respublika sənayesinin ümumi məhsul buraxılışına dair plan 101,3 faiz yerinə yetirildi. Sənaye müəssisələri 1,621 min manatlıq məhsul istehsal etdilər ki, bu da 1940-cı ilə nisbətən 4 dəfə çox idi [70, v. 66].

Sonrakı illərdə də bu nailiyyətlər davam etdirildi. Muxtar respublikanın sənaye müəssisələrinin fəhlələri, mühəndis-texnik işçiləri və qulluqçular dördüncü beşilliyi 4 ildə yaxşı nəticələrlə başa vurdu. Muxtar respublika sənaye işçiləri 1950-ci il planını 102,3 faiz yerinə yetirmiş, o cümlədən yerli sənaye məhsulları 120,8 faiz, ittifaq və respublika tabeliyində olan sənaye məhsulları 100,1 faiz ödənilmişdir [72, v. 59]. 1950-ci ildə muxtar respublikada sənaye məhsul istehsalı 1940-cı ilin səviyyəsini 1,4 dəfə ötüb keçdi [6, s. 41]. Muxtar respublikanın sənayesi müqayisəedilməz dərəcədə inkişaf yolu keçdi. Təkcə 1950-ci ildə Naxçıvan MSSR sənayesi müharibədən əvvəlki 1940-cı ildəkindən 8 milyon manatdan artıq məhsul istehsal etmişdi [102, s. 8].

Ümumiyyətlə, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının zəhmətkeşləri 1946-1950-ci illərdə təsərrüfatı dinc quruculuq illərinin tələbləri əsasında yenidən qurmuş, kənd təsərrüfatı, tikinti, quruculuq, sənaye və mədəniyyəti inkişaf etdirmiş, dövlət plan və tapşırıqlarını yerinə yetirmiş, muxtar respublika iqtisadiyyatının inkişafı sahəsində mühüm nailiyyətlər qazanmışdılar.

2. Azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiyası (1948-1953-cü illər) və Naxçıvan

Azərbaycan xalqı tarix boyu erməni millətçilərindən ağır zərbələr almış, lakin buna lazımi cavab verməmişdir. İlk növbədə erməni məkri, hiylə və xəyanəti lazımi səviyyədə qiymətləndirilməmişdir. Dünyanın bir sıra dövlətləri erməni amilindən faydalanmış, onları öz maraqlarına uyğun istiqamətləndirmiş, erməni millətçilərini qızışdırmış və onlara dəstək vermişdir. İri dövlətlərin himayəsi altında fəaliyyət göstərən ermənilər "Böyük Ermənistan" yaratmaq üçün hər cür çirkin əməlləri yerinə yetirmişlər [31, s. 7].

Erməni millətçiləri xəyali "Böyük Ermənistan"a Naxçıvanı da qatır, buna görə də Naxçıvanla bağlı saxta və qeyri-obyektiv məlumatlar yayır, Naxçıvan əhalisinə qarşı soyqırımlar törədirdilər. Naxçıvanlılar çoxlu sayda itki versələr də, erməni daşnaklarının arzularının reallaşmasına imkan verməmişlər.

Bu haqda bəhs edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri

Vasif Talıbov qeyd etmişdir ki, "İstər XIX əsrdə, istərsə də XX əsrin əvvəllərində Naxçıvana ermənilərin yerləşdirilməsi prosesi davam etdirilsə də, 1905-1907-ci və 1918-20-ci illərdə ermənilər tərəfindən Naxçıvanda qırğınlar törədilsə də, Naxçıvan əhalisi heç vaxt azadlıq əzmini və müqavimətini itirməmiş, həmişə öz sözünü deməyi bacarmış, düşmənin layiqli cavabını vermiş, hətta naxçıvanlıların qəhrəmanlığı ermənilərin tarixi əsərlərində də öz əksini tapmışdır" [31, s. 5; 111, s. 13].

Araşdırmalar göstərir ki, xəyali "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək üçün erməni millətçiləri Naxçıvan ərazisini işğal edib, Ermənistana birləşdirmək üçün həmişə əlverişli məqam axtarmışlar. Belə bir şərait İkinci Dünya müharibəsindən sonrakı illərdə yaranmışdı. Ermənilər Naxçıvanı Ermənistana birləşdirmək istəyirdilər. Bu barədə Ermənistan K(b)P MK və XKS-nin Stalinə müraciəti olmuşdu.

Erməni hökumətinin və daşnak partiyasının Stalinə olan müraciəti baş tutmadığından Ermənistan rəhbərləri öz taktikasını dəyişməli olur, xaricdən gətirilən ermənilərı yerləşdirmək bəhanəsi ilə Ermənistandan (Qərbi Azərbaycandan) olan azərbaycanlıların deportasiya edilməsinə nail olmağa çalışırlar. Onlar xaricdən gələn ermənilərı yerləşdirmək üçün İ.Stalinə müraciət edirlər. Hələ Tehran konfransında Sovet-İran münasibətləri müzakirə edilərkən, gələcəkdə "Böyük Ermənistan" dövləti yaratmaq xülyasında olan erməni diasporunun nümayəndəsi əlverişli şəraitdən istifadə edərək, SSRİ xarici işlər naziri Molotova müraciət edib, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsinə icazə istəmişdilər. V.Molotov məsələ ilə bağlı İ.Stalinə danışdıqdan sonra onların Ermənistan SSR ərazisinə köçürülməsinə razılıq verilmişdi [10, s. 148].

Müharibə qurtarandan dərhal sonra erməni millətçiləri Dağlıq Qarabağın Azərbaycandan qoparılması üçün yeni qəsdə əl atdılar. 1945-ci ilin payızında Ermənistan KP MK-nın birinci katibi Q.Harutunyan İ.Stalini inandırır ki, Ermənistandan köçürülən azərbaycanlıları Azərbaycanın pambıq yetişən rayonlarında, Mil-Muğan düzənliyində yerləşdirmək iqtisadi cəhətdən sərfəlidir [30, s. 18].


СВОДНЫЙ ПЛАН

ПЕРЕСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНСКОГО НАСЕЛЕНИЯ ИЗ АРМЯНСКОЙ ССР В АЗЕРБ.ССР В 1946 году.

РАЙОНЫ	Азербайджанского населения всего		Подлежит переселению в 1946 году		В ТОМ ЧИСЛЕ: Весной		Осенью	
	Хозяйств	Душ	Хозяйств	Душ	Хозяйств	Душ	Хозяйств	Душ
Артезианский район	753	2923	505	2005	330	1282	175	723
Кагановичский "	-	19805	309	1533	124	645	185	888
Эчмиадзинский "	180	745	180	745	-	-	180	745
Ноемберянский "	466	2233	245	1179	245	1179	-	
Октемберянский "	259	1145	259	1165	12	31	247	1134
Р-н им. Берия	40	170	40	170	40	170	-	-
Веденский район	-	5527	-	500	-	500	-	-
Зангибасарский р-н	3097	12929	737	3509	405	2115	332	1394
Котайский "	38	208	38	208	38	208	-	-
гор. Ереван	-	-	65	230	65	230	-	-
ИТОГО:		45685	2378	11244	1159	6360	1119	4884

Azərbaycanlıların Ermənistan SSR ərazisindən Azərbaycana köçürülməsinin ümumi planı. 1946-cı il

ERMƏNİSTANDAN AZƏRBAYCANLILARIN DEPORTASİYASI VƏ NAXÇIVANA ERMƏNİ TƏCAVÜZÜ (1918—1920,1948—1953, 1988—1993-cü illər)



Rəssam Bəhruz Kəngərlinin "Qaçqınlar" silsiləsindən (1918-1920-ci illər)

1918-1920, 1948-53, 1988-93-cü illərdə Ermənistandan 900 000 nəfər azərbaycanlı deportasiya olunmuşdur

Naxçıvanın Ermənistan tərəfindən işğal olunmuş ərazisi

Ermənistan qoşunlarının hərbi təcavüzü nəticəsində doğma yurdlarından didərgin düşmüş qaçqın və köçkünlərin müvəqqəti məskunlaşdığı yerlər

Azərbaycanlı qaçqınlar (1988-1993-cü illər)



Ermənistandan azərbaycanlıların deportasiyası və Naxçıvana erməni təcavüzü (1918-1920, 1948-1953, 1988-1993-cü illər)

Erməni millətçi dairələrinin xaricdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi ilə bağlı sovet rəhbərliyinə etdiyi müraciətlər cavabsız qalmamışdı. 1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi ilə bağlı Fərman verdi [10, s.148]. Beləliklə, azərbaycanlıların Ermənistan SSR ərazisindəki dədə-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başlandı.

İ.Stalinin 1947-ci il dekabrın 23-də imzaladığı SSRİ Nazirlər Sovetinin 4083 nömrəli qərarına əsasən, 1948-1953-cü illərdə yüz min azərbaycanlının Ermənistandan Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi planlaşdırılır. Qərarda göstərilir ki, 1948-1950-ci illərdə "könüllülük prinsipləri əsasında" Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. "Könullülük" ifadəsi xüsusi məqsədlə qərara salınmışdı. Əslində bu, repressiya idi. Qərara görə, 1948-ci ildə 10 min nəfərin, 1949-cu ildə 40 min nəfərin, 1950-ci ildə isə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu.

Birinci sənəddəki tələsiklik sovet dövlət rəhbərliyini 2-ci qərar verməyə vadar etmişdir. 1948-ci il mart ayının 10-da verilmiş qərarda tədbirin planı ətraflı şərh olunmuşdur [31, s. 164-165]. Bu qərara görə 100 min azərbaycanlı 1948-1950-ci illərdə "könüllülük prinsipi əsasında" Azərbaycana köçürülməli idi. Sovet hökuməti azərbaycanlıların çıxarıldığı ərazilərdə xaricdən gələn ermənilərin yerləşdirilməsinə icazə verdi.

1948-1953-cü illərdə heç bir könüllülük prinsipi nəzərə alınmadan Ermənistan SSR-dən 100 mindən çox azərbaycanlı zorla Azərbaycan SSR-ə köçürüldü. Ermənistanın dağlıq bölgələrindən Azərbaycanın Kür-Araz vadisinə köçürülən on minlərlə əhalinin taleyi faciəli oldu. Onlardan hər üç nəfərdən biri yeni şəraitə, isti, quru iqlimə, məişət təminatsızlığına uyğunlaşa bilməyib aclıq və xəstəlikdən həlak oldu. Moskva istədiyinə nail oldu. Ermənistanda azərbaycanlıların sayı azaldı [42, s. 382-383]. Göründüyü kimi, qış aylarında, həm də müharibədən sonra acınacaqlı həyat sürən əhalinin zorla köçürülməsi əslində ən ağır anti-humanist akt – repressiya idi.

İkinci Dünya müharibəsindən sonra ermənilərin qonşu ölkələrin torpaqlarına yiyələnmək planlarında Naxçıvan xüsusi yer tuturdu. Bu məqsədlə onlar öz mətbuat orqanlarında dünya ictimaiyyətinə belə bir sərsəm ideyanı sırımaq istəyirdilər ki, Naxçıvansız Ermənistan məhvə məhkumdur.

Tehranda çıxan "Alik" qəzetinin 25/26 avqust 1948-ci il tarixli (№190-191) sayında dərc edilmiş "Naxçıvanın Ermənistan üçün əhəmiyyəti" adlı məqalədə deyilir ki, "Naxçıvan Ermənistanın tarixi və coğrafi hissəsini təşkil edir, ona qaytarılmalı olan torpaqların bir hissəsidir və İrandan öz vətənlərinə qayıdan ermənilərin yaşaması üçün ən yaxşı yer olacaqdır" [59, s. 127].

Ermənilərin fikirlərinə görə azərbaycanlıları təkcə Ermənistandan deyil, eləcə də Naxçıvan MSSR-dən də köçürmək və onu Ermənistanın ərazisinə birləşdirmək lazımdır. Fransadan gəlmiş, daşnak partiyasının üzvlərindən biri isə bəyan edirdi ki,

vaxtilə daşnaklar Naxçıvan MSSR-in Ermənistana birləşdirmə məsələsini qoymuşdular, ancaq bir şey çıxmamışdı. İndi isə bu məsələni qaldırmağın vaxtı çatıb, çünki Ermənistanda torpaq azdır. Bu faktlar sübut edir ki, erməni kommunistləri və daşnaklar azərbaycanlıların deportasiyası ilə kifayətlənməyərək eyni zamanda Naxçıvanı ələ keçirmək, necə deyərlər "bir güllə ilə iki dovşan vurmaq" istəyirlər [59, s. 135].

Ermənilər və onların havadarları bütün tarix boyu Naxçıvanı ələ keçirmək üçün fitnə-fəsadlara əl atmışlar. Hələ 1988-ci ilə qədərki dövrdə müxtəlif vaxtlarda ermənilər Dərələyəzin azərbaycanlılar yaşayan Çul, Məmmədrza, Arınc, Bulaqlar, Qaravəng, Ərgəz, Novlu, Kolanlı, Gendərə, Göyabbas, Qayalı, Çaykənd və s. kəndlərini dağıtmış, əhalisinə amansız divan tutmuşlar [111, s. 39].

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ŞƏHƏR VƏ RAYONLARININ YAŞAYIŞ MƏNTƏQƏLƏRİNDƏ YAŞAYAN QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏR

№	Yaşayış məntəqələrinin adları	Qaçqınlar		Məcburi köçkünlər		Ev tikintiləri aparılan yaşayış məntəqələri
		ailə	nəfər	ailə	nəfər	
1	2	3	4	5	6	7
I. NAXÇIVAN şəh.		154	514	9	21	55
II. BABƏK RAYONU						
1	Şıxmahmud k.	10	43	2	6	
2	Nəzərabad k.	2	5	-	-	
3	Xəlilli k.	2	5	-	-	
4	Məzrə k.	14	56	-	-	
5	Zeynəddin k.	1	1	-	-	
6	Kültəpə k.	2	3	-	-	
7	Tumbul k.	2	15	1	3	
8	Yanmca k.	4	12	-	-	1
9	Qahab k.	1	3	-	-	
10	Qaraxanbəyli k.	3	17	-	-	
11	Aşağı Buzqov k.	3	9	-	-	
12	Kərimbəyli k.	7	21	-	-	1
13	Vəyxır k.	3	8	1	5	
14	Cəhri k.	-	-	1	1	1
15	Payız k.	-	-	-	-	
16	Nehrəm k.	-	-	1	1	
17	Didivar k.	3	9	-	-	3
18	Hacıvar k.	1	5	-	-	
19	Hacıniyyət k.	3	12	-	-	2
20	Qaraçuq k.	1	6	-	-	-
21	Şəkərabad k.	4	15	-	-	1
	Cəmi:	66	245	6	16	9
III. ŞAHBUZ RAYONU						
1	Gömür k.	42	186	2	10	19
2	Sələsüz k.	7	30	-	-	
3	Nursu k.	4	18	-	-	1
4	Biçənək k.	1	5	-	-	
5	Badamlı k.	1	2	-	-	
6	Badamlı qəs.	4	15	-	-	
7	Ağbulaq k.	2	6	-	-	
8	Qarababa k.	2	7	-	-	
9	Qızıl Qışlaq k.	4	11	-	-	1
10	Ayrınc k.	5	11	-	-	1
	Cəmi:	72	291	2	10	22

1	2	3	4	5	6	7
IV. SƏDƏRƏK RAYONU						
1	Heydərabad qəs.	3	13	73	342	14
2	Sədərək k.	11	26	4	12	-
3	Qaraağac k.	5	10	6	10	-
	Cəmi:	19	49	83	364	14
V. KƏNGƏRLİ RAYONU						
1	Xıncab k.	4	16	2	5	1
2	Çalxanqala k.	533	2015	7	43	34
3	Qarabağlar k.	-	-	1	6	
4	Yeni Kərki k.	-	-	68	235	14
	Cəmi:	537	2031	78	289	49
VI. ORDUBAD RAYONU						
1	Ordubad ş.	3	9	2	6	-
2	Şəhriyar qəs.	-	-	-	-	2
3	Parağa k.	68	211	1	1	18
4	Kələntər Dizə k.	1	1	-	-	-
5	Dəstə k.	-	-	1	4	-
6	Nəsirvaz k.	17	51	1	5	4
7	Darkənd k.	4	13	18	62	-
8	Bist k.	17	50	-	-	5
9	Xanağa k.	-	-	1	2	-
10	Əliəhi k.	4	12	-	-	1
11	Aza k.	-	-	-	-	-
12	Çənnəb k.	1	4	-	-	-
	Cəmi:	115	351	24	80	30
VII. ŞƏRUR RAYONU						
1	Şərur ş.	5	12	3	25	-
2	Muğanlı k.	-	-	1	1	-
3	Danyeri k.	6	29	2	6	2
4	Mahmudkənd k.	4	22	31	102	13
5	Ərəbyengicə k.	1	4	1	6	1
6	Xanlıqlar k.	1	5	1	6	-
7	Dəmirçi k.	17	63	1	4	-
8	Püsyan k.	-	-	1	3	-
9	Düdəngə k.	2	6	-	-	-
10	Zeyvə k.	2	6	-	-	-


1	2	3	4	5	6	7
11	Qarxun k.	1	8	-	-	-
12	Muğancıq-Mehrab	1	3	-	-	-
13	Kürçülü k.	2	14	-	-	-
14	Həmzəli k.	4	20	-	-	-
15	Oğlanqala k.	1	6	-	-	-
16	Çomaxtur k.	2	10	-	-	-
17	Dizə k.	2	7	-	-	1
18	Yuxarı Aralıq k.	3	27	-	-	-
19	Çəmənli k.	2	4	-	-	-
20	Çərçiboğan k.	1	4	-	-	-
21	Yengicə k.	4	19	-	-	4
22	Aşağı Yaycı k.	1	8	-	-	-
23	Maxta k.	1	6	-	-	1
24	Axaməd k.	4	14	-	-	-
25	Kərimbəyli k.	3	12	-	-	1
26	Oğuz k.	2	13	-	-	-
27	Kosacan k.	1	5	-	-	-
28	Yuxarı Daşarx k.	1	4	-	-	-
29	Dərəkənd k.	9	37	-	-	-
30	Yeni Havuş k.	5	11	-	-	2
31	Xətai k.	19	95	-	-	1
	Cəmi:	107	474	41	153	26
VIII. CULFA RAYONU						
1	Culfa ş.	8	32	6	17	-
2	Kırna k.	9	30	-	-	-
3	Şurud k.	7	28	-	-	-
4	Bənəniyar k.	5	5	-	-	-
5	Milax k.	1	3	-	-	1
6	Göynük k.	1	1	-	-	-
7	Gülüstan k.	1	4	-	-	-
8	Qazançı k.	1	6	-	-	1
9	Boyəhməd k.	2	2	-	-	-
10	Saltaq k.	1	1	-	-	-
	Cəmi:	36	112	6	17	2
MUXTAR RESPUBLİKA üzrə cəmi:		1106	4067	249	950	207

Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarının yaşayış məntəqələrində yaşayan qaçqın və məcburi köçkünlər

Azərbaycanlıların Ermənistandan kütləvi surətdə köçürülməsi barədə ilk məlumatlar 1948-ci ilin əvvəllərinə aiddir. Onların köçdükləri bölgələr arasında Naxçıvan MSSR də var idi. 1948-1953-cü illərdə Ermənistandakı azərbaycanlılar Azərbaycan hökumətinə, Naxçıvan rəhbərliyinə müraciət edərək xahiş edirlər ki, onların Naxçıvan MSSR-də yerləşdirilməsinə köməklik göstərsinlər. Zəngibasar rayonunun Elyas kənd kolxozunun 20 aprel 1949-cu il tarixli ümumi iclasında köçmə məsələsi müzakirə edilir. İclasda 300 nəfərdən artıq işçi Naxçıvan MSSR-in Şərur rayonuna köçmək istədiklərini bildirmişdilər. İclasın qəbul etdiyi qərarda Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətindən və Nazirlər Sovetindən kolxozun Şərur rayonunun Şəngiley (Şahin Girey – ***red.***) və Dərəkənd kəndlərinə köçürülməsinə və qəbul olunmasına

icazə verilməsi xahiş edilir. Eyvaz kənd kolxozunun xahiş məktubu Naxçıvan VPK katibi Y.Yusifovun imzası ilə Azərbaycan K(b)P MK katibi Seyidova göndərilmiş və əlavə olaraq Ermənistan SSR Vedi rayonundan 150 təsərrüfatın (bütövlükdə 300 təsərrüfat) Şərur rayonunda yerləşdirilməsinə razılıq verilməsi xahiş edilmişdi. Bundan əlavə Vedi rayonunun Qaralar və Şıxlar kəndinin kolxozçuları da Naxçıvan rəhbərliyinə müraciət edərək Şərur rayonunda daimi yaşamağa icazə verilməsini xahiş etmişdilər [58, s.136]. 1949-cu ilin sentyabrında Sisyan rayonunun Şəki kəndinin kolxozçuları da Azərbaycan SSR Nazirlər Sovetinə göndərdikləri ərizədə onlara Şahbuz rayonuna köçməyə icazə verilməsini xahiş etmişlər [18, s. 30; 30, s. 20].

Bütün bunlara görə Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin tapşırığı əsasında Naxçıvan rəhbərliyi Ermənistan SSR-dən köçən azərbaycanlı kolxozçuları qəbul etməyə hazır olan muxtar respublika kolxozlarının siyahısını hazırlayaraq Azərbaycanın müvafiq orqanlarına göndərmişdi. Bütövlükdə muxtar respublika 733 təsərrüfat, o cümlədən Şərur rayonu 23, Naxçıvan rayonu 164, Ordubad rayonu 125, Əbrəqunus rayonu 175, Şahbuz rayonu 95 təsərrüfat qəbul etməyə hazır idi. Bu ailələr üçün yerlərdə yaşayış binaları da ayrılmışdı. Lakin Azərbaycan rəhbərliyi köçürülmə nəzərdə tutulmayan bütün digər rayonlara olduğu kimi, Naxçıvana da kortəbii köçməyə icazə vermirdi. Əks halda köçürmə haqqında Moskvanın plan və qrafiklərini pozduğuna görə Mərkəzin qəzəbinə tuş gələ bilərdi [59, s.136-137].



Qaçqın və məcburi köçkünlərin Naxçıvan Muxtar Respublikasında yerləşdirildiyi bölgələr

1948-ci ilin əvvəllərindən bütün rayon partiya komitələri katiblərinə və icraiyyə komitə sədrlərinə "tam məxfidir" qrifi ilə M.C.Bağırovun və T.Quliyevin imzası ilə direktiv məktub göndərilmişdi. Məktubda ayrı-ayrı şəxslərin və ailələrin Ermənistandan özbaşına köçərək rayonlarda yerləşdiyi, bu cür qeyri-mütəşəkkil köçürülmənin Ermənistandan köçürülən adamların Kür-Araz ovalığı rayonlarında yerləşdirilməsi

nəzərdə tutulan hökumət tədbirlərini pozmaq təhlükəsi yaratdığı qeyd olunur və rayon rəhbərliyindən özbaşına köçüb gəlmiş ailələr haqqında məlumat tələb olunurdu. Məktubda həmçinin Ermənistandan özbaşına gələn ailələrin köçürülməsinə yol verilməməsi tapşırıldı. Kortəbii miqrasiyanın artmasının qarşısını almaq üçün Azərbaycan hökuməti bir sıra tədbirlərə əl atır, inzibati metodlardan istifadə edirdi. Onlar qeydiyyata alınmır, işə götürülmür, köçürülənlərə aid güzəştlərdən istifadə edə bilmirdilər [59, s. 137].

Azərbaycan hökumətinin Kür-Araz vadisinə daxil olmayan rayonların icraiyyə komitələrinin sədrlərinə göndərdiyi 29 sentyabr 1948-ci il tarixli gizli məktubda qeyd olunurdu ki, Azərbaycan SSR Nazirlər Sovetinin xəbərdarlığına baxmayaraq, son zamanlar mütəşəkkil qaydada köçürülməsi nəzərdə tutulmuş kolxozçuların və digər azərbaycanlı əhalinin rayonlarda özbaşına yerləşdirilməsi halları artmışdır. Bundan sonra Ermənistandan gəlmiş, köçmə bileti olmayan şəxslərin Azərbaycan SSR Nazirlər Soveti yanında köçürmə idarələrinin xəbəri olmadan rayonlarda yerləşdirilməsinə son qoyması tələb olunurdu [59, s. 137-138].

Deportasiya olunan azərbaycanlıların məskunlaşmasına qadağa qoyulan rayonlar arasında Naxçıvan MSSR-in rayonları da var idi. Ona görə də onların burada yaşamaq üçün etdikləri müraciətlərə rədd cavabı verilirdi. Məsələn, Köçürmə İdarələri rəisinin Azərbaycan SSR Nazirlər Sovetinin sədrinin müavini Y.Abdullayevə 29 aprel 1949-cu il tarixli məktubunda Vedi rayonunun Qaralar və Şıxlar kəndlərinin 1949-cu il köçürülmə planına daxil edilmədiyi üçün onların əhalisinin köçürülməsi qeyri-mümkün hesab edilirdi. Məktubda açıq-aşkar qeyd olunurdu ki, köçürülmə üçün imkanlar olsaydı da, həmin kolxozçuların Naxçıvan MSSR-ə köçürülməsi haqqında xahişlərini təmin etmək mümkün olmadı, çünki "Naxçıvan Kür-Araz ovalığına daxil deyil".

Naxçıvana köçmə arzusu bəlli olandan sonra erməni hakimiyyət orqanları onların bu arzularının reallaşmasına imkan verməyərək, həmin rayonların, hətta 1949-cu il planına daxil edilməsinə nail oldular. Bu kənd təsərrüfatı işlərində işçi qüvvələrinin çatışmaması ilə əsaslandırılsa da, əslində əsas məsələ azərbaycanlı əhalinin Naxçıvanda sayının daha da artmasına imkan verməmək, bu bölgəni ilhaq etmək məqsədi güdən daşnak siyasətini gələcəkdə həyata keçirmək idi [59, s. 138].

Məhz bu məqsədlə də ermənilərin səyi nəticəsində Azərbaycan hökuməti 1949-cu ilin sentyabrında yuxarıda göstərilən səbəbləri bəhanə gətirib, Sisyan rayonunun Şəki kolxozunun əhalisinin Naxçıvan MSSR Şahbuz rayonuna köçürülməsinə

icazə verməmişdi [59, s. 138-139].

1950-ci ilin fevralında Respublika Köçürmə İdarsi Naxçıvan Vilayət Partiya Komitəsi və Nazirlər Sovetinin 1950-ci ilin yazında 500 təsərrüfatın Ermənistan SSR-dən Şərur rayonuna köçürülməsinə icazə vermək barədəki xahişinə cavab olaraq bildirirdi ki, hazırda rəsmən yalnız Kür-Araz ovalığına köçürmədən danışılmasına baxmayaraq, Naxçıvan MSSR Ermənistan SSR-in Qarabağlar, Vedi, Artaşat rayonlarından özbaşına gələn azərbaycanlı əhalini qəbul edir. Onların arasında Kür-Araz ovalığına köçürmə bileti olanlar da vardır. Köçürmə idarəsi Naxçıvan MSSR rəhbərliyini xəbərdar edir ki, gələcəkdə bu cür hallara yol verilməsin [30, s. 20].

Bütün represiya qaydalarına, göstərişlərə baxmayaraq, Ermənistandan qovulan azərbaycanlı əhalinin bir hissəsi Naxçıvanda məskunlaşmağa nail olmuşdu. Bunun başlıca səbəbləri Naxçıvanın Ermənistanın azərbaycanlılar yaşayan rayonları ilə yaxınlığı, nəqliyyat əlaqələrinin sıx olması, oxşar təbii şərait, qohumluq əlaqələrinin mövcudluğu, Naxçıvan əhalisinin deportasiya olunan həmvətənlərinə isti və qayğıkeş münasibəti idi. Naxçıvan MSSR-də Köçürmə İdarəsi olmadığına görə Naxçıvanda məskunlaşan köçkünlər haqqında statistik məlumatlar və sənədlər yoxdur. Buna baxmayaraq şahid ifadələri, şifahi sorğular, bəzi yazılı mənbələr göstərir ki, hazırda Naxçıvan MSSR-də yaşayan əhali arasında 1948-1953-cü illərdə və sonrakı dövrdə deportasiyaya məruz qalmış insanlar və onların övladları kifayət qədərdir.

1948-1953-cü illərdə Ermənistandan Naxçıvan MSSR ərazisinə köçüb gələn əhali muxtar respublikanın Əliabad, Nəzərabad, Didivar, Məzrə, Yuxarı Uzunoba, Zeynəddin, Şıxmahmud, Xəlilli, Qaraxanbəyli, Qaraçuq, Kültəpə kəndlərində, xüsusilə də Şərur rayonunda məskunlaşmışlar.

Azərbaycanlılara qarşı Ermənistanda dövlət səviyyəsində həyata keçirilən etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımıza ağır məhrumiyyətlər gətirmişdir. Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin dediyi kimi, "Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisəyə hüquqi qiymət verilməmişdir" [8,1997,18 dekabr].

Bu hadisələrə ilk dəfə hüquqi-siyasi qiymət ulu öndər Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il tarixli fərmanında verilmişdir [8, 1997, 18 dekabr]. Bu fərmanın çox böyük tarixi əhəmiyyəti vardır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: "Həyata keçirilən mühüm dövlət tədbirləri – "1948-1953-cü ilərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikasının Prezidenti – zati-aliləri Heydər Əliyevin

18 dekabr 1997-ci il tarixli fərmanı xalqımıza qarşı yönəldilmiş tarixi ədalətsizliklərin aradan qaldırılması sahəsində atılan zəruri addımlardan biridir... Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev bu fərmanı ilə xalqımızın öz tarixi etnik torpaqlarından deportasiyasına-soyqırımına siyasi status vermiş, ...cinayətə hüquqi-siyasi qiymət verilməsini, onun haqqında həqiqətlərin beynəlxalq miqyasda yayılmasını zəruri hesab etmişdir" [115, s.15].

3. Sosial-iqtisadi həyat

Naxçıvanın XX əsr tarixində 50-60-cı illər mühüm bir dövrü təşkil edir. Bu dövrlərdə muxtar respublikada idarəçiliyin güclənməsi, dövlət və plan intizamının möhkəmləndirilməsi, kadrlara qarşı tələbkarlığın artması və s. amillər nəticəsində sosial-iqtisadi sahədə mühüm iqtisadi irəliləyişlər əldə edilmişdir.

1950-ci illərin əvəllərindən Naxçıvan MSSR-in sosial-iqtisadi həyatında yeni yüksək inkişaf mərhələsinin əsası qoyuldu. 1950-60-cı illərdə Naxçıvanın xalq təsərrüfatını inkişaf etdirmək üçün (kolxozlardan başqa) 33532 min manat (müqayisə edilən qiymətlərlə) əsaslı vəsait müəyən edilmişdir ki, bu da əvvəlki illərlə müqayisədə xeyli çox idi [101, s. 89].

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının coğrafi mövqeyi, torpaq örtüyü, iqlim şəraiti, relyefi, su mənbələri burada kənd təsərrüfatını inkişaf etdirməyə imkan verir. İkinci Dünya müharibəsindən sonra muxtar respublikada taxılçılıq, pambıqçılıq, tütünçülük, üzümçülük, meyvəçilik, baramaçılıq, tərəvəzçilik, bostançılıq və ictimai heyvandarlığın inkişafına diqqət artırılmışdır.

Naxçıvan MSSR-də kənd təsərrüfatını inkişaf etdirmək üçün 1946-1950-ci illərdə dövlət tərəfindən 21 milyon manat sərmayə qoyulmuşdursa [84, v. 27], 1951-1955-ci illərdə bu rəqəm 4920,0 min manat [83, v. 4], 1956-1960-cı illərdə isə 35050,0 min manata çatdırılmışdı [86, v. 6]. Bu vəsait muxtar respublikada kənd təsərrüfatının inkişafında və maddi-texniki bazasının yüksəldilməsində mühüm əhəmiyyət kəsb etmişdir.

Kənd təsərrüfatının əsas sahələrindən biri torpaqdır. 1963-cü il noyabrın 1-i üçün muxtar respublikanın bütün torpaq sahəsi 537 037 hektar idi. Bunun 438 007 hektarı kolxozların, 10 922 hektarı sovxozların, 57 395 hektarı dövlət ehtiyat fondunun, 3 026 hektarı dövlət meşə fondunun, 27 687 hektarı isə torpaqdan digər istifadə edənlərin (şəhərlərin, sənaye, nəqliyyat müəssisələrinin, idarələrin torpaqları da daxil olmaqla) istifadəsinə verilmişdi [101, s. 42]. Muxtar respublika torpaq sahəsinin xeyli hissəsini dağlar, dərələr, çaylar, şəhər, kənd və göl suları altında qalan sahələr təşkil edir. Müharibədən sonrakı illərdə muxtar respublikada aparılan təsərrüfat-mədəni quruculuq işləri ilə əlaqədar olaraq əkin üçün yararlı torpaq sahələri xeyli azalmışdı. Belə ki, 1940-cı ildə bütün təsərrüfat dərəcəsində əkin sahələri 55 926 hektar olduğu halda, 1960-cı ildə bu rəqəm 46 710 hektara, 1970-ci ildə 41 159 hektara enmişdi [101, s. 43; 58, s. 38].

Su ehtiyatı az, iqlimi quru, torpaqları şoranlaşmış və ciddi erroziyaya məruz qalmış Naxçıvan MSSR-də kənd təsərrüfatının inkişafı suvarma və meliorasiya ilə bilavasitə bağlıdır. 50-60-cı illərdə Naxçıvan MSSR-də suvarma sisteminin yaradılmasına çox ciddi fikir verilmişdi. 1946-1950-ci illərdə muxtar respublikada suvarma işlərinə 8900,0 min manat vəsait ayrılmışdı. Bu da suvarma əkin sahələrinin 2 150 hektar artırılmasına imkan vermişdi [81, v. 8].



Sədərək su kanalının çəkilişi
1966-cı il

Muxtar respublika ərazisində çaylar çox olsa da, Arpaçay, Axuraçay, Naxçıvançay, Əlincəçay, Gilançay, Düylünçay, Vənəndçay, Dırnısçay, Əylisçay, Gənzəçay digər çayların az sulu olması səbəbindən kənd təsərrüfatının suya olan tələbatı tam ödənilmirdi [116, s. 16].

1954-cü ilin dekabrında "1955-1960-cı illərdə Naxçıvan MSSR-də kənd təsərrüfatının daha da inkişaf etdirilməsi haqqında" Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən xüsusi qərar qəbul edilmişdi. Həmin qərar əsasında bir neçə su anbarlarının və başqa əhəmiyyətli suvarma obyektlərinin tikilməsi nəzərdə tutulurdu ki, bu da muxtar respublika iqtisadiyyatının bir qədər canlanmasına səbəb olmalı idi [32, s. 42; 62, s. 25]. 1956-cı ildə Şərur rayonunda Yuxarı Sovxoz kanalı istismara verilməndən sonra, əsrlərdən bəri istifadəsiz qalan 2500 hektar yeni münbit torpaq əkin dövriyyəsinə daxil edilmiş və 6 000 hektar sahənin suvarılması yaxşılaşdırılmışdı [116, s. 19].



Araz Su Anbarı
1966-cı il

1957-1959-cu illərdə muxtar respublikada suvarma mənbələri xeyli genişləndirilmişdi. Şahbuz rayonunda Batabat gölləri, "Qanlı göl", Naxçıvan rayonunda Nehrəm, Təzəkənd, Qahab, Çalxanqala, Şərur rayonunda Xok, Qıvraq, Qarabağlar gölləri, Ordubad rayonunda Dəstə gölü, Culfa rayonunda Bənəniyar gölü istifadəyə verilmişdi [78, v. 21; 89, v. 72]. Onlarla kəhrizin qazılmasına, kanalların çəkilməsinə və təmir işlərinin aparılmasına baxmayaraq, muxtar respublikada suvarma suyuna olan tələbat ödənilməmişdi.

Ermənilərin Naxçıvan MSSR iqtisadiyyatına vurduğu ən böyük zərbə

Arpaçayın suyunun Göyçə gölünə axıdılması oldu. O zaman ermənilər sovet dövlətinin başçısı N.S.Xruşşova Göyçə gölü gəzintisində əvvəldən hazırladıqları qərara qol çəkdirdilər, bununla da Naxçıvanın iqtisadiyyatına ağır zərbə vuruldu. Naxçıvan MSSR-in əsas kənd təsərrüfatı istehsalı mərkəzi olan Şərur rayonunda kəskin su qıtlığı yarandı. Bundan başqa Şərur rayonunun ekologiyası pozuldu. Çünki bu rayonda yeraltı suların yaranmasının mənbələrindən biri Arpaçayı idi [62, s. 29].

Əvvəlki illərdə olduğu kimi, 50-60-cı illərdə də erməni millətçilərinin törətdikləri fitnəkarlıqlar Naxçıvan MSSR iqtisadiyyatına, xüsusilə aqrar sənaye kompleksinin inkişafına mənfi təsir etmiş və sovet rəhbərliyi tərəfindən bunların qarşısı vaxtında alınmamışdır. Naxçıvanın ənənəvi kənd təsərrüfatı sahələri onun xammalını emal edən sənaye açıq-aşkar tənəzzülə uğrayırdı.

Muxtar respublikada kənd təsərrüfatının inkişaf etdirilməsində maşın-traktor stansiyaları həlledici rol oynayırdı. Maşın-traktor stansiyaları kənd təsərrüfatının və sənayenin bazası olub, onların möhkəmləndirilməsində və inkişaf etdirilməsində həlledici qüvvə və dayaq nöqtəsidir. Müharibədən sonrakı illərdə muxtar respublikanın kənd təsərrüfatında mexanikləşdirmə və aqrotexniki tədbirlər daha da geniş tətbiq olunmağa başlayır. Əlavə olaraq Şərur rayonunun Xanlıqlar kəndində, Culfa şəhərində və Kənd Şahbuzda 3 yeni MTS təşkil edilmişdi. 1955-ci ildə respublikada olan traktorların sayı 1940-cı ilə nisbətən 1,7 dəfə, kombaynların sayı 5 dəfə artmışdı [23, s. 60].

1960-cı ildə muxtar respublika kolxozlarında 467 traktor, 137 taxıl kombaynı və 404 yük avtomobilinin fəaliyyət göstərməsinə baxmayaraq, kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsi səviyyəsi tələbatdan aşağı idi [101, s.76]. 50-60-cı illərdə muxtar respublikada texnikanın artırılması kolxoz təsərrüfatının daha da gücləndirilməsinə və yeni sovxozların yaradılmasına səbəb olmuşdu. Təkcə bu faktı göstərmək kifayətdir ki, 1957-1958-ci illərdə Şərur, Sədərək və Dəstədə 3 iri sovxoz yaradılmışdı. Naxçıvan MSSR-də kənd təsərrüfatının maddi-texniki bazasının mökəmləndirilməsi ilə əlaqədar olaraq məhsul istehsalı 1940-cı ildə 450 ton, 1950-ci ildə 542,1 ton, 1960-cı ildə 1185,5 ton olmuşdur. Məhsuldarlıq 1940-cı ilə nisbətən 1945-ci ildə 62,2 faiz, 1950-ci ildə 150 faiz, 1955-ci ildə 2,2 dəfə, 1960-1965-ci illərdə 170 faiz artmışdır [32, s. 42-43].

Müharibədən sonra muxtar respublikanın bütün təsərrüfat sahələrində kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin quruluşunda mühüm dəyişikliklər baş vermişdir. Belə ki, bütün əkin sahələri 51 430 hektar, dənli bitkilərin əkin sahəsi 36 443 hektar, qarğıdalının əkin sahəsi 131 hektar, pambıq əkin sahəsi 7 827 hektar, tütün əkin sahəsi 427 hektar, kartof və tərəvəz-bostan bitkilərinin əkin sahəsi 825 hektar, yem bitkilərinin əkin sahəsi cəmi 5 898 hektar olduğu halda, 1960-cı ildə dənli bitkilərin əkin sahəsi 27 415 hektar, qarğıdalı əkin sahəsi 524 hektar, pambıq əkin sahəsi 6728 hektar, tütün əkin sahəsi 936 hektar, kartof və tərəvəz-

bostan bitkilərinin əkin sahəsi 1284 hektar, yem bitkilərinin əkin sahəsi 10 329 hektara çatdırılmışdı [101, s. 43]. Rəqəmlərdən görünür ki, muxtar respublikada kənd təsərrüfatı bitkilərinin əkin sahələri düzgün planlaşdırılmamışdır.

1950-60-cı illərdə respublikada kənd təsərrüfatının maddi-texniki bazasının gücləndirilməsi ilə əlaqədar olaraq 1950-ci ildə bütün təsərrüfat dərəcələrində 3438 ton taxıl, 17918 ton pambıq, 608 ton tütün, 311 ton tərəvəz, 1708 ton ət (diri çəkidə), 1995 ton süd və süd məhsulları, 734 min ədəd yumurta, 246 ton yun, 80 ton barama istehsal edildiyi halda, 1960-cı ildə 3284 ton taxıl, 15664 ton pambıq, 1263 ton tütün, 55,1 ton kartof, 1254 ton tərəvəz, 4247 ton üzüm, 2602 ton ət (diri çəkidə), 5229 ton süd və süd məhsulları, 855 min ədəd yumurta, 440 ton yun, 94 ton barama və s. kənd təsərrüfatı məhsulları istehsal edilib, dövlətə satılmış və tədarük edilmişdir [101, s. 73-74].

Muxtar respublikada kənd təsərrüfatının inkişafı nəticəsində kolxoz və sovxozların pul gəliri xeyli artmış, onlar təşkilat və təsərrüfatca möhkəmləndirilmişdi. Belə ki, Naxçıvan MSSR kolxozlarının pul gəliri (müvafiq illərin qiymətləri ilə) 1946-cı ildə 35569 min manat olmuş, 1950-ci ildə 77 440 min manata, 1958-ci ildə 93923 min manata çatmışdı. Kolxozların bölünməz fondu 1946-cı ildə 101 874 min manat, 1950-ci ildə 114 062 min manat, 1958-ci ildə isə 194 618 min manat olmuşdu [82, v. 11, 13]. Kolxozların real gəlirlərinin artması kolxozçuların da real gəlirlərinin çoxalmasına səbəb olmuşdu. 1950-ci ildə kolxozçuların əmək gününə 35,7 milyon manat bölünmüşdüsə, 1958-ci ildə bu rəqəm 71, 4 milyon manata çatmışdı [80, v. 72]. Sonrakı illərdə də kolxozların real gəlirləri artmış, kolxozçuların sosial-iqtisadi şəraiti xeyli yaxşılaşmışdı. Sov. İKP MK-nın 1965-ci il mart plenumu dövlətə plandan artıq məhsul satışı üçün yüksək alış qiymətləri müəyyən etmişdi. Bu tədbir məhsul istehsalının artırılması üçün kolxoz və kolxozçularda maddi maraq yaratdı. Muxtar respublikanın kolxozlarının ümumi məhsulunun dəyəri 1965-ci ildə 13,300 min manatdan 1969-cu ildə 14,159 min manata çatmışdı. Əmtəəlik məhsulun miqdarı 1965-ci ildə 27 faiz artmışdı. Digər illərdən fərqli olaraq, 50-60-cı illərdə muxtar respublikada kənd təsərrüfatının inkişafı nəticəsində kənd əməkçilərinin sosial-iqtisadi və mədəni həyat şəraiti xeyli yaxşılaşmışdı. Belə ki, muxtar respublikanın kolxozlarında bir adama – gün hesabı ilə əmək ödənişi 1967-ci ildə 2,21, 1968-ci ildə 2,34, 1969-cu ildə 2,46 manat olmuşdu [100, s. 358].

Muxtar respublikanın iqtisadi inkişaf tarixində sənaye də mühüm yer tuturdu. İkinci Dünya müharibəsindən sonrakı illərdə muxtar respublikada keçmiş sənaye müəssisələri bərpa olunmuş və yeniləri tikilmişdi. Yeni sənaye müəssisələri Naxçıvan və Ordubad şəhərləri ilə yanaşı, Şərur, Şahbuz və Culfa rayonlarında da tikilirdi. 1951-1955-ci illərdə Şərur rayonunda elektrik şəbəkəsi, Ordubad rayonunda Parağaçay, Şərur rayonunda Gümüşlü dağ-mədən sənaye müəssisələri, Naxçıvan şəhərində çörək zavodu, ət kombinatı, Şahbuz rayonunda Badamlı mineral su

doldurma zavodu tikilib işə salındı. Nəticədə, sənayenin yeni sahələri, o cümlədən mineral sular, ət-süd, çörək-bulka, əlvan metal istehsalı sahələri meydana gəldi və bu sahələr hesabına sənaye məhsulu istehsalı 1951-1955-ci illərdə 87 faiz artdı [32, s. 37-38].

Muxtar respublikanın sənaye müəssisələrinin yerli xammal hesabına istehsal etdikləri yüksək keyfiyyətli məhsullar dünyanın bir çox şəhərlərinə göndərilmişdi. Üzərində "Naxçıvan" markası olan müxtəlif çeşidli sənaye məhsulları yaxın - uzaq elləri dolanaraq muxtar respublikanın şöhrətini daha da artırırdı. Badamlının, Sirabın, Naxçıvan duzunun, şərabının, Ordubad mürəbbəsinin, baramaaçan fabrikinin məhsullarının, Qaratəpə mərmərinin, Şahtaxtı travertininin sorağı Pribaltika respublikalarından, Orta Asiyadan, Sibirdən, Uzaq Şərqdən, Yaponiyadan, Belçikadan, İtaliyadan, İsveçrədən və başqa yerlərdən gəlirdi. Şərur rayonundakı Şahtaxtı daş karxanasından çıxarılan ağ travertinə, Xələc mərmərinə İsveçrədən, İtaliyadan, Yaponiyadan, Belçikadan, AFR-dan, İrandan və başqa yerlərdən göndərilən sifarişlərin sayı və miqdarı artmışdı [39, s. 114-115].

1946-1950 və 1951-1955-ci illərdə Naxçıvan iqtisadiyyatı sürətlə inkişaf etdiyi halda, 1956-1965-ci illərdəki inkişaf çox ziddiyyətli, natamam xarakter daşıyırdı. 1954-cü ilin dekabrında "1955-1960-cı illərdə Naxçıvan MSSR-də kənd təsərrüfatının daha da inkişaf etdirilməsi haqqında" Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan KP MK tərəfindən qəbul edilmiş xüsusi qərar vaxtında və lazımi səviyyədə yerinə yetirilmədi [62, s. 25].

Muxtar respublikada kənd təsərrüfatı xammalı emal edən və bu əsasda inkişafına böyük imkanlar olan ənənəvi sənaye sahələrinə diqqət olduqca zəifləmişdi. Nəticədə, 1954-cü ildən başlayaraq sənaye sahələrində durğunluq və tənəzzül yarandı. 1956-1959-cu illərdə sənayedə məhsul istehsalının həcmi mütəmadi olaraq azalmış, 1958-ci ildə 1955-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 91 faiz, 1959-cu ildə 99,2 faiz olmuşdur [32, s. 38; 62, s. 25-26].

1960-cı illərin əvəllərində SSRİ Dövlət Plan Komitəsinin xalq təsərrüfatının inkişafına dair hazırladığı arayışda, eləcə də SSRİ Ali Sovetinin yenə həmin vaxt apardığı təhlillərində Qafqazın və Orta Asiyanın muxtar vilayətləri və muxtar respublikaları arasında əhalinin hər bir nəfərinə düşən sənaye məhsullarının həcminə görə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 10-cu və ya axırıncı yerlərdən birini tutduğu etiraf olunmuşdu [32, s. 39; 62, s. 26].

Muxtar respublika iqtisadiyyatının həmin dövrdə ümumi inkişafdan geri qalmasının bir səbəbi rəhbərliyin təşəbbüskarlıqdan uzaq xarakterli idarəetməyə üstünlük verməsi və mərkəzin direktivlərindən asılı mövqeyi idisə, digər bir səbəbi erməni millətçilərinin törətdiyi fitnəkarlıq idi [32, s. 39].

Muxtar respublikada sənayenin ümumi məhsulunun artım sürəti 1940-cı ildəkinə nisbətən 1950-ci ildə 144 faiz, 1955-ci ildə 270 faiz, 1960-cı ildə 285 faiz, 1965-ci ildə 308 faiz, 1970-ci ildə isə 632 faiz olmuşdur [58, s. 19;101, s. 33].

1946-1970-cı illərdə Naxçıvan MSSR-də sənaye məhsullarının artım sürəti yeni sənaye müəssisələrinin hesabına olmuşdur.

Təkcə bu faktı göstərmək kifayətdir ki, 1951-1960-cı illərdə muxtar respublikada 5 iri dövlət sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir [58, s.90]. Naxçıvan MSSR-də dağ-mədən, yüngül, yeyinti, elektroenergetika, maşınqayırma, ağac emalı, tikinti materialları sahələrini inkişaf etdirmək üçün imkanlar vardır. Burada sənayeni təmin etmək üçün böyük əhəmiyyətə malik olan metal və qeyri-metal yataqları, kənd təsərrüfatı məhsulları, iqtisadi və müalicə əhəmiyyətli zəngin mineral sular mövcud idi [39, s. 117].

Naxçıvan MSSR-də xalq təsərrüfatının inkişafına dair beşillik planların yerinə yetirilməsi muxtar respublika zəhmətkeşlərinin sosial şəraitinin yüksəlişinə səbəb olmuşdu. Zəhmətkeşlərin real gəlirləri artmış, mənzil tikintisi genişləndirilmiş, ticarət və mədəni xidmət sahələri yaxşılaşmış, xalq maarifi və səhiyyə sahələri müvəffəqiyyətlər qazanmış, mədəni-maarif ocaqlarının geniş şəbəkələri yaranmışdır. Müharibədən sonra muxtar respublikada xalqın sosial həyat tərzinin və mədəni səviyyəsinin yüksəldilməsi gaim diqqət mərkəzində olmuşdu.

Müharibədən sonra muxtar respublikada əhalinin güzəranının yaxşılaşması və pul gəlirlərinin çoxalması ilə əlaqədar olaraq əhalinin əmanət kassalarına qoyduğu pulun miqdarı da artmışdı. 1951-ci ildə əmanətlərin sayı 4493, əmanət kassalarında əmanətlərin qalığı 257 min manat, əmanətlərin orta məbləği 57 manat olduğu halda, 1960-cı ildə əmanətlərin sayı 12186, əmanət kassalarında əmanətlərin qalığı 1407 min manat, əmanətlərin orta məbləği 115 manata çatmışdı. Muxtar respublikada əmanət kassalarının şəbəkəsi də xeyli artmışdı. Belə ki, 1951-ci ildə muxtar respublikada 13 əmanət kassası olduğu halda, 1960-cı ildə bu rəqəm 26-ya çatmışdır [101, s. 28]. Əmanət kassalarına əhalinin qoyduğu pul əmanətləri sonrakı illərdə də artmışdı. 1965-ci ildə əmanətlərin sayı 11718 manat, əmanət kassalarında əmanətlərin qalığı 2228 manat, əmanətlərin orta məbləği 157 manat olduğu halda, 1970-ci ildə əmanətlərin sayı 14 890 manat, əmanət kassalarında əmanətlərin qalığı 7 280 min manat, əmanətlərin orta məbləği isə 488 min manat idi. 1965-ci ildə muxtar respublikada 47 əmanət kassası olduğu halda, bu rəqəm 1970-ci ildə 49-a çatmışdı [58, s. 24]. Muxtar respublikada əmanət kassalarında əmanətlərin miqdarının çoxalması və əmanət kassalarının şəbəkəsinin artması, xalqın maddi-rifah halının yaxşılaşması sosial-iqtisadi inkişafla bağlı idi.

1950-60-cı illərdə xalq istehlakı mallarının və çeşidinin çoxalması, əhalinin sosial-iqtisadi səviyyəsinin yüksəldilməsi nəticəsində onların şəxsi istehlakının quruluşunda ciddi keyfiyyət və kəmiyyət dəyişiklikləri əmələ gəlmişdi. Belə ki, pərakəndə ticarət və ictimai iaşə müəssisələrinin sayı 1950-ci ildə 460 olduğu halda, bu rəqəm 1960-cı ildə 500 [101, s. 108], 1965-ci ildə 861, 1970-ci ildə 731 olmuşdu [58, s. 110]. Pərakəndə mal dövriyyəsi (müvafiq illərdəki qiymətlərlə) 1950-ci ildə 13430 min manat olduğu halda, 1960-cı ildə 23 588 min manata [101, s. 107],

1965-ci ildə 31593 min manat, 1970-ci ildə 52 760 min manata çatmışdı [58, s. 109]. Bununla belə ictimai iaşə xidmətinin təşkilində nöqsanlar tam aradan qaldırılmamış və tələb olunan səviyyəyə yüksəlməmişdi.

Bəhs edilən illərdə əhalinin mənzilə olan tələbatının ödənilməsi, kommunikasiya xidmətlərinin yaxşılaşdırılması yerli hakimiyyət orqanlarının əməli fəaliyyətində mühüm yer tutmuşdur. Muxtar respublikada 1955-ci ildə dövlət və kooperativ müəssisələri şəhər əhalisi tərəfindən tikilib, istifadəyə verilmiş mənzil fondu 16,8 min kv. metr olduğu halda, bu rəqəm 1960-cı ildə artaraq 33,3 min kv. metrə çatmışdı [101, s.90]. Dövlət, kooperativ və şəhər əhalisindən fərqli olaraq, kolxozçular və kənd ziyalıları tərəfindən tikilib istifadəyə verilən mənzil fondu çox idi. 1955-ci ildə kolxozçular və kənd ziyalıları tərəfindən tikilib istifadəyə verilən mənzil fondu 1100 min kv. metr olduğu halda, 1960-cı ildə 1 272 min kv. metr olmuşdu [101, s. 91].



Naxçıvan şəhərində yeni tikilən binalar
1965-ci il

Ümumiyyətlə, 1955-1970-ci illərdə 1137,1 min kv.metr yaşayış evləri istifadəyə verilmişdi. 1956-1960-cı illərdə 348,8 min kv.metr, 1961-1965-ci illərdə 335,0 min kv.metr, 1966-1970-ci illərdə 1389,2 min kv.metr yaşayış evləri istifadəyə verilsə də əhalinin artan tələbatı ödənməmişdi [58, s. 92].

1950-60-cı illərdə muxtar respublikada avtomobil yollarının uzunluğu xeyli artmış, əhaliyə ictimai nəqliyyat xidmətləri yaxşılaşmışdır. Naxçıvan şəhəri ilə rayon mərkəzləri, kənd və qəsəbələr arasında yeni avtobus marşurutları təşkil olunmuşdur. 1953-cü ildə yük dövriyyəsi 2339,4 min ton-kilometr, yük daşınması 96,1 min ton, sərnişin dövriyyəsi 3706,3 min sərnişin-kilometr, sərnişin daşınması 646,1 min nəfər olduğu halda, 1960-cı ildə yük dövriyyəsi 6261,5 min ton-

kilometrə, yük daşınması 386,4 min tona, sərnişin dövriyyəsi 15274 min sərnişin-kilometrə, sərnişin daşınması 1529 min nəfərə çatdırılmışdı [101, s. 83]. 1965-ci ildə muxtar respublikada yük dövriyyəsi 6871,9 min ton kilometr, yük daşınması 373,4 min ton, sərnişin dövriyyəsi 20278,8 min sərnişin kilometr, sərnişin daşınması 1775,7 min nəfər olduğu halda, 1970-ci ildə yük dövriyyəsi 9086, 3 min ton kilometrə, yük daşınması 530,1 min tona, sərnişin dövriyyəsi 31388,4 min sərnişin kilometrə, sərnişin daşınması 2614,1 min nəfərə çatmışdı [58, s. 85].



Naxçıvan Respublika Xəstəxanası
1965-ci il

Muxtar respublikada müharibədən sonrakı illərdə yerli büdcə üzrə zəhmətkeşlərin sağlamlığına qoyulan vəsait də ildən-ilə artmışdır. Belə ki, səhiyyə və bədən tərbiyəsinə 1950-ci ildə 1303,1 min manat, 1960-cı ildə 2320,2 min manat, 1965-ci ildə 3626,4 min manat, 1970-ci ildə 5308,3 min manat xərclənmişdi [101, s. 138; 58, s. 124].


Müharibədən sonrakı illərdə Naxçıvan MSSR-də tibb müəssisələrinin şəbəkəsi xeyli genişləndirilmiş, xəstəxanaların mərkəzləşdirilməsi sahəsində çox iş görülmüşdür. Muxtar respublikada 1950-ci ildə 27 xəstəxana, 100 feldşer-mama məntəqəsi, 139 həkim, 471 orta tibb işçisi (hərbi qulluqçulardan başqa) fəaliyyət göstərdiyi halda, bu rəqəm 1960-cı ildə xeyli artmışdır. 1960-cı ildə əhaliyə 41 xəstəxana, 129 feldşer-mama məntəqəsi, 178 həkim, 968 orta tibb işçisi xidmət göstərmişdir [101, s. 127, 131, 132]. Bu rəqəmlər son illərdə daha da artmışdı. 1970-ci ildə muxtar respublikada 53 xəstəxana (hərbi xəstəxanadan başqa), 150 feldşer-mama məntəqəsi, 262 həkim, 1435 orta tibb işçisi xidmət göstərmişdi. Xəstəxanalarda çarpayıların sayı (hərbi xəstəxanalarda olan çarpayılardan başqa) 1965-ci ildə 1664-ə, 1970-ci ildə 2250-yə çatdırılmışdı [58, s. 127-130]. Lakin ümumilikdə muxtar respublikalarda yerləşən xəstəxanalar, ambulatoriyalar, laboratoriyalar və apteklər əhaliyə lazımi xidmət göstərməkdən xeyli geri qalırdı.



Ordubad İnternat məktəbi
1965-ci il

1946-1970-ci illərdə maarifin inkişafına da böyük qayğı göstərilmişdir. Yerli

büdcə üzrə maarif xərcləri 1940-cı ildə 1425,2 min manat, 1950-ci ildə 2678,5 min manat olduğu halda, bu rəqəm 1960-cı ildə 3884,7 min manata çatdırılmışdı [101, s.123]. Sonrakı illərdə daha da artırılmışdı. 1965-ci ildə 7528,6 min manat olduğu halda, 1970-ci ildə 11 282,0 min manat olmuşdu [58, s.124]. Muxtar respublikada məktəblərin sayı artırılmış, pedaqoji kadrlarla təmin olunmuşdu. Naxçıvan, Ordubad, Culfa şəhərlərində, Şərur, Şahbuz qəsəbələrində, Qıvraq, Gümüşlü, Kərki, Muğanlı, Siyaqut, İbadulla, Qarxun, Şıxmahmud, Nehrəm, Sədərək, Yaycı, Cəhri, Əbrəqunus, Kükü, Xanağa, Kırna, Ərəfsə və s. kəndlərdə yeni məktəb binaları tikilmiş və istifadəyə verilmişdi. Bu məktəblərin tədris bazaları daha da möhkəmlənmişdi. 1946-1960-cı illərdə muxtar respublikanın məktəblərində oxuyan şagirdlərin sayı ilbəil artmışdı. Belə ki, 1950/51-ci dərs ilində muxtar respublikanın gündüz məktəblərində 25 093 nəfər şagird oxuduğu halda, bu rəqəm 1959/60-cı dərs ilində 25 180 nəfərə çatmışdı [101, s. 111]. Ümumtəhsil məktəblərində 1965/ 66-cı dərs ilində 43 675 nəfər şagird oxuyurdusa, bu rəqəm 1970/71-ci dərs ilində 59059 nəfərə çatdırılmışdı [58, s. 113].



Naxçıvan Muxtar Respublika Kitabxanası 1965-ci il

1950-60-cı illərdə əhalinin mədəni-kütləvi səviyyəsinin yüksəldilməsində mədəni-maarif müəssisələri - kitabxanalar, klublar, kino-teatr, mətbuat, radio və s. sahələrdə də nəzərə çarpacaq dərəcədə inkişaf olmuşdu. Kütləvi kitabxanaların, klub idarələri və muzeylərin, mətbuat, nəşriyyat, kino-teatr, kütləvi-siyasi tərbiyə vasitələrinin fəaliyyəti, təsir gücü daha da artmış, əhalinin sosial-mədəni həyat tərzinin yüksəlişində və genişləndirilməsində mühüm rol oynamışdı.

Əhalinin güzəranının yaxşılaşması ilə yanaşı muxtar respublikada əhalinin sayı da artmışdı. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında da əhalinin məskunlaşması və onun demoqrafik inkişafı vəziyyəti tarixi inkişafın müxtəlif mərhələlərində eyni olmayıb, həmin dövrlərin malik olduğu ictimai-iqtisadi və sosial-siyasi şəraitdən asılı olaraq daim dəyişilmişdi. 1959-cu il yanvarın 15-də əhalinin siyahıya alınması məlumatına əsasən muxtar respublikada əhalinin sayı 141,4 min nəfər təşkil etmişdir. Onların 38,3 min nəfəri və ya 27,1 faizi şəhər yerlərində, 103,1 min nəfəri və ya 72,9 faizi isə kənd yerlərində yaşayırdılar [18, s. 63; 101, s. 9]. Muxtar respublika əhalisinin 67,0 min nəfərini, yəni 47,4 faizini kişilər, 74,4 min nəfərini, yəni 52,6 faizini isə qadınlar təşkil edir [101, s. 11]. 1970-ci il yanvarın 15-nə olan məlumata görə Naxçıvan MSSR-də əhalinin sayı 1970-ci ildə 202,2 min nəfər olmuşdu. O cümlədən 49,5 min nəfər şəhər əhalisi, 152,7 nəfəri kənd əhalisi idi. Əhalinin 48,7 faizini kişilər, 51,3 faizini qadınlar təşkil edirdi [58, s. 9-11].

Müharibədən sonrakı illərdə muxtar respublikanın xalq təsərrüfatında işləyən fəhlə və qulluqçuların orta illik sayı da artmışdı. 1953-cü ildə xalq təsərrüfatında işləyən fəhlə və qulluqçuların sayı 12,6 min nəfər, 1960-cı ildə 16,4 min nəfər, 1965-ci ildə 26,9 min nəfər, 1970-ci ildə isə 36,7 min nəfər olmuşdu [101, s. 97; 58, s. 99].

Muxtar respublikada sosial-iqtisadi həyatın yaxşılaşdırılması ilə əlaqədar olaraq, çoxuşaqlı və tək analara verilən müavinətin məbləği də yüksəlmişdi. 1950-ci ildə çoxuşaqlı və tək analara 337,7 min manat, 1960-cı ildə isə 926,6 min manat verilmişdi [101, s. 135]. Naxçıvan MSSR üzrə çoxuşaqlı və tək analara verilən müavinətin məbləği 1965-ci ildə 1400,7 min manat, 1970-ci ildə 1001,2 min manat olmuşdu [58, s. 122].

1950-60-cı illərdə Naxçıvan MSSR-də sosial təminatdan da istifadə olunmuşdur. Muxtar respublikada zəhmətkeşlərə müavinət və yardım verilməklə yanaşı, təminatın bir çox növlərindən istifadəsinə də xüsusi diqqət verilmişdi. Onlara yeni peşə öyrədilməsi, işə düzəldilməsi, istirahət evlərinə göndərilməsi, evlərin pulsuz təmir olunması və s. tədbirlər görülmüşdü.

1949-1950-ci illərdə İkinci Dünya müharibəsi əlillərinə, həlak olmuş döyüşçülərin və hərbi qulluqçuların ailələrinə 12 milyon 50 min 921 manat təqaüd verilmiş və yardım edilmişdi [72, v. 39]. 1956-cı ildə müharibə və əmək əlillərinə 3 156 401 manat təqaüd verildiyi halda, 1957-ci ildə bu rəqəm 5 687 430 manat olmuşdu. Çoxuşaqlı və tək analara 1956-cı ildə 1 595 000 manat yardım verildiyi halda, 1957-ci ildə 2 031 951 manat yardım verilmişdi [18, s.63]. Əhalinin sosial-iqtisadi vəziyyətinin yüksəldilməsi üçün geniş imkanlar yaranmışdı.

Ümumiyyətlə, 50-60-cı illərdə Naxçıvan MSSR-də xalq təsərrüfatının ayrı-ayrı sahələrində baş vermiş irəliləyişlər onun iqtisadi potensialının artırılmasına imkan vermiş, bu da öz növbəsində muxtar respublikada sosial-iqtisadi inkişafa şərait yaratmışdır.

4. Kənd təsərrüfatının, sənayenin inkişafı

Kənd təsərrüfatı. Naxçıvanda ictimai-iqtisadi həyatın əsas sahələrindən biri də kənd təsərrüfatıdır. Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi, torpaq örtüyü, iqlim şəraiti, relyefi, su mənbələri burada kənd təsərrüfatının bütün sahələrini inkişaf etdirməyə, qiymətli və əhəmiyyətli kənd təsərrüfatı bitkiləri yetişdirməyə imkan verir. İkinci Dünya müharibəsinin muxtar respublikanın kənd təsərrüfatına vurduğu zərbələrə baxmayaraq, kənd təsərrüfatı, xüsusilə onun perspektiv sahələri olan taxılçılıq, pambıqçılıq, tütünçülük, üzümçülük, meyvəçilik, tərəvəzçilik, baramaçılıq, ictimai heyvandarlıq kimi mühüm sahələr inkişaf etdirilmişdi.

İkinci Dünya müharibəsindən sonrakı illərdə Naxçıvan MSSR-də əsaslı dəyişikliklər həyata keçirilmiş, kənd təsərrüfatının maddi-texniki bazası güclənmiş, kolxoz və sovxozlar təşkilat-təsərrüfatca möhkəmləndirilmiş, təsərrüfata ixtisaslı rəhbərlik yaxşılaşdırılmış, kənd təsərrüfatı mütəxəssislərinin sayı çoxalmış, suvarma

təsərrüfatının inkişafına daha çox diqqət verilmiş və əkin sahələri, xüsusilə pambıq əkin sahəsi artırılmışdı.

Muxtar respublikada qabaqcıl taxılçıların, pambıqçıların, üzümçülərin, heyvandarların, ipəkçilərin, kənd təsərrüfatı mütəxəssislərinin respublika müşavirələrində və fəallar yığıncaqlarında kənd təsərrüfatının inkişafının ən mühüm məsələləri müzakirə olunur, nöqsanlar göstərilir və yüksək məhsul əldə etmək üçün əməli tədbirlər müəyyən edilirdi. Həmin müşavirə və yığıncaqlar kənd təsərrüfatı məhsulları istehsalının yüksəlməsi uğrunda mübarizədə mühüm rol oynadı. ÜİK(b)P MK-nın fevral (1947-ci il) Plenumu "Müharibədən sonrakı dövrdə kənd təsərrüfatını yüksəltmək tədbirləri haqqında" qərar qəbul etmişdi. Bu qərara əsasən muxtar respublikada əkin sahələrinin genişləndirilməsi, dənli və texniki bitkilərin məhsuldarlığının yüksəldilməsi, heyvandarlıq məhsullarının artması, MTS və sovxozların inkişafına diqqət artırılmışdı.

SSRİ Nazirlər Sovetinin və ÜİK(b)P MK-nın "Kolxozlarda kənd təsərrüfatı arteli Nizamnaməsinin pozulması hallarını aradan qaldırmaq tədbirləri haqqında" 1946-cı il sentyabr tarixli qərarında deyilir ki, bir sıra kolxozlarda kənd təsərrüfatı arteli Nizamnaməsi ciddi surətdə pozulmuşdu. Kənd təsərrüfatı arteli Nizamnaməsinin pozulması halları Naxçıvan MSSR-in kolxozlarında da olmuşdu. Həmin qərara uyğun olaraq Naxçıvan Vilayət Partiya Komitəsi 1946-cı il sentyabrın 24-də yoxlama komissiyası yaratmaq barədə göstəriş vermişdi. Yoxlamalar zamanı komissiya müəyyən etmişdi ki, kolxozların 472 hektar əkin üçün yararlı torpaq sahəsi qanunsuz olaraq mənimsənilmiş, kolxozlarda əmək günləri dağıdılmış, 2814 kolxozçu əmək minimumunu yerinə yetirməmiş, maliyyə intizamı pozulmuş, kolxozlara məxsus 675 baş iri buynuzlu, 2517 baş xırda buynuzlu heyvan ayrı-ayrı şəxslər tərəfindən mənimsənilmiş və ya ucuz qiymətə alınmışdı [70, v.66]. Göstərilən nöqsanlar dördüncü beşilliyin sonunda və beşinci beşilliyin əvvəllərində də olmuşdu. Belə ki, 1950-ci ildə muxtar respublikanın kolxozlarında aparılmış yoxlamalar nəticəsində aşkar edilmişdi ki, 12 521 təsərrüfatdan 1 124-də 98,16 hektar əkin sahəsi mənimsənilmişdi [72, v. 54]. Muxtar respublikada xırda kolxozlar iriləşən zaman aşkar oldu ki, ayrı-ayrı şəxslər tərəfindən 118 hektar əkin sahəsi, 134 min manat pul, 8 tondan artıq taxıl, 21 baş at, 189 baş iri buynuzlu, 2 963 baş xırda buynuzlu heyvan və 2500-dən artıq quş mənimsənilmişdi [74, v. 18].

1946-1950-ci illərdə kənd təsərrüfatı məhsullarının istehsalı və dövlətə satışı planları vaxtından əvvəl yerinə yetirilmişdir. Belə ki, 1950-ci ildə muxtar respublikada əkinçilik və heyvandarlıq məhsullarının dövlətə satış və tədarükü 3438 ton taxıl, 17918 ton pambıq, 608 ton tütün, 311 ton tərəvəz, 1708 ton ət, 1995 ton süd və süd məhsulları, 734 min ədəd yumurta, 246 ton yun, 80 ton barama və sair kənd təsərrüfatı məhsulları üzrə plan yerinə yetirilmişdir [101, s. 74]. Yuxarıda verilmiş rəqəmlərdən aydın görünür ki, dördüncü beşillik dövründə muxtar respublikanın zəhmətkeşləri kənd təsərrüfatının inkişafında xeyli nailiyyətlər qazanmışlar.

1956-1965-ci illərdə Naxçıvan Muxtar Respublikasının sənayesi və kənd

təsərrüfatının inkişafı zəif olmuş, kənd təsərrüfatının daha da inkişaf etdirilməsi haqqında Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan KP Mərkəzi Komitəsinin 1954-cü il dekabr tarixli qərarı vaxtında və lazımi səviyyədə yerinə yetirilməmişdi. Bu isə 1956-1965-ci illərdə muxtar respublikada kənd təsərrüfatı məhsullarını emal edən sənaye sahələrinə təsir etmişdi. 1956-1959-cu illərdə sənaye məhsulu istehsalının həcmi mütəmadi olaraq azalmışdı. Sənaye məhsulu istehsalının həcmi 1956-1960-cı illərdə cəmi 6 faiz, 1961-1965-ci illərdə 8 faiz, 1956-1965-ci illərdə cəmi 14 faiz artmışdı. Yüngül sənayedə məhsul istehsalı 14 faiz, yeyinti sənayesində 5 faiz artmışdı [62, s. 26].

Naxçıvanın ənənəvi kənd təsərrüfatı sahələri və onun xammalını emal edən sənaye açıq-aşkar tənəzzülə uğrayırdı. Ümumiyyətlə, 1960-cı illərin ikinci yarısınadək təqribən 40 il ərzində Naxçıvanın iqtisadiyyatı Azərbaycanın bir çox başqa ərazilərinə nisbətən aşağı səviyyədə olmuşdu.

1959-1965-ci illərdə Azərbaycanın bu və ya digər regionlarında olduğu kimi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında da kənd təsərrüfatı ləng inkişaf etmişdi. Buna səbəb torpaqdan səmərəsiz istifadə olunması, ona zəruri maddi-texniki xidmət göstərilməməsi, kənd təsərrüfatının sürətli inkişafı üçün lazımi miqdarda vəsaitin ayrılmaması, kolxoz və sovxozların maddi maraq prinsiplərinin pozulması və s. amillər idi.

Naxçıvan iqtisadiyyatının və kənd təsərrüfatının inkişafında əsaslı dönüş mərhələsi ulu öndər Heydər Əliyevin 1969-cu il 14 iyul tarixdə Azərbaycan Respublikasına rəhbərliyə gəlməsi ilə bağlıdır. Ölkənin inzibati ərazilərində sosial-iqtisadi inkişafın çox geri qaldığını və bunun da Azərbaycanın ümumi inkişafı qarşısında ciddi maneəyə çevrildiyini aydın görən ümummilli lider Heydər Əliyev hakimiyyətinin ilk günlərindən aqrar rayonların inkişafını, onlara investisiya qoyuluşlarının fasiləsiz artırılmasını ön plana çəkdi.

Ulu öndərin apardığı siyasət nəticəsində ölkədə olduğu kimi Naxçıvan MSSR-də də kənd təsərrüfatının maddi-texniki bazası getdikcə genişləndirildi. Ölkədə kənd təsərrüfatının uzun sürən geriliyinə son qoyulmuş, onun bütün sahələrinin əsaslı yüksəlişi təmin edilmiş, kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək üçün möhkəm təməl yaradılmışdı.

Göründüyü kimi, ölkəni yeyinti məhsulları, sənayeni kənd təsərrüfatı xammalı ilə müntəzəm təmin etmək üçün dövlət kənd təsərrüfatının bu mühüm sahəsinə ayrılan vəsaitin həcmini artıraraq, əkinçilik və heyvandarlıq istehsal proseslərini mexanikiləşdirmək, kənd təsərrüfatının elektrikləşdirilməsini və kimyalaşdırılması tempini yüksəltmək, su təsərrüfatı və meliorasiyanı genişləndirmək, kəndin inkişafını, iqtisadi və sosial problemlərini kompleks həll etmək və s. mühüm məsələləri həmişə diqqət mərkəzində saxlayır.

Kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ona yönəldilən əsaslı vəsait qoyuluşu ilə əlaqədardır. Kənd təsərrüfatına əsaslı vəsait həm

dövlət, həm də kolxozların özləri tərəfindən, öz vəsaitləri hesabına qoyulurdu. 1966-1970-ci illərdə muxtar respublikada dövlətin su təsərrüfatı işlərinin genişləndirilməsi – suvarma kanallarının çəkilişi, su anbarlarının tikilməsi, maşın-traktor stansiyalarının yaradılması və digər yollarla kənd təsərrüfatının inkişafına küllü miqdarda əsaslı vəsait sərf etmişdi. Təkcə bunu qeyd etmək kifayətdir ki, muxtar respublikanın kolxozları kənd təsərrüfatının inkişafına 1968-ci ildə 5 041 min manat, 1969-cu ildə 6311 min manat və 1971-ci ildə isə 6502 min manat əsaslı vəsait sərf etmişdilər.

Torpaq fondu. Torpağın kənd təsərrüfatı müəssisələrinin balansında olması kənd təsərrüfatının inkişafı üçün möhkəm zəmin yaradırdı. 1963-cü ilin məlumatına görə İkinci Dünya müharibəsindən sonrakı illərdə Naxçıvan MSSR-də aparılan təsərrüfat-mədəni quruculuq işləri ilə əlaqədar əkin üçün yararlı torpaq sahələri xeyli azalmışdı. Belə ki, 1940-cı ildə 56091 hektar əkinə yararlı torpaq sahəsi olduğu halda, 1958-ci ildə bu rəqəm 48005 hektara enmişdi. Sonrakı illərdə daha da azalmışdı. Kənd təsərrüfatının maddi-texniki bazasını möhkəmləndirmək üçün kənd təsərrüfatının texniki təminatını yaxşılaşdırmaq, gübrələrdən istifadə etmək və beləliklə torpaq sahələrini maksimum dərəcədə istehsal proseslərinə cəlb etmək lazım idi. Buna görə də Naxçıvan MSSR-də yararsız torpağın yararlı hala salınıb, əkin dövriyyəsinə daxil edilməsi üçün mineral və yerli gübrələrdən istifadə edilmiş, meliorasiya və irriqasiya işlərinin gücləndirilməsi zərurəti yaranmışdı. Nəticədə muxtar respublikada bütün təsərrüfat dərəcələrində kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 1965-ci ildə 40754 hektar olduğu halda bu rəqəm 1970-ci ildə 41159 hektara çatdırılmışdı [58, s. 38].

Su təsərrüfatı. Kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi və inkişafı suvarma sisteminin genişləndirilməsi və yeni torpaq sahələrinin kənd təsərrüfatı istehsalına cəlb edilməsi üçün şərait yaradır. Suvarmanı geniş miqyasda tətbiq etmədən, yeni su mənbələri yaratmadan kənd təsərrüfatında yüksək məhsul götürmək mümkün deyildi.

Coğrafi və təbii şəraitinə görə Naxçıvan MSSR məhdud su ehtiyatına malikdir. Muxtar respublikanın Naxçıvan çayından qərbə doğru olan hissəsində Arpaçay istisna edilərsə, demək olar ki, təsərrüfat suları yox dərəcəsindədir. Muxtar respublikanın şərq hissəsində çaylar çox olsa da, bu çayların az sulu olması üzündən kənd təsərrüfatının suya olan tələbatı tam ödənilmir. Mövcud su ehtiyatları yüksək inkişaf etmiş kənd təsərrüfatının tələblərinə cavab vermir, Naxçıvan MSSR-in istifadəsiz qalan geniş torpaq fondlarından istifadə edilməsi üçün geniş imkan yaratmırdı. Bu məsələyə muxtar respublikada İkinci Dünya müharibəsindən sonrakı illərdə çox ciddi diqqət yetirilmişdi. Buna görə də su ehtiyatlarının istifadəsindəki tələbat muxtar respublikanın ayrı-ayrı rayonlarındakı təsərrüfat suyunun çatışmazlığını aradan qaldırmaq üçün yeni su anbarlarının yaradılması, sudartan nasosların qurulması, su kanalları şəbəkələrinin genişləndirilməsi,

subartezan quyularının qazılması zərurətini meydana çıxarırdı. "Suvarma torpaqlarından daha mükəmməl istifadə etmək və kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsini yaxşılaşdırmaq məqsədilə yeni suvarma sisteminə keçmək haqqında" SSRİ Nazirlər Sovetinin 1950-ci il 17 avqust tarixli qərarını yerinə yetirən Naxçıvan Vilayət Partiya Komitəsi və Naxçıvan MSSR Nazirlər Soveti muxtar respublikada su təsərrüfatının inkişafına diqqəti daha da artırmışdır. Bunun nəticəsində 50-60-cı illərdə Naxçıvan MSSR ərazisində bir sıra yeni göllər tikilmiş və istifadəyə verilmişdi. Demək olar ki, bu göllərə hər il 13,5 milyon kubmetr su ehtiyatı toplanırdı [116, s. 19]. Onlarla kəhrizlər, kanallar bərpa edilmiş, əsaslı və cari təmir işləri aparılımışdı. Nehrəm, Çeşməbasar, Güznüt, Sədərək, Qahab və başqa kəndlərdə 10 subartezian quyusu qazılmışdı. Buna baxmayaraq muxtar respublikanın su təsərrüfatı məsələlərinin həlli öz əksini tapmamışdı. Naxçıvan Vilayət Partiya Komitəsi 1961-ci ilin iyulunda vilayətdə suvarma işlərindəki çətinliklə əlaqədar Azərbaycan KP MK-ya "Naxçıvan MSSR-də su tikintisi tədbirləri haqqında" məktubla müraciət etmişdi [112, 1961, 3 oktyabr]. Azərbaycan SSR Meliorasiya və Su Təsərrüfatı Nazirliyi muxtar respublikanın su təsərrüfat işlərinə müəyyən köməklik göstərməsinə baxmayaraq, muxtar respublikada suvarma məsələləri 1961-1965-ci illərdə həll edilmədi. 1966-1970-ci illərdə muxtar respublikada suvarma və irriqasiya işlərinə 26,0 milyon manat vəsait ayrılmışdı. Bu vəsait hesabına 9 100 hektar sahədə meliorasiya işlərinin aparılması, 3970 hektar yeni torpaq sahələrinin kənd təsərrüfatı dövriyyəsinə verilməsi və 23700 hektar torpağın suvarılmasının yaxşılaşdırılması planlaşdırılmışdı. Muxtar respublika kolxozlarında kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 1965-ci ildə 29 553 hektar olduğu halda, 1970-ci ildə 32 025 hektara çatdırılmışdı [58, s. 38].

Maşın-traktor stansiyaları. Kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsində maşın-traktor stansiyalarının (MTS) da həlledici rolu olmuşdu. Kolxoz və sovxozların təşkilat-təsərrüfatca möhkəmləndirilməsində, kolxoz və sovxoz istehsalında məhsuldar qüvvələrin inkişaf etdirilməsi işində MTS-lərin böyük xidməti var idi. İkinci Dünya müharibəsi MTS-lərin işinə də mənfi təsir etmişdi. Müharibədən sonrakı illərdə muxtar respublikada MTS-lərin traktor parkı genişləndirilmiş və onun texniki təchizatı yaxşılaşdırılmışdı. 1940-cı ildə muxtar respublikada MTS-lərin və maşın-heyvandarlıq stansiyaların sayı 2 ədəd olduğu halda, bu rəqəm 1957-ci ildə 5-ə çatmışdı [100, s. 351]. Bu isə Naxçıvan MSSR kolxozlarında traktorla görülən işlərin həcmini artırdı, onların keyfiyyətini yaxşılaşdırdı. Muxtar respublikanın kolxozlarında 1940-cı ildə 203 traktor, 10 taxıl kombaynı, 53 yük avtomobili olduğu halda, 1958-ci ildə traktorların sayı 306-ya, taxıl kombaynları 80-ə, yük avtomobilləri isə 366-ya çatdırılmışdı [101, s. 76]. Muxtar respublikada texnikanın belə artması kolxoz təsərrüfatının daha da güclənməsinə və yeni sovxozların yaranmasına səbəb olmuşdu. Təkcə bu faktı göstərmək kifayətdir ki, 1957-1958-ci illərdə muxtar respublikada 3 iri sovxoz

(Şərur, Sədərək və Dəstədə) yaradılmışdı.

Sov. İKP MK-nın 1958-ci il 25-26 fevral tarixli plenumu "Kolxoz quruculuğunu daha da inkişaf etdirmək və maşın-traktor stansiyalarının yenidən təşkili haqqında" qərar qəbul etdi. Bu qərara əsasən ölkədə MTS-lərin əsasında təmir-texniki stansiyalar (TTS) təşkil edildi. Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi Sov. İKP MK-nın fevral (1958-ci il) plenumunun qərarlarını həyata keçirmək üçün əməli tədbirlər hazırladı. Muxtar respublikada mövcud olan 5 MTS-in əsasında 3 təmir-texniki stansiyası (TTS) yaradıldı. Bu tədbir Naxçıvan MSSR-də bütün kolxoz və sovxoz istehsalatı sahəsində yüksəlişə səbəb oldu. Kənd təsərrüfatının maddi-istehsal bazasının möhkəmləndirilməsində, məhsuldar qüvvələrin daha da inkişaf etdirilməsində, əmək məhsuldarlığının yüksəldilməsində, əkinçilik və heyvandarlıqda görülən işlərin mexanikləşdirilməsində, maya dəyərinin aşağı salınmasında, kənd təsərrüfatı məhsulları bölgüsünün yaradılmasında, kənd təsərrüfatının elektrikləşdirilməsində də böyük əhəmiyyəti vardır. Bu isə Naxçıvan MSSR kolxozlarında və sovxozlarında traktorla görülən işlərin həcmini artırırdı. Muxtar respublikanın kolxozlarında 1950-ci illərdə traktorların sayı 203 ədəd, taxıl kombaynlarının sayı 8 ədəd, yük avtomobillərinin sayı 115 ədəd olduğu halda, 1960-cı ildə traktorların sayı 467 ədədə, taxıl kombaynlarının sayı 137 ədədə, yük avtomobillərinin sayı 404 ədədə çatmışdı [101, s. 76]. Bu rəqəmlər sonrakı illərdə də çoxalmışdı. Belə ki, muxtar respublikanın kolxoz və sovxozlarında 1965-ci ildə fiziki vahid hesabı ilə traktorların sayı 472 ədəd, taxıl kombaynlarının sayı 141 ədəd, yük avtomobillərinin sayı 329 ədəd olduğu halda, 1970-ci ildə traktorların sayı 442 ədədə, taxıl kombaynlarının sayı 100 ədədə, yük avtomobillərinin sayı 394 ədədə çatmışdı [58, s. 79]. Muxtar respublikada nəinki traktor və kənd təsərrüfatı maşınlarının sayı, eyni zamanda onların gücü də artmış, maşın-traktor parklarının quruluşu da yaxşılaşmışdı. Texnikanın belə artımı kolxoz və sovxoz təsərrüfatının daha da güclənməsinə, mühüm kənd təsərrüfatı məhsulları istehsalının yüksəlməsinə və məhsul bolluğunun yaradılmasına səbəb olmuşdu.

Elektrikləşmə. Kənd təsərrüfatının maddi-texniki bazasının inkişaf edib möhkəmləndirilməsi üçün əsas şərtlərdən biri də bu sahəyə elektrik enerjisinin tətbiq edilməsidir."Azərbaycan SSR kolxozlarında elektrikləşdirməni yaxşılaşdırmaq tədbirləri haqqında" Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK-nın 1946-cı il 16 yanvar tarixli qərarına, "1946-1950-ci illərdə Naxçıvan MSSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik plan haqqında" Naxçıvan MSSR Ali Sovetinin 1946-cı il 9 sentyabr tarixli Qanununa, "Kolxozların elektrikləşdirilməsi, elektrik enerjisindən istifadə edilməsi, kolxozlararası su elektrik stansiyalarının tikilməsi barədə SSRİ Nazirlər Sovetinin 1948-ci il 29 may, 1951-ci il 15 yanvar, 1951-ci il 3 fevral tarixli qərarlarına uyğun olaraq kolxozların elektrikləşdirilməsi sahəsində böyük addım atılmışdı. 1946-cı ildə Naxçıvan rayonunun Didivar kəndində və Şərur rayonunun Qarabağlar kəndində elektrik stansiyaları tikilib istifadəyə verilmişdi.

1946-1952-ci illərdə isə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 15-dən çox kolxozunda elektrik stansiyaları tikilib işə salındı [71, v. 34-35]. Muxtar respublikada 1940-cı ildə 614 min kilovat-saat elektrik enerjisi istehsal edildiyi halda, 1958-ci ildə 10 613 min kilovat saat elektrik enerjisi istehsal edilmişdi [101, s. 35].



Qəmərli-Şərur-Naxçıvan yüksək gərginlikli elektrik xəttinin açılışı 1965-ci il

Muxtar respublikada kəndlərin elektrikləşdirilməsi işi 1958-ci ildən daha geniş miqyas almışdı. 1959-cu ildə Şərur-Naxçıvan–Culfa-Ordubad yüksək gərginlikli elektrik xətti istifadəyə verildi ki, bunun da nəticəsində muxtar respublikanın sovxoz, kolxoz və TTS daimi elektrik enerjisi ilə təmin olundu. 1960-1970-ci illərdə muxtar respublikanın elektrikləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdı. Naxçıvana Mingəçevir Su Elektrik Stansiyasından enerji verilmişdi. Muxtar respublikada 1965-ci ildə 0,02 mln. kvt saat elektrik enerjisi istehsal edildiyi halda, 1970-ci ildə 0,5 mln. kvt saat enerji istehsal edilmişdi [58, s. 30].

Muxtar respublikanın kolxozları birinci dəfə elektrik enerjisindən taxılın təmizlənməsində, inəklərin sağılmasında, yun qırxılmasında, yemin doğranmasında, malqaraya yem daşınmasında, su nasosların, dəyirmanların, emalatxanaların işlədilməsində və digər bu kimi işlərdə istifadə edirdilər. Respublika kənd təsərrüfatı işçilərinin elektrik enerjisindən kənd təsərrüfatı işlərində istifadə etməsi, kolxozçuların əməyini xeyli yüngülləşdirir, məhsul istehsalını artırır və maya dəyərini aşağı salırdı.

Taxılçılıq. Kənd təsərrüfatının mühüm sahələrindən biri də taxılçılıqdır. İkinci Dünya müharibəsi illərində taxıla olan ciddi tələbat nəticəsində texniki və yem bitkilərinin əkin sahələri xeyli azalmış, muxtar respublikada taxıl əkin sahələri daha da artırılmışdı. Müharibədən sonrakı illərdə texniki və yem bitkilərinin əkin sahələri yenidən bərpa edildi və taxıl əkini sahələri bir qədər azaldıldı. Muxtar respublikada dənli və paxlalı bitkilərin əkin sahələri 1940-cı ildə 39082 hektar, 1946-cı ildə 43517 hektar olduğu halda, 1950-ci ildə 36443 hektar, 1960-cı ildə isə 27415 hektar olmuşdu [101, s. 43].

Muxtar respublikanın ümumi əkin sahəsində dənli və paxlalı bitkilərin mövqeyinin belə dəyişməsi taxıl istehsalının azalmasına səbəb oldu. 1946-cı ildən fərqli olaraq 1960-cı ildə taxıl əkin sahəsi 11 667 hektar azaldılıb, onun yerində heç bir əsas olmadan digər bitkilər əkilmişdi. Muxtar respublikada taxılçılıq təsərrüfatının qeyri-normal vəziyyətə düşməsi xalq təsərrüfatının başqa sahələrinə, xüsusilə heyvandarlıq təsərrüfatının inkişafına təsir etmişdi. Müharibədən sonra

kolxozların təşkilat-təsərrüfatca möhkəmləndirilməsi, burada taxılın ümumi məhsulunu xeyli artırmışdı. 1947-ci ildə taxılın məhsuldarlığı hər bir hektardan 5,7 sentner olduğu halda, 1948-ci ildə 6,2 sentnerə çatdırıldı [71, v. 35].

SSRİ Nazirlər Soveti 1950-ci il 20 may tarixli qərarında Azərbaycan SSR-də, o cümlədən Naxçıvan MSSR-də yaxın 4-5 ildə taxılın məhsuldarlığını 2 dəfə artırmaq, bununla da muxtar respublikanın taxıla olan tələbatını özünün təmin etməsi kimi mühüm vəzifə irəli sürdü. 1950-ci ilin payızında bu mühüm vəzifə ilə əlaqədar olaraq muxtar respublikada 29035 hektar sahədə, yəni 1949-cu ildəkinə nisbətən 4035 hektar artıq sahədə payızlıq taxıl bitkiləri əkildi. Buna baxmayaraq, 1949-cu ildə dövlətə taxıl tədarük planı 109,9 faiz, 1950-ci ildə 128,5 faiz yerinə yetirildiyi halda, 1951-ci ildə ancaq 83,7 faiz yerinə yetirildi. 1952-ci ildə isə taxıl istehsalı 104,2 faiz yerinə yetirildi [72, v. 44].

1956-cı ildə dənli-paxlalı bitkilərinin əkin sahəsi 2226 hektar genişləndirildi. Hər hektardan dənli bitkilərin məhsuldarlığı 2,8 dəfə artırıldı. 1956-cı ilə nisbətən 11 129 ton artıq taxıl istehsal edildi və dövlətə taxıl tədarük planı 125,7 faiz yerinə yetirildi. 1956-cı ildə 1940-cı ilə nisbətən digər kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin genişləndirilməsi hesabına taxıl bitkilərinin əkin sahəsi 77 faizə qədər azalmışdır. Buna baxmayaraq məhsuldarlığın yüksəldilməsi hesabına 1940-cı ilə nisbətən taxıl istehsalı xeyli artdı [62, s. 62]. 1957-ci ildə muxtar respublikada illik taxıl tədarükü planı 102,8 faiz yerinə yetirildi. 1957-ci ildə taxılın məhsuldarlığı 1955-ci ilə nisbətən hər hektardan 2,95 sentner və yaxud 51 faiz artdı [9, s. 7].

Ümumiyyətlə, 1946-1959-cu illərdə muxtar respublikada taxılçılıq təsərrüfatının sürətli inkişafı təmin olunsa da, ümumi məhsul istehsalı orta hesabla müharibədən əvvəlki səviyyəyə çatdırılmamış, hətta xeyli azalmışdı. Belə ki, 1940-cı ildə muxtar respublikanın kolxozlarında 275528 sentner taxıl istehsal edildiyi halda, 1946-cı ildə 261102 sentner, 1950-ci ildə 222774 sentner, 1959-cu ildə isə 174925 sentner taxıl istehsal edilmişdi [82,v. 11]. Muxtar respublikanın çox sahəli kənd təsərrüfatı şəraitində taxıl istehsalını inkişaf etdirmək üçün şərait və imkanlar vardı. Belə ki, 1965-ci ildə muxtar respublikada 15860 ton taxıl istehsal edildiyi halda, 1970-ci ildə 21443 ton taxıl istehsal edilmişdi [58, s. 35]. Bu rəqəmlərdən görünür ki, Naxçıvan MSSR-də taxıl istehsalına həmişə diqqət verilmişdi.

Pambıqçılıq. Müharibədən sonrakı illərdə Naxçıvan MSSR-də pambıqçılığın bərpa və inkişafı bir vəzifə kimi qarşıda dururdu. Pambıqçılığın əkin sahəsi və istehsalı xeyli artırıldı. 1946-cı ildə respublikada pambığın əkin sahəsi 3530 hektar olduğu halda, 1955-ci ildə 9 705 hektar olmuşdu [101, s. 43; 82, v. 13]. Muxtar respublikada pambıq əkinlərinin sahəsi 1960-cı ildə əvvəlki illərə nisbətən müvəqqəti olaraq kəskin azalmışdı. Belə ki, 1955-ci ildə 9705 hektar olduğu halda, 1960-cı ildə bu rəqəm 6728 hektara yenmişdi [101, s. 43]. Bunun əsas səbəbi pambıqçılıq rayonu olan Şərur rayonunun pambıq tarlalarında güvə xəstəliyinin yayılması ilə əlaqədar idi. Bu rayonda pambığın əkin sahəsi son illərdə təxminən 2 dəfə azalmışdı [61, s. 59].

Ümumiyyətlə, 1950-1959-cu illərdə pambıqçılar dövlət plan və tapşırıqlarını hər il artıqlaması ilə yerinə yetirmişdilər. Məsələn, 1956-cı ildə dövlətə illik pambıq təhvili planı 105,7 faiz ödənilmiş və hektardan 20,5 sentner əvəzinə 21,8 sentner, 1957-ci ildə isə plan 103,8 faiz ödənilmiş və hektardan 20,5 sentner əvəzinə 21,6 sentner pambıq toplanmışdır [77, v. 13]. Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin təşəbbüsü ilə 1958-ci il fevralın 18-də Moskvada pambıqçıların Ümumittifaq müşavirəsi keçirildi. Müşavirənin pambıqçılığı daha da inkişaf etdirmək tələbini artıqlaması ilə yerinə yetirən Naxçıvan MSSR 1959-cu ildə dövlətə 13850 ton pambıq satmış və planı 100,5 faiz yerinə yetirmişdir. Tədarük olunan pambığın 78 faizi birinci və ikinci növ kimi qəbul edilmişdi [80, v. 29]. Muxtar respublikada pambığın məhsuldarlığının yüksəldilməsi onun əkin sahəsinin suvarılmasının yaxşılaşdırılması, mexanikiləşdirilməsi və mütərəqqi aqrotexniki qaydaların geniş tətbiq edilməsi, ziyanvericilərə qarşı kəskin mübarizə aparılması ilə əlaqədardı. Muxtar respublikada aqrotexniki tədbirlərin aparılmasına baxmayaraq pambıq istehsalı 1966-cı ildən fərqli olaraq 1970-ci ildə xeyli azalmışdı. 1966-cı ildə 12455 ton pambıq istehsal edildiyi halda, 1970-ci ildə 7872 ton pambıq istehsal edilmişdi. Bunun əsas səbəbi pambıq əkin sahəsinin azalması idi. Pambıq əkin sahələri hesabına tütün və üzüm əkin sahələri artırılmışdı. Halbuki ölkənin toxuculuq sənaye müəssisələrinin pambığa olan tələbatı gündən-günə artdığından pambıqçılığın inkişafına xüsusi fikir verilməli idi.

Tütünçülük. Naxçıvan MSSR-də ikinci əsas texniki bitki tütün idi. Tütün kolxoz və sovxozların, xüsusilə dağlıq və dağətəyi kolxozların iqtisadiyyatının möhkəmləndirilməsində və kolxozların maddi rifahının yaxşılaşdırılmasında mühüm yer tuturdu. 1950-ci ildə muxtar respublikada 424 hektar tütün əkin sahəsi olduğu halda, bu rəqəm artaraq 1960-cı ildə 936 hektara çatmışdı [101, s.43]. Tütünçülük Naxçıvan, Şərur, Culfa və Şahbuz rayonlarında inkişaf etdirilmişdi. Əsas tütünçülük rayonu Şərur idi. Bütün tütün əkin sahələrinin 97 faizi Şərurda yerləşdirilmişdi. 1956-cı ildə hər hektar tütün sahəsi təxminən 15 200 manata qədər gəlir vermişdi. 1956-cı il bütün əkin sahələrinin 1,3 faizini əhatə edən tütündən 10,5 milyon manat gəlir əldə edilmişdi ki, bu da muxtar respublikada bütün kolxozların ümumi gəlirinin 12,5 faizini təşkil etmişdi. 1957-ci ildə tütün əkin sahələrinin gəliri 15 milyon manata qalxmışdı [61, s.62]. Kənd təsərrüfatının çox gəlirli sahəsi olan tütünçülüklə muxtar respublikada 4 kolxoz məşğul olurdusa, 1957-ci ildə tütün əkən kolxozların sayı 22-yə çatdırılmışdı. Kolxozlardan başqa respublikada 3 tütünçülük sovxozu da fəaliyyət göstərirdi. Tütünçülük sahəsinə diqqət xeyli artırılmış və sürətlə inkişaf etdirilmişdi. Naxçıvan MSSR kolxozlarında 1946-cı ildə 392 ton tütün məhsulu toplandığı halda, 1959-cu ildə 1291,1



Şərur rayonunda tütün sahəsi 1965-ci il

ton tütün məhsulu əldə edilmişdi. 1960-cı illərdə muxtar respublikada 5 böyük kolxoz tamamilə tütün istehsalına görə ixtisaslaşmışdı. Bu kolxozlarda "Samsun", "Trabzon" və "Dikqulaq" kimi yüksək keyfiyyətli tütün növləri becərilirdi. Muxtar respublikanın tütün əkin sahələrindən 1960-cı ildə 1 237 ton tütün məhsulu istehsal edildiyi halda [101, s. 57], 1970-ci ildə 3118 ton tütün məhsulu istehsal edilmişdi [58, s. 36].



Şərur rayonunda üzümçülük sahəsi 1965-ci il

Üzümçülük. Naxçıvan MSSR-də ixtisaslaşdırılmış təsərrüfat sahələrindən biri də üzümçülük idi. Muxtar respublikanın iqtisadiyyatında mühüm rol oynayan üzümçülüyün inkişafı üçün əlverişli təbii şərait vardı. Burada müxtəlif üzüm növləri geniş yayılmış və şöhrət tapmışdı. Belə üzüm növlərindən "Mələyi", "Kişmişi", "Xəlili", "Əsgəri", "Gülabı", "Şəfeyi", "Bəndi", həmçinin 50-yə qədər texniki və süfrə üzümlərinin adını qeyd etmək olar. Müharibədən sonrakı az vaxt ərzində muxtar respublikada üzüm əkin sahələri bərpa və inkişaf etdirildi. 1944-cü ildə kolxoz və sovxozlarda 1469 hektar, 1950-ci ildə 1 527 hektar, 1955-ci ildə 1420 hektar, 1960-cı ildə 2287 hektar üzüm əkin sahəsi var idi [101, s.56]. Bu yüksəliş məhsuldarlığın artmasında da özünü göstərmişdi. Naxçıvan MSSR-də 1940-cı ildə hər hektardan 36,4 sentner üzüm məhsulu götürüldüyü halda, 1946-cı ildə 40,3 sentner, 1950-ci ildə 58,9 sentner, 1955-ci ildə isə 62,7 sentner üzüm məhsulu götürülmüşdü [45, s. 120].


Naxçıvan MSSR-in düzənlikdə yerləşən kolxozları Şərur rayonunda "Azərbaycan" sovxozu ilə birlikdə dövlətə 8-10 min ton üzüm təhvil verməklə, bunun müqabilində 12-15 milyon manat pul əldə etmişdi. Muxtar respublikanın düzənlik kolxozlarına nisbətən aşağı və orta dağlıq ərazidə üzümün məhsuldarlığı xeyli yüksək idi. Culfa rayonunun Əbrəqunus, Naxçıvan (indiki Babək) rayonunun Çalxanqala və Şahbuz rayonunun əsas üzümçülük kolxozlarında üzümün orta məhsuldarlığı 60-80 sentnerə bərabər idi. Burada ayrı-ayrı kolxozlar 150-200 sentner, briqada və manqalar isə 240-300 sentner üzüm məhsulu götürürdülər [61, s. 70]. Naxçıvan MSSR kolxozlarının və xüsusilə də muxtar respublikanın dağətəyi zonası kolxozlarının perspektivli bir sahəsi olan üzümçülüyün inkişaf etdirilməsi kolxozların iqtisadiyyatının sürətlə yüksəlməsini təmin edir. 1959-cu ildə üzümlüklərin sahəsi 363 hektar genişləndirilmişdi, üzüm tədarük planı 115 faiz yerinə yetirilmiş və dövlətə 3 972 ton üzüm satılmışdı [80, v. 42]. 1960-cı ildə muxtar respublikanın kolxoz və sovxozlarında 2287 ha üzüm əkin sahələri var idisə [101, s.56], 1970-ci ildə bu rəqəm 7339 hektara çatdırılmışdı [58, s. 54]. 1960-cı ildə 3647 ton üzüm məhsulu istehsal edildiyi halda, 1970-ci

ildə 26423 ton üzüm məhsulu istehsal edilərək dövlətə satılmış və tədarük edilmişdi [58, s.36]. Muxtar respublikanın üzümlüklərinin əsas hissəsini texniki üzüm növləri təşkil etmişdi.

Meyvəçilik. Naxçıvan MSSR meyvəçiliyin inkişafı ilə də şöhrət tapmışdı. Meyvəçilik muxtar respublika kənd təsərrüfatının mühüm sahələrindən birini təşkil edir. Muxtar respublikada meyvə bağlarının məhsuldarlığı 1940-cı ildə 22,8 sentner olduğu halda, 1946-cı ildə 23,2 sentner, 1950-ci ildə 24,0 sentner, 1955-ci ildə 29,1 sentner olmuşdu [45, s. 109]. Muxtar respublikada 1956-1960-cı illərdə meyvə bağlarının inkişafına ciddi fikir verilmişdi. 1958-ci ildə Ordubad rayonunun Dəstə kəndində meyvəçilik sovxozu təşkil edildi. Meyvə bağlarına diqqət və qayğının artırılması nəticəsində 1956-cı ildə 1955-ci ilə nisbətən meyvənin məhsuldarlığı 4,3 sentner artırılmışdı. 1956-1957-ci illərdə muxtar respublikanın kolxozlarında 85 hektar sahədə yeni meyvə bağı salınmışdı. 973 hektar mövcud meyvə bağlarının 626 hektarı məhsul verən bağlar idi [76, v. 108].

Muxtar respublikada bağçılığı inkişaf etdirməkdə məqsəd əhalini yüksək keyfiyyətli meyvə ilə təmin etmək və gəliri artırmaq olmuşdur. Bu məqsədlə, 1960-cı illərdə Araz çayı sahillərindən başlamış dəniz səviyyəsindən 1600, hətta 2000 metr hündürlüyə qədər bütün ərazinin suvarıla bilən yerlərində bağlar salınmışdı. Məhz bunun nəticəsində 1960-1970-ci illərdə bağçılıq təsərrüfatı inkişaf etdirilmiş və məhsuldarlıq yüksəldilmişdi. Əsas meyvəçilik rayonu olan Ordubad kolxozlarının bağlarından hər hektardan 35-48,5 sentner meyvə yığılaraq Ordubad konserv zavoduna satılmışdı.

Heyvandarlıq. Naxçıvan MSSR kənd təsərrüfatının ən geniş sahələrindən biri də heyvandarlıq idi. Kənd təsərrüfatının mühüm sahəsi olan heyvandarlıq həm ictimai təsərrüfatda (kolxoz və sovxozlarda), həm də kolxozçuların, fəhlə və qulluqçuların şəxsi təsərrüfatlarında inkişaf etdirilmişdi. Naxçıvan MSSR-də heyvandarlıq təsərrüfatı müharibədən sonrakı illərdə xeyli artmışdı. Naxçıvan MSSR-də 1960-cı illərdə bütün kateqoriyalar üzrə heyvanların inkişaf dinamikası göstərir ki, iribuynuzlu heyvanların sayı 1951-ci ildə 49,4 min baş, xırdabuynuzlu heyvanların sayı 203,3 min baş olduğu halda, 1960-cı ildə iribuynuzlu heyvanlar üzrə 57,0 min başa, xırdabuynuzlu heyvanlar üzrə 264,3 min başa çatmışdı [101, s. 63, 65].



Ət və süd məhsulları kombinatı 1965-ci il

Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinin hesabatında deyilir: "Muxtar respublikanın fədakar heyvandarları müharibə illərində olduğu kimi müharibədən sonra dövlət planlarını 1946-cı ildə qaramal üzrə 103,35 faiz, qoyun və keçilər üzrə 112,4 faiz, atlar üzrə 109,2 faiz, dəvələr üzrə 103,2 faiz, arı ailəsi üzrə 116 faiz


yerinə yetirmişdi" [92, v. 66]. Muxtar respublikada xırda kolxozların birləşməsi heyvandarlıq fermalarının böyüməsinə, onların ixtisaslı kadrlarla möhkəmləndirilməsinə, yem bazasının yaradılmasına səbəb olmuşdu. 1954-cü təsərrüfat ilində muxtar respublikanın heyvandarları qaramalın sayını 46 682 başa, o cümlədən inək və camışların sayını 10 906 başa, qoyun və keçilərin sayını 195 172 başa çatdırmışdı [82, v. 11].

Məhsuldarlığın inkişafı süd sağımında özünü göstərirdi. Belə ki, 1953-cü ildə hər inəkdən 377 litr süd sağıldığı halda, 1954-cü ildə hər inəkdən 415,3 litr süd sağılmışdı. 1955-ci ildə heyvandarlığın inkişaf planı iribuynuzlu mal-qara üzrə 47967 baş və ya 100,1 faiz, qoyun və keçilər üzrə 196 058 baş və ya 100,2 faiz yerinə yetirilmişdi. Hər 100 hektar yararlı torpaq sahəsinə görə yun istehsalı planı 104 kiloqram və ya 116 faiz yerinə yetirilmişdi, ət istehsalı 1955-ci ildə 1953-cü ilə nisbətən 28 faiz, süd istehsalı 27 faiz, yun istehsalı isə 24 faiz artıq yerinə yetirilmişdi.

"1956-1960-cı illərdə SSRİ Xalq təsərrüfatının inkişafına dair altıncı beşillik plan haqqında" Sov. İKP XX qurultayının direktivlərini (25 fevral 1956-cı il) yerinə yetirən muxtar respublikanın heyvandarları 1956-1959-cu illərdə də heyvandarlıq və heyvandarıq məhsullarının inkişafı sahəsində daha mühüm nəticələr əldə etdilər. 1956-1959-cu illərdə muxtar respublikanın partiya, Sovet orqanları heyvandarlığın sürətlə inkişaf etdirilməsi və məhsuldarlığının yüksəldilməsi üçün yem bitkilərinin xüsusi çəkisinin ümumi əkin sahəsində artırılmasına diqqəti xeyli artırıb, heyvandarlıq fermalarında ağır zəhmət tələb edən işlərin mexanikləşdirilməsi, mal-qaranın cinsinin xeyli yaxşılaşdırılmasına, fermalar üçün yeni binalar tikilməsinə, baytarlıq və zootexniki tədbirlərin yaxşılaşdırılmasına ciddi fikir vermişdilər. Nəticədə heyvandarlıq məhsullarının dövlətə satış planı ət üzrə 103,4 faiz, süd üzrə 100 faiz, yun üzrə 102,2 faiz, yumurta üzrə 100,9 faiz, dəri üzrə 119 faiz, gön üzrə 111 faiz yerinə yetirilmişdir.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin XXIV konfransında (31 yanvar 1960-cı il) qeyd olunmuşdur ki, 1959-cu ildə kolxoz və sovxozlarda 1953-cü ilə nisbətən süd istehsalı 1717 ton, ət istehsalı isə 583 ton artmışdı. 1960-1970-ci illərdə muxtar respublikada məhsuldar mal-qaranın sayı xeyli artırılmışdı. 1960-cı il yanvarın 1-nə olan məlumata görə bütün təsərrüfat dərəcələri üzrə iribuynuzlu heyvanların sayı 57 min baş, xırdabuynuzlu heyvanların sayı 264,3 min baş olduğu halda [101, s. 59], 1969-cu ildə iribuynuzluların sayı 65 min baş, xırdabuynuzlu heyvanların sayı isə 270,5 min başa çatdırılmışdı. Respublikada heyvandarlıq təsərrüfatını yüksəltmək və inkişaf etdirmək üçün tələb edilən miqdarda yemlə, xüsusən şirəli və qüvvəli yemlə təmin etmək, möhkəm və sabit yem bazası yaratmaq, heyvandarlıq binalarını tikmək, ağır zəhmət tələb edən əmək prosesini mexanikləşdirmək, heyvanların cinsini yaxşılaşdırmaq və digər məsələlərin geniş tətbiq edilməsi lazımdır.

Baramaçılıq. Naxçıvan MSSR-də baramaçılıq kənd təsərrüfatının əsas sahəsindən biridir. Muxtar respublikada baramaçılığın artırılması və inkişafı toxuculuq sənayesinin daha çox xammal almasına səbəb olur. Naxçıvan ipəyindən hazırlanan min bir rəngli parçalar, ümumdünya şöhrəti qazanmışdır. Muxtar respublika kolxozlarının, xüsusilə Ordubad rayonunun təsərrüfatlarının iqtisadiyyatında mühüm rol oynayan baramaçılığı inkişaf etdirmək üçün mühüm tədbirlər həyata keçirilmişdi.



Ordubad Baramaaçan Fabriki 1965-ci il

Yem bazası möhkəmləndirilmiş, yeni gümxanalar tikilib istifadəyə verilmiş, barama qurdlarının cins və növləri yaxşılaşdırılmış, onların saxlanması və yemlənməsinə diqqət daha da artırılmışdı. Nəticədə baramaçılıqla məşğul olan kolxozlar 1946-1959-cu illərdə mühüm nailiyyətlər qazanmışlar. Dördüncü beşilliyin birinci ilində muxtar respublikanın baramaçıları müəyyən olunmuş plan üzrə dövlətə 65 100 kq barama əvəzinə 6ma təhvil verərək illik planı 102,6 faiz yerinə yetirmişlər. Dövlətə barama satışında Şərur, Naxçıvan, Culfa və Şahbuz rayonunun baramaçıları daha çox fərqlənmişlər. Şərur rayonu illik planı 140,2 faiz, Naxçıvan rayonu 135,2 faiz, Culfa rayonu 109,8 faiz, Şahbuz rayonu isə 102,5 faiz yerinə yetirmişdi. 1950-ci ildə muxtar respublikanın baramaçıları dövlətə barama təhvili planını 113 faiz yerinə yetirdilər. Dövlətə barama təhvilində Şahbuz rayonunun baramaçıları daha yüksək nəticə göstərmişlər. Onlar qabaqcıl təcrübədən geniş istifadə edərək 1950-ci ildə dövlətə barama təhvili planını 182 faiz yerinə yetirmişlər. 1951-ci ildə muxtar respublikanın kolxozları barama qurdlarına yaxşı qulluq edərək, hər qutudan 52,2 kq barama məhsulu götürmüşdülər.

1956-1960-cı illərdə muxtar respublikanın kolxozlarında baramaçılığın inkişafına ciddi fikir verildi. Nəticədə dövlətə barama təhvili planı 1957-ci ildə 111,6 faiz yerinə yetirildi. Barama təhvili planının yerinə yetirilməsində Ordubad rayonunun baramaçıları 1956-57-ci illərdə xüsusilə fərqlənmişlər. Onlar barama təhvili planını 1956-cı ildə 117,5 faiz, 1957-ci ildə isə 122,1 faiz yerinə yetirmişlər [77, v. 18]. Baramaçılar 1955-ci ildə baramadan 2 milyon 900 min manat pul gəliri əldə etmişdilərsə, 1956-cı ildə 3 milyon 184 min, 1957-ci ildə isə 3 milyon 900 min manat pul gəliri əldə etmişdilər. Onlar dövlətə 1959-cu ildə 94,1 sentner barama sataraq illik planı 110,3 faiz yerinə yetirdilər.

Ümumiyyətlə, 1959-cu ildə muxtar respublikanın bütün rayonlarında baramaçılıqla məşğul olan kolxozlar qəbul etdikləri sosialist öhdəliklərini də yerinə yetirmişdilər. Naxçıvan Muxtar Respublikasında bütün təsərrüfat dərəcələri üzrə 1955-ci ildə 61 ton barama tədarük edildiyi halda, 1959-cu ildə 94 ton tədarük edilmişdi. Bu 1955-ci ilə nisbətən 33 ton çox olsa da müharibədən əvvəlki səviyyəyə çatma-

mışdı. Belə ki, 1940-cı ildə muxtar respublikada 101 ton barama tədarük edildiyi halda, 1960-cı ildə 94 ton, 1970-ci ildə 72,6 ton barama tədarük edilmişdi. [58, s. 72; 101, s. 76]. Bunun əsas səbəbi barama istehsal edən barama qurdlarının xəstələnməsi və barama üçün yem tədarükünün azlığı idi.

Arıçılıq. Arıçılıq az məsrəf tələb edən və yüksək gəlir gətirən kənd təsərrüfatı sahələrindən biridir. Muxtar respublikanın bir sıra dağ və dağətəyi zonalarındakı kolxozlar arıçılıqla məşğul olmuşdular. 1956-cı ilin məlumatına görə kolxozlarda 3 068 arı ailəsi olmuşdu. Bal arılarına xidmətdən asılı olaraq, muxtar respublikanın rayonları arasında onların məhsuldarlığı müxtəlifdir. Muxtar respublika üzrə hər arı ailəsindən 6,2 kiloqram bal götürülmüşdü [61, s. 78]. Arıçılıq yeyinti və müalicə əhəmiyyəti olan bal və sənaye üçün mum verirdi. Bağ, bostan, texniki və yem bitkilərinin tozlanmasına kömək etməklə məhsuldarlığı artırırdı.

Naxçıvan MSSR-nin Culfa, Şahbuz və Ordubad rayonlarının qabaqcıl kolxozlarının təcrübəsi göstərir ki, köçəri arıçılıq yolu ilə hər bir arı ailəsindən alınan bal məhsulunu ildə 100 kq-a çatdırmaq olar. 1951-1955-ci illərdə muxtar respublikanın kolxozlarında arıçılığın inkişafı yüksək olmuşdu. Belə ki, 1950-ci ilə nisbətən 1951-ci ildə 104,1 faiz, 1952-ci ildə 127,3 faiz, 1953-cü ildə 133,1 faiz, 1955-ci ildə isə 137,6 faiz olmuşdu. 1955-ci ildə Ordubad rayonunun Bist kəndində 570 arı ailəsinin hər birindən 50 kq-dan çox yüksək keyfiyyətli bal məhsulu götürülmüşdü [45, s. 153]. 1965-ci ildə muxtar respublikada 2000 arı ailəsi var idi. Onlar başlıca olaraq Ordubad (1136), Naxçıvan (420) və Şahbuz (282) rayonlarında saxlanılırdı. İctimai təsərrüfatlardan başqa arıçılıq kolxozçuların, fəhlə və qulluqçuların şəxsi təsərrüfatlarında da inkişaf etdirilmişdi.

Ümumiyyətlə, 50-60-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında mexanikləşdirilmiş iri kənd təsərrüfatı yaradılmış, kənd təsərrüfatı istehsalının ümumi həcmi xeyli artmış, kolxoz və sovxozların maddi-texniki bazası möhkəmləndirilmiş, əkinçilik məhsullarının bütün əsas sahələrinin məhsuldarlığı və tədarükü çoxalmış, heyvandarlıq məhsulları istehsalı artmışdır. Nəticədə vahid aqrar-sənaye kompleksi kimi güclü potensial yaradılmış, su təsərrüfatı və meliorasiyanın inkişafına ciddi fikir verilmiş, kənd təsərrüfatı özünün yüksək zirvəsini fəth etmişdi.



Sosialist Əməyi Qəhrəmanı Bahar Talıbova

Naxçıvan MSSR-də kənd təsərrüfatının inkişafında böyük xidmətləri olmuş Sosialist Əməyi Qəhrəmanları Bahar Talıbova, Bənövşə Abbasova, Növrəstə Quliyeva, Xasa Vəliyeva, Fatma İmamquliyeva, Hüseyn Məmmədov, Yunis Cabbarov, Məmməd Cəfərov, İsa Əliyev, Yusif İsmayılov, Yusif Məmmədov, Mirhəmzə Eminov və başqalarının adları bu gün iftixarla, hörmətlə və ehtiramla xatırlanır.



Sosialist Əməyi Qəhrəmanı
Yunis Cabbarov



Sosialist Əməyi Qəhrəmanı
Növrəstə Quliyeva



Sosialist Əməyi Qəhrəmanı
Xasa Vəliyeva



Sosialist Əməyi Qəhrəmanı
Hüseyn Məmmədov

Sənaye. Ikinci Dünya müharibəsindən sonrakı illərdə Naxçıvanın geridə qalmış sənaye müəssisələri ildən-ilə texnika, texnologiya və yüksək əmək təşkilinin nəticəsində genişlənmiş, bir sıra yeni sənaye müəssisələri tikilib, istifadəyə verilmiş və hərtərəfli inkişaf etdirilmişdi. Bu sənaye müəssisələrindən - baramaaçan, tikiş, mebel fabriklərini, Badamlı mineral sudoldurma, konserv, asfalt-beton zavodlarını, duz və filiz mədənlərini, ət-süd və tikinti materialları kombinatını göstərmək olar [11, s. 114]. Naxçıvan MR ərazisində sənayeni inkişaf etdirmək üçün böyük əhəmiyyətə malik olan müxtəlif metal və qeyri-metal faydalı yataqlar, kənd təsərrüfatı məhsulları, iqtisadi və müalicə əhəmiyyətli mineral sular vardı.

1950-60-cı illərdə Naxçıvan MSSR-də sənayenin inkişafı baxımından mühüm mərhələ hesab edilə bilər. Sənayenin ümumi məhsul istehsalının artım sürəti 1940-cı ildəkinə nisbətən 1950-ci ildə 144 faizə, 1960-cı ildə 285 faizə, çatdırılmışdı [101, s. 23].

Naxçıvan MSSR-də sənaye məhsullarının ümumi artım sürəti yeni sənaye müəssisələrinin yaradılması hesabına olmuşdur. Təkcə bir faktı göstərmək kifayətdir

ki, 1951-1960-cı illərdə muxtar respublikada 5 iri dövlət sənaye müəssisəsi tikilib istifadəyə verilmişdi [58. s. 90]. Belə sənaye müəssisələrindən yeni istilik-elektrik stansiyasını, Parağaçay və Gümüşlü dağ-mədən müəssisələrini, Naxçıvan şəhərində ət kombinatını, tikiş fabrikini, Badamlı mineral sudoldurma zavodu göstərmək olar.

İkinci Dünya müharibəsindən sonrakı illərdə yaradılan sənaye müəssisələri muxtar respublikada sənayenin inkişafını daha da artırmışdı. 1950-60-cı illərdə sənayenin xəritəsi xeyli dəyişilmiş, onun ənənəvi sahələrinin genişlənməsinə əsaslanmışdı. Bu da muxtar respublikanın sənaye quruluşunun kompleks inkişaf prinsipi əsasında təşəkkül tapmasına səbəb olmuşdu.

SSRİ Xalq təsərrüfatının bərpa və inkişafına dair beşillik plan haqqında Qanuna müvafiq olaraq, 1946-cı il avqustun 15-də Azərbaycan SSR Ali Sovetinin VIII sessiyası "1946-1950-ci illər üçün Azərbaycan SSR xalq təsərrüfatının bərpa və inkişafına dair beşillik plan" haqqında Qanun qəbul etdi. Bu Qanuna görə beş ildə respublikanın xalq təsərrüfatına 5,9 milyard manat kapital qoyulması, sənaye məhsulu buraxılışını 1940-cı ilə nisbətən 18 faiz artırmaq nəzərdə tutulmuşdu [4, s. 181]. 1946-1950-ci illərdə Naxçıvan MSSR-də xalq təsərrüfatının inkişafına da ciddi fikir verilirdi.

1950-ci ildə muxtar respublikada sənaye məhsul istehsalı 1940-cı il səviyyəsini 1,4 dəfə ötüb keçdi [6, s. 4]. Muxtar respublikada sənaye məhsullarının dördüncü beşilliкdə bu qədər artması fəhlə və qulluqçular arasında yarışın (rəqabətin) genişlənməsi, sənaye müəssisələrinin yenidən qurulması, kütləvi izahat işlərinin aparılması, əmək məhsuldarlığının artması, məhsulun maya dəyərinin aşağı salınması kimi obyektiv amillər nəticəsində mümkün olmuşdu.

Azərbaycanda və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında dördüncü beşilliyin qarşısında duran vəzifələrin yerinə yetirilməsi regionun tərəqqi və inkişafı üçün daha geniş perspektivlər açdı və zəmin yaratdı. İkinci Dünya müharibəsindən sonrakı dördüncü beşillik dövründə xalq təsərrüfatının bərpa edilib, başa çatdırılması və inkişaf etdirilməsi nəticəsində möhkəmləndirilmiş təməl üzərində yeni beşilliyin (1951-1955-ci illər) əsası qoyuldu. Bu beşillik planla əlaqədar olaraq Naxçıvan MSSR fəhlələri, kolxozçuları və ziyalıları qarşısında böyük əhəmiyyət kəsb edən yeni vəzifələr durdu. Muxtar respublika zəhmətkeşləri beş il ərzində çox işlər görməli idilər.

1955-ci ildə sənaye müəssisələrinin ümumi məhsulu 1950-ci ilə nisbətən 90,5 faiz, o cümlədən yerli sənaye 66,7 faiz, yeyinti sənayesi 117,3 faiz, sənaye kooperasiyası 45,5 faiz, yüngül sənayenin 29,3 faiz artırılması nəzərdə tutulurdu. Beşinci beşilliyin sonunda yerli tikinti materiallarının istehsalı 2-2,5 dəfə, yeyinti sənayesi məhsulları 2,2 dəfə artırılmalı idi. Çox işlənən mallar istehsalının səviyyəsi 70 faizə yüksəlməli idi [73, v. 52].

1951-1955-ci illərdə Naxçıvan MSSR-də xalq təsərrüfatının inkişafı üçün 136797,9 min manat əsaslı vəsait nəzərdə tutulmuşdu [83, v. 5]. Bu vəsaitdən

3429,5 min manatı Naxçıvan MSSR Sənaye İttifaqı, 4837,9 min manatı Naxçıvan MSSR Yerli Sənaye Nazirliyi, 16154,2 min manat Naxçıvan MSSR Yeyinti Sənaye Nazirliyi, 9500 min manatı Sabir adına Əlillər Arteli üçün müəyyən edilmişdi [83, v. 5]. Naxçıvan MSSR sənaye işçiləri beşillik planı yerinə yetirmək üçün ilk gündən fədakarlıq göstərdilər. Nəticədə 1951-ci ildə sənaye üzrə məhsul istehsal planı 108,7 faiz [74, v. 3], 1952-ci ildə isə 112,7 faiz yerinə yetirilmişdi [75, v. 126]. Bununla yanaşı, Naxçıvan MR Yerli Sənaye Nazirliyi, Naxçıvan Sənaye İttifaqı dövlət planlarını yerinə yetirməmişdi.

1953-cü ilin dekabr ayında Azərbaycan KP Naxçıvan Vilayət təşkilatının XX konfransında muxtar respublika sənaye müəssisələrinin fəaliyyəti dərin və hərtərəfli təhlil edilmişdi. Naxçıvan MSSR sənayesi qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsi sahəsində konkret tədbirlər işlənib hazırlandı. Konfrans nümayəndələri Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, muxtar respublika Nazirlər Sovetinin, bir çox partiya və sovet orqanlarının, habelə təsərrüfat quruculuğunun və mədəni quruculuğun işində olan nöqsanları və bunun səbəblərini prinsipial tənqid və özünü tənqid əsasında açıb göstərdilər. Naxçıvan MSSR yerli sənayesinin işində ciddi nöqsanların olduğu qeyd edildi. Konfrans yerli sənaye müəssisələrinə rəhbərliyi kökündən yaxşılaşdırmağa, iqtisadiyyatın inkişafının perspektiv məsələləri ilə daha dərindən məşğul olmağa, sənaye işçilərinin bütün qüvvələrini sənaye istehsalının daha da artırılması uğrunda səfərbərliyə almağa, sənaye istehsalı üzrə planın tamamilə yerinə yetirilməsini təmin etməyə çağırdı.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin XX konfransının qərarlarına əməli işlə cavab verən muxtar respublikanın sənaye işçiləri daimi texniki tərəqqidən ən yüksək texnikaya keçilməsində, əmək məhsuldarlığının yüksəldilməsində, məhsulun maya dəyərinin aşağı salınmasında, yeni texnikanın istehsala tətbiq edilməsində böyük nailiyyətlər qazandılar. Məhz bunun nəticəsidir ki, Naxçıvan MSSR sənaye nazirliyinin müəssisələri beşinci beşillik planı vaxtından əvvəl, 4 il 6 ayda yerinə yetirdilər [85, s. 7]. Beşillikdə muxtar respublikada sənaye istehsalı 1950-ci ilə nisbətən yerli sənaye üzrə 40,6 faiz, sənaye kooperasiyası üzrə 65,5 faiz, şərab tresti üzrə 282,5 faiz artırılmışdı. 1955-ci ildə yerli tikinti materiallarının istehsalı 1950-ci ilə nisbətən 3 dəfə artırılmışdı [85, s. 8]. 1951-1955-ci illər planının nəticələrinin təhlili göstərir ki, 1955-ci ildə Naxçıvan MR Yerli Sənaye Nazirliyinin müəsissələri 1950-ci ilə nisbətən ümumi məhsul istehsalının artım planını 140,6 faiz, Naxçıvan Sənaye Şurası 165,5 faiz, Naxçıvan Şərab tresti isə 382,5 faiz yerinə yetirmişdi [84, s. 14].

1951-1955-ci illərdə Naxçıvan MSSR-də sənayenin şəbəkəsi xeyli genişlənmişdi. Naxçıvan, Ordubad şəhərləri ilə yanaşı Şərur, Şahbuz və Culfa rayonlarında yeni sənaye müəssisələri tikilib istifadəyə verilmişdi. 1951-1955-ci illərdə Şərur rayonunda elektrik şəbəkəsi, Ordubadda Parağaçay, Şərurda Gümüşlü dağ-mədən sənaye müəssisələri, Naxçıvanda çörək zavodu, ət kombinatı, Şahbuz rayonunda

Badamlı mineral su doldurma zavodu və s. sənaye müəssisələri tikilib istismara verildi. Nəticədə sənayenin yeni sahələri (mineral sular, ət-süd, çörək-bulka, əlvan metal istehsalı) meydana gəldi və bu sahələr hesabına sənaye məhsulu istehsalı 1951-1955-ci illərdə daha sürətlə (Azərbaycanda 45 faiz, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında 87 faiz) artdı [62, s. 24].

1955-ci ildə Naxçıvan MSSR sənaye müəssisələrinin ümumi məhsul istehsalı planı 107,6 faiz, o cümlədən yerli tabelikdə olan sənaye sahələri 111,5 faiz, respublika tabeliyində olan sənaye sahələri 105,6 faiz yerinə yetirmişlər. Ordubad Sənaye Kombinatı dövlət planlarını 127,2 faiz, Şərur Rayon Kombinatı 116,3 faiz, Culfa Rayon Kombinatı 106,3 faiz, Naxçıvan Şərab Tresti 114,3 faiz , Naxçıvan Sənaye Kooperasiyası 111,1 faiz, Badamlı Mineral Sular zavodu 104,1 faiz, Şərur Çox Sənətli Sənaye Arteli 114,7 faiz, Azərbaycan SSR 10 illiyi adına Ordubad Sənaye Arteli 105 faiz, Naxçıvan Çox Sənətli Sənaye Arteli 103,1 faiz, Naxçıvan Ət Soyuducu Kombinatı 129,4 faiz, Naxçıvan yağ sənayesi 107,9 faiz, Ordubad İpək Fabriki 114 faiz, Şərur Pambıqtəmizləmə Zavodu 106 faiz, Asfalt-Beton Zavodu 168 faiz, Çörək-Bulka zavodu 107 faiz yerinə yetirmişdi [85, v. 18]. Beşillik planın muxtar respublikada müvəffəqiyyətlə yerinə yetirilməsi onun iqtisadi və sənaye potensialını daha da gücləndirdi. Sənayenin inkişafı və yüksəlişi üçün maddi baza yaradıldı.

1956-cı il yanvarın 25-də Azərbaycan KP-nın XXI qurultayı oldu. Qurultay altıncı beşillik planın direktivlərinin layihəsini bəyənərək, Azərbaycanda sənayeni inkişaf etdirmək üçün qərar qəbul etdi. XXI qurultayın qərarları Naxçıvan MSSR-ə də aid idi. 1956-1960-cı illərdə Naxçıvan MSSR-də xalq təsərrüfatının inkişaf planında sənayeni inkişaf etdirmək vəzifəsi qarşıya qoyuldu.

1956-1960-cı illərdə Naxçıvan MSSR xalq təsərrüfatını inkişaf etdirmək üçün əsaslı vəsaitin ümumi həcmi bütövlükdə 216746,0 min manat idi [87, v. 7]. Bu vəsaitdən 6 000,0 min manatı Naxçıvan MSSR Yerli Sənaye Nazirliyi, 3260,0 min manatı Naxçıvan MSSR Sənaye Şurası, 250 000 min manatı Naxçıvan MSSR Yeyinti Nazirliyi üçün müəyyən edilmişdi [85, v.6]. Bu da muxtar respublikada sənayeni daha sürətlə inkişaf etdirməyə imkan verirdi. Naxçıvan MSSR sənaye müəssisələrinin kollektivləri qabaqcıl təcrübələrdən istifadə edərək, altıncı beşilliyin birinci ili olaraq 1956-cı ildə sənayenin ümumi istehsal planını 104,1 faiz yerinə yetirmişdi. 1956-cı il muxtar respublika sənaye müəssisələri dövlətə plandan əlavə 5,3 milyon manatlıq məhsul vermişdilər [77, v. 47].

1957-ci ildə muxtar respublikanın sənayesi 166 milyon 298 min 700 manatlıq məhsul istehsal etmiş və ya dövlət planını 102 faiz yerinə yetirmişdi ki, bu da 1956-cı ildəkindən 6 milyon 486 min 900 manat və yaxud 4,05 faiz çoxdur. Bu zaman Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının tabeliyində olan sənaye təşkilatları 107 milyon 279 min 700 manatlıq məhsul istehsal etmiş və ya ümumi məhsul buraxılışı planını 108,4 faiz yerinə yetirdilər. Bu isə 1956-cı ildəkindən 16 milyon

363 min 200 manat və ya 18 faiz artmışdı [18, s. 4] .

Naxçıvan MSSR-in sənaye işçiləri 1956-60-cı illərin iki ilində əldə edilmiş nailiyyətləri möhkəmləndirmiş, əmək məhsuldarlığını xeyli artırmış, məhsulun maya dəyərini aşağı salmışdılar. Bunun nəticəsi olaraq 1958-ci ildə sənaye məhsulları istehsal planı 101,6 faiz yerinə yetirilmişdi [80, v. 5]. Naxçıvan MSSR-də sənayenin ümumi məhsulunun artım sürəti 1940-cı ildəkinə nisbətən 1960-cı ildə 285 faiz olmuşdu [101, s. 33]. 50-60-cı illərdə Naxçıvan MSSR-də sənayenin inkişafı baxımından irəliləyiş olmuşdur. Belə ki, muxtar respublikada sənayedə ümumi məhsul istehsalının artım sürəti 1940-cı ildəkinə nisbətən 1950-ci ildə 144 faiz, 1960-cı ildə 285 faiz, 1961-cı ildə 301 faiz, 1962-ci ildə 314 faizə çatdırılmışdı [101, s. 33]. Muxtar respublikada sənaye məhsullarının artım sürəti sonrakı illərdə daha yüksək olmuşdu. 1960-cı ilə nisbətən 1966-cı ildə 126 faiz, 1970-ci ildə isə 222 faiz olmuşdu.

Sənaye məhsullarının artım sürəti İkinci Dünya müharibəsindən sonrakı illərdə Naxçıvan MR-də sənaye potensialının yaradılması, inkişafı və istismara verilməsi hesabına mümkün olmuşdur. Müharibədən sonrakı dövrdə muxtar respublikada sənaye potensialının yaradılması və inkişafı nəticəsində dağ-mədən, elektroenergetika, yeyinti və yüngül sənayenin digər yeni sahələri yaradılmış, təkmilləşdirilərək inkişaf etdirilmişdir.

Dağ-mədən sənayesi. Azərbaycan Respublikası özünün çox zəngin təbii sərvətləri ilə Cənubi Qafqazda mühüm yer tutur. Bu təbii sərvətlər Azərbaycanın Kiçik Qafqaz zonasında, xüsusilə onun şimal-şərq yamaclarında (Daşkəsən - Gədəbəy qrupu rayonu) və Naxçıvan MSSR ərazisində yerləşmişdir. Naxçıvan MSSR özünün coğrafi mövqeyinə və təbiətinə, təbii sərvətlərlə zənginliyinə görə haqlı olaraq "Azərbaycan Uralı" adlandırılırdı [41, s. 25].

Yeraltı və yerüstü təbii sərvətlərlə zəngin olan Naxçıvan MSSR-in iqtisadiyyatında dağ-mədən sənayesi mühüm yer tutur. Muxtar respublika ərazisində böyük əhəmiyyəti olan müxtəlif filiz və qeyri-filiz yataqları geniş yayılmışdır. Bu yataqlar başlıca olaraq molibden, mis, qurğuşun, sink, daş duz, pirit, mərgümüş, dolomit, kükürd, odadavamlı gillər, mərmər, tuf daşı, dəyirman daşı, əhəng daşları, gəc, andaluzit, gips, barıt, gümüş, qızıl, oxra, kvars, torf, uran, malaxit, əqiq daşları, mineral boyalar, bir çox faydalı mədən sularından və s. ibarətdir [9, s. 170; 11, s. 118]. Naxçıvan ərazisində duz mədəni istisna olmaqla, dağ-mədən sənayesi 50-60-cı illərdə yaradılmış və inkişaf etdirilmişdir.

Moskvanın tələb və siyasətinə görə 50-60-cı illərdə Naxçıvan MSSR-də dağ-mədən sənaye kompleksinin hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoyması üçün əməli tədbirlər həyata keçirilmişdi. Nəticədə muxtar respublika ərazisində iki dağ-mədən sənaye müəssisəsi tikilmiş, Parağaçay molibden və Gümüşlü qurğuşun-sink mədənləri yaradılmışdı. Bu, mərkəzi hakimiyyətin tələblərinə tam uyğun idi. Çünki yeni yaradılmış müəssisələr də digər keçmiş sənaye müəssisələri

kimi mərkəzin fabrik və zavodlarını xammalla təmin edən zəruri obyektlərdən idi. Sovet ittifaqının tələbatı ilə əlaqədar olaraq, 1950-1960-cı illərdə filiz-mədən sənayesinin sürətlə inkişafına çox ciddi fikir verilmişdir.

1950-60-cı illərdə sənayenin xammal, enerji mənbələrinə və istehsal regionlarına yaxınlaşması prinsipi əsasında muxtar respublika ərazisində təbii sərvətlərdən istifadə edilməsi işi genişlənmişdi. Bu dövrdə Naxçıvan MSSR-də dağ-mədən sənayesi inkişaf etdirilərək, Cənubi Qafqazın qabaqcıl sənaye sahələrindən birinə çevrilmişdi. Naxçıvan MSSR dağ-mədən sənaye məhsullarının bir qismi Ufa, Novoçerkask, Kuybışev, Xarkov, Çelyabinsk, Yaroslavl, Sverdlovsk, İrəvan, Üst-Kemenoqorsk, Dişidinsk və başqa yerlərdə yerləşən əlvan və kimya metallurgiya zavod və kombinatlarına göndərilirdi [11, s. 119]. İkinci Dünya müharibəsindən sonrakı illərdə muxtar respublika ərazisində yerləşən və istismar olunan Parağaçay molibden, Gümüşlü qurğuşun-sink və duz-mədən sənaye müəssisələrinin fəaliyyəti daha da gücləndirilmişdi.

Molibden istehsalı. Naxçıvan MSSR-də molibden yataqları 1951-1952-ci illərdə müəyyən edilmişdi. Parağaçay kəndi ətrafında, dəniz səviyyəsindən 2300- 2800 m yüksəklikdə yerləşən yataq istismar obyekti kimi 4 kvars molibden damarlarından ibarətdir. Əsas filiz mineralları prit, xalkoprit və molibdendir. Yataq 1952-ci ildən istismara verilmişdir [94, v. 5]. 1953-cü ildə Parağaçayda saflaşdırıcı fabrik tikilib istifadəyə verilmişdi.

Parağaçay Dağ-Mədən sənayesinin perspektivlərini və onun gələcək inkişafını nəzərə alan Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti Parağaçay molibden yataqları yaxınlığında şəhər tipli Parağaçay qəsəbəsinin yaradılması haqqında 1954-cü il avqustun 13-də fərman vermişdi [91, v. 1]. Bu fərmana əsasən Parağaçay molibden yataqları yaxınlığında şəhər tipli fəhlə qəsəbəsi yaradılmışdı.

Az vaxt ərzində muxtar respublikanın qabaqcıl müəssisələrindən olan Parağaçay Dağ-Mədən Sənaye İdarəsi 1954-cü ildə əmtəə məhsulları istehsalını 126,9 faiz [95, v.3] molibden istehsalını 111,0 faiz, filizin çıxarılmasını 110,2 faiz, filizin saflaşdırılmasını 115,0 faiz, filizdə molibdenin tərkibinin yüksəldilməsini 102,3 faiz yerinə yetirilmişdi [95, v. 12]. Parağaçay Dağ-Mədən İdarəsinin kollektivi 1955-ci ildə məhsul istehsalının yüksəldilməsi və maya dəyərinin aşağı salınması uğrunda mübarizəni genişləndirərək istehsalat planlarını bütün sahələr üzrə vaxtından əvvəl, 1955-ci il oktyabrın 27-də yerinə yetirmişdi.

1956-cı ildə gəlir planını 710 faiz yerinə yetirən Parağaçay Dağ-Mədən Sənaye İdarəsi məhsulun maya dəyərini 9,7 faiz aşağı salmış, bir fəhlənin istehsal etdiyi əmtəə məhsulu 119,4 faizə, fabrikdə təkrar istehsal planını 104,2 faizə, bütün müəssisə üzrə bir fəhlənin buraxdığı sənaye məhsulu 104,5 faizə çatdırılmışdır [94, v. 7]. Parağaçay Dağ-Mədən İdarəsi sonrakı ildə də yüksək göstəricilərə nail olmuşdu. Belə ki, 1957-ci ildə ümumi məhsul istehsalı planını 106,8 faiz, molibden sənaye məhsulunun buraxılışını 108,4 faiz, əmtəə məhsullar istehsalı

108,5 faiz, filizin çıxarılması 103,8 faiz, filizin saflaşdırılması 108,4 faiz, əmək məhsuldarlığının yüksəldilməsi 137,7 faiz, dağ kəşfiyyat işləri 145,2 faiz, dağ hazırlıq işləri 140,7 faiz yerinə yetirilmişdir [96, v. 8,10]. 1959-cu ildə Parağaçay Dağ-Mədən idarəsinin kollektivi 1957-ci ildə əldə edilmiş müvəffəqiyyətləri möhkəmləndirərək 1959-cu il planını vaxtından əvvəl yerinə yetirmək uğrunda yarışı xeyli genişləndirdilər. Nəticədə mədən kollektivi ümumi məhsul istehsalı planını 115,5 faiz, həm də 45 gün əvvəl yerinə yetirmişdi. Parağaçay mədəninin kollektivi bu müvəffəqiyyətlərə görə Azərbaycan SSR XTŞ-nın və Azərbaycan Həmkarlar İttifaqları Şurasının Keçici Qırmızı bayrağına və birinci pul mükafatına layiq görülmüşdü [80, v. 7]. Məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına, əmək məhsuldarlığının yüksəldilməsinə daha çox fikir verən Parağaçay mədəni 1959-cu ildə əmək məhsuldarlığının 13,3 faiz artmasına nail olmuşdu [36, s. 9]. Mədəndə məhsulun maya dəyəri 5,8 faiz aşağı salınmışdı. 1959-cu ildə Parağaçay filiz saflaşdırma fabrikinin kollektivi filizin emal edilməsi planını 118,9 faiz yerinə yetirdi [95, v. 24]. Parağaçay Dağ-Mədən sənaye müəssisəsində istehsalın artırılması səviyyəsi Azərbaycan Respublikasında sənaye məhsullarının artım səviyyəsinə tamamilə uyğun idi.

1959-1960-cı illərdə istehsalın kəmiyyət artımı ilə yanaşı olaraq, Parağaçay Dağ-Mədən müəssisəsinin texniki iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına, filizin saflaşdırılmasına və s. xüsusi fikir verilmişdir. Bunun nəticəsində mədəndə məhsul istehsalı artırılmış və məhsulun maya dəyəri aşağı salınmışdı. Parağaçay Dağ-Mədən müəssisəsi illər boyu qabaqcıllar sırasında olmuşdu. 1967-ci ildə Parağaçay Mədən İdarəsində işlər yenidən qurulduğuna görə ümumi məhsul istehsal planı 106,7 faiz, sənaye məhsul istehsal planı 100,3 faiz, filizin-molibdenin keyfiyyəti 108,1 faiz, flizin molibdendən ayrılması 103,5 faiz ödəməklə bərabər, mədəndə ehtiyat hissələri 10 faizdən çox artmışdı [41, s.31]. Ən yeni texnika ilə təchiz olunmuş Parağaçay Dağ-Mədən sənaye müəssisəsi ildən-ilə istehsal gücünü artırmışdı. 1969-cu ildə məhsul satış planı 111 faiz yerinə yetirilmiş, məhsulun artım sürəti 1968-ci ilə nisbətən 110 faiz artmışdı [112, 1970-ci il 8 fevral]. 1959-1970-ci illərdə istehsalın kəmiyyət artımı ilə yanaşı, Parağaçay Dağ-Mədən müəssisəsinin texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına, filizin saflaşdırılmasına xüsusi fikir verilmişdi. Bunun nəticəsində mədəndə məhsul istehsalı artırılmış və məhsulun maya dəyəri aşağı salınmışdı.

Qurğuşun-sink istehsalı sənayesi. Muxtar respublikada yerləşən dağ-mədən sənaye müəssisələrindən biri də Gümüşlü qurğuşun-sink yataqlarıdır. Gümüşlü dağ-mədən sənayesi Naxçıvan MSSR Şərur rayonunda Cənubi Qafqaz dəmir yolundan 18 km Şimalda, Şərqi Arpaçayın sol sahilində əlverişli bir sahədə yerləşir. Çox böyük iqtisadi əhəmiyyəti olan bu mədən də İkinci Dünya müharibəsindən sonrakı illərdə istifadəyə verilmişdir. Keçmiş SSRİ Əlvan Metallurgiya Sənayesi Nazirliyinin göstərişi ilə 1952-ci ildən Gümüşlü dağ-mədən yataqlarında,

Azərbaycan SSR Geoloji Kəşfiyyat İdarəsi tərəfindən fabrik tikilmişdi.

Gümüşlü polimetal yatağı 1954-cü ildən istifadəyə verilmişdi. Burada ildənilə qazma işləri sürətləndirilmiş, ölkənin bu qiymətli təbii sərvətə olan tələbatını ödəmək üçün bütün imkanlardan istifadə edilmişdi. Belə ki, Gümüşlü Dağ-Mədən İdarəsinin kollektivi 1955-ci ilin sonunda qazma işlərini 115 faiz, filiz çıxarılmasını 133,1 faiz və əmtəə məhsulunu 131,3 faiz yerinə yetirmişdi [76, v. 144]. İdarədə əmək məhsuldarlığı 50 faiz artmış, məhsulun maya dəyəri isə 5 faiz aşağı salınmışdı [76, v. 108].

İdarənin kollektivi bir qayda olaraq sonrakı illərdə də plan tapşırıqlarını artıqlaması ilə yerinə yetirmişdi. Belə ki, 1957-ci ildə ümumi planı 115,1 faiz, qazma işlərini 117,2 faiz, geoloji kəşfiyyat işlərini 93,2 faiz yerinə yetirmiş, geoloji kəşfiyyat işləri üzrə əmək məhsuldarlığı 6,9 faiz aşağı salınmışdı [99, v. 7-8]. Ən yeni texnika ilə təchiz olunmuş Gümüşlü Dağ-Mədən İdarəsinin kollektivi, 1958-ci ildə daha böyük nailiyyətlər qazanmışdı. Belə ki, mədən kollektivi 1958-ci ildə istehsalat planını 119 faiz yerinə yetirmiş, məhsulun maya dəyərini 12 faiz aşağı salmışdı [78, v. 31]. Ümumiyyətlə, 1958-ci ildə Gümüşlü qurğuşun-sink idarəsinin göstəricisi belə olmuşdu: əmtəə məhsulu planı 112 faiz, filizin çıxarılması 114,6 faiz, tikinti işləri 102,5 faiz, konsentrat istehsalı 107 faiz, filizin emalı 112,4 faiz, filizdən metal alınması 92 faiz, məhsulun keyfiyyəti 9,8 faiz, dağ hazırlıq işləri 109,5 faiz, qazma işləri 107,8 faiz, geoloji kəşfiyyat işləri planı 162,6 faiz yerinə yetirilmişdi [97, v. 76, 78].

Kollektivin bu qələbəsi yüksək qiymətləndirilmiş və ona Azərbaycan SSR Xalq Təssərrüfatı Şurası və Azərbaycan SSR Həmkarlar Təşkilatının ikinci pul mükafatı və Keçici Qırmızı Bayrağı verilmişdi [78, v. 135]. Buna cavab olaraq Gümüşlü mədən kollektivi 1959-cu ildə də daha yaxşı işləyərək ümumi məhsul istehsalı planını 110,5 faiz yerinə yetirmiş, əmək məhsuldarlığını 21,4 faiz artırmış [80, v. 6], məhsulun maya dəyəri 9,5 faiz aşağı salınmış, filizin emalı planını 112,9 faiz, filizin çıxarılmasını 113,7 faiz, konçentrat buraxılışı planını 112 faiz [98, v. 2-3], qazma işlərini 105,7 faiz, geoloji kəşfiyyat işləri planını 102,4 faiz yerinə yetirmişdir [98,v. 6]. Elmin yeni nailiyyətlərindən, qabaqcıl istehsalat təcrübələrindən bacarıqla istifadə edən Gümüşlü Dağ-Mədən İdarəsi sonrakı illərdə böyük nailiyyətlər qazanmışdı. Belə ki, Gümüşlü Dağ-Mədən sənaye müəssisəsində məhsul satış planı 102 faiz yerinə yetirilmişdi. İstehsalın artım sürəti 1968-ci ilə nisbətən 80 faiz olmuşdu [112, 1970-ci il, 8 fevral].

Duz istehsal sənayesi. Muxtar respublikanın dağ-mədən sənaye müəssisələri içərisində duz istehsalı ən qədim sənaye sahəsidir. Duz dağı adlanan ərazidə dəniz səviyyəsindən 850-1200 metr yüksəklikdə, Naxçıvan şəhərindən şimal-qərb tərəfdə 10 km məsafədə yerləşən duz mədəni çox qədim zamanlardan istifadə edilən təbii, zəngin duz ehtiyatlarına malik yataq olub, oradan xörək duzu çıxarılır. Duz mədənində faydalı qatın qalınlığı 60 metr, ehtiyatı isə 97 milyon tona çatır. Bu

mədəndə ildə 70 min tona yaxın duz istehsal edilmişdi [23, s. 277].

Hazırda Naxçıvan MR bütün Cənubi Qafqazda yeganə daş duz istehsal edən regiondur. Burada istehsal edilən daş duz mal-qara və müəyyən texniki sənaye müəssisələrində (gön, dəri, sabun istehsalında, soyuducu və s. işlərdə) istifadə edilir. O, müxtəlif qatışıqlardan (gips, mergil və s.) təmizləndikdən sonra mətbəx duzu kimi istifadə edilir. 1920-ci illərdə sənayenin digər sahələri kimi duz istehsalı sənayesi də yenidən yaradılmışdır. Muxtar respublikada duz istehsalının texniki səviyyəsi xeyli yüksəldilmiş, mədəndə istehsal olunan hazır məhsulun daşınması üçün hava məftil yolu çəkilmişdi. Bu yol vasitəsi ilə duz dəmir yolu stansiyasına gətirilir, vaqonlara yüklənərək daşınırdı. Bu tədbirlər nəticəsində duz istehsalı 1924-cü ildəki 18,5 min tondan 1940-cı ildə 45,5 min tona çatdırılmışdı [6, s. 41]. 1950-ci ildə duz mədəninin istehsalı 1913-cü il səviyyəsini 12 dəfə ötüb keçmişdi. Lakin 1940-cı il səviyyəsinə çatmamışdı. Bunun əsas səbəbi ondan ibarətdir ki, müharibə digər sənaye sahələri kimi duz mədəninin də işinə ağır zərbə vurmuşdu.



Duzdağ mədəni
1965-ci il

Duz mədəninin kollektivi istehsal proseslərini mexanikləşdirərək, 1950-ci ildə ölkəyə 44,5 min ton duz vermişdilər. Buna baxmayaraq beşinci və altıncı beşilliklər dövründə duz mədənində durğunluq və böhran olmuşdu. 1950-ci ildə 44,5 min ton duz məhsulu istehsal edildiyi halda, 1953-cü ildə 40,3 min ton, 1955-ci ildə 37,9 min ton, 1956-cı ildə 35,0 min ton, 1957-ci ildə 15,7 min ton duz məhsulu istehsal edilmişdi [101, s. 35]. Bu rəqəmlər onu göstərir ki, 1953-cü ildən etibarən duz mədənində məhsul istehsalının həcmi 1958-ci ilə kimi azalmışdı.

Əvvəlki illərdə olduğu kimi, 50-60-cı illərdə də erməni millətçilərinin törətdiyi fitnəkarlıqlar Naxçıvan Muxtar Sovet Sosialist Respublikası iqtisadiyyatının, xüsusilə aqrar sənaye kompleksinin inkişafına mənfi təsir etmiş və sovet rəhbərliyi tərəfindən bunların qarşısı vaxtında alınmamışdı. 50-ci illərin sonlarında keçmiş SSRİ-də kimya sənayesinin inkişafının sürətləndirilməsi ilə əlaqədar olaraq Azərbaycan SSR Elmlər Akademiyasının sabiq prezidenti akademik Y.Məmmədəliyev İqtisadiyyat İnstitutunun əməkdaşlarına bildirmişdi ki, öz kimya sənayemizi inkişaf etdirmək üçün duz istehsalını artırmaq lazımdı. Duz istehsalının yüksək səviyyədə inkişafını təmin etmək üçün Naxçıvanda olan böyük duz mədənlərində hasilatı genişləndirməliyik. Bu məqsədi həyata keçirmək üçün iqtisadçı alim A.A.Nadirov bir neçə mütəxəssislə Ukraynanın Artyemçuk şəhərinə gedib, duzun kənar qarışıqlardan təmizlənməsi texnologiyasını öyrənmişdi. Slavyansk şəhərində bu duzdan standartlara uyğun mətbəx duzu alınması sistemi ilə tanışlıq əsasında Y.Məmmədəliyevə öz təkliflərini təqdim etmişdi. Məsələni eşidən kimi ermənilər

Moskvadakı Dövlət Plan Komitəsində yerləşən ermənilərin köməyi ilə, Ermənistanın Avan adlı çox cüzi ehtiyatlara malik duz yataqlarından istifadə məsələsini ortaya atmışdılar. Onlar guya Naxçıvan duzunun çox baha başa gələcəyi barədə Dövlət Plan Komitəsinə məlumat verərək, onun istehsalının genişləndirilməsinin məqsədəuyğun olmadığını "əsaslandırdılar" və buna da nail oldular. Halbuki, Avan yataqlarının ehtiyatları çox az idi. Azərbaycan isə öz kimya sənayesini inkişaf etdirmək üçün baha qiymətə başqa yerlərdən duz gətirməyə məcbur oldu [62, s. 28-29].

Naxçıvan duz mədənində yaranmış gerilik 1959-cu ildə qismən aradan qaldırılmışdı. Duz mədəninin kollektivi mütərəqqi üsullardan istifadə edərək 1959-cu ildə 45 min ton natural şəkildə məhsul istehsal etmişdilər [102, s. 35]. İllik plan 116,5 faiz yerinə yetirilmişdi [79, v. 6]. 1959-cu ildə duz mədəninin kollektivi yeni texnikanın istehsalata tətbiqinə, istehsal proseslərinin təkmilləşdirilməsinə, məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına, əmək məhsuldarlığının yüksəldilməsinə və istehsal olunan məhsulun maya dəyərinin aşağı salınmasına daha çox fikir vermişdi. Bunun nəticəsində mədəndə əmək məhsuldarlığı 1959-cu ildə 7,1 faiz artmışdı [79, v. 7].

Sonrakı illərdə duz mədəninin işindəki qüsurlar aradan qaldırılmış və bu qiymətli sərvətin istehsalında vahid qayda yaradılmasına nail olunmuşdu. Nəticədə 1959-cu ildə 45 min ton, 1960-cı ildə 55 min ton, 1961-ci ildə 56 min ton, 1962-ci ildə 60 min ton, 1963-cü ildə 70,5 min ton [101, s. 35], 1965-ci ildə isə 72,7 min ton natural şəkildə duz istehsal edilmişdi [58, s. 30]. Rəqəmlərdən görünür ki, 1961-1965-ci illərdə hər il muxtar respublikada duz istehsalı artırılmışdı. Belə ki, 1965-ci ildə natural şəkildə istehsal olunan duz məhsulu 1940-cı ildə (45,5 min ton) istehsal olunan duz məhsulundan 27,2 min ton çox idi. Buna baxmayaraq 1966-1970-ci illərdə duz mədənində yenidən tənəzzül yarandı. Belə ki, 1965-ci ildə Naxçıvan MSSR-də 72,7 min ton duz istehsal edildiyi halda, 1966-cı ildə 65,6, 1967-ci ildə 52,0, 1968-ci ildə 53,0, 1969-cu ildə 44,6, 1970-ci ildə 62,1 min ton duz istehsal edilmişdi [58, s. 30].

Ümumiyyətlə, 50-60-cı illərdə Naxçıvan MSSR-də dağ-mədən sənayesinin inkişafı təhlil edilən zaman müəyyən olmuşdur ki, Parağaçay, Gümüşlü Dağ-Mədən sənaye müəssisələri yüksələn xətlə inkişaf etdiyi halda, duz mədəni qeyri-sabit inkişaf etdirilmişdir.

Elektroenergetika hasilat sənayesi. Naxçıvan Muxtar Respublikasında dağ mədən sənayesinin gələcək sürətli inkişafının təmin olunmasında və inkişafında elektrik enerjisi çox böyük əhəmiyyət kəsb edir. II Dünya müharibəsinə kimi Naxçıvan MSSR-də elektrik enerji bazasını əsasən kiçik həcmli kommunal və bəzi müəssisələrin nəzdində olan istilik, habelə xırda su elektrik stansiyaları təşkil edirdi. Bu elektrik enerjisi Naxçıvan MSSR-in əsas sənayesini qismən təmin etsə də, muxtar respublikanın başdan-başa elektrikləşdirilməsi üçün kifayət deyildi.

İkinci Dünya müharibəsindən sonrakı illər muxtar respublikanın elektrikləşdirilməsi tarixində xüsusi yer tutur. Muxtar respublikada dağ-mədən, yeyinti, yüngül, yerli və sair sənaye sahələrinin inkişafı, habelə əhalinin elektrik enerjisinə artan tələbatı energetika sənayesinin sürətlə inkişaf etdirilməsi zərurətini doğurmuşdu. 50-60-cı illərdə muxtar respublikanın şəhər və kəndlərində bir sıra elektrik stansiyaları tikildi, mövcud olanlar genişləndirildi.



Naxçıvan elektrotexnika zavodu
1965-ci il

1958-ci ildə muxtar respublikaya yüksək gərginlikli elektrik xəttinin çəkilməsi sənaye müəssisələrinin də elektrik enerjisinə olan ehtiyacını ödəmişdi. Yüksək gərginlikli elektrik xəttinin çəkilişi ilə əlaqədar olaraq Naxçıvan Duz Mədənində, çörək zavodunda, mebel fabrikində, Şərur Pambıqtəmizləmə Zavodunda, Ordubad İpək Fabrikində, konserv zavodunda və başqa sənaye müəssisələrində ağır zəhmət tələb edən işlər mexanikləşdirilmişdi. Bu da sənayenin inkişafında öz müsbət rolunu göstərmişdi. Elektrikləşmə kənd təsərrüfatının ayrı-ayrı sahələrinə də tətbiq edilmişdi. Muxtar respublikada 1940-cı ildə natural şəkildə 614 min kilovat-saat elektrik enerjisi hasil edildiyi halda, 1960-cı ildə 8058 min kilovat-saat natural şəkildə elektrik enerjisi hasil edilmişdi [101, s. 35].

Naxçıvan MSSR-də sonrakı illərdə elektrik enerjisi hasilatı daha böyük sürətlə inkişaf etdirilmişdi. Keçmiş SSRİ ilə İran dövləti arasında olan müqaviləyə əsasən 1967-ci ilin mart ayından etibarən Naxçıvan yaxınlığında Araz çayı üzərində hər biri 22 min kilovat gücündə olan 2 su elektrik stansiyasının tikilməsinə başlanmışdı [13, s. 185]. Bu orta güclü elektrik stansiyasının tikilib başa çatması Naxçıvan MSSR-də energetika hasilat sənayesinin inkişafında mühüm mərhələ olmuşdu. Məhz bunun nəticəsində ilk dəfə olaraq 1971-ci ildə Naxçıvan MSSR-də 25,7 milyon kilovat saat elektrik enerjisi hasil edilmişdi ki, bu da 1970-ci ildə hasil olunduğundan 43 dəfə, 1960-cı il səviyyəsindən çoxdu [41, s. 39]. Muxtar respublikanın sənaye müəssisələri elektrik enerjisindən səmərəli istifadə etmiş, müəssisələrdə texnoloji proseslər düzgün qurulmuş, dəzgahların səmərəsiz hərəkətlərinə yol verilməmişdir. Nəticədə enerjiyə xeyli qənaət olunmuşdur.

Yeyinti sənayesi. Muxtar respublikanın iqtisadiyyatında yeyinti sənayesi qabaqcıl yerlərdən birində durur. Azərbaycanın digər iqtisadi rayonların nisbətən daha çox sahəli quruluşa malik olması ilə səciyyələnən Naxçıvan MSSR yeyinti sənayesi burada istehsal edilən ümumi sənaye məhsulunun yarıdan çoxunu verir. 50-60-cı illərdə muxtar respublikanın yeyinti sənayesində bir sıra yeni sahələr ya-

radılmış, bütün sahələrdə məhsul istehsalı xeyli artmış, şərabçılıq, həmçinin mineral sular istehsalı sürətlə inkişaf etmişdi. Tütün fermentasiya və pivə sənayesi kimi mühüm sahələr istifadəyə verilmişdi. Yeyinti sənayesində baş vermiş müsbət dəyişikliklər muxtar respublikanın iqtisadiyyatı, xüsusən onun kənd təsərrüfatının yüksəlişi ilə əlaqədardır. Mineral sular doldurulması Naxçıvan MSSR yeyinti sənayesinin inkişaf səviyyəsinin xeyli yüksəldilməsinə səbəb olmuşdur. 1950-60-cı illərdə də muxtar respublikada yeyinti sənayesinin inkişafı hökümətin diqqət mərkəzində olmuşdu. Bu qayğı və diqqətin nəticəsidir ki, burada konserv-şərab, mineral su, tütün fermentasiya sənaye sahələri və digər qrup (ət, süd, qənnadı, çörək bişirmə, pivə, un və s.) sənaye sahələri muxtar respublikanın yerli tələbatının ödənilməsi məqsədi ilə inkişaf etdirilmişdi.

Naxçıvan MSSR-nin yeyinti sənayesi muxtar respublikada istehsal olunan ümumi məhsulların yarıdan çox hissəsini təşkil etmişdir. 1973-cü ildə Naxçıvan MSSR-nin müstəqil balansında olan 40 iri sənaye müəssisələrinin 17-si yeyinti sənayesi sahələrinin payına düşürdü [41, s. 40].




Ordubad konserv zavodu
1965-ci il

Konserv sənayesi. Naxçıvan MSSR ərazisində yerləşən yeyinti sənaye müəssisələrindən biri də Ordubad şəhərində yerləşən konserv zavodu idi. Ordubad Konserv Zavodu ilə təmsil olunan bu sahə Azərbaycanın müvafiq sənaye sahəsinin inkişafında əhəmiyyətli rol oynamışdır. Burada 46 növ mürəbbə, kompot və digər məhsullar hazırlanırdı. Ordubad Konserv Zavodu məhsullarının keyfiyyətinə görə Azərbaycanın qabaqcıl müəssisələrindən biri sayılır və onun məhsulları ölkənin 70-dən artıq rayonuna göndərilirdi. 1929-cu il iyul ayının 15-də istifadəyə verilmiş [41, s.40], 1932-ci ilin əvvəllərində Azərbaycan Konserv Trestinin tabeliyinə keçmiş [94, v. 7,8] zavodun işi müharibədən sonrakı illərdə yenidən qurulmuşdu. 1947-ci ildə zavod 1275 min manatlıq satlıq məhsul istehsalı əvəzinə 1355 min manatlıq məhsul istehsal etmişdir ki, bu da planın 106,4 faizni təşkil edir. Zavodda 80 min manatlıq, yaxud nəzərdə tutulduğundan 157 ton artıq əmtəə məhsulu istehsal edilmişdi [41, s. 40]. Ordubad Konserv Zavodunun əsas xammalını Ordubad rayonu verirdi.

Zavod kollektivi dördüncü beşilliyin son ilində əmək məhsuldarlığını 12,5 faiz artırmış, məhsulun maya dəyərini 10 faiz aşağı salmış, yanacaq və xammala 1,3 faiz qənaət etmişdi [92, v. 43]. Ordubad Konserv Zavodu məhsul istehsalını dördüncü, beşinci və altıncı beşilliklər ərzində 1940-cı ilə nisbətən müntəzəm olaraq artırmışdı. Belə ki, zavod 1940-cı ildə 1,5 milyon şərti banka məhsul istehsal etdiyi halda,

1950-ci ildə 1,8, 1955-ci ildə 3,7, 1960-cı ildə 4,4 milyon şərti banka məhsul istehsal etmişdi. Zavod istehsal gücünü daha da artıraraq 1961-ci ildə 6,1, 1962-ci ildə isə 6,9 milyon müxtəlif çeşidli məhsul istehsal etmişdi [101, s.35]. Sonrakı illərdə də konserv zavodu məhsul istehsalının həcmi xeyli artırmışdır. Belə ki, zavod 1965-ci ildə 6252 min şərti banka məhsul istehsal etdiyi halda, 1967-ci ildə 7888 min şərti banka, 1968-ci ildə 8 703 min şərti banka, 1969-cu ildə 9 298 min şərti banka, 1970-ci ildə 10 032 min şərti banka, 1971-ci ildə isə 12,7 milyon şərti banka konserv məhsulu istehsal etmişdi [41, s. 41; 58, s. 30].


Şərab sənayesi. Muxtar respublikanın yeyinti sənaye sahələrindən biri də şərab sənayesi idi. 50-60-cı illərdə muxtar respublikada 3 şərab zavodu vardı. Bunlar Naxçıvan, Şahbuz və Əbrəqunusda yerləşirdi. Bu zavodlardan ən böyüyü Naxçıvan Şərab Zavodu olmuşdur. Bundan əlavə, Çalxanqala, Badamlı və başqa kəndlərdə də ilk emal məntəqələri yerləşirdi. Bu müəssisələrdə konditasiya dərəcəsinə çatmış şərab hasilat materiallarından əsas şərab zavodlarında hazır şərab istehsal edilirdi. Şərab zavodları muxtar respublikanın Naxçıvan (indiki Babək), Şahbuz və Culfa rayonlarının verdiyi üzüm əsasında işləyirdi. Lakin üzüm istehsalının muxtar respublikada aşağı səviyyədə olması başqa sənaye müəssisələri kimi şərab zavodlarının da istehsal gücündən tam istifadə edilməsinə imkan vermirdi. Muxtar respublikanın şərab zavodlarının məhsulu müxtəlif adlarla istehsal olunurdu. Burada əsas olaraq süfrə, desert şərabları, konyak, üzüm arağı, "Naxçıvan", "Əbrəqunus", "Şahbuz" süfrə, çəhrayı portveyn, "Naxçıvan koqoru" kimi şərablar istehsal edilirdi. İstehsal edilən şərabların əksəriyyəti öz keyfiyyətinə görə yüksək qiymətləndirilirdi. Naxçıvan MSSR-də şərab istehsalının gələcək perspektivi burada üzüm tədarükü məsələsini aktuallaşdırırdı. Respublikanın torpaq, iqlim şəraiti imkan verir ki, burada iri üzümçülük sahələri yaradılsın. 1950-60-cı illərdə muxtar respublikada iri üzümçülük sovxozları yaradılmış, şərabçılıq sənayesi inkişaf etmişdir. Müasir şərab sənayesinin müstəqil balansında olan 8 iri müəssisə - "Arpaçay", "Naxçıvan MSSR-in 40 illiyi", "Naxçıvan", "Ordubad" və "Sədərək" üzümçülük sovxozları nəzdində olan zavodlarla, Naxçıvan, Şahbuz və Əbrəqunus şərab zavodları ilə təmsil olunmuşdur [100, s. 340].



Şərab zavodu
1965-ci il

Azərbaycan ərazisi daxilində istehsal edilən müvafiq şərab məhsullarının mühüm hissəsini təşkil edən muxtar respublika Şərab Sənayesi digər sənaye sahələri kimi 60-cı illərdə xeyli artmışdı. Təkcə bu faktı göstərmək kifayədir ki,

1960-cı ildə muxtar respublikada 42 min dekalitr şərab istehsal edildiyi halda, bu rəqəm 1965-ci ildə 67 min dekalitr, 1970-ci ildə 75 min dekalitr, 1971-ci ildə isə 98 min dekalitrə çatmışdı [41, s. 42; 58, s. 30].



Badamlı mineral su istehsalı
1965-ci il

Mineral sular istehsalı. Azərbaycan Respublikasının başqa rayonlarından fərqli olaraq, Naxçıvan MSSR müxtəlif fiziki-kimyəvi tərkibli mineral su mənbələri ilə zəngindir. 5,5 min kv km sahəsi olan Naxçıvan MSSR-də 200-dən çox mineral su mənbəyi aşkar edilmişdir. Dünyada nadir halda təsadüf edilən Darıdağ mərgümüşlü mineral suyu, Barjomi tipli Sirab suyu, Botlinski tipli Badamlı mineral suyu, Yesentuki tipli Vayxır mineral suyu və digər mineral bulaqlar muxtar respublikanın tükənməz təbii sərvətləridir. Bu qiymətli təbii sərvətlərdən istifadə edilməsi muxtar respublikanın xalq təsərrüfatında mühüm rol oynayırdı. Buna baxmayaraq, mərgümüşlü, bromlu, dəmirli, natriumlu, kaliumlu, sulfatlı, maqneziumlu, xlorlu və başqa tərkibdən ibarət olan bu mühüm təbii sərvətlərdən yalnız Badamlı və Sirab mineral su mənbələrindən az miqdarda istifadə edilirdi. "Azərbaycan narzanı" adı ilə geniş şöhrət qazanmış Badamlı mineral su zavodu 1947-ci ildə yaradılmış, 1955-ci ildə tam mexanikləşdirilmişdi. Məhz buna görə də 1955-ci ildə 9064 min butulka, 1960-cı ildə 12894 min butulka, 1965-ci ildə 18471 min butulka, 1970-ci ildə 37 004 min butulka, 1971-ci ildə isə 44 455 min butulka mineral su istehsal olunmuşdur [57, s. 41;101, s. 35].

Naxçıvan ərazisində olan mineral bulaqlardan biri də Sirabdır. Sirab mineral suyu ilk dəfə 1935-1936-cı illərdə butulkalara doldurulmuşdu. 1941-1945-ci illərdə müharibə ilə əlaqədar olaraq, burada iş təxirə salınmış və müharibədən sonrakı illərdə yenidən fəaliyyətə başlamışdı. 1951-ci ildə burada yarım mexanikləşdirilmiş zavod yaradılmışdı. Bu zavod bir müddət "Naxçıvan suyu" adı ilə mineral su istehsal etmişdi. Lakin 1954-cü ildə təbii fəlakət nəticəsində zavod və bulaqların bir neçəsi sıradan çıxmışdı. Yalnız 60-cı ildən sonra zavod bərpa olunub istifadəyə verildi. Azərbaycanın bir çox rayonlarına göndərilən "Naxçıvan suyu" sonralar tariximizə "Sirab" mineral suyu kimi daxil oldu. Bir çox regionlara göndərilən "Sirab" mineral suyu 13 may 2005-ci il tarixdə İsveçrənin Cenevrə şəhərində "İş təcrübəsində yüksək keyfiyyətlərə görə" keçirilən müsahibədə qızıl medala layiq görüldü [41, s. 130].

Muxtar respublika ərazisində süfrə və müalicəvi əhəmiyyətə malik olan mineral sulardan biri də Vayxır kəndi ərazisində yerləşir. Vayxır mineral suyu öz kimyəvi tərkibinə görə karbon qazlı, xloridli, hidrokarbonatlı, natrium-kaliumlu

olub, tərkibində dəmir və mərgümüş ionları vardır. Moskva Mərkəzi Elmi-Tədqiqat Kurortologiya və Fiziki Üsullarla Müalicə İnstitutu Vayxır mineral suyunu müayinədən keçirmiş və SSRİ Həmkarlar İttifaqı Mərkəzi Şurasının Kurortlar İdarəsinə təqdim etdiyi xüsusi arayışda Vayxır mineral suyunun fiziki-kimyəvi xassələrinin Yesentuki 17 №-li suyunun fiziki-kimyəvi xassələrinə uyğun gəldiyi göstərilmişdir. Keçmiş SSRİ Nazirlər Soveti yanında faydalı qazıntılar üzrə Dövlət Ehtiyat Komitəsi Vayxır mineral suyunun uzun müddətli ehtiyata malik olmasını qərara almışdı [2, s. 19, 28].

Naxçıvan MSSR ərazisinin Culfa rayonunda yerləşən Darıdağ mineral suyu daha yüksək müalicə xüsusiyyətinə malikdir. Darıdağ mineral suyunun tərkibində alüminium, dəmir, kalsium, maqnezium, kalium, natrium, xlor, sulfat, silikat turşusu, hidroarsenium, sərbəst karbon qazı vardır [2, s.17]. Dəniz səviyyəsindən 800-900 metr hündürlükdə yerləşən Darıdağ mineral suyu 5 bulaq və 32 kəşfiyyat quyularından ibarətdir.


Mütəxəssislər Darıdağ mineral suyuna SSRİ-də olan Sineqor və Zubi suları ilə müqayisədə üstünlük verirdilər. Darıdağ mineral suyu öz xüsusiyyətlərinə görə Lü Bürbül (Fransa), Dürxheym (Almaniya), Ronnen (İtaliya), Stimbot (ABŞ), Kudova (Polşa), Sipeqorek (Saxalin) sularının analoqudur [2, s. 19]. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyi ilə Darıdağ suyu onlardan üstündür. Tempraturu 53- 57 ^{0}C, ehtiyatı 4507 m^3 gün təsdiq edilmişdir [41, s. 45].

Ümumiyyətlə, Naxçıvan ərazisində çoxlu içməli mineral sularla yanaşı Nəhəcir, Kotam, Ləkətağ, Gömür, Qızılburun, Parağaçay, Qahab, Sədərək, Gülüstan, Ərəfsə, Dəstə və digər kəndlərdə müalicəvi xüsusiyyətləri tam öyrənilməmiş mineral sular çoxdur.

Naxçıvan MSSR-də digər yeyinti sənaye sahələri (ərinmiş yağ, pendir, süd, ət, çörək, un, qənnadı məmulatları və s.) 50-60-cı illərdə əsasən yerli əhalinin tələbatının ödənilməsi məqsədi ilə inkişaf etdirilmişdi. Əhalinin yeyinti məhsullarına artan tələbatını nəzərə alaraq muxtar respublikada qənnadı, biskvit fabriklərinin və digər müəssisələrin tikilməsi məqsədəuyğun hesab edilmişdir.

Yüngül sənaye. 1950-60-cı illərdə xalq təsərrüfatının bütün sahələri kimi muxtar respublikada yüngül sənayenin də inkişaf etdirilməsi üçün imkan yaranmışdı. Eyni zamanda hökümət xalqın yaşayış səviyyəsini yüksəltmək məqsədilə xalq tərəfindən çox işlənən mallar istehsalını artırmağa xüsusi diqqət vermişdi. Müharibədən sonrakı illərdə Naxçıvan MSSR-in sənayesinin bütün sahələrində texnikanın tətbiqi miqyası xeyli genişlənmişdi. Köhnə avadanlıqlar, yeni məhsuldar maşın və dəzgahlarla əvəz edilmişdi. Nəticədə yerli xammal bazası əsasında inkişaf edən Naxçıvan MSSR yüngül sənayesi tədqiq olunan illərdə xalq təsərrüfatının mühüm sahələrindən birinə çevrilmişdi. Yerli xammal bazası əsasında inkişaf edən Naxçıvan MSSR yüngül sənaye müəssisələri başqa sənaye müəssisələrinə nisbətən çox məhsul istehsal edirdi. Sənayenin bu sahəsinin xarakter xüsusiyyəti

ondan ibarətdir ki, onun müəssisələri hazır məhsul istehsal etmir. Ancaq kənd təsərrüfatı xammalının ilk emalı ilə məşğul olur. Muxtar respublikanın yüngül sənaye müəssisələri tərəfindən istehsal olunan yarımfabrik məhsullar keçmiş Sovet İttifaqının bir çox şəhərlərində olan fabrik və zavodlara göndərilmişdi. Naxçıvan Muxtar Respublikasının yüngül sənayesi yeyinti sənaye sahələri kimi çoxsahəlidi. Burada pambıqtəmizləmə, baramaaçma, pambıq parça, tikiş, gön-dəri və sair sənaye müəssisələri üstünlük təşkil edir.



Şərur rayon
Pambıqtəmizləmə zavodu
1965-ci il

Pambıqtəmizləmə sənayesi. Pambıqtəmizləmə sənaye müəssisəsi muxtar respublikanın Şərur rayonunda yerləşirdi. Şərur pambıqtəmizləmə sənaye müəssisəsi muxtar respublikada olan yüngül sənayenin ən iri müəssisələrindən biri idi. Naxçıvan MSSR-də istehsal olunan bütün pambıq bu zavodda emal edilirdi. 1926-cı ildə istifadəyə verilmiş zavod başqa pambıqtəmizləmə müəssisələri kimi, əsasən pambıq lifi istehsal edirdi. İstehsal prosesində burada xeyli miqdarda qiymətli çiyid və tiftik kimi tullantılar da alınırdı. Şərur pambıqtəmizləmə zavodunun istehsal etdiyi yüksək keyfiyyətli sənaye məhsulları təkcə keçmiş Sovet İttifaqının bir çox şəhərlərində olan fabriklərə deyil, eyni zamanda xarici ölkələrdə yerləşən fabriklərə də göndərilirdi. İstehsal prosesində orta hesabla hər bir ton xam pambıqdan 34 faiz pambıq lifi, 63 faiz çiyid və 3% tiftik istehsal edən Şərur Pambıqtəmizləmə Zavodunun kollektivi 1951-1955-ci illərdə plan tapşırıqlarının yerinə yetirilməsi sahəsində nümunə göstərmişdi.Təkcə bu faktı göstərmək kifayətdir ki, zavodun kollektivi 1950-ci ilə nisbətən, 1951-ci ildə yüngül sənaye üçün 1992 ton artıq mahlıc istehsal etmişdi. 1952-ci ildə 1951-ci ilə nisbətən 231 ton, 1953 -cü ildə isə 1952-ci ildəkindən 1343 ton artıq mahlıc istehsal etmişdi [41, s. 47, 50]. Zavod istehsalının əsas sahələri həmin dövrdə mexanikləşdirilmişdir ki, bu da istehsalın səviyyəsinin yüksəldilməsinə və avadanlıqlardan səmərəli istifadə etməyə imkan vermişdi. Zavod 1957-ci ildə ümumi məhsul istehsal planını 105,1 faiz, 1958-ci ildə 102 faiz, 1959-cu ildə isə 101 faiz yerinə yetirmişdi [41, s. 48,]. Pambıqtəmizləmə zavodu azaldılmış dövlət planını 1956-60-cı illərdə yerinə yetirsə də, zavodun istehsal gücündən 40-50 faiz istifadə edilmişdir. Bu isə gələcəkdə pambıqtəmizləmə zavodunun fəaliyyətinin dayandırılması demək idi.

Şərur Pambıqtəmizləmə Zavodunu tam gücü ilə işlətmək üçün Daşkəsəndən Rustavi metallurgiya zavoduna xammal aparıldığı kimi Azərbaycanın digər rayonlarından dəmir yolu vasitəsilə zavoda xam pambıq gətirmək mümkün idi. Bu iş məqsədli olaraq təşkil edilməmişdir. Nəticədə pambıqtəmizləmə zavodunda məhsul

istehsalının həcmi xeyli azalmışdır. Belə ki, 1965-ci ildə 6122 ton natural şəkildə pambıq lifi istehsal edildiyi halda, 1970-ci ildə 5 841 ton pambıq lifi istehsal olunmuşdu [58, s.30]. Deməli, 1965-ci ilə nisbətən, 1970-ci ildə 281 ton az pambıq lifi istehsal edilmişdi. Zavodda pambıq lifinin az istehsal edilməsinin əsas səbəbini muxtar respublikada pambıq tədarükünün və pambıq əkin sahələrinin azaldılması, planlaşdırmanın düzgün aparılmaması ilə izah etmək olar.

İpək fabriki. Naxçıvan MSSR-də yüngül sənayenin ən mühüm sahələrindən biri də akademik Y.H.Məmmədəliyev adına Ordubad İpək Fabrikidir. Muxtar respublikada hasil edilən barama ipək sənayesi xammalının 40-50 faizini vermişdi. Qalan xammal Azərbaycanın və keçmiş SSRİ-nin başqa regionlarından gətirilmişdi. Bu da süni ipəyə nisbətən onsuz da, baha maya dəyərli olan təbii ipəyin qiymətini bir daha yüksəldirdi.

Ordubad İpək Fabriki bütün dövrlərdə dövlət planını yerinə yetirmiş, məhsul istehsalını ildən-ilə artırmışdı. Hətta İkinci Dünya müharibəsinin törətdiyi ağır çətinliklərə baxmayaraq, fabrikdə xam ipək istehsalı müharibə illərində azalmamış, əksinə artmışdı. Belə ki, ipək fabriki istehsalat planını 1943-cü ildə 100,8 faiz, 1945-ci ildə isə 104,5 faiz yerinə yetirmişdi [92, v. 37].

1950-60-cı illərdə də Ordubad İpək Fabrikinin kollektivi bir qayda olaraq plan və tapşırıqları yerinə yetirmiş və Azərbaycan Yüngül Sənaye Nazirliyinin Keçici Qırmızı Bayrağına layiq görülmüşdü. Ordubad İpək Fabriki xam ipək istehsalını inkişaf etdirərək ölkəyə 1950-ci ildə 10,4 ton, 1955-ci ildə 21,3 ton, 1960-cı ildə 24,2 ton, 1961-ci ildə 25,7 ton, 1962-ci ildə 32,8 ton, 1963-cü ildə isə 40,5 ton xam ipək vermişdi [101, s. 35]. 1951-1955-ci illərdə ipək fabriki yenidən qurulmuş və əsasən, mexanikləşdirilmişdi. Bu isə əl əməyinin yüngülləşməsinə səbəb olmuşdu. Fabrik iki növbəli iş sisteminə keçmişdi. Nəticədə 1951-1955-ci illərdə ipək fabriki bir milyon üç yüz min manatdan artıq əlavə gəlir əldə etmiş, əmək məhsuldarlığı 13,9 faiz artmışdı. Məhsulun maya dəyəri 7,5 faiz aşağı salınmış, xammal və yanacağa 469 min manatdan artıq qənaət edilmişdi [80, v. 72].

Ordubad ipək müəssisəsi muxtar respublikada bir qayda olaraq yeni beşilliyin hesabına işləyən müəssisələrdən biri hesab olunurdu. Dövlətin bu müəssisəyə göstərdiyi qayğıya cavab olaraq, fabrikin kollektivi 1957-ci ildə 24 min 570 kq xam ipək istehsal edərək, illik planı 105,3 faiz yerinə yetirmiş [93, v. 63], məhsulun maya dəyərini xeyli aşağı sala bilmişdi.

Fabrik daxili imkanları səfərbərliyə alaraq 1958-ci ilin məhsul istehsalına dair dövlət planını 103,0 faiz yerinə yetirmişdir [112, 1959, 15 fevral]. Ordubad İpək Fabriki tək Ordubad rayonunun iqtisadiyyatında deyil, muxtar respublikanın da iqtisadiyyatında çox böyük rol oynayırdı. Təkcə bir faktı göstərmək kifayətdir ki, fabrik 1957-ci ildə 3309192 manat gəlir əldə etmişdi.

Muxtar respublikada lazımi miqdarda barama tədarükü ipək fabrikinin istehsal gücünü artırmışdır. Belə ki, 1924-cü ildən Ordubad İpək Fabrikində cəmi 2 ton

ipək xammalı istehsal edildiyi halda [6, s. 41] burada istehsalın həcmi 1940-cı ildə 17 ton, 1955-ci ildə 21,3 ton, 1958-ci ildə 24,7 ton, 1959-cu ildə isə 24,5 tona çatmışdı [101, s. 35]. 1959-cu ildə fabrikdə 24,5 ton xam ipək istehsal edilmişdir ki, bu da 1924-cü ilə nisbətən 14,25 dəfə çoxdur. Xam ipək istehsalı 1940-cı ilə nisbətən 1958-ci ildə 146 faizə çatmışdı [41, s. 52]. Ordubad İpək Fabriki Azərbaycan Respublikasının bir sıra rayonlarından alınmış baramanı da emal edərək, hazır məhsulu Şəki İpək Kombinatına göndərirdi. Öz istehsal gücünün həcmini artıran Ordubad İpək Fabriki ölkəyə 1959-cu ildə 24,5 ton, 1965-ci ildə 31 ton, 1970-ci ildə 49,1 ton xam ipək vermişdi [58, s. 30]. 1966-1970-ci illərə dair plan tapşırıqlarını artıqlaması ilə yerinə yetirən Ordubad İpək Fabriki Azərbaycan Yüngül Sənaye Nazirliyinin Keçici Qırmızı Bayrağını və 2300 manat pul mükafatı almışdı [41, s. 52].

Yerli sənaye. Muxtar respublikada əhalinin yerli tələbatını müxtəlif çeşidli sənaye malları ilə təmin edən, yerli sənaye sahəsi də geniş inkişaf etmişdi. Muxtar respublika ərazisində yerləşən Yerli Sənaye Nazirliyi öz tərkibində 8 sənaye kombinatını və 6 sənaye artelini birləşdirmişdi.

Naxçıvan MSSR-in bütün rayonlarında yerli sənaye kombinatlarının təşkil edilməsi muxtar respublikanın rayonlarında olan zəngin təbii sərvətlərdən istifadə işini xeyli yaxşılaşdırmışdı. Yerli sənaye kombinatları vasitəsilə respublikanın bütün rayonlarında kənd təsərrüfatı artellərinin təmir emalatxanaları, təzə ayaqqabı, geyim paltarları hazırlayan sexlər və artellər yaradılmışdı.

Naxçıvan MSSR-in iqtisadiyyatının inkişafında təbii tikinti materiallarından: vulkanik qranit, mərmər, tuf, əhəngdaşı, travertin, dolomit, odadavamlı gil, andaluzit, çınqıl, qum və s. ehtiyyatlardan geniş istifadə edilməsinin də müstəsna əhəmiyyəti vardır. Çünki bu təbii materiallar hörgü, üzlük, dəmir-beton konstruksiyaları və s. tikinti materiallar sənayesinin inkişafı üçün geniş bazadır.

1950-60-cı illərdə Naxçıvan MSSR-də yeni təbii sərvətlər aşkar etmək məqsədi ilə Azərbaycan Respublikası Geologiya idarəsi sistematik olaraq axtarış və kəşfiyyat işləri aparmışdı. Azərbaycan Respublikası Elmlər Akademiyasının Geologiya İnstitutu və başqa təşkilatların işi nəticəsində burada zəngin tikinti materialları aşkar edilmişdi. Belə tikinti sənaye materiallarının yataqlarından mərmər, travertin, əhəng, tuf, dəyirman daşları, odadavamlı gillər, çınqıl, qum, məmulat daşlarından çaxmaq daşı, yəşəm, əqiq, xalsedon, opal, amekiş, araqonit, ondaluzit, cilalayıcı materialları və s. qeyd etmək olar.

Mütəxəssislərin fikrincə, təkcə Şərur rayonunun Dizə, Oğlanqala kəndlərinin yaxınlığında, Ordubad rayonunun Vənənd, Kotam, Kilid kəndlərində mərmər yataqlarının tükənməz ehtiyatları vardır. Oğlanqala kəndi yaxınlığındakı Qaratəpədə olan qara mərmər təbəqələrinin qalınlığı 0,8-1,0 metrə çatır. Mərmər yaxşı kəsildiyinə və asan cilalandığına, gözəlliyinə, tərkibinin əlverişli olmasına görə ən yaxşı üzlük materialı hesab olunurdu [13, s. 191]. Qaratəpə mərmər yatağı tü-

kənməz ehtiyata malikdir. Mərmər ehtiyatı B kateqoriyası üzrə 11500, C kateqoriyası üzrə isə 22100 m^3-dir [100, s. 129].

Muxtar respublika ərazisində geniş yayılmış, zəngin tikinti sənaye materiallarından biri də travertin (mişarla kəsilmiş daş) yataqlarıdır. Burada travertin daş təbəqəsinin qalınlığı 1,5 m, bəzən daha çoxdur. Travertin qiymətli üzlük tikinti materialı kimi, ölkədə tikilən nəhəng binaların üzünü bəzəyir. Şahtaxtı kəndində istehsal edilən travertin daşlarının çox böyük yataqları vardır. Kəngərli rayonunda bu yataq Şahtaxtı dəmir yol stansiyasının 12-13 kilometrliyində yerləşir. Onlardan əhəng almaq üçün, nəhəng binalarda üzlük kimi geniş istifadə olunur. Travertin daşlarının ehtiyatı B kateqoriyası üzrə 1609000 m^3-dir. Bu travertinlər bir çox ölkələrə, xüsusən Yaponiyaya göndərilmişdi. Sirab, Badamlı mineral bulaqları sahələrində də travertin yataqları aşkar edilmişdi [100, s. 129].

Naxçıvan MSSR ərazisində Dərəlik, Süst, Buzqov, Xök, Qızılburun, Dərəşam, Vayxır, Həmzəli, Qahab, Çalxanqala və başqa yerlərdə çox qiymətli tikinti sənaye daşlarının yataqları vardır.

Muxtar respublika ərazisində geniş yayılmış qiymətli tikinti sənaye materiallarından biri də əhəngdaşı yataqlarıdır. Bu yataqlar Yaycı, Xök, Şahtaxtı kəndlərində və başqa yerlərdə yerləşir. Rəngi açıq və tutqun boz olan Ağrılı əhəngdaşı yatağının təxmini ehtiyatı isə 800.000 m^3-dir. Yaycı və Ağrılı yatağın böyük perspektivi vardır. Belə əhəngdaşları Culfa şəhərindən 8 km şimal-şərqdə də geniş yayılmışdır [100, s. 129].

Bunlardan başqa muxtar respublikada olan tikinti materialları sənayesindən çınqıl, qum, gips, gəc, kirəmid, mergil, saxsı və şüşə üçün odadavamlı gillərin zəngin ehtiyatları aşkar edilmişdir.

Naxçıvan MSSR ərazisi digər sənaye sahələri kimi kimyəvi xammal və dərman bitkiləri ilə də çox zəngindir. Muxtar respublikanın ərazisində duz yataqları, dolomitlər, kükürd, fosforit, melenterit, arsen, sürmə kimi kimyəvi tərkibli elementlər geniş yayılmış və böyük ehtiyatları vardır. Belə ki, Naxçıvan (indiki Babək rayonu) rayonun Nehrəm kəndində aşkar edilmiş Nehrəm duz yataqlarındakı layların qalınlığı 46 metrdən 85 metrə çatır. Yatağın geoloji kəşfiyyat aparılmış hissəsində duzun ümumi ehtiyatı kateqoriyaları üzrə təxminən belədir (min tonla): A-313760, B-313624, C-365176, A+B+C- 14560. Yatağın ehtiyatı isə 2-2,5 mld.t güman edilir [100, s.133]. Nehrəm dolomit yataqları da çox zəngindir. Tükənməz ehtiyata malik olan Nehrəm dolomit yataqlarının bir hissəsini mütəxəssislər hesablamışlar ki, yatağın ehtiyatı B kateqoriyası üzrə 99266637 ton, C kateqoriyası üzrə isə 1542431 tondur [100, s. 134]. Xammalının keyfiyyəti yüksək olan Nehrəm dolomit yatağının səthdə olması onun açıq üsulla istismarına imkan yaradır. Nehrəm kəndində melenterit və tərkibində 25 faizə qədər zəy olan daş yataqları aşkar edilmişdi. Bütün Cənubi Qafqazda yeganə olan bu daşdan təbabətdə, kimya, gön-dəri və toxuculuq sənayesində geniş istifadə olunmuşdu. Culfa rayonunda

istehsal edilən dəyirman daşı xarici ölkələrdə məşhurdur. 1950-60-cı illərdə bu təbii sərvətlərdən muxtar respublikada da istifadə edilmişdi.

Yuxarıda verilmiş faktiki materiallardan aydın görünür ki, Naxçıvan MSSR-də yerli sənayeni inkişaf etdirmək üçün hər cür xammal və mənbələri vardır. Bu imkanlardan istifadə edən muxtar respublikanın yerli sənaye müəssisələrindən Naxçıvan şəhər Yerli Sənaye Kombinatı 1950-ci ilin planını 119 faiz, Şərur rayon Yerli Sənaye Kombinatı illik planı 101,6 faiz, Naxçıvan rayon Yerli Sənaye Kombinatı 101,1 faiz yerinə yetirmişdi. Yerli sənaye sistemi üzrə əmək məhsuldarlığının artırılması 1949-cu ildə 72,1 faiz, 1950-ci ildə 74,7 faiz, 1951-ci ildə isə 85,8 faizə çatdırıldı. Buraxılan məhsulun maya dəyəri 1949-cu ildə 1,2 faiz, 1950-ci ildə 1,9 faiz, 1951-ci ildə isə 2,3 faiz aşağı salınmışdı. Lakin Yerli Sənaye Nazirliyinin Ordubad və Culfa rayon kombinatları 1951-ci il dövlət planını kəsirlə yerinə yetirmişdilər. Ordubad rayon sənaye kombinatı illik planı 67,9 faiz, Culfa rayon sənaye kombinatı isə 31,6 faiz ödəyə bilmişdi. Yerli Sənaye Nazirliyinin müəssisələri 1951-ci ildə dövlət planını 98,1 faiz yerinə yetirmişdilər [112, 1952, 14 mart].

Beşinci beşilliyin sonunda daş karxanası dövlət planlarını yerinə yetirərək, inşaat obyektlərinə 599 000 ədəd "kubik", 11 950 m^3 "but" (özül) daşı və digər material vermişdi. 1955-ci ildə əmək məhsuldarlığı 1950-ci ilə nisbətən 1,4 dəfə, məhsulun maya dəyəri isə 12 faiz aşağı salınmışdı [85, v. 17]. Muxtar respublikanın Yerli Sənaye Nazirliyi sonrakı ildə dövlət planını 102,4 faiz yerinə yetirmişdi [77, v. 47]. Yerli Sənaye Nazirliyi 1959-cu ildə 2 295 000 ədəd bişmiş kərpic, 2 736 ton əhəng, 4512 ton gəc, 1 161 000 daş kubik, 5 620 ton asfalt və digər tikinti materialları istehsal edib, tikinti təşkilatlarına vermişdi. Yerli Sənaye Nazirliyinin müəssisələri 1959-cu ildə məhsul istehsalını 20 faiz artırmışdı [90, v. 9]. Buna baxmayaraq yerli sənayenin 50-60-cı illərdəki vəziyyəti muxtar respublikanın imkanlarından çox geri qalmış, yerli əhalinin tələbatını təmin etməmişdi. Halbuki, Naxçıvan MSSR-də yerli sənaye istehsalını artırmaq üçün təbii-iqtisadi və istehsal imkanları daha çoxdur.

Ümumiyyətlə, 50-60-cı illər amirlik siyasətin və başqa metodların güclü olmasına baxmayaraq, Naxçıvan MSSR-də öz yekunlarına görə ən yaxşı illər olmuşdur. Muxtar respublika sənayesinin coşqun inkişafının təməli İkinci Dünya müharibəsindən sonrakı beşillikdə qoyulmuşdu.

5. Mədəniyyət

Təhsil. Müharibə illərindən sonra digər sahələr kimi təhsil sahəsində də bərpa və inkişaf istiqamətində bir sıra işlər görüldü ki, bunun nəticələri də 50-ci illərin əvvəllərindən başlayaraq özünü göstərməyə başladı. İlk növbədə təhsilin inkişafına dövlət nəzarətinin artırılması, bu məqsədlə büdcədən ayrılan vəsaitin həc-

minin yüksəldilməsi 50-ci illərin əvvəllərindən başlayaraq özünü büruzə verirdi. Belə ki, 1945-ci ildə Naxçıvan MSSR-in yerli büdcəsi üzrə maarif xərcləri 1585 min manat təşkil edirdisə, 1950-ci ildə bu rəqəm 2678,5 min manata, 1960-cı ildə 3844,7 min manata, 1963-cü ildə isə 5843,8 min manata [15, s. 52] çatdı ki, bu da təhsil xərclərinin müharibədən sonrakı qısa vaxt ərzində 3,7 dəfə artırılması demək idi.

1950-60-cı illərdə Naxçıvanda təhsilin inkişaf dinamikasını göstərən statistik rəqəmlər aşağıdakı kimi idi:

İllər	Ümumtəhsil məktəblərinin sayı	Şagirdlərin sayı	Orta məktəblər	Yeddiillik və səkkizillik məktəblər	İbtidai məktəblər
1945-1946	176	25093	29	77	70
1950-1951	185	28156	31	79	75
1963-1964	198	36142	77	46	75

50-60-cı illərdə Naxçıvan MSSR-də bu artım fərqləri müəllimlərin say tərkibində və təhsillərinin keyfiyyət dərəcəsində də özünü göstərirdi. Naxçıvandakı ümumtəhsil müəssisələrində çalışan müəllimlərin ümumi sayında ali təhsillilər 1948-1949-cu illərdə cəmi 7,3 faiz təşkil edirdisə [15, s. 53], 1959-cu ildə muxtar respublikanın 1948 nəfər müəllimindən 509 nəfəri (25,6 faiz), 1965-ci ildə 2498 nəfər müəllimdən 582 nəfəri (23,3 faiz), 1970-ci ildə 3120 nəfər müəllimdən 1303 nəfəri (44,7 faiz) ali təhsilli idi. Həmin illərdə müxtar respublikada natamam ali təhsilli müəllimlər müvafiq olaraq 1959-cu ildə 615, orta pedaqoji təhsillilər 446, orta təhsillilər 88 nəfər, 1965-ci ildə isə müvafiq olaraq 702, 735, 79 nəfər idi [101, s. 114].



Naxçıvan şəhər 1 nömrəli məktəb 1965-ci il

1950-60-cı illərdə muxtar respublikada icbari təhsilin həyata keçirilməsi istiqamətində də qənaətbəxş işlər görüldü. Belə ki, 1949-cu ildən etibarən muxtar respublikada ümumicbari yeddiillik, 1959-cu ildən başlayaraq səkkizillik, 1966-cı ildən isə orta (on illik) icbari təhsil həyata keçirilməyə başlandı. Eyni zamanda məktəb islahatına uyğun olaraq 1969-1970-ci tədris ilindən etibarən 4 illikdən 3 illik ibtidai təhsil sisteminə keçildi ki, [15, s. 54] bu da təhsilin təkmilləşdirilməsi sahəsində uğurlu addımlardan idi. İmkansız ailələrdən olan uşaqların təlim-tərbiyəsi də diqqətdən kənarda qalmadı və 1958-ci ildə Ordubadda, 1959-cu ildə Şahbuzda, sonra isə Naxçıvan şəhərində internat məktəbləri açıldı.1963-1964-cü tədris ilində həmin məktəblərdə 525 şagird təhsil alırdı. Onlar tam şəkildə dövlət qayğısı ilə əhatə olunmuşdu [15, s. 56].

1950-60-cı illərdə Azərbaycanda olduğu kimi, muxtar respublikada da gənclərin istehsalatdan ayrılmadan təhsil almalarına, fəhlə və kəndli-gənclər məktəblərinin, eyni zamanda qiyabi məktəblər şəbəkəsinin genişləndirilməsinə diqqət artırıldı. 1951-1952-ci tədris ilində muxtar respublikada bu tip 46 məktəbdə 1010 şagird təhsil alırdısa, 1960-1961-ci dərs ilində 38 məktəbdə 1611, 1962-1963-cü tədris ilində isə 55 məktəbdə 2295 nəfər təhsilə cəlb olundu [101, s. 111].

1960-cı illərdə ümumi orta təhsilin ən perspektivli sahələrindən biri də texniki peşə məktəbləri sayılırdı. 60-cı illərin əvvəllərində fəaliyyətə başlayan Naxçıvandakı peşə məktəblərində şagirdlərin sayı ilbəil artırılmaqla, həmin məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi də diqqət mərkəzində saxlanılırdı.



Naxçıvan Müəllimlər Evi
1965-ci il

1960-cı illərdə muxtar respublikada təhsilin keyfiyyətinin yüksəldilməsi və pedaqoji kadr tələbatının ödənilməsi istiqamətində görülən işlər də diqqətəlayiq idi. Azərbaycan SSR Nazirlər Sovetinin 21 may 1963-cü il tarixli 339 saylı qərarına əsasən Naxçıvan MSSR Nazirlər Sovetinin 28 iyun 1963-cü il tarixli qərarı ilə Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunun Naxçıvan filialının açılması, az sonra Azərbaycan SSR Nazirlər Sovetinin 8 aprel 1965-ci il tarixli 229 №-li qərarı ilə həmin filialın müstəqil Naxçıvan Müəllimləri Təkmilləşdirmə İnstitutuna çevrilməsi [15, s. 58], SSRİ Nazirlər Sovetinin "Ali və orta ixtisas təhsilini daha da inkişaf etdirmək, mütəxəssislər hazırlanmasını və onlardan istifadə olunmasını yaxşılaşdırmaq tədbirləri haqqında" 9 may 1963-cü il tarixli qərarına [5, s. 10] uyğun olaraq 1965-ci ildə Naxçıvan şəhər pedaqoji məktəbinin fəaliyyətə başlayıb 1972-ci ilədək öz fəaliyyətini davam etdirməsi həmin dövrdə muxtar respublikanın təhsil müəssisələrinin müəllim kadrları ilə təmin olunmasında mühüm rol oynadı. 50-60-cı illərdə Naxçıvanda xalq maarifinin inkişaf etdirilməsində C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutunun (1939-1954), Naxçıvan şəhər Pedaqoji Məktəbinin, Naxçıvan Müəllimləri Təkmilləşdirmə İnstitutunun xüsusi rolu olsa da, 1967-ci ildə 3 ixtisas, 105 tələbə və 3 müəllimlə fəaliyyətə başlayan Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı (indiki Naxçıvan Dövlət Universiteti) Naxçıvanın təhsil tarixində xüsusi bir mərhələnin əsasını qoydu. Azərbaycan dili və ədəbiyyatı, tarix və riyaziyyat ixtisasları ilə fəaliyyətə başlayan bu təhsil müəssisəsində 1968-ci ildə kitabxana yaradıldı, riyaziyyat ixtisasının qiyabi şöbəsi təşkil olundu. 1969-cu ildə Azərbaycan dili və ədəbiyyatı, tarix ixtisaslarının da qiyabi şöbələri açıldı, 1970-ci ildə bu ixtisasların sırasına coğrafiya da əlavə olundu [56, s. 562]. 1967-ci ildə filiala 105, 1968-ci ildə 132, 1969-cu

ildə 173, 1970-ci ildə 208 tələbə qəbul olundu [56, s. 565].

Ümumiyyətlə, XX əsrin 50-60-cı illəri muxtar respublika həyatının digər sahələrində olduğu kimi, təhsil sahəsində də xüsusi bir mərhələ təşkil etmiş, təhsil tariximizin inkişafında həlledici əhəmiyyət daşımışdır.

Elm. Böyük Vətən müharibəsindən sonrakı dövrdə Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə olduğu kimi, elmin inkişaf etdirilməsi istiqamətində də müəyyən çətinliklər mövcud olmuşdur. Ölkənin reallıqları nəzərə alınmaqla müharibənin törətdiyi dağıntıların və fəlakətlərin aradan qaldırılmasının ön plana çəkilməsi digər sahələrdəki prosesləri üstələdiyindən elmin inkişafı ilə bağlı məsələlərə əsasən XX əsrin 50-ci illərindən etibarən müəyyən diqqət ayrılmışdır.

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında elmi qüvvələr əsasən aşağıdakı elm-təhsil müəssisələrində mərkəzləşmişdir:

Cəlil Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunda;

Azərbaycan SSR Elmlər Akademiyası Torpaqşünaslıq İnstitutunun Naxçıvan Təcrübə stansiyasında.

Məlum olduğu kimi, Cəlil Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunda əsasən ictimai və humanitar elmlər, eləcə də pedaqoji-metodiki fənlər üzrə tədqiqatlar aparılmışdır. Bu ali məktəb daha çox dövrün pedaqoji və siyasi-ideoloji fikrinin regiondakı əsas mərkəzlərindən biri funksiyasını yerinə yetirmişdir. Bununla belə, Cəlil Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunda elmi-tədqiqat işləri də həyata keçirilmiş, elmi konfranslar və yubileylər təşkil olunmuşdur. Böyük Vətən müharibəsindən sonrakı dövrün tanınmış ziyalılarından Əli Sultanlı, Lətif Hüseynzadə, Əsəd Cəfərli, Tofiq Bektaşi, Əli Əliyev, Əli Talıbov, Əli Hüseynov, Müzəffər Nəsirli, Murad Tutayuq, Nəsir Məmmədov, Cəfər İmanov, İbrahim Xəlil Axundov, Əbülfəz Həsənov və başqaları regionda elmi mühitin inkişafı yollarında çalışmış, yeni elmi nəslin formalaşmasına səy göstərmişlər [55, s. 62-63].

Cəlil Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunun müəllimləri sıralarından ilk namizədlik dissertasiyası müdafiələrinin edilməsi muxtar respublikada elmin inkişafı baxımından əlamətdar hadisəyə çevrilmişdir. Bu baxımdan 1950-ci ildə Cəlil Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunda Azərbaycan Dövlət Universitetinin səyyar müdafiə şurasının təşkili muxtar respublikanın elm tarixində nadir hadisə idi. Azərbaycanın görkəmli alimlərinin iştirak etdiyi dissertasiya şurasının iclasında Naxçıvan Müəllimlər İnstitutunun müəllimi Lətif Hüseynzadə "Əliqulu Qəmküsarın həyatı və yaradıcılığı" mövzusunda uğurla namizədlik dissertasiyası müdafiə etmişdir. Mollanəsrəddinçi hərəkatın, tənqidi-realist ədəbiyyatın görkəmli nümayəndəsi olan Əliqulu Qəmküsarın böyük ideallarının onun doğulub boya-başa çatdığı, yetişib formalaşdığı mühitdə Azərbaycan elmi ictimaiyyəti tərəfindən müdafiə olunması sənətkar və zaman probleminə münasibətdə təkcə ədəbiyyatşünaslıq baxımından deyil, həm də dərin ictimai-

siyasi mənada mühüm əhəmiyyətə malik idi. Bu, regionda Azərbaycan elminin inkişaf etdirilməsi istiqamətində də mühüm addım olmuşdur. Bundan bir il əvvəl, 1949-cu ildə isə Naxçıvan Müəllimlər İnstitutunun müəllimi Əli Əliyev Saratov Dövlət Universitetində "1905-1907-ci illərdə Azərbaycanda kəndli hərəkatı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Əli Əliyev Azərbaycanın Bakı, Elizavetpol quberniyalarında, Naxçıvan qəzasında, Şərur nahiyəsində, Zaqatala dairəsində kəndli və torpaq münasibətlərini tədqiq edib öyrənmişdir. Əsərdə, eyni zamanda, 1906-1907-ci illərdə Azərbaycanın ayrı-ayrı quberniyalarında kəndlilərin yerli feodallara qarşı silahlı çıxışları da ilk dəfə tədqiqata cəlb edilmişdir. Müəllif eyni zamanda Naxçıvan mahalında Azərbaycanın digər bölgələrindən fərqli olaraq kəndli hərəkatının "qaçaqçılıq" xarakteri daşıdığını əsaslandırmışdır [117, s.99-100].Beləliklə, dissertasiya işində kəndli hərəkatı regiondakı qaçaqçılıq hərəkatı ilə vəhdətdə tədqiq edilib ümumiləşdirilmişdir. Bu, həm də XX əsrin birinci yarısında Azərbaycandan kənarda müdafiə edilən ilk namizədlik dissertasiyalarından biridir. Eyni zamanda, Azərbaycan mövzusunun, ölkə tarixinin keçmiş ümumittifaq miqyası səviyyəsinə qaldırılması cəhətdən də Əli Əliyevin namizədlik dissertasiyası əhəmiyyətli hadisə idi.

XX əsrin əvvəllərinin ictimai-siyasi hadisələrini, kəndli hərəkatını, qaçaqçılıqla əlaqədar məsələləri tədqiq edib öyrənərkən tarix elmləri namizədi Əli Əliyev Zaqafqaziya arxivlərindən Naxçıvana qarşı erməni təcavüzünə dair reallıqları əks etdirən sənədlər əldə etmiş, erməni generalı Andranikin regionda tökdüyü qanlar və törətdiyi fəlakətləri açıq şəkildə göstərən tədqiqatlar aparmışdır. XX əsrin əllinci illərindən sonra Ermənistan tərəfinin Androniki milli qəhrəman kimi təqdim etmək uğrunda mübarizə apardığı dövrdə Əli Əliyev mövcud gerçəkliyi əks etdirən "Naxçıvan ərazisindən" adlı tədqiqat əsərində Andronikin qaniçən erməni cəlladı olduğunu əsaslı şəkildə təqdim etmişdir. Lakin Əli Əliyev sənədlər vasitəsilə real tarixi əks etdirən bu elmi-tədqiqat əsərini çap etdirməkdə böyük maneələrlə qarşılaşmışdır. Tarixçi alimin Azərbaycan Sovet Respublikasının rəsmi dairələrinə müraciətləri də məsələnin həllinə kömək edə bilməmişdir. Əli Əliyevin Azərbaycan KP MK katibi Şıxəli Qurbanova göndərdiyi məktubdan görünür ki, ona dövrün ideoloji şərtləri nəzərə alınmaqla kitabından Androniklə bağlı hissələrin çıxarılmasını tövsiyə etmişlər. Əli Əliyev isə bütün bunlarla razılaşmayaraq, kitabını tam halda çap etdirmək uğrunda mübarizə aparmışdır. Şixəli Qurbanova göndərilmiş məktubda örtülü şəkildə olsa da aparılan mübarizə sadəcə kitab nəşri ilə bağlı olmayıb, Ermənistanın Androniklə əlaqədar məsələləri saxtalaşdırmasına və Naxçıvan torpaqlarına əsassız ərazi iddiasına aydınlıq gətirilməsi və elmi şəkildə qəti cavab verilməsi kimi ciddi məsələləri əhatə edirdi. Ümumiyyətlə, Ermənistan tərəfinin Naxçıvan ərazilərini ölkəsinə birləşdirməsi uğrunda apardığı mübarizə artıq XX əsrin əllinci illərinin ikinci yarısından etibarən cəmiyyətə məlum idi. Onlar Kremldə yüksək vəzifə tutan Anastas Mikoyanın imkanlarından istifadə etməklə

Naxçıvan Muxtar Respublikasını ələ keçirmək arzusunda idilər. Azərbaycan ziyalıları, xüsusən Naxçıvandan olan elm və ədəbiyyat adamları bu ədalətsiz məsələyə kəskin münasibət bildirir, etiraz səslərini ucaldırdılar. Elmlər Akademiyasında 1957-ci ildə keçirilmiş yığıncaqda vətəndaş-alim, professor Abbas Zamanov Sovet dövlətinin rəhbərliyinin Naxçıvanla bağlı çıxarmaq istədiyi qərara etirazını ifadə etdiyi üçün cəzalandırılaraq Bakı Dövlət Universitetində tutduğu vəzifədən və kommunist partiyası sıralarından azad edilmişdi [60, s.125-128]. Tarix elmləri namizədi Əli Əliyevin apardığı mübarizə də həmin prosesin davamından ibarət idi. Əli Əliyev məqsədinə çatmaq üçün məsələyə xalqlar dostluğu zəminində yanaşaraq Sovetlər İttifaqının rəsmi dairələrinin təzyiqindən yan keçməyə çalışmışdır. Lakin o, Andronikin cəlladlığını, törətdiyi fəlakətləri sənədlər və yaddaş materialları əsasında şərh etmişdi. Heç şübhəsiz, Azərbaycan dairələrində də sovet dövlətinin ermənipərəst mövqeyi nəzərə alındığı üçün Əli Əliyevin tədqiqatının çapına kömək etmək mümkün olmamışdır. Azərbaycan KP MK-nın katibi Şıxəli Qurbanov milli mövqeyi ilə tanındığı üçün Əli Əliyev əsərinin taleyi ilə əlaqədar ona müraciət etməyə müəyyən ümid bəsləmişdir. Naxçıvan şəhərindən 11 mart 1966-cı il tarixdə göndərilmiş məktubda deyilirdi:

"Azərbaycan KP MK katibi Ş.Qurbanov yoldaşa

Xeyli vaxt "Naxçıvan ölkəsində Azərbaycan-erməni dostluğu tarixindən /1918-1921-ci illər/" adlı material üzərində işləyib 1964-cü ildə Azərnəşrə təqdim etdim, müsbət rəy verildikdən sonra nəşriyyat planına salınmasına söz verildi. Müxtəlif bəhanələr gətirilərək, 1965-ci ilin nəşriyyat planına daxil edilməsi vəd edildi.

1965-ci ilin fevralında Andronikin anadan olmasının 100 illiyinin qeyd olunması ilə əlaqədar olaraq əsər nəşriyyat planına daxil edilməməklə yenidən oxunması üçün Azərb.KP MK ideoloji şöbəsində Fikrət Əhmədov yoldaşın rəyinə göndərilir.

Əsərə rəy verilməsinin yubandırılması ilə əlaqədar olaraq Mərkəzi Komitədə Fikrət Əhmədov və Teymur Əliyev yoldaşların yanında olarkən mənə dedilər ki, əsəri yenidən işlə, bir sözlə, Andronikin adı çıxıldıqdan sonra nəşriyyata verilsin. Bununla razılaşmayıb, yazıya elmi dildə rəy verilməsini xahiş etdim. Lakin bir ildir ki, nə rəy ala bilmişəm, nə də əsəri ala bilirəm.

Yoldaş Qurbanov! Tarixi həqiqətləri təhrif edib general Andronikin Naxçıvan ölkəsində Azərbaycan-erməni dostluğuna vurduğu zərbəni, onlarla dağıtdığı kəndləri, məhv etdiyi minlərlə günahsız adamları inkar edib, əsəri dəyişdirməkdənsə, onun nəşrindən imtina etmək yaxşıdır.

Sizdən xahiş edirəm ki, əsərin tapılıb özümə qaytarılmasına kömək edəsiniz.

Hörmətlə: Əli Əliyev

Naxçıvan şəhəri, Puşkin küçəsi - №85
11 mart 1966-cı il" [67, v.2].

Ermənistan Sovet Respublikası və onun Kremldəki tərəfdarları 1965-1966-cı illərdə Andronikin anadan olmasının 100 illik yubileyinin keçirilməsinə nail olmaq üçün böyük səylər göstərmişlər. Mərkəzi mətbuatda nüfuzlu simaların, o cümlədən Lenin mükafatı laureatı Marietta Şaginyanın məqaləsinin çap edilməsi həm də Naxçıvan məsələsini rəsmiləşdirmək niyyətinə xidmət etmişdir. Tarix elmləri namizədi Əli Əliyevin 1 mart 1966-cı il tarixdə Sovet İttifaqının rəhbərlərinə göndərdiyi etiraz məktubu elmi və siyasi cəhətdən əsaslandırılmışdı. Məktubda oxuyuruq:

Sov.İKP MK-nın İdeologiya şöbəsinə

"İzvestiya" qəzetinin 16 yanvar 1966-cı il tarixli nömrəsinin "Sonuncu gün" bölməsində Marietta Şaqinyanın "Volqa" ilə Fransada dolaşarkən" sərlöhvəli məqaləsi verilmişdir. Məqalə müəllifi general Andronikin Parisin "Per-Laşez" məzarlığındakı heykəlini Yerevan şəhərində David Sasunskiyə qoyulmuş abidə ilə müqayisə edir.

Hamıya məlum olduğu kimi, general Andronik bolşevizmin düşməni, əks-inqilabi "Daşnaksütyun" partiyasının sayılıb-seçilən üzvü olmuşdur. Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra o, 1920-ci ildə digər daşnak quldurbaşıları ilə birlikdə düşmən ölkələrə mühacirət etmiş, 1927-ci ildə Amerikada vəfat etmişdir. Qatı əks-inqilabçının əsl xalq qəhrəmanı olan David Sasunski ilə müqayisə edilməsi təəccüb doğurur.

Andronik İran-türk cəbhəsindən geri çəkilərkən 1918-ci ilin iyun-iyul aylarında Naxçıvan diyarında dinc əhalini didərgin salıb, qırıb-çatıb, talan edibdir. O, qadınları, uşaqları və qocaları da odlara yaxıb, qılıncdan keçiribdir.

Salınmış qanlı nifaq, Andronik tərəfindən 1918-ci ildə diyarın dinc əhalisinə qarşı törədilmiş fiziki cəhətdən məhv etmə halları haqqında mən bu ilin 28 yanvarında yazdığım məktubla "İzvestiya" qəzetinin redaksiyasını və Marietta Şaqinyanı məlumatlandırmışam. Lakin indiyə kimi onlardan heç bir cavab almamışam. Çox-çox təəssüf edirəm ki, əks-inqilabçı Andronikin mədh edilməsinə qarşı mənim bu etirazıma dair heç bir izahat almamışam.

Sizə müraicət edərək xahiş edirəm ki, Marietta Şaqinyanın general Androniki xalq qəhrəmanı David Sasunski ilə müqayisə etməsinin düzgün olub-olmamasına aydınlıq gətirəsiniz.

Mənim fikrimcə, ən yaxşısı budur ki, açıq-aşkar etiraf edilsin: general Andronik xalq qəhrəmanıdır və yaxud düşmən ünsürlərlə, ingilis-amerika imperialistləri ilə əlbir olan bolşevizm düşmənidir. Əks təqdirdə anlaşılmazlıq yaranır.

Böyük hörmətlə, 1927-ci ildən Sov.İKP üzvü, tarix elmləri namizədi Ə.İ.Əliyev

Azər.SSR, Naxçıvan ş. Araz üstə, Puşkin küçəsi, 85, Əliyev Əli İbrahim oğlu.

1 mart 1966-cı il" [67, v.2].

Tarix elmləri namizədi, dosent Əli Əliyevin apardığı tədqiqatlar Azərbaycan müstəqillik qazandıqdan sonra "Əlincə yaddaşı" adlı kitabında geniş ictimaiyyətə çatdırılmışdır. "Əlincə yaddaşı" kitabı Naxçıvanın son yüz ildən artıq dövrdəki mükəmməl tarixi salnaməsidir [24, s.65]. Bununla belə, XX əsrin əlli-altmışıncı illərində Azərbaycan alimlərinin, xüsusən də Abbas Zamanov və Əli Əliyevin apardığı mübarizə təsirsiz qalmamışdır. Sovet İttifaqı rəhbərliyinin altmışıncı illərin sonunda Naxçıvan məsələsini bir müddət gündəlikdən çıxarmasında alimlərin səsi eşidilmişdi.

Bütövlükdə Cəlil Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunun məzunları Azərbaycanda və o cümlədən Naxçıvan Muxtar Respublikasında elmin və ictimai fikrin inkişafında görkəmli yer tutmuşlar. Azərbaycan Elmlər Akademiyasının akademiki Cəlal Əliyev, müxbir üzv Mustafa Hüseynov, Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Yusif Seyidov Azərbaycan miqyasında elmin inkişafına sanballı töhfələr vermişlər. Fəaliyyətlərini Naxçıvanda davam etdirən AMEA-nın müxbir üzvü Səfərəli Babayev, filologiya elmləri doktoru, professor Yavuz Axundlu, pedaqoji elmlər doktoru İbrahim Mollayev, filologiya elmləri namizədi İzzət Maqsudov, fəlsəfə elmləri namizədi, dosent Yunis Qasımov, fizika-riyaziyyat elmləri namizədi, dosent Məmməd Bektaşi, tarix elmləri namizədləri, dosent İbrahim Hüseynov, dosent İbrahim Bağırov, pedaqoji elmlər namizədi, dosent Nəriman Orucəliyev və başqaları muxtar respublikada elmin və ali təhsilin inkişafı yollarında fədakarlıqla çalışmışlar.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutu 1954-cü ildə fəaliyyətini dayandırmışdır. Lakin institutun məzunları olan Yavuz Axundovun 1962-ci ildə, İzzət Maqsudovun 1963-cü ildə filologiya üzrə, İbrahim Hüseynovun 1966-cı ildə tarix üzrə, Səfərəli Babayevin 1967-ci ildə coğrafiya üzrə namizədlik dissertasiyaları müdafiə etmələri Naxçıvan Muxtar Respublikasında elmin sonrakı inkişafına münbit zəmin hazırlamışdır. Coğrafiya elmləri namizədi Səfərəli Babayevin Bakıda nəşr edilmiş "Qədim diyarın təbiəti" monoqrafiyası regionda böyük elmi potensialın olduğunu nümayiş etdirirdi. Fikrimizcə, 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının açılması muxtar respublikadakı davamlı elmi-maarifçi mühitin zəminində baş vermiş əhəmiyyətli hadisə idi. Zəngin elmi-pedaqoji ənənələrinə görə ADPİ-nin Naxçıvan filialı məşhur Qori Müəllimlər Seminariyası ilə müqayisə oluna bilər. Naxçıvan Muxtar Respublikasında elmin inkişafında yeni dövr Naxçıvan filialının 1972-ci ildə müstəqil Naxçıvan Dövlət Pedaqoji İnstitutuna çevrilməsindən sonra baş vermişdir.

Naxçıvan Muxtar Respublikasında aqrar elm və təbiət elmləri Azərbaycan SSR Elmlər Akademiyası Torpaqşünaslıq İnstitutunun Naxçıvan Təcrübə Stansiyasında inkişaf etdirilmişdir. Burada regionun inkişafı üçün elmi dərəcəli kənd təsərrüfatı kadrları hazırlanmış, həmin zəmində kimya-biologiya elmlərinin inkişafı üçün də imkanlar yaranmışdır. Ona görə də Naxçıvan Təcrübə Stansiyasında əsasən kənd

təsərrüfatı, eroziya, meliorasiya, ekologiya və qismən də kimya-biologiya istiqamətində tədqiqatlar aparılmışdır. Naxçıvan Təcrübə Stansiyasında işlər genişlənmiş, tədricən inkişaf edərək kənd təsərrüfatının əsas sahələrini əhatə etmişdir.

XX əsrin əllinci illərindən sonra ölkədə kənd təsərrüfatının genişləndirilməsi ilə əlaqədar olan tədbirlərə tələbat artdığı üçün Naxçıvan Təcrübə Stansiyasının da yenidən qurulmasına ehtiyac yaranmışdır. Muxtar respublikanın rəhbərliyi Azərbaycan Elmlər Akademiyası qarşısında Naxçıvan Təcrübə Stansiyasının daha da inkişaf etdirilməsi təklifi ilə çıxış etmişdir. Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət Heyəti 9 fevral 1955-ci il tarixli iclasında "Naxçıvan Təcrübə Stansiyasının işini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" məsələ müzakirə etmişdir. Rəyasət Heyətinin iclasında Naxçıvan Təcrübə Stansiyasının rəhbəri, kənd təsərrüfatı elmləri namizədi İbrahim Mehdiyevin məruzəsi dinlənilmiş və müzakirələr aparılmışdır. Qaldırılan məsələlər və irəli sürülən təkliflər nəzərə alınaraq Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət Heyəti Torpaqşünaslıq İnstitutunun Təcrübə Stansiyasının həmin institutun tərkibində Naxçıvan Zona Təcrübə Stansiyasına çevrilməsi haqqında qərar qəbul etmişdir. Zona Təcrübə Stansiyası Naxçıvan Muxtar Respublikasının bütün ərazilərində təcrübə-sınaq və tədqiqat işlərinin aparılmasına imkan yaratmışdır. Bundan başqa, Naxçıvan Zona Təcrübə Stansiyası üçün əlavə torpaq sahələrinin ayrılması, Şahbuz Dayaq Məntəqəsinin yaradılması, Aqrokimya laboratoriyasının maddi-texniki bazasının yaxşılaşdırılması, Torpaqşünaslıq İnstitutunda Naxçıvan üçün məqsədli aspirantura yerlərinin ayrılması qərara alınmışdır. Sonrakı dövrlərdə Naxçıvanda bu sahələrdə elmi kadrların müəyyən səviyyədə inkişaf etməsində Zona Təcrübə Stansiyasında formalaşmış ənənələrin mühüm rolu olmuşdur. Sonrakı mərhələdə bu elmi-tədqiqat müəssisəsində İsa Qayıbov, Ramazan İsmayılov, Cabbar Səttarov, Əli Abdullayev, Əli Məmmədov, İmamqulu Qurbanov, Fəxrəddin Əliyev kənd təsərrüfatı elmləri, Zərifə Nəcəfova, Abbas Mehdiyev biologiya elmləri, Ədalət Rəhimov kimya elmləri üzrə namizədlik dissertasiyaları müdafiə etmişlər. Ümumiyyətlə, Böyük Vətən müharibəsindən sonrakı dövrdə Naxçıvan elmi mühitində həm humanitar və ictimai elmlər, həm də kənd təsərrüfatı və təbiət elmləri çətin şəraitdə olsa da müəyyən inkişaf yolu keçmiş, gələcək, daha böyük dirçəliş üçün münbit zəmin hazırlanmışdır. Hər iki elmi istiqamətlər üzrə elmi ziyalılar əsasən 1967-ci ildə yaradılmış Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialında mərkəzləşmişlər ki, bu da tədricən Naxçıvanda daha böyük elmi məktəblərin formalaşması ilə nəticələnmişdir. Xüsusən, 1972-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun yaradılması və səmərəli fəaliyyəti muxtar respublikanın ölkəmizin əsas elmi mərkəzlərindən birinə çevrilməsinə həlledici təsir göstərmişdir.

Ədəbiyyat. Böyük Vətən müharibəsindən sonrakı dövrdə Naxçıvan ədəbi mühitində müəyyən canlanma yaranmağa başlamışdır. Müharibədən geri qayıtmış yaradıcı qüvvələr Naxçıvanda yaşayıb-yaratmaqda davam etmiş, bədii yaradıcılıq

sahəsində yeni əsərləri ilə diqqəti cəlb etmişlər. Cəbhə yolları keçmiş yerli ədəbi qüvvələri Müzəffər Nəsirli, İslam Səfərli, Hüseyn Razi, Hüseyn Əzim, Əkbər Məftun, Nağı Nağıyev, Əbülfəz Abbasquliyev və başqaları təmsil etmişlər. Bu ədəbi nəslin əsərlərində müharibənin dərsləri, vətənpərvərlik və müasir həyata çağırış motivləri üstünlük təşkil etmişdir.

Müzəffər Nəsirli (1911-1989) Böyük Vətən müharibəsindən sonra Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan filialının rəhbəri kimi muxtar respublikada ədəbi mühitin yenidən canlandırılması üçün səy göstərmişdir. Naxçıvan filialında müxtəlif ədəbi müzakirələr keçirilmiş, görüşlər təşkil olunmuşdur. Müzəffər Nəsirlinin "Sivaş sahillərində" (1945) şeirlər kitabında Böyük Vətən müharibəsi mövzusunda bir çoxu səngərlərdə yazılmış şeirlər toplanmışdır. Şair ağır müharibə illərinin yaşantılarını yaddaqalan poetik misralara çevirmişdir. Onun "Qafqaz yollarında" şeirlər kitabında (1952) da cəbhə şeirləri üstünlük təşkil etmişdir. Bu şeirlər Azərbaycan ədəbiyyatında müharibə mövzusunda yazılmış uğurlu poetik nümunələr idi.

Müşahidələr göstərir ki, müharibədən sonrakı dövr, xüsusən 1945-1970-ci illər Müzəffər Nəsirlinin bədii yaradıcılığının ən məhsuldar mərhələsi olmuşdur. Onun bu illərdə meydana çıxmış "Mənim respublikam" (1953), "Araz sahilində" (1962), "Laləli dağlar" (1965), "Yanar üfüqlər" (1968) şeir kitablarında ictimai motivlərin tərənnümü üstünlük təşkil etmişdir. Müzəffər Nəsirlinin şeirləri içərisində siyasi lirikanın və vətənpərvərlik poeziyasının yaddaqalan nümunələri vardır.

Cəbhə səngərlərində şeirlər yazmış Islam Səfərli də (1923-1974) müharibədən sonra Naxçıvanda yaşayıb-yaratdığı illərdə ilk növbədə keçdiyi döyüş yolunun poeziyasını canlandırmışdır. Şairin "Onüçlərim" poemasında onunla birlikdə Naxçıvandan müharibə cəbhələrinə yola düşmüş vətənpərvər gəncliyin igidliyi və mərdliyi poetik baxımdan ilhamla mənalandırılmışdır. Bu şeir Azərbaycan ədəbiyyatında müharibə mövzusunda yazılmış ən yaxşı əsərlərdən biridir. Şeirdə vətənpərvərliklə yanaşı, insani hisslər də yüksək poetik səviyyədə ifadə olunmuşdur:

Döyüşlərdə hər sübh ikən,
Düşmən üstə hücum çəkən,
Gah sürünən, gah uzanan,
Mərdlik edib, ad qazanan
Yarısından çoxu ölən,
Ölümün də üstə gülən
Kimdir?
Əgər soruşsanız
Bir ağızdan siz hamınız
Deyiniz ki: Onüçlərdir,
Onüçlərdir! Onüçlərdir! [106, s.102].

Cəbhədən qayıtmış Hüseyn Razi və Hüseyn Əzim də müharibə mövzusuna müraciət etməklə vətənpərvərlik notlarını müxtəlif cəhətdən mənalandırmışlar.

Bununla belə, cəbhəçi şairlərin yaradıcılığında Vətən mövzusu geniş yer tutmuşdur. Bu dövrdə Azərbaycan ədəbiyyatında həmin ədəbi nəslin gətirdiyi "Naxçıvandadır" motivi üstündə köklənmiş şeirlər silsiləsi meydana çıxmışdır. Bu şeirlər silsiləsində Azərbaycanın tarixində və taleyində özünəməxsus böyük yeri olan Naxçıvanın poetik obrazı canlandırılmışdır. Hər şair bu mövzuya öz baxışını, öz obrazlı düşüncəsini gətirmişdir. İslam Səfərlinin "Naxçıvanım" şeirindəki "Mənim barlı Naxçıvanım; Xoş baharlı Naxçıvanım; Sənətkarlı Naxçıvanım; Düz ilqarlı Naxçıvanım" misraları ilə Naxçıvan mövzusunun əsas konturları cızılmışdır. Əliheydər Qəmbərin həmin motivin işığında yazdığı "Bu, Naxçıvandır, Nəqşi-cahandır, Azərbaycandır" nəqaratı ilə yadda qalan "Naxçıvan mahnısı" şeiri yarım əsrdən çoxdur ki, mahnı kimi dillər əzbəridir. Hüseyn Razi (1924-1998) isə mövzuya bir qədər də fərqli yanaşaraq, "Naxçıvandadır" motivini poetik şəkildə diqqət mərkəzinə çəkmişdir:

Yaşı bilinməyir uca dağların,
Loğman qüdrəti var buz bulaqların,
Mirzə Cəlil kimi bir sənətkarın
Vüqarı, nəfəsi Naxçıvandadır.

Billur layları var burda salduzun,
Badamlı döşündən axır Şahbuzun.
Səidin, Cavidin, rəssam Bəhruzun,
Yaratmaq həvəsi Naxçıvandadır.

Bu yer qardaşıdır Milin, Muğanın,
Başında yazılmış neçə dastanın.
Qurbanı olduğum Azərbaycanın
Gözəl bir güşəsi Naxçıvandadır [38, s.9].

Hüseyn Razinin "Kəndimizin səhəri" (1958), "Ata məhəbbəti" (1960), "Ömür yolları" (1964) kimi şeir kitablarında ictimai motivlərin tərənnümündən insan mənəviyyatının poetik təqdimatına doğru ciddi bir dönüş prosesi baş vermişdir. Eyni zamanda, Hüseyn Razi Azərbaycan vətəndaşlıq lirikası nümunələri yaratmaq yollarında qətiyyətli addımlar atmışdır. Hüseyn Əzimin (1913-1987) şeirlərində Vətən və təbiət gözəllikləri canlandırılmışdır. Onun 1957-ci ildə çap olunmuş "Şeirlər" kitabında səmimi lirika nümunələri oxuculara təqdim olunmuşdur.

İlk şeirlərini XX əsrin əllinci illərində yazan yeni ədəbi nəslin yaradıcılığında da "Naxçıvan" mövzusu, təbiətə və insana romantik pafoslu bir baxış ifadə edilmişdir. Məmməd İbrahimovun (Məmməd Arazın –***red***.) ilk şeirlərindəki "Mənim Naxçıvanım" mövzusu ənənəvi olsa da obrazlılığı və səmimiyyəti ilə səciyyələnirdi:

Sinəmdə o yerin dağ havasıdır,
Qaynar bulaqları qaynar qanımda.
Mənim ürəyinin bir parçasıdır,
Doğma Şahbuzum da, Naxçıvanım da [51, s.92].

Eyni tipli tərənnüm Kəmalə Ağayevanın (1936) şeirləri üçün səciyyəvi idi. Onun "Baharın sözü" (1962), "Gül yarpağı" (1967) şeirlər kitablarında lirika ictimai münasibətləri üstələmişdir.

Beləliklə, müharibədən sonrakı dövrün Naxçıvan ədəbi mühitində poeziya sahəsində Vətən, Azərbaycan mövzusunun üzvi tərkib hissəsi kimi Naxçıvan mövzusunda yaranmış şeirlər meydana çıxmışdır. Bu şeirlərin demək olar ki, hamısında həm də Vətənin bütövlüyü motivi ifadə olunmuşdur. Eyni zamanda, ümumiyyətlə Azərbaycan ədəbiyyatında olduğu kimi, Naxçıvan ədəbi mühitində də altmışıncı illərdən etibarən ictimai motivlərdən, romantik pafosdan mənəvi proseslərin poetik baxımından mənalandırılmasına doğru meyil qüvvətlənmişdir.

Naxçıvan ədəbi mühitində müharibə dövründən sonrakı mərhələnin bədii nəsrində də eyni ədəbi-ictimai proseslərin baş verdiyi müşahidə olunur. Demək olar ki, XX əsrin əllinci illərində muxtar respublikada yaşayıb-yaradanların arasında bədii nəsrə maraq qüvvətlənmişdir. Hüseyn İbrahimov (1919-2010), Məmmədəli Tanrıverdiyev (1910-1994), Nağı Nağıyev (1910-1981), Əbülfəz Abbasquliyev (1918-1985) və başqalarının əllinci illərdə yazdıqları nəsr əsərlərində ictimai motivlər, dövrün ideyalarının işığında həyatı və insanların mübarizəsini epik planda göstərmək meyli üstünlük təşkil etmişdir. Əbülfəz Abbasquliyevin "İş günləri" povestində (1950), "Hekayələr" kitabındakı (1951) nümunələrdə, Nağı Nağıyevin "Yer altında" povestində (1954), "İki tale" hekayələr kitabında seçilmiş həyat materialı əsasında ictimai münasibətlərin mənzərəsi əks etdirilmişdir. Lakin Sovet dövlətində şəxsiyyətə pərəstiş dövrü aradan qaldırıldıqdan sonra yazılmış nəsr əsərlərində tədricən ictimai motivləri insan və onun taleyi, mənəvi aləmi məsələləri əvəz etməyə başlamışdır.

Bu baxımdan Əbülfəz Abbasquliyevin "Bahar axşamları" romanı (1956) xüsusilə diqqəti cəlb edir. Yazıçı "Bahar axşamları" romanında insan talelərini, sevgi macəralarını real obrazların fonunda işıqlandırmışdır. Nağı Nağıyevin "Həsrət" romanı da (1965) ədəbiyyatda ictimai motivlərdən mənəvi münasibətlərin təsvirinə doğru dönüşü əks etdirir. Yazıçı Hüseyn İbrahimovun nəsr əsərlərində müasir insanın mənəvi dünyasının təsviri ön mövqedə dayanmışdır. Yazıçının "Baharın hekayəsi" (1958) əslində yeni insanın hekayəsi idi. "Gülzar" (1957), "Zərifənin çiçəkləri" (1960), "Göyərçinin məhəbbəti" (1960) kitabları onun hekayə janrında bacarıqla irəliyə getdiyini nümayiş etdirmişdir. Hüseyn İbrahimov bu hekayələrlə həyat həqiqətlərinin dərinliklərini açan, insan xarakterlərinin ən incə xüsusiyyətlərini əks etdirməyi bacaran nəsr ustadı olduğunu göstərmişdir. Hüseyn İbrahimovun "Sabahın sorağında" romanında (1966) kənd müəllimlərinin həyatı,

məişəti və idealları mənəvi planda realistcəsinə təsvir olunmuşdur.

"Sabahın sorağında" adlanan bu roman Azərbaycan ədəbiyyatında yeni nəsrin sorağı ilə başlanan böyük ədəbiyyatın parlaq nümunəsidir. Akademik Məmməd Arif Dadaşzadənin "Sabahın sorağında" romanına yüksək qiymət verməsi bu əsərin Naxçıvan ədəbi mühitinin Azərbaycan ədəbiyyatına sanballı tohfəsi olduğunu göstərir [51].

Müharibəsdən sonra Naxçıvanda dramaturgiyanın genişlənməsi nəzəri cəlb edir. XX əsrin 50-60-cı illərində Naxçıvanda yaşayıb-yaradan yazıçı və şairlərin dram əsərləri Naxçıvan Dram Teatrında uğurla tamaşaya qoyulmuşdur. Hüseyn İbrahimovun "İtirilən sağlıq" (1968), Hüseyn Razinin "Odlu diyar" (1963), Nağı Nağıyevin "Səadət", Məmmədəli Tarverdiyevin "Kölgəli dağ" (1961), Kəmalə Ağayevanın "Məhsəti" (1964) pyesləri həmin müddət teatrın repertuarında qalmış, böyük tamaşaçı marağı qazanmışdır.

Bu dövrdə Naxçıvan ədəbi mühitində publisistikanın güclənməsi meyli də müşahidə olunur. Bu, muxtar respublikada "Şərq qapısı" qəzetinin rolunun və imkanlarının artması ilə əlaqədardır. Məmmədəli Tarverdiyevin "Naxçıvanın mayakları" (1963), "Mehriban insanlar" (1973) kimi oçerklər və publisist məqalələr kitablarının meydana çıxması ədəbi mühitdə yeni istiqamət idi.

Azərbaycan Sovet Yazıçılar İttifaqının 1958-ci ildə Naxçıvanda keçirilmiş səyyar plenumu regionda ədəbi mühitin inkişaf etdirilməsi, yeni yaradıcı qüvvələrə dəstək verilməsi baxımından diqqətəlayiq hadisəyə [32, s.59] çevrilmişdir. Bu münasibətlə Azərbaycanın tanınmış yazıçılarının böyük bir nümayəndə heyəti Naxçıvana gəlmişdir. Plenumda xalq şairi Rəsul Rzanın etdiyi məruzə muxtar respublikada yaşayıb-yaradan yaradıcı qüvvələrə, xüsusən ədəbi gəncliyə böyük diqqət və qayğının əməli ifadəsinə çevrilmişdir. Rəsul Rzanın məruzəsində deyilirdi: "Bu gün Azərbaycan sovet ədəbiyyatının ümidverən bir dəstəsi Naxçıvanda yaşayıb-yaradır. Bu yazıçı və şairlərin əksəriyyəti gəncdir. Naxçıvanda yaşayıb-yaradan Hüseyn Razinin, Əliyar Əliyevin, Əhməd Mahmudovun, Məmməd Əsgərovun, Müzəffər Nəsirlinin, Əkbər Məftun və başqalarının şeirləri müxtəlif mövzuda və yaradıcılıq səviyyəsində yaranan ədəbiyyatın xarakter nümunələridir. Bu şairlərdən bir çoxunun son vaxtlarda yazdıqları şeirlər onların get-gedə püxtələşdiklərini göstərir" [105, s.149].

Səyyar plenumda Süleyman Rəhimovun, Məmməd Rahimin və başqalarının çıxışlarında da Azərbaycan ədəbiyyatının fonunda Naxçıvan ədəbi mühitinin inkişaf etdirilməsi məsələlərindən bəhs edilmişdir. Aparılan müzakirələr Naxçıvan Muxtar Respublikasında ədəbi qüvvələrin inkişafına böyük təkan vermişdir.

Göründüyü kimi, Böyük Vətən müharibəsindən sonrakı dövrdə Naxçıvan ədəbi mühitində ədəbiyyatın bütün janrları üzrə canlanma və inkişaf baş vermiş, bədii yaradıcılıqda ideologiyadan, ictimai motivlərdən insana, mənəvi aləmin bədii dərkinə doğru əhəmiyyətli addımlar atılmışdır.

Teatr. İkinci Dünya müharibəsi qələbə ilə başa çatdıqdan sonra onun törətdiyi çətinliklərin aradan qaldırılması, xüsusilə yeni şəraitə uyğun repertuar məsələsinin həlli Naxçıvan Dövlət Dram Teatrı kollektivinin qarşısında ciddi problem kimi dayanırdı. Teatrda aparılan uğurlu işlər nəticəsində bu çətinliklər tədricən aradan qaldırıldı və 50-ci illərdən sonra inkişaf başladı. Bütün Azərbaycanda olduğu kimi Naxçıvan teatrında da müasir mövzu və müasir qəhrəmanın səhnəyə gəlməsi prosesi gücləndi. Bu yeniləşmə tarixi mövzulara həsr olunmuş ayrı-ayrı tamaşalara da təsir edirdi [10, s.169].



"Şeyx Sənan" tamaşası 1965-ci il

1950-1951-ci il mövsümünü C.Cabbarlının "Od gəlini" əsəri ilə açan Naxçıvan Dövlət Dram Teatrı klassik əsərlərə geniş yer verməyə başladı. Bu dövrdə N.Ostrovskinin "Günahsız müqəssirlər", S.S.Axundovun "Eşq və intiqam", V.Şeksprin "Otello", "12-ci gecə", C.Məmmədquluzadənin "Ölülər", N.Qoqolun "Evlənmə", M.F.Axundovun "Hacı Qara" əsərləri tamaşaya qoyuldu.

1950-ci illərin teatr kollektivi həmin dövr üçün aktual olan müxtəlif mövzulu pyeslərə də müraciət etmiş, bu sıradan H.Muxtarovun "Ailə namusu", S.Rəhmanın "Toy", "Nişanlı qız", M.İbrahimovun "Həyat", C.Cabbarlının "Solğun çiçəklər", "Sevil" və s. əsərləri səhnələşdirmiş, muxtar respublikanın yaşayış məskənlərində, həmçinin İmişli, Füzuli, Ağdam, Bərdə, Saatlı, Sabirabad və b. rayonlarda qastrol səfərlərində olmuşdur. Həmin vaxt, 45 gün müddətində Azərbaycanın rayonlarında 108 tamaşa göstərilmişdir.

Naxçıvan teatrının 1950-1955-ci illər fəaliyyətinə nəzər saldıqda tam aydınlığı ilə görünür ki, teatr sözün əsl mənasında xəlqi və realist bir teatr kimi fəaliyyət göstərmişdir. Janr, üslub və forma axtarışları teatrın qələbəsi ilə nəticələnmiş, digər tərəfdən, teatrda realist prinsiplərin qüvvətlənməsi üslub və forma əlvanlığı üçün geniş imkanlar yaradılmış, teatrda yaradıcı istedadların özlərini daha dolğun şəkildə büruzə vermələrinə geniş imkan və şərait yaranmışdır [46, s. 205].

1950-ci illərin II yarısından etibarən teatrın kollektivi öz işini gücləndirmək üçün günün tələblərinə uyğun olaraq bəzi tədbirlər həyata keçirir, bir sıra uğurlu tamaşalar, o cümlədən Ə. Abbasovun "Aqil və Sərvinaz", "Məlik Məmməd", C.Cabbarlının "Aydın", S.Rüstəmin "Qaçaq Nəbi", "Durna", G.Mdivaninin "Vətən namusu", N.Nərimanovun "Nadir şah", S.Ələsgərovun "Ulduz", İ.Səfərlinin "Göz həkimi", S.Vurğunun "Vaqif", "Fərhad və Şirin", M.Şamxalovun "Qaynana", Ə.Xəlilovun "Cinayətin izi ilə", Z.Xəlilin "Qatır Məmməd", S.S.Axundovun "Eşq və intiqam", Ə.Yusiflinin "Vicdan əzabı", B.Vahabzadənin "Ədalət" və s. əsərlər özünün səhnə təcəssümünü tapır. Bu dövrdə uzun fasilədən sonra teatr kollektivinin H.Cavid yaradıcılığına müraciət etməsi və "Şeyx Sənan" əsərini tamaşaya hazırlaması diqqəti cəlb edir.

1960-cı illərin əvvəllərindən başlayaraq Naxçıvan teatrında sülh, xalqlar dostluğu, qardaşlıq kimi mövzuları özündə əks etdirən əsərlərə müraciət olunur, bir sıra uğurlu tamaşalar hazırlanır. Bu uğurlar dövlət tərəfindən yüksək qiymətləndirilir və 24 may 1960-cı ildə teatrın inkişafı sahəsində xidmətlərinə görə iki nəfərə (İsa Musayev və Səməd Mövləvi) Azərbaycan Respublikasının xalq artisti, bir nəfərə isə əməkdar artist (Firuzə Əlixanova) fəxri adı verilir.

XX yüzilliyin 60-cı illərinin əvvəllərində forma-üslub və janr axtarışları məqsədilə Bakıdan Naxçıvana tanınmış rejissorlar dəvət olunurdu. Həmçinin görkəmli bəstəkarların əsərləri Naxçıvan teatrında səhnəyə qoyulurdu. Bu baxımdan görkəmli sənətkar Süleyman Ələsgərovun əsərlərini xüsusi qeyd etmək lazımdır. Məhz həmin vaxtlar Süleyman Ələsgərovun "Ulduz" operattası, "Özümüz bilərik", "Sevindik qız axtarır", "Hardasan ay subaylıq" və "Hərənin öz ulduzu" musiqili komediyaları uğurla tamaşaya qoyulur. Bakıdan dəvət olunmuş görkəmli rejissor Niyaz Şərifovun quruluşunda teatr kollektivinin 1963-cü ildə tamaşaya qoyduğu "Özümüz bilərik" musiqili komediyası çox böyük uğur qazanır.

Ümumiyyətlə, XX yüzilliyin 60-cı illəri Naxçıvan teatrının yüksələn xətt üzrə inkişaf dövrü kimi xarakterizə olunur. Bu dövrdə müasir mövzulu tamaşalara daha çox müraciət edən Naxçıvan teatrının tarixinə ideya-fəlsəfi yetkinliyin, bədii sabitliyin ərəfəsi kimi daxil olmuşdur. Aktyor nəsillərinin dəyişməsi prosesində ən ağır dövr arxada qalmışdı. Teatrda gənc, perspektivli aktyorların ansamblı yaranır və möhkəmlənirdi [46, s. 248].

1964-cü ildə görkəmli yazıçı və dramaturq C.Məmmədquluzadənin anadan olmasının 100 illiyi qeyd olundu. Bu münasibətlə Naxçıvan teatrına böyük ədibin adı verildi, həmçinin onun "Anamın kitabı" əsərinin tamaşaya qoyulması qərara alındı. Həmin ildə görkəmli rejissor Baxşı Qələndərlinin rejissor kimi dəvət olunması Naxçıvan teatrında sənət iqliminin güclənməsinə, tamaşaların bədii məziyyətlərinin artırılmasına güclü təkan verdi [28, s. 151].

1965-ci ilin iyul ayında Bakı şəhərində keçirilən Naxçıvan MSSR Mədəniyyət həftəsini Naxçıvan teatrının tələbkar Bakı tamaşaçıları qarşısında hesabatı kimi səciyyələndirmək olar. Həftə çərçivəsində göstərilən "Məhsəti", "Odlu diyar", "Sahil əməliyyatı" tamaşaları böyük uğur qazandı.

1966-cı ildə Ə.Qənbərovun "İlan yuvasında fırtına", M.Əlizadənin "İki könül bir olsa", M.İbrahimovun "Yaxşı adam", N.Ostrovskinin "Cehizsiz qız", H.Fətullayevin "Vüqarlı gözəl", G.Mdivaninin "Konsulu oğurladılar", C.Cabbarlının "Yaşar", Fiqeyredunun "Ezop", V.Şeksprin "Qış nağılı" əsərləri uğurla tamaşaya qoyuldu.

1960-cı illərin II yarısında Naxçıvanda teatr mühitinin inkişaf etdirilməsində bir sıra partiya və hökumət qərarlarının, xüsusilə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 17 fevral 1967-ci il tarixli, Naxçıvan Vilayət Partiya Komitəsinin 19 aprel 1967-ci il, Naxçıvan MSSR Nazirlər Sovetinin 26 may

1967-ci il tarixli "Naxçıvan teatrı haqqında", Azərbaycan SSR Mədəniyyət Nazirliyinin "Kənd əhalisinə mədəni xidmətin vəziyyəti haqqında" 1967-ci il tarixli qərarları teatrın işinin yaxşılaşdırılması istiqamətində mühüm rol oynamışdır. Bu qərarlara uyğun olaraq teatrın əməkdaşlarından rəssam M.Qasımov, artistlərdən T.Məmmədova, Ə.Məmmədov, Z.Həmzəyeva, rejissor V.Babayev Moskva və Bakı şəhərlərinə yaradıcılıq ezamiyyətlərinə göndərilir. Aktyorların yaradıcılıq işlərinə kömək etmək üçün bir sıra görkəmli elm və mədəniyyət xadimləri (professor Ə.Şərif, şair A.Babayev, R.Heydər, bəstəkar Şəfiqə Axundova, Nəriman Məmmədov) ilə görüşlər keçirilir, yaradıcılıq söhbətləri aparılırdı. Yaradıcılıq mübadiləsi etmək üçün Azərbaycanın tanınmış səhnə ustalarından SSRİ xalq artisti H.Qurbanova, Azərbaycan Respublikasının xalq artistlərindən L.Bədirbəyli, Ə.Zeynalov, M.Sənani, əməkdar artist M.Dadaşov, gənc artist A.Pənahova Naxçıvan teatrına dəvət olunurdu [46, s. 266].

Yaradıcılıq uğurlarını ardıcıl şəkildə artıran Naxçıvan teatrının repertuarında 60-cı illərin sonlarında Ə.Yusifovun "Məhəbbət abidəsi", Ə.Yusiflinin "Səadət naminə", S.Vurğunun "Vaqif", M.F.Axundovun "Müsyo Jordan və Dərviş Məstəlişah", S.S.Axundovun "Laçın yuvası", R.Heydərin "Bahar qız" əsərləri mühüm yer tutur. 1968-ci ilin mart ayında Azərbaycan SSR xalq artisti H.Sarabski Naxçıvana gəlir və teatrın kollektivi ilə Ü.Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", Z.Hacıbəyovun "Aşıq Qərib" operalarında çıxış edir.

Bəhs olunan dövrdə Naxçıvan teatrı özünün repertuarının rəngarəngliyi ilə diqqəti cəlb edir. Burada Azərbaycan dramaturgiyasının ən gözəl nümunələri ilə bərabər qərb, rus və digər xalqların romantik vüsətli, realist anımlı səhnə əsərləri də tamaşaya qoyulur [28, s. 151].

1964-cü ildə muxtar respublikanın teatr həyatında mühüm hadisə baş verdi, Ordubadda xalq teatrı yaradıldı. Teatrda klassik və müasir Azərbaycan yazıçılarının əsərləri səhnəyə qoyulmağa başladı.

Musiqi. 1950-ci illərdən başlayaraq muxtar respublikada musiqi mədəniyyətinin inkişafı yeni vüsət aldı. Bu dövrdə Naxçıvanda yaşayan tarzən Vahid Axundovun üçlüyü muxtar respublikada çox böyük şöhrət qazanmışdı. Məlahətli səsi olan V.Axundov həm tarda çalır, həm oxuyur, həm də mahnılar bəstələyirdi [47, s. 30]. 1957-1959-cu illərdə tarzən Rəşid Məmmədovun xanəndə A. Babayev və kamança çalan A.Camalbəyovdan ibarət üçlüyünün də Naxçıvanın musiqi həyatında mühüm rolu olmuşdur [48, s. 30].

İlk təhsilini Naxçıvanda alan, Naxçıvan musiqi məktəbinin bir sıra yetirmələri, o cümlədən N.Məmmədov, R.Mirişli və başqaları Bakıya gedərək təhsillərini Asəf Zeynallı adına Bakı Musiqi texnikumunda (indiki Bakı Musiqi Kolleci) və Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) davam etdirmişlər [66, s. 189]. N. Məmmədovun 1951-ci ildə, R.Mirişlinin isə 1955-ci ildə bəstəkarlıq şöbələrinə daxil olmaları, artıq Naxçıvanda professional bəstəkarlıq

sənətinin başlanmasının ilk mərhələsi hesab edilir [48, s. 83]. Sonralar görkəmli bəstəkarlara çevrilən, Bakıda yaşayan bu musiqişünaslar Naxçıvanla əlaqələrini mütəmadi olaraq davam etdirmiş, muxtar respublikada musiqi mədəniyyətinin inkişaf etdirilməsi üçün böyük əmək sərf etmiş, bu qədim diyarla əlaqədar musiqi nümunələri, süitalar, mahnılar yaratmış, Naxçıvan teatrı ilə sıx yaradıcılıq əlaqələrində olmuş, teatrda tamaşaya qoyulan bir sıra əsərlərə musiqi yazmışlar [50, s. 279, 281; 65, s. 32-33, 43]. Təsadüfi deyildir ki, bu sahədə xüsusi xidmətlərinə görə 1964-cü ildə, Naxçıvan Muxtar Respublikasının 40 illik yubileyi münasibəti ilə Nəriman Məmmədova Naxçıvan MSSR əməkdar incəsənət xadimi fəxri adı verilmişdir.

Sonralar istedadlı bəstəkar kimi tanınan Məmməd Məmmədovun da muxtar respublikada musiqi kollektivlərinin yaradılmasında böyük əməyi olmuşdur. Onun 1956-cı ildə Naxçıvan şəhər Pioner və Məktəblilər Evində yaratdığı və uzun illər rəhbərlik etdiyi "Əlvan çiçəklər" Mahnı və Rəqs Ansamblı Naxçıvan musiqi mədəniyyəti tarixinin zəngin səhifələrindən birinə çevrilir. Bu ansambl Naxçıvanda bir sıra ifaçıların və bəstəkarların yaradıcılığının formalaşmasında mühüm rol oynayırdı [49, s. 264].



"Əlvan çiçəklər" mahnı və rəqs ansamblı 1965-ci il

Əldə olunan uğurlarla kifayətlənməyən Məmməd Məmmədov bu ansamblın tərkibində Naxçıvan Muxtar Respublikasında da ilk dəfə olaraq böyük bir xor kollektivi yaradır. Təxminən 60 nəfərdən ibarət olan bu kollektivin instrumental heyəti 15-18 nəfər musiqiçidən təşkil olunmuşdu. Qısa müddətdə keçmiş SSRİ məkanında tanınan "Əlvan çiçəklər" Mahnı və Rəqs Ansamblı 1966-cı ildə ümumittifaq "Artek" pioner düşərgəsində bir ay istirahət etmək və geniş konsert proqramı ilə çıxış etmək hüququ qazanmışdı [49, s. 264].

1950-ci illərdə muxtar respublikada musiqi kollektivlərinin yaradılması istiqamətində atılan addımlardan biri də 1955-ci ildə tarzən Yusif Əliyevin bədii rəhbərliyi ilə Naxçıvan Dövlət Radio Komitəsinin nəzdində xalq çalğı alətləri ansamblının yaradılması oldu. Bunun ardınca, 1959-cu ildə tarzən Vahid Axundovun rəhbərliyi ilə 30 nəfərdən ibarət Dövlət Konsert Briqadası yaradılır. Muxtar respublikanın ən istedadlı musiqiçilərinin toplandığı bu ansambl qısa müddətdə məşhurlaşır və 1960-cı ildən başlayaraq yüksək səviyyəli konsert proqramları ilə çıxış edirlər [49, s. 265]. 1963-cü ildə Naxçıvan Dövlət "Araz" Mahnı və Rəqs Ansamblı statusu alan ansamblın şöhrəti getdikcə artır. Onun repertuarı yeniləşir və zənginləşir, görkəmli ifaçılar (V.Ərəboğlu, A.Babayev və s.) yetişir.

Bəhs olunan dövrdə Naxçıvan vokal sənətinin görkəmli nümayəndələri olan

Yaşar Səfərov və Elbrus Mehdiyevin də muxtar respublikada musiqi mədəniyyətinin inkişafında mühüm xidmətləri olmuşdur [48, s. 49-50].

Naxçıvan Muxtar Respublikasında musiqi mədəniyyətinin inkişafında bəstəkar Məmməd Ələkbərovun xüsusi xidmətləri olmuşdur. İlk musiqi təhsilini Naxçıvan Uşaq Musiqi məktəbində alan Məmməd Ələkbərov 1947-1951-ci illərdə Asəf Zeynallı adına Bakı Şəhər Orta İxtisas Musiqi Məktəbinin kamança ixtisasını bitirir. Bundan sonra Naxçıvan şəhərində Uşaq Musiqi məktəbində işləməyə başlayır. O, pedaqoji fəaliyyəti ilə yanaşı bəstəkarlıqla da məşğul olur və ilk musiqi əsərlərini ("Əlincə qalası", "Batabat yaylağı") yazır. Bəstəkarlıq sahəsində ilk uğurlar qazanan M.Ələkbərov "Araz", "Doğma Naxçıvan", "Ulduzlar", "Biri sənsən, biri mən" mahnılarını nota alır. Artıq bir bəstəkar kimi formalaşmağa başlayan M.Ələkbərov 1959-cu ildə yeni yaradılan "Araz" Dövlət Mahnı və Rəqs Ansamblının (indiki Naxçıvan Dövlət Mahnı və Rəqs Ansamblı) direktoru və bədii rəhbəri təyin olunduqdan sonra bu sahədə fəaliyyətini daha da gücləndirir, bir sıra lirik mahnılar, skripka və fortepiano üçün pyeslər, marş, süita, rəqs və s. əsərlər ("Naxçıvan şəfəqləri", "Şərur eskizləri" süitaları, "İki dostun rəqsi", "Salamlar", "İmtahana, ya görüşə getməli", "Ana baxır barıdan" mahnıları və s.) bəstələyir. O, 1963-cü ildə Şərur yallılarını, Naxçıvanın bir sıra el mahnılarını nota salır [47, s. 213].

1963-1968-ci illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının dirijorluq ixtisasında qiyabi yolla təhsil alan M.Ələkbərov bəstəkar və bacarıqlı təşkilatçı kimi getdikcə şöhrətlənir. O, Naxçıvan teatrının musiqi hissə rəhbəri kimi İ.Əfəndiyevin "Atayevlər ailəsi", M.Təhmasibin "Bahar" (1952), A.Muxtarovun "Ailə namusu" (1953), N.Qoqolun "Evlənmə" (1954), R.Taqorun "Qanq qızı" (1955), S.Əliyevin "İki oğul anası" (1957), K.Besin "Kərpic adam" (1962), K.Ağayevanın "Məhsəti" (1964), N.Hikmətin "Kor padşah" (1964), H.Fətullayevin "Vüqarlı gözəl" (1969) əsərlərinə maraqlı musiqi yazmışdır [29, s. 112]. Bir sıra məsul vəzifələrdə, o cümlədən Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan Şöbəsinin məsul katibi işləyən M.Ələkbərov 1966-cı ildə Naxçıvan MR əməkdar müəllimi, 1980-ci ildə isə Naxçıvan MR əməkdar incəsənət xadimi fəxri adlarına layiq görülmüş, onun Naxçıvanda musiqiçi kadrların yetişməsində, ümumiyyətlə, muxtar respublikada musiqi mədəniyyətinin inkişafında müstəsna xidmətləri olmuşdur.

Bəhs olunan dövrdə aşıq sənətinin inkişafında da mühüm irəliləyişlər var idi. Müharibə zamanı cəbhəyə gedən bəzi naxçıvanlı aşıqlar döyüşlərdə həlak olmuş (Aşıq Fətulla, Aşıq Əsədulla və s.), bu səbəbdən də bölgədə aşıq sənəti müəyyən qədər zəifləmişdi. Həmçinin, XX yüzilliyin 30-cu illərindən aşıq sənətinə qarşı yönələn təzyiq və yasaqlar 1956-cı ilə qədər davam etməkdə idi. Klassik ənənələrə söykənən yaradıcı – ifaçı aşıqlar sənətin inkişafına töfhələr verir, bəzi tədqiqatçılar aşıq şeirinin toplanılması, tədqiqi, nəşri və təbliği sahəsində faydalı işlər görürdülər [107, s. 17].

1950-60-cı illərdə fəaliyyət göstərən aşıqlardan biri Şərur aşıq mühitinin ta-

nınmış nümayəndələrindən olan Aşıq Həmiddir. Yaxşı səsi ilə seçilən, təcrübəli ifaçı olan Aşıq Həmid 1960-cı illərdən etibarən Naxçıvan aşıqları arasında ifaçılıq və dastan söyləmək bacarığı ilə fərqlənirdi. Azərbaycan məhəbbət dastanlarından 30-a qədərini əzbər bilən aşıq saz havalarını da məharətlə ifa edirdi [107, s. 72].

XX yüzilliyin ortalarında Naxçıvanda aşıq sənətinin inkişafında Aşıq İslamın da müəyyən rolu olmuşdur. Şahbuz rayonunun Biçənək kəndində anadan olmuş Aşıq İslam el – el gəzib aşıqlıq etməsə də, yaxşı səsə malik olduğundan sazda çalıb oxumuşdur. O, şeir və dastan yaradıcılığı ilə də məşğul olmuş, "İslam və Ceyran", "Fərhad və Nazlı" dastanlarını yaratmışdır [107, s. 37; 108, s. 75].

Bu dövrdə və sonrakı illərdə Naxçıvanda aşıq sənətini davam etdirən sənətkarlardan biri də el arasında "Ağ aşıq" kimi tanınan sədərəkli aşıq Yusifdir. El aşığı sədərəkli Aşıq Əlinin şagirdi olan Aşıq Yusif aşıqlıq etməklə yanaşı qoşma, gəraylı, təcnis, müxəmməs və bayatılar da yaratmışdır [107, s. 70; 108, s. 70].

Təsviri sənət. Müharibədən sonrakı dövrdə Azərbaycan rəssamlarının yaradıcılığında adamların məişəti və əmək fəaliyyəti mövzuları, onların portretlərinin yaradılması əsas yer tuturdu [10, s. 171]. Bu dövrdə respublikanın görkəmli şəxsiyyətlərinin, milli mədəniyyət xadimlərinin bir sıra portret obrazları, lirik qadın portretləri yaradılırdı. Azərbaycan rəssamlarının sıraları yeni istedadlı gənclər hesabına artırdı. Bu illərdə Naxçıvanda rəssamlıqla məşğul olan gənclərin çoxu Bakıda və keçmiş ittifaqın bir sıra şəhərlərində rəssamlıq təhsili alaraq öz həyatlarını Bakı və digər şəhərlərlə bağlasalar da, Naxçıvanla əlaqələrini kəsməmiş, Naxçıvan rəssamlıq məktəbinin davamçıları kimi fəaliyyət göstərmişlər. Belə rəssamlardan biri sonralar Azərbaycanın xalq rəssamı fəxri adına layiq görülmüş Hüseyn Əliyevdir. Azərbaycanın görkəmli rəssamları sırasında özünəməxsus yer tutan, yaradıcılığa qrafik rəssam kimi başlayan Hüseyn Əliyev sonralar yüksək səviyyəli karikatura, siyasi təşviqat plakatları, mənzərə, portret ustası kimi şöhrət qazanmışdır. Görkəmli sənətkarın 50-60-cı illər yaradıcılığında "Rəssamın portreti", "Qadın portreti, "Avtoportret", "Göygöl", "Naxçıvan dağları", "Zəngəzur dağlarında", "Oğlum Nazimin portreti", "Gülbala Əliyevin portreti" və digər əsərləri dövrün rəssamlıq sənətində özünəməxsus yer tutur [3, s. 196; 64, s. 178].

Azərbaycanın XX yüzilliyin 50-60-cı illər rəssamlığının inkişafında böyük xidmətləri olan rəssamlardan biri də Elmira Şahtaxtinskayadır. Bakı Rəssamlıq Məktəbinin rəngkarlıq şöbəsini bitirən Elmira Şahtaxtinskaya 1950-ci ildə V.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunun qrafika şöbəsinə daxil olmuş, burada rəsmi, kompozisiyanı, rəngkarlığı, ofortu, litoqrafiyanı, ksiloqrafiyanı, illüstrasiyanı öyrənmişdir [110, s. 12]. Yaradıcılığında sülh və xalqlar dostluğu, əmək mövzusu, portret janrı əhəmiyyətli yer tutamuşdur. Rəssam Azərbaycanın təbiəti, mənzərələri, tarix-mədəniyyət abidələri ilə əlaqədar yüksək səviyyəli əsərlər yaratmışdır. Tədqiqatçılar Elmira Şahtaxtinskayanın sərt dağ landşaftının poeziyasına aludəliyini onun əslən Naxçıvandan – Şahtaxtıdan olması amili ilə əlaqələndirirlər [110, s. 39].

XX yüzilliyin ortalarında Naxçıvanda fəaliyyət göstərən rəssamlardan biri Məmməd Qasımovdur. Yaradıcılığına 1943-cü ildə S.Mövləvinin hazırladığı "Ölülər" tamaşasının bədii tərtibatı ilə başlayan Məmməd Qasımov 1947-1952-ci illərdə Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil aldıqdan sonra, 1952-ci ildə Naxçıvan teatrının baş rəssamı təyin olunur. Bu vəzifədə çalışarkən o, xeyli tamaşaya, o cümlədən XX yüzilliyin 50-60-cı illərində Naxçıvan Dövlət Musiqili Dram Teatrında 62, Gəncə Dövlət Dram Teatrında 1 tamaşaya quruluş vermişdir. Həmin səhnələrdəki zəngin, məzmunlu və möhtəşəm dekorasiyalar, əlbisələr, dövrəuyğun rəngarəng geyimlər və qrimlər ədəbi və teatr tənqidinin müsbət rəyinə, geniş tamaşaçı kütləsinin isə böyük marağına və rəğbətinə səbəb olmuşdur [44, s. 254-255]. Naxçıvan şəhərindəki Pionerlər evində təşkil etdiyi rəssamlıq studiyasına 1950-1960- cı illər ərzində rəhbərlik edən Məmməd Qasımov muxtar respublikada gənc rəssam kadrların yetişməsində xüsusi rol oynamışdır.

Naxçıvan rəssamlıq məktəbinin görkəmli nümayəndələrindən biri də Yuran Məmmədov olmuşdur. Bakı rəssamlıq məktəbinin və Leninqrad İ.Repin adına Rəssamlıq Akademiyasının məzunu olan Yuran Məmmədov portret, natürmort və tematik kompozisiyalı tablolar müəllifi kimi tanınmışdır. 60-cı illərin II yarısından həyatını Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə bağlayan Yuran Məmmədov quruluşçu rəssam kimi onlarla tamaşaya bədii tərtibat vermişdir. Naxçıvanda, Bakıda, Sankt- Peterburqda, Baltikyanı respublikalarda fərdi sərgiləri keçirilmişdir [46, s. 667; 65, s. 36].

Bəhs olunan dövrdə Naxçıvanda yaşayıb-yaradan rəssamlardan biri də Şamil Mustafayevdir. Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirən rəssam portret janrında çalışaraq bir sıra görkəmli şəxsiyyətlərin portretlərini yaratmışdır. Rəssam eyni zamanda Naxçıvan teatrı ilə sıx əlaqə saxlayır və tamaşaya qoyulan bir sıra əsərlərə bədii tərtibat verir [46, s. 662; 65, s. 56].

Əslən Naxçıvandan olan, ancaq yaradıcılığının böyük bir hissəsini Bakıda və Moskvada keçirən Əyyub Səfərovun da Naxçıvanda rəssamlıq sənətinin inkişafında böyük rolu olmuşdur. Onun "Sosialist Əməyi Qəhrəmanı Gülbala Əliyevin portreti", "Qoca arvadın portreti", "Neftçi fəhlə", "Polkovnik", "Rəssamın portreti", "Qız", "Avtoportret", "Piano çalan", "Mühəndis", "Suçu", "Sosialist Əməyi Qəhrəmanı Bahar Talıbovanın portreti", "Kitabxanaçı qız", "Gülən qız", "Qızın portreti" və onlarla belə əsərləri Azərbaycanın XX yüzilliyin 50-60-cı illər təsviri sənətinin ən gözəl nümunələrindəndir [3, s. 199-200].

Naxçıvan torpağının rəssam yetirmələrindən biri də Azərbaycan Respublikasının Əməkdar rəssamı Cəmil Müfidzadədir. Ə.Əzimzadə adına Bakı Rəssamlıq məktəbinin (indiki Azərbaycan Rəssamlıq Akademiyası) və Xarkov Dövlət Rəssamlıq İnstitutunun məzunu olan C.Müfidzadə əsasən qrafik rəssam kimi tanınmışdır. Tələbəlik illərindən başlayaraq Azərbaycanda və Ukraynada sərgilərdə iştirak



Əməkdar rəssam Cəmil Müfidzadə

edən C. Müfidzadə 1957-ci ildən respublika, 1961-ci ildən isə keçmiş ittifaq və beynəlxalq miqyaslı sərgilərdə iştirak etmişdir. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyü çərçivəsində təşkil olunan təsviri sənət sərgisində onun "Doğma düzənlər" ofortu böyük uğur qazanır [27, s. 12]. 1962-1966-cı illərdə ksiloqrafiya texnikasında işlədiyi "Bakı albomu", 1966-cı ildə müraciət etdiyi İçərişəhər mövzusu, 1965-1967-ci illərdə işlədiyi "Buhenvald" silsiləsi rəssama böyük şöhrət gətirmişdir [27, s. 12, 14, 24].

Memarlıq. Müharibədən sonrakı bərpa dövründə və 50-60-ci illərdə Naxçıvan Muxtar Respublikasında memarlıq da inkişaf etməyə başladı. Bu, ilk növbədə özünü şəhərsalmada, şəhərlərin yenidən qurulmasında biruzə verdi. Şəhərsalma sahəsində atılan uğurlu addımlar muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində özünü qabarıq şəkildə göstərdi. Naxçıvan şəhərinin əhəmiyyətli dərəcədə böyüməsi şəhərin Baş planının hazırlanmasını zəruri etmiş, ona görə də hələ 1946-cı ildə memar S.M.Vahidov tərəfindən şəhərin Baş planı hazırlanmışdı. Baş planın icra edilməsi sayəsində Naxçıvan abad şəhər xüsusiyyəti əldə etdi. Keçən əsrin 50-60-cı illərində Baş plana əsasən çoxlu ictimai, mədəni-məişət binaları inşa edildi, yaşayış məntəqələrinin salınması üzrə böyük işlər aparıldı. Muxtar respublikanın hökumət binası və Dram teatrın binası kimi monumental tikililərin yerləşdiyi ictimai mərkəz yarandı [63, s. 100]. Ancaq şəhərin getdikcə böyüməsi və inkişafı, onun gələcək inkişafı və yenidən qurulması üçün Baş planın yenidən işlənməsi zərurətini yaratdı. Ona görə də 1960-cı illərdə memarlardan U.İbrahimova, H.Həsənov, P.Məmmədov və başqaları tərəfindən Baş planın yeni redaksiyasının və şəhərin mərkəzi hissəsinin ətraflı planlaşdırılması layihəsi işlənib hazırlandı. Baş planın icrası prosesində dəmiryol vağzalı ilə əlaqələrin yaradılması üçün xüsusi küçə salındı. Plana əsasən Uzunoba su anbarı ətrafında istirahət zonasının təşkili nəzərdə tutulurdu. Su anbarı ətrafındakı meşə - park şəhər ilə əlaqəli yaradılmışdır [63, s. 165-166].

1950-ci illərin əvvəlindən etibarən Azərbaycanın digər şəhərlərində olduğu kimi Naxçıvan Muxtar Respublikasında, xüsusilə paytaxt Naxçıvan şəhərində bir sıra ictimai binalar inşa edilməyə başlayır. Bu zaman şəhərsalma və memarlıq formaları baxımından binaların abidəvi olmasına çalışan memarlar Azərbaycan klassik memarlığı ənənələrindən məharətlə istifadə edir, binaların abidəvi olması üçün səylə çalışırdılar. Ancaq 50-ci illərin ortalarında bu cür halların qarşısı alındı, binalarda milli-memarlıq motivlərinin istifadəsi qadağan olundu [63, s. 105].

Bu dövrdə qarşıda duran ən vacib məsələ əhalinin mənzilə olan tələbatını ödəmək üçün geniş mənzillər şəbəkəsi yaratmaq idi. Ona görə də 50-ci illərin əvvəllərindən başlayaraq mənzil tikintisi sürətlə aparılmağa başladı. Bu zaman Naxçıvan Muxtar Respublikasında əksər hallarda standart az mərtəbəli evlər inşa edilirdi. "Tikintini sənayeləşdirmək, keyfiyyətini yaxşılaşdırmaq və dəyərini azaltmaq sahəsində tədbirlər haqqında " Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 1955-ci il 23 avqust tarixli qərarından sonra Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında yaşayış evlərinin kütləvi tikintisində bir çox standart layihələr tətbiq olunmağa başlandı [10, s. 189-190].

XX əsrin 50-60-cı illərində Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Şəki və digər şəhərlərdə şəhərin memarlıq panoramasını dəyişən və əhalisinin yaşayış şərtlərini yaxşılaşdıran çox sayda yaşayış və ictimai binalar meydana gəldi [63, s. 101-102].

Bu dövrdə Naxçıvan şəhərində inşa edilmiş yaşayış binaları buradakı küçə və meydanların görünüşünü dəyişdi. Bir qrup mənzillər daha əvvəllər yaradılmış tikililərin fonduna daxil oldu. İkinci qrup yaşayış binaları bir növ şəhərin mərkəzi binalarının bərpasının "hakim və dominant"ı kimi çıxış edirdilər. Üçüncü qrup tikililər isə müharibədən əvvəl və sonra yaranmış şəhər rayonları ilə bağlı idi [63, s. 105].

1950-60-cı illərdə Naxçıvan Muxtar Respublikasında, xüsusilə Naxçıvan şəhərində bir sıra ictimai binalar inşa edilərək istifadəyə verilirdi. Bu dövrdə Naxçıvan şəhərində inşa edilən ən möhtəşəm memarlıq nümunələrindən biri Naxçıvan Dövlət Musiqili Dram teatrının binasıdır. Şəhərin əsas inzibati və ictimai meydanının formalaşmasına imkan verən bina 1948-1949-cu illərdə layihələndirilsə də, tikintisi daha sonralar, 1964-cü ildə başa çatdırılmışdır. Binanın memarlığında 50-ci illər Azərbaycan memarlığına xas olan meyllər öz əksini tapmışdır. Planda düzbucaqlı düşünülən bina planlaşdırma həllinə görə ənənəvidir [20, s. 91]. Bina Naxçıvan şəhərinin mərkəzində Ə.İsmayılov və H.Məcidovun layihəsi əsasında inşa edilmişdir. Klassik Yunan və Şərq memarlıq elementlərindən yararlanaraq müasir dəbdə inşa edilən binanın eni 32,5 metr, uzunu 64 metr olmaqla ümumi sahəsi 2080 m^2-dır. Fasadı dörd cüt tionik sütunlarla və hər iki tərəfdən düzbucaqlı künclüklə işlənən, yəni Azərbaycan memarlığında geniş yayılmış eyvan şəkilli dörd cüt mütənasib tağlarla bəzədilən əzəmətli portik qarşıda, qərb tərəfdə yerləşən meydana tərəf baxır. Öndən iki, arxadan isə üç mərtəbəli olan binanın mərkəzində üç mərtəbəli lojaları və amfiteatr ilə birlikdə 600 nəfərlik tamaşaçı salonu, iki yaruslu loja və səhnə yerləşdirilmişdir. Binada 20-dən artıq qrim otağı, dekorasiya, emalatxana və sexlər üçün geniş otaqlar, böyük foyelər vardır.



Naxçıvan Dövlət Dram Teatrı
1965-ci il

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYATLAR

1. *Abdullayev Ə.* Erməni təcavüzü: Acı faktlar, fəlakətli nəticələr. Bakı: AİU-nin nəşriyyatı, 2003,123 s.
2. *Axundov Ə.B.* Naxçıvan MSSR-in mineral suları və onların müalicəvi əhəmiyyəti. Bakı: Bilik, 1981, 36 s.
3. *Alıyev N.* Naxçıvan rəssamlarının portret yaradıcılığı (1950-1990) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2013, №1, s. 194-203.
4. *Aslanov S.R.* Azərbaycan sənaye respublikasıdır. Bakı: Maarif, 1971, 276 s.
5. Azərbaycan SSR-də xalq maarifinin sürətli inkişafı (1960-1985-ci illər). Bakı, Azərbaycan Dövlət Universiteti, 1986, 84 s.
6. Azərbaycan SSR xalq təsərrüfatı SSRİ-nin yaradılmasının 60 illik yubileyinə həsr olunmuş statistik məcmuə. Bakı, 1982, 352 s.
7. Azərbaycan Kommunist partiyası tarixinin oçerkləri. Bakı: Azərnəşr, 1964, 818 s.
8. "Azərbaycan" qəzeti.
9. Azərbaycan Sovet Ensiklopediyası. VII cild. Bakı: ASE Baş redaksiyası, 1983, 624 s.
10. Azərbaycan tarixi. Yeddi cilddə. Yeddinci cild. Bakı: Elm, 2008, 608 s.
11. Azərbaycan tarixində Naxçıvan (tarixi oçerklər). Bakı: ADPU, 1996, 140 s.
12. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər). Sənədlər toplusu. Bakı: "Zərdabi LTD" MMC. 2013, 784 s.
13. *Babayev S.Y.* Qədim diyarın təbiəti. Bakı: Azərnəşr, 1970, 210 s.
14. *Cəfərov F.A.* Erməni vəhşiliyi. Bakı: Nurlan, 2008, 186 s.
15. *Cəfərov H.* Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: Elm və təhsil, 2011, 344 s.
16. Deportasiya. Toplu. Bakı: "Azərbaycan Ensiklopediyası" NPB, 1998, 440 s.
17. Didərginlər. Bakı: Gənclik, 1990, 384 s.
18. Dördüncü çağırış Naxçıvan MSSR Ali Sovetinin iclasları (VI sessiya). Stenoqrafik hesabat. Bakı: Azərnəşr, 1958, 80 s.
19. *Əfəndi R.* Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007, 160 s.
20. *Əfəndizadə R.* Azərbaycan memarlığı. XIX əsrin sonu XXI əsrin əvvəli. Bakı: Şərq-Qərb, 2011, 492 s.
21. *Əhmədov E.* Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, 137 s.
22. *Əhmədov N.* Ordubadda ipəkçiliyin inkişafı tarixindən. NDU-nin Elmi əsərləri, 1999, №5, s. 86-89.
23. *Əhmədov N.* Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı: Elm, 2005, 312 s.
24. *Əliyev Ə.* Əlincə yaddaşı.İkinci nəşr. Bakı: Elm və həyat, 2004, 316 s.
25. *Əliyev Heydər.* Sovet Azərbaycanı 50 ildə. Bakı: "Kommunist" nəşriyyatının mətbəəsi, 1970, 25 s.

25. *Əliyev Heydər.* Müstəqilliyimiz əbədidir. On dördüncü kitab. Bakı: Elm, 2005, 520 s.
27. *Əliyev Z. Cəmil Müfidzadə.* Cizgilərə hopan ömür. Bakı: Oskar, 2011, 276 s.
28. *Əliyeva J.* Naxçıvan teatrının təşəkkülü və inkişafı tarixindən // NDU-nin Elmi əsərləri, 1999, №5, s. 150-152.
29. *Əliyeva J.* Yerli bəstəkarımız Məmməd Ələkbərovun yaradıcılıq yolu və musiqi üslubu // NDU-nin Elmi əsərləri, 2000, №7, s. 110-112.
30. *Hacıyev İ.* 1948-1953-cü illərin deportasiyası və Naxçıvan. NDU-nin əsərləri (xüsusi buraxılış). Naxçıvan, 2001, №8, s. 18-21.
31. *Hacıyev İ.* Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətlər. Naxçıvan: Əcəmi NPB, 2012, 192 s.
32. *Hacıyev İ., İsmayılov B.* Naxçıvan Muxtar Respublikası - 90. Naxçıvan: Əcəmi NPB, 2014, 184 s.
33. *Həbibov. İ.* Ədəbi yüksəliş. Bakı: Bilik, 1985, 63 s.
34. *Həbibbəyli İ.* Keçid yeri / Didərginlər. Bakı: Gənclik, 1990, s. 301-315.
35. *Həbibbəyli İ.* Soyqırım və deportasiyanın öyrənilməsində yeni mərhələ // NDU-nun əsərləri (xüsusi buraxılış). Naxçıvan: 2001, №8, s. 16-17.
36. *Həsənoğlu H.* Dünyanın mənfur milləti: erməni. Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, 256 s.
37. *Həsənoğlu H.* Ermənilərin qanlı cinayəti. Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, 300 s.
38. *Hüseyn Razi.* Ömür yolları. Bakı: Azərnəşr, 1964, 76 s.
39. *Hüseynov A.* Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı / Azərbaycan tarixində Naxçıvan (tarixi oçerk). Bakı: ADPU mətbəəsi, 1996, s. 114-123.
40. *Hüseynov A.* Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının vəziyyəti və onun maddi-texniki bazası // NDU-nun əsərləri. Naxçıvan: 1999, №5, s. 110-112.
41. *Hüseynov X.* Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı (1950-2004-cü illər). Bakı: ADPU mətbəəsi, 2012, 158 s.
42. XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik. Bakı: Təhsil, 2009, 560 s.
43. *Köçərli T.* Naxçıvan: uydurmalar və tarixi həqiqətlər. Bakı: Təknur, 2005, 170 s.
44. *Qasımov M.* Mənim sənət yolum. Naxçıvan teatrı. Tərtib edənləri: F.Xəlilov, F.Cəfərov. Naxçıvan: Əcəmi NPB, 2014, s. 252-255
45. *Qəhrəmanov R.* Naxçıvan MSSR-in kənd təsərrüfatı və onun inkişaf etdirilməsi yolları. Bakı: Azərbaycan SSR EA nəşriyyatı. 1957, 215 s.
46. *Qəhrəmanov Ə., İbrahimov S., Cəfərov F.* Naxçıvan teatrının salnaməsi. Naxçıvan: Əcəmi NPB, 2010, 736 s.
47. *Qəhrəmanov Ə.* Naxçıvan bəstəkarlıq məktəbində Məmməd Ələkbərovun yeri // AMEA NB xəbərləri. 2013, №3, s. 212-3217.

48. *Quliyev N.* Naxçıvan musiqi mədəniyyəti tarixindən (XX əsr). Bakı: Elm, 1999, 140 s.
49. *Quliyeva Y.* Naxçıvanda musiqi kollektivlərinin yaradılması tarixindən. AMEA Naxçıvan Bölməsinin Xəbərləri. 2009, №3, s. 262-267.
50. *Quliyeva Y.* Azərbaycan bəstəkarlıq məktəbinin naxçıvanlı nümayəndələri. AMEA NB Xəbərləri, 2010, №1, s. 277-281
51. *Məmməd Araz.* Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1986, 480 s.
52. *Məmməd Arif.* Qəhrəmanın sorağında. "Ədəbiyyat və incəsənət" qəzeti, 16 oktyabr 1965-ci il.
53. *Məmmədov X.* Naxçıvan MSSR 40 ildə. Bakı: Azərnəşr, 1960, 54 s.
54. *Məmmədov V.* Erməni xəyanəti. Naxçıvan: Qeyrət, 2000, 41 s.
55. *Məmmədov V.* Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu. Bakı, Çənlibel, 2001, 220 s.
56. *Mərdanov M.* Azərbaycan təhsil tarixi. 3 cilddə, II cild, Bakı: Təhsil, 704 s.
57. 1968-ci ildə Azərbaycan SSR xalq təsərrüfatı. Statistik külliyyat. Bakı: BNM, 1970, 500 s.
58. 1970-ci ildə Naxçıvan MSSR xalq təsərrüfatı. Statistik məcmuə. Bakı: BNM, 1972, 137 s.
59. *Mustafayev.A.* Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan. Bakı: ADPU-nin nəşriyyatı, 2013, 194 s.
60. Müasirləri Abbas Zamanov haqqında.Tərtibçi və ön sözün müəllifi İ.Həbibbəyli. Bakı: Çinar, 2003, 333 s.
61. *Nadirov A.* Naxçıvan MSSR (iqtisadi coğrafi oçerk). Bakı: Azərnəşr, 1959, 124 s.
62. *Nadirov A., Nuriyev Ə., Muradov Ş.* Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, 104 s.
63. *Nağıyev N. Hüseynov F.* Azərbaycan Respublikasının müasir dövr memarlıq tarixi. V cild. Bakı: Şərq- Qərb, 2013, 352 s.
64. Naxçıvan ensiklopediyası. İki cilddə. Cild 1. İstanbul: Bakanlar Mediya, 2005, 356 s
65. Naxçıvan ensiklopediyası. İki cilddə. Cild 2. İstanbul: Bakanlar Mediya, 2005, 381 s.
66. Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, 220 s.
67. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMR DA). Tarix üzrə fəlsəfə doktoru, dosent Əli Əliyevin fondu, № 582.
68. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMR DA), f. 224. siy. 5, inv. № 99
69. NMR DA, f. 1, siy. 1, iş. 58, v. 169
70. NMR DA, f. 1, siy. 1, iş 83, v. 66
71. NMR DA, f. 1, siy.1, iş 125, v. 34-35

72. NMR DA, f. 1, siy.1, iş 196, v. 39, 40-59
73. NMR DA, f. 1, siy.1, iş 236, v. 52
74. NMR DA, f. 1, siy.1, iş 237, v. 3, 9-21
75. NMR DA, f. 1, siy.1, iş 292, v. 127
76. NMR DA, f. 1, siy.1, iş 416, v. 108, 113, 144
77. NMR DA, f. 1, siy.1, iş 516, v. 9-47, 81-86
78. NMR DA, f. 1, siy.1, iş 569, v. 8, 21, 31, 135
79. NMR DA, f. 1, siy.1, iş 578, v. 6, 7, 8
80. NMR DA, f. 1, siy.1, iş 678, v. 5-9, 72
81. NMR DA, f. 2, siy.2, iş 17, v. 3-10
82. NMR DA, f. 34, siy.3, iş 812, v. 11-13
83. NMR DA, f. 221, siy.5, iş 9, v. 4-5
84. NMR DA, f. 221, siy.5, iş 10, v. 12-36
85. NMR DA, f. 221, siy.5, iş 63, v. 6-19
86. NMR DA, f. 221, siy.5, iş 64, v. 6
87. NMR DA, f. 221, siy.5, iş 69, v. 6-9
88. NMR DA, f. 221, siy.1, iş 677, v. 3
89. NMR DA, f. 613, siy.8, iş 2, v. 72
90. NMR DA, f. 613, siy.8, iş 4, v. 9
91. NMR DA, f. 613, siy.11, iş 8, v. 1
92. NMR DA, f. 613, siy.4, iş 237, v. 37
93. NMR DA, f. 613, siy.1, iş 376, v. 63
94. NMR DA, f. 681, siy.13, iş 7, v. 5-8
95. NMR DA, f. 681, siy.6, iş 10, v. 3, 12, 24
96. NMR DA, f. 681, siy.13, iş 12, v. 1-3, 8-10
97. NMR DA, f. 688, siy.7, iş 3, v. 76-78
98. NMR DA, f. 688, siy.7, iş 4, v. 2-3
99. NMR DA, f. 688, siy.7, iş 6, v. 6-8
100. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası. Bakı: Elm, 1975, 359 s.
101. Naxçıvan MSSR xalq təsərrüfatı. Statistik məcmuə. Bakı: BNM,1964, 142 s.
102. Naxçıvan MSSR III çağırış Ali Sovetinin birinci sessiyası. Stenoqrafik hesabat. Naxçıvan: Naxçıvan MSSR Ali Sovetinin nəşriyyatı, 1951, 105 s.
103. *Paşayev A.* Köçürülmə. Bakı: Azərnəşr, 1995, 80 s.
104. *Paşayev A.* Açılmamış səhifələrin izi ilə. Bakı: Azərnəşr, 2001, 536 s.
105. *Rəsul Rza.* Mənim fikrimcə (məqalələr). Bakı: Azərnəşr 1967, 420 s.
106. *Səfərli İslam.* Pıçıldaşın, ləpələr. Bakı: Renesan Nəşr evi, 2013.
107. *Səfərov Y.* Naxçıvan aşıq ədəbi mühiti. Naxçıvan: Əcəmi NPB, 2009, 134 s.
108. *Səfərov Y.* Naxçıvan aşıqları və el şairləri. Naxçıvan: Əcəmi NPB, 2011, 152 s.
109. *Süleymanov M.* Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı: Hərbi nəşriyyat, 2008, 398 s.

110. *Şahtaxtinskaya E.* Layihənin rəhbəri Çingiz Fərzəliyev. Bakı: Şərq-Qərb, 2013, 104 s.
111. *Şahverdiyev Z.* 1948-1953-cü illər deportasiyasının əsas məqsədi və acı nəticələri // NDU Elmi Əsərləri (xüsusi buraxılış). Naxçıvan: 2001, №8 s. 38-41.
112. "Şərq qapısı" qəzeti.
113. *Şıxəliyev E.* Erməni iddialarının siyasi mahiyyəti. Bakı: Nurlan, 2006, 187 s.
114. *Şirəliyev A., Ağamalıyev F.* Naxçıvan MSSR 60 illiyi və onun sosial-iqtisadi inkişaf problemləri. Bakı: Bilik, 1984, 30 s.
115. *Talıbov V.* Deportasiya tarixi və Naxçıvan // NDU-nun "Elmi əsərləri" (xüsusi buraxılış). Naxçıvan: 2001, №8, s. 8-15.
116. *Təhməzov Z., Hüseynov A.* Geniş tərəqqi yollarında. Bakı: Bilik, 1984, 45 s.
117. *Алиев А.* Кристьянское движение в Азербайджане в 1905-1907 гг. Naxçıvan: Qeyrət, 2004, 164 s.

III FƏSİL

NAXÇIVAN 1970-80-Cİ İLLƏRDƏ

1. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi. Dönüş və inkişaf mərhələsi

XX əsrin 60-cı illərində Azərbaycanın yuxarı rəsmi dairələrində hakimiyyət uğrunda gizli mübarizə gedirdi. Bu, öz növbəsində sosial-iqtisadi sahədə əmək intizamını və tələbkarlığı zəiflətmiş, hakimiyyətdə qohumbazlığa və rüşvətxorluğa gətirib çıxarmış, cəmiyyətdə cəzasızlıq və özbaşınalıq şəraiti yaratmışdı. Fırıldaqçılıq, möhtəkirlik və korrupsiya halları cəmiyyətin ən aşağı təbəqələrinə də ciddi sirayət etmişdi [1, s.9-10]. Respublika iqtisadiyyatı bütövlükdə dərin böhran və durğunluq mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün yeni prinsipial konsepsiya işlənib hazırlanmalı, iqtisadiyyatda köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi [66, s. 17]. Bundan əlavə, 1960-cı illərdə ermənilər torpaqlarımıza qarşı ərazi iddialarını davam etdirmiş və mərkəzi hakimiyyətin fəal dəstəyi ilə bir sıra hallarda Azərbaycan ərazilərini qəsb etməyə nail olmuş, hətta yeni ərazilərin qəsbi barədə rəsmi mərkəzi hakimiyyətin dəstəyi ilə Azərbaycan rəhbərliyi səviyyəsində qərar qəbul etdirməyə də nail olmuşdular [6, v. 9; 68, s. 326; 287].

Beləliklə, bir tərəfdən respublikada illərlə yığılıb qalmış ciddi problemlər özünün təcili həllini gözləyirdi, digər tərəfdən bu problemlərin həlli üçün ilk növbədə siyasi idarəçilikdə, cəmiyyətdə qayda-qanun, nizam-intizam yaradılmalı və sosial-iqtisadi geriləmənin qarşısı dərhal alınmalı idi. Qarşıda respublika iqtisadiyyatını əsaslı şəkildə dəyişmək, onu sosialist dövlətinin sənayesinin təmin olunmasına xidmət göstərən xammal bazasından qabaqcıl, müasir texnika və texnologiya ilə təchiz olunmuş sənaye respublikasına çevirmək, monokultura xarakterli kənd təsərrüfatını qaldırmaq, paytaxt Bakı şəhərini abadlaşdırmaq və inkişaf etdirmək, Azərbaycan kəndini dirçəltmək, Azərbaycan əhalisinin sosial, mədəni və təhsil səviyyəsini qaldırmaq kimi həlli vacib vəzifələr dururdu.



General-mayor Heydər Əliyev
30 oktyabr 1967-ci il

1969-cu il iyulun 14-də Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi. Heydər Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində dünyaya göz açmış, uşaqlıq illərini Naxçıvanda keçirərək orta təhsilini

də burada almışdı. Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra, 1939-1941-ci illərdə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almış, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsin bitirmişdi. 1941-ci ildən Naxçıvan MSSR Xalq Daxili işlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri işləmişdi. 1944-cü ilin mayında Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmiş, Naxçıvan MSSR DTK-nın 5-ci bölməsinin rəisi vəzifəsinədək yüksəlmiş, 1949-cu ildə SSRİ DTK-nın Leninqraddakı (indiki Sankt-Peterburq) məktəbində xüsusi təhsil almışdı. 1950-ci il avqustun 25-də Azərbaycan DTK-nın 2-ci şöbəsinin 6-cı bölməsinin rəisi vəzifəsinə təyinat alan Heydər Əliyev 1964-cü il martın 2-də Azərbaycan SSR Nazirlər Soveti yanında DTK-nın sədr müavini vəzifəsinə irəli çəkilmişdi [59, s. 22-47; 97, s. 170; 290]. O, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 22 iyun 1967-ci il tarixli fərmanı ilə Azərbaycan SSR Nazirlər Soveti yanında DTK-nın sədri vəzifəsinə təyin olunmuş, həmin il oktyabrın 30-da general-mayor rütbəsi almışdı [59, s. 47; 267, s. 251-252].



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev 5 avqust 1969-cu il

Heydər Əliyevin respublikaya rəhbərliyə gəlişindən dərhal sonra keçirilən Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il tarixli plenumu Azərbaycanın sonrakı inkişaf tarixində dönüş nöqtəsi oldu. Plenumda Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev respublikada mövcud olan və cəmiyyəti narahat edən bütün irili-xırdalı problemləri təhlil edərək həmin problemlərin yaranmasına və ya həllinə cavabdeh olan vəzifəli şəxslərin adlarını açıq qeyd etdi və bu vəziyyətin yaranmasında günahı olanların məsuliyyət daşıyacağını qətiyyətlə bildirdi. Plenum 50-60-cı illərdə respublika iqtisadiyyatının, xüsusilə kənd təsərrüfatının ağır vəziyyətə düşməsinə səbəb olan rəhbərlikdə, partiya və sovet orqanlarının təşkilati, kadr, kütləvi-siyasi və ideoloji işindəki bütün ciddi çatışmazlıqları, səhvləri və yanlışlıqları üzə çıxardı, iqtisadiyyatdakı durğunluğun, mənfi halların geniş yayılmasının, vəzifəli şəxslərin öz qulluq vəzifələrindən şəxsi mənfəətlər naminə sui-istifadə etmələrinin, dövlət və plan intizamının kobud surətdə pozulmasının son nəticədə Azərbaycanın inkişafının qarşısını aldığını və onun siyasi rəhbərliyinin nüfuzdan düşməsinə səbəb olduğunu müəyyənləşdirdi [1, s. 21, 28-29; 4, iş 4; 5, v. 11; 30, v. 32, 39; 65, s. 167]. 1971-ci il martın 10-12-də Bakıda keçirilən Azərbaycan KP-nin XXVIII qurultayında respublikada iqtisadi və mədəni quruculuğun daha da inkişaf etdirilməsi sahəsində görülən işlər, inkişaf perspektivləri, respublikada təşkilatçılıq və ideya-

tərbiyə işinin gücləndirilməsi tədbirləri təhlil olundu. Qurultay Azərbaycan KP MK-nın avqust (1969) plenumunun xalq təsərrüfatına rəhbərliyi əsaslı şəkildə yaxşılaşdırmaq, dövlət intizamını möhkəmləndirmək, kadrlara qarşı tələbkarlığı gücləndirmək və onların icra məsuliyyətini artırmaq barəsində qərarlarını bəyəndi [33, s.156].

Heydər Əliyev qısa müddətdə respublikada idarəçilik sistemini xeyli möhkəmlətdi. Rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başladı. İlk növbədə yaranmış böhranlı vəziyyətin əsas səbəbkarı olan vəzifəli şəxslərin bir çoxunu tıtduqları vəzifədən azad etdi. Azərbaycan KP MK-nın "Respublikada cinayətkarlığa qarşı mübarizəni gücləndirmək tədbirləri haqqında" 7 mart 1971-ci il tarixli qərarında cinayət hallarının aşkarlanması, cinayətkarlığa qarşı vahid cəbhə təşkil edilməsi bir vəzifə kimi qarşıya qoyuldu. Aparılan ardıcıl mübarizə nəticəsində qısa müddətdə Azərbaycanda normal mənəvi-siyasi şərait yarandı [72, s.135]. Ermənilərin Azərbaycana qarşı məkrli və təcavüzkar əməllərinin qarşısı Heydər Əliyev tərəfindən qətiyyətlə alındı [7, pr. №107, § 3, v. 3; 68, s. 326-328]. Azərbaycanda uğurlu idarəçilik metodlarının tətbiqi, sosial-iqtisadi tənəzzülün qarşısının qısa zamanda alınması və sürətli inkişaf yoluna qədəm qoyulması Heydər Əliyevin ittifaq miqyasında nüfuzunu xeyli artırdı. O, 1976-cı ildə Sov.İKP-nin XXII qurultayında Sov.İKP MK üzvü və Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd seçildi [53, s. 18; 269, s. 132].

Heydər Əliyevin hakimiyyətə gəlişi ilə respublika sənayesi sürətli yüksəliş dövrünə qədəm qoydu. 1971-1975-ci illərdə sənaye istehsalının həcmi 50 faiz, əmək məhsuldarlığı 34 faiz artdı. Sənayedə məhsul istehsalı artımının 76 faizi əmək məhsuldarlığının yüksəldilməsi hesabına əldə edildi. Məhsulun keyfiyyət göstəriciləri xeyli yaxşılaşdı [257, s. 19-20; 268, s. 101-102], 64 iri sənaye müəssisəsi tikilib istifadəyə verildi [94, s. 25]. 1970-ci ildə keyfiyyət nişanlı məhsul növlərinin sayı cəmi 9 idisə [257, s. 109], 1975-ci ildə respublikada 219 məhsul dövlət keyfiyyət nişanı ilə buraxılırdı [16, v. 29]. 1975-ci ildə Azərbaycan SSR-də əsas fondların dəyəri 17,6 milyard manat, o cümlədən əsas istehsal fondlarının dəyəri 12,4 mlrd. manat təşkil edirdi. Müstəqil balansda 824 sənaye müəssisəsi, sənayedə 22 istehsal və elmi-istehsal birliyi, 342 min nəfər sənaye istehsal işçisi var idi. 873 kolxoz, 496 sovxoz, 104 təsərrüfatlararası müəssisə, təşkilat və birlik, o cümlədən 54 təsərrüfatlararası kənd təsərrüfatı müəssisəsi var idi [257, s. 35-36]. 1971-1974-cü illərdə Azərbaycan 6 dəfə Ümumittifaq sosializm yarışının qalibi kimi keçici "Qırmızı bayraq"la mükafatlandırılmışdı [127, v. 7].

Azərbaycanda neft sənayesi sürətlə inkişaf etməyə başladı. 70-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə respublikaya dərinlikdə işləyə biləcək 12 yeni qazma qurğusu gətirilmiş, yeni qurğuların ("Dədə Qorqud", "İstiqlal", "Qurtuluş", "Lider") yaradılmasına 700 mln. ABŞ dollarından çox sərmayə qoyulmuşdu [56,

s. 199, 320; 67, s. 120; 261, s.30]. 1970-1990-ci illərdə respublikanın neft-qaz hasilatı sənayesinin inkişafı üçün 3 milyard manat vəsait qoyuluşu həyata keçirilmiş, 42 perspektivli sahə və yataq kəşf edilmiş, dənizin 84 metr dərinliyində 6 min metr və daha çox dərinlikdə quyular qazılmışdı. Həmin vəsaitin 2 mlrd. manatı 1976-1980-ci illərin payına düşürdü [23, v. 32; 46, s. 79; 94, s. 30-31]. 70-80-ci illərdə neft emalı zavodlarında 90 adda müxtəlif neft məhsulları istehsal olunurdu [56, s. 202-203; 67, s. 175-176]. 1985-ci ildə istifadəyə verilən, dünyada yalnız Azərbaycanda inşa olunmuş Bakı Dərin Dəniz Özülləri zavodunun tikintisinə 450 mln. ABŞ dolları sərf olunmuşdu. Artıq 1990-cı illərin əvvəllərində Azərbaycan SSRİ-də istehsal olunan neftçıxarma texnikasının üçdə iki hissəsini verir, neft maşınqayırma sahəsində ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu [3, s. 118; 67, s. 176].

Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə sənaye istehsalının həcmi 2,6 dəfə artmış, 1981-ci ildə sənaye məhsulunun ümumi istehsalı 11 milyard manat təşkil etmişdi. Əvvəlki 50 il ərzində (1920-1970-ci illərdə) isə bu rəqəm cəmi 4 mlrd. manat olmuşdu [46, s. 64]. 70-ci illərdə istehsal olunan məcmu ictimai məhsulun 65,5 faizi sənayenin payına düşürdü [94, s. 53]. 1971-80-ci illərdə respublikanın qida sənayesinə 455 mln. manat kapital qoyuluşu həyata keçirilmiş, əsas istehsal fondları 2,3 dəfə artmışdı [29, v. 16]. 1970-1980-ci illərdə respublikada sənaye məhsulu istehsalı 3 dəfəyə qədər artmış, Azərbaycan sənaye məhsulu istehsalı artımına görə SSRİ-də birinci yerə çıxmışdı. Bütün səviyyələrdə təsərrüfatçılığın yaxşılaşdırılması, maddi ehtiyatlardan və əmək ehtiyatlarından qənaətlə istifadə edilməsi hesabına bütövlükdə sənaye üzrə mənfəət 2,2 dəfədən çox artmışdı [46, s. 64-65].

1969-1982-ci illərdə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə artmış, əvvəlki 50 ildə olduğu qədər və ya son 30 ildəkindən təxminən iki dəfə çox – 101,5 mlrd. manatlıq məhsul istehsal edilmişdi. Xalq istehlakı malları istehsalı 3 dəfə çoxalmış, əmək məhsuldarlığı və sənayedə məhsul istehsalı 2 dəfə artmışdı ki, bu da 430 min insanın canlı əməyinə qənaət etmək demək idi [30, v. 25].

1976-cı ildə respublikada fəaliyyətdə olan müəssisələrin 10 faizindən də azı (cəmi 64 müəssisə) 242 adda sənaye məhsulunu keyfiyyət nişanı ilə buraxırdısa, 1980-ci il oktyabrın 1-də 1307 məhsul keyfiyyət nişanına layiq görülmüş, Azərbaycan keyfiyyət nişanlı məhsulun xüsusi çəkisinə görə orta ittifaq səviyyəsini ötüb keçmişdi [18, v. 215; 23, v. 16; 142, v. 73; 257, s. 112].

1970-80-ci illərdə respublikanın yanacaq-energetika kompleksinin inkişafına əvvəlki on ildəkindən 1,8 dəfə çox – 300 mln. manat kapital yönəldilmişdi [23, v. 34]. 1971-ci ildə Naxçıvanda Araz Su Elektrik Stansiyası (SES), 70-ci illərin ortalarında Tərtər SES, 1981-1984-cü illərdə 380 min kilovat gücündə Şəmkir SES və 1 milyon 200 min kilovat gücündə Azərbaycan Dövlət Rayon Elektrik

Stansiyası işə salınmış, 500 kilovoltluq elektrik xətləri çəkilmişdi. 1981-ci il oktyabrında Mingəçevirdə Azərbaycan iqtisadiyyatının ən böyük müəssisələrindən biri və Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İES istifadəyə verilmişdi [288]. Bu dövrdə hər il orta hesabla 2800 km elektrik xətləri çəkilmiş, elektrik enerjisi istehsalı 2 dəfəyədək artmış, 1990-cı ildə 23,2 mlrd. kilovata çatmış, Azərbaycanın enerji müstəqilliyi təmin edilmişdi. 1980-ci illərin əvvəllərində Azərbaycanın yalnız iki elektrik stansiyası –Mingəçevir və Şirvan elektrik stansiyalarının gücü SSRİ-də tikilməsi nəzərdə tutulan 30 stansiyanın gücünə bərabər idi. Respublikanın energetika kompleksinə 15,2 milyard kilovat elektrik enerjisi istehsal edən 18 iri elektrik stansiyası daxil idi [46, s. 48, 82; 67, s. 177]. 1969-cu ilədək Azərbaycanda cəmi 28 elektrik stansiyası var idisə, 1969-1982-ci illərdə daha 11 elektrik stansiyası tikilib istifadəyə verildi. Rabitə müəssisələrinin sayı 1,2 dəfə, şəhər telefon stansiyalarının sayı 2,4 dəfə artdı. Azərbaycanın su təchizatı 1969-cu ildəki 346 mlrd. kubmetrdən 1982-ci ildə 689 mlrd. kubmetrə çatdırıldı. 2304 km uzunluğunda su xətləri çəkildi [68, s. 24].

Əgər XIX əsrdən 1969-cu ilədək Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 14 ilə yaxın müddətdə onların sayı 1048-ə çatmışdı [56, s. 89]. Sənayedə elmi-texniki tərəqqinin nailiyyətləri geniş tətbiq olunmuş, 1971-1985-ci illərdə 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdı [64, s. 148].

Əmək ehtiyatlarını istehsalata daha geniş cəlb etmək üçün xırda və orta sənaye müəssisələrinin çoxu paytaxtdan kənarda tikilmişdi. 1970-ci ildə sənaye məhsulunun 32, 1985-ci ildə isə 42 faizi Bakı-Sumqayıt sənaye rayonunun hüdudlarından kənarda istehsal edilmişdi. Sovet hakimiyyəti illərində tikilən 465 iri sənaye müəssisəsinin paytaxt Bakıdan kənar ərazilər üzrə paylanması 70-80-ci illərdə 70 faizə qalxmış, Gəncə, Naxçıvan, Xankəndi, Şəki, Lənkəran, Quba, Sumqayıt, Mingəçevir, Daşkəsən, Şirvan şəhərləri mühüm sənaye ocaqlarına çevrilmişdi [46, s. 48; 56, s. 433, 556; 67, s. 177-178].

Heydər Əliyev Azərbaycan KP MK-nın 1976-cı il iyunun 23-də keçirilən plenumundakı məruzəsində tikinti sahəsini inkişafın prioritet istiqaməti elan etmişdi [129, v. 5]. Nəticədə 70-ci illərdə respublikanın paytaxtı Bakıda, iri şəhərlərdə və ayrı-ayrı rayon mərkəzlərində onlarla zavod və fabriklər, kombinatlar, sosial-mədəni və məişət təyinatlı obyektlər tikilib istifadəyə verilmişdi [56, s. 319-320, 356; 60, s. 158, 411-412; 67, s. 177]. 1970-1980-ci illərdə tikintidə əmək məhsuldarlığı 46 faiz artmışdı ki, bu da artıq ittifaq üzrə göstəricini (41 faiz) üstələyirdi [257, s. 180].

Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə, 1969-1982-ci illərdə 18,5 mln. kvadratmetr mənzil sahəsi (376,1 min yeni mənzil) istifadəyə verilmiş, Bakı şəhərinin mövcud yaşayış fondu miqyasına bərabər yeni "şəhər" salınmışdı.

Həmin mənzillərin hesabına 2,2 mln.-dan çox adam, yəni respublikanın hər üç sakinindən biri yeni evdə məskunlaşmış və ya öz mənzil şəraitini yaxşılaşdırmışdı [30, v. 26; 65, s. 169].

Heydər Əliyevin SSRİ rəhbərliyində özünə qarşı yaratdığı dərin inam və rəğbət hissinin nəticəsi idi ki, 1970-ci il iyulun 23-ü və 25-də Sov.İKP MK və SSRİ Nazirlər Soveti "Azərbaycan SSR-in kənd təsərrüfatının inkişaf tədbirləri haqqında" və "Azərbaycan SSR-in xalq təsərrüfatının inkişafı haqqında", 1975-ci il iyulun 9-da "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" və 1979-cu il fevralın 22-də "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü, şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" dörd mühüm qərar qəbul etmişdi. Bu qərarların yerinə yetirilməsi Azərbaycanda kənd təsərrüfatının xüsusi çəkisinin yüksəlməsində mühüm rol oynadı [1, s. 61-62; 23, v. 19; 268, s. 196, 216; 288].

1969-1982-ci illərdə meliorasiya və su təsərrüfatı kompleksinə qoyulan vəsaitin məbləği (2 mlrd. manat) əvvəlki 50 il ərzində bu sahəyə qoyulan vəsaitdən 2,5 dəfə artıq olmuşdu [30, v. 25; 60, s. 414-415; 87, s. 165]. Bu sahədə görülən tədbirlər aqrar sahənin sürətli inkişafı üçün mühüm zəmin təşkil etmişdi. Kənd təsərrüfatının orta illik ümumi məhsulu 1971-1975-ci illərdə 1,4 mlrd. manata çatdırılmışdı ki, bu da əvvəlki beş ildəkindən 34 faiz çox idi [275, s. 18-20]. Kənd təsərrüfatını inkişaf etdirmək üçün 1 mlrd. 390 mln. manat vəsait ayrılmışdı [13, v. 39]. Kənd təsərrüfatının bütün sahələrinin inkişafına xüsusi diqqət yetirilmiş, Azərbaycan ən iri üzüm istehsalçısına çevrilmişdi [46, s. 66-68, 87, 108-109]. 1976-1980-ci illərdə əvvəlki beşilliyə nisbətən 3,2 mlrd. manatlıq əlavə kənd təsərrüfatı məhsulları istehsal edilmişdi [27, v. 83]. 1969-1982-ci illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,7 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmişdi. 1983-cü ildə Azərbaycanda kənd təsərrüfatı məhsulunun ümumi dəyəri 1920-ci ildəkinə nisbətən 2,2 dəfə, o cümlədən bitkiçiliyin dəyəri 2,6 dəfə, heyvandarlıq məhsullarının dəyəri 1,7 dəfə yüksəlmişdi [46, s. 66-68; 60, s. 158, 414].

1970-1982-ci illərdə iqtisadiyyatın inkişafına 23,9 mlrd. manat vəsait qoyulmuşdu ki, bu da 1920-1982-ci illərdə sərf edilən vəsaitin 58,4 faizini təşkil edirdi və əvvəlki 50 ildəkindən 1,4 dəfə çox idi. Əsas fondlar əvvəlki 25 ildəki daxilolmaları 1,6 dəfə üstələyərək 18,6 mlrd. manata yüksəlmişdi. Fond verimliliyi 1,3 dəfə artmışdı. Həmin illərdə 633 min yeni iş yeri yaradılmış, fəhlə, qulluqçu və kolxozçuların sayı 1985-ci ildə 813 min nəfər (1,5 dəfə) artaraq 2 mln. 360 min nəfərə çatmışdı [56, s. 89; 65, s. 169; 94, s. 51-52].

Əhalinin demoqrafik artımında və sosial strukturunda da ciddi keyfiyyət dəyişiklikləri baş vermiş, əhalinin sayı 1970-ci ildəki 5 mln. 117 min nəfərdən 1980-ci ildə 6 milyon 202 min nəfərə, 1987-ci ildə isə 6 milyon 811 min nəfərə

çatmış, şəhər əhalisi 1970-ci ildəki 50 faizdən 1987-ci ildə 54 faizə yüksəlmişdi [276, s. 3, 11].

1969-1982-ci illərdə Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə çatmış, 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, 6 yeni ali məktəb yaradılmışdı [60, s. 320; 67, s. 193]. 1970-1980-ci illərdə ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində Azərbaycandan kənarda, SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəbində 15 mindən artıq azərbaycanlı gənc təhsil almış, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmışdı [48, s. 20; 52, s. 65]. Bu dövrdə Heydər Əliyevin göstərdiyi mühüm xidmətlərdən biri də milli hərbi kadrların yetişdirilməsi olmuşdu. Azərbaycan KP MK 1969-cu il oktyabrın 21-də gənclərin hərbi-vətənpərvərlik hisslərinin yüksəldilməsi, hərbi sahəyə marağının artırılması məsələsini geniş müzakirəyə çıxararaq "Gənc hərbi-vətənpərvərlər məktəbinin yaradılması haqqında" qərar qəbul etmişdi [104, v. 77]. Ümummilli lider Azərbaycanda ali hərbi məktəblər üçün müdavim hazırlayacaq orta ümumtəhsil məktəbinin yaradılması üçün bütün siyasi maneələri dəf edərək 1971-ci il iyul ayının 28-də Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılmasına nail olmuşdu [68, s. 309; 84, s. 11; 85, s. 19, 34]. 70-80-ci illərdə SSRİ-nin ali hərbi məktəblərində 2 mindən çox azərbaycanlı zabit hazırlanmışdı [32, v. 27; 56, s. 319-328; 60, s. 322].

Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda 1155 kitabxana, 1316 klub, 44 muzey [3, s. 111-112], 50 min yerlik 111 kinoteatr [66, s. 35] istifadəyə verilmişdi. 1980-cı ilin sonunda respublikada ümumi kitab fondu 31,7 milyon nüsxə olan 3858 kütləvi kitabxana (onlardan 3252-i kənd yerlərində idi), 3212 klub və mədəniyyət evi, 2300 kino qurğusu (1611-i kənd yerlərində) var idi [257, s. 216-217; 275, s. 297-308].

1969-1982-ci illərdə bütün digər sahələr kimi Azərbaycan səhiyyəsi də özünün sürətli inkişaf dövrünü yaşamış, Heydər Əliyevin rəhbərliyinin ilk on ili ərzində respublikada 21 min yerlik xəstəxana və poliklinikalar istismara verilmişdi. 1980-ci ildə Azərbaycanda 21 min çarpayısı olan 112 sanatoriya və istirahət ocağı, 20,6 min həkim, 50,9 min orta tibb işçisi var idi. Əhalinin hər 10 min nəfərinə 33,2 həkim, 82,1 orta tibb işçisi düşürdü [23, v. 22; 27, v. 85; 257, s. 218-220].

Əhalinin tələbatını ödəmək üçün istehlak malları istehsal edən müəssisələrin şəbəkəsi genişləndirilmiş, 1970-1982-ci illərdə xalq istehlakı mallarının artırılmasına 1,2 mlrd. manat yönəldilmişdi ki, bu da əvvəlki dövrdəkinə nisbətən 3,6 dəfədən də çox idi. Kütləvi tələbat olan məhsul istehsalı 2,5 dəfə artmış, istehlak mallarının on mindən çox yeni növü və modeli buraxılmışdı [46, s. 65].

1969-1982-ci illərdə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində

çalışdığı dövrdə həyata keçirdiyi böyük quruculuq siyasətinə görə SSRİ rəhbərliyi artıq Heydər Əliyevin böyük siyasi potensialından və idarəçilik təcrübəsindən İttifaq dövlətinin idarəçiliyində istifadə etmək qərarına gəldi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 22 noyabr 1982-ci il tarixli qərarı ilə Heydər Əlirza oğlu Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. Ulu öndər Heydər Əliyev Moskvaya getdikdən sonra da öz doğma respublikası üçün əlindən gələni edir, ona daim qayğı və yardım göstərirdi. 1969-1987-ci illərdə Azərbaycan sənaye, kənd təsərrüfatı, nəqliyyat, elm, mədəniyyət, ədəbiyyat, incəsənət, sahəsində böyük inkişaf göstəricilərinə nail olmuşdu. Bu illər XX əsr Azərbaycan tarixinə sosial-iqtisadi və elmi-mədəni intibah dövrü, hərtərəfli quruculuq salnaməsi kimi daxil olmuşdur. Nəticədə XX əsrin 70-80-ci illərində respublikanın sürətli inkişafından sonra SSRİ-nin süqutu ərəfəsində öz iqtisadiyyatını müstəqil idarə etməyə qadir olan iki respublikadan biri Azərbaycan idi.

2. 70-80-ci illərdə Naxçıvanda ictimai-siyasi həyat

1970-ci ilədək həyata keçirilən bütün tədbirlərə, sosial-iqtisadi inkişafa dair qəbul edilən qərarlara baxmayaraq, iqtisadiyyatın inkişafı üçün mövcud real imkanlardan istifadə edilməməsi muxtar respublikada iqtisadiyyatın bütün göstəriciləri üzrə orta respublika səviyyəsindən, bir sıra hallarda isə respublikanın digər regionlarından belə geri qalmasına gətirib çıxarmışdı. Muxtar respublikada 70-ci illərin əvvəli üçün partiya və sovet orqanlarının yarıtmaz rəhbərliyi nəticəsində sosial-iqtisadi vəziyyət ürəkaçan deyildi.

Azərbaycan KP MK-nın avqust plenumu bütün Azərbaycanda olduğu kimi, Naxçıvan MSSR-in ictimai-siyasi və sosial-iqtisadi həyatında da dönüş nöqtəsi oldu. Ümummilli lider Heydər Əliyevin respublikada elan etdiyi ictimai-siyasi xətt, sosial-iqtisadi inkişaf siyasəti və korrupsiyaya qarşı mübarizə tədbirləri Naxçıvan MSSR-ə də öz müsbət təsirini göstərməyə başladı. Azərbaycanın yeni rəhbərinin respublikada sağlam, işgüzar şərait yaratmaq, kadrları düzgün seçib yerləşdirilmək, tapşırılan sahə üzrə onların şəxsi məsuliyyətini artırmaq sahəsindəki çoxcəhətli işi, neqativ hallara qarşı qətiyyətli mübarizəsi muxtar respublikada da rəğbətlə qarşılandı. Ulu öndər Heydər Əliyevin iqtisadiyyata rəhbərliyin səviyyəsini yüksəltmək, partiya və sovet orqanlarının iş üslubu və metodlarını təkmilləşdirmək, kadrların tərbiyə edilməsi, seçilməsi və yerləşdirilməsi işini yaxşılaşdırmaq, dövlət intizamını, kütlələrlə əlaqəni möhkəmləndirmək sahəsində ciddi tədbirlər həyata keçirməsi qarşıda duran ictimai-siyasi və sosial-iqtisadi problemlərin həllində müsbət tendensiya yaratdı [46, s. 76; 72, s. 134-135].

Sovet hakimiyyətinin bütün dövrlərində kommunist partiyasının dövlət idarəçiliyindəki birmənalı hegemon fəaliyyəti davam etmişdi. Konstitusion səviyyədə dövlət idarəçiliyində hakimiyyət bölgüsü prinsipi formal əks olunsa da, bütün ha-

kimiyyət qolları – qanunverici, icraedici və məhkəmə hakimiyyəti, habelə yerli idarəçilik orqanları olan sovetlərin təşkili və fəaliyyəti üzərində birmənalı nəzarət və həlledici qərar vermək səlahiyyəti kommunist partiyasına məxsus idi. 70-ci illərədək sovet cəmiyyətində kommunist partiyasına dövlət orqanı statusu konstitusiya ilə tanınmasa da, real siyasi həyatda dövlət idarəçiliyinin partiya hakimiyyəti ilə çulğaşması onu faktiki olaraq dövlət hakimiyyətinin fövqəlorqanına çevirmişdi. SSRİ-nin sonuncu, 1977-ci il Konstitusiyasında Sov.İKP-nin cəmiyyətdəki rəhbər və istiqamətverici gücü, "siyasi sistemin, dövlət və ictimai təşkilatların yadrosu" olması hüquqi cəhətdən rəsmiləşdirilmişdi. Konstisusiyanın 6-cı maddəsində göstərilirdi ki, Sov.İKP "xalq üçün yaşayır və xalqa xidmət edir". "Marksizm-leninizm təlimi ilə silahlanmış Kommunist Partiyası cəmiyyətin inkişafının baş perspektivini, SSRİ-nin daxili və xarici siyasət xəttini müəyyən edir, sovet xalqının böyük quruculuq fəaliyyətinə rəhbərlik edir, kommunizmin qələbəsi uğrunda onun mübarizəsinə planauyğun, elmi cəhətdən əsaslandırılmış xarakter verir. Bütün partiya təşkilatları SSRİ Konstitusiyası çərçivəsində fəaliyyət göstərirlər" [274, s. 5-6, 368]. Sovet Konstitusiyasındakı bu müddəa Azərbaycan SSR-in [284, s. 61] və Naxçıvan MSSR-in [240, s. 96-97; 247, s. 4; 248, s. 4] 1978-ci il konstitusiyalarında olduğu kimi əksini tapmışdı.

Müəyyən edilmiş dövlət orqanları iyerarxiyasına uyğun olaraq Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında da Sov.İKP-nin və Azərbaycan KP-nin muxtar respublika orqanı olan Naxçıvan Vilayət Partiya Komitəsi (VPK) hegemon hakimiyyət funksiyalarını həyata keçirirdi. Buna görə də bir çox hallarda muxtar respublikada hakimiyyətin bütün qolları və iyerarxiyası üzrə fəaliyyətdə olan orqanlar bilavasitə VPK tərəfindən idarə olunur, həmin orqanların bütün fəaliyyəti, rəhbər kadrların vəzifəyə təyin olunması və vəzifədən azad olunması da daxil olmaqla, əslində kommunist partiyasının gündəlik nəzarəti çərçivəsində həyata keçirilirdi. Bir çox hallarda dövlət idarəçiliyinin, partiya quruculuğunun, yerli sovet idarəçiliyinin, ictimai-siyasi və sosial-iqtisadi həyatın bütün cəhətlərinə dair məsələlər Sov.İKP qurultaylarının, plenumlarının, eləcə də SSRİ rəhbərliyinin direktiv qərarları ilə kommunist partiyasının respublika təşkilatlarının rəhbər orqanlarında müzakirə edilərək icraya götürülür, daha sonra aşağı orqanlar üzrə icra üçün göndərilirdi. Naxçıvan MSSR Azərbaycan SSR-in tərkibində muxtar respublika olduğu üçün sovet dövləti rəhbərliyinin və Azərbaycan KP-nin bütün rəsmi sənədləri Naxçıvan VPK-da formal müzakirə olunur və icraya qəbul edilirdi. Bir çox hallarda muxtar respublikanın ali qanunvericilik və icraedici hakimiyyət orqanları öz yurisdiksiyasına uyğun olaraq VPK-nın müzakirə etdiyi analoji məsələləri müzakirəyə çıxarır və müvafiq qərarlar qəbul edirdilər. İstənilən məsələyə dair yekun və həlledici qərar çıxarmaq səlahiyyəti Naxçıvan VPK-ya məxsus idi. Kommunist partiyasının rəhbər orqanları yalnız siyasi, inzibati,

idarəçilik, icra və təsərrüfat orqanları, müəssisələri üzərində deyil, həmçinin sosializm cəmiyyətinin bütün ictimai təşkilatları üzərində də həlledici nəzarət səlahiyyətinə malik idi. Naxçıvan VPK-nın özü isə Azərbaycan KP və Sov.İKP-nin sərt nəzarəti şəraitində fəaliyyət göstərdiyindən onun müxtəlif səviyyəli toplantılarında siyasi məsələlərin müzakirəsi halına, demək olar ki, rast gəlmək olmurdu. VPK-nın 1970-1988-ci illərdə keçirilən XXIX-XXXVI konfranslarında, müntəzəm şəkildə keçirilən büro iclaslarında muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafı, təsərrüfat həyatı, kadrların yerləşdirilməsi ilə bağlı məsələlər müzakirə mövzusu olmuş, müvafiq sahələrdə qərarlar qəbul edilmişdi.

Muxtar respublikada XX əsrin 70-80-ci illərinin siyasi mühitini sovet idarəçilik rejiminin prinsiplərinə uyğun olaraq ali rəhbərlik səviyyəsində baş verən siyasi hadisələr, qəbul edilən qərarlar. atılan addımlar, həyata keçirilən ictimai-siyasi, sosial-mədəni tədbirlər müəyyən edirdi. İctimai-siyasi həyata təsir göstərən ən ciddi amil planlı sosialist təsərrüfatına əsaslanan sosial-iqtisadi inkişaf göstəriciləri idi. Bu baxımdan Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Naxçıvan MSSR-ə səfərləri və bu zaman onun söylədiyi nitqlər həmin dövrdə muxtar respublikanın siyasi-iqtisadi həyatına həlledici və müəyyənedici təsir göstərən ən diqqətəlayiq ictimai-siyasi hadisələr idi.

Ümummilli lider Heydər Əliyevin Naxçvan MSSR-ə ilk səfəri 1974-cü il fevral ayının 21-də olmuşdu. Bu səfər Azərbaycan KP MK və Naxçıvan MSSR Ali Sovetinin "sovet xalqlarının mehriban dostluğunun və əməkdaşlığının möhkəmləndirilməsində böyük xidmətlərinə, iqtisadi, ictimai-siyasi və mədəni quruculuqda böyük müvəffəqiyyətlərinə görə və SSRİ-nin 50 illiyi münasibəti ilə" Naxçıvan MSSR-in "Xalqlar dostluğu" Ordeni ilə təltif edilməsi və ordenin muxtar respublikaya təqdim edilməsi ilə əlaqədar təntənəli iclasda iştirak etmək məqsədi daşıyırdı. Heydər Əliyev iclasdakı çıxışında 1924-cü il fevralın 9-da Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR-in təşkil edilməsini bu diyarın və bütün Azərbaycan xalqının tarixində mühüm hadisə kimi qiymətləndirmiş, muxtariyyət illərində Naxçıvan zəhmətkeşlərinin Azərbaycan xalqı ilə birlikdə şanlı inkişaf yolu keçdiyini, iqtisadi, siyasi və mədəni tərəqqinin yüksək zirvələrinə qalxdığını bildirmişdi. Muxtariyyətin ötən dövrü Naxçıvan torpağında əsaslı dəyişikliklər mərhələsi olmuş, iri sənaye müəssisələrinin tikilməsi, kolxoz və sovxozların yaradılması, mədəni inqilab dövrü kimi səciyyələnmişdi. Bu mərhələ muxtar respublikada əhalinin sosial-sinfi strukturuna ciddi təsir göstərmiş, 1940-cı illə müqayisədə fəhlə və qulluqçuların sayı beş dəfə artmışdı. Bununla belə, iqtisadiyyatın bəzi sahələrində və əmək məhsuldarlığının yüksəldilməsində dövlət planlarının kəsirdə qalması Naxçıvan MSSR-in partiya və ictimai təşkilatlarının, sovet orqanlarının, müəssisələrinin, kolxozlarının və idarələrinin fəaliyyətindəki nöqsanlarla əlaqəli idi [262, 1974, 22 fevral].



Ümummilli lider Heydər Əliyev Naxçıvan MSSR-in bayrağına Xalqlar dostluğu ordenini sancır
21 fevral 1974-ci il

Ulu öndər səfəri zamanı, 1974-cü il fevralın 22-də keçirilən Azərbaycan KP Naxçıvan VPK-nın XXX konfransında da iştirak etmişdi. Respublika rəhbəri konfransda 1971-1975-ci illərin sənaye üzrə planının vaxtından əvvəl yerinə yetirilməsini yalnız iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyətə malik məsələ kimi qiymətləndirmişdi. Respublikada son illərdə yaradılmış müsbət əxlaqi-siyasi mühitin nəticəsi idi ki, iqtisadiyyatın bir çox sahələrində ciddi irəliləyişlər əldə olunmuş və qazanılmış uğurlara görə Azərbaycan SSR, Naxçıvan MSSR, DQMV, bir sıra rayonlar, müəssisələr, 6 min nəfər fəhlə, kolxozçu, mütəxəssis, partiya və sovet işçisi SSRİ-nin yüksək dövlət mükafatlarına, orden və medallara, o cümlədən 9 nəfər Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü [120, v. 100, 102-103; 262, 1974, 12 mart]. Ulu öndərin Azərbaycana rəhbərliyi ilə yaranmış müsbət siyasi şəraitdə muxtar respublikada partiya-təşkilati və partiya-siyasi iş də yaxşılaşmışdı. Muxtar respublika rayonlarının partiya komitələrinin, ilk partiya təşkilatlarının, əmək insanlarının fəaliyyəti daha hərəkətli və fəal olmağa başlamışdı. Naxçıvan MSSR iqtisadiyyatının və sosial-mədəni mühitinin uzunmüddətli geriliyindən sonra 1970-1973-cü illərdə qazanılmış nailiyyətlər böyük uğur idi. Bu uğurlara Azərbaycanın digər rayonları ilə müqayisədə daha çətin və mürəkkəb təbiət və iqlim şəraitində nail olunmuşdu.

Ümummilli lider konfransdakı çıxışında demişdi: "Azərbaycanın bir çox digər rayonları ilə müqayisədə Naxçıvanın təbii və iqlim şəraiti çətin və mürəkkəbdir. İnsanın öz rifahı üçün faydalana biləcəyi nəhəng təbii sərvətlərin çoxu torpağın altındadır, torpaq üzərindəki sərvətlər azdır. Lakin Naxçıvan Muxtar Respublikasının sakinləri əməksevər, çalışqan camaatdır. Onlar çətinlikləri müvəffəqiyyətlə aradan qaldıran, heç zaman geri çəkilməyən, nikbinliyi, yaxşı siyasi əhval-ruhiyyəni hifz edən adamlardır... Qətiyyətlə demək lazımdır ki, belə zəhmətsevər adamlarla Naxçıvan MR iqtisadiyyatının daha yüksək inkişaf səviyyəsinə nail olmaq olardı". Lakin respublika iqtisadiyyatı və mədəniyyətinin orta inkişaf templəri ilə müqayisədə muxtar respublikanın inkişafı üçün onun bütün imkanları lazımlı şəkildə istifadə olunmur, Naxçıvanın dövrün tələblərinə uyğun səviyyədə tərəqqisi üçün heç də hər şey edilmirdi [120, v. 104; 262, 1974, 12 mart].

Ulu öndər Heydər Əliyev ilk günlərdən Azərbaycanda ideoloji işi güçləndirmək üçün bir sıra radikal tədbirlər həyata keçirməyə başlamış, bu məqsədlə 1971-ci ilin oktyabrında Azərbaycan KP MK-nın xüsusi plenumunu çağırmışdı. Plenumda bu sahədə yol verilmiş ciddi nöqsanlar barədə açıq danışılmışdı. Xüsusən kadrların bir hissəsi arasında hədsiz dərəcədə varlanmaq, qənimətçilik, dostbazlıq və qohumbazlıq faktlarına, cah-cəlallı bağlar, evlər tikilməsi, torpaqların ələ keçirilməsi halları barədə respublika rəhbərliyinin aydın mövqeyini ortaya qoymuş, neqativ hallara qarşı kəskin mübarizə aparılmasını tələb etmişdi. Azərbaycanda rüşvətxorluq və korrupsiyaya qarşı əsl müharibə elan edilmişdi. Ali məktəblərin, texnikumların, sovet, təssrrüfat orqanlarının, inzibati orqanların işçiləri arasında, səhiyyə idarələrində çoxlu sayda qanunsuzluqlar aşkara çıxarılmış, rüşvətxorlar ifşa edilmişdi. Respublika rəhbəri belə faktları nəinki ört-basdır etməməyi, onların hətta kütləvi informasiya vasitələrində geniş işıqlandırılmasını tələb edirdi [72, s. 137].

Belə bir şəraitdə Naxçıvan VPK uzun müddət dövlətin və hökumətin yaratdığı böyük imkanlardan lazımi şəkildə istifadə etmədiyindən muxtar respublikada sosial-iqtisadi həyat göstəriciləri orta respublika göstəricilərindən geri qalmaqda idi. Bu geriliyi şərtləndirən daha mühüm bir amil uzun bir dövr ərzində Azərbaycanın nazirlik və idarələrinin Naxçıvan MSSR iqtisadiyyatının inkişafı məsələlərinə lazımi diqqət yetirməmələri idi. Naxçıvan VPK və Naxçıvan MSSR Nazirlər Soveti muxtar respublika sənayesinə rəhbərlikdə ciddi səhvlərə yol vermişdi. Muxtar respublikanın ərazisi faydalı yeraltı resurslarla zəngin olsa da, son 10 ildə heç bir əlvan metal yatağı sənaye üçün istismara verilməmişdi. Hətta Moskva Şəhər Partiya Komitəsi SSRİ paytaxtının ən yaxşı binalarının yeni və çox qiymətli travertin daşları ilə üzlənməsinə kömək üçün xahişlə müraciət etsə də, muxtar respublika rəhbərliyi bu məsələdə ciddi təşəbbüskarlıq göstərməmişdi [120, v. 105-106; 262, 1974, 12 mart].

Ulu öndər Heydər Əliyev iqtisadiyyatın ayrı-ayrı sahələrində, ticarətdə, ictimai iaşə və əhaliyə məişət xidməti sahələrində mövcud nöqsanlara və cinayət xarakterli hallara diqqəti cəlb edərək Naxçıvan VPK rəhbərliyini bu kimi hallara qarşı

barışmaz olmağa, əməkçilərin mənafeyinə ziyan vuranlara qarşı kəskin mübarizə aparmağa çağırır, oğrulara və möhtəkirlərə qarşı mübarizədə ictimaiyyətin də gücündən istifadəni vacib hesab edirdi. Azərbaycan KP MK-nın avqust (1969) plenumundan sonra bütün respublikada korrupsiyaya, rüşvətxorluğa, dövlət və ictimai əmlakı dağıdanlara qarşı ciddi mübarizə başlasa da, Naxçıvanda bu istiqamətdə siyasi rəhbərliyin apardığı iş xeyli zəif idi. Naxçıvanda xidmət sahəsində, təsərrüfat orqanlarında, təhsil müəssisələrində, o cümlədən pedaqoji institutda, inzibati orqanlarda ciddi rüşvətxorluq faktları olsa da, muxtar respublika rəhbərliyi yalnız Şərur rayonunda bir sovxoz direktorunun, avtomobil sürücülük məktəbi müəllimlərinin bəzilərinin məsuliyyətə cəlb edilməsi ilə kifayətlənmişdi. Naxçıvan MSSR-in hüquq-mühafizə və inzibati orqanlarının qeyri-qanuni hallara, cinayətkar elementlərə qarşı mübarizəsi onunla nəticələnirdi ki, daxil olan şikayət xarakterli məlumatlar süründürməçiliklə qarşılanır, yoxlamalar isə əksər hallarda şikayətlərdə göstərilən məlumatların "öz təsdiqini tapmaması" ilə yekunlaşırdı. Şərur rayonunun "Naxçıvan MSSR-in 40 illiyi" sovxozundakı oğurluq və israfçılıq halları ilə bağlı şikayətlər təmin edilmədiyindən, sonda işə Azərbaycan KP MK qarışmış, üzə çıxarılan cinayət xarakterli hallara dair materiallar muxtar respublika prokurorluğuna təqdim edilmişdi. Lakin bundan sonra da prokurorluqda cinayət işinin istintaqı illərlə nəticəsiz qalmışdı [120, v. 116, 118-120; 262, 1974, 12 mart]. Azərbaycan SSR Ali Sovetinin qərarından sonra muxtar respublikada kolxoz və sovxoz torpaqlarından qanunsuz istifadə edilməsi hallarına qarşı mübarizə gücləndirilmişdi. Təkcə 1971-ci ildə Şərur rayonunda ayrı-ayrı vətəndaşlar tərəfindən qanunsuz istifadə edilən 58,67 ha, Naxçıvan rayonunda 9,17 ha, Şahbuz rayonunda 1,9 ha, Culfa rayonunda 0,76 ha, Ordubad rayonunda 0,28 ha sahə müvafiq kolxoz və sovxozlara qaytarılmış, bu sahədə qanunsuzluq edən 65 nəfər cinayət məsuliyyətinə cəlb edilmişdi [201, v. 6].

Ümummilli lider Heydər Əliyev muxtar respublikada gənclərin siyasi-ideoloji tərbiyəsi işinə diqqəti artırmağı, əhali arasında hərbi-vətənpərvərlik işini gücləndirməyi zəruri hesab edirdi. Kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyəsi işində nöqsan və çatışmazlıqlar var idi. Onlara qarşı tələbkarlıq zəif idi, rəhbər işçilərin fəaliyyətindəki çatışmazlıq və nöqsanlara qarşı kəskin münasibət göstərilmirdi. Naxçıvan VPK və rayon partiya komitələri aşağı orqanların və onların rəhbərlərinin səhvlərinə, nöqsanlarına qarşı həmişə liberal mövqe tuturdu. Respublika rəhbəri bütün bu hallara qarşı barışmaz və qətiyyətli mübarizə aparılmasını Naxçıvan VPK, Naxçıvan MSSR Nazirlər Soveti və Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyəti qarşısında sərt tələb şəklində qoymuşdu [120, v. 122-126].

Azərbaycan KP MK bürosu 28 avqust 1973-cü il tarixdə ümummilli lider Heydər Əliyevin imzası ilə "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 50 illiyi haqqında" qərar qəbul etmişdi. Qərarda Naxçıvan VPK-nın təklifi nəzərə alınaraq 1974-cü ilin may ayında yubiley tədbirlərinin keçirilməsi təsbit olunmuşdu [12, v. 184; 124, v. 42]. Ulu öndər Heydər Əliyev muxtar respublikanın yara-

dılmasının 50 illiyi münasibəti ilə Naxçıvan VPK və Naxçıvan MSSR Ali Sovetinin birgə təntənəli ilcasında iştirak etmək və yubileylə əlaqədar SSRİ Ali Sovetinin 3 oktyabr 1974-cü il tarixli qərarı ilə muxtar respublikanın təltif edildiyi "Oktyabr inqilabı" Ordenini təqdim etmək üçün 1974-cü il oktyabrın 4-də ikinci dəfə Naxçıvana səfər etmişdi. Yubiley ilcasında nitqlə çıxış edən ümummilli lider qeyd edirdi ki,



Naxçıvan MSSR-in 50 illik yubileyinə gələn Heydər Əliyevin Naxçıvan Dəmiryol vağzalında qarşılanması. 1974-cü il

"...Naxçıvan ölkəsinin tarixən təşəkkül tapmış siyasi və coğrafi mövqeyi ona gətirib çıxardı ki, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan ölkəsi Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrildi... İndi Naxçıvan dinamik inkişaf edən çoxsahəli iqtisadiyyatı, inkişaf etmiş ictimai strukturu, yüksək səviyyəli maarif, səhiyyə və mədəniyyəti olan muxtar respublikadır". Ulu öndər Heydər Əliyev Naxçıvan VPK-nın XXX konfransında səsləndirdiyi çoxsaylı iradlar, tənqidlər və qarşıya qoyulan vəzifələrin icrası istiqamətində müəyyən işlərin görüldüyünü bildirsə də, hələ qarşıda öz həllini gözləyən çoxsaylı problemlərin olduğunu demişdi [262, 1974, 5 oktyabr].



Ümummilli lider Heydər Əliyev Naxçıvan MSSR-in yaradılmasının 50 illiyinə həsr olunmuş Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində 1974-cü il

Ümummilli lider Heydər Əliyev oktyabrın 4-də Naxçıvan MSSR xalq təsərrüfatı nailiyyətləri sərgisinin açılışında iştirak etmişdi. Sərgidə filizçıxarma sənayesi və yüngül sənaye məhsulları, tikinti materialları sənayesi məhsulları, muxtar respublikada zəngin olan faydalı qazıntıların, mineral suların, yerli istehsal olan ərzaq məhsullarının nümunələri və bir çox digər eksponat nümayiş etdirilmişdi. Muxtar respublikanın yubiley mərasiminə qatılan Azərbaycan SSR nümayəndə heyətinin üzvləri ayrı-ayrı rayonlarda, müəssisə və kollektiv-

lərdə olmuş, əməkçi adamlarla görüşlər keçirmişdilər. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev, Azərbaycan SSR Ali Sovetinin sədri Q.Xəlilov, respublika Nazirlər Sovetinin sədri Ə.İbrahimov muxtar respublikanın ən mühüm tikintisi olan Arpaçay Su Qovşağına baxmış, burada fəhlələrlə keçirilən mitinqdə iştirak etmiş, Şərur rayonundakı Lenin adına üzümçülük sovxozunun işi ilə tanış olmuşdular.

Azərbaycan KP Bakı Şəhər Komitəsinin birinci katibi Ə.Kərimovun başçılığı ilə Azərbaycan nümayəndə heyətinin bir qrup üzvü Culfa rayonuna gələrək II Dünya müharibəsində həlak olanlara ucaldılmış abidənin önünə əklil qoymuş, sərhəd zastavasının işi ilə tanış olmuşdu. Ordubad rayonunda olan qonaqlar Aqrar-Sənaye Birliyinin və Y.Məmmədəliyev adına Baramaaçan Fabrikinin fəhlələri ilə görüş keçirmiş, M.S.Ordubadinin ev muzeyinə baxmış, muxtar respublikanın 50 illiyinə həsr olunmuş ümumşəhər mitinqində iştirak etmişdilər. DQMV nümayəndə heyəti isə Şahbuz rayonunda olmuş, yubiley mitinqində iştirak etmişdi. Gəncə və Sumqayıt şəhərlərindən olan nümayəndələr Şərur rayonunda Lenin adına sovxozda və Arpaçay Su Qovşağının tikintisində, Araz SES-də olmuş, yubiley mitinqində iştirak etmişdilər [262, 1974, 5 oktyabr].



Ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhəri ilə tanışlığı və görüşləri 1974-cü il

Ulu öndər Heydər Əliyevin dəfələrlə Naxçıvanda olması, onun sənaye, kənd təsərrüfatı müəssisələrinə, su təsərrüfatı obyektlərinə, yeni tikintilərə, elm və mədəni-məişət idarələrinə getməsi, fəhlələrlə, kəndlilərlə, mütəxəssislərlə, veteranlarla, gənclərlə, partiya və təsərrüfat rəhbərləri ilə söhbətlər aparması, onların həyatı, müvəffəqiyyətləri, ehtiyacları, tələbatı, muxtar respublikanın, eləcə də onun hər bir rayonunun inkişaf perspektivləri ilə maraqlanması siyasi və əmək fəallığına yüksək təsir göstərmişdi. Naxçıvanda olarkən muxtar respublikanın sosial-siyasi inkişafına dair bir sıra təkliflər irəli sürmüş, onların həyata keçirilməsi üçün əməli tədbirlər görülmüşdü. 1974-cü ildə ulu öndərin Naxçıvana səfərindən sonra "Hüquq qaydalarının mühafizəsi işini yaxşılaşdırmaq və bu qaydaların pozulmasına qarşı mübarizəni gücləndirmək haqqında" Sov.İKP MK-nın qərarı ilə əlaqədar muxtar respublika inzibati orqanlarının fəaliyyətini daha da təkmilləşdirmək sahəsində həyata keçirilmiş tədbirlər və qarşıda duran vəzifələrlə bağlı Naxçıvan VPK-nın plenumu keçirilmiş, vətəndaşlara hüquqi yardım, qanunların və hüquq qaydalarının

möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində vəziyyət müzakirə edilmişdi [72, s. 140-141].

Lakin bu sahədə ciddi dönüşə nail olunmadığından 1975-ci ilin ortalarında Azərbaycan KP MK-nın inzibati orqanlar şöbəsi tərəfindən muxtar respublikada qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizənin vəziyyəti əhatəli şəkildə yoxlanılmış və müvafiq arayış tərtib edilmişdi. Yoxlamaların nəticəsi göstərirdi ki, muxtar respublikada qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizə sahəsində müəyyən irəliləyişlər olsa da, bu sahədə aparılan iş ümumi xarakter daşımış, muxtar respublikanın konkret xüsusiyyətləri nəzərə alınmamışdır. Hüquq pozuntuları, onların törədilməsi şəraiti öyrənilmir, hüquq qaydalarının pozulması profilaktikası qeyri-qənaətbəxş aparılır, xalq drujinaçılarının, yoldaşlıq məhkəmələrinin və ictimaiyyətin cinayətkarlığa qarşı mübarizədə iştirakının digər formalarının geniş imkanlarından istifadə olunmur, əmək kollektivləri və yaşayış yerlərində qanunçuluğu pozanlara qarşı dözümsüzlük atmosferi yaradılmırdı. Ayrı-ayrı işçilərin mədəni səviyyəsinin aşağı olması, siyasi qətiyyətsizliyi, Azərbaycan KP MK bürosunun son illərdə çatışmazlıqlara qarşı apardığı böyük prinsipial mübarizə təcrübəsinin nəzərə alınmaması səbəbləri üzündən muxtar respublikada hüquq pozuntularına qarşı vahid mübarizə cəbhəsi yaranmamış, aparılan işin hüqüqi xarakter daşımaması nəticəsində cinayətlərin sayı azalmaq əvəzinə artmışdı. Muxtar respublikada əmək qanunvericiliyinə riayət edilməsi vəziyyəti qeyri-qənaətbəxş idi, prokurorluq və məhkəmələrin əmək münaqişələrinin qarşısının alınması sahəsində fəaliyyətində ciddi nöqsanlar qalmaqda idi [71, s. 98].

Cinayətkarlıqla bağlı qeyri-münbit vəziyyətin əsas səbəblərindən biri də inzibati orqanların kadrlarının seçilməsi, yerləşdirilməsi və tərbiyəsində yol verilən ciddi qüsurlar idi. 1974-cü ilin noyabr ayına olan vəziyyətə görə Naxçıvan MR Daxili İşlər Nazirliyinin (DİN) 10, rəis heyətinin 13 vəzifəsi boş qalmışdı. Rəis heyətinin yalnız 9 nəfəri və ya 8,1 faizi ali hüquq təhsilinə malik idi. Rayonlardan heç birinin milis (polis) şöbəsi rəhbərlərinin hüquq təhsili yox idi. İnzibati işçilər arasında siyasi tərbiyə işinin səviyyəsi çox aşağı idi. 1974-cü ilin yanvar-oktyabr ayları ərzində DİN-in 35 əməkdaşı və ya 32,1 faizi intizam qaydasında cəzalandırılmış, prokurorluğun, demək olar ki, bütün işçiləri intizam cəzasına məruz qalmışdılar [17, v. 20; 71, s. 99-100].

Ümummilli lider Heydər Əliyevin respublikada cinayətkarlığa qarşı elan etdiyi barışmaz mübarizə xətti muxtar respublikanı da əhatə edirdi. Azərbaycan KP MK inzibati orqanlar şöbəsi tərəfindən aparılan yoxlamanın nəticələri Azərbaycan KP MK bürosunun iclasında müzakirə edilmiş və 1975-ci il oktyabrın 25-də "Qanunçuluğun daha da möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsində Naxçıvan MSSR-in partiya təşkilatlarının işi haqqında" qərar qəbul edilmişdi [17, v. 3-7]. Qərarda Naxçıvan MSSR-də qanunçuluğun və hüquq qaydalarının qorunması sahəsində vəziyyətin təhlili verilmiş, bu sahədə çox ciddi

qüsur və çatışmazlıqların olduğu qeyd olunmuşdu. Buna görə də Azərbaycanın siyasi rəhbərliyi Naxçıvan VPK-nın bürosundan qanunçuluğun möhkəmləndirilməsi və hüquq pozuntularına qarşı mübarizənin gücləndirilməsi sahəsində muxtar respublikanın partiya təşkilatlarının işindəki ciddi çatışmazlıqlara diqqət yetirməyi tələb etmiş, muxtar respublikanın inzibati orqanlarının cinayətkarlıqla, xüsusən oğurluqla, rüşvətxorluqla, qətllərlə, qadınların şərəf və hüquqlarına qarşı cinayətlərlə, yetkinlik yaşına çatmayanların cinayətkarlığı ilə mübarizə sahəsində işini qeyri-qənaətbəxş hesab etmişdi. Buna görə də qərarda qeyd olunmuş çatışmazlıqların aradan qaldırılması üçün təsirli tədbirlər hazırlayıb həyata keçirmək, partiya, həmkarlar, komsomol təşkilatlarının, sovet, inzibati, təsərrüfat və digər orqanların səylərini hüquq pozuntularının profilaktikası sahəsində işin canlandırılmasına dair partiya və hökumətin göstərişlərinin əməli surətdə həyata keçirilməsinə yönəltmək, hər bir qanun pozuntusunu qabaqlayıcı və tərbiyəvi tədbirlər kompleksinin həyata keçirilməsi üçün əsas kimi qəbul etmək vilayət, şəhər və rayon partiya komitələrindən tələb edilmişdi [17, v. 5-6; 71, s. 100].

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti muxtar respublikada sənayenin və kənd təsərrüfatının inkişafı üzrə bir sıra qərarlar qəbul etsə də, respublikanın bir çox nazirlik və idarələri həmin qərarlara məsuliyyətlə yanaşmırdı. Belə ki, çoxdan haqqında müvafiq qərarların olmasına baxmayaraq, Naxçıvanda 1976-cı ilədək hələ də evtikmə kombinatının inşası, elektrotexnika, avtotəmir zavodları, mebel fabriki və digər mövcud sənaye istehsalı müəssisələrinin gücünün müasir texniki əsaslarla yenidən qurulması və genişləndirilməsi məsələsi həll edilməmişdi [18,v. 86].

Buna görə də 1975-ci ildə muxtar respublikanın siyasi rəhbərliyində dəyişiklik baş vermiş, Naxçıvan VPK-nın birinci katibi vəzifəsində A.Hüseynovu K.Rəhimov əvəz etmişdi. Bir qədər sonra isə işdə yol verdiyi nöqsanlara görə VPK-nın ikinci katibi M.Radayev və bəzi başqa rəhbər şəxslər də vəzifədən azad edilmişdi [132, v. 67-68]. Bu, ötən müddətdə Azərbaycan rəhbərliyinin Naxçıvan VPK rəhbərliyi qarşısında qoyulan həlli vacib məsələlərin və vəzifələrin icrasında əsaslı dönüşə nail olunmaması ilə bağlı zəruri kadr dəyişikliyi idi.

Bundan sonra respublika rəhbərliyinin Azərbaycan KP MK-nın avqust (1969) plenumu ilə başladığı neqativ hallara qarşı mübarizə siyasəti muxtar respublikada da daha ciddi şəkildə aparılmağa başlandı. VPK dövlət intizamını pozan, vəzifəsindən sui-istifadə edən rəhbər kadrlar barəsində müvafiq tədbirlər görürdü. Muxtar respublikada mənəvi-psixoloji iqlimin yaxşılaşdırılmasında, sağlam işgüzar şəraitin yaradılmasında Culfa Rayon Partiya Komitəsi (RPK) haqqında, Naxçıvan MSSR DİN haqqında, Naxçıvan Dövlət Pedaqoji İnstitutunda və Politexnik Texnikumunda ciddi qanunsuzluqlar haqqında, Naxçıvan Şəhər XDS İcraiyyə Komitəsinin işi haqqında, Naxşıvan Şəhər Partiya Komitəsinin işi haqqında, Şahbuz RPK-da kadrlarla aparılan işin vəziyyəti haqqında qərarların böyük əhəmiyyəti olmuşdu [132, v. 53].



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Naxçıvana səfəri. Oktyabr, 1978-ci il.

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Naxçıvana üçüncü səfəri 1978-ci ilin oktyabr ayında baş tutmuşdu. O, səfəri zamanı yeni tikilmiş Pionerlər evində olmuş, muxtar respublikanın iqtisadiyyatı üçün çox mühüm əhəmiyyət kəsb edən və tikilməkdə olan Arpaçay Su Qovşağına, Trikotaj Fabrikinin, Şüşə Qablar Zavodunun, "Badamlı" mineral suyunun doldurulması zavodunun inşaatı ilə yerində maraqlanmış, Xalça Kombinatının inşası üçün ayrılan yerə, yerli təşəbbüslə salınan parka baxmış, daha sonra Naxçıvan VPK-da partiya və təsərrüfat fəallarının geniş yığıncağına qatılmışdı. Yığıncaqda ümummilli lider yenidən muxtar respublikada görülən işlərə, xüsusilə sənaye müəssisələrinin tikintisi vəziyyətinə toxunaraq Naxçıvanda son illərdə inkişafla bağlı müəyyən irəliləyişlərin olduğunu desə də, muxtar respublikanın göstərilən dövlət qayğısından layiqincə istifadə edə bilmədiyini, ümumən respublika səviyyəsindən geridə qaldığını, kənd təsərrüfatının istiqamətinin düzgün təyin olunmadığını qeyd etmişdi [132, v. 59-64]. Muxtar respublikada kadrların seçilməsi, yerləşdirilməsi, xüsusən tərbiyə olunması məsələsində görülən işlər, vəzifəli şəxslərin öz mövqeyindən sui-istifadə hallarına qarşı mübarizə, rəhbər kadrlara qarşı tələbkarlıq və prinsipiallıq, hələ də qanedici səviyyədə deyildi. Buna görə də respublika rəhbəri muxtar respublikada siyasi, mənəvi-psixoloji iqlimin yaxşılaşdırılması, kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyə olunması, təsərrüfatsızlığa, rüşvətxorluğa, cinayətkarlığa qarşı qətiyyətlə mübarizə aparılmasını təşkil etmək üçün yenidən tövsiyələrini vermiş, muxtar respublika rəhbərliyi qarşısında bu sahədə konkret vəzifələr müəyyənləşdirmişdi [71, s. 101; 132, v. 67-68].

Yığıncaqda qarşıya qoyulan vəzifələr və onların həlli ilə bağlı 1978-ci il oktyabrın 28-də Naxçıvan VPK-nın xüsusi ilcası keçirilmiş, geniş müzakirə aparılaraq müvafiq qərarlar qəbul edilmişdi. Naxçıvan MSSR-də kadrların tərkibinin daha da yaxşılaşdırılması, onlara qarşı tələbkarlığın gücləndirilməsi, tapşırılan iş üçün məsuliyyətin artırılması sahəsində müəyyən işlər görülmüş, partiya və sovet orqanlarının ixtisaslı kadrlarla möhkəmləndirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdi. Kadrlarla iş məsələsi VPK bürosunda, şəhər və rayon partiya komitələrində müntəzəm müzakirəyə çıxarılmağa başlanmışdı. Muxtar respublikada kadr ehtiyatının yaradılması istiqamətində işlər sürətləndirilmişdi. Vilayət və rayon

partiya komitələrində perspektivdə məsul vəzifələrə irəli çəkilmək üçün işçilərin siyahısı yaradılmışdı. Bütün bunlar rəhbər işçilərin, xüsusən partiya aparatı işçilərinin tərkibinin yaxşılaşmasına təsir göstərirdi. 70-ci illərin sonlarında muxtar respublikada artıq rayon partiya komitələri katiblərinin hamısı ali təhsilli idi, onlardan 12-si (o cümlədən 5 qadın) ali partiya-siyasi təhsilə malik idi. 83 partiya komitəsi işçisindən 79-u ali təhsilli idi. VPK-nın əsas nomenklaturasına daxil olan 488 işçinin, demək olar ki, hamısı ali təhsilli idi [24, v. 3-4; 72, s. 146].

Muxtar respublikada bir sıra məsul sahələrin gücləndirilməsi üçün tədbirlər görülmüş, mühüm təsərrüfat və siyasi vəzifələrin öhdəsindən gələ bilməyən bir çox şəxslər, o cümlədən Naxçıvan ŞPK-nın birinci katibi M.Seyidov, Şərur RPK-nın birinci katibi S.Həsənov, Şahbuz RPK-nın birinci katibi Y.Bayramov, Əhaliyə Məişət Xidməti naziri A.Adıgözəlov, Naxçıvan şəhər, Şərur və Culfa rayon icraiyyə komitələrinin sədrləri M.Mürsəlov, F.Rzayev, A.İsgəndərov, Naxçıvan DPİ-nin rektoru İ.Məmmədov tutduqları vəzifələrdən azad edilmişdi [24, v. 4; 71, s. 103; 72, s. 146]. Bir qədər sonra isə Naxçıvan VPK-nın katibi V.Bağırov və Babək RPK-nın birinci katibi V.Vəliyev işdə yol verdikləri nöqsanlara görə vəzifədən azad olunmuşdu [259, s. 23-26].

1979-cu ilin əvvəllərində ulu öndər Heydər Əliyevin göstərişi ilə Naxçıvanda kadrlarla işin vəziyyətini araşdırmaq üçün muxtar respublikaya göndərilən Azərbaycan KP MK-nın bir qrup məsul işçisi burada kadrlarla işin vəziyyətini araşdıraraq 9 səhifəlik arayış hazırlamışdı. Müəyyən edilmişdi ki, kadrlarla iş sahəsində bir sıra irəliləyişlərə rəğmən, ciddi səhvlər və çatışmazlıqlara yol verilmişdir. Kadr məsələlərinin həlli zamanı həmişə yüksək tələbkarlıq və prinsipiallıq göstərilmir, bir sıra hallarda kadrlar dostbazlıq, tanışlıq, qohumbazlıq, yerlibazlıq prinsipləri ilə vəzifəyə təyin olunurdu. Rəhbər kadrlarla iş, onların hazırlanması, seçilməsi və təyinatında da ciddi nöqsanlar qalmaqda idi. Bir çox hallarda bir rəhbər vəzifədə işini yarıtmayan kadrlar digər müəssisədə rəhbər vəzifəyə təyin olunurdu. Nəticədə vəzifələrə hazırlıqsız, səriştəsiz işçilər irəli çəkilirdi ki, onlar da öz işlərinin öhdəsindən gələ bilmirdi. Bu isə öz növbəsində kadr axıcılığına və dəyişikliklərinə gətirib çıxarırdı. 1976-1979-cu illərdə Naxçıvan VPK-nın nomenklaturasında olan 488 işçidən 260-ı dəyişdirilmiş, o cümlədən onların 71-i öz işinin öhdəsindən gələ bilmədiyi və tutduğu vəzifədən sui-istifadə etdiyi üçün işdən azad olunmuşdu. Kadr çatışmazlığına görə VPK-nın, rayon (şəhər) partiya komitələrinin nomenklaturasında 60 vəzifə vakansiya idi. VPK inzibati orqanlar şöbəsinin müdiri vəzifəsi 1977-ci ilin noyabrından, Naxçıvan MSSR Nazirlər Soveti sədrinin üç müavini vəzifəsi 1976-cı ilin dekabrından, ədliyyə naziri vəzifəsi 1977-ci ilin aprelindən, maarif naziri vəzifəsi isə 1978-ci ilin fevralından boş qalmışdı.

Təsərrüfat müəssisələrində də kadrlarla iş məsələsi aşağı səviyyədə idi. Kolxoz və sovxozların istehsal briqadalarının 43 faizinə bu sahənin mütəxəssisi olmayan şəxslər başçılıq edirdi. Muxtar respublikada 141 ferma müdirindən cəmi

ikisi ali təhsilli, 62-si isə orta ixtisas təhsilli idi. Eyni zamanda bir çox ali təhsilli mütəxəssislər xüsusi hazırlıq tələb etməyən vəzifələrdə işləyirdi. Bütövlükdə muxtar respublikanın sosial-iqtisadi göstəriciləri pis olmasa da, qüsurlu kadr siyasətinin nəticəsi idi ki, bir çox təsərrüfatlar öz imkanlarından aşağı səviyyədə işləyirdi, əmək məhsuldarlığı aşağı idi və dövlət tapşırıqlarını yerinə yetirmirdi.

Muxtar respublikada rəhbər vəzifələrdə işləyən qadınların sayı çox az idi. Rayon partiya komitələrinin nomenklaturasında qadınlar cəmi 13,6 faiz, o cümlədən Şahbuz rayonunda 4,8 faiz, Culfa rayonunda 6,6 faiz təşkil edirdi. İctimai istehsalatda çalışanların 47,6 faizini qadınlar təşkil etsə də, 32 sovxozdan 2-nin, 60 kənd Sovetindən 5-nin, 494 istehsalat briqadasından cəmi 16-nın rəhbəri qadın idi. Ticarətdə və məişət xidməti sahəsində işləyənlərin cəmi 25 və 18 faizini qadınlar təşkil edirdi [24, v. 4-11; 71, s. 103-104; 72, s. 147-148].

Naxçıvan MR-də kadrlarla iş və ehtiyat kadrların hazırlanması vəziyyəti 1979-cu il aprelin 6-da Azərbaycan KP MK-da müzakirə edilərək müvafiq qərar qəbul edildi. Ümummilli lider Heydər Əliyevin imzaladığı qərarda Naxçıvan VPK-nın bu sahədəki işində ciddi çatışmazlıqların olduğu qeyd edilmiş, Azərbaycan KP MK-nın təşkilat-partiya şöbəsinin məsələ ilə bağlı arayışına baxılması və zəruri tədbirlər görülməsi üçün Naxçıvan VPK-ya göndərilməsi, görülmüş işlər haqqında Naxçıvan VPK-ya və Azərbaycan KP MK-ya məlumat verməsi tələb edilmişdi [24, v. 1; 71, s. 104-105; 72, s. 148].

Ümummilli lider Heydər Əliyevin Naxçıvana dördüncü səfəri 1980-ci il mayın 21-də olmuşdu. Səfər zamanı Naxçıvan şəhərinin küçə və meydanlarını, park və bağlarını gəzmiş, şəhərin planlaşdırılması, abadlaşdırılması və yaşıllaşdırılmasını yaxşılaşdırmaq üçün bir sıra əməli tövsiyələr vermişdi. Şəhərin baş planı ilə tanış olarkən o, gələcək tikinti işləri zamanı qədim Azərbaycan memarlığının nümunələrinin yeni, müasir arxitekturanın tələbləri ilə üzvi surətdə əlaqələndirməyin zəruri olduğunu qeyd etmişdi. Ulu öndər Heydər Əliyev Azərbaycan EA-nın Naxçıvan Regional Elm Mərkəzində olmuş, mərkəzin əməkdaşları ilə söhbət etmişdi. O, H.Cavidin yaradılmaqda olan ev muzeyinə getmiş, memar Ə.Naxçıvaninin XII əsrdə yaratdığı məşhur Mömünə xatın məqbərəsinə baxmışdı. Ordubad şəhərində olan Azərbaycan rəhbəri şəhərin baş meydanında Sovet İttifaqı Qəhrəmanı N.Rəfiyevin abidəsi önünə gül-çiçək dəstəsi qoymuş, burada izdihamlı mitinqdə iştirak etmiş, akademik Y.Məmmədəliyevin və yazıçı M.S.Ordubadinin ev muzeylərinin eksponatlarına baxmışdı [58, s. 86].

Səfərin əsas məqsədi 1980-ci ili yaxşı sosial-iqtisadi nəticələrlə başa vurmaq, 1981-1985-ci illərdə respublika iqtisadiyyatını daha yüksək səviyyəyə qaldırmaq üçün yerlərdə vəziyyəti öyrənərək lazımi planlar tərtib etmək kimi məsələlərlə bağlı idi. Lakin ulu öndər Heydər Əliyevin muxtar respublikaya bu dəfəki səfərinin daha bir mühüm məqsədi 1980-ci il aprel ayının ortalarında təbii fəlakət nəticəsində kənd təsərrüfatına və bəzi infrastruktur obyektlərinə dəymiş ziyanın nəticələri ilə

yerində tanış olmaqdan, göstəriləcək köməyin miqyasının müəyyən edilməsi və aradan qaldırılması yollarının axtarılmasından ibarət idi [258, 1980, 25 may; 259, s. 10-11].

Belə ki, intensiv qar əriməsi və leysan yağışları nəticəsində 1980-ci il aprelin 13-də Araz çayının səviyyəsi yol verilən normaları aşmış və Şərur rayonunun Alışar, Kərimbəyli və digər kəndlərinin təsərrüfatı üçün yararlı olan torpaqlarının bir hissəsi su altında qalmışdı. Evlərin, ictimai binaların, üzüm plantasiyalarının, payızlıq bitkilərin daşqın altında qalmasına real təhlükə yaranmışdı. Təcili həyata keçirilən tədbirlər nəticəsində torpaq bəndlərin yuyulması aradan qaldırılmış və aprelin 16-da yeni daşqın təhlükəsinin qarşısı alınmışdı. Bununla yanaşı, 1980-ci il aprelin 16-da saat 21 radələrində Naxçıvan MSSR-in rayonlarında sürəti saniyədə 25 metrə çatan qasırğa və qar yağışı ilə müşayiət olunan temperaturun kəskin aşağı düşməsi baş vermişdi. Şahbuz və Ordubad rayonlarında aprelin 17-i saat 6.00 radələrində qarın qalınlığı 16 sm-ə, şaxta isə -6-7 dərəcəyə çatmışdı. Qasırğa, qar yağışı, şaxta və daşqın nəticəsində kolxozlara, sovxozlara, fərdi təsrrüfatlara, yaşayış məntəqələrinə, müəssisə və təşkilatlara, yol təsərrüfatına, suvarma kanalları və qurğularına, elektrik və radio xətlərinə, eləcə də digər obyektlərə xeyli maddi ziyan dəymişdi. Bütövlükdə Naxçıvan MSSR-in xalq təsərrüfatına təbii fəlakət nəticəsində 31 mln. 650 min manatlıq zərər dəymişdi. Aqrar sahəyə dəyən ziyanın təsiri özünü kənd təsərrüfatı məhsulunun emalı ilə bilavasitə bağlı olan və ümumi istehsalda payı 72 faiz olan sənaye istehsalında da göstərirdi [26, v. 14-16]. Baş vermiş təbii fəlakət nəticəsində muxtar respublikanın kənd təsərrüfatına; üzümlüklərə, meyvə bağlarına, tut və parnik təsərrüfatlarına, tütün və tərəvəz sahələrinə, çoxillik bitkilərə ciddi ziyan dəymişdi. Yalnız kənd təsəsrüfatı bitkilərinə dəyən zərərin məbləği 27 mln. manatdan çox idi. Eyni zamanda elektrik, rabitə xətləri, yollar, su təsərrüfatı qurğuları və digər obyektlər, eləcə də 23 min ailə və onların yardımçı təsərrüfatları böyük zərər çəkmişdi [26, v. 11].

Naxçıvana Ermənistandan keçməklə gələn ümummilli lider Heydər Əliyevin özü ilə bərabər Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyanı da muxtar respublikaya gətirməsi Naxçıvanın ictimai-siyasi həyatı, etnik-milli tərkibi, diyarın əsl sahibləri haqqında həqiqətin erməni rəhbərliyinə çatdırılması və onun özünün real vəziyyətin şahidi olması məqsədini güdürdü. Səfər zamanı muxtar respublikanın Ermənistanla sərhədində yerləşən Sədərək kəndində izdihamlı mitinq keçirilmiş, Azərbaycan KP MK-nın birinci katibi mitinqdə geniş nitq söyləmişdi. Bu səfərin əlamətdar cəhətlərindən biri də o idi ki, Azərbaycan rəhbəri muxtar respublikanın elm təşkilatlarına, tikilməkdə və fəaliyyətdə olan bir sıra sənaye obyektlərinə, beş rayonunun hamısına və kənd təsərrüfatı müəssisələrinə baş çəkmiş, rayonlarda olarkən muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlərlə tanış olmuş, rayonların partiya-təsərrüfat fəallarının yığıncağında şəxsən iştirak və çıxış etmişdi. Mayın 24-də Heydər Əliyevin Naxçıvan şəhərində partiya, əmək və

müharibə veteranları ilə səmimi görüşdə onlarla bir-bir əl tutaraq görüşən Azərbaycan rəhbəri veteranların xidmətlərini yüksək qiymətləndirmiş, sosial problemləri ilə maraqlanmışdı [72, s. 148-149; 258, 1980, 25 may].

Ümummilli lider Heydər Əliyev mayın 24-də Naxçıvan VPK-da muxtar respublikanın partiya və təsərrüfat fəalları ilə yığıncaqda iştirak etmişdi. Yığıncaqdakı çıxışında həyata keçirilən tədbirlərdən, elmi müəssisələrin fəaliyyətindən, bütün rayonlarda aparılan quruculuq və abadlıq işlərindən, muxtar respublika sakinlərinin həyat tərzinin, bilik və mədəni səviyyəsinin yüksəlməsindən razılığını və görülən işlərə görə minnətdarlığını bildirən ümummilli lider muxtar respublika iqtisadiyyatının göstəricilərinin orta respublika səviyyəsindən hələ də geridə qaldığını qeyd etmişdi. Muxtar respublikanın, o cümlədən paytaxt Naxçıvan şəhərinin inkişafı ilə bağlı Azərbaycan rəhbərliyinin geniş planları var idi. Kənd təsərrüfatının daha da inkişaf etdirilməsi üçün muxtar respublikada aqrar sahə üzümçülük, taxılçılıq, meyvəçilik və maldarlıq istiqaməti üzrə ixtisaslaşmalı idi [258, 1980, 25 may; 259, s. 1-29].

Kadrların seçilməsi, yerləşdirilməsi işində səhvlər xeyli azalsa da, bu sahədə hələ də ciddi nöqsanlara rast gəlinirdi. Bunun əsas səbəbi muxtar respublikada uzun illər ərzində yaxşı, sağlam fikirli kadrların hazırlanması məsələsinin diqqət mərkəzində saxlanılmaması idi. Naxçıvandan Bakıya kadrların təyinatı ilə bağlı göndərilmiş şikayətlər bilavasitə Azərbaycan rəhbərinin nəzarəti altında yoxlanılmışdı. 1980-ci il mayın 24-də ulu öndərin rəhbərliyi ilə Naxçıvan VPK bürosunun qapalı ilcasında kadrlarla bağlı məsələlər müzakirə edilmiş [134, v. 115-119], respublika rəhbəri kadrların seçilməsində səhvlərin hələ də qaldığını qeyd etmiş, eyni zamanda bu sahədə nöqsanların aşkarlanaraq aradan qaldırılmasını müsbət qiymətləndirmişdi. Naxçıvan VPK bürosunun qapalı iclasında və muxtar respublikanın partiya və təsərrüfat fəalları ilə keçirilən ümumi yığıncaqda Sov.İKP MK üzvü, "İzvestiya" qəzetinin baş redaktoru, SSRİ Ali Sovetinin Naxçıvan MSSR-dən seçilmiş deputatı P.Alekseyev də iştirak etmişdi [259, s. 22].

Ulu öndər Heydər Əliyev Naxçıvandan Bakıya qayıtdıqdan dərhal sonra, 1980-ci il mayın 27-də Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti "Naxçıvan MSSR-də təbii fəlakətin nəticələrinin aradan qaldırılması haqqında" qərar qəbul etmişdi. Qərara əsasən, Azərbaycan SSR Nazirlər Sovetinin ehtiyat fondundan Naxçıvan MSSR Nazirlər Sovetinə təbii fəlakətdən zərər çəkmiş vətəndaşlara birdəfəlik pul yardımı üçün 2 milyon manat vəsait ayrılmışdı. Qərara əsasən, SSRİ Dövlət Bankının respublika kontoruna öz ehtiyat rezervlərindən muxtar respublikanın kolxozlarına 1980-ci il üçün uzunmüddətli kapital qoyuluşunun kreditləşdirilməsi üçün əlavə olaraq 900 min manat, 1980-ci ildə Naxçıvan MSSR kolxozlarına istehsal xərcləri üçün müəyyən olunmuş qaydada kiçikmüddətli kreditlər ayırmaq tapşırılmışdı. Qərara təbii fəlakətin ləğv edilməsi üçün Naxçıvan MSSR Nazirlər Sovetinə ayrılmış maddi-texniki vəsaitin siyahısı da əlavə edilmişdi [26, v. 3-5, 7-9].



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev
Naxçıvan Alt Trikotaj Fabrikində. 1982-ci il

Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində Heydər Əliyevin Naxçıvana sonuncu, beşinci səfəri 1982-ci ilin oktyabr ayında olmuşdu. O, Naxçıvan şəhərində yeni istismara verilmiş Alt Trikotaj Fabrikində gedərək müəssisəsinin işi ilə yaxından tanış olmuşdu. Naxçıvan şəhərində tikilməkdə olan Mədəniyyət sarayında inşaatın gedişi ilə maraqlanan Azərbaycan rəhbəri daha sonra çoxmərtəbəli mehmanxananın ("Təbriz" oteli – ***red.)*** inşa olunduğu əraziyə baş çəkmiş, naxçıvanlı rəssamların H.Cavidin 100 illiyinə həsr olunmuş əsərlərindən ibarət sərgiyə, keçmiş İmamzadə binasında fəaliyyət göstərən Yaşıl aptekə, H.Cavid poeziya teatrına baxış keçirmişdi. Oktyabrın 2-də isə yenicə istifadəyə verilmiş Siyasi-Maarif evinin iclas salonunda keçirilən Naxçıvan vilayət partiya-təsərrüfat fəallarının yığıncağında iştirak və çıxış etmişdi [145, v. 29-51]. Ümummilli lider Heydər Əliyev 1969-1970-ci illərdən bəri bütün respublikada olduğu kimi, onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında da çox işlərin görüldüyünü, böyük dəyişikliklərin baş verdiyini bildirmiş, Azərbaycanda 1975-1980-ci illərin dövlət planlarının yerinə yetirilməsində, respublikanın üçüncü "Lenin" Ordeni ilə təltif olunmasında Naxçıvan zəhmətkeşlərinin böyük əməyinin və özünəməxsus rolunun olduğunu qeyd etmişdi.

Muxtar respublikanın inkişaf göstəricilərinin yaxşılaşmasına, yeni və iri sənaye müəssisələrinin yaradılmasına yüksək qiymət verən, buna hədsiz sevindiyini bildirən Heydər Əliyev, eyni zamanda, böyük uzaqgörənliklə müəssisələrin inşasına

başlayarkən 50-100 il sonrakı dövrün tələbatını nəzərə almağı tövsiyə edirdi. Azərbaycan rəhbəri həmçinin bir sıra sənaye müəssisələrinin tikintisinin ləngiməsinə, tikinti sahəsində olan nöqsanlara, kənd təsərrüfatında məhsuldarlığın aşağı səviyyəsinə, o cümlədən Arpaçay Su Qovşağında aparılan tikinti işlərinin keyfiyyətsizliyinə, Xalça Kombinatının inşaatında işlərin ləngiməsinə görə respublikanın müvafiq mərkəzi icra hakimiyyəti orqanları ilə yanaşı, muxtar respublika rəhbərliyinin, xüsusən Naxçıvan MSSR Nazirlər Sovetinin işini də ciddi tənqid etmişdi. O, Naxçıvanın zəngin sərvətlərinin, xüsusən inşaat materialları ilə zəngin olan ehtiyatlarının tezliklə istifadəyə verilməsini zəruri sayırdı.

Ümumiyyətlə, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin 1974-1982-ci illərdə Naxçıvan MSSR-ə etdiyi səfərlər muxtar respublikanın ictimai-siyasi tarixində böyük hadisəyə, sosial-iqtisadi və elmi-mədəni yüksəlişində vacib və həlledici amilə çevrilmişdi. Hər dəfə Azərbaycanın yüksək vəzifəli şəxslərindən ibarət nümayəndə heyəti, müxtəlif nazirlər, komitə və idarə rəhbərləri ilə Naxçıvana səfər edən ümummilli lider coğrafi cəhətdən respublikanın əsas hissəsindən ayrı düşmüş muxtar respublikada ictimai-siyasi sabitliyin təmin olunması, iqtisadiyyatın ayrı-ayrı sahələrinin, sənayenin, kənd təsərrüfatının inkişafı, inzibati-hüquqi durumun sağlamlaşdırılması üçün lazım olan tədbirləri görürdü.

Bütövlükdə sovet hakimiyyəti illərində cəmiyyətin həyatında ən böyük siyasi hadisə bütün səviyyələr (SSRİ, Azərbaycan SSR, Naxçıvan MSSR) üzrə Ali Sovetə, eləcə də yerli xalq deputatları Sovetlərinə seçkilər idi. Seçkilər bir çox hallarda formal xarakter daşıyır, alternativ seçkiyə əsaslanmadığına görə, hər seçki dairəsindən yalnız bir namizəd irəli sürülür, yəni deputat seçilməsi nəzərdə tutulan namizədlərin kimliyi əvvəlcədən bəlli olur, adətən, seçkidən sonra təsdiq edilən hesabatlarda seçici fəallığının 99,98-100 faiz intervalında olduğu və bütün seçicilərin müəyyən edilən namizədlərə səs verdiyi göstərilirdi. Hətta 1985-ci ildə keçirilmiş seçkilərə dair hesabatda göstərilirdi ki, səhər saat 8.00-da seçicilərin 61,1 %-i, gündüz saat 12.00-da isə 96,2 %-i səsvermədə artıq iştirak etmiş, axşam saat 19.00-da isə səsvermə başa çatmışdı (səsvermə səhər saat 6.00-da başlayır, axşam saat 22.00-da yekunlaşırdı) [160, v. 10]. Azərbaycan SSR, həm də Naxçıvan MSSR Ali Sovetlərinə seçkilər, adətən, eyni günə təyin olunur və 3 ay əvvəlcədən müəyyən edilən vaxtda keçirilirdi. SSRİ Ali Sovetinə seçkilər respublika və muxtar respublika Ali Sovetlərinə seçkilərlə eyni vaxta düşmürdü. Yerli xalq deputatları Sovetlərinin səlahiyyət müddəti Konstitusiya ilə 2 il müəyyən edildiyindən, yerli Sovetlərə seçkilərin keçirilmə vaxtı Ali Sovetə seçkilərlə hər iki seçkidən bir üst-üstə düşürdü.

1970-ci illərin əvvəli üçün muxtar respublikada 1937-ci il Konstitusiyası [240, s. 70-89] ilə müəyyən edilmiş ali dövlət qanunvericilik orqanları fəaliyyətdə idi. Konstitusiyaya görə, muxtar respublikada dövlət hakimiyyətinin ali orqanı

olan Naxçıvan MSSR Ali Sovetinə sonuncu seçkilər 19 mart 1967-ci il tarixdə keçirilmişdi. Ali Sovetin VII çağırışı 80 deputatın seçilməsi ilə fəaliyyətə başlamışdı və 1971-ci ilin iyun ayınadək səlahiyyətli olmuşdu [271, s. 16].

Naxçıvan MSSR Ali Sovetinə 70-80-ci illərdə 4 dəfə seçkilər keçirilmişdi. Naxçıvan MSSR-in 1937-ci il Konstitusiyasında Naxçıvan MSSR Ali Soveti deputatlarının sayı konkret göstərilməmişdi, səlahiyyət müddəti isə 4 il olmaqla hər iki min nəfər əhaliyə bir deputat seçmə norması müəyyənləşdirilmişdi. Lakin Naxçıvan MSSR Ali Soveti 24 iyul 1970-ci il tarixli qərarı ilə 1950-ci il dekabrın 13-də təsdiq edilmiş "Naxçıvan MSSR Ali Sovetinə seçkilər haqqında Əsasnamə"nin 25-ci maddəsinə düzəliş edərək Ali Sovetə nümayəndəlik normasını hər 2500 nəfər əhaliyə bir deputat şəklində təsbit etmişdi [109, v. 37; 199, v. 13].

"Azərbaycan SSR Ali Sovetinə, Naxçıvan MSSR Ali Sovetinə və Azərbaycan SSR-in yerli zəhmətkeş deputatları Sovetlərinə seçkilər haqqında" Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 26 fevral 1971-ci il tarixli qərarı ilə respublikada seçkilər 1971-ci il iyunun 13-ə təyin olunmuş [238, v. 31-32], muxtar respublikadan Azərbaycan SSR Ali Sovetinə 16 deputat, səkkizinci çağırış Naxçıvan MSSR Ali Sovetinə isə 80 deputat seçilmişdi [270, s. 38]. Muxtar respublika Ali Sovetində Naxçıvan şəhərindən 11, Naxçıvan rayonundan 15, Şərur rayonundan 25, Ordubad rayonundan 13, Culfa rayonundan 9, Şahbuz rayonundan 7 deputat təmsil olunurdu [230, pr. № 57, v. 21-30].

Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti 1975-ci il martın 19-da verdiyi qərarla muxtar respublikanın Ali Sovetinə nümayəndəlik normasını hər 2 min nəfər əhalidən bir deputat seçilməsi şəklində müəyyənləşdirmişdi [203, v.12-13]. Doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinə muxtar respublikadan seçilən deputatların sayı (16 nəfər) sabit qalmış, Naxçıvan MSSR Ali Sovetinə keçirilən seçkilərdə isə 100 deputat seçilmişdi. Muxtar respublikanın Ali Sovetinə Naxçıvan şəhərindən 14, Naxçıvan rayonundan 17, Şərur rayonundan 35, Ordubad rayonundan 15, Culfa rayonundan 11, Şahbuz rayonundan 8 deputat mandat almışdı. Azərbaycan SSR Ali Sovetində isə Naxçıvan şəhərini 3, Naxçıvan rayonunu 3, Şərur rayonunu 5, Ordubad rayonunu 2, Culfa rayonunu 2, Şahbuz rayonunu 1 deputat təmsil edirdi [214, v. 56-58, 78-82; 215, v. 64-68; 216, v. 1-100; 217, v. 78-82; 89-96].

Naxçıvan MSSR-in 1978-ci il Konstitusiyası ilə seçkilərlə bağlı bəzi dəyişikliklər qüvvəyə minmişdi. Naxçıvan MSSR Ali Soveti deputatlarının səlahiyyət müddəti artırılaraq 5 il, deputatların sayı isə 110 nəfər müəyyənləşdirilmişdi. Buna müvafiq olaraq onuncu çağırış Naxçıvan MSSR Ali Sovetinə 1980-ci il fevralın 24-də keçirilmiş seçkilərdə seçilən deputatların sayı 110 nəfər təşkil etmişdi [270, s. 38]. Həmin vaxt paralel olaraq keçirilən seçkilərdə Azərbaycan SSR Ali Sovetinə muxtar respublikadan seçilən deputatların da sayı 2 nəfər artaraq 18 deputata çatmışdı. On birinci çağırış Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə seçkilər 1985-ci il fevralın 24-də keçirilmiş, yenə respublika Ali

Sovetinə 18, muxtar respublikanın Ali Sovetinə 110 deputat seçilmişdi [160, v. 10]. Son iki çağırışda Naxçıvan MSSR Ali Sovetinin 10 daimi (mandat; qanunvericilik təşəbbüsləri; plan-büdcə; sənaye, tikinti, nəqliyyat və energetika; kənd təsərrüfatı və meliorasiya; ticarət, ictimai iaşə və əhaliyə məişət xidməti; səhiyyə və sosial təminat; elm, maarif, mədəniyyət; qadın əməyi və məişəti, analıq və uşaqların mühafizəsi məsələləri; gənclərin işləri üzrə) komissiyası yaradılmışdı. Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti 9 deputatdan ibarət tərkibdə seçilirdi [72, s. 177; 227, v. 138].

SSRİ Konstitusiyasına əsasən muxtar respublikalar SSRİ Ali Sovetinin Millətlər Sovetində 11 deputatla təmsil olunmaq hüququna malik idi. Naxçıvan MSSR 70-80-ci illərdə keçirilən bütün seçkilərin nəticələrinə əsasən SSRİ Ali Sovetinin Millətlər Sovetində 12, İttifaq Sovetində 1 deputatla təmsil olunmuşdu. Belə ki, muxtar respublika üçün ayrılmış konstitusion normadan əlavə Azərbaycan SSR üçün Millətlər Sovetində nəzərdə tutulmuş təmsilçilərdən 1-i də muxtar respublika üzrə yaradılmış seçki dairəsində seçilirdi. Bundan başqa, Naxçıvan MSSR-dən daha 1 deputat İttifaq Sovetinə seçilirdi. Belə ki, İttifaq Soveti ölkə üzrə əhalinin bərabər sayına əsaslanan seçki dairələrindən seçilən təmsilçilər əsasında formalaşırdı. Həm Azərbaycanda, həm də muxtar respublikada SSRİ Ali Sovetinə keçirilən seçkilərdə, adətən, mərkəzdən göndərilmiş və rus millətinə mənsub şəxslər seçilirdi. Həmin şəxslərin namizədliyi bir qayda olaraq onların yalnız adından və tutduqları vəzifədən başqa barəsində heç bir təsəvvürü olmayan muxtar respublikanın ayrı-ayrı əmək kollektivləri tərəfindən "irəli sürülürdü". Bu, mərkəzin onsuz da ciddi nəzarətində olan SSRİ Ali Sovetinin hər iki palatasında rusların çoxluğunu və palatalara çevik nəzarəti təmin etmək baxımından yürüdülən müstəmləkəçi siyasətin daha bir təzahürü idi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin "SSRİ Ali Sovetinə seçkilər haqqında" 19 mart 1970-ci il tarixli qərarı ilə sovet dövlətinin ali dövlət hakimiyyəti orqanına səkkizinci çağırış seçkilər 1970-ci il iyunun 14-də keçirilmiş [237, v. 13], Naxçıvan MSSR-dən SSRİ Ali Sovetinin Millətlər Sovetinə 12, İttifaq Sovetinə 1 deputat seçilmişdi [205, v. 165-168]. Sov.İKP MK-nın 27 dekabr 1973-cü il tarixli qərarı ilə SSRİ Ali Sovetinə seçkilər 1974-cü il iyunun 16-na təyin edilmiş, buna müvafiq olaraq Azərbaycan KP MK-nın 8 yanvar 1974-cü il tarixli "SSRİ Ali Sovetinə seçkilər haqqında" qərarı ilə SSRİ Ali Sovetinin İttifaq Sovetinə Azərbaycan SSR üzrə 15 seçki dairəsi, Millətlər Sovetinə Azərbaycan SSR üzrə 32, Naxçıvan MSSR üzrə 11, DQMV üzrə 5 seçki dairəsi təşkil edilirdi. 1974-cü il iyunun 16-da keçirilən növbəti, doqquzuncu çağırış seçkilərdə də muxtar respublikadan Millətlər Sovetinə və İttifaq Sovetinə seçilən deputatların sayı sabit qalmışdı [14, v. 221; 210, v. 22; 212, v. 1-13; 228, v. 1-252]. Muxtar respublikadan SSRİ Ali Sovetinin Millətlər Sovetinə seçilən deputatlar Naxçıvan şəhəri üzrə 2, Şərur rayonu üzrə 3, Naxçıvan rayonu üzrə 2, Ordubad rayonu üzrə 2, Culfa rayonu üzrə 1, Şahbuz

rayonu üzrə 1 deputat olmaqla seçilirdi [14, v. 232-233]. Azərbaycana Millətlər Sovetində təmsilçilik üçün ayrılan nümayəndəlik normasından Naxçıvana ayrılan yer üçün yalnız bir və İttifaq Soveti üzrə seçkilərdə muxtar respublika üzrə yalnız bir vahid seçki dairəsi yaradılmışdı [206, v. 115-117; 235, v. 29-31].

1977-ci ildə qəbul edilmiş SSRİ Konstitutusiyası ilə xalq deputatları Sovetlərinin səlahiyyət müddəti 4 ildən 5 ilə qaldırılmışdı [274, s. 22]. 1979-cu ildə keçirilən onuncu çağırış seçkilərdə Naxçıvana ayrılan nümayəndəlik üzrə muxtar respublikada yaradılmış 613-623 №-li seçki dairələrindən və Azərbaycana ayrılmış nümayəndəlik üzrə 215 №-li seçki dairəsi üzrə Millətlər Sovetinə, 681 №-li seçki dairəsi üzrə isə İttifaq Sovetinə deputatlar seçilmişdi [235, v. 29-31]. 1984-cü ildə keçirilən on birinci çağırış seçkilərdə də muxtar respublika SSRİ Ali Sovetində yenə də 13 deputatla təmsil olunurdu [277, s. 24]. 1988-ci il dekabrın 1-də "SSRİ xalq deputatlarının seçkiləri haqqında" SSRİ-nin Qanunu qəbul edildikdən sonra SSRİ-nin 1977-ci il Konstitusiyasına da dəyişikliklər edildi. Bərabər sayda (hər birinin 750 deputatı) üzvləri olan İttifaq Soveti və Millətlər Sovetindən ibarət ikipalatalı SSRİ Ali Soveti daimi fəaliyyət göstərən qanunverici, sərəncamverici və nəzarət orqanı idi. SSRİ Ali Sovetinin deputatları əvvəlkitək bütün ölkə üzrə keçirilən seçkilərdə deyil, 1989-cu il martın 26-dan mayın 21-dək keçirilən 2249 deputatı olan SSRİ Xalq deputatları Qurultayının iclaslarında seçildi. Bu seçkilərdə Naxçıvan MR-dən olan təmsilçilik norması əvvəlki kimi saxlanılmışdı [285; 289].

Yerlərdə sovet hakimiyyətini yerli seçkilər vasitəsilə formalaşdırılan xalq (zəhmətkeş) deputatları sovetləri həyata keçirirdi. Naxçıvan MSSR-in 1937-ci il Konstitusiyasına əsasən muxtar respublikanın yerli sovetlərinə deputatlar 2 il müddətinə seçilirdi. 70-80-ci illər ərzində muxtar respublikada bütün səviyyələrdən olan sovetlər üzrə səkkiz dəfə seçkilər keçrilmişdi. Naxçıvan MSSR-də on ikinci çağırış zəhmətkeş deputatları sovetlərinə seçkilər 1969-cu il martın 16-da keçirilmiş və 1971-ci ilədək səlahiyyətli olmuşdu. Həmin seçkilərdə 5 rayon sovetinə 375, 3 şəhər sovetinə 187, 3 qəsəbə sovetinə 75, 55 kənd sovetinə 1757 deputat olmaqla, bütün səviyyələrdən olan sovetlər üzrə cəmi 2394 nəfər deputat seçilmişdi [229, v. 4, 8-10; 262, 1969, 20 mart].

70-ci illərdə yerli sovetlərə ilk seçkilər (on üçüncü çağırış) 1971-ci il iyunun 13-də keçirilmiş [238, v. 31-32], 5 rayon, 3 şəhər, 55 kənd və 3 qəsəbə zəhmətkeş deputatları sovetinə bütövlükdə 2404 deputat seçilmişdi [200, v. 13; 291, pr. № 2, v. 8]. 1973-cü ilin və 1975-ci ilin iyun aylarında keçirilmiş (on dördüncü və on beşinci çağırış) seçkilərdə seçkilərin keçirildiyi yaşayış məntəqələrinin sayı sabit qalmış, yerli sovetlərə seçilən deputatların sayı isə müvafiq olaraq 2478 və 2509 [213, v. 1; 292, pr. № 2, v. 3-4], 1977-ci il iyunun 19-da keçirilən (on altıncı çağırış) seçkilərdə 5 rayon, 3 şəhər, 3 qəsəbə və 56 kənd sovetinə cəmi 2574 deputat seçilmişdi [219, v. 122-123; 220, v. 1; 221, v. 7-8; 224, v. 14].

Naxçıvan MSSR-in 1978-ci il Konstitusiyası ilə "zəhmətkeş deputatları so-

vetləri" – "xalq deputatları sovetləri" adlandırılmış, yerli sovetlərin səlahiyyət müddəti artırılaraq 2,5 il müəyyən edilmişdi. 1980-ci il fevralın 24-də yerli xalq deputatları sovetlərinə keçirilmiş seçkilər nəticəsində 5 rayon, bir respublika tabeliyində olan şəhər soveti, iki rayon tabeliyində olan şəhər soveti, 4 qəsəbə və 56 kənd xalq deputatları sovetlərinə əvvəlki çağırışda seçilmiş deputatların sayından 90 nəfər çox, ümumilikdə 2664 deputat seçilmişdi. Rayon sovetlərinə 395, Naxçıvan Şəhər Sovetinə 100, rayon tabeliyində olan şəhər (Ordubad və Culfa) sovetlərinin hər birinə 100, qəsəbə sovetlərinə 109, kənd sovetlərinə ümumilikdə 1960 nəfər deputat seçilmişdi [224, v. 4, 12-14]. 1982-ci il iyunun 20-də keçirilmiş növbəti (on səkkizinci çağırış) seçkilər 5 rayon, 4 şəhər, 3 qəsəbə, 61 kənd sovetini əhatə etmiş, 395-i rayon, 365-i şəhər, 75-i qəsəbə, 2069-u kənd xalq deputatları sovetinə seçilməklə, ümumilikdə yerli sovetlərə 2904 deputat seçilmişdi [225, v. 179; 227, v. 138]. 1985-ci il fevralın 24-də (on doqquzuncu çağırış) yerli xalq deputatları sovetlərinə keçirilmiş seçkilərdə yaşayış məntəqələrinin sayı dəyişməmiş, seçilən deputatların sayı isə müvafiq olaraq 410, 385, 75, 2100 və ümumilikdə 2970 olmuşdu [160, v. 10; 231, v. 18-19]. Yerli sovetlərə son (iyirminci çağırış) seçkilər 1987-ci il iyunun 21-də keçirilmiş və bütün səviyyələr üzrə yerli sovetlərin və onlara seçilən deputatların sayında dəyişiklik olmamışdı [232, v. 2-3; 233, v. 1-5].

1990-cı ilin əvvəlləri üçün muxtar respublikada ictimai-siyasi vəziyyətin xeyli gərginləşməsi növbəti seçkiləri (1990-cı ilin fevral ayında keçirilməli idi) keçirməyə imkan vermədiyindən Naxçıvan MSSR Ali Sovetinin 22 fevral 1990-cı il tarixli qərarı ilə on birinci çağırış (1985-ci il) muxtar respublika Ali Sovetinin deputatlarının və iyirminci çağırış (1987-ci il) yerli xalq deputatı sovetlərinin deputatlarının səlahiyyət müddəti, həmçinin muxtar respublika Ali Sovetinə və yerli sovetlərə tabe olan dövlət orqanları və vəzifəli şəxslərin səlahiyyətləri növbəti seçkilər keçirilənədək uzadılmışdı [188, v. 8-9, 29; 189, v. 14].

1985-ci il seçkilərindən sonra Naxçıvan MSSR Nazirlər Sovetinin yeni tərkibi Nazirlər Sovetinin sədri, onun 3 müavini, 12 nazir, 5 komitə sədri, 3 idarə rəisi, kənd təsərrüfatına aqrokimyəvi xidmət istehsalat birliyinin rəisi və Nazirlər Sovetinin işlər müdirindən (16 nəfərdən) ibarət formalaşdırılmışdı [159, v. 59-60]. Nazirlər Soveti öz iclaslarında, adətən, sosial-iqtisadi məsələləri müzakirə edir, muxtar respublikanın büdcəsini və sosial-iqtisadi inkişaf planlarını hazırlayır, icra hakimiyyəti səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı cari məsələləri müzakirə edirdi. Rayon (şəhər) xalq deputatları sovetlərinin icraiyyə komitələri rayon (şəhər) səviyyəsində yerli icraedici orqan funksiyalarını həyata keçirən orqanlar kimi fəaliyyət göstərirdi.

1970-80-ci illərdə ümummilli lider Heydər Əliyevin Azərbaycanda yürütdüyü siyasətin əsas prinsiplərindən biri də yüksək təhsilli mütəxəssislərin və bacarıqlı kadrların irəli çəkilməsi üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsi idi. İdarəçilikdə qadınların və gənclərin qüvvəsindən istifadə etmək bu tədbirlərin

mühüm istiqamətini təşkil edirdi. Belə ki, əgər 1972-ci ildə Naxçıvan VPK-nın nomenklaturasında cəmi 25 nəfər qadın var idisə, 1974-cü ildə onların sayı artaraq 41-ə çatmışdı. 70-80-ci illərdə Naxçıvan MSSR Ali Sovetinə keçirilən bütün seçkilərdə deputat mandatı qazananların içərisində qadınlar həmişə əhəmiyyətli saya malik olmuşlar. 1971-ci il iyunun 13-də keçirilən səkkizinci çağırış Naxçıvan MSSR Ali Sovetinə seçkilərdə deputat mandatı almış 80 nəfərin 35-i (43,75 faizi) qadınlar idi [271, s. 13-14]. 1975-ci il iyunun 15-də keçirilən doqquzuncu çağırış seçkilərdə seçilmiş 100 deputatın 48-i (48 faiz) [272, s. 14-15], 1980-ci il fevralın 24-də keçirilən onuncu çağırış seçkilərdə seçilmiş 110 deputatın 52-i (47,3 faizi) [224, v. 13; 277, s. 24], 1985-ci il fevralın 24-də baş tutmuş on birinci çağırış seçkilərdə Ali Sovetin 110 deputatından 53-ü (48,2 faiz) qadınlar olmuşdu [236, v. 17].

Muxtar respublikada mədəniyyət, təhsil, səhiyyə sahəsində çalışanların əksəriyyəti qadınlar idi. Həkimlərin və orta tibb işçilərinin 60,7 faizini, müəllimlərin 70 faizini, mədəni-maarif işçilərinin 60 faizə qədərini qadınlar təşkil edirdi [71, s. 109]. Kənd təsərrüfatında və sənaye sahəsinə məxsus yeni müəssisələrin çoxunda qadın əməyi üstünlük təşkil edirdi. Naxçıvanda qadınların üstünlük təşkil etdiyi istehsal sahələrinin inkişafı, tikiş fabriki, alt trikotaj fabriki, konserv zavodu, şüşə qablar zavodu, xalça kombinatı, quşçuluq fabriki və digər yeni sənaye müəssisələrinin sayının artması muxtar respublikada işləyən qadınların sayında ciddi artımla müşayiət olunmuşdu. 1984-cü ilin əvvəllərində Naxçıvan Aqrar İstehsalat Birliyinin əhatə etdiyi 20 sovxozda çalışan 14472 işçidən 9632-ni (66,5 faizini) qadınlar təşkil edirdi. Naxçıvan Tikiş Fabrikində 680 işçidən 630-u (92,6 faizi), Naxçıvan Elektrotexnika Zavodunda 442 işçidən 288-i (65,1 faizi), yerli istehsal sənaye kombinatında 154 işçidən 94-ü (61 faizi), tütün-fermentasiya zavodunda 150 işçidən 113-ü (75,3 faizi), alüminium qablar zavodunda 210 işçidən 80-i (38,1 faizi), alt trikotaj fabrikində 1280 işçidən 900-ü (70,3 faizi), şüşə qablar zavodunda 464 işçidən 170-i (36,6 faizi), Ordubad Konserv Zavodunda 701 işçidən 376-sı (53,6 faizi), Ordubad Baramaaçan Fabrikində 854 işçidən 597-si (69,9 faizi) qadınlar idi [227, v. 180, 183-191]. 1980-ci illərin sonlarında istehsalat işçilərinin ümumi sayının 47,7 faizini qadınlar təşkil edirdi [249, s. 61].

1970-80-ci illərdə Naxçıvanda təhsilin yüksək inkişafı muxtar respublika qadınlarının daha geniş kütləsinin təhsillə əhatə olunmasına şərait yaratmışdı. Nəticədə qadınlar arasında ali və orta təhsilli şəxslərin sayı xeyli artmışdı. Əgər 1970-ci ildə Naxçıvan MSSR-də hər 1000 qadından 10-u ali, 354-ü orta (tam və natamam) təhsilli olmaqla, cəmi 364 qadın təhsilə malik idisə, 1979-cu ildə bu rəqəmlər müvafiq olaraq 24, 552 və 576 idi [277, s. 9].

Naxçıvanlı qadınların bir çoxu keçmiş SSRİ-nin orden və medalları ilə təltif olunmuşdu. Naxçıvanda 30-a yaxın Sosialist Əməyi Qəhrəmanının 18-i qadınlar idi. 1980-ci illərin əvvəllərində 1429 qadın "Qəhrəman ana" ordeni, 19504 qadın "Analıq şərəfi" ordeni, 31091 qadın isə "Analıq" medalı ilə təltif olunmuşdu [72, s. 152-153].

Bu dövrdə gənclər də cəmiyyətin ən fəal təbəqəsi kimi müxtəlif sahələrdə geniş təmsil olunurdular. Nomenklaturaya daxil olan işçilərin sayında 40 yaşadək olanların sayı 60 faizdən çox idi. Naxçıvan MSSR Ali Soveti və yerli sovetlərin deputatlarının əhəmiyyətli hissəsi, adətən, 30 yaşınadək olan gənclərdən ibarət seçilirdi [262, 1974, 30 may]. Səkkizinci çağırış (1971) Naxçıvan MSSR Ali Sovetinə seçkilərdə deputat mandatı qazanmış 80 nəfərdən 14-ü 24 yaşadək, 9-u 25-29 yaş arası gənclər idi. Daha 27 deputatın yaşı isə 30-39 yaş arasında idi. Başqa sözlə, muxtar respublika Ali Sovetinin 80 deputatından 50-ni (62,5 faizini) 40 yaşadək olanlar təşkil edirdi [271, s. 14]. Doqquzuncu çağırış (1975) muxtar respublika Ali Sovetinə seçkilərdə seçilmiş 100 deputatın 15-i 25-29 yaş arası gənclər, 32 nəfəri 30-39 yaş arasında olan şəxslər idi. Ali Sovetin yeni seçilmiş tərkibində 40 yaşınadək olan deputatların xüsusi çəkisi 47 nəfər (47 faiz) idi [272, s. 15]. Onuncu çağırış seçkilərdə (1980) seçilmiş 110 deputatın 36-nı (32,7 faiz) 30 yaşadək olan gənclər təşkil edirdi [224, v. 14]. On birinci çağırış seçkilərdə (1985) Ali Sovetin 110 deputatından 19-u 24 yaşadək, 18-i 25-29 yaş arası gənclər idi. 19 deputatın yaşı isə 30-39 arasında idi. Başqa sözlə, muxtar respublika Ali Sovetində 40 yaşadək olanlar 56 yerə (50,9 faiz) sahib idilər [272, s. 28].

Azərbaycana rəhbərliyi dövründə ümummilli lider Heydər Əliyevin ən çox diqqət göstərdiyi sahələrdən biri də gənclərin müxtəlif hərbi peşələrə yiyələnməsi, hərbi təhsilin yüksəldilməsi və milli hərbçi kadrların hazırlanması idi. O, bu sahədə ilk addımlarını rəhbərliyinin ilk günlərindən atmağa başlamış, onun təşəbbüsü ilə Azərbaycan KP MK-nın 1969-cu il avqustun 12-də keçirilmiş iclasında çağırış yaşına çatmamış və çağırışçı gənclərin müalicə-sağlamlıq işlərinin yaxşılaşdırılması haqqında [7, pr. № 107, § 2, v. 2], həmin il oktyabrın 21-də isə azərbaycanlı gənclərin hərbi-vətənpərvərlik hisslərinin yüksəldilməsi, gənclərin hərbi sahəyə marağının artırılması məqsədi ilə "Gənc hərbi-vətənpərvərlər məktəbinin yaradılması haqqında" qərar qəbul olunmuşdu [104, v. 77].

Naxçıvan VPK 30 dekabr 1969-cu il tarixli büro ilcasında qəbul etdiyi qərarla Azərbaycan KP MK-nın 21 oktyabr 1969-cu il tarixli qərarını icra üçün rəhbərliyə almış, Naxçıvan MSSR Maarif Nazirliyinə, Azərbaycan LKGİ-nin Naxçıvan Vilayət Komitəsinə, Naxçıvan MSSR-in Hərbi Komissarlığına tapşırmışdı ki, muxtar respublikada dislokasiya olunmuş 91111 №-li hərbi hissənin komandanlığına və siyasi şöbəsinə gənc hərbi-vətənpərvərlər məktəbinin yaradılması və məktəbə şəhər ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin və texniki peşə məktəbləri şagirdlərinin cəlb olunması işinə əməli kömək göstərsinlər. Azərbaycan KP Naxçıvan Şəhər Komitəsinə tapşırılmışdı ki, həmin hərbi hissənin komandanlığı ilə birgə gənclərin hərbi məktəblərə qəbulunda və SSRİ Silahlı Qüvvələrində xidmət üçün vacib rol oynamağa hesablanmış gənc hərbi-vətənpərvərlər məktəbinin işinin uğurlu təşkili üçün zəruri şərait yaratsın [104, v. 77].

1981-ci il avqustun 19-da Naxçıvan VPK bürosunda "C.Naxçıvanskinin

anadan olmasının 85 illiyi haqqında" Azərbaycan KP MK-nın 28 iyul 1981-ci il tarixli qərarı müzakirə və icra üçün qəbul olunaraq müvafiq qərar qəbul edilmişdi. 1981-ci ilin oktyabrında Naxçıvan şəhərində təntənəli yubiley yığıncağının keçirilməsi, C.Naxçıvanskiyə abidə qoyulması, orta məktəblərdən birinə onun adının verilməsi, muzeyinin yaradılması və s. qərara alınmışdı [138, v. 22-24]. 1971-ci ildə Bakıda hərbi internat məktəbinin açılmasından sonra C.Naxçıvanskinin adı respublikada gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi işində mühüm təbliğat amilinə çevrilmişdi.

1980-1983-cü illərdə hərbi xidməti vəzifələrini nümunəvi yerinə yetirdiklərinə görə 9 nəfər naxçıvanlı çağırışçı SSRİ-nin orden və medalları ilə təltif edilmişdi. Halbuki əvvəllər bir nəfər belə dövlət səviyyəsində təltif olunmamışdı. 1983-cü ilin yekunlarına görə muxtar respublika hərbi komissarlığı ilk dəfə olaraq Azərbaycan SSR Hərbi Komissarlığının keçici Qırmızı bayrağına layiq görülmüşdü [156, v. 70-71]. 1984-cü ilin may ayında isə muxtar respublika hərbi komissarlığı Sovet Müharibə Veteranları Komitəsinin fəxri fərmanı ilə təltif edilmişdi. Həmin il Azərbaycan KP Naxçıvan VPK və Naxçıvan MSSR Nazirlər Sovetinin keçici Qırmızı bayrağı həqiqi hərbi xidmətə çağırış işində ən yaxşı göstəricilərinə görə Culfa Rayon Hərbi Komissarlığında saxlanılmışdı [119, v. 114].

1970-80-ci illərdə muxtar respublikanın inzibati-ərazi bölgüsündə müəyyən dəyişikliklər baş vermişdi. 1969-cu ilin mart-aprel aylarında baş vermiş təbii fəlakət – yer sürüşməsi nəticəsində Şahbuz rayonunun Zırnel kəndinin həmin ərazidə saxlanması qeyri-mümkün olduğundan Şahbuz Rayon Zəhmətkeş Deputatları Sovetinin 25 sentyabr 1970-ci il tarixli qərarı ilə həmin kənd ləğv edilmiş, əhalisi ilə Aşağı Remeşin kəndinə köçürülmüşdü [107, v. 88].

Azərbaycan KP MK bürosu 22 avqust 1972-ci il tarixli qərarı ilə Naxçıvan MSSR-in Culfa, Şərur, Naxçıvan və Şahbuz rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi barədə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin təkliflərini qəbul etmişdi [8, v. 176-177]. Azərbaycan KP MK bürosu 27 sentyabr 1978-ci il tarixli qərarı ilə Naxçıvan MSSR-in Naxçıvan rayonunun Babək rayonu adlandırılması barədə Naxçıvan VPK-nın təklifini dəstəkləyərək rəsmiləşdirmişdi [21, v. 134-137]. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 23 oktyabr 1978-ci il tarixli qərarı ilə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Naxçıvan rayonu mərkəzinin Naxçıvan şəhərindən Təzəkəndə köçürülməsi və Naxçıvan rayonunun Babək rayonu adlandırılması haqqında fərmanı təsdiq edilmişdi. Azərbaycanın ali dövlət hakimiyyəti orqanının həmin gün verdiyi başqa bir qərarla Babək rayonunun mərkəzi olan Təzəkənd şəhər tipli qəsəbə kateqoriyasına daxil edilmiş və Babək qəsəbəsi adlandırılmışdı [223, v. 59, 61]. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 24 oktyabr 1980-ci il tarixli fərmanı ilə Ordubad və Culfa şəhərləri Naxçıvan Muxtar Respublikası tabeliyində şəhər kateqoriyasına aid edilmişdi [226, v. 21].

Sovet cəmiyyətində kommunist partiyasının təkbaşına bütün dövlətə, seçkili və idarəçilik orqanlarına, hətta ictimai təşkilatlara çox ciddi nəzarəti və rəhbərliyi bərqərar olmuşdu. Buna görə də cəmiyyətin həyatında fəal iştirak etmək istəyən hər bir kəsin öz perspektivini bu partiyanın sıralarında görməkdən başqa yolu yox idi. 1969-cu ilin oktyabr ayının 1-ə muxtar respublikada Sov.İKP-nin 420 ilk partiya təşkilatında birləşmiş 8603 üzvü var idi ki, bunların da 8271-i partiya üzvü, 332-si üzvlüyə namizəd idi [103, v. 9]. 1983-cü il yanvarın 1-ə olan məlumata görə Naxçıvan VPK öz sıralarında 530 ilk təşkilat üzrə 11814 kommunisti birləşdirirdi. Onlardan 11329-u Sov.İKP üzvü, 485-i üzvlüyə namizədlər idi [146, v. 5]. 1989-cu ilin əvvəlində isə muxtar respublikanın 13781 kommunisti 599 ərazi ilk partiya təşkilatında birləşmişdi. Bunların 70,7 faizi fəhlə və kolxozçular, 24,4 faizi qadınlar idi [183, v. 5].

70-80-ci illərdə Naxçıvan MSSR-də əsas hakimiyyət orqanları Naxçıvan VPK, Naxçıvan MSSR Ali Soveti və Naxçıvan MSSR Nazirlər Soveti idi.

1971-1988-ci illərdə Naxçıvan VPK özünün səkkiz (XXIX-XXXVI) konfransını keçirmişdi. Konfranslarda bir qayda olaraq Naxçıvan VPK-nın birinci katibi konfranslararası dövrə dair muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafı, partiya-ideoloji işin müxtəlif cəhətlərinə dair hesabat məruzəsi ilə çıxış edir, sonra isə Naxçıvan VPK-ya üzvlər, üzvlüyə namizədlər, təftiş komissiyası, Azərbaycan KP-nin növbəti qurultayına nümayəndələr seçilir, konfransın qətnaməsi, bəzi hallarda hesabat dövrünə yekun vuran və qarşıdakı bir neçə ili əhatə edən sosial-iqtisadi inkişaf proqramının əsas cəhətlərinin əks olunduğu qərar qəbul edilirdi [112; 121; 126; 133; 151; 157; 174].

Sovet hakimiyyəti illərində Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı (ÜİLKGİ) mahiyyətcə Sov.İKP-nin gənclər təşkilatı kimi fəaliyyət göstərirdi. 1971-ci ilin dekabr ayında ÜİLKGİ Naxçıvan Vilayət Komitəsi 356 ilk komsomol təşkilatında 22475 gənci [114, v. 23], 1984-cü ildə isə 57,5 min gənc komsomolçunu birləşdirirdi [81, s. 124] 1987-ci ilin yanvarına olan məlumata görə, ÜİLKGİ Naxçıvan vilayət komsomol təşkilatının sıralarında 656 ilk təşkilat üzrə 59291 komsomolçu var idi [171, v. 21]. Komsomol təşkilatları gənclər arasında ictimai-siyasi, mənəvi-ideoloji tərbiyə, təbliğat və təşviqat, mədəni-kütləvi tədbirlərin əsas təşkilatçıları idi.

Bütün ölkədə və respublikada olduğu kimi, Naxçıvan MSSR-də də ən böyük ictimai təşkilat həmkarlar ittifaqları idi. Naxçıvan Vilayət Həmkarlar İttifaqları Şurası (VHİŞ) 1967-ci il noyabrın 16-da Naxçıvan Həmkarlar İttifaqı Mərkəzi adı ilə irqindən, dinindən, cinsindən, dini əqidəsindən asılı olmayaraq bütün peşələrdən olan fəhlə, qulluqçu və tələbələri birləşdirən ən böyük ictimai təşkilat kimi yaradılmışdı. Təsis olunarkən tərkibində 6 vilayət, 27 rayon və şəhər komitəsini, 463 ilk həmkarlar ittifaqı təşkilatında 31000 həmkarlar ittifaqı üzvünü birləşdirirdi [98, s. 152]. 1971-ci ilin dekabr ayında Naxçıvan VHİŞ 2 vilayət, 27 rayon

(şəhər), 2 birləşmiş və 577 fabrik, zavod yerli komitələrini əhatə edirdi. Muxtar respublikada olan 34372 fəhlə və qulluqçunun 32925-i həmkarlar ittifaqının üzvü idi [114, v. 112]. Ümummilli lider Heydər Əliyev 1974-cü ildə Naxçıvan VHİŞ-in binasının açılışında iştirak etmiş və çıxışında şuranın fəaliyyətini yüksək qiymətləndirmişdi [98, s. 152]. 1983-cü ilin əvvəllərində Naxçıvan VHİŞ vilayət, rayon və birləşmiş komitələr səviyyəsində 39 həmkarlar komitəsini və 738 ilk həmkarlar təşkilatını əhatə edirdi. 1980-1981-ci illərdə muxtar respublikada həmkarlar ittifaqları üzvlərinin sayı 6178 nəfər artaraq 88499 nəfərə, 1984-cü ilin mart ayında 90 min nəfərə çatmışdı [147, v. 6; 152, v. 24]. Təşkilatca genişləndirilməsi və üzvlərinin formalaşdırılmasına göstərilən qayğı nəticəsində 1990-ci illərin əvvəllərində Şuranın tərkibində 100 min həmkarlar ittifaqı üzvünü birləşdirən 738 həmkarlar ittifaqı komitəsi, 28 rayon və şəhər, 2 birləşmiş və 7 sahə komitəsi fəaliyyət göstərirdi [98, s. 152].

Hər bir rayonda ayrıca şöbəsi olan Qırmızı Aypara Cəmiyyəti muxtar respublikanın əsas xeyriyyə təşkilatı idi. "Bilik" cəmiyyəti kütləvi maarifləndirici təbliğat işi ilə məşğul olur, cəmiyyətin tez-tez dəvət etdiyi ziyalılar müxtəlif müəssisə və kollektivlərdə, KİV-də sovet siyasi ideologiyasının təbliği istiqamətində mühazirələr və məqalələrlə çıxış edirdi. Bundan başqa, muxtar respublikada Ağsaqqallar Şurası, müharibə və əmək veteranlarının şuraları, qadın komitələri kimi ictimai təşkilatlar da mövcud idi.

Muxtar respublikada könüllü cəmiyyətlər də fəaliyyət göstəriridi. 1983-cü il sentyabrın 27-də Naxçıvan VPK bürosu "Könüllü cəmiyyətlərin fəaliyyətinin yaxşılaşdırılması haqqında" qərar qəbul etmişdi. 1985-ci ilin yanvarına muxtar respublikada formal olaraq 150 min nəfərlik əhalini əhatə edən 20 könüllü cəmiyyət fəaliyyət göstərirdi. Bu cəmiyyətlərin əsas vəzifəsi dövlət rəhbərliyinin və partiyanın rəhbər orqanlarının direktiv qərar və göstərişlərinin həyata keçirilməsində, muxtar respublikada xalq təsərrüfatı planlarının və sosialist öhdəliklərinin ödənilməsində, əhalinin yaradıcılıq təşəbbüsünün müdafiə edilib geniş yayılmasında əmək kollektivlərində, iş yerlərində, əhali arasında təşkilati və kütləvi izahat işlərinin aparılmasından ibarət idi [163, v. 29-30].

1959-cu ildən Azərbaycanda ictimai asayişin mühafizəsi üzrə könüllü xalq drujinaları fəaliyyət göstərirdi. Azərbaycan KP MK-nın 1984-cü il fevralın 1-də "İctimai asayişin mühafizəsi üzrə könüllü xalq drujinalarının yaradılmasının 25 illiyi haqqında" qərar qəbul etmişdi. Naxçıvan VPK özünün 7 mart 1984-cü il tarixli iclasında həmin qərarı müzakirə edərək icra üçün qəbul etmiş və asayişçi xalq drujinalarının yaradılmasının yubileyi münasibəti ilə muxtar respublikada keçiriləcək tədbirləri müəyyənləşdirmişdi [153, v. 8-9]. Xalq drujinaları muxtar respublikada daha çox sovet dövlətçiliyinin ideoloji əsaslarına zidd olan halların qarşısının alınması ilə bağlı ictimai nəzarət funksiyasını həyata keçirirdi. Ayrı-ayrı yaşayış məntəqələrində kütləvi dini mərasimlərin keçirilməsi zamanı onun qarşısının alın-

masında drujinaçıların fəallığı müşahidə olunurdu [227, v. 243-244]. Əslində xalq drujinalarının, demək olar ki, bütün heyəti komsomolçulardan ibarət olurdu.

Naxçıvan MSSR Mədəniyyət Abidələrinin Mühafizəsinə Könüllü Yardım Cəmiyyətinin məqsədi qədim tarixi və müasir mədəni abidələrlə zəngin olan muxtar respublikada həmin maddi-mədəniyyət abidələrinin ictimai mühafizəsini təşkil etməkdən ibarət idi. Cəmiyyətin sıralarında yüzlərlə könüllü birləşmişdi.

Azərbaycan SSR Könüllü Kitabsevənlər Cəmiyyətinin Naxçıvan respublika təşkilatı özünün 440 ilk təşkilatı və mühazirə şurası ilə birlikdə muxtar respublikada fəal şəkildə kitab təbliğatı ilə məşğul idi. Muxtar respublikada 1200 nəfərin kitab fondu 500-dən 10 min nüsxəyədək olan şəxsi kitabxanaları var idi [162, v. 10]. Azərbaycan SSR-in bir çox yaradıcılıq ittifaqlarının Naxçıvan MR üzrə şöbələri təsis olunmuşdu. 1982-ci ilin əvvəllərində muxtar respublikanın idarə, müəssisə və təşkilatlarında 240 nəfər yaradıcı ziyalı çalışırdı. Onların 42-si yazıçı və şair, 39-u rəssam, 33-ü teatr işçisi, 104-ü jurnalist və mətbuat işçisi, 12-si memar, 10-u bəstəkar idi. Həmin ziyalılar respublikanın yaradıcılıq ittifaqlarının Naxçıvandakı şöbələri ətrafında birləşmişdilər. Naxçıvan MSSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində, "Sovet Naxçıvanı" və "Sovetskaya Naxiçevan" vilayət qəzetlərinin redaksiyasında 62 jurnalist işləyirdi. Onların 12-si Azərbaycan SSR Yazıçılar İttifaqının, 48-i SSRİ Jurnalistlərt İttifaqının üzvü idi. Yaradıcı ziyalıların 130-u Naxçıvan şəhərində, 24-ü Şərur, 15-i Babək, 22-si Ordubad, 19-u Culfa, 14-ü Şahbuz rayonunda fəaliyyət göstərirdi [143, v. 23-24].

3. Naxçıvanda iqtsadi yüksəlişin başlanması

1970-ci ildən bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da sosial-iqtisadi yüksəliş dövrü başladı. Ümummilli lider Heydər Əliyev Naxçıvana hər səfərində iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı ilə bağlı məsələləri araşdırmış, muxtar respublika sənayesi və kənd təsərrüfatının aktual problemlərini diqqət mərkəzində saxlamışdı. O, bu problemlərin həlli üçün göstərişlər vermiş, muxtar respublika iqtisadiyyatının sürətli inkişafını təmin etmək üçün bütün zəruri addımları atmış və bu sahədə qarşıya qoyduğu vəzifələrin həllini gündəlik nəzarətdə saxlamışdı. Nəticədə Naxçıvan MSSR 70-80-ci illərdə özünün sosial-iqtisadi inkişafında mühüm yüksəliş mərhələsini yaşamışdı.

Azərbaycan SSR Nazirlər Sovetinin 1971-ci il oktyabrın 18-də qəbul etdiyi "Naxçıvan MSSR-in meliorasiya və su təsərrüfatı məsələlərinin təxirəsalınmaz və perspektiv məsələləri haqqında" 98/10 №-li protokol qərarında muxtar respublika təsərrüfatlarının su ilə təminatının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu [11, v. 15-17; 14, v. 212]. Azərbaycan KP MK bürosu 22 oktyabr 1971-ci il tarixli iclasında muxtar respublikanın iqtisadiyyatı və mədəniyyətinin inkişafı haqqında məsələni geniş müzakirə etmiş, həmin ilin

noyabr-dekabr və 1972-ci ilin yanvar aylarında Azərbaycanın, demək olar ki, bütün nazirlik və idarə rəhbərləri Naxçıvanda olmuşdular. Bu səfərlər zamanı Naxçıvan Hava Limanında yeni yay meydançasının tikintisi və Bakı-Naxçıvan sərnişin təyyarə reyslərinin müntəzəm təşkili, Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialının bazasında müstəqil pedaqoji institutun, Naxçıvan şəhərində Azərbaycan SSR EA-nın elmi mərkəzinin yaradılması və bir sıra başqa məsələlərin həlli razılaşdırılmışdı [10, v. 1].



Arpaçay Su Anbarının tikintisi 1975-ci il

1969-cu ildə "Arazsutikinti" İdarəsi (1971-ci ildə bu idarə ləğv edilmiş, tikintinin əsas podratçısı "Arpaçaysutikinti" olmuşdu) tərəfindən tikintisinə başlanmış 21,6 min ha sahənin su ilə təmin edilməsi üçün nəzərdə tutulan, 140 mln. kubmetr həcmi olan Arpaçay su anbarının 5 il müddətində inşa edilməsi nəzərdə tutulmuşdu. Azərbaycan KP MK bürosu 17 oktyabr 1972-ci il tarixli iclasında "Naxçıvan MSSR-də Arpaçay üzərində su anbarı tikintisinin vəziyyəti və yaxşılaşdırılması tədbirləri haqqında" qərar qəbul etmişdi [9, v. 24-25, 54]. Azərbaycan KP MK-nın 28 avqust 1973-cü il tarixli "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılmasının 50 illiyinin qeyd edilməsi haqqında" qərarından sonra [124,v.42] muxtar respublikanın bir sıra göstəricilər üzrə orta respublika səviyyəsindən geri qaldığını nəzərə alan Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti 1974-cü il yanvarın 8-də "Naxçıvan MSSR-in xalq təsərrüfatının inkişafına dair tədbirlər haqqında" mühüm bir qərar qəbul etmişdi [14, v. 187-195].

Nəticədə Naxçıvanın iqtisadi həyatında qısa müddətdə intensiv inkişaf meyilləri özünü göstərməyə başladı. Əgər muxtar respublika iqtisadiyyatına 1966-1968-ci illərdə hər il orta hesabla 30,3 mln. (üç ildə cəmi 91 mln.) manat vəsait yönəldilmişdisə, 1969-1970-ci illərdə bu vəsait hər il üçün orta hesabla 52,5 mln. (iki il üçün cəmi 105 mln.) manata çatdırıldı [93, s. 31].

Sənayenin inkişafı. Uzun müddət durğunluq dövrü yaşayan sənaye 70-80-ci illərdə Naxçıvan MSSR iqtisadiyyatının sürətlə inkişaf edən sahəsinə çevrilmişdi. Sənaye məhsulu 1970-ci ildə əvvəlki ilə nisbətən 36,1 faiz, 1969-1970-ci ildə 83 faiz olmaqla, əvvəlki 3 illə müqayisədə 4,1 dəfə çox artmışdı [93, s. 31]. 1971-ci ildə muxtar respublikada plandan artıq 3,8 mln. manatlıq sənaye məhsulu satışı həyata keçirilmiş, bir il ərzində bu göstərici 23,5 faiz yüksəlmişdi. Sənaye məhsulu istehsalı 11 faiz və ya 5,6 mln. manat artaraq 56,6 mln. manat təşkil etmişdi [116, v. 15]. 1970-ci ilin əvvəlləri üçün sənaye və tikinti sahəsində çalışanların sayı 10858-ə çatmışdı [106, v. 21].

1971-1973-cü illərdə muxtar respublikada sənaye məhsulu istehsalının həcmi 27 faiz artmış, bir sıra sənaye məhsullarının keyfiyyəti yaxşılaşmışdı. 1973-cü ildə əmək məhsuldarlığı 1972-ci ilə nisbətən 14 faiz yüksəlmiş, sənayedə ümumi məhsul istehsalının artması əsasən bu yüksəlmə hesabına baş vermişdi [122, v. 61-62]. 1971-1973-cü illərdə 1968-1970-ci illərdəkindən 1,5 dəfə çox sənaye məhsulu, o cümlədən 1,6 dəfə çox xalq istehlak malları istehsal edildi və satıldı [86, 1974, 27 fevral]. 1971-1973-cü illərdə muxtar respublikada sənayenin inkişaf sürəti 25,5 faiz təşkil etmiş, sənaye məhsulunun artımının yarıdan çoxu əmək məhsuldarlığının artırılması hesabına əldə edilmişdi. 1973-cü ildə bu göstərici 80 faizə çatmış, 1971-1974-cü illərdə əvvəlki beş illə müqayisədə 2,2 dəfə çox sənaye məhsulu satılmışdı [13, v. 111; 71, s.26]. 1974-cü ilin əvvəllərində muxtar respublikada 34 sənaye müəssisəsi fəaliyyətdə idi [125, v. 7].

Sənayenin ümumi istehsalı üzrə 1971-1975-ci illərin planını muxtar respublika müəssisələrinin üçdə biri 3,5-4 il ərzində yerinə yetirmişdi. Sənaye istehsalı iki dəfə artmış, plandan artıq 22,4 mln. manatlıq məhsul istehsal edilmişdi. 21 sənaye müəssisəsi beş illik planı vaxtından əvvəl icra etmişdi [16, v. 85; 127, v. 7]. 1971-1975-ci illərdə xam ipək istehsalı 2,1 dəfə, meyvə konservləri istehsalı 2,2 dəfə, üzüm şərabı 1,8 dəfə, fermentasiya edilmiş tütün 3 dəfə, mineral sular 1,8 dəfə artmışdı. 1975-ci ildə sənaye məhsulu istehsalı üzrə artım 1970-ci ilə görə 175 faiz təşkil etmişdi [218, v. 193-194]. Lakin bu dövrdə istehsal edilən 70 növ sənaye məhsulunun yalnız biri dövlət keyfiyyət nişanı ilə buraxılırdı [16, v. 85].

1976-cı ildə muxtar respublikanın müəssisələri tərəfindən buraxılan sənaye məhsulu Azərbaycan SSR-in ümumi məhsulunun cəmi 1,4 faizini təşkil edirdi. Sənaye müəssisələrinin hamısı kiçik müəssisələr idi. Lakin muxtar respublikada əhalinin təkrar istehsal və əmək resurslarının formalaşdırılması səviyyəsi orta ittifaq və respublika göstəricilərindən daha yüksək idi [18, v. 85]. 1976-cı ildə Naxçıvan şəhərinin 12 əsas sənaye müəssisəsindən 11-i standartlara uyğun olmayan məhsul istehsal etsə də [129, v. 140], sonrakı illərdə sənayedə işin keyfiyyət əmsalı artmaqda idi. Belə ki, əgər 1976-cı ildə muxtar respublikada dövlət keyfiyyət nişanlı məhsul buraxılışı bütün istehsal həcminin cəmi 0,01 faizini təşkil edirdisə, 1979-cu ildə bu göstərici 4,8 faizədək yüksəlmiş, 6 növdə məhsul keyfiyyət nişanı almış, ilin sonuna 13 növ məhsulun keyfiyyət nişanı ilə buraxılışına başlanmışdı. 1980-ci ilin ilk yarısında keyfiyyət nişanı alan məhsulların sayı 6 vahid artaraq 14-ə çatmışdı [23, v. 101; 134, v. 14]. 1981-ci ilin əvvəlində keyfiyyət nişanı ilə buraxılan məhsul sayı 15-ə çatmışdı ki, bunun da 8-i Ordubad Aqrar-Sənaye Birliyinin, 2-si Ət-süd Kombinatının payına düşürdü [142, v. 79]. 1976-1980-ci illərdə muxtar respublikada sənaye məhsulu istehsalının artım tempi üzrə beş illik plan dörd ildə yerinə yetirilmiş, 40-dan çox yeni məhsul növünün istehsalına nail olunmuşdu [25, v. 91].

Şüşə sənayesi Azərbaycanda yeganə olaraq 1979-cu ildə istifadəyə verilən və muxtar respublikada istehsal olunan mineral suların (Badamlı, Sirab, Vayxır) qablaşdırılması üçün nəzərdə tutulan Naxçıvan Şüşə Qablar Zavodunda (50 mln. butulka istehsalı gücündə) təmsil olunmuşdu. 398 fəhlənin işləməsi nəzərdə tutulan zavodda 1981-ci ilin əvvəllərində 334 nəfər işləyirdi. 1983-cü ildən qaz yanacağı ilə işləyən zavodun istehsal gücü 34 mln. ədədə çatmış, 1986-cı ildən hər il 60 mln.-a qədər butulka istehsal etmişdi. 1992-ci ilin iyulunadək zavodda 440 mln:-dək butulka istehsal olunmuşdu [93, s. 37-38; 98, s. 166; 136, v. 101].



Naxçıvan Şüşə Qablar Zavodu
1979-cu il

1970-ci illərdə sənayenin sahə quruluşunda dəyişikliklər baş vermiş, ümumi məhsul istehsalında maşınqayırma və metal emalı, tikinti materialları və yeyinti sənayesinin xüsusi çəkisi 1970-ci ildəki 66,8 faizə qarşı 1980-ci ildə 85,2 faiz olmuşdu. 1980-ci ildə bütün sənaye istehsal heyətinin 75,3 faizi yüngül, yeyinti, maşınqayırma və metal emalı sahələrinin payına düşürdü. Ümumi sənaye məhsulunun 1970-ci ildə 92,9 faizi, 1975-ci ildə 90,9 faizi, 1980-ci ildə 90 faizi yüngül və yeyinti sənayesinin payına düşürdü ki, bu da muxtar respublikanın həmin sənaye sahələri üzrə ixtisaslaşdığını göstərirdi [93, s. 35].

1971-1980-ci illərdə muxtar respublikada 970 mln. 129 min manatlıq sənaye məhsulu istehsal edilmiş, 1976-1980-ci illərdə istehsal olunan sənaye məhsulunun həcmi 1961-1975-ci illərdəkindən xeyli çox – 606,5 mln. manatlıq olmuşdu. Əsas fondlar 1969-cu ildəkinə nisbətən 1,8 dəfə, sənayedə fond verimi 1,4 dəfə yüksəlmişdi [135, v. 261; 142, v. 153-154]. Həmin on ildə sənayedə əmək məhsuldarlığı 2 dəfə, məhsul istehsalı 261 faiz artmış, onun orta illik həcmi 7,9 faiz təşkil etmişdi. Məhsul istehsalı artımının 80 faizinə əmək məhsuldarlığının yüksəldilməsi hesabına nail olunmuşdu [72, s. 50; 197, v. 21].

Muxtar respublikada 1970-ci ildə 0,5 mln. kilovat-saat elektrik enerjisi istehsal olunmuşdusa, 1980-ci ildə bu rəqəm 73,3 mln. kilovat-saat təşkil etmişdi. Elektrik enerjisi istehsalı sənayesi gücü 22 min kilovat olan Araz SES-dən və rayon elektrik şəbəkələrindən ibarət idi [93, s. 36]. 1971-1975-ci illərdə 426 km elektrik xətti çəkilmiş [126, v. 21], 1977-ci ildə Qarçıvan-Naxçıvan dairəvi elektrik xətti istismara verildikdən sonra muxtar respublikanın fasiləsiz elektrik enerjisi ilə təmin edilməsinə başlanılmış [72, s. 42; 262, 1977, 21 iyul], enerji proqramının muxtar respublikada və Naxçıvan şəhərində yerinə yetirilməsinin gələcəkdə tam təmin edilməsi üçün 1983-cü ildə ümumi uzunluğu 100 km olan 220 min kilovatlıq

Arazdəyən-Naxçıvan enerji xətti istifadəyə verilmişdi [227, v. 329].

1970-ci illərdə elektrik enerjisi istehsalı, maşınqayırma və metal emalı inkişaf etməkdə olan sənaye sahələri idi. Əgər 1970-ci ildə bu sahənin payına ümumi sənaye məhsulunun 2,1 faizi və sənaye istehsalının 6,6 faizi düşürdüsə, 1982-ci ildə həmin rəqəmlər müvafiq olaraq 3,8 və 13,2 faiz təşkil edirdi. Ən böyük maşınqayırmanın müəssisələrindən biri də Naxçıvan Elektrotexnika Zavodu idi. 1978-ci ildən zavodun bütün məhsulları birinci kateqoriya ilə, "ST-3" və "E-14" markalı iki məhsul isə dövlət keyfiyyət nişanı ilə buraxılırdı [50, s. 51; 93, s. 36-37; 134, v. 90]. Zavod 1971-ci ildə öz məhsulunu yalnız Rusiyanın Mordva Muxtar Respublikasına göndərirdisə, 1985-ci ildə Rusiyanın 10 şəhərinə və digər ittifaq respublikalarına da göndərirdi [72, s. 56-57]. Müəssisə bu sahə üzrə istehsal edilən məhsulun 55 faizdən çoxunu və ümumi sənaye istehsalının 39 faizini əhatə edirdi. Tənzimləyici aparatlar, elektroqurğu məmulatları, drossellər, starter saxlayıcıları hasil edən zavodun məhsul istehsalının həcmi 1983-cü ildə 4 mln. manatdan çox olmuşdu. Bundan başqa, Naxçıvan alüminium qablar, məişət texnikası, Şahbuz avtomobil təmiri zavodları da maşınqayırma və metal emalı sənayesini təmsil edirdi. 1982-ci ildə bütün sənayedə çalışan sənaye istehsal heyətinin ümumi sayında maşınqayırma və metal emalı sənayesinin xüsusi payı 11,6 faizə bərabər idi [81, s. 82-83]. Alüminium qablar zavodunun məhsulları ittifaqın 14 şəhərinə göndərilirdi [72, s. 57].



Naxçıvan Alüminium Qablar Zavodu 1984-cü il

Radio sənayesi üzrə yeganə müəssisə olan Şərur Radio Zavodu (1961-ci ildə fəaliyyətə başlamışdı) sonralar müstəqil radiotexnika zavoduna çevrilmiş, 80-ci illərdə "Araz", "Xəzər-404" radioqəbulediciləri, "Araz-M" radioları, elektrik avadanlığı hissələri istehsalı üzrə ixtisaslaşmışdı.Zavodun məhsulları xarici ölkələrə də göndərilirdi [98, s. 312].

1981-1985-ci illərdə sənaye məhsulu istehsalı 105,3 faiz, satışı 106,1 faiz, əmək məhsuldarlığının artırılması 105,3 faiz yerinə yetirilmişdi [169, v. 4]. Muxtar respublikanın sənaye işçiləri 1984-cü ildə plandan əlavə 22 mln. manatlıq məhsul istehsal etmiş, 9,2 mln. manatlıq məhsul satmışdılar [158, v. 21]. 1985-ci il üçün plan tapşırıqlarına istehsal üzrə 103, məhsulun satışı üzrə 105,1, əmək məhsuldarlığı üzrə 103,4 faiz əməl edilmiş, plandan artıq 8,1 mln. manatlıq sənaye məhsulu istehsal edilmiş, 10,2 mln. manatdan artıq sənaye məhsulu satılmışdı [169, v. 4]. 1986-cı ildə 207,9 mln. manatlıq (101,1 faiz) sənaye məhsulu istehsal olunmuş, əmək məhsuldarlığı 101,9 faiz artmışdı. Ümumi məhsul istehsalında yüksək kateqoriyalı məhsulun xüsusi çəkisi iki dəfə artmış, daha bir məhsul- üzlükplitələr dövlət keyfiyyət nişanı

almışdı [172, v. 47]. Lakin səneydə keyfiyyət nişanı ilə buraxılan məhsul bütün sənaye məhsulunun cəmi 1,7 faizini təşkil edirdi ki, bu da orta respublika göstəricisindən çox aşağı idi [172, v. 7].



Ordubad Baramaaçan Fabriki
1975-ci il


Yüngül və yeyinti sənayesi Naxçıvan MSSR iqtisadiyyatının daha çox inkişaf etmiş sahələri idi. Belə ki, buraxılan sənaye məhsulunun 80 faizə yaxını bu iki sahənin payına düşürdü. Bu sahələrə aid olan Naxçıvan Xalça Kombinatı, süd zavodu, mineral suların doldurulması zavodu, Şərur Konserv Zavodu, şərabçılıq zavodları 70-80-ci illərdə tikilmiş, mövcud olan müəssisələr isə yenidən qurulmuş və genişləndirilmişdi. 1976-cı ildə yüngül və yeyinti sənayesi muxtar respublika sənayesində 90 faizlik paya sahib idi [129, v. 129; 218, v. 201].

Yüngül sənayenin ən böyük sahəsi olan ipəkçilik 1969-cu ildə yenidən qurulan (quraşdırılan yeni dəzgahların sayı 144 idi) və 1980-ci ildə muxtar respublikanın ən böyük yüngül sənaye müəssisəsi olan Ordubad Baramaaçan Fabrikinin timsalında inkişaf edirdi. 1975-1980-ci illərdə fabrikdə 3 mln. 310 min manatlıq əlavə məhsul istehsal edilərək dövlətə satılmışdı [134, v. 44]. Həmin illərdə fabrik xammalın 90 faizə qədərini Azərbaycanın bir sıra rayonlarından (Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl, Sabirabad, İmişli, Lənkəran, Astara, Masallı, Tovuz, Şəmkir və Qazax) və Özbəkistandan alırdı. 1982-ci ildə yüngül sənayedə işləyənlərin 27 faizi, istehsal olunan məhsulun isə 63 faizi bu müəssisənin payına düşürdü. 1985-ci ildə burada 107 ton xam ipək istehsal olunmuşdu ki, bu da 1970-ci ildəkindən 2,2 dəfə çox idi [50, s. 49-53; 81, s. 84; 93, s. 38-39, 93].

1981-ci ildə istifadəyə verilən Naxçıvan Alt Trikotaj Fabriki (9,1 mln. ədəd gücündə) Azərbaycanın həmin profil üzrə məhsul istehsal edən ən böyük müəssisələrindən biri idi. Müəssisənin illik istehsal gücü ilə işləməsi üçün 1233 fəhlə, 84 mühəndis-texniki işçi, 45 qulluqçu tələb olunurdu. 1983-cü ildə fabrikdə işləyənlərin sayı 678 nəfərə (bütün yüngül sənaye işçilərinin 23 faizindən çoxu) çatmış, 5,6 mln. ədəd müxtəlif çeşidli məhsul istehsal edilmişdi [50, s. 53; 93, s. 39; 136, v. 98]. Tikiş sənayesini həmçinin Naxçıvan Tikiş Fabriki, yerli istehsal kombinatı, fərdi tikiş fabriki və s. müəssisələr təmsil edirdi. 1983-cü ildə bu sahənin müəssisələri 2 mln. ədəddən çox kişi və uşaq köynəkləri, 15 min metr pambıq parça, ayaqqabı və b. məhsullar istehsal etmişdi. Bu sahə 70-80-ci illərdə sürətlə inkişaf etsə də, digər sənaye sahələrinin də sürətli inkişafı nəticəsində tikiş sənayesinin yüngül sənayenin ümumi məhsul istehsalında xüsusi çəkisi 1970-ci ildəki 30,9 faizdən 1980-ci ildə 12,5 faizə düşmüşdü [93, s. 39]. Naxçıvan Tikiş

Fabriki ən yüksək nəticəni 1987-ci ildə əldə etmiş, 1200 nəfər təcrübəli tikişçi iki növbədə işləyərək 250 min ədəd müxtəlif çeşidli və ölçülü köynək istehsal etmiş, SSRİ-nin 87 şəhərindəki ticarət təşkilatları ilə müqavilə bağlayaraq məhsullarının satışını təşkil etmiş, 27 şəhərdən isə xammal və köməkçi materiallar almışdı. Həmin il fabrikdə Almaniyanın "PFAFF" firmasının istehsalı olan yeni modelli tikiş maşınları quraşdırılmışdı [98, s. 167].

Sənayeinin ən çox inkişaf etmiş sahəsi yeyinti sənayesi idi. 1970-1985-ci illərdə muxtar respublikada istifadəyə verilmiş 21 müəssisədən 11-i (53 faizi) bu sahəyə məxsus idi. Bu illər ərzində pivə zavodu (280 min dekalitr gücündə), 5 ilkin şərab zavodu (hər birinin gücü 10 min ton), quşçuluq fabriki (50 min toyuq istehsalı gücündə), dəyirman kombinatı (sutkalıq istehsal gücü 245 ton), 2 pendir zavodu (0,5-1 ton gücündə), çörəkbişirmə müəssisəsi (sutkalıq gücü 18 ton), süd zavodu (növbədə 2,5 ton gücündə), mineral sular zavodu (gücü 200 mln. butulka) tikilib istifadəyə verilmişdi. Nəticədə yeyinti sənayesinin ümumi sənaye məhsulundakı xüsusi çəkisi 1970-ci ildəki 62 faizdən 1980-ci ildə 77,5 faizə yüksəlmişdi [93, s. 40]. Yeyinti sənayesinin artım sürəti bütövlükdə sənayenin artım sürətindən 1971-1975-ci illərdə 1,5 dəfə, 1976-1980-ci illərdə 1,4 dəfə yüksək olmuşdu [72, s. 46]. 1970-ci illə müqayisədə 1980-ci ildə yeyinti sənayesi işçilərinin sayı və sahənin əmək məhsuldarlığı 2 dəfə artmışdı [91, s. 49].




Ordubad Konserv Zavodu
1980-ci il

Ordubad Konserv Zavodu yeyinti sənayesinin ən iri müəssisəsi idi. Burada 1970-ci ildə 10 mln. şərti banka məhsul istehsal edildiyi halda, 1980-ci ildə bu göstərici 26 mln. (2,6 dəfə çox), 1985-ci ildə isə 34,5 mln. (3,5 dəfə çox) olmuşdu. Həmin illərdə zavodda 20 adda müxtəlif konserv məhsulları (qoz, qızıl gül, qovun, ərik, gilənar, tut mürəbbələri, cem, şirələr, ərik və şaftalı kompotları və s.) buraxılmışdı ki, onlardan da 8-i keyfiyyət nişanı almışdı [50, s. 55; 93, s. 42; 98, s. 206]. Zavodun məhsullarının 80 faizi ittifaq respublikalarına ixrac olunurdu. 1976-1980-ci illərdə 12 mln. 80 min banka şirə, kompot və konserv SSRİ-nin müxtəlif şəhərlərinə göndərilmişdi [72, s. 57; 262, 1980, 3 avqust]. 1985-ci ildə zavodun məhsulları Azərbaycandan kənardakı 500-dən artıq təşkilata göndərilmişdi [72, s. 57; 282, s. 13].

1986-cı ildə istifadəyə verilən Şərur Konserv Zavodunda (istehsal gücü 55 mln. şərti banka) 1986-1989-cu illərdə meyvə və tərəvəzdən müxtəlif çeşiddə mürəbbə, cem, kompot, şirə və şorabalar, tomat pastası və s. istehsal edilmiş, müəssisənin istehsal gücü 1988-1989-cu illərdə 30-35 mln. şərti bankaya çatdırılmışdı [98, s. 311].

Ümumi məhsulun həcminə görə yeyinti sənayesinin quruluşunda ikinci yeri tutan tütün-fermentasiya zavodu muxtar respublika ərazisində tədarük olunan tütünü ilkin emal edərək, ölkənin müxtəlif bölgələrində yerləşən tütün fabriklərinin xammala tələbatını ödəyirdi [35, s. 122]. 1980-ci ildə zavodda 7,4 min ton fermentləşdirilmiş tütün istehsal olunmuşdu ki, bu da 1975-ci ildəkindən 0,5 min ton çox idi [72, s. 50].



"Badamlı" Mineral Sular Zavodu 1984-cü il

Bu dövrdə Badamlı-Vayxır-Naxçıvan mineral su kəmərinin çəkilməsi, şüşə qablar zavodunun və 1985-ci ildə 200 mln. şərti butulka gücünə malik "Sirab" Mineral Sular Zavodunun istifadəyə verilməsi nəticəsində mineral su istehsalı artmışdı. 1970-ci ildə muxtar respublikada 37 mln. yarım litrlik şüşə su istehsal olunmuşdusa, 1980-ci ildə bu göstərici 98,5 mln. (2,6 dəfə çox), 1983-cü ildə 134 mln. (3,6 dəfə çox) butulka təşkil etmişdi. Keyfiyyətinə və müalicə əhəmiyyətinə görə dünyada tanınan bu mineral sular "Badamlı", "Sirab", "Vayxır", "Darıdağ", "Nəhəcir", "Gülüstan" mineral su zavodlarında şüşələrə doldurulur və ölkənin tələbatını ödəməklə yanaşı, 80-ci illərdə onun 60 faizi yaxın-uzaq ölkələrə ixrac edilirdi. 1980-ci ildə istehsal olunmuş 134 mln. butulka suyun 80 mln.-u SSRİ-nin 150-dən çox şəhərinə göndərilmişdi [81, s. 87; 98, s. 125-126].

Muxtar respublikada dağ-mədən sənayesinin ən mühüm müəssisəsi Cənubi Qafqazda yeganə daş duz istehsal edən Naxçıvan Duz Mədəni idi. 1970-ci ildə burada 62,1 min, 1980-ci ildə 81,8 min, 1983-cü ildə isə 104 min ton duz istehsal olunmuşdu [35, s. 120; 93, s. 43]. Duz Mədənindən başqa, 1952-ci ildən istismar olunan Parağaçay molibden və 1954-cü ildən istismar edilən Gümüşlü polimetal (qurğuşun-sink) yataqları da dağ-mədən sənayesini təmsil edən müəssisələr idi. Bu mədənlər Azərbaycanın müvafiq sənaye sahəsinin yeganə müəssisələri idi [97, s. 218; 98, s. 218; 253, s. 132].

Həmin illərdə şərabçılığın da sürətli inkişafına nail olunmuşdu. 1970-ci ildə yeyinti sənayesi məhsulunun 57,5 faizi və sahə işçilərinin 17,3 faizi şərabçılığın payına düşürdüsə, 1978-ci ildə bu rəqəmlər müvafiq olaraq 64,5 və 22,1 faiz idi. 1982-ci ildə isə bütün sənaye məhsulunun 42 faizi, yeyinti sənayesi məhsulunun isə 63 faizi şərabçılıq sənayesinin payına düşürdü. 1970-ci ildə 75 min dekalitr, 1980-ci ildə 319 min (4,25 dəfə çox), 1983-cü ildə isə 536 min (7,15 dəfə çox) dekalitr şərab istehsal olunmuşdu. 1985-ci ildə muxtar respublikada bu sahəyə aid 10 iri müəssisə fəaliyyət göstərirdi. Şərabçılıq daha çox Şərur rayonunda təmərküzləşmişdi [93, s. 41-42].

1983-cü ildə əsas istehsal fondları 1975-ci ilə nisbətən 52,3 mln. manat və ya 69 faiz, 1980-ci illə müqayisədə isə 14 mln. manat və ya 13 faiz artmışdı. Bu müddət ərzində fond gəlirləri müvafiq olaraq 21,3 və 14,3 faiz çoxalmışdı [161, v. 1]. Ümumiyyətlə, 1981-1985-ci illərdə sənaye istehsalının həcmi 77,8 faiz, əmək məhsuldarlığı 28 faiz artmışdı [157, v. 141-142]. Bu irəliləyişə daha çox yüngül və yeyinti sənayesi müəssisələrinin hesabına nail olunmuşdu. Belə ki, 1981-ci illə müqayisədə 1984-cü ildə Ordubad Baramaaçan Fabrikinin istehsal gücü 6,3 faiz, Naxçıvan Tikiş Fabrikinin gücü 8,8 faiz, tütün-fermentasiya zavodunun gücü 10,9 faiz, Ordubad Konserv Zavodunun gücü 33,8 faiz, çörək məhsulları kombinatının istehsal gücü 3 dəfə artmışdı. Alt trikotaj fabriki 1985-ci ildə layihə gücünə gəlib çatmışdı. Tikiş fabrikində 1984-cü ildə 6 məhsul keyfiyyət nişanı ilə buraxılırdı.

1986-1989-cu illərdə Naxçıvan Xalça Kombinatı, Şərur Konserv Zavodu, Şərur Çörək Zavodu, Naxçıvan Alt Trikotaj Fabrikinin Şərur şəhərində və Şahbuz qəsəbəsində filialları, Naxçıvan Yerli İstehsal Kombinatının Şahbuz rayonunda filialı fəaliyyətə başlamış, Naxçıvan Tikiş Fabriki genişləndirilmişdi [93, s. 46; 186, v. 3].

1970-80-ci illərdə muxtar respublikada sənayenin yerləşməsi vəziyyətində əhəmiyyətli dəyişikliklər olmuşdu. Əgər 1970-ci ildə burada istehsal olunan sənaye məhsulunun 64,2 faizi Naxçıvan şəhəri və Babək (Naxçıvan) rayonunun payına düşürdüsə, həmin ərazi üzrə bu göstərici azalaraq 1980-ci ildə 44 faiz, 1985-ci ildə isə 46,5 faiz təşkil etmiş, Şərur, Ordubad, Culfa və Şahbuz rayonlarının sənaye məhsulu istehsalındakı xüsusi çəkisi artmışdı. Lakin sənaye-istehsal heyətinin yarıdan çoxu bir qayda olaraq Naxçıvan şəhərinin və Babək rayonunun payına düşürdü. 1975-ci ildə bu göstərici üzrə onların xüsusi çəkisi 55 faiz, 1980-ci ildə 61,7 faiz olmuşdu [93, s. 44-45]. 1980-ci ilin ortalarında təkcə Naxçıvan şəhərində 20 sənaye müəssisəsi, on beş tikinti təşkilatı və 6 təmir-tikinti idarəsi fəaliyyət göstərirdi [134, v. 84]. Əgər 1970-ci ildə muxtar respublikada istehsal edilən sənaye məhsulunun 32,3 faizi Naxçıvan şəhərinin sənaye müəssisələrinin payına düşürdüsə, bu rəqəm 1980-ci ildə 33 faiz, 1990-cı ildə 49 faiz təşkil etmişdi. Həmin göstərici Şərur rayonu üzrə müvafiq olaraq 20,3, 27,8 və 23,7 faiz, Ordubad rayonu üzrə 7,3, 10 və 10,4 faiz, Culfa rayonu üzrə 4,5, 6,1 və 3 faiz, Şahbuz rayonu üzrə 3,6, 4,8 və 1 faiz olmuşdu. Babək rayonunun muxtar respublikanın sənaye məhsulu istehsalındakı xüsusi çəkisi 1980-ci ildəki 11 faizdən 1990-cı ildə 8,5 faizə düşmüşdü [242, s. 170, 175, 182, 189, 202, 207].


1984-cü ildə muxtar respublika ərazisində 3373 ha meşə torpaq sahəsi mövcud idi. Bundan 1695 ha dövlət meşə fonduna daxil idi. Şahbuz rayonunda 1503 ha, Babək rayonunda 110 ha, Ordubad rayonunda 40 ha, Culfa rayonunda 42 ha, muxtar respublikanın kolxoz və sovxozlarının ərazisində isə 1270 ha dövlət meşə sahəsi var idi. 1984-cü ilin yazında dövlət meşə fondunun artırılması məqsədi ilə

10 ha-da meşə sahəsi əkilmişdi. Sahəsi 1 mln. ha-dək olan meşələr Azərbaycan ərazisinin 12 faizini təşkil etdiyi halda, 1695 ha meşə sahəsi muxtar respublika ərazisinin cəmi 0,4 faizini təşkil edir, Azərbaycanda olan meşə sahəsinin cəmi 0,2 faizi muxtar respublikanın payına düşürdü [93, s. 37; 227, v. 151]. Buna görə də Naxçıvanda meşə və ağac emalı sənayesinin inkişafı üçün kifayət qədər xammal bazası yox idi. Ağac emalı sənayesinin yeganə müəssisəsi olan Naxçıvan Mebel Fabriki əsasən yerli tələbatı ödəmək üçün kənardan gətirilən xammal hesabına işləyirdi. 1969-cu ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən qərarla muxtar respublika ərazisində ilk xüsusi mühafizə olunan təbiət ərazisi – ümumi sahəsi 40 min ha olan Ordubad Dövlət Təbiət Yasaqlığı yaradılmışdı [50, s. 59].

Naxçıvan MR-də sənaye məhsulu istehsalının ümumi həcmi 1924-cü ilə nisbətən 1984-cü ildə 700 dəfə çox artmışdı. Sənaye məhsulunun ümumi həcmi 1970-ci ilə nisbətən 1980-ci ildə 2,6 dəfə, 1980-ci ilə nisbətən 1985-ci ildə 1,66 dəfə, ümumiyyətlə, on beş il ərzində 4,6 dəfə çoxaldı. Bu dövrdə elektrik enerjisi 35 dəfə, ipək xammalı 2,2 dəfə, konservlər 3,5 dəfə, daş duz 2 dəfəyədək, mineral sular və şərab məhsulları istehsalı bir neçə dəfə artdı. 1985-ci ildə Azərbaycanda istehsal edilən daş duzun (118 min ton), üzlük travertinin və butulka istehsalının hamısı, alt trikotaj məmulatlarının və mineral suların (147,5 mln. litr) əsas hissəsi, şərab məhsullarının xeyli hissəsi, ipək xammalının (107 ton) 23 faizindən çoxu, konservlərin (35 mln. şərti banka) 6 faizə qədəri Naxçıvanın payına düşürdü. Azərbaycanın sənaye məhsulu istehsalında muxtar respublikanın xüsusi çəkisi həmin dövrdə artaraq 2,3 faizə çatmış, respublikada olan 16 iri istehsal kompleksindən 11-i muxtar respublikada bu və ya digər dərəcədə təşəkkül tapmışdı [50, s. 49-50; 242, s. 43; 250, s. 133].

Tarixən mövcud olmuş yüngül və yeyinti sənayesi sahələri daha da inkişaf etdirilmiş, energetika, dağ-mədən, maşınqayırma və metal emalı kimi yeni sahələr də formalaşmışdı. Yerli kənd təsərrüfatı xammalını və təbii ehtiyatları istehsal dövriyyəsinə cəlb etməklə ət-süd, şərabçılıq, üzlük daş plitə istehsalı, tütün-fermentasiya, mineral sular istehsalı, parça-tikiş, xalçaçılıq kimi sənaye sahələrində yeni istehsal vahidləri və müəssisələr işə salınmışdı ki, bu da Naxçıvan MR-də vahid ərazi istehsal kompleksinin formalaşmasına gətirib çıxarmışdı [35, s. 116-117; 93, s. 33-34]. 1983-cü ildə Naxçıvan MR sənaye məhsulunun ümumi həcminə görə Azərbaycanın 10 iqtisadi rayonu içərisində 7-ci, sənayenin formalaşmış çoxsahəli quruluşuna görə 4-cü yeri tuturdu [81, s. 81].

Sənaye avadanlığından istifadənin yüksəldilməsi, onun məhsuldarlığının artırılması və buraxılan məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilmiş səmərələşdirici təkliflərin tətbiqi nəzərəçarpacaq iqtisadi effekt verirdi. 1984-cü il ərzində muxtar respublikanın xalq təsərrüfatına təxminən 1 mln. manata yaxın iqtisadi səmərəsi olan 146 səmərələşdirici təklif tətbiq edilmişdi [161, v. 2].



Şahtaxtı travertininin çıxarılması 1984-cü il

Tikinti. 70-80-ci illər muxtar respublikada tikintinin və inşaat materialları istehsalının inkişafında mühüm mərhələ oldu. 1972-ci ilin sentyabrına muxtar respublikada bütün obyektlərin inşaatını 4500 fəhlənin işlədiyi 15 tikinti təşkilatı aparırdı [116, v. 93]. 1970-ci ildə Naxçıvan şəhərində yeni avtomatlaşdırılmış Asfalt-Beton Zavodu [117, v. 38], 1973-cü ildə gücü 20 min kubmetr olan dəmir-beton məmulatları zavodu, 1977-ci ildə eyni gücdə olan yığma dəmir-beton məmulatları zavodu, 1982-ci ildə 10 min kubmetr gücündə Şahtaxtı Travertin Bloklar Karxanası, 1984-cü ildə 58,3 min kvadratmetr gücündə dəmir-beton məmulatları zavodu və 52,3 min kubmetr gücündə iripanelli evtikmə zavodu tikilib istifadəyə verilmişdi.

Bu dövrdə tikinti materialları sənayesi sürətlə inkişaf etmiş, onun sənayenin strukturunda xüsusi çəkisi yüksəlmiş, sənaye istehsal heyəti üzrə 1970-ci ildəki 8,3 faiz və ümumi məhsul istehsalı üzrə 2,7 faizdən 1980-ci ildə müvafiq olaraq 8,9 və 3,9 faizədək artmışdı. 1976-1980-ci illərdə muxtar respublikada travertin blok istehsalı 1,8 dəfə artaraq 113 min kubmetr təşkil etmiş, 160 min kvadratmetrdən çox üzlük plitə istehsal olunmuşdu. Buzqov və Qarabağlar travertin yataqlarının birlikdə ehtiyatı 17 mln. kubmetr Oğlanqala mərmərləşmiş əhəng daşı yatağının təsdiqlənmiş ehtiyatı 2,3 mln. kubmetr idi [31, v. 150-151]. Travertindən olan yüksək keyfiyyətli üzlük plitələr bütün SSRİ-də şöhrət tapmışdı. Belə ki, 1983-cü ildə istehsal olunmuş 27,6 min kubmetr travertinin 10 min kubmetri Moskva, Bakı, Leninqrad, Daşkənd, Volqoqrad, Ulyanovsk və Soçi şəhərlərinə ixrac edilmiş, 1985-ci ildə 47,7 min kubmetr üzlük plitə istehsal olunmaqla, ixrac daha da artmışdı [31, v.150; 93, s. 37-38]. Moskva Dövlət Universitetinin, Kremlin Qurultaylar Sarayının, "Naməlum əsgər" abidəsinin, "Ostankino" teleqülləsinin, Qarşılıqlı İqtisadi Yardım Şurası binasının, "Rusiya" mehmanxanasının və s. nəhəng və məşhur tikililərin inşasında üzlük material kimi Naxçıvan travertinindən istifadə olunmuşdu [282, s. 12].

1970-1971-ci illərdə muxtar respublikanın yol təşkilatları ittifaq-respublika əhəmiyyətli Naxçıvan-Arazdəyən-Ordubad yolunu ("Sədərək" və "Dəmirçi" körpüləri ilə birlikdə), eləcə də Naxçıvan-Biçənək yolunun 37-ci km-dəki və 44-50-ci km-dəki sahələrini yenidən qurmuş və əsaslı təmir etmişdi. Şahbuz rayonundakı İşgəsu çayı üzərindəki 40 paqonometrlik dəmir-beton körpünün inşaatı davam etdirilmiş, Naxçıvan şəhərinin giriş yollarının asfaltlanması, yolların arxitektura cəhətdən tərtibatı və sair işlər aparılmışdı. Ümumiyyətlə, həmin illərdə yolların

əsaslı təmiri planı və orta təmirə dair plan yerinə yetirilmiş, 45 km-lik plana qarşı 58 km-lik yol təmir edilmiş, yol kənarlarına orta hesabla hər il 5-6 min dekorativ ting əkilmiş, 3 avtopavilyon inşa olunmuşdu. Naxçıvan MSSR Nazirlər Soveti yanında Yol İstismar-Xətt İdarəsi yerli əhəmiyyətli yolların hər növ təmiri planına 145 faiz əməl etmiş, 118 km-lik yerli əhəmiyyətli yol, 140 paqonometr plana qarşı 200 paqonometrlik körpülər əsaslı təmir edilmiş, 70 paqonometrlik yeni körpülər salınmış, yol girişlərində 270 paqonometrlik dəmir-beton borular qoyulmuşdu. 1970-1971-ci illərdə yol kənarlarında 27 min dekorativ ting əkilmiş, əmək məhsuldarlığı artmış, görülən işin maya dəyəri aşağı düşmüşdü [117, v. 38-39].

Təkcə Naxçıvan MSSR Kolxozlararası Tikinti Tresti tərəfindən 1971-1972-ci illərdə kənd yerlərində 200-ə yaxın məktəb, klub, məişət xidməti və istehsalat obyekti tikilib istifadəyə verilmişdi [207, v. 29]. 1971-1975-ci illərdə Araz SES, Naxçıvan Elektrotexnika Zavodu, üzümün ilkin emalı üçün 3 şərab zavodu, quş-çuluq fabriki, dəyirman kombinatının I növbəsi, kərpic zavodu, tikiş fabrikinin II növbəsi, uşaq xəstəxanası, rabitə evi, şüşə qablar zavodu, məişət texnikası təmiri müəssisəsi, üzlük plitə sexi, pionerlər sarayı, "Uşaq aləmi" mağazası, uşaq şəhərciyi (Naxçıvan şəhərində) məktəblər, məktəbəqədər uşaq müəssisələri, kənd təsərrüfatı təyinatlı xeyli obyektlər, ticarət, məişət, sosial-mədəni müəssisələr tikilərək istifadəyə verilmişdi. Fəaliyyətdə olan bir sıra müəssisələr yenidən qurulmuş, genişləndirilmiş, texniki təchizat vasitələri yenilənmiş, şəhərlər və rayon mərkəzləri abadlaşdırılmışdı [23, v. 101; 129, v. 6-7; 134, v. 24, 85-86].

1971-1975-ci illərdə 117 min kvadratmetr, o cümlədən Naxçıvan şəhərində 46,8 min kvadratmetr mənzil sahəsi istifadəyə verilmiş, muxtar respublika üzrə 14,6 min, Naxçıvan şəhərində isə 6,5 min nəfər yeni mənzillə təmin olunmuşdu [122, v. 63; 130, v. 202]. 1971-ci ildən 1976-cı ilin birinci yarısınadək tikilən mən-zillərin sahəsi 1966-1970-ci illərdəkindən 14,8 min kvadratmetr artıq – 125,4 min kvadratmetr təşkil etmişdi [129, v. 7]. Beş il ərzində muxtar respublikada 2,3 mln. manat vəsait xərclənməklə 164 min, o cümlədən Naxçıvan şəhərində 1,5 mln. manat vəsait sərf edilməklə 126,3 min kvadratmetr yaşayış sahəsi təmir olunmuşdu. Köhnə binalarda 5,1 min kvadratmetr yaşayış sahəsinə mərkəzi istilik sistemi, 1,7 min kvadratmetrə su və kanalizasiya xətti çəkilmiş, yaşayış sahələri qazlaşdırılmış və elektrik enerjisi ilə təmin olunmuşdu [130, v. 202].

Muxtar respublika iqtisadiyyatının in-kişafına 1973-cü ildə kapital qoyuluşunun həcmi 32 mln. manat olmuşdu ki, bu da 1972-ci ildəkindən 14 faiz çox idi. Tikinti-quraşdırma işlərinin həcmi 13 faiz çoxalmışdı [122, v. 63]. 1975-ci ildə milli gəlir 5,4 faiz, kapital



Naxçıvan şəhərində yeni tikilən yaşayış binaları.1975

qoyuluşu isə 5,1 faiz artmışdı. 1975-ci ildə iqtisadiyyatın və mədəniyyətin inkişafına nəzərdə tutulduğundan 1 mln. 560 min manat [127, v. 6, 52], 1976-cı ildə şəhər və rayon mərkəzlərinin abadlaşdırılmasına, sosial-mədəni tədbirlərə nəzərdə tutulduğundan 1,9 mln. manat çox vəsait yönəldilmişdi [129, v. 135].

1971-1975-ci illərdə muxtar respublikada əsaslı tikintiyə 144 mln., o cümlədən tikinti-quraşdırma işlərinə 114,7 mln. manat vəsait yönəldilmiş, 147,1 mln. manatlıq əsas fondlar dövriyyəyə daxil edilmişdi. 1970-ci illə müqayisədə əmək məhsuldarlığı 21 faiz artmış, hər 1 mln. manatlıq tikinti-quraşdırma işləri zamanı 18 fəhlənin əməyinə qənaət edilmişdi [129, v. 6]. Əvvəlki beş illə müqayisədə 1971-1975-ci illərdə əsaslı tikintiyə qoyulan vəsait 2,3 dəfə, tikinti-quraşdırma işlərinə sərf edilən vəsait 2 dəfə artmış, bunun sayəsində əsas fondların istifadəyə verilməsi 160 faizə çatmışdı [218, v. 198].

1976-1980-ci illərdə muxtar respublikada tikinti işlərinin artım tempi və keyfiyyəti yüksəlmiş, iqtisadi əhəmiyyətli 20-dən çox obyekt, əvvəlki beş ildəkindən 52 faiz çox–14,8 min şagird yerlik məktəblər istifadəyə verilmiş, mənzil tikintisi üzrə planlar sistemli şəkildə yerinə yetirilmişdi [25, v. 91-92; 129, v. 7]. Bu illərdə iqtisadiyyatın inkişafına əvvəlki beş ildəkindən 17,4 faiz çox – 187,8 mln. manat əsaslı vəsait sərf edilmiş, 264,3 min kvadratmetr sahəsi olan yaşayış evləri, 30-dan çox sənaye və kənd təsərrüfatı müəssisəsi və b. obyektlər inşa olunmuşdu [142, v. 88; 277, s. 143].

1971-1980-ci illərdə təkcə 5 №-li tikinti tresti tərəfindən 180 min kvadratmetr mənzil sahəsi istifadəyə verilmişdi [134, v. 93]. 1971-1980-ci illərdə dövlət və kooperativ təşkilatlarının birlikdə tikib istifadəyə verdikləri yeni yaşayış evlərinin ümumi sahəsi əvvəlki on ildəkindən 81 min kvadratmetr çox –270,1 min kvadratmetr təşkil edirdi. Həmin illərdə bütövlükdə 580,1 min kvadratmetr mənzil sahəsi istifadəyə verilmişdi ki, bunun da 204,2 min kvadratmetri kolxozlar, kolxozçular və kənd ziyalıları, 105,8 min kvadratmetri fəhlə və qulluqçuların öz hesabına və ya dövlət krediti hesabına inşa edilmişdi [277, s.143]. 1976-1979-cu illərdə təkcə Naxçıvan şəhərində istifadəyə verilən yeni mənzil sahəsinin həcmi 77 min 900 kvadratmetr olmuşdu ki, bu da 10 min insanın (hər 4 nəfərdən birinin) yeni mənzillə təmin olunması demək idi [134, v. 86]. 1970-1980-ci illərdə inşa edilən yeni mənzillərin hesabına 96 min nəfər (hər 3 ailədən biri) yeni mənzilə köçmüş və ya mənzil



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvan Respublika stadionun tikintisi ilə tanış olarkən

şəraitini yaxşılaşdırmışdı [258, 1980, 27 dekabr]. Bu müddətdə paytaxtda tikinti-quraşdırma işlərinin həcmi 1,8 dəfə artaraq 58 mln. 573 min manat təşkil etmiş, 25 mln. 467 min manatlıq əsas fondlar istifadəyə verilmişdi [134, v. 86]. 1971-1980-ci illərdə tikintidə əmək məhsuldarlığı 77,1 faiz yüksəlmişdi [18, v. 90].

1980-ci ilin aprelində baş vermiş təbii fəlakətdən tikinti sahəsi də böyük zərər görmüşdü. Elektrik xətləri üzrə dəyən ziyanın məbləği 42 min manat, avtomobil yolları üzrə 758 min manat, su təsərrüfatı qurğuları üzrə 526 min manat, tikinti obyektləri üzrə 2 mln. 991 min 700 manat, rabitə üzrə 7,7 min manat, heyvandarlıq obyektləri üzrə 15,8 min manat təşkil edirdi [26, v. 15]

1980-ci ildə tikintidə əməyin mexanikləşdirilməsi 55,2 faizdən 66,7 faizə çatdırılmış, tikinti-quraşdırma işlərinin mexanikləşdirilməsi səviyyəsi yüksəldilmişdi. 1970-ci ildə tikinti təşkilatlarında 129 ekskavator, 93 buldozer, 63 qaldırıcı kran var idisə, 1980-ci ildə onların sayı müvafiq olaraq 149, 132 və 82 təşkil edirdi [72, s. 54].

1981-ci ildə muxtar respublika üzrə 42,3 mln. manatlıq tikinti-quraşdırma işləri görülmüşdü ki, bu da 1980-ci ildəkindən 35 faiz çox idi. Həmin ildə muxtar respublikada ən iri sənaye müəssisələrindən Naxçıvan Alt Trikotaj Fabriki, Başbaşı Mineral Gübrə Bazası, Ordubad şəhərində 400 yerlik mədəniyyət evi, Babək rayonunda 800 başlıq iri heyvandarlıq kompleksi, 5344 şagird yerlik məktəblər, 790 yerlik uşaq bağçası, körpələr evi və s. obyektlər tikilib istifadəyə verilmişdi [142, v. 9; 144, v. 7-8; 165, v. 27]. 1981-1983-cü illərdə tikinti təşkilatlarının istifadəyə verdiyi yeni mənzillərin ümumi sahəsi 215,5 min (1970-1983-cü illər ərzində cəmi 795,6 min) kvadratmetr təşkil edirdi [277, s. 143]. 1983-cü ildə tikinti sahəsində 29 ilkin podrat təşkilatı var idi ki, onlar öz qüvvəsi hesabına illik 40 mln. manatlıq tikinti-podrat işlərini həyata keçirə bilirdi [81, s. 79].

1970-ci illərdə Naxçıvan şəhərində üç mikrorayon tikilərək əhalinin istifadəsinə verilmişdi. 3-cü mikrorayonda inşaat işləri 80-ci illərin əvvəllərində də davam etdirilmiş, 1985-ci ildən başlayaraq Naxçıvan şəhərində mənzil tikintisinin, ticarət, ictimai iaşə, məişət xidməti, kommunal təsərrüfat, məktəbəqədər uşaq tərbiyə müəssisələrinin, məktəblərin, sosial-mədəni təyinatlı obyektlərin təmərküzləşdirilməsi məqsədi ilə "Yeni Naxçıvan" yaşayış massivinin tikintisinin reallaşdırılmasına başlanılmışdı [154, v. 9-13]. Massivin tikintisini 1984-cü ildə istifadəyə verilmiş 5 №-li tikinti trestinin nəzdində



Naxçıvan şəhərində yeni mikrorayon
1984-cü il

evtikmə kombinatı həyata keçirmişdi. Kombinat həmçinin Ukraynada 1986-cı ildə baş vermiş Çernobıl qəzasının nəticələrinin aradan qaldırılması üçün Slavutiç şəhərinin salınmasında iştirak edərək, liftlərlə təchiz olunmuş 9 və 5 mərtəbəli binalar inşa etmişdi [98, s. 83].

1981-1985-ci illərdə əsaslı tikintiyə 403 mln. manat vəsait yönəldilmişdi ki, onun da 152 mln.-u son iki ili əhatə edirdi. Həmin illərdə istifadəyə verilən əsas fondlar müvafiq olaraq 305 mln. və 115 mln. manat təşkil etmişdi ki, bu da əvvəlki beş ilin göstəricilərindən xeyli yüksək idi [157, v. 19]. Həmin dövrdə sənaye məhsulu istehsalı üzrə plana 105,3 faiz (8,1 mln. manatlıq əlavə məhsul hesabına), sənaye məhsulunun satılması həcminə 106,1 faiz (10,2 mln. manatlıq əlavə məhsul satışı hesabına), əmək məhsuldarlığının artırılması planına 105,3 faiz əməl edilmişdi [166, v. 58]. Bu dövrdə Naxçıvan şəhərində 1200 yerlik Estetik tərbiyə və xoreoqrafiya evi, 204 yerlik mehmanxana, 14450 şagird yerlik məktəblər, 1060 yerlik uşaq bağçaları, 50 yerlik xəstəxana və s. obyektlər istifadəyə verilmişdi [157, v. 143].

1986-cı ildə 75,9 mln. manatlıq əsas fondlar istifadəyə verilmiş, 91,9 mln. manat həcmində kapital qoyuluşu həyata keçirilmiş, 80 mln. manatdan çox tikinti-quraşdırma işləri görülmüş, 37,9 min kvadratmetrlik yeni mənzil sahəsi, 3018 şagird yerlik məktəblər, Naxçıvan şəhərində İstehsalat bazası və qaraj, Şərur şəhərində 55 mln. şərti banka istehsal gücünə malik konserv zavodu, Şərur rayonunun "Oktyabrın 60 illiyi" adına sovxozunda və Babək rayonunun Lenin adına kolxozunda 400 yerlik klub, Babək qəsəbəsində 70 iş yeri olan məişət evi, həmçinin heyvandarlıq, kənd və su təsərrüfatı təyinatlı obyektlər istismara verilmiş, elektrotexnika zavodu və üzlük plitələr sexi genişləndirilmişdi [172, v. 49]. 1988-ci ildə muxtar respublikanın sənaye tikintisi müəssisələri tərəfindən 1987-ci ildəkindən 1,3 mln. manat çox olmaqla, 12,9 mln. manatlıq məhsul istehsal edilmişdi [184, v. 41].

1970-80-ci illərdə tikinti təşkilatlarının və sahə işçilərinin sayında ciddi artım olmuşdu. 1970-ci ildə muxtar respublikadakı 14 tikinti təşkilatındakı işçilərin sayı 447 nəfər, onların gördüyü inşaat işlərinin həcmi 2,4 mln. manatlıq idisə, 1980-ci ildə həmin göstəricilər müvafiq olaraq 25 təşkilat, 3568 işçi, 3,2 mln. manat, 1990-cı ildə isə 38 təşkilat, 7700 işçi, 5,9 mln. manat təşkil etmişdi. 1970-ci ildə istifadəyə verilən əsas fondlar cəmi 7,2 mln. manat və əsas kapital 5,4 mln. manat (ondan 3,8 mln. manat tikinti-quraşdırma işlərinə) olmuşdusa, həmin göstəricilər 1980-ci ildə müvafiq olaraq 5,9 və 6,3 (4,2) mln., 1990-cı ildə isə 7,3 və 7,9 (6,4) mln. manat təşkil etmişdi [242, s. 117-118].

1970-ci ildə muxtar respublikanın şəhər əhalisinin ümumi mənzil fondu 291,8 min kvadratmetr, onun hər bir sakinə düşən sahəsi 8,7 kvadratmetr təşkil edirdisə, 1980-ci ildə həmin göstəricilər müvafiq olaraq 2 mln. 247,5 min və 9 kvadratmetr, 1990-cı ildə isə 3 mln. 226,5 min və 10,6 kvadratmetr olmuşdu [242, s. 120].

Ümumiyyətlə, 1970-1985-ci illər bütün Azərbaycanda olduğu kimi, onun tərkib hissəsi olan Naxçıvan MR-də də sürətli və hərətərəfli sosial-iqtisadi yüksəliş

dövrü olmuşdu. Təkcə 1971-1975-ci illərdə muxtar respublika iqtisadiyyatına qoyulan əsaslı vəsait əvvəlki 46 il (1925-1970) ərzində qoyulmuş vəsaitdən dəfələrlə çox olmuşdu. 1970-1985-ci illərdə iqtisadiyyatın bütün sahələrinin inkişafına 900 mln. manat sərmayə yatırılmış, onun orta illik həcmi 60 mln. manat təşkil edərək əvvəlki on ilin göstəricisindən 2,9 dəfə (21 mln. manat) çox olmuşdu. 783 mln. manatlıq muxtar respublika iqtisadiyyatının müxtəlif sahələrini əhatə edən əsas fondlar tikilib istifadəyə verilmişdi [93, s. 32; 242, s. 42].

1970-80-ci illərdə muxtar respublikada 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdi. Ümumiyyətlə, bu dövrdə 21 yeni sənaye müəssisəsi (1969-cu ildə 1, 1970-1979-cu illərdə 13, 1981-1985-ci illərdə 7) inşa olunmuş, bir neçəsi əsaslı şəkildə yenidən qurulmuşdu. Müəssisələrin əksəriyyəti yeyinti, yüngül və tikinti materialları istehsalı sahəsinə aid idi. 1985-ci ildə muxtar respublika sənayesi 100-dən çox müəssisə ilə, o cümlədən 50 müstəqil balansda olan iri dövlət müəssisəsi ilə təmsil olunmuşdu [50, s. 49; 93, s. 32-33].

Naxçıvanda "Təbriz" mehmanxanasının tikilməsi və Babək rayonunun yaradılması ümummilli lider Heydər Əliyevin hələ SSRİ-nin mövcud olduğu dövrdə daim Azərbaycançılıq mövqeyində dayanmasının, milli yaddaşın bərpası istiqamətində taleyüklü tədbirlər görməsinin konkret ifadəsi idi. Həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərinin nəticəsi idi ki, 1980-ci ilin sonuna yaxın ümumi məhsul istehsalı muxtar respublikanın təşkil edildiyi 1924-cü ilə nisbətən 180 dəfə artmışdı. Təkcə 1980-ci ilin iki günündə 1924-cü il ərzində istehsal olunan qədər məhsul istehsal edilirdi. Naxçıvan böyük tikinti meydançasına çevrilmiş, 45 min nəfər əhalinin yaşadığı yeni massivlər salınmış, şəhər və rayonların, ucqar dağ kəndlərinin infrastruktur sahələri yenilənmiş, təhsil, səhiyyə və mədəniyyət müəssisələri tikilmiş, köhnə kəndli komalarının yerində müasir üslubda abad evlər ucaldılmışdı [50, s. 80-81].

Rabitə. Muxtar respublikada 70-80-ci illərdə rabitə sürətlə inkişaf etmişdi. 1972-ci ilin martında muxtar respublikada 86 rabitə müəssisəsi, 7000 aparatlıq 40 telefon stansiyası, 10 radio qovşağı mövcud idi [116, v. 30]. 1971-1975-ci illərdə Naxçıvanla Culfa və Ordubad şəhərləri arasında 88 km, Naxçıvanla Gorus arasında 140 km yeni kabel xətlərinin çəkilməsi və bir sıra yeni avadanlıqların quraşdırılması sayəsində şəhərlərarası rabitə kanalları 1970-ci ilə nisbətən 1975-ci ildə 2,5 dəfədən çox artmışdı. Ordubad şəhərində 800, Culfa şəhərində 1000, Şahbuzda 500 və Naxçıvan şəhərində 1000 nömrəlik avtomat telefon stansiyaları (ATS), kənd yerlərində 5 yeni ATS, 11 kənddə isə yeni avadanlıqlar quraşdırılaraq istifadəyə verilmişdi [50, s. 59-60; 218, v. 199]. 1974-cü ildə Naxçıvan şəhərində Rabitə evi tikilib istifadəyə verilmiş [50, s. 59], bir il sonra rayonlarda 20 nümunəvi rabitə bölməsi yaradılmışdı [126, v. 20]. 1975-ci ildə Naxçıvan şəhərində fəaliyyətdə olan 3000 nömrəlik ATS-in 1000 nömrəsi idarə və müəssisələr, 2000 nömrəsi şəhər sakinləri tərəfindən istifadə olunurdu [218, v. 164].

1978-ci ilədək şəhər əhalisinə 5883 nömrəlik, kənd əhalisinə isə 2610 nömrəlik ATS-lər xidmət göstərmiş, Culfa rayonunun Qazançı, Ordubad rayonunun Əylis, Şərur rayonunun Xanlıqlar və Qıvraq kəndlərində 100 nömrəlik yeni tipli ATS-lər istifadəyə verilmiş, bir sıra kəndlərdə köhnə tipli ATS-lər yeniləri ilə əvəzlənmiş, şəhərlə kəndlər arasında birləşdirici xətlərin sayı artırılmışdı. 1980-ci ilədək poçt məntəqələrinin sayı 98-ə, poçt daşımalarında istifadə edilən avtomaşınların sayı 22-yə çatdırılmışdı [50, s. 60]. 1980-ci ildə Naxçıvan şəhərinin sakinləri rəngli televiziya verilişlərinə baxmaq imkanı əldə etmiş, şəhərdə 5000 nömrəlik yeni ATS istifadəyə verilmişdi [81, s. 89]. Nəticədə 1971-1980-ci illərdə rabitə müəssisələrinin sayı artmış, iş keyfiyyəti yüksəlmiş, bütün rabitə vasitələri təkmilləşdirilmişdi. Rabitə müəssisələrinin ümumi gəlirləri 1980-ci ildə 1970-ci ildəkindən 2 dəfə çox artaraq üç mln. 481 min manat təşkil etmişdi [72, s. 56].

1980-ci illərdə rabitə sahəsində görülən işlərin keyfiyyəti daha da yüksəlmiş, kəndlərdə rabitənin yaxşılaşdırılması üçün iki komplekt 12 kanallı avadanlıq alınaraq Şərur rayonunun Çomaxtur və Culfa rayonunun Ərəzin kəndlərində quraşdırılmışdı. Bundan başqa, Şahbuz rayonunun Nursu kəndində 200, Babək rayonunun Nehrəm kəndində 500, Culfa rayonunun Ərəfsə, Şərur rayonunun Çomaxtur və Şahbuz rayonunun Gömür kəndlərində hər biri 100 nömrə tutumuna malik stansiyalar işə salınmışdı. Ordubad şəhərində 2000 nömrəlik telefon stansiyasının tikilməsi haqqında məsələ "Aqrosənayetikinti" Birliyinin 1988-ci il üçün planına daxil edilmişdi [180, v. 43-45].

Rabitə müəssisələri və bölmələrinin (poçt, teleqraf və telefon) sayı 1970-ci ildəki 82 vahiddən 1980-ci ildə 90 vahidə, telefon aparatlarının sayı 1970-ci ildəki 6416 ədəddən 1980-ci ildə 10729 ədədə, 1983-cü ildə isə 12596 ədədə çatmışdı [277, s. 133]. Əhalidə olan telefon aparatlarının sayı 1985-ci ildəki 11980 (o cümlədən kənd yerlərində 3634) ədəddən 1990-cı ildə 15881 (7042) ədədə çatmışdı. Bu müddətdə hər yüz ailəyə düşən telefon aparatlarının sayı 1980-ci ildəki 15 ədəddən artaraq 1985-ci ildə 25, 1990-cı ildə 27 (53, 13) ədəd təşkil etmişdi. Naxçıvan şəhərində əhalidə olan telefon aparatlarının sayı 1970-ci ildəki 2303 nömrədən 1990-cı ildə 5689 nömrəyədək artmışdı [242, s. 132, 174].

1988-ci ildə beynəlxalq stansiyada yenidənqurma işləri aparılmış, muxtar respublikanın rayon mərkəzləri ilə telefon əlaqəsinin keyfiyyəti xeyli yüksəlmişdi. Naxçıvan şəhərinin şəhərlərarası telefon danışıqlarının keyfiyyətini yüksəltmək üçün iki danışıq kabinəsi qurularaq istismara verilmişdi. Şərur rayonu əhalisinin artan tələbatı nəzərə alınaraq Şərur-Bakı birbaşa avtomat kanalı yaradılmışdı [180, v. 42].

1970-80-ci illərdə informasiya və telekommunikasiya sistemlərinin əsaslı inkişafı üçün mühüm addımlar atılmış, Azərbaycan televiziyası və radiosunun, həmçinin Moskva televiziyasının muxtar respublikada yayımlanması üçün 285 kilometrlik Yevlax-Şuşa-Naxçıvan radiorele xətti çəkilmiş, güclü radio-televiziya

ötürücü stansiyaları işə salınmışdı [50, s. 59]. 1975-ci ildə Ordubad rayonunun Vənənd, 1978-ci ildə Şahbuz rayonunun Badamlı, Kükü, Külüs, Şərur rayonunun Sədərək, 1979-cu ildə Babək rayonunun Böyükdüz kəndlərində şaxəli radio qovşaqlarının fəaliyyətə başlaması muxtar respublika kəndlərinin radiolaşması işində mühüm rol oynamışdı [250, s. 137]. 1981-ci ildə Naxçıvan-Culfa-Ordubad radiorele xətti istifadəyə verilmişdi [144, v. 7]. Görülən işlərin nəticəsi olaraq radioqəbuledici nöqtələrin sayı 1970-ci ildəki 20893 nöqtədən 1980-ci ildə 37475, 1983-cü ildə 41913 nöqtəyədək artmışdı [277, s. 133].

Rabitə müəssisələrinin 1 yanvar 1988-ci ildən təsərrüfat hesablı xidmətə və özünümaliyyələşdirmə fəaliyyətinə keçməsi nəticəsində 1988-ci ildə 174 min manat əlavə gəlir əldə edilmişdi. Rabitə sahəsindəki aparıcı iş təcrübəsinin öyrənilməsi üçün Bakı və Moskva şəhərlərinə 3 mütəxəssis göndərilmişdi. Dövri mətbuatın və poçt göndərişlərinin əhaliyə çatdırılması işinin yaxşılaşdırılması üçün əlavə avtomarşrutlar açılmış, Naxçıvan şəhərindəki İnstitut şəhərciyində yeni rabitə bölməsi yaradılmışdı [180, v. 43].

Nəqliyyat. 70-80-ci illərdə muxtar respublikada yerli və respublika əhəmiyyətli avtomobil yollarının salınması, təmiri və bərpası nəqliyyatın inkişafında böyük rol oynayırdı. 1970-ci ildə muxtar respublikada cəmi 3086 avtomobil var idisə, 1980-ci ildə avtomobillərin sayı 9238, 1990-cı ildə 15588 vahid təşkil etmişdi.

Muxtar respublikanın Azərbaycanın əsas coğrafiyası ilə iqtisadi əlaqələrinin həyata keçirilməsində, yük və sərnişin daşımalarında dəmir yolu xüsusi əhəmiyyətə malik idi. Bu baxımdan 70-ci illərdə Bakı-Şərur dəmir yolu xəttinin İmişli stansiyasınadək elektrikləşdirilməsi, Naxçıvan, Şərur, Culfa, Ordubad dəmir yolu vağzallarının təmir edilməsi əhalinin dəmir yolundan daha rahat istifadə etməsinə və daşınan yüklərin həcminin artırılmasına imkan verdi. Naxçıvan dəmir yolu vağzalında SSRİ-nin istənilən məntəqəsinə və əksinə bütün marşrutlar üzrə biletlərinin satışının təşkili nəticəsində sərnişin daşınması da artmışdı [72, s. 90; 262, 1974, 28 aprel]. 1979-cu ildə dəmiryolu ilə xalq təsərrüfatı yüklərinin daşınması planı 100,1 faiz, avtomobil nəqliyyatı ilə daşınmış yükün həcmi 110,5 faiz, sərnişin daşınması isə 101 faiz yerinə yetirilmişdi [134, v. 25].



Naxçıvan şəhəri.
Dəmiryol vağzalına gedən yol
1984-cü il

Ümumiyyətlə, birbaşa Bakı-Naxçıvan avtomobil yolu olmadığından dəmir yolu nəqliyyatı muxtar respublikanın sosial-iqtisadi həyatında bütün fəaliyyət dövrü ərzində müstəsna rol oynamışdı. 1974-cü ildə Azərbaycan KP MK-nın

birinci katibi Heydər Əliyevin Bakı ilə Naxçıvan arasında birbaşa avtomobil yolunun çəkilməsi istiqamətində apardığı mübarizə uğurla nəticələnsə də (tikintinin 1980-ci ildə başa çatdırılması nəzərdə tutulmuşdu), yolun 48 km-i Ermənistanın Mehri rayonu ərazisindən keçdiyindən, ermənilər bütün vasitələrlə yolun çəkilməsinə mane oldular. Heydər Əliyev SSRİ rəhbərliyində yüksək vəzifələrə təyin olunduqdan sonra da bu istiqamətdə fəaliyyətini davam etdirmiş, lakin ermənilər tərəfindən 80-ci illərin sonunadək yolun çəkilməsinə müxtəlif bəhanələrlə böyük maneələr yaradılmışdı [72, s. 82].

Azərbaycan SSR Nazirlər Sovetinin təlimatı və respublika Avtomobil Nəqliyyatı nazirinin əmri ilə 1980-ci il iyunun 1-də yaradılan Naxçıvan Avtonəqliyyat İdarəsinin tərkibi 1981-ci ilin oktyabrında 795 vahid idi. Ondan 330-u sərnişin daşımaları avtobazasında, 305-i 2719 №-li avtokolonda, 160 vahid Şərur avtobazasında idi. Naxçıvan şəhərindəki 100 avtomobil üçün layiləndirilmiş sərnişin daşımaları avtobazası 1961-ci ildə istifadəyə verilmişdi. 1981-ci ildə avtobazada 250-dən artıq avtomobil var idi və qarajın ərazisi nəqliyyat vasitələrinin texniki xidmət, təmir, mühafizə və yanğın təhlükəsindən qorunması ilə bağlı tələblərə artıq cavab vermirdi [139, v. 95-96, 98].

1986-cı ildə Naxçıvan şəhərində trolleybus xəttinin birinci növbəsi istifadəyə verilmişdi [172, v. 48]. Lakin sonradan respublikanın əsas hissəsi ilə bütün kommunikasiya əlaqələrinin kəsilməsi nəticəsində elektrik enerjisi probleminin kəskinləşməsi trolleybus nəqliyyat növünün tezliklə sıradan çıxmasına səbəb oldu.

Kənd təsərrüfatının inkişafı. Naxçıvan MSSR-də kənd təsərrüfatı 70-ci illərdə də iqtisadiyyatın aparıcı sahəsi idi. 1970-ci illərin əvvəllərində muxtar respublika sənayesinin ümumi məhsulunun 80 faizə qədərini müxtəlif növ kənd təsərrüfatı xammalının ilkin emalı ilə məşğul olan müəssisələr verirdi [239, s. 338].

1970-ci ildən başlayaraq muxtar respublikanın kənd təsərrüfatında inkişaf meyilləri sürətlənmişdi. Üzüm istehsalı 1968-ci ildəki 807 tona qarşı 1970-ci ildə 26423 ton, süd və süd məhsulları 6244 tona qarşı 6825 ton, yumurta 1 mln. 401 min ədədə qarşı 1mln. 564 min ədəd olmuş, 22,5 min ton taxıl, 3,1 min ton tütün istehsal edilmişdi [93, s. 31-32]. 1971-ci ildə də kənd təsərrüfatında irəliləyişlər davam etmiş, dövlətə pambıq satışı planına 104, taxıl üzrə 119, meyvə üzrə 140, tütün üzrə 112, süd üzrə 107, yun üzrə 107, yumurta satışı üzrə 104 faiz əməl olunmuşdu. 1970-ci illə müqayisədə 1971-ci ildə süd istehsalında 610 ton, yumurta istehsalında 38,6 min ədəd, ət istehsalında 362 ton artım müşahidə olunmuşdu [116, v. 15]. Bununla belə, 1971-ci ildə muxtar respublika üzrə istifadəyə yararlı olan 49686 ha suvarılan torpaqdan 44018 ha istifadə edilmiş, müxtəlif səbəblərə görə 5668 ha torpaq sahəsi istifadəsiz qalmışdı [201, v. 6]. 1971-1975-ci illərdə dövlət tapşırıqlarına taxıl üzrə 4988 tona qarşı 8886 ton (178 faiz), tütün üzrə 15998 tona qarşı 17053 ton (106,6 faiz), tərəvəz üzrə 7202 tona qarşı 7408 ton (102,8 faiz), üzüm üzrə 7964 tona qarşı 8094 ton (106,2 faiz), süd satışı üzrə

24109 tona qarşı 27670 ton (114,7 faiz), yun satışı üzrə 7490 tona qarşı 7703 ton (102,8 faiz), yumurta satışı üzrə 2 mln. 512 min ədədə qarşı 3 mln. 13 min ədəd (119,9 faiz), barama üzrə 1842 sentnerə qarşı 1893 sentner (102,7 faiz) əməl olunmuşdu [128, v. 57-58]. Taxıl istehsalı 104 faiz, üzüm

2,7 dəfə, tütün 1,9 dəfə, meyvə 131 faiz, süd 1,5 dəfə, ət 112 faiz, yumurta 2,5 dəfə, yun 134 faiz artmış, barama və meyvə istehsalı üzrə 1975-ci ilin planı və son beş ilin tapşırıqları vaxtından əvvəl yerinə yetirilmişdi [15, v. 124; 218, v. 195]. 1971-1975-ci illərdə kolxoz və sovxozlar tərəfindən əvvəlki beş ilə nisbətən taxıl və üzüm 3,7 dəfə, tütün təxminən 2 dəfə, tərəvəz 4,2 dəfə, meyvə 1,3 dəfə, süd 1,5 dəfə çox istehsal edilmişdi. Təqribən bütün kənd təsərrüfatı məhsulları üzrə dövlətə beş illik satış planları vaxtından əvvəl yerinə yetirilmişdi. 1974-cü ildə 1970-ci ilə nisbətən kolxoz və sovxozların ümumi gəlirləri 191 faiz, gəlirləri 2 dəfə artmış, ictimai istehsalın artım bazası əsasında əməkçilərin maddi rifah halı və əhalinin pul gəlirləri nəzərəçarpacaq dərəcədə yüksəlmiş, hər bir kənd əməkçisinin orta illik gəliri 1,7 dəfə artmışdı [16, v. 83].

Muxtar respublikada heyvandarlığın inkişafı üçün bir sıra işlər görülmüş, Şərur rayonunun Püsyan kəndində süd-heyvandarlıq birliyi yaradılmış, Şahbuz rayonunda ixtisaslaşdırılmış qoyunçuluq sovxozu təşkil edilmiş, 7 kolxozlararası maldarlıq və qoyunçuluq kompleksinin inşasına başlanılmışdı [20, v. 79]. 1970-ci ildə təsərrüfatlardakı iribuynuzlu qaramalın ümumi sayı 63,7 min, xırdabuynuzlu heyvanların sayı 254,8 min baş idi [277, s. 14]. 1971-ci il yanvarın 1-dən 1972-ci il yanvarın 1-dək muxtar respublikanın təsərrüfatlarında qaramalın sayı kolxozlarda 586 baş, davarların sayı 3302 baş, sovxozlarda isə qaramalın sayı 512 baş, davarların sayı 1788 baş artmışdı. Bu zaman təsərrüfatlarda 62499 baş qaramal, o cümlədən 24768 baş inək və camış, 257251 baş qoyun və keçi, 973 baş at, 46 dəvə var idi. Bütövlükdə isə 1970-ci ilə nisbətən 1975-ci ildə iribuynuzlu qaramalın ümumi sayı 63,7 min başdan azalaraq 60,6 min başa düşsə də, xırdabuynuzlu heyvanların sayı 254,8 min başdan artaraq 313,9 min başa çatmışdı [277, s. 14].

Artım tempi 1975-1980-ci və sonrakı illərdə də davam etmiş, kənd təsərrüfatı məhsulları istehsalında 1976-cı ildə bütün növlər üzrə planlar yerinə yetirilmişdi [129, v. 128]. 1969-cu illə müqayisədə 1979-cu ildə kənd təsərrüfatının ümumi məhsulu 2,4, taxıl istehsalı 2, tütün 2,3, üzüm 5,3, tərəvəz 6,7, meyvə 9,8, bostan bitkiləri 5,4, ət 1,7, süd 2,6, yumurta 29, yun 1,9, barama istehsalı 1,3 dəfə artmışdı. İstehsal edilən məhsulun keyfiyyəti də yaxşılaşmış, əmək məhsuldarlığı 2 dəfədən çox yüksəlmişdi [22, v. 122].

1976-1980-ci illərdə əvvəlki beş ilə nisbətən dövlətə 20909 ton taxıl, 12953 ton tütün, 115878 ton üzüm, 14816 ton tərəvəz, 7135 ton meyvə, 4283 ton bostan məhsulları, 5512 ton ət, 11033 ton süd, 529 ton yun, 42 mln. 885 min ədəd yumurta və 20 ton barama artıq təhvil verilmişdi. Bu dövrdə kənd təsərrüfatının ümumi məhsulu 270 mln. manat təşkil etmişdi ki, bu da əvvəlki beş ildən 107 mln.

891 min manat çox idi. Həmin illərdə ümumi gəlir 198 faiz, xalis gəlir 397 faiz, pul gəliri 166 faiz, rentabellik 192 faiz olmuş, hər adamın orta illik əmək məhsuldarlığı 33 faiz, hər bir əməkçinin orta illik əmək haqqı 27 faiz artmışdı [135, v. 262; 142, v. 80].

1970-1980-ci illərdə əmək məhsuldarlığının artması nəticəsində kənd təsərrüfatının ümumi məhsulu on il ərzində 3,2 dəfədən çox artaraq 1970-ci ildəki 16 milyon 932 min manatdan, 1980-ci ildə 54 mln. 389 min manata çatmışdı [258, 1982, 6 iyul]. Kənd təsərrüfatı məhsulları istehsalının artması onun dövlətə satışının da artmasını şərtləndirmiş, 1970-ci illə müqayisədə dövlətə taxıl satışı 1980-ci ildə 2,4, tütün 2,6, üzüm 2,4, tərəvəz 8,8, yun 1,5, yumurta 2,6, ət 1,7, süd isə 1,9 dəfə artmışdı [262, 1980, 5 iyun]. Bu dövrdə kənd təsərrüfatı müəssisələrinin xalis gəliri 2,7 dəfə artaraq 1980-ci ildə 8 mln. 92 min manat təşkil etmişdi [72, s. 63]. 1976-1980-ci illərdə 24 milyon 572 min manatlıq plana qarşı 26 mln. 464 min manatlıq məhsul tədarük olunmuşdu. 1981-ci ildə 2 mln. 49 min manatlıq artıq məhsul istehsal edilmişdi [140, v. 130].

Kənd təsərrüfatında əsas istehsal fondları 1970-ci ilə nisbətən 1980-ci ildə 2,4 dəfə artaraq 105,6 mln. manat təşkil etmişdi. Bu müddətdə təsərrüfatların rentabelliyi 8,3 faiz, müəssisələrin xalis gəlirləri 3,6 dəfə, aqrar sahədə çalışan bir nəfərin əmək məhsuldarlığı 2,2 dəfə artmışdı [249, s. 88].

1980-ci ildə muxtar respublikada kənd təsərrüfatına yararlı torpaqlar 148 min ha, suvarılan torpaqlar isə 51 min ha təşkil edirdi [253, s. 131]. 1983-cü il noyabrın 1-nə muxtar respublikanın bütün ərazisinin 153 min hektarı kənd təsərrüfatı üçün yararlı torpaqlar idi ki, ondan da 32,8 min ha əkin sahələri, 2,4 min ha biçənək, 76,1 min ha otlaqlar idi [277, s. 48].

1970-ci ildə Naxçıvan MR-in kənd təsərrüfatında 74 müəssisə fəaliyyət göstərirdi ki, onun da 68-i kolxozlar, 12-si sovxozlar, 4-ü təsərrüfatlararası müəssisə və təşkilatlar idi. Rentabelsiz işləyən kolxozların sayının azaldılması və ixtisaslaşdırılmış sovxozların sayının artırılması hesabına 1980-ci ildə həmin rəqəmlər müvafiq olaraq 80, 35, 37 və 8 idi [276, s. 259].

1971-1980-ci illər ərzində ixtisaslaşdırılmış 18 üzümçülük, 1 tərəvəzçilik, 1 qoyunçuluq, 6 tütünçülük, sovxozu və aqrosənaye inteqrasiyası əsasında işləyən 6 sovxoz-zavod yaradılmışdı [71, s. 57]. Azərbaycan KP MK bürosu 1981-ci il fevralın 10-da Ordubad, Culfa və Şahbuz rayonlarının rentabellik səviyyəsi aşağı olan 16 kolxozunun bazasında qoyunçuluq üzrə 9, ətçilik üzrə 3, südçülük üzrə 3 yeni sovxozun yaradılması haqqında qərar qəbul etmişdi. Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 1981-ci il iyunun 2-də "Naxçıvan MSSR-də yeni ixtisaslaşdırılmış sovxozların yaradılması haqqında" qəbul etdiyi qərara əsasən Culfa rayonunda 1 ixtisaslaşdırılmış üzümçülük sovxozu, Şahbuz rayonunda isə 1 ixtisaslaşdırılmış südçülük sovxozu yaradıldı [28, v. 145-148; 71, s. 57]. 1981-ci ilin sonuna muxtar respublikada üzümçülük üzrə ixtisaslaşdırılmış

20 sovxoz, heyvandarlıq üzrə 26, tütünçülük üzrə 8 və meyvə-tərəvəzçilik üzrə 6 sovxoz fəaliyyət göstərirdi [141,v. 121].

1983-cü ildə kolxoz, sovxoz və təsərrüfatlararası müəssisələrin sayı Şərur rayonu üzrə müvafiq olaraq 9, 16 və 1, Babək rayonu üzrə 5, 13 və 3, Ordubad rayonu üzrə 6, 9 və 1 idi. Culfa rayonunda 14 sovxoz, Şahbuz rayonunda 2 kolxoz və 12 sovxoz mövcud idi [277, s. 62, 76, 90, 104, 118]. 1983-cü ilin sonunda muxtar respublikada bütövlükdə 89 kənd təsərrüfatı müəssisəsi, o cümlədən 20 kolxoz, 64 sovxoz və 5 təsərrüfatlararası müəssisə və təşkilat var idi. 1986-cı ildə həmin rəqəmlər müvafiq olaraq 94, 22, 64 və 8 idi [276, s. 259].

1980-ci ilin aprelində muxtar respublikada təbii fəlakət – Araz çayının daşması və qar yağması nəticəsində kolxoz və sovxozların 15801 ha üzüm plantasiyalarından 74 faizi, o cümlədən 8990 ha bar verən üzüm bağlarının 85,4 faizi tam zərər çəkmişdi. Üzümlüklərə, o cümlədən bar verən üzümlüklərə 21 mln. 128 min 200 manat, fərdi təsərrüfatlara isə 2 mln. 936 min 400 manatlıq ziyan dəymişdi. Şaxta nəticəsində 2615,5 ha bar verən meyvə bağlarından 2396 ha (92 faizi) ziyan çəkmişdi. Kolxoz və sovxozlara dəyən maddi zərər 422,9 min manat, fərdi bağlara dəyən ziyan isə 2 mln. 127 min manat məbləğində idi. 554 ha tut sahəsinin 76 faizi tam ziyan çəkmiş, dəyən zərərin məbləği 529 min manat olmuşdu. Tütün və tərəvəz, eləcə də 673 ha yem bitkisi sahələri ciddi zərər çəkmiş, dəyən ziyanın miqdarı 105,1 min manat olmuşdu. Ümumiyyətlə, kənd təsərrüfatına 27 mln. 249 min manat həcmində ziyan dəymişdi [26, v. 15].

1970-80-ci illərdə muxtar respublikada yerli xüsusiyyət nəzərə alınmaqla kənd təsərrüfatı sahələrinin düzgün ixtisaslaşdırılması və təmərküzləşdirilməsi, ekstensiv inkişafdan intensiv inkişafa keçid özünü ayrı-ayrı sahələrin inkişafında daha bariz göstərirdi. Bu baxımdan Ordubad rayonunun meyvə-tərəvəz və ipəkçilik üzrə ixtisaslaşdırılması məqsədi ilə Ordubad Aqrar-Sənaye Birliyi yaradılmışdı [21, v. 79]. 70-ci illərin əvvəllərində muxtar respublikada 17 kolxoz (Şərur rayonunda 11, Naxçıvan rayonunda 6) pambıqçılıqla məşğul olurdu və həmin kolxozların gəlirinin 31,6 faizini pambıqçılıqdan daxil olan vəsait təşkil edirdi. Muxtar respublika üzrə cəmi 4229 ha sahədə pambıq əkilirdi ki, bundan 2701 ha Şərur, 1528 ha Naxçıvan rayonunun kolxozlarına məxsus idi [108, v. 13; 112, v. 42]. Bununla belə, iqlim və torpaq şəraiti pambıqçılığın inkişafı üçün kifayət qədər əlverişli olmadığından 1975-ci ildən pambıq əkini dayandırılmışdı [253, s. 131]. Əvəzində tütünçülük daha da inkişaf etdirilmiş, bu sahə üzrə 6 yeni sovxozun yaradılması [20, v. 80] ilə tütün istehsalı 1970-ci ildəki 3096 tondan 1981-ci ildə 6396 tona, hər ha-dan məhsuldarlıq isə bu müddətdə 14,5 sentnerdən 24 sentnerə yüksəlmişdi [101, s. 40]. Tütün istehsalının 90 faizə qədəri Şərur rayonunun təsərrüfatlarının payına düşürdü [125, v. 81].

Muxtar respublikanın təbii şəraitində yüksək məhsuldar və səmərəli bitkilər olan çoxillik bitkilərin (üzüm və meyvənin) sahəsi 1970-ci ilə nisbətən 1982-ci

ildə 2 dəfədən çox artmış, əkinçiliyin quruluşunda onların xüsusi çəkisi 18 faizdən 41 faizə yüksəlmişdi. Taxılın və texniki bitkilərin əkin sahəsi 2,3 dəfə azalsa da, əmək məhsuldarlığının yüksəlməsi hesabına məhsul istehsalı artmışdı. Belə ki, taxıl bitkilərinin ümumi əkin sahəsi 1982-ci ildə 1970-ci ildəkinə görə 2,1 dəfə, 1980-ci ildəkinə nisbətən 801 ha azalsa da, taxıl istehsalı həmin dövrdə 1,4 dəfə artaraq 21,4 min tondan 1981-ci ildə 30,4 min tona, məhsuldarlıq isə hər hektardan 1970-ci ildəki 9,1 sentnerdən 1981-ci ildə 30,4 sentnerə qalxmışdı. Dövlət anbarlarına 5500 ton plana qarşı 9833 ton taxıl göndərilmişdi. Taxılın məhsuldarlığının yüksəldilməsi və istehsalının artırılmasında Şərur rayonu xüsusi fərqlənmişdi. Şərurda dənli bitkilərin hər hektarından orta hesabla 40,8 sentner məhsul götürülmüş, hətta bəzi sovxoz və kolxozlarda məhsuldarlıq 70 sentnerdən çox olmuşdu [81, s. 91-92; 144, v. 8-9].

1981-ci ildə dövlətə kənd təsərrüfatı məhsulları satışı planı taxıl üzrə 178,8, üzüm üzrə 214,5, tərəvəz üzrə 128,9, bostan məhsulları üzrə 110,5, meyvə üzrə 101,7, barama üzrə 110, ət üzrə 111,4, süd üzrə 113, yun üzrə 115,9, yumurta üzrə 112,8 faiz yerinə yetirilmişdi. Dövlətə plandan əlavə 1532 ton tərəvəz, 60 ton meyvə, 126 ton bostan məhsulu, 265 ton tütün, 9 ton barama, 279 ton çox ət, 951 ton çox süd, 19,8 ton yun və digər kənd təsərrüfatı məhsulları satılmışdı. Hər inək və camışdan sağılan südün miqdarı 133 kq çoxalmış, hər 100 baş ana qoyundan alınan balanın sayı 91 başa çatdırılmışdı. Heyvandarlıq məhsulları istehsalının artırılmasında Şərur, Babək və Culfa rayonlarının təsərrüfatları xüsusi fərqlənmişdi [144, v. 9].

1965-ci ilə nisbətən 1981-ci ildə muxtar respublikada əməyin fondla təchizatı 2,6 dəfə, təsərrüfatların mineral gübrələrlə təminatı 4 dəfə, kolxoz və sovxozlarda əmək məhsuldarlığı 2,2 dəfə artmış, ixtisaslaşdırma və heyvandarlığın sənaye əsasına keçirilməsi istiqamətində əhəmiyyətli işlər görülmüşdü. Bu, kənd təsərrüfatının bütün əsas məhsulları üzrə ciddi nailiyyətlərin əldə olunmasına gətirib çıxarmış, həmin dövrdə taxıl istehsalı 1,9, üzüm 4, tərəvəz və bostan birkiləri 27, ət 1,6, süd 2,4, yumurta istehsalı isə 32 dəfə artmış, əhalinin hər nəfərinə düşən ət və ət məhsulları istehlakı 1,6, süd və süd məhsulları 1,4, yumurta 2,5, tərəvəz və bostan bitkiləri 2,8, meyvə isə 2,6 dəfə çoxalmışdı. 1961-1965-ci illərin orta illik göstəriciləri ilə müqayisədə 1981-ci ildə taxıl bitkilərinin məhsuldarlığı 25,3 sentner, tərəvəz 73,8 sentner, bostan bitkiləri 34,9 sentner, hər inək və camışdan sağılan süd 979 kq, hər iribuynuzlu qaramalın orta çəkisi 81 kq artmışdı. Nəticədə kənd təsərrüfatının orta illik ümumi məhsulu 1965-ci ilə nisbətən 1981-ci ildə 3,2 dəfə, kolxoz və sovxozların təmiz gəliri 3,6 dəfə, kənd təsərrüfatının bir işçisinin orta illik əməkhaqqı 2 dəfə artmışdı. Bütün bunlar kənd əhalisinin maddi rifah halının yüksəlməsinə, kəndin sosial vəziyyətinin əsaslı şəkildə dəyişməsinə gətirib çıxarmışdı [29, v. 70-71].

Muxtar respublikada heyvandarlıq üzrə mühüm nəticələr əldə edilsə də, hey-

vandarlıq hələ də geridə qalmış sahə idi. Belə ki, əgər əhalinin hər bir nəfərinə SSRİ-də 58 kq ət və ət məhsulları düşürdüsə, Azərbaycan SSR-də bu rəqəm 32 kq, muxtar respublikada isə 24,3 kq idi. Heyvandarlığın inkişafı ilk növbədə yem istehsalından asılı idi. 1981-ci ildə muxtar respublikada hər şərti qaramal başına cəmi 9,8 sentner yem tədarük edilmişdi [29, v. 72].

Kənd təsərrüfatında dənli bitkilərin istehsalı mühüm yer tutur və demək olar ki, muxtar respublika ərazisinin hər yerində əkilirdi. Tərəvəz əkinlərinin yarıdan çoxu Şərur rayonunun payına düşürdü. 70-80-ci illərdə muxtar respublikada bağçılıq daha da inkişaf etmişdi. 1986-cı ildə 6389 ha meyvə və giləmeyvə bağlarının 2671 ha kolxoz və sovxozlara, 3718 ha fərdi təsrrüfatlara məxsus idi. Meyvə bağlarının 80 faizindən çoxu Ordubad rayonunun payına düşürdü [253, s. 131; 276, s. 260].

1970-80-ci illərdə yem bitkilərinin sahəsi artmış, muxtar respublika ərazisinin 14 faizini təşkil edən biçənəklərin, yay və qış otlaqlarının yaxşılaşdırılması öz növbəsində heyvandarlığın inkişafını şərtləndirmişdi. Nəticədə qaramalın sayı 1970-ci ilə nisbətən 7,5 min baş artaraq 1983-cü ildə 71,2 minə, qoyun və keçilərin sayı 39,2 min baş artaraq 294 minə, quşların sayı daha sürətlə artaraq 1970-ci ildəki 21,6 mindən 320,4 min başa çatmışdı. 1987-ci ildə muxtar respublikanın təsərrüfatlarında iribuynuzlu və xırdabuynuzlu heyvanların və quşların sayı müvafiq olaraq 75,1 min, 298,6 min və 416,9 min baş təşkil etmişdi [81, s. 94; 276, s. 262].


1970-ci illərdə muxtar respublikada sənaye quşçuluğu da mühüm inkişaf mərhələsinə qədəm qoymuş, Naxçıvan və Ordubad rayonlarında qabaqcıl texnologiyaya əsaslanan yeni quşçuluq fabrikləri istifadəyə verilmişdi [132, v. 65]. Bu dövrdə heyvandarlıqla bağlı olan kənd təsərrüfatı məhsullarının istehsalında da əhəmiyyətli artım baş vermiş, hər inək və camışdan sağılan südün orta illik miqdarı 1970-ci ildəki 544 litrdən 1982-ci ildə 1439 litrə (2,6 dəfə çox), 1986-cı ildə 1709 litrə (3,1 dəfə çox) yüksəlmişdi. Ət istehsalı 1970-ci ildəki 3,7 min tondan 1983-cü ildə 6,1 min, 1986-cı ildə 6,4 min tona, süd istehsalı müvafiq olaraq 18,9 min tondan 30,5 min və 34,9 min tona, yun istehsalı 355 tondan 521 və 421 tona, yumurta ustehsalı 18,4 mln. ədəddən 45,3 mln. və 48,4 mln. ədədə çatmışdı [276, s. 263; 277, s. 33, 41]. 1979-cu ildə bəzi sovxozların sağıcıları hər inəkdən 3150 kq-dək süd sağmağa nail olmuşdular ki, bu da həmin dövr üçün rekord göstərici idi [134, v. 22].

Muxtar respublikanın kənd təsərrüfatında üzümçülüyün inkişafı prioritet sahələrdən idi. 1976-cı ildə muxtar respublikanın ixtisaslaşdırılmış üzümçülük sovxozlarında 7906 ha, kolxozlarda isə 1192,7 ha, cəmi 9098,7 ha sahədə üzüm bağı var idi [131, v. 8]. 1977-ci ildə Naxçıvan MR-də 11 ixtisaslaşdırılmış üzümçülük sovxozu, o cümlədən 5 sovxoz-zavod var idi. 1976-cı ildə Naxçıvan rayonunun üzümçülüklə məşğul olan 11 təsərrüfatından yalnız 2-si planı yerinə yetirmişdi [129, v. 140]. 1977-ci ildə 1975-ci ildəkindən hər hektardan 26,1 sentner çox, 71,1 sentner üzüm yığılmışdı. Bütün istehsal olunmuş üzümün 92 faizindən



Şərur rayonunda üzüm yığımı 1975-ci il

çoxu ixtisaslaşdırılmış təsərrüfatların payına düşürdü. 1975-ci illə müqayisədə Şərur rayonunun "Oktyabr inqilabının 60 illiyi", "Naxçıvan MSSR-in 40 illiyi" sovxozlarında üzümlüklərin məhsuldarlığı hər hektara müvafiq olaraq 56,6 və 63 sentner, məhsul istehsalı isə 1,7 və 2,2 dəfə artmışdı. 1977-ci ildə bu iki sovxozun və "Naxçıvan MSSR-in 50 illiyi" sovxozunun təmiz gəliri 1975-ci ildəki 226 min manata qarşı 3,1 mln. manat olmuşdu [20, v.77-78]. 1979-cu ildə bir sıra sovxozların fəhlələri üzümlüklərin hər hektarından çox yüksək məhsuldarlıq səviyyəsində – 103 sentnerdən 415 sentnerədək məhsul götürmüşdülər. Ən yüksək məhsuldarlıq Şərur və Babək rayonlarında müşahidə olunmuşdu [134, v.18]. 1979-cu ildə muxtar respublikada 19 ixtisaslaşdırılmış üzümçülük sovxozu fəaliyyət göstərirdi. Üzümlüklərin sahəsi artırılaraq 12 min 759 hektara çatdırılmış, üzüm istehsalı 1969-cu illə müqayisədə 1979-cu ildə 5,3 dəfə artmışdı. 1971-1975-ci illər ərzində üzümçülük təsərrüfatlarının ümumi gəliri 7 mln. 400 min manat olduğu halda, təkcə 1976-1979-cu illərdə Naxçıvan MR-in üzümçülük sovxozlarının gəliri 17 mln. manat təşkil etmiş, sovxoz işçilərinin əmək haqqı 1,2 dəfə artmışdı [22, v. 122-123].



Şərur rayonunda üzüm plantasiyası 1985-ci il

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 22 fevral 1979-cu il tarixli qərarından sonra muxtar respublikada üzümçülüyün və onunla əlaqədar emal müəssisələrinin inkişafı sahəsində işlər görülmüş, ixtisaslaşdırılmış üzümçülük sovxozlarının sayı 20-yə çatdırılmış, 1980-ci ildə 860 ha, 1981-ci ildə 30 ha yeni üzüm bağları salınmışdı [148, v. 43]. 1983-cü ilin əvvəli üçün muxtar respublikada 17500 ha-dan artıq üzüm bağı var idi ki, bundan da 10810 ha Naxçıvan MSSR Üzümçülük və Şərabçılıq Aqrar İstehsalat Birliyinin əhatə etdiyi ixtisaslaşdırılmış üzümçülük sovxozlarının payına düşürdü. 1980-1982-ci illərdə birlik üzrə üzümlüklərin hər hektarından orta hesabla 65 sentner məhsul götürülmüşdü ki, bu da əvvəlki üç ilin orta göstəricisindən çox idi. Sovxozlarda üzümlüklərin məhsuldarlığının yüksəldilməsi ilə əlaqədar olaraq 1980-1982-ci illərdə üzüm istehsalına və dövlətə satışına dair plana artıqlaması ilə əməl edilmiş, birliyin təsərrüfatları plandan

27500 ton çox üzüm istehsal etmişdi. Üzümün keyfiyyəti yaxşılaşmış, onun orta şəkərliliyi 1980-ci ildəki 17,17 faizdən 1982-ci ildə 18,3 faizə yüksəlmişdi [148, v. 32-33].

1981-ci ildə üzümçülükdə yeni rekord nəticəyə imza atılmış, dövlətə plandan əlavə 52725 ton, 1975-ci ildə tədarük edilən üzümün bütün həcmindən isə 63387 ton çox, yəni 98725 ton üzüm satılmışdı. Üzümçülüyün inkişafında Şərur, Babək, Ordubad və Culfa rayonlarının üzümçüləri fərqlənmişdi. Təkcə Şərur rayonu dövlətə 63172 ton, yəni muxtar respublikanın 1969-cu ildə təhvil verdiyindən 50830 ton çox üzüm təhvil vermişdi. Üzüm bağlarının hər hektarından məhsuldarlıq orta hesabla Şərur rayonunda 132 sentner, Babəkdə 76,9 sentner, Culfada isə 61,5 sentner olmuşdu [144, v. 9]. 1984-cü ildə kolxoz və sovxozlarda 146,3 min ton üzüm istehsal edilmişdi ki, bu da 1970-ci ildəkindən (23,3 min ton) 6,3 dəfə çox idi [81, s. 93; 276, s. 260-261]. Həmin dövrdə üzümün məhsuldarlığı da artaraq 1982-ci ildə 76,5 sentnerə, 1986-cı ildə 83,7 sentnerə çatmışdı. Üzümlüklərin məhsuldarlığında ən yüksək nəticə 1985-ci ildə əldə olunmuş, hər hektardan orta hesabla 103,8 sentner məhsul yığılmışdı. Dövlətə satılan üzümün miqdarı 1970-ci ildəki 26423 tondan 1985-ci ildə 132,5 min tona yüksəlmişdi [253, s. 131; 276, s. 261, 264; 277, s. 39, 46]. 1985-ci ildə muxtar respublika üzüm istehsalı və satışı planlarının yerinə yetirilməsinə görə Azərbaycanın rayonları arasında birinci yeri tutmuş, ilk dəfə Ümumittifaq fonduna 1000 tondan artıq süfrə üzümü göndərmişdi [170, v. 7].

1981-1985-ci illərdə taxılçılıq üzrə beş illik plan vaxtından əvvəl (satış planı 3 ildə, istehsal planı 4 ildə) yerinə yetirilmişdi. Taxıl sahələrinin hər hektarından məhsuldarlıq 38,1 sentner təşkil etmişdi. Şərur rayonunun bəzi təsərrüfatları hər hektar üzrə 60-73,7 sentner məhsuldarlığa nail olmuşlar. Kənd təsərrüfatı məhsullarının dövlətə satış planları artıqlaması ilə yerinə yetirilmiş, taxıl 27,5 min tona qarşı 38,1 min ton (138 faiz), tütün 15,8 min tona qarşı 18,5 min ton (117 faiz), üzüm 321,5 min tona qarşı 497 min ton (155 faiz), meyvə 19,5 min tona qarşı 30,8 min ton (158 faiz), tərəvəz 29,4 min tona qarşı 35,4 min ton (120 faiz), bostan məhsulları 6,6 min tona qarşı 8 min ton (121 faiz) satılmışdı. 1986-cı il üçün 12 min ha-dan artıq sahədə taxıl əkini aparılmışdı [168, v. 65-67].



Culfa rayonunda taxıl yığımı
1985-ci il

Ümumiyyətlə, 1970-1985-ci illər ərzində muxtar respublikada kənd təsər-

rüfatının bütün əsas məhsulları üzrə əhəmiyyətli artım müşahidə olunmuşdu. Taxıl istehsalı 1970-ci ildə 20,5 min ton, 1980-ci ildə 27 min, 1985-ci ildə 36,8 min, tütün istehsalı müvafiq olaraq 3,1 min, 6,4 min, 2,1 min, tərəvəz 8,4 min, 16,3 min, 14,2 min, üzüm 23,3 min, 62,1 min, 146,3 min ton təşkil etmiş, məhsuldarlıq həmin illərdə 1 ha-dan taxıl üzrə 9,3, 23,2 və 34,7 sentner, tütün 14,5, 23,3, 27,8, kartof 85, 94, 43, tərəvəz 96, 137, 116, üzüm 39,9, 64,7, 103,8 sentner təşkil etmişdi. 1971-ci ildə iribuynuzlu mal-qaranın sayı 63,7 min, 1981-ci ildə 69 min, 1986-cı ildə 72,5 min baş, qoyun və keçilərin sayı isə müvafiq olaraq 254,8 min, 292,2 min və 281,7 min baş olmuşdu. Bütün təsərrüfat kateqoriyalarında əsas heyvandarlıq məhsullarının istehsalı üzrə ət (kəsilmiş çəkidə) 1970-ci ildə 3,7 min, 1980-ci ildə 5,7 min, 1985-ci ildə 6,4 min ton; müvafiq olaraq süd 18,9 min, 27,2 min, 33,3 min ton; yumurta 18,4 milyon, 37,9 mln., 46,8 mln. ədəd; yun 0,4 min, 0,5 min və 0,4 min ton; barama 72,6, 88,3 və 122,8 ton təşkil etmişdi [72, s. 74; 249, s. 87-88].

1987-ci ildə muxtar respublika üzrə ümumi məhsulun 80 faizdən çoxu podratçı kollektivlər tərəfindən istehsal olunmuşdu. 1989-cu ilin əvvəli üçün icarə podratında 391 kollektiv fəaliyyət göstərirdi ki, bunun da 356-sı bitkiçiliklə, 35-i heyvandarlıqla məşğul idi. Kolxoz və sovxozlarda işləyənlərə 3603 baş iribuynuzlu, 18,5 min baş xırdabuynuzlu heyvan, 2885 baş quş, 300 baş donuz və 17 min ha taxıl və yem bitkilərinin, meyvə və bostan məhsullarının əkildiyi sahələr icarəyə verilmişdi [185, v. 4]. Bu tədbirlər nəticəsində 1987-ci ildə muxtar respublika üzrə ət istehsalı 1985-ci ilə nisbətən 458 ton və ya 10 faiz, ət satışı 361 ton, yaxud 12 faiz artmışdı [178, v. 10].

1970-80-ci illər kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, onun texnika və texniki vasitələrlə təminatında da mühüm dövr olmuşdu. Əgər 1970-ci ildə muxtar respublikanın kənd təsərrüfatında 841 traktor, 118 taxılyığan kombayn var idisə, 1975-ci ildə onların sayı müvafiq olaraq 880 və 117, 1980-ci ildə 1145 və 118, 1983-cü ildə 1335 və 142 olmuşdu [277, s. 53].

Həmin dövrdə həyata keçirilən meliorativ tədbirlər, muxtar respublikanın su təsərrüfatı və irriqasiya sisteminin inkişaf etdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi, bu sahə üzrə bir sıra zəruri infrastruktur obyektlərinin inşa edilərək istifadəyə verilməsi kənd təsərrüfatının sürətli inkişafında böyük rol oynamışdı. 1968-1970-ci illərdə kolxoz və sovxozlarda meliorativ və su təsərrüfatı tədbirlərinə 13,8 milyon manat sərf edilmiş, nəticədə 2800 ha torpağın meliorativ vəziyyəti, 2000 ha sahənin su ilə təminatı yaxşılaşmış, 1600 ha sahədə planlaşdırma aparılmışdı [112, v. 42]. 70-ci illərin əvvəllərindən meliorasiya və irriqasiya işlərinin yaxşılaşdırılması istiqamətində işlər sürətlənmiş, suya ciddi ehtiyacı olan kəndlərin təchizatı üçün quyuların qazılmasına başlanılmış, 1971-1972-ci illərdə 44 subartezian quyusu qazılmışdı [11, v. 68; 209, v. 33].

Su-meliorasiya sahəsinin səmərəli işinin təşkili və ona rəhbərlik üçün 1975-ci ildə Naxçıvan Hidromeliorasiya Tikinti Tresti yaradılmış, 1979-cu ildə isə muxtar

respublikanın Su Təsərrüfatı İdarəsi Naxçıvan MSSR Meliorasiya və Su Təsərrüfatı Nazirliyinə çevrilmişdi [266, s. 33].

1971-1980-ci illərdə Naxçıvan MSSR-də su təsərrüfatı ilə bağlı problemlərin həllinə 119 milyon manat vəsait yönəldilmişdi ki, bunun da 66 milyon manatı 1971-1975-ci illərdə sərf olunmuş, əvvəlki onilliyə nisbətən su təsərrüfatı qurğularının tikintisi 7 dəfə çoxalmışdı [266, s.33]. 1970-ci ildə istifadəyə verilən Vayxır kəndi yaxınlığındakı Naxçıvan Su Qovşağı 30 min ha-dan çox sahənin suvarılmasında istifadə edilirdi [98, s. 165]. 1971-ci ildə 1,35 mlrd. kubmetr həcmə malik Araz, 1977-ci ildə 12,7 mln. kubmetrlik Sirab, 1987-ci ildə 13 mln. kubmetrlik Bənəniyar su anbarları tikilib istismara verilmiş, kiçik suvarma qurğularının tikintisi genişləndirilmişdi. 1976-1980-ci illərdə kiçik suvarmanı inkişaf etdirmək məqsədi ilə muxtar respublikada 21 nasos stansiyası və ümumi tutumu 5,5 mln. kubmetr olan 8 su anbarı tikilib istifadəyə verilmişdi. 1980-ci ildə muxtar respublikada 22 su anbarı var idi. Nəticədə 1971-1980-ci illərdə 4863 ha suvarılan torpaq sahəsi istifadəyə verilmiş, 40575 ha suvarılan torpağın meliorasiya və su təminatı yaxşılaşdırılmış, 636 ha sahədə əsaslı yuma aparılmış, 6838 ha torpağın səthi hamarlaşdırılmışdı. 150 mln. kubmetrlik Arpaçay su anbarının istismara verilməsi 46 min ha əkin sahəsinin suvarılmasına, 2 min ha-ya yaxın yeni torpaq sahəsinin dövriyyəyə buraxılmasına imkan yaratmışdı [72, s. 63; 97, s. 30-31, 34-35, 86; 142, v. 9-10, 31]. 1981-ci ildə 660 ha yeni suvarılan torpaq dövriyyəyə daxil edilmiş, 585 ha sahə meliorativ cəhətdən yaxşılaşdırılmış, 1322 ha-da əsaslı hamarlama işi görülmüşdü [144, v. 8]. Ümumiyyətlə, 1970-1980-ci illərdə 4 böyük su anbarı, 10-a yaxın sututar tikilib istifadəyə verilmişdi. Bu hesaba əkin dövriyyəsinə daxil edilən torpaqlar xeyli artırılmış, kənd təsərrüfatı dinamik inkişaf yoluna çıxarılmışdı [102, s. 81].

1981-1982-ci illərdə Naxçıvan MSSR Mexaniki Suvarma İdarəsi tərəfindən ümumi məhsuldarlığı 31,5 kubmetr/saniyə olan 100 nasosu birləşdirən 38 nasos stansiyası, ümumi məhsuldarlığı 3,4 kubmetr/saniyə olan 347 ədəd subartezian quyusu istismar edilirdi. Bundan başqa, Şərur rayonunda 11 nasos stansiyası fəaliyyət göstərirdi [150, v. 10]. 1981-1985-ci illərdə Naxçıvan MSSR Meliorasiya və Su Təsərrüfatı Tresti üzrə 72,1 mln. manatlıq əsas fondlar istifadəyə verilmiş, əkin dövriyyəsinə 4303 ha yeni suvarılan torpaq cəlb edilmiş, 13588 ha sahədə suvarma şəbəkəsi yenidən qurulmuş, 11322 ha torpağın suvarılma səviyyəsi yaxşılaşdırılmış, 23400 ha qış otlağı su ilə təchiz edilmiş, 2440 ha-lıq sahədə əsaslı planlaşdırılma aparılmışdı [157, v. 20]. 1982-1988-ci illərdə 8 min ha torpağın meliorativ vəziyyəti, 10,5 min ha torpağın isə suvarma şəraiti yaxşılaşdırılmışdı [175, v. 105; 250, s. 134].

Aqrar sahədəki inkişafın daha bir mühüm səbəbi 70-80-ci illərdə bu sahəyə ixtisaslı mütəxəssislərin cəlbi idi. Həmin illərdə bu sahənin müvafiq ali və orta ixtisas təhsilli kadrlarla təminatı məsələsində mühüm irəliləyişə nail olunmuşdu.

1980-ci ildə Naxçıvan MSSR-in kənd təsərrüfatında ali təhsilli mütəxəssislərin sayı 486 nəfərə çatmışdı ki, bu da 1970-ci illə müqayisədə 49 faiz çox idi. Kənd təsərrüfatında mütəxəssislərin ümumi sayı 1,9 dəfə artmış, mexanizatorların sayı isə 1970-ci ildə 1184 nəfərdən 1980-ci ildə 1805 nəfərə çatmışdı [72, s. 65]. 1969-1984-cü illərdə kənd təsərrüfatında çalışanların ümumi sayı 45 faiz çoxalmışdı [81, s. 111]. 1984-cü il aprelin 1-nə muxtar respublikanın kolxozlarında çalışan 411 nəfər rəhbər işçinin (sədr, baş mütəxəssis, aqronom, zoomühəndis, zootexnik, baytar, briqadir, prorab, iqtisadçı və s.) 83-ü (20 faizi) ali, 246-sı (60 faizi) orta ixtisas, sovxozların 1321 nəfərlik rəhbər işçi heyətinin 320-si (24 faizi) ali, 753-ü (57 faizi) orta ixtisas təhsilli idi. Təsərrüfatlararsı müəssisə və təşkilatda çalışan 51 rəhbər işçidən 44-ü (86 faizi) ali və orta ixtisas təhsilli mütəxəssislər idi [277, s. 54-56]. 1987-ci ilin yanvarında muxtar respublika iqtisadiyyatında çalışan 35 min nəfərdən çox gənc qız və oğlanın 23 min nəfərdən çoxu kənd təsərrüfatında məşğul idi [171, v. 21].

İqtisadiyyatda qazanılan nailiyyətlərə görə Naxçıvan MSSR 1967-ci il sentyabrın 14-də "Lenin", 1972-ci il dekabrın 29-da "Xalqlar dostluğu", 1974-cü il oktyabrın 3-də "Oktyabr inqilabı" ordenləri ilə təltif edilmişdi. Bundan başqa, iqtisadiyyata dair planların yerinə yetirilməsinə görə 6 dəfə (1975, 1978, 1980, 1982, 1984 və 1985) Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİHİMŞ-in və ÜİLKGİ MK-nın keçici Qırmızı bayrağı ilə mükafatlandırılmışdı [134, v. 32; 144, v. 11; 165, v. 50; 224, v. 12; 244, s. 2]. 1981-ci ildə istehsalın səmərəliliyinin və işin keyfiyyətinin artırılmasına, dövlət iqtisadi və sosial inkişaf planının uğurla və vaxtından əvvəl yerinə yetirilməsinə görə respublika üzrə sosializm yarışının qalibi kimi Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti, AHİŞ və Azərbaycan LKGİ MK-nın keçici Qırmızı bayrağı ilə təltif edilmişdi [31, v. 85-92, 157].

1970-80-ci illərdə əməkdə fərqləndiyinə görə 30 nəfərdən çox naxçıvanlıya sovet dövlətinin yüksək mükafatı – Sosialist Əməyi Qəhrəmanı adı verilmiş, minlərlə naxçıvanlı SSRİ-nin müxtəlif orden və medallarına layiq görülmüşdü. Maarif, səhiyyə, mədəniyyət xadimlərindən 170 nəfərdən çoxu SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR-in fəxri adlarına layiq görülmüşdü [81, s. 118]. Sosialist Əməyi Qəhrəmanlarından SSRİ Ali Sovetinin deputatları, Şərur rayonu M.Hüseynzadə adına kolxozun (sonradan "Arpaçay" kolxozunun) manqa başçısı Bahar Talıbovanın, Şərur rayonu S.Vurğun adına kolxozun briqadiri Mirhəmzə Eminovun, Babək rayonu Y.Cabbarov adına sovxozun manqa başçısı Acoş Əliyevanın, Şərur rayon "1 May" kolxozunun briqadiri İsa Əliyevin, Babək rayon "Kommunizm" kolxozunun briqadiri Əli Əliyevin, Azərbaycan SSR Ali Sovetinin deputatı, Şərur rayon SSRİ-nin 50 illiyi adına kolxozun idarə heyətinin sədri Yusif İsmayılovun və b. adları bütün respublikada və İttifaqda məşhurlaşmışdı.

Ümumiyyətlə, iqtisadiyyata geniş miqyaslı əsaslı vəsait qoyuluşu, elmi-texniki tərəqqinin sürətləndirilməsi, qabaqcıl təcrübənin istehsala sürətlə tətbiqi,

kənd təsərrüfatının ixtisaslaşdırılması, intensivləşdirilməsi, yüksək texnika ilə təmin edilməsi, üzümçülüyün və tütünçülüyün aparıcı sahələrə çevrilməsi, geniş miqyasda hidrotexniki və meliorasiya işlərinin aparılması, əmək məhsuldarlığının, xalqın sosial rifah halının və mədəni səviyyəsinin durmadan yüksəldilməsi Naxçıvan MSSR-in 1970-1980-ci illərdəki sosial-iqtisadi həyatını səciyyələndirən əsas cəhətlər idi [81, s. 121].

4. Sosial inkişaf

Əhaliyə məişət xidməti. 70-80-ci illərdə muxtar respublika əhalisinin soisal vəziyyətinin yüksəlməsi müşahidə olunurdu. Muxtar respublikada 1971-ci ildə əhaliyə göstərilən məişət xidmətinin həcmi 17 faiz, kənd yerlərində 18,8 faiz artmışdı. 1972-ci ilin əvvəllərində muxtar respublikanın məişət xidməti müəssisələri şəbəkəsində 217-si kənd yerlərində olmaqla 346 müəssisə əhaliyə 16 əsas məişət xidməti göstərirdi [116, v. 25]. 1971-1973-cü illərdə əhaliyə göstərilən məişət xidmətinin həcmi əvvəlki 3 ilə nisbətən 39 faiz (kənd yerlərində 85 faiz) yüksəlmişdi [122, v. 62; 210, v. 7]. 1973-cü ilin ortalarında muxtar respublikada 380 məişət xidməti şəbəkəsi fəaliyyət göstərirdi ki, bunun da 233-ü kəndlərdə idi. Muxtar respublikanın 217 kəndindən 132-i məişət xidməti şəbəkəsi ilə əhatə olunmuşdu. Əhaliyə məişət xidməti göstərilən növlərin sayı 130-a çatmışdı ki, bu da əvvəlki iki ildəkindən 3,4 dəfə çox idi [209, v. 33, 40, 42]. 1975-ci ildə əhaliyə göstərilən məişət xidmətinin həcmi 2 mln. 30 min manat təşkil etmişdi [218, v. 199].

1976-1980-ci illərdə məişət xidmətinin həcmi 29 faiz (kənd yerlərində 40,1 faiz) çoxalmışdı [142, v. 90]. Ümumiyyətlə, 1980-ci illərin əvvəllərində 157 yeni məişət xidməti şəbəkəsi (331 nəfər xidmətə yeni cəlb olunmuşdu) istifadəyə verilmiş, məişət xidməti müəssisələrinin sayı 1975-ci ildəki 401-dən 1980-ci ildə 534-ə, 1983-cü ildə isə 754-ə çatmış, müvafiq olaraq həmin illərdə əhaliyə göstərilən pullu xidmətlərin həcmi 2 mln. 128 min (kəndlərdə 1 mln. 55 min), 2 mln. 910 min (1 mln. 515 min) və 3 mln. 976 min (2 mln. 121 min) manat olmuşdu [155, v. 11-12; 277, s. 151].

1971-1980-ci illərdə ictimai iaşə müəssisələrində oturacaq yerlərinin sayı 33 faiz artırılaraq 9,9 mindən 14,8 minə, ictimai iaşədə əmtəə dövriyyəsinin həcmi 51 faiz artımla 5,2 mln. manatdan 10,6 mln. manata çatdırılmışdı [101, s. 72]. 1981-1985-ci illərdə əhaliyə 17,8 mln. manatlıq məişət xidməti göstərilmişdi [157, v. 144].

1986-cı ildə Naxçıvan MSSR Əhaliyə Məişət Xidməti Nazirliyi üzrə məişət xidməti satışı planı 100 faiz, o cümlədən əhali tərəfindən haqqı ödənilən xidmətlər üzrə plan 102,2, mal dövriyyəsi planı 102, mənfəət planı 143 faiz yerinə yetirilmiş, bir sıra xidmət növlərinin həcmi çoxalmış, 1985-ci ilə nisbətən 9,5 faiz (kənd yerlərində 14,1 faiz) artmışdı [173, v. 2].

1987-ci ildə müəssisə və təşkilatlar tərəfindən muxtar respublika əhalisinə 15,3 milyon manatlıq pullu xidmət göstərilmiş, bu sahədə plana 102,4 faiz əməl edilmişdi. 1987-ci ilin əhaliyə məişət xidməti üzrə plana 100,6 faiz (kənd yerlərində 101,9 faiz) əməl edilmişdi. 1986-cı illə müqayisədə məişət xidmətinin həcmi 22 faiz artmışdı [176, v. 4]. 1988-ci ildə əhaliyə 1986-cı ildəkindən 30 faiz çox, 17,5 mln. manatlıq pullu xidmət göstərilmiş, 12 yeni xidmət müəssisəsi və təşkilatı, xalq istehlakı malları istehsal edən yeni müəssisələr, habelə fəaliyyətdə olan müəssisələrin filialları işə salınmışdı [187, v. 1]. 1989-cu ilin fevral ayına muxtar respublikada 140 məktəb bufeti fəaliyyət göstərirdi ki, bunların da 48-də şagirdlər isti yeməklə təmin olunmuşdu [180, 38-40].

Culfa rayonunun Yaycı və Şərur rayonunun Qarabağlar kəndlərində hər biri sahəsi 600 kvadratmetr olan 50 yerlik yeməkxanaya malik ticarət mərkəzləri istismara verilmişdi. 1987-ci illə müqayisədə 1988-ci ildə əmtəə dövriyyəsi 10 mln. 550 min manat artmış, onun adambaşına düşən hissəsi isə 40 manat artaraq 467 manata çatmışdı. 1988-ci ildə və 1989-cu ilin ilk iki ayı ərzində xarici ölkələrə onlardan alınan 16 mln. manatlıq məmulatların əvəzində 8 mln. 300 min manatlıq barama, ipək sapı və dərman bitkiləri göndərilmişdi [180, v. 38].

Əhaliyə göstərilən pullu xidmətlərin həcmi 1970-ci ildə 100 min manat təşkil etmişdisə, 1980-ci ildə artaraq 300 min manata, 1990-cı ildə isə 2,4 mln. manata çatmışdı [242, s. 134].

Lakin muxtar respublikada əhaliyə göstərilən pullu xidmətlərin səviyyəsi və keyfiyyəti yenə də respublika səviyyəsindən 44 manat aşağı idi. Əhalinin hər bir nəfərinə cəmi 60 manatlıq pullu xidmət göstərilirdi. 1986-1988-ci illərdə əhaliyə planda nəzərdə tutulduğundan 948 min, plan üzrə tapşırıqda nəzərdə tutulduğundan 3,6 mln. manatlıq az pullu xidmət göstərilmişdi [187, v. 3-4, 10].

Ticarət və kooperasiya. Xalq istehlakı malları istehsalı. Muxtar respublikada dövlət və kooperativ ticarətinin pərakəndə mal dövriyyəsi 1970-ci ilə nisbətən 1972-ci ildə 24 faiz artaraq 59 mln., 1973-cü ildə 26 faiz artaraq 60 mln. 170 min manat olmuşdu [122, v. 3, 62; 207, v. 25]. 1971-1975-ci illərdə Naxçıvan Kooperativlər İttifaqı (Naxkoopittifaq) vasitəsilə əhaliyə 191 mln. 964 min manatlıq sənaye malları və ərzaq məhsulları satılmışdı. Bu, əvvəlki beş ildəkindən artım sürətinə görə 47,7 faiz, dövriyyə həcminə görə 62 mln. 19 min manat çox idi. 1975-ci ildə dövlət və kooperativ ticarətinin ümumi həcmi 71,5 mln. manat təşkil etməklə, 1970-ci ildəkindən 50 faiz çox olmuşdu [218, v. 97, 199].

1976-1980-ci illərdə dövlət və kooperativ ticarətinin pərakəndə əmtəə dövriyyəsi 38 mln. manat (35,9 faiz) artaraq 423,5 mln. manat təşkil etmiş, əvvəlki beş ilə nisbətən əhaliyə 111 mln. 500 min manat artıq ticarət və ictimai iaşə xidməti göstərilmişdi [135, v. 262; 142, v. 177]. 80-ci illərin əvvəllərində muxtar respublikada əhaliyə göstərilən ticarət, iaşə və xidmət sahələrinin əsas təşkilatları Naxkoopittifaq, Naxçıvan şəhər Qarışıq Mallar Ticarəti İdarəsi, İctimai İaşə İdarəsi və rayon

məişət xidməti idarələri idi [155, v. 10].

1971-1975-ci illərdə Naxçıvan şəhərində qastronom, idman malları mağazası, 2 təsərrüfat malları mağazası, mebel mağazası, ikimərtəbəli "Uşaq aləmi" mağazası, 1976-1980-ci illərdə muxtar respublika üzrə 80-ə yaxın ticarət və iaşə müəssisəsi tikilmişdi. Nəticədə muxtar respublikada ticarət müəssisələrinin sayı on ildə 16,8 faiz artaraq 574-dən 671-ə çatmışdı [101, s. 72; 198, v. 29].

Muxtar respublikada istehlak kooperasiyasının geniş şəbəkəsi yaradılmış, onun maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, 1975-1980-ci illərdə bu sahəyə 2 mln. manatdan çox vəsait xərclənmişdi [140, v. 129]. Bu dövrdə bütün plan tapşırıqları vaxtından əvvəl yerinə yetirilmiş, beş il ərzində kənd əməkçilərinə plandan əlavə 1 milyon 221 min manatlıq ticarət xidməti göstərilmiş, nəzərdə tutulduğundan 595 min manat artıq mənfəət əldə edilmiş, tədavül xərclərinə 296 min manat qənaət olunmuşdu. Kooperativ ticarətinin pərakəndə əmtəə dövriyyəsi 34,6 faiz artmış, muxtar respublikanın kənd əməkçilərinə əvvəlki beş ilə nisbətən 110 mln. manatlıq artıq ticarət və ictimai iaşə xidməti göstərilmişdi.

1970-80-ci illərdə muxtar respublika əhalisinin istehlak strukturunda mühüm dəyişikliklər baş vermişdi. Belə ki, 1970-ci ildə hər nəfər hesabına qeyri-ərzaq malları ümumi ticarət dövriyyəsinin 38,5 faizini təşkil edirdisə, 1980-ci ildə bu göstərici 45,6 faizə çatmışdı. Bu müddətdə bir nəfərə düşən ərzaq məhsullarının həcmi 57 faiz, qeyri-ərzaq mallarının həcmi isə 75 faiz artmış, bir nəfərə düşən ticarət dövriyyəsi 41 faiz artaraq 1970-ci ildəki 262 manatdan 1980-ci ildə 386, 1983-cü ildə isə 452 manata çatmışdı [72, s. 81; 277, s. 147]. Həmin müddətdə dövlət və kooperativ ticarəti xətti ilə əhaliyə 15340 soyuducu, 7872 paltaryuyan, 32237 televizor, 26928 radio və radioqəbuledici satılmışdı [72, s. 81].

Muxtar respublikanın kooperatorları 1980-ci ildən etibarən xarici ölkələrin müvafiq təşkilatları ilə əlaqələr yaratmışdı. 1980-1981-ci illərdə Çexoslovakiyaya 7 ton kəklikotu, Yuqoslaviyaya 20 ton itburnu, Almaniya Federativ Respublikasına 10 ton yemişan, İtaliyaya 20 min ədəd standartdankənar xırda və iri dəri göndərilmişdi [140, v. 130].

Yeni müəssisələrin işə salınması və mövcud olanlarının genişləndirilməsi hesabına 80-ci illərin əvvəllərində xalq istehlakı malları istehsalının həcmi artmış, yeni növdə məhsulların istehsalına başlanılmış, məhsulun keyfiyyəti yaxşılaşmışdı. 1981-ci ildə tikintisinə başlanan 18 ticarət obyektinin 13-ü il ərzində istifadəyə verilmiş, pərakəndə ticarət dövriyyəsi planı vaxtından əvvəl yerinə yetirilmiş, plandan əlavə 820 min manatlıq ticarət xidməti göstərilmişdi. 1981-ci ildə mal dövriyyəsi 1980-ci ildəkinə nisbətən 9,4 faiz artmış, kənd əməkçilərinə 5 mln. 550 min manatlıq çox ticarət xidməti göstərilmişdi [140, v. 129].

1984-cü ildə 6 növdə xalq istehlakı malları dövlət keyfiyyət nişanı ilə buraxılırdı[164, v. 5].

"Respublika istehlak kooperasiyası sistemində yardımçı təsərrüfatı inkişaf

etdirmək haqqında" Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 9 iyul 1978-ci il tarixli qərarına uyğun olaraq Naxkoopittifaq sistemində yardımçı təsərrüfatlar yaradılmışdı [140, v. 130]. 1981-1985-ci illərdə əhaliyə 581,4 mln. manatlıq ərzaq və sənaye məhsulu satılmış, ümumi ticarət sahəsi 4378 kvadratmetr olan 38 mağaza binası, 1274 yerlik 23 ictimai-iaşə obyekti, 405 kvadratmetr sahəsi olan 4 şüşə qabların qəbulu məntəqəsi, Şərur rayonunun Xok kəndində 22 min başlıq quşçuluq fabriki, Babək rayonunun Sust kəndində 1000 başlıq qoyunçuluq ferması, Şahbuz qəsəbəsində 75 tonluq yabanı meyvə bitkiləri üçün anbar, Babək qəsəbəsində 1000 tonluq soyuducu, Şərur şəhərində sutkalıq gücü 24 ton olan çörək kombinatı və sutkada 2 ton qənnadı məmulatı istehsal edən sex, Culfa şəhərində ticarət mərkəzi, Naxçıvan şəhərində "Nəqşi-cahan" motel-restoranı kimi ticarət və ictimai-iaşə obyektləri tikilib istifadəyə verilmişdi. Ticarətin mütərəqqi metodlarının geniş tətbiq edilməsi, xüsusilə ticarət xidmətinin təkmilləşdirilməsi məqsədi ilə ayrı-ayrı qrup malların univermaq və ixtisaslaşdırılmış mağazalarda cəmləşdirilməsi üçün bir çox rayon mərkəzləri və kəndlərdə müvafiq obyektlər açılmışdı. Bu müddətdə özünəxidmət üsulu ilə işləyən şəbəkələrin sayı 29 vahid artaraq 154-ə çatmışdı. Kolxoz və sovxozların gücü hesabına muxtar respublikanın 11 kolxoz və sovxozunda mağaza binası (Şərur rayonunda 7, Ordubadda 2, Babək və Culfada hər birində 1), 13 ictimai-iaşə obyekti (Şərur rayonunda 12, Ordubadda 1) istifadəyə verilmişdi. Nəticədə kooperasiya sistemində ticarətin mal dövriyyəsinin həcmi 1976-1980-ci illərdəkindən 101 mln. 358 min manat (39,2 faiz) çox olmaqla, 1981-1985-ci illərdə 359 mln. 877 min manat təşkil etmişdi [157, v. 144; 168, v. 72-73].

Görülən işlər öz təsirini xalq istehlakı malları istehsalında qabarıq şəkildə göstərmiş, 1986-cı ildə 1985-ci ildəkindən 5,4 faiz çox – 78,6 mln. manatlıq xalq istehlakı malları istehsal edilmiş, Əhaliyə Məişət Xidməti Nazirliyi üzrə xalq istehlakı malları istehsalı planı 104,1 faiz, əmək məhsuldarlığı planı 101,2 faiz yerinə yetirilmişdi [172, v. 48; 173, v. 2]. 1987-ci ildə isə xalq istehlakı malları istehsalı üzrə plan 1986-cı ildəkindən 20,7 faiz çox olmaqla, 104,9 faiz yerinə yetirilmişdi. 1987-ci ildə muxtar respublikada nəzərdə tutulduğundan 6,9 faiz çox qeyri-ərzaq məhsulu [176, v. 3-4], 96,8 mln. manatlıq (1986-cı ildəkindən 20,7 faiz çox) xalq istehlakı malları istehsal edilmişdi [177, v. 16]. 1987-ci ildə əhaliyə Naxkoopittifaq xətti ilə 23 min manatlıq, 1988-ci ildə isə 117 min manatlıq pullu xidmət göstərilmişdi [180, v. 40].

1988-ci ildə muxtar respublikanın müəssisələri tərəfindən 1985-ci ildəkindən 1,8 dəfə, 1987-ci ildəkindən 1,4 dəfə çox – 136,7 mln. manatlıq xalq istehlakı malları istehsal olunmuşdu. Ərzaq malları istehsalı 1,5 dəfə, qeyri-ərzaq malları istehsalı 1,3 dəfə artmışdı. Mədəni-məişət və təsərrüfat təyinatlı məhsul istehsalı planı 103 faiz yerinə yetirilmiş, məhsul buraxılışının həcmi 12 faiz artmışdı. 1986-1988-ci illər üzrə planda və tapşırıqda nəzərdə tutulduğundan müvafiq olaraq

6,3 mln. və 14,4 mln. manatlıq çox qeyri-ərzaq malları istehsal olunmuşdu. Mədəni-məişət və təsərrüfat təyinatlı məhsulların istehsal həcmi artmışdı. Muxtar respublikanın müəssisələri tərəfindən buraxılan məmulatların keyfiyyəti və istehsal xüsusiyyəti bir qədər də yüksəlmiş, əhaliyə göstərilən pullu xidmətlərin dairəsi genişlənmişdi. 1988-ci ildə əhaliyə 1986-cı ildəkindən 30 faiz çox – 17,5 mln. manatlıq pullu xidmət göstərilmiş, 12 yeni xidmət müəssisəsi və təşkilatı, xalq istehlakı malları istehsal edən yeni müəssisələr, habelə fəaliyyətdə olanların filialları işə salınmışdı. Muxtar respublika əhalisinə göstərilən xidmətlər bədən tərbiyəsi və idman təşkilatları üzrə 6 dəfə, tikinti təşkilatları üzrə 3 dəfə, Naxçıvan Şəhər Qarışıq Ticarət Malları Birliyi üzrə 4 dəfə artmışdı [186, v. 3; 187, v. 1].

Pərakəndə ticarət şəbəkələrinin sayı 1970-ci ildə 574 vahid (327 mağaza, 247 çadır və köşk), iaşə müəssisələrinin sayı 358 vahid idisə, 1980-ci ildə bu rəqəmlər müvafiq olaraq 671 (319, 352) və 474, 1990-cı ildə 775 (410, 365) və 771 vahidə qədər artmışdı. Cari əmtəə dövriyyəsi də artaraq göstərilən illər üzrə müvafiq olaraq 5,4 mln. (ondan 4,9 mln.-u pərakəndə mal dövriyyəsi), 9,5 mln. (8,4 mln.), 18 mln. (16 mln.) manat təşkil etmişdi [242, s. 133]. 1989-cu ilin əvvəllərində muxtar respublikada ərzaq məhsulları və xalq istehlakı məhsulları istehsalı ilə məşğul olan 13 kooperativ var idi [180, v. 40].

1980-ci ildə və 1981-ci ilin ilk yarısında ticarətin və ictimai iaşənin daha yaxşı təşkil edilməsi uğrunda sosializm yarışında qalib gəldiyinə görə muxtar respublika 3 dəfə Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin, Azərbaycan Həmkarlar İttifaqları Şurasının, Azərbaycan LKGİ MK-nın keçici Qırmızı bayrağına layiq görülmüşdü [140, v. 131].

Qaz və içməli su təchizatı. Muxtar respublikanın şəhər və kəndlərində yaşayan əhaliyə qaz xidmətinin göstərilməsinə 1958-ci ildə başlanmış, 1965-ci ilin sentyabrında burada maye qaz idarəsi, 1970-ci ildə qazdoldurma stansiyası yaradılmış və bir qədər sonra Qaz Tikinti-Quraşdırma İdarəsi təşkil edilmişdi. Bu tədbirlər nəticəsində 1973-cü ilin ortalarında muxtar respublikanın şəhər və kəndlərində bütövlükdə 15570 mənzildə maye qazdan istifadə təmin olunmuşdu [208, v. 17; 212, v. 17]. Əhalinin 40 faizdən çoxu maye qaz yanacağından istifadə edirdi ki, onun da 8 mini və ya 50 faizi kənd yerlərində idi. 1968-1973-cü illərdə əhali tərəfindən işlədilən maye qazın həcmi 4 dəfə artmışdı. Artıq 1971-ci ildə Naxçıvan şəhəri maye qazla (balon qazı ilə) tam təmin olunmuşdu [209, v. 8, 20]. Naxçıvan rayonu üzrə kəndlərdəki evlərin 27 faizi, Şərur rayonu üzrə 37,6 faizi, Ordubad rayonu üzrə 10,4 faizi, Culfa rayonu üzrə 13,2 faizi, Şahbuz rayonu üzrə 25,6 faizi maye (balon) qazdan istifadə edirdi. Əgər 1965-ci ildə muxtar respublikada 3210 qaz qurğusu var idisə və bu qurğularda 370 ton qaz yandırılırdısa, 1972-ci ilin sonuna qaz plitələrinin sayı 14210 ədədə, istifadə olunan maye qazın həcmi isə 1420 tona çatmışdı [208, v. 18, 20].

1971-1976-cı illərdə qazlaşdırmanın inkişafına 56 mln. manat vəsait sərf

olunmuş, 3,1 min km magistral və yardımçı qaz kəməri çəkilərək istismara verilmiş, 46 yaşayış məntəqəsi, 9 şəhər və rayon mərkəzi qazlaşdırılmışdı [72, s. 88].

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1975-ci il iyulun 9-da qəbul etdiyi "Azərbaycan SSR-də kənd təsərrüfatının intensivləşdirilməsi tədbirləri haqqında" qərarında illik gücü 2,4 mlrd. kubmetr, ümumi uzunluğu 367,5 km, o cümlədən Azərbaycan ərazisində 213,5 km olan Yevlax-Xankəndi-Naxçıvan qaz kəmərinin çəkilməsi və 1979-cu ildə başa çatdırılması nəzərdə tutulmuşdu. Kəmər Naxçıvan MR-in və DQMV-nin, eləcə də kəmərə yaxın ərazilərdə yerləşən bütün şəhər və kəndlərin qazlaşdırılmasını əhatə etməklə, cəmi 587 yaşayış məntəqəsi, 187 kolxoz və 83 sovxozun qazla təminatına xidmət edirdi. Qaz kəmərinin istifadəyə verilməsi muxtar respublikanın 40 minə yaxın ailəsinin təbii qazla təmin edilməsinə imkan yaradırdı [19, v. 179-189; 142, v. 154]. Azərbaycan KP MK bürosu 1977-ci il mayın 6-da "Yevlax-Xankəndi-Naxçıvan qaz kəmərinin tikintisinin sürətləndirilməsi və respublikanın kəmərə yaxın şəhər və kəndlərinin qazlaşdırılması tədbirləri haqqında", Naxçıvan VPK və Naxçıvan MSSR Nazirlər Soveti isə 1980-ci il sentyabrın 24-də "Naxçıvan MSSR-in təbii qazla qazlaşdırılması işlərinin vəziyyəti və gedişatı haqqında" qərar qəbul etmişdi. Qaz kəmərinin çəkilməsi istiqamətində mühüm işlər görülmüş, Yevlax-Xankəndi-Naxçıvan magistral qaz kəmərinin 320 km-lik hissəsi 1980-ci ilin sentyabrınadək çəkilmiş, qazın nəqli ilə bağlı olan digər yardımçı obyektlər inşa edilərək istismara verilmişdi. Nəticədə 6 mindən çox mənzil şəbəkə qazı ilə təmin edilmiş, dövlət mənzil fondunun 3100 mənzilinə və 700 şəxsi evə təbii qaz verilmişdi. Qazpaylama şəbəkəsini sınaqdan keçirdikdən sonra digər qaz xətti çəkilmiş mənzillərə təbii qazın verilməsini təmin etmək, beləliklə, muxtar respublikanın qazlaşdırılmasını sürətlə başa çatdırmaq üçün "Azbaşqaz" tərəfindən Naxçıvan şəhərində Layihə bürosunun filialı yaradılmış, Naxçıvandan kənarda yerləşən tikinti-quraşdırma idarələri – TQİ-1, TQİ-2 və TQİ-6 qazlaşdırma prosesinə cəlb olunmuş, bu sahədə təkcə 1980-ci ilin 8 ayı ərzində 3 mln. manatlıq tikinti-quraşdırma işləri görülmüşdü [141, v. 90].

1981-1985-ci illərdə muxtar respublika ərazisinin qazlaşdırılmasına 13 mln. manatdan çox vəsait sərf edilmiş, 800 km uzunluğunda qaz kəməri inşa edilmişdi. Naxçıvan şəhərində 8403 mənzil qazlaşdırılmış, 3,6 mln. manatlıq tikinti-quraşdırma işləri görülmüş, 153 km qaz kəməri çəkilmişdi. Nəticədə sənaye obyektlərinin və kommunal müəssisələrin böyük əksəriyyəti təbii qazla təchiz olunmuşdu [157, v. 143].

Əgər 1970-ci ildə muxtar respublikada küçə qaz şəbəkəsi mövcud deyildisə və əhali şəbəkə qazı ilə təmin olunmurdusa, 1980-ci ildə küçə qaz şəbəkəsinin uzunluğu 5,8 km, əhaliyə şəbəkə qazının buraxılışı 0,05 min kubmetr olmuş, sonrakı illərdə isə xeyli sürətlə artaraq 1990-cı ildə müvafiq olaraq 268,1 km-ə və 7,9 min kubmetrə çatmışdı. 1990-cı ildə 45928 mənzil qazla təchiz olunmuşdu, əhaliyə maye qaz buraxılışı isə illik 1902 ton təşkil edirdi [242, s. 121].

1970-80-ci illər muxtar respublika əhalisinin içməli su ilə təchizatında da

mühüm mərhələ oldu. Bu məqsədlə muxtar respublikanın kəndlərində xeyli subartezian quyusu qazılmışdı. 1979-cu ildə Şərur-Naxçıvan su kəmərinin çəkilməsi rayonun bütün kəndlərinin, Naxçıvan şəhərinin və qismən Babək rayonu kəndlərinin içməli suya olan tələbatının ödənilməsində böyük rol oynadı. Şahbuz rayonunun Ayrınc kəndindən çəkilən su kəməri isə Şahbuz qəsəbəsinin içməli su problemini həll etdi [72, s. 87]. 1978-1979-cu illərdə həyata keçirilən tədbirlər nəticəsində Culfa və Babək rayonlarının bir neçə kəndinin içməli su probleminin həllinə müəyyən qədər nail olundu [262, 1977, 4 mart]. 1980-ci ildə muxtar respublikanın şəhərlərində və şəhər tipli qəsəbələrində 61,7 kilometrlik mərkəzləşdirilmiş su kəməri mövcud idi [72, s. 88; 258, 1980, 27 dekabr].

Naxçıvan şəhərində təmizləyici qurğular və kanal izolyasiya sisteminin tikintisinə 1982-ci ildə başlanılsa da, sonradan obyektin inşası vəsait ayrılmadığı üçün yubadılmışdı. Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin "1989-1995-ci illərdə Naxçıvan MSSR-in sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında" 20 oktyabr 1988-ci il tarixli qərarında həmin məsələnin həlli öz əksini tapmış, onun 1992-ci ildə istismara verilməsi nəzərdə tutulmuşdu [181, v. 28-29; 182, v. 34-44]. Lakin bu mühüm məsələ sovet hakimiyyəti illərində öz həllini tapmamış qaldı.

Səhiyyə. 1970-ci ilin ortalarında muxtar respublikada 2035 çarpayılıq 51 mərkəzi, şəhər və kənd xəstəxanası, 55 ambulatoriya və poliklinika, 157 feldşer-mama və səhiyyə məntəqəsi, 6 respublika və rayon sanitar-epidemioloji stansiya, 340 yerlik 12 körpələr evi fəaliyyət göstərirdi. Bu tibb müəssisələrində 210 müxtəlif ixtisaslı həkim və 1250 orta tibb işçisi çalışırdı [111, v. 10-11]. 1971-ci ilin əvvəllərində muxtar respublikadakı 240 səhiyyə müəssisəsində işləyən həkimlərin sayı 215, orta təhsilli tibb işçilərinin sayı isə 1300 nəfər idi [112, v. 58]. 1973-cü ilin əvvəlində 1265 çarpayılıq 21 şəhər, 650 çarpayılıq 29 kənd xəstəxanası və dispanseri fəaliyyət göstərirdi. Bu zaman orta hesabla hər min nəfərə 10 çarpayı düşürdü. Fəaliyyətdə olan 17 aptekdən əlavə 42 yerdə I və II dərəcəli aptek məntəqələri də mövcud idi [207, v. 134]. 1978-ci ildə 2215 çarpayılıq 51 xəstəxana, 156 tibb məntəqəsi, 6 sanitar-epidemioloji stansiya, 2 təcili tibbi yardım stansiyası və digər səhiyyə müəssisələrində 3335 nəfər çalışırdı ki, bundan da 373-ü müxtəlif ixtisaslı həkimlər, 1650-dən çoxu orta tibb işçiləri idi. Apteklərin sayı artaraq 23, aptek məntəqələrinin sayı azalaraq 16 olmuşdu [222, v. 108-109].

1978-ci ildə Culfa şəhərinin 8 km-liyində, Darıdağ mineral su yatağı ərazisində Darıdağ Balneoloji Müalicəxanası, 1979-cu ilin dekabrında Naxçıvan şəhəri yaxınlığındakı qədim duz mədənləri bazasında Avropada sayca 3-cü belə səhiyyə müəssisəsi olan Duzdağ Fizioterapiya Xəstəxanası təşkil olunmuşdu [97, s.122, 139; 258, 1980, 26 iyul]. 1982-ci ildə əlavə 50 çarpayı alındıqdan sonra Fizioterapiya Xəstəxanasındakı çarpayı sayı 100-ə çatdırılmışdı. Ümumiyyətlə, həmin ildə muxtar respublikada 2530 çarpayı yeri olan 48 səhiyyə müəssisəsi mövcud idi

[276, s. 269; 277, s. 148]. 1979-cu ildə "Sirab" sanatoriyasının tikintisinə başlanılmışdı [187, v. 4].

1970-ci ildə muxtar respublikada bütün ixtisaslardan olan həkimlərin sayı 262 (əhalinin hər 1000 nəfərinə 12,2), orta tibb işçilərinin sayı 1435 (əhalinin hər 1000 nəfərinə 69,2) idisə, 1980-ci ildə həmin rəqəmlər müvafiq olaraq 591 (24,1) və 1900-ə (77,6), 1985-ci ildə isə 718 (26,6) və 2193-ə (81,3) çatmışdı. 1970-1985-ci illərdə xəstəxana müəssisələrinin sayı 53-dən azalaraq 48-ə ensə də, bu həmin səhiyyə ocaqlarının genişləndirilməsi və mərkəzləşdirilməsi hesabına baş vermişdi. Belə ki, həmin dövrdə xəstəxanalardakı çarpayı sayı artaraq 1970-ci ildəki 1975-dən (əhalinin hər min nəfərinə 95,5) 1980-ci ildə 2530 (103,3), 1985-ci ildə isə 2590 (96) təşkil etmişdi. Həmin illərdə qadın məsləhətxanalarının, uşaq poliklinikalarının və ambulatoriyaların sayı (sərbəst və tərkib) 15-dən müvafiq olaraq 34 və 39-a yüksəlmişdi [98, s. 133]. 1981-ci ildə artıq muxtar respublika səhiyyəsinin terapevtik və pediatrik sahələri həkimlə 100 faiz təmin olunmuşdu [138, v. 30].

1990-cı ildə muxtar respublikada 1970-ci ilə nisbətən bütün ixtisaslardan olan həkimlərin sayı 3,2 dəfə artaraq 844 nəfərə, orta tibb işçilərinin sayı 1,9 dəfə artaraq 2686 nəfərə çatmışdı. Bu illər ərzində xəstəxanaların sayı üç vahid azalaraq 50-yə ensə də, xəstəxanalardakı çarpayı sayı 1,7 dəfə artaraq 3320-yə çatmışdı. Muxtar respublikadakı bütün ixtisaslardan olan həkimlərin əgər 1970-ci ildə 61,8 faizi Naxçıvan şəhərindəki səhiyyə müəssisələrində çalışırdısa, bu göstərici 1980-ci ildə 62,9 faiz, 1990-cı ildə 62,4 faiz təşkil etmişdi [242, s. 81, 170].



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev naxçıvanlı şahmatçı uşaqlarla söhbət edərkən 1974-cü il

İdman. 70-80-ci illərdə Naxçıvan MSSR-də idman kollektivlərinin və idmançıların sayı xeyli artmışdı. 1970-ci ildə 27390 (4230-u qadın) idmançı, 322 (2 stadion, 21 idman zalı, 251 idman meydançası və s.) idman qurğusu, 12 uşaq-gənclər idman məktəbi və 1 güləş məktəbi fəaliyyət göstərirdi [98, s. 134]. İdman qurğularından 2-si stadion, 84-ü futbol meydançası, 92-si basketbol meydançası, yüzü voleybol meydançası və 18-i idman zalı idi, orta məktəblərdə isə 15 idman zalı mövcud idi. 1970-ci ildə muxtar respublikada 134 bədən tərbiyəsi işçisi vardı ki, onların da 62-si ali təhsilli idi [110, v. 20, 23]. 1974-cü ildə onların sayı artaraq müvafiq şəkildə 259 və 101 [202, v. 12], 1980-ci ildə isə 332 və 171

olmuşdu [71, s. 86]. Muxtar respublikanın 54 min şagirdin təhsil aldığı 207 ümumtəhsil məktəbinin 15-də idman zalı var idi və cəmi 51 idman müəllimi işləyirdi [110, v.26]. Təşkil olunmuş 236 bədən tərbiyəsi kollektivində 47117 nəfər idmanla məşğul olurdu ki, onlardan da 6421-i idman normalarını yerinə yetirmişdi [109, v.7]. 1974-cü ildə bədən tərbiyəçilərinin sıralarında 32468 nəfər təmsil olunurdu.

1973-cü ildə yeniyetmələrdən ibarət "Şərq" futbol komandası Ümumittifaq birinciliyində gümüş mükafat almış, Naxçıvanın "Sevinc" futbol komandası 1973-cü ildə Zaqatala şəhərində keçirilən Azərbaycan üzrə yarışlarda birinci yerə, həmin ildə Daşkənddə keçirilmiş Ümumittifaq "Dəri top" birinciliyində isə ikinci yerə çıxmış, gənclərdən ibarət "Badamlı" futbol komandası 1974-cü ildə Azərbaycan üzrə "Sevinc" kuboku yarışlarının çempionu olmuşdu [98, s. 134; 202, v. 10].

İdman kollektivlərinin ümumi sayı 1970-ci ildəki 286-dan artaraq 1980-ci ildə 300-ə, bu kollektivlərdə idmanla məşğul olanların sayı isə 18244 nəfər artaraq 45634-ə, ümumi bədən tərbiyəçilərinin sayı isə 28981 nəfərdən 94694 nəfərə çatmışdı. 1970-ci ildə 3959 nəfər I, II və III dərəcəli idmançı, 6421 ƏMH nişançısı, 1980-ci ildə isə 2 idman ustalığına namizəd, 7381 I, II və III dərəcəli idmançı, 18094 ƏMH nişançısı hazırlanmışdı. Kəndlərdə idmanın kütləviliyinin yüksəldilməsi üçün yaradılan Azərbaycan SSR "Məhsul" Könüllü İdman Cəmiyyətinin (KİC) Naxçıvan Vilayət Şurası 1970-ci ildə 90 idman kollektivində 12521 nəfəri birləşdirirdisə, 1980-ci ildə həmin göstərici müvafiq olaraq 105 kollektivə və 18835 nəfərədək artmışdı [72, s. 96].

İdmanın müxtəlif növləri üzrə məktəblilər arasında spartakiadalar, "Sevinc" futbol kuboku uğrunda yarışlar, "Qartal balası", "Şahin", "Cəsurlar" hərbi-idman oyunları, "Şən startlar", "Möcüzəli dama", "Ağ top", "Pioner" çoxnövlülülyü üzrə yarışların keçirilməsi ənənəvi hal almışdı [98, s. 134; 167, v. 3-4]. İdman və bədən tərbiyəsi sahəsində "Məhsul"cəmiyyətindən əlavə "Burevestnik", "Lokomotiv", "Spartak", "Dinamo" və OADKYC (Orduya, Aviasiyaya və Donanmaya Könüllü Yardım Cəmiyyəti) adlı KİC-lər fəaliyyət göstərirdi. Naxçıvan şəhərində öz sıralarında 11 min nəfəri birləşdirən 82 idman və bədən tərbiyəsi kollektivi var idi [110, v. 19, 21; 113, v. 48-49; 137, v. 13].

1986-cı ilin əvvəlinə muxtar respublikada 641 idman qurğusu, o cümlədən 172 stadion və futbol meydançası, 245 voleybol və 108 basketbol, 38 əl oyunları meydançası mövcud idi. 16,4 min nəfər dərəcəli və birinci dərəcəli idmançı, iki nəfər SSRİ idman ustası, 25 nəfər idman ustalığına namizəd və 26 min nəfər ƏMH idmançısı fəaliyyət göstərirdi. Bu zaman "Məhsul" kənd idman cəmiyyəti öz sıralarında 20 minədək, "Ehtiyat Əmək Qüvvələri" 53 mindən çox, "Lokomotiv" KİC 2787 nəfəri öz sırlarında birləşdirirdi. Muxtar respublikada 6 mədəniyyət-idman kompleksi mövcud idi [167, v. 2-4].

Əhali artımı və məşğulluq. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyəti illərində Naxçıvanda yaradılmış münbit sosial-iqtisadi şərait, əhalinin sosial rifah halının yaxşılaşması əhali sayının sürətlə artmasında özünü göstərirdi. 1970-1990-cı illərdə muxtar respublika əhalisinin sayı 48,6 faiz (94,8 min nəfər) artaraq 1970-ci ildəki 205,7 min nəfərdən 1990-cı ilin əvvəlinə 300,5 min nəfərə, o cümlədən şəhər əhalisi 74,3 faiz (37,9 min nəfər) artaraq 51 min nəfərdən 88,9 min nəfərə, kənd əhalisi isə 36,8 faiz (56,9 min nəfər) artaraq 154,7 min nəfərdən 211,6 min nəfərə çatmışdı [98, s. 113; 242, s. 35, 57; 249, s. 55]. Bu dövrdə əhalinin ümumi sayında şəhər əhalisinin xüsusi çəkisi 24,8 faizdən 29,6 faizə qalxmış, kənd əhalisinin xüsusi çəkisi isə 75,2 faizdən 70,4 faizə enmişdi. Əgər 1970-ci ildə əhalinin ümumi sayında azərbaycanlı əhalinin xüsusi çəkisi 93,8 faiz, ruslar 1,9 faiz, digər millətlər 4,3 faiz təşkil edirdisə, 1989-cu ildə həmin rəqəmlər müvafiq olaraq 95,9 faiz,1,3 faiz, 2,8 faiz təşkil etmişdi. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində əhalinin sayı bu müddətdə 26900 nəfər (79,1 faiz) artaraq 1970-ci ildəki 34 min nəfərdən 1990-cı ildə 60900 nəfərə çatmışdı [93, s. 75; 242, s. 62, 170, 172].

1970-ci ildə əhalinin (15 yaş və yuxarı) hər min nəfərinə 446 təhsilli, o cümlədən 27 ali, 10 natamam ali, 47 orta ixtisas, 142 ümumi orta, 220 natamam orta təhsilli düşürdüsə, 1989-cu ildə hər min nəfərə 767 təhsilli, o cümlədən 77 ali, 13 natamam ali, 108 orta ixtisas, 410 ümumi orta, 159 natamam orta təhsilli düşürdü [242, s. 65].

1985-ci ildə iqtisadiyyatın bütün sahələrində işləyənlərin sayı 1970-ci ildəkinə nisbətən 2,3 dəfə artaraq 36,7 min nəfərdən 85,3 min nəfərə çatmış, əhalinin ümumi sayında işləyənlərin xüsusi çəkisi 30,5 faizə qalxmışdı [93, s. 46]. Naxçıvan MR iqtisadiyyatında məşğulluq səviyyəsinin ən çox artdığı dövr 70-80-ci illər olmuşdur. 1970-1980-ci illərdə iqtisadiyyatda muzdla işləyənlərin sayı 26,1 min nəfər (1,7 dəfə) artaraq 36,7 min nəfərdən 62, 8 min nəfərə çatmışdı. Muzdla işləyən qadınların sayına görə həmin rəqəmlər müvafiq olaraq 11,8 min (1,8 dəfə artım), 14,6 min və 26,4 min olmuşdu. 1980-1990-cı illərdə isə həmin rəqəmlər müvafiq olaraq 22,8 min (1,4 dəfə artım), 62,8 min və 85,6 min, qadınların sayı üzrə 10,9 min (41,3 faiz artım), 26,4 min və 37,3 min olmuşdu. Başqa sözlə, 1970-1990-cı illərdə muzdla işləyən əhali sayı 48,9 min nəfər və ya 57 faizdən çox, muzdla işləyən qadınların sayı isə 22,7 min nəfər və ya 60 faizdən çox artmışdı. 1970-1990-cı illərdə iqtisadiyyatda muzdla məşğul olan işçilərin iqtisadiyyatın müxtəlif sahələri arasında bölünməsi nisbəti xeyli dəyişmişdi. Belə ki, əgər 1970-ci ildə iqtisadiyyatda məşğul əhalinin 10,9 faizi sənaye, 21,3 faizi kənd təsərrüfatı, 9,3 faizi rabitə, 18,3 faizi tikinti, 6 faizi ticarət,8,4 faizi səhiyyə, bədən tərbiyəsi və sosial müdafiə, 15,3 faizi təhsil sahələrində işləyirdisə, 1990-cı ildə həmin rəqəmlər müvafiq olaraq 13,8 faiz, 31,2 faiz, 1,4 faiz, 8,3 faiz, 7,8 faiz və 13,3 faiz təşkil edirdi. Başqa sözlə, muzdla işləyən əhalinin xüsusi çəkisi sənaye və kənd təsərrüfatı

sahələri üzrə artmış, rabitə, tikinti, səhiyyə, bədən tərbiyəsi və sosial müdafiə, həmçinin təhsil sahələri üzrə isə azalmışdı. Əhalinin nominal pul gəlirləri 1980-ci ildə 17,3 milyon manatdan 2,4 dəfədən çox artaraq 1990-cı ildə 41,9 milyon manata qalxmışdı [242, s. 37, 71].

5. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Konstitusiyası (1978)

1977-ci il oktyabrın 7-də SSRİ Ali Sovetinin doqquzuncu çağırış növbədənkənar yeddinci sessiyası SSRİ-nin üçüncü Konstitusiyasını (Əsas Qanununu) qəbul etdi. Bu Konstitusiya 9 bölmə, 21 fəsil, 174 maddədən ibarət idi. Konstitusiyanın "SSRİ-nin milli-dövlət quruluşu" adlanan III bölməsinin 10-cu fəsli (maddə 82-85) "Muxtar Sovet Sosialist Respublikası" adlanırdı. Göstərilirdi ki, muxtar respublika ittifaq respublikasının tərkibində yerləşir, özünün SSRİ və müttəfiq respublikanın Əsas Qanununa uyğun olan Konstitusiyasına malikdir. Muxtar respublikanın ərazisi onun özünün razılığı olmadan dəyişdirilə bilməzdi. 85-ci maddədə Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR-in olduğu göstərilirdi [283].

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəlməsindən sonra respublikada aparılan sürətli inkişaf xətti siyasi-hüquqi sahəyə də təsirsiz ötüşmədi. Bu inkişafın nəticəsi olaraq 1978-ci il aprelin 21-də Azərbaycan SSR Ali Sovetinin doqquzuncu çağırış növbədənkənar yeddinci sessiyasında sovet Azərbaycanının sayca sonuncu, dördüncü və ən kamil Konstitusiyası [284, s. 58-85] qəbul edildi. Bu Konstitusiya 11 bölmə, 22 fəsil və 185 maddədən ibarət idi. Əvvəlki Konstitusiyadan fərqli olaraq, Azərbaycanın 1978-ci il Əsas Qanununda ayrı-ayrı fəsillər bölmələrdə birləşmişdi. İttifaq Konstitusiyasında olduğu kimi, Azərbaycanın Konstitusiyasında da ilk dəfə olaraq siyasi sistem, sosial inkişaf və mədəniyyət, xarici siyasət fəaliyyəti və sosialist vətəninin müdafiəsi, xalq deputatının statusu kimi fəsillər, preambula əks etdirilmişdi.

Yalnız Ali Sovetin qanunvericilik təşəbbüsü hüququna malik olmasını müəyyən edən 1937-ci il Konstitusiyasından fərqli olaraq, 1978-ci il Konstitusiyası respublika Ali Sovetinin Rəyasət Heyətinə, Nazirlər Sovetinə, özünün ali dövlət hakimiyyət orqanlarının timsalında Naxçıvan MSSR-ə, Azərbaycan SSR Ali Sovetinin daimi və digər komissiyalarına, Azərbaycanın Ali Sovetinin deputatlarına, respublika Ali Məhkəməsinə və respublika prokuroruna Azərbaycan SSR Ali Sovetində qanunvericilik təşəbbüsü hüququnu tanıyırdı (maddə 108). Konstitusiyanın 14-cü fəslində respublikanın ali icra və sərəncamverici orqanı kimi hüquqi normalarla təsbit edilən Azərbaycan SSR Nazirlər Sovetinin tərkibinə vəzifəyə görə Naxçıvan MSSR Nazirlər sovetinin sədri də daxil edilirdi (maddə 123). Azərbaycan SSR Nazirlər Soveti Naxçıvan MSSR Nazirlər Sovetinin işini istiqamətləndirmək və yoxlamaq, qərar və sərəncamlarının icrasını dayandırmaq səlahiyyətinə malik idi [284, s. 76].

Konstitusiyanın III bölməsinə ("Azərbaycan SSR-in milli dövlət və inzibati

ərazi quruluşu") daxil olan 7-ci fəslinin ("Azərbaycan SSR SSRİ-nin tərkibində müttəfiq respublikadır") 72-ci maddəsində Naxçıvan MSSR dövlət büdcəsinin yerinə yetirilməsinə rəhbərlik etmək ali dövlət hakimiyyəti və idarə orqanları simasında Azərbaycan SSR-in səlahiyyətinə verilirdi (8-ci bənd). 78-ci maddədə Naxçıvan MSSR-in Azərbaycan SSR-in tərkibinə daxil olduğu göstərilmişdi [284, s. 69].

1978-ci il Azərbaycan Konstitusiyasının III bölməsinə daxil olan 8-ci fəsli (79-82-ci maddələr) "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" adlanırdı. Konstitusiya Naxçıvan MSSR-in Azərbaycan SSR-in tərkibində sovet sosialist dövləti olduğunu göstərir, muxtar respublikanın SSRİ Konstitusiyasına və Azərbaycan SSR Konstitusiyasına müvafiq olan və Naxçıvan MSSR-in xüsusiyyətlərini nəzərə alan öz Konstitusiyası olduğunu təsbit edirdi. 81-ci maddədə göstərilirdi ki, "Naxçıvan MSSR-in ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz". Azərbaycan qanunlarının muxtar respublika ərazisində üstün hüquqi qüvvəyə malik olması müəyyən edilirdi: "Azərbaycan SSR qanunları Naxçıvan MSSR ərazisində məcburidir. Naxçıvan MSSR qanunu Azərbaycan SSR qanununa uyğun gəlmədikdə, Azərbaycan SSR qanunu tətbiq edilir" (maddə 82) [284, s. 70].

Konstitusiyanın 86-cı maddəsində Azərbaycan SSR Ali Soveti ilə yanaşı, Naxçıvan MSSR Ali Sovetinin də vəkalət müddətinin beş il olduğu müddəası öz əksini tapmışdı. Xalq deputatları Sovetlərinə seçkilərin keçirilməsi qaydası SSRİ, Azərbaycan SSR qanunları ilə, Naxçıvan MSSR-də isə həmçinin Naxçıvan MSSR qanunları ilə müəyyən edilirdi (maddə 97). 102-ci maddədə göstərilirdi ki, deputatların toxunulmazlığı, habelə deputatlıq fəaliyyəti üçün digər təminatlar deputatların statusu haqqında qanunla və SSRİ-nin digər qanunvericilik aktları ilə, Azərbaycan SSR-in və Naxçıvan MSSR-in qanunvericilik aktları ilə müəyyən olunur.

Azərbaycan SSR Ali Soveti sədrinin üç müavinindən biri Naxçıvan MSSR-dən seçilirdi (maddə 113). Naxçıvan MSSR-də rayon bölgüsünün, şəhərlərin təşkil edilməsinin, şəhərlərin tabeliyinin dəyişdirilməsinin, rayonlara, şəhərlərə ad verilməsinin və onların adlarının dəyişdirilməsinin, habelə digər yaşayış məntəqələrinin adlarının dəyişdirilməsinin təsdiq edilməsi Azərbaycan SSR Ali Sovetinin səlahiyyətinə daxil idi. Azərbaycan Ali Soveti habelə Naxçıvan MSSR Nazirlər Sovetinin qərar və sərəncamları qanuna uyğun gəlmədikdə, onları ləğv etmək səlahiyyətinə də malik idi (maddə 114). Naxçıvan MSSR-in sərhəd dəyişikliklərini təsdiq etmək səlahiyyəti isə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə məxsus idi.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasının 15-16-cı fəsilləri əhatə edən VI bölməsi "Naxçıvan MSSR-in dövlət hakimiyyəti və idarə orqanları"na həsr olunmuşdu.

15-ci fəsildə (maddə 131-132) Naxçıvan MSSR Ali Soveti muxtar respublikada dövlət hakimiyyətinin ali orqanı elan edilirdi. Naxçıvan MSSR Ali Soveti SSRİ

Konstitusiyası, Azərbaycan SSR Konstitusiyası və Naxçıvan MSSR Konstitusiyası ilə Naxçıvan MSSR-in səlahiyyətinə aid edilmiş bütün məsələləri həll etmək hüququna malik idi. Naxçıvan MSSR Konstitusiyasının qəbul olunması, onda dəyişikliklər edilməsi, Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planlarının, dövlət büdcəsinin və onların yerinə yetirilməsi haqqında hesabatların təsdiq olunması, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinə hesabat verməli olan orqanların təşkil edilməsi yalnız Naxçıvan MSSR Ali Soveti tərəfindən həyata keçirilir, Naxçıvan MSSR qanunları Naxçıvan MSSR Ali Soveti tərəfindən qəbul edilirdi. Naxçıvan MSSR Ali Sovetinin daimi orqanı – özünün bütün fəaliyyətində ona hesabat verən və onun sessiyaları arasındakı dövrdə Naxçıvan MSSR ali dövlət hakimiyyəti orqanının funksiyalarını Konstitusiyanın nəzərdə tutduğu hüquqlar daxilində həyata keçirən, tərkibi və səlahiyyəti Naxçıvan MSSR Konstitusiyası ilə müəyyən edilən Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti idi.

16-cı fəsil (maddə 133-136) Naxçıvan MSSR Nazirlər Sovetinin hüquq və səlahiyyətlərinə həsr olunmuşdu. Naxçıvan MSSR Ali Soveti tərəfindən təşkil edilən, onun qarşısında məsul olub hesabat verən muxtar respublika hökuməti – Naxçıvan MSSR Nazirlər Soveti dövlət hakimiyyətinin ali icra və sərəncam orqanı idi. Konstitusiyaya görə, Naxçıvan MSSR Nazirlər Soveti SSRİ-nin, Azərbaycan SSR-in və Naxçıvan MSSR-in qanunvericilik aktları, SSRİ Nazirlər Sovetinin və Azərbaycan SSR Nazirlər Sovetinin qərar və sərəncamları əsasında və bunların yerinə yetirilməsi üçün qərarlar çıxarır və sərəncamlar verir, onların icrasını təşkil edir və yoxlayırdı. Muxtar respublika hökuməti öz səlahiyyəti daxilində Naxçıvan MSSR nazirliklərinin, dövlət komitələrinin, öz tabeliyindəki başqa orqanların, MSSR tabeliyindəki rayon və şəhər xalq deputatları sovetləri icraiyyə komitələrinin qərar və sərəncamlarını ləğv etmək hüququna malik idi. Naxçıvan MSSR Nazirlər Soveti nazirliklərin, dövlət komitələrinin və öz tabeliyindəki başqa orqanların işini birləşdirir və istiqamətləndirirdi. Konstitusiya Naxçıvan MSSR nazirlikləri və dövlət komitələrinin həm Naxçıvan MSSR Nazirlər Sovetinə, həm də Azərbaycan SSR-in müvafiq nazirliyinə və dövlət komitəsinə tabe olduğunu təsbit etməklə muxtar respublikanın hökumət orqanlarının ikili tabeliliyini müəyyən edirdi [284, s. 77].

1978-ci il Azərbaycan Konstitusiyasının 17-18-ci fəsillərində yerli dövlət hakimiyyəti və idarə orqanlarının (xalq deputatları sovetləri, onların icraiyyə komitələri) statusu, səlahiyyət və hüquqları müəyyən edilərkən Naxçıvan MSSR ərazisində fəaliyyət göstərən müvafiq orqanların SSRİ və Azərbaycan SSR ilə yanaşı Naxçıvan MSSR qanunvericiliyi əsasında fəaliyyət göstərdiyi qeyd olunurdu.

153-cü maddədə Naxçıvan MSSR-in iqtisadi və sosial inkişaf planının Azərbaycan SSR-in iqtisadi və sosial inkişaf planının tərkib hissəsi olduğu bildirilir, 154-cü maddədə Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planının SSRİ dövlət iqtisadi və sosial inkişaf planı əsas götürülməklə, Azərbaycan SSR nazir-

liklərinin, dövlət komitələrinin və başqa dövlət idarə orqanlarının, Naxçıvan MSSR Nazirlər Sovetinin, yerli xalq deputatları sovetlərinin planlarının layihələri əsasında Azərbaycan SSR Nazirlər Soveti tərəfindən işlənib hazırlandığı vurğulanırdı. Konstitusiyada Azərbaycan SSR-in dövlət büdcəsinin (20-ci fəsil) Naxçıvan MSSR dövlət büdcəsini də birləşdirdiyi müddəası yer almışdı (maddə 159). Başqa sözlə, muxtar respublikanın dövlət büdcəsi respublika dövlət büdcəsinin tərkib hissəsi idi.

Əsas Qanunun 163-cü maddəsi Naxçıvan MSSR Ali Məhkəməsini Azərbaycan SSR-in xalq məhkəmələri siyahısına daxil edirdi. Naxçıvan MSSR Ali Məhkəməsinin sədri vəzifəsinə görə Azərbaycan SSR Ali Məhkəməsinin tərkibinə daxil edilirdi. Naxçıvan MSSR prokuroru SSRİ Baş prokuroru tərəfindən təyin edilirdi (maddə 177).

1978-ci il mayın 30-da Naxçıvan MSSR Ali Soveti Azərbaycan SSR-in dördüncü Konstitusiyasının əsasında 10 bölmə, 16 fəsil, 163 maddədən ibarət olan Naxçıvan MSSR Konstitusiyasını [247; 248; 273] qəbul etdi. Muxtar respublikanın üçüncü Konstitusiyası əvvəlki Əsas Qanunlardan həm öz strukturuna, həm də dövlət idarəçiliyinin ən müxtəlif sahələrinin əhatə olunduğu hüquqi normaların məzmununa görə daha təkmil idi. Əsas Qanunda fərqlərdən biri əvvəlki iki Konstitusiyada olmayan preambula hissəsinin mövcudluğu idi. Cəmi bir cümlədən ibarət olan preambulada bəyan edilirdi ki, "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının xalqı elmi kommunizm ideyalarını rəhbər tutaraq, bütün sovet xalqının ayrılmaz hissəsi olduğunu dərk edərək, SSR İttifaqı Konstitusiyasına və Azərbaycan SSR Konstitusiyasına müvafiq olaraq bu Konstitusiyanı qəbul və elan edir" [247, s. 3].

Muxtar respublikanın əvvəlki Konstitusiyasından fərqli olaraq, 1978-ci il Konstitusiyasında ayrı-ayrı fəsillər bölmələrdə birləşdirilmişdi. Konstitusiyada Naxçıvan MSSR-in sosialist ümumxalq dövləti olması, bütün hakimiyyətin xalqa məxsusluğu, dövlət hakimiyyətinin xalq tərəfindən muxtar respublikanın siyasi əsası olan sovetlər vasitəsilə həyata keçirilməsi, iqtisadi sisteminin əsasını istehsal vasitələri üzərində sosialist mülkiyyətinin təşkil etməsi, iqtisadiyyata rəhbərliyin mərkəzləşdirilmiş idarəçiliyin təsərrüfat müstəqilliyi və müəssisə, birlik və digər təşkilatların təşəbbüskarlığı ilə uzlaşdırılmış qaydada, iqtisadi və sosial inkişafın dövlət planları əsasında, sahə və ərazi prinsiplərinin nəzərə alınması ilə həyata keçirilməsi, muxtar respublikanın sosial əsasını fəhlə, kəndli və ziyalıların sarsılmaz ittifaqının təşkil etməsi və s. kimi məsələlər öz əksini tapmışdı. Konstitusiya yeni mülki və siyasi hüquqları: vəzifəli şəxslərin hərəkətlərindən şikayət vermək hüququnu, şərəf və ləyaqətə qarşı qəsdlərdən məhkəmə müdafiəsi hüququnu, qanun və qərarların qəbul edilməsində iştirak hüququnu, sağlamlığın mühafizəsi hüququnu, mədəniyyət nailiyyətlərindən istifadə hüququnu, dövlət və ictimai təşkilatların hərəkətlərini tənqid etmək hüququnu və s. əks etdirirdi.

1978-ci il Konstitusiyasında ilk dəfə olaraq sağlamlığın mühafizəsi hüququ, mənzil hüququ, mədəniyyət nailiyyətlərindən istifadə etmək hüququ, qanun və qərarların qəbul edilməsində iştirak hüququ, şərəf və ləyaqətin məhkəmə yolu ilə

müdafiəsi hüququ, elmi, texniki və bədii yaradıcılıq azadlığı, habelə ailənin dövlət tərəfindən müdafiə edilməsi haqqında hüquqi norma təsbit edildi. Əsas Qanunda hüquq və vəzifələrin ayrılmazlığı qeyd edilirdi. Azərbaycanın Konstitusiyasında olduğu kimi, ilk dəfə olaraq siyasi sistem, sosial inkişaf və mədəniyyət, xalq deputatının statusu, Naxçıvan MSSR vətəndaşlığı kimi fəsillər, habelə Naxçıvan MSSR-in milli dövlət və inzibati ərazi quruluşu adlı ayrıca bölmə (6-7-ci fəsillər) əks etdirilmişdi. Naxçıvan MSSR-in üçüncü Konstitusiyası ali dövlət hakimiyyəti və idarəetmə orqanlarının təşkili və fəaliyyətində də bir sıra dəyişikliklər etmişdi. Konstitusiyada muxtar respublika hökumətinin – Nazirlər Kabinetinin tərkibinə daxil olan nazirlik, komitə və idarələrin konkret siyahısı əvvəlki təcrübədən fərqli olaraq sovet dövrünün son Əsas Qanununda öz əksini tapmamışdı. Bu Konstitusiya 1937-ci il Konstitusiyasından fərqli olaraq rus dilindən götürülmüş terminlərdən də təmizlənərək, Azərbaycan dilində daha aydın başa düşülən və savadlı şəkildə hazırlanmışdı.

Naxçıvan MSSR-in 1978-ci il Konstitusiyası aşağıdakı struktura malik idi:

I bölmə. Naxçıvan MSSR-in ictimai quruluşunun və siyasətinin əsasları (maddə 1-27)

1-ci fəsil. Siyasi sistem (maddə 1-9)

2-ci fəsil. İqtisadi sistem (maddə 10-18)

3-cü fəsil. Sosial inkişaf və mədəniyyət (maddə 19-27)

II bölmə. Dövlət və şəxsiyyət (maddə 28-63)

4-cü fəsil. Naxçıvan MSSR vətəndaşlığı. Vətəndaşların hüquq bərabərliyi (maddə 28-32)

5-ci fəsil. Naxçıvan MSSR vətəndaşlarının əsas hüquqları, azadlıqları və vəzifələri (maddə 33-63)

III. Naxçıvan MSSR-in milli dövlət və inzibati ərazi quruluşu (maddə 64-72)

6-cı fəsil. Naxçıvan MSSR Azərbaycan SSR-in tərkibində muxtar respublikadır (maddə 64-70)

7-ci fəsil. Naxçıvan MSSR-in inzibati ərazi quruluşu (71-72)

IV bölmə. Naxçıvan MSSR xalq deputatları sovetləri və onların seçilməsi qaydası (maddə 73-91)

8-ci fəsil. Xalq deputatları Sovetlərinin sistemi və fəaliyyət prinsipləri (maddə 73-78)

9-cu fəsil. Seçki sistemi (maddə 79-86)

10-cu fəsil. Xalq deputatı (maddə 87-91)

V bölmə. Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti və idarə orqanları (maddə 92-118)

11-ci fəsil. Naxçıvan MSSR Ali Soveti (maddə 92-109)

12-ci fəsil. Naxçıvan MSSR Nazirlər Soveti (maddə 110-118)

VI bölmə. Naxçıvan MSSR-də yerli dövlət hakimiyyəti və idarə orqanları

(maddə 119-133)

13-cü fəsil. Yerli xalq deputatları Sovetləri (maddə 119-126)

14-cü fəsil. Yerli xalq deputatları Sovetlərinin icraiyyə komitələri (maddə 127-133)

VII bölmə. Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planı. Naxçıvan MSSR Dövlət büdcəsi (maddə 134-141)

VIII bölmə. Ədalət mühakiməsi, arbitraj və prokuror nəzarəti (maddə 142-158)

15-ci fəsil. Məhkəmə və arbitraj (maddə 142-154)

16-cı fəsil. Prokurorluq (maddə 155-158)

IX bölmə. Naxçıvan MSSR-in gerbi, bayrağı və paytaxtı (maddə 159-161)

X bölmə. Naxçıvan MSSR Konstitusiyasının qüvvədə olması və onu dəyişdirmək qaydası (maddə 162-163)

Konstitusiyanın ilk iki maddəsi Naxçıvan MSSR-in fəhlələrin, kəndlilərin və ziyalıların, bütün millətlərdən olan zəhmətkeşlərin iradə və mənafeyini ifadə edən sosialist ümumxalq dövləti olduğunu, bütün hakimiyyətin xalqa məxsus olduğunu elan edirdi. Xalq dövlət hakimiyyətini Naxçıvan MSSR-in siyasi əsası olan və bütün başqa dövlət orqanlarına nəzarəti həyata keçirən xalq deputatları Sovetləri vasitəsi ilə həyata keçirirdi. Konstitusiya muxtar respublikada sosialist qanunçuluğu əsasında fəaliyyət göstərən, hüquq qaydalarının, cəmiyyətin mənafeyinin, vətəndaşların hüquq və azadlıqlarının qorunmasını təmin edən sovet dövlətinin təşkili və fəaliyyətinin demokratik mərkəziyyət prinsipinə: aşağıdan yuxarıyadək bütün dövlət hakimiyyəti orqanlarının seçkili olması, onların xalqa hesabat verməsi, yuxarı orqanların qərarlarının aşağı orqanlar üçün məcburi olması prinsipinə uyğun surətdə qurulduğunu bəyan edirdi. Dövlət təşkilatları, ictimai təşkilatlar və vəzifəli şəxslər ittifaq, respublika və muxtar respublika konstitusiyalarına əməl etməyə borclu idilər. "Dövlət həyatının ən vacib məsələləri ümumxalq müzakirəsinə verilir, habelə ümumxalq səsverməsinə (referenduma) qoyulur"du (maddə 5) [248, s. 4].

Konstitusiya kommunist partiyasını "sovet cəmiyyətinin rəhbər və istiqamətverici qüvvəsi, onun siyasi sisteminin, dövlət və ictimai təşkilatlarının özəyi" olduğunu hüquqi norma kimi təsbit etməklə Sov.İKP-nin cəmiyyətdə hegemon roluna konstitusion status verirdi. Həmkarlar ittifaqları, ÜİLKGİ, kooperativ təşkilatları və başqa ictimai təşkilatlar dövlət və cəmiyyət işlərinin idarə olunmasında iştirak edirdilər. Sovet cəmiyyətinin siyasi sisteminin inkişafında əsas istiqamətin sosialist demokratiyasının daha da genişləndirilməsindən ibarət olduğu vurğulanırdı.

Naxçıvan MSSR-in iqtisadi sisteminin əsasını dövlət (ümumxalq) və kolxoz-kooperativ mülkiyyəti formasında istehsal vasitələri üzərində sosialist mülkiyyəti təşkil edirdi (maddə 10). Dövlət mülkiyyəti bütün sovet xalqının ümumi sərvəti, sosialist mülkiyyətinin əsas forması idi. Torpaq və yerin təki, sular, meşələr dövlətin müstəsna mülkiyyəti elan edilirdi. Habelə sənayedə, tikintidə və kənd

təsərrüfatında əsas istehsal vasitələrinin, nəqliyyat və rabitə vasitələrinin, banklar, dövlət tərəfindən təşkil edilmiş ticarət və kommunal müəssisələrinin, başqa müəssisələrin əmlakının, şəhərlərin əsas mənzil fondunun və dövlətin vəzifələrinin həyata keçirilməsi üçün lazım olan başqa əmlakın da mülkiyyətçisi dövlət idi. Kolxozlar və başqa kooperativ təşkilatların istifadəsində olan istehsal vasitələri və başqa əmlak kollektiv mülkiyyət hesab olunurdu. Vətəndaşların şəxsi mülkiyyətinin əsasını əməkli gəlir təşkil edirdi. Şəxsi mülkiyyətdə məişət avadanlığı, şəxsi istehlak və rahatlıq şeyləri, yardımçı ev təsərrüfatı şeyləri, yaşayış evi və əməklə qazanılmış vəsait yığımı bu gəlirə daxil idi. Vətəndaşların şəxsi mülkiyyəti və ona vərəsəlik hüququ dövlət tərəfindən mühafizə olunurdu.

Konstitusiya sosializmin "Hər kəsdən qabiliyyətinə görə, hər kəsə əməyinə görə" prinsipini sanksiyalaşdırır və bu prinsipə uyğun olaraq dövlət əmək və istehlak ölçüsünə nəzarət edir, vergi tutulmalı olan gəlirdən verginin miqdarını müəyyənləşdirirdi. Konstitusiyanın 16-cı maddəsi Naxçıvan MSSR iqtisadiyyatının Azərbaycan SSR iqtisadiyyatının ayrılmaz hissəsi, SSRİ ərazisində vahid xalq təsərrüfatı kompleksinin tərkib hissəsi olduğunu qeyd edirdi. Mərkəzləşdirilmiş qaydada idarə olunan planlı iqtisadiyyat konstitusion norma kimi təsbit edilirdi. Ekoloji təmizliyin qorunması və ətraf mühitin mühafizəsi üçün tədbirlərin görülməsi də Əsas Qanunda öz əksini tapmışdı (maddə 18) [273, s. 8].

Konstitusiyanın 3-cü fəsli sosial inkişaf və mədəniyyət məsələlərinin tənzimlənməsini əhatə edirdi. Əsas Qanun Naxçıvan MSSR-in sosial əsasını fəhlələrin, kəndlilərin və ziyalıların sarsılmaz ittifaqının təşkil etdiyini bildirir, "Hər kəsin azad inkişafı hamının azad inkişafı üçün şərtdir" idealını irəli sürürdü. Dövlət əmək şəraitinin yaxşılaşdırılması və əməyin mühafizəsi, bütün sahələr üzrə istehsal proseslərinin kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması qayğısını öz üzərinə götürürdü [240, s. 99-100]. Naxçıvan MSSR-də dövlət səhiyyə, sosial təminat, ticarət və ictimai iaşə, məişət xidməti və kommunal təsərrüfatı sistemləri fəaliyyət göstərirdi. Dövlət kütləvi bədən tərbiyəsinin və idmanın inkişafına kömək edir, mənəvi sərvətləri mühafizə etmək və artırmaq, bunlardan adamların mənəvi və estetik tərbiyəsi üçün, onların mədəni səviyyəsinin yüksəldilməsi üçün geniş istifadə etməyin qayğısına qalır, elmin planauyğun inkişafı və elmi kadrlar hazırlanmasını təmin edir, elmi tədqiqat nəticələrinin xalq təsərrüfatında və həyatın başqa sahələrində tətbiq olunmasını təşkil edirdi .Vahid xalq maarifi sistemi mövcud idi.

Konstitusiyanın II bölməsi dövlətlə şəxsiyyət arasındakı münasibətlərin hüquqi tənzimlənməsinə dair müddəaları ehtiva edirdi. Vahid vətəndaşlıq prinsipi özünü Naxçıvan MSSR-in hər bir vətəndaşının Azərbaycan və SSR İttifaqı vətəndaşı sayılmasında, sovet vətəndaşlığının əldə edilməsinin və itirilməsinin əsasları və qaydasının SSRİ vətəndaşlığı haqqında qanunla müəyyən olunmasında göstərirdi. Yalnız Azərbaycan deyil, digər müttəfiq respublikaların da vətəndaşları

muxtar respublika ərazisində Naxçıvan MSSR vətəndaşları ilə eyni hüquqa malik idilər (maddə 28). Bütün vətəndaşlar mənşəyindən, sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə münasibətindən və digər hallardan asılı olmayaraq qanun qarşısında bərabər elan olunurdu. Bu hüquq bərabərliyi iqtisadi, siyasi, sosial və mədəni həyatın bütün sahələri üzrə təmin edilirdi.

Naxçıvan MSSR-də qadın və kişi bərabər hüquqlara malik idilər. Hüquqların bilavasitə və dolayısı ilə hər hansı şəkildə məhdudlaşdırılması, irqi və milli əlamətlərə görə vətəndaşlar üçün bilavasitə və ya dolayı üstünlüklər müəyyən edilməsi, eləcə də irqi və ya milli müstəsnalığın, ədavətin və ya etinasızlığın hər hansı şəkildə təbliği qanunla cəzalandırılırdı. Əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə qanunla nəzərdə tutulmuş hüquq və azadlıqlar, o cümlədən onlara məxsus şəxsi hüquqların, əmlak, ailə hüquqlarının və başqa hüquqların müdafiəsi üçün məhkəməyə və digər dövlət orqanlarına müraciət etmək hüququ təmin olunurdu. Öz növbəsində olan əcnəbi vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR konstitusiyalarına hörmət etməli və qanunlara əməl etməli idilər (maddə 30-32).

Konstitusiyanın ən geniş işlənmiş fəsli 31 maddəni əhatə edən Naxçıvan MSSR vətəndaşlarının əsas hüquq və azadlıqlarını, vəzifələrini müəyyənləşdirən 5-ci fəsli idi. Naxçıvan MSSR vətəndaşları SSRİ, Azərbaycan SSR, Naxçıvan MSSR konstitusiyalarında və sovet qanunlarında elan edilən və təminat verilən bütün sosial-iqtisadi, siyasi və şəxsi hüquq və azadlıqlara bütünlüklə malik idilər. Konstitusiyada vətəndaşların əsas mülki hüquq və azadlıqları kimi əmək hüququ, istirahət hüququ, sağlamlığın mühafizəsi hüququ, mənzil hüququ, təhsil hüququ, mədəniyyət nailiyyətlərindən istifadə etmək hüququ, qocaldıqda, xəstələndikdə, əmək qabiliyyətini tamamilə və ya qismən itirdikdə, habelə ailə başçısını itirdikdə maddi təminat hüququ, ictimai təşkilatlarda birləşmək hüququ, elmi, texniki və bədii yaradıcılıq azadlığı, vicdan azadlığı öz əksini tapmışdı [248, s. 11-15]. Vicdan azadlığı vətəndaşların hər hansı dinə etiqad etmək və ya heç bir dinə etiqad etməmək, dini ayinləri icra etmək və ya ateizm təbliğatı aparmaq hüququ təmin olunur, dini etiqadla əlaqədar ədavət və nifrət oyatmaq qadağan edilirdi. Naxçıvan MSSR-də dini təsisatların dövlətdən, məktəbin dini müəssisələrdən ayrıldığı bildirilirdi. İstirahət hüququnun əks olunduğu 35-ci maddədə fəhlə və qulluqçular üçün 41 saatdan çox olmayan iş həftəsi müəyyən edilirdi.

Konstitusiyada əks olunmuş başlıca siyasi hüquqlar isə vətəndaşlara dövlət işlərinin və ictimai işlərin idarə edilməsində, ümumdövlət və yerli əhəmiyyətli qanun və qərarların müzakirəsində və qəbul olunmasında iştirak etmək hüququnun, dövlət orqanlarına və ictimai təşkilatlara onların fəaliyyətini yaxşılaşdırmaq barəsində təkliflər vermək, işdəki nöqsanları tənqid etmək hüququnun, söz, mətbuat, yığıncaqlar, mitinqlər, küçə yürüşləri və nümayişlər azadlığının verilməsində

özünü göstərirdi. Vəzifəli şəxslər vətəndaşların təklif və ərizələrinə müəyyən edilmiş müddətlərdə baxmalı, cavab verməli və lazımi tədbirlər görməli idilər. Tənqid üstündə təqib qadağan edilirdi. Tənqid üstündə təqib edən şəxslər məsuliyyətə cəlb olunurdular. Lakin bunlar dövrün totalitar siyasi rejiminin sərt hakimiyyəti altında olan cəmiyyətdə formal xarakter daşıyan, real həyatda, adətən, öz əksini nadir hallarda tapan siyasi hüquqlar idi.

Bunlardan əlavə, Konstitusiya Naxçıvan MSSR vətəndaşlarının şəxsiyyət və mənzil toxunulmazlığına, şəxsi həyatın, yazışmanın, telefon danışıqlarının və teleqraf rabitəsi sirrinin qanunla qorunmasına təminat verirdi. Vətəndaşların şəxsiyyətinə hörmət etmək, hüquq və azadlıqlarını qorumaq bütün dövlət orqanlarının, ictimai təşkilatlarının və vəzifəli şəxslərin borcu elan edilirdi. Vətəndaşlar onların şərəfinə və ləyaqətinə, həyatına və sağlamlığına, şəxsi azadlığına və əmlakına qəsdlərdən məhkəmə yolu ilə müdafiə olunmaq hüququna malik idilər (maddə 51). Əsas Qanun Naxçıvan MSSR vətəndaşlarına vəzifəli şəxslərin, dövlət orqanlarının və ictimai orqanların hərəkətlərindən şikayət etmək hüququnu tanıyırdı. Şikayətlərə qanunla müəyyən olunmuş qaydada və müddətlərdə baxılmalı idi. Vəzifəli şəxslər, qanunu pozmaqla, səlahiyyətini aşmaqla vətəndasların hüquqlarına toxunan hərəkətlər etdikdə, bu hərəkətlərdən qanunla müəyyən olunmuş qaydada məhkəməyə şikayət verilə bilərdi. Vətəndaşların dövlət təşkilatlarının və ictimai təşkilatların, habelə xidmət vəzifələrini icra edərkən vəzifəli şəxslərin qanunsuz hərəkətləri ilə dəymiş zərərin əvəzini almaq hüququ 52-ci maddədə əks olunmuşdu.

Konstitusiyaya görə, ailə dövlət tərəfindən müdafiə olunur, elan edilirdi ki, nikah qadın və kişinin könüllü razılığına əsaslanır; ər və arvad ailə münasibətlərində hüquqca tamamilə bərabərdir. Dövlət uşaq tərbiyə müəssisələrinin geniş şəbəkəsini yaratmaq və inkişaf etdirmək, məişət xidmətini və ictimai iaşəni təşkil etmək və təkmilləşdirmək, uşaq anadan olduqda müavinət vermək, çoxuşaqlı ailələrə müavinət vermək və güzəştlər etmək, habelə ailəyə başqa növ müavinət vermək və yardım göstərmək yolu ilə ailənin qayğısına qalırdı (maddə 47) [273, s. 15].

Əsas Qanun hüquq və azadlıqların həyata keçirilməsini vətəndaşın öz vəzifələrini icra etməsindən ayrılmaz sayırdı. Naxçıvan MSSR vətəndaşları SSRİ, Azərbaycan SSR, Naxçıvan MSSR konstitusiyalarına və sovet qanunlarına əməl etməyə, sosialist birgəyaşayış qaydalarına hörmət etməyə, sovet vətəndaşı kimi yüksək adı ləyaqətlə daşımağa borclu idilər. Seçdiyi ictimai faydalı fəaliyyət sahəsində vicdanla işləmək, əmək intizamına əməl etmək əmək qabiliyyətli hər bir vətəndaşın borcu və şərəf işi hesab olunurdu. Sosialist mülkiyyətini qorumaq və möhkəmləndirmək, dövlət əmlakının və ictimai əmlakın oğurlanmasına və israf edilməsinə qarşı mübarizə aparmaq, xalq malına qayğı ilə yanaşmaq, sovet dövlətinin mənafeyini qorumaq, onun qüdrət və nüfuzunun möhkəmləndirilməsinə kömək etmək, Vətəni müdafiə etmək vətəndaşların konstitusion vəzfələrindən idi.

Vətənə xəyanət xalq qarşısında ən ağır cinayət sayılırdı. SSRİ Silahlı Qüvvələri sıralarında hərbi xidmət Naxçıvan MSSR vətəndaşlarının şərəfli vəzifəsi elan edilirdi (maddə 53-57).

Başqa vətəndaşların milli ləyaqətinə hörmət etmək, çoxmillətli sovet dövlətinin millətləri və xalqları arasında dostluğu möhkəmlətmək hər bir vətəndaşının borcu hesab edilir, digər şəxslərin hüquqlarına və qanuni mənafeyinə hörmət etmək, cəmiyyətə zidd hərəkətlərə qarşı barışmaz olmaq, ictimai asayişin qorunmasına hər vasitə ilə kömək etmək zəruri sayılırdı. Uşaqların tərbiyəsinə qayğı göstərmək, onları ictimai faydalı əməyə hazırlamaq, cəmiyyətin layiqli üzvləri kimi yetişdirmək, övladların öz valideynlərinin qayğısına qalması və onlara yardım göstərməsi də vətəndaşların Konstitusiyada əks olunmuş vəzifələri sırasına daxil idi. Bundan başqa, təbiəti qorumaq, onun sərvətlərini mühafizə etmək, tarixi abidələrin və digər mədəniyyət sərvətlərinin mühafizəsi qayğısına qalmaq vətəndaşların borcu və vəzifəsi, başqa ölkələrin xalqları ilə dostluğun və əməkdaşlığın inkişafına, ümumi sülhün qorunmasına və möhkəmlənməsinə kömək etmək Naxçıvan MSSR vətəndaşının beynəlmiləl borcu idi [248, s. 17].

İlk dəfə olaraq muxtar respublikanın üçüncü Konstitusiyasına "Naxçıvan MSSR Azərbaycan SSR-in tərkibində muxtar respublikadır" adlı ayrıca (6-cı) fəsil artırılmışdı. 64-cü maddədə göstərilirdi ki, "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində sovet sosialist dövlətidir. SSR İttifaqı hüquqlarından kənarda və Azərbaycan SSR Konstitusiyasının 72-ci maddəsində göstərilənlər istisna olmaqla Naxçıvan MSSR öz ərazisində dövlət hakimiyyətini müstəqil həyata keçirir". Azərbaycan SSR Konstitusiyasınınm 72-ci maddəsində Azərbaycan SSR-in ali dövlət hakimiyyəti və idarə orqanları simasında onun səlahiyyətinə daxil olan məsələlərin siyahısı müəyyənləşdirilmişdi [284, s. 68-69].

Konstitusiya SSRİ və Azərbaycan SSR qanunlarının Naxçıvan MSSR ərazisində məcburi qüvvəyə malik olduğunu elan edirdi. Naxçıvan MSSR-in səlahiyyətinə onun ali dövlət hakimiyyəti və idarə orqanlarının simasında aşağıdakılar daxil edilirdi: Naxçıvan MSSR Konstitusiyasını qəbul etmək və onda dəyişikliklər aparmaq; ona əməl olunmasına nəzarət etmək; Naxçıvan MSSR qanunvericiliyi; dövlət asayişini, vətəndaşların hüquq və azadlıqlarını qorumaq; SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyinə uyğun olaraq respublika və yerli dövlət hakimiyyəti və idarə orqanlarının təşkili və fəaliyyəti qaydasını müəyyən etmək; vahid sosial-iqtisadi siyasət yeritmək, Naxçıvan MSSR iqtisadiyyatına rəhbərlik etmək, elmi-texniki tərəqqini təmin etmək, təbii ehtiyatlardan səmərəli istifadə olunması və onların mühafizəsi tədbirlərini həyata keçirmək; Naxçıvan MSSR-in dövlət iqtisadi və sosial inkişaf planlarını, Naxçıvan MSSR dövlət büdcəsini işləyib hazırlamaq və təsdiq etmək, onların yerinə tetirilməsinə dair hesabatları təsdiq etmək; rayonların və respublika tabeliyindəki şəhərlərin büdcələrinin yerinə

yetirilməsinə rəhbərlik etmək; Naxçıvan MSSR dövlət büdcəsini təşkil etmək üçün daxil olan gəliri SSR İttifaqının və Azərbaycan SSR qanunvericiliyinə uyğun olaraq müəyyən etmək; respublika tabeliyindəki xalq təsərrüfatı sahələrinə, respublika tabeliyində və yerli tabelikdə olan birliklərə və müəssisələrə rəhbərlik etmək; SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyinə uyğun olaraq torpaqdan, yerin təkindən, meşələrdən və sulardan istifadə qaydalarını müəyyənləşdirmək, ətraf mühiti mühafizə etmək; mənzil və kommunal təsərrüfatına, ticarətə və ictimai iaşəyə, əhaliyə məişət xidmətinə, mənzil tikintisinə, şəhərlərin və başqa yaşayış məntəqələrinin abadlaşdırılmasına, yol çəkilişinə və nəqliyyata rəhbərlik etmək; xalq maarifinə, Naxçıvan MSSR-in mədəniyyət və elm təşkilatları və idarələrinə, səhiyyəyə, bədən tərbiyəsinə və idmana, sosial təminata rəhbərlik etmək, tarix və mədəniyyət abidələrini qorumaq; respublika əhəmiyyətli digər məsələləri həll etmək.

Konstitusiyanın 66-cı maddəsində qeyd edilirdi ki, "Naxçıvan MSSR-in ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz" [248, s. 18]. Naxçıvan MSSR-də müharibə təbliğatı qadağan edilirdi. Azərbaycan SSR qanunvericiliyinə uyğun olaraq Naxçıvan MSSR-in öz rayon bölgüsünü müəyyən etmək və respublikanın inzibati ərazi quruluşunun başqa məsələlərini həll etmək hüququnu təsbit olunmuşdu. Naxçıvan MSSR-in tərkibində Babək, İliç (Şərur), Ordubad, Culfa, Şahbuz rayonları və respublika tabeliyində olan Naxçıvan, Ordubad və Culfa şəhərləri var idi (maddə 70-71).

Konstitusiyanın IV bölməsinə xalq deputatları sovetlərinin sistemi və fəaliyyət prinsipləri (8-ci fəsil), seçki sistemi (9-cu fəsil) və xalq deputatı (10-cu fəsil) ilə bağlı hüquqi normalar daxil edilmişdi. Naxçıvan MSSR Ali Soveti, rayon, şəhər, qəsəbə və kənd xalq deputatları sovetləri dövlət hakimiyyəti orqanlarının vahid sistemini təşkil edirdi. Naxçıvan MSSR Ali Sovetinin vəkalət müddəti beş il, yerli xalq deputatları sovetlərinin vəkalət müddəti iki il yarım idi. Xalq deputatları sovetlərinə seçkilər müvafiq sovetlərin vəkalət müddətinin qurtarmasına azı iki ay qalmış təyin edilirdi. Müvafiq xalq deputatları sovetlərinin səlahiyyətinə aid edilmiş ən mühüm məsələlər onların sessiyalarında müzakirə və həll olunurdu. Xalq deputatları sovetləri daimi komissiyalar seçir, icra və sərəncam orqanları, habelə sovetlərə hesabat verməli olan başqa orqanlar yaradırdılar.

Bütün xalq deputatları sovetlərinə seçkilər gizli səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında keçirilirdi. Qanunla müəyyən olunmuş qaydada ağıldan məhrum hesab edilən şəxslər istisna olmaqla, 18 yaşına çatmış bütün vətəndaşlara seçmək və seçilmək hüququ tanınırdı. Deputatlığa namizədləri irəli sürmək hüququ Sov.İKP, həmkarlar ittifaqları, ÜLKGİ təşkilatlarına, kooperativ və başqa ictimai təşkilatlara, əmək kollektivlərinə, habelə hərbi qulluqçuların yığıncaqlarına məxsus idi. Xalq deputatları sovetlərinə seçkilərin keçirilməsi ilə əlaqədar xərclər dövlət hesabına ödənilirdi. Naxçıvan MSSR vətəndaşı ikidən

artıq xalq deputatları sovetinə seçilə bilməzdi. Sovetlərə seçkilərin keçirilməsini təmin edən seçki komissiyaları ictimai təşkilatların, əmək kollektivlərinin və hərbi qulluqçuların yığıncaqlarının nümayəndələrindən təşkil olunurdu (maddə 79-86) [240, s. 108-109].

Deputatlar xalq deputatları sovetlərində xalqın səlahiyyətli nümayəndələri hesab olunurdu. Deputat öz səlahiyyətini istehsalat və ya xidmət fəaliyyətini dayandırmadan həyata keçiridi. Deputatın müvafiq dövlət orqanlarına və vəzifəli şəxslərə sorğu vermək hüququ var idi. Onlar həmin sorğuya sovetin sessiyasında cavab verməyə borclu idilər. Deputata öz hüquq və vəzifələrini maneəsiz və səmərəli həyata keçirmək üçün şərait təmin edilirdi. Deputatların toxunulmazlığı, habelə deputatlıq fəaliyyəti üçün digər təminatlar deputatların statusu haqqında qanunla, SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR-in qanunvericilik aktları ilə müəyyən olunurdu. Deputat öz işi və sovetin işi haqqında seçicilər qarşısında, habelə onun deputatlığa namizədliyini irəli sürmüş kollektivlər və ictimai təşkilatlar qarşısında hesabat verməyə borclu idi. Seçicilərin etimadını doğrultmayan deputat qanunla müəyyən edilmiş qaydada, seçicilərin əksəriyyətinin qərarı ilə istənilən vaxt geri çağırıla bilərdi.

Konstitusiyanın V bölməsi Naxçıvan MSSR-in Ali dövlət hakimiyyəti və idarə orqanlarını, onların səlahiyyət dairəsini müəyyənləşdirirdi. Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti orqanı əhalisinin sayı bərabər olan seçki dairələri üzrə 110 deputatdan ibarət tərkibdə seçilən Naxçıvan MSSR Ali Soveti idi. Ali Sovet Naxçıvan MSSR-in bütün ərazisində məcburi qüvvəyə malik qanunlar qəbul edirdi və SSRİ, Azərbaycan SSR və muxtar respublika Konstitusiyası ilə Naxçıvan MSSR-in səlahiyyətinə aid edilmiş bütün məsələləri həll etmək hüququna malik idi. Naxçıvan MSSR Konstitusiyasının qəbul olunması, onda dəyişikliklər edilməsi; Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planlarının, muxtar respublikanın dövlət büdcəsinin və onların yerinə yetirilməsi haqqında hesabatların təsdiq edilməsi; Naxçıvan MSSR Ali Sovetinə hesabat verməli olan orqanların təşkili yalnız Naxçıvan MSSR Ali Soveti tərəfindən həyata keçirilirdi.

Naxçıvan MSSR Ali Soveti öz sədrini və onun iki müavinini seçirdi. Naxçıvan MSSR Ali Sovetinin Sədri Ali Sovetin iclaslarına rəhbərlik edir və onun daxili iş qaydasını müəyyənləşdirirdi (maddə 94). Ali Sovet öz daimi orqanını – özünün bütün fəaliyyətində ona hesabat verən və onun sessiyaları arasındakı dövrdə ali dövlət hakimiyyəti orqanının funksiyalarını Konstitusiyanın nəzərdə tutduğu hüdudlar daxilində həyata keçirən Rəyasət Heyətini seçirdi. Ali Sovetin Rəyasət Heyəti deputatlar içərisindən Ali Sovetin Rəyasət Heyətinin Sədrindən, Sədrin iki müavinindən, katibindən və beş üzvündən ibarət tərkibdə seçilirdi (maddə 101-102) [240, s. 93, 111-112].

Naxçıvan MSSR Ali Sovetinin sessiyaları ildə iki dəfə çağrılırdı. Növbədənkənar sessiyalar Ali Sovetinin Rəyasət Heyəti tərəfindən onun öz təşəbbüsü ilə və

ya deputatların azı üçdə bir hissəsinin təklifi ilə çağırılırdı.

Naxçıvan MSSR Ali Sovetində qanunvericilik təşəbbüsü hüququ Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinə, Naxçıvan MSSR Nazirlər Sovetinə, Naxçıvan MSSR Ali Sovetinin daimi komissiyalarına və digər komissiyalarına, Naxçıvan MSSR Ali Sovetinin deputatlarına, Naxçıvan MSSR Ali Məhkəməsinə, Naxçıvan MSSR Prokuroruna məxsus idi. İctimai təşkilatlara da öz orqanları simasında qanunvericilik təşəbbüsü hüququ tanınırdı.

Naxçıvan MSSR qanunları, Ali Sovetin qərarları və digər aktları bütün deputatların əksəriyyəti tərəfindən qəbul edilirdi. Qanunların layihələri və muxtar respublikanın dövlət həyatının digər mühüm məsələləri Ali Sovetin, yaxud onun Rəyasət Heyətinin qərarı ilə xalqın müzakirəsinə verilə bilərdi.

Naxçıvan MSSR Ali Sovetinin deputatı Ali Sovetin, onun sessiyaları arasındakı dövrdə isə Ali Sovetin Rəyasət Heyətinin razılığı olmadan cinayət məsuliyyətinə cəlb edilə bilməz, həbs oluna bilməz və ya onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri görülə bilməzdi.

Konstitusiyanın 103-105-ci maddələrində Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin vəzifə və səlahiyyətləri müəyyənləşdirilmişdi. Buraya Ali Sovetiə və yerli xalq deputatları sovetlərinə seçkilərin təyin ediilməsi, Ali Sovetin sessiyalarını çağırılması, onun daimi komissiyalarının fəaliyyətinin əlaqələndirilməsi, Konstitusiyaya əməl olunmasına nəzarət, muxtar respublika Konstitusiyasının və qanunlarının SSRİ və Azərbaycan SSR Konstitusiyasına və qanunlarına uyğunluğunun təmin edilməsi, rayon (şəhər) xalq məhkəmələrinə seçkilərin təyin edilməsi, Naxçıvan MSSR qanunlarının şərhi, yerli xalq deputatları sovetlərinin fəaliyyətinə rəhbərlik, rayonların və respublika tabeliyində şəhərlərin təşkili, onların adlarının müəyyən edilməsi və dəyişdirilməsi, Naxçıvan MSSR Nazirlər Sovetinin, rayon və şəhər (respublika tabeliyindəki şəhər) xalq deputatları sovetlərinin qərar və sərəncamlarının, qanuna uyğun gəlmədikdə, ləğvi, Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilməsi, muxtar respublikanın fəxri adlarının müəyyənləşdirilməsi və verilməsi, habelə Ali Sovetin sessiyaları arasındakı dövrdə, sonradan növbəti sessiyada Ali Sovetin təsdiqinə verilməklə, qüvvədə olan qanunvericilik aktlarında, lazım gəldikdə, dəyişikliklərin edilməsi, rayon bölgüsündə dəyişikliklərin və muxtar respublika tabeliyində şəhərlərin təşkili, Naxçıvan MSSR Nazirlər Sovetinin təklifi ilə nazirliklərin, dövlət komitələri və başqa dövlət orqanlarının yaradılması və ləğvi, Nazirlər Sovetinin tərkibinə daxil olan ayrı-ayrı şəxslərin Nazirlər Soveti Sədrinin təqdimi ilə vəzifədən azad edilməsi və vəzifəyə təyin edilməsi daxil idi. Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti fərmanlar verir və qərarlar qəbul edirdi.

Ali Sovetin vəkalət müddəti qurtardıqda, onun Rəyasət Heyəti təzə seçilən Ali Sovet tərəfindən yeni Rəyasət Heyəti təşkil edilənədək öz səlahiyyətini saxlayırdı. Yeni seçilmiş Ali Sovet əvvəlki tərkibdə Rəyasət Heyəti tərəfindən

artıq xalq deputatları sovetinə seçilə bilməzdi. Sovetlərə seçkilərin keçirilməsini təmin edən seçki komissiyaları ictimai təşkilatların, əmək kollektivlərinin və hərbi qulluqçuların yığıncaqlarının nümayəndələrindən təşkil olunurdu (maddə 79-86) [240, s. 108-109].

Deputatlar xalq deputatları sovetlərində xalqın səlahiyyətli nümayəndələri hesab olunurdu. Deputat öz səlahiyyətini istehsalat və ya xidmət fəaliyyətini dayandırmadan həyata keçiridi. Deputatın müvafiq dövlət orqanlarına və vəzifəli şəxslərə sorğu vermək hüququ var idi. Onlar həmin sorğuya sovetin sessiyasında cavab verməyə borclu idilər. Deputata öz hüquq və vəzifələrini maneəsiz və səmərəli həyata keçirmək üçün şərait təmin edilirdi. Deputatların toxunulmazlığı, habelə deputatlıq fəaliyyəti üçün digər təminatlar deputatların statusu haqqında qanunla, SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR-in qanunvericilik aktları ilə müəyyən olunurdu. Deputat öz işi və sovetin işi haqqında seçicilər qarşısında, habelə onun deputatlığa namizədliyini irəli sürmüş kollektivlər və ictimai təşkilatlar qarşısında hesabat verməyə borclu idi. Seçicilərin etimadını doğrultmayan deputat qanunla müəyyən edilmiş qaydada, seçicilərin əksəriyyətinin qərarı ilə istənilən vaxt geri çağırıla bilərdi.

Konstitusiyanın V bölməsi Naxçıvan MSSR-in Ali dövlət hakimiyyəti və idarə orqanlarını, onların səlahiyyət dairəsini müəyyənləşdirirdi. Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti orqanı əhalisinin sayı bərabər olan seçki dairələri üzrə 110 deputatdan ibarət tərkibdə seçilən Naxçıvan MSSR Ali Soveti idi. Ali Sovet Naxçıvan MSSR-in bütün ərazisində məcburi qüvvəyə malik qanunlar qəbul edirdi və SSRİ, Azərbaycan SSR və muxtar respublika Konstitusiyası ilə Naxçıvan MSSR-in səlahiyyətinə aid edilmiş bütün məsələləri həll etmək hüququna malik idi. Naxçıvan MSSR Konstitusiyasının qəbul olunması, onda dəyişikliklər edilməsi; Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planlarının, muxtar respublikanın dövlət büdcəsinin və onların yerinə yetirilməsi haqqında hesabatların təsdiq edilməsi; Naxçıvan MSSR Ali Sovetinə hesabat verməli olan orqanların təşkili yalnız Naxçıvan MSSR Ali Soveti tərəfindən həyata keçirilirdi.

Naxçıvan MSSR Ali Soveti öz sədrini və onun iki müavinini seçirdi. Naxçıvan MSSR Ali Sovetinin Sədri Ali Sovetin iclaslarına rəhbərlik edir və onun daxili iş qaydasını müəyyənləşdirirdi (maddə 94). Ali Sovet öz daimi orqanını – özünün bütün fəaliyyətində ona hesabat verən və onun sessiyaları arasındakı dövrdə ali dövlət hakimiyyəti orqanının funksiyalarını Konstitusiyanın nəzərdə tutduğu hüdudlar daxilində həyata keçirən Rəyasət Heyətini seçirdi. Ali Sovetin Rəyasət Heyəti deputatlar içərisindən Ali Sovetin Rəyasət Heyətinin Sədrindən, Sədrin iki müavinindən, katibindən və beş üzvündən ibarət tərkibdə seçilirdi (maddə 101-102) [240, s. 93, 111-112].

Naxçıvan MSSR Ali Sovetinin sessiyaları ildə iki dəfə çağrılırdı. Növbədənkənar sessiyalar Ali Sovetinin Rəyasət Heyəti tərəfindən onun öz təşəbbüsü ilə və

ya deputatların azı üçdə bir hissəsinin təklifi ilə çağırılırdı.

Naxçıvan MSSR Ali Sovetində qanunvericilik təşəbbüsü hüququ Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinə, Naxçıvan MSSR Nazirlər Sovetinə, Naxçıvan MSSR Ali Sovetinin daimi komissiyalarına və digər komissiyalarına, Naxçıvan MSSR Ali Sovetinin deputatlarına, Naxçıvan MSSR Ali Məhkəməsinə, Naxçıvan MSSR Prokuroruna məxsus idi. İctimai təşkilatlara da öz orqanları simasında qanunvericilik təşəbbüsü hüququ tanınırdı.

Naxçıvan MSSR qanunları, Ali Sovetin qərarları və digər aktları bütün deputatların əksəriyyəti tərəfindən qəbul edilirdi. Qanunların layihələri və muxtar respublikanın dövlət həyatının digər mühüm məsələləri Ali Sovetin, yaxud onun Rəyasət Heyətinin qərarı ilə xalqın müzakirəsinə verilə bilərdi.

Naxçıvan MSSR Ali Sovetinin deputatı Ali Sovetin, onun sessiyaları arasındakı dövrdə isə Ali Sovetin Rəyasət Heyətinin razılığı olmadan cinayət məsuliyyətinə cəlb edilə bilməz, həbs oluna bilməz və ya onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri görülə bilməzdi.

Konstitusiyanın 103-105-ci maddələrində Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin vəzifə və səlahiyyətləri müəyyənləşdirilmişdi. Buraya Ali Sovetiə və yerli xalq deputatları sovetlərinə seçkilərin təyin ediilməsi, Ali Sovetin sessiyalarını çağırılması, onun daimi komissiyalarının fəaliyyətinin əlaqələndirilməsi, Konstitusiyaya əməl olunmasına nəzarət, muxtar respublika Konstitusiyasının və qanunlarının SSRİ və Azərbaycan SSR Konstitusiyasına və qanunlarına uyğunluğunun təmin edilməsi, rayon (şəhər) xalq məhkəmələrinə seçkilərin təyin edilməsi, Naxçıvan MSSR qanunlarının şərhi, yerli xalq deputatları sovetlərinin fəaliyyətinə rəhbərlik, rayonların və respublika tabeliyində şəhərlərin təşkili, onların adlarının müəyyən edilməsi və dəyişdirilməsi, Naxçıvan MSSR Nazirlər Sovetinin, rayon və şəhər (respublika tabeliyindəki şəhər) xalq deputatları sovetlərinin qərar və sərəncamlarının, qanuna uyğun gəlmədikdə, ləğvi, Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilməsi, muxtar respublikanın fəxri adlarının müəyyənləşdirilməsi və verilməsi, habelə Ali Sovetin sessiyaları arasındakı dövrdə, sonradan növbəti sessiyada Ali Sovetin təsdiqinə verilməklə, qüvvədə olan qanunvericilik aktlarında, lazım gəldikdə, dəyişikliklərin edilməsi, rayon bölgüsündə dəyişikliklərin və muxtar respublika tabeliyində şəhərlərin təşkili, Naxçıvan MSSR Nazirlər Sovetinin təklifi ilə nazirliklərin, dövlət komitələri və başqa dövlət orqanlarının yaradılması və ləğvi, Nazirlər Sovetinin tərkibinə daxil olan ayrı-ayrı şəxslərin Nazirlər Soveti Sədrinin təqdimi ilə vəzifədən azad edilməsi və vəzifəyə təyin edilməsi daxil idi. Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti fərmanlar verir və qərarlar qəbul edirdi.

Ali Sovetin vəkalət müddəti qurtardıqda, onun Rəyasət Heyəti təzə seçilən Ali Sovet tərəfindən yeni Rəyasət Heyəti təşkil edilənədək öz səlahiyyətini saxlayırdı. Yeni seçilmiş Ali Sovet əvvəlki tərkibdə Rəyasət Heyəti tərəfindən

seçkilərdən ən geci iki ay keçənədək çağırılırdı. Ali Sovet öz səlahiyyətinə aid məsələləri qabaqcadan nəzərdən keçirib hazırlamaq üçün, habelə qanunların, Ali Sovetin və onun Rəyasət Heyətinin digər qərarlarının həyata keçirilməsinə kömək etmək, dövlət orqanları və təşkilatlarının fəaliyyətinə nəzarət etmək üçün deputatlardan daimi komissiyalar seçirdi. Lazım gəldikdə, hər hansı məsələ üzrə istintaq, təftiş komissiyaları və digər komissiyalar yaradıla bilərdi. Ali Sovet ona hesabat verməli olan bütün dövlət orqanlarının fəaliyyətinə nəzarət edir, xalq nəzarəti orqanları sisteminə başçılıq edən Naxçıvan MSSR Xalq Nəzarəti Komitəsini təşkil edirdi. Ali Sovetin və onun orqanlarının fəaliyyət qaydası Ali Sovetin reqlamenti və Naxçıvan MSSR Konstitusiyası əsasında verilən başqa qanunlarla müəyyən olunurdu.

Konstitusiyanın 110-cu maddəsinə görə Naxçıvan MSSR Nazirlər Soveti – Naxçıvan MSSR Hökuməti muxtar respublikada dövlət hakimiyyətinin ali icra və sərəncam orqanı idi. Nazirlər Soveti Naxçıvan MSSR Ali Soveti tərəfindən Nazirlər Sovetinin Sədrindən, sədrin birinci müavinindən və müavinlərindən, nazirlərdən, dövlət komitələrinin sədrlərindən və respublikanın Ali Soveti tərəfindən təşkil olunan başqa dövlət idarə orqanlarının rəhbərlərindən ibarət tərkibdə təşkil edilirdi. Nazirlər Soveti öz səlahiyyətini yeni seçilmiş Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasında Ali Sovet qarşısında üzərindən götürürdü. Nazirlər Soveti Ali Sovet, Ali Sovetinin sessiyaları arasındakı dövrdə isə onun Rəyasət Heyəti qarşısında məsul olub və ona hesabat verirdi [240, s. 113].

Naxçıvan MSSR Nazirlər Soveti öz səlahiyyəti daxilində: xalq təsərrüfatına və sosial-mədəni quruculuğa rəhbərliyi, xalqın rifah və mədəniyyətinin yüksəlməsini təmin edir, elm və texnikanı inkişaf etdirir, təbii ehtiyatlardan səmərəli istifadə etmək və onları qorumaq üçün tədbirlər hazırlayıb həyata keçirir, pul və kredit sistemini möhkəmlətmək, dövlət sığortasını, vahid uçot və statistika sistemini təşkil etmək üçün tədbirlər həyata keçirilməsinə kömək edir, vahid qiymət, əmək haqqı, sosial təminat siyasətinin yeridilməsində iştirak edir, sənaye, tikinti, kənd təsərrüfatı müəssisələri və birliklərinin, nəqliyyat və rabitə müəssisələrinin, habelə respublika tabeliyində və yerli tabelikdə olan digər təşkilatların və idarələrin idarə olunmasını təşkil edirdi. Bundan başqa, Naxçıvan MSSR-in cari və perspektiv dövlət iqtisadi və sosial inkişaf planlarını, Dövlət büdcəsini hazırlayır və Ali Sovetə təqdim edir, dövlət planlarının və dövlət büdcəsinin həyata keçirilməsi, kompleks iqtisadi və sosial inkişafının təmin edilməsi üçün tədbirlər görür, İttifaq, respublika (Azərbaycan SSR) tabeliyində olan müəssisə və təşkilatların Naxçıvan MSSR səlahiyyətinə aid məsələlərdə fəaliyyətini əlaqələndirir və ona nəzarət edir, planların yerinə yetirilməsi və büdcənin icrası haqqında Ali Sovetin hesabat verirdi. Dövlətin mənafeyini müdafiə etmək, sosialist mülkiyyətini və ictimai asayişi qorumaq, vətəndaşların hüquq və azadlıqlarını təmin və müdafiə etmək üçün tədbirlər həyata keçirmək, ölkənin dövlət təhlükəsizliyini və müdafiə

qabiliyyətini təmin etmək üçün SSRİ Konstitusiyasının müəyyən etdiyi hüdudlar daxilində tədbirlər görmək, yerli xalq deputatları Sovetləri icraiyyə komitələrinin fəaliyyətinə rəhbərlik etmək də Nazirlər Sovetının vəzifələri sırasına daxil idi (maddə 113).

115-ci maddəyə görə, Naxçıvan MSSR Nazirlər Sovetinin daimi orqanı Nazirlər Sovetinin Sədrindən, onun birinci müavinindən və müavinlərindən, hökumətin başqa üzvlərindən ibarət tərkibdə təşkil olunan Nazirlər Sovetinin Rəyasət Heyəti idi.

Naxçıvan MSSR Nazirlər Soveti SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR-in qanunvericilik aktları, SSRİ Nazirlər Sovetinin qərarları, sərəncamları əsasında və bunların yerinə yetirilməsi üçün qərarlar çıxarır, sərəncamlar verir, onların icrasını təşkil edir və yoxlayırdı. Naxçıvan MSSR Nazirlər Sovetinin qərar və sərəncamları muxtar respublikanın bütün ərazisində məcburi qüvvəyə malik idi. Nazirlər Sovetinin nazirliklərin, dövlət komitələrinin, öz tabeliyindəki başqa orqanların aktlarını ləğv etmək hüququ var idi. Nazirlər Soveti Naxçıvan MSSR nazirliklərinin və dövlət komitələrinin, öz tabeliyindəki digər orqanların işini birləşdirir və istiqamətləndirirdi.

Konstitusiya özündə ehtiva olunan hüquqi müddəalardan başqa, Naxçıvan MSSR Nazirlər Sovetinin və onun Rəyasət Heyətinin səlahiyyəti, onların fəaliyyət qaydası, digər dövlət orqanları ilə münasibətləri, habelə nazirliklərin, dövlət komitələrinin və başqa dövlət idarə orqanlarının siyahısının Naxçıvan MSSR Nazirlər Soveti haqqında qanunla müəyyən edildiyini qeyd edirdi.

Konstitusiyanın 13-14-cü fəsillərində Naxçıvan MSSR-də yerli xalq deputatları sovetləri və onların icraiyyə komitələrinin təşkili, səlahiyyət və funksiyaları aydınlaşdırılırdı. Qeyd edilirdi ki, rayonlarda, şəhərlərdə, qəsəbələrdə, kənd yaşayış məntəqələrində dövlət hakimiyyəti orqanları müvafiq xalq deputatları sovetləridir. Yerli xalq deputatları sovetləri ümumdövlət mənafeyini və sovetin ərazisində yaşayan vətəndaşların mənafeyini əsas tutaraq yerli əhəmiyyətli bütün məsələləri həll edir, yuxarı dövlət orqanlarının qərarlarını həyata keçirir, aşağı xalq deputatları Sovetlərinin fəaliyyətinə rəhbərlik edir, respublika (MSSR, Azərbaycan SSR) və Ümumittifaq əhəmiyyətli məsələlərin müzakirəsində iştirak edir, bu məsələlər barəsində öz təkliflərini verirdilər.

Rayon və şəhər xalq deputatları sovetlərinin sessiyaları onların icraiyyə komitələri tərəfindən ildə azı dörd dəfə çağrılırdı. Qəsəbə və kənd xalq deputatları sovetlərinin sessiyaları isə onların icraiyyə komitələri tərəfindən ildə azı altı dəfə çağrılmalı idi. Yerli xalq deputatları sovetləri SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR qanunvericiliyi ilə onların səlahiyyətinə aid edilmiş hər hansı məsələni sessiyalarda nəzərdən keçirmək və həll etmək hüququna malik idilər. Yalnız sessiyalarda həll edilməli olan məsələlərin siyahısı yerli xalq deputatları sovetləri haqqında qanunla müəyyən edilirdi (maddə 122).

Yerli xalq deputatları sovetləri özlərinin fəaliyyətini ictimai təşkilatlarla və əmək kollektivləri ilə sıx əlaqədə həyata keçirir, ən mühüm məsələləri vətəndaşların müzakirəsinə verir, onları daimi komissiyaların, icraiyyə komitələrinin və sovetlərə hesabat verməli olan başqa orqanların işinə cəlb edir, yerli könüllü cəmiyyətlərin işinə kömək göstərir və əhalinin ictimai fəaliyyətini inkişaf etdirirdilər (maddə 126).

Sovetlərin sədrdən, sədr müavinlərindən, katibdən və üzvlərdən ibarət tərkibdə deputatlardan seçdikləri icraiyyə komitələri müvafiq olaraq rayon, şəhər, qəsəbə və kənd xalq deputatları sovetlərinin icra və sərəncam orqanları idi. İcraiyyə komitələri onları seçmiş sovetlər qarşısında, habelə əmək kollektivlərinin yığıncaqlarında və vətəndaşların yaşayış yerlərində ildə azı bir dəfə hesabat verməli idilər. İcraiyyə komitələri sovetlərin ərazisində dövlət, təsərrüfat quruculuğuna və sosial-mədəni quruculuğa rəhbərlik edirdilər.

İcraiyyə komitələri yalnız sovetlərin sessiyalarında həll edilməli olan məsələlər istisna olmaqla, sovetlərin səlahiyyətinə aid edilmiş bütün məsələləri həll etmək hüququna malik olub, sovetlərin sessiyalarını çağırır, onların daimi komissiyalarının işini əlaqələndirir, səlahiyyətinin həyata keçirilməsində deputatlara kömək edir, sovetlərin və yuxarı dövlət orqanlarının qərarlarının, habelə seçiçi tapşırıqlarının yerinə yetirilməsini təşkil edir, onların tabeliyindəki idarə orqanlarına rəhbərlik edir, öz səlahiyyəti daxilində qərarlar qəbul edir və sərəncamlar verirdilər.

Yerli xalq deputatları sovetlərinin icraiyyə komitələri həm onları seçmiş sovetə, həm də yuxarı icra və sərəncam orqanına bilavasitə hesabat verirdilər. İcraiyyə komitələrinin şöbə və idarələri rayon, şəhər xalq deputatları sovetləri tərəfindən təşkil edilir və özlərinin fəaliyyətində həm sovetlərə və onların icraiyyə komitələrinə, həm də müvafiq yuxarı dövlət idarə orqanlarına tabe idilər. İcraiyyə komitələrinin şöbə və idarələrinin siyahısı və onların təşkili qaydası SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR qanunvericiliyi ilə müəyyən olunurdu.

Konstitusiyanın VII fəsli bütünlüklə Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planına və dövlət büdcəsinə dair hüquqi normalardan ibarət idi. Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planı Azərbaycan SSR-in dövlət iqtisadi və sosial inkişaf planının tərkib hissəsi elan edilirdi. Naxçıvan MSSR cari və perspektiv dövlət iqtisadi və sosial inkişaf planlarından məqsəd Azərbaycan SSR-in iqtisadi və sosial inkişafının əsas vəzifə və istiqamətlərinə uyğun olaraq muxtar respublika ərazisində kompleks iqtisadi və sosial inkişafı təmin etmək idi. İnkişaf planları iqtisadiyyat və sosial-mədəni quruculuq sahəsində vəzifələri müəyyən edir, muxtar respublika ərazisində xalq təsərrüfatı sahələrinin və iqtisadi rayonların məqsədli kompleks proqramlarını, inkişaf planlarını əhatə edirdi və bu planlara rayonların və respublika tabeliyindəki şəhərlərin iqtisadi və sosial inkişaf planları daxil idi.

Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planı Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planı əsas götürməklə, Naxçıvan MSSR nazirliklərinin,

dövlət komitələrinin və başqa dövlət idarə orqanlarının, yerli xalq deputatları sovetlərinin planlarının layihələri əsasında Naxçıvan MSSR Nazirlər Soveti tərəfindən işlənib hazırlanır, Naxçıvan MSSR Ali Sovetinin müzakirəsinə verilirdi. Öz növbəsində Ali Sovet Naxçıvan MSSR Nazirlər Sovetinin məruzəsi və Ali Sovetin Plan-büdcə komissiyasının və başqa daimi komissiyaların rəyləri əsasında Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planını müzakirə və təsdiq edirdi (maddə 134-137).

Naxçıvan MSSR dövlət büdcəsi Azərbaycan SSR-in vahid dövlət büdcəsinin tərkib hissəsi hesab edilir, muxtar respublika büdcəsini və yerli büdcələri birləşdirirdi. Naxçıvan MSSR dövlət büdcəsi mədaxil və məxaricinin muxtar respublika büdcəsi, rayon və şəhərlərin yerli büdcələri arasında bölüşdürülməsi Azərbaycan SSR-in, Naxçıvan MSSR-in və yerli xalq deputatları sovetlərinin büdcə hüquqları haqqında qanunla müəyyən edilirdi. Naxçıvan MSSR-in dövlət büdcəsi muxtar respublika Nazirlər Soveti tərəfindən respublika və muxtar respublika dövlət iqtisadi və sosial inkişaf planları və Azərbaycan SSR-in dövlət büdcəsi əsasında işlənib hazırlanır və Naxçıvan MSSR Nazirlər Sovetinin məruzəsi və Ali Sovetin Plan-büdcə komissiyasının və başqa daimi komissiyalarının rəyləri əsasında Naxçıvan MSSR Ali Soveti tərəfindən təsdiq edilirdi. İnkişaf planlarının və dövlət büdcəsinin icrası haqqında hesabatlar Naxçıvan MSSR Ali Soveti tərəfindən müzakirə və təsdiq edilir, planın yerinə yetirilməsinə və büdcənin icrasına dair göstəricilər hamının nəzərinə çatdırılmaq üçün elan olunurdu (maddə 138-141).

Əgər 1937-ci il Konstitusiyasında məhkəmə və prokurorluq orqanları ilə bağlı hüquqi normalar eyni fəsildə öz əksini tapmışdısa, 1978-ci il Konstitusiyasında "Məhkəmə və arbitraj" və "Prokurorluq"la bağlı məsələlərə ayrı-ayrı fəsillər (15 və 16-cı fəsillər) həsr olunmuşdu. 142-ci maddədə qeyd olunurdu ki, "Naxçıvan MSSR-də ədalət mühakiməsi yalnız məhkəmə tərəfindən həyata keçirilir. Naxçıvan MSSR məhkəmələri Naxçıvan MSSR Ali Məhkəməsi, rayon (şəhər) xalq məhkəmələridir. Naxçıvan MSSR məhkəmələrinin təşkili və fəaliyyət qaydası SSR İttifaqı, Azərbaycan SSR qanunları və bu Konstitusiya ilə müəyyən edilir". Muxtar respublikanın bütün məhkəmələri hakimlərin və xalq iclaslarının seçilməsi əsasında təşkil edilirdi. Rayon (şəhər) xalq məhkəmələrinin xalq hakimləri rayon (şəhər) vətəndaşları tərəfindən gizli səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında beş il müddətinə seçilirdilər. Rayon (şəhər) xalq məhkəmələrinin xalq iclasçıları vətəndaşların işlədikləri və ya yaşadıqları yerdə onların yığıncaqlarında açıq səsvermə yolu ilə iki il yarım müddətinə seçilirdilər. Hakimlər və xalq iclasçıları seçicilər və ya onları seçən orqanlar qarşısında məsul olub, onların qarşısında hesabat verirdilər və qanunla müəyyən edilmiş qaydada onlar tərəfindən geri çağırıla bilərdilər.

Naxçıvan MSSR Ali Məhkəməsi muxtar respublikanın ali məhkəmə orqanı olub digər məhkəmələrin fəaliyyətinə nəzarət edirdi. Ali Məhkəmə Naxçıvan

MSSR Ali Soveti tərəfindən Sədrdən, onun müavinlərindən, üzvlərdən və xalq iclasçılarından ibarət tərkibdə beş il müddətinə seçilirdi.

Bütün məhkəmələrdə mülki işlərə və cinayət işlərinə kollegial surətdə, birinci instansiya məhkəməsində isə xalq iclasçılarının iştirakı ilə baxılırdı. Ədalət mühakiməsi həyata keçirilərkən xalq iclasçıları hakimin bütün hüquqlarına malik idilər.

Konstitusiyada hakimlərin və xalq iclasçılarının müstəqil olması və yalnız qanuna tabe olduqları vurğulanırdı. Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilirdi. Bütün məhkəmələrdə işlərə açıq baxılır, işlərə məhkəmənin qapalı iclasında baxılmasına ancaq qanunda müəyyən edilmiş hallarda, həm də mühakimə icraatının bütün qaydalarına əməl olunmaqla yol verilirdi. Müttəhimin müdafiə hüququ təmin edilirdi.

Naxçıvan MSSR-də mühakimə icraatı Azərbaycan dilində və yaxud müəyyən ərazidəki əhalinin əksəriyyətinin dilində aparılırdı. İşdə iştirak edən mühakimə icraatının aparıldığı dili bilməyən şəxslərin işdəki materiallarla bütünlüklə tanış olmaq hüququ, məhkəmə işində tərcüməçi vasitəsilə iştirakı və məhkəmədə ana dilində çıxış etmək hüququ təmin edilirdi. Məhkəmə hökmü olmadan və qanun əsas götürülmədən heç kəsin cinayət etməkdə müqəssir sayılmasına və cəzaya məhkum olunmasına yol verilmirdi.


Vətəndaşlara və təşkilatlara hüquqi yardım üçün vəkillər kollegiyası fəaliyyət göstərirdi. Qanunvericilikdə nəzərdə tutulan hallarda vətəndaşlara hüquqi yardım pulsuz göstərilirdi. Vəkilliyin təşkili və fəaliyyət qaydası SSRİ və Azərbaycan SSR qanunları ilə müəyyən edilirdi.

Mülki və cinayət işləri üzrə mühakimə icraatında ictimai təşkilatların və əmək kollektivlərinin nümayəndələrinin iştirakı mümkün idi. Müəssisə, idarə və təşkilatlar arasındakı təsərrüfat mübahisələri dövlət arbitrajı orqanları tərəfindən onların səlahiyyətləri daxilində həll edilirdi.

Konstitusiyanın 155-ci maddəsinə görə, Naxçıvan MSSR ərazisində bütün nazirliklər, dövlət komitələri, müəssisə, idarə və təşkilatlar, yerli xalq deputatları sovetlərinin icra və sərəncam orqanları, kolxozlar, kooperativ təşkilatları və digər ictimai təşkilatlar, vəzifəli şəxslər, habelə vətəndaşlar tərəfindən qanunların dürüst və eyni qaydada icra olunmasına ali nəzarət SSRİ Baş prokuroru, ona tabe olan Azərbaycan SSR Prokuroru, Naxçıvan MSSR Prokuroru və aşağı prokurorlar tərəfindən həyata keçirilirdi. Naxçıvan MSSR Prokuroru SSRİ Baş prokuroru tərəfindən təyin edilirdi. Rayon və şəhər prokurorları Azərbaycan SSR Prokuroru tərəfindən təyin olunur və SSRİ Baş prokuroru tərəfindən təsdiq edilirdilər. Naxçıvan MSSR Prokurorunun və bütün aşağı prokurorların vəkalət müddəti beş il idi. Prokurorluq orqanları yalnız SSRİ Baş prokuroruna tabe olub, öz səlahiyyətini hər hansı yerli orqanlardan asılı olmadan həyata keçirirdilər.

Konstitusiyanın IX fəsli "Naxçıvan MSSR-in gerbi, bayrağı və paytaxtı" adlanırdı. Göstərilirdi ki, Naxçıvan MSSR-in Dövlət gerbi Azərbaycan SSR-in

Dövlət gerbidir, bu gerb doğan günəş fonunda pambıq və sünbül çələngi ilə haşiyələnmiş oraq və çəkic, neft buruğu təsvirindən ibarətdir və üzərində Azərbaycan dilində: "Azərbaycan Sovet Sosialist Respublikası!", "Bütün ölkələrin proletarları, birləşin!" və rus dilində "Азербайджанская Советская Социалистическая Республика", "Пролетарии всех стран, соединяйтесь!" sözləri yazılmışdır. Gerbin yuxarısında beşgüşəli ulduz vardır, gerbin aşağısında lent üzərində kiçik hərflərlə Azərbaycan dilində "Naxçıvan MSSR" və rus dilində "Нахичеванская АССР" sözləri yazılmışdır (maddə 159).



Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının bayrağı 1978-ci il

Naxçıvan MSSR-in Dövlət bayrağı Azərbaycan SSR-in Dövlət bayrağı idi; bu bayraq iki rəngli üfüqi zolağı olan düzbucaqli parçadan ibarət olub, qırmızı rəngli yuxarı zolaq bayrağın eninin dörddə üç hissəsini və göy rəngli aşağı zolaq dörddə bir hissəsini təşkil edirdi, qırmızı zolağın yuxarı sol küncündə, bayrağın ağacı yanında zərli oraq və çəkic, bunların üstündə qızıl haşiyə içərisində beşgüşəli qırmızı ulduz təsviri var idi. Oraq və çəkic şəklinin altında Azərbaycan dilində qızıl hərflərlə "Naxçıvan MSSR" sözləri yazılmışdı. Bayrağın eninin uzunluğuna nisbəti 1:2 idi (maddə 160) [240, s. 121, 182-183].

Naxçıvan MSSR-in paytaxtı Naxçıvan şəhəri idi.

Konstitusiyanın son iki maddəsi onun qüvvədə olması və dəyişdirilməsi barədə hüquqi müddəalardan ibarət idi. Belə ki, Naxçıvan MSSR-in bütün qanunları və dövlət orqanlarının digər aktları bu Konstitusiyaya əsasən və ona uyğun olaraq verilirdi. Konstitusiya Naxçıvan MSSR Ali Sovetinin qərarı ilə dəyişdirilir, bu qərar Ali Sovetin bütün deputatlarının azı üçdə iki hissəsindən ibarət çoxluğu tərəfindən qəbul edilirdi.

6. Mədəniyyət

Təhsil. Naxçıvanda XX əsrin 70-80-ci illərində təhsilin inkişafı birbaşa Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildə Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişi ilə respublika iqtisadiyyatının, elm və mədəniyyətinin bütün sahələri kimi xalq təhsili sahəsində də

mühüm addımlar atıldı və böyük uğurlar qazanıldı. Totalitar sovet rejiminin bir çox qadağalarına, maneələrinə və məhdudiyyətlərinə baxmayaraq Heydər Əliyev siyasi fəaliyyətinin ilkin dövrlərindən Azərbaycanda yeni məktəblərin tikilməsinə, şagird və tələbə kontingentinin artırılmasına, gənclərin xarici ölkələrdə təhsil almağa göndərilməsinə, məktəblərin maddi-texniki bazasının yüksəldilməsinə və s. məsələlərə xüsusi diqqət verdi ki, bunlar da birbaşa təhsilin inkişafını şərtləndirən amillər idi. Həmin dövrdə təhsilin inkişafını əks etdirən bir sıra statistik məlumatlar təhsil sahəsində ümummilli lider Heydər Əliyev siyasətinin uğurlarını təsdiq edir. Ulu öndərin hakimiyyətinin ilk onilliyi dövründə (1969-1979) təhsil sahəsində aparılan genişmiqyaslı işlər nəticəsində təkcə 70-ci illərdə Azərbaycan üzrə ümumtəhsil məktəblərinin şəbəkəsi 3 dəfədən artıq çoxalaraq 765-dən 2117-yə yüksəlmiş, 1145 ibtidai məktəb orta məktəbə çevrilmiş, şagirdlərin ümumi orta təhsili başa çatdırma göstəriciləri 73,3 faizdən 89,6 faizə çatdırılmışdı [90, s. 22].

Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi sayəsində təhsilin ilkin mərhələsi və maddi bazası sayılan məktəbəqədər tərbiyə müəssisələrinin inkişafına 70-80-ci illərdə xüsusi önəm verildi ki, bu da yaxın illərdə təhsilin keyfiyyətinin yüksəlməsinə, gənc nəslin elmi biliklərə daha dərindən yiyələnməsinə təkan verdi. Muxtar respublikada 70-80-ci illər ərzində 3690 yerlik 23 məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verilmiş, uşaqların sayı 1970-ci ildəki 2531 nəfərdən 80-ci illərin sonunda 6075 nəfərə çatdırılmışdı [100, s. 16-43].

70-80-ci illərdə məktəbəqədər tədris müəssisələri ilə yanaşı, muxtar respublika orta ümumtəhsil məktəblərinin tikintisinə də xüsusi diqqət yetirilmiş muxtar respublikada 51870 yerlik ümumtəhsil məktəbi binaları tikilib istifadəyə verilmişdi [96, s. 401].

Məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi və yeni məktəb binalarının tikintisi nəticəsində 1970-ci ilə qədər muxtar respublikada ümumtəhsil məktəbləri şagirdlərinin ikinci növbədə oxumalarını göstərən rəqəm on il ərzində 59,8 faizdən 15 faizə yaxın enərək 1980-ci illərin əvvəllərində 44,2 faiz oldu [96, s. 73].

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin "Naxçıvan MSSR-də məktəb tikintisinin vəziyyəti haqqında" 13 dekabr 1973-cü il tarixli, "Kənd ümumtəhsil məktəblərinin iş şəraitinin yaxşılaşdırılması haqqında" 10 dekabr 1975-ci il tarixli qərarları da, Naxçıvan MSSR Nazirlər Sovetinin "Uşaqların sağlamlığının qorunması vəziyyəti və onun daha da yaxşılaşdırılması tədbirləri haqqında" 14 fevral 1974-cü il tarixli qərarı və bir çox digər qərar və sərəncamlar da 70-ci illərdə Naxçıvanda təhsilin inkişafı işinə xidmət edirdi. Buna görə də həmin dövrdə Naxçıvanda təhsilin inkişafına ayrılan dövlət vəsaitinin həcmi iki dəfədən çox artırılaraq 1970-ci ildəki 11966 min manatdan 1980-ci ildə 24723 min manata çatdırıldı [38, s. 73]. Bu isə həm məktəblərin şəbəkəsinin genişləndirilməsinə, həm təhsilin inkişafı üçün maddi-texniki bazanın genişləndirilməsinə, həm də ümumilikdə Naxçıvanda

təhsilin inkişafına öz təsirini göstərdi. 1970-ci ildə Naxçıvanda məktəblərin sayı 210 idisə, 80-ci illərin sonunda bu rəqəm 217-yə, orta məktəblərin sayı 73-dən 165-ə, şagirdlərin sayı 59059-dan 63633-ə, müəllimlərin sayı 3120-dən 7200-ə çatdırıldı [96, s. 402].

Naxçıvanda təhsilin inkişafında xidmətləri olan şəxslərin əməyinin qiymətləndirilməsi də diqqət mərkəzində saxlanılırdı. 80-ci illərin sonlarının statistikasına görə Naxçıvanın təhsil müəssisələrində çalışan müəllimlərin 33 nəfəri Azərbaycan SSR, 70 nəfəri Naxçıvan MSSR-in Əməkdar müəllimi fəxri adına layiq görülmüş, 11 nəfər SSRİ maarif əlaçısı, 279 nəfər SSRİ-nin müxtəlif orden və medalları, 150 nəfər "Xalq maarifi əlaçısı" döş nişanları ilə təltif olunmuşdu [38, s. 74].

70-80-ci illərdə Naxçıvanda təkcə orta ümumtəhsil məktəblərinin deyil, texniki-peşə, orta ixtisas və ali məktəblərin də inkişafı istiqamətində mühüm addımlar atılmaqda idi. Təhsilin mühüm tərkib hissəsi olan texniki-peşə təhsilinin Azərbaycanda inkişafı da birbaşa xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. 1970-ci illərin əvvəllərindən başlayaraq Azərbaycanın texniki-peşə təhsili özünün yeni yüksəliş mərhələsinə qədəm qoymuş, bu sahədə böyük uğurlar qazanılmışdır.

1969-1982-ci illərdə respublikada texniki-peşə təhsili şəbəkəsinin inkişaf dinamikasının təhlili göstərir ki, 1970-ci ildə fəaliyyət göstərən 76 texniki peşə məktəbində 40,9 min şagird təhsil alırdısa, bu rəqəm müvafiq olaraq 1980-ci ildə 173 məktəbə və 99,8 min şagirdə, 1982-ci ildə isə 184 məktəbə və 109 min şagirdə çatdırıldı ki [90, s. 26], bu da məktəblərin və şagirdlərin sayının 2 dəfədən çox artırılması demək idi.

Bu rəqəmlər Naxçıvan Muxtar Respublikasının timsalında da özünü göstərirdi. 1970-ci ildə Naxçıvanda cəmi 1 texniki-peşə məktəbi 100 şagirdlə fəaliyyət göstərirdisə, 80-ci illərin sonlarında sayı 10-a çatdırılan texniki peşə məktəblərində 4200 şagird təhsil alırdı [96, s. 401].

70-80-ci illər ərzində Naxçıvanda orta ixtisas məktəblərinin və ali məktəblərin inkişafı istiqamətində də xeyli işlər görülmüşdür. 1969-cu ildən Kiyev Politexnik Texnikumunun filialı kimi fəaliyyətə başlayan, 1971-ci ildən müstəqil texnikum kimi fəaliyyət göstərən Naxçıvan Politexnik Texnikumu fəaliyyəti dövründə xalq təsərrüfatının müxtəlif sahələri üçün minlərlə kadr yetişdirmişdir.

Hələ 1925-ci ildən fəaliyyət göstərən Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun şəbəkəsi genişləndirilərək, 1972-ci ildə maddi-texniki bazası möhkəmləndirildi, Babək rayonunun Şıxmahmud kənd toxumçuluq təsərrüfatı ilə birləşdirilərək, Naxçıvan Sovxoz Texnikumu adlandırıldı.

70-ci illərdə Naxçıvanda təhsil sahəsində atılan ən uğurlu addımlardan biri də 1975-ci ilə Naxçıvan Musiqi Texnikumunun yaradılması oldu. 1976-cı ildə Azərbaycan professional musiqisinin banisi, böyük bəstəkar Üzeyir Hacıbəyovun adı verilən həmin texnikumda tələbələrə fortepiano, xalq çalğı alətləri, orkestr alətləri, xanəndəlik və vokal ixtisasları, xor dirijorluğu, musiqi nəzəriyyəsi kimi

ixtisaslar üzrə fənlər tədris olunmuş, yüzlərlə bacarıqlı musiqişünas və ifaçılar yetişdirilmişdir.

Orta ixtisas təhsili bazasının möhkəmləndirilməsi sahəsində aparılmış məqsədyönlü fəaliyyət nəticəsində 1980-ci illərin sonlarında respublikada 75 orta ixtisas məktəbi fəaliyyət göstərirdi ki, onlardan 4-ü Naxçıvanda idi [96, s. 402] və həmin məktəblərdə 1662 gənc orta ixtisas təhsilinə cəlb olunmuşdu [89, s. 296].

1967-ci ildə yaradılan Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı 1972-ci ildə müstəqil Naxçıvan Dövlət Pedaqoji İnstitutuna çevrildi və institutun normal fəaliyyəti üçün tədbirlər görüldü [62, s. 8]. Naxçıvanda müstəqil ali məktəb yaradılması ideyası da 1972-ci il oktyabrın 4-də Naxçıvanda həmin filialın kollektivi ilə görüşən ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürüldü və həmin ideya çox qısa vaxtda reallığa çevrildi, Naxçıvanda müstəqil ali məktəb – Naxçıvan Dövlət Pedaqoji İnstitutu yaradıldı [89, s. 562].

Təhsilin digər sahələri kimi, 70-80-ci illər Naxçıvan Dövlət Universitetinin tarixində də xüsusi bir mərhələni təşkil edir. 1969-cu ildən başlayaraq bu ali təhsil müəssisəsinin tarix, Azərbaycan dili və ədəbiyyatı ixtisaslarının qiyabi şöbələri də yaradıldı. 1970-ci ildən coğrafiya ixtisası da əlavə olunmaqla, "Pedaqogika və psixologiya", "İctimai elmlər", "Rus dili və xarici dillər" kafedraları yaradıldı. 1967-ci ildə filial kimi cəmi 3 ixtisas üzrə 105 nəfər tələbə və 3 müəllimlə fəaliyyətə başlayan [62, s. 8] təhsil müəssisəsində 1980-ci ildə 3 fakültə, 12 kafedra üzrə ixtisasların sayı 12-yə çatdırıldı. 80-ci illərin sonlarında isə bu göstəricilər bir qədər də yüksəldi və Naxçıvan Dövlət Pedaqoji İnstitutu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 1990-cı il tarixli qərarı ilə Naxçıvan Dövlət Universitetinə çevrildi [89, s. 563-564].

1970-1980-ci illər üzrə Naxçıvan Dövlət Universitetinin rəsmi statistik göstəriciləri aşağıdakı kimi olmuşdur [89, s. 565]:

Ümumilikdə 70-80-ci illərdə, muxtar respublikanın digər sahələri kimi, təhsil sistemində də xeyli işlər görülmüş və məktəbəqədər tərbiyə müəssisələrinin, orta ümumtəhsil və orta ixtisas məktəblərinin, həmçinin ali təhsilin inkişafı istiqamətində uğurlar qazanılmışdır.

Elm. Azərbaycan elminin tarixində özünəməxsus yeri olan Naxçıvan məktəbi XX əsrin 70-80-ci illərində yenidən canlanmağa başlamışdır. Həmin mərhələdə muxtar respublikada elmi mühitin inkişafı ilk növbədə ölkə üzrə bu sahədə dövlət səviyyəsində həyata keçirilən tədbirlərlə əlaqədar idi. Bu zəmində Naxçıvanda ictimai və humanitar elmlər sahəsində yenidən formalaşma və inkişaf prosesi getmiş, bu dalğa tədricən təbiət elmlərini və dəqiq elmləri də əhatə etmişdir. Artıq 70-ci illərin axırlarında Naxçıvan Muxtar Respublikasında müxtəlif sahələr üzrə elmin mühüm göstəriciləri, əhəmiyyətli nəticələri nəzərə çarpmışdır.

1970-80-ci illərdə muxtar respublikada elmi qüvvələr əsasən aşağıdakı mərkəzlərdə cəmləşmişdir.

Naxçıvan Dövlət Universitetində;
Azərbaycan Elmlər Akademiyasının Naxçıvan Regional Elmi Mərkəzində;
Naxçıvan Kompleks Zona Təcrübə Stansiyasında.

Naxçıvan Dövlət Pedaqoji İnstitutunda əsasən tədris vəzifələrinin yerinə yetirilməsi ilə bərabər, həm də elmi-tədqiqat işləri aparılmışdır. Qısa müddətdə Naxçıvanda Azərbaycan tarixi roman məktəbinin yaradıcısı Məmməd Səid Ordubadiyə, nəsr və publisistika sahəsində çalışan Eynəli bəy Sultanova, böyük maarifçi şair və pedaqoq Məhəmməd Tağı Sidqiyə həsr edilmiş səmərəli elmi tədqiqatlar aparılmışdır. Bundan başqa, 1968-ci ildə Naxçıvan filialında Tələbə Elmi Cəmiyyətinin xətti ilə gəncliyin istedadlı nümayəndələri elmi-tədqiqat işləri ilə məşğul olmaq sahəsində ilk addımlarını atmışlar. Naxçıvan filialının tələbələri qısa müddətdə Naxçıvanla yanaşı, tələbələrin Bakıda və Tbilisidə keçirilmiş elmi konfranslarında elmi məruzələr etmiş, təcrübə qazanmışlar. TEC sıralarında formalaşmış tələbə gəncliyin istedadlı nümayəndələrindən İ.Həbibbəyli Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda, Miryasin Eminov, Rövşən Həsənov, Səkinə Səmədova və Nəsir Nəsirli Mexanika-Riyaziyyat İnstitutunda, Fəxrəddin Səfərli Tarix İnstitutunda, Məmməd Rzayev, Yusif Hüseynov Fəlsəfə İnstitutunda, Qədir Qədirzadə Mikluxo Maklay adına SSRİ EA Etnoqrafiya İnstitutunda aspirant kimi fəaliyyətə başlamış və gənclərin aspirantura yolu ilə təhsillərini inkişaf etdirmək prosesi davam etdirilmişdir. Bununla da 1972-ci ildən sonra Naxçıvan DPI-də elmi-tədqiqat işlərinin əhatə dairəsi genişlənmiş, səviyyəsi daha da artmışdır. Coğrafiya ixtisası üzrə S.Babayevin fəlsəfə doktoru dissertasiyası müdafiə etməsi və az sonra Naxçıvanın təbiətinə dair monoqrafiyasını nəşr etdirməsi ilə elmi-tədqiqat işlərinə maraq daha da güclənmişdir.

Naxçıvan DPİ Elmi şurasının qərarı ilə cəmi bir neçə il ərzində 20-dən çox istedadlı ali məktəb məzunu respublikanın digər ali məktəblərində və akademiyanın müxtəlif elmi-tədqiqat institutlarında məqsədli şəkildə ölkəmizin tanınmış alimlərinin elmi rəhbərliyi ilə aspirant, dissertant, yaxud stajor kimi sistemli tədqiqat işləri ilə məşğul olmuşdur. Qısa müddətdə Naxçıvan DPİ-nin məzunlarından İ.Həbibbəylinin filologiya, Q.Qədirzadənin etnoqrafiya, S.Səmədova və M.Eminovun riyaziyyat sahəsi üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə edərək elmi-pedaqoji fəaliyyətə cəlb olunmaları həmin axını daha da gücləndirmişdir. Artıq 80-ci illərdə Naxçıvan DPİ-də əvvəldən olan elmi dərəcəli alimlərlə birlikdə 50-dən çox fəlsəfə doktoru elmi-pedaqoji işlə məşğul idi. Naxçıvan DPİ-də Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri Y.Axundlunun 1984-cü ildə Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda "Azərbaycan sovet tarixi romanı" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası ilə muxtar respublikada elmlər doktorluğu üzrə də dirçəlmə baş vermişdir.

Beləliklə, Naxçıvanda yeni elmi nəsil formalaşmış və elmin əsas istiqamətləri sahəsində elmi tədqiqatların geniş miqyasda irəliləyişi prosesi başlanmışdır.

Naxçıvan DPİ-yə məsul dövlət qulluğundan gəlmiş tarix üzrə fəlsəfə doktorları İbrahim Hüseynov, İbrahim Bağırov, Ziyad Təhməzov, fəlsəfə üzrə fəlsəfə doktorları Yunis Qasımov, Heydər Səfərov və başqaları yeni elmi nəsil üçün örnəyə çevrilmişlər. Məhz bu zəmində Naxçıvanda tarix üzrə fəlsəfə doktorları İsmayıl Hacıyev, Fəxrəddin Səfərli, Qədir Qədirzadə, Zəhmət Şahverdiyev, Həmzə Cəfərov, Abbas Seyidov, Allahverdi Hüseynov, Şükür Məmmədov, Mirhəşim Seyidov, Namiq Əliyev kimi gənc və perspektivli tədqiqatçılar meydana çıxmışdır. Əslində bu, Azərbaycan tarixşünaslıq elminin Naxçıvan məktəbinin formalaşması demək idi.

Tarix elmi üzrə Naxçıvan məktəbinin yaranmasında Azərbaycan DPİ Naxçıvan filialının direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Əli Əliyevin və tarix üzrə fəlsəfə doktoru Vəli Əliyevin böyük xidmətləri olmuşdur. Naxçıvanda arxeologiya və yeni dövr tarixşünaslığının inkişafı məhz onların qayğısı və nümunəsi nəticəsində baş vermişdir. Yeni nəsil tarixçilər mövcud ideologiyanı da nəzərə almaqla yanaşı, tarixi-siyasi araşdırmalara, arxeoloji qazıntıların nəticələrinə, arxiv sənədlərinə, dövri mətbuat materiallarına istinad etməklə daha real elmi nəticələrin əldə olunmasına nail ola bilmişlər. Naxçıvanda bir çox arxeoloji və epiqrafik abidələr məhz həmin dövrdə aşkar edilib elmi dövriyyəyə daxil edilmişdir. XIX-XX əsrlərin tarixi proseslərinin sənədlər əsasında tədqiq edilməsində də 70-80-ci illərdə böyük addımlar atılmışdır.

Bu dövrdə ictimai elmlər sahəsində də yeni elmi nəsil yetişib formalaşmışdır. Fəlsəfə üzrə Məmməd Rzayev, Yusif Hüseynov və Eynulla Mədətovun, iqtisadiyyat sahəsində Asif Şirəliyev, Akif Mədətov, Ağarza Rüstəmov və Nazim Əhmədovun tədqiqatlarında tarixi-müqayisəli təhlillər, statistik və coğrafi məlumatlar, sosioloji sorğular, proqnozlaşdırma kimi amillər əsas meyara çevrilmişdir. Beləliklə, ictimai elmlər sahəsində ideoloji proseslər içərisində mümkün olan reallıqları ifadə etməyə səy göstərmək meyli qüvvətlənmişdir.


Eyni proses filologiya elmləri sahəsində də nəzərə çarpmışdır. XX əsrin 70-80-ci illərində Naxçıvan DPİ-də çalışan, yaxud bu ali məktəbdən məzun olub muxtar respublikanın digər sahələrində fəaliyyət göstərən fəlsəfə doktorlarından İsa Həbibbəyli, Əsgər Qədimov, Məhərrəm Cəfərov, Fərman Xəlilov, Səkinə Hüseynova Naxçıvanın qədim söz-sənət ənənələrini, görkəmli ədəbi şəxsiyyətlərini araşdırıb öyrənməyə daha çox diqqət yetirmişlər. Naxçıvan ədəbi mühitinin çoxəsrlik ənənələri, böyük yazıçıları və görkəmli maarifçilərinin fəaliyyəti ciddi elmi tədqiqatların mövzusuna çevrilmişdir. Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Naxçıvanda ədəbi-maarifçi hərəkatın tarixi inkişaf yolunun, tanınmış nümayəndələrinin həyatı və yaradıcılıqlarının tədqiq edilib öyrənilməsi bütövlükdə Azərbaycan ədəbiyyatının araşdırılması zamanı regionla əlaqədar diqqətdən kənarda qalmış, bir çox hallarda unudulmuş əhəmiyyətli səhifələrin, xidmətləri olmuş fədakar qələm sahiblərinin üzə çıxarılması ilə nəticələnmişdir. Y.Axundlunun

Azərbaycan tarixi roman məktəbinin yaradıcısı M.S.Ordubadiyə, İ.Həbibbəylinin böyük demokrat yazıçı C.Məmmədquluzadəyə və müasirlərinə, Ə.Qədimovun Ordubad "Əncümənü-şüərası" ədəbi məclisinin üzvləri olan şairlərin yaradıcılığına, F.Xəlilovun Naxçıvanda teatr və diyarşünaslıq işlərinə, M.Cəfərovun Naxçıvan folkloruna dair tədqiqatları Azərbaycan miqyasında geniş əks-səda tapmış, rəğbətlə qarşılanmışdır. Bu tədqiqatlar və aparılan araşdırmaların nəticəsi kimi meydana çıxmış monoqrafik əsərlər və məqalələr Azərbaycan ədəbiyyatşünaslıq elmini daha da zənginləşdirməyə, bir çox istiqamətlərdə tamamlamağa uğurla xidmət göstərmişdir.

Dilçilik sahəsində Vəliyəddin Əliyevin, Əbülfəz Quliyevin, Sevindik Vəliyevin, Akif İmanovun, Adil Bağırovun, Əbülfəz Muxtaroğlunun, Müseyib Zeynalovun dialektologiya, ədəbi dil tarixi, sahə terminologiyası üzrə apardığı tədqiqatlar ümumi dilçilik məsələləri və qrammatika ilə bərabər, həm də regionun mənəvi sərvətlərinin üzə çıxarılması sahəsində əhəmiyyətli addımlar olmuşdur.

Pedaqoji elmlər üzrə yeni nəsil tədqiqatçılardan Oruc Həsənov, İsmayıl Əliyev, Həqiqət Abdullayeva, Ləzifə Qasımova, Vahid Rzayev və başqalarının tədqiqatları pedaqoji fikir, məktəb tarixi və diyarşünaslıq işlərinin öyrənilməsi əsasında regionun ölkəmizin ümumi inkişafındakı yeri və rolunun müəyyən olunmasına şərait yaratmışdır. Bütün bunlar bir yerdə Azərbaycanın tərkibində Naxçıvanın tarixi rolunun, mövqeyinin və əhəmiyyətinin elmi cəhətdən əsaslandırılmış şəkildə aydınlaşdırılmasına sanballı töhfələr idi. Beləliklə, XX əsrin 70-80-ci illərində Naxçıvan elmi-ictimai fikirdə Azərbaycanşünaslığın əsas mərkəzlərindən birinə çevrilmişdir.

Muxtar respublikada akademik elmin formalaşdırılması və inkişaf etdirilməsində Naxçıvan Regional Elmi Mərkəzinin (REM) əhəmiyyətli rolu olmuşdur. Naxçıvan REM 7 iyul 1972-ci ildə Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyevin xüsusi qayğısı ilə Azərbaycan SSR EA Rəyasət Heyətinin qərarı əsasında yaradılmışdır. İlk dövrlərdə Naxçıvan REM-ə rəhbərlik etmiş professor Məhərrəm Məmmədyarovun yazdığı kimi, "o vaxtlar belə bir mərkəzin yaradılması üçün SSRİ Elmlər Akademiyasının icazəsi tələb olunurdu. Bu da çox müşkül məsələ idi. Ona görə də Naxçıvan Elmi Mərkəzi Azərbaycan EA Qeyri-Üzvi və Fiziki Kimya İnstitutunun strukturuna daxil edildi. Və Naxçıvan Elmi Mərkəzinin yaradılması möhtərəm Heydər Əliyevin böyük qayğısı, …əvəzedilməz rolu sahəsində mümkün oldu".



Naxçıvan Regional Elmi Mərkəzi 7 iyul 1972-ci il

Görkəmli dövlət xadimi Heydər Əliyev 1974-cü ilin oktyabr ayında Naxçıvan

REM-də olmuş, aparılan işlərlə tanış olduqdan sonra konkret tapşırıqlar vermiş, əlavə imkanlar yaratmışdır. Ölkə rəhbərinin 1976-cı ildə Şamaxı Astrofizika İnstitutunun Batabat bölməsinə səfəri də bu elmi qurumun inkişafına təkan vermişdir. Göstərilən dövlət qayğısı bütövlükdə Naxçıvan REM-in inkişafında mühüm rol oynamışdır.

Naxçıvan REM-də fizika və riyaziyyat, kimya, biologiya, iqtisadiyyat və tarix bölmələri fəaliyyət göstərmişdir. Elmi mərkəzdəki fizika-riyaziyyat və qeyri-üzvi kimya laboratoriyalarında Naxçıvan MSSR-in Culfa rayonunun ərazisindəki Darıdağ termal suyunun fiziki-kimyəvi xassələrinin öyrənilməsi və sənayedə tətbiqi ilə əlaqədar problemlər tədqiq olunmuşdur. Nəticədə əldə olunmuş karbon qazından mineral suların tərkibinin qazlaşdırılması üçün istifadə edilmiş, həmin məqsədlə xaricdən alınmış karbon qazından imtina olunmuşdur. Bu elmi nəticəni geniş miqyasda reallaşdırmaq üçün Culfa rayonunun ərazisində xüsusi bir təcrübə zavodu istifadəyə verilmişdir. Bundan başqa, Naxçıvan REM-də Darıdağ mərgümüş sularından alınmış Kaprovivarı duzun quru qalığından müalicə üçün istifadə edilməsi Bakı Sanatoriya və Kurortologiya İnstitutunda və Xarkov Əczaçılıq İnstitutunda uğurla sınaqdan çıxarılmışdır. Elmi mərkəzin tərkibindəki biologiya yönlü laboratoriyalarda Naxçıvan MSSR-də yaşıllaşdırma tədbirlərini həyata keçirtmək üçün regionun iqlim xüsusiyyətlərinə uyğun gələn ağacların və bəzək bitkilərinin yetişdirilməsi məsələlərinə dair aparılan tədqiqatlar müsbət nəticələr vermişdir.

Eyni zamanda, Naxçıvan REM-də iqtisadiyyat üzrə muxtar respublikanın təsərrüfatlarında becərilən texniki bitkilərin iqtisadi cəhətdən səmərəliliyi probleminə dair tədqiqatlar aparılmışdır. Coğrafiyaçıların apardıqları araşdırmalarda regiondakı çayların su balansının öyrənilməsi əsas yer tutmuşdur. Tarix bölməsində isə REM-də çalışan əməkdaşların ixtisaslarına uyğun olaraq Naxçıvan teatrının tarixi və etnoqrafiya sahəsində tədqiqatlar aparılmışdır.

Naxçıvan REM-ə Azərbaycan EA-nın görkəmli alimləri rəhbərlik etmişlər. Naxçıvan REM-in 1972-1973-cü illərdə ilk direktoru akademik Toğrul Şahtaxtinski olmuşdur. Bu zaman REM-in ilkin formalaşdırılması tədbirləri həyata keçirilmişdir. Naxçıvan REM kimya elmləri doktoru, professor Məhərrəm Məmmədyarovun rəhbərlik etdiyi dövrdə (1973-1979) özünün mühüm bir inkişaf dövrünü yaşamışdır. Bu mərhələdə elmi mərkəzdə maddi-texniki baza möhkəmləndirilmiş, kadr potensialı gücləndirilmişdir. Eyni zamanda, həmin illərdə burada Naxçıvan MR-in təbii sərvətlərindən istifadəsinin səmərəliliyinin artırılması sahəsində ciddi nəzəri və təcrübi əhəmiyyətə malik olan tədqiqatların aparılmasına xüsusi fikir verilmişdir. Professor M.Məmmədyarovun rəhbərliyi ilə aparılan "Termal mənbələrin təbii karbon qazından istifadəsinin sənaye texnologiyasının hazırlanması" probleminə həsr olunmuş tədqiqat işi 1980-ci ildə Azərbaycan Sovet Sosialist Respublikası Dövlət Mükafatına layiq görülmüşdür.

Kimya elmləri doktorları Əli Nuriyevin (1980-1984), Əlalət Rəhimovun

(1984-1987), kimya üzrə fəlsəfə doktoru Vahid Quliyevin (1987-1993), kimya elmləri doktoru Ələddin Abbasovun (1993-2002) rəhbərlik etdiyi illərdə Azərbaycan EA Naxçıvan REM-də muxtar respublikanın tarixi və müasir inkişaf problemləri tədqiq edilib öyrənilmişdir. Akademik İsmayıl Hacıyevin yazdığı kimi, Azərbaycan EA Naxçıvan Regional Elmi Mərkəzinin yaradılması ilə muxtar respublikada elmin inkişaf etdirilməsi üçün "münbit zəmin formalaşdırılmışdır" [51, s. 130].

Naxçıvan Kompleks Zona Təcrübə Stansiyasının fəaliyyəti də XX əsrin 70-80-cı illərində genişləndirilmişdir. Bu mərhələdə Naxçıvanda Elmi-Tədqiqat Baytarlıq stansiyası və "Araz" Elm-İstehsalat Birliyi də yaradılmışdır. Bütün bunlar muxtar respublikada kənd təsərrüfatı və iqtisadiyyat elmlərinin də inkişaf etdirilməsinə imkan yaratmışdır.

Şamaxı Astrofizika Rəsədxanasının Batabat bölməsinin fəaliyyətə başlaması ilə regionda dəqiq və texniki elmlərin də inkişafına meydan açılmışdır.

Ədəbiyyat. XX əsrin 70-80-ci illəri Naxçıvan ədəbi mühiti üçün inkişaf etmiş bir mərhələ sayılmalıdır. Bu, İkinci Dünya müharibəsindən sonra, xüsusən 60-cı illərdə Azərbaycan ədəbiyyatında başlanmış insanın mənəvi aləminə qayıdış prosesinin davamı, 80-ci illərin sonundan etibarən qüvvətlənən və 90-cı illərdə inkişaf edən müstəqillik dövrü ədəbiyyatının başlanğıcı idi. Nəticə etibarilə 70-80-ci illərin ədəbiyyatı bütövlükdə Azərbaycan ədəbiyyatında, o cümlədən də Naxçıvan ədəbi mühitində 60-cı illərlə 90-cı illərin ədəbi prosesi arasında möhkəm bir körpü funksiyasını yerinə yetirir.

Naxçıvan ədəbi mühitində ədəbiyyatın keçmiş sovet ideologiyasından daha da uzaqlaşdırılması prosesinin genişlənməsi, millilik amilinin, vətəndaşlıq mövqeyinin qüvvətlənməsi və yeni yaradıcı nəslin formalaşması 60-80-ci illərin səciyyəvi xüsusiyyətidir. Bütövlükdə Azərbaycan ədəbiyyatında gedən həmin proseslər Naxçıvan ədəbi mühitində, demək olar ki, bütün ədəbi növlər üzrə müşahidə olunmuşdur.

Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan bölməsinə rəhbərlik etmiş Müzəffər Nəsirlinin poeziyasında ictimai motivlərin tərənnümü ənənəsi davam etdirilmişdir. Onun "Qaynar bulaq" kitabındakı ictimai-siyasi mövzuda yazılmış şeirlərində dövrün tələbindən doğan ideoloji səciyyə daşıyan şeirlərlə bərabər, vətən torpağının qüdrətinə, insan zəhmətinə, halallıq və bütövlüyə həsr edilmiş nümunələr də vardır [39].

Azərbaycan ədəbiyyatının Naxçıvanda yaşayıb-yaradan nümayəndələri arasında şair Hüseyn Razinin yaradıcılığında XX əsrin 70-80-ci illəri xüsusi yer tutur. Uzun illər "Şərq qapısı" qəzetinin "Ədəbiyyat və incəsənət" şöbəsinə rəhbərlik etmiş H.Razi Naxçıvanda yaşayan istedadlı Azərbaycan şairi kimi qəbul olunmuşdur. Onun "Səsləşən dağlar" (1970), "Həmişə bahar" (1974), "Canlı tonqal" (1977), "Ayrılmaram" (1981) şeirlər kitablarında toplanmış şeirlər Azərbaycan poeziyasının qiymətli nümunələri hesab edilməyə layiqdir. H.Razi

Azərbaycan vətəndaşlıq poeziyasının görkəmli nümayəndəsidir. O, Naxçıvanı – "Azərbaycan gözəli", Azərbaycanı isə "taxtım-tacım" kimi ilhamla tərənnüm etmiş, ölkəmizdə milli düşüncənin inkişaf etməsinə təsir göstərən qiymətli vətəndaşlıq poeziyası nümunələri yaratmışdır. Onun "Eyniləşməyək", "Aman ovçu", "Keçəl Həmzə" şeirləri yüksək şeiriyyəti ilə yanaşı, həm də əsl vətəndaşlıq cəsarətinin ifadəsidir. Bu qəbildən olan şeirlərində H.Razi bir çox hallarda mövcud senzuranı silkələyən milli ideyaları, cəsarətli fikirləri səsləndirmişdir.

Əliyar Yusiflinin (1929-1993) yaradıcılığında da Vətənin, o cümlədən muxtar respublikanın tərənnümü əsas yer tutur. Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunu bitirmiş Ə.Yusifli Naxçıvan Dövlət Radio və Televiziya Verilişləri Komitəsinin Ədəbiyyat və incəsənət şöbəsinin müdiri kimi regionda ədəbi qüvvələrin inkişafına xidmət göstərmişdir. Onun "Dağlar yaraşığı" (1964), "Səni xatırlayıram" (1967), "Səni tapacağam" (1979), "Bənövşə ətri" (1985) kimi kitablarında oxuculara təqdim edilən şeirlər və poemalarda vətənpərvərliklə yanaşı, sevgi motivləri, mənəviyyat haqqında poetik düşüncələr mənalandırılmışdır. Ə.Yusiflinin "Muxtar Respublikam", "Qoy duyum ətrini" şeirləri Naxçıvana həsr edilmiş ən ilhamlı və obrazlı poetik nümunələrdəndir.

Kəmalə Ağayevanın yaradıcılığında insanın mənəvi aləminin tərənnümü prosesi daha da dərinləşmişdir. Şairənin "Sən olmasaydın" kitabındakı (1974) şeirlərdə zəriflik və nəciblik duyğuları insanın ən yaxşı keyfiyyətləri kimi obrazlı şəkildə tərənnüm olunmuşdur. Kəmalənin "Arpaçayın nəğməsi" kitabındakı (1978) poetik nümunələrdə isə Naxçıvan diyarının ümumi vəsfindən konkret tərənnümünə keçidin parlaq poeziyası ifadə olunmuşdur. Obrazlılıq və səmimiyyət Kəmalənin şeirlərini Azərbaycan şeirinin geniş meydanına çıxarmışdır. "Apardı sellər Saranı" poemasında isə o, bu barədə mövcud olan əfsanənin ibrətamiz məqamlarını önə çəkməklə müasirlərimizə sədaqət, etibar, bütövlük kimi keyfiyyətlər aşılamışdır.

Cəmiyyətdə baş verən proseslərə daha həssas münasibət bəsləyən poeziyanın XX əsrin 70-ci illərində Naxçıvanda meydana çıxardığı yeni nəsli ayrıca qeyd etmək lazımdır. Bu dövrün Naxçıvan ədəbi mühitində yeni ədəbi simalar – Elman Həbib, Elmira Qasımova, Validə Hüseynova, Asim Yadigar, Muxtar Qasımzadə, Vaqif Məmmədov, Xanəli Kərimli, İbrahim Yusifoğlu, Elbəyi Maqsudov, Həsən Valeh, Vaqif Kərimov, Telman Qəhrəmanov (Ağrıdağ) kimi gənc şairlər poeziya meydanında yeni poetik düşüncə ilə fəal surətdə iştirak etmişlər. Onların mövzularında da, təsvir vasitələrində də yenilik diqqəti cəlb edirdi. Yeni nəslin ənənəvi Naxçıvan mövzusunda yazdığı şeirlərdə də artıq tərənnümdən, vəsf etməkdən çox poetik mənalandırma diqqət mərkəzinə çəkilmişdir.

Naxçıvan ədəbi mühitində bədii nəsrin imkanları XX əsrin 70-80-ci illərində daha da genişlənmişdir. Təcrübəli yazıçı Hüseyn İbrahimovun nəsr əsərləri Azərbaycan miqyasında böyük maraqla qarşılanmışdır. Daha çox müasir mövzularda nəsr əsərləri yazan H.İbrahimov bu dövrdə ilk dəfə olaraq tarixi mövzuya müraciət

etmişdir. Tarixi mövzulara maraq həmin dövrdə Azərbaycanda ölkə miqyasında milli-mənəvi yaddaşın bərpası, özünüdərk proseslərinin dərinləşməsi istiqamətində canlanan hərəkatın əks-sədası idi. H.İbrahimov içərisində olduğu azərbaycançı siyasi-ideoloji mühitin işığında "Günəş doğan yerdə" (1976) və "Əsrin onda biri" (1987) tarixi romanlarını yazıb nəşr etdirmişdir. O, Naxçıvan diyarının uzaq və yaxın tarixində baş vermiş hadisələri və tarixdə böyük iz salmış şəxsiyyətlərin həyatı və fəaliyyətini geniş epik planda əks etdirmişdir.

Onun "Günəş doğan yerdə" tarixi romanında Azərbaycanda sovet hakimiyyətinin qurulması fonunda regionda qaçaqçılıq hərəkatı təsvir olunmuşdur. Müəyyən ideoloji meyillərinə baxmayaraq, H.İbrahimov bu əsərində canlı və təsirli həyat hadisələri, habelə fərdi xüsusiyyətləri ilə seçilən koloritli obrazlar yaratmaq bacarığı ilə bir daha diqqəti cəlb edir. Yazıçı tarixi hadisələrə və şəxsiyyətlərə münasibətində də gerçəkliyə sədaqətini qoruyub saxlamağa çalışmışdır. Sovet hakimiyyətinin qurulması uğrunda mübarizə mövzusunda qələmə alınmasına baxmayaraq, "Günəş doğan yerdə" tarixi romanı müasirlik ruhu ilə də səciyyələnir. Yazıçı imkan daxilində oxucuya yaxın tarixin ibrətamiz məqamlarını təsirli vasitələrlə çatdırmağa səy göstərmişdir.

Azərbaycan memarlıq məktəbinin banisi, qüdrətli sənətkar Əcəmi Naxçıvaniyə həsr edilmiş "Əsrin onda biri" tarixi romanında ölkəmizin qədim dövlətinin möhtəşəm hadisələri böyük ustalıqla təsvir edilmişdir. Bu, Azərbaycan ədəbiyyatında Atabəylər dövlətindən və memar Əcəmidən bəhs edən ilk tarixi romandır. Bu, Atabəylər dövləti fonunda Azərbaycanın milli dövlətçilik ənənəsini əks etdirən mükəmməl bir bədii əsərdir.

Hər dəfə həyatın müxtəlif istiqamətlərində yeni bədii söz deməyə çalışan H.İbrahimov "Bahar yağışı" romanında (1983) Arpaçay dəryaçasının yaradılması dövrünün hadisələri əsasında cəmiyyətdə gedən ictimai prosesləri diqqət mərkəzinə çəkmişdir. Bununla belə, "Bahar yağışı" istehsalat mövzusunda yazılmış mükəmməl bir mənəviyyat romanıdır. Ədəbiyyata "Baharın hekayəsi" ilə gələn H.İbrahimovun nəşri "Bahar yağışı" romanı ilə inkişafının yüksək səviyyəsinə çatmışdır. Əsərdə istehsalat adamlarının mənəvi münasibətləri, fərqli insanlar və talelər maraqlı və çoxplanlı süjet əsasında realist şəkildə təsvir edilmişdir. "Bahar yağışı" istehsalat adamlarının mənəvi həyatının romanıdır.

Hekayəçilik ənənəsinə sadiq qalan H.İbrahimov XX əsrin 70-80-ci illərində də bu janrda yaddaqalan təsirli nümunələr yaratmışdır. "Nəciblik" hekayələr toplusunun adı həm H.İbrahimovun kiçik janrda yazdığı əsərlərdə izlədiyi böyük əxlaqi-mənəvi qayəni, həm də yazıçının bir şəxsiyyət kimi fərdi xarakterini çox dolğun surətdə ifadə edir. "Nəciblik" – müasir Azərbaycan hekayəçiliyinə H.İbrahimovun layiqli töhfəsidir. "Səhv edəndə" (1985) hekayələr kitabında mənəviyyat hekayələri ilə satirik hekayələrin bir yerdə təqdim olunması H.İbrahimovun çoxcəhətli yaradıcılığını tamamlayır. O, yeni dövr Azərbaycan satirik hekayəsinin

də kamil yaradıcılarından biri olduğunu təsdiq etmişdir.

XX əsrin 70-80-ci illərində Naxçıvan ədəbi mühitində bədii nəsr sahəsinə yeni imzalar da daxil olmuşdur. Möhsun Möhsunov, Həsən Elsevər, Həmid Arzulu, Novruz Nehrəmli, Rafiq Babayev, Bayram İsgəndərov, Nurəddin Babayev, Akif İmanov və başqalarının nəsr əsərləri mövzu və üslub müxtəlifliyi ilə seçilir.

XX əsrin 70-80-ci illəri Naxçıvan ədəbi mühitində satirik ədəbiyyata meyil qüvvətlənmişdir. Bu dövrdə Möhsün Möhsünov (1937-1995) satirik hekayə və felyeton yaradıcılığında yeni imza kimi diqqəti cəlb etmişdir. Yazıçının "Baş tutmadı" (1979) kitabındakı satirik hekayələrində cəmiyyət həyatının ayrı-ayrı məqamlarına tənqidi münasibət ifadə olunmuşdur. M.Möhsunovun felyetonları da satirik hekayə təsiri bağışlayır. "Şərq qapısı" qəzetində "Felyeton və publisistika" şöbəsinin müdiri kimi o, ədəbi mühitdə satirik ədəbiyyatın inkişafına təsir göstərmişdir. Onun "Dəlləyin duası", "Orijinal pir" telepyesləri Naxçıvan televiziyasında uğurla səhnələşdirilmişdir. M.Möhsunovun satirik ədəbiyyat sahəsindəki fəaliyyəti diqqəti cəlb etmiş və o, 1978-ci ildə "Kirpi" jurnalının mükafatına layiq görülmüşdür.

M.Möhsunov yeni dövrün ilk yeni psixoloji bədii nəsrinin də kamil nümunələrini yaratmışdır. Onun "Səadət özü gəlmir" (1984), "On bir qərənfil" (1988) kitablarındakı lirik-psixoloji nəsr əsərlərində mənəvi münasibətlərin dərinliklərinə işıq salınmışdır. M.Möhsunovun "İnsanlar" miniatür hekayəsi kiçik nəsrin ciddi hadisəsi idi. Xarakterlər yaratmaq və fərqli talelərin taleyini əks etdirməklə M.Möhsunov geniş mənada mühitin səciyyəvi meyillərini ümumiləşdirmişdir.

Naxçıvan ədəbi mühitində Həsən Elsevər (1925-2003) də nəsr yaradıcılığı ilə diqqəti cəlb etmişdir. İkinci Dünya müharibəsinin iştirakçısı olan müəllifin yaradıcılığında müharibə mövzusu geniş yer tutur. Onun "Ürəklər bir vuranda" (1964), "Gözəllik bulağı" (1974), "Mən əsir doğulmamışam" (1978), "Ürək daşdan deyil" (1982), "Zəlzələ" (1987) kitablarındakı hekayə və povestlərdə əsasən müharibə dövrünün ön və arxa cəbhədəki hadisələri qələmə alınmışdır.

Həmid Arzulu (1937) Naxçıvan ədəbi mühitində çoxcəhətli yaradıcılıq fəaliyyəti ilə fərqlənən yazıçı kimi tanınır. O, bədii nəsrlə ardıcıl şəkildə məşğul olmaqla bərabər, həm də ədəbiyyatın digər növlərində və janrlarında da qiymətli əsərlər yazmışdır. Onun şeirləri ayrıca kitab halında çap edilmiş, dram əsərləri tamaşaya qoyulmuşdur. Bədii tərcümənin nəzəriyyəsi və təcrübəsi sahəsində də H.Arzulunun mühüm xidmətləri vardır.

XX əsrin 70-80-ci illərində H.Arzulu bədii nəsrə daha çox maraq göstərmişdir. Bədii-publisist üslub onun nəsr əsərlərinin səciyyəvi xüsusiyyətini təşkil edir. Eyni zamanda H.Arzulunun nəsrində maarifçi notlar da özünəməxsus yer tutur. Yazıçı həyat hadisələrini gerçək həqiqətlər kimi təsvir edir. O, obrazların daxili mənəvi aləmini canlandıranda yazıçı, hadisələrin inkişafını təsvir edəndə isə publisist kimi çıxış edir. Ona görə də H.Arzulunun bəzi hekayələri təsirli və

yaddaqalan bədii publisistika nümunələri təəssüratı yaradır. "Yurdumuzun şəfəqləri" (1985) kitabında toplanan hekayələrin bir çoxunu orijinal publisist əsərlər kimi də qəbul etmək mümkündür. "Günəş də bizə yaxındır" hekayəsi bədiilik ağırlıqlı publisistika nümunəsi təsiri bağışlayır. Hekayədə Azərbaycana, o cümlədən Naxçıvana gələn xarici qonaqların təəssüratları bədii-publisist planda təsvir edilmişdir.

"Ürəyimi açıram" adlı hekayələr kitabında (1985) H.Arzulunun yaradıcılıq imkanları da açılmış, bədiilik bir qədər də qüvvətlənmişdir. H.Arzulu obrazlı düşüncələrin üstünlük təşkil etdiyi hekayələrində bədii təxəyyüldən doğan təsirli həyat səhnələrini və sadə insanları cəlbedici bir təhkiyə ilə oxucuya çatdırır.

Nəsr sahəsində yeni nəsli təmsil edənlərin sırasında Rafiq Babayevin (1953) özünəməxsus yeri vardır. R.Babayevin hekayələri lirik-psixoloji üslubda yazılıb, mənəvi aləmin təsvirinə işıq salan bədii nümunələrdir. Bununla belə, R.Babayevin əsərlərində mənəvi aləmin bədii tədqiqinə maraq və diqqət onun qəhrəmanlarının fəal vətəndaşlıq mövqeyi ilə birlikdə təzahür edir. Bu isə yazıçının özünəməxsus fərdi üslubunu meydana çıxarır. R.Babayev kənd həyatından alınmış ictimai mövzuları lirik-psixoloji üslubda və yüksək vətəndaşlıq ruhunda təqdim edir. Hətta onun bəzi hekayələrində ictimai məzmun lirik-psixoloji üslubu üstələyir.

"Yazıçı" nəşriyyatında 1986-cı ildə çap edilmiş "Axırıncı axşam" kitabında toplanmış hekayələrdə örtülü vasitələrlə keçmiş sovet cəmiyyətinin doğurduğu çətinliklərə tənqidi münasibət ifadə olunmuşdur.

R.Babayevin hekayələrində bu xətt daim inkişafda olmuşdur. O, sadə adamların ağır taleyi əsasında cəmiyyət hadisələrinə münasibətini bildirmişdir. Bununla belə, R.Babayevin hekayələrində sadə kənd adamlarının təbii və yaddaqalan bədii obrazları da yaradılmışdır. Yazıçı Azərbaycan kəndinə və kənd adamlarına münasibətin dəyişməsi zərurətini diqqət mərkəzinə çəkmişdir. Bu aktual mövzu R.Babayevin "Yazıçı daşı" ("Yazıçı", 1992) kitabında toplanmış hekayələrində və povestlərində daha geniş və əsaslı şəkildə əks etdirilmişdir.

R.Babayev Azərbaycan ədəbiyyatında özünəməxsus yolu və ənənəsi olan lirik-psixoloji nəsri yeni mövzular və yaddaqalan obrazlarla zənginləşdirmişdir. Lirik-psixoloji nəsrdə vətəndaşlıq motivlərini qüvvətləndirməsi R.Babayevin yazıçı kimi fərdi yanaşma tərzini, fərqli baxışlarını müəyyən edir. Bu, həm də onun yaradıcılıqla fəal məşğul olduğu dövrün, yəni XX əsrin 80-ci illərinin cəmiyyətdə yaratdığı imkanların da təzahürü idi. Mövzu imkanları daxilində R.Babayev də bir yazıçı kimi öz sözünü deyə bilmişdir.

Novruz Nehrəmlinin böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin həyatına həsr edilmiş nəsr əsərlərində, xüsusən "Zülmətdə işıq" romanında ölməz yazıçının aydın bədii obrazı ilə yanaşı, onun əsərlərindəki obrazların prototiplərinin də yaddaqalan surətləri yaradılmışdır. Nurəddin Babayevin hekayələrində müharibə dövrünün təsirli hadisələri və müasir həyatın maraqlı məqamları epik-publisistik

planda təsvir olunmuşdur. Bayram İsgəndərov miniatür hekayənin və uşaq nəsrinin cəlbedici nümunələrini yaratmışdır. Akif İmanov yumoristik-hekayə janrında maraqlı nəsr nümunələri təqdim etmişdir. Onun "Kal qarpız" hekayələr kitabı hekayədə yumorun özünəməxsus koloritini əks etdirir.

Göründüyü kimi, XX əsrin 70-80-ci illərində Naxçıvan ədəbi mühitində bədii nəsr böyük inkişaf dövrünü yaşamış, mövzu dairəsinin genişliyi, zəngin obrazları, milli-mənəvi xüsusiyyətləri və köklü tarixi ənənələri ön mövqeyə çəkməsi ilə yeni bir mərhələyə çevrilmişdir.

Bu mərhələdə, Naxçıvan ədəbi mühitində dramaturgiya sahəsində də uğurlar qazanılmışdır. Ramiq Muxtarın "Üfüqlər qızaranda" (1970), "Əgər sevirsənsə" (1976), "Şəhərli kürəkən" (1985) pyesləri C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında, "Əlvida, köhnə dünya" pyesi Ağdam Dövlət Teatrında tamaşaya qoyulmuşdur. O, eyni zamanda, Naxçıvan ədəbi mühitində ilk balet librettoları yazan müəllifdir. R.Muxtarın "Şeyx Sənan", "Rüstəm və Zöhrab", "Ölüm tanqosu" balet librettoları ədəbi mühit üçün yeni idi.

XX əsrin 70-80-ci illərində Naxçıvanda yaşayıb-yaradan yazıçı və şairlərin əksəriyyəti həm də dramaturgiya ilə məşğul olmuşlar. Bu, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrının inkişafı, repertuara olan tələbatla bərabər, həm də Naxçıvan televiziyası və radiosunun da genişlənən imkanları ilə əlaqədar idi. H.Razinin "Arxalı dağlar" (1971), "Haray səsi" (1978), "Şirinliyin acısı" (1981), H.Elsevərin "Alınmaz qala" (1976), Ə.Yusiflinin "Səadət naminə" (1970), "Gözüm yollarda qaldı" (1975), "Siz xoşbəxt yaşayın" (1981), "Əlincədən uçan qartal" (1989), K.Ağayevanın "O, bizim dağların oğludur" (1976), "Mənim tanrım" (1982), M.Tarverdiyevin "Qəmküsar" (1975) pyesləri Naxçıvan teatrında tamaşaya qoyulmuşdur. M.Möhsünovun "Dəlləyin duası" və "Orijinal pir" telepyesləri ekranlaşdırılmışdır. Teatr və dramaturgiyanın inkişafı Naxçıvanda yeni aktyorlar nəslinin formalaşmasında da mühüm rol oynamışdır.

Mətbuat. İkinci Dünya müharibəsindən sonra Naxçıvan Muxtar Respublikasının əsas mətbuat orqanı kimi "Şərq qapısı" qəzeti fəaliyyətini davam etdirmişdir. Qəzet müharibə dövründə yazıçı-publisist Məhəmmədəli Tarverdiyevin baş redaktorluğu (1941-1945) ilə müharibə illərinin arxa və ön cəbhədəki ritmini əks etdirmiş, səfərbərlik və vətənpərvərlik ruhunda yazılar çap etmişdir.

Müharibə dövründə "Şərq qapısı" qəzeti "cəbhə ilə xalq arasında körpü yaradan mətbuat orqanı kimi regionda hər evin qapısını açmış, döyüş səngərlərinə belə gedib çata bilmişdir" [262, 2006, 4 noyabr]. Müharibədən sonrakı dövrlərdə "Şərq qapısı" qəzeti tarixi yolunu davam etdirərək Azərbaycanda gedən proseslərin zəminində Naxçıvan hadisələrini əks etdirmişdir. Müxtəlif illərdə "Şərq qapısı" qəzetinə baş redaktorluq etmiş Manaf Xudiyev (1953-1956), Fərman Tağıyev (1956-1960), Məmməd Bektaşi (1961-1962) və Hüseyn İbrahimov (1962-1965) dövrün ruhunu əks etdirməklə bərabər, regionda baş verən yeniləşmə hadisələrinin,

ictimai meyillərin inkişafına da müəyyən diqqət yetirmişlər. Rəsmi dövlət qəzeti olmasına baxmayaraq, "Şərq qapısı" qəzetində ədəbiyyat və incəsənət məsələlərinə, mədəniyyət tədbirlərinin işıqlandırılmasına da xüsusi diqqət yetirilmişdir. Bu, "Şərq qapısı" qəzetində təməldən gələn bir ənənə olsa da, yeni tarixi şəraitdə daha da qüvvətlənmişdir. "Şərq qapısı" qəzeti Naxçıvan Vilayət Partiya Komitəsinin rəsmi mətbuat orqanı olmaqdan başqa, həm də "Ədəbiyyat və incəsənət" qəzetinin də funksiyalarını həyata keçirmişdir. Müharibədən sonrakı dövrdə, xüsusən də XX əsrin 50-ci illərinin ikinci yarısından sonra "Şərq qapısı" qəzetində ədəbiyyat və incəsənət məsələlərinə diqqət daha da qüvvətlənmişdir. Bu, M.Bektaşinin və yazıçı H.İbrahimovun qəzetə redaktorluq etdiyi illərdə daha çox nəzərə çarpır. Keçmiş sovet cəmiyyətində "Xruşşov dövrü" kimi səciyyələnən mərhələnin gətirdiyi "istiləşmədən" başqa, qəzetin redaktorlarının ədəbiyyat yönlü ziyalılar olması da bu məsələdə əhəmiyyətli rol oynamışdır. Bundan başqa, ədəbiyyatda və mətbuatda "altmışıncılar" dalğasının yaranması da bütövlükdə ədəbi mətbu sözə, o cümlədən də "Şərq qapısı"nın ab-havasına müsbət təsir göstərmişdir. "Şərq qapısı"nda çap olunmuş bir çox bədii-publisist yazılarındakı milli mövqeyinin, vətəndaş münasibətinin ümumi Azərbaycan mətbuatında baş verən canlanmadan bəzi hallarda üstün olduğu da müşahidə edilir. Buna görə də qeyd etmək olar ki, "Şərq qapısı" qəzeti XX əsrin 60-70-ci illərində, fəaliyyətinin əvvəlki illərlə müqayisədə, demokratik bir dövrünü yaşamışdır.

Təcrübəli yazıçı H.İbrahimovun "Şərq qapısı" qəzetinə rəhbərlik etdiyi 1962-1965-ci illərdə qəzetdə "Sadə adamlar haqqında hekayələr" başlığı altında gedən bədii-publisist materiallar mətbuatda və ədəbiyyatda yenidən insana, təkcə onun fəaliyyətinin ideoloji məqamlarına deyil, həm də adi əhvalatlarına, gündəlik yaşayış tərzinə, əmək cəbhəsindəki işinin romantikasına, mənəvi aləminə də qayıdışın regiondakı əks-sədasına çevrilmişdir. Xüsusən, 60-70-ci illərdə "Şərq qapısı" qəzetində oçerk janrında yazıların genişlənməsi qəzetdə sadə insanlara diqqətin artmasının göstəricisidir. "Şərq qapısı"nın oçerkləri jurnalistika baxımından olduğu kimi, bədiilik elementləri ilə də diqqəti cəlb edirdi. Bu oçerklər sözün həqiqi mənasında sadə əmək adamlarına, yerli ziyalılara həsr edilmiş publisist hekayələr təsiri bağışlayır.

Qeyd olunan dövrdə "Şərq qapısı" qəzetində tənqid notları da artmışdır. Qəzetdə tənqidi xarakterli kiçik xəbərlərdən başqa, felyeton janrında yazılmış məqalələrə də daha çox rast gəlinir. Kiçik həcmli informasiya xarakterli yazılarda muxtar respublikanın şəhər və kəndlərində mövcud olan çatışmazlıqlardan bəhs olunmuşdur. Bunlar siyasi sistemə aiddiyyatı olmayan, ideologiyaya toxunmayan, yerlərdəki nöqsanları göstərən yazılar idi. Felyetonlarda isə daha çox ateizm təbliğatı və ticarət sahəsindəki nöqsanlar öz əksini tapmışdır. "Fəaliyyətinin bütün dövrlərində tənqidi yazılara üstünlük verən" "Şərq qapısı" qəzeti Stalin rejimindən sonra tənqidi bir qədər də gücləndirmişdir. Həmin illərdə "Şərq qapısı" qəzetində

"Tənqid atəşi ilə", "Müxbirlərin gözü ilə", "Molla Nəsrəddin"in sözü ilə", "Düzü-düz, əyrini-əyrini" rubrikaları ilə çap olunan materiallarda [254, s. 34] ümumi inkişafa xidmət etmək meyli əsas olmuşdur. Qəzet eyni zamanda, satirik şeirlərə də müəyyən yer ayırmışdır.

XX əsrin 60-cı illərində ideoloji xarakterli vəzifə daşımasına, müəyyən çərçivədə idarə olunmasına baxmayaraq, "Şərq qapısı"nın felyetonları sovet cəmiyyəti dövründə regionda nöqsanlara qarşı mübarizəyə xidmət etmiş, obyektivlik və maarifçilik məsələsini ön mövqeyə çəkməyə kömək etmişdir.

XX əsrin 60-70-ci illərində "Şərq qapısı" qəzetində çap olunmuş ən yaxşı oçerklər və felyetonlar bu janrın Azərbaycan mətbuatı miqyasında qiymətli nümunələr hesab oluna bilər. Ümumiyyətlə, həmin illər "Şərq qapısı" qəzetinin fəaliyyətində ideologiyanın təbliği ilə yanaşı, həm də ölkə həyatına, xalq amilinə, sadə insanların həyatına müəyyən dönüş dövrüdür. Bunu "Şərq qapısı"nın gələcək müstəqillik dövrü üçün hazırlıq mərhələsi də adlandırmaq olar.

XX əsrin 70-ci illərindən etibarən "Şərq qapısı" qəzetinin həyatında yeni tarixi dövr başlanmışdır. Əvvəla, Azərbaycan Respublikasının keçmiş sovetlər ittifaqında rolu və mövqeyi artmışdır. Ümummilli lider Heydər Əliyevin Azərbaycanı ittifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çatdırması və ölkədə milli-mənəvi dəyərlərin inkişafına xüsusi diqqət yetirməsi ideologiyaya da öz təsirini göstərmişdir. Bu zamandan etibarən bütövlükdə Azərbaycan mətbuatında, o cümlədən də "Şərq qapısı" qəzetində Azərbaycanla, Naxçıvan Muxtar Respublikası ilə əlaqədar məsələlərin, çoxəsrlik tarixin və milli mədəniyyətin təbliği zamanın əsas sifarişinə çevrilmişdir. 70-80-ci illərdə "Şərq qapısı" qəzetində "dil, ədəbiyyat, mədəniyyət və tarixə həsr olunmuş, azərbaycançılıq ideologiyasına xidmət edən yazılar dərc olunmuşdur" [254, s. 35].

Bu tarixi mərhələdə "Şərq qapısı" qəzetinə redaktorluq etmiş Rəşid Qazıbəyov (1965-1970), Vahid Bağırov (1970-1975), Sənubər Kərimova (1975-1985), Akif Axundov (1986-1990) qəzetdə dövrün ruhuna uyğun proseslərin əks etdirilməsini fəaliyyətin əsas istiqaməti olaraq qəbul etmişlər.

"Şərq qapısı" qəzeti XX əsrin 70-80-ci illərində daha yüksək mətbuat orqanı səviyyəsində çap olunmuşdur. Bu mərhələdə qəzetin ideya-siyasi xətti ilə bərabər, ədəbi-publisist səviyyəsi də qüvvətlənmişdir. Həmin dövrdə "Şərq qapısı"nda çap edilən oçerklər Azərbaycan mətbuatında oçerk janrının ən yaxşı örnəkləri kimi qiymətləndirilməyə layiqdir. Nurəddin Babayevin, Sənubər Kərimovanın, Akif Axundovun, Aydın Tarverdiyevin oçerkləri muxtar respublikanın qabaqcıl, fədakar, yüksək mənəviyyatlı insanlarının üzə çıxarılmasına, geniş ictimaiyyətə təqdim edilməsinə şərait yaratmışdır. "Şərq qapısı" qəzetinin oçerk qəhrəmanları cəmiyyətin qəbul etdiyi, hörmət bəslədiyi fərqlənən insanlar idi. "Şərq qapısı" qəzeti mövcud mətbuat ənənəsində olduğu kimi, yalnız əmək qəhrəmanları haqqında deyil, ziyalılar barəsində də oçerklər çap etmişdir.

Muxtar respublikanın ədəbi-mədəni mühitinin işıqlandırılmasında da "Şərq qapısı" qəzeti mühüm rol oynamışdır. Uzun illər ərzində "Şərq qapısı" qəzetində "Ədəbiyyat və incəsənət" şöbəsinə uğurla rəhbərlik etmiş görkəmli şair H.Razi "Ədəbiyyat səhifələri" vasitəsilə ədəbi mühiti idarə etmişdir. Yeni nəsil yazıçı və şairlərin üzə çıxarılmasında və istiqamətləndirilməsində "Şərq qapısı"nın və H.Razinin müstəsna dərəcədə böyük xidmətləri vardır. "Şərq qapısı" qəzetinin "Ədəbiyyat səhifəsi" muxtar respublikanın "Ədəbiyyat qəzeti" funksiyasını yerinə yetirmişdir. Böyük tələbkarlıqdan sonra qəzetdə şeirləri və hekayələri "Ədəbiyyat səhifəsi"ndə yer alan gənc qələm sahibləri böyük ədəbiyyata vəsiqə almaq etimadı qazanmışlar. "Şərq qapısı"nın "Ədəbiyyat səhifəsi" böyük ədəbiyyat cəbhəsinin hərəkətvericị qüvvəsi vəzifəsini həyata keçirmişdir. "Ədəbiyyat səhifəsi"ndə cəmi bir neçə dəfə bədii yazılarla çıxış etmək səlahiyyəti qazana bilən istedadlı gənclər Azərbaycan Yazıçılar İttifaqına zəmanət almış hesab olunurdular.

XX əsrin 70-80-ci illərinin "Şərq qapısı" qəzetinin "Ədəbiyyat səhifəsi" H.Razi yaradıcılıq məktəbinin dərsliyi idi. "Şərq qapısı" qəzetində H.Razinin çap etdirdiyi ədəbi icmallar dövrün yaradıcılıq mühitinin həm salnaməsi, həm də inkişafın istiqamətlərini müəyyən edən bələdçisi olmuşdur. Naxçıvanda yaşayıb-yaradan yazıçı və şairlər "Şərq qapısı" qəzetində və H.Razi ədəbi məktəbində yetişib formalaşmışlar. H.Razinin yüksək şairlik istedadı ilə yanaşı, həm də geniş mütaliəyə, dərin nəzəri dünyagörüşə malik olması regionda ədəbi qüvvələrin yetişdirilib hazırlanmasında böyük əhəmiyyət kəsb etmişdir. Onun tələbkar süzgəcindən keçmək, "Şərq qapısı"nın "Ədəbiyyat səhifəsi"nə çıxmaq ciddi bir yaradıcılıq imtahanını adlaya bilmək, böyük ədəbiyyat yoluna etimad qazanmaq demək idi. XX əsrin 70-ci illərində artıq cavan yazıçı və şairlər kimi formalaşmış E.Həbib, A.Əliyev, M.Qasımzadə, V.Məmmədov, X.Kərimli "Şərq qapısı" məktəbini keçmişlər.

Həmişə satira və tənqidə yer verən "Şərq qapısı" qəzetində XX əsrin 70-80-ci illərində satirik ədəbiyyat və publisistika xüsusilə genişlənmişdir. 70-ci illərdən etibarən "Mozalan" adlı xüsusi səhifə çap edilməsi qəzetdə satirik şeir və publisistikanın inkişafına kömək etmişdir.

"Şərq qapısı" qəzetinin adı və mövqeyi regional funksiyaları deyil, böyük strateji mənaları ifadə etdiyi üçün sovet dövlətinin ən yüksək dairələrini düşündürməli olmuşdur. XX əsrin əvvəllərində "Şərq qapısı" adı SSRİ-nin Şərq siyasətinə uyğun gəldiyinə görə məqbul sayılaraq qəbul edilmişdir. Əslində isə qəzetə verilən ad bu mətbuat orqanını yaradanların uzaqgörən baxışlarının ifadəsi idi. "Şərq qapısı" adında Azərbaycanın qonşu ölkələrlə münasibətlərdə Naxçıvan Muxtar Respublikasının rolu və yeri məsələsi öz əksini tapmışdır.

Bundan başqa, "Şərq qapısı" sözü keçən əsrin əvvəllərində bolşeviklərin Ermənistan dövləti yaratmaq üçün Zəngəzuru Azərbaycandan zorla qoparmaqla ölkənin əsas ərazisindən təcrid edilmiş Naxçıvanın Şərq tərəfdən olan dayaqları

mənasını da ifadə edirdi. Bu ad sovetlər ittifaqının rəhbərliyindəki Naxçıvana Ermənistanın maraqları bucağından baxan qüvvələrə də cavabın ifadəsi idi. Bütün bunlardan başqa, həm də artıq XX əsrin 70-ci illərində Naxçıvan Muxtar Respublikasının yaxın xarici türk-müsəlman dövlətləri ilə, həmin ölkələrdə yaşayan azərbaycanlı əhali ilə əlaqələri ehtimalı sovet rejiminin Şərq siyasəti ilə üst-üstə düşmüşdü. Analoji proseslər Orta Asiya respublikalarında mövcud idi. Ona görə də sovet hökumətinin Azərbaycanda və Özbəkistanda çıxan yerli qəzetlərin həm də rus dilində eyni adla çap edilməsi haqqındakı bəhanə xarakterli qərarına əsasən "Şərq qapısı" qəzeti 30 oktyabr 1979-cu ildən "Sovet Naxçıvanı" adı ilə Azərbaycan və rus dillərində nəşrini davam etdirməli olmuşdur.

Geniş məna daşıyan "Şərq qapısı" əvəzinə müəyyən olunmuş "Sovet Naxçıvanı" adı sosialist ideologiyasının təbliğinə xidmət edən format kimi mövcud rejimin prinsiplərinə daha çox uyğun gəlirdi. Lakin adının dəyişməsinə baxmayaraq, qəzetin yaradıcı kollektivi "Şərq qapısı"nın ənənələrini qoruyub saxlamış və daha da inkişaf etdirmişlər. Rus dilində çıxan "Sovetskaya Naxiçevan" qəzetindən isə yalnız ideoloji tribuna kimi yox, həm də muxtar respublikanın daha geniş miqyasda tanıdılması üçün istifadə edilmişdir. Yerli ziyalıların səyləri ilə, nəhayət, 1989-cu ildə "Şərq qapısı" adı yenidən bərpa olunmuşdur.

"Şərq qapısı" qəzetinin nəşri tarixində 1990-cu ildə daha bir tarixi addım atılmışdır. 19 yanvar 1990-cu ildə SSRİ dövlətinin dəstəyi ilə Ermənistan SSR Naxçıvan Muxtar Respublikasını işğal etmək niyyətini həyata keçirmək məqsədilə muxtar respublikanın ərazilərinə geniş miqyaslı hərbi hücumlar təşkil etmişdir. Sovet dövlətinin rəhbərliyindən heç bir dəstək ala bilməyən yerli əhalinin tələbi ilə Naxçıvan MSSR Ali Soveti etiraz əlaməti olaraq, Naxçıvanın SSRİ-nın tərkibindən çıxması haqqında qərar qəbul etmişdir. "Şərq qapısı" qəzeti həmin qərarı çap etməklə müstəqil Naxçıvan Muxtar Respublikanın mətbuat orqanı funksiyasını həyata keçirmişdir. 1990-cı ilin yanvar-fevral aylarında "Şərq qapısı" qəzetinin 8 sayı "Bütün ölkələrin proletarları, birləşin!" şüarı ilə deyil, "Birlik və demokratiya uğrunda!" çağırışı ilə çap olunmuşdur. Bu, təkcə "Şərq qapısı" qəzetinin yox, XX əsr sovet mətbuatının tarixində nadir hadisədir.

1990-ci ildə "Şərq qapısı", qısa müddət də olsa, "sovetlər dövründə nəşr olunan ilk müstəqil qəzet" [254, s. 48] kimi nəşr edilmiş, ölkənin və xalqın milli maraqlarına xidmət göstərmişdir. "Şərq qapısı"nın senzura nəzarəti olmadan çıxan həmin tarixi saylarında Naxçıvan MR-in konstitusiya hüquqlarının müdafiəsi, torpaqların işğaldan qorunmasını təşkil etmək üçün əhalinin səfərbər edilməsi, vətənpərvərlik çağırışlarının xalqa çatdırılması kimi məsələlər haqqında aktual məqalələr çap olunmuşdur. Eyni zamanda, həmin dövrdə "Şərq qapısı" qəzeti Bakıda qanlı 20 yanvar hadisələri zamanı sovet ordusu qüvvələri tərəfindən susdurulmuş ölkə mətbuatının da funksiyalarını yerinə yetirərək, faciəli Azərbaycan həqiqətlərinin xalqa və qonşu ölkələr vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasına

şərəflə xidmət etmişdir.

XX əsrin 70-80-ci illərində iki dəfə – 1972-ci ildə "Şərq qapısı" qəzetinin 50 illik, 1982-ci ildə isə 60 illik yubileyləri yüksək səviyyədə qeyd edilmişdir. "Şərq qapısı" 1972-ci ildə "Şərəf Nişanı" ordeninə layiq görülmüşdür.

XX əsrin 70-80-ci illərində Naxçıvan MR-in rayonlarında da müxtəlif mətbuat orqanları çap edilmişdir. Şərur rayonunda "İşıqlı yol", Babək rayonunda "Əmək bayrağı" (1979-cu ildən), Ordubadda "Yeni Ordubad", Culfa rayonunda "Zəfər", Şahbuzda "Qabaqcıl" adları ilə çıxan qəzetlər regionda maarifçi ideyaların genişlənməsinə şərait yaratmışdır.

Teatr. XX əsrin 70-80-ci illərində Naxçıvan Muxtar Respublikasında mədəniyyətin bütün sahələrində olduğu kimi, incəsənətdə böyük yüksəliş, tərəqqi baş verdi və yüksək inkişaf mərhələsinə çatdı. Naxçıvan incəsənəti Azərbaycanda olduğu kimi, klassik bədii irsin zəngin ənənələrini davam etdirməklə yanaşı, zamanın tələblərinə uyğun olaraq dünya incəsənətinin mütərəqqi ənənələrindən və novator nailiyyətlərindən də bəhrələnərək özünün inkişaf dövrünü yaşadı.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişi ilə bütün respublikada olduğu kimi Naxçıvan Muxtar Respublikasında da mədəniyyətin və incəsənətin, o cümlədən onun tərkib hissəsi kimi teatrın inkişafında ciddi dönüş yarandı, sürətli inkişaf başlandı. Bu dövrdə mədəniyyətin digər sahələri kimi muxtar respublikanın ictimai-siyasi və mədəni həyatında mühüm rolu olan teatrın inkişafı üçün xüsusi tədbirlər həyata keçirildi. Bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da teatra xüsusi dövlət qayğısı gücləndi. İlk növbədə teatrın işini yaxşılaşdırmaq, yaradıcılıq imkanlarını genişləndirmək üçün teatrın maddi-texniki bazası möhkəmləndirildi. Yaradıcılığa həvəsləndirmək üçün teatr kollektivinin üzvləri bir-birinin ardınca mükafatlandırıldı, onlara fəxri adlar verildi. 1974-cü ildə teatrın quruluşçu rejissoru Vəli Babayevə əməkdar artist, rejissor Baxşı Qələndərliyə əməkdar incəsənət xadimi, aktyorlardan Məmməd Quliyevə və Firuzə Əlixanovaya xalq artisti adları verildi. 1982-ci ildə teatrın aparıcı aktrisalarından Sofiya Hüseynova və Zemfira Əliyeva xalq artisti adına layiq görüldülər.

Görkəmli teatr xadimlərinin yubileylərinin keçirilməsi, adlarının əbədiləşdirilməsi, eyni zamanda teatrın truppasına daxil olan aktyorların mənzil-məişət problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlər kollektiv üzvlərini yeni yaradıcılıq axtarışlarına həvəsləndirir, nəticədə teatr böyük uğurlara imza atırdı. Heç təsadüfi deyildir ki, ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətinin I dövrü Naxçıvan teatrının ən yüksək inkişaf, tərəqqi mərhələsi oldu. Teatr bir sıra yaradıcılıq uğurları qazandı. Bu dövrdə teatrın repertuarı Azərbaycan, SSRİ və dünya klassiklərinin əsərləri ilə zənginləşdi. Teatr naxçıvanlı gənclərin vətənə məhəbbət, tarixi keçmişimizə hörmət, hərbi vətənpərvərlik, beynəlmiləlçilik ruhunda tərbiyə olunması sahəsində mühüm rol oynadı.

Teatrda tariximizi, milli-mənəvi dəyərlərimizi əks etdirən, təbliğ edən əsərlərin

tamaşaya qoyulmasına başlandı. Azərbaycan klassik ədəbiyyatı nümunələri, müasir dramaturqların əsərləri, o cümlədən yerli müəlliflərin pyesləri ilə yanaşı, dünya ədəbiyyatının ən gözəl nümunələri də Naxçıvan teatrının səhnəsində tamaşaya qoyuldu. Qeyd olunan zaman çərçivəsində – 20 illik bir vaxt ərzində Azərbaycan dramaturqlarından və bəstəkarlarından M.F.Axundovun, S.S.Axundovun, H.Cavidin, C.Cabbarlının, M.S.Ordubadinin, C.Məmmədquluzadənin, Ü.Hacıbəyovun, S.Vurğunun, S.Rəhmanın, B.Vahabzadənin, İ.Əfəndiyevin, Ş.Qurbanovun, S.Ələsgərovun, K.Ağayevanın, Ə.Yusiflinin, H.Razinin, H.Fətullayevin, R.Nağıyevin, H.Arzulunun və başqalarının əsərləri müxtəlif illərdə uğurla tamaşaya qoyulmuşdur. Həmçinin bu dövrdə dünya ədəbiyyatının bir sıra görkəmli nümayəndələrinin, o cümlədən N.Hikmətin, R.N.Güntəkinin, Ə.Nesinin, O.Kamalın, K.Qoldoninin, N.Dumbadzenin, V.Hüqonun, Sofoklun, Lope De Veqanın, N.Ostrovskinin, K.Simonovun, S.Mixalkovun, V.İvanovun və s. yazıçıların dram əsərləri də Naxçıvan teatrında səhnələşdirilmişdir [79, s. 284-410].

Bu tamaşaların çoxu təkcə teatrın öz səhnəsində deyil, qastrol səfərləri vasitəsi ilə Azərbaycanın digər rayonlarında, SSRİ-nin bir sıra şəhərlərində də uğurla tamaşaya qoyulmuş, mükafatlara layiq görülmüşdür. Təkcə 1987-ci ildə Tiflisdə keçirilən Ümumittifaq teatr festivalında Naxçıvan teatrının hazırladığı Sofoklun "Elektra" tamaşasının diplomla təltif edilməsi və tamaşanın Moskva televiziyasının əməkdaşları tərəfindən lentə alınaraq ümumittifaq televiziyası ilə nümayiş etdirilməsi faktı teatrın hansı səviyyədə dayanması haqqında aydın təsəvvür yaradır [50, s. 133]. Bütün bunlar, yüksək səviyyəli tamaşalar hazırlanması və əldə olunan uğurlar Naxçıvan teatrının tamaşalarına tamaşaçı axınının artmasına səbəb oldu. Məhz bunun nəticəsi olaraq 70-ci illərdə teatra gələn tamaşaçıların sayı təqribən 2,5 dəfə artmış, 56 mindən 137 minə çatmışdı [71, s. 141].

XX yüzilliyin 70-80-ci illəri həm də Naxçıvan teatrının yaradıcı heyətinin bir sıra qastrol səfərləri ilə də yadda qalan hadisələrdən olmuşdur. Bu dövrdə teatr Ermənistan SSR, Gürcüstan SSR, Dağıstan MSSR-də yaşayan azərbaycanlılar qarşısında teatr tamaşaları ilə çıxış edir, onların milli-mənəvi ehtiyaclarının ödənilməsində fəal iştirak edirdilər. Teatrın yaradıcı heyəti 1972-ci ildə Ermənistan SSR-in Sisyan, Əzizbəyov, Yexeqnadzor rayonlarında, 1974-cü ildə Gürcüstan SSR-in Marneuli, Bolnisi, Dmanisi, Qardabani rayonlarında, 1975-ci ildə Dağıstan MSSR-in Dərbənd və Axtı rayonlarında qastrollarda olmuş, 1979-cu ildə yenidən Ermənistanda və Gürcüstanda tamaşalar göstərmişdi [71, s. 144]. Naxçıvanlı aktyorların Bakı səhnələrində, Bakı aktyorlarının Naxçıvan səhnəsində çıxışları Naxçıvan teatrının inkişafında böyük rol oynadı. 1972-ci ildə Moskva şəhərinin bir qrup teatr xadiminin Naxçıvanda çıxışları muxtar respublikanın mədəni həyatında mühüm hadisə oldu [72, s. 133].

Bu dövr Naxçıvan Muxtar Respublikasının mədəni həyatında yeni teatrların yaradılması ilə də əlamətdardır. 1982-ci ildə şair-dramaturq Hüseyn Cavidin

anadan olmasının 100 illiyi ilə əlaqədar bir sıra tədbirlər həyata keçirilirdi. Belə tədbirlərdən biri də ümummilli lider Heydər Əliyevin tapşırığı ilə 1982-ci ildə Naxçıvan şəhərində C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının nəzdində, onun ikinci səhnəsi kimi Hüseyn Cavid Poeziya Teatrının yaradılması oldu. Açılış günündə – 6 noyabr 1982-ci ildə şairə Kəmalə Ağayevanın yubilyarın şeirləri əsasında yazdığı "Mənim tanrım gözəllikdir, sevgidir" tamaşasını göstərən teatr sonrakı vaxtlarda görkəmli dramaturqun və başqa müəlliflərin əsərlərini (Hüseyn Cavidin "Ana", "Azər", "Uçurum", M.Müşfiqin "Yenə o bağ olaydı", R.Rzanın "Bir gün də insan ömrüdür", A.Puşkinin "Qaraçılar", M.Arazın "Azərbaycan, dünyam mənim" və s.) səhnələşdirərək uğurlu tamaşalar hazırladı [97, s. 240].

12 iyun 1987-ci ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrının 100 illik yubileyi təntənəli şəkildə qeyd olundu. Bu münasibətlə teatr Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edildi. Azərbaycan teatrının inkişafında xidmətlərinə görə və yubiley münasibəti ilə teatrın bir qrup aktyoru, o cümlədən Əkbər Qardaşbəyov Azərbaycan SSR Xalq artisti, Rövşən Hüseynov, Kamran Quliyev, Tofiq Mövləvi, Tamara Məmmədova Azərbaycan SSR Əməkdar artisti, teatrşünas Cəlil Vəzirov isə Azərbaycanın Əməkdar Mədəniyyət işçisi fəxri adlarına layiq görüldü [77, s. 115].

Naxçıvanda teatr mühitinin inkişafında Azərbaycan SSR Nazirlər Sovetinin 14 sentyabr 1989-cu il tarixli qərarı ilə Naxçıvan Dövlət Kukla Teatrının yaradılmasının xüsusi əhəmiyyəti və rolu oldu. Uşaqların və yeniyetmələrin milli-mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyəsini gücləndirmək, dünyagörüşünü formalaşdırmaq və inkişaf etdirmək məqsədi ilə yaradılan bu teatr yarandığı vaxtdan bir sıra uğurlu tamaşalar hazırlamış, uşaq və yeniyetmələrin rəğbətini qazanmışdır.

XX yüzilliyin 70-80-ci illərində Naxçıvan teatrı böyük inkişaf yolu keçmişdir. Naxçıvan teatrı bu dövrdə zəhmətkeşlərin arzu və istəyini, əməli fəaliyyətini bədii həqiqətə çevirməyi, onların hissinə, şüuruna yol tapıb fəal mövqeyinə doğru istiqamətləndirməyi bacardı, tamaşaçıların mənəviyyatca dəyişməsində, onların ictimai-siyasi həyata münasibətlərinin, etik və əxlaqi görüşlərinin formalaşmasında fəal iştirak etməklə, teatrın təlqin gücünü artırmağa, onun yaradıcılıq məsələlərini və imkanlarını təkmilləşdirməyə nail oldu [79, s. 420]. Teatrın 100 illik yubiley tədbirləri də bir daha təsdiq etdi ki, Naxçıvan teatrı bütün tarixi boyu qabaqcıl ideyaların carçısı olmuş, işini abadlıq və milli dirçəliş uğrunda inqilabi mübarizə ilə əlaqələndirməyə çalışmış, ictimai geriliyi və cəhaləti qamçılamış, öz repertuarını daim zənginləşdirmək və ifaçılıq məharətini artırmaqla əsil sənət məbədinə, sənət ocağına çevrilmişdir [77, s. 115].

Musiqi. Ulu öndər Heydər Əliyevin respublika rəhbəri kimi incəsənətə göstərdiyi diqqət və qayğı milli musiqinin sürətli inkişafına səbəb oldu. Musiqi təhslinin inkişafı üçün göstərilən dövlət qayğısı nəticəsində Naxçıvan Muxtar

Respublikasında uşaqların bu sahəyə cəlb olunması və musiqi təhsili alması sahəsində çox mühüm tədbirlər həyata keçirildi. Ən başlıcası muxtar respublikada yeni musiqi məktəbləri açıldı, bu məktəblərin şəbəkəsi genişləndi. Muxtar respublikanın 15 kəndində rayon musiqi məktəblərinin filialları fəaliyyətə başladı. Aparılan bu uğurlu siyasətin nəticəsi olaraq musiqi məktəblərində oxuyanların sayı 1970-ci ildəki 757 nəfərdən 1980-ci ildə 1540 nəfərə çatdı. Bu isə öz növbəsində muxtar respublikada musiqi təhsilinin, bədii özfəaliyyətin, professional musiqi sənətinin inkişafına müsbət təsir göstərdi [72, s. 125]. Daha çox uşağın musiqi təhsili alması üçün həmin məktəblərə qəbul planı artırıldı. 1984-cü ildə muxtar respublikada uşaq incəsənət məktəbi, 14 musiqi məktəbi və ya onun filialı, 141 ümumtəhsil məktəbində beş min nəfərə yaxın şagirdi birləşdirən bədii özfəaliyyət kollektivləri, 6 pioner və məktəblilər evi gənclərin bədii-estetik tərbiyəsi ilə məşğul olurdu [156, v. 30].

Musiqi mədəniyyətini inkişaf etdirmək, gənc musiqiçi kadrlar hazırlamaq üçün 1975-ci ildə Naxçıvan şəhərində orta-ixtisas musiqi məktəbi yaradıldı. Bununla da muxtar respublikada musiqi mədəniyyətinin inkişafında mühüm mərhələnin əsası qoyuldu. Məktəbin nəzdində bir neçə musiqi kollektivi yaradıldı. Bu kollektivlərdən "Nəqşi-Cahan" vokal-instrumental ansamblını xüsusilə qeyd etmək lazımdır. Ansamblın repertuarında Azərbaycan xalq mahnıları, Azərbaycanın görkəmli bəstəkarlarının əsərləri ilə yanaşı, Naxçıvanda yetişmiş bəstəkarlardan Ramiz Mirişlinin, Nəriman Məmmədovun, Məmməd Məmmədovun, Nazim Quliyevin, Məmməd Ələkbərovun əsərləri də ifa olunurdu. Bu musiqi kollektivi Naxçıvan bəstəkarlarının əsərlərinin bir növ təbliğatçısı idi [83, s. 265]. 1992-ci ildə texnikuma çevrilən məktəbdə xalq çalğı alətləri (tar, kamança, kanon, saz, qarmon, nağara), orkestr alətlərindən skripka, fleyta, klarnet, qaboy, həmçinin xanəndəlik, xor dirijoru, musiqi nəzəriyyəsi ixtisasları üzrə kadrlar hazırlanmağa başlandı [98, s. 159].

Naxçıvan Muxtar Respublikasında yüksək ixtisaslı kadrlara olan tələbatı ödəmək üçün dövlət səviyyəsində bir sıra başqa tədbirlər də həyata keçirilmiş, 70-ci illərin sonundan Azərbaycan Dövlət Konservatoriyasına sənəd vermiş naxçıvanlı abituriyentlərin müsabiqədən kənar tələbələr sırasına qəbul edilməsinə başlanmışdı [99, s.190]. 1987-ci ildə uşaq musiqi məktəblərini 516 nəfər, Ü.Hacıbəyov adına Naxçıvan Orta İxtisas Musiqi Məktəbini isə 40 nəfər bitirmiş, 1988-ci ildə müvafiq olaraq 636 və 41 nəfər şagird qəbulu aparılmışdı. Uşaq musiqi məktəblərini bitirənlərin 65 nəfəri, Ü.Hacıbəyov adına Naxçıvan Orta İxtisas Musiqi Məktəbini bitirənlərin isə 8 nəfəri ali məktəblərə qəbul olunmuşdu [179, v. 26].

80-cı illərin ikinci yarısında Naxçıvan Dövlət Pedaqoji İnstitutunda musiqi ixtisaslarının açılması, 1988-ci ildə "Musiqi və təsviri incəsənət" kafedrasının yaradılması da muxtar respublikanın musiqi həyatında, xüsusilə musiqiçi kadrların hazırlanmasında mühüm rol oynadı [82, s. 62].


Əsası 1959-cu ildə qoyulmuş "Araz" Mahnı və Rəqs Ansamblı 70-80-ci illərdə Naxçıvanda musiqi mədəniyyətinin inkişafı sahəsində mühüm rol oynadı. Həmin dövrdə ansambl Azərbaycanın əksər şəhər və rayonları kimi, keçmiş SSRİ-nin bütün müttəfiq respublikalarında qastrol səfərlərində olmuş, Azərbaycan bəstəkarlarının əsərlərini, muğam, xalq mahnıları və rəqslərini təbliğ və tərənnüm etmişdi. Ansamblın kollektivi təkcə 1971-ci ildə 4 müttəfiq respublikada (Ukrayna SSR, RSFSR, Gürcüstan SSR, Ermənistan SSR) qastrol səfərlərində olmuşdur. 1976 və 1978-ci illərdə onlar təkrarən Gürcüstana və Ermənistana qastrola getmiş, müxtəlif yönlü konsertlər vermişlər.

1983-cü ildə Naxçıvan Dövlət "Araz" Mahnı və Rəqs Ansamblının bazası əsasında Naxçıvan Dövlət Filarmoniyasının yaradılması muxtar respublikanın musiqi həyatında mühüm hadisə oldu. Filarmoniyanın bədii rəhbəri N.Quliyev, xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və baş direktoru H.Qurbanov, kamera orkestrinin baş direktoru isə İ.Abdulin təyin olundu. Xalq çalğı alətləri ansamblı, rəqs kollektivi, instrumental ansambl və simfonik heyətin fəaliyyət göstərdiyi Filarmoniyanın yaradıcı heyəti nəinki muxtar respublikanın şəhər və kəndlərində, eyni zamanda Azərbaycanın bir sıra rayonlarında qastrol səfərləri zamanı rəngarəng konsert proqramları ilə çıxış etmişlər [72, s. 133; 98, s. 76].

Naxçıvan Muxtar Respublikasında musiqi mədəniyyətinin inkişafında Azərbaycan Bəstəkarlar İttifaqının 1978-ci ildə muxtar respublika təşkilatının yaradılması əhəmiyyətli rol oynadı. Təşkilatın sədrliyinə görkəmli bəstəkar Ramiz Mirişli, məsul katibliyinə isə Məmməd Ələkbərov təyin olundu. Təşkilat Naxçıvan Muxtar Respublikasında xalq mahnı və rəqslərinin toplanması, nota salınması, aşıq yaradıcılığının tədqiqi, musiqi janrlarının inkişaf etdirilməsi və başqa yaradıcılıq məsələləri sahəsində işləri həyata keçirmişdir [50, s. 132]. Qarşısında qoyulan vəzifələri uğurla yerinə yetirən təşkilatın üzvlərinin, o cümlədən bəstəkarlardan Məmməd Məmmədovun, Vahid Axundovun, Nazim Quliyevin, Məmməd Cavadovun və başqalarının fəaliyyəti sistemli xarakter aldı. Həmin bəstəkarların müxtəlif musiqi janrlarında bəstələdiyi əsərlər yüksək professionallıq səviyyəsi ilə diqqəti cəlb edirdi [72, s. 126]. Bir sıra lirik mahnıların, skripka ilə fortepiano üçün pyeslərin, marş, süita, rəqs və digər əsərlərin müəllifi olan, bir sıra yallıları və xalq mahnılarını nota salan, "Naxçıvan tərənələri" not məcmuəsinin tərtibçisi M.Ələkbərov bir müddət bu təşkilata rəhbərlik etmişdir.

Naxçıvan Muxtar Respublikasında musiqi mədəniyyətinin inkişafında bəstəkar Rəşid Məmmədovun da böyük xidmətləri olmuşdur. Bir sıra süitaların, mahnıların, xor əsərlərinin müəllifi olan, Naxçıvan Dövlət Musiqili Dram Teatrının hazırladığı bir çox tamaşalara musiqi bəstələyən R.Məmmədovun bölgədə gənc musiqiçi kadrların yetişdirilməsində də böyük rolu olmuşdur.

Gənc bəstəkarlardan S.Məmmədovanın, Ə.Məmmədovun, E.Muradovun, A.Abbasovun, H.Məmmədovun yaradıcılıqlarının çiçəklənməsi də məhz bu dövrə



Naxçıvan MSSR-in 50 illik yubileyinə həsr olunmuş bayram nümayişində Şərur Yallı Ansamblının çıxışı 1974-cü il

təsadüf edir. Bu dövrdə gənc, istedadlı, ümidverici bəstəkarlardan Yaşar Xəlilovun, Kamal Əhmədovun, Yusif Məmmədovun Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsində təhsil almaları artıq Naxçıvan professional bəstəkarlıq sənətinin inkişafından danışmağa əsas verir [82, s. 125]. Bu inkişafda Naxçıvanda ilk drijor qadın, xor sənətinin inkişafında xüsusi xidmətləri olan Səidə Məmmədovanın, bir sıra mahnıların, romansların, kantataların, konsertlərin müəllifi olan N.Quliyevin, lirik mahnıları, ürək oxşayan musiqiləri ilə diqqəti cəlb edən Yaşar Xəlilovun, Kamal Əhmədovun, Şəmsəddin Qasımovun və başqa bəstəkarların böyük əməyi olmuşdur [82, s. 132-133].

Bəhs olunan dövrdə Naxçıvan musiqi və rəqs kollektivlərinin SSRİ-nin paytaxtı Moskvaya, müttəfiq respublikalara, həmçinin xarici ölkələrə təşkil olunan qastrol səfərləri, həmin səfərlər zamanı diplomlara, fəxri fərmanlara və digər mükafatlara layiq görülmələri diqqəti cəlb edir. Şərur rayon mədəniyyət evinin nəzdində təşkil olunmuş "Yallı" ansamblı 1972-ci ildə keçmiş Almaniya Demokratik Respublikasında keçirilmiş VIII Ümumdünya folklor rəqsləri festivalında ölkəni uğurla təmsil etmiş və festivalın laureatı diplomuna layiq görülmüşdür. Ansambl SSRİ-nin mərkəzi televiziyası ilə də çıxış etmişdi [71, s. 138]. Bundan sonra kollektivə Xalq Yallı Ansamblı statusu verilir.

"Yallı" ansamblı həmçinin I Ümumittifaq xalq yaradıcılığı festivalının, 1984-cü ildə Polşanın Zelyonaya Qora şəhərində keçirilən XI Beynəlxalq folklor festivalının da laureatı olmuşdur. Kollektivin həmin çıxışı SSRİ-nin Mərkəzi televiziyası ilə nümayiş etdirilmişdi. Həmçinin Ümumittifaq televiziyası "Şərur yallısı" adlı sənədli film çəkmişdi. Bundan əlavə ansamblın kollektivi 1980-ci ildə Macarıstanda keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə, 1987-ci ildə Türkiyə Respublikasının İsgəndərun şəhərində keçirilən folklor bayramında yüksək səviyyədə çıxış etmişdir [98, s. 311]. Muxtar respublikanın Ordubad və Şahbuz rayonlarının bir çox bədii özfəaliyyət kollektivləri müxtəlif müsabiqə və festivallarda yüksək ifaçılıq mədəniyyəti nümayiş etdirmişdilər.

Həmçinin bu dövrdə bir sıra musiqi kollektivləri Naxçıvan Muxtar Respublikasına səfərlər etmiş, maraqlı konsert proqramları göstərmişlər. Bu sırada 1972-ci ilin oktyabrında Rusiyanın "Voronejskiye devçata" Estrada ansambılının [115, v. 26] və 1974-cü ilin aprelində N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun "Çinar" ansamblının [123, v. 10] konsertlərini qeyd etmək olar. Hər iki kollektiv

uğurlu çıxışlarına görə Naxçıvan MSSR Ali Sovetinin fəxri fərmanı ilə təltif olunmuşdu.

XX yüzilliyin 70-80-ci illərində aşıq sənəti də inkişaf etməkdə idi. Həmin illərdə aşıq yaradıcılığının tanınmış nümayəndələrindən biri Aşıq Nabat olmuşdur. Əslən Şərur bölgəsindən olan Aşıq Nabat yaşayış yerini dəyişdikdən sonra Bərdə, Yevlax və Gəncə şəhərlərində Aşıq Əsəd, Borsunlu Məzahir, Pərvanə Həsən, Aşıq Teymur kimi ustad sənətkarlarla görüşmüş, sənətdə get-gedə püxtələşmiş ad-san qazanmışdır. O, üç il Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Musanın şagirdi olmuş, Azərbaycanın görkəmli xanəndələrindən Xan Şuşinski, Seyid Şuşinski və Zülfü Adıgözəlovla, tarzən Qurban Pirimovla bir yerdə xanəndəlik etmişdir. Aşıq Nabat gözəl və məlahətli səsi, ifaçılıq qabiliyyəti ilə qadın həmkarları arasında seçilmişdir. Klassik və müasir aşıqların 300-dən çox şeirini, bir neçə xalq dastanını əzbər bilən və ifa edən Aşıq Nabat özü də yaradıcılıqla məşğul olmuş, qoşma və gəraylılar ("Yaxşıdı", "Sinəmdə", "Gözəllər", "Bahara", "Var" və s.) yazmışdır. O, 1938-ci ildə Azərbaycan aşıqlarının II qurultayında, Bakıda və Moskvada keçirilən ədəbiyyat və incəsənət ongünlüklərində, festivallarda iştirak etmiş və qalib olmuşdur [97, s. 37-38].



Ümummilli lider Heydər Əliyevin naxçıvanlı aşıqlarla görüşü

70-80-ci illər Naxçıvan aşıq ədəbi mühitinin nümayəndələrindən olan Aşıq Hidayət, Sərraf Qasım da yaxşı səsi və özünəməxsusu ifaçılıq tərzi ilə seçilirdilər.

Təsviri sənət. Keçən yüzilliyin 70-80-ci illəri muxtar respublikada rəsm sənətinin, rəssamlığın inkişafı ilə də əlamətdar olmuşdur. Naxçıvanda istedadlı rəssam kadrların artmasına görə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikada 1970-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan filialı yaradıldı. Yarandığı zaman çox da üzvü olmayan filial ilk sədri M.Qasımovun rəhbərliyi ilə təşkilatın bir sıra üzvləri, o cümlədən Y.Məmmədov, Ə.Fətəliyev, A.Qazıyev, M.Seyidov, H.Əliyev, E.Cəfərov və başqalarının yaratdıqları rəsm əsərləri ilə Azərbaycan rəsm sənətinin inkişafına böyük töhfələr verdilər. Azərbaycan Rəssamlar İttifaqının üzvü olan naxçıvanlı rəssamları birləşdirən təşkilat Naxçıvan Muxtar Respublikasında rəssamlığın inkişafında mühüm rol oynadığı kimi, bölgənin ictimai-siyasi həyatında da fəal iştirak edirdi.

1982-ci ildə muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində Naxçıvan Dövlət Rəsm Qalereyası açıldı. Azərbaycanın görkəmli rəssamların əsərlərinin mühafizə və təbliğ olunduğu, nümayiş etdirildiyi qalereya bölgə rəssamlarının yaradıcılıq imkanlarının inkişafı üçün daha əlverişli şərait yaratdı.

Bu dövrdə yaşlı nəsillə bərabər incəsənətə, o cümlədən rəsm sənətinə novatorluq gətirmiş, yorulmadan orijinal axtarışlarda olan bir çox orta yaşlı və gənc nəsil rəssamlar dəstəsi Naxçıvanda rəsm sənətinin, boyakarlığın inkişafında mühüm rol oynayır, səmərəli yaradıcılıq nailiyyətləri ilə diqqəti cəlb edirlər. Həmin dövrdə keçmiş İttifaqın bir sıra mədəniyyət mərkəzlərində, o cümlədən Moskva, Sankt-Peterburq, Tbilisi, Bakı və digər şəhərlərdə rəssamlıq təhsili alaraq Naxçıvana gələn gənclər (Abuzər Qardaşbəyov, Nəriman Əliyev, Məmmədəli İsmayılov, Yuran Məmmədov, Hüseynqulu Əliyev) Naxçıvan Muxtar Respublikasında rəssamlığın inkişafında mühüm rol oynadılar.

Böyük yaradıcılıq nailiyyətləri qazanan rəssamların Naxçıvan şəhərində və digər yerlərdə yaradıcılıq sərgiləri keçirilirdi. Şamil Qazıyevin 1978-ci ildə Naxçıvanda keçirilən yaradıcılıq sərgisi böyük uğur qazanmışdı. Rəssamın 1976-cı ildə çəkdiyi "Avtoportret", "Çarıqçı", "Sərhədçi", 1977-ci ildə yaratdığı "Qaçqınlar", "Adaxlı" və s. əsərləri yüksək səviyyəli yaradıcılıq nümunələri kimi diqqəti cəlb edirdi. 1982-ci ildə Naxçıvan şəhərində şair-dramaturq Hüseyn Cavidin yaradıcılığına həsr olunmuş sərgidə naxçıvanlı rəssamların bir çoxunun əsərləri nümayiş etdirilmişdi. Ümummilli lider Heydər Əliyev bu sərgiyə baxmışdı. 1985-ci ildə SSRİ-nin paytaxtı Moskva şəhərində naxçıvanlı rəssamların əsərlərindən ibarət sərgi təşkil olunmuşdu.

Bu dövrdə öz yaradıcılığı ilə seçilən rəssamlardan biri də Məmməd Qasımov idi. 70-80-ci illərdə öz yaradıcılığının inkişaf dövrünü yaşayan M.Qasımov istər klassik və müasir Azərbaycan dramaturgiyasının, istərsə də müxtəlif dövrləri əhatə edən xarici dramaturgiyanın nəbzini çox gözəl duyan, üzərində çalışdığı hər bir əsərin ideyasını və ana xəttini düzgün qavrayan, pyesin bəhs etdiyi dövrü dərindən öyrənən və ən əsası səhnədən öz sözünü deyə bilən, bununla da müəllif fikrinin, rejissor yozumunun tamaşaçıya çatdırılmasına vasitəçilik edən bir rəssam olmaqla Azərbaycanın üç ən görkəmli teatr rəssamlarından biri kimi tanınmışdır. Naxçıvan Teatrının 100 illik yubileyində çıxış edən professor Kərim Kərimov demişdir: "...Mən tez-tez işlətdiyim ifadəni bu gün bir daha təkrarlamaq istəyirəm ki, Azərbaycanda səhnədən söz deyə bilən, adı böyük hərflərlə yazılası üç teatr rəssamı tanıyıram. Onlardan ikisi Bakıda – Nüsrət Fətullayev və Elçin Aslanov, üçüncüsü Naxçıvanda Məmməd Qasımovdur".

M.Qasımovun Azərbaycan Rəssamlar İttifaqı Naxçıvan Təşkilatının ilk sədri kimi, bu təşkilatın qurulmasında və formalaşmasında, Naxçıvanda Azərbaycanın və muxtar respublikada yaşayan tanınmış rəssamların fərdi sərgilərinin təşkilində, gənc istedadların istiqamətləndirilməsi və həvəsləndirilməsində böyük xidmətləri olmuşdur.

Teatr rəssamı kimi tanınan M.Qasımov portret, mənzərə, qrafika və plakat janrında da dəyərli əsərlər yaratmış, bir sıra karikaturaları dəfələrlə "Kirpi" jurnalında və müxtəlif qəzet səhifələrində dərc olunmuşdur. O müntəzəm olaraq

əlamətdar və bayram günlərində Naxçıvan şəhərinin küçə və meydanlarının bədii tərtibatında özünün müxtəlif plakat və portretləri ilə yaxından iştirak etmişdir [2, s. 198]. M.Qasımov 1967-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Naxçıvan Muxtar Respublikasında təsviri sənətin inkişafında xidmətləri olan rəssamlardan biri də Hüseynqulu Əliyevdir. Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin və Azərbaycan Dövlət İncəsənət İnstitutunun məzunu olan, müstəqillik dövründə Azərbaycan Respublikasının Xalq Rəssamı fəxri adına layiq görülən H.Əliyev rəngkarlıq, qrafika, karikatura və digər janrlarda əsərlər yaratmışdır. Koroğlunun və Bəhruz Kəngərlinin Naxçıvan şəhərində ucaldılan heykəllərinin müəllifidir. Naxçıvan teatrı ilə sıx yaradıcılıq əlaqələri saxlayan rəssam 1988-ci ildə teatrın baş rəssamı təyin olunmuşdur [79, s. 675; 97, s. 178].

XX yüzilliyin 70-80-ci illəri Naxçıvan Muxtar Respublikasında heykəltəraşlığın inkişafı ilə də diqqəti cəlb edir. Bu dövrün heykəltəraşlığında bir sıra yeniliklər özünü göstərir. Naxçıvanlı heykəltəraşlar müxtəlif materiallardan düzəldilmiş kiçik janrlı plastika sahəsində böyük uğurlar qazanmışlar. Bu dövrdə incəsənətin müxtəlif sahələrində olan yeni meyillər heykəltəraşlıqda da özünü açıq-aşkar göstərir. Bu meyllər ən başlıcası realizm metodlarından uzaqlaşaraq, daha çox keçmiş irsimizə, ululərımızın sənət abidələrinə müraciət etməkdən ibarət olmuşdur.

70-80-ci illər heykəltəraşlığı sahəsində xarakterik xüsusiyyətlərdən biri də ondan ibarətdir ki, həmin vaxt Azərbaycanın görkəmli heykəltəraşları Bakıda olduğu kimi, respublikanın digər şəhər və rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında da gözəl heykəllər yaratmışdılar. Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərində 1974-cü ildə ucaldılan heykəli (müəllifi görkəmli memar, Azərbaycanın xalq rəssamı, əməkdar incəsənət xadimi Mirələsgər Mirqasımovdur), 1977-ci ildə Ordubad şəhərində qoyulan Yusif Məmmədəliyevin büstü (müəllifi Cəlal Qaryağdı) məhz həmin dövrün uğurlu nümunələrindəndir.

80-ci illərdə Naxçıvan şəhərində ucaldılan ən möhtəşəm monumental sənət nümunələrindən biri ümummilli lider Heydər Əliyevin büstüdür. Sovet hakimiyyəti illərində mövcud olan qaydaya görə iki dəfə Sosialist Əməyi Qəhrəmanı adı alan şəxsiyyətlərin doğulduğu yerdə büstləri qoyulduğundan 1979 və 1983-cü illərdə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülən Heydər Əliyevin 1983-cü ildə anadan ol-



Ümummilli lider Heydər Əliyevin Əcəmi Seyrəngahında qoyulan büstü. 1983-cü il

duğu Naxçıvan şəhərindəki "Əcəmi seyrangahı"nın mərkəzində, Mömünə Xatın türbəsinin yaxınlığında möhtəşəm büstü qoyulmuşdur. Qırmızı rəngə çalan pillə-vari iki altı bucaqlı qranit pyedestal və 2,67 metr hündürlükdə olan eyni materialdan altı üzlü prizma formalı qranit kürsülük üzərində tuncdan hazırlanmış büstün müəllifi Azərbaycan Respublikasının Xalq rəssamı, heykəltəraş, akademik Ömər Eldarovdur. Büst kompozisiya quruluşu və heykəltəraşlıq baxımından XX əsr Azərbaycan heykəltəraşlıq sənətinin ən möhtəşəm və mükəmməl sənət əsər-lərindən biridir [95, s. 156].



Naxçıvan şəhərində Koroğlu və Babəkin heykəlləri. 1988-ci il

1988-ci ildə Naxçıvan şəhərinin cənub-şərqində yerləşən, Koroğlu mey-danında qoyulan Koroğlunun heykəli Naxçıvan şəhər dəmiryol vağzalının qarşısında, Babək meydanında 1988-ci ildə ucaldılan Babəkin heykəli, Naxçıvan şəhərində, Heydər Əliyev sarayının şimal tərəfində yerləşən Əcəmi meydanında görkəmli Azərbaycan memarı Əcəmi Əbubəkr oğlu Nax-çıvaninin 1989-cu ildə qırmızımtıl rəngli qranitdən hazırlanan və eyni materialdan hazırlanmış pyedestal üzərində qoyulan torsu 80-ci illər heykəltəraşlığının ən gözəl monumental sənət abidələrindəndir [95, s. 96].



Bəhruz Kəngərlinin məzarı üstündə ucaldılan tunc heykəli. 1989-cu il

Naxçıvan şəhərində 80-ci illər heykəltəraşlığının ən gözəl nümunələrindən biri də Azərbaycanın ilk peşəkar rəssamı, Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərlinin məzarı üstündə 1989-cu ildə ucaldılan monu-mental sənət abidəsidir.

80 sm hündürlükdə kürsülük üzərində canlı insan uca-lığında yüksək markalı betondan hazırlanan və tunc tozu qa-tışığından hazırlanmış boya ilə rənglənərək tunc görkəmi verilmiş heykəlin müəllifi Azərbaycan Respublikasının Xalq rəssamı H.Əliyevdir.

Memarlıq. XX yüzilliyin 70-80-ci illəri Naxçıvan Muxtar Respublikasında memarlığın inkişafı ilə də əlamətdardır. Həmin illərdə muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində və rayon mərkəzlərində yaşayış binalarının kütləvi şəkildə inşası ilə bərabər orijinal layihələr üzrə iri həcmli binalar da tikilməyə başlandı. Bu zaman milli memarlıq ənənələrindən yararlanan memarların layihələri əsasında çoxlu binalar inşa olundu. Respublika rəhbəri kimi 1980, 1982-ci illərdə Naxçıvan Muxtar Respublikasında olarkən Heydər Əliyev milli memarlıq nümunələri,

xüsusilə Mömінə Xatın türbəsinə baxmış, Əcəmi sənətinin incilərini bundan sonra da yaşatmaq, bu üslubda binaların tikintisinə, abidənin ornamentlərindən geniş istifadə edilməsinə diqqət yetirilməsi barədə tövsiyə və tapşırıqlarını vermişdir. Əcəmi Naxçıvani yaradıcılığına böyük əhəmiyyət verən, diqqət və qayğı ilə yanaşan ulu öndərin təşəbbüsü ilə Əcəmi Naxçıvaninin 850 illik yubileyinin keçirilməsi məsələsi 12 mart 1976-cı ildə Azərbaycan KP MK-nin bürosunda müzakirə edilmiş, bu məqsədlə Təşkilat Komitəsi yaradılmışdı. Beləliklə, Naxçıvan şəhərində Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin 850 illiyinə həsr olunmuş elmi sessiya keçirilmişdi [71, s. 133-134].



Ümummilli lider Heydər Əliyev Mömінə Xatın türbəsində 1982-ci il

Azərbaycanın bütün bölgələri kimi, Naxçıvan Muxtar Respublikasına da daim diqqət və qayğı göstərən ümummilli lider Heydər Əliyev Naxçıvanda möhtəşəm sarayların, binaların tikintisinə böyük önəm verirdi. Məhz bu diqqət və qayğının nəticəsi olaraq onun təşəbbüsü ilə 1980-cı ildə Naxçıvan şəhərində möhtəşəm Mədəniyyət sarayının inşasına başlanmış, 1984-cü ildə tikinti işləri başa çatdırılmışdı. Bu möhtəşəm memarlıq nümunəsinin uzunluğu 110 metr, eni 45 metrdir. Sarayın səhnəsinin eni 16 metr, dərinliyi 25 metr, hündürlüyü 12 metr, texniki avadanlıqların işlədiyi sahədə isə 36 metrdir. Səhnənin fırlanan döşəməyə malik olması bir çox tədbirlərin rəngarəng keçirilməsinə şərait yaradır. Binanın iki zalı vardır. İki hissədən ibarət olan böyük zalın alt hissəsi 675, lojası isə 365 yerlikdir. Kiçik zal isə 340 nəfərlikdir. Sarayda qonaq otağı da daxil olmaqla 50-yə qədər məşq otağı vardır. Müstəqillik dövründə yenidən qurulan və ümummilli lider Heydər Əliyevin adını daşıyan sarayda müxtəlif təyinatlı ən yüksək səviyyəli dövlət tədbirləri, konsertlər, müsabiqələr və s. keçirilir [97, s. 226].

Naxçıvan şəhərində 70-80-ci illərdə inşa edilən möhtəşəm memarlıq nümunələrindən biri də 1976-cı ildə Şərq və Qərb memarlıq elementlərinin sintezində tikilmiş, 10 may 1999-cu ildən Heydər Əliyev Muzeyi kimi fəaliyyət göstərən memorial kompleksdir. Müəllifləri H.Ələsgərov, Ə.Hüseynov və Ə.Əbdürrəhimov olan, 2005-2006-cı illərdə əsaslı surətdə təmir olunan və yenidən qurulan bu möhtəşəm xatirə ansamblı Dövlət Mükafatına layiq görülmüşdür. Ümumi sahəsi 968 kvadratmetr olan binanın fasadı Naxçıvan memarlıq məktəbi elementləri ilə zənginləşdirilmiş, əlavə sütunlar ucaldılmışdır ki, bu da binaya xüsusi əzəmət verir [95, s. 165-166].

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYATLAR

1. *Axundova E.* Heydər Əliyev: şəxsiyyət və zaman. 1969-1982. II hissə. Bakı: Ozan, 2007, 784 s.
2. *Alıyev N.* Naxçıvan rəssamlarının portret yaradıcılığı. AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Cild 9, № 1. Naxçıvan: Tusi, 2013, s. 194-203.
3. *Andriyanov V., Mirələmov H.* Heydər Əliyev. Bakı: Nurlan, 2008, 562 s.
4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 56, iş 4.
5. ARPİİ SSA, f. 1, siy. 56, iş 5.
6. ARPİİ SSA, f. 1, siy. 56, iş 35.
7. ARPİİ SSA, f. 1, siy. 56, iş 49.
8. ARPİİ SSA, f. 1, siy. 59, iş 54.
9. ARPİİ SSA, f. 1, siy. 59, iş 88.
10. ARPİİ SSA, f. 1, siy. 59, iş 304.
11. ARPİİ SSA, f. 1, siy. 59, iş 305.
12. ARPİİ SSA, f. 1, siy. 60, iş 59.
13. ARPİİ SSA, f. 1, siy. 61, iş 12.
14. ARPİİ SSA, f. 1, siy. 61, iş 17.
15. ARPİİ SSA, f. 1, siy. 62, iş 1.
16. ARPİİ SSA, f. 1, siy. 62, iş 8.
17. ARPİİ SSA, f. 1, siy. 62, iş 96.
18. ARPİİ SSA, f. 1, siy. 63, iş 15.
19. ARPİİ SSA, f. 1, siy. 64, iş 37.
20. ARPİİ SSA, f. 1, siy. 65, iş 1.
21. ARPİİ SSA, f. 1, siy. 65, iş 103.
22. ARPİİSSA, f. 1, siy. 66, iş 4.
23. ARPİİ SSA, f. 1, siy. 66, iş 8.
24. ARPİİ SSA, f. 1, siy. 66, iş 124.
25. ARPİİ SSA, f. 1, siy. 67, iş 10.
26. ARPİİ SSA, f. 1, siy. 67, iş 67.
27. ARPİİ SSA, f. 1, siy. 67, iş 118.
28. ARPİİ SSA, f. 1, siy. 68, iş 84.
29. ARPİİ SSA, f. 1, siy. 70, iş 5.
30. ARPİİ SSA, f. 1, siy. 70, iş 11.
31. ARPİİ SSA, f. 1, siy. 70, iş 31.
32. ARPİİ SSA, f. 1, siy. 70, iş 203.
33. Azərbaycan Sovet Ensiklopediyası. I c. Bakı: ASE Baş redaksiyası, 1976, 592 s.
34. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, 608 s.
35. Azərbaycan tarixində Naxçıvan. Bakı: APİ, 1996, 142 s.

36. *Babayev R.* Axrıncı axşam (hekayələr). Bakı, Yazıçı, 1986, 120 s.
37. *Cabbarlı Ə.* Heydər Əliyev və Naxçıvan tarixi məsələləri. Naxçıvan: Əcəmi NPB, 2015, 232 s.
38. Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: Elm və təhsil, 2011, 344 s.
39. Dünyanın bəzəyi (antologiya). Naxçıvan: Əcəmi NPB, 2009, 204 s.
40. *Əfəndi R.* Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007, 160 s.
41. *Əhmədov N.* Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı: Elm, 2005, 308 s.
42. *Əhmədov N.* Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, 452 s.
43. *Əhmədov N.* Naxçıvan Muxtar Respublikasında ipəkçiliyin inkişafı // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin "Xəbərlər"i, № 1. Naxçıvan: Tusi, 2015, s. 244-248.
44. *Əhmədov N.* Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 85 ildə // Naxçıvan jurnalı, № 19. Naxçıvan: "Əcəmi" NPB, 2009, s. 154-169.
45. *Əliyev H.Ə.* Azərbaycan SSR. Bakı: Azərnəşr, 1983, 189 s.
46. *Əliyev H.Ə.* Sovet Azərbaycanı. Bakı: Azərnəşr, 1983, 184 s.
47. *Əliyev M.M.* Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idman hərəkatı. Naxçıvan: Əcəmi NPB, 1999, 56 s.
48. Əsrlərə bərabər illər. 1969-1999. Faktlar və rəqəmlər. Bakı, 1999, 57 s.
49. *Fəridə Ləman.* Azadlıq carçısı. Bakı: Adiloğlu, 2003, 144 s.
50. *Hacıyev İ., İsmayılov B.* Naxçıvan Muxtar Respublikası-90 (Quruculuq salnaməsi). Naxçıvan: Əcəmi NPB, 2014, 184 s.
51. *Hacıyev İ.M.* Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi. Bakı: Nurlan, 2005, 164 s.
52. *Hacıyev İ.M.* Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə. Naxçıvan: Əcəmi NPB, 2013, 296 s.
53. *Hacıyev İ.M.* Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı: Elm, 2003, 164 s.
54. *Hacıyev İ.M.* Heydər Əliyevin həyat və fəaliyyətinin Naxçıvan dövrləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası. Naxçıvan: 2006, № 4, s. 5-13.
55. *Hacıyev İ.M.* Naxçıvan Muxtar Respublikası Azərbaycanın milli dövlətçilik tarixində. Tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiya. Bakı: 1999, 335 s.
56. Heydər Əliyev: Böyük azərbaycanlı. Bakı: Azərnəşr, 2013, 816 s.
57. Heydər Əliyev və inkişafın Azərbaycan modeli. Bakı: Azərnəşr, 2010, 815 s.
58. Heydər Əliyev və mədəniyyət. 3 cilddə (I cild). Bakı: Nurlar, 2008, 504 s.
59. Heydər Əliyev və Milli Təhlükəsizlik orqanları. Bakı: İndigo, 2009, 191 s.
60. Heydər Əliyev yolu: Azərbaycan inkişafın yeni mərhələsində. Bakı: Azərbaycan, 2007, 862 s.

61. *Həbibov İ.* Ədəbi yüksəliş, Bakı: Bilik, 1985, 63 s.
62. *Həbibbəyli İ.* Naxçıvan Dövlət Universiteti. Naxçıvan: NDU, Qeyrət, 2007, 76 s.
63. *Hüseyn Razi.* Sahil həsrəti. Bakı, Yazıçı, 1985, 295 s.
64. *Hüseynova İ.* Dövlətçilik naminə. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001, 285 s.
65. *Hüseynova İ.* Müstəqilliyimizin təminatçısı. (Məqalələr, çıxışlar, müsahibələr, rəylər). Bakı: Təhsil, 2003, 504 s.
66. *Xələfov A.* Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnəşr, 2006, 312 s.
67. *Qaffarov T.B.* Azərbaycan tarixi (1920-1991). Bakı: Mütərcim, 1999, 279 s.
68. *Qasımlı M.* Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 608 s.
69. *Qasımov Ə.* Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı (XX əsrin 70-80-ci illəri) // Naxçıvan Dövlət Universiteti. "Elmi əsərlər". Tarix və ictimai elmlər seriyası. № 1 (29). Naxçıvan: NDU, Qeyrət, 2010, s. 117-125.
70. *Qasımov Ə.* Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf strategiyası (1969-2003-cü illər) // AMEA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. Bakı: 2009, № 12, s. 141-150.
71. *Qasımov Ə.* Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər). Bakı: Turxan NPB, 2013, 264 s.
72. *Qasımov Ə.* Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80-ci illəri). Bakı: Təhsil, 2009, 320 s.
73. *Qasımov Ə.* İnkişaf etmiş sosializm şəraitində Naxçıvan MSSR zəhmətkeşlərinin mədəni səviyyəsinin yüksəlməsi (1971-1980-ci illər) // Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1985, № 2, s. 18-24.
74. *Qasımov Ə.* Naxçıvan Muxtar Respublikasının sosial və mədəni inkişafı (70-80-ci illər) // NDU. Elmi Əsərlər. Humanitar seriyası. Naxçıvan: 1999, № 5, s. 33-36.
75. *Qasımov Ə.* Yetkin sosializm dövründə Naxçıvan MSSR zəhmətkeşlərinin maddi rifah halının daha da yaxşılaşması (1971-1980-ci illər) // Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1984, № 2, s. 18-24.
76. *Qasımzadə M.* Nuhçıxandan gəlirəm. Naxçıvan, Əcəmi NPB, 2013, 248 s.
77. *Qəhrəmanov Ə.* Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı. Bakı: Min Bir Mahnı, 2004, 416 s.
78. *Qəhrəmanov Ə.* Görkəmli teatr rəssamı. Axtarışlar. IV cild. Naxçıvan: 2014, s. 130-137.
79. *Qəhrəmanov Ə., İbrahimov S., Cəfərov F.* Naxçıvan teatrının salnaməsi (1883-2008). Naxçıvan: Əcəmi, 2008, 736 s.
80. *Qəhrəmanov Ə.* Naxçıvan teatrı intibah yollarında (1883-1920). Bakı: MBM MMC, 2008, 160 s.

81. *Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A.* Sovet Naxçıvanı. Bakı: Azərnəşr, 1984, 136 s.
82. *Quliyev N.* Naxçıvan musiqi mədəniyyəti tarixindən (XX əsr). Bakı: Elm, 1999, 140 s.
83. *Quliyeva Y.* Naxçıvanda musiqi kollektivinin yaradılması tarixindən. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, №3. Naxçıvan: 2009, s. 262-267.
84. *Qurbani A.* Mənim hərbi litseyim. Bakı: Əbilov, Zeynalov və oğulları, 2002, 352 s.
85. *Qurbani A.* Mətinlik məktəbi. Bakı: Dünya, 1996, 256 s.
86. "Kommunist" qəzeti.
87. *Maqsudov F.* Heydər Əliyev və Azərbaycan elmi. Bakı: Elm, 1998, 232 s.
88. *Məmmədov V.* Qeyrət qalası. Bakı, Yurd, 1999, 60 s.
89. *Mərdanov M.* Azərbaycan təhsil tarixi. 3 cilddə, II cild. Bakı: Təhsil, 2011, 704 s.
90. *Mərdanov M.* Azərbaycan təhsili dünən, bu gün, sabah. Bakı: Təhsil, 2006, 300 s.
91. *Mirzəyev T.M.* Naxçıvan MSSR-in əmək ehtiyatları və onlardan səmərəli istifadə məsələləri. Bakı: Elm, 1983, 102 s.
92. *Mollayev İ.* Naxçıvan MSSR-də maarifin inkişafı. Bakı: Bilik, 1983, 93 s.
93. *Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M.* Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, 104 s.
94. *Nağıyev Ə., Novruzov V., Allahverdiyev H., Əlirzayev Ə.* Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı: Azərnəşr, 1998, 388 s.
95. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan: 2008, 521 s.
96. Naxçıvan Ensiklopediyası. Bakı: 2002, 598 s.
97. Naxçıvan Ensiklopediyası. Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. 2 cilddə. Cild 1. Naxçıvan: 2005, 360 s.
98. Naxçıvan Ensiklopediyası. Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. 2 cilddə. Cild 2. Naxçıvan: 2005, 380 s.
99. Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, 223 s.
100. Naxçıvan MSSR rəqəmlərdə. Statistik məcmuə. Naxçıvan: 1988, 132 s.
101. Naxçıvan MSSR-in xalq təsərrüfatının inkişafı. Statistik məcmuə. Naxçıvan: 1981, 91 s.
102. Naxçıvan Muxtar Respublikası-90. Naxçıvan: Əcəmi NPB, 2014, 104 s.
103. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMR DA). Fond 1, siyahı 1, iş 1108.
104. NMR DA, f. 1, siy. 1, iş 1109.
105. NMR DA, f. 1, siy. 1, iş 1143.
106. NMR DA, f. 1, siy. 1, iş 1149.
107. NMR DA, f. 1, siy. 1, iş 1151.
108. NMR DA, f. 1, siy. 1, iş 1153.
109. NMR DA, f. 1, siy. 1, iş 1156.

110. NMR DA, f. 1, siy. 1, iş 1157.
111. NMR DA, f. 1, siy. 1, iş 1159.
112. NMR DA, f. 1, siy. 1, iş 1177.
113. NMR DA, f. 1, siy. 1, iş 1205.
114. NMR DA, f. 1, siy. 1, iş 1209.
115. NMR DA, f. 1, siy. 2, iş 13.
116. NMR DA, f. 1, siy. 3, iş 3.
117. NMR DA, f. 1, siy. 3, iş 9.
118. NMR DA, f. 1, siy. 3, iş 20.
119. NMR DA, f. 1, siy. 3, iş 23.
120. NMR DA, f. 1, siy. 3, iş 39.
121. NMR DA, f. 1, siy. 3, iş 40.
122. NMR DA, f. 1, siy. 3, iş 47.
123. NMR DA, f. 1, siy. 3, iş 52.
124. NMR DA, f. 1, siy. 3, iş 56.
125. NMR DA, f. 1, siy. 3, iş 65.
126. NMR DA, f. 1, siy. 3, iş 69.
127. NMR DA, f. 1, siy. 4, iş 3.
128. NMR DA, f. 1, siy. 4, iş 4.
129. NMR DA, f. 1, siy. 4, iş 5.
130. NMR DA, f. 1, siy. 4, iş 18.
131. NMR DA, f. 1, siy. 4, iş 21.
132. NMR DA, f. 1, siy. 9, iş 31.
133. NMR DA, f. 1, siy. 12, iş 1.
134. NMR DA, f. 1, siy. 12, iş 39.
135. NMR DA, f. 1, siy. 13, iş 8.
136. NMR DA, f. 1, siy. 13, iş 11.
137. NMR DA, f. 1, siy. 13, iş 18.
138. NMR DA, f. 1, siy. 13, iş 19.
139. NMR DA, f. 1, siy. 13, iş 22.
140. NMR DA, f. 1, siy. 13, iş 24.
141. NMR DA, f. 1, siy. 13, iş 25.
142. NMR DA, f. 1, siy. 13, iş 27.
143. NMR DA, f. 1, siy. 16, iş 24.
144. NMR DA, f. 1, siy. 16, iş 77.
145. NMR DA, f. 1, siy. 16, iş 79.

146. NMR DA, f. 1, siy. 18, iş 14.
147. NMR DA, f. 1, siy. 18, iş 18.
148. NMR DA, f. 1, siy. 18, iş 20.
149. NMR DA, f. 1, siy. 18, iş 22.
150. NMR DA, f. 1, siy. 18, iş 74.
151. NMR DA, f. 1, siy. 20, iş 5.
152. NMR DA, f. 1, siy. 20, iş 17.
153. NMR DA, f. 1, siy. 20, iş 28.
154. NMR DA, f. 1, siy. 20, iş 38.
155. NMR DA, f. 1, siy. 20, iş 41.
156. NMR DA, f. 1, siy. 20, iş 93.
157. NMR DA, f. 1, siy. 28, iş 4.
158. NMR DA, f. 1, siy. 28, iş 31.
159. NMR DA, f. 1, siy. 28, iş 41.
160. NMR DA, f. 1, siy. 28, iş 43.
161. NMR DA, f. 1, siy. 28, iş 58.
162. NMR DA, f. 1, siy. 28, iş 94.
163. NMR DA, f. 1, siy. 28, iş 100.
164. NMR DA, f. 1, siy. 28, iş 101.
165. NMR DA, f. 1, siy. 28, iş 106.
166. NMR DA, f. 1, siy. 30, iş 20.
167. NMR DA, f. 1, siy. 30, iş 79.
168. NMR DA, f. 1, siy. 30, iş 82.
169. NMR DA, f. 1, siy. 30, iş 110.
170. NMR DA, f. 1, siy. 33, iş 1.
171. NMR DA, f. 1, siy. 33, iş 21.
172. NMR DA, f. 1, siy. 33, iş 24.
173. NMR DA, f. 1, siy. 33, iş 69.
174. NMR DA, f. 1, siy. 37, iş 2.
175. NMR DA, f. 1, siy. 37, iş 6.
176. NMR DA, f. 1, siy. 37, iş 22.
177. NMR DA, f. 1, siy. 37, iş 24.
178. NMR DA, f. 1, siy. 37, iş 81.
179. NMR DA, f. 1, siy. 37, iş 84.
180. NMR DA, f. 1, siy. 37, iş 126.
181. NMR DA, f. 1, siy. 37, iş 128.

182. NMR DA, f. 1, siy. 37, iş 138.
183. NMR DA, f. 1, siy. 37, iş 143.
184. NMR DA, f. 1, siy. 37, iş 146.
185. NMR DA, f. 1, siy. 37, iş 192.
186. NMR DA, f. 1, siy. 37, iş 195.
187. NMR DA, f. 1, siy. 37, iş 197.
188. NMR DA, f. 1, siy. 37, iş 281.
189. NMR DA, f. 1, siy. 37, iş 283.
190. NMR DA, f. 2, siy. 1, iş 2245.
191. NMR DA, f. 2, siy. 1, iş 2631.
192. NMR DA, f. 2, siy. 1, iş 2644.
193. NMR DA, f. 2, siy. 1, iş 2649.
194. NMR DA, f. 2, siy. 1, iş 2650.
195. NMR DA, f. 2, siy. 1, iş 2654.
196. NMR DA, f. 2, siy. 1, iş 2666.
197. NMR DA, f. 221, siy. 5, iş 844.
198. NMR DA, f. 221, siy. 5, iş 990.
199. NMR DA, f. 613, siy. 1, iş 1073.
200. NMR DA, f. 613, siy. 1, iş 1074.
201. NMR DA, f. 613, siy. 1, iş 1082.
202. NMR DA, f. 613, siy. 1, iş 1106.
203. NMR DA, f. 613, siy. 1, iş 1114.
204. NMR DA, f. 613, siy. 1, iş 1182.
205. NMR DA, f. 613, siy. 1, iş 1186.
206. NMR DA, f. 613, siy. 1, iş 1194.
207. NMR DA, f. 613, siy. 1, iş 1221.
208. NMR DA, f. 613, siy. 1, iş 1223.
209. NMR DA, f. 613, siy. 1, iş 1224.
210. NMR DA, f. 613, siy. 1, iş 1227.
211. NMR DA, f. 613, siy. 1, iş 1228.
212. NMR DA, f. 613, siy. 1, iş 1230.
213. NMR DA, f. 613, siy. 1, iş 1235.
214. NMR DA, f. 613, siy.. 1, iş 1240.
215. NMR DA, f. 613, siy. 1, iş 1242.
216. NMR DA, f. 613, siy. 1, iş 1244.
217. NMR DA, f. 613, siy. 1, iş 1246.

218. NMR DA, f. 613, siy. 1, iş 1264.
219. NMR DA, f. 613, siy. 1, iş 1272.
220. NMR DA, f. 613, siy. 1, iş 1273.
221. NMR DA, f. 613, siy. 1, iş 1277.
222. NMR DA, f. 613, siy. 1, iş 1286.
223. NMR DA, f. 613, siy. 1, iş 1294.
224. NMR DA, f. 613, siy. 1, iş 1319.
225. NMR DA, f. 613, siy. 1, iş 1335.
226. NMR DA, f. 613, siy. 1, iş 1338.
227. NMR DA, f. 613, siy. 1, iş 1347.
228. NMR DA, f. 613, siy. 1, iş 1360.
229. NMR DA, f. 613, siy. 1, iş 1423.
230. NMR DA, f. 613, siy. 1, iş 1427.
231. NMR DA, f. 613, siy. 1, iş 1513.
232. NMR DA, f. 613, siy. 1, iş 1538, Naxçıvan MSSR Ali Sovetinin 26 iyun 1987-ci il tarixli qərarı.
233. NMR DA, f. 613, siy. 1, iş 1541, Naxçıvan MSSR Ali Sovetinə 22 iyul 1987-ci il tarixli Arayış.
234. NMR DA, f. 613, siy. 7, iş 189.
235. NMR DA, f. 613, siy. 8 iş 213.
236. NMR DA, f. 613, siy. 8 iş 289.
237. NMR DA, f. 613, siy. 11, iş 577.
238. NMR DA, f. 613, siy. 11, iş 624.
239. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası-50. Bakı: Elm, 1975, 359 s.
240. Naxçıvan Muxtar Respublikası Konstitusiyalarda. Kitabın tərtibçisi, oçerk və mətnlərin müəllifi tarix üzrə fəlsəfə doktoru, dosent E.Cəfərli. Bakı: Elm və təhsil, 2014, 208 s.
241. Naxçıvan Muxtar Respublikası (1969-1999). Naxçıvan: 1999, 216 s.
242. Naxçıvan Muxtar Respublikası-80. Tarixi-statistik məcmuə. Bakı: Səda, 2004, 212 s.+8 s. qrafik və diaqramlar.
243. Naxçıvan Muxtar Respublikası-85. Naxçıvan: Əcəmi NPB, 2009, 99 s.
244. Naxçıvan Muxtar Respublikası-75. Yubiley statistik məcmuə. Naxçıvan: 1999, 96 s.
245. Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik (8 fevral 2007-ci ildə keçirilmiş elmi-praktik konfransın materialları). Bakı: Nurlan, 2007, 406 s.
246. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Məqalələr məcmuəsi). Bakı: Elm, 1975, 359 s.

247. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu). Bakı: Azərnəşr, 1978, 47 s.
248. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu). Bakı: Azərnəşr, 1982, 45 s.
249. Naxçıvan statistika güzgüsündə. Tarixi-statistik məcmuə. Bakı: Səda, 1999, 128 s.
250. Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri (9-10 iyun 2006-cı ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Təhsil, 2006, 504 s.
251. Naxçıvan tarixinin səhifələri. "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumun materialları. Bakı: Azərbaycan, 1996, 222 s.
252. Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyətinin, təbii sərvətlərinin öyrənilməsi (21-22 may 2004-cü il tarixdə keçirilmiş elmi konfransın materialları). Bakı: Elm, 2004, 512 s.
253. *Sadıqov S.H.* Naxçıvan Muxtar Respublikasının tarixindən. Bakı: İrşad mərkəzi, 1995, 144 s.
254. *Seyid Surə*. "Şərq qapısı" qəzeti və Naxçıvanda ədəbi mühit. Bakı: Elm və təhsil, 2010, 208 s.
255. *Səfərov Y.* Naxçıvan aşıq ədəbi mühiti. Naxçıvan: Əcəmi NPB, 2009, 134 s.
256. *Səfərov Y.* Naxçıvan aşıqları və el şairləri. Naxçıvan: Əcəmi NPB, 2011, 152 s.
257. *Səmədzadə Z., Musayev M.* Onuncu beşillikdə Sovet Azərbaycanının iqtisadi və sosial inkişafı. Bakı: Azərnəşr, 1981, 240 s.
258. "Sovet Naxçıvanı" qəzeti.
259. Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Azərbaycan KP Naxçıvan vilayət komitəsi partiya və təsərrüfat fəallarının yığıncağında çıxışı. Naxçıvan, 24 may 1980-ci il. Heydər Əliyev Muzeyi. Eksponat № 612, S-122, 29 s.
260. *Sultanov B.* Naxçıvan inkişaf yolunda. Bakı: İsmayıl NPM, 2000, 132 s.
261. *Şabanov M.* Azərbaycan tarixində Heydər Əliyev mərhələsi. Bakı: Nurlan, 2005, 336 s.
262. "Şərq qapısı" qəzeti.
263. *Talıbov V.Y.* Heydər Əliyev cənablarının siyasi fəaliyyətinin Naxçıvan dövrünün elm və maarifçilik məsələləri // NDU-nun "Elmi əsərlər"i, № 1. Naxçıvan: 1997, s. 5-6.
264. *Talıbov V.Y.* Naxçıvan Muxtar Respublikasında mədəni proseslər və müasir dövr // NDU-nun "Elmi əsərlər"i, № 4. Naxçıvan: 1999, s. 14-19.
265. *Talıbov V.Y.* Yüz illik inkişafın zirvəsi / "Azərbaycan" qəzeti, 1999, 16 iyul.
266. *Təhməzov Z.M., Hüseynov A.Y.* Geniş tərəqqi yollarında. Bakı: 1984, 44 s.
267. *Zenkoviç N.* Heydər Əliyev. Tale yolları. Bakı: Azərbaycan, 2007, 608 s.
268. *Zeynalov İ.X.* Azərbaycanın iqtisadi və sosial inkişafı (70-80-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1996, 314 s.

Türk dilində

269. *Hüseyin Adıgüzel.* Zirve. Haydar Aliyev'in Hayatı. İstanbul: İleri Yayınları, 2007, 493 s.

Rus dilində

270. Итоги выборов и состав депутатов Верховного Совета Азербайджанской ССР, Верховного Совета Нахичеванской АССР одиннадцатого созыва местных советов народных депутатов Азербайджанской ССР, избранных в феврале 1985 г. Статистический сборник. Баку: Азернешр, 1986, 146 с.
271. Итоги выборов и состав депутатов Верховных Советов Азербайджанской ССР, Нахичеванской АССР и местных Советов депутатов трудящихся Азербайджанской ССР, избранных в июне 1971 года. Статистический сборник. Баку: Азернешр, 1972, 103 с.
272. Итоги выборов и состав депутатов Верховных Советов Азербайджанской ССР, Нахичеванской АССР и местных Советов депутатов трудящихся Азербайджанской ССР, избранных в июне 1975 года. Статистический сборник. Баку: Азернешр, 1977, 90 с.
273. Конституция (Основной Закон) Нахичеванской Автономной Советской Социалистической Республики. Баку: Азернешр, 1978, 46 с.
274. Конституция (Основной Закон) Союза Советских Социалистических Республик. Москва: Юридическая литература, 1989, 48 с.
275. Народное хозяйство Азербайджанской ССР за 60 лет. Юбилейный статистический сборник. Баку: Азернешр, 1980, 374 с.
276. Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого октября. Юбилейный статистический ежегодник. Баку: Азернешр, 1987, 314 с.
277. Нахичеванская Автономная Советская Социалистическая Республика Азербайджанской ССР за 60 лет. Юбилейный статистический ежегодник. Баку: Азербайджанское Государственное Издательство, 1984, 180 с.
278. Нахичеванская Автономная Республика в цифрах 1989-1990 г. Статистический сборник. Нахичевань, 1991, 50 с.
279. Нахичеванская АССР в цифрах. Статистический сборник. Нахичевань, 1978, 61 с.
280. Нахичеванская АССР в цифрах. Статистический сборник. Нахичевань, 1983, 67 с.
281. Нахичеванская областная партийная организация в цифрах. Нахичевань, 1983, 35 с.
282. *Сафаров П.Ш.* Экономическое и культурное сотрудничество Азербайджанской ССР с братскими советскими республиками (1971-1985 гг.) (по материалам Нахичеванской АССР). Автореферат диссертации на соискание кандидата исторического наука. Баку, 1989, 21 с.

283. http://constitution.garant.ru/history/ussr-rsfsr/1977/red_1977/5478732/
284. http://files.preslib.az/projects/remz/pdf/atr_kons.pdf
285. https://ru.wikipedia.org/wiki/ Съезд_народных_депутатов_СССР
286. http://www.aqra.az/index.php/az/azrbaydzan/tan-mad-zhlar-m-z/514-1990-dzi-il-20-yanvar-hadisaelaeri-hazhzhinda-baezi-khatiraelaerim
287. http://www.azerbaijan.az/portal/StatePower/LegistativePower/legislativePower_01_a.html
288. http://www.azerbaycanli.org/az/page1344.html
289. http://www.kodeks-luks.ru/ciws/site?tid=0&nd=901817398&nh=1
290. http://www.mns.gov.az/az/pages/57-50.htm

IV FƏSİL

NAXÇIVANIN İCTİMAİ-SİYASİ VƏ SOSİAL-İQTİSADİ HƏYATI (1988-1990-cı illər)

1. Dağlıq Qarabağ münaqişəsi və bunun Naxçıvanın ictimai-siyasi həyatına təsiri

Ötən əsrin 80-ci illərinin ortalarında sovet ölkəsinin ictimai-siyasi, iqtisadi və mədəni həyatında böhran yaranmışdı. Böhranın əsas səbəbi 1970-ci illərin ortalarından başlayaraq ölkəni idarə edə biləcək səriştəli, bacarıqlı, liderlik keyfiyyətlərinə malik olan görkəmli tarixi şəxsiyyətlərin, nüfuzlu dövlət xadimlərinin olmaması idi. 1985-ci ildən sovet imperiyasına rəhbərlik edən Sov. İKP MK-nın Baş katibi M.S.Qorbaçov "yenidənqurma" siyasətini, "sürətləndirmə konsepsiyası"nı irəli sürsə də bu, özünü doğrultmadı. Partiyanın1987-ci il (Yanvar) plenumunda yeni siyasi xətt – "aşkarlıq və demokratiya xətti"nin qəbul edilməsinə, "insan amilinin rolunun yüksəldilməsi"nə baxmayaraq ölkə iflasa doğru gedirdi.

Ölkə rəhbərliyində SSRİ-nin taleyi ilə bağlı fikir ayrılıqları olsa da, milli respublikalara münasibətdə daha çox yekdillik var idi. Məqsəd hətta ictimai-iqtisadi sistem və dövlət idarəçiliyinin üsulları dəyişilsə də, imperiyanın ərazi bütövlüyünü qorumaq idi. İttifaq rəhbərliyi mərkəzdənqaçma qüvvəsini zəiflətmək üçün ənənəvi siyasətdən ("parçala, hökm sür" – ***red.***) daha geniş istifadə edir, milli münaqişələri qızışdırır, xalqlar arasında qanlı nifaq salırdı [4, s.60]. Nəticədə keçmiş ittifaqın müxtəlif bölgələrində münaqişə ocaqları daha da alovlanırdı.

Ermənipərəst M.S.Qorbaçov siyasətdə qərəzli və təsadüfi adam olduğundan ümummilli lider Heydər Əliyevin SSRİ-nin idarə olunmasında söz sahibi olmasını heç cür qəbul edə bilmirdi. Bütün Sovet ölkəsində görkəmli siyasi xadim kimi nüfuz qazanmış Heydər Əliyev SSRİ-nin yüksək dövlət və partiya rəhbərliyində mühüm vəzifələrdən birini tuturdu. Lakin M.S.Qorbaçov bundan özü üçün təhlükə hiss edirdi. Ona görə də bütün vasitələrlə Heydər Əliyevi Sov. İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavinliyindən uzaqlaşdırmağa çalışırdı. Bu işdə M.S.Qorbaçovun ətrafında, dövlət, hökumət strukturlarında vəzifə tutan ermənilər də ciddi-cəhdlə çalışır, partiya, dövlət və hökumət orqanlarına anonim məktublar göndərirdilər. 1987-ci ilin oktyabrında Heydər Əliyevin Sov. İKP MK Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verməsi erməniləri daha da həvəsləndirdi.

Yaranmış siyasi şəraitdən faydalanan, SSRİ rəhbərlərinin havadarlığından ruhlanan erməni millətçiləri Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağa və Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış edərək bu torpaqları ələ keçirmək üçün təcavüzkar hərəkətlərə başladılar. 1987-ci ilin oktyabrında İrəvanın Puşkin meydanında "Qarabağ Komitəsi"nin ilk açıq mitinqi keçirildi [97, s.24]. Rəsmi Moskva

1987-ci ilin noyabrında Parisdə M.S.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri olan akademik Abel Aqanbekyanın dili ilə Qarabağ hərəkatına müsbət münasibətini, qeyri-rəsmi olsa da, bütün dünyaya bildirməkdən çəkinmədi. A.Aqanbekyan Fransanın "Humanite" qəzetinin 1987-ci il 18 noyabr tarixli sayında dərc olunmuş müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğun olmasını və bu barədə dövlət başçısına təklif verdiyini bildirdi [97, s.20].

Erməni millətçiləri Dağlıq Qarabağı Ermənistan SSR-yə birləşdirmək üçün geniş fəaliyyətə başladılar. "Qarabağ Komitəsi"nin DQMV-də gizli fəaliyyət göstərən yerli təşkilatı olan "Krunk" (Durna) açıq fəal mübarizəyə başladı. Dağlıq Qarabağ ermənilər arasında Ermənistana birləşmək uğrunda "Miatsum" (birləşmə) hərəkatı genişlənirdi. Ona iri müəssisə rəhbərlərini birləşdirən "55-lər komitəsi" adlı xüsusi orqan rəhbərlik edirdi [93, 1988, 26 mart].

Ermənilərin Dağlıq Qarabağı ələ keçirmək üçün başladıqları hərəkatın ilk dövründə, 1988-1991-ci illərdə Ermənistan SSR ərazisindən, öz dədə-baba yurdlarından (185 kənddən və başqa yaşayış məntəqələrindən) 230 min azərbaycanlı qovuldu, onlara məxsus 31000 ev, şəxsi təsərrüfat, 165 kolxoz və sovxozun əmlakı talandı, 225 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi, bədən əzaları kəsildi, gözləri çıxarıldı [4, s. 66; 11, v. 54;]. Bunun üçün əvvəlcədən xüsusi silahlı dəstələr hazırlanmışdı. Ermənistan SSR-in Qafan və Mehri rayonlarında bu cinayətkarların vəhşi əməllərindən yaxa qurtaran ilk qaçqınlar 1988-ci il yanvarın 25-də Azərbaycana pənah gətirdilər [99, s.33].



Ermənistandan məcburi köçürülən azərbaycanlılar
1988-ci il

1988-ci il fevralın 12-də İrəvanda böyük antitürk mitinqi keçirildi. "Ermənistan türklərdən təmizlənməli!", "Ermənistanda ermənilər yaşamalıdır!" kimi millətçi şüarlar səslənirdi [8, v.2]. Fevralın 21-də erməni vandalları İrəvanda qalmış son məscidə hücum edib onu dağıtdılar. Dağlıq Qarabağda ermənilər SSRİ rəhbərliyindəki havadarlarından istifadə edərək, 1988-ci il fevralın 20-də Xalq Deputatları Sovetinin yalnız erməni deputatlarının iştirakı ilə keçirilən növbədənkənar sessiyasını çağıraraq vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdilər [39, s.11].

Ermənistan SSR Ali Soveti 1988-ci il 15 iyun tarixli qərarı ilə kobudcasına Azərbaycanın daxili işlərinə qarışaraq, DQMV-ni Ermənistanın tərkibinə qəbul etməyə razılıq verdi [95, s.84]. XI çağırış Azərbaycan SSR Ali Sovetinin VII sessiyası 1988-ci il 17 iyun tarixli qərarı ilə DQMV Xalq Deputatları Sovetinin 20 fevral tarixli qərarını qeyri-qanuni akt kimi qiymətləndirdi [31, 1988, 18 iyun]. İyunun 21-də DQMV Sovetinin fövqəladə sessiyası SSRİ Ali Sovetinə müraciətlə Dağlıq Qarabağın Ermənistan SSR-ə verilməsini xahiş etdi. İyulun 12-də vilayət sovetinin sessiyasında DQMV-nin Azərbaycan SSR tərkibindən çıxması barədə qeyri-qanuni qərar qəbul olundu [99, s.34].

SSRİ Ali Soveti Rəyasət Heyəti vəziyyəti nizama salmaq adı ilə Azərbaycanın hüquqlarını yenidən kobud sürətdə pozaraq 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-in DQMV-nin xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi. A.Volskinin başçılığı ilə muxtar vilayət xalq deputatları Soveti, onun İcraiyyə Komitəsi hüququnda birbaşa Moskvaya tabe olan müvəqqəti Xüsusi İdarə Komitəsi (XİK) təşkil edildi, bütün dövlət və ictimai orqanların səlahiyyəti dayandırıldı [7, v.1]. Bununla da, SSRİ Ali Soveti Rəyasət Heyətinin bu qərarı DQMV-ni Azərbaycana bağlayan iqtisadi əlaqələrin tam qırılmasına, azərbaycanlıların buradan qovulmasına və ermənilərin silahlanmasına şərait yaratdı.

Azərbaycanın demokratik qüvvələrinin təkidli tələbi ilə SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1989-cu ilin 28 noyabrında Dağlıq Qarabağda XİK-i ləğv etdi. Vilayətin idarə olunması SSRİ Ali Sovetinin xüsusi komissiyasının nəzarəti altında Azərbaycan SSR-in təşkilat komitəsinə tapşırıldı. Lakin yenə də mərkəz tərəfindən qəti tədbirlərin görülməməsi erməniləri yeni təhrikçi hərəkətlərə şirnikləndirirdi.

Erməni millətçiləri üçün azərbaycanlıların öz ata-baba yurdlarından – etnik torpaqlarından qovulması strateji məqsədlərinin ilkin mərhələsi idi. Ermənistanda qanlı antitürk hərəkatı genişlənirdi. Məhv olmaq təhlükəsi ilə üz-üzə qalan azərbaycanlılar öz yurd-yuvalarını tərk etməyə məcbur oldular. Onlar Azərbaycanın Ermənistanla sərhəd rayonlarına axışırdılar. Azərbaycanlıların ümid yeri, arxa bildiyi ərazi Naxçıvan Muxtar Respublikası idi. Naxçıvan əhalisi XX əsrin əvvəllərində olduğu kimi, əsrin sonlarında da erməni millətçilərinin təqiblərindən qaçıb canını qurtarmış soydaşlarına sığınacaq vermiş, onlara pənah gətirənlərə qayğı göstərmişdir.

Ermənistan SSR-in Ararat, Əzizbəyov, Yexeqnadzor, Artaşat rayonlarının, eləcə də Qarmraşen və Xalisə kəndlərinin azərbaycanlı əhalisi erməni daşnaklarından xilas olaraq Naxçıvana gələ bilmişdilər. 1988-ci ilin mart ayının ikinci yarısından başlayaraq Naxçıvan əhalisi İrəvandan, Göyçədən, Vedibasardan, Zəngəzurdan gələn yüzlərlə soydaşını qəbul edirdi. Onları qarşılamaq, yerləşdirmək, minimum tələbatlarını ödəmək üçün hər bir naxçıvanlı ayağa qalxmışdı.

Naxçıvana qovulmuş didərginlərin hamısına erməni yaraqlıları tərəfindən divan tutulmuş, onların bir hissəsi işgəncələrə məruz qalmış, ölən və yaralananlar da olmuşdu. Yaralılar xəstəxanalara çatdırılır, onlara ilk tibbi yardım göstərilirdi.



Ermənistandan qovulmuş azərbaycanlıların Naxçıvana gəlişi 1989-cu il

1988-ci ilin ilk üç ayı ərzində Ermənistan SSR-dən Naxçıvan Muxtar Respublikasına 9088 nəfər qaçqın (1853 ailə) gəlmişdi ki, onlardan 2493-ü (427 ailə) müvəqqəti olaraq Sədərək kəndində, yerli sakinlərin evlərində, müxtəlif ictimai binalarda, məktəblərdə yerləşdirilmişdi [63, v.3-6].

1988-ci ilin aprel ayından başlayaraq Ermənistan SSR-də yerli azərbaycanlılara qarşı təqiblərin güclənməsi ilə qaçqınların yeni, daha böyük kütləsi Naxçıvan Muxtar Respublikasına gəldi. Aprel-iyul ayları ərzində muxtar respublikaya əlavə olaraq 8 mindən çox qaçqın gəlmişdi [64, v. 19-21].

Əvvəllər qaçqınların qəbulu və onların yerləşdirilməsi yerli əhalinin iştirakı ilə həyata keçirilirdisə, sonradan bu işlə muxtar respublikanın əlaqədar təşkilatları məşğul olmağa başladı. Bunun üçün xüsusi komissiya yaradıldı. Komissiyaya Naxçıvan Muxtar Respublikası Nazirlər Soveti sədrinin birinci müavini başçılıq edirdi [67, v.13]. Muxtar respublikanın rayonlarında da belə komissiyalar yaradılmışdı. Muxtar respublikaya gəlmiş hər bir ailəyə maddi yardım göstərilmiş, onlar yaşayış yerləri, ərzaq məhsulları ilə təmin olunmuşdular.

Ermənistan SSR-dən qaçqın düşmüş azərbaycanlılar əvvəllər kənd təsərrüfatı ilə məşğul olduqlarından onlara torpaq sahələri ayrılmış və kəndlərdə yaşamalarına köməklik göstərilmişdir.

Ermənistan SSR-dən qovulan soydaşlarımızın qəbulu və onlara yardım göstərilməsi sahəsində əsas ağırlıq Şərur rayonunun üzərinə düşmüşdü. 1988-ci ilin sonları üçün bu rayonun 60-a yaxın kəndində 800 ailəni təmsil edən 2100 nəfərlik qaçqın yerləşdirilmişdi. Qısa müddət ərzində qaçqınların əksəriyyəti yaşayış yerləri və işlə təmin edilmiş, onlara torpaq sahələri ayrılmış və uzunmüddətli ssudalar verilmişdi. Rayonda yerləşən qaçqınlara 430 min manatlıq pul və ərzaq yardımı

göstərilmişdi [14, s.101].

Muxtar respublikanın Babək, Ordubad, Culfa, Şahbuz rayonlarında da Ermənistan SSR-dən qovulmuş soydaşlarımızın qəbul edilməsi və yerləşdirilməsi üçün müvafiq tədbirlər görülmüşdü. Babək rayonunda 2500, Ordubad rayonunda 500, Culfa rayonunda 300, Şahbuz rayonunda isə 1500 qaçqın qəbul edilmiş və yerləşdirilmişdi. Babək rayonuna gəlmiş qaçqınların 757-si rayonda qeydiyyata alınmış, 1462-si Çalxanqalada, 115-i isə Kültəpə, Zeynəddin və Kərimbəyli kəndlərində yerləşdirilmiş, köçkünlərə 31328 manat vəsait ödənilmişdi [79, v.39-45]. Rayonun Böyükdüz kəndinin yaxınlığında "Ceyran bulağı" adlanan ərazidə 380 qaçqının yerləşdirilməsi üçün yeni yaşayış məntəqəsi yaradılmışdı. Burada hər bir ailə üçün fərdi ev, məktəb, klub, mağaza və digər məişət və sosial obyektlər tikilmişdi. Hər bir ailəyə 1200 kv.m torpaq sahəsi ayrılmışdı [88, 1990, 20 may]. Ordubad rayonuna gəlmiş qaçqınlar rayonun bir sıra kəndlərində, ermənilərin tərk etdikləri evlərdə yerləşdirilmişdi. Qaçqın uşaqlar üçün Parağa kəndində yeni məktəb açılmışdı [71, v.1-5]. Rayonda daimi yaşamaq arzusunda olanlar üçün ssuda ayrılmış, onlar işlə təmin edilmişdilər. Qaçqınlar üçün dövlət bankının şöbəsində açılmış xüsusi hesaba rayonun müxtəlif əmək kollektivləri, ayrı-ayrı şəxslər tərəfindən 150 min manat vəsait köçürülmüşdü. Rayonun Ağdərə kəndinin qaçqınlar tərəfindən məskunlaşdırılması qərara alınmışdı [31, 1988, 8 dekabr].



Ermənistan SSR ərazilərindən məcburi köçürülənlər
1988-ci il

Culfa rayonuna gəlmiş qaçqınlar əsasən, Culfa şəhərində və rayonun Xanağa, Əbrəqunus, Şurud, Milax və başqa kəndlərində yerləşdirilirdi [69, v.29-30].

Şahbuz rayonuna Ermənistan SSR-in Əzizbəyov, Yexeqnadzor və Sisyan rayonlarından 1500 nəfərdən çox qaçqın gəlmişdi. Rayonun əhalisi qaçqın düşmüş soydaşlarının vəziyyətini qismən də olsa yüngülləşdirmək üçün əllərindən gələni etmişdilər. Qaçqınlar rayonun Nursu, Mahmudoba, Badamlı, Gömür, Ayrınc və başqa kəndlərində müvəqqəti yerləşdirilmişdi [70, v.1-30]. Rayonun Gömür kəndində 35 qaçqın ailəsi yerləşdirilmişdi [88, 1989, 19 dekabr]. Sonradan qaçqınların bir hissəsi Azərbaycanın başqa bölgələrinə getmiş. 1989-cu ilin ortaları üçün Şahbuzda cəmi 362 qaçqın qalmışdı [70, v.84].

Naxçıvan MSSR-ə gəlmiş qaçqınların yerləşdirilməsi, onların zəruri vasitələlə təmin edilməsi üçün hər bir rayonda xüsusi komissiyalar və qərargahlar yaradılmışdı. Komissiyalara ya rayon partiya komitələrinin birinci katibləri, ya da XDS İK-in sədrləri başçılıq edirdilər [14, s. 99, 100, 103-105, 107-108].

1988-1989-cu illərdə muxtar respublika rəhbərliyi bütün əhali ilə birgə öz doğma yurd-yuvalarından didərgin düşmüş soydaşların vəziyyətini qismən yüngülləşdirmək üçün bütün zəruri tədbirləri görmüşdülər. Onlara ərzaq, paltar, pul, yanacaq və digər yardımlar göstərilmiş, yaşayış yerləri, işlə, tibbi və digər sosial-məişət xidmətləri ilə təmin edilmiş, məktəbyaşlı uşaqlar təhsilə cəlb edilmişdilər.

Lakin 1989-cu ilin sonlarından başlayaraq Ermənistandan qaçqın düşərək Naxçıvanda məskunlaşmış əhalinin əksəriyyəti Bakı şəhərinə köçməyə başladı. Muxtar respublikada daimi məskunlaşmaq qərarına gəlmiş qaçqınlar isə burada daimi pasport qeydiyyatına alınaraq, evlə, şəxsi təsərrüfat sahələri və daimi işlə təmin edildilər. Təkcə Naxçıvan şəhərində 825 qaçqın daimi qeydiyyata alındı [78, v.24-30]. Naxçıvan MSSR-də yaşayan qaçqınlara şəhər və rayon XDS İK-nın müvafiq qərarları ilə müavinətlər verildi.

SSRİ rəhbərlərinin ikili siyasəti, Azərbaycan SSR-in dövlət və hakimiyyət orqanlarının passiv mövqeyi, ermənilərin özbaşına, azğın hərəkətlərinə qarşı heç bir tədbir görülməməsi, Azərbaycan SSR-in suveren hüquqlarının pozulması, Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların öz doğma yurd-yuvalarından vəhşi yollarla didərgin salınması Azərbaycan xalqının dərin hiddətinə səbəb oldu.

Dağlıq Qarabağ hadisələri Naxçıvan MSSR-nin ictimai-siyasi və iqtisadi həyatına da ciddi təsir göstərdi. Qarabağ münaqişəsi, Ermənistan SSR-dən qovulan azərbaycanlıların Naxçıvana axını, Naxçıvanın sərhəd kəndlərinə erməni yaraqlılarının silahlı basqınları əhalini fəal mübarizəyə qaldırdı. "Daşnak təcavüzünün gücləndiyi bir şəraitdə satqın ölkə rəhbərliyinin cinayətkarcasına fəaliyyətsizliyi" [56, s. 181] minlərlə naxçıvanlını küçələrə, meydanlara çıxardı. Onlar Sovet imperiyasına, onun muxtar respublikadakı dayaqlarına, vilayət, şəhər və rayon partiya komitələrinə qarşı etiraz mitinqləri və yürüşləri keçirirdi.

Ermənistanda və Dağlıq Qarabağda ermənilərin azərbaycanlılara qarşı azğın

hərəkətlərinin cavabsız qalması, öz yurd-yuvalarından didərgin düşərək Naxçıvana pənah gətirmiş qaçqınların acı taleyi, muxtar respublika əhalisinin dərin hiddətinə səbəb olmuşdu. 1988-ci ilin may ayının 20-də Naxçıvan şəhərində ermənilərin özbaşınalıqlarına və cinayətlərinə son qoyulması tələbi ilə muxtar respublika ictimaiyyətinin mitinqi keçirildi [42, s. 7]. Mitinq iştirakçıları SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR rəhbərliyindən qəti tədbirlər görülməsini, Azərbaycan xalqının suveren hüquqlarının qorunmasını təkidlə tələb etdilər.

Dağlıq Qarabağda baş verən hadisələr, Azərbaycan rəhbərliyinin cinayətkar fəaliyyəti xalqı hiddətləndirmiş, nəticədə 1988-ci il noyabr ayının ortalarından başlayaraq Bakıda və digər şəhərlərdə etiraz mitinqlərinin yeni, daha yüksək mərhələsi başlanmışdı. Noyabrın 18-də Bakının mərkəzi meydanında keçirilən mitinqdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması, Dağlıq Qarabağda antiazərbaycan siyasəti yeridən Xüsusi İdarə Komitəsinin ləğv edilməsi, Ermənistana iqtisadi sanksiyalar tətbiq edilməsi və başqa qanuni tələblər irəli sürüldü.

Bakı şəhərində keçirilən mitinq iştirakçılarına həmrəylik olaraq 1988-ci il 22 noyabrda Naxçıvan şəhərində 30 mindən çox insanın iştirak etdiyi mitinq keçirildi. Mitinq iştirakçıları Vilayət Partiya Komitəsinin birinci katibi N.Mustafayevi mitinqə dəvət etmişdilər. Lakin birinci katib mitinqçilərlə dialoqa girmək əvəzinə onların üzərinə tank və "BTR"-lər yeritmiş, nəticədə yaralananlar olmuşdu. Mitinq iştirakçıları Vilayət Partiya Komitəsinin binasına və hərbi texnikaya ziyan vurmuşlar. Mitinqdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı qaldırılmışdı [1, s. 157]. Bunları bəhanə edən hökumət 24 noyabrda Naxçıvan şəhərində (Bakıda və Gəncədə də-red.) xüsusi vəziyyət və komendant saatı tətbiq etdi. Küçələrə ağır silahlı qoşun hissələri yeridildi [12, v. 28, 30-31]. General-leytenant A.Makaşov Naxçıvan şəhərinə hərbi komendant təyin edildi [85, 1988, 23 noyabr].

Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının rəhbərliyi xalqın haqlı etirazlarına qoşulmaqdan çəkinərək, müəyyən manevrlər etməklə vəziyyəti nəzarət altına almağa çalışırdı. Bu məqsədlə də Vilayət Partiya Komitəsinin II katibi A.M.Qolubevin sədrliyi ilə xüsusi qrup yaradılmış və bu qrupa "vəziyyəti sabitləşdirmək" məqsədilə "zəruri tədbirləri" həyata keçirmək vəzifəsi tapşırılmışdı [65, v. 11-13]. Noyabrın 23-də Naxçıvan Vilayət Partiya Komitəsinin növbəti plenumunda birinci katib N.Musatafayev vəzifəsindən azad edilmiş, onun yerinə Heydər İsayev seçilmişdi [77, v. 76].

Naxçıvan şəhərində xüsusi vəziyyətin elan edilməsinə baxmayaraq, mitinqlər yenə də davam edirdi. Həmin günlərdə muxtar respublikanın rayon mərkəzlərində kütləvi mitinqlər keçirilirdi. Mitinqlərdə iştirak edənlər təqib olunur, həbs edilirdilər. Ümumiyyətlə, mitinqdə iştirak etdiklərinə və "ictimai qaydaları pozduqlarına" görə 49 nəfər həbs olunmuşdur ki, onlardan 14-ü Şərur, Babək, Şahbuz və Culfa rayonlarından idi.

Ermənilər mütəmadi olaraq Naxçıvanın sərhəd kəndlərinə silahlı hücumlar edir, Naxçıvana gələn qatarların yolunu kəsir, ona zərər yetirir və mane olurdular. 1989-cu il iyulun 5-də Naxçıvan şəhərində, Şərur, Ordubad və Culfa rayonlarında minlərlə adamın iştirak etdiyi mitinqdə əhali respublika hökumətindən Naxçıvanın müdafiəsi üçün konkret tədbirlər görülməsini tələb edirdi. Bunun nəticəsində 1989-cu il iyulun 18-də Naxçıvan MSSR Ali Soveti Muxtar Respublikanın təhlükəsizliyini təmin etmək üçün Müdafiə Komitəsi yaradılması barədə qərar qəbul etdi.

Respublikanın sosial-iqtisadi vəziyyətinin gərgin olmasına baxmayaraq demokratik hərəkat getdikcə genişlənirdi. 1989-cu ilin birinci yarısında Azərbaycan Xalq Cəbhəsinin müxtəlif yerlərdə dayaq dəstələri yaradılmış, həmin ilin iyulunda isə AXC-nin Naxçıvan şöbəsi təşkil edilmişdi. Həmin dövrdən başlayaraq Naxçıvanda xalq hərəkatına AXC-nin Naxçıvan şöbəsi rəhbərlik etməyə başladı. Radikal tədbirlərə üstünlük verən bu təşkilat artıq muxtar respublikada qeyri-rəsmi hakimiyyətə malik idi. Muxtar respublika rəhbərliyi qərar qəbul edərkən cəbhə rəhbərliyi ilə hesablaşmalı olurdu [42, s.14]. AXC Naxçıvan şöbəsinin fəalları Naxçıvanda oktyabr inqilabının 72-ci ildönümünün keçirilməsinin qarşısını almış, əhalini tədbiri baykot etməyə çağırmışdılar. 1989-cu il 22 oktyabrda Naxçıvan şəhərində AXC-nin təşkil etdiyi mitinqdə bu barədə xüsusi qətnamə qəbul edilmişdi [74, v. 55-56].

Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri S.Əliyeva və Naxçıvan Vilayət Partiya Komitəsinin II katibi A.Bolotinin noyabrın 1-i və 2-sində AXC-nin fəalları ilə tədbirin baş tutmaması üçün apardıqları müzakirələr heç bir nəticə verməmiş, AXC tədbirin keçirilməsinə mane olacağını bildirmişdi [75, v.2-16]. Noyabrın 3-də Naxçıvan şəhərində keçirilmiş mitinqdə Moskvanın Azərbaycan və Naxçıvandakı canişinləri V.Polyaniçkonun və A.Bolotinin istefaları və respublikadan qovulmaları, muxtar respublikada "7 noyabr" tədbirinin keçirilməməsi ilə bağlı radikal tələblər irəli sürüldü. Mitinq iştirakçıları həmçinin muxtar respublikada komendant saatının ləğv edilməsini, özünümüdafiə dəstələrinin təşkili üçün əhaliyə silahların verilməsi tələblərini də səsləndirirdi [42, s. 14].

AXC-nin Ordubad rayon şöbəsi 1989-cu il 18 dekabrda rayonda mitinq keçirərək təhlükəsizliyin təmin edilməsi üçün tədbirlər görülməsini, əhalidən və orta məktəblərdən yığılmış silahların geri qaytarılmasını tələb etmişdi [75, v. 12-13].

Demokratik hərəkatda AXC-nin aparıcı təşkilata çevrilməsinə baxmayaraq, xalq arasında Heydər Əliyevin nüfuzu daha böyük idi. Mitinqlərdə Heydər Əliyevin şəkilləri qaldırılır, onun respublikaya dəvət edilərək xalq hərəkatına rəhbərlik etməsi barədə çağırışlar edilirdi. Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsi sədrinin Moskvaya göndərdiyi 1990-cı il 3 yanvar tarixli məlumatında yazılırdı: "Əvvəlki kimi... Heydər Əliyevin mövqeləri güclüdür. Əhali indiyədək Heydər Əliyevin adını ehtiramla çəkir. Heydər Əliyevin Azərbaycan SSR Ali Sovetinə

Ordubad rayonundan deputatlığa namizədliyini irəli sürməyi, əlverişli şərait yarandığı halda isə onu Ali Sovetin Rəyasət Heyətinin sədri vəzifəsinə seçməyi planlaşdırırlar" [92, 1999, 28 mart]. Mitinq və nümayişlərə yüzlərlə insan əllərində Heydər Əliyevin portreti ilə çıxırdı.

Göründüyü kimi, Dağlıq Qarabağ münaqişəsinin başlanması, erməni millətçilərinin Dağlıq Qarabağı Ermənistan SSR-ə birləşdirmək arzusu, azərbaycanlıları öz ata-baba yurdlarından zor gücünə çıxarılması, onların qaçqına çevrilməsi, Moskvanın ikili siyasəti və başqa məsələlər Azərbaycanda olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da ictimai-siyasi vəziyyəti kəskinləşdirmiş, naxçıvanlıları mübarizəyə qaldırmışdı.

2. Sosial-iqtisadi həyat

XX əsrin 80-ci illərinin ikinci yarısından başlanan siyasi hadisələr Azərbaycanın iqtisadiyyatına və sosial-mədəni həyatına ağır zərbələr vurdu. Azərbaycanın iqtisadiyyatında ciddi geriləmə prosesi başlandı. Azərbaycanın ictimai-siyasi həyatının, təsərrüfat sisteminin ahəngi 1987-ci ildə erməni millətçilərinin "Dağlıq Qarabağ" ətrafında başladıqları fitnəkarlıqla pozuldu. Sovet İttifaqının səlahiyyətli orqanlarında yüksək vəzifələr tutan erməni millətçiləri Azərbaycan iqtisadiyyatına zərbələr endirmək üçün öz xəyanətkar fəaliyyətlərini genişləndirdilər.

Azərbaycanda üzümçülük-şərabçılıq komplekslərinin inkişafı respublika iqtisadiyyatının və əhalisinin maddi rifahının xeyli yüksəlməsini şərtləndirirdi. Azərbaycana düşmən qüvvələr 1985-ci ildə alkoqolizmə qarşı mübarizə pərdəsi altında üzümçülüyün ləğvinə çalışırdılar. Nəticədə 1985-ci ilə nisbətən, 1990-cı ildə üzüm bağlarının sahəsi 107 min hektar azaldı [5, s. 199]. Bu ümumi sahənin 40 faizi demək idi. Respublikaya 4 milyard manatdan çox ziyan dəydi [93, 1990, 12 dekabr].

SSRİ Dövlət Plan Komitəsində, bir sıra başqa nazirliklərdə və partiya-dövlət orqanlarında kök salmış erməni millətçiləri Azərbaycan iqtisadiyyatının gələcək yüksəlişi üçün müstəsna əhəmiyyət kəsb edən mühüm sənaye müəssisələrinin maliyyələşdirilməsini azaltdılar, iqtisadiyyatın inkişafına yönəldilən əsaslı vəsaiti ildən-ilə məhdudlaşdırdılar. Əsas fondların istifadəyə verilməsi 1990-cı ildə 1985-ci ilə nisbətən 55 faiz aşağı düşdü [5, s. 200]. İqtisadiyyatın dinamik artımına nail olan Azərbaycan 1986-1990-cı illərdə buna nail ola bilmədi. Belə ki, respublikada sənaye məhsulunun ümumi həcmi, 1990-cı ildə 1985-ci ilin səviyyəsinin 99,1 faizini, kənd təsərrüfatı məhsulunun isə 96,2 faizini təşkil etmişdi [51, s. 47].

Neft istehsalının azalması davam edirdi, təbii qazın çıxarılması sürətlə aşağı düşürdü. Pambığın respublikada yığımı azalaraq, 788-dən 543 min tona, üzüm 1790-dan 1196 min tona qədər azalmışdı [96, s. 61, 72].

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 1980-ci illərin ikinci yarısında müəyyən dərəcədə inkişaf etmişdir. 1987-ci ildə Naxçıvan şəhərində xalça

kombinatı, 1986-cı ildə meyvə-tərəvəz konserv zavodu, 1989-cu ildə çörək zavodu tikilib istifadəyə verildi [51, s. 46]. 1990-cı ildə 94 mln. kvt. saat elektrik enerjisi (1985-ci ildə 68,7 mln. kvt. saat), 568 ton qənnadı məhsulları (1985-ci ildə 314 ton), 24028 ton çörək (1985-ci ildə 22438 ton), 20 min ton tərəvəz (1985-ci ildə 14,2 min ton) istehsal olundu. 152,7 mln. yarım litrlik butulka mineral su doldurulmuşdu ki, bu da əvvəlki hər hansı ildə olduğundan xeyli çoxdur. Lakin ölkədə baş verən ictimai-siyasi hadisələr həyatın bütün sahələrinə öz mənfi təsirini göstərdi.

Dağlıq Qarabağ münaqişəsi iqtisadiyyatda böhranı daha da dərinləşdirdi. Siyasi sabitliyin olmaması tikinti işinə də ciddi təsir göstərdi.

Azərbaycan SSR-nin sosial-iqtisadi həyatında baş verən geriləmələr Naxçıvanda da özünü göstərdi. 1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində muxtar respublikanın iqtisadiyyatı böhran vəziyyətinə düşdü. Muxtar respublikanın əsas inkişaf sahələrinin inkişaf sürəti kəskin surətdə azalmışdı. 1989-1991-ci illərdə sənaye istehsalı 26,6 faiz, kənd təsərrüfatında məcmu məhsul 25,5 faiz, heyvandarlıqda isə 34 faiz azalmışdı. Qaramalın sayı 10,9 min baş, davarların sayı 31,1 min baş, quşların sayı 372,2 min baş azalmışdı [52, s. 104]. Bütün bunlar istehsal olunan milli gəlirin də təqribən 5 dəfə aşağı düşməsinə gətirib çıxarmışdı [52, s. 104]. Naxçıvan MSSR-də ümumi məhsulun həcmi 1990-cı ildə 1985-ci illə müqayisədə 92,6 faiz olmuşdu [51, s. 47].

Muxtar respublikanın Ermənistan tərəfdən nəqliyyat və iqtisadi blokadaya alınması Naxçıvan iqtisadiyyatına ağır zərbə vurdu. 1988-ci ilə nisbətən 1989-cu ilin birinci yarısında tikintidə iş vaxtı itkisi 3,6 dəfə artmışdı. 1990-cı ildə 1985-ci ilə nisbətən dəmir-beton məmulatı istehsalı 47,7 min kubmetrdən 40 min kubmetrə, xam ipək istehsalı 107 tondan 83 tona, duz istehsalı 118 min tondan 99 min tonadək azalmışdı [51, s. 47]. 1988-ci ilin birinci yarısı ilə müqayisədə 1989-cu ildə sənayedə boşdayanmalar 6,3 faiz, tikintidə 79,3 faiz artmışdı. Sənaye məhsulları 90,4 min rubl, tikinti-quraşdırma işləri 45,8 min rubl kəsirlə yerinə yetirilmişdi [14, s. 17]. Alt trikotaj fabrikində, xalçaçılıq fabrikində, ət kombinatında, Ordubad baramaçılıq fabrikində, Naxçıvan su tikinti idarəsində daha çox iş vaxti itkisi olmuşdu.

Azərbaycan dəmir yolunun Qarçevan-Mehri hissəsinin işləməməsi, avtomobil yollarının bağlanması, Bakı və Azərbaycanın rayonları, eləcə də ittifaq respublikaları ilə əlaqələrin kəsilməsinə, idarə, müəssisə, tikinti təşkilatlarının fəaliyyətlərinin dayanmasına səbəb olmuşdu. 1989-cu ilin birinci yarısında tək istehsal müəssisələri 1,1 mln. rubl az məhsul istehsal etmiş, tikinti təşkilatları 1,5 mln. rubl dəyərində məhsul ala bilməmişdi [14, s.22].

Dəmir yol nəqliyyatında vəziyyətin gərginləşməsi Naxçıvan MSSR-in iqtisadiyyatına ağır zərbə vurmaqla yanaşı, əhalinin mənəvi-psixoloji vəziyyətinə də təsir edir, onsuz da ağır olan ictimai-siyasi vəziyyətin daha da ağırlaşmasına səbəb olurdu.

Azərbaycan KP MK 1989-cu il sentyabrın 25-də "Azərbaycan dəmir yolunun Naxçıvan hissəsində vəziyyətin qaydaya salınması haqqında" qərar qəbul etdi. Qərarda qeyd edilirdi ki, sentyabrın 4-dən dəmir yolunun Naxçıvan hissəsində 578 mln. ton yük daşınmamış, 4520 vaqon yüklənməmiş, 232 min ton yük göndərilməmiş, 5834 vaqon boşaldılmamışdır. Satılmış dəmir yolu biletlərindən dəyən zərər 2,5 mln rubl olmuşdur. Dəmir yolunun işləməməsi nəticəsində 5№-li Tikinti tresti 6000 min rubl, Aqrosənaye tikinti idarəsi 500 min rubl, Naxçıvan su meliorasiya tikinti tresti 300 min rubl zərər çəkmiş, çörək məmulatları kombinatı 13 min ton taxıl ala bilməmişdir [14, s. 27].

1990-cı ilin əvvəlindən DQMV və onun ətrafında baş vermiş hadisələrlə əlaqədar Naxçıvanda vəziyyət kəskin surətdə dəyişmiş, muxtar respublikanın iqtisadiyyatı iflic vəziyyətinə düşmüşdü. Həmin ilin birinci rübündə tək Ordubad rayonuna 1 mln. rubldan çox zərər dəymişdi. Baramaaçan fabrikinə 600 min rubl dəyərində zərərə görə fabrikin işçiləri 134 min rubl az əmək haqqı almışdır.

1990-cı ildə Ordubad rayonunda yaranmış vəziyyətlə əlaqədar 2,7 ton az xam ipək istehsal edilmiş, parça istehsalı planı isə cəmi 78,3 faiz yerinə yetirilmişdir. Tərəvəz-konserv istehsalı planına 75 faiz əməl olunmuş, hər hektardan 20 sentner əvəzinə 14,5 sentner məhsul götürülmüşdür. Təsərrüfatlarda 249 ton əvəzinə 109 ton kartof istehsal olunmuş və ya plana 44 faiz əməl olunmuşdur. 1990-cı ildə tərəvəz istehsalı planına 46 faiz, bostan məhsulları istehsalına 18 faiz əməl olunmuşdur. Meyvəçiliklə məşğul olan 15 təsərrüfatdan 11-i istehsal planına əməl etməmişdir.

1990-cı ilin yanvar ayından Babək rayonunda olan sənaye müəssisələrinin heç biri işləmirdi. Nəticədə, sənayedə 12528 adam əmək günü itirilmiş və 2029 min rubl dəyərində sənaye məhsulu az istehsal edilmişdir. Sənaye müəssisələrində istehsal edilən 6 növ sənaye məhsulundan 5 növü üzrə planlar tam kəsirlə yerinə yetirilmişdir. 1990-cı ilin 4 ayı ərzində müqavilə öhdəliklərinə görə mal göndərilməsi planı 3 mln. 368 min rubla qarşı 2 mln.736 min rubl, yaxud 81,2 faiz, mənfəət planına 779 min rubla qarşı 627 min rubl, yaxud 80,4 faiz əməl edilmişdir.

1990-cı ilin yanvar ayının ikinci yarısından Azərbaycan dəmir yolunun Naxçıvan hissəsində qatarların işləməməsi xalq təsərrüfatı məhsullarının daşınmasında çətinlik törətmişdir. Muxtar respublikaya xammal və materialların daşınmaması nəticəsində sənaye müəssisələri, tikinti təşkilatları işləmir, əhalinin gündəlik tələbat məhsulları ilə təminatı çətinləşmişdi. Dəmir yolunun Naxçıvan şöbəsinin işləməməsi nəticəsində 643 min ton yük daşınmamış, 4704 vaqon yüklənməmiş, 235 min ton yük göndərilməmiş, 11757 vaqon boşaldılmamışdır. Dəmir yolu şöbəsinə dəyən zərər 2,5 mln rubl olmuşdur [14,s.41].

1990-cı ildə muxtar respublikada 52 sənaye müəssisəsi fəaliyyət göstərirdi. Lakin 1991-1993-cü illərdə 8 sənaye müəssisəsi öz fəaliyyətini tamamilə dayan-

dırmışdı. 1986-cı ildə muxtar respublikada istehsal olunmuş sənaye məhsulunun həcmi 1985-ci ilin müvafiq göstəricisinin 77,6 faizinə bərabər idi [51, s. 47].

1980-ci illərin ikinci yarısında manatın alıcılıq qabiliyyətinin aşağı düşməsi əhalinin real gəlirlərinin azalmasına səbəb olmuşdu. Əhalinin ərzaq və qeyri-ərzaq mallarına olan tələbatı tam ödənilmirdi. Respublika əhalisinin sosial-siyasi həyatında, milli tərkibində, məişətində, rifahında mühüm dəyişikliklər baş vermişdi.

1980-ci ildə əhalinin sayı 248,5 min nəfər idisə, 1990-cı ildə bu göstərici 307,2 min nəfərə çatmışdı [14, s.69]. Yəni 10 il ərzində əhali 59,7 min nəfər artmışdı.

Ümumiyyətlə, erməni millətçilərinin Dağlıq Qarabağ ətrafında yaratdıqları fitnəkarlıq, iqtisadi və nəqliyyat əlaqələrinin blokada səbəbindən kəskin qırılması, müqavilə öhdəliklərinin yerinə yetirilməməsi, daxildə ictimai-siyasi sabitliyin pozulması səbəbindən muxtar respublika iqtisadiyyatı və əhalinin sosial vəziyyəti 1990-cı ilin əvvəlində Azərbaycanın digər regionlarına nisbətən daha ağır vəziyyətə düşmüşdü.

3. "Sərhəd hərəkatı"

Azərbaycan milli-azadlıq hərəkatının mühüm mərhələsini təşkil edən "Sərhəd hərəkatı" məhz Naxçıvanda başlamışdır. Azadlıq hərəkatının ilk günlərindən başlayaraq Azərbaycan SSR-in suverenliyi, ərazi bütövlüyünün təmin edilməsi, demokratik islahatların həyata keçirilməsi ilə yanaşı, İranın azərbaycanlılar yaşayan bölgələri ilə gediş-gəlişin təmin edilməsi tələbləri də irəli sürülməyə başlanmışdı [42, s.15]. "Cənub həsrəti" Azərbaycanın digər bölgələrinə nisbətən Naxçıvanda daha çox hiss olunurdu. İranla sərhədboyu ərazilərdə çəkilmiş tikanlı məftillər bir millətin iki hissəyə parçalanmasının "simvoluna" çevrilmişdi.

"Sərhəd hərəkatı" adı ilə tarixə dönmüş hadisələr sərhədlərin açılması ilə əlaqədar ortaya çıxdı. Bu məsələ 1988-ci ilin noyabr ayında Naxçıvanda ümumrespublika mitinqində əhalinin tələbi kimi irəli sürüldü. Həmin mitinqdə İran İslam Respublikasında yaşayan azərbaycanlılarla əlaqələrin yaradılması məsələsi qoyuldu. 1988-1989-cu illərdə Naxçıvanda, Ordubadda, Culfada, Şərurda, Sədərəkdə, hətta kəndlərdə keçirilən mitinqlərdə də əlaqələrdən geniş söhbət getsə də, əməli işə keçilməsi 1989-cu ilin noyabr ayında qərarlaşdırıldı. Rəsmi dairələrə, sərhəd qoşunlarının rəhbərliyinə müxtəlif vasitələrlə, xüsusən çoxminli mitinqlərdə tikanlı məftillərin yığışdırılması tələbləri verilməklə yanaşı, hər dəfə göstərilirdi ki, əks halda xalq öz gücü ilə bunu həyata keçirəcəkdir.

Naxçıvan MSSR-də 17 min kv.m. münbit torpaq sahəsi sərhədlə tikanlı məftillər arasında qalmışdı, onlardan istifadə olunmurdu [5, s.253]. Bu zonadakı qədim qəbiristanlığa və ziyarətgaha getmək mümkün deyildi. Vəziyyəti düzgün qiymətləndirməyən rəhbər dairələr tədbir görməyə tələsmirdilər, "Sərhəd hərəkatı" isə genişlənirdi [36, s. 216].

1989-cu ilin dekabr ayında keçirilən Azərbaycan SSR Ali Sovetinin sessiyasında Naxçıvan MSSR Ali Sovetinin sədri S.Əliyeva Naxçıvan əhalisinin sərhəd səddi ilə əlaqədar tələblərini sessiyaya çatdırdı və xahiş etdi ki, bu məsələ rəsmi yolla təcili həll edilsin [88, 1992, 2 yanvar].



"Sərhəd hərəkatı". 31 dekabr 1989-cu il

AXC-nin Naxçıvan Vilayət şöbəsinin 1989-cu ilin noyabrında keçirilmiş məclisi xalqın iradəsini ifadə edərək zorakılıqla ikiyə bölünmüş Güney və Quzey Azərbaycan arasında humanitar, mədəni, iqtisadi əlaqələri bərpa etmək məqsədilə əsassız çəkilmiş sərhəd çəpərlərinin götürülməsi və mühəndis texniki qurğuların sökülməsi haqqında qərar qəbul etdi. SSRİ-nin və Azərbaycan SSR-in kommunist rəhbərliyi, yerli hakimiyyət orqanları, sərhəd qoşunlarının rəhbərliyi buna mane olmaq üçün bütün hərbi-siyasi təsir vasitələrinə əl atdılar. Lakin buna baxmayaraq AXC Naxçıvan Vilayət şöbəsi ardıcıl olaraq "Sərhəd hərəkatı" adı ilə bir sıra siyasi aksiyalar həyata keçirdi [36, s.216].

Dekabrın 4-də və 12-də bütün sərhəd boyu məşəllər qaldırmaqla və tonqallar yandırmaqla aksiyalar keçirildi. Bu zaman Naxçıvan MSSR-də sərhəd boyu 9 minə qədər adam toplanmış, çadırlar qurulmuş, tonqallar qalanmışdı [6, 1991, 28 may]. Dekabrın 12-də keçirilən sərhəd aksiyasından sonra qəti qərarlaşdırıldı ki, Cənubi Azərbaycanla əlaqələrin yaradılması məqsədilə Araz kənarındakı torpaqların əhalinin istifadəsinə verilməsi üçün tikanlı məftillər sökülsün [88, 1991, 31 dekabr].

Aksiya iştirakçıları hökumət qarşısında 4 tələb irəli sürdü: 1. 1921-ci il Qars müqaviləsi gündəmə gətirilsin. 2.Naxçıvan üzərində Türkiyənin himayəsi bərpa olunsun. İranla danışıqlar aparılıb Naxçıvana şose və dəmiryolu çəkilsin. 3. Cənubi Azərbaycanla sadələşdirilmiş gediş-gəliş təşkil olunsun. 4. Tikanlı çəpərlə Araz çayı arasındakı sahə camaatın istifadəsinə verilsin.

Sərhəd zolağının bir sıra hissəsində - Ordubadda, Culfada, Şahtaxtıda və b. yerlərdə insanlar sərhəd məftillərini sökərək, Arazın o tayında toplanmış həmvətənləri ilə görüşürdülər. AXC Naxçıvan Vilayət şöbəsi dekabrın 23-də sərhəd dəstəsinin komandirinə ultimatum verərək dekabrın 31-dək sərhəddən adamların müəyyən qaydalarla keçməsinə, qohum-qardaşları ilə əlaqə saxlamasına imkan yaratmağı tələb etdi. Lakin razılıq əldə olunmadı [36, s.216].

Sovet imperiyasının rəhbərliyi haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini qaldıran xalqa divan tutmağa hazırlaşırdı. Sərhədlərin pozulması bəhanəsi də onların planlaşdırdığı qanlı qırğına bəraət ola bilərdi. Buna görə də sərhədçilərə müqavimət göstərməmək əmri verilmişdi [5, s.254].



"Sərhəd hərəkatı". 31 dekabr 1989-cu il

Dekabrın 29 və 30-da Naxçıvan MSSR Ali Sovetinin sədri S.Əliyevanın kabinetində Azərbaycan SSR Xarici İşlər naziri H.Sadiqov, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini R.Sadiqov, Azərbaycan SSR Ali Sovetinin göndərdiyi deputat qrupunun üzvləri M.Nəsirov, Ə.Şəkinski, M.Məmmədov və b. ilə aparılan danışıqlar bir daha göstərdi ki, AXC üzvləri, Naxçıvan əhalisi sözlərində qətidir və onların işi haqq işidir.

Dekabrın 30-da axşam Naxçıvan sərhəd qoşunlarının komandiri, polkovnik V.Jukov Naxçıvan televiziyası ilə SSRİ sərhədlərinin toxunulmaz olması və sərhəddi sökmək istəyənlər barəsində ciddi tədbirlərin görüləcəyini bəyan etdi.

Dekabrın 31-də saat 12-də Araz çayı boyu 137 km Sovet-İran sərhəddində həyəcanlar başlandı, minlərlə adam tikanlı məftillərə doğru yürüş etdi, insanlar ölümü belə gözlərinin qarşısına alaraq sərhəd qurğularını dağıtdı [63, v.71]. Nəticədə, SSRİ-nin dövlət sərhəddi boyunca çəkilən tikanlı məftillər elliklə söküldü. Hər iki tərəfdən sahildə toplanmış adamlar Arazı keçib görüşdülər. İlk dəfə olaraq Arazın hər iki sahilində olan insanların ünsiyyət imkanları yarandı, sadələşdirilmiş keçid məntəqələri təşkil edildi. Beləliklə, 1989-cu il 31 dekabr dünya Azərbaycanlılarının həmrəyliyi bayramına çevrildi. 1990-cı ildə isə həmin günün ildönümü respublikanın demokratik qüvvələri tərəfindən geniş qeyd edildi. 1990-cı il yanvarın 7-də isə SSRİ ilə Türkiyə Respublikası arasındakı sərhədlərdə həyəcanlar baş verdi [94, 1990, 9 yanvar]. Yanvarın 18-də Biləsuvar və Cəlilabad rayonlarında sərhəd qurğuları dağıdıldı [12, v.76].

Naxçıvan Muxtar Respublikasından başlanıb Azərbaycanın digər sərhəd rayonlarına da yayılan bu ümumxalq hərəkatına hegemonluq mövqeyindən yanaşan SSRİ və Azərbaycanın kommunist rəhbərliyi, hərbi dairələr qara yaxaraq onu antidemokratik, bir qrup ekstremistin və cinayətkar ünsürün əməli kimi qiymətləndirib, dünya ictimaiyyətinin gözündən salmağa çalışırdılar [36, s.217]. 1990-cı il yanvarın 2-də axşam Moskva televiziyasının "Zaman" xəbərləri belə bir məlumat yaydı: "Azərbaycanın Naxçıvan MSSR ərazisində bir qrup ekstremist İranla sərhədi pozub, sərhəd zolağını, avadanlıqları məhv edib və sərhədçilərlə kobud davranaraq onlara hədə-qorxu gəlib".

Moskvanın təzyiqi altında Azərbaycan KP MK-sı 1990-cı il yanvarın 2-də "Naxçıvan MSSR-də dövlət sərhəddində kütləvi nizamsızlıq haqqında" qərar qəbul etdi. Qərarda sərhəd qurğularının sökülməsi pislənilmiş və bunun respublikamızda yenidənqurma prosesinə ciddi zərbə vurduğu göstərilmişdir [31, 1990, 5 yanvar].

Azərbaycan rəhbərliyi Naxçıvan Vilayət Partiya Komitəsinin rəhbərliyindən və Naxçıvan MSSR sərhəd rayonlarının partiya komitələrinin işindən narazı qalmışdı. Ona görə də 1990-cı il yanvarın 3-də Azərbaycan KP Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi Heydər İsayev tutduğu vəzifədən azad edildi. Onun yerinə Afiyəddin Cəlilov seçildi [88, 1990,18 noyabr]. Rayonların birinci katiblərinə isə (M.C.Abbasova (Şərur), Ə.F.Əliyevə (Babək), Ə.M.Hüseynova (Culfa), T.P.Xudaverdiyevə (Ordubad)) ciddi xəbərdarlıq edildi [72, v.4-5].

Bu hadisələrlə əlaqədar Sov.İKP MK-nın katibi A.N.Girenko, SSRİ Ali Soveti Millətlər Sovetinin sədri R.N.Nişanov, Azərbaycan KP MK-nın birinci katibi Ə.X.Vəzirov, SSRİ DTK-sı sədrinin birinci müavini, ordu generalı Babkov, ordu generalı Varennikov, general-polkovnik Şatalin, general-mayor Şirokin 1990-cı il yanvarın 4-də Naxçıvana gəldilər. Sərhəd hərəkatı ilə bağlı vəziyyəti sabitləşdirmək məqsədi ilə gəlsələr də, bu işlə bacara bilmədilər, alovlanmış milli azadlıq hərəkatını söndürə bilmədilər. Əksinə, Naxçıvandakı görüşlərində onlar əhalinin tələblərinin haqlı olduğunu etiraf etməli oldular [31, 1990, 7 yanvar].

Naxçıvan MSSR rəhbərliyi mövcud vəziyyətdə bir qədər ehtiyatlı tərpənərək hərəkat iştirakçılarına qarşı cəza tədbirləri görülməsini tələb edən Mərkəzin əmrlərini yerinə yetirmədi. "Sərhəd hərəkatı" SSRİ XİN-nin Naxçıvanla İran arasındakı sərhəd zonasında yaşayan əhalinin ünsiyyətini genişləndirmək üçün əməli addımlar atmağa vadar etdi. Həmin nazirliyin bir qrup əməkdaşı 1990-cı il yanvarın 4-6-da Bakıya gələrək sərhəd zonasında sadələşdirilmiş keçid sisteminin yaradılması məsələsini müzakirə etdi [31, 1990, 9 yanvar].

İran İslam Respublikası XİN-in nümayəndələri 1990-cı il yanvarın 9-da Bakıda, Azərbaycan XİN-də sərhəddə ünsiyyət qaydalarının sadələşdirilməsi barədə danışıqlar apardı. Əldə olunan razılığa əsasən həftənin bir günü sərhədboyu ərazidə yaşayan vətəndaşların İranın sərhədboyu regionlarına sərbəst gedişi üçün sadələşdirilmiş viza tətbiq edilirdi.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1990-cı il yanvarın 10-da "SSRİ-nin Dövlət Sərhədi haqqında qanunun Naxçıvan MSSR ərazisində kobud surətdə pozulması haqqında" qərar qəbul etdi. Qərarda sərhəd rejiminin pozulması faktı pislənilsə də, bu hadisənin baş verməsinin obyektiv səbəbləri üstüörtülü də olsa etiraf olunurdu. Belə ki, qərarın ikinci bəndində SSRİ Nazirlər Sovetinə "sərhədyanı rayonlarda əhalinin qaldırdığı konkret məsələlərin həlli üçün Azərbaycan SSR-in respublika və yerli dövlət orqanlarının iştirakı ilə tədbirlər görülməsi" tapşırıldı [31, 1990, 11 yanvar].

Zaqafqaziya Sərhəd Dairəsinin Komandanlığı Naxçıvan MSSR-in sərhəd rayonlarında fövqəladə vəziyyət tətbiq etmək məqsədiylə Naxçıvan rəhbərliyinə məktub da göndərmişdi. Lakin Naxçıvan MSSR rəhbərliyi buna imkan vermədi [26].

Beləliklə, 1988-ci ildən Azərbaycanda başlanan milli-azadlıq hərəkatının



"Sərhəd hərəkatı". 31 dekabr 1989-cu il

Dekabrın 29 və 30-da Naxçıvan MSSR Ali Sovetinin sədri S.Əliyevanın kabinetində Azərbaycan SSR Xarici İşlər naziri H.Sadiqov, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini R.Sadiqov, Azərbaycan SSR Ali Sovetinin göndərdiyi deputat qrupunun üzvləri M.Nəsirov, Ə.Şəkinski, M.Məmmədov və b. ilə aparılan danışıqlar bir daha göstərdi ki, AXC üzvləri, Naxçıvan əhalisi sözlərində qətidir və onların işi haqq işidir.

Dekabrın 30-da axşam Naxçıvan sərhəd qoşunlarının komandiri, polkovnik V.Jukov Naxçıvan televiziyası ilə SSRİ sərhədlərinin toxunulmaz olması və sərhəddi sökmək istəyənlər barəsində ciddi tədbirlərin görüləcəyini bəyan etdi.

Dekabrın 31-də saat 12-də Araz çayı boyu 137 km Sovet-İran sərhəddində həyəcanlar başlandı, minlərlə adam tikanlı məftillərə doğru yürüş etdi, insanlar ölümü belə gözlərinin qarşısına alaraq sərhəd qurğularını dağıtdı [63, v.71]. Nəticədə, SSRİ-nin dövlət sərhəddi boyunca çəkilən tikanlı məftillər elliklə söküldü. Hər iki tərəfdən sahildə toplanmış adamlar Arazı keçib görüşdülər. İlk dəfə olaraq Arazın hər iki sahilində olan insanların ünsiyyət imkanları yarandı, sadələşdirilmiş keçid məntəqələri təşkil edildi. Beləliklə, 1989-cu il 31 dekabr dünya Azərbaycanlılarının həmrəyliyi bayramına çevrildi. 1990-cı ildə isə həmin günün ildönümü respublikanın demokratik qüvvələri tərəfindən geniş qeyd edildi. 1990-cı il yanvarın 7-də isə SSRİ ilə Türkiyə Respublikası arasındakı sərhədlərdə həyəcanlar baş verdi [94, 1990, 9 yanvar]. Yanvarın 18-də Biləsuvar və Cəlilabad rayonlarında sərhəd qurğuları dağıdıldı [12, v.76].

Naxçıvan Muxtar Respublikasından başlanıb Azərbaycanın digər sərhəd rayonlarına da yayılan bu ümumxalq hərəkatına hegemonluq mövqeyindən yanaşan SSRİ və Azərbaycanın kommunist rəhbərliyi, hərbi dairələr qara yaxaraq onu antidemokratik, bir qrup ekstremistin və cinayətkar ünsürün əməli kimi qiymətləndirib, dünya ictimaiyyətinin gözündən salmağa çalışırdılar [36, s.217]. 1990-cı il yanvarın 2-də axşam Moskva televiziyasının "Zaman" xəbərləri belə bir məlumat yaydı: "Azərbaycanın Naxçıvan MSSR ərazisində bir qrup ekstremist İranla sərhədi pozub, sərhəd zolağını, avadanlıqları məhv edib və sərhədçilərlə kobud davranaraq onlara hədə-qorxu gəlib".

Moskvanın təzyiqi altında Azərbaycan KP MK-sı 1990-cı il yanvarın 2-də "Naxçıvan MSSR-də dövlət sərhəddində kütləvi nizamsızlıq haqqında" qərar qəbul etdi. Qərarda sərhəd qurğularının sökülməsi pislənilmiş və bunun respublikamızda yenidənqurma prosesinə ciddi zərbə vurduğu göstərilmişdir [31, 1990, 5 yanvar].

Azərbaycan rəhbərliyi Naxçıvan Vilayət Partiya Komitəsinin rəhbərliyindən və Naxçıvan MSSR sərhəd rayonlarının partiya komitələrinin işindən narazı qalmışdı. Ona görə də 1990-cı il yanvarın 3-də Azərbaycan KP Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi Heydər İsayev tutduğu vəzifədən azad edildi. Onun yerinə Afiyəddin Cəlilov seçildi [88, 1990,18 noyabr]. Rayonların birinci katiblərinə isə (M.C.Abbasova (Şərur), Ə.F.Əliyevə (Babək), Ə.M.Hüseynova (Culfa), T.P.Xudaverdiyevə (Ordubad)) ciddi xəbərdarlıq edildi [72, v.4-5].

Bu hadisələrlə əlaqədar Sov.İKP MK-nın katibi A.N.Girenko, SSRİ Ali Soveti Millətlər Sovetinin sədri R.N.Nişanov, Azərbaycan KP MK-nın birinci katibi Ə.X.Vəzirov, SSRİ DTK-sı sədrinin birinci müavini, ordu generalı Babkov, ordu generalı Varennikov, general-polkovnik Şatalin, general-mayor Şirokin 1990-cı il yanvarın 4-də.Naxçıvana gəldilər. Sərhəd hərəkatı ilə bağlı vəziyyəti sabitləşdirmək məqsədi ilə gəlsələr də, bu işlə bacara bilmədilər, alovlanmış milli azadlıq hərəkatını söndürə bilmədilər. Əksinə, Naxçıvandakı görüşlərində onlar əhalinin tələblərinin haqlı olduğunu etiraf etməli oldular [31, 1990, 7 yanvar].

Naxçıvan MSSR rəhbərliyi mövcud vəziyyətdə bir qədər ehtiyatlı tərpənərək hərəkat iştirakçılarına qarşı cəza tədbirləri görülməsini tələb edən Mərkəzin əmrlərini yerinə yetirmədi. "Sərhəd hərəkatı" SSRİ XİN-nin Naxçıvanla İran arasındakı sərhəd zonasında yaşayan əhalinin ünsiyyətini genişləndirmək üçün əməli addımlar atmağa vadar etdi. Həmin nazirliyin bir qrup əməkdaşı 1990-cı il yanvarın 4-6-da Bakıya gələrək sərhəd zonasında sadələşdirilmiş keçid sisteminin yaradılması məsələsini müzakirə etdi [31, 1990, 9 yanvar].

İran İslam Respublikası XİN-in nümayəndələri 1990-cı il yanvarın 9-da Bakıda, Azərbaycan XİN-də sərhəddə ünsiyyət qaydalarının sadələşdirilməsi barədə danışıqlar apardı. Əldə olunan razılığa əsasən həftənin bir günü sərhədboyu ərazidə yaşayan vətəndaşların İranın sərhədboyu regionlarına sərbəst gedişi üçün sadələşdirilmiş viza tətbiq edilirdi.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1990-cı il yanvarın 10-da "SSRİ-nin Dövlət Sərhədi haqqında qanunun Naxçıvan MSSR ərazisində kobud surətdə pozulması haqqında" qərar qəbul etdi. Qərarda sərhəd rejiminin pozulması faktı pislənilsə də, bu hadisənin baş verməsinin obyektiv səbəbləri üstüörtülü də olsa etiraf olunurdu. Belə ki, qərarın ikinci bəndində SSRİ Nazirlər Sovetinə "sərhədyanı rayonlarda əhalinin qaldırdığı konkret məsələlərin həlli üçün Azərbaycan SSR-in respublika və yerli dövlət orqanlarının iştirakı ilə tədbirlər görülməsi" tapşırıldı [31, 1990, 11 yanvar].

Zaqafqaziya Sərhəd Dairəsinin Komandanlığı Naxçıvan MSSR-in sərhəd rayonlarında fövqəladə vəziyyət tətbiq etmək məqsədiylə Naxçıvan rəhbərliyinə məktub da göndərmişdi. Lakin Naxçıvan MSSR rəhbərliyi buna imkan vermədi [26].

Beləliklə, 1988-ci ildən Azərbaycanda başlanan milli-azadlıq hərəkatının

şanlı səhifələrindən olan Naxçıvanın "Sərhəd hərəkatı" uzun illərin həsrətinin nəticəsi kimi meydana çıxmışdır. Bu hadisə "Səhər" qəzetinin 1990-cı il 13 yanvar tarixli nömrəsində "Oda düşdü, oda salan" başlıqlı məqalə ilə geniş şərh edilmiş, respublika ictimaiyyətinə ilk dəfə olaraq obyektiv məlumat verilmişdi.

1989-cu ilin 31 Dekabrı Dünya Azərbaycanlılarının Həmrəyliyi bayramına çevrildi. 1990-cı ildən isə həmin günün ildönümü respublikanın demokratik qüvvələri tərəfindən geniş qeyd edildi. "Sərhəd hərəkatı" rəsmi səviyyədə siyasi və tarixi qiymətini ilk dəfə məhz Naxçıvanda, ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli sessiyasında almışdı. Ulu öndər Dünya Azərbaycan türklərinin Milli Həmrəylik və Birlik günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında müzakirə olunmasını, siyasi əhəmiyyətli qərar qəbul edilməsini, Azərbaycan türklərinin uzun illər ayrıldıqdan sonra birləşməsi yolunda ilk addım kimi qiymətləndirmişdi [36, s.208].

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr tarixli sessiyasında 31 Dekabrın Azərbaycanda Milli Həmrəylik və Birlik Günü kimi elan edilməsi, hər il bayram edilməsi, həmin günün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməməsi haqqında tarixi qərar qəbul edildi. Sessiyada qeyd edildi ki, "...Naxçıvanın mütərəqqi qüvvələri tərəfindən "Sərhəd hərəkatı" adı altında həyata keçirilən tədbirlər indi artıq özünün siyasi və tarixi qiymətini alır və dünya Azərbaycan türklərinin həmrəyliyinin və birliyinin nə qədər zəruriyyət kəsb etdiyini nümayiş etdirir" [37, s.265].

4. Naxçıvana erməni təcavüzü. Naxçıvanlıların ermənilərə qarşı mübarizəsi

Dağlıq Qarabağ münaqişəsi başlayandan erməni işğalçıları Naxçıvanın sərhəd kəndlərini atəşə tutur, kommunikasiyaları kəsir, dəmiryol qatarlarının hərəkətinə mane olurdular. 1989-cu il aprelin əvvəllərində ermənilərin Naxçıvana hücumu nəticəsində Sədərək kəndində vəziyyət gərginləşdi. Buna səbəb kəndə məxsus "Həsənqulu bağı" adlanan yerə ermənilər tərəfindən istifadə edilmək üçün texnikanın gətirilməsi oldu. 94 hektardan bir qədər artıq olan bu ərazidən [14, s.19, 20] Sədərək əhalisi istifadə etmişdir. Ancaq tarixi faktları araşdırarkən aydın olur ki, Azərbaycan MİK-nin 1938-ci il 5 may tarixli qərarı ilə Naxçıvan MSSR-in Kərki kəndi ətrafındakı torpaqların bir hissəsi Ermənistan SSR-ə verilmiş, daha sonra 1969-cu il 7 mayda yenə də Naxçıvan əhalisindən gizli şəkildə və beynəlxalq Qars müqaviləsinə zidd olaraq Azərbaycan SSR Ali Soveti Mərkəzi orqanlarının təsiri və səyi nəticəsində Naxçıvan MSSR-in Ermənistan SSR ilə sərhədləri barədə yeni bir qərar qəbul edilmişdir. Bu qərar əsasında Naxçıvan MSSR ərazisindən 191,9 hektar əkinə yararlı torpaq sahəsi Ermənistan SSR-ə verilmiş və bunun müqabilində Ermənistan SSR-dən 319,5 hektar əkinə tam yararsız torpaq

sahəsi alınmışdır [14, s.22]. Həmin qərar nəticəsində Naxçıvan MSSR ərazisindən təcrid olunmuş Kərki kəndinin ermənilər tərəfindən işğal edilməsi üçün şərait yaranmışdır.

1969-cu ilin iyulunda Heydər Əliyev Azərbaycan KP MK-ın birinci katibi seçilmiş və həmin fərmanın icrasına imkan verməmişdir. Ulu öndər Moskvaya yüksək vəzifəyə getdikdən 3 il sonra, yəni 1985-ci ildə sərhəd rayonlarından xeyli ərazi, o cümlədən Sədərək ərazisindəki "Həsənqulu bağı" ermənilərə verilmişdir. Bunun müqabilində Ermənistan SSR başqa yerdən Azərbaycan SSR-ə torpaq sahəsi ayırıb verməli olsa da, bu icra olunmamışdır. Göründüyü kimi, müxtəlif yollarla muxtar respublikanın bir sıra torpaqları Ermənistan SSR-ə verilmişdir.

1988-ci ilin mart ayından başlayaraq Azərbaycan dəmiryolunun Qarçevan- Mehri hissəsində ermənilər sərnişin və yük qatarlarının hərəkətinə mane olur, sərnişinlərə, lokomotivlərin sürücülərinə və qatarlara zərər yetirirdilər. Təkcə 1988-ci ilin martından 1989-cu ilin iyulunadək dəmiryolunun Ermənistan SSR-dən keçən ərazisində 27 dəfə qatarların hərəkətinə maneələr törədilmişdi [14, s. 23].

Naxçıvan MSSR-ə gələn qatarlar Mehri stansiyasında saxlanılmış, onların sürücüləri döyülmüşdür. 1989-cu il 24 iyulda dəmiryolu partladılmış, nəticədə qatarların hərəkəti dayanmışdı. İyulun 28-də Ermənistan SSR və Naxçıvan MSSR nümayəndələrinin danışıqları isə heç bir nəticə verməmişdir. Dəmiryolunda baş vermiş hadisələrlə bağlı Culfa şəhərində üç günlük mitinq keçirilmişdir. Rayonda yaranmış vəziyyətlə əlaqədar olaraq Azərbaycan KP MK-nın II katibi V.Y.Polyaniçko, respublikanın bir sıra məsul işçiləri, Naxçıvan Vilayət Partiya Komitəsinin I katibi H.İ.İsayev rayona gələrək mitinq iştirakçıları ilə görüşdülər. Görüş zamanı mitinq iştirakçılarının tələbi ekstremistlər haqqında ciddi tədbir görmək, lokomotivçilərin tələbi isə Mehri rayonu ərazisindən keçən dəmiryolunun təhlükəsizliyini təmin etməkdən ibarət olmuşdur [14, s. 25].

Ermənistan və muxtar respublika rəhbərlərinin yeni görüşü keçirilmiş və vəziyyətin normal hala salınması üçün qarşılıqlı tədbirlər müəyyənləşdirilmişdir. Bu tədbirlər nəticəsində 1989-cu il avqustun 1-dən qatarların hərəkəti qısa müddətə bərpa olundu.

1989-cu ilin oktyabr ayının əvvəllərində Mehri və Qarçevan stansiyalarının ərazisində ermənilər maşinistlərə atəş açmış, qatarlara qarşı təxribatlar törətmiş, lakin bunların qarşısı alınmışdır. 1989-cu il iyulun əvvəllərindən ermənilər Naxçıvandan Bakı, Gəncə, Yevlax və Naftalana gedən sərnişin avtobuslarının qarşısını kəsərək buraxmamışlar.

Erməni yaraqlıları sərhəd kəndləri yaxınlığında olan xeyli sayda qoyun və mal-qaranı oğurlayıb aparırdılar. Ermənilər 1989-cu il 15 iyulda Şərur rayonunun Günnüt kəndi ərazisindən 219 baş, Keçəldağ yaylağında olan 1286 baş xırdabuynuzlu,

39 baş iribuynuzlu heyvanı oğurlayıb aparmışlar. 1989-cu ilin avqust-sentyabr aylarında erməni silahlı quldurları Şahbuz rayonunun yaylaqlarından 300 başa qədər xırdabuynuzlu, 20 baş iribuynuzlu heyvanı və 60-a yaxın at, ulağı silah tətbiq etməklə Ermənistana aparmışlar.

Dekabrın 14-də Şərurun Sədərək, Günnüt və Havuş kəndləri ermənilər tərəfindən güclü atəşə tutuldu [36, s. 757]. 1990-cı il yanvarın 15-də üç minə yaxın erməni quldurları Kərki kəndinə basqın etdilər. Kənddə olan cəmi 19 nəfər kərkili, 3 nəfər rayon DİŞ əməkdaşı, 6 hərbçi 3 minlik müasir silahlarla silahlanmış erməni quldurlarının qarşısını kəsdilər. Yanvarın 17-də kənddə vəziyyət daha da ağırlaşdı. Buna görə də Kərkini müdafiə edən 34 mülki vətəndaş və 2 polis işçisi rus hərbçilərinin tələbi ilə kəndi tərk etdilər [72, s. 44]. Daxili xidmət qoşunları kəndin müdafiəsini öz üzərinə götürdü. Ordu nümayəndələrinin göstərişi ilə kəndi qoruyan daxili xidmət qoşunları da Kərkidən çıxarıldı. Yanvarın 18-19-da Kərki kəndi SSRİ Müdafiə Nazirliyi 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olundu [36, s. 757]. Beləliklə, təqribən iki il ərzində ermənilərə qarşı layiqli müqavimət göstərən Kərki kəndi xəyanətin və biganəliyin qurbanı oldu. Kərki kəndinin işğalından sonra ermənilərin Sədərəyə, Gərməçatağa, Buzqova, Şadaya, Günnütə, Cağazirə və başqa yaşayış məntələrinə hücumları artdı.

1990-cı il yanvarın 17-də erməni işğalçıları muxtar respublikaya qarşı daha bir cinayətə əl atdılar. Onlar Gorus rayonunda yerləşən Üçtəpə radioteleötürücü stansiyasına gələn xətləri kəsməklə Naxçıvan Muxtar Respublikasına ötürülən televiziya və radio verilişlərini dayandırdılar. Muxtar respublika tam informasiya blokadasına alındı [88, 1990, 19 yanvar].

Sovet qoşunlarına arxalanan ermənilər Sədərək kəndinin sərhəddə yerləşən mebel sexi və şərab zavoduna hücum etdilər. Lakin Naxçıvanın igid müdafiəçiləri qeyri-bərabər döyüşdə düşmənin qarşısını almağa və onları çoxlu itki verərək geri çəkilməyə məcbur etdilər. İşğalçılıq niyyətindən əl çəkməyən düşmən Sədərəyi raket, top, pulemyot, avtomat atəşinə tutmaqla yenidən hücuma keçdilər. Düşmən böyük itki vermişdi. Buna baxmayaraq, geri çəkilmək istəmirdi. 1990-cı il yanvarın 19-da Sədərəyin müdafiəsi təmin olunsa da, ölən və yaralananlar da var idi. Kapitan Azər Seyidov mühasirəyə düşmüşdü. Onu azad etmək üçün Məhərrəm Seyidov yenidən döyüşə atılır. O, güllə yağışı altında özünü Azərə yetirir. İndi onun özü də düşmən əhatəsində qalmışdı. Çətinliklə olsa da, öz döyüş yoldaşını mühasirədən çıxarır, lakin özü qəhrəmancasına həlak olur. Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə kapitan Seyidov Məhərrəm Mirəziz oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

Qırğınların qarşısını almaq məqsədilə 2-3 saat ərzində 7-8 min dinc əhali kənddən təhlükəsiz yerə çıxarılır, kənddə yalnız əli silah tutanlar qalırdı. Bu dö-

yüşdə Naxçıvan, Şərur, Şahbuz, Culfa, Babək və digər rayon və kəndlərdən gələn mərd oğullar Sədərəyə kömək göstərirlər.

1990-cı ilin martından başlayaraq Naxçıvanın Ermənistanla sərhəddində vəziyyət yenidən gərginləşməyə başladı. Ermənilər Novruz bayramı günü Naxçıvana hücum etmək niyyətində idilər. 1990-cı il 17-21 martda sərhədyanı rayonlarda daxili işlər orqanları lazımi tədbirlər görürdü. 16 sərhəd kəndində milis postları yaradıldı ki, hər postda 48 milis işçisi gündəlik fəaliyyət göstərirdi. Nizami ordu kimi fəaliyyət göstərən erməni quldurları martın 24-dən Sədərək kəndinə, Şahbuz rayonunun Şada, Babək rayonunun Yuxarı və Aşağı Buzqov, Gərməçataq kəndlərinə aramsız basqınlar edirdilər. Həmin gün Şərur-Bakı sərnişin qatarı Mehri rayonundan keçərkən ermənilər tərəfindən partladıldı. Mərkəzdən muxtar respublikaya "vəziyyətlə tanış olmaq və zəruri tədbirlər görmək" adı ilə saysız-hesabsız nümayəndələr gəlsələr də, bu səfərlərin heç bir nəticəsi olmadı.

1990-cı il martın 26-da SSRİ Daxili İşlər nazirinin müavini, daxili qoşunların komandanı, general-polkovnik A.Şatalinin Naxçıvana gələrək sərhəddəki gərgin vəziyyətlə tanış olması da vəziyyəti dəyişmədi. Martın 26-27-də ermənilər Şada kəndini ələ keçirmək üçün yeni hücum təşkil etdilər. Lakin yerli əhalinin, muxtar respublikanın müxtəlif yerlərindən gələn könüllülərin və milis əməkdaşlarının köməkliyi ilə quldurların qarşısı alındı.

Döyüşdə həm polis işçilərindən, həm də könüllülərdən ağır yaralananlar var idi. Yaralananların bəzilərini döyüş meydanından çıxarmaq mümkün olmurdu. Həmin dövrdə Naxçıvan VPK-nın birinci katibi Afiyəddin Cəlilovun Naxçıvan Muxtar Respublikasında yerləşən diviziya komandiri ilə döyüş bölgəsinə getməsi və vertolyot gətirməsi sayəsində mühasirədə olan yaralıları döyüş meydanından çıxarmaq mümkün oldu. Azğınlaşmış ermənilər martın 27-də pulemyot və artilleriyanın köməyi ilə Şada kəndini daha amansız şəkildə atəşə tutdular. Bu döyüşlərin nəticəsində 6 nəfər ağır yaralandı [14, s. 43; 36, s. 758]. Yaralıları döyüş meydanından çıxaran zaman 2 təcili yardım maşını, 3 UAZ-469 markalı maşın, bir BTR atəşə tutuldu.

Mart döyüşlərində muxtar respublikanın Sədərək, Gərməçataq, Günnüt, Buzqov kəndlərinin işğalı təhlükəsini nəzərə alaraq əhali oradan çıxarılmışdı. Kənd-lərdə yalnız döyüş qabiliyyətli cavanlar qalmışdı.

Martın 28-də Babək rayonunun Aşağı Buzqov və Ermənistanın Gülüstan kəndi ərazisində Naxçıvan Vilayət Partiya Komitəsinin I katibi A.Cəlilovun Ermənistan SSR Nazirlər Soveti sədrinin I müavini V.Doyanla görüşü oldu. Görüşdə Y.Şatalin və digər yüksək rütbəli zabitlər iştirak edirdi [66, v.3-8]. Lakin bu danışıqlar bir nəticə vermədi. Əksinə, ermənilər Gərməçatağa hücum edib 10-dan çox evi yandırdılar. Kəndə 494012 rubl məbləğində ziyan vuruldu [80, v.37].

Sədərək kəndinin müntəzəm atəşə tutulması nəticəsində burada 60 ev dağılmış, kəndə xeyli maddi ziyan dəymişdi. Kənd əhalisi arasında çoxlu sayda yaralananlar

var idi. Sədərəklə ermənilər arasında sovet hərbçilərindən ibarət təhlükəsizlik zonası yaradılsa da, ermənilər asanlıqla bu zonanı dəf edərək kəndə yaxın ərazilərə daxil olmuş, əlverişli mövqe tutmuşdular [66, v.3-8].

Sərhədyanı kəndlərin müdafiəsini möhkəmləndirmək üçün martın 29-da Bakıdan Naxçıvana daxili qoşunların 150 nəfərdən ibarət bölməsi gətirildi və Ermənistanla sərhəd kəndlərində yerləşdirildi.

1990-cı il aprelin 1-də Sədərək kəndində Naxçıvan Vilayət Partiya Komitəsinin I katibi A.Cəlilov, Naxçıvanın hökumət, hüquq-mühafizə orqanlarının nümayəndələri ilə Ermənistan KP MK katibi M.Serobyan, Ermənistanın hökumət, hüquq-mühafizə orqanları nümayəndələri arasında danışıqları oldu. Danışıqlarda Y.Şatalin və digər yüksək rütbəli hərbçilər də iştirak edirdi. Görüş zamanı Azərbaycan dəmir yolunun normal işləməsinin təmin edilməsi, Ermənistan SSR-in Azərbaycanla sərhədyanı rayonlarda, habelə Azərbaycan dəmir yolunun Ermənistandan keçən ərazisində fövqəladə vəziyyət elan edilməsi məsələsi müzakirə olundu. Lakin əvvəlki görüşlər kimi, bu görüş də heç bir nəticə vermədi [31, 1990, 3 aprel].

Erməni quldurları aprelin 21-23-də Şərur rayonunun Günnüt kəndi yaxınlığındakı əraziyə soxularaq, orada çəkilməkdə olan yolda istifadə edilən texnikaların bəzilərini aparmış, apara bilmədiklərini isə dağıdaraq sıradan çıxarmışlar.

1990-cı il mayın 24-də Naxçıvan Vilayət Partiya Komitəsinin bürosunda Sədərək kəndinin Ermənistanla sərhəddə yerləşməsini, sosial-iqtisadi inkişafının sürətləndirilməsinin əhəmiyyətini, əhalinin çoxsaylı müraciətlərini, onun muxtar respublikanın mərkəzindən uzaqda yerləşməsini nəzərə alaraq Şərur rayonunun Sədərək, Dəmirçi və Maxta kənd sovetliklərinin bazasında Sədərək rayonunun yaradılmasının zəruriliyi haqqında qərar qəbul edilmiş və bu məsələ ilə əlaqədar Azərbaycan SSR Ali Sovetinə müraciət olunmuşdu [68, v. 5]. Həmin il 28 avqustda Azərbaycan SSR Ali Soveti Sədərək rayonunun təşkili haqqında qərar qəbul etdi [54, s. 256].

Erməni quldurları Naxçıvan Muxtar Respublikasının kolxoz və sovxozlarının, şəxsi təsərrüfatların iribuynuzlu və xırdabuynuzlu heyvanlarını oğurlayır və Ermənistana aparırdılar. 1990-cı il iyunun 9-da Ermənistan SSR-in Vayk rayonu ərazisindən 30 nəfər silahlı quldur dəstəsi Şahbuz rayonunun "Qanlı göl" yaylağından C.Cabbarlı adına sovxozun 105 baş malını Ermənistana aparmışlar. Iyunun 11-də yenə bir qrup erməni silahlı dəstəsi Ararat rayonunun Sovetaşan kəndi istiqamətindən Günnüt kəndinə (Şərur rayonu) hücum edərək mal-qaranı aparmağa cəhd göstərsələr də, kəndi qoruyan milis əməkdaşları buna imkan verməmişlər [88, 1990, 14 iyun].

1990-cı il avqustun 29-da Azərbaycan SSR Ali Soveti "Naxçıvan MSSR-in təhlükəsizliyini və ərazi bütövlüyünü təmin etmək və Ermənistan tərəfindən zəbt olunmuş Kərki kənd Xalq Deputatları Sovetinin ərazisini azad etmək tədbirləri haqqında" qərar qəbul etdi. Qərarda Ermənistan SSR-in Mehri rayonu ərazisində

avtomobil və dəmir yolunun bağlanması nəticəsində muxtar respublikada yaranmış çətin və ağır vəziyyətdən, Şərur rayonunun Kərki kəndinin işğal edilərək sakinlərinin didərgin salınmasından, kəndin adının dəyişdirilməsindən və başqa məsələlərdən bəhs edilir.

Sentyabrın 5-də Sədərəkdəki yoxlama-buraxılış məntəqəsində Ermənistan nümayəndələri ilə Naxçıvan nümayəndələri arasında danışıqlar oldu. Danışıqlarda sərhəd kəndlərinin atəşə tutulmasının qarşısının alınması, sərhəddə əmin-amanlığın yaradılması, erməni silahlı dəstələrinin tərksilah edilməsi, Kərki kəndinin boşaldılması məsələləri müzakirə edildi. Erməni tərəfinin yenə də qey-ri-müəyyən mövqeyi üzündən danışılan məsələlərdə razılığa gəlmək mümkün olmadı.

5. Naxçıvan MSSR-in SSRİ tərkibindən çıxması

XX əsrin 90-cı illərinin əvvəlində bütün respublikada olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da vəziyyət olduqca gərgin idi. Ölkədə yaranmış şəraitdən istifadə edən Ermənistan hakimiyyət dairələri Azərbaycana, o cümlədən Naxçıvana qarşı iddialarını açıq silahlı təcavüz yolu ilə gerçəkləşdirmişdi. Naxçıvan diyarı çətin sınaqlar qarşısında qalmışdı. Əhali mərkəzin ikili siyasətindən və Azərbaycan rəhbərliyinin ögey münasibətindən ciddi narazı idi. Ona görə də burada fasiləsiz izdihamlı mitinqlər keçirilirdi. Mərkəz Naxçıvanda xalqa divan tutmaq məqsədilə fövqəladə vəziyyət elan edilməsi üçün təzyiqlər göstərirdi. Lakin bütün cəhdlərə baxmayaraq buna nail ola bilmədi.

Ermənistan silahlı qüvvələri tez-tez Naxçıvan MSSR-nin sərhəd kəndlərinə basqınlar edir, Naxçıvan MSSR Ermənistan SSR-dən zorla qovulan azərbaycanlıları qəbul edir və yerləşdirirdi. Muxtar respublika Ermənistan tərəfindən blokadaya alınmışdı. Ermənilər Azərbaycan dəmir yolunun Ermənistanın Mehri rayonu ərazi-sindən keçən hissəsində qatarların hərəkətinə mane olur, onları atəşə tuturdular. Ermənilərin təcavüzkar hərəkətlərinin qarşısını almaq, muxtar respublika əhalisinin təhlükəsizliyini qorumaq üçün heç bir real addım atılmadığını görən xalq özü təşkilatlanır, özünümüdafiə və könüllü dəstələri yaradırdı.

Şərur rayonunun Kərki kəndi 18-19 yanvar 1990-cı ildə sovet ordusunun kö-məyi ilə ermənilər tərəfindən işğal olunaraq [36, s. 757] kəndin 320 sakini qovulub çıxarıldı. Kərki kəndinin işğalı vəziyyəti daha da gərginləşdirdi.

Naxçıvanın ərazi bütövlüyünün pozulması, ermənilərin Naxçıvan MSSR-ə bütün sərhəd boyunca silahlı hücum etməsi, əhalinin həyatının təhlükə qarşısında qalması, bunlarla bağlı ittifaq orqanlarının tədbir görməməsi Naxçıvan əhalisini ən radikal addımlar atmağa məcbur etdi. Naxçıvan MSSR Ali Sovetinin binası qarşısında toplanmış 20 mindən çox əhali Muxtar Respublika Ali Sovetinin fövqəladə sessiyasının çağırılmasını tələb edirdi. Xalqın tələbi və təzyiqi altında

1990-cı il yanvarın 19-da çağırılmış sessiya Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxması haqqında məsələni müzakirə etdi.

Naxçıvan MSSR Ali Sovetinin fövqəladə sessiyası muxtariyyət statusundan istifadə edərək SSRİ adlı bir imperiyaya qarşı kəskin etiraz formasını seçdi. Bu etiraz bütün dünyaya səs saldı. Müttəfiq respublikanın tərkibində olan Naxçıvan Muxtar Respublikasının Ali Soveti sovet rejiminə qarşı yönəldilən və onun müəyyən mənada iç üzünü açan cəsarətli bir qərar qəbul etdi. SSRİ-nin Əsas Qanununun (Konstitusiyasının) 81-ci maddəsinə əsaslanan Naxçıvan parlamenti Azərbaycan SSR-in, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan MSSR-in suverenliyi və ərazi bütövlüyü müdafiə edilmədiyindən mühüm tarixi qərar qəbul etdi. Məqsəd Azərbaycanda baş verən hadisələrə, sovet ordusunun qanlı əməllərinə dünya ictimaiyyətinin diqqətini cəlb etmək idi və bu, müəyyən rol oynaya bildi [36, s. 757].

"Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" Naxçıvan MSSR Ali Sovetinin qərarı ilə "Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşların həyatı təhlükə qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan" Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etdi. Bununla əlaqədar qəbul edilmiş qərarda deyilirdi:

"1. Naxçıvan MSSR SSRİ tərkibindən çıxaraq özünü müstəqil respublika elan edir. 2. Qars müqaviləsinin şərtlərinə uyğun olaraq Naxçıvan Respublikasının ərazi bütövlüyünü qorumaq və kütləvi insan qırğınlarının qarşısını almaq məqsədilə Türkiyə Respublikasına müraciət edilsin. 3. Yaranmış vəziyyətlə əlaqədar Birləşmiş Millətlər Təşkilatına, İran İslam Respublikasına və dünyanın bütün dövlətlərinə kömək məqsədilə müraciət olunsun. 4. Naxçıvan Muxtar Respublikası ərazisində olan Sovet qoşun hissələri respublikadan çıxarılsın. 5. SSRİ Ali Sovetindən tələb edilsin ki, Naxçıvan Muxtar Respublikasına edilən təcavüzə son qoyulsun. 6. Qərar Azərbaycan SSR və SSRİ dövlətlərinin nəzərinə çatdırılsın" [88, 1990, 20 yanvar].

Eyni zamanda, Ali Sovetin 19 yanvar 1990-cı il tarixli sessiyası Naxçıvan MSSR Ali Sovetinin qərarını dünya ictimaiyyətinə çatdırmaq, qonşu və dost ölkələrdən kömək istəmək məqsədilə İran və Türkiyə ilə danışıqlar aparmaq üçün xüsusi nümayəndə heyətinin tərkibini təsdiq etdi. İran İslam Respublikasına gedəcək nümayəndə heyətinin tərkibinə T.Əliyev, R.Axundov, Q.Allahverdiyev, S.Axundov və b., Türkiyə Cümhuriyyətinə gedəcək nümayəndə heyətinə isə E.İbrahimov, Y.Babayev, Ə.Şamilov, S.Əkbərov və b. daxil idi. Nümayəndələrin bir qismi gedə bilməsə də, bəziləri qeyri-leqal şəkildə İrana keçə bildilər [1, s. 68].

Naxçıvanlılar öz azadlıqsevərliklərini bir daha nümayiş etdirərək Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını Naxçıvan MSSR Ali Sovetinin binasının

üzərinə sancdı. Bu müqəddəs bayraq orada bir həftə dalğalandı. 1990-cı il yanvarın 27-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxması haqqında qərarını ləğv etsə də [31, 1990, 28 yanvar], həmin qərarın Naxçıvanın taleyi üçün böyük əhəmiyyəti oldu. SSRİ tarixində ilk dəfə olaraq muxtar qurumun özünü müstəqil elan etməsi faktı dünya ictimaiyyətinin diqqətini Sovet imperiyasının və onun əlaltısı olan Ermənistanın Azərbaycana, onun tərkib hissəsi olan Naxçıvana qarşı təcavüzkarlıq hərəkətlərinə yönəltməyə nail oldu. Bu aksiyadan sonra mərkəz Bakıda törətdiyi cinayəti Naxçıvanda təkrar edə bilmədi. Ermənilərin muxtar respublikaya hücumları müvəqqəti də olsa dayandı.

Sonralar Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxması haqqında Naxçıvan MSSR Ali Sovetinin məlum qərarını nəzərdə tutan ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, "Mən Moskvada olarkən... eşitdim ki, naxçıvanlılar Naxçıvan Muxtar Respublikasının Sovetlər İttifaqının tərkibindən çıxması haqqında qərar qəbul ediblər.

İndi Sovetlər İttifaqı dağılıb. O vaxtdan çox illər keçib, çox şeylər unudulub. Sovetlər İttifaqına mənsub olmuş ölkələr öz müstəqilliyini əldə ediblər. Ancaq naxçıvanlıların bu cəsarətli addımı o vaxt Sovetlər İttifaqında yeganə bir addım idi. Bu xəbər bütün dünyaya yayıldı ki, Naxçıvan Muxtar Respublikası Sovetlər İttifaqından çıxmaq barədə qərar qəbul etdi. Bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevən və müstəqilliyə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi, nümayiş etdirdi" [83, s. 33].

Naxçıvan MSSR Ali Sovetinin 19 yanvar tarixli sənədlərinin yerli teleradio vasitəsilə 7 dildə dünya ictimaiyyətinə çatdırılması, dünyanın bir sıra informasiya agentliklərinin diqqətini cəlb etmişdi. Buna görə də imperiya rəhbərliyi Dövlət Təhlükəsizliyi Komitəsi və Müdafiə Nazirliyinin Naxçıvandakı nümayəndələri vasitəsi ilə muxtar respublikanın rəhbərlərinə və xalq hərəkatına təzyiq göstərməyə başladılar. Aparılan danışıqlar nəticəsində Naxçıvana gətirilmiş və xalqa divan tutmaq üçün istifadə edilməsi nəzərdə tutulmuş əlavə qoşun hissələrinin çıxarılmasına nail olundu.

Beləliklə, Naxçıvan Muxtar Respublikası müxtariyyət statusunun verdiyi qanuni imkanlardan istifadə edərək öz sözünü dedi və bununla SSRİ rəhbərlərinin ikili siyasətini və Ermənistanın təcavüzkar hərəkətlərini dünyaya bəyan etdi. "Muxtar Respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan onun SSRİ tərkibindən çıxması haqqında" qərar qəbul etməsində əsas məqsəd Azərbaycan SSR-də, o cümlədən Naxçıvan MSSR-də baş verən hadisələrə, Sovet ordusunun qanlı əməllərinə dünya ictimaiyyətinin diqqətini cəlb etmək idi və bu, müəyyən rol oynadı.

6. Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıdışı

1990-cı il 20 Yanvar faciəsi Azərbaycanın əsl rəhbərinin olmamasından baş verdi. Xalq başsız qalmışdı, vahimə içində idi. Azərbaycan xalqı birmənalı şəkildə etiraf edirdi ki, Heydər Əliyev Azərbaycan rəhbərliyində olsa idi, nə Dağlıq Qarabağ məsələsi, nə də 20 Yanvar faciəsi olmayacaqdı.

Yanvarın 21-də ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək burada təşkil olunmuş 6 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda iştirak etdi, bu ağır günlərdə doğma xalqı ilə birgə olduğunu bildirdi. O, çıxışında və verdiyi müsahibələrdə 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Ölkə rəhbərliyini ciddi tənqid etdi, imperiya rəhbərlərini "qatillər" adlandırdı [87, s. 45]. Ulu öndər Sovet dövlətinin səhv siyasətinə qarşı açıq və kəskin etirazını bildirdi. SSRİ kimi nəhəng bir imperiyada 90-cı illərin əvvəllərində belə çıxış hədsiz dərəcədə böyük cəsarət tələb edirdi. Dünya siyasətçiləri onu uzaqgörən, müdrik, səriştəli dövlət adamı kimi qiymətləndirir, azərbaycanlılar isə millətin qüruru, lideri kimi sevirdilər.

Azərbaycan xalqının böyük əksəriyyəti rastlaşdığı mövcud problemlərin yalnız ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə öz həllini tapa biləcəyinə inanaraq, onun respublika rəhbərliyinə qaytarılmasını təkidlə tələb edirdi. Bu hərəkatın ən fəal iştirakçısı isə naxçıvanlılar idi. 1988-ci ildən muxtar respublikada geniş vüsət alan mitinq və yürüşlərə xalq ulu öndər Heydər Əliyevin portreti ilə çıxır, öz milli liderinə qarşı aparılan haqsız təqib kampaniyalarına son qoyulmasını tələb edirdilər. 20 Yanvar faciəsi ilə əlaqədar çıxışından sonra isə ona təzyiqlər daha da artmışdı. Bütün qadağa və təzyiqlərə baxmayaraq ulu öndər 1990-cı ilin martın 17-də keçirilən Naxçıvan şəhər Partiya Təşkilatının növbəti konfransında Azərbaycan KP XXXII qurultayına nümayəndə seçildi.

Moskvada ciddi təqiblər və nəzarət altında yaşayan Heydər Əliyev doğma Azərbaycana qayıtmaq qərarına gəlmişdi. SSRİ və Azərbaycan rəhbərləri bundan bərk narahat olmuşdular. Onun Azərbaycana qayıtmasına mane olmağa çalışırdılar. Ayaz Mütəllibov Moskvaya Heydər Əliyevə xəbər göndərib bildirmişdi ki, onun qayıdışı ilə "Azərbaycanda böyük qarışıqlıqlar baş verə bilər" [87, s. 46]. Bakı hava limanında ulu öndər Heydər Əliyevi qarşılayacaq şəxslərdən biri, görkəmli naşir Əjdər Xanbabayev 1990-cı il mayın 30-da qətlə yetirildi [27, s. 8].

1990-cı il iyulun 20-də Moskvadan Bakıya qayıdan ümummilli lider Heydər Əliyev əslində ölkənin paytaxtında yaşamalı idi. Çünki o, Moskvaya Bakıdan getmişdi. Bakıdakı ən mötəbər sarayları, binaları, mikrorayonları məhz o tikdirmişdi və SSRİ kimi nəhəng dövlətin rəhbərlərindən biri kimi Bakıda yaşamağa tam mənəvi haqqı var idi. Nəinki haqqı vardı, hətta dövlət bunu öz öhdəsinə götürməliydi. Çünki "Sovet Azərbaycanının tarixində "Əliyev dövrü" ən məhsuldar dövr olub.

Nə nailiyyətlərin miqyasına, nə də sosial-iqtisadi yekunlarına görə XX əsrdə bu dövrün bərabəri yoxdur. Bunu təkcə Azərbaycanın müxtəlif siyasi baxışlara malik tarixçiləri və iqtisadçıları deyil, bir çox ölkələrin görkəmli dövlət xadimləri və alimləri də etiraf edirlər" [91, s. 414].

20 Yanvar faciəsində tökülən qanların üstündən adlayaraq hakimiyyətə gələn Ayaz Mütəllibov ulu öndər Heydər Əliyevin Bakıda yaşamasına imkan vermədi.

İqtidardan fərqli olaraq xalq ümummilli lider Heydər Əliyevin Bakıya qayıdışını böyük ümid və sevinclə qarşıladı. Ulu öndər bununla əlaqədar demişdir:"..O vaxtkı mürtəce qüvvələr, Azərbaycan xalqının milli mənafeyinə zidd olan qüvvələr mənə Bakıda yaşamağa imkan vermədilər. Mən Naxçıvana gəldim" [92, 2003, 22 iyul].

Xalqımızın yenilməz oğlu iyulun 22-də vətəninə - Naxçıvana gəldi. Gəlişi haqqında heç kimə xəbər verməsə də, bu xəbər tez bir zamanda bütün muxtar respublika əhalisinə məlum oldu. Həmin gün o, Naxçıvanın Azadlıq meydanında 80 mindən çox adamın iştirakı ilə keçirilən mitinqə dəvət olundu və orada çıxış etdi [37, s.29]. Ulu öndər Heydər Əliyev çıxışında dedi: "Hələlik Naxçıvandayam. Əgər bütün naxçıvanlılar mənim burada yaşamağımı arzu edirsə, buna etiraz etmirəm. Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir" [6, 2003, 22 iyul].

Naxçıvanlılar ümummilli lider Heydər Əliyevin gəlişini çox böyük sevinc və coşqu ilə qarşıladılar, onun ayaqları altında qurbanlar kəsdilər. Naxçıvana qayıdışı ilə o, bu bölgəni və bütün Azərbaycanı real təhlükədən xilas etdi.



Ümummilli lider Heydər Əliyevin Naxçıvana qayıdışı
1990-cı il

Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti ulu öndər Heydər Əliyevin Rəyasət Heyətinin sədri A.Cəlilova yazdığı 10 avqust 1990-cı il tarixli ərizəsini müzakirə edərək 21 avqustda qərara aldı: "Naxçıvan şəhərində anadan olduğunu, təhsil aldığını, uzun illər xidmət etdiyini və hazırda Ümumittifaq təqaüdçüsü olub Naxçıvan şəhərində yaşadığını nəzərə alaraq, 1923-cü ildə anadan olmuş, Azərbaycan pasportu olan, azərbaycanlı Heydər Əliyev - Heydər Əlirza oğlu Əliyev yoldaş Naxçıvan MSSR vətəndaşı sayılsın" [37, s.101].

Naxçıvanda yaşayan Heydər Əliyevə böyük ehtiram və hörmət, el sevgisi və xalq məhəbbəti onun vətən, xalq qarşısında gördüyü işlərə, etdiyi xidmətlərə görə idi və bu gündən-günə artırdı. O, muxtar respublikanın müxtəlif bölgələrindən gələn nümayəndələrlə görüşlər keçirir, onları müstəqillik uğrunda axıradək mübariz olmağa çağırırdı.

Dünya şöhrətli siyasətçinin Naxçıvanda olması və yaşaması Naxçıvan Muxtar Respublikasını Dağlıq Qarabağın aqibətinə düşməsinə imkan vermədi. Heydər Əliyev müdrikliyi, xalqa inamı, Heydər Əliyev – xalq birliyi Naxçıvanı xilas etdi.

7. Naxçıvanda xalq hərəkatı

XX əsrin 80-ci illərində Sovet imperiyasının süquta getdiyi, Azərbaycana qarşı daşnak təcavüzünün gücləndiyi bir şəraitdə satqın ölkə rəhbərliyinin cinayətkarcasına fəaliyyətsizliyi milyonları küçələrə, meydanlara çıxaranda onların ön sıralarında Naxçıvan əhalisi də vardı [46, s.181]. 1989-cu il dekabrın sonlarında başlanan "sərhəd hərəkatı", sərhəd qurğularının dağıdılması xalq hərəkatının yüksəlişindən və inkişafından xəbər verirdi. "Sərhəd hərəkatı" Azərbaycanda, o cümlədən Naxçıvanda gedən milli-azadlıq hərəkatının tərkib hissəsi idi" [1, s.67]. Hərəkatın tarixi əhəmiyyəti ondan ibarət idi ki, bu hadisə bütün Azərbaycanda milli-azadlıq hərəkatının daha da genişlənməsinə təsir etdi.

1980-ci illərin axırı – 1990-cı illərin əvvəllərində Naxçıvanda xalq hərəkatı özünün ən yüksək mərhələsinə qalxdı. Demək olar ki, 1990-cı ilin yanvar ayında Naxçıvanda inqilabi proseslər gedirdi. İmperiyanın dayağı olan partiya komitələri iflic vəziyyətinə düşmüşdü. Hakimiyyət praktiki olaraq xalqın əlində idi.

Azərbaycanın, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan MSSR-in ərazi bütövlüyünün pozulması, ermənilərin muxtar respublika ərazisinə silahlı hücum etməsi, ölkə rəhbərlərinin tədbir görməməsi və Qarabağ münaqişəsinin həll olunmaması Naxçıvanda Xalq hərəkatının artmasına səbəb oldu.

1988-1990-cı illərin əvvəllərində gedən ictimai-siyasi proseslərin təhlili göstərir ki, bu dövrdə Azərbaycanda, eyni zamanda Naxçıvanda xalq hərəkatı irəliləyən xarakter daşıyırdı. Bu sahədə Naxçıvan bölgələrinin əhalisi daha fəal idi. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, o illər, xüsusən, 1990-1991-ci illərdə, Naxçıvanda xalq hərəkatı çox güclü idi. Müstəqillik yolunda

mübarizə aparan adamlar Naxçıvan əhalisinin, demək olar ki, əksəriyyətini təşkil edirdi. "Naxçıvanın müstəqillik, milli-azadlıq əhval-ruhiyyəsi bütün Azərbaycana təsir edirdi. Məhz bunların nəticəsində Naxçıvan çox ciddi addımlar atır və nəhayət, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsində öz xidmətlərini göstərirdi" [83, s.45]. Bu illərdə Heydər Əliyevin Naxçıvanda xalqın mübarizəsini azadlığa, müstəqillik qazanılmasına, dövlətçilik ənənələrinin bərpa və inkişaf etdirilməsinə yönəldilən fəaliyyəti olduqca mühüm rol oynamışdı.

Naxçıvanda gedən ictimai-siyasi proseslərin təsiri altında bütün milli nə varsa ona maraq xeyli artmışdı. Mitinq və yürüşlərdə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının qaldırılması Naxçıvanda milli şüurun artmasını göstərən mühüm təzahürlərdən biri idi. Mülli şüurun intensiv işləməsinə Azərbaycan-Ermənistan münaqişəsi təsir edirdi.

Muxtar respublika əhalisinin davranışları tədqiqatçılar tərəfindən təhlil edilmiş və həmin dövrdə naxçıvanlıların nəinki həm ağılları, həm də hissləri ilə öz millətinə, məişətinə, ənənəsinə bağlılığı göstərilmişdir. Həmin illərdə millət, milli hiss hər bir naxçıvanlının qəlbində və şüurunda idi. Məhz buna görə də Naxçıvan əhalisi o dövr Azərbaycandakı milli-azadlıq hərəkatının önündə gedirdi.

Azərbaycanda, eləcə də Naxçıvanda xalq hərəkatının içində Xalq Cəbhəsi deyilən qurum da var idi. Bu qurumun xalq hərəkatında rolu və yeri çox ziddiyətlidir. Xalq hərəkatının rəhbəri kimi meydana atılan və müəyyən tarixi dövrdə xalqın rəğbətini qazanan bu qurumun əsil mahiyyəti onun xalq hərəkatı dalğası üstündə hakimiyyətə gəlməsindən sonra açıldı. Azərbaycan Xalq Cəbhəsi xalq hərəkatının yeni, daha mühüm və məsuliyyətli mərhələsinə rəhbərlik etmək gücündə deyildi. Onun ictimai bazası üç dəfəyə qədər azalmışdı. Hakimiyyət bölgüsü üçün iqtidarla sövdələşməyə başlamışdı. 1990-cı ilin mayında Məşvərət Şurası təsis olunmuşdu [55, s.5].

Ulu öndər Heydər Əliyev isə xalqı azadlıq, müstəqillik uğrunda sonacan mübariz olmağa çağırırdı. Ulu öndər qeyd edirdi ki, "Mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir. Azərbaycan respublikasının milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır" [36, s.47-48].

Göründüyü kimi, Heydər Əliyev dahi siyasətçi və müdrik bir el ağsaqqalı kimi özünəməxsus soyuqqanlılıqla hadisələrə obyektiv qiymət verir, coşub-daşan xalq hərəkatının düzgün istiqamətlənməsinə çalışırdı.

8. Naxçıvanda həyata keçirilən ilk demokratik dəyişikliklər

Ümummilli lider Heydər Əliyevin Naxçıvana qayıdışı Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə seçki kampaniyası ilə bir vaxtda düşdü. Azərbaycan SSR, Naxçıvan MSSR xalq deputatları sovetlərinə seçkilərin başlaması ilə əlaqədar 28 iyulda respublika demokratik qüvvələrinin forumunda 20-dən artıq

ictimai təşkilatın iştirak etdiyi "Demokratik Blok" yaradıldı. Seçki komissiyalarına cəbhənin və başqa ictimai təşkilatların nümayəndələri də salındı. Seçkilər alternativ əsasda keçirildi. 360 Azərbaycan SSR Xalq deputatı mandatını almağa 1200 nəfər namizəd irəli sürülmüşdü [34, s.59]. Seçkilər sentyabrın 30-da keçirildi. Bəzi dairələrdə oktyabrın 14-də və dekabrın 16-da təkrar seçkilər oldu. "Demblok"un cəmi 30 nümayəndəsi Azərbaycan SSR xalq deputatı seçildi.

Naxçıvanın müxtəlif şəhər və kəndlərindən gələn nümayəndələr Heydər Əliyevi görüşlərə dəvət edir, onu xalq deputatlığına namizəd irəli sürürdülər. Heydər Əliyevin əhali ilə görüşləri əsl xalq bayramına çevrildi. Babək rayonunun Nehrəm kəndindəki sovxozun əkinçiləri ilə görüşdə Heydər Əlirza oğlu Əliyevin 34 nömrəli Nehrəm seçki dairəsi üzrə Azərbaycan SSR xalq deputatlığına namizədliyi irəli sürüldü. 1990-cı il 25 iyulda Heydər Əliyev seçki komissiyasının sədrinə və sovxozun əmək kollektivinə göndərdiyi məktubda həmin dairədən deputatlığa namizədliyə razılıq vermiş və seçicilərini əmin etmişdi ki, o, bütün səyini, bacarığını, təcrübəsini respublikamızın konstitusiya hüquqlarının, suverenliyinin və ərazi bütövlüyünün qorunmasına, iqtisadi, sosial, mədəni yüksəlişinin təmin olunmasına, seçicilərin göstərdiyi yüksək etimadı doğrultmağa sərf edəcək [36, s.50-51]. O, həmçinin 2 nömrəli Naxçıvan şəhər M.F.Axundov adına seçki dairəsi üzrə Naxçıvan MSSR xalq deputatlığına namizəd göstərildi [88, 1990, 1 avqust]. Hər iki dairədə onun seçicilərlə görüşü çox yüksək fəallıq şəraitində keçirdi. Nehrəm seçki dairəsi seçiciləri ilə görüşündə ümummilli lider Heydər Əliyev öz platforması haqqında məlumat verərək qeyd etmişdi ki, "Azərbaycanın ərazi bütövlüyü qorunmalı və Azərbaycan hakimiyyəti respublikanın bütün ərazisində bərqərar edilməlidir. Azərbaycan milli dövlət kimi inkişaf etdirilməlidir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır... Bütün bu vəzifələri həyata keçirmək üçün ancaq və ancaq birlik, yekdillik lazımdır" [88, 1990, 26 sentyabr].

1990-cı il sentyabrın 30-da Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetinə elan olunan seçkilər baş tutdu. Ümummilli lider Heydər Əliyev tam yekdilliklə Azərbaycan SSR və Naxçıvan MSSR ali qanunverici orqanına üzv seçildi [43, s.45].

Naxçıvan MSSR Ali Sovetinə seçilmiş deputatların 1990-cı il noyabrın 17-də ilk sessiyası keçirildi. Həmin sessiyaya sədrlik etmək ümummilli lider Heydər Əliyevdən təkidlə xahiş edildi. O ərəfədə Azərbaycanda ictimai-siyasi vəziyyət həddindən artıq mürəkkəb olduğundan sessiyaya sədrlik etmək müdriklik və siyasi uzaqgörənlik tələb edirdi.

Ümummilli liderin sədrlik etdiyi həmin sessiya təkcə Naxçıvanda yox, bütün Azərbaycanda tarixi bir hadisə oldu. Sessiyanın qəbul etdiyi siyasi əhəmiyyətli qərarlar müstəqillik tariximizə qızıl hərflərlə yazıldı. Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi



Ümummilli lider Heydər Əliyev Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasına sədrlik edir. 17 noyabr 1990-cı il

qiymət verilməsi haqqında" və başqa məsələlərlə bağlı tarixi qərarlar qəbul etdi [36, s.129-131, 148-150].

Azərbaycanda ilk dəfə olaraq bu sessiyada milli dövlətçilik ənənələrinin dirçəldilməsi baxımından, müstəqilliyə can atan Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən bir sıra qərarlar qəbul edildi.

Sessiya Naxçıvan MSSR adından "Sovet", "Sosialist" sözlərinin çıxarılması, Naxçıvanın Ali Sovetinin adını dəyişərək onun bundan sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar qəbul etdi [64, 1991, 6 sentyabr]. Sovetlər birliyinin yaşadığı bir dövrdə muxtar respublikanın adında belə dəyişiklik etmək həqiqətən də böyük cəsarət və uzaqgörənlik tələb edirdi.

Naxçıvan parlamentinin həmin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında məsələyə baxdı. 1990-cı il noyabrın 17-də həmin bayraq alqış sədaları altında sessiya keçirilən zala gətirildi. Üçrəngli bayraq Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edildi. Bununla bərabər Naxçıvan Muxtar Respublikasının parlamenti qanunvericilik təşəbbüsü ilə Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qaldıraraq Azərbaycan Respublikasının dövlət rəmzlərinə yenidən baxılmasını təklif etdi [36, s.153].

1990-cı il noyabrın 21-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi 20 yanvar hadisəsini müzakirə etdi. 20 yanvar faciəsinin respublika rəhbərliyi tərəfindən araşdırılmadığı, heç bir tədbir görülmədiyi, günahkarlar aşkar edilmədiyi bir şəraitdə sıravi deputat

kimi Heydər Əliyev "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini işləyib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə təqdim etmiş və müzakirələrdən sonra qəbul olunmuşdur. Bu qərarda ilk dəfə Bakıda baş vermiş Yanvar faciəsinə siyasi qiymət verilmiş, qanlı hadisələri törədən şəxslərin məsuliyyətə cəlb olunması tələb edilmişdir. Həmin tarixi sənəddə deyilirdi: "Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər. Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır. Respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir əməli tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətin iştirakçısı ola-ola zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır.

Qanlı yanvar hadisələrinin günahkarlarını üzə çıxarmaq, onu təhlil etmək və siyasi qiymət vermək üçün respublika əhalisinin təkidli tələbinə baxmayaraq, faktiki olaraq heç bir tədbir görülməmişdir.

Yanvar ayının 22-də çağırılan Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoymuş, yanvar hadisələrinə siyasi qiymət verməli olan həmin sessiya bu günədək öz işinə başlamamış, sonrakı sessiyalarda da bu məsələyə baxılmamışdır. Qəribədir ki, respublika Ali Sovetinin yanvar hadisələrini təhqiq etməli olan komissiyanın işi də başa çatdırılmamışdır" [37, s.148-149].

Sənəddə ilk dəfə olaraq 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında milli matəm günü kimi qeyd edilməsi qərara alındı [37, s.150].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Bakı şəhərində fövqəladə vəziyyətə də öz münasibətini bildirdi: "Hüquqi əsas olmadan 1990-cı ilin yanvar ayında Bakı şəhərində fövqəladə vəziyyət elan olunması qeyri-qanuni hesab edilsin və pislənilsin". Fövqəladə vəziyyətin elan olunması, ən adi hüquq normalarına əməl edilməsi, qırğının qarşısının alınması mümkün və zəruri olduğu halda kütləvi insan tələfatı ilə nəticələndiyi qeyd edilirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində, keçmiş Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış ağır vəziyyətə də öz münasibətini bildirmiş, SSRİ və Azərbaycan SSR rəhbərliyinin bu sahədə yol verdikləri konkret səhvlər göstərilmiş və qeyd edilmişdi ki, məhz bu səhv addımların nəticəsində DQMV hüquqi cəhətdən Azərbaycanın tərkibində olmasına baxmayaraq, faktiki olaraq onun dövlət idarəçiliyinə tabe olmur və Ermənistanla geniş siyasi-iqtisadi və mənəvi əlaqələr həyata keçirir.

Нахчыван Мухтар Республикасы Али Мәчлисинин

Г Ә Р А Р Ы

ПОСТАНОВЛЕНИЕ

Верховного Меджлиса Нахичеванской Автономной Республики

Нахчыван Мухтар Совет Сосиалист Республикасынын адынын дәјишдирилмәси һаггында

Нахчыван Мухтар Республикасынын Али Мәчлиси г ә р а р а алыр:

1) Нахчыван Мухтар Совет Сосиалист Республикасынын ады дәјишдирилсин.

2) Нахчыван Мухтар Совет Сосиалист Республикасы бу күндән Нахчыван Мухтар Республикасы адландырылсын.

Нахчыван Мухтар Республикасы Али
Мәчлиси биринчи сессијасынын
С ә д р и : һ.Әлијев

Нахчыван шәһәри, 17 нојабр 1990-чы ил
№ 7-XII

Нахчыван Мухтар Республикасы Али Мәчлисинин

Г Ә Р А Р Ы

ПОСТАНОВЛЕНИЕ

Верховного Меджлиса Нахичеванской

Автономной Республики

Нахчыван Мухтар Республикасы Али дөвлөт
hакимиjjәти органы hаггында

Нахчыван Мухтар Республикасынын Али Мәчлиси г ө р а р а алыр:

I) Нахчыван Мухтар Республикасы Али дөвлөт hакимиjjәти органынын ады дәjишдирилсин.

2) Нахчыван Мухтар Республикасынын Али Совети бундан сонра Нахчыван Мухтар Республикасынын Али Мәчлиси адландырылсын.

Нахчыван Мухтар Республикасы Али
Мәчлиси биринчи сессиjасынын
С ө д р и : h.Өлиjев

Нахчыван шәhәри, I7 нојабр I990-чы ил.

№ 8 - XII

Нахчыван Мухтар Республикасы Али Мәчлисинин

Г Ә Р А Р Ы

ПОСТАНОВЛЕНИЕ

Верховного Меджлиса Нахичеванской Автономной Республики

Нахчыван Мухтар Республикасынын дөвлөт рөмзлөри һаггында

Нахчыван Мухтар Республикасынын Али Мәчлиси г ө р а р а алыр:

1) Илк Азәрбајчан Демократик Республикасынын үчрәнкли дөвлөт бајрагы Нахчыван Мухтар Республикасынын дөвлөт бајрагы кими тә"сис едилсин.

2) Нахчыван Мухтар Республикасынын дикәр дөвлөт рөмзи-дөвлөт кәрбн һаггында мәсәлә өјрәнилиб Нахчыван Мухтар Республикасы Али Мәчлисинин мүзакирәсинә верилсин.

3) Азәрбајчан Демократик Республикасынын үчрәнкли дөвлөт бајрағынын бүтөвлүкдә Азәрбајчан ССР-нин дөвлөт рөмзи кими тә"сис едилмәси мәсәлә-си ганунвәричилик төшәббүсү гајдасында Азәрбајчан ССР Али Советиндән хаһиш едилсин.

Нахчыван Мухтар Республикасы Али
Мәчлиси биринчи сессијасынын
С ө д р и : h.Өлијев

Нахчыван шәһәри, 17 нојабр 1990-чы ил
№ 9-XII

Azərbaycan SSR-in bu bölgəsində yaranmış qeyri-normal vəziyyətə öz ciddi narahatçılığını bildirən Ali Məclis DQMV-nin Azərbaycanın ayrılmaz tərkib hissəsi, tarixən Azərbaycan torpağı olduğunu bir daha vurğulayaraq, ittifaq və respublika rəhbərliyindən Ermənistan Respublikasının Azərbaycan SSR-in daxili işlərinə qarışmasına son qoymasını, Azərbaycana qarşı torpaq iddialarının qarşısını almasını, Dağlıq Qarabağda vəziyyətin normal hala salınması üçün təcili tədbirlər görülməsini tələb etmişdi [36, s.88-95].

Ali Məclisin 1991-ci il 14 yanvar tarixli sessiyasında yeni ittifaq müqaviləsinə münasibət məsələsi də müzakirə olundu. Məsələ ilə bağlı çıxış edən ulu öndər Heydər Əliyev bildirdi ki, yeni ittifaq müqaviləsinin layihəsi ümumittifaq siyasi rəhbərliyi və xüsusən M.Qorbaçov tərəfindən bütün Sovet xalqını yenidən aldatmaq cəhdinin bir təzahürüdür. Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy bildirmək xalqımız qarşısında cinayət etmək deməkdir. Son üç ildə başımıza gələnlər tam açıq şəkildə göstərdi ki, bizim bu ittifaqdan nicatımız yoxdur [36, s.102-109].

Naxçıvanda bu cür gözlənilməz addımların atılması bilavasitə ulu öndərin təşəbbüsünün nəticəsi idi. Hələ Bakıda əyləşənlər ölkənin müstəqilliyi barədə qərarın qəbul edilməsi üçün tərəddüdlərdən qurtula bilmədiyi bir vaxtda, Naxçıvan Muxtar Respublikası Ali Məclisi artıq milli dövlətçilik ənənələrinin bərpasına istiqamətlənmiş qəti qərarlar qəbul edirdi.

Azərbaycanın müstəqilliyini istəməyən, hələ də SSRİ-nin boyunduruğunda qalmaq istəyindən əl çəkməyən ölkə rəhbərliyi Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarları "dövlətçiliyə qəsd" adlandırdı və Naxçıvanın blokada vəziyyətinə düşməsi daha kəskin xarakter aldı.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə olmuşdu. Demokratik qüvvələrin tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilib "Azərbaycan Respublikası" adlandırıldı. Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət bayrağı kimi təsdiq olundu [68, v.153].

SSRİ-nin saxlanılması ilə əlaqədar imperiya rəhbərliyinin ortaya atdığı referenduma mövcud siyasi qüvvələrin münasibəti müxtəlif idi. Ulu öndər Heydər Əliyev milli respublikaların müstəqilləşməsinin qarşısını almağa yönəldilmiş bu siyasəti ifşa etdi, xalqı bu oyunda iştirak etməməyə çağırdı. O, respublika Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasında SSRİ-nin saxlanılmasına münasibət bildirməsi üçün keçirilməsi nəzərdə tutulan ümumittifaq referendumunda iştirak etməyin əleyhinə çıxdı: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin, heç bir şərt qoymadan, tam əleyhinəyəm. Bu, bütün seçicilərimin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. ...Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bu

müqaviləyə girmək, ona müsbət rəy göstərmək xalqımız qarşısında cinayət etmək deməkdir..."[55, s.6-7; 84, 1991, 15 mart].

SSRİ-nin saxlanılmasına münasibət bildirmək üçün kommunist deputatlar birləşib referendumda Azərbaycanın iştirakı haqqında qərar qəbul etdilər [87, 1991, 6 fevral]. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi 1991-ci il martın 14-də referendumda iştirak etməmək haqqında qərar qəbul etdi [9, v.100]. Sessiyada Heydər Əliyev referendumun əleyhinə çıxış etdi və müvafiq qərarın qəbul olunması da məhz onun təşəbbüsü ilə baş tutdu. İqtidarın bunu "separatşılıq" kimi qiymətləndirməsi, muxtar respublikaya təzyiqlər göstərməsi əhalini yolundan döndərə bilmədi. Lakin Naxçıvan Muxtar Respublikasının kommunist rəhbərliyi referendumun keçirilməsi barədə mövqeyindən çəkilmədi. Ancaq Naxçıvan Muxtar Respublikasında əhalinin 20,6 faizi səsvermədə iştirak etmişdir [43, s.49]. Səsvermədə iştirak edənlərin 3/2 hissəsindən çoxu hərbçilər olmuşdur.

Saxta referendumda iştirak etməyən Naxçıvana qarşı təzyiq və hücum başlandı. 1991-ci il aprelin 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Afiyəddin Cəlilov vəzifədən azad edildi. Həmin gün Muxtar Respublika parlamenti yalnız kommunist deputatların iştirakı ilə yetərsay olmadan sessiya keçirərək Ə.F.Əliyevi Ali Məclisin sədri seçdi [39, s. 122].

Ümummilli lider Heydər Əliyev imperiyanı qoruyub saxlamağa çalışan qüvvələrə, ilk növbədə Kommunist Partiyasına, Sovet dövlətinə, Azərbaycan iqtidarına açıq etirazını bildirdi, onların riyakar siyasətini ifşa etdi və 1991-ci il iyulun 19-da Kommunist Partiyasının sıralarından çıxdı. Böyük dövlət xadiminin, dahi siyasətçinin bu cür hərəkəti minlərlə insanın sovet imperiyasına nifrət bəsləməsinə və Kommunist Partiyasından istefa verməsinə böyük təkan oldu.

1991-ci il avqustun 19-da Moskvada M.S.Qorbaçovun paytaxtda olmamasından istifadə edən bir qrup yüksək vəzifəli məmur dövlət çevrilişi edərək Dövlət Fövqəladə Vəziyyət Komitəsi (DFVK) yaratdılar. Lakin avqustun 21-də qiyam yatırıldı. DFVK-nı yaradanlar həbs edildi.

1991-ci il Avqust dövlət çevrilişi cəhdi və Azərbaycan rəhbərliyinin tutduğu mövqe əhalinin ciddi narazılığına səbəb oldu. Avqust ayının 22-dən başlayaraq respublikanın bir sıra şəhərlərində mitinqlər keçirildi. Naxçıvanda da mitinqlər səngimək bilmirdi. Üç gün davam edən, 60 mindən çox adamın iştirak etdiyi izdihamlı mitnq və nümayişlər nəticəsində xalq avqustun 26-da muxtar respublika Ali Məclisinin fövqəladə sessiyasının çağırılmasına nail oldu. Sessiya Naxçıvan Muxtar Respublikasında kommunistlərin hakimiyyətini ləğv etdi. Muxtar respublika ərazisində Azərbaycan KP-nin və komsomolun fəaliyyəti dayandırıldı, onların bütün strukturları ləğv olundu [28, 1991, 28 avqust]. Mitinq və nümayişlərdə respublikada prezident seçkilərinin dayandırılması, Kommunist Partiyası hakimiyyətinin ləğv edilməsi, muxtar respublikada Milli Müdafiə Komitəsinin yaradılması, Bakıda

fövqəladə vəziyyət rejiminin ləğv olunması, V.İ.Leninin abidələrinin sökülməsi kimi məsələlər tələb edilirdi.

Sessiyada Ali Məclisin yetərsay olmadan keçirilmiş 5 aprel 1991-ci il tarixli sessiyasının qəbul etdiyi qərar ləğv olundu və Əkbər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrliyindən azad edildi [59, v. 13].

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYATLAR

1. *Allahverdiyev Q.V.* Naxçıvanda xalq hərəkatının bəzi məsələləri haqqında (1988-1990-cı illər) // "Dirçəliş – XXI əsr" jurnalı, Bakı, 2000, № 7-8, s. 66-71.
2. *Axundova E.* Heydər Əliyev: şəxsiyyət və zaman. Ömrün Naxçıvan aşırımları. 5-ci kitab. Bakı: CBS, 2013, 736 s.
3. Azərbaycan Milli Ensiklopediyası ("Azərbaycan" cildi). Bakı: "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, 2007, 883 s.
4. Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2001, 360 s.
5. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, 608 s.
6. "Azərbaycan" qəzeti.
7. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİ SSA), f.1, siy. 83, iş 16.
8. ARPİİ SSA, f.1, siy.83, iş 205.
9. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi, f.2941, siy. 1a, iş 236.
10. AR MMA, f.2941, siy. 1, iş, 263.
11. AR MMA f. 2941, siy.1, iş 274.
12. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi (AMEA TİEA), f. 1, siy.19, iş 8953.
13. "Bərəkət" qəzeti.
14. *Cəfərov H., Mustafayev A.* Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil, 2012, 172 s.
15. Deportasiya. Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası. Toplu. Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1998, 440 s.
16. Didərginlər. Bakı: Gənclik, 1990, 384 s.
17. *Əhmədov E.* Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı: Letterpress, 2012, 912 s.
18. *Əhmədov N.H.* Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı: Elm, 2005, 308 s.
19. *Əliyev H.Ə.* Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, Yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət. Naxçıvan: Əcəmi NPB, 2001, 190 s.
20. *Əliyev T.* Heydər Əliyevin 1990-cı ildə Naxçıvana qayıdışı ermənilərin istəyini gözündə qoydu. "Xalq qəzeti", 2004 15 avqust.

21. *Əliyev A., Qasımov Ə.* Naxçıvan Muxtar Respublikası: nailiyyətlər və problemlər (I cild). Bakı: Azərbaycan, 2001, 284 s.
22. *Hacıyev İ.M.* Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, Əcəmi NPB, 2011, 272 s.
23. *Hacıyev İ.M.* "Sərhəd hərəkatı"ndan dünya azərbaycanlılarının həmrəyliyinə doğru // NDU-nun Xəbərləri, Naxçıvan, 2005, №17, s. 3-5.
24. *Hacıyev İ.M.* "Sərhəd hərəkatı": milli birlik və həmrəylik // "Diasporun səsi" jurnalı, Bakı, 2010, №1 (2), s. 26-27.
25. *Hacıyev İ.M.* Naxçıvanda parlament seçkiləri // Milli Məclis. Analitik informasiya jurnalı. Bakı, 2011, may-iyun, s. 48-53.
26. *Hacıyev İ., İşmayılov B.* Naxçıvan Muxtar Respublikası 90. Naxçıvan, Əcəmi NPB, 2014, 184 s.
27. *Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B.* İntibahın 15 ili. Naxçıvan: Əcəmi NPB, 2014, 184 s.
28. "Həyat" qəzeti
29. *Hüseynova İ.* Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
30. *Hüseynova İ.* Naxçıvan demokratik inkişaf yolunda // "Bakı Universiteti xəbərləri"nin xüsusi buraxılışı. Bakı, 1999, №3, s.186-204.
31. "Kommunist" qəzeti.
32. *Qaffarov T.* Azərbaycan tarixi. XX əsrin 80-90-cı illəri. Bakı: Mütərcim, 1997, 141 s.
33. *Qaffarov T.* Azərbaycan tarixi (1920-1991). Bakı: Mütərcim, 1999, 279 s.
34. *Qaffarov T.* Azərbaycanın ən yeni tarixi. XX əsrin sonları – XXI əsrin əvvəlləri. Bakı: GİSO Enterprise KRİNB, 2005, 275 s.
35. *Qasımov Ə.Q.* Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər). Bakı: "Turxan NPB, 2013, 264 s.
36. Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, 792 s.
37. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, 840 s.
38. Qədim Naxçıvanda bayram. Naxçıvan Muxtar Respublikası – 75. Bakı: Azərbaycan, 1999, 288 s.
39. Qətiyyətin təntənəsi (Sənədli xronika). Müəllif-tərtibçi Şakir Yaqubov. Bakı: Səhər, 1995, 848 s.
40. *Quliyev N.P.* Şərur fəryadı. Bakı: Şur, 1999, 366 s.
41. *Mahmudov Y.M., Şükürov K.M.* Naxçıvan: tarixi və abidələri. Bakı: Təhsil, 2007, 216 s.
42. *Məmmədov M.* Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, 208 s.

43. *Məmmədov M.* Siyasətdə Naxçıvan dərsləri. Bakı: Araz, 2009, 416 s.
44. *Məmmədov M.* Naxçıvan: dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı. Bakı: Şirvannəşr, 2011, 302 s.
45. *Məmmədov Ş.* 80-ci illərin sonu-90-cı illərin əvvəlində Naxçıvanda milli-demokratik hərəkat// "Bakı Universiteti xəbərləri"nin xüsusi buraxılışı. Bakı, 1999 №3, s.181-185.
46. *Məmmədov V.* Sədərək şəhidləri. Bakı: Şirvannəşr, 1998, 120 s.
47. *Məmmədov V.* Sədərəkdə yazılan gündəlik. Bakı: Şirvannəşr, 2010, 160 s.
48. *Mustafayev A.* Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan. Bakı: ADPU-nun nəşriyyatı, 2013, 194 s.
49. Müstəqilliyin on ili. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Naxçıvan: Əcəmi NPB, 2001, 87 s.
50. *Nadirov A.* Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı, 2001 450 s.
51. *Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M.* Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, 2000, 104 s.
52. *Nağıyev Ə., Novruzov V., Allahverdiyev H., Əlirzayev Ə.* Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı: Azərnəşr, 1998, 388 s.
53. Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr, 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Nurlan, 2008, 548 s.
54. Naxçıvan ensiklopediyası. İki cilddə. c.2. İstanbul: Bakanlar Medya, 2005, 376 s.
55. Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı: Elm, 1999, 184 s.
56. Naxçıvan Muxtar Respublikası 75. "Bakı Universiteti Xəbərləri"nin xüsusi buraxılışı. Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, №3, s.181-204
57. Naxçıvan Muxtar Respublikası 80. Tarixi-statistik məcmuə (məcmuənin ümumi rəhbəri V.Talıbov, İ.Hacıyev, B.İsmayılov). Bakı: Səda, 2004, 222 s.
58. Naxçıvan Muxtar Respublikası. Akademik Cəmil Quliyevin redaktorluğu ilə. Bakı: Elm, 2001, 220 s.
59. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Arxivi (NMR AMA), f.1, siy.1, iş 3.
60. NMR AMA, f.1, siy 1, iş 17.
61. NMR AMA, f.1, siy.1 iş 23.
61. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMR DA), f.95, siy.13, bağ. 203, iş 8.
62. NMR DA, f. 95, siy.37, bağ.306, iş 33.
63. NMR DA, f. 95, siy.37, bağ.307, iş 56.
64. NMR DA, f. 95, siy.37, bağ.307, iş 76.
65. NMR DA, f. 95, siy.37, bağ.316, iş 264.
66. NMR DA, f. 95, siy.37, bağ.317, iş 177.

67. NMR DA, f. 95, siy.37, bağ.317, iş 293.
68. NMR DA, f. 96, siy.12, bağ.149, iş 15.
69. NMR DA, f. 97, siy.12, bağ.115, iş 26.
70. NMR DA, f. 98, siy.16, bağ.175, iş 1.
71. NMR DA, f. 98, siy. 37, bağ.317, iş 275.
72. NMR DA, f. 99, siy.12, bağ.115, iş 22.
73. NMR DA, f. 99, siy.12, bağ.192, iş 127.
74. NMR DA, f. 99, siy.37, bağ.314, iş 233.
75. NMR DA, f. 99, siy.37, bağ.314, iş 275.
76. NMR DA, f. 100, siy.8, iş 320.
77. NMR DA, f. 101, siy.7, bağ.2202, iş 16.
78. NMR DA, f. 103, siy.10, bağ.63, iş 53.
79. NMR DA, f. 103, siy.10, bağ.64, iş 78.
80. Naxçıvanda seçkilərin tarixi (1937-2002). Ensiklopedik toplu. Bakı: Qanun, 2003, 562 s.
81. "Oğuz yurdu" qəzeti.
82. Ömrün üç günü. Naxçıvan 29-31 oktyabr 1996-cı il. Bakı: Ergün, 1997, 90 s.
83. "Səs" qəzeti.
84. "Sovet Naxçıvanı" qəzeti.
85. *Sultanov O.* 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycandan siyasi mübarizə. Bakı: Maarif, 1995, 232 s.
86. *Ülki İ.* Qızıl ulduzdan hilala doğru: Heydər Əliyevin fırtınalı həyatı. Bakı, 1994, 164 s.
87. "Şərq qapısı" qəzeti.
88. *Şirəliyev A.İ.* Naxçıvan Muxtar Respublikasının sənayesi. Naxçıvan: Əcəmi NPB, 2015, 56 s.
89. "Vedibasar" qəzeti.
90. *Zenkoviç N.* Heydər Əliyev. Tale yolları. Bakı: Azərbaycan, 2007, 608 s.
91. "Xalq qəzeti".
92. "Бакинский рабочий" qəzeti.
93. "Известия" qəzeti.
94. Нагорный Карабах: разум победит. Документы и материалы. Баку, 1989, 445с.
95. Народное хозяйство Азербайджанской ССР. В 1985 г. Стат. ежегодник. Баку, 1986, 482 с.
96. *Помпеев Ю. А.* Кровавый омут Карабаха. Баку, 1992, 152 с.
97. *Помпеев Ю. А.* Карабахский дневник. Москва: "Канон+" РООИ "Реабилитация", 2010, 416 с.
98. Трагедия длиною в два года. Баку, 1990, 342 с.

V FƏSİL

NAXÇIVAN MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ (1991-1993-CÜ İLLƏR)

1. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi

1991-ci il sentyabrın əvvəllərində Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında mühüm hadisələr baş verdi. Sentyabrın 2-də Naxçıvan şəhərində çoxminli mitinqdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yarımçıq qalmış növbədənkənar sessiyasının (növbədənkənar sessiya avqustun 26-da çağırılmışdı – ***red.***) çağırılmasını və Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsini tələb edirdilər. Bir gün sonra deputatlar toplandı və yetərsay olduğundan sessiya öz işinə başladı. Bu vaxt Naxçıvan Muxtar Respublikasının bütün bölgələrindən Ali Məclisin və şəhər İcra Hakimiyyətinin binaları qarşısına toplanan əhali deputatlardan xahiş və tələb edirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədr Heydər Əliyevi seçsinlər. AXC Naxçıvan Vilayət şöbəsinin fəallarının əksəriyyəti isə bildirirdilər ki, Heydər Əliyev sədr seçilərsə, onun əleyhinə geniş kampaniyaya başlayacaqlar.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev
1991-ci il

Şəhərin Azadlıq meydanında bir neçə gün ara vermədən davam edən və 60-70 min nəfərin iştirak etdiyi mitinqlərdə xalq öz qəti tələbindən dönmürdü. Nəhayət, onların bu haqlı və təkidli tələbi sentyabrın 3-də keçirilən və tariximizdə

özünəməxsus yer tutan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında yerinə yetirildi [91, 1991, 5 sentyabr]. Ümummilli lider Heydər Əliyev həqiqətən də hakimiyyət arzusunda olmadığını bir daha bəyan etdi: "Mənim razılığım olmadan, mən bunu qətiyyətlə deyirəm və bunu hamı bilməlidir, məni Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədr seçdilər. Sədr seçiləndən sonra da mən sessiyaya sədrlik etməkdən imtina etdim. İclası axıra qədər sədrin müavini aparırdı...". Heydər Əliyev həmin sessiyada dəfələrlə söz alıb çıxış edərək deputatlardan mümkünsə onun yerinə başqa adamın namizədliyinə baxmağı xahiş etmişdi [51, s. 191]. Lakin dəfələrlə namizədliyini geri götürməsinə baxmayaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Heydər Əliyevi xalqın təkidli tələbi ilə Ali Məclisin sədri seçdi.

Amma bununla birlikdə böyük siyasətçi bölgənin ağır sosial-iqtisadi vəziyyətində, xüsusən də torpaqlarına düşmən təcavüzünün genişləndiyi bir dövrdə onun taleyinə də biganə qala bilmədi: "Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin dövründə üzərimə düşən vəzifənin icrasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm" [51, s. 194].

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədr seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisə idi. Ümummilli lider ilk növbədə Naxçıvanda fəal və peşəkar fəaliyyəti ilə milli dövlətçiliyə inam hissini formalaşdıra bildi [59, s. 53].

Sentyabrın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası öz işini davam etdirdi. Sessiyaya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev sədrlik edirdi. Heydər Əliyev təklif etdi ki, Ali Məclisin rəhbərliyini gücləndirmək üçün əlavə olaraq iki sədr müavini seçilsin. Bu təklif qəbul edildi. Açıq səsvermə yolu ilə demokratik bloku təmsil edən Q.Y.Məmmədov və A.S.Kələntərli muxtar respublika Ali Məclisi Sədrinin müavinləri seçildilər [51, s. 193].

Beləliklə, doqquz aydan artıq iflic vəziyyətinə salınmış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası səmərəli fəaliyyətə başladı. Ulu öndər Heydər Əliyev bəyanatında bildirdi ki, Ali Məclisin bu vəziyyətə düşməsinin çox dərin səbəbləri var. O, bu səbəbləri izah edərkən 1990-cı il sentyabrın 30-da Naxçıvan Muxtar Respublikası ali hakimiyyət orqanlarına seçkiləri, noyabrın 17-də keçirilən sessiyanın mühüm qərarlar qəbul etməsini deputatlara xatırlatdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarların Azərbaycan Respublikasının hakimiyyət strukturlarının işinə təsir etdiyini və mühüm qərarların qəbul edilməsində Azərbaycan rəhbərliyinin məcburiyyət qarşısında qaldığını vurğuladı.

Sonra Ali Məclis Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikası Prezident seçkilərinin dayandırılması haqqında yekdilliklə qərar

qəbul etdi. Qərarda deyilirdi: "1. Azərbaycan Respublikası prezidenti seçilməsi üçün 8 sentyabr 1991-ci il tarixə təyin edilmiş seçkilərin Naxçıvan MR ərazisində keçirilməsi dayandırılsın. 2. Azərbaycan Respublikası Ali Sovetindən respublika prezidentliyinə seçkilərin daha sonrakı müddətə keçirilməsi xahiş edilsin" [51, s. 140].

Sessiyada həmçinin "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında" məsələ müzakirə edildi. Müzakirədən aydın oldu ki, muxtar respublikanın Ali Məclisi Naxçıvan Vilayət Partiya Komitəsinin təzyiqi altında olmuş və onun qəbul etdiyi demokratik ruhlu qərarlar Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində narazılıqla qarşılanmışdır. Mərkəzi Komitə Vilayət Komitəsinə təzyiq göstərmiş, vilayət rəhbərləri bu təzyiqə dözə bilməmiş və bununla da, sessiyanın işində pozuntular əmələ gəlmişdi. Ali Məclisdə Azərbaycan Kommunist Partiyasının və onun tərkib hissəsi olan Naxçıvan Vilayət Partiya Komitəsinin mürtəce mövqeyi pisləndi və qeyd edildi ki, Ali Məclisin işinə məhz diktatorluq, inzibati-amirlik üsuli-idarəsi mane olmuşdur [51, s. 196]. Sessiyada Azərbaycan KP və onun Mərkəzi Komitəsinin fəaliyyətini dərhal dayandırmaq haqqında qərar qəbul edilməsi barədə Ali Sovetə müraciət olundu [50, s. 140-141].

Azərbaycanın kommunist rəhbərliyi Naxçıvanda baş verən prosesləri gözdən salmaq, ona "separatçılıq" xarakteri vermək üçün bütün çirkin vasitələrə əl atır, müxtəlif üsullarla Ali Məclisin işinə mane olmaq istiyirdilər. Bu qanunsuz hərəkətlərdə Azərbaycan KP Mərkəzi Komitəsi, Azərbaycan Respublikası Ali Soveti və Nazirlər Kabineti bilavasitə iştirak edirdi. Özlərini naxçıvanlı adlandıran, əslində isə Naxçıvanda gedən proseslərdən xəbərsiz olan və Bakıda yaşayan bəzi ziyalılar 1991-ci il sentyabrın 6-da Azərbaycan televiziyasının "Aktual ekran" verilişində çıxış edərək Ali Məclis və onun sədrinin fəaliyyəti haqqında yalnış fikir formalaşdırmağa cəhd göstərmiş, muxtar respublika əhalisinə müraciət edərək onları A.Mütəllibov hakimiyyəti ətrafında birləşib prezident seçkilərində iştirak etməyə çağırmış, bununla da muxtar respublikada sabitliyi pozmağa çalışmışlar.

Hələ 30 mart 1991-ci ildə bir qrup naxçıvanlının "Kommunist" qəzetində "Naxçıvan Muxtar Respublikasının əhalisinə" müraciəti verilmişdi. Sentyabrın 2-də parlament deputatlarından, zabitlərdən ibarət böyük bir dəstə Naxçıvana göndərildi ki, yerli hakimiyyət orqanlarını qərarı dəyişməyə məcbur etsin [50, s. 148]. Lakin Ali Məclisin Sədri Heydər Əliyev yerli televiziya ilə bəyanat verib xəbərdarlıq etdi ki, Naxçıvana təzyiq üçün gələn qüvvələr buranı tərk etməlidirlər, əks təqdirdə bütün əhali ayağa qalxacaqdır [89, 1991, 7 sentyabr]. İqtidar geri çəkilməyə məcbur oldu, lakin hədə-qorxu gəlməkdən, səhv informasiya yaymaqdan əl çəkmədi.

Sentyabrın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev bəyanat verdi. Ali Məclisin respublika prezidentinin seçkiləri ilə əlaqədar qəbul etdiyi qərara aydınlıq gətirən böyük siyasətçi yaranmış şəraitdə normal

seçkilərin keçirilməsinin qeyri-mümkün olduğunu və xalqın maraqlarını əsas tutaraq seçkiləri təxirə salmağı, hərtərəfli hazırlıq apardıqdan sonra, alternativ namizədlərin iştirakı ilə seçki keçirməyi təklif etdi [51, s. 206-207].

Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti 1991-ci il 6 sentyabrda Muxtar Respublika Ali Məclisinin bu qərarını pisləyən bəyanatla çıxış etmiş, A.Mütəllibov isə Ali Məclisin ünvanına hədələyici ifadələr işlətmişdi.

Naxçıvan MR-in Ali Məclisi bu bəyanata, qərəzli fikirlərə və hədə-qorxulara qarşı özünün 7 sentyabr və 10 sentyabr tarixli cavab bəyanatında, 3 sentyabr tarixli əvvəlki bəyanatının prinsipial xarakter daşıdığını, A.Mütəllibovun alternativsiz qaydada seçkiyə buraxıldığını, seçki komissiyalarının Kommunist Partiyasının birbaşa göstərişi ilə təyin olunduğunu, A.Mütəllibovun dövlət çevrilişi ilə bağlılığını, Azərbaycan KP MK-nın diktatura rejiminin davam etdirdiyini və digər amilləri diqqətə çatdırmış, anti-demokratik, diktatorluq təzahürlərinə, Ali Məclisin qəbul etdiyi qərarların qəsdən təhrif edilməsinə qəti etirazını bildirmişdi.

Ali Məclis həmçinin Azərbaycan Kommunist rəhbərliyi tərəfindən Naxçıvan Muxtar Respublikasına qarşı informasiya blokadasının təşkil olunduğunu bəyan edərək bu cür antidemokratik hərəkətləri muxtar respublikada gedən demokratik prosesləri boğmaq cəhdi kimi qiymətləndirmişdir [8. v. 79].

Sentyabrın 8-də Azərbaycanda prezident seçkiləri keçirildi. Demokratik qüvvələr bu seçkiləri baykot etdilər. Prezident seçkiləri Naxçıvan MR ərazisində keçirilmədi.

Ümummilli lider Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri seçilməsi onun siyasətə dönüşünün əsası oldu. Bunun nəticəsində Azərbaycanın bu strateji bölgəsinin əhalisi ağır məhrumiyyətlərdən və çətinliklərdən xilas ola bildi, muxtar respublikada həyat tədricən öz axarına düşməyə başladı.

2. İqtisadi islahatlar

Böyük dövlət xadimi Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra Naxçıvan MR Azərbaycanın ictimai-siyasi həyatında mühüm və əhəmiyyətli rol oynamağa başladı. Muxtar respublikada həyata keçirilən tədbirlər, demokratik dəyişikliklər, milli dövlətçiliklə bağlı qəbul edilən qərarlar Azərbaycanın müstəqilliyini möhkəmləndirmək yolunda məqsədyönlü fəaliyyət sahələri idi.

Heydər Əliyevin bütün fəaliyyəti muxtar respublikanın düşdüyü ağır vəziyyətdən çıxarılmasına, sərhəd kəndlərinin və muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsinə, əhalinin ərzaqla təmin edilməsinə, sosial vəziyyətinin yaxşılaşdırılmasına və başqa bir sıra vacib məsələlərin həllinə yönəlmişdi.

Azərbaycan iqtisadiyyatı planlı təsərrüfat əsasında qurulmuşdu. SSRİ dağıldığından, sosialist iqtisadiyyatını kapitalist təsərrüfat sistemi, planlı təsərrüfatı

bazar iqtisadiyyatı əvəz etdiyindən aqrar sahədə islahatların həyata keçirilməsi günün tələbi idi.

Azərbaycanda ilk dəfə olaraq iqtisadi islahatlar Naxçıvanda başlandı. 1992-ci il aprelin 6-da Naxçıvan MR Ali Məclisinin sessiyasında aqrar islahatlarla bağlı məsələlər müzakirə edildi: "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" [51, s. 300-302].

Zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi haqqında Naxçıvan MR Ali Məclisinin qərarında deyilir: "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi təsərrüfatların yaradılması haqqındakı tövsiyyələr bəyənilsin" [51, s. 300]. Qərarın 5-ci bəndinə uyğun olaraq, yeni yaradılan təsərrüfatlar taleyin ümidinə buraxılmırdı. Kənd təsərrüfatı və Ərzaq Nazirliyinə, Meliorasiya və Su Təsərrüfatı Nazirliyinə, "Azərkimya" Birliyinə, aqrar-sənaye kombinatlarına və digər təşkilatlara tapşırılırdı ki, şəxsi təsərrüfatlar toxum, gübrə, texnika ilə təmin edilsin, onlara digər zəruri yardım göstərilsin [2, s.338; 51, s.300-301]. İlk növbədə də Culfa rayonunun Şurud və Gal kimi sərhəd kəndlərində eksperimental qaydada torpaq islahatına başlanıldı. Torpaqlar pay norması əsasında həmin kənddə yaşayan əhaliyə paylandı. Sosial ədalət və bərabərlik prinsipi bu prosesin ana xəttini təşkil edirdi.

İqtisadi islahatların birinci növbədə kənd təsərrüfatında, xüsusilə də dağ və dağ ətəyi ərazilərdə yerləşmiş kolxoz və sovxozlarda aparılması muxtar respublikanın gələcək iqtisadi inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. Naxçıvanın mürəkkəb iqlim və relyef şəraiti, kənd təsərrüfatı müəssisələrinin əsasən dağ və dağ ətəyi ərazilərdə yerləşməsi, pərakəndə xarakter daşıması və coğrafi şəraitdən irəli gələn başqa iqtisadi, texniki çətinliklər onunla nəticələnirdi ki, təsərrüfatların böyük əksəriyyəti zərərlə işləyir, nəinki heç bir mənfəət əldə etmirdi, hətta çəkdiyi xərcləri belə ödəyə bilmirdi. Belə iqtisadi nəticələr bazar münasibətlərindən irəli gələn tələblərə cavab vermirdi. Eyni zamanda xüsusi təsərrüfat formalarının yaradılması obyektiv zərurətə çevrilirdi.

Görünür bütün bunları və yerli şəraitdən irəli gələn başqa amilləri böyük uzaqgörənliklə nəzərə almaqla Ali Məclisin Sədri belə nəticəyə gəlmişdir ki, iqtisadiyyatın başqa sahələrində olduğu kimi və xüsusilə də kənd təsərrüfatında bizim nicat yolumuz iqtisadi islahatların aparılmasındadır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyilə iqtisadi islahatlar muxtar respublikada kənd təsərrüfatının gələcək inkişafının strateji istiqaməti kimi müəyyənləşdirildi. Muxtar Respublika Nazirlər Kabinetinin və Ali Məclisin kəndin sosial quruculuğu və aqrar sənaye daimi komissiyasında zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi, onların əsasında şəxsi təsərrüfatlar yaradılması haqqında tövsiyələr işlənib hazırlandı [70, s.59]. Bu tövsiyələri geniş müzakirə edərək zərərlə işləyən kolxoz və sovxozlar ləğv edildi və onlar əsasında şəxsi təsərrüfatlar yaradıldı.

Muxtar Respublika Ali Məclisinin qəbul etdiyi bu qərar yerli şəraitə uyğun olaraq verilmiş və elmi cəhətdən əsaslandırılmış tövsiyyələrin həyata keçirilməsini nəzərdə tutur və öz əhatəliliyinə görə kənd təsərrüfatında əsaslı islahat proqramıdır. Bu proqrama uyğun təkcə muxtar respublikanın deyil, həm də bütövlükdə Azərbaycanın kənd təsərrüfatında müvəffəqiyyətli islahatlar aparılması və onun bazar münasibətləri şəraitində səmərəli inkişafı üçün böyük strateji əhəmiyyəti vardır [6, 1998, 15 avqust].

1992-ci il aprelin 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci bir qərarı da qəbul edilmişdir. Bu qərarda rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər verilmişdir. Həmin təkliflər aşağıdakılardan ibarət idi:

- Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının zəruri olan halda kolxoz üzvlərinə, sovxoz fəhlələrinə və ya kənd sakinlərinə satılması məqsədəuyğun hesab edilsin;
- Rentabelli işləyən kolxoz və sovxozlarda ictimai mal-qaranın satılması məsələsi həmin təsərrüfatların təklifləri və rayon xalq deputatları məclisinin qərarları ilə həyata keçirilsin;
- Mal-qara kolxoz üzvlərinə, sovxoz fəhlələrinə və ya kənd sakinlərinə balans dəyərindən 5 dəfədən az olmamaq şərti ilə satıla bilər;
- Rayon xalq deputatları məclisinə tapşırılsın ki, ictimai mal-qaranın satılması işinin lazımi səviyyədə təşkilinə nail olsun, kolxozların, sovxozların bu sahədəki fəaliyyətini ciddi nəzarətdə saxlasın və bu işin həyata keçirilməsində qanun-qaydalara tam riayət olunmasını təmin etsinlər [24, s.172-173; 51, s. 301-302].

Qəbul edilmiş qərarlara uyğun olaraq sonrakı illərdə maşın və mexanizmlərin başlıca olaraq sürücülərə və mexaniklərə satılması nəzərdə tutuldu. Bu, onsuz da kifayət qədər olmayan maşın və mexanizmlərdən səmərəli istifadə etmək üçün müstəsna əhəmiyyət kəsb edirdi. Bununla yanaşı kənd təsərrüfatında əmlakın özəlləşdirilməsi və torpaq islahatlarının yanaşı aparılması, kolxoz və sovxozların əmlakının bir hissəsinin özəlləşdirilməsi, bir hissəsinin yerli icra hakimiyyəti orqanlarına (bələdiyyələrə) verilməsi nəzərdə tutulurdu. Muxtar Respublika Ali Məclisinin və Nazirlər Kabinetinin tapşırığı ilə dağlıq və dağ ətəyi bölgələrdə özəlləşdirməyə və torpaq islahatlarının aparılmasına xüsusi diqqətlə yanaşılır, Muxtar Respublika Aqrar islahat komissiyası dağlıq və dağ ətəyi kolxoz və sovxozlarda torpaq islahatlarının aparılmasını daim nəzarət altında saxlayır və sürətləndirilməsi üçün tədbirlər görürdü [70, s.62].

Ali Məclisin qərarları qısa müddət ərzində öz müsbət nəticələrini göstərdi, muxtar respublikada kənd təsərrüfatının inkişafı, əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması üçün əlverişli zəmin yaratdı [51, s.300-302].

Naxçıvan MR-in bütün rayonlarında aqrar sahənin yenidən qurulması istiqamətində xeyli işlər görüldü. Dağ və dağ ətəyi kəndlərdə torpaq islahatı demək

olar ki, 1998-ci ilin axırlarında başa çatdırıldı. Muxtar respublikada satılması nəzərdə tutulan kolxoz və sovxoz əmlakının dəyəri 67.1 milyard manat hesab olunurdu [70, s.62].

Muxtar respublikada olan 139 təsərrüfatın 119-da və ya 86 faizində, 208 kəndin 158-də və ya 76 faizində torpaq islahatı aparılmışdır. İslahat nəticəsində 43,3 min ailə torpaq payı almış, 12,4 min ailəyə dövlət torpaq aktları paylanmışdır.

Beləliklə, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində həyata keçirilən iqtisadi islahatlar muxtar respublikada kənd təsərrüfatı və heyvandarlıq məhsullarının artmasına, nəticədə əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına əsaslı təsir göstərmişdir.

3. Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən müdafiəsi

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi muxtar respublikanın mürəkkəb, eyni zamanda ağır dövrünə təsadüf edirdi. "Qarabağ problemi ətrafında yayılan dalğanın zərbə qüvvəsinə məruz qalan", sərhədyanı kəndləri ermənilər tərəfindən qarət və işğal olunan, dincliyi əlindən alınan Naxçıvan Muxtar Respublikası "tarixin ümidinə buraxılmış tənha bir adanı" xatırladırdı [50, s. 8].

Tale Heydər Əliyevi bu regiona göndərməklə Naxçıvanı Dağlıq Qarabağın və Azərbaycanın digər işğal olunmuş rayonlarının acı aqibətindən qorudu, "Azərbaycanın bu qədim torpağını xilas edən dahi şəxsiyyət özünə Naxçıvan boyda əbədi, həmişəyaşar abidə ucaltdı" [50, s. 9].

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasını Ermənistanın hərbi təcavüzündən qorumaq, əhalisinin təhlükəsizliyini təmin etmək məqsədilə Ali Məclisin 7 sentyabr 1991-ci il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsi yaradıldı [51, s. 544].

Ulu öndər Azərbaycan üçün taleyüklü olan bu qərarı imzalayarkən hüquqi müstəvi çərçivəsində "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 30 avqust 1991-ci il tarixli bəyannaməsinə, "Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərarına və Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 1991-ci il tarixli fərmanına istinad etməyi zəruri hesab etmişdir [49, s. 159]. Belə bir münasibət ulu öndərimizin müdrikliyi ilə yanaşı onun dövlətçilik siyasətinə sadiqliyinin daha bir təzahürü idi.

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilməsindən bir neçə gün sonra erməni millətçiləri muxtar respublikaya qarşı yeni təcavüzkar hərəkətlərə əl atdılar. 1991-ci il sentyabrın 10-dan 11-nə keçən gecə erməni silahlı quldur dəstələri Naxçıvan MR ərazisinə basqın edərək Şahbuz rayonunun Güney Qışlaq kəndindən 1033 baş, Ordubad rayonunun Tusi

adına kolxozundan 1054 baş qoyun aparmış və həmin rayonun sakinləri olan iki çobanı - Xəlil Xəlilovu və Əşrəf Abbasovu girov götürmüşdülər. Çobanların və sürülərin geri qaytarılması ilə bağlı Ermənistan hüquq-mühafizə orqanlarına edilən tələblər yerinə yetirilmədiyindən Ordubad rayonunun əhalisi Qafan-İrəvan sərnişin qatarını saxlamışlar.

Sentyabrın 12-də Ermənistan Respublikası Ali Sovetinin sədri Levon Ter-Petrosyan Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyevə zəng edərək onu parlamentin başçısı seçilməsi münasibətilə təbrik etmiş və Ermənistanla Naxçıvanın sərhəd rayonlarında baş verən münaqişəli məsələləri qarşılıqlı anlaşma və konstruktiv danışıqlarla həll etmək niyyətində olduğunu söyləmişdir [51, s. 546-547]. O, Ordubad stansiyasında saxlanılan sərnişin qatarının yola salınmasına köməklik göstərilməsini Heydər Əliyevdən xahiş etmiş, aparılmış çobanların və qoyun sürüsünün qaytarılması, baş vermiş cinayətin araşdırılması üçün tədbirlər görəcəyini vəd vermişdi. Ümummilli lider Heydər Əliyev ona "verilən vədlər vaxtında yerinə yetirilsə, sərnişin qatarını buraxmaq zərurətini Ordubad rayonu əhalisini inandırmaq imkanının olduğunu" bildirmişdi [50, s. 482-483]. Lakin Ermənistan rəhbərliyi verdiyi sözə əməl etməmiş, dörd gün davam edən danışıqlar nəticəsində yalnız qoyunların bir hissəsini qaytarmışdılar. Sonradan məlum olmuşdur ki, ermənilər hər iki çobanı vəhşiliklə qətlə yetirmişlər. Erməni quldurlarının qurbanlarını dəfn etdikdən sonra ordubadlılar X.Xəlilov və Ə.Abbasovun Ordubad rayonu ərazisində vəhşiliklə qətlə yetirildiyini nəzərə alaraq həbs edilməsi elan edilmiş dörd cinayətkarın Naxçıvan MR hüquq-mühafizə orqanlarına verilməsini, Dağlıq Qarabağda və Goranboy rayonunda ermənilər tərəfindən girov götürülmüş azərbaycanlıların geri qaytarılmasını, Mehri rayonu ərazisində lokomotiv briqadalarının və sərnişinlərin təhlükəsizliyinin təmin edilməsini tələb etmişdilər. Ulu öndər L.Ter-Petrosyanla telefon danışığında bu tələbləri tam müdafiə etmiş, eyni zamanda törədilmiş cinayət barədə Ermənistan mətbuat orqanlarına rəsmi məlumat verilməsi, Ermənistan rəhbərliyi adından günahsız həlak olan azərbaycanlıların ailələrinə başsağlığı verilməsi tələblərini irəli sürmüşdü [50, s. 483-488]. Bu şərtlər vasitəçilik missiyası ilə regiona gəlmiş RSFSR Ali Sovetinin deputatları A.Şabat və V.Popova da çatdırılmışdı. Onlar da öz növbəsində ulu öndər Heydər Əliyevin bu təkliflərdən ibarət məktubunu Ermənistan tərəfinə çatdırmışlar [51, s. 556]. Ermənistan tərəfi nəinki bunları yerinə yetirmiş, əksinə gərginliyi daha da artırmış, yeni silahlı basqınlar etmişlər. Sentyabrın 19-da erməni yaraqlıları Gorus rayonunun Üçtəpə ərazisində yerləşən teleradio ötürücüsündə Naxçıvan Muxtar Respublikası istiqamətində bütün kanallarda teleradio verilişlərinin buraxılmasını dayandırmış və telefon xəttinin bir hissəsini kəsmiş, nəticədə muxtar respublika Azərbaycan televiziyası və radiosunun verilişlərini qəbul etmək imkanından məhrum edilmişdi.

Sentyabrın 20-də Ermənistanın Sisyan rayonu tərəfindən 50-60 nəfərlik



Ümummilli lider Heydər Əliyevin şəhid ailələri ilə görüşü. 1991-ci il

silahlı erməni quldur dəstəsi Şahbuz rayonunun Biçənək teleradio ötürücü stansiyasına basqın edərək binanı dağıtmış, transformator stansiyasını yandırmış, bütün avadanlıqlar dağıdılaraq sıradan çıxarılmışdır. Beləliklə, muxtar respublika ərazisinə verilən teleradio verilişləri şəbəkəsi tamamilə dağıdılmışdı. Elə həmin gün erməni quldurları Babək rayonunun Yuxarı Buzqov kəndinin sakinləri olan iki çobana hücum etmiş və onlardan birini Eyvaz Eyvazovu özləri ilə aparmışdılar. Bu hadisələrlə əlaqədar ümummilli lider Heydər Əliyev yenidən L.Ter-Petrosyana zəng edərək muxtar respublika ərazisinə Ermənistan ərazisindən silahlı quldur hücumlarına son qoyulmasını, quldurlar tərəfindən aparılmış çoban E.Eyvazovun qaytarılmasını, 10 sentyabrdan 20 sentyabradək muxtar respublika ərazisində cinayət törədən Ermənistanın silahlı basqınçılarının muxtar respublikanın istintaq orqanlarına verilməsini tələb etmiş, teleradio ötürücü stansiyasına dəymiş maddi ziyanın dəyərini müəyyənləşdirmək üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən yaradılan komissiyanın işində Ermənistan nümayəndələrinin iştirakını təmin etməyi təklif etmişdi [50, s. 491-494].

Ulu öndər Heydər Əliyevi münaqişədən zərər çəkən hər bir azərbaycanlının taleyi narahat edir, erməni quldurları tərəfindən girov götürülmüş soydaşlarının azad olunması və öz ailələrinə qaytarılması üçün bütün imkan və vasitələrdən istifadə edirdi. Məhz onun Ermənistan rəhbərliyi ilə apardığı gərgin və intensiv

danışıqlar nəticəsində Şahbuz rayon sakinləri E.Mədətov, E.Hüseynov, Goranboy rayon sakinləri U.Bayramov, S.Bədəlov erməni əsirliyindən azad edilmişdi. Girov düşmüş insanların qohumları da son ümidgahları kimi Heydər Əliyevi görür, öz yaxınlarını erməni əsirliyindən xilas etmək üçün ona müraciət edirdilər. Ulu öndər Heydər Əliyevin sədrliyi ilə Ali Məclisin Rəyasət Heyətinin iclaslarında muxtar respublikanın sərhəddindəki vəziyyət mütəmadi müzakirə edilir, müvafiq orqanların nümayəndələrinin iştirakı ilə operativ tədbirlər müəyyən edilirdi.

1991-ci il oktyabrın 2-də Naxçıvan MR Ali Məclisin sessiyasında Ali Məclis sədrinin təşəbbüsü ilə müdafiə məsələləri qapalı iclasda müzakirə edilmiş və müvafiq qərar qəbul edilmişdi. Sessiyada həmçinin Azərbaycanın Xocalı şəhərində yaranmış gərgin vəziyyət də müzakirə olunmuşdu.

1991-ci ilin sentyabrında Rusiya və Qazaxıstan prezidentləri B.Yeltsin və N.Nazarbayev Azərbaycanın DQMV-də vəziyyətin normallaşdırılmasında vasitəçilik missiyasını yerinə yetirmək məqsədilə bölgəyə səfər etmiş, bu səfərdən sonra sentyabrın 23-də Rusiyanın Jeleznovodsk şəhərində RSFSR, Qazaxıstan, Azərbaycan və Ermənistan prezidentləri birgə bəyanat imzalamışdılar.

Bəyanata münasibət bildirən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycanın Dövlət Suverenliyi və ərazi bütövlüyünün müdafiəsi naminə Dağlıq Qarabağda vəziyyətin sabitləşdirilməsi, onun bütün ərazisində Azərbaycanın tam suverenliyinin bərpası və münaqişəli məsələlərin həllinə doğru atılmış bütün addımları bəyəndiyini bildirmiş, lakin həmin sənəddə Azərbaycan Respublikasının milli mənafeyinə toxunan gözlənilməz nəticələrə gətirə biləcək müddəaların olduğunu diqqətə çatdırmağı lazım bilmişdi. Muxtar respublikanın ali orqanı rəsmi məlumatda işğal edilmiş Azərbaycan kəndi Kərkinin qaytarılmasının öz əksini tapmadığından təəccübləndiyini bildirmişdi [50, s.498-500].

Naxçıvan-Ermənistan sərhəddində baş vermiş hadisələr, Ermənistanın Mehri rayonu ərazisindən keçən dəmir yolu sahəsində erməni quldur dəstələrinin törətdikləri təxribatlar nəticəsində sentyabrın 11-dən (1991) Naxçıvan Muxtar Respublikasını Azərbaycanın qalan hissəsi ilə birləşdirən dəmir yolunda qatarların hərəkəti növbəti dəfə dayandırılmışdı. Ulu öndər Heydər Əliyevin L.Ter-Petrosiyanla intensiv danışıqları nəticəsində qatarların hərəkətinin bərpa edilməsi haqqında razılıq əldə edilmiş, yük qatarlarının hərəkəti noyabrın 5-də bərpa edilmişdi [50, s.506-507]. Qatarların Mehri ərazisindən təhlükəsiz hərəkətinə şəxsən Ermənistan prezidenti L.Ter-Petrosiyan səviyyəsində təminat verilsə də, 1991-ci il dekabrın 9-da həmin ərazidə iş aparan Ordubad dəmir yol stansiyasının 12 nəfərdən ibarət təmirçilər briqadası erməni quldurları tərəfindən oğurlanmışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gərgin fəaliyyəti, onun Ermənistan prezidentinə təkidli müraciətləri nəticəsində girovlar dörd gündən sonra qaytarılmışdı [51, s.576-577].

1991-ci ilin axırlarında Ermənistan və Rusiya arasında "Dostluq, əməkdaşlıq

və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" imzalandı [5, s.294]. Beynəlxalq ictimaiyyət tərəfindən, demək olar ki, heç bir müqavimətə rast gəlməyən, Rusiyanın himayəsini açıq-aşkar hiss edən erməni millətçiləri və separatçıları daha da azğınlaşdılar. Erməni millətçiləri dekabrın 16-da növbəti cinayətə əl ataraq Mehri stansiyasında Bakı-Şərur qatarının 113 sərnişinini girov götürmüşdülər. Ulu öndərin L.Ter-Petrosiyanla telefon danışıqları nəticəsində girovlardan 111-i Naxçıvana qaytarılsa da, iki sərnişin 20 gün ərzində ermənilərin əlində girov qalmış, onlar təhqir və işgəncələrə məruz qalmışdılar. Bu müddət ərzində dəmir yolunun fəaliyyəti yenidən dayanmışdı. Yalnız 1992-ci il yanvarın 6-da girovlar azad edildikdən sonra yük qatarlarının hərəkəti bərpa edilmişdi [50, s.523-524].

Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin martın 10-da (1992) Ermənistan Respublikası Ali Sovetinin sədri Babken Arakçyanla görüşü oldu. Görüş zamanı Ermənistanla Naxçıvan Muxtar Respublikası arasındakı bütün sərhəddə sabitliyin və təhlükəsizliyin bərqərar edilməsi, Ermənistanın Mehri rayonu ərazisindən keçən bütün kommunikasiya xətlərinin normal işləməsi haqqında razılıq əldə olunsa da, Ermənistan rəhbərliyi bu sazişin müddəalarına əməl etmədi.

1992-ci ilin may ayı Azərbaycanın, eləcə də Naxçıvan Muxtar Respublikasının müasir tarixinin ən mürəkkəb və gərgin dövrünü təşkil edir. May ayında Bakıda siyasi qüvvələrin başı hakimiyyət mübarizəsinə qarışdığından və Qarabağı sanki yaddan çıxardıqlarından istifadə edən ermənilər Azərbaycana qarşı hücumlarını genişləndirərək Şuşa və Laçın şəhərlərini ələ keçirmişdilər[59, s.80]. Ulu öndər Heydər Əliyevin Ermənistan rəhbərliyi ilə apardığı gərgin danışıqlar nəticəsində hərbi münaqişələr müvəqqəti dayandırılsa da, ermənilər yaranmış şəraitdən istifadə edərək Naxçıvanı ələ keçirmək üçün mayın 1-dən muxtar respublikaya qarşı hərbi təcavüzə başladılar. Erməni silahlı birləşmələri qısa fasilədən sonra mayın 5-də sərhədi keçərək Naxçıvan MR-in sərhədyanı yaşayış məntəqələrinə yenidən basqın etdilər. Sədərək qəsəbəsi üzərinə hücumda piyadaların 5 döyüş maşını, 2 zirehli transportyoru və tankın köməyi ilə 700-ə yaxın silahlı erməni hərbi qulluqçusu iştirak edirdi [52, s.288]. Sədərək qəsəbəsi, Havuş, Günnüt, Yuxarı Yaycı kəndləri yaxınlığındakı döyüşlər zamanı 42 nəfər yaralanmış, 3 nəfər həlak olmuşdu. Mayın 7-də səhər tezdən Sədərək qəsəbəsi və Havuş kəndi müxtəlif toplardan atəşə tutulmuş, 20 nəfər yaralanmışdı. Sədərəkdə böyük dağıntılar olmuşdu [52, s.289].

Mayın 5-də Naxçıvan şəhərində, mayın 7-də Şərur rayonunun mərkəzində mitinqlər keçirildi. Heydər Əliyev hər iki mitinqdə iştirak və çıxış etmiş, sabitliyi saxlamaq naminə bütün qüvvələrin birləşməsini zəruri hesab etmişdi. Azərbaycan ərazisindən buraya elektrik enerjisi və yanacaq verilməsini təmin edən kommunikasiya xətləri Ermənistanda bağlanılmışdı. Telefon və teleqraf rabitəsi pozulmuş, dəmir yolunda hərəkət dayanmışdı. Naxçıvan Muxtar Respublikası yenə işıqsız və qazsız qalmışdı.

Mayın 8-də "Milliyyət" qəzetində Naxçıvandakı vəziyyətlə bağlı məlumatlar

verilmişdi. Türkiyənin Baş naziri Süleyman Dəmirəl ABŞ prezidenti Corc Buş ilə telefon danışıqlarında bildirmişdi ki, Ermənistan Naxçıvana hücumları davam etdirsə, Türkiyə kənar müşahidəçi kimi qala bilməyəcəkdir [27, s.45].

Sədərək rayonunda təhlükəsizliyi təmin etmək məqsədilə orada hərbi vəziyyət elan edildi, əhali təhlükəsiz yerə köçürüldü. Düşmən Naxçıvan tərəfdən hücum olacağından ehtiyatlanaraq oradakı hərbi hissələrin başını qatmaq, həm də Azərbaycanda yaranmış xaosdan bəhrələnərək yeni torpaqlar ələ keçirmək niyyətində idi. Mayın 18-də muxtar respublikanın Sədərək, Günnüt, Havuş, Yuxarı Buzqov, Şada, Biçənək və s. qəsəbə və kəndlərinə güclü hücumlar başlandı. Erməni daşnakları hətta zəhərli kimyəvi silahdan da istifadə edirdilər. Sədərəkdə qanlı döyüşlər 40 gün davam etdi. Naxçıvan əhalisi Sədərəyin müdafiəsinə qalxdı. Onlar qəhrəmanlıqla vuruşurdular. Düşmən hər cür silahla silahlanmışdı, lakin naxçıvanlıların silahları belə yox idi. Qəsəbənin yüz metrliyindəki Mil dağında 10 gün müddətində 17 şəhidin cəsədini götürmək mümkün deyildi. Ulu öndər Heydər Əliyevin şəxsi nüfuzu bir günlük atəşkəs yaratmağa kömək etdi, şəhidləri 1992-ci il mayın 28-də döyüş zonasından götürüb dəfn etmək mümkün oldu [91, 1992, 28 may]. Sədərəyə, kəndlərə xeyli ziyan dəymiş, evlər və inzibati binalar dağıdılmışdı. On minlərlə insan çadırlarda, meşələrdə ağır şəraitdə yaşamağa məcbur olmuşdu.

Erməni təcavüzünün qarşısını almaq üçün Heydər Əliyev dünya ictimaiyyətinə, Türkiyə hökumətinə müraciət etdi. Türkiyənin o zamankı rəhbərliyi Baş nazir Süleyman Dəmirəl, xarici işlər naziri Hikmət Çətin, baş nazirin birinci müavini Ərdal İnönü Heydər Əliyevə telefon etmiş, Naxçıvana Ömər Ərsun başda olmaqla xüsusi nümayəndə heyəti göndərmişdilər. Türkiyə hökuməti mayın 18-də gecəyarısı toplaşaraq Naxçıvanla bağlı geniş bəyanat vermişdi.

Ümummilli lider Heydər Əliyevin müraciətindən sonra bir çox ölkələrin, o cümlədən Rusiyanın informasiya agentliklərinin, mətbuat orqanlarının nümayəndələri Naxçıvana gələrək buradakı vəziyyət haqqında dünya ictimaiyyətini məlumatlandırdılar. Bu, son dörd il ərzində Dağlıq Qarabağ müharibəsinin xarici və Rusiya mətbuatında birtərəfli, ermənipərəst mövqeyindən işıqlandırılması nəticəsində Azərbaycanın əleyhinə yaradılmış informasiya blokadasının yarılması sahəsində də atılmış mühüm addım idi. Ümummilli liderin səylərinin nəticəsi olaraq dünya informasiya orqanları Ermənistanın Naxçıvana hücumu barədə məlumatlar vermiş, 57 dövlət Ermənistanın təcavüzkarlığını pisləmiş, NATO xüsusi bəyanatla çıxış etmişdi [91, 1992, 28 may]. Heydər Əliyevin fəaliyyəti nəticəsində dünya ictimaiyyətində obyektiv təsəvvür yaradılmış və Ermənistanın təcavüzkarlıq mövqeyi ifşa edilmişdi [50, s. 531]. Bütün bu addımlar öz bəhrəsini verməyə başlamış, Ermənistanın müdafiə naziri V.Sarkisyan mayın 24-də ümummilli lider Heydər Əliyevə müraciət edərək danışıqlar yolu ilə münaqişəni aradan qaldırmaq arzusunu bildirmişdi [50, s.530]. Mayın 24-də Ermənistanın təklifi ilə danışıqlar başlandı və sabitlik təmin edildi [50, s. 530, 548].

Ulu öndər erməni təcavüzünün qarşısını almaq üçün Naxçıvanın imkanlarının səfərbər edilməsi, bütün idarə və müəssisələrin, təşkilatların, muxtar respublikanın hər bir vətəndaşını Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkilinə, sosial-iqtisadi problemlərin həllinə cəlb edilməsi üçün yollar axtararaq Naxçıvanın vahid inkişaf və müdafiə fondunun yaradılması təklifi ilə çıxış etmişdi [50, s. 533-534]. Həmin təklif Ali Məclisin Rəyasət Heyətinin 25 may 1992-ci il tarixli iclasında müzakirə edilmiş və bəyənilmişdi. Ali Məclisin Rəyasət Heyəti Naxçıvanın İnkişafı və Müdafiə Fondunun yaradılması haqqında qərar qəbul etdi. Bütün Naxçıvan əhalisinə, dövlət və təsərrüfat orqanlarına, təşkilatlara, vətəndaşlara Naxçıvanın inkişafı və müdafiə fondunun təşkilində iştirak etmək barədə müraciət edildi. Müvafiq müraciət həmçinin muxtar respublikanın hüdudlarından kənarda yaşayan bütün azərbaycanlılara və türklərə də edilmişdi [50, s. 533-535]. Fondun təşkil olunması, toplanacaq vəsaitin istifadəsinə nəzarət üçün ulu öndər Heydər Əliyevin sədrliyi ilə komissiya yaradılmışdı.

Naxçıvan ərazisində olan SSRİ Silahlı Qüvvələrinin, sonra isə Rusiya Federasiyasının tabeliyində olan hərbi hissələrin və sərhəd qoşunlarının ləğv olunması və onların muxtar respublikadan çıxarılması, onların sərəncamında olan silah və sursatların təhvil verilməsinin çox böyük tarixi və hərbi əhəmiyyəti oldu.

Muxtar respublikada fəaliyyət göstərən qeyri-rəsmi silahlı qüvvələrin, xüsusən Xalq Cəbhəsinə məxsus hərbi dəstələrin buraxılması və onların da vahid komandanlığa tabe edilməsi məsələsi həll edildi. Bu dəstələr yarandığı ilk vaxtlarda muxtar respublikanın erməni təcavüzündən qorunmasında, əhalinin təhlükəsizliyinin təmin edilməsində müsbət rol oynasalar da, sonralar onların fəaliyyəti getdikcə başıpozuq xarakter daşımağa başlamış, onlar bəzi siyasi qüvvələrin əlində hakimiyyətə qarşı təzyiq vasitəsinə çevrilmişdi.

Ali Məclisin Rəyasət Heyəti Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının ərazisində yeni, vahid hərbi hissələrin yaranması, bütün müdafiə məsələlərinin bu hissələr tərəfindən təşkil olunmasını nəzərə alaraq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Xalq Cəbhəsi silahlı qüvvələrinin buraxılmasını, bütün silahların, sursatların Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvanda yerləşən hərbi hissəsinə təhvil verilməsini məqsədəuyğun hesab etdi. Qəbul edilmiş qərarda Naxçıvan Muxtar Respublikasının ərazisində mövcud olan bütün silahlı dəstələrin ləğv edilməsi, iyirmi gün müddətində əhalidə olan bütün qeyri-qanuni silahların yığılması tələb edilirdi. Bu tədbirlərin həyata keçirilməsi Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinə həvalə olundu [50, s. 554-555].

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Nazirlər Kabinetinə və Daxili İşlər Nazirliyinə Naxçıvan ərazisində yeni yaranan Azərbaycan Silahlı Qüvvələrinin hərbi hissələrinin təşkil olunmasında və fəaliyyət göstərməsində lazımi köməklik göstərməyi tapşırmışdı [50, s. 555].

1992-ci il oktyabrın 9-da Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının bir ili tamam olmuşdu. Bu münasibətlə Naxçıvan şəhərində hərbi parad keçirilmiş, ulu öndər Heydər Əliyev əsgərlər və əhali qarşısında çıxış etmişdi. O, indiyədək Naxçıvan torpaqlarını cəsarətlə qorumuş bütün vətənpərvər Naxçıvan oğullarına, könüllü dəstələrə öz minnətdarlığını bildirərək, onların gördükləri işləri layiqincə qiymətləndirmiş və bəyan etmişdi ki, "...artıq Naxçıvanda nizami Milli Azərbaycan ordusunun hərbi hissələri mövcuddur. Bu hissələr lazımi gücə malikdirlər və Naxçıvan torpaqlarını müdafiə etməyə qadirdilər. Eləcə də, Naxçıvanın sərhədlərini mühafizə etmək üçün öz milli sərhəd dəstəmiz var. Ona görə də bütün könüllü dəstələrə minnətdarlığımızı bildirməklə, onlara tövsiyə edirik ki, bundan sonra öz vətəndaşlıq vəzifələri ilə məşğul olsunlar. Torpaqlarımızın düşməndən müdafiəsini ancaq və ancaq Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda yaradılmış hissələri həyata keçirməlidir" [51, s. 620-621].

[Naxçıvanın müdafiəsinin təşkili, ordu quruculuğu prosesi, ümummilli lider Heydər Əliyevin muxtar respublika rəhbəri kimi daim diqqət mərkəzində saxladığı məsələlər idi. Ermənilərin hücumlarına məruz qalmış kəndlərin, o cümlədən Sədərək kəndinin əhalisinin vəziyyəti daim diqqət mərkəzində saxlanılır, kəndlərin təhlükəsizliyinin təmin olunması, əhalinin normal şəraitdə yaşaması üçün bütün imkanlardan istifadə edilirdi.]

Ümummilli lider Heydər Əliyev 1992-ci ilin dekabrında və 1993-cü ilin mayında Sədərəkdə Ermənistan nümayəndələri ilə görüşə gedərkən bu kəndin əhalisi ilə də görüşmüş, problemləri ilə maraqlanmış, sədərəkliləri əmin etmişdi ki, biz bir qarış da olsa, torpağımızı əldən verməyəcəyik, nəyin bahasına olursa-olsun özümüzü müdafiə edəcəyik, düşmənin qarşısını alacağıq [50, s. 570].

1993-cü il mayın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Ermənistan Ali Soveti sədrinin birinci müavini Ara Saakyanla Sədərək və Ararat rayonları arasındakı sərhəd zastavasında görüşü keçirildi. Görüşdə sərhəd məntəqələrində təhlükəsizliyin və sabitliyin təmin olunması məsələsi müzakirə edildi. İki tərəf arasında mayın 9-10-da sərhəd zonasında baş vermiş atışma nəticəsində yaranmış gərginliyin aradan qaldırılması barədə razılıq əldə edildi. Heydər Əliyev həmçinin dəmir yolunun işinin, bütün kommunikasiya xətlərinin bərpası təklifini irəli sürmüş, müvafiq bəyannamə imzalanmışdı.

Lakin bu görüş və orada imzalanmış bəyannamə Azərbaycan Respublikasının rəsmi dairələrində və mətbuat orqanlarında əsassız söz-söhbətlərə səbəb olmuşdu. Bəzi qəzetlər bununla əlaqədar qərəzli materiallar dərc etmiş, ictimai fikri azdırmağa çalışmışlar. Heydər Əliyevin tapşırığı ilə Ali Məclisin mətbuat xidməti xüsusi məlumat yaymış və həmin görüşün son vaxtlar Naxçıvanın Ermənistanla bəzi sərhəd məntəqələrində yaranmış gərginliyi aradan qaldırmaq, sabitliyi təmin etmək zəruriliyindən irəli gəldiyini bildirmişdir. Eyni zamanda, imzalanmış bəyannamənin

məzmunu təhrif olunduğu üçün bəyannamə kütləvi informasiya vasitələrində dərc edildi [50, s.577-578].

Beləliklə, Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi 1991-1993-cü illərdə müdrik fəaliyyəti, böyük dövlətçilik təcrübəsi və xalqın ona olan sarsılmaz inamı və dəstəyi sayəsində bölgəni real erməni işğalından xilas etdi. Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin təmin edilməsi, müdafiəsinin təşkili, rus qoşunlarının silah-sursatın, texnikanın, əmlakın Azərbaycana təhvil verilməsi şərti ilə çıxması Naxçıvanı çox böyük fəlakətdən və faciələrdən qurtardı. Naxçıvan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, münaqişənin əsl mahiyyəti haqqında informasiya vasitələri agentliklərinə geniş və obyektiv məlumatlar verilməsi də erməni təcavüzünün qarşısının alınmasında mühüm rol oynadı. Naxçıvanda müdafiə və hərbi quruculuq sahəsində həyata keçirilmiş tədbirlər bölgənin təhlükəsizliyinin möhkəm təməlini qoydu. Təəssüf ki, 1991-1993-cü illərdə bu istiqamətdə Bakıda heç bir iş aparılmadı. Ermənistanın təcavüzü ilə yanaşı, Azərbaycanda daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış və respublikanın daxilində qızğın hakimiyyət çəkişməsi gedirdi. Təbiidir ki, müxtəlif qüvvələrin özlərinə məxsus silahlı dəstələrdən istifadə edərək apardığı bu hakimiyyət mübarizəsi Azərbaycana böyük zərbələr vurdu. 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "ölüm, ya olum" dilemması qarşısında qalmışdı [22, s.103-104, 113].

4. Naxçıvandan rus qoşunlarının çıxarılması və milli ordunun formalaşması

Azərbaycan 1991-ci il oktyabrın 18-də müstəqillik aktını qəbul etsə də, hələ əsl müstəqilliyə gedən yol çox uzun idi. Özgə ordusunu yedirdən bir ölkə özünü müstəqil hesab edə bilməzdi. Bunun üçün ilk növbədə sovet imperiyasının işğalçı qoşun hissələri ölkədən çıxarılmalı idi. Azərbaycanın o vaxtkı rəhbərləri isə buna nail olmağa tələsmirdilər. Bu addımı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev atdı. Ümummilli lider Heydər Əliyev muxtar respublika ərazisindəki sovet qoşun hissələrinin dincliklə oradan çıxarılması, onlara məxsus silah-sursatın, texnikanın, əmlakın tamamilə Azərbaycanın ixtiyarına verilməsinə nail oldu.

1991-ci il oktyabrın 26-da Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin sessiyasında Naxçıvan MR ərazisindəki qoşun hissələrinin statusu haqqında məsələ müzakirə olundu və müvafiq qərar qəbul edildi [50, s.509-510]. Bu məsələnin müzakirəsinin zəruriliyi ondan irəli gəlirdi ki, son vaxtlar hərbi hissələr yerli hakimiyyət orqanları ilə kifayət qədər əlaqə saxlamır, əhali ilə münaqişələrə gətirib çıxaran hərəkətlərə yol verirdilər. Hərbi hissələr tərəfindən hərbi texnikanın və silahın res-

publikadan kənara aparılması barədə şayiələr yayılır, ayrı-ayrı hərbi qulluqçuların hüquqa zidd hərəkətləri yerli əhali arasında böyük narazılığa səbəb olurdu. Sessiyada Naxçıvanda qulluq edən hərbçilərin erməni quldurları ilə Azərbaycanın əleyhinə pozuculuq əlaqələri haqqında çoxlu faktlar göstərildi. Belə bir narahatlıq doğuran məqama da diqqət yetirildi ki, Naxçıvandakı Sədərək və Ordubad zastavaları gizli şəkildə Ermənistandakı sərhəd dəstəsinə tabe edilib. Ali Məclisin Sədri həmin məsələnin üç gün ərzində həll edilməsi və qeyd olunan zastavaların Naxçıvan sərhəd dəstəsinə tabe etdirilməsi haqqında 41-ci sərhəd dəstəsinin komandiri V.Jukova tapşırıq verdi. Ulu öndər Heydər Əliyevin qətiyyətli mövqeyi sayəsində bu məsələ öz müsbət həllini tapdı.

1991-ci il noyabrın 6-da SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini N.A.Şam və SSRİ Baş Dövlət Sərhəd İdarəsinin şöbə rəisi A.A.Bessonov, eləcə də Zaqafqaziya hərbi dairəsindən, sərhəd qoşunları qərargahından yüksək rütbəli zabitlər Naxçıvana gəldilər [84, s. 311]. Ali Məclisin Sədri Heydər Əliyev onları qəbul etdi. Hərbçilərin hüquqazidd, qarşılıqlı münasibətlərə xələl gətirən hərəkətləri haqqında qonaqlara ətraflı məlumat verən ulu öndər Heydər Əliyev bildirdi ki, Naxçıvan Muxtar Respublikası ərazisindəki qoşun hissələri öz funksiyalarını bu regionda yaranmış real vəziyyətə uyğun həyata keçirməli, yerli orqanlarla və əhali ilə qarşılıqlı əlaqənin yaxşılaşdırılmasına səy göstərməlidirlər. Noyabrın 7-də Ali



Naxçıvandan rus qoşunlarının çıxarılması və milli ordunun formalaşması 1991-ci il

Məclisin Sədri Heydər Əliyevin muxtar respublika ərazisində yerləşən bütün hərbi hissələrin komanda heyəti ilə görüşü oldu. Ali Məclisin qəbul etdiyi "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili ilə əlaqədar bəzi məsələlər haqqında" qərarı bu sahədə aparılan bütün danışıqlara bir nöqtə qoydu. Qərarda deyilirdi ki, Naxçıvan Muxtar Respublikasının ərazisindəki bütün yeraltı və yerüstü sərvətlər Azərbaycan xalqına, muxtar respublika əhalisinə məxsusdur. Muxtar respublika ərazisində yerləşən silahlı qüvvələrin bütün hərbi və təsərrüfat tikililəri, əmlakı, silahlar və hərbi sursatları, hərbi və mülki texnikası Naxçıvan Muxtar Respublikasına məxsusdur və Ali Məclisin icazəsi olmadan respublika ərazisindən aparılmamalıdır [50, s. 522].

1991-ci ilin dekabr ayında SSRİ-nin dağılması vahid silahlı qüvvələrin bölünməsi məsələsini ortaya çıxardı. Azərbaycan Respublikası Ali Sovetinin "Azərbaycan Silahlı Qüvvələrinin yaradılması haqqında" 9 oktyabr 1991-ci il tarixli qərarı, Azərbaycan hökumətinin "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" 225 №-li sərəncamları ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə və yerli XDS İK-nə tapşırılmışdı ki, Azərbaycan ərazisində xüsusi icazə olmadan hərbi texnika, silah, avadanlıq və digər hərbi əmlakın öz bölgələrinin hüdudlarından kənara çıxarılmasını qadağan etsinlər.

Naxçıvan MR Ali Məclisinin 26 oktyabr 1991-ci il tarixli qərarının qeyri-qənaətbəxş yerinə yetirilməsi, muxtar respublika ərazisində yerləşən hərbi hissələrin statusunun dəqiqləşdirilməsi, həmin hissələrin Naxçıvan Muxtar Respublikası ərazisində qalmalarının məqsədəuyğunluğunun araşdırılması və muxtar respublikada ali hakimiyyət orqanlarına tabeçilik məsələlərinin həll edilməsi üçün Naxçıvan MR Ali Məclisi 16 dekabr 1991-ci il tarixdə qərar qəbul etdi. Qərarda deyilirdi: "...Ali Məclisin sessiyası 26 oktyabr tarixli iclasında yaradılmış Ali Məclisin sədr müavini Qafar Məmmədovun başçılıq etdiyi xüsusi komissiyaya tapşırılsın ki, 75№-li mexanikləşdirilmiş motoatıcı diviziyasının komandanı R.Slaboşeviç və digər hərbi hissələrin rəhbərləri ilə birgə müstəqil Azərbaycan dövlətinin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi hissələrin statusu haqqında on gün müddətində konkret təkliflərini müəyyən edib Ali Məclisə təqdim etsinlər [50, s. 515-516].

Muxtar respublika rəhbərliyinin məsələni qarşılıqlı güzəşt və qanuni yolla həll etmək istəyinə baxmayaraq yerli hakimiyyət orqanlarına rus hərbçilərinin yerli əhali ilə münaqişələrinə səbəb olan hərəkətləri, onların hərbi texnikanı və avadanlıqları respublikadan çıxarmaq, sökərək yararsız hala salmaq cəhdləri haqqında çoxlu məlumatlar daxil olurdu. Bütün bunlara dair konkret faktlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin hərbi hissə komandirlərinin də iştirak etdikləri 1992-ci il yanvarın 2-də keçirilən iclasında geniş müzakirə olundu. İclasda çıxış edən ümummilli lider Heydər Əliyev hərbçilərlə yerli əhali arasında baş vermiş münaqişələri təhqiq etmək üçün xüsusi

komissiyanın yaradılması ilə bağlı təklif irəli sürdü. O, hərbi texnikanın və avadanlığın muxtar respublikadan çıxarılması haqqında faktlara münasibət bildirərək dedi: "Yadda saxlamaq lazımdır ki, Sovet ordusu və onun hərbi texnikası keçmiş ittifaqın bütün respublikalarının xərci ilə yaradılmış və saxlanılırdı. Ona görə də hərbçilərdə olan silahlar, hərbi texnika və avadanlıq onların yerləşdiyi hər bir respublikanın payına düşməlidir. Biz muxtar respublikadan silahların, hərbi texnikanın və avadanlığın aparılmasına heç cür yol verə bilmərik. Suveren respublikalar birliyinin yaranması ilə əlaqədar hər bir respublikada, o cümlədən Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələr yerli hakimiyyət orqanlarına tabe olmalıdırlar. Hərbçilər yerli əhaliyə, onun adət və ənənələrinə hörmətlə yanaşmalıdırlar. Əhali ilə hərbçilər arasında normal qarşılıqlı münasibətlər bərqərar olmalıdır" [91, 1992, 11 yanvar].

[Ümummilli lider Heydər Əliyevin Rusiya Federasiyasının Müdafiə Nazirliyi, Cənubi Qafqaz Hərbi Dairəsinin və 75-ci diviziyanın komandanlıqları ilə apardığı danışıqlar nəticəsində diviziyanın ləğv edilməsi və onun bütün əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında razılıq əldə olundu. Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin 1992-ci il 25 iyul tarixli iclasında Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin ləğvi və onun əsasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tərkibində müvafiq strukturun yaradılması zəruri hesab edildi [50, s. 542]. İyulun 22-dən avqustun 15-dək 75-ci diviziyanın əmlakı, silah-sursatı Azərbaycan Milli Ordusuna təhvil verildi. Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin və təhvil alınan 75-ci diviziyanın hərbi hissələrinin bazasında Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvanda 5-ci əlahiddə motoatıcı briqadası yaradıldı. Azərbaycanda birinci olaraq Rusiya qoşun hissələrinin hərbi və təsərrüfat əmlakı Azərbaycan Müdafiə Nazirliyinin yeni yaradılan hərbi hissəsinin sərəncamına verildi.]

1992-ci il avqustun 18-də 75-ci diviziyanın əmlakının, silahlarının, hərbi texnikasının Azərbaycan Milli Ordusuna verilməsi haqqında sənədlərin imzalanması ilə Rusiya Ordusunun hərbi hissələri avqustun 18-də Naxçıvan Muxtar Respublikasını tərk etdi [50, s. 771; 91, 1998, 24 iyun]. Sənədlərin imzalanması mərasimində çıxış edən Ali Məclisin Sədri Heydər Əliyev bu günü müstəqil Azərbaycan Respublikasının və onun tərkib hissəsi olan Naxçıvan MR-in həyatında əlamətdar, tarixi gün adlandırdı [85, 1992, 20 avqust]. Beləliklə, 1946-cı ildən Naxçıvanda yerləşən bu diviziya Azərbaycanda öz ömrünü başa vurdu.

1992-ci ilin avqust-sentyabr aylarında 41-ci Sərhəd Dəstəsinin ləğv edilməsi, onun əmlakının Azərbaycan Respublikasının 1-ci Sərhəd Dəstəsinə verilməsi barədə razılaşma əldə olundu. Bundan sonra Azərbaycan Respublikası ilə qonşu dövlətlər – İran və Türkiyə arasında muxtar respublika ərazisindəki 215 km məsafədə olan dövlət sərhəddi Rusiya Silahlı Qüvvələri tabeliyində olan 41-ci Sərhəd Dəstəsi tərəfindən deyil, Azərbaycan Respublikasının Sərhəd Qoşunlarının 1-ci Sərhəd

Dəstəsi tərəfindən mühafizə ediləcəkdi. Sentyabrın 29-da sərhəd dəstəsinin sonuncu zabit və əsgərləri təntənəli şəkildə Naxçıvan Muxtar Respublikasından yola salındılar [50, s. 557]. İlk milli sərhəd qoşunlarının yaradılması da Naxçıvandan başlandı. Sərhəd qoşunları dəstəsində Azərbaycanın milli bayrağı qaldırıldı.

Bu hadisə ilə əlaqədar 1992-ci il sentyabrın 29-da Sərhəd Dəstəsi qərargahının ərazisində Azərbaycan Respublikası Sərhəd Qoşunlarının 1-ci Sərhəd Dəstəsi hissələrinin Naxçıvan şəhər ictimaiyyətinin iştirakı ilə mitinqi oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev mitinq iştirakçıları qarşısında çıxış etdi və onları bu əlamətdar hadisə münasibəti ilə təbrik etdi.

Bütün keçmiş müttəfiq respublikalar içərisində ilk dəfə olaraq sovet imperiyasının ordu hissələri bütünlüklə Naxçıvandan, ondan bir müddət sonra isə Azərbaycandan çıxarıldı. Naxçıvanda təxminən iki əsr müddətində mövcud olmuş əcnəbi ölkənin hərbi iştirakına son qoyuldu.

5. Blokadanın aradan qaldırılması və Naxçıvan Muxtar Respublikasının beynəlxalq əlaqələri

Dağlıq Qarabağ hadisələrinin başlanması, Ermənistanın təcavüzkar mövqeyi nəticəsində Naxçıvana gələn yük və sərnişin qatarları atəşə tutulur, yollar dağıdılır, qatarların Naxçıvana hərəkətinə hər cür maneçilik törədilirdi. Sərhədlərinə müntəzəm hücumlar edilən muxtar respublikanı ölkə ilə - Azərbaycanla bağlayan yeganə dəmiryolu 1992-ci il aprelin 24-də, qalan kommunikasiyalar isə iyulun 13-də kəsildi, şose yolu bağlandı. 1991-ci ilin dekabrından qaz, 1992-ci ilin iyunundan Naxçıvan MR-ə elektrik enerjisi verilməsi dayandırıldı, muxtar respublika blokada vəziyyətinə düşdü.

Ermənistan tərəfdən iqtisadi və nəqliyyat blokadasının yaratdığı obyektiv çətinliklər, digər tərəfdən keçmiş iqtisadi münasibətlərin pisləşməsinə gətirib çıxarmışdı. Dəmir yolunun işləməməsi nəticəsində muxtar respublikanın sənaye, kənd təsərrüfatı, tikinti müəssisələri lazım olan xammalla, avadanlıqlarla, inşaat materialları ilə təmin edilmədiyindən onların əksəriyyətinin fəaliyyəti tamamilə dayanmışdı [50, s. 265].

İqtisadi əlaqələrin kəsilməsi ucbatından həmin dövrdə muxtar respublikaya məhsul gətirilməsi tamamilə kəsilmişdi. Həmin illərdə Naxçıvan MR-də adambaşına düşən mal dövriyyəsi orta respublika göstəricisinin 74,8 faizini təşkil edirdi [71, s. 109-111]. Muxtar respublikada işsizlərin sayı 50 min nəfərdən çox idi [16, s. 119].

Muxtar respublikada vəziyyət mürəkkəb və gərgin olaraq qalırdı. Çünki yanacağı, ərzaq məhsullarının çox hissəsini, bəzi tikinti materiallarını Bakıdan alan Naxçıvan son dərəcə çətin bir vəziyyətdə qalmışdı. Ermənistan ərazisindən keçən dəmir yolunun işləməməsi nəticəsində həmin məhsulların Naxçıvana gətirilməsi qeyri-mümkün idi. Belə bir ağır vaxtda Bakı ilə əlaqə yalnız hava yolu vasitəsilə saxlanılırdı ki, hava yolu ilə də Naxçıvanın tələbatını ödəmək olmazdı.

O zaman Naxçıvan MR Ali Məclisi vəziyyətdən çıxmaq üçün Naxçıvana gələn avtobusların, yük maşınlarının Xudafərindən İran ərazisinə keçib oradan Culfaya gəlmələri təklifi ilə çıxış etsə də, bu təklifin həyata keçirilməsi istər Azərbaycanda, istərsə də İranda bəzi qüvvələrin günahı, Naxçıvana ögey münasibəti ucbatından mümkün olmadı.

Böyük dövlət xadimi Heydər Əliyevin Naxçıvanda yaşaması, daha sonra Naxçıvan MR Ali Məclisinə rəhbərlik etməsi Naxçıvanın blokadadan qurtarmasına, onun beynəlxalq əlaqələrinin yaranmasına və genişlənməsinə imkan verdi.

Ağır blokada illərində Naxçıvanda yaşayan ulu öndər Heydər Əliyevin nüfuzu və uzaqgörən siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası və Türkiyə Respublikası ilə əlaqələri yaradıldı, Naxçıvanın həyati tələbatını ödəmək, kommunikasiya əlaqələrini bərpa etmək üçün danışıqlar aparıldı, protokollar imzalandı. Dahi şəxsiyyət muxtar respublikanı sosial-iqtisadi böhrandan çıxarmaq üçün ciddi tədbirlər görməyə başladı. Onun sədrliyi ilə Ali Məclisin sessiyasında diyarın sosial-iqtisadi və ictimai-siyasi vəziyyəti ətraflı təhlil edildi, təcili tədbirlər görmək üçün muxtar respublika hökumətinə müvafiq tapşırıqlar verildi. Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi iki ilə yaxın müddətdə ümummilli lider Heydər Əliyev əsasını qoyduğu xarici əlaqələr sayəsində bölgəni gözlənilən fəlakətdən xilas etdi [59, s. 111].

Naxçıvan-Türkiyə əlaqələri. Heydər Əliyev 1991-ci ildə Ali Məclisin sədri seçildikdən sonra Naxçıvan-Türkiyə münasibətləri yeni mərhələyə qədəm qoydu. "Naxçıvan türk-islam dünyasına bir qapıdır", - deyən ulu öndər bu istiqamətdə ardıcıl, məqsədyönlü fəaliyyət göstərməyə başladı.

1991-ci il yanvarın 29-da Naxçıvanda Azərbaycanla-Türkiyə arasında əməkdaşlıq haqqında protokol imzalandı. Sazişdə sərhəd çayı Araz üzərində avtomobil və dəmir yolları tikmək, sərhəddə buraxılış məntəqəsi açmaq nəzərdə tutulurdu.

1991-ci il sentyabrın 30-da Naxçıvan MR Ali Məclisinin növbədənkənar sessiyasında Naxçıvanın blokadası və yaranmış vəziyyətdən çıxış yolları müzakirə edildi. Türkiyənin Qars əyalətinin nümayəndə heyəti ilə danışıqlar aparıldı və əməkdaşlıq haqqında protokol imzalandı. 1991-ci il oktyabrın 25-də Türkiyə Respublikası Naxçıvana 1 milyard lirəlik ərzaq yardımı göndərmək qərarına gəldi.

Həmin il oktyabrın 29-da Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Azərbaycan-Türkiyə arasında Araz çayı üzərində müvəqqəti körpünün açılışı oldu [50, s. 585-586]. Körpünün rəsmi açılış mərasimində Ali Məclisin sədri Heydər Əliyev, Türkiyə hökumət dairələrinin nümayəndələri, Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri iştirak etdilər. Azərbaycanın Türkiyə ilə birbaşa nəqliyyat əlaqəsi qurmasını o zamankı SSRİ rəhbərliyi qısqanclıqla qarşılamış, rəsmi informasiya vasitələri səhv məlumatlar yaymağa başlamışdır. Müvəqqəti körpünün açılması muxtar respublikanın dost ölkə ilə əlaqələrinin inkişafında mühüm mərhələ

oldu. Körpünün açılması ilə Türkiyə Respublikası hökumət nümayəndələrinin, iş adamlarının Naxçıvana səfərləri intensiv xarakter almağa başladı.

1991-ci il noyabrın əvvəllərində Türkiyə Nəqliyyat Nazirliyinin nümayəndə heyəti muxtar respublikaya səfər etmiş, səfər zamanı Araz çayı üzərində avtomobil körpüsünün tikilməsi, keçid məntəqəsi yaradılması haqqında nazirliklə Muxtar Respublika Nazirlər Kabineti arasında protokol tərtib edilmişdi [50, s. 590-591].

Müvəqqəti körpü istifadəyə verildikdən sonra Türkiyə hökuməti nümayəndələrinin, iş adamlarının, qonşu vilayətlərin nümayəndələrinin Naxçıvana səfərləri genişlənmiş, muxtar respublikaya göstərilən yardımların həcmi artmışdı. 1991-ci il noyabrın 9-da Türkiyənin "Qızıl Ay" cəmiyyətinin xətti ilə muxtar respublikaya 126 ton ərzaq gətirilmişdi. Noyabrın 18-də Türkiyənin Konya şəhərindən ərzaq dolu maşın karvanı Naxçıvana gəldi. Noyabrın 29-da İğdır şəhərinin əhalisi və valiliyi Naxçıvana 19 yük maşını ərzaq göndərdi. Yardımı gətirən İğdır Bələdiyyə İdarəsinin rəisi ulu öndər Heydər Əliyevlə görüşündə bildirdi ki, Naxçıvan Muxtar Respublikasına göstərilən yardım davam edəcəkdir [84, s.283].

Naxçıvan Muxtar Respublikasının xarici əlaqələrinin təşəkkül tapmasında Ali Məclis Sədrinin 24 fevral 1992-ci il tarixdə verdiyi fərmanla yaradılan Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi mühüm rol oynamağa başladı. O, Naxçıvanı blokadadan çıxarmaq üçün Naxçıvan – Türkiyə əlaqələrinin inkişafına xüsusi əhəmiyyət verirdi. Əlaqələrin inkişafında ulu öndərin başçılığı ilə Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinin qonşu ölkəyə rəsmi səfərləri mühüm rol oynayırdı.



Naxçıvan Muxtar Respublikası və Türkiyə Cümhuriyyətini birləşdirən "Ümid körpüsü"

1992-ci ilin martın 22-25-də ulu öndər Heydər Əliyev Türkiyənin Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə dost ölkədə səfərdə oldu. Ankarada onu Türkiyə

Cümhuriyyətinin prezidenti Turqut Özal qəbul etmiş, Baş nazir Süleyman Dəmirəl ilə əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məsələləri müzakirə edilmişdir. Rəsmi görüşdə çıxış edən Baş nazir bildirdi ki, keçmiş Sovetlər İttifaqında baş verən proseslərə Türkiyə öz münasibətini bildirməlidir. Qars müqaviləsinə görə Naxçıvanın statusunda əmələ gələcək dəyişikliklərə də Türkiyənin münasibət göstərməsinin vacib olduğunu qeyd edən Baş nazir bildirdi ki, bu məsələ ilə əlaqədar Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev Türkiyəyə dəvət edilmişdir.

S.Dəmirəl dünya siyasətində möhtərəm şəxs kimi qəbul edilən Heydər Əliyevi Türkiyədə görməkdən məmnun olduğunu dedi: "Biz görürük ki, Naxçıvanda sabitlik var. Hörmətli Heydər Əliyev bu sabitliyi yaradandır, onun sahibidir. Naxçıvan bu sabitliyə görə ona borcludur. Naxçıvan xalqı hörmətli Heydər Əliyevi baş tacı etmişdir. Şəxsən mən bunu təqdirəlayiq böyük iş kimi qiymətləndirirəm" [51, s.668].

Naxçıvan Muxtar Respublikasının iqtisadi çətinliklərindən danışan Baş nazir bildirdi ki, bu çətinlikləri aradan qaldırmaq üçün Naxçıvana kömək ediləcəkdir. Səfərin gedişində - martın 24-də 13 maddədən ibarət əməkdaşlıq haqqında protokol imzalandı. Sənəddə Türkiyə ilə Naxçıvan arasında iqtisadiyyat, təhsil, nəqliyyat və rabitə sahəsində əlaqələrin inkişaf etdirilməsi nəzərdə tutulurdu. Protokolda həmçinin bank işi, turizm, informasiya sahəsində geniş əməkdaşlıq əlaqələrinin yaradılması, muxtar respublikadan olan 100 tələbənin Türkiyədə təhsil alması haqqında razılığa gəlindi. Türkiyə Naxçıvan Muxtar Respublikasına 100 milyon dollar kredit ayırdı [39; 51, s. 286-287] və bunun hesabına ərzaq, əkin üçün toxum, avadanlıq göndərdi. Sədərək-Türkiyə yolu tikildi. Qarşılıqlı avtonəqliyyat əlaqələri yarandı. "Türksat" rabitə şirkəti Naxçıvanın Bakı ilə telefon əlaqəsini bərpa etdi.

Türkiyə ilə Naxçıvanın yaxınlaşmasında ulu öndərin xidmətləri əvəzsiz idi. Naxçıvan tədricən türk dünyasına qovuşurdu. Heydər Əliyev deyirdi: "Qədim türk diyarı olan Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir. Qarşılaşdıqları çətinliklərə dözə-dözə naxçıvanlılar Azərbaycanın bütövlüyü, müstəqilliyi uğrunda mübarizə aparırlar. Rusiyanın əsarətindən çıxdıqdan sonra Azərbaycan türk, islam aləminə yaxınlaşıb qovuşmalıdır. Bu mənada Naxçıvan türk dünyasına bir qapıdır" [27, s. 50].

Türkiyə Cümhuriyyəti ilə Naxçıvan arasında imzalanan Əməkdaşlıq Protokolu iki respublika arasında tarixi və mədəni əlaqələri inkişaf etdirmək sahəsində çox böyük əhəmiyyətə malik tarixi sənəd oldu. İmzalanan bu protokol eyni zamanda ağır iqtisadi böhran vəziyyətində olan Naxçıvan Muxtar Respublikasına böyük maliyyə, maddi-texniki yardım göstərməklə onun böhran vəziyyətindən çıxmağı üçün geniş imkanlar yaratdı. Bu məsələ ətrafında Naxçıvan MR Ali Məclisinin 4 aprel tarixli iclasında geniş danışıldı və qərar qəbul edildi. Qərarda göstərilirdi ki, Ali Məclisin daimi komissiyaları, muxtar respublika Nazirlər Kabineti, rayon və şəhər xalq deputatları məclisləri, onların icraiyyə komitələri Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanan Əməkdaşlıq Protokolunun icrası ilə əlaqədar konkret təkliflər hazırlasınlar.




Ümummilli lider Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl ilə görüşü
1992-ci il

Azərbaycan – Türkiyə arasında əməkdaşlığın artması ilə yeni dövr başlandı. Bu Türkiyə Respublikası ilə Azərbaycan Respublikasının Naxçıvan MR arasında Türkiyənin məşhur "Matsandış" Yol Tikinti Şirkəti ilə Naxçıvan Təmir Tikinti İdarəsinin birgə inşa etdiyi, uzunluğu 288 metr olan Sədərək-Dilucu körpüsünün istifadəyə verilməsi ilə əlaqədar idi. Bu körpü iki qardaş xalqın həsrətinə son qoymaqla yanaşı, iki respublika arasında iqtisadi, mədəni əlaqələrin genişlənməsi və inkişaf etməsi baxımından çox böyük əhəmiyyətə malik idi.

1992-ci il mayın 28-i Azərbaycan tarixinə əlamətdar bir gün kimi daxil oldu. Sədərək-Dilucu körpüsünün rəsmi açılışında iştirak etmək üçün həmin gün Türkiyənin Baş naziri S.Dəmirəl Naxçıvana gəldi. Mayın 28-də ulu öndər Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin iştirakı ilə Araz çayı üzərində Azərbaycanla Türkiyə Cümhuriyyətini birləşdirən körpü istifadəyə verildi. Körpünün açılış mərasimində çıxış edən ümummilli lider dedi ki, bu bizim ümid və arzularımızın körpüsüdür və türk dünyasına pəncərədir. 70 ildən artıq idi ki, biz bu günü gözləyirdik və arzularımız həyata keçdi [50, s. 637-638].

Naxçıvanlıların "Həsrət körpüsü", türklərin "Könül körpüsü" adlandırdıqları "Ümid körpüsü"nün açılması ilə Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında iqtisadi və mədəni əlaqələr daha da genişləndi. Naxçıvan MR

Ali Məclisi Rəyasət Heyətinin 1992-ci il 9 iyul tarixli qərarı ilə bu körpü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan edildi [51, s. 704]. Qısa müddətdə İğdır-Naxçıvan elektrik xətti çəkildi. Naxçıvan Türkiyənin elektrik şəbəkəsinə qoşuldu. Türkiyə Cümhuriyyətindən Naxçıvana 63 meqavat elektrik enerjisi nəqlinə başlanıldı.



"Ümid körpüsü"nün açılışı. 28 may 1992-ci il

1992-ci il iyunun 1-5-də Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyə hökumətinin dəvəti ilə Ankara və İzmirdə olmuşdur [52, s. 316-317]. Türkiyənin rəsmiləri ilə görüşlərdə Naxçıvanda yaranmış gərgin vəziyyətdən danışan Heydər Əliyev demişdir ki, muxtar respublikada kəskin ərzaq və yanacaq qıtlığı yaranmışdır, cəmi 3-4 günlük yanacaq ehtiyatı qalmışdır. 24 mart 1992-ci il protokoluna əsasən ayrılacaq 100 milyon dollar kreditdən istifadə edilməsi məsələləri müzakirə edilmişdir. 10 milyon dollarlıq ərzaq almaq üçün razılıq əldə edilmişdir. İyunun 4-də İzmir şəhərində keçirilən III beynəlxalq Milli İqtisadi Konqresin iclasında ümummilli lider Heydər Əliyev iştirak və çıxış etmişdir. Səfər müddətində Naxçıvanda Türkiyənin konsulluğunun açılması məsələsi də öz həllini tapmışdır [91, 1992, 17 iyun]. 1993-cü il fevralın 5-də Naxçıvanda Türkiyənin konsulluğu fəaliyyətə başladı. Türkiyə ilə Naxçıvan arasında gediş-gəlişin sadələşdirilməsi məsələsi də müzakirə edilmişdir. Heydər Əliyevin xahişinə əsasən bir qrup naxçıvanlı döyüşçünün Türkiyə xəstəxanalarında müalicə olması üçün razılıq əldə edildi.

Ulu öndər Heydər Əliyevin Türkiyəyə üçüncü rəsmi səfəri 1992-ci ilin avqustun 10-14-də olmuşdur [89, s.115]. O, İğdır şəhərində Türkiyənin yeni İğdır vilayətinin yaranması ilə əlaqədar rəsmi mərasimdə çıxış etmiş, sonra Qars və

Ankara şəhərlərində olmuşdur.

Səfər zamanı Heydər Əliyev 24 mart 1992-ci ildə imzalanmış əməkdaşlıq protokolunun həyata keçirilməsi tədbirləri haqqında Süleyman Dəmirəl və dövlət nazirləri ilə danışıqlar aparmış, bu danışıqlarda Naxçıvanın iqtisadi blokada şəraitində yaşadığı və Türkiyənin köməyinə ehtiyacı olduğu qeyd olunmuşdur [91, 1992, 26 sentyabr]. Danışıqlardan sonra Türkiyə Respublikası tərəfindən ayrılan kreditdən istifadə olunmasına başlanılmışdır. Kredit hesabına 1992-ci il sentyabrın 15-dən muxtar respublikaya 600 ton makaron, 200 ton zeytun yağı, 100 ton kərə yağı, 282 ton quş əti, 117 ton düyü gətirilmişdir [89, s. 116]. "Qızıl Ay" cəmiyyəti vasitəsi ilə də 1992-ci ilin avqustun 15-dən başlayaraq 100 ton un, 700 kq günəbaxan yağı, 7850 kq şəkər tozu, 9300 kq makaron, 1630 kq qovurma, 810 kq toyuq əti gətirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin 7 dekabr 1992-ci il tarixli qərarında göstərilir ki, Türkiyə Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına ərzaq malları alınması üçün ayrılmış kredit hesabına son dörd ayda muxtar respublikaya 293 ton mal əti, 250 ton kərə yağı, 700 ton marqarin, 363 ton günəbaxan yağı, 460 ton toyuq əti, 2283 ton şəkər tozu, 400 ton düyü, 600 ton makaron, 6000 ton un gətirilmişdi [43, s.151; 50, s. 306].

Ümummilli lider Heydər Əliyevin Türkiyə Respublikasına dövlət səfəri 1993-cü il aprelin 19-25-də oldu. Bu səfər Türkiyə Respublikasının prezidenti Turqut Özalın vəfat etməsi ilə əlaqədar idi. Ulu öndər Heydər Əliyev keçirilən matəm tədbirlərində iştirak etmiş, aprelin 23-24-də Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişaf etdirilməsi və blokadadan çıxarılması məsələlərini Baş nazir S.Dəmirəl ilə müzakirə etmişdir. Əməkdaşlıq protokoluna əsasən veriləcək 100 milyon dollardan 25 milyonundan yaxın günlərdə istifadəyə başlanacağı barədə qərar qəbul edildi. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 2 min ton buğda və "Qızıl Ay" cəmiyyəti tərəfindən 2330 ton ərzaq malları gətirilməsi haqqında razılıq əldə edildi [50, s. 737].

Naxçıvanın blokadada olduğu vaxtlarda Türkiyə ilə Naxçıvanın əlaqələri əsasən qonşu dövlətin muxtar respublikaya maddi və ərzaq yardımı formasında həyata keçirilirdi. Lakin həmin dövrdə Naxçıvan Muxtar Respublikasının Türkiyə Respublikası ilə mədəni əlaqələri də qurulmuşdu.

Heydər Əliyevin səyləri nəticəsində iki tərəfin mədəniyyət kollektivlərinin qarşılıqlı qastrolları təşkil edilirdi. 1991-ci ilin I yarısında Naxçıvan Dövlət Filarmoniyasının 20 nəfərlik heyəti Türkiyənin müxtəlif şəhərlərində qastrol səfərində olmuşdu. Daha sonra Naxçıvanın özfəaliyyət kollektivlərinin qonşu ölkədə çıxışları olmuşdu. 1992-ci ilin avqust-sentyabr aylarında Türkiyənin Atatürk Tanıtım Mərkəzi ilə birgə muxtar respublikada "Ümid körpüsü" adı altında bayram şənliyi təşkil olunmuş, 1993-cü ilin aprelində isə Naxçıvan Dövlət Filarmoniyası və Musiqili Dram Teatrının heyətləri Qars şəhərində səfərdə olmuşlar.

İki tərəfli mədəni əlaqələrdə təhsil əlaqələri də mühüm yer tuturdu. Təhsili millətin gələcəyi hesab edən Heydər Əliyev muxtar respublikada maarifin inkişafı, yüksək ixtisaslı kadrların hazırlanması üçün bütün imkanlardan istifadə etməyə çalışırdı. Məhz onun təşəbbüsü ilə Türkiyə Respublikası ilə 24 mart 1992-ci ildə bağlanmış protokolda 100 nəfər naxçıvanlı gəncin qonşu dövlətlərin ali məktəblərində təhsil almasını nəzərdə tutan müddəa öz əksini tapmışdı [50, s.617]. Həmin müqaviləyə uyğun olaraq Türkiyə Yüksək Öyrətim Seçim Qurumunun nümayəndələri muxtar respublikada 357 gəncin içərisindən Türkiyənin müxtəlif universitetlərində təhsil almaq üçün 75 abituriyent seçmişdi [50, s. 283].

1992-ci il oktyabrın 5-də Türkiyədə təhsil almağa gedən tələbələrlə görüşən Heydər Əliyev bunu Naxçıvanın həyatında mühüm hadisə adlandıraraq, naxçıvanlı gənclərə azərbaycanlı adını yüksək tutmağı, yüksək elmə, ixtisasa yiyələnməyi, türk dili ilə yanaşı əcnəbi dilləri də öyrənməyi tövsiyyə edirdi [91, 1992, 7 oktyabr].

Təhsil əlaqələrində Naxçıvan Dövlət Universitetinin xüsusi yeri vardır. 1991-93-cü illərdə Naxçıvan Dövlət Universiteti Türkiyə Respublikasının İstanbul, Ankara, Ərzurum, Qars universitetləri ilə əlaqə yaratmış, rəsmi protokol imzalamışdı.

Naxçıvan-İran əlaqələri. Naxçıvan Muxtar Respublikasının blokadadan çıxmasında, sosial-iqtisadi problemlərinin həllində İran İslam Respublikası ilə əlaqələrin yaradılması da müsbət rol oynadı. Azərbaycanın müstəqilliyinin ilk dövründə İran İslam Respublikası ilə münasibətlərdə müəyyən soyuqluq yaransa da, Heydər Əliyevin müdrik siyasəti, Naxçıvanla İranın əlaqələrinin inkişaf etdirilməsi bölgənin düşdüyü böhrandan çıxmasına, həm də Azərbaycan-İran əlaqələrində tarazlığın təmin edilməsinə şərait yaratdı.

Naxçıvan Azərbaycan-İran siyasi, iqtisadi, mədəni münasibətlərində mühüm rol oynayırdı. Naxçıvanın Azərbaycanın əsas ərazisindən ayrı düşməsi və buna görə də kommunikasiya-nəqliyyat əlaqələrinin İran ərazisi vasitəsi ilə həyata keçirilməsi Naxçıvanı Azərbaycan-İran əlaqələrində təkanverici amilə çevirmişdir [83, s. 16-17].

Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə əlaqələri 1991-ci ildən daha intensiv xarakter almışdı. Həmin ildə İran İslam Respublikasının, onun vilayətlərinin nümayəndələrinin Naxçıvana gəlməsi, Ali Məclisin Sədri Heydər Əliyevlə görüşləri tərəflərin daha da yaxınlaşmasına şərait yaratmışdı [91, 1991, 12 noyabr].

Ulu öndər Heydər Əliyevin nüfuzu İranda çox böyük idi. Ali Məclisin Sədri seçildikdən sonra İranla Naxçıvan arasında siyasi, iqtisadi, mədəni əlaqələr genişlənməyə başladı. İranın "Hilal Əhmər" xeyriyyə cəmiyyəti, "İmam Xomeyni" fondu və digər təşkilatları Naxçıvana humanitar yardım göstərir, bir sıra iqtisadi layihələr həyata keçirirdilər.

Heydər Əliyev Ali Məclisin Sədri kimi fəaliyyətə başladığı ilk dövrlərdə Mərənd fərmandarı və Şərqi Azərbaycan ostandarı Rza İbadini və Əkbər Pəhrizkarı

qəbul etmiş, Naxçıvana qaz, elektrik enerjisi verilməsi və digər məsələlər müzakirə edilmişdi [91, 1991, 12 noyabr; 6 dekabr].

1991-ci il oktyabrın 1-də İran hökumət orqanları ilə aparılan danışıqlar nəticəsində Naxçıvan Muxtar Respublikasının əhalisi üçün ərzaqla və yanacaqla yüklənmiş avtomobil karvanlarının öz ölkəsinin ərazisindən buraxılmasına razılıq verildi. Oktyabrın 8-də İran İslam Respublikasına məxsus iri tonnajlı 20-yə yaxın avtomaşın Culfa körpüsündən keçərək Naxçıvana 200 tona qədər kənd təsərrüfatı məhsulları gətirdi. Oktyabrın 16-da Naxçıvan MR üçün ilk avtomobil karvanı Astaradan İran ərazisi vasitəsilə Culfaya daxil oldu.

Dekabrın 4-də İran İslam Respublikası Şərqi Azərbaycan vilayətinin ostandarı Əkbər Pəhrizkarı Naxçıvanda Ali Məclisin Sədri ilə görüşdü. Söhbət zamanı iki qonşu xalq arasında ictimai, mədəni əlaqələri və ticarət əlaqələrini genişləndirməyin əhəmiyyətindən danışıldı. Həmin əlaqələr çərçivəsində İran İslam Respublikası ərazisindən dəmir yolu və rabitə xətlərinin çəkilməsi nəzərdə tutulurdu.

İran İslam Respublikasının ən iri şirkətlərindən olan "Azərlab"ın başçısı doktor Zeynalabdin Mücahidi dekabrın 11-də Naxçıvana gəldi və Ali Məclisin Sədri Heydər Əliyevin qəbulunda oldu. Z.Mücahidinin məqsədi muxtar respublika ilə mal mübadiləsi aparmaq, naxçıvanlıların dərman, tibb ləvazimatı və cihazlara olan ehtiyaclarını ödəməyə kömək etmək idi [16, s. 123-124].

Dekabrın 30-da İran İslam Respublikasının Maku şəhərinin fərmandarı Məhərrəm Allahverdizadə, Mərənd şəhəri fərmandarının müavini Cəfər Firuzi və fərmandarın müşaviri Əli Sabunçu Naxçıvan MR Ali Məclisinin Sədri ilə görüşdə sərhədyanı ticarətin təşkilini müzakirə etdilər və Naxçıvan sakinlərinə hər cür kömək göstərməyə hazır olduqlarını bildirdilər.

İran İslam Respublikasının ən iri şirkətlərindən olan "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" nümayəndə heyəti 1992-ci ilin yanvarında Naxçıvana gəldi və Heydər Əlyevlə görüşdülər. Qonaqlar Naxçıvanda şirkətin sənaye və ticarət nümayəndəliyini açmaq, müxtar respublikanı azad iqtisadi rayona çevirmək üçün proqram hazırlamaq və onu həyata keçirmək, burada yeni kərpic zavodu tikmək, sənaye müəssisələrini modernləşdirmək niyyətində olduqlarını bildirmişlər.

1992-ci il yanvarın 23-də İran İslam Respublikasının Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliyinin əməkdaşları və yanvarın 29-da "Qırmızı Aypara" Cəmiyyətinin sədrinin səlahiyyətli nümayəndəsi Əhməd Rəfiyi Ali Məclisin Sədri tərəfindən qəbul edildi. Naxçıvana göstəriləcək köməyin yolları müzakirə edildi. Naxçıvanda və Təbrizdə konsulluqların yaradılması haqqında razılıq əldə olundu. 1992-ci il martın 8-də İran İslam Respublikasının Naxçıvanda konsulluğu açıldı [50, s. 775]. İran İslam Respublikasının müxtəlif şirkətləri Naxçıvana kənd təsərrüfatı və ərzaq məhsulları, generatorlar, özünümüdafiə dəstəsinin əsgərləri üçün qış geyimləri, ət, kolbasa məmulatları gətirmişdilər.

Ümummilli lider Heydər Əliyev İranın rəsmi nümayəndələri ilə görüşlərində onların diqqətini Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinə, Dağlıq Qarabağ münaqişəsinə, Naxçıvanın düşdüyü ağır hərbi-siyasi, iqtisadi vəziyyətinə yönəldir, İranı Azərbaycanın ədalətli mövqeyini müdafiə etməyə və Ermənistana təsir göstərməyə çağırırdı.

1992-ci ilin aprelində İran İslam Respublikasının XİN-in müşaviri Şeyx Əttar Qarabağ münaqişəsinin həllində İranın vasitəçilik missiyası ilə əlaqədar Naxçıvana gələrək ulu öndərlə görüşmüşdü. Heydər Əliyev İranın bu təşəbbüsünün faydalı olacağına ümid bəsləsə də, bu vasitəçilik heç bir nəticə verməmiş, əksinə bir aydan sonra Tehranda yüksək səviyyəli Azərbaycan-Ermənistan görüşü keçirilərkən Azərbaycanın Şuşa şəhəri işğal edilmişdi. Eyni zamanda Ermənistan ordusu Naxçıvan Muxtar Respublikasının sərhəd ərazilərini ələ keçirmək üçün cəhdlər göstərmişdi.

İran İslam Respublikasının XİN-in müavini Vairini Naxçıvanda qəbul edən Ali Məclisin Sədri bildirmişdi ki, biz Tehranda Ermənistan-Azərbaycan rəhbərlərinin görüşünə böyük ümid bəsləyirdik. Lakin həmin günlərdə Şuşada baş verən hadisələr, Azərbaycanın bu qədim mədəniyyət mərkəzinin erməni silahlı qüvvələri tərəfindən işğalı bizi çox pərişan etdi. Bu, Azərbaycan üçün çox faciəli haldır [50, s.633-634].

Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə siyasi, iqtisadi, mədəni əlaqələrin yeni mərhələyə qalxmasında ümummilli lider Heydər Əliyev başda olmaqla muxtar respublikanın nümayəndə heyətinin İran İslam Respublikasına səfərinin mühüm rolu oldu. 1992-ci ilin avqustunda ulu öndər İran İslam Respublikasının xarici işlər naziri Ə.Ə.Vilayətinin dəvəti ilə bu ölkəyə səfər etdi. Səfər müddətində ulu öndər İran İslam Respublikasının dini lideri C.Ə.Xamneyi, prezident Ə.Ə.Haşimi Rəfsəncani, parlamentin sədri N.Nuri, xarici işlər naziri Ə.Ə.Vilayəti, digər məsul şəxslərlə görüşmüş, Azərbaycanda, Naxçıvanda baş verən proseslər, Dağlıq Qarabağ münaqişəsi haqqında onlara ətraflı məlumat vermişdi. Səfərin yekununda Naxçıvan MR ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında protokollar imzalanmışdı [50, s.658-665]. İmzalanmış protokollarda qarşılıqlı siyası, iqtisadi, ticarət və mədəni əlaqələrin genişləndirilməsini nəzərdə tutan, Naxçıvan MR-in böhran vəziyyətindən çıxarılması və muxtar respublika əhalisinə kömək göstərmək məqsədi ilə bir çox məsələlər üzrə razılıq əldə edilmişdir. Protokolların maddələrində İran İslam Respublikasının Naxçıvanda baş konsulluğunun açılması, ticarət nümayəndəliyinin, birgə müəssisələrin təşkili nəzərdə tutulur, ticarət qaydalarının yüngülləşdirilməsi, gömrük siyasətinin liberallaşdırılması və s. tədbirlərin həyata keçirilməsi, mədəniyyət, elm, təhsil, məktəb və s. sahələrdə əlaqələrin genişlənməsi, Naxçıvan MR-ə 200 milyon kv/saat enerji verilməsi, yük və sərnişin daşınmasının genişləndirilməsi, vətəndaşların keçidi üçün Qərbi Azərbaycanın Poldəşt və Naxçıvanın Şahtaxtı kəndi yaxınlığında

Araz çayı üzərində körpünün açılması, Xoy-Culfa qaz kəmərinin tikintisi, yüklərin avtomobil vasitəsilə Culfa-Xudafərin yolu ilə daşınması, eləcə də Naxçıvan MR əhalisinin ərzaq və yanacaq ehtiyaclarını ödəmək üçün İran İslam Respublikası tərəfindən müvafiq tədbirlər görülməsi öz əksini tapmışdı [42;50, s.658-662].

Ulu öndər Heydər Əliyevin İran İslam Respublikasının "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdustla imzaladığı protokola görə fond tərəfindən Naxçıvanda bir sıra iqtisadi və humanitar layihələrin həyata keçirilməsi nəzərdə tutulmuşdu [50, s.663-664].

Nəzərdə tutulmuş bütün işlərin maliyyələşdirilməsi bütövlükdə İran tərəfinin üzərinə qoyulmuşdu. Bu isə heç də asan olmamışdı. Yalnız ulu öndərin ağıllı diplomatiyası sayəsində bütün məsələlər Naxçıvan nümayəndə heyətinin irəli sürdüyü təkliflər əsasında öz həllini tapmışdı. Xüsusən Naxçıvana qaz kəmərinin çəkilişi, elektrik enerjisinin verilməsi, İran ərazisindən keçməklə Azərbaycana nəqliyyat vasitələrinin hərəkəti və başqa məsələlərdə Naxçıvan liderinin şəxsiyyətinə İran tərəfi xeyli güzəştə getməli olmuşdu. Ulu öndər Heydər Əliyev Naxçıvanı böhrandan çıxarmaq üçün İran İslam Respublikasının muxtar respublikaya humanitar yardım göstərməsi məsələsini də İran tərəfinin qarşısına qoymuş və onun razılığını almışdı [49, s.175].

İran İslam Respublikası ilə imzalanmış protokola əsasən, İran ərazisində Naxçıvanla Bakı arasında şose yolu açılmışdı [8, v. 12]. Təbrizdən Naxçıvana ərzaq yardımı ilə dolu 22 vaqondan ibarət ilk qatar göndərildi [91, 1992, 21 oktyabr]. İrandan Naxçıvana 42 meqavoltluq elektrik xətti çəkildi [91, 1992, 9 dekabr]. 1992-ci ilin dekabrın 3-də Şahtaxtı-Poldəşt keçid məntəqəsi açıldı.

Oktyabr-noyabr aylarında İran İslam Respublikasından 520 ton dizel yanacağı, 540 ton mazut, 220 ton kömür, 955 ton kartof, 350 ton un, 97 ton soğan göndərilmişdi. 1992-ci il dekabrın 3-də İran İslam Respublikasından Naxçıvana təqribən 30 mqvt gücündə elektrik enerjisinin verilməsinə başlanılmışdı [8, v.30-31]. İranla Naxçıvan arasında Poldəşt və Culfada müştərək bazarlar açıldı. Ümummilli lider Heydər Əliyevin gərgin əməyi, diplomatik fəaliyyəti sayəsində Naxçıvan Muxtar Respublikasının nəqliyyat, enerji blokadası yarıldı.

Martın 3-də ulu öndər Heydər Əliyev İranın Naxçıvanda Baş konsulu Məhəmməd Sadeq Turini qəbul etdi. M.S.Turi Naxçıvanda Baş konsul təyin edilməsi münasibəti ilə İran İslam Respublikasının XİN-nin məktubunu təqdim etdi. Onlar qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdilər. Baş konsul hər il Naxçıvandan 300 nəfər tələbənin İran dövlətinin vəsaiti hesabına orada təhsil almasına, naxçıvanlı həkimlərin müəyyən müddətdə İrana göndərilməsi üçün hər iki tərəfdən işin sürətləndirilməsinin vacibliyini qeyd etmişdir.

1993-cü il martın 16-da ulu öndər Heydər Əliyev İranın Xarici İşlər naziri Ə.Ə.Vilayətinin dəvəti ilə İrana rəsmi səfərə yola düşdü. Həmin gün Əli Əkbər Vilayəti, martın 17-də İran prezidenti Əli Əkbər Haşimi Rəfsəncani, Energetika naziri Qulamrza Zəngani, Kooperasiya naziri Qulamrza Şafeyi, "Bonyade Möstezəfan

və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdustla görüşləri keçirildi. Görüşlərdə İran ilə Azərbaycan arasında əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi və genişləndirilməsi barədə fikir mübadiləsi aparıldı, İran ilə Naxçıvan arasında bağlanan 24 avqust 1992-ci il tarixli müqavilənin həyata keçirilməsi, Naxçıvanın ağır blokada şəraitində yaşaması ilə əlaqədar yaranmış problemlərin İran vasitəsilə həll olunması yolları müzakirə edilərək razılıq əldə olundu. Görüşdə İrandan Naxçıvana ərzaq məhsulları, xüsusən un və buğda, yanacaq malları göndərilməsi, elektrik enerjisinin müntəzəm verilməsi və artırılaraq 40 meqavata çatdırılması, Bakı ilə Naxçıvan arasında gediş-gəlişi asanlaşdırmaq üçün Araz boyu qısa məsafədə İran ərazisindən keçən yolun inşasının 15-20 günə başa çatdırılması və istifadəyə verilməsi üçün lazımi tədbirlərin görülməsi, yaz tarla işlərinin aparılması məqsədilə Naxçıvana 1500 ton kartof toxumu, 500 ton arpa toxumu, kənd təsərrüfatı ləvazimatları göndərilməsi barədə razılıq əldə olundu [16, s.155]. Ulu öndər Heydər Əliyevlə Möhsen Rəfiqdust arasında 1992-ci il avqustun 24-də bağlanan müqavilənin şərtlərinin həyata keçirilməsini sürətləndirərək illik istehsal gücünün 60 mln. ədədə çatan kərpic zavodunun, Naxçıvan şəhərində müasir tələblərə cavab verən məscid binasının tikintisinin aprelin 15-dən başlanması, Naxçıvan şəhərində plastik qablar və xına sexinin tikilib istifadəyə verilməsi, Naxçıvan alt trikotaj fabriki və xalçaçılıq kombinatı üçün müxtəlif çeşiddə xammal göndərilməsi barədə razılıq əldə olundu [16, s.155-156].

Sonra ulu öndər Heydər Əliyev Təbrizdə olmuş, Şərqi Azərbaycan ostandarı Ə.Əbdüləlizadə ilə martın 18-də əməkdaşlıq protokolu imzalamışdı. Müvafiq razılaşmalar həmçinin 1993-cü ilin mayın 13-də Naxçıvanda Qərbi Azərbaycan ostandarı Qurbanəli Səadətlə də bağlanmışdı [50, s.739-741].

Ümummilli lider bütün mümkün variantlardan maksimum dərəcədə istifadə edərək, qonşu Türkiyə və İran dövlətləri ilə iqtisadi əlaqələr quraraq Naxçıvanı düşdüyü blokada vəziyyətindən çıxarmağa çalışırdı. Bu məqsədlə hər iki qonşu dövlətə dəfələrlə səfər edərək protokollar imzalamışdı. Bunun nəticəsində də Naxçıvan iqtisadi blokadanı yara bildi. Naxçıvan əhalisinin ərzağa olan tələbatı ödənilmiş oldu. Lakin bu görülən nəhəng işlərə başqa cür don geyindirmək istəyənlər də tapılırdı. Naxçıvan Muxtar Respublikası ümummilli lider Heydər Əliyev İran və Türkiyədən gələn yardımlar haqqında çıxışlarının birində demişdir: "Naxçıvanın bu ağır dövründə kim Naxçıvana hansı yardım göstərə bilərsə biz onu bəyənməliyik, onu alqışlamalıyıq. Bu baxımdan İran və Türkiyənin Naxçıvana yardımını başqa cür hallandırmaq naxçıvanlılara xəyanət etməkdir. Ona görə də mən bu cür şayiələri qərəzli hesab edirəm və bildirmək istəyirəm ki, Muxtar Respublikanın Ali Məclisi və onun sədri burada heç bir xüsusi siyasət yeritmir. Naxçıvanın İran, Türkiyə ilə əlaqələrinin hamısı Azərbaycanın İran və Türkiyə ilə olan əlaqələrinin tərkib hissəsidir. Bunlar hamısı Azərbaycanın Xarici siyasətinin tərkib hissəsidir" [78, v.16-17].

Bu baxımdan 24 avqust 1992-ci il tarixdə İran İslam Respublikası ilə bağlanmış müvafiq protokolları haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 18 sentyabr 1992-ci il tarixli qərarı səciyyəvidir. Həmin qərarın 11-ci maddəsində Maxçıvan MR ilə İran İslam Respublikası arasında bağlanmış əməkdaşlıq protokollarının Azərbaycan Respublikası Prezidentinə, Ali Sovetinə və Nazirlər Kabinetinə təqdim olunması nəzərdə tutulur, 8-ci maddədə isə Azərbaycan Respublikası Nazirlər Kabinetindən protokolların icrası ilə əlaqədar Azərbaycan Respublikasının müvafiq nazirliklərindən muxtar respublikaya lazımi köməklik göstərmələri barədə müvafiq qərarlar qəbul etmələri xahiş olunurdu [50, s.691-692]. 1993-cü ilin martında İran İslam Respublikasında səfərdə olarkən ulu öndər Heydər Əliyev əsl alicənablıq nümayiş etdirərək bütün görüşlər zamanı diplomatik protokol qaydalarına və etiketə uyğun olaraq Azərbaycan Respublikasının prezidenti Əbülfəz Elçibəyin İran İslam Respublikası rəhbərliyinə salamlarını və xoş arzularını çatdırmışdı.

Ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən Muxtar Respublikanın İran İslam Respublikası ilə mədəni və humanitar sahələrdə də əməkdaşlığa böyük diqqət yetirir, bütün görüşlərində bu sahədə əlaqələrin faydalılığını göstərirdi.

Onun 1992-ci il avqustun 24-də İran İslam Respublikasının xarici işlər naziri Ə.Ə.Vilayəti ilə bağladığı əməkdaşlıq protokolunun 17 maddəsindən 5-i tərəflər arasında mədəni, dini, təhsil əlaqələrinin genişləndirilməsini nəzərdə tuturdu. Burada muxtar respublika gənclərinin İranda, İran gənclərinin isə Naxçıvanda təhsil almaları üçün şərait yaradılması, informasiya mübadiləsi, Naxçıvan dindarlarının İranın müqəddəs yerlərinə ziyarətinin təşkili, Naxçıvan şəhərində məscid binasının tikintisi və digər məsələlərin həyata keçirilməsi daxil idi [50, s.658-663].

Bağlanmış protokola uyğun olaraq 30 naxçıvanlı gənc İran İslam Respublikasının vəsaiti hesabına qonşu ölkəyə təhsil almağa göndərilmiş, 1993-cü ilin aprelində isə Naxçıvanda məscid tikintisinə başlanmışdı.

Naxçıvan MR-in və İİR-in mədəniyyət kollektivlərinin qarşılıqlı səfərləri intensiv xarakter daşıyırdı. 1992-ci ilin yanvarında Əli Səliminin başçılıq etdiyi "Təbriz" xalq çalğı alətləri orkestri Naxçıvanda konsert proqramı ilə çıxış etmiş, həmin ildə Naxçıvan Dövlət Filormoniyası İİR-də qastrolda olmuşdu.

İran İslam Respublikasının və Azərbaycan Respublikasının milli bayramlarının, dini bayramların birgə qeyd etmək sahəsində də razılıq əldə olunmuşdu. Maku və Urmiya Fərmandarlığı ilə Naxçıvan MR-in Mədəniyyət Nazirliyi arasında müqavilə də imzalanmışdı. Müvafiq razılaşmalara əsasən Maku və Urmiyada Naxçıvan günlərinin, Naxçıvanda isə Urmiya və Maku günlərinin keçirilməsi, muxtar respublika əhalisinə tibbi yardım, Naxçıvanda fars dilinin tədrisinə və erməni təcavüzü nəticəsində yaralananların müalicəsi üçün lazımi köməklik göstərilməsi nəzərdə tutulmuşdu [50, s.731-740].

Naxçıvanda böyük Azərbaycan şairi M.Şəhriyarın xatirəsinə həsr olunmuş

beynəlxalq konqresdə (1993, aprel) İran İslam Respublikasının müxtəlif şəhərlərinin nümayəndələri də iştirak etmişlər.

Naxçıvan-İran mədəni, təhsil və elmi əməkdaşlığında Naxçıvan Dövlət Universitetinin İİR-in müxtəlif universitetləri ilə elmi-təhsil əlaqələri xüsusi yer tuturdu. 1991-ci ilin noyabrında Naxçıvan Dövlət Universiteti ilə Zəncan Universiteti arasında bağlanmış elmi-mədəni əlaqələrə dair müqavilə ilə elmi münasibətlərin əsası qoyulmuş, sonralar Təbriz Dövlət, Təbriz Azad İslam, Səhəng, Mərənd, Tehran universitetləri ilə sıx əməkdaşlıq əlaqələri formalaşmışdı.

Naxçıvanın Qərb dövlətləri və beynəlxalq qurumlarla əlaqəsi. Ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu dövrdə muxtar respublikanın dünyanın digər ölkələri və beynəlxalq qurumları ilə də münasibətlərinin əsası qoyuldu. O, Azərbaycan, onun tərkib hissələri olan Dağlıq Qarabağ və Naxçıvan ətrafında baş verən proseslər, Ermənistanın işğalçılıq siyasəti haqqında dünya ictimaiyyətinin obyektiv məlumatlandırılması, muxtar respublikanın sosial-iqtisadi, humanitar problemlərinə dünya dövlətlərinin, beynəlxalq birliyin diqqətini cəlb edə bildi. Azərbaycana gələn hər bir diplomat Naxçıvana gəlməyə, ulu öndərlə görüşüb onun mövqeyini öyrənməyə çalışırdı. Onun sayəsində Naxçıvan Muxtar Respublikası bütün dünya informasiya vasitələrinin diqqət mərkəzinə çevrilmiş, öz tarixi ərzində heç vaxt xarici diplomat qəbul etməmiş Naxçıvan şəhəri hər gün ulu öndər Heydər Əliyevlə görüşməyə can atan xarici nümayəndə heyətlərini qarşılamağa artıq vərdiş etmişdi.



Ümummilli lider Heydər Əliyevin ABŞ-ın səfiri ilə görüşü
1993-cü il

1991-ci il dekabrın 27-də ABŞ-ın Moskvadakı səfirliyinin əməkdaşları Ense G.Breyter və Obri A.Karlson ulu öndər Heydər Əliyevlə görüşən ilk amerikalı diplomatlar oldular. Heydər Əliyev Naxçıvanda gedən demokratik dəyişikliklər haqqında qonaqlara məlumat vermişdi. Bundan sonra, 1992-ci il aprelin 28-də ABŞ-ın Azərbaycanda ilk səfiri Robert Fin, həmin il iyulun 17-də yeni səfir Riçard Mayls Naxçıvanda Ali Məclisin Sədri ilə görüşmüşdülər. Heydər Əliyev hər iki səfirə Naxçıvanın ağır vəziyyəti haqqında məlumat vermiş və bunun əsas səbəbinin Ermənistanın Azərbaycana hərbi təcavüzü olduğunu qeyd etmişdi. Ali Məclisin Sədri eyni zamanda dünya ictimaiyyətində Azərbaycan, onun Naxçıvan bölgəsi haqqında obyektiv məlumat yayılmasına ehtiyac olduğunu söyləmişdir. Ulu öndər həmçinin Böyük Britaniyanın Azərbaycandaki səfiri H.Fomston, Fransanın səfiri J.Perre, BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud Əl-Səid və digər xarici nümayəndələrlə görüşündə onların diqqətini Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə, qonşu dövlətin blokadaya saldığı Naxçıvanın ağır vəziyyətinə cəlb edir, böyük dövlətləri Ermənistan-Azərbaycan münaqişəsində obyektiv mövqe tutmağa çağırırdı.

Bill Klintonu Amerika Birləşmiş Ştatlarının Prezidenti seçilməsi münasibəti ilə təbrik edən ümummilli lider 20 yanvar 1993-cü il tarixli məktubla Ermənistanın Naxçıvanı iqtisadi blokadaya alması nəticəsində muxtar respublikada ağır iqtisadi vəziyyət yarandığını onun nəzərinə çatdırmış və ABŞ prezidentindən Naxçıvan MR-ə humanitar yardım göstərilməsini xahiş etmişdi. B.Klinton ulu öndərin bu məktubunu cavabsız qoymamış, Naxçıvana təcili yardım göstərmək barədə qərar qəbul etmişdi. ABŞ muxtar respublikaya 1993-cü ilin martında 1 milyon dollar dəyərində humanitar yardım göndərmişdi.

ABŞ-ın Naxçıvana humanitar yardım göstərməsinin bölgə əhalisinin sosial ehtiyaclarının aradan qaldırılmasına müəyyən köməkliyi ilə bərabər, həm də böyük siyasi əhəmiyyəti var idi. Çünki erməni lobbisinin təsiri altında ABŞ konqresinin Azərbaycana hər hansı yardımını qadağan edən bədnam 907-ci düzəlişi qəbul etməsindən sonra belə qərarın verilməsi ABŞ hökumətinin nüfuzunu bərpa edəcək bir addım olardı. Göstərilən yardımdan əlavə ABŞ-ın bir sıra hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələri Naxçıvana gələrək vəziyyətlə yerində tanış olmuşdular.

1993-cü il mayın 19-da ABŞ Dövlət Departamentinin nümayəndəsi Robert Puli və ABŞ-ın Azərbaycandakı səfirliyinin şöbə müdiri Robert Silverman Naxçıvana gəlmiş və muxtar respublikaya yardımın davam edəcəyini bildirmişdilər. Bu təşkilatlardan biri – Amerika Beynəlxalq Yardım və İnkişaf Agentliyi Naxçıvana ilk yardım göstərmiş təşkilatlardan biri olmuşdu [61, s. 123].

ABŞ-ın Naxçıvana yardım göstərməsi Qərb dövlətlərinin də diqqətini cəlb etmiş, Böyük Britaniya və Fransa dövlətləri də Naxçıvana yardım göstərilməsi ilə bağlı qərar qəbul etmişdilər [50, s.718-724].

Naxçıvana yardım göstərən ilk beynəlxalq təşkilatlardan olan BMT-nin müvafiq qurumları, birinci növbədə onun İnkişaf Proqramı olmuşdu. 1993-cü il martın 8-də ulu öndər Heydər Əliyevlə görüşən BMT-nin Qaçqınlarla iş üzrə Ali Komissarlığı Azərbaycandakı nümayəndəliyinin proqramlaşdırma məsələləri üzrə rəhbəri Lois Rovira naxçıvanlı qaçqınlara yardım göstəriləcəyi barədə məlumat vermişdi.

Heydər Əliyev BMT, NATO, Avropa Birliyi, ATƏM (indiki ATƏT-red.) və s. beynəlxalq qurumların diqqətini Naxçıvanda yaranmış vəziyyətə cəlb etməyə nail olmuşdu. Bunun nəticəsində BMT Təhlükəsizlik Şurası Ermənistanla yanaşı, Naxçıvana da ərzaq və yanacaq yardımı göstərilməsi ilə bağlı dünya dövlətlərinə müraciət etmişdi [50, s.708].

Dünyanın ən nüfuzlu təşkilatlarından biri olan Avropa Birliyi də Naxçıvanın iqtisadi vəziyyətini öyrənmək və humanitar yardım göstərmək üçün buraya öz nümayəndələrini göndərmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin məqsədyönlü siyasəti, müdrik fəaliyyəti, böyük dövlətçilik təcrübəsi, xalqın ona olan sarsılmaz inamı və dəstəyi Naxçıvanı real erməni işğalından xilas etdi və blokadanın aradan qaldırılmasına, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına öz müsbət təsirini göstərdi.

6. Naxçıvanda dövlət çevrilişinə cəhd

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında muxtar respublikada dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü. Mövcud siyasi böhran aradan qaldırıldı, iqtisadi islahatlar həyata keçirildi, sahibkarlığın inkişafı üçün müəyyən şərait yaradıldı, hərbi quruculuq məsələlərinə xüsusi diqqət verildi. Naxçıvanda mütəmadi hal almış erməni hücumlarının qarşısı alındı.

Heydər Əliyevin müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının diqqətini cəlb edir, ona ümidləri artırdı. AXC hakimiyyəti isə Naxçıvan Muxtar Respublikasında hakimiyyət çevrilişi etmək, qeyri-demokratik yolla hakimiyyəti dəyişmək cəhdləri edirdi. İstər A.Mütəllibov, istərsə də onu əvəz etmiş Ə.Elçibəy hakimiyyəti Naxçıvana ögey münasibətdə idilər. Naxçıvanı taleyin ümidinə buraxmışdılar. Hər iki hakimiyyətin Naxçıvanla bağlı siyasəti siyasi ambisiyalardan uzağa getmirdi.

AXC-Müsavat iqtidarının apardığı uğursuz daxili və xarici siyasət, kadr siyasətindəki kobud səhvlər ölkənin vəziyyətini daha da ağırlaşdırdı. Demək olar ki, bütün dövlət strukturlarına kifayət qədər savad və səriştəyə malik olmayan cəbhəçilər təyin edildi. Onların arasında naşı adamlar daha çox idi. Ulu öndər bunu "nəinki səhv, eyni zamanda xalqın gələcəyi üçün böyük təhlükəyə aparan yol

kimi" qiymətləndirir, ölkənin siyasi həyatında, dövlət strukturlarında AXC-nin monopoliyasını qəbuledilməz hesab edirdi [50, s.319].

AXC-nin ümummilli lider Heydər Əliyevin şəxsiyyətinə, onun Naxçıvanda apardığı tarazlı siyasətinə qarşı qısqanc, qərəzli münasibətinin təzahürləri bu təşkilatın hələ hakimiyyətə gəlməsi ərəfəsində özünü büruzə verməyə başlamışdı. Bu, özünü həm Heydər Əliyevin böyük etimad göstərib Naxçıvanda ali vəzifələrə təyin etdiyi bəzi cəbhəçilərin onun fəaliyyətinə maneçilik göstərmələrində, həm də Bakıdakı cəbhə nümayəndələrinin Naxçıvanda baş verən hadisələri qeyri-obyektiv qiymətləndirərək ictimai rəydə mənfi fikir yaratmaqlarında göstərirdi.

Naxçıvanı Azərbaycan üçün "kor bağırsaq" hesab edən A.Mütəllibov hakimiyyəti əldə saxlamaq üçün antikonstitusion tədbirlərə əl atmış, Azərbaycan Konstitusiyasına (112-ci maddə) və "Azərbaycan Respublikasının prezidentinin seçkiləri haqqında" Qanuna (1-ci və 7-ci maddələr) yaşı 65-dən yuxarı olmayan və son beş ildə respublikada yaşayan şəxslərin prezident seçilmək hüququnu təsbit edən qeyri-humanist maddə saldırmışdı [59, s.92]. Hamıya aydın idi ki, bu maddələr xalqımızın böyük oğlu Heydər Əliyevə qarşı nəzərdə tutulmuşdu. A.Mütəllibovun istefasından sonra Azərbaycanda faktiki olaraq hakimiyyətə yiyələnmiş AXC-Müsavat cütlüyü qanunvericilikdə konkret bir şəxsə qarşı yönəlmiş antidemokratik müddəaları qüvvədə saxlayaraq ulu öndərin respublikada ali hakimiyyətə qaytarmaq ideyasına qarşı çıxdılar.

1991-ci ilin iyunun 7-nə təyin edilmiş prezident seçkilərində ümummilli lider Heydər Əliyevin iştirakını istisna edən həmin maddələr cəbhəçilərlə kommunistlərin birgə səyi sayəsində qanunda saxlandı. Lakin Azərbaycanın bütün bölgələrində əhali mitinq və nümayişlər keçirərək respublikanı düşdüyü ağır vəziyyətdən çıxara biləcək yeganə şəxsin Heydər Əliyev olduğunu bildirir, Azərbaycan Ali Sovetindən prezident seçkiləri haqqında qanundan həmin maddələrin çıxarılmasını tələb edir, yekdilliklə böyük siyasətçini Azərbaycan Respublikasının prezidentliyinə namizəd irəli sürürdülər. Müvafiq tələblər Azərbaycan Ali Sovetinin binası qarşısında həmin ilin aprelin sonu, mayın əvvəllərində keçirilən mitinqlərdə də səsləndirilirdi [91, 1992, 30 aprel].

1992-ci il mayın 18-də Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyasında Ali Sovetin sədri seçilərkən bu posta Heydər Əliyevin də namizədliyi irəli sürüldü. Bəzi deputatların təkidi ilə Heydər Əliyevdən parlamentin başçısı vəzifəsinə səsə qoyulmasına razılıq almaq üçün telefon əlaqəsinə cəhd edilsə də, iqtidarda olan qüvvələr əlaqə qurmağın mümkün olmadığını elan etdilər. Cəbhəçi deputatların və keçmiş kommunistlərin gizli birliyi Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsinin qarşısını bu yolla aldı [62].

Cəbhəçilər Naxçıvanda rəhbərliyin fəaliyyətinə mane olmaq üçün bütün vasitələrə əl atırdılar. Onlar 1992-ci il avqustun 8-nə təyin edilmiş Ali Məclisin sessiyasında iştirak etməyərək onun işini pozdular.

AXC Naxçıvanda da hakimiyyəti ələ almaq istəyirdi. Onlar Baş nazir vəzifəsini ələ keçirərək Becan Fərzəliyevin həmin vəzifəyə təyin edilməsinə nail olmuşdular. Lakin bu onları qane etmirdi. Onlar əsas vəzifəyə - Muxtar Respublika Ali Məclisinin sədri vəzifəsinə yiyələnmək istəyirdilər. Ona görə də istər respublika rəhbərliyinin, istərsə də Naxçıvandakı cəbhəçilərin əsas məqsədi Naxçıvanda vəziyyəti gərginləşdirmək, müxtəlif təxribatlar törətmək yolu ilə Heydər Əliyevi Ali Məclisin sədri vəzifəsindən uzaqlaşdırmaq idi. Onların bu cəhdləri boşa çıxandan sonra çevriliş etmək yolunu tutdular. O vaxtkı daxili işlər naziri İsgəndər Həmidov polisin əli ilə bu işi reallaşdırmağa çalışdı.

Iyul ayının axırlarından Xalq Cəbhəsi qüvvələrinin müxtəlif yollarla polisi siyasətə cəlb etmək, ondan öz siyasi məqsədləri naminə istifadə etmək cəhdləri göstərildi [6, 1997, 23 oktyabr].

Azərbaycan Respublikasının daxili işlər naziri İsgəndər Həmidov Naxçıvana gəlir və avqustun 20-21-də Naxçıvan MR Ali Məclisində olur [84, s. 242]. O, Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevlə görüşüb söhbət edir. Görüşdə İ.Həmidov muxtar respublikanın Daxili İşlər naziri M.Məmmədovun işdən azad olunması, bu vəzifəyə daha təcrübəli, daha bacarıqlı bir adamın təyin edilməsi zərurətindən danışır. Ulu öndər Heydər Əliyev onun bu fikri ilə razılaşır. Söhbət zamanı belə bir razılıq əldə edilir ki, Naxçıvan MR-in Daxili İşlər naziri M.Məmmədov vəzifəsindən azad edilərək Bakıya işə keçirilsin. Muxtar respublikanın Daxili İşlər nazirinin birinci müavini Ə.Ələkbərova nazir vəzifəsi həvalə edilsin [6, 1997, 23 oktyabr]. İ.Həmidov isə bu vəzifədə AXC-nin fəal üzvü S.Mustafayevi görmək istəmiş, 18 avqust 1992-ci ildə 1718 nömrəli əmr vermişdi. Heydər Əliyevlə söhbətdən sonra bu vəzifəyə kadr təyin etməyin onun səlahiyyətinə aid olmadığını bilib, bu məsələni hələlik açmamışdı [62]. Heydər Əliyev İranda olarkən İ.Həmidov S.Mustafayevin nazir təyin olunması haqqında əmri Naxçıvan MR DİN-nə göndərmişdir. Naxçıvan Muxtar Respublikası DİN-nin polis əməkdaşları bu təyinatı qəbul etməmişdir. 1992-ci il sentyabrın 1-də Azərbaycan Daxili İşlər nazirinin müavini R.Quliyevin iştirakı ilə Naxçıvan Muxtar Respublikası DİN-in polis əməkdaşlarının iclası keçirilmiş və bu iclasın etiraz bəyanatını Azərbaycan və Naxçıvan MR rəhbərliyinə göndərmişlər [50, s.383-385]. Naxçıvan MR Daxili İşlər Nazirliyinin polis əməkdaşlarının hüquq və şərəfini qoruyan Müdafiə Komitəsi Respublika Prezidentinə, Ali Sovetə və Baş Prokurora müraciət etmişdi [50, s.385-389].

1992-ci il sentyabrın 15-də muxtar respublikanın Nazirlər Kabineti Naxçıvan MR Daxili İşlər nazirinin müavini, polis polkovniki Ələkbərov Əsgər Ələsgər oğlunun Naxçıvan MR Daxilin İşlər naziri vəzifəsinə təyin etmək üçün Ali Məclisə təqdimat verdi [84, s.247].

Naxçıvan MR Ali Məclisinin 1992-ci il 17 sentyabr tarixli sessiyasi Naxçıvan MR Daxili İşlər naziri vəzifəsini müzakirə etdi. Namizədlərin adları gündəliyə salındı. Alternativ qaydada seçki keçirildi. Ə.Ələkbərov 86 səsdən 69 səs,

S.Mustafayev isə 3 səs topladı. Ə.Ələkbərov Naxçıvan MR Daxili İşlər naziri vəzifəsinə seçildi [50, s.388]. AXC-nin Naxçıvanda DİN rəhbərliyini qeyri-qanuni yolla yiyələnmək üçün polisi ələ keçirməsi taktikası baş tutmadı.

Qeyri-qanuni iddialardan əl çəkməyən İ.Həmidovun 1992-ci il sentyabrın 17-də, 601№-li əmri ilə yeni təyin olunmuş nazir Ə.Ələkbərov da daxil olmaqla nazirliyin bir qrup əməkdaşı daxili işlər orqanlarından xaric edildilər [62].

1992-ci il oktyabrın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Muxtar Respublikanın Nazirlər Kabineti Rəyasət Heyətinin birgə yığıncaqlarında Naxçıvan Muxtar Respublikasının DİN-də yaranmış vəziyyət haqqında məsələ müzakirə edildi [50, s.390-397]. Yığıncaqda qeyd edildi ki, son iki ay müddətində muxtar respublikanın DİN-də, onun yerli orqanlarında yaranmış qeyri-normal vəziyyət polisin cinayətkarlığa qarşı mübarizə sahəsindəki fəaliyyətinə mənfi təsir göstərmiş, Muxtar Respublikada ictimai-siyasi şəraitin gərginləşməsinə səbəb olmuşdur. Haqsız iddialardan əl çəkməyən daxili işlər naziri 14 oktyabrda telefonla Naxçıvan Muxtar Respublikasının DİN-ə zəng vuraraq xəbərdarlıq etmişdi ki, əgər onun əmri ilə işdən çıxarılmış rəhbər polis işçiləri üç gün müddətində tutduqları vəzifədən azad olunmasalar, o, Naxçıvana gələcək və güc tətbiq etməklə istədiyinə nail olacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabinetinin Rəyasət Heyətləri nazirin bu hədə-qorxusuna qəti etirazını bildirmiş və bəyan etmişdilər ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqları toxunulmazdır və muxtar respublika qanuni hakimiyyət orqanları tərəfindən müdafiə olunacaqdır [50, s.396].

Muxtar Respublika DİN-in fəaliyyətinə aid məsələlərin obyektiv müzakirəsində və həllində Azərbaycanın yuxarı instansiyalarının biganəliyi Naxçıvan MR-də sabitliyi pozmaq istəyən Azərbaycanın bəzi dairələrinin qəsdən bu istiqamətə yönəldilmiş cəhdi kimi qiymətləndirilmişdi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında muxtar respublikada dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü. Naxçıvan əhalisinin tam böyük əksəriyyəti Heydər Əliyevin siyasətini dəstəkləyir və ona yaxından kömək göstərirdi. Ulu öndərin müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının diqqətini cəlb edir, ona olan ümidləri artırırdı.

AXC-Müsavat hökuməti isə onun siyasətini seperatçılıq kimi qiymətləndirir və Naxçıvan MR-də hakimiyyət çevrilişi etməyə, qeyri-demokratik yolla Xalq Cəbhəsini hakimiyyətə gətirməyə cəhd edirdi. Naxçıvanda sifarişi Bakıdan alan qüvvələr öz pozuculuq fəaliyyətlərini daim davam etdirirdilər. Onlar ulu öndər Heydər Əliyevə qarşı təxribat törətmək üçün cəhdlər edirdilər. 1992-ci il oktyabrın 24-də Naxçıvanda xalq cəbhəsinə məxsus silahlı dəstələr Muxtar Respublika Daxili İşlər Nazirliyi, Televiziya və Radio Verlişləri Komitəsi, Rabitə İdarəsi,

şəhər elektrik şəbəkəsi binalarını, habelə televiziyanı zəbt edib hakimiyyət əleyhinə bəyanat verdilər [91, 1992, 28 oktyabr]. 24 oktyabr çevriliş cəhdinə ümumi rəhbərliyi o vaxt Naxçıvandan Azərbaycan Ali Sovetinə deputat seçilmiş F.Quliyev həyata keçirirdi. Təşkilatçılıq işlərinə və çevrilişçi dəstələrə AXC Naxçıvan şöbəsinin sədri A.Quliyev, Naxçıvanda Daxili İşlər naziri olmaq istəyən cəbhəçi S.Mustafayev rəhbərlik edirdi [99, 2002, 24 oktyabr]. Çevriliş cəhdində AXC Naxçıvan vilayət şöbəsinin 300 nəfərə yaxın silahlı dəstəsi iştirak edirdi [59, s.99]. Lakin xalq çevriliş cəhdini dəstəkləmədi. Əhalinin böyük əksəriyyəti Heydər Əliyevin çağırışı ilə ayağa qalxdı. Hətta Nehrəm, Cəhri kəndlərindən adamlar piyada Naxçıvan şəhərinə yürüş etdilər. Qısa bir vaxtda 50 mindən çox adam ulu öndəri müdafiə etmək üçün Ali Məclis binasının qarşısına gəldi [5, s.310]. Xalq Cəbhəsi silahlıları parlament binasına hücum etməkdən çəkindilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Xalq Cəbhəsinin rəhbərlərindən öz qanunsuz hərəkətlərinə son qoymağı, tutduqları yerləri boşaltmağı tələb etmişdi. Lakin bu müsbət nəticə verməmişdi [8, v.53]. Belə şəraitdə Naxçıvan MR Ali Məclisinin qarşısında izdihamlı mitinq keçirildi. Mitinq iştirakçıları Heydər Əliyevlə həmrəy olduqlarını bildirir, silahlı dəstələrdən Daxili İşlər Nazirliyinin və Televiziya və Radio Verlişləri Komitəsinin binasını boşaltmağı tələb edirdilər. Heydər Əliyev bir neçə dəfə AXC sədri, Azərbaycan prezidenti Ə.Elçibəylə telefonla danışaraq AXC Naxçıvan şöbəsi tərəfindən törədilən təxribata son qoymasını tələb etmişdi: "Oktyabr ayının 24-də Naxçıvanda çevriliş edib məni oradan çıxarmaq istəyəndə mən doqquz dəfə Əbülfəz Elçibəylə telefonla danışdım, dedim, bu adamları yığışdırın, o, mənə deyir, nə cür yığışdırım? Dedim, bunlar Xalq Cəbhəsinin qeyri-qanuni silahlı adamlarıdır. Siz, Xalq Cəbhəsinin sədrisiniz, göstəriş verin yığışdırsınlar. Siz bilirsinizmi ki, o, bu göstərişi vermədi?... Nəhayət, Naxçıvan əhalisi – qoca, cavan, uşaq, qadın, kişi toplaşdılar ora, o camaatı oradan dağıtdılar" [8, v.54].

Ali Məclisin Sədrinin təşəbbüsü ilə sədr müavinləri və eyni zamanda Xalq Cəbhəsinin üzvləri olan Q.Məmmədov və A.Kələntərli prezident Əbülfəz Elçibəylə telefonla danışıb, lazımi ciddi tədbirlər görülməsini xahiş edirlər. Təəssüf ki, bütün bu xahişlər, çağırışlar və tələblər nəticə vermədi, prezident və digər rəhbər şəxslər tərəfindən heç bir qəti tədbir həyata keçirilmədi. Çevriliş cəhdində iştirak edən cəbhəçilərə xəbərdarlıq edildi ki, əgər onlar bir saat ərzində Daxili İşlər Nazirliyinin və Dövlət Televiziya və Radio Verlişləri Komitəsinin binalarını azad etməsələr, silahsız xalq kütləsi özünün təzyiqi ilə buna nail olacaqlar. Camaat Xalq Cəbhəsi silahlılarını dövlət idarələrindən qovub çıxardı. Bakıda hazırlanmış xüsusi cəza dəstəsi Naxçıvana gəlməyə cəsarət etmədi.

Oktyabrın 25-də Ali Məclisin qarşısında keçirilmiş mitinqə toplaşanlar Xalq Cəbhəsinin qanunsuz hərəkətlərinə, Azərbaycanın dövlət hakimiyyət orqanlarının onlara himayədarlıq etməsinə qarşı etirazlarını bildirmiş, qeyri-qanuni silahlı

dəstələrin təcili ləğv olunmasını, bütövlükdə AXC-nin fəaliyyətinin dayandırılmasını tələb etmişdilər [50, s.411].

Elə həmin gün Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası keçirilmiş, 24 oktyabr dövlət çevrilişi cəhdi pislənilmiş, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin 25 oktyabr tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Dövlət Televiziya və Radio Verlişləri Komitəsinin 1992-ci il oktyabrın 24-də Naxçıvan Xalq Cəbhəsi və onun silahlı qüvvələri tərəfindən işğal olunması, bu dövlət orqanlarının işinin bir neçə saat ərzində iflic vəziyyətinə salınması və beləliklə, bütün əhaliyə mənəvi zərbə vurulması Naxçıvan Muxtar Respublikasında dövlət çevrilişi kimi qiymətləndirilmişdi [8, v.63].

Açıq qeyd edilmişdi ki, bu çevriliş cəhdinin əsas məqsədi Muxtar Respublikanın DİN-i və televiziyasını tutmaq deyil, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə və onun rəhbərliyinə qarşı yönəldilmişdi [91, 1992, 28 oktyabr]. Ali Məclis AXC silahlı qüvvələrinin üç gün ərzində tərkisilah olunması haqqında qərar qəbul etmişdi. Oktyabrın 27-də Naxçıvandakı Azadlıq meydanında keçirilən ümumrespublika mitinqinin iştirakçıları Azərbaycan prezidentindən Naxçıvana göstərilən zorakılıq hərəkətlərinin qarşısını almağı tələb etmişdilər.

Ali Məclisin qərarından sonra güman etmək olardı ki, nəhayət Naxçıvanda sabitlik yaranacaqdır. Lakin hadisələr gözlənildiyi kimi olmadı. Respublika mətbuatı və televiziyası Naxçıvanda baş verən dövlət çevrilişinə cəhdi tamamilə təhrif edərək xalqa çatdırmağa çalışdı. Onların bu hərəkəti istər-istəməz bu fikri təsdiqləyirdi ki, Azərbaycanın rəsmi dairələri cinayətkarlarla əlbirdir. Oktyabrın 27-də Naxçıvanda vəziyyətin yenidən gərgin xarakter alması deyilənlərə heç bir şübhə yeri qoymadı. Həmin gün Azərbaycan Daxili İşlər naziri İ.Həmidov öz dəstəsi ilə Naxçıvana gəlməyi planlaşdırmışdı. Xalq Cəbhəsinin silahlı dəstələri onu qarşılamaq üçün Naxçıvan aeroportunu tutdular. Xüsusi təlim görmüş 350 nəfərdən ibarət "Boz qurd" silahlı dəstəsi Naxçıvana gətirilirdi. Görülən ciddi tədbirlər nəticəsində İ.Həmidovun Naxçıvanda iğtişaş yaradacaq təhlükəli gəlişinin qarşısı alındı.

7. Naxçıvanın muxtariyyət statusunun ləğv edilməsinə cəhd

Ümummilli lider Heydər Əliyevi muxtar respublikada hakimiyyətdən uzaqlaşdırmaq üçün iqtidar hətta Naxçıvanın muxtariyyət statusunu ləğv etməyə və ya muxtar respublika Ali Məclisinin hüquqlarını məhdudlaşdırmağa cəhd göstərirdi. Respublikanın dövlət katibi 1992-ci il noyabrın 2-də Bakı Dövlət Universitetində çıxışında və "Müxalifət" qəzetinə verdiyi müsahibədə Naxçıvanın muxtariyyət statusuna qarşı çıxmışdı [27, s.56]. AXC-nin II qurultayında da bu məsələdən bəhs edilmişdi [50, s.322]. Respublikanın bir qrup ziyalısı dövlət katibinin bu məsuliyyətsiz çıxışından narahat olmuş və mətbuatda ona cavab verilmişdi.

AXC-Müsavat hakimiyyəti dövründə prezident aparatının hüquq şöbəsinin müdiri Naxçıvanın muxtariyyətinin ləğv olunması məsələsini Ali Sovetin gündəliyinə çıxarmağa cəhd etmişdi. Bütün bunlar Naxçıvanın muxtariyyət statusunu müəyyən edən Moskva və Qars beynəlxalq müqavilələrinə, habelə 1969-cu il Vyana konvensiyasının tələblərinə zidd idi. Naxçıvanın ərazi baxımından Azərbaycandan ayrı düşməsi və ermənilərin Naxçıvanı ələ keçirə bilməməsi üçün ona Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdi və bu, 1921-ci ilin beynəlxalq müqavilələri ilə (Moskva və Qars-red.) rəsmiləşdirilmişdi. Muxtariyyətin ləğvi Naxçıvanın siyasi vəziyyətini pisləşdirər və gələcəyini təhlükə altında qoyardu.

Ulu öndər Heydər Əliyev diplomatik uzaqgörənliyi sayəsində Naxçıvanın muxtariyyət statusu qorunub saxlanıldı. O, 1992-ci ilin martında Türkiyə Respublikasının rəhbərləri ilə görüşərək Moskva və Qars müqavilələrinin prinsipial müddəalarının qüvvədə olduğunu bütün dünyaya bəyan etdi. Muxtar Respublikanın Ali Məclisi 1992-ci il 25 oktyabr tarixli qərarı ilə mövcud şəraitdə AXC-Müsavat iqtidarının muxtar respublikanın statusu ilə bağlı əsassız, zərərli iddialarını qəti rədd etdi. Qeyd edildi ki, "... xüsusi coğrafi və geosiyasi şəraitdə yerləşən Naxçıvanın 70 il bundan əvvəl muxtar respublika statusu əldə etməsi tarixi nailiyyətdir və ona edilən hər hansı bir qəsdi müstəqil Azərbaycanın milli dövlətçiliyinə, Naxçıvan Muxtar Respublikasının hər bir vətəndaşının hüquq və mənafeyinə edilən qəsd kimi qiymətləndirmək lazımdır" [50, s.414].

Ümummilli lider Heydər Əliyev deyirdi: "Naxçıvanın statusunun dəyişdirilməsinə yönəldilən hər hansı cəhdin, onun ərazisinə edilən hər cür qəsdin qarşısı qətiyyətlə alınacaqdır" [50, s.830].

Azərbaycanın hakimiyyət orqanlarının bəzi rəhbərləri muxtar respublikaya kömək etmək əvəzinə onun rəhbərliyinə təzyiq göstərməyə cəhd edir, Naxçıvanın Konstitusiya statusunda dəyişiklik etmək və onun Konstitusiya hüquqlarını məhdudlaşdırmaq tədbirinə əl atırdılar. Ali Məclisin Rəyasət Heyəti Naxçıvana qarşı bu qərəzli iddiaları blokada şəraitində olan muxtar respublikada ictimai-siyasi vəziyyəti gərginləşdirməyə və onun problemlərinin həllinə maneçilik yaratmağa xidmət edən faktlar kimi qiymətləndirmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti 1992-ci il dekabrın 7-də "Naxçıvan Muxtar Respublikasında və onun ətrafındakı vəziyyətlə əlaqədar bəzi məsələlər haqqında" qəbul etdiyi qərarda Azərbaycan Respublikasının Prezidentindən, Ali Sovetindən muxtar respublikada sabitliyin pozulmasına yönəlmiş və ağır nəticələr verə biləcək hüquqazidd, antikonstitusion hərəkətlərin qarşısını almaq üçün tədbirlər görməyi tələb etmişdi [50, s.309-310].

AXC iqtidarının qısamüddətli səriştəsiz hakimiyyəti dövründə ölkənin daxili və xarici vəziyyəti daha da kəskinləşmişdi. Cəbhədəki uğursuzluqların, sosial-iqtisadi həyatındakı böhranlı vəziyyətin günahkarı kimi AXC-nin xalq arasında

nüfuzu günü-gündən aşağı düşürdü. Muxtar respublikanı ağır blokada şəraitində uğurla idarə edən ulu öndər Heydər Əliyevin nüfuzu və mövqeyi isə əksinə, daha da güclənirdi.

Azərbaycan hakimiyyət dairələrinin Naxçıvan Muxtar Respublikasına soyuq münasibətinin davam etməsinə baxmayaraq, Ali Məclisin Sədri Heydər Əliyevin gərgin səyləri nəticəsində 1993-cü ilin əvvəlində Bakı ilə Naxçıvan arasındakı münasibətlərdə müəyyən mülayimləşmə hiss olunmağa başladı. Həmin il fevralın 12-də Bakıda Azərbaycan Respublikasının Prezidenti Ə.Elçibəylə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev arasında ilk görüş oldu. Bu, Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra ulu öndər Heydər Əliyevin Bakıya ilk səfəri idi. Söhbətdə müzakirə edilən əsas məsələlərdən biri də Naxçıvanın ağır vəziyyəti və onun bu vəziyyətdən çıxarılması barədə oldu [50, s.330].

AXC iqtidarı Naxçıvanın Konstitusion hüquqlarını məhdudlaşdırmaq, Ali Məclisə təzyiqlər etməyə çalışsa da, ümummilli lider Heydər Əliyevin sarsılmaz və qətiyyətli mövqeyi sayəsində Naxçıvanda aranı qarışdırmaq və vəziyyəti dəyişdirmək üçün atdıqları qeyri-qanuni hərəkətlərlə məqsədlərinə nail ola bilmədilər. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında cəsarətli və məqsədyönlü siyasəti Azərbaycanın bütün regionlarının diqqət mərkəzində idi. Xalqın ona olan inamı və ümidi daha da möhkəmlənirdi.

8. Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması

Ötən əsrin 90-cı illərinin əvvəllərində zorla hakimiyyətə gələn AXC-Müsavat cütlüyü ölkədəki onsuz da ağır olan siyasi, iqtisadi, mənəvi vəziyyəti daha da ağırlaşdırdı. Bunun da əsas səbəbi respublikada dərinləşməkdə olan hakimiyyət böhranı idi. Bu partiyaların təmsil etdikləri iqtidarın anormal idarəetmə metodları daxili situasiyanı gərginləşdirməklə yanaşı, respublikanın müstəqil dövlət kimi gələcək perspektivlərini ciddi təhlükə altına salmışdı. Cəbhə iqtidarı radikal ictimai islahatlar şüarı ilə hakimiyyətə gəlsə də, siyasi və iqtisadi sistemdə heç bir əsaslı islahat həyata keçirə bilmədi. Vəzifələrə gətirdikləri adamların isə heç bir təcrübəsi və səriştəsi yox idi.

Uğursuz xarici siyasət Azərbaycanın beynəlxalq vəziyyətini xeyli ağırlaşdırmış, ölkəmiz ətrafında beynəlxalq informasiya blokadası daha da sərtləşmiş, nəticədə Dağlıq Qarabağ münaqişəsində bir çox böyük dövlətlər, beynəlxalq təşkilatlar açıq-aşkar ermənipərəst mövqe tutmuşdular. ABŞ Konqresi isə münaqişədə Azərbaycanı günahkar bilərək, "Azadlıq müdafiə aktı"na 907 №-li əlavə maddə qəbul etmiş və nəticədə ölkəmiz bu dövlətin maliyyə yardımından məhrum edilmişdi [59, s. 106].

Yaranmış şəraitlə əlaqədar ölkənin mütərəqqi şəxsiyyətləri, ziyalıları, qabaqcıl, sadə adamları dəfələrlə Naxçıvana, ümummilli lider Heydər Əliyevin yanına

gedib Vətənin xilası naminə ondan yenidən böyük siyasətə qayıtmasını xahiş edirdilər [99, 1997, 2 dekabr]. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyasının yaranması xalqın çox hissəsinin respublikamızı düşdüyü vəziyyətdən çıxarmaq üçün və artıq mövcud olan partiyalara və təşkilatlara inamları olmadıqlarına görə yeni bir partiyanın yaranması ilə əlaqədar ayrı-ayrılıqda fikirlərinin, arzularının cəmləşməsi və nəhayət, formalaşması nəticəsində olmuşdur. Bir adam, bir qrup adam yox, Azərbaycanın, demək olar ki, bir çox bölgələrində - Bakıda, başqa böyük şəhərlərdə, rayonlarda, yaşayış məntəqələrində ayrı-ayrı adamlar bir-biri ilə əlaqəsi olmadan belə bir fikrə gəlmişdilər [97, 1997, 2 dekabr].

1992-ci ilin aprel-may aylarında ulu öndər Heydər Əliyevin hakimiyyətə, daha geniş siyasi fəaliyyətə qayıtması uğrunda əsl xalq hərəkatı başlandı. "Heydər Əliyevi biz çağırmalıyıq!" adlı müraciət ölkədə böyük əks-səda doğurdu. Azərbaycanın, demək olar ki, bütün bölgələrində aparılmış ictimai rəy sorğularının nəticələri, Yeni Azərbaycan Partiyası (YAP) Təşkilat Komitəsinə daxil olan minlərlə şifahi və yazılı təkliflər göstərirdi ki, yeni partiyaya rəhbərlik etməyə qadir yeganə şəxs Heydər Əliyevdir [85, 1992, 16 oktyabr]. Respublikanın görkəmli ziyalıları Naxçıvana gəlir, ulu öndər Heydər Əliyevə müraciət edirdilər ki, Bakıya, böyük siyasətə qayıtsın. Lakin ulu öndər bu fikirdə deyildi. O, bütün müraciətlərə ehtiramla yanaşır, lakin təkliflərdən imtina edirdi [6, 1994, 22 noyabr].

Azərbaycanın 91 tanınmış ziyalısı 1992-ci il oktyabrın 16-da "Səs" qəzeti vasitəsilə ümummilli lider Heydər Əliyevə müraciət etdi. "Azərbaycan Sizin sözünüzü gözləyir" adlanan bu tarixi sənəddə ölkədə yaranmış ağır siyasi, iqtisadi, mənəvi durumun mövcud iqtidarın səriştəsiz, kobud, zora arxalanan siyasəti nəticəsində gündən-günə dərinləşməsi, belə vəziyyətdən demokratik yolla xilas olmaq üçün xalqın bu işə rəhbərlik etməyə qadir yeganə şəxsin – Heydər Əliyevin başçılığı altında Yeni Azərbaycan Partiyasında təşkilatlanmaq arzusu öz əksini tapmışdı [85, 1992, 16 oktyabr]. Ulu öndər Heydər Əliyev Azərbaycan ziyalılarının bu çağırışına səkkiz gün sonra, oktyabrın 24-də cavab verdi. Həmin gün Azərbaycanda hakimiyyətdə olan Xalq Cəbhəsinin fitvası ilə Naxçıvanda ona qarşı ilk dövlət çevrilişi cəhdinə əl atıldı. Qəribə paradoks yaranmışdı. Respublika ziyalıları, əhalinin böyük əksəriyyəti ölkənin gələcək taleyini ulu öndər Heydər Əliyevlə əlaqələndirir, onda görürdülər. Xalq Cəbhəsi isə onu Naxçıvanda da hakimiyyətdə görmək istəmirdi. Xalq isə respublika ziyalılarının təklifini dəstəkləyirdi [26, s. 94].

Ümummilli lider Heydər Əliyev respublika ziyalılarının 24 oktyabr müraciətinə cavabında mövcud ictimai-siyasi durumu dərindən təhlil etdi, cəmiyyətin bütün qüvvələrini birləşdirməklə yaranmış ağır vəziyyətdən çıxış yollarını göstərdi, Azərbaycanın müharibə vəziyyətindən çıxması, Qarabağ probleminin tezliklə həll olunması, sosial-iqtisadi böhranın aradan qaldırılması, düzgün kadr siyasəti aparılması, səriştəli kadrlardan səmərəli istifadə olunması, respublikada qanunların aliliyinin təmin edilməsi, demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizmə, insan

azadlığına şərait yaradılması, yeni, müstəqil dövlət quruculuğu prosesinə vətəndaşların hamısının, əhalinin bütün təbəqələrinin cəlb olunması, heç bir məhdudiyyət qoyulmaması, Azərbaycanın parçalanmasına yönəldilmiş meyllərin qarşısının qətiyyətlə, sivil, demokratik yollarla alınması, dövlətin bütövlüyünün demokratik prinsiplər əsasında qorunub saxlanılması və inkişaf etdirilməsi vacibliyini qeyd etdi. O bildirdi ki, Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə bir partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər" [50, s.442-446]. Heydər Əliyev yeni siyasi partiyanın yaradılmasında və fəaliyyətində fəal iştirak etməyə hazır olduğunu bildirdi.

Qısa müddət ərzində Yeni Azərbaycan uğrunda siyasi hərəkat bütün Azərbaycanı bürüdü. Hərəkatın mərkəzi isə Heydər Əliyevin fəaliyyət göstərdiyi Naxçıvan şəhəri oldu. Burada Heydər Əliyevin sədrliyi ilə YAP təşkilat komitəsi yaradılmış, onun bilavasitə iştirakı ilə yeni partiyanın proqram və nizamnamə layihələri hazırlanmışdı.

Yeni Azərbaycan Partiyasının yaranmasında məqsəd Azərbaycan Respublikasını mövcud böhrandan xilas etmək olmuşdur. O vaxta qədər olan və ölkənin həyatında rəhbər mövqelərə yiyələnən heç bir siyasi qüvvə, təşkilat və ya vəzifəli şəxs bu işin öhdəsindən gələ bilmədi [35, s.222]. Xalq özünün və Azərbaycan Respublikasının taleyini Heydər Əliyevə və onun rəhbərliyi altında yaradılan partiyaya bağlamalı oldu. İnsanların ona inamı Yeni Azərbaycan Partiyasına bəslənən böyük ümidlərin əsasını təşkil edirdi. Həyat göstərdi ki, xalq ümidlərində yanılmayıbdır.

Ümummilli liderin rəhbərliyi altında partiyanın yaranmasını özlərinin siyasi hakimiyyətinə birbaşa təhlükə hesab edən mövcud iqtidar prosesi əngəlləmək üçün hər cür vasitəyə əl atmağa başladı. Əsas etibarilə Heydər Əliyevin tərəfdarlarının təqib edilməsi, hədə və birbaşa fiziki və mənəvi təzyiqlər kimi o vaxtkı hakimiyyətin mahiyyətini əks etdirən vasitələr işə salındı. Sözün əsl mənasında, təqiblərə və repressiyalara əl atıldı.

SSRİ-nin süqutunun meydana gətirdiyi demokratiya dalğasında hakimiyyətə yiyələnən Azərbaycan Xalq Cəbhəsi iqtidarı xalqın dəstəklədiyi Yeni Azərbaycan Partiyasının yaradılmasına nəinki icazə vermədi, hətta onu əngəlləmək üçün heç nədən çəkinmirdi. Bu, o vaxtkı hakimiyyətin qeyri-demokratik mahiyyətini bir daha və qabarıq şəkildə nümayiş etdirirdi.

İqtidarın törətdiyi maneələrə baxmayaraq, partiyanın yaradılmasını əngəlləmək mümkün deyildi. Xalqın Heydər Əliyevə inamı və yaradılan partiyaya ümidi bütün maneələrdən və təqiblərdən güclü idi. Azərbaycan Respublikasının bütün bölgələrindən Yeni Azərbaycan Partiyasının konfransına nümayəndələr seçilmişdi. Lakin onun təsis konfransını ölkənin paytaxtı və siyasi mərkəzində - Bakıda keçirmək mümkün olmadı. Nəticədə YAP respublikanın tarixində yeganə partiya oldu ki, paytaxtda deyil, Naxçıvanda təsis edildi.

Azərbaycan Respublikasının bütün bölgələrini təmsil edən 500-dən artıq nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı Heydər Əliyevin sədrliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirildi [35, s.228]. Konfransda Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsi qəbul edildi. Ümummilli lider Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi, partiya sədrinin müavinləri, Siyasi Şura və İdarə Heyəti təsdiq olundu. Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı.

Yeni Azərbaycan Partiyası yarandığı gün – noyabrın 21-də özünün ilk bəyanatını qəbul etdi. Bəyanatda partiyanın prinsipləri, proqram məqsədləri, partiyanın siyasi, iqtisadi strategiyası açıqlanmış, bütün siyasi partiyalar və ictimai təşkilatlarla, başqa siyasi mövqedə və əqidədə olanlarla açıq, vicdanlı dialoq və danışıqlara hazır olduğu bildirildi. YAP əmin olduğunu bildirmişdi ki, onun Proqram və Nizamnaməsində irəli sürdüyü bütün müddəalar Azərbaycan Respublikasının vətəndaşları tərəfindən rəğbətlə qarşılanacaq [50, s.447-449].

Heydər Əliyev Yeni Azərbaycan Partiyasının əsas məqsəd və vəzifələrini belə şərh edirdi: "Yeni Azərbaycan Partiyası parlament tipli partiyadır və qəbul etdiyi proqramına uyğun olaraq aşağıdakıları özünün məqsədləri hesab edir: Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi; milli, dini və dil mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarının bərabər hüquqlara malik olduğu sivilizasiyalı, demokratik, hüquqi dövlət yaradılması. Lakin ön planda Azərbaycanın qarşısında duran ən mühüm və təxirəsalınmaz problemlərin həlli dayanır – hər şeydən əvvəl, respublikanın geniş miqyaslı xarakter almış müharibə vəziyyətindən çıxarılması, Qarabağ probleminin həll olunması, habelə ağır sosial-iqtisadi böhranın dəf edilməsi" [26, s. 95; 52, s. 309].

Naxçıvanda əsası qoyulmuş Yeni Azərbaycan Partiyasının ilk təşkilatları da burada yaranmağa başladı. Bir-birinin ardınca Şərur, Babək, Culfa, Şahbuz və b. rayonlarda təsis konfransları keçirilərək YAP-ın rayon təşkilatları yaradıldı. Nəticədə YAP-ın ən mütəşəkkil və fəal dəstəsi Naxçıvan Muxtar Respublikasında formalaşdı. Rayonlarda keçirilən təsis konfranslarında Heydər Əliyev şəxsən iştirak və çıxış etmiş, tövsiyə və tapşırıqlarını vermiş, qarşıda duran vəzifələri geniş şərh etmişdir.

Yeni Azərbaycan Partiyasının tarixində 1992-ci il noyabrın 21-dən 1993-cü il iyunun 15-dək olan dövr ən məsuliyyətli dövrdür. Bu dövrdə YAP mühüm siyasi mübarizə və təşkilatlanma yolu keçmiş, məhz Heydər Əliyev dühası sayəsində müxalifət partiyasından iqtidar partiyasına çevrilmişdir.

Ulu öndər Heydər Əliyev təkcə YAP-ın deyil, bütün Azərbaycan xalqının lideri idi. O, öz məsləhətləri ilə xalqı yaxınlaşmaqda olan daha böyük fəlakətdən qurtarmaq üçün iqtidara yol göstərməyə çalışırdı. Uzun müddət bu məsləhətlərə

məhəl qoymayıb səriştəsiz siyasəti ilə ölkəni parçalanmaq, vətəndaş müharibəsi həddinə gətirmiş iqtidar, başlanmış təhlükəli proseslərin qarşısını almaqda güc-süzlüyünü görüb son anda kömək üçün Heydər Əliyevə müraciət etdi. Ali Sovetin Sədri seçilən Heydər Əliyev 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçildi. Xalq YAP-ın sədri, ölkə prezidenti Heydər Əliyevin ətrafında daha sıx birləşdi.

Yeni Azərbaycan Partiyası sürətlə inkişaf edib ən böyük partiyaya çevrildi. 1993, 1998, 2003, 2008 və 2013-cü illərin prezident, 1995, 2000, 2005, 2010-cu illərin parlament, 1999, 2004, 2009 və 2014-cü illərin bələdiyyə seçkilərində bu partiya çoxluq əldə etdi və qələbə qazandı. Yarandığı dövrdə 7250 nəfər üzvü olan partiyanın 2001-ci ildə 230 min nəfər [35, s. 97], hazırda isə 600 minə qədər üzvü birləşdirir. 2001-ci ildə YAP sədrinin birinci müavini seçilən İlham Əliyev indi ümummilli və ümumxalq xarakteri daşıyan partiyaya uğurla rəhbərlik edir. Ölkə Prezidenti kimi İlham Əliyev hazırda dünyada ən nüfuzlu dövlət rəhbəri kimi tanınır. Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən İlham Əliyev özünün siyası, iqtisadi, diplomatik, ictimai və siyasi fəaliyyəti ilə nümayiş etdirdi ki, bu yolu davam etdirmək üçün ən layiqli şəxsdir.

Öz yaranışını Naxçıvandan başlayan Yeni Azərbaycan Partiyası çoxpartiyalı sistemdə öz layiqli yerini tutmuş, cəmiyyətin əsas aparıcı siyasi partiyasına – ümumxalq, ümummilli partiyaya çevrilmişdir.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYATLAR

1. *Ağayev S.H., Hadi Tizhuş Taban*. Azərbaycan Respublikasının İran İslam Respublikası ilə qarşılıqlı iqtisadi əlaqələrinin inkişaf perspektivləri. Bakı: Elm, 2007, 376 s.
2. *Axundova E*. Heydər Əliyev: şəxsiyyət və zaman. Ömrün Naxçıvan aşırımları. 5-ci kitab. Bakı: CBS, 2013, 736 s.
3. Azərbaycan Milli Ensiklopediyası ("Azərbaycan" cildi). Bakı: "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, 2007, 883 s.
4. Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2001, 360 s.
5. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, 608 s.
6. "Azərbaycan" qəzeti.
7. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun elmi arxivi (AMEA TİEA) f.1, siy.19, iş 8953.
8. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi, f.2941, siy. 1a, iş 1.
9. AR MMA, f.2941, siy. 1, iş 64.
10. AR MMA, f.2941, siy. 1a, iş, 239.
11. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası ilə əlaqələr genişlənir/ "Şərq qapısı" qəzeti, 2013, 9 fevral.
12. Azərbaycan Türkiyə əlaqələri və Heydər Əliyev (1991-2001). 1-ci kitab. Bakı, 2002, 180 s.

13. *Bayramov D.* Heydər Əliyevin "Ümid körpüsü" / "Azərbaycan" qəzeti, 2004, 28 may.
14. *Bədəlov Ə.* Azərbaycan-İran dostluq və əməkdaşlıq münasibətləri inkişafın yeni mərhələsindədir. / "Xalq qəzeti", 2014, 18 noyabr.
15. *Cəfərli E.Y.* Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrü // "Dirçəliş-XXI əsr" jurnalı. Bakı, 2000, №5, (27), s.57-61.
16. *Cəfərov H., Mustafayev A.* Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil, 2012, 172 s.
17. *Əhmədov E.* Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı: Letterpress, 2012, 912 s.
18. *Əhmədov N.H.* Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı: Elm, 2005, 308 s.
19. *Əhmədov N.H.* Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, 452 s.
20. *Əhmədov N.H.* Heydər Əliyevin inkişaf modeli və Naxçıvanda dinamik inkişaf. Bakı: Elm və təhsil, 2010, 148 s.
21. *Əhmədov N.H.* Müstəqillik illərində Azərbaycanın xarici iqtisadi əlaqələri və onun regional problemləri. Bakı: Elm, 2012, 345 s.
22. *Əliyev H.Ə.* Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, Yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət. Naxçıvan: Əcəmi NPB, 2001, 190 s.
23. *Əliyev H.Ə.* Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I kitab, Bakı: Azərnəşr, 1997, 568 s.
24. *Əliyev A., Qasımov Ə.* Naxçıvan Muxtar Respublikası: nailiyyətlər və problemlər (I cild). Bakı: Azərbaycan, 2001, 284 s.
25. *Hacıyev İ.M.* Heydər Əliyevin həyat və fəailiyyətinin Naxçıvan dövrləri// AMEA Naxçıvan bölməsinin xəbərləri. İHES. Naxçıvan, 2006, №4, s.5-13.
26. *Hacıyev İ.*M. Yeni Azərbaycan Partiyasının fəaliyyəti Naxçıvandan başladı. //Yeni Azərbaycan Partiyası 1992-2007. Yeni Azərbaycan Partiyasının 15-ci ildönümünə həsr olunmuş konfransın materialları. Bakı 2007, s.92-97.
27. *Hacıyev İ.M.* Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, Əcəmi NPB, 2011, 272 s.
28. *Hacıyev İ.M.* Naxçıvanda parlament seçkiləri // Milli Məclis. Analitik informasiya jurnalı. Bakı, 2011, may-iyun, s. 48-53.
29. *Hacıyev İ.M.* Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: Əcəmi NPB, 2012, 192 s.
30. *Hacıyev İ.M.* Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə. Naxçıvan: Əcəmi NPB, 2013, 296 s.
31. *Hacıyev İ., İsmayılov B.* Naxçıvan Muxtar Respublikası 90. Naxçıvan, Əcəmi NPB, 2014, 184 s.
32. *Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B.* İntibahın 15 ili. Naxçıvan: Əcəmi NPB, 2014, 184 s.

33. "Həyat" qəzeti
34. Heydər Əliyev. İki cilddə. 1-ci cild. Bakı: Turxan NPB, 2013, 500 s.
35. Heydər Əliyev. İki cilddə. 2-ci cild. Bakı: Turxan NPB, 2013, 704 s.
36. Heydər Əliyev və Şərq. Birinci kitab. Bakı: Tural-Ə NPM, 2002, 382 s.
37. Heydər Əliyev və Şərq. İkinci kitab. Bakı: Ozan, 2002, 450 s.
38. Heydər Əliyev və Yeni Azərbaycan Partiyası (tərtib edəni və ön sözün müəllifi akad. Fəra-məz Maqsudov). Bakı: Elm, 1999, 200 s.
39. Heydər Əliyev Muzeyi (HƏM). Eksponat 198, sənəd 136.
40. HƏM. Eksponat 201, sənəd 139.
41. HƏM. Eksponat 202, sənəd 140.
42. HƏM. Eksponat 206, sənəd 144.
43. *Hüseynova İ.M.* Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
44. *Hüseynova İ.M.* Müstəqilliyimizin təminatçısı. Bakı: BDU-nun nəşriyyatı, 2003, 328 s.
45. *Hüseynova İ.M.* Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü // "Dirçəliş-XXI əsr" jurn., 1999, №16.
46. "Kommunist" qəzeti.
47. *Qaffarov T.* Azərbaycan tarixi (1920-1991). Bakı: Mütərcim, 1999, 279 s.
48. *Qaffarov T.* Azərbaycanın ən yeni tarixi. XX əsrin sonları – XXI əsrin əvvəlləri. Bakı: GİSO Enterprise KRİNB, 2005, 275 s.
49. *Qasımov Ə.Q.* Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər). Bakı: Turxan NPB, 2013, 264 s.
50. Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, 792 s.
51. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, 840 s.
52. Qətiyyətin təntənəsi (Sənədli xronika). Müəllif-tərtibçi Şakir Yaqubov. Bakı: Səhər, 1995, 848 s.
53. *Qəşəmoğlu Ü.* "Ümid körpüsü Naxçıvanın blokadasını yardı" / "İki sahil" qəzeti, 2005, 28 may.
54. *Qurbani A.* Heydər Əliyev və Azərbaycan ordusu. Bakı: Əbilov, Zeynalov və oğulları, 2002, 392 s.
55. *Mahmudov Y.M.* Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002, 328 s.
56. *Mahmudov Y.M., Şükürov K.M.* Naxçıvan: tarixi və abidələri. Bakı: Təhsil, 2007, 216 s.
57. *Məmmədov M.* Naxçıvan kiçik Azərbaycandır. Bakı: Səda, 1998, 168 s.
58. *Məmmədov M.* Şərqin qapısı Naxçıvan. Naxçıvan: Əcəmi NPB, 2001, 168 s.
59. *Məmmədov M.* Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, 208 s.
60. *Məmmədov M.* Siyasətdə Naxçıvan dərsləri. Bakı: Araz, 2009, 416 s.
61. *Məmmədov M.* Naxçıvan: dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı. Bakı: Şirvannəşr, 2011, 302 s.

62. *Məmmədov M.* Naxçıvan: 1992-ci ilin payızı. Dövlət çevrilişinə ilk cəhd / "Azərbaycan" qəz., 1997, 23 oktyabr.
63. *Məmmədov M.* Aqrar islahatların Naxçıvan təcrübəsi / "Azərbaycan" qəz., 1998, 24-25 sen-tyabr.
64. *Məmmədov V.* Heydər Əliyev və Sədərək rayonu. Naxçıvan: Qeyrət, 2003, 110 s.
65. *Məmmədov V.* Sədərəkdə yazılan gündəlik. Bakı: Şirvannəşr, 2010, 160 s.
66. *Məmmədli H.* Azərbaycan və Türkiyə dostluğu, tərəfdaşlığı güclənməkdədir / "Yeni Azərbaycan" qəzeti, 2013, 14 noyabr.
67. *Mirzəzadə R.* Azərbaycanı dünyaya saydıran insan. Bakı, 1998, 335 s.
68. Müstəqilliyin on ili. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Naxçıvan: Əcəmi, 2001, 87 s.
69. Nadirov A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı, 2001, 450 s.
70. *Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M.* Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, 2000, 104 s.
71. *Nağıyev Ə., Novruzov V., Allahverdiyev H., Əlirzayev Ə.* Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı: Azərnəşr, 1998, 388 s.
72. Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr, 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Nurlan, 2008, 548 s.
73. Naxçıvan ensiklopediyası. İki cilddə. c.2. İstanbul: Bakanlar Medya, 2005, 376 s.
74. Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı: Elm, 1999, 184 s.
75. Naxçıvan Muxtar Respublikası 80. Tarixi-statistik məcmuə (Məcmuənin ümumi rəhbəri V.Talıbov, İ.Hacıyev, B.İsmayılov). Bakı: Səda, 2004, 222 s.
76. Naxçıvan Muxtar Respublikası. Akademik Cəmil Quliyevin redaktorluğu ilə. Bakı: Elm, 2001, 220 s.
77. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Arxivi (NMR AMA), f.1, siy 1, iş 7.
78. NMR AMA, f.1, siy.1, iş 57.
79. Naxçıvanda seçkilərin tarixi (1937-2002). Ensiklopedik toplu. Bakı: Qanun, 2003, 562 s.
80. Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyəti, təbii sərvətlərinin öyrənilməsi (21-22 may 2004-cü il tarixdə keçirilmiş elmi konfransın materialları). Bakı: Elm, 2004, 512 s.
81. Naxçıvan: inkişafın 16 ili. Naxçıvan: Əcəmi NPB, 2011, 48 s.
82. *Nuriyeva S.* Azərbaycan Türkiyə əməkdaşlığı yüksək səviyyədədir / "Yeni Azərbaycan" qəzeti, 2013, 16 iyun.
83. *Rəhimov R.V.* Naxçıvan Muxtar Respublikasının xarici əlaqələri (1991-2001-ci illər). Tarix elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Naxçıvan: Qeyrət, 2002, 25 s.
84. *Səmədov A.* Azərbaycanın qurtuluş tarixi. Dörd cilddə. I cild. Bakı: Ozan, 2004, 536 s.
85. "Səs" qəzeti.
86. "Sovet Naxçıvanı" qəzeti.
87. *Sultanov O.* 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi

mübarizə. Bakı: Maarif, 1995, 232 s.
88. *Süleymanov M.* Azərbaycan ordusu (1991-1993). Bakı, 1994.
88. *Şabanov M.*S. Azərbaycan tarixində Heydər Əliyev mərhələsi. Bakı: Nurlan, 2005, 336 s.
90. *Ülki İ.* Qızıl ulduzdan hilala doğru: Heydər Əliyevin fırtınalı həyatı. Bakı, 1994, 164 s.
91. "Şərq qapısı" qəzeti.
82. Vasif Talıbov. Yüz illik inkişafın zirvəsi: 1969-1999-cu illər / "Azərbaycan" qəzeti, 1999, 16 iyul.
93. "Vətən səsi" qəzeti.
94. Yeni Azərbaycan Partiyası. Bakı, 2007, 264 s.
95. Yeni Azərbaycan Partiyası. Bakı, 2012, 168 s.
96. Yeni Azərbaycan Partiyasının I Qurultayının materialları. Stenoqrafik hesabat. Bakı, 2000.
97. "Yeni Azərbaycan" qəzeti.
98. *Zenkoviç N.* Heydər Əliyev. Tale yolları. Bakı: Azərbaycan, 2007, 608 s.
99. "Xalq qəzeti".
100. Tayfun Atmaca. 20.Yüzyıl sonunda Azerbaycan-Türkiye münasebetleri (1993-1998). Birinci baskı. Ankara, 1999, 336 s.
101. "Бакинский рабочий" qəzeti.
102. Васиф Талыбов. Во имя счастья людей сурового и гордого края / "Бакинский рабочий", 1997, 30 сентября.

VI FƏSİL

NAXÇIVAN MÜSTƏQİLLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ DÖVRÜNDƏ (1993-2015-Cİ İLLƏR)

1. Naxçıvanın ictimai-siyasi həyatı

XX əsrin 90-cı illərinin əvvəllərində ölkə rəhbərlərinin səriştəsiz siyasəti vəziyyəti ağırlaşdırdı, qarşıdurma, vətəndaş müharibəsi qaçılmaz oldu, iqtidar təhlükəli proseslərin qarşısını ala bilmədi. Nəticədə kömək üçün ümummilli lider Heydər Əliyevə müraciət olundu. Dövlət başçısının dəfələrlə təkidli müraciətindən sonra ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da hökumətin onun ardınca göndərdiyi təyyarə ilə Bakıya gəldi [6, 1999, 10 iyun].

İyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə sessiyası ulu öndər Heydər Əliyevi Ali Sovetin sədri seçdi. Həmin gün Azərbaycanın müasir dövr tarixinə "Milli Qurtuluş Günü" kimi daxil oldu. 1993-cü ilin 15 iyunu mühüm siyasi hadisə kimi Azərbaycan xalqının tarixində yeni bir dövrün başlanğıcını qoydu. Ümummilli liderin yenidən siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan onu gözləyən fəlakətlərdən xilas oldu.

Ölkədəki ictimai-siyasi gərginlik isə davam edirdi. Siyasi bacarıqsızlığı ilə ölkəni vətəndaş müharibəsi, siyasi pərakəndəlik həddinə gətirib çıxaran AXC-Müsavat iqtidarının başçıları xalqın qəzəbindən qorxaraq, siyasi meydandan qaçıb xarici ölkələrdə gizləndilər, bəziləri isə fəaliyyətlərini "dondurdu". Şəxsi təhlükəsizliyindən qorxan, siyasi gərginliyə dözməyən, güya paytaxtda qardaş qırğınının qarşısını almağa çalışan Prezident Əbülfəz Əliyev iyunun 17-dən 18-nə keçən gecə Bakını gizlicə tərk edərək doğulduğu Kələki kəndinə (Ordubad rayonu) gəldi və ölkəni buradan idarə etmək iddiasında olduğunu bildirdi [7, v. 167]. Azərbaycan Respublikasının Ali Soveti Prezidentə geri qayıdıb ölkəyə rəhbərlik etməyi təklif etsə də, hər dəfə rədd cavabı aldı. Belə bir şəraitdə iyunun 24-də Azərbaycan Respublikasının Ali Soveti ölkə Prezidentinin səlahiyyətlərinin Ali Sovetin sədri, ulu öndər Heydər Əliyevə verilməsi haqqında qərar qəbul etdi [54, s. 438].

1993-cü ilin yayı və payızında hərbi müxalifətin cinayətkar satqınlığı nəticəsində Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xaricdən idarə olunan qüvvələrin hakimiyyəti ələ almaq üçün heç nədən çəkinmədiyini görən xalq ulu öndər Heydər Əliyevin ətrafında daha sıx birləşdi. Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 1993-cü il avqustun 29-da ölkə Prezidenti Ə.Əliyevə (Elçibəyə) etimad haqqında ümumxalq referendumu keçirildi. Referendumda iştirak edənlərin 97,5 faizi Ə.Q.Əliyevə (Elçibəyə) etimadsızlıq göstərdi [54, s. 494].

1993-cü il oktyabrın 3-də ümummilli lider Heydər Əliyev alternativ əsasla, səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi [52, s. 838].

Prezident Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin ardıcıl və dönməz

olduğunu təsdiqləyən uğurlu daxili və xarici siyasəti düşmənləri ciddi narahat edirdi. Onlar paytaxtda və respublikanın digər iri yaşayış məntəqələrində siyasi sabitliyi pozmaq üçün hər vasitəyə əl atırdılar. Düşmənlərin, xarici kəşfiyyat orqanlarının əlində oyuncaq olan hakimiyyət hərisləri qanuni hakimiyyəti devirmək üçün terror aktları, dövlət çevrilişi cəhdləri edirdilər, lakin respublikanın hüquq-mühafizə orqanları bunları qətiyyətlə dəf etdilər. Xalq respublikanın dövlət müstəqilliyinin təminatçısı olan Prezident Heydər Əliyevi dəstəkləyir, siyasi yetkinlik, dövlətçilik prinsiplərinə sədaqət nümayiş etdirirdi.

Dövlət müstəqilliyinin bərpa edilməsindən sonrakı – itirilmiş illər hakimiyyətsizlik, dağıdıcılıq mərhələsi 1993-cü ildən sonra quruculuq mərhələsi ilə əvəz olundu [28, s. 113]. Bu vaxtdan etibarən Azərbaycanın əsl müstəqil dövlətçilik tarixi başlandı [56, s. 126]. Bu dövr müstəqilliyin daha da möhkəmləndirilməsi, daxili irticanın, dövlət çevrilişi cəhdlərinin aradan qaldırılması, Azərbaycanın suverenliyinin və bütövlüyünün bərpa olunması istiqamətində mühüm addımların atılması ilə xarakterikdir. Milli dövlət quruculuğunun üçüncü mərhələsi 1995-ci ilin noyabrında qəbul edilmiş ilk milli konstitusuyanın qəbul edilməsi ilə əlamətdardır. Bundan sonrakı illərdə, ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, Azərbaycanda dövlətçilik möhkəmləndirildi, demokratik prinsiplər bərqərar oldu, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi uğurla, sürətlə həyata keçirildi. Bu illərdə və sonrakı dövrdə də daxili və xarici siyasətdə uğurlu nəticələr əldə olundu, müvəffəqiyyətlər qazanıldı [115, 2001, 24 yanvar].

1993-cü ilin iyunu Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında da dönüş nöqtəsi, yeni tarixi mərhələnin başlanğıcı oldu. Bu dövr Naxçıvan Muxtar Respublikasının yenidən, tamamilə və əbədi olaraq Heydər Əliyev quruculuq xəttinə qayıtdığı dövr, özünün inkişaf istiqamətlərini müəyyənləşdirdiyi tarixi mərhələdir. Bu dövr istər ictimai mühitdə baş verən dəyişikliklərin miqyası, istərsə də sosial-iqtisadi həyatda yaranan sabitləşmə, dönüş və inkişaf baxımından muxtar respublikanın həyatında silinməz izlər buraxıb.

Naxçıvan Muxtar respublikasının 1993-cü ildən sonrakı inkişaf yolu heç də hamar olmamış, mürəkkəb ictimai-siyasi hadisələrlə zəngin olmuşdur.

Muxtar Respublikanın müasir tarixini şərti olaraq üç mərhələyə bölmək olar: 1991-1993 ilin iyulunadək I mərhələ, 1993-cü ilin iyulundan – 1995-ci ilin dekabrınadək II mərhələ və 1995-ci ilin dekabrından sonrakı dövr III mərhələ. Ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra muxtar respublikada ictimai-siyasi vəziyyət sabit qalsa da, idarəçilik sahəsində müəyyən boşluqlar, hakimiyyət orqanları arasında anlaşılmazlıqlar yaranmağa başlamış, nəticədə bir çox sahələrdə mənfi hallar baş qaldırmışdı [56, s. 127]. Bir çox yerlərdə bu səbəbdən özbaşınalıqlar baş alıb getmiş, hərc-mərcliklər çoxalmışdı [6, 1995, 18 dekabr]. Ümummilli lider Naxçıvandan gedəndən sonra burada nizam-intizam pozulmuş, işlər zəifləmişdi. Ulu öndərin tövsiyyəsi ilə Naxçıvan

Muxtar Respublikası Ali Məclisinin sədri seçilmiş N.Həsənov ona göstərilmiş etimadı doğrultmamış, idarəçilik sahəsində problemlər yaranmışdı [53, s. 271].

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi vəziyyət ümumən sabit olsa da, burada fəaliyyət göstərən bir sıra siyasi qüvvələr, o cümlədən AXC-nin yerli şöbələri vəziyyəti gərginləşdirmək, sabitliyi pozmaq cəhdlərindən əl çəkmirdilər. Azərbaycan Prezidentinin əhalidə olan qanunsuz silahların təhvil verilməsi barədə fərmanından sonra da AXC nümayəndələri silahları təhvil verməkdən imtina edir, silahlı dəstələr saxlamaqda davam edirdilər. Muxtar respublikanın hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilən əməliyyatlar nəticəsində 1994-1996-cı illərdə onlardan 901 ədəd avtomat, 49 pulemyot, 63 qumbaraatan, 1418 mərmi, 642 mina, 951681 patron müsadirə edildi [56, s. 128]. Sonrakı illərdə əhalidə olan qanunsuz odlu silahların yığılması davam etmişdir. 2001-ci ildə 281, 2002-ci ildə 2015, 2003-cü ildə 129, 2005-ci ildə 104 odlu silah aşkar edilərək götürülmüşdür [86, s. 10, 35-44].

Ordubad rayonunda AXC nümayəndələrinin yarıtmaz siyasəti rayon əhalisi arasında ciddi narazılıqlar yaradırdı. Ordubadlılar dəfələrlə muxtar respublika və ölkə rəhbərliyindən rayonda baş verən qanunsuzluqları aradan qaldırmaq üçün təcili tədbirlər görməyi tələb edirdilər. Rayonda qayda-qanun yaradılmasına mane olan amillərdən biri də Ə.Elçibəyin 1993-cü ilin iyunundan Ordubadın Kələki kəndində yaşaması və onun ətrafında kriminal xarakterli bəzi adamların olması idi.

Bu rayonda faktiki olaraq prezident hakimiyyəti tətbiq olunmamışdı. Burada hələ də cəbhə hakimiyyəti mövcud idi və onlar müxtəlif təxribatlar törədirdilər. Belə qeyri-normal şərait uzun müddət davam edə bilməzdi. Prezident Heydər Əliyev tərəfindən rayona yeni rəhbər – icra hakimiyyətinin başçısı təyin edildi. Bununla da rayonda həyat tədricən öz axarına düşməyə başladı.

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi, orada Naxçıvanla bağlı mühüm müddəalar öz əksini tapdı. Azərbaycan və Naxçıvan parlamentlərinə ilk demokratik seçkilər keçirildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1995-ci il dekabrın 16-da keçirilən ilk sessiyasında 45 birmandatlı seçki dairəsindən seçilmiş 41 deputatın mandatı təsdiq edilmiş, muxtar respublikanın Ali vəzifəli şəxsi – Ali Məclisin Sədri seçilmişdi. 36 yaşlı deputat, Naxçıvan Muxtar Respublikası Baş nazirinin xarici iqtisadi əlaqələr üzrə birinci müavini Vasif Yusif oğlu Talıbova Ali Məclis yekdilliklə etimad göstərərək onu bu mötəbər vəzifəyə seçmişdi [6, 1995, 28 dekabr].

Bu vəzifəyə seçilərkən deputat həmkarları Vasif Talıbovun ulu öndər Heydər Əliyevin sədaqətli silahdaşı olduğunu, tükənməz enerjiyə, qüvvə və bacarığa malik olduğunu, təşkilatçılıq istedadını, əhali arasında nüfuzlu siyasətçi kimi tanındığını nəzərə almışdılar. Parlament seçkilərində iştirak edənlər arasında o, yeganə şəxs olmuşdu ki, öz namizədliyini həm Azərbaycan parlamentinə, həm də Naxçıvan parlamentinə irəli sürmüş və yekdilliklə qalib gəlmişdi.

Seçicilər çox yaxşı bilirdilər ki, Naxçıvanda Vasif Talıbov qədər Heydər

Əliyev məktəbini keçən, həmin məktəbin müdavimi olan başqa bir şəxs olmayıb. Ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən Vasif Talıbov onun baş köməkçisi kimi bütün xarici səfərlərin, apardığı danışıqların iştirakçısı olmuş, təcrübə və diplomatiya səriştəsinə yiyələnmişdir. Baş nazirin xarici iqtisadi əlaqələr üzrə birinci müavini işlədiyi müddətdə Vasif Talıbovun idarəçilik sahəsində qadir olduğu keyfiyyətlər, qazandığı təcrübə özünü daha parlaq göstərmişdi [56, s. 131].

Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi təkcə Ali Məclisin deputatları tərəfindən deyil, muxtar respublika əhalisi tərəfindən də rəğbətlə qarşılanmışdı. Naxçıvanlılar əmin idilər ki, bölgənin ağır şəraitində onu idarə etməyə qadir yeganə şəxs Vasif Talıbovdur. Onun bu məsul vəzifəyə seçilməsi həm də Azərbaycan Prezidenti Heydər Əliyevin ona göstərdiyi etimadın və inamın sayəsində baş vermişdi.

Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildikdən sonra qısa müddət ərzində muxtar respublikanın həyatının bütün sahələrində əsl canlanma müşahidə olundu. İctimai-siyasi mühit sağlamlaşdırıldı, quruculuq və abadlıq işləri geniş vüsət aldı. Naxçıvanda hakimiyyət strukturlarının yenidən formalaşması və təşkilatlanması prosesi uğurla həyata keçirilməyə başladı. Yaradılan işgüzar mühit və sağlam iş şəraiti, bütün sahələrdə mütərəqqi dəyişikliklər əhalinin hakimiyyət orqanlarına inamını artırdı. Muxtar respublika rəhbərinin ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda işləyib hazırladığı inkişaf proqramına dönmədən əməl etməsi və onun icrasını uğurla həyata keçirməsi nəticəsində ciddi dəyişikliklər özünü göstərməyə başladı.

Ümummili lider Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə də Naxçıvana qayğısını göstərmiş, muxtar respublikanın sosial, iqtisadi, mədəni problemlərinin həlli üçün bütün imkanlardan istifadə etməyə çalışmışdı. Azərbaycan prezidenti kimi 1996-cı ilin oktyabrın 29-31-də Naxçıvana ilk səfər etmişdi.

Səfər müddətində o, Hüseyn Cavidin məqbərəsinin açılışında iştirak etmiş, blokada şəraitində muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafı, ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərlə tanış olmaq imkanı əldə etmişdi.

Səfər çərçivəsində Naxçıvanın yeni rəhbərliyi tərəfindən bir il ərzində muxtar respublikada həyata keçirilmiş müsbət dəyişiklikləri şahidi olmuş, onları yüksək qiymətləndirmişdi. Prezident Ali Məclisin deputatları qarşısında çıxış edərək vurğulamışdı ki, Azərbaycan Konstitusiyası qəbul ediləndən, Naxçıvanda seçkilər keçiriləndən, Ali Məclis təşkil olunandan sonra muxtar respublikada işlər normal vəziyyətdədir. Görürəm ki, siz birləşmisiniz, bir yolla gedirsiniz və qısa müddətdə Naxçıvanda çox işlər görülübdür... Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan dayaqdır... Əminəm ki, bundan sonra da dayaq olacaqdır [113, s. 82].

Muxtar respublika rəhbərliyinin ardıcıl, məqsədyönlü və qətiyyətli mövqeyi,



Azərbaycan Prezidenti Heydər Əliyev Hüseyn Cavid
məqbərəsinin açılışında çıxış edərkən
1996-cı il

idarəetmənin təkmilləşdirilməsi və struktur dəyişikliklərinin tətbiqi nəticəsində muxtar respublikada bütün sahələrdə ciddi dönüşə nail olundu [122, s. 5-6].

Xalqımızın tarixi taleyində mühüm əhəmiyyət daşıyan Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin qeyd edilməsi bölgənin ictimai-siyasi həyatında böyük hadisə idi. 1998-ci il noyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi, bu məqsədlə təşkilat komitəsinin yaradılması haqqında xüsusi fərman verdi [64, s.33-39].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının yaranmasının böyük tarixi-siyasi əhəmiyyətini və xalqımızın tarixində özünəməxsus yer tutuduğunu nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illik yubileyinin respublikada geniş qeyd edilməsi, yubiley tədbirlərinin hazırlanıb həyata keçirilməsi üçün Dövlət Komissiyasının yaradılması haqqında 5 fevral 1999-cu ildə fərman imzaladı [6, 1999, 5 fevral]. Fərmanda deyilir: "Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu... Moskva və Qars müqavilələrində təsbit edildi. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan muxtar



Hüseyn Cavid məqbərəsi. 1996-cı il

diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsdiq edildi. Bu, Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət idi" [53, s.4].

Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi üzrə tədbirlər planı təsdiq edildi. Tədbirlər planında Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinə həsr olunmuş ümumrespublika təntənəli gecəsinin keçirilməsi, Azərbaycanın şəhər və rayonlarında muxtar respublikanın yubileyi ilə əlaqədar tədbirlərin təşkil edilməsi, Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr edilmiş beynəlxalq elmi simpoziumun keçirilməsi, Naxçıvan diyarının, İrəvan xanlığının və Qərbi Azərbaycanın tarixinə dair tədqiqat əsərlərinin nəşr edilməsi, elm və təhsil müəssisələrində elmi sessiya və konfransların keçirilməsi də öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illiyi münasibətilə keçirilən bayram şənliklərində iştirak etmək üçün 1999-cu il oktyabrın 10-da Naxçıvana gəldi. O, hələ Bina hava limanında jurnalistlərə verdiyi müsahibəsində qeyd etdi ki, Naxçıvan Muxtar Respublikasının yaranması Azərbaycan xalqının, respublikanın həyatında tarixi hadisədir. Bu respublikanı vaxtilə yaradanlar çox müdrik, uzaqgörən insanlar olublar, Azərbaycan torpaqlarının ayrı-ayrı iddiaçılar tərəfindən parçalanmasının qarşısını alıblar [53, s.12].



Ümummilli lider Heydər Əliyevin Naxçıvana səfəri
1999-cu il

Azərbaycan Prezidenti Naxçıvanda keçirilən tədbirlərdə - "Kazım Qarabəkir Paşa məscidi"nin, Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun, Ticarət tədris mərkəzinin, C.Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialının, C.Məmmədquluzadənin ev muzeyinin və digər yeni müəssisələrin açılışında iştirak və çıxış etdi.

Oktyabrın 12-də Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr olunmuş təntənəli yubiley iclası keçirildi. Yubiley tədbirində Türkiyə Cümhuriyyətindən, İran İslam Respublikasından gələn rəsmi nümayəndələrlə yanaşı, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş səfirləri, respublika paytaxtından gəlmiş elm, mədəniyyət xadimləri, şairlər, yazıçılar da iştirak edirdilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov muxtar respublikanın yaranması, inkişaf tarixi, qazandığı nailiyyətlər haqqında məruzə etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yubiley tədbirində dərin məzmunlu nitq söylədi. Ümummilli lider Heydər Əliyev demişdir: "Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Bu çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Türkiyə Cümhuriyyətinin imzaladığı Qars müqaviləsinin burada böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim çox böyük, əvəzi olmayan bir sənəddir" [30, s. 249].



1999-cu il



Ümummilli lider Heydər Əliyev Naxçıvan Dövlət Universitetinin yeni korpusunun açılışında
1999-cu il



Ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxış edərkən
1999-cu il

Naxçıvan Muxtar Respublikasının 75 illiyinin qeyd edilməsi bir daha təsdiq etdi ki, Naxçıvanın yaşamasının, inkişaf etməsinin əsas şərtlərindən biri bu diyara muxtariyyət, dövlətçilik statusunun verilməsi olmuşdur.

"Naxçıvanın beynəlxalq hüquqi təminata malik muxtariyyət statusu bu bölgəyə göz dikən ermənilərə göz dağı olmuşdur" [17, 2004, 14-20 fevral].

Naxçıvandakı vəziyyətlə tanış olan Prezident Heydər Əliyev burada mövcud olan ictimai-siyasi mühiti dəyərləndirərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, icra orqanlarının işinə yüksək qiymət vermiş, bu işlərin aparılmasında təşkilati və rəhbər rolu oynayan Vasif Talıbovun işini xüsusi vurğulayaraq demişdir: "Mən məmnuniyyətlə demək istərdim ki, son dörd il içərisində (1995-1999-cu illər) Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyinə görə bəlkə də ağır, çətin olar. Ancaq bu dörd il müddətində o, sübut etdi ki, vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər də görə bilər... Məni ən çox sevindirən... Naxçıvanda yaranmış sağlam ictimai-siyasi mühitdir" [53, s. 271-272].



Ali Məclisin Sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxış edərkən 1999-cu il

Azərbaycan Respublikası Prezidentinin 2002-ci ildə muxtar respublikaya iki dəfə səfər etməsi bölgənin siyasi həyatında mühüm hadisə oldu. Prezidentin səfərlər müddətində keçirdiyi görüşlər, bölgənin inkişafı ilə bağlı verdiyi tövsiyə və məsləhətlər regionun gələcək inkişafına mühüm təsir göstərdi, bir sıra iri proqramların həyata keçirilməsinin əsasını qoydu.

Azərbaycan Respublikası Prezidentinin Naxçıvana 2002-ci ildəki gəlişi



Ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhəri ilə tanışlığı
2002-ci il

iyunun 15-nə, Milli Qurtuluş Gününə təsadüf etdi. Gəlişinin ilk günü ümummilli lider Heydər Əliyev bildirdi ki, "... blokadada, çətin şəraitdə olan Naxçıvana xüsusi qayğı göstərmək, kömək etmək lazımdır. Naxçıvan blokada şəraitində olduğuna görə, mənim Naxçıvan haqqında siyasətimin bir hissəsi insanların Naxçıvanda məskunlaşması, yaşamasıdır [46, 2002, 18 iyun].

Ümummilli lider Heydər Əliyev Naxçıvanda Olimpiya-İdman Kompleksinin açılışında, "N" saylı hərbi hissədə keçirilən tədbirdə iştirak etdi, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında müdavimlərlə görüşdü.



Ümummilli lider Heydər Əliyev Hərbi liseyin açılışında çıxış edərkən
1999-cu il

İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Naxçıvan MR-də yerləşən hərbi hissələrin problemləri, qayğıları ilə maraqlandı, dövlət sərhədlərinin daha möhkəm qorunması sahəsində qarşıda duran vəzifələrdən danışdı, hərbçilərə öz əmrlərini və tapşırıqlarını verdi. İyunun 18-də görkəmli Azərbaycan rəssamı Bəhruz Kəngərlinin xatirəsinə yaradılmış muzeyin açılış mərasimində iştirak və çıxış etdi. Muzeyin otaqlarını gəzdi və eksponatlarla tanış oldu. Azərbaycan Prezidenti həmin gün Naxçıvan MR Ali Məclisində muxtar respublikanın dövlət hakimiyyəti orqanlarının nümayəndələri ilə müşavirə keçirdi. Müşavirədə Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov muxtar respublikanın sosial-iqtisadi həyatı haqqında məlumat verdi, bu sahədə görülən işlərdən danışdı.

Azərbaycan Prezidenti müşavirədə geniş nitq söylədi. Dövlət başçısı muxtar respublikanın hakimiyyət orqanları qarşısında duran vəzifələrdən danışdı, tövsiyyələrini və konkret tapşırıqlarını verdi. Bir gün sonra şəhərlə tanış olan, Əcəmi seyrəngahını gəzən Prezident Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında keçirilən tədbirlərdən razı qaldığını bildirdi.

Avqustun 10-da ümummilli lider Heydər Əliyev 2002-ci ildə ikinci dəfə Naxçıvana səfər etdi. Ulu öndər Şahbuz rayonunun zəhmətkeşləri ilə görüşdü, rayonun sosial-iqtisadi vəziyyəti ilə tanış oldu, sakinlər qarşısında çıxış etdi. Ölkə başçısı Kolanı və Biçənək kəndlərinin əhalisi ilə görüşüb söhbət etdi, Batabatda oldu, sonra Naxçıvan MR Ali Məclisində müşavirə keçirildi. Müşavirə Naxçıvan Hava Limanının yenidən qurulmasına həsr olundu. Naxçıvan hava limanı 1974-cü ildə tikilmiş və "YAK-40" təyyarələri üçün nəzərdə tutulmuşdu.1992-ci ildə burada uzunluğu 3300 metr olan ikinci uçuş-enmə zolağı tikilmişdi. Naxçıvan ermənilər tərəfindən blokadaya alındığından, dəmir və şose yolları işləmədiyindən əhali ancaq təyyarələrdən istifadə etməli olurdu. Hazırki hava limanı isə tələbatı ödəmirdi. Müşavirədə beynəlxalq hava limanının tikilməsi müzakirə edildi və bu işin 2003-cü ilin sonunadək başa çatdırılması qərara alındı.

Ümummilli lider Heydər Əliyev avqustun 12-də AMEA Naxçıvan Bölməsinin yaradılması ilə əlaqədar keçirilən müşavirədə iştirak və çıxış etdi. Ölkə başçısı muxtar respublikada böyük bir ərazidə suvarmanın təmin olunmasında mühüm rol oynayacaq Vayxır su anbarında əsaslı yenidənqurma və bərpa işlərinin gedişi ilə yaxından tanış olmaq üçün buraya gəldi. Ulu öndər əraziyə baxdı, mütəxəssislərin rəyini dinlədi, su anbarının tikintisində işlərin sürətləndirilməsi üçün tövsiyələrini verdi. Avqustun 13-də Naxçıvan MR Ali Məclisində Prezident Heydər Əliyevin sədrliyi ilə Vayxır su anbarının tikintisinə həsr olunmuş müşavirə keçirildi. Qeyd olundu ki, Vayxır su anbarı 1981-ci ildə layihələşdirilib, 1982-1983-cü illərdə inşaat işlərinə başlanılıb. 40 metr hündürlüyündə torpaq bənd çəkilmiş, 25 milyon kubmetr su tutan su anbarı yaradılmış, su buraxıcı qurğunun qapıları, tuneli, qəza su tullayıcısının şaxtası və tuneli başa çatdırılıb və istismara verilib [6, 2002, 16 avqust]. Vayxır su anbarının inşası 1989-cu ildə dayandırılıb. Müşavirədə Vayxır su

anbarının layihə gücünə çatdırılması, üzərində 4,5 meqavat gücündə hidroelektrik stansiyasının tikilməsi, görüləcək bütün işlərin yüksək keyfiyyətlə aparılması diqqətə çatdırıldı. Naxçıvanın xüsusi qayğıya ehtiyacı olduğu göstərilməklə, bu qayğıdan, köməkdən, yardımdan səmərəli istifadə edilməsi də xüsusi qeyd edildi.

Azərbaycan Prezidenti Naxçıvan MR-in Sədərək, Şərur və Babək rayonlarının sakinləri ilə görüşlər keçirdi, onların problemləri ilə maraqlandı, həlli üçün konkret tapşırıqlar verdi. Ölkə başçısının Azərbaycan Respublikası ilə Ermənistan Respublikasının sərhəddində yerləşən Sədərək rayonu ərazisində Ermənistan prezidenti ilə təkbətək görüşü oldu.

Ölkə başçısı Naxçıvanda görülən işləri, həyata keçirilən tədbirləri, quruculuq və abadlıq işlərini yüksək qiymətləndirdi, Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun rəhbərliyindən razı qaldığını bildirdi.

Naxçıvanlılar Muxtar Respublika rəhbərliyinin həyata keçirdiyi quruculuq və islahatlar siyasətini daim müdafiə edir və dəstəkləyirlər. Bunu Naxçıvanda keçirilmiş seçkilərin nəticələri də göstərir. 2000, 2005, 2010 və 2015-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilmiş seçkilərdə əhali Heydər Əliyev siyasi kursunu muxtar respublikada uğurla həyata keçirənləri dəstəklədiklərini bir daha sübut etdi. Seçkilər göstərdi ki, muxtar respublika əhalisinin mütləq əksəriyyəti 1995-ci ildən bölgədə uğurla aparılan quruculuq və inkişaf tədbirlərinin əsas təşəbbüskarı və rəhbəri olan Ali Məclisin sədri Vasif Talıbovu və onun komandasını müdafiə edir. Məhz buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə yerlərin əksəriyyətini bu komandanın üzvləri tutmuş, Vasif Talıbov isə artıq beşinci dəfə yenidən Ali Məclisin Sədri, muxtar respublikanın rəhbəri seçilmişdi (1995, 2000, 2005, 2010, 2015).

Vasif Talıbovun yenidən Ali Məclisin Sədri seçilməsi həm də onun göstəricisi oldu ki, naxçıvanlılar onun rəhbərliyi altında regionun ictimai-iqtisadi və siyasi həyatında baş verən müsbət dəyişikliklərin davam etdirilməsini istəyirlər.

Naxçıvanda müxalifətin xalq tərəfindən dəstəklənməməsinin əsas səbəbi də məhz bundadır. Bu gün muxtar respublikada bir çox siyasi partiyaların, əsasən də müxalif siyasi partiyaların yerli şöbələri fəaliyyət göstərsə də, onların muxtar respublikanın ictimai-siyasi həyatına təsir imkanları çox aşağı səviyyədədir. Azərbaycanın iqtidar partiyası YAP Naxçıvanda ən mütəşəkkil siyasi təşkilat olmaqla, eyni zamanda həyata keçirilən islahatların əsas aparıcı qüvvəsidir. Bu gün muxtar respublikada YAP-ın 51 mindən çox üzvü, bütün yaşayış məntəqələri üzrə 797 ərazi ilk partiya təşkilatı fəaliyyət göstərir [119, 2014, 22 noyabr].

Ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında ümummilli lider Heydər Əliyevin siyasi kursuna uyğun olaraq uğurla aparılan demokratikləşmə, vətəndaş cəmiyyəti quruculuğu, sosial-iqtisadi inkişaf və dövlət quruculuğu siyasəti partiya işinin əsas ideoloji hədəfi olmuşdur.

Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında, dövlətin idarə olunmasında gənclərin rolu ilbəil artır və onlar cəmiyyət həyatında daha fəal iştirak edirlər. Xüsusən Azərbaycan Prezidentinin imzaladığı 29 iyul 1999-cu il tarixli "Dövlət Gənclər siyasəti haqqında" fərmanı gənclərə göstərilən diqqət və qayğının təzahürü kimi qiymətləndirilə bilər. Bu fərman respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətinin gənclik problemlərinin həllinə yönəldilməsi baxımından olduqca qiymətli sənəddir və bu gün də Azərbaycan gənclər təşkilatlarının fəaliyyət proqramı kimi ardıcıllıqla həyata keçirilir. Bu fərmandan sonra muxtar respublikada gənclərin qanunverici və icraedici hakimiyyət orqanlarında ən məsul vəzifələrə irəli çəkilməsi, gənc kadrlara etimad göstərilməsi artmışdır.

Ali Məclis Sədrinin fərmanı ilə müxtəlif illərdə gənclərin nümayəndələri, nazir, komitə sədri, icra hakimiyyətinin başçısı, baş prokuror və başqa vəzifələrə təyin olunublar. Gənclər rəhbər vəzifələrə irəli çəkilərkən ədalət prinsipinə, irəli çəkilən gənclərin qabiliyyət və bacarığına, peşəkarlığına üstünlük verilir. Son illərdə muxtar respublikanın əldə etdiyi uğurlar da göstərir ki, kadr siyasəti sahəsində aparılan islahatlar, o cümlədən kadrların yerləşdirilməsi və gənclərin irəli çəkilməsi özünü doğrultmuşdur.

Yeniyetmə və gənclər siyasəti ilə bağlı həyata keçirilən tədbirlərdə ümummilli lider Heydər Əliyev irsinin öyrənilməsi, gənclərdə hərbi vətənpərvərlik və vətəndaşlıq hislərinin aşılanması, elmə, təhsilə marağın artırılması, asudə vaxtlarının səmərəli təşkili, gənclərin ölkədə, o cümlədən muxtar respublikada həyata keçirilən islahatlar və proqramların gerçəkləşdirilməsinə səfərbər edilməsi, onların yüksək sosial, mənəvi, fiziki inkişafını təmin edən fəaliyyət sahələrinə istiqamətləndirilməsi ön planda olmuşdur.

Muxtar respublikada ondan çox gənclər təşkilatı, ictimai birlik və federasiya fəaliyyət göstərir. 1996-cı ildə gənclər təşkilatlarının muxtar respublika üzrə Milli Şurası yaradıldıqdan sonra Azərbaycan və xarici ölkələrin milli və beynəlxalq gənclər təşkilatları ilə əlaqələri möhkəmlənmişdi. Naxçıvan gənclərinin nümayəndələri Azərbaycan gəncləri ilə birlikdə dünyanın bir sıra ölkələrində keçirilən konqreslərdə, tədbirlərdə, yarışlarda iştirak etmişlər.

Muxtar respublikada yaradıcı gənclərin aşkar edilməsi, onlara diqqət və qayğının artırılması istiqamətində görülmüş işlər də diqqəti cəlb edir. 1999-cu ilin sentyabrında Gənclər və İdman Nazirliyinin kollegiyasında "Yaradıcı gənclər üçün mükafatların təsis edilməsi haqqında" məsələ müzakirə edilmiş və qəbul edilmiş qərara uyğun olaraq müxtəlif sahələr üzrə istedadlı gənclərə mükafatlar təqdim edilmişdir.

Muxtar respublikanın əhalisinin 62,3 faizini 35 yaşadək olan gənc nəsil təşkil edir. Muxtar respublikada gənclərin asudə vaxtlarının səmərəli təşkili, yaradıcılıq potensialının üzə çıxarılması diqqət mərkəzində saxlanılır. Naxçıvan

Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafi üzrə Dövlət Proqramı (2006-2010-cu illər)"nın uğurla icra olunması bu sahədə həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli fərmanı və 2013-cü il 15 yanvar tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması muxtar respublikada gənclərə göstərilən yüksək diqqət və qayğının əyani ifadəsidir. Dövlət gənclər siyasəti cəmiyyətin əsas hərəkətverici qüvvəsinə çevrilən gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakını, onların sosial problemlərinin həllini ehtiva edir. Bu məqsədlə 2014-cü ildə ölkə başçısının muxtar respublikaya səfəri zamanı Naxçıvan şəhərində Gənclər Mərkəzi istifadəyə verilmişdir. Hazırda binada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu yerləşir və aid təşkilatlarla birlikdə gənclərin fəallığının artırılması, onların qüvvə və enerjisindən, bilik və bacarığından səmərəli istifadə olunması istiqamətində uğurla fəaliyyət göstərir.

Muxtar respublikada gənclər arasında bədən tərbiyəsi və idmanın inkişafi sahəsində də mühüm nailiyyətlər qazanılmışdır. İdmançılar bir çox beynəlxalq yarışlarda iştirak edərək yüksək nəticələr göstərmişlər. Naxçıvan idmançıları 1993-2013-cü illərdə yerli və beynəlxalq əhəmiyyətli yarışlarda 713 medal qazanmışlar. Naxçıvan idman məktəbinin yetirməsi Hüseyn Həsənov 2012-ci ildə Londonda keçirilən XIV Yay Paralimpiya Oyunlarında bürünc mükafat qazanmışdır [105, s.148].

Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi həyatın, mənəvi-mədəni mühitin yaxşılaşdırılmasında qadınların roluna, onların cəmiyyətdəki sosial mövqeyinə ciddi əhəmiyyət verilir. Müstəqillik dövründə qadın hərəkatı daha da genişlənmişdir. Qadınlarla bağlı dövlət siyasəti beynəlxalq norma və prinsiplər nəzərə alınaraq ümummilli lider Heydər Əliyevin tövsiyə və məsləhətlərinə uyğun aparılır. Muxtar respublikada bütün təbəqələrdən olan qadınların ictimai-siyasi həyata cəlb olunmasında, onların sosial fəallığının artırılmasında 1995-ci ildə yaradılmış Naxçıvan Muxtar Respublikasının Qadınlar Məclisi mühüm rol oynamışdır [56, s.141]. Qadınlar Məclisi muxtar respublika qadınlarının ictimai-siyasi həyatda daha fəal olması üçün bir sıra tədbirlər hazırlayıb həyata keçirmişdir. Naxçıvan qadınları dünyanın müxtəlif ölkələrində keçirilmiş mötəbər qadın məclislərində iştirak etmişlər. Onlar Pekin Beynəlxalq Qadınlar Konfransında, Şimali Kiprdə "Gəlişən və gedişən dünyada türk dövlətləri qadınlarının problemləri" mövzusunda keçirilən konfransda iştirak etmişlər [119, 1997, 12 mart].

Naxçıvanda qadın hərəkatının inkişafında 1997-ci ilin oktyabrında "Sevil" Qadınlar Məclisinin xətti ilə Naxçıvan şəhərində keçirilmiş "Azərbaycan qadını XXI əsrin astanasında" beynəlxalq konfransı mühüm rol oynadı. Konfransda

qonşu dövlətlərdən gəlmiş qadınların iştirakı muxtar respublika qadınlarının beynəlxalq qadın təşkilatları ilə daha sıx iş birliyinin yaradılmasına təkan verdi [119, 1997, 15 oktyabr]. Konfransda muxtar respublika qadınlarını düşündürən bir çox problemlər geniş müzakirə edilmiş, qadın hərəkatının inkişafı ilə bağlı vəzifələr müəyyənləşdirilmişdi.

Qadınların sosial fəallığını, ictimai-siyasi həyatda iştirakını artırmaq üçün son vaxtlar onlar idarəetmə strukturlarına daha geniş cəlb olunurlar. Muxtar respublikada ən yüksək inzibati və təsərrüfat vəzifələrində qadınlar uğurla fəaliyyət göstərirlər.

Bu istiqamətdə "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası prezidentinin 6 mart 2000-ci il tarixli fərmanı və qadın siyasəti ilə bağlı digər qəbul edilmiş sənədlər mühüm rol oynamışdı [6, 2000, 7 dekabr]. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması və fəaliyyətinin təmin olunması ilə qadınların muxtar respublikanım ictimai-siyasi həyatında fəallıqları artırılmışdır.

Bununla belə müstəqilliyin ilk illərində qadınların muxtar respublikanın ictimai-siyasi həyatında iştirakı kişilərlə müqayisədə çox aşağı səviyyədə olmuşdu. Bunu muxtar respublikaya aid statistik göstəricilər və tədqiqatlar da sübut edir. Sosial və siyasi fəallığın ən əsas göstəricilərindən olan seçkilərdə iştirak məsələsində də qadınların aktivliyi zəif olmuşdur. Muxtar respublikada yerli özünüidarə orqanları – bələdiyyələrin tərkibində qadınlar çox az olmuşdur. Qadınların bu sahədə passivliyini göstərən daha bir fakt budur ki, 2000-ci ildə Ali Məclisin 45 üzvündən yalnız biri qadın idi. Lakin son illərdə muxtar respublika rəhbərliyinin qadın siyasəti ilə bağlı həyata keçirdiyi məqsədyönlü tədbirlər qadınların ictimai-siyasi, sosial-mədəni həyatdakı iştirakı və fəallığı xeyli artmışdır. Qadınlar istər icra, istər qanunvericilik, istərsə də məhkəmə hakimiyyəti orqanlarında geniş təmsil olunur, yüksək və məsul vəzifələrə irəli çəkilirlər. Seçki orqanlarında qadınlar xüsusilə fərqlənirlər. Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisində 6 nəfər qadın deputat fəaliyyət göstərib. 2009-cu ildə keçirilmiş bələdiyyə seçkilərində 375 qadın səs toplayaraq muxtar respublikanın yerli özünüidarəetmə orqanlarında təmsil olunmuşlar ki, bunlardan da 8-i bələdiyyə sədri, 2-si bələdiyyə sədrinin müavini vəzifələrində çalışıb [119, 2014, 22 noyabr]. 2014-cü il seçkilərində isə 171 bələdiyyəyə 1453 nəfər üzv seçilmişdir ki, bunun da 285-i qadınlar olmuşdur. Qadınlardan 14-ü bələdiyyə sədri, 2-si sədr müavini, qalanları isə üzv kimi fəaliyyət göstəriblər.

Azərbaycan Respublikasında keçirilmiş prezident seçkilərində naxçıvanlılar fəal iştirak etmiş və onların tam əksəriyyəti Heydər Əliyev dövlətçilik məktəbinin layiqli müdavimi, bu siyasi kursun davamşısı İlham Əliyevə səs vermişlər.

Ölkə prezidenti seçildikdən sonra İlham Əliyevin yeritdiyi siyasət, xüsusən Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına yönələn tədbirlər seçicilərin öz seçimlərində yanılmadıqlarını göstərdi. 2008 və 2013-cü il prezident seçkilərində də Naxçıvan seçiciləri İlham Əliyevin yeritdiyi siyasətin alternativi olmadığını göstərdilər və ona səs verdilər. Regionların hərtərəfli inkişafına nail olunması üçün prezidentin 11 fevral 2004-cü il tarixli fərmanı ilə təsdiq edilən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının inkişafına da əhəmiyyətli yer ayrılmışdır [2]. Ölkə prezidenti blokada şəraitində muxtar respublikanı daim himayə edir və ona qayğı göstərir. Bununla əlaqədar Prezident İlham Əliyev demişdir: "...Naxçıvana daim diqqət və qayğı olmalıdır. Naxçıvan blokada şəraitində yaşayır. Azərbaycanın əsas hissəsindən ayrı yaşayır və hər bir qurum, hər bir nazirlik, hər bir təşkilat Naxçıvana xüsusi diqqət və qayğı göstərməlidir. Bu, Heydər Əliyevin siyasəti olubdur, mənim siyasətimdir və mən onu bundan sonra da davam etdirəcəyəm" [35, s. 224-225].

Azərbaycan Prezidenti İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında" 2004-cü il fevralın 9-da sərəncam imzaladı. Sərəncamda Naxçıvanın tarixinin tədqiq edilməsinin vacibliyinin, Naxçıvan Muxtar Respublikasının yaradılmasının və bu əlamətdar tarixin qeyd olunmasının Azərbaycan üçün böyük tarixi-siyasi əhəmiyyəti vurğulanır və 1999-cu ildə Prezident Heydər Əliyevin imzaladığı "Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" geniş məzmunlu fərmanın tarixi əhəmiyyəti qeyd olunur. Sərəncamda deyilir: "Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarının tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir" [6, 2004, 10 fevral].

Ölkə Prezidentinin sərəncamına uyğun olaraq Naxçıvan MR-in yaradılmasının 80 illik yubileyi respublikada, onun ayrı-ayrı şəhər və rayonlarında, elm və təhsil müəssisələrində qeyd edildi, elmi konfranslar keçirildi, mətbuatda məqalələr çap edildi. AMEA Naxçıvan Bölməsində keçirilən "Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyəti, təbii sərvətlərinin öyrənilməsi" elmi konfransı Naxçıvan MR-in 80 illiyinə həsr edildi. Naxçıvan Dövlət Universitetində keçirilən konfransın materialları çap edildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il 27 fevral tarixi sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında Heydər Əliyev adına Hərbi Lisey yaradıldı [115, 2004, 28 fevral]. Azərbaycan Prezidenti 2004-cü il martın 19-da Şərur və Babək rayonlarının əraziləri

hesabına Kəngərli rayonunun yaradılması haqqında qanunu imzaladı [115, 2004, 20 mart].

Naxçıvan Muxtar Respublikası mayın 12-14-də özünün əlamətdar və tarixi günlərini yaşadı. İlham Əliyev Azərbaycan Prezidenti kimi bu qədim diyara səfər etdi. 12 may 2004-cü ildə Naxçıvan Beynəlxalq Hava Limanının açılışı həyata keçirildi [4, s.116-119]. Dövlət başçısı nitq söylədi və hava limanının rəmzi açılışını bildirən lenti kəsdi. Müasir memarlığın ən mühüm elementlərini özündə cəmləşdirən bu yaraşıqlı hava limanı kompleksi bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır, onun xeyir-duası, qayğı və himayəsi ilə tikilib ərsəyə gəlmişdi. Tikinti işlərinə 2002-ci il oktyabrın 1-də başlanılmış və bu işləri Türkiyənin "Eren port" şirkəti aparmışdı. Layihənin ümumi dəyəri 193,5 milyon manat idi [46, 2004, 19 may]. Muxtar respublikanın iqtisadi və sosial həyatında mühüm rol oynayacaq bu beynəlxalq standartlara uyğun hava limanını tikmək üçün yerli mütəxəssislərlə yanaşı, Türkiyədən və Avropa ölkələrindən də gəlmiş mütəxəssislər iştirak etdilər. Lazımi avadanlıq, cihaz və ləvazimatlar isə İngiltərədən, Fransadan, Danimarkadan, Almaniyadan, Rusiyadan, İrandan, Koreyadan, Çindən, Yaponiyadan və Türkiyədən gətirildi. Ən böyük və ağır yüklü "Boinq – 747" tipli təyyarələri qəbul edə bilən Naxçıvan Beynəlxalq Hava Limanı Naxçıvan Muxtar Respublikasının beynəlxalq aləmə daha sıx inteqrasiya olunması üçün imkan yaratdı. Hava limanının açılış mərasimində naxçıvanlıları təbrik edən ölkə Prezidenti İlham Əliyev dedi: "Naxçıvan hava limanına beynəlxalq status verilibdir. Bu statusdan istifadə edib digər marşrutlar üzərində işləmək mümkün olacaqdır" [115, 2004, 19 may].

Prezident İlham Əliyevin Naxçıvan səfəri tədbirlər planının zənginliyi ilə diqqəti cəlb etdi. Beynəlxalq aeroportla yanaşı, Naxçıvan Dövlət Universitetinin elektron kitabxanasının, AMEA-nın Naxçıvan Bölməsi üçün yeni inzibati binanın, Əlillərin Bərpa Mərkəzinin açılışında iştirak və çıxış etdi. Heydər Əliyev adına məktəbin, sənaye kompleksinin, Vayxır su anbarının tikintisi ilə tanış oldu, "N" saylı hərbi hissədə əsgər və zabitlərlə görüşdü, Ali Məclisdə müşavirə də keçirdi.

Naxçıvan MR Ali Məclisinin binasında keçirilən geniş müşavirədə Prezident İlham Əliyev muxtar respublikada müşahidə edilən sosial-iqtisadi inkişaf tempindən razı qaldığını və genişmiqyaslı quruculuq işlərindən məmnun olduğunu bildirdi. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2004-2008-ci illər) icrasına toxunan Prezident Dövlət Proqramının Naxçıvanda uğurla həyata keçirildiyini qeyd etdi, muxtar respublikada gedən inkişaf prosesini, quruculuq işlərini yüksək qiymətləndirdi: "Naxçıvanda gedən proseslər çox uğurludur... sosial-iqtisadi islahatlar, quruculuq işləri, yeni müəssisələrin yaradılması-bütün bunlar çox müsbət haldır. Mən çox şadam, çox sevinirəm ki, Naxçıvan belə yüksək ahənglə inkişaf edir" [6, 2004, 11 iyun].



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının yaranmasının 80 illiyinə həsr olunmuş təntənəli yığıncaqda çıxış edərkən 14 may 2004-cü il



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan Muxtar Respublikasının yaranmasının 80 illiyinə həsr olunmuş təntənəli yığıncaqda çıxış edərkən 14 may 2004-cü il

Prezidentin səfərinin üçüncü günü muxtar respublikanın yaradılmasının 80 illiyi münasibətilə tədbir keçirildi. Təntənəli mərasimdə ölkə başçısı İlham Əliyev çıxışında Azərbaycanın qədim diyarı olan Naxçıvanın sürətlə inkişaf etməsini və inamla irəliləməsini fərəh hissi ilə qeyd etdi: "Mən çox sevinirəm ki, Naxçıvanda gözəl quruculuq və abadlıq işləri aparılır. Blokada şəraitində yaşayan, Azərbaycanın əsas hissəsindən ayrı düşmüş Naxçıvan yaşayır, güclənir və irəliyə doğru inamla addımlayır. Fürsətdən istifadə edərək mən Naxçıvan rəhbərliyinə və şəxsən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova görülən bütün işlərə görə öz dərin minnətdarlığımı bildirirəm" [6, 2004, 16 may].

Dövlət başçısının qədim torpağa səfəri zamanı, muxtar respublikanın sakinləri ilə səmimi görüşləri, xoş ünsiyyətləri yaddaşlarda dərin izlər saldı, Naxçıvan Muxtar Respublikasının hərtərəfli yüksəlişinə təkan verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin açılış mərasimində iştirak etmək üçün 2004-cü il sentyabrın 2-də Naxçıvana gəldi.

Yeni istifadəyə verilən məktəb binasının önündə ümummilli lider Heydər Əliyevin heykəlinin açılışı oldu. Təməli ulu öndər tərəfindən qoyulan 1206 yerlik 3 mərtəbəli məktəbdə 67 sinif otağı, kompüter sinfi, hərbi hazırlıq otağı, laboratoriyalar, kitabxana, idman salonu, basketbol və futbol meydançaları, tibb məntəqəsi, bufet-yeməkxana şagirdlərin istifadəsinə verildi [119, 2004, 3sentyabr]. Mərasimdə qeyd edildi ki, 2003-cü ildə

Naxçıvan Muxtar Respublikasında 2390 şagird yeri olan 10 məktəb istifadəyə verilmişdir. Hazırda isə 3274 yerlik 11 yeni məktəb binası tikilir, 2600 yerlik 5 məktəb binasında isə əsaslı təmir və yenidənqurma işləri aparılır [6, 2004, 3 sentyabr].



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev
Heydər Əliyev adına tam orta məktəbin açılışında
2004-cü il

Ölkə Prezidenti Heydər Əliyev adına tam orta məktəbin açılışında nitq söylədi. Təhsil islahatının həyata keçirilməsi, yeni məktəblərin tikilməsi, 2005-2007-ci illərdə ölkənin məktəblərində kompüter siniflərinin yaradılması kimi məsələləri önə çəkən İlham Əliyev, Azərbaycanda gənclərin müasir biliklərə və texnologiyalara yiyələnməsi üçün hər cür şərait yaradıldığını bildirdi.

Ölkə başçısı Naxçıvan şəhərində Mülki Müdafiə və Üzgüçülük Mərkəzlərinin açılış mərasimlərində də iştirak etdi.

Azərbaycan Prezidentinin iştirakı ilə Naxçıvan MR Ali Məclisində keçirilən geniş müşavirə isə muxtar respublika əhalisinin üzləşdiyi bir sıra problemlərin həlli baxımından əlamətdar idi. İlham Əliyev Naxçıvanın mavi yanacaqla, elektrik enerjisi ilə təchizatının daha da yaxşılaşdırılması üçün aidiyyəti dövlət orqanlarına konkret tapşırıqlar verdi. Müşavirədə həmçinin bildirildi ki, 2005-ci ilin sonunda Naxçıvana ilk qaz veriləcəkdir [46, 2004, 4 sentyabr].

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına növbəti səfəri 2005-ci il dekabrın 19-20-də oldu. Səfərin ilk günündə Naxçıvan şə-

hərində Diaqnostika-Müalicə Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak edən Prezident şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Heydər Əliyev adına Hərbi Liseydə kursantlar qarşısında çıxış etdi. Əsası 1980-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə qoyulan Heydər Əliyev Su Anbarının istifadəyə verilməsi mərasimində iştirak etdi. 100 milyon kubmetr su tutumu olan bu anbarın sayəsində 16 min hektar əkin sahələri suvarılacaqdır. Ölkə Prezidenti Şahbuz rayonunun Ayrınc kəndində tikilmiş orta məktəb binasının açılışında da iştirak etdi. Naxçıvan şəhərində Kitab evinin və Gənclik Mərkəzinin rəmzi açılışını bildirən lentləri kəsdi.

Dekabrın 20-də İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad Naxçıvan Muxtar Respublikasına səfərə gəldi.

Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejad "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında energetika sahəsində əməkdaşlıq haqqında" memorandumu imzaladılar. Azərbaycan Respublikasının Hökuməti və İran İslam Respublikasının Hökuməti arasında memorandum da imzalandı.



Prezident İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadla Naxçıvanda görüşü
20 dekabr 2005-ci il

Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə oldu. Müşavirədə muxtar respublikada görülmüş işlər və qarşıda duran vəzifələr təhlil edildi. Ölkə Prezidentinin nitqində Naxçıvan



Heydər Əliyev Muzeyi
1999-cu il

Muxtar Respublikasında əldə olunan nailiyyətlər yüksək qiymətləndirildi: "Keçən il mən iki dəfə Naxçıvanda olmuşdum. Bir ildən artıqdır ki, gəlmirdim buraya və bu müddətdə böyük dəyişiklikləri görürəm: yeni tikintilər, müasir, çox böyük zövqlə tikilmiş binalar, abadlıq, quruculuq işləri. Blokada şəraitində yaşayan respublikanın belə böyük uğurlar əldə etməsində, əlbəttə ki, sizin hamınızın, hər birinizin əməyi var. Xüsusilə mən Naxçıvan Muxtar Respublikasının rəhbərini, Vasif Talıbovu bu münasibətlə təbrik etmək, ona minnətdarlığımı bildirmək istəyirəm" [6, 2005, 22 oktyabr].

Regionların sosial-iqtisadi inkişafına çox böyük əhəmiyyət verən Azərbaycan Prezidenti İlham Əliyev üçüncü səfərindən bir il sonra – 2006-cı il dekabrın 20-21-də yenidən Naxçıvan Muxtar Respublikasına səfər etdi.

Ölkə rəhbəri Naxçıvan şəhərinin mərkəzində xalqımızın ümummilli liderinin abidəsinin və Heydər Əliyev Muzeyinin açılışı mərasimində iştirak etdi. Muzeydə 1103 eksponat nümayiş etdirilirdi. Hazırda eksponatların sayı 4552-yə çatmışdır. Burada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, onun xalqımızın tarixinə, mədəniyyətinə, incəsənətinə göstərdiyi diqqət və qayğını əks etdirən fotoşəkillər, ulu öndər haqqında yazılmış kitablar, ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən istifadə etdiyi əşyalar, eləcə də bütün xarici səfərlərini əks etdirən materiallar toplanmışdır.

Təməli Prezident İlham Əliyev tərəfindən qoyulmuş Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin açılışı oldu. Mərkəzin açılışında Ölkə Prezidenti geniş nitq



Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi
2008-ci il

söylədi: "Bu gözəl mərkəz həm xarici görünüşünə, həm də daxili təchizatına görə dünyanın ən yüksək standartlarına cavab verir. Bu bir memarlıq abidəsidir və əminəm ki, burada göstəriləcək xidmət ən yüksək səviyyədə olmalıdır və olacaqdır. Çünki burada quraşdırılmış avadanlıq dünyanın ən öndə gedən tibb firmalarının istehsalıdır və ən qabaqcıl texnologiyaları əks etdirir. Biz düz bir il bundan əvvəl bu mərkəzin təməlqoyma mərasimini bərabər keçirdik və o vaxt da mən əmin olduğumu bildirmişdim ki, qısa müddət ərzində bu mərkəz tikilib istifadəyə veriləcəkdir. Çox şadam ki, düz bir il ərzində biz buna nail ola bildik və bu gün bu mərkəz naxçıvanlıların sərəncamına verilir" [6, 2006, 21 dekabr].

"Gəmiqaya" şirkətinin gözəl memarlıq üslubunda inşa etdiyi, ən müasir standartlara cavab verən bu mərkəzin ümumi sahəsi 1385 kvadrat metrdir. Zirzəmi qatından və beş mərtəbədən ibarət bu səhiyyə müəssisəsi dünyanın qabaqcıl ölkələrində ən son texnologiyalar əsasında istehsal edilmiş cihaz və avadanlıqlarla təchiz olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev ölkə miqyasında, eləcə də Naxçıvan Muxtar Respublikasında əhalinin, sənaye müəssisələrinin enerji ilə təminatı, enerji təhlükəsizliyi məsələsinə xüsusi əhəmiyyət verir. Prezident bu səfərində üç mühüm elektrik stansiyasının açılışını həyata keçirdi. Bununla əlaqədar ölkə Prezidenti çıxışında demişdir: "Naxçıvan özü enerjiyə olan tələbatını ödəyəcəkdir. 87 meqavat gücündə modul elektrik stansiyasının tikintisi, 50 meqavat gücündə elektrik stan-

siyasının bərpası, Heydər Əliyev Su Anbarında tikilmiş 4,5 meqavat gücündə Vayxır elektrik stansiyası – bütün bunlar son müddət ərzində görülmüş işlər, Naxçıvanın enerji təhlükəsizliyini təmin edən məsələlərdir" [6, 2006, 21 dekabr].

Azərbaycanın bütün bölgələri kimi, Naxçıvan da çox sürətlə inkişaf edir. Prezidentin regionlara səfərləri də sosial-iqtisadi inkişafa təkan verir. Son illərdə Naxçıvan Muxtar Respublikasında 100-dən artıq yeni məktəb binası tikilmiş və ya əsaslı təmir olunmuşdur. Azərbaycan Prezidenti Naxçıvan şəhərindəki 792 yerlik 7 nömrəli orta məktəbin və Ordubad şəhərində internat-məktəb kompleksinin açılışında iştirak etmişdir. 430 şagird yerlik Ordubad internat-məktəb kompleksinə yataqxana korpusu, 204 yerlk yeməkxana, idman salonu və meydançası, dəriçilik, çəkməçilik, xalçaçılıq sənətlərini öyrənmək üçün peşəyönümlü kabinələr, laboratoriyalar və yardımçı tikililər daxildir.

Prezident bu səfərində akademik Y.Məmmədəliyevin Ordubad şəhərindəki ev-muzeyi ilə, Naxçıvan şəhərində "Cahan Holdinq" şirkətlər qrupunun istehsal sahələri ilə tanış olmuş, "Duzdağ" mehmanxanasının təməlini qoydu. Səfərin yekununda Prezident İlham Əliyevin sədrliyi ilə Naxçıvan MR Ali Məclisində geniş müşavirə keçirilmiş, əldə olunan uğurlar və qarşıda duran vəzifələr təhlil edilmişdir. Ölkə Prezidenti Naxçıvanda aparılan quruculuq, abadlıq işlərindən, sosial infrastrukturun yeniləşməsindən razı qaldığını bildirmişdir.

Ölkə Prezidenti İlham Əliyev 2007-ci il oktyabr ayının 17-də və 2008-ci ilin iyun ayının 3-4-də Naxçıvanda səfərdə olmuşdur. Səfərlərdə Prezident İlham Əliyev Naxçıvan Dövlət Universitetinin Konseravatoriyasının, Culfa və Şərur rayon Mərkəzi Xəstəxanalarının açılışında iştirak və çıxış etmişdir. Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan iyunun 4-də (2008) Naxçıvana rəsmi səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunmuş, ölkələrimizin qlobal layihələri birgə uğurla həyata keçirməsi, beynəlxalq aləmdə bir-birinin mövqelərini tam dəstəkləməsi, regional əməkdaşlıqla fəal iştirakı bildirilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisində keçirilən birgə mətbuat konfransında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan bəyanatla çıxış etmişlər. Ölkə rəhbərləri Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi ilə tanış olmuş, "Duzdağ" Fizioterapiya Mərkəzinin açılışında iştirak etmişlər. Prezident İlham Əliyev Şahtaxtı-Poldəşt sərhəd keçid məntəqəsinin açılışında iştirak etmiş, "N" saylı hərbi hissədə olmuş, Dədə Qorqud meydanı və Turizm Mərkəzi, Zərifə Əliyeva adına Şahtaxtı kənd orta məktəbi ilə tanış olmuş, Naxçıvan şəhərində yeni səhiyyə müəssisəsinin – Doğum Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və
Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan
Naxçıvanda Heydər Əliyev Muzeyi ilə tanış olarkən
2008-ci il

Respublikasına tarixi səfərləri, muxtar respublikanın sosial-iqtisadi, ictimai-mədəni inkişafına müsbət təsirini göstərdi.

Heydər Əliyev siyasəti Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir və öz müsbət təsirini göstərir. Muxtar respublika dinamik inkişaf yolundadır və infrastruktur baxımından müasirləşir.

Naxçıvan Muxtar Respublikasının yubileylərinin qeyd olunması xüsusi yer tutur. Ötən dövrlər ərzində Naxçıvanın muxtariyyət bayramı 8 dəfə (1949, 1964, 1974, 1984, 1999, 2004, 2009 və 2014) qeyd edilmişdir. Muxtar respublikanın yubileyləri ulu öndərin Azərbaycana birinci və ikinci rəhbərliyi dövründə daha yüksək, səviyyədə keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin keçirilməsi haqqında" 2009-cu il fevralın 6-da Sərəncam imzalamışdır. Həmin sərəncamda Naxçıvanın Azərbaycan tarixində oynadığı rol və istiqlaliyyət yolundakı əvəzsiz xidmətləri yüksək qiymətləndirilmişdir: "Azərbaycanın qədim tarixə, zəngin mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik Naxçıvan diyarı çətin, mürəkkəb və eyni zamanda parlaq inkişaf yolu keçmişdir...Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunmuş təntənəli yığıncaqda çıxış edərkən 2009-cu il

göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına... dəyərli töhfələr verir" [6, 2009, 7 fevral].

Naxçıvan Muxtar Respublikasının yubileylərinin keçirilməsinin böyük siyasi, tarixi və elmi əhəmiyyəti vardır. 85 illik yubileyin ölkəmizdə geniş şəkildə qeyd olunması muxtar respublikaya göstərilən dövlət qayğısının daha bir ifadəsidir. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi quruculuq yolu ilə gedən Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi sahədə böyük inkişafa nail olmuş, intibah və dirçəlişə qovuşmuşdur. Ümummilli lider Heydər Əliyev şəxsiyyəti olmasaydı, Naxçıvan yaşayaraq bu günkü günə gəlib çata, onun muxtariyyəti və ərazisi qorunub saxlanıla bilməzdi.

Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi tədbirlərində iştirak etmək üçün Naxçıvana gələn ölkə Prezidenti İlham Əliyevi muxtar respublika sakinləri çox böyük coşqu və yüksək əhval-ruhiyyə ilə qarşıladılar. Prezident İlham Əliyev Heydər Əliyev sarayının yenidən qurulmasından sonrakı vəziyyəti ilə tanış olmuş, Doğum Mərkəzinin, Badamlı Mineral Sular Zavodunun, Şərur Olimpiya İdman Kompleksinin açılışında iştirak və çıxış etmişdir. Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi tədbirlərində iştirak edən Prezident İlham Əliyev geniş məruzə

etmiş, Naxçıvanın muxtariyyət dövründə keçdiyi tarixi yolu və qazandığı uğurları yüksək qiymətləndirmiş, diyarın qorunub saxlanılmasında və muxtariyyət statusunun möhkəmləndirilməsində ulu öndər Heydər Əliyevin tarixi rolundan bəhs etmişdir. Prezident çıxışında həm də Naxçıvanın son illərdəki uğurlarında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin və muxtar respublika əhalisinin fəaliyyətinə yüksək qiymət vermişdir.

Naxçıvan Muxtar Respublikasının 85 illiyinin siyasi və tarixi əhəmiyyəti nəzərə alınaraq bununla bağlı elmi konfranslar Rusiya Federasiyasının paytaxtı Moskva və Sankt-Peterburq şəhərlərində keçirilmişdir. "Rusiya-Azərbaycan münasibətləri: keçmişi, bu günü, gələcəyi" mövzusunda keçirilən konfrans Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr edilmişdi. Konfransda Azərbaycandan getmiş nümayəndələrlə yanaşı, Moskva və Sankt-Peterburqdan olan alim və ziyalılar da çıxış etmişlər [6, 2010, 15 may].

Naxçıvan Muxtar Respublikasının son illərdəki dinamik inkişafı, quruculuq və müasirləşmə baxımından böyük infrastruktur layihələrinin həyata keçirilməsi bir sıra beynəlxalq tədbirlərin burada keçirilməsinə əsas verir. Bu mənada Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün Naxçıvanda keçirilməsi təsadüfi deyildi. Türk dövlət başçılarının zirvə toplantısının Naxçıvanda keçirilməsinin çox böyük geosiyasi, ideoloji mənası və tarixi əhəmiyyəti vardır.

Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü 2009-cu il oktyabrın 2-3-də Naxçıvan şəhərində keçirildi. Əvvəlki zirvə görüşləri 1992-ci ildə Ankarada, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda, 2001-ci ildə İstanbulda və 2006-cı ildə Antalyada keçirilmişdi [6, 2009, 4 oktyabr]. Bu zirvə görüşü sayca 9-cu idi. Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Abdulla Gül, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Respublikasının Prezidenti Kurmanbek Bakiyev oktyabrın 2-də Naxçıvana gəldilər. Oktyabrın 3-də isə Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyev zirvə toplantısında iştirak etmək üçün Naxçıvana gəldi. Ölkə Prezidentləri oktyabrın 2-də türk dünyasının böyük oğlu, ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsini ziyarət etdilər, əklil qoydular və Heydər Əliyev Muzeyi ilə tanış oldular. Prezidentlər "Əcəmi" seyrangahı ilə tanış oldular, burada ulu öndər Heydər Əliyevin büstünü ziyarət etdilər. Sonra Prezidentlər "Əcəmi" seyrəngahında Açıq Səma Altındakı Muzeyin eksponatlarına baxdılar, Mömünə Xatın türbəsi ilə tanış oldular. Türkdilli xalqların milli musiqisindən ibarət olan konsert dövlət başçılarında böyük maraq doğurdu. Heydər Əliyev Sarayında təşkil olunan konsert proqramı türk xalqlarının birliyi ideyasını ideoloji çalarlarla ifadə etdi. Oktyabrın 3-də "Duzdağ" mehmanxanasının konfrans zalında zirvə görüşü keçirildi. 2 və 3 oktyabr tarixlərində keçirilən



Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısı (Naxçıvan, 2-3 oktyabr 2009)

möhtəşəm tədbirlər silsiləsi türk dünyasının birliyi, həmrəyliyi, bu günü və gələcəyi baxımından çox mühüm töhfələrlə yadda qaldı. Türk xalqları arasındakı mədəni və iqtisadi əlaqələri dərinləşdirmək, qarşılıqlı əməkdaşlığı artırmaq, ortaq tarixi, milli-mənəvi dəyərləri öyrənmək, qorumaq və təbliğ etmək, türkdilli ölkələrin beynəlxalq sülh və sabitliyə xidmət edən müsbət fəaliyyətlərini artırmaq, ölkələrin yerləşdiyi coğrafiyanı əməkdaşlıq, sabitlik və sülh bölgəsinə çevirmək, onların beynəlxalq siyasi arenada ortaq maraqlarından çıxış etməsini təmin etmək IX zirvə görüşünün əsas mahiyyəti kimi nəzərə çarpdı.

Dövlət başçıları tərəfindən yeni təkliflər də səsləndi. Ölkə başçısı İlham Əliyev TÜRKSOY Fondunun, Qazaxıstan prezidenti Nursultan Nazarbayev Türkdilli Akademiyanın yaradılmasını, Türkiyə prezidenti Abdulla Gül ənənəvi türk idman oyunlarının da yer aldığı idman tədbirlərinin keçirilməsini məqsədəuyğun hesab etdilər [119, 2009, 9 oktyabr]. Qırğızıstan prezidenti Kurmanbek Bakiyev iqtisadi layihələrin, xüsusilə də energetika, nəqliyyat və turizm sahəsində ümumi səylərin möhkəmləndirilməsini təklif etdi [6, 2009, 4 oktyabr].

Sonda Prezidentlər Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan sazişini imzaladılar. Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün yekunu olaraq Naxçıvan bəyannaməsi qəbul edildi.

Aparılan müzakirələr, irəli sürülən məsələlər və qəbul edilən qərarlar baxımından əvvəlki sammitlərdən fərqlənən IX zirvə görüşünün ən böyük xüsusiyyəti heç şübhəsiz tədbirin Naxçıvanda keçirilməsi oldu. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu qədim yurd yeri tarixində ilk dəfə bu qədər dövlət rəhbərini, xarici



Türkdilli dövlətlərin başçıları ümummilli lider Heydər Əliyevin abidəsi qarşısına əklil qoyarkən
2009-cu il

qonağı qarşıladı. Burada ilk dəfə türk dövlətlərinin bayraqları birgə dalğalandı.

Türk dünyası, bütün dünya Ermənistanın apardığı işğalçılıq siyasəti nəticəsində blokada vəziyyətinə düşmüş muxtar respublikanın necə inkişaf etdiyini, nələrə qadir olduğunu gördü.

Ölkə başçısı Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün Naxçıvanda keçirilməsini çox gözəl və əlamətdar hadisə hesab edərək bu qədim diyarın türk dünyasında çox böyük və xüsusi yeri olduğunu göstərərək dedi: "Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim dəyərimizdir, böyük sərvətimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. O vaxt, hələ Sovet İttifaqı zamanında ümummilli lider Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda, burada görülən işlər bütövlükdə Azərbaycanın müstəqilliyi üçün böyük əhəmiyyət daşıyırdı. Azərbaycanın üçrəngli bayrağı böyük fasilədən sonra, hələ Sovet İttifaqı zamanında ilk dəfə olaraq məhz Naxçıvanda ucaldılmışdır" [119, 2009, 9 oktyabr].

Zirvə görüşünün təşkili ilə bağlı Türkdilli ölkə liderlərinin dövlət başçılarının söylədikləri xoş sözlər, səmimi Naxçıvanda görülmüş işlərə verilmiş yüksək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan səfəri
2012-ci il

qiymət oldu. Tədbir elə təşkil olunub keçirildi ki, hər şeydə Naxçıvanın özünəməxsusluğu, qonaqpərvərliyi öz əksini tapdı.

Beləliklə, müstəqillikdən sonrakı illərdə Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslərin təhlili və ümumiləşdirilməsi göstərir ki, blokada vəziyyətinə



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri
Vasif Talıbov gənc heydərçilərlə birlikdə.
2012-ci il

düşən muxtar respublika ümummilli lider Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində qorunub saxlanılmış və inkişaf etdirilmişdir. Bu inkişaf strategiyası ölkə Prezidenti İlham Əliyev tərəfindən yaradıcılıqla davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun gərgin əməyi sayəsində Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ən inkişaf etmiş bölgəsinə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" 2014-cü il yanvarın 14-də sərəncam imzalamışdı [103, s.4]. Bu sərəncamın icrasını Naxçıvan Muxtar Respublikasında təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2014-cü il yanvarın 17-də imzaladığı Sərəncamla "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nı təsdiq etmişdir [67, s.8-14]. Tədbirlər planına uyğun olaraq bir sıra tədbirlər görülmüşdür.


Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2014-cü il aprelin 7-9-da Naxçıvan Muxtar Respublikasına səfər etmişdir. Azərbaycan Respublikasının Prezidenti səfər çərçivəsində Naxçıvan Beynəlxalq Hava Limanının inzibati binasının, Gənclər Mərkəzinin, Hərbi Prokurorluğun yeni inzibati binasının, Naxçıvan - Şahbuz - Batabat magistral avtomobil yolunun, Naxçıvan şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin, Kəngərli Rayon Mərkəzi Xəstəxanasının, "Arpaçay-1" və Arpaçay-2" Su Elektrik stansiyalarının açılışında iştirak etmiş, Naxçıvan Biznes Mərkəzində yaradılan şəraitlə və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev
"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olarkən
2014-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş təntənəli yığıncaqda çıxış edərkən 9 aprel 2014-cü il



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş təntənəli yığıncaqda çıxış edərkən 9 aprel 2014-cü il

ilə tanış olmuş, muxtar respublika ərazisində yerləşən hərbi hissələrə verilmiş yeni texnika və silahlara baxmışdır. 2014-cü il aprelin 8-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin iştirakı ilə Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş təntənəli yubiley tədbiri keçirilmişdir.

Yubiley tədbirində Azərbaycandakı diplomatik korpusun, muxtar respublika hakimiyyətinin və ictimaiyyətinin nümayəndələri, elm, mədəniyyət və incəsənət xadimləri iştirak etmişlər.

Təntənənli mərasimdə dövlət başçısı İlham Əliyevin nitqi tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanmışdır. Prezident İlham Əliyev demişdir: "Naxçıvan sürətlə inkişaf edir. Naxçıvanda bütün məsələlər uğurla icra edilir. Bu səfər mənim Nax-

çıvana son 10 il ərzində 11-ci səfərimdir. Demək olar ki, hər il Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram və çox sevinirəm. Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır" [6, 2014, 9 aprel].

Yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Naxçıvanın muxtariyyət əldə etməsi uğrunda mübarizəsindən, Naxçıvan Muxtar Respublikasının təşkilindən, 90 illik inkişaf tarixinin mərhələlərindən, çətinliklər və uğurlardan geniş bəhs etmişdir.

2014-cü il muxtar respublikada "Muxtariyyət ili" elan olunmuşdur. "Muxtariyət ili" ilə əlaqədar muxtar respublikada, ölkəmizdə və bir sıra xarici ölkələrdə-Türkiyədə, Rusiyada, Polşada, Serbiyada, Cənubi Afrika Respublikasında, Bolqarıstanda, Rumıniyada konfranslar, simpoziumlar, forumlar keçirildi.

Muxtar respublikanın 90 illiyi münasibətilə 2014-cü il oktyabrın 23-24-də Naxçıvan şəhərində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumu və Türkdilli Dövlətlərin Biznes Şurasının 3-cü toplantısı iqtisadi sahədə yeni əməkdaşlıq imkanlarının nəzərdən keçirilməsi baxımından faydalı olmuşdur. Forumda türkdilli ölkələrin ticarət-sənaye palatalarının, sahibkar birliklərinin rəhbərləri, 75 xarici şirkətin təmsilçiləri, eləcə də Azərbaycanın dövlət rəsmiləri və 120-dən çox yerli sahibkar iştirak etmişdir.

Mühüm geostrateji əhəmiyyətə malik olan Naxçıvanın sosial-iqtisadi, mədəni inkişafı onu həm də beynəlxalq səviyyəli tədbirlərin keçirildiyi məkana çevirib. Ölkə başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməklə ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır. Naxçıvan hazırda mötəbər beynəlxalq tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir.

Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin, Türkiyə Cümhuriyyəti İğdır Vilayətinin valisi Davut Hanerin, İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin ostandarı Qurbanəli Səadətin Naxçıvana səfərləri, Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovla görüşləri dost, qonşu ölkələrlə, onların yaxın bölgələri ilə muxtar respublika arasındakı əlaqələrin inkişafında əhəmiyyətli rol oynadı. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumu, Türkiyə Cümhuriyyətinin, Gürcüstan Respublikasının və Azərbaycan Respublikasının müdafiə nazirlərinin üçtərəfli görüşü, Gürcüstanın Acarıstan Muxtar Respublikası Ali Sovetinin sədri Avtandil Beridzenin Naxçıvana səfəri, Avropa Şurası Parlament Assambleyasının Avropa Şurası üzv Dövlətləri Tərəfindən Öhdəliklərin Yerinə Yetirilməsi üzrə Komitəsinin həmməruzəçiləri Pedro Aqramunt və Cozef Debono-Qrexin, Norveç Krallığının, Yaponiyanın, Belarus Respublikasının, Pakistan İslam Respublikasının, ABŞ-ın, Koreya Respublikasının, Türkiyə Cümhuriyyətinin, İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirlərinin, müvəqqəti işlər vəkillərinin muxtar respublikamıza səfərləri Naxçıvanın iqtisadi, siyasi, mədəni baxımdan regional mərkəzə çevrildiyinin göstəricisidir.

2. Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının qəbul edilməsi

1993-cü ilin oktyabrında Azərbaycanda yeni Konstitusiya hazırlanması üçün təşəbbüs edilmişdi. Lakin siyasi vəziyyətin gərginləşməsi, xüsusən də, 1994-cü il oktyabr – 1995-ci il mart hadisələri, eləcə də qarşıya çıxan başqa təxirəsalınmaz vəzifələrin həyata keçirilməsi bu təşəbbüsü bir qədər ləngitmişdi. Azərbaycanın dövlətçiliyinə qarşı yönəlmiş qəsdlərin qarşısı alındıqdan sonra 1995-ci ilin iyul ayının 2-də Milli Məclisin iclasında Prezident Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiyasını hazırlayan Dövlət Komissiyası təşkil edildi. Komissiya Azərbaycan xalqının milli xüsusiyyətlərini nəzərə almaqla, qabaqcıl demokratik ölkələrin təcrübəsi əsasında "Azərbaycan Respublikasının Konstitusiyası" layihəsini hazırladı. Layihə 1995-ci il oktyabrın 15-də ümumxalq müzakirəsi üçün mətbuatda dərc edildi və cəmiyyətdə böyük maraqla müzakirə olundu. "Azərbaycan Respublikasının Konstitusiyası" – müstəqil Azərbaycan dövlətinin ilk Əsas Qanunu 1995-ci il noyabrın 12-də referendumla qəbul olundu. Referendumda 4 milyona yaxın seçici korpusunun 86 faizi iştirak etdi. Onların 94,8 faizi Konstitusiya layihəsini bəyəndiyini bildirdi [9, s.127]. Ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş 5 bölmə, 12 fəsil, 158 maddə və 12 keçid müddəalarından ibarət olan Konstitusiya 1995-ci il 27 noyabrdan qüvvəyə mindi.

Azərbaycan Respublikasının yeni Konstitusiyasının VIII fəsli (Maddə 134-141) Naxçıvan Muxtar Respublikasına həsr edilib:

134. Naxçıvan Muxtar Respublikasının statusu.

135. Naxçıvan Muxtar Respublikasında hakimiyyətin bölünməsi.

136. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi.

137. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi.

138. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi ümumi qaydalar.

139. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlər.

140. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti.

141. Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyəti.

Azərbaycan Respublikası Konstitusiyası Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində Muxtar Dövlət statusu verdi [10, s.54]. Naxçıvanın coğrafi xüsusiyyətləri, Azərbaycan Respublikasının əsas hissəsi ilə onun ümumi sərhəddinin olmaması bu bölgə üçün muxtar idarəetmə sisteminin təsis olunmasını tələb edirdi. Naxçıvan Muxtar Respublikasında dövlət idarə etməsi parlament hakimiyyəti üsulu ilə həyata keçirilir. Ali Məclisin sədri muxtar respublikanın Ali vəzifəli şəxsidir. İcra hakimiyyəti Ali Məclis tərəfindən formalaşdırılır və onun qarşısında hesabat verir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, məhkəmələri qanunla və prezident fərmanları ilə onların səlahiyyətinə aid edilmiş məsələlərin

həllində müstəqildirlər. Muxtariyyətin mövcud olduğu illər ərzində Naxçıvan heç zaman belə yüksək statusa malik olmayıb [6, 1999, 20 iyun]. Muxtar dövlətə xas olan bütün əlamətlər nəzərə alınıb.

Müstəqil Azərbaycanın Konstitusiyası əsasında Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının hazırlanması zərurətini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi özünün 23 noyabr 1995-ci il tarixli qərarı ilə muxtar respublikanın yeni Konstitusiyasının layihəsini hazırlayan komissiya yaratdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun rəhbərlik etdiyi komissiyanın hazırladığı ilkin variantda 12 fəsil, 146 maddədən ibarət olan muxtar respublika Konstitusiyasının layihəsi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədri olduğu Azərbaycanın yeni Konstitusiya layihəsini hazırlayan Komissiyada ayrı-ayrı vaxtlarda dörd dəfə müzakirə olundu. Konstitusiya layihəsi üzərində üç ilə yaxın ən müxtəlif səviyyələrdə müzakirələr aparıldı. Bir sıra müxalif qüvvələr Naxçıvanın muxtariyyət statusu əleyhinə çıxdılar. Ölkə əhalisinin fikrinə, beynəlxalq təşkilatların rəyinə və dünya təcrübəsinə görə unitar dövlətin tərkibində də muxtar qurum ola bilər. Beynəlxalq ekspertlərin rəyincə Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsi demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat verir,. demokratik dövlətin siyasi və hüquqi təşkili prinsiplərinə uyğundur. Bu, muxtariyyətin əsaslarının müasir tələblərə uyğun qurulmasına zəmin yaradır. Muxtar respublikanın Konstitusiya layihəsi 1921-ci il Moskva və Qars beynəlxalq müqavilələri ilə müəyyən edilmişdir və Azərbaycan dövlətinin ayrılmaz, toxunulmaz və bölünməz tərkib hissəsi olan Naxçıvanın coğrafi-siyasi vəziyyətinə uyğundur. Bu layihə Azərbaycan dövlətinin öz ərazisində tam suveren hakimiyyətə malik olduğunu təsdiq edir. Konstitusiya layihəsi Naxçıvanın siyasi və sosial xüsusiyyətlərini, tarixi ənənələrini özündə əks etdirir. Layihə Naxçıvanın dövlət quruluşunu, onun təşkilini, ali hakimiyyət orqanlarının səlahiyyətlərini müəyyən edir, muxtar dövlətin qanunvericilik, icra və məhkəmə hakimiyyətinin qarşılıqlı əlaqələrini, Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları ilə münasibətlərini tənzimləyir [6, 1998, 16 yanvar].

Azərbaycan Respublikası Konstitusiya Komissiyasının 1998-ci il yanvarın 14-də keçirilən iclasında Naxçıvanın muxtariyyət statusunun qorunub saxlanılmasının böyük əhəmiyyət kəsb etdiyinə toxunan ölkə prezidenti, komissiyanın sədri Heydər Əliyev deyirdi: "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq" [29, s.89].

Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsinin son variantı prezident Heydər Əliyevin 1998-ci ilin 12 aprel tarixli məktubu ilə müzakirə edilmək üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinə göndərildi. Konstitusiya layihəsi daxil olan təkliflərlə birlikdə Naxçıvan Muxtar Respublikası yeni Konstitusiyası

layihəsini hazırlayan komissiyanın 23 aprel 1998-ci il tarixli iclasında müzakirə edildi. 1998-ci il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası Muxtar Respublikanın Ali Məclisində qəbul edildi. Naxçıvan Muxtar Respublikasının sayca dördüncü olan Konstitusiyası dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisində təsdiq edildi və elə həmin gün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən imzalandı. Naxçıvan Muxtar Respublikasının 6 fəsil, 50 maddədən ibarət olan yeni Konstitusiyası 1999-cu il yanvarın 8-də dərc edilərək qüvvəyə mindi.

Bu Konstitusiya muxtariyyətin əvvəlki konstitusiyalarından bir sıra cəhətlərinə görə əsaslı şəkildə fərqlənir. Əvvəlki konstitusiyalardan fərqli olaraq bu Əsas Qanun müstəqil Azərbaycan dövlətinin tərkib hissəsi olan muxtar dövlətin Konstitusiyasıdır. Bu Konstitusiya daha lakonikdir, burada hüquqi norma və göstərişlər daha aydın və birbaşa əks olunmuşdur. İlk dəfə olaraq Konstitusiyanın özündə onun ən yüksək və birbaşa hüquqi qüvvələrinin olduğu göstərilmiş, qanunvericilik sisteminə daxil olan aktların əhatə dairəsi müəyyənləşdirilmişdir [18, s.126].

Konstitusiyanın preambula hissəsi genişdir və ilk dəfə olaraq Əsas Qanunda muxtariyyətin əsaslarının hazırda qüvvədə olan 16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars beynəlxalq müqavilələri ilə qoyulduğu, həmin müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olmasının bəyan edildiyi və Naxçıvanın ərazi hüdudlarının dəqiqləşdirildiyi öz əksini tapmışdır. Preambula hissəsində Naxçıvanın muxtar respublika statusunun təşəkkülü və onun əvvəlki konstitusiyalarının qəbulu məsələsi də verilmişdir. Diqqətəlayiqdir ki, bu Konstitusiya qəbul edilərkən ilk ülvi niyyət kimi "Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq" amalı bəyan edilir.

Bu məram Konstitusiyanın ayrı-ayrı maddələrində daha da inkişaf etdirilir. Konstitusiyaya görə, Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır [104, s.5]. Naxçıvan Muxtar Respublikasının səlahiyyətlərinə aid edilən məsələlərin həllində o, Azərbaycan Respublikasının ümumi mənafeləri ilə bağlıdır. Naxçıvan Muxtar Respublikasının dövlət sərhədləri hüdudunda vahiddir, toxunulmazdır və bölünməzdir.

Yeni Konstitusiyada ilk dəfə olaraq dövlət hakimiyyətinin "hakimiyyətlərin bölünməsi prinsipi" [104, s.6-7] əsasında həyata keçirildiyi konstitusion norma olaraq əks olunmuşdur. Qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikası Ali Məclisi, icra hakimiyyətini Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir.

Konstitusiya muxtar dövlətin başçısı statusunda "Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi" institutunu təsis edir [104, s.8-12]. Belə ki, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi həm qanunvericilik, həm də icra hakimiyyəti sahələrində səlahiyyətlərə malikdir. Konstitusiya prezidentli respublika

olan Azərbaycan dövlətinin tərkibində parlamentli muxtar respublika modelini yaradır. Belə ki, "Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir" [104, s.8]. Yaşı otuzdan aşağı olmayan, Naxçıvan Muxtar Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər bir deputatı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilə bilər (Maddə 29, II bənd).

Konstitusiyanın II fəsli Qanunvericilik hakimiyyətinin həyata keçirilməsi, formalaşması və Ali Məclisin fəaliyyətinə həsr edilmişdir. Naxçıvan Muxtar Respublikasında qanunvericilik hakimiyyətini majoritar seçki sistemi əsasında, 45 deputatdan ibarət tərkibdə 5 il müddətinə seçilən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir. Muxtar respublika ərazisində daimi yaşayan, yaşı 25-dən aşağı olmayan hər bir Azərbaycan Respublikası vətəndaşı qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilə bilər [104, s.15-16]. Konstitusiya Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə passiv seçki hüququ ilə iştirakına qadağa qoyulanların da əhatə dairəsini müəyyənləşdirir. Seçkilərin nəticələrinin düzgünlüyünü Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi yoxlayır və təsdiq edir. Hər il iki növbəti sessiyaya yığılmalı olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 31 deputatın səlahiyyətləri təsdiq edildikdə səlahiyyətlidir [104, s.17].

Naxçıvan Muxtar Respublikası Ali Məclisində qanunvericilik təşəbbüsü hüququ Ali Məclisin deputatlarına, Naxçıvan Muxtar Respublikasının Baş nazirinə, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə və Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mənsubdur.

Konstitusiyanın III fəsli İcra hakimiyyətinə həsr olunmuşdur (Maddə 34-42). Naxçıvan Muxtar Respublikasında icra hakimiyyətini muxtar respublikanın yuxarı icra orqanı olan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir. Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikası Ali Məclisinə tabedir və onun qarşısında hesabat verir. Nazirlər Kabinetinin tərkibinə Naxçıvan Muxtar Respublikasının Baş naziri, onun müavinləri, nazirlər və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər. Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi təsdiq edir. Naxçıvan Muxtar Respublikasının Baş nazirini Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təyin edir [104, s.32].

Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə yaşı 30-dan aşağı olmayan, Baş nazirin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanının rəhbəri vəzifəsinə isə yaşı 25-dən aşağı olmayan, ali təhsilli, seçkilərdə iştirak etmək hüququna malik, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.

Hakimiyyətin üçüncü istiqaməti olan Məhkəmə hakimiyyəti də Konstitusiyada öz əksini tapmışdır (IV fəsil, Maddə 43-46). Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, ümumi və ixtisaslaşdırılmış məhkəmələr həyata keçirirlər. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi muxtar respublika ərazisində apelyasiya qaydasında ədalət mühakiməsini həyata keçirir, Konstitusiya nəzarətini təmin edir. Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələri qanunla səlahiyyətlərinə aid edilmiş işlər üzrə birinci instansiya məhkəmələridir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Azərbaycan Respublikasının Prezidentinə verilmiş təklifi və Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir. Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələrinin hakimlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti təyin edir.

Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri və paytaxtı əvvəlki Konstitusiyalardan fərqli olaraq Yeni Konstitusiyanın son maddələrində deyil, "Ümumi müddəalar" adlanan ilk fəslinin son iki maddəsində (Maddə 9-10) əks olunmuşdur. Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhəridir. Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikasının digər normativ hüquqi aktları arasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir və Naxçıvan Muxtar Respublikası qanunvericilik sisteminin əsasını təşkil edir. Qanunvericilik sisteminə Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, qanunları, Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərmanları, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları və muxtar respublika mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları daxildir.

Konstitusiyanın VI fəsli Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklərə əlavələrin qəbul edilmə qaydaları ilə bağlıdır. Konstitusiyaya dəyişikliklər və əlavələr Naxçıvan Muxtar Respublikası Ali Məclisində 35 səs çoxluğu ilə qəbul edildikdən sonra təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir. Belə dəyişikliklər və əlavələr haqqında təklif Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2 dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 3 ay sonra keçirilir [104, s.45].

Konstitusiyaya əlavə edilmiş dörd keçid müddəasında 1998-ci il Əsas Qanunun qüvvəyə minməsindən sonra 1978-ci il Konstitusiyasının qüvvədən düşməsini elan edir, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçiriləcək yeni seçkilərlə bağlı və o dövrdə qüvvədə olan qanunların və digər normativ hüquqi aktların qüvvəsini saxlamasına dair məsələləri tənzimləyir.

Azərbaycan Respublikasının Konstitusiyası ilə bağlı keçirilən referendumlarda

edilən əlavə və dəyişikliklər, habelə müasir siyasi-hüquqi inkişaf tendensiyası Naxçıvan Muxtar Respublikası Konstitusiyasına da əlavə və dəyişikliklərin edilməsini zəruri etmişdi. 2005 və 2006-cı illərdə muxtar respublika Konstitusiyasına edilən əlavə və dəyişikliklərlə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin səlahiyyəti artırılmış, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) İnstitutu təsis olunmuş, 2009-cu il iyulun 30-da üçüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyası zamanı Konstitusiyanın 10 maddəsinə 20 əlavə və dəyişikliklər edilmişdir. Dəyişikliklərin mahiyyətini aşağıdakı şəkildə qruplaşdırmaq olar: **Birinci qrup** dəyişikliklər Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi ilə bağlıdır. Belə ki, Konstitusiyanın 5-ci maddəsinə təklif olunan yeni 11-ci bəndə əsasən Ali vəzifəli şəxs Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyətləri başçılarının vəzifəyə təyin və vəzifədən azad edilməsinə dair Azarbaycan Respublikasının Prezidentinə təqdimat verir. Bu müddəa Azarbaycan Respublikasının digər qanunvericilik aktlarında olsa da, Ali vəzifəli şəxsin səlahiyyəti ilə bağlı olduğundan Naxçıvan Muxtar Respublikası Konstitusiyasına da daxil edilməlidir.

Həmin maddəyə əlavə edilməsi nəzərdə tutulan yeni 12-ci bənd Ali vəzifəli şəxsin ali xüsusi rütbələrin verilməsinə dair təkliflər verməsini, 21 -ci bəndə edilən dəyişiklik isə Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltif edilməsinə dair təkliflər verməsini nəzərdə tutur. Təcrübədə istifadə olunan bu səlahiyyətlərin Konstitusiya normasına çevrilməsi mühüm əhəmiyyətə malikdir.

İkinci qrupa Ali Məclisin fəaliyyəti, iş qaydaları, qanunvericilik təşəbbüsü hüququ ilə bağlı dəyişikliklər daxildir. Konstitusiyanın 18-ci maddəsinə edilən əlavə ilə Ali Məclisin sessiyalarının açıq iclasla yanaşı, qapalı iclaslarının da keçirilməsi nəzərdə tutulur. Lakin qapalı iclaslar istənilən vaxt yox, Ali Məclisin 31 deputatının tələbi və ya Ali vəzifəli şəxsin təklifi ilə keçirilə bilər.

Konstitusiyaya təklif olunan digər bir dəyişiklik isə hakimiyyətin bölünməsi prinsipinin təkmilləşdirilməsi ilə bağlıdır. Əsas Qanunumuzun 19-cu maddəsində nəzərdə tutulmuş əlavəyə görə Ali Məclisin deputatı icra və məhkəmə hakimiyyəti sistemlərində qulluq etdikdə, din xadimi olduqda, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olduqda deputat mandatından məhrum edilməlidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik funksiyasını həyata keçirməyə yardım edən komissiyalarını, onun daxili fəaliyyətini təmin edən, lakin qanunvericilik funksiyası ilə əlaqəsi olmayan komissiyalardan fərqləndirmək məqsədilə Konstitusiyanın 22-ci maddəsinə dəyişiklik edilməklə Ali Məclisin fəaliyyətinin təkmilləşdirilməsinə xidmət edən yeni təsisatın – komitələrin yaradılması da təklif olunan maddələr arasındadır.

Konstitusiyanın 25-ci maddəsinə edilən əlavə Ali vəzifəli şəxsin təklifi ilə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin təyin

edilməsini Ali Məclisin həll etdiyi məsələlər sırasına daxil edir ki, bununla da həmin norma konstitusion status alır və qanunvericilikdəki boşluq aradan qaldırılır.

25-ci maddənin ikinci hissəsinə edilən dəyişikliklər də mühüm əhəmiyyətə malikdir. Belə ki, maddələrin mövcud variantda digər məsələlərlə yanaşı Ali Məclisin işinin təşkili (reqlament) və dövlət büdcəsinin təsdiqinə dair Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlar qəbul etməsi təsbit olunmuşdur. Bu isə həm mövcud praktikaya və qanunvericiliyə ziddir, həm də Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin ikinci hissəsinə uyğun deyildir. Təklif olunan dəyişikliklə qeyd edilən məsələlərə dair Ali Məclisin qanunlar qəbul etməsi nəzərdə tutulur.

Qeyd olunmuşdur ki, Konstitusiyanın 26-cı maddəsinə təklif olunan dəyişiklik Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququnun verilməsini nəzərdə tutur. Qanunvericiliyin tətbiqi ilə bağlı ortaya çıxan boşluqların, çatışmazlıqların aradan qaldırılması üçün Prokurorluğa verilən bu səlahiyyət çox əhəmiyyətlidir. Maddəyə əlavə edilən altıncı hissə qanunvericilik təşəbbüsündən istifadə edən subyektlər üçün əlavə məsuliyyət müəyyən etməklə, hazırlanan qanun və qərar layihələrini əsaslandırmağı və onların qəbul edilməsinin məqsədlərini göstərməyi tələb edir.

Üçüncü qrupa məhkəmə hakimiyyətinin fəaliyyətinin təkmilləşməsinə xidmət edən dəyişikliklər daxildir. Belə ki, qüvvədə olan qanunvericiliyə görə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi apelyasiya instansiyası funksiyalarını həyata keçirir. Bu isə Konstitusiyada öz əksini tapmamışdır. Qanun layihəsində Konstitusiyanın Ali Məhkəməyə aid olan 44-cu maddəsinin birinci hissəsində Ali Məhkəmənin nəzarət funksiyasının çıxarılması və onun yalnız ümumi və ixtisaslaşdırılmış məhkəmələrin işləri üzrə apelyasiya instansiyası məhkəməsi kimi təsbit olunması təklif edilir. Qeyd edilən dəyişiklik son dövrdə həyata keçirilmiş məhkəmə islahatlarının mahiyyətinə tam uyğundur.

44-cu maddəyə əlavə edilən yeddinci hissə isə Ali Məhkəmənin qərarlarının dərc edilməsini nəzərdə tutur. Ali Məhkəmə mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır, eyni zamanda Naxçıvan Muxtar Respublikasında Konstitusiya nəzarətini həyata keçirir, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir. Bu baxımdan Ali Məhkəmənin qərarları digər məhkəmələr və ictimaiyyət üçün böyuk əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyətini tənzimləyən 46-cı maddəyə edilən dəyişiklik də zərurətdən irəli gəlmişdir. Hazırda prokurorluğun nəzarət funksiyaları yalnız ibtidai istintaqa, tədqiqata və əməliyyat-axtarış fəaliyyətinə şamil edilir.

Dördüncü, texniki xarakterli dəyişikliklərdir ki, onlar da Konstitusiyada işlənən müddəaların, ayrı-ayrı ifadələrin dəqiqləşməsinə yönəldilmişdir (Konsti-

tusiyanın giriş hissəsinə, 1-ci və 43-cü maddələrinə edilən dəyişiklik və əlavələr). Burada da məqsəd Konstitusiyanın mətnini daha da təkmilləşdirməkdir.

Ümumilikdə, Konstitusiyaya təklif olunan hər bir dəyişiklik muxtar respublikada inkişafın davamlılığının təmin edilməsinə, dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılmasına, demokratik prinsiplərin inkişafına yönəlmişdir.

2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanunu ilə isə Ali vəzifəli şəxsin səlahiyyətləri artırılmış, Naxçıvan MR Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Həm bu, həm də 2011-ci il noyabrın 15-də muxtar respublika Konstitusiyasına edilən dəyişikliklərlə məhkəmə hakimiyyətinin fəaliyyəti təkmilləşdirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin, ümumi və ixtisaslaşdırılmış məhkəmələrin hakimlərinin təyin edilməsi proseduru dəqiqləşdirilmişdir.

Əsas Qanunda ilk dəfə olaraq muxtar respublika rəhbərinə konstitusion səviyyədə xarici siyasətlə bağlı müəyyən hüquqlar verilir. Belə ki, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinə Konstitusiyanın 5-ci maddəsinin 8-ci bəndində Naxçıvan Muxtar Respublikasını xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla, habelə başqa fiziki və hüquqi şəxslərlə münasibətdə təmsil etmək, həmin maddənin III hissəsində isə Naxçıvan Muxtar Respublikasının mənafeləri ilə bağlı iqtisadi və mədəni məsələlərdə Naxçıvana Muxtar Respublikanın Konstitusiyası və Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasını təmsil etmək səlahiyyəti verilmişdir.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının qəbulu, ona əlavə və dəyişikliklərin edilməsi zamanın, ictimai-siyasi həyatın tələbi kimi ortaya çıxdı və bunlar vaxtında müzakirə olunaraq qəbul edildi.

3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsi

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etməsi və yeni Konstitusiyasını qəbul etməsi ölkədə demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu üçün hüquqi əsas yaratdı. 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikası parlamentinə mojaritor və proporsional sistemlə ilk seçkilər keçirildi [5, s.351]. Həmin gün Naxçıvan MR Ali Məclisinə də demokratik seçkilər keçirildi. Seçki dairələrində 45 nəfərə qarşı 153 nəfər deputatlığa namizədliyini irəli sürdü [96, s.2-8]. Keçirilən seçkidə 36 seçki dairəsi üzrə seçkilər baş tutdu. Muxtar respublikada səsvermə hüququ olan vətəndaşlardan 176236 nəfər, yəni ümumi seçicilərin 89,9 faizi iştirak etdi [106, s.501]. 8 seçki dairəsində seçkilər baş tutmadığından təkrar seçkilər noyabrın 26-da keçirildi.

1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

birinci sessiyası oldu. Sessiyada digər məsələlərlə yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin seçilməsi məsələsinə baxıldı. Naxçıvan Muxtar Respublikası Baş nazirinin xarici iqtisadi əlaqələr üzrə birinci müavini Vasif Talıbov yekdilliklə Ali Məclisin sədri seçildi.

1995-2000-ci illərdə Naxçıvan MR Ali Məclisinin 7 sessiyası keçirildi. Burada muxtar respublikanın dövlət quruculuğu, büdcə və maliyyə məsələləri, ictimai-siyasi, sosial-mədəni inkişaf və başqa mühüm əhəmiyyətli məsələlər müzakirə edildi və qərarlar qəbul edildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun problemlərin həlli istiqamətində gündəlik nəzarəti, qayğısı və köməkliyi muxtar respublikanın iqtisadiyyatının, sənayesinin, sosial sahələrin, tikinti, abadlıq işlərinin aparılmasına, infrastrukturun digər sahələrinə əsaslı təsir etdi, həlli çatmış problemlərin, çətinliklərin tez bir zamanda operativ həll edilməsinə zəmin yaratdı, muxtar respublika inkişaf və tərəqqi yollarında inamla addımlamağa başladı.

2000-ci ilin noyabrında Azərbaycan Respublikasında yeni parlament seçkiləri təşkil olundu. Mərkəzi Seçki Komissiyasında 17 siyasi partiya və bir seçki bloku qeydiyyatdan keçdi. Demokratik konqresə üzv partiyaların demək olar ki, hamısı seçkilərdə iştirak etdi. Xalqın fəal iştirakı ilə 2000-ci il noyabrın 5-də keçirilən parlament seçkiləri nəticəsində Azərbaycan Respublikasının yeni parlamenti yarandı və qanunvericilik fəaliyyətinə başladı [5, s.380].

Naxçıvan MR Ali Məclisi Sədrinin 31 iyul 2000-ci il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər 2000-ci il noyabr ayının 5-nə təyin edildi. Milli Məclisə keçirilən seçkilərdə Naxçıvan MR-in ərazi vahidləri üzrə 5 seçki dairəsi, Naxçıvan MR Ali Məclisinə keçirilən seçkilər üzrə isə 45 seçki dairəsi yaradıldı. 210 min seçicini əhatə edən 259 seçki məntəqəsi yaradıldı [106, s.524]. 5 seçki dairəsində 16, 45 seçki dairəsində isə 95 nəfərin namizədliyi qeydə alındı.

Seçki günü seçici siyahılarında 209412 nəfər seçici olmuş, onlardan 164892-si yaxud 78,7 faizi seçkilərdə iştirak etdi. Naxçıvan MR Ali Məclisinə seçkilərin nəticələrini Naxçıvan MR Ali Məhkəməsi 20 noyabr 2000-ci il, Naxçıvan MR MSK 21 noyabr 2000-ci il tarixli qərarları ilə 45 birmandatlı dairə üzrə deputatların seçildiyini təsdiq etdi [119, 2000, 22 noyabr].

2000-ci il dekabrın 7-də ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçirildi. Sessiyada Vasif Talıbov ikinci dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildi. 1995-2000-ci illərdə Naxçıvan Muxtar Respublikasına rəhbərlik etmiş Vasif Talıbovun məqsədyönlü, düşünülmüş, səriştəli idarəetmə taktikası, prinsipial mövqeyi, dövlətçiliyə sədaqəti, bacarığı və enerjisi, Naxçıvan diyarının ərazi bütövlüyünün qorunub möhkəmləndirilməsi məsələlərini bacarıqla həll etməsi onun həmin vəzifəyə yekdilliklə seçilməsi ilə nəticələndi. Sessiyada Naxçıvan Muxtar Respublikasının 2001-ci il Dövlət büdcəsi

təsdiq edildi, Ali Məclisin 6 daimi komissiyası yaradıldı [119, 2000, 9 dekabr].

2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altı sessiyası keçirilmiş, burada muxtar respublikanın daxili həyatı, dövlət quruculuğu, ictimai-siyasi, sosial-iqtisadi inkişafı, Dövlət büdcəsi və onun icrası haqqında və başqa məsələlər müzakirə edilmişdir. 2003-cü il yanvarın 7-də ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasında "2003-cü ilin Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev ili elan edilməsi haqqında" qərar qəbul edildi. Qərarda deyilir: "Xalqımızın əvəzedilməz liderinin 35 ilə yaxın bir müddətdə Azərbaycanın rəhbəri kimi siyasi fəaliyyəti, milli və müstəqil dövlət quruculuğu təcrübəsi müasir tariximizin ən mühüm mərhələsini təşkil edir... Tarixdə tək-tək şəxsiyyətlərə qismət olubdur ki, xalqının sonsuz və dərin məhəbbətini qazana bilsin, həyatı, əməlləri öz ölkəsinin həyatı ilə bağlı olsun, vəhdət təşkil etsin. Möhtərəm Heydər Əliyevin dövlət quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər, daim xalqının milli maraqlarından çıxış etməsi, beynəlxalq sistemdə cüzi dəyişikliyi belə nəzərə almağı bacaran planetar təfəkkür sahibi olması onu nəinki iyirminci yüzilliyin, eyni zamanda iyirmi birinci yüzilliyin də dahi şəxsiyyəti kimi bütün dünyaya tanıtmışdır. Azərbaycan xalqı qarşısında tarixi xidmətlərini və anadan olmasının 80 illiyini nəzərə alaraq... 2003-cü il Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev ili elan edilsin" [119, 2003, 9 yanvar].

2004-cü il yanvarın 6-da ikinci çağırış Naxçıvan Muxtar Respublika Ali Məclisinin beşinci sessiyasında Heydər Əliyev ili elan edilən 2003-cü ilin əsas yekunları təhlil edildi. "2003-cü ildə muxtar respublikada cari qiymətlərlə 610 milyard manata yaxın, yaxud 2002-ci illə müqayisədə 16 faiz artıq ümumi məhsul istehsal edilmişdir" [119, 2004, 8 yanvar]. 300-ə qədər yeni sosial obyektlər istifadəyə verildi və ya əsaslı bərpa edildi, ordu quruculuğu sahəsində ciddi işlər görüldü, tikinti-energetika kompleksi hərəkətə gətirildi, geniş abadlıq və quruculuq tədbirləri davam etdirildi, suvarma-meliorasiya işləri artırıldı.

Üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilərin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 iyul 2005-ci il tarixdə sərəncam imzaladı və Azərbaycan Milli Məclisinə seçkilər 2005-ci il noyabrın 6-na təyin edildi. Bu sərəncama uyğun olaraq Naxçıvan MR Ali Məclisi sədrinin 25 iyul 2005-ci il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər də 2005-ci il noyabr ayının 6-na təyin edildi. Milli Məclisə keçirilən seçkilərdə Naxçıvan MR-in ərazi vahidləri üzrə 7 seçki dairəsi, Naxçıvan MR Ali Məclisinə keçirilən seçkilər üzrə isə 45 seçki dairəsi yaradıldı.

Hələ 7 iyun 2005-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində seçkilərə hazırlıqla bağlı qarşıda duran vəzifələr geniş müzakirə olundu. Ali Məclisin sədri Vasif Talıbov Azərbaycanın digər bölgələrindən fərqli olaraq Naxçıvanda 6 noyabrda həm ölkə Parlamentinə, həm də Muxtar Respublika Ali Məclisinə seçkilərin keçiriləcəyini xatırlatdı, bu şərəfli və məsuliyyətli siyasi

tədbirin yüksək səviyyədə, tam demokratik şəkildə, qanunvericiliyə uyğun qaydada təşkilini bütün aid qurumların qarşısında qəti vəzifə kimi qoydu. 9 iyul 2005-ci il tarixdə 2-ci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan MR Qanunu qəbul olundu. 13 fəsildən, 105 maddədən ibarət bu qanunda [107, s.187-282] ümumi, bərabər, azad, gizli, birbaşa seçki prinsipləri təsbit olundu, bunun üçün müvafiq hüquqi baza yaradıldı. Ali Məclisin həmin sessiyasında Naxçıvan Muxtar Respublikası MSK-nın hamısı bitərəf olmaqla 7 nəfərdən ibarət yeni tərkibi də təsdiq edildi.

Azərbaycan Milli Məclisinə 7 dairə üzrə 42 namizəd qeydə alınmış, seçkilərdə 32 namizəd iştirak etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə 45 dairə üzrə müxtəlif siyasi partiyalara mənsub, yaxud bitərəf olan 145 namizəd qeydə alınmışdı.

Ölkə Prezidenti İlham Əliyevin imzaladığı "Seçki praktikasının təkmilləşdirilməsinə dair" 11 may 2005-ci il və "Azərbaycan Respublikası Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" 25 oktyabr tarixli sərəncamları seçkilərin azad, şəffaf və demokratik keçirilməsinə, seçicilərin öz iradələrini sərbəst şəkildə ifadə etmələrinə imkan yaratdı.

Azərbaycanda keçirilən parlament seçkilərində ilk dəfə olaraq "exit-poll"un təşkili ilə əlaqədar müddəalara da xüsusi diqqət yetirildi.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının məlumatına görə 125 seçki dairəsi üzrə 5137 seçki məntəqəsi yaradılmış və həmin məntəqələr üzrə 4 milyon 660 min seçici qeydə alınmışdır.

Naxçıvan Muxtar Respublikası üzrə Azərbaycan Respublikasının Milli Məclisinə 7 seçki dairəsi üzrə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 45 seçki dairəsi üzrə 275 mülki və 23 qapalı seçki məntəqələri yaradıldı ki, bu seçki məntəqələrində də 236441 nəfər seçici siyahılarına daxil edildi [107, s.19].

Naxçıvan Muxtar Respublikasında seçki dairələri üzrə seçicilərdən 137143-ü, yəni 58,1 faizi seçkilərdə iştirak etdi. Ölkəmizin seçki tarixində ilk dəfə olaraq keçirilən "exit-poll"un nəticələri Mərkəzi Seçki Komissiyasının nəticələri ilə üst-üstə düşdü. Azərbaycan üzrə "exit-poll" keçirilmiş 65 dairədən 58-də, Naxçıvan MR-də isə seçki dairələrinin hamısında ümumi göstərici mərkəzi Seçki Komissiyasının ilkin nəticələri ilə adekvat idi.

Seçkinin nəticələrinə görə dairələrin böyük əksəriyyətində YAP təmsilçiləri qalib gəldi. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində deputat yeri əldə etmiş 45 nəfərdən 39-u (86,7 faiz) YAP-ı, 2-si (4,4 faiz) AXCP-ni təmsil edir. Seçilmiş deputatlardan 4-ü (8,9 faiz) isə bitərəfdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi 21 noyabr 2005-ci il tarixdə 45 seçki dairəsi üzrə seçkilərin nəticələrini bütövlükdə təsdiq etdi.

2005-ci il noyabrın 28-də üçüncü çağırış Naxçıvan Muxtar Respublikası

Ali Məclisinin I sessiyası keçirildi. Sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, sədrin müavinlərinin, Daimi Komissiya sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi, 2006-cı il Dövlət büdcəsinin təsdiqi, "Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu və digər məsələlər təsdiq edildi [119, 2005, 29 noyabr]. Heydər Əliyev dövlətçilik məktəbinin layiqli yetirməsi, tanınmış ictimai-siyasi xadim Vasif Talıbov yenidən – üçüncü dəfə açıq səsvermə yolu ilə yekdilliklə Muxtar Respublika Ali Məclisinin sədri seçildi.

Üçüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquz sessiyası keçirilmiş, bu sessiyalarda muxtar respublikanın iqtisadi həyatı, müxtəlif illərdə (2005-2010-cu illərdə) Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları, İnsan hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) seçilməsi, Ombudsmanın hesabatları, müxtəlif illər üzrə Dövlət büdcəsinin təsdiqi və icrası vəziyyəti kimi məsələlər müzakirə edilmiş, qərarlar qəbul edilmişdir.

2006 və 2007-ci illərdə muxtar respublikada çox böyük quruculuq tədbirləri həyata keçirilmiş, ümumi daxili məhsul 2005-ci illə müqayisədə 2006-cı ildə 27 faiz artmış (405657 min manat təşkil etmişdir), 29 istehsal müəssisəsi fəaliyyətə başlamış, sənaye istehsalının həcmi müvafiq olaraq 64 faiz artmış (70444 min manat olmuşdur), 2006-cı ildə 8044 yeni iş yeri açılmış, 757 obyektdə tikinti, əsaslı təmir, yenidənqurma, bərpa və təmir işləri görülmüşdür [119, 2007, 11 yanvar]. 2007-ci il muxtar respublikada sənayenin, tikintinin, kənd təsərrüfatı, meliorasiya, kommunikasiya və sosial-mədəni sahələrin, maliyyə-bank sektorunun inkişafı baxımından da yaddaqalan olub. İl ərzində 793 obyektdə tikinti, əsaslı təmir, yenidənqurma və bərpa işləri aparılıb ki, bu da təxminən hər gün ərzində 2,5 obyektin istifadəyə verilməsi demək idi [6, 2009, 22 yanvar]. 2008-ci il Naxçıvan Muxtar Respublikasında "İnkişaf və tərəqqi" ili elan edilmişdir. Bu ildə muxtar respublikada ümumi daxili məhsul istehsalı 35,5 faiz artaraq 795764 min manat olmuşdur. Sənaye məhsulu istehsalı 26,7 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 11,5 faiz artmışdır. Ümumiyyətlə, 2008-ci ildə muxtar respublika üzrə müxtəlif təyinatlı 854 obyekt istifadəyə verilmiş, 91 obyektdə isə tikinti-quraşdırma və təmir işləri davam etdirilmişdir [119, 2009, 8 fevral].

Naxçıvan Muxtar Respublikasında 2009-cu il "Nizam-intizam ili" elan edilmişdir. Bu, təkcə əmək intizamının gücləndirilməsi kimi başa düşülməmiş, hər bir işçinin ona tapşırılan sahədə məsuliyyətinin gücləndirilməsi, işə və onun nəticəsinə şüurlu münasibət, idarəetmə və icra mədəniyyətinin artırılması kimi dərk edilmiş və tətbiq olunmuşdur [119, 2009, 29 dekabr]. Muxtar respublikada 2009-cu il ilk növbədə sosial-iqtisadi sahədə yeniləşmə və quruculuq tədbirlərinin daha da dərinləşməsi dövrü kimi yadda qalmışdır. 2004-2008-ci illər üzrə regionların sosial-iqtisadi inkişafı dövlət proqramının icrası ilə bağlı həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikada 37 mindən çox yeni, o

cümlədən 23675 daimi iş yeri açılmış, 1236 yeni istehsal və xidmət sahələri yaradılmış, 334 yeni sənaye müəssisəsi istifadəyə verilmişdir. Əgər 1995-ci ildə muxtar respublikada 56 sənaye müəssisəsi vardısa, ötən 15 il ərzində bu müəssisələrin sayı 420-yə çatmışdır. 2009-cu ildə ümumi daxili məhsulun həcmi 1 milyard ABŞ dolları səviyyəsini üstələmiş, adambaşına düşən həcmi isə 2435 manat təşkil etmişdir [6, 2009, 30 dekabr]. "Yeniləşmə ili" olan 2010-cu ildə də Naxçıvan Muxtar Respublikasında həyata keçirilən çoxşaxəli quruculuq tədbirləri ictimai həyatın bütün fəaliyyət istiqamətlərində əsaslı nailiyyətlərin əldə olunmasını təmin etmişdir. Məhz bu baxımdan hazırki dinamik inkişaf muxtar respublikanın tarixinin intibah mərhələsi kimi yaddaşlara həkk olunmaqdadır. Həyata keçirilən irimiqyaslı islahatların nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası iqtisadi fəallıq üzrə öz statusunu aqrar bölgədən sənaye regionuna dəyişməklə yeni imic qazanmışdır. Muxtar respublikanın təbii ehtiyatlarının və istehsal imkanlarının səfərbər edilməsi ilə iqtisadi və sosial inkişafda yeni uğurlu nəticələr əldə edilmişdir.

Muxtar respublikada həyata keçirilən quruculuq tədbirləri ilə yerindəcə tanış olan ölkə Prezidenti İlham Əliyev demişdir: "Naxçıvanda çox geniş quruculuq, abadlıq işləri aparılır, şəhər gözəlləşir, yeni binalar tikilir, köhnə binalar təmir edilir. Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla fəxr edə bilər. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvan rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm" [6, 2009, 5 avqust].

Dördüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 3 sentyabr 2010-cu il tarixdə sərəncam imzaladı və Azərbaycan Milli Məclisinə seçkilər 2010-cu il noyabrın 7-nə təyin edildi. Bu sərəncama uyğun olaraq Naxçıvan MR Ali Məclisi sədrinin 4 sentyabr 2010-cu il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər də 2010-cu il noyabr ayının 7-nə təyin edildi. Milli Məclisə keçirilən seçkilərdə Naxçıvan MR-in ərazi vahidləri üzrə 7 seçki dairəsi, Naxçıvan MR Ali Məclisinə keçirilən seçkilər üzrə isə 45 seçki dairəsi yaradıldı. Respublikada seçkilərin demokratik, şəffaf, azad və ədalətli keçirilməsi üçün həm seçki ərəfəsində, həm də təbliğat-təşviqat dövründə bir sıra tədbirlər həyata keçirildi. Aprel ayında Bakıda "Azərbaycanda 2010-cu il parlament seçkiləri: daha demokratik, daha şəffaf" mövzusunda beynəlxalq konfrans keçirildi. Respublikada seçki praktikasının daha da təkmilləşdirilməsi, beynəlxalq standartlara uyğunlaşdırılması və qabaqcıl dünya təcrübəsinin tətbiq olunması üçün Seçki Məcəlləsinə bir sıra əlavələr və dəyişikliklər edildi. Sentyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikasının Milli Məclisi və Naxçıvan MR-in Ali Məclisi seçkilərinə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirildi. Müşavirədə seçkilərin Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında"

Naxçıvan Muxtar Respublikası Qanununun tələblərinə uyğun təşkil edilməsi aid təşkilatlardan tələb edildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, muxtar respublika Mərkəzi Seçki Komissiyasının təşkilatçılığı və ATƏT-in Bakı ofisinin təşəbbüsü ilə Naxçıvanda "Seçki prosesinə qeyri-qanuni müdaxilənin yolverilməzliyi" mövzusunda sessiya keçirildi.

Azərbaycan Milli Məclisinə 125 dairə üzrə 690, o cümlədən Naxçıvan Muxtar Respublikasında 7 dairə üzrə 38 nəfər namizədliyini irəli sürdü. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə 45 dairə üzrə müxtəlif siyasi partiyalara mənsub, yaxud bitərəf olan 140 namizəd qeydə alındı. Azərbaycan Respublikasında yaradılmış 5414 seçki məntəqələri üzrə 4928594 seçici qeydə alınmış, bunlardan 2442365-i səsvermədə iştirak etmişdir (50,14 faiz).

Naxçıvan Muxtar Respublikası üzrə Ali Məclisə seçkilərin keçirilməsi üçün yaradılmış 316 seçki məntəqəsi üzrə 256317 nəfər seçici siyahısına daxil edilmiş, onlardan 174780-i, yəni 68,2 faizi səsvermədə iştirak etmişdir.

Səsvermənin gedişini 1000-dən artıq beynəlxalq müşahidəçi və 47 minə qədər yerli müşahidəçi izləmişdir. Naxçıvan Muxtar Respublikasının seçki məntəqələrində isə namizədlərin vəkil etdiyi 127 nəfər şəxs, 273 nəfər yerli müşahidəçi, həmçinin 33 nəfər beynəlxalq və 32 nəfər müxtəlif siyasi partiyaların müşahidəçiləri seçkilərin gedişini və səslərin hesablanmasını izləmişlər. 118 dairədə "exit-poll" həyata keçirilmiş, seçkilərin nəticələri elektron-seçki sistemi ilə hesablanmışdır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 29 noyabr 2010-cu il tarixdə 125 seçki dairəsi üzrə seçkilərin nəticələrini təsdiq etdi. Naxçıvan MR-in Ali Məhkəməsi 19 noyabr 2010-cu il tarixdə muxtar respublikada seçkilərin nəticələrini müzakirə edərək qəbul etdi. Beləliklə, Azərbaycan Respublikası Milli Məclisinə 125, Naxçıvan MR Ali Məclisinə 45 nəfərin deputatlığı qəbul edildi.

3 dekabr 2010-cu il tarixdə dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin I sessiyası keçirildi. Sessiyanın gündəliyində Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, sədr müavinlərinin, daimi komitələrinin sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi, "Naxçıvan Muxtar Respublikası Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu, 2011-ci il Dövlət büdcəsinin təsdiqi kimi məsələlər daxil edildi. Görkəmli ictimai-siyasi xadim, Naxçıvan Muxtar Respublikasının inkişafında müstəsna xidmətləri olan Vasif Talıbov yenidən – dördüncü dəfə yekdilliklə Muxtar Respublika Ali Məclisinin Sədri seçildi.

Ümumiyyətlə, dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on bir sessiyası keçirilmiş (2010-2015), bu sessiyalarda muxtar respublikanın müxtəlif illərdəki sosial-iqtisadi inkişafının yekunları, dövlət büdcələrinin təsdiqi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi, Naxçıvan MR-in İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı, Avropa

Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin məlumatı kimi məsələlər müzakirə edilmiş, uyğun qərarlar qəbul edilmişdir.

2012-ci ilin iyul və dekabr aylarında Naxçıvan MR Ali Məclisinin beşinci və altıncı sessiyaları keçirildi. "Milli dəyərlər ili" elan edilən 2012-ci ildə həyatın bütün sahələrində olduğu kimi, milli dəyərlər sahəsində də böyük nailiyyətlər əldə edilmiş, xalqımızın dili, adət-ənənəsi, mədəniyyəti, folkloru, xalq yaradıcılığı nümunələri qorunmuş və inkişaf etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunlarından bəhs edərək qeyd etmişdir ki, yola saldığımız ildə ötən dövrlərdə qazanılan nailiyyətlər daha da möhkəmləndirilmiş, əksər sahələr üzrə qarşıya qoyulmuş vəzifələr icra edilmiş, inkişafın artan dinamikası qorunub saxlanılmış, iqtisadi və sosial həyatın bütün sahələrində tərəqqiyə nail olunmuşdur [6, 2012, 25 dekabr]. 2012-ci ildə ümumi daxili məhsulun həcmi bir il öncəyə nisbətən 12 faiz artaraq 2 milyard 14 milyon manata çatmış, 796 milyon manatlıq sənaye, 316 milyon manatdan çox kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur [119, 2012, 23 dekabr].

Sessiyada müstəqil Azərbaycanın qurucusu olan ulu öndər Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar 2013-cü il Naxçıvan Muxtar Respublikasında "Heydər Əliyev ili" elan edilmişdir. Ali Məclisin Sədri vurğulamışdır ki, ümummilli liderin quruculuq konsepsiyası 2013-cü ildə - "Heydər Əliyev ili"ndə də muxtar respublikada inkişafın əsas hərəkətverici qüvvəsi olacaqdır.

Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında (2013, 23 iyul) 2013-cü ilin birinci yarısında Naxçıvan MR-in sosial-iqtisadi inkişafının yekunları və 2012-ci il dövlət büdcəsinin icrası müzakirə edilmiş və uyğun qərarlar qəbul edilmişdir. Dekabrın 28-də keçirilən səkkizinci sessiyada "Heydər Əliyev ili"ndə əldə edilən uğurlar təhlil edildi. Naxçıvanın inkişafdan intibaha qovuşması ilə xarakterizə olunan 2013-cü il düzgün idarəetmənin, vətən sevgisinin, yurd sahibliyinin nəticəsində əldə edilmişdir. "Heydər Əliyev ili"ndə Naxçıvan Muxtar Respublikasında sosial həyatın bütün sahələrində qazanılan uğurların başlıca səbəbi isə ulu öndərin yoluna sədaqət və bu yolun davam etdirilməsi olmuşdur. 2013-cü ildə muxtar respublikada ümumi daxili məhsulun həcmi 2.337 milyon manatdan çox olmuşdur ki, bu da bir il əvvəlki müvafiq göstərici ilə müqayisədə 10 faizdən çoxdur [6, 2014, 6 fevral].

2014-cü ilin iyun və dekabrında dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu və onuncu sessiyaları keçirildi. Sessiyalarda 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları, muxtar respublikanın 2015-ci il üçün dövlət büdcəsinin təsdiqi, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi, Naxçıvan MR-in İnsan

Hüquqları üzrə Müvəkkilinin hesabatı və digər məsələlərin müzakirəsi keçirilmişdir [119, 2014, 29 iyun; 28 dekabr].

"Muxtariyyət ili"ndə təhsil, mədəniyyət, səhiyyə, rabitə, energetika və digər sahələr də daxil olmaqla müasir tələblərə cavab verən yeni obyektlər istifadəyə verilmiş, yollar salınmış, körpülər tikilmiş, istehsal, xidmət sahələrinin yaradılması istiqamətində işlər davam etdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Naxçıvan Muxtar Respublikasına ümumilikdə 25 milyon manat vəsaitin ayrılması burada gedən quruculuq işinə böyük töhfə olmuşdur [46, 2014, 28 dekabr]. Əldə olunmuş nəticələr sosial-iqtisadi inkişafa davamlı xarakter vermişdir. 2014-cü ildə Ümumi Daxili Məhsulun həcmi 2388 milyon manatdan çox olmuşdur. Özəl bölmənin xüsusi çəkisi 87 faizə yüksəlmişdir. Muxtar respublikada 352 növdə məhsul istehsal edilmişdir. 892 milyon manatlıq sənaye, 355 milyon manatdan artıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur [119, 2014, 28 dekabr].

Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında (2015, 21 iyul) 2015-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları və 2014-cü il dövlət büdcəsinin icrası müzakirə edilmiş və uyğun qərarlar qəbul olunmuşdur. Sessiyada "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilmişdir.

Naxçıvana səfəri zamanı Azərbaycan Prezidenti demişdir: "Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır" [103, s.74].

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Milli Məclisinə, Naxçıvan MR Ali Məclisinə keçirilən seçkilər Seçki Qanununun tələblərinə uyğun demokratik, şəffaf və azad surətdə, seçicilərin yüksək fəallığı şəraitində keçirilmiş və ən layiqli namizədlər deputat seçilmişlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi muxtar respublikanın qarşısında duran vəzifələrin uğurla yerinə yetirilməsi üçün lazımi siyasi, sosial-iqtisadi və təşkilati tədbirləri həyata keçirmişdir.

4. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

4.1.Sosial-iqtisadi inkişafın səciyyəsi

Son illərdə Azərbaycanın bölgələrinin tarazlı və hərtərəfli inkişafında, iqtisadi fəallığın yüksəlməsində, iqtisadiyyatın rəqabət qabiliyyətinin artmasında, iş yerlərinin və yeni müəssisələrin yaradılmasında, əhalinin məşğulluğunun yaxşılaşmasında, ümumilikdə respublikanın dayanıqlı və sürətli inkişafının təmin olunmasında regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının icrası

mühüm əhəmiyyət kəsb edir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən siyasət iqtisadi tərəqqinin əsas amilinə, sistemli və dayanıqlı inkişafın dövlət tənzimlənməsinin mütərəqqi bir metoduna çevrilib. Bu siyasət respublikada sosial infrastrukturun, kommunal xidmət sektorunun, enerji və nəqliyyat sisteminin etibarlı təminatını, təhlükəsizliyini möhkəmləndirib. Regionların inkişafına dair həyata keçirilən proqramlar Azərbaycanın iqtisadi siyasətinin ümumi tərkib hissəsi olmaqla uzunmüddətli və davamlı inkişafa, gələcəyə hesablanmış "Yol xəritəsi"dir.

Əslində Azərbaycanın regionlarının inkişafının prioritetləri və bu siyasətin konturları ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf konsepsiyasına əsaslanır. Ümummilli lider Heydər Əliyev deyirdi ki, ölkənin sosial-iqtisadi inkişafı bilavasitə regionların tərəqqisi ilə bağlıdır. Regionların inkişafı ölkə iqtisadiyyatında həlledici rol oynayır.

Ulu öndər Heydər Əliyevin 1993-2003-cü illərdə həyata keçirilən uzaqgörən iqtisadi siyasəti regionlarda kənd təsərrüfatı, emal, sənaye və istehsal sahələrinin yaradılmasına, bölgələrin hərtərəfli inkişafına əlverişli zəmin yaratdı.

Ümummilli lider Heydər Əliyevin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" imzaladığı Fərman sosial-iqtisadi inkişafın konturlarının müəyyən edilməsində və birinci Dövlət Proqramının hazırlanmasında baza sənədi oldu. Sənəd respublikada sosial-iqtisadi inkişafın sürətləndirilməsi, Azərbaycanın hərtərəfli inkişafı və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsindən ibarət yeni sosial-iqtisadi inkişaf strategiyasını formalaşdırdı.

Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi altında işlənib hazırlanmış və ardıcıllıqla həyata keçirilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" bu dövrə aid vəzifələrin yerinə yetirilməsində həlledici mərhələ oldu.

2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, əhalinin rifahının yaxşılaşdırılmasına səbəb oldu, bununla da ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə çatmasına əhəmiyyətli töhfəsini verdi.

Ötən illərin təcrübəsi göstərir ki, ölkənin sosial-iqtisadi inkişafında prioritet kimi müəyyən edilmiş və neft-qaz gəlirlərindən səmərəli istifadə etməklə regional tarazlığın təmin edilməsində regional inkişaf üzrə Dövlət Proqramları mühüm rol oynayıb. Dövlət Proqramları çərçivəsində Azərbaycanın iqtisadi qüdrəti yüksəlib, ölkədə işgüzar fəallıq artıb, regionlarda sahibkarlıq fəaliyyəti daha da genişlənib, ölkəmizin bütün coğrafi hüdudlarını əhatə edən iri infrastruktur layihələri həyata keçirilib.

Dövlət Proqramlarının icrası ölkənin makroiqtisadi göstəricilərinin sürətlə yaxşılaşmasına səbəb olub, bu dövrdə (2004-2014-cü illər ərzində) Ümumi Daxili Məhsul (ÜDM) 3,2 dəfə, adambaşına ÜDM-in həcmi 2,8 dəfə, qeyri-neft sektoru

2,6 dəfə artmış və ölkəmizdə orta illik iqtisadi artım 12,9 faiz təşkil etmişdir. Strateji valyuta ehtiyatları 31 dəfə, xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, idxal 4,1 dəfə, qeyri-neft ixracı 4,7 dəfə [47, 2015, 18 aprel], dövlət büdcəsinin gəlirləri 16 dəfə, orta aylıq əmək haqqı 5,5 dəfə, pensiyalar 9,6 dəfə, əhalinin əmanətləri 27 dəfə artıb. Minimum əmək haqqının məbləği ötən on ildə 11,7 dəfə artıb, yoxsulluğun səviyyəsi 2003-cü ildəki 44,7 faizdən 2013-cü ildə 5,3 faizə düşüb [105, s. 11]. Hazırda Cənubi Qafqazın ümumi iqtisadiyyatının dörddə üçü Azərbaycanın payına düşür.

Son on bir ildə regionlara bütün mənbələr hesabına 55 milyard manatdan artıq vəsait yönəlib. Görülmüş tədbirlər nəticəsində ölkədə 1,2 milyondan çox yeni, o cümlədən 900 min daimi iş yeri açılıb, 55,6 min yeni müəssisə yaradılıb. İş yerlərinin 80 faizə yaxını regionların payına düşür.

Hazırda icrası davam etdirilən "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında müstəsna rol oynamaqdadır.

Prezident İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransdakı nitqində əldə olunan uğurlardan və qarşıda duran vəzifələrdən bəhs edərək demişdir: "Azərbaycanda keçən il ərzində bütün işlər müsbət istiqamətdə getmişdir. Azərbaycan inamla irəliyə gedir, dayanıqlı inkişaf təmin edilmişdir. Regionlar sürətlə inkişaf edir. Bu gün dünyada nadir Azərbaycan inkişaf modeli var. Artıq biz bu barədə də danışa bilərik, çünki bu model, doğrudan da bir nümunə kimi hər bir ölkə üçün maraqlı olmalıdır. Siyasi, iqtisadi islahatlar müstəqil siyasət, dinlərarası dialoq, yüksək səviyyəli milli-dini tollerantlıq, dözümlülük, sosial-siyasət və görülən işlər göz qabağındadır...Azərbaycan bundan sonra da uğurla inkişaf edəcəkdir" [6, 2015, 28 yanvar].

Naxçıvan Muxtar Respublikasının iyirmi illik inkişaf dövrünün yarısından çoxu regionların sosial-iqtisadi inkişaf dövrünə təsadüf edir. Bütünlükdə Naxçıvan Muxtar Respublikasının son iyirmi ildəki sosial-iqtisadi inkişafı böyük inkişaf və tərəqqi illəri, inkişafdan intibaha qədər yol kimi səciyyələndirilir [6, 2015, 14 yanvar]. Bu illərdə muxtar respublikada gedən quruculuq, abadlıq işlərinin, iqtisadiyyatda, mədəni həyatda, insanların güzəranında baş verən dəyişikliklərin kökündə bir tərəfdən Heydər Əliyev yoluna, siyasi və nəzəri irsinə sədaqət, ikinci tərəfdən isə düzgün idarəetmə dayanır. Bu dövrdə muxtar respublikanın daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəli istifadə olunmuş, 1996-cı ildən başlanan sabitləşmə, dönüş və inkişaf konsepsiyası iqtisadi və sosial müstəvidə yüksələn xətlə davam etdirilmiş, iqtisadiyyatda müsbət meyllər daha da möhkəm-

ləndirilmişdir.

Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə burada iqtisadiyyatın mühüm sahələrinin dirçəldilməsi, genişmiqyaslı islahatların həyata keçirilməsi, işgüzar mühitin yaradılması sahəsində böyük işlər görüldü. Keçirilən iclaslarda xalq təsərrüfatının ayrı-ayrı sahələrindəki vəziyyət mütəmadi müzakirə olunur, problemlərin həlli üçün vəzifələr müəyyənləşdirilir və onların aradan qaldırılması üçün konkret tədbirlər görülürdü. İcra orqanlarının, idarəetmə strukturlarının işə məsuliyyətli münasibəti artırılır, onlara əməli köməklik göstərilirdi. Xalq təsərrüfatının bütün sahələrinə ciddi diqqət yetirilir, quruculuq və abadlıq işləri geniş vüsət alırdı.

Muxtar respublikada 1995-2015-ci illərdə aparılan quruculuq tədbirləri, iqtisadi və sosial sahələrdəki irəliləyişlər diyarı Azərbaycanın ən qabaqcıl, inkişaf etmiş bölgəsinə çevirmişdir. Sənayedə, tikintidə, kənd təsərrüfatında, iqtisadiyyatda, sosial həyatın bütün sahələrində analoqu olmayan uğurlar qazanılmışdır.

Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevin yolunun uğurla davam etdirilməsi nəticəsində Naxçıvan tamamilə dəyişilmiş, yenidən qurulmuş, alınmaz bir qalaya çevrilmişdir. Ali Məclis Sədrinin ümummilli liderimizin dövlətçilik ideyalarına sədaqəti, ardıcıl və yorulmaz fəaliyyəti sayəsində regionda əldə edilmiş mühüm nəticələr əslində Azərbaycanın tərkibində yeni bir Naxçıvanı ərsəyə gətirmişdir.

Ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə müəyyən etdiyi siyasi kurs ölkə Prezidenti İlham Əliyevin Heydər Əliyev ideyalarına sədaqəti və yaradıcılıqla həyata keçirməsi, Ali Məclisin Sədri Vasif Talıbovun səfərbəredici və təşəbbüskar rəhbərliyi Naxçıvanın hərtərəfli inkişaf və tərəqqisini təmin etmişdir. Naxçıvan diyarındakı sürətli və hərtərəfli inkişaf Ali Məclis Sədrinin ardıcıl və yorulmaz fəaliyyətinin, məqsədyönlü və qətiyyətli mövqeyinin, fədakar işinin konkret və uğurlu nəticəsidir. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında çox böyük uğurlar əldə edilmişdir. Problemlərə bələdlik, insanlarla işləmək qabiliyyəti, torpaq və vətən sevgisi, sözlə işin, əməllə əqidənin birliyi Vasif Talıbovu xalqın gözündə ucaltmış, ona inam və yüksək hörmət yaratmışdır. Ölkə Prezidenti İlham Əliyev Naxçıvana hər səfərində burada görülən işlərdən, həyata keçirilən tədbirlərdən razı qaldığını dönə-dönə qeyd etmişdir: "Mən hər il Naxçıvanda oluram və hər dəfə Naxçıvanda gördüyüm dəyişikliklər məni ürəkdən sevindirir, çox sevindirir. Naxçıvan ən müasir şəhərə çevrilibdir. Naxçıvan Muxtar Respublikasında ən müasir infrastruktur yaradılır, sosial obyektlərin tikintisi geniş vüsət alıbdır... Bütün bunlar muxtar respublikanın iqtisadi və sənaye potensialını gücləndirir... Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla fəxr edə bilər. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvanın rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm" [6, 2009, 5 avqust].

Naxçıvan Muxtar Respublikasında 1995-2015-ci illər sosial-iqtisadi inkişaf baxımından mühüm mərhələ təşkil edir. Bu dövrdə Ermənistan tərəfindən blokadada saxlanılmasına baxmayaraq, muxtar respublika dinamik inkişaf etmiş, həyatın və xalq təsərrüfatının bütün sahələrində əsaslı uğurlar əldə edilmiş, iqtisadiyyatdakı müsbət meyillər daha da inkişaf etdirilmişdir.

Muxtar respublikada iqtisadi islahatların həyata keçirilməsi, dövlət büdcəsinin sabitləşməsi, vergi-bank sisteminin təkmilləşdirilməsi, iqtisadiyyatın idarə olunması sahəsində islahatların həyata keçirilməsi dövlət vəsaitinə xeyli qənaət olunmasına və dövlət büdcəsinin mədaxil hissəsinin yerinə yetirilməsinə müsbət təsir göstərmişdir. 1996-98-ci illərdə muxtar respublika büdcəsinin mədaxil hissəsi plandan artıq, məxaric hissəsi isə qənaətlə yerinə yetirilmişdir [19, 1999, №21-22, s.82].

Sonralar aparılan iqtisadi islahatlar büdcə daxilolmalarına müsbət təsir göstərmişdir. Muxtar respublikanın dövlət büdcəsinə 2005-ci ildə bütün mənbələr hesabına 21,0 milyon manat vəsait daxil olmuşdur ki, bu da 2000-ci ildə olduğundan 16,8 milyon manat, yaxud 5 dəfə çoxdur [88, s.59]. 2009-cu ildə isə dövlət büdcəsinə nəzərdə tutulan 28,5 milyon manatdan 2,3 dəfə çox, yəni 65,9 milyon manat vəsait daxil olmuşdur. Ümumi Daxili Məhsul 1994-cü ildəki 37.287,7 min manatdan 2009-cu ildə 973.649,3 min manata yüksəlmişdir, yəni 26,1 dəfə artmışdır. Ümumi Daxili Məhsulun həcmi 2010-cu ilin 6 ayında 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə 20,8 faiz artaraq 512 milyon manatdan çox olmuşdur. Muxtar respublikada ilk dəfə olaraq 2009-cu ildə Ümumi Daxili Məhsulun həcmi 1 milyard ABŞ dolları səviyyəsini ötmüşdür [136, s.6]. Həmin dövrdə adambaşına düşən Ümumi Daxili Məhsulun həcmi isə 21,5 dəfə çoxalaraq 113,4 manatdan 2434,7 manata çatmışdır [136, s.6]. 2011-ci ildə Ümumi Daxili Məhsulun həcmi 1995-ci ilə nisbətən 38 dəfə artmışdır [63, s.5]. 2010-cu ildə iqtisadiyyatın əsas sahələrinin inkişafı istiqamətində həyata keçirilmiş məqsədyönlü tədbirlər öz bəhrəsini vermiş, əldə olunmuş uğurlu nəticələr sosial-iqtisadi inkişafı xarakterizə edən və əsas makroiqtisadi göstərici olan Ümumi Daxili Məhsulun həcminin artmasına zəmin yaratmışdır. Özündə ciddi nəticələr əks etdirən bu artımın səciyyəvi xüsusiyyətləri ondan ibarətdir ki, 2010-cu ildə muxtar respublikanın tarixində ilk dəfə olaraq Ümumi Daxili Məhsulun həcmi 1 milyard manat səviyyəsini keçmişdir [137, s.5]. Bu göstərici əvvəlki illə müqayisədə 17 faiz artaraq 1 milyard 171 milyon manata, onun hər bir nəfərə düşən həcmi isə 18 faiz artaraq 2883 manata çatmışdır [137, s.5].

2014-cü ildə Ümumi Daxili Məhsulun həcmi 2013-cü illə müqayisədə 1,3 faiz artaraq 2 milyard 391 milyon manatdan çox olmuşdur. Onun hər bir nəfərə düşən həcmi 5465,2 manat təşkil etmişdir [141, s.5]. Ötən dövrlər ərzində muxtar respublikada qəbul olunmuş mühüm dövlət proqramlarının uğurlu icrası nəticəsində iqtisadiyyatın diversifikasiyasına, kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılmasına, məşğulluğun artırılmasına nail olunmuşdur. Əldə

olunmuş sosial-iqtisadi inkişaf səviyyəsini qorumaq və daha da möhkəmləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir [119, 2014, 2 sentyabr].

Sosial-iqtisadi inkişaf sahəsində qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin uğurla icra edilməsi makroiqtisadi göstəricilərin daha da yaxşılaşmasına, sahibkarlığın və özəl sektorun inkişafına, investisiya qoyuluşlarının artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, sosial infrastruktur təminatının güclənməsinə, əhalinin məşğulluğunun və həyat səviyyəsinin yüksəlməsinə təkan vermişdir. Nəticədə, sosial-iqtisadi inkişafla bağlı qəbul edilmiş dövlət proqramlarının icrası nəticəsində muxtar respublika iqtisadiyyatı inkişafın yeni mərhələsinə yüksəlmişdir.

4.2. Sənayenin inkişafı. Yeni sənaye sahələrinin yaradılması

1990-95-ci illərdə muxtar respublikada sənaye müəssisələrinin əksəriyyəti öz fəaliyyətini dayandırmış, 90-cı illərin ortalarında muxtar respublikada 56 sənaye müəssisəsi mövcud olmuşdur. Ancaq 1996-97-ci illərdən başlayaraq aparılan ardıcıl və məqsədyönlü fəaliyyət nəticəsində muxtar respublikada iqtisadi inkişafda yeni mərhələyə qədəm qoyulmuş, sənaye müəssisələrinin istehsal fəaliyyəti tədricən bərpa olunmağa başlamışdır. Muxtar respublika rəhbərliyinin bu sahəyə ciddi diqqət yetirməsi sayəsində 1999-cu ildə muxtar respublikada 163 sənaye müəssisəsi fəaliyyət göstərmiş [111, s.111], sənaye müəssisələrində 2883,9 min manatlıq məhsul istehsal edilmiş, 15 adda məhsul istehsalı təmin olunmuşdur. 2000-2005-ci illər ərzində muxtar respublika sənayesində 229 yeni təsərrüfat subyektinin fəaliyyətə başlaması öz növbəsində bu dövr ərzində sənaye məhsulu həcminin üç dəfə artmasına zəmin yaratmışdır [127, s.10]. Nəticədə muxtar respublikada sənaye məhsulunun həcmi 2004-cü ildə 25,6 milyon manat [23, s.65], 2005-ci ildə isə 41,2 milyon manat olmuşdur [127, s.10]. Bu da 2000-ci illə müqayisədə üç dəfə çoxdur. Sənaye məhsulu həcminin artması mövcud istehsal müəssisələrinin öz fəaliyyətini bərpa etməsi ilə yanaşı, həm də yeni istehsal müəssisələrinin istifadəyə verilməsi nəticəsində mümkün olmuşdur. Belə ki, təkcə 2005-2006-cı illərdə 44 istehsal müəssisəsi fəaliyyətə başlamışdır. 2005-ci ildə sənayedə çalışanların sayı 3,3 min, 2007-ci ildə isə 5,9 min nəfərə çatmışdır. 2007-ci ildə 32, 2008-ci ildə isə 37 sənaye müəssisəsi məhsul istehsal etməyə başlamışdır. 2006-cı ildə 70,4, 2007-ci ildə isə 122,7 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir [24, s.65]. 2008-ci ildə muxtar respublikada 164,5 milyon manatlıq sənaye məhsulu istehsal olunmuşdur ki, bu da 2007-ci ildə istehsal olunan 122,7 milyon manatlıq məhsuldan müqayisəli qiymətlərlə 26,7 faiz çoxdur [135, s.5-6].

Həyata keçirilən məqsədyönlü islahatların nəticəsində sənaye muxtar respublikada dinamik inkişaf edən sahələrdən birinə çevrilmişdir. Sənaye müəssisə-

lərinin işinin bərpası, istehsal olunan məhsulun həcminin və çeşidinin artırılması istiqamətində aparılan tədbirlərin uğurlu nəticəsi kimi 2009-cu ildə 212,5 milyon manatlıq məhsul istehsal edilmişdir ki, bu da 2008-ci ildəki göstəricini 24,5 faiz üstələmişdir.

Sənaye sahəsində həyata keçirilən irimiqyaslı islahatların uğurlu yekunudur ki, 1995-2010-cu illərdə muxtar respublikada 364 yeni sənaye müəssisəsi işə başlamışdır. Əgər 1996-cı ilin əvvəlində muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, 2010-cu ilin sonunadək bu müəssisələrin sayı 423-ə (11 dəfə çox) çatmışdır. 2010-cu ildə sənaye sektorunda 24 istehsal sahəsi yaradılmışdır. 2009-cu ildə muxtar respublikada 239 adda sənaye məhsulu istehsal edilir. İstehsal edilmiş sənaye məhsulunun ümumi dəyəri 212,5 milyon manat olmuş [136, s.7], 62,2 milyon ABŞ dolları dəyərində sənaye məhsulları xarici ölkələrə və respublikanın digər bölgələrinə ixrac olunmuşdur ki, bu da 2008-ci illə müqayisədə 2,9 dəfə çoxdur. 2010-cu ildə muxtar respublikada 318,6 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 2009-cu illə müqayisədə 44 faiz çoxdur [119, 2011, 29 yanvar]. Sənaye məhsulu həcminin 91 faizini istehsal, 9 faizini isə xidmət sahələri təşkil etmişdir. Sahibkarlığın inkişafına, qeyri-dövlət sektorunun davamlı yüksəlişinə yönəlmiş kompleks tədbirlərin nəticəsidir ki, istehsal olunan sənaye məhsulunun 88 faizi, yaxud 279,5 milyon manatı özəl sektorun payına düşmüşdür ki, [137, s.7] bu da 2009-cu illə müqayisədə 50 faiz çoxdur.

Yeni sənaye müəssisələrinin yaradılması həm istehsal olunmuş yeni məhsul növlərinin, həm də bu sektorda işləyən işçilərin say tərkibinin artmasına ciddi təsir göstərmişdir. Belə ki, əgər 1988-ci ildə muxtar respublikanın sənaye müəssisələrində 1620 işçi çalışırdısa, 2010-cu ildə bu göstərici 8 dəfə artaraq 12855-ə çatmışdır [119, 2011, 29 yanvar].

Naxçıvan Muxtar Respublikası iqtisadiyyatında prioritet sahə kimi qəbul edilən sənaye aparıcı rola malikdir. Muxtar respublikada əhali tərəfindən daha çox tələb olunan əmtəələri istehsal edən sahələrdə bazara uyğunlaşa bilən yeni və müxtəlif formalı təsərrüfat subyektlərinin yaradılması davam etdirilir. Sənayenin yüksək templi inkişafının təmin edilməsində əsas diqqət sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasına yönəldilir. Çünki istehsalın texnoloji baxımdan yeniləşdirilməsi əmək məhsuldarlığının əhəmiyyətli artımını və yerli resurslardan daha səmərəli istifadəni təmin etməyə imkan verir.

Son illərdə muxtar respublikada sənaye potensialının müntəzəm əsasda gücləndirilməsi, yeni təsərrüfat subyektlərinin formalaşdırılması və bu sahədə səmərəli idarəetmənin təşkili sənaye infrastrukturunun formalaşmasını şərtləndirir. Naxçıvan Muxtar Respublikası sənaye məhsulu istehsalının artım tempinə görə, sənayenin ümumi məhsulunun tərkibində qeyri-dövlət sektorunun xüsusi çəkisinə və hazır məhsul qalığının minimum həddə olmasına görə Azərbaycan Respublikasının iqtisadi rayonları arasında ilk yerdədir.



Naxçıvan şəhərində "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin metal boru və metal profil istehsalı zavodu 2013-cü il

Naxçıvan Muxtar Respublikasında bir sıra müəssisələr tikilib işə salınmışdır. Meyvə qurutma sexi, çay və siqaret istehsalı fabriki, şərab emalı müəssisəsi, süd və balın karton paketlənməsi müəssisəsi, "Alt Trikotaj" Açıq Səhmdar Cəmiyyətində, "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətində, "Badamlı Mineral Sular Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətində yeni avadanlıqlar quraşdırılmaqla su keçirməz əlcək, şəbəkəli şüşə, plastik qapı və pəncərə, məişət avadanlıqlarının istehsalına başlanılmışdır. Dövlət yardımı nəticəsində muxtar respublikada 40-dan çox sənaye müəssisəsi tikilərək istifadəyə verilmişdir. Həmin sənaye müəssisələri su boruları, üzlük material (saydinq), mineral gübrə, boya, karton tara, pivə, çaxır, mismar, əlvan metal, çərçivə və baqet, qapı-pəncərə, mebel, santexnika avadanlıqları, karamel, şəkərli qənnadı məhsulları, quş əti, ət və süd məhsulları, kişmiş, kostyum, köynək və başqa məhsullar istehsal edir. Ümumiyyətlə, muxtar respublikada sənaye məhsullarının artımı 2004-cü ildə 29,7 faiz, 2005-ci ildə 56,2 faiz, 2006-cı ildə 64,2 faiz, 2007-ci ildə 66 faiz artmışdır [24, s.65].

Muxtar respublika iqtisadiyyatının başqa sahələrində olduğu kimi sənaye sahəsində də qeyri-dövlət sektorunun payı ildən-ilə artır. Belə ki, 2007-ci ildə muxtar respublikada sənayenin dövlət sektorunda 28,7 milyon manatlıq, qeyri-dövlət sektorunda isə 73,5 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir [24, s.88]. 2006-cı ilə nisbətən məhsul istehsalı dövlət sektorunda 2,5 dəfə, qeyri-dövlət sektorunda isə 38,8 faiz artmışdır.



Gəmiqaya Daş Məhsulları Kompleksi MMC
2012-ci il

2003-cü illə müqayisədə 2013-cü ildə sənaye məhsulunun həcmi 49 dəfə artmışdır. 2013-cü ildə sənaye 29 faizlik payla Ümumi Daxili Məhsulun tərkibində ilk yerə sahib olmuş, istehsalın həcmi bir il öncəki illə müqayisədə artaraq 863 milyon manata çatmışdır. Bunun da 93 faizə qədəri, yaxud 799 milyon manatdan çoxu özəl bölmənin payına düşür [119, 2013, 29 dekabr]. 2014-cü ildə isə 892 milyon manatlıq sənaye məhsulları istehsal edilmişdir [119, 2014, 28 dekabr].

Sənaye sahəsinin aparıcı mövqedə olduğu müasir iqtisadiyyatın qurulması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində son illər ərzində ciddi iqtisadi uğurlar qazanılmış, sürətli inkişaf üçün zəngin potensial formalaşmış, azad sahibkarlığın inkişafına əlverişli şərait yaradılmışdır. Aparılan iqtisadi siyasətin davam etdirilməsini və sənayenin modernləşməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli Fərmanı ilə "Sənaye parkları haqqında Əsasnamə" təsdiq olunmuşdur. Muxtar respublikada sənaye parklarının yaradılması istiqamətində görülən işlər gələcəkdə sənayenin daha sürətli inkişafı üçün geniş imkanlar açacaqdır.

2003-cü ilin sonunda muxtar respublikada 66 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, 2013-cü ilin sonunda bu göstərici 7 dəfə artaraq 438-ə çatmışdır [41, s.77]. Sənaye müəssisələrində 15385 nəfər işçi çalışmışdır ki, bu da 2003-cü ildəki müvafiq göstəricini 5,4 dəfə üstələmişdir.

Müasir texnologiyalara əsaslanan yeni sənaye müəssisələrinin isə salınması daxili tələbatı yüksək keyfiyyətli məhsullarla təchiz etməklə yanaşı, onların ixrac potensialını da artırmışdır. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, cari ilin ötən dövründə 241 milyon manatlıq sənaye məhsulu ixrac olunmuşdur [119, 2013, 29 dekabr].

2014-cü il ölkəmizdə "Sənaye ili" elan edilmişdir. Bundan sonra "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" qəbul olunmuş [6, 2015, 23 may], sənayenin modernləşdirilməsi və strukturunun

təkmilləşdirilməsi, yüksək əlavə dəyər yaradan rəqabət qabiliyyətli, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi yeni istehsal sahələri ilə bağlı ixtisaslı kadrların hazırlanması üçün tədbirlər görülmüşdür. "Sənaye ili" çərçivəsində 200-dək, o cümlədən 40-dan çox orta və iri müəssisə açılmışdır.

Naxçıvan Muxtar Respublikasında sənayeləşmənin həyata keçirilməsi ilə əlaqədar sənaye müəssisələrinin yaradılmasına və inkişafına xüsusi fikir verilmişdir. Yaradılan sənaye müəssisələri daxili bazar üçün məhsul istehsal etməklə yanaşı, ixrac yönümlü məhsulların istehsalını da gücləndirmişdir.

Xüsusilə son illərdə qurulan "Gəmiqaya" Şirkətlər Qrupuna aid müəssisələr, Naxçıvan Avtomobil Zavodu, "Badamlı" Mineral Sular Zavodu, "Cahan Holdinq"



Naxçıvan şəhərində "Badamlı mineral sular" MMC
2009-cu il

Kommersiya Şirkətlər İttifaqının müəssisələri, Kərpic Zavodu, Mebel Fabriki, "Dizayn" MMC-in müəssisələri, "Şərab -2 Yeddilər Aqrar Sənaye Kompleksi" MMC, "Sirab" Mineral Sular Zavodu, Metallurgiya Zavodu, Sement Zavodu ən yüksək standartlar səviyyəsində məhsul istehsal edirlər.

Bu sahədə Naxçıvan Avtomobil Zavodunun işini xüsusi ilə qeyd etməliyik. Avtomobil istehsalı iqtisadiyyatın ən mühüm göstəricilərindən biridir. 2010-cu ildən fəaliyyət göstərən Naxçıvan Avtomobil Zavodu ilbəil öz istehsal imkanlarını artırır. İllik istehsal gücü 5000 ədəd avtomobil olan zavodda 9 modeldə avtomobil istehsal olunur. Bunlar "NAZ-Lifan-320", "NAZ-Lifan-330" (xetcbektipli), "NAZ-Lifan-620", "NAZ-Lifan-630" və "NAZ-Lifan-720" (sedantipli), "NAZ-Lifan X-60" (krossovertipli), "NAZ-Lifan LF-1022" (yük-bortlu), "NAZ-Lifan LF-5028" (yük-furqonlu) və "NAZ-Lifan-820" (mikroavtobus 1+6 nəfər) markalı avtomobillərdir.

Daha 2 modeldə avtomobillər buraxılmasına hazırlıq işləri görülür. Avtomobillərin xarici ölkələrə ixrac olunması planlaşdırılır. Bunun üçün bir neçə dövlətlə

müqavilə bağlanıb.

Beləliklə, muxtar respublikada sənaye sahəsində reallaşdırılan islahatların başlıca məqsədi mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulmasından, dünya standartlarına cavab verən sənaye məhsullarının istehsalından, sənayenin dayanıqlı və davamlı inkişafını təmin etməkdən ibarət olmuşdur. Tarixən aqrar region kimi formalaşan Naxçıvan Muxtar Respublikasının aqrar-sənaye regionuna çevrilməsi üçün ciddi əsaslar yaradılmışdır.

4.3. Tikinti-quraşdırma və abadlıq işləri

Azərbaycan Respublikasında yaranmış sabitlik, iqtisadi sahədə əldə olunmuş nailiyyətlər muxtar respublikada 1995-ci ildən başlayaraq tikinti-quraşdırma və abadlıq sahəsində də əsaslı işlər görməyə şərait yaratmışdır.



Naxçıvan Avtomobil Zavodu
2010-cu il

Naxçıvan Muxtar Respublikasının yeni inkişaf mərhələsi öz başlanğıcını Ali Məclisin 1995-ci il dekabrın 16-da keçirilmiş sessiyasından götürür. Məhz həmin sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmiş Vasif Talıbov 1969-cu ildən başlanan Heydər Əliyev quruculuq və inkişaf xəttinin konkret bir regionda – ağır blokada şəraitində yaşayan, davamlı olaraq enerji qıtlığı keçirən, kommunikasiya əlaqələrinin olmaması ucbatından mal, material və xammal gətirilməsində ciddi problemlərlə üzləşən muxtar respublikada fəal yaradıcı

gücə malik olduğunu öz əməyi və gərgin işi ilə sübut etdi. Ötən 20 il ərzində həyata keçirilən məqsədyönlü siyasət sayəsində Naxçıvan Muxtar Respublikası davamlı sosial-iqtisadi yüksəliş və ictimai həyatdakı nailiyyətləri fonunda keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Muxtar respublikanın uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində investisiyaların cəlbi xüsusi rol oynayır. İnvestisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədilə investisiya mühitinin daha da yaxşılaşdırılması əsas vəzifələrdən biri kimi müəyyənləşdirilmiş, 1993-2003-cü illər ərzində muxtar respublikada əsas kapitala 147394 min manat həcmində investisiya yönəldilmişdir [41, s. 68].

1996-cı ildən sonra muxtar respublikanın inkişafının əsas göstəricilərindən biri də tikinti-quruculuq, abadlıq və digər infrastruktur işlərinin ön planda olmasıdır. Aparılan tikinti işlərinin əksəriyyətini sosial təyinatlı obyektlər təşkil etmişdir.



Şərur Olimpiya İdman Kompleksi
2009-cu il

1996-2000-ci illərdə muxtar respublikada 45 orta ümumtəhsil məktəbi tikilmiş, 18-i əsaslı təmir edilmiş və yenidən qurulmuş, 4 uşaq bağçası, 2 musiqi məktəbi, 3 kompüter mərkəzi, 3 nəşriyyat və mətbəə istifadəyə verilmiş, 37 səhiyyə obyekti tikilmiş və əsaslı təmir edilmişdir [56, s.150]. Tikilmiş və təmir olunmuş mədəniyyət obyektlərinin sayı bu dövrdə 37-yə çatmış, 20 park və xiyaban təmir olunmuş və ya yeni salınmış, 15 sosial xidmət obyekti, 10 məscid tikilmiş və ya əsaslı bərpa və təmir edilmişdir [110, s. 76-88].

1993-2004-cü illərdə muxtar respublikada 15 inzibati bina, 24 nasos stansiyası, 135 subartezian quyusu, 34 körpü, 6 ticarət mərkəzi, 60 elm və təhsil müəssisəsi, o cümlədən 16038 şagird yerlik 55 ümumtəhsil məktəbi, 43 mədəniyyət obyekti, 28 səhiyyə müəssisəsi, 5 idman obyekti, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətlərdən zərər çəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 47 fərdi ev, 123 istehsal və xidmət obyekti tikilərək istifadəyə verilmişdir [41, s. 69].

XX əsrin son on ilində tikilmiş və bərpa edilmiş sosial obyektlər sırasına Naxçıvan şəhərində Olimpiya kompleksi və digər idman kompleksləri də daxildir. On il ərzində muxtar respublika ərazisində 965 paqonometrlik 32 yeni körpü tikilmiş, 956 paqonometrlik 17 körpü əsaslı təmir olunmuş, 196,3 km uzunluğunda avtomobil yolları tikilmiş, bərpa edilmiş və yenidən qurulmuşdur [110, s. 84-85].

1996-2001-ci illərdə dövlət kapital qoyuluşu və əhalinin şəxsi vəsaiti hesabına muxtar respublika üzrə 71,4 min kvadratmetr yaşayış evi tikilmişdir ki, bunun da 9463 mini əhalinin öz şəxsi vəsaiti hesabına olmuşdur. 2003-cü ildə muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına 12,7 min kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir [41, s. 69].

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci illərdə salınmış qəsəbə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 23 mart tarixli Qərarına əsasən, Sədərək kəndinin tərkibindən ayrılaraq müstəqil inzibati vahidə - Heydərabad qəsəbinə çevrilmişdir. Muxtar respublikada quruculuq işlərinin mühüm istiqaməti sərhəd rayonların və kəndlərin inkişafı ilə bağlı olmuşdur. Şərur rayonunun Havuş, Babək rayonunun Yuxarı Buzqov, Gərməçataq, Ordubad rayonunun Pəzməri sərhəd kəndlərində yeni məktəb binaları tikilmiş, Şahbuz rayonunun sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün müvafiq kreditləşdirmə proqramının keçirilməsinə başlanmışdır.

Muxtar respublikada 2004-cü ildə bütün mənbələr hesabına 400989 milyon manat həcmində investisiyadan istifadə edilmişdir [131, s.18]. 2003-cü illə müqayisədə bu rəqəm 31,4 faiz çoxdur. Bu investisiyaların 353538 milyon manatı tikinti-quraşdırma işlərində istifadə edilmişdir ki, onların 48 faizi istehsal təyinatlı, 52 faizi qeyri-istehsal təyinatlı obyektlərin tikintisinə yönəldilmişdir. 2000- 2005-ci illərdə yeni tikilmiş və ya təmir edilmiş obyektlərin sayı artıq 500-ü ötmüşdür. İstifadəyə verilmiş obyektlərin 85 faizi sosial xarakterli olmuşdur.

Naxçıvan Muxtar Respublikasında tikinti-quruculuq və abadlıq işləri ildən-ilə genişlənir. Yüksək zövqlə, peşəkarlıqla, şərq və qərb memarlıq elementlərindən ustalıqla və yerli-yerində istifadə etməklə tikilən binalar, təmir olunan və yenidən qurulan inzibati və sosial obyektlər, salınan gülkarlıqlar, yaradılan səliqə-sahman böyük quruculuq və abadlıq işlərinin yüksək səviyyədə görüldüyünü təsdiq edir. Bütün bu işlərə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov diqqət və həssaslıqla yanaşır, hər bir tikinti, quruculuq və abadlıq işlərinin ən yüksək səviyyədə, keyfiyyətlə aparılmasına nəzarət və rəhbərlik edir. Bütün bunlara görə Ali Məclisin Sədri tariximizə qurucu və yaradıcı rəhbər kimi daxil olmuşdur.

Ölkə Prezidenti İlham Əliyev Naxçıvan muxtar respublikasına hər səfərində burada görülən işləri, həyata keçirilən tədbirləri yüksək qiymətləndirmişdir. 2004-cü ildə Muxtar Respublikaya səfərində görülmüş işlərlə tanış olduqdan sonra demişdir: "Siz Naxçıvanda işlərin düzgün qurulması, Naxçıvanın rəhbərliyinin, Ali Məclisin

sədri Vasif Talıbovun fəaliyyəti nəticəsində bütün bu uğurlara nail olmusunuz. Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu - abadlıq-quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir" [6, 2004, 15 may].

Son illərdə yeni və müasir bir Naxçıvan qurulmuş, quruculuq və abadlıq işləri muxtar respublikanın paytaxtı ilə yanaşı ən ucqar sərhəd kəndlərini də əhatə etmişdir.

Naxçıvan Muxtar Respublikasında tikinti-quruculuq və abadlıq işləri sənaye sahəsindən sonra inkişaf proqramının əhəmiyyətini əks etdirən mühüm göstəricilərdən biridir.

Heydər Əliyev idarəetmə məktəbinin sədaqətli davamçısı olan Ali Məclisin Sədri 90-cı illərin ortalarından muxtar respublikada başladığı quruculuq işləri nəticəsində yüzlərlə obyekt tikilib istifadəyə verilmiş, yenidən qurulmuş, təmir edilmiş, yollar çəkilmiş, körpülər salınmış, parklar, xiyabanlar və gülkarlıqlar yaradılmışdır. Nəticədə Naxçıvanın siması tamamilə dəyişmişdir.

Naxçıvan Muxtar Respublikasında 2000-ci ildə 12449,9 min manatlıq tikinti-quruculuq işləri aparılmışdı ki, bu da 1995-ci ilə nisbətən 4 dəfə çoxdur. 2005-ci ildə muxtar respublikanın tikinti təşkilatları 102 milyon manatlıq iş görmüşdür [37, s.115]. 2000-2005-ci illər muxtar respublikanın tikinti həyatında dəyərli və bənzərsiz binaların, sosial və ictimai obyektlərin, elm, təhsil və mədəniyyət müəssisələrinin tikilməsi, yenidən qurulması və təmiri kimi xarakterizə edilir. Bu illərdə 59 orta məktəb, 48 səhiyyə obyekti, 28 körpü, 62 inzibati bina, 9 mədəniyyət obyekti, 9 abidə və dini obyekt tikilmiş, 23 orta məktəb binası, 35 səhiyyə obyekti, 23 körpü, 39 nasos stansiyası, 98 inzibati bina, 22 mədəniyyət obyekti və yüzlərlə müxtəlif xarakterli obyektlər əsaslı təmir olunmuşdur [127, s.19-20].

2006-2010-cu illərdə də muxtar respublika böyük tikinti meydanına çevrilmişdir. Belə ki, 2006-cı ildə 757 obyekt, 2007-ci ildə isə 669 müxtəlif xarakterli obyektlər tikilib, yaxud əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. 2007-2010-cu illərdə muxtar respublikada 284 yaşayış binasında istilik xətləri yeniləri ilə əvəz edilmiş, 35 lift quraşdırılmışdır. 2010-cu ilin ilk yarımilində 258 müxtəlif təyinatlı obyekt istifadəyə verilmiş, 286 obyektin isə tikintisi və ya əsaslı təmiri davam etdirilmişdir [119, 2010, 24 iyul]. Kəndlərin, qəsəbələrin ictimai tərəqqisi, bu yaşayış məntəqələrində mərkəzlə paralel infrastruktur quruculuğu tədbirlərinə də xüsusi diqqət yetirilmişdir. Kənd əhalisinə göstərilən

xidmətin səviyyəsinin yaxşılaşdırılması, bu sahədə idarəetmənin səmərəliliyini daha da artırmaq məqsədilə 1996-2010-cu illərdə 52 kənd, 3 qəsəbə mərkəzi istifadəyə verilib.

Ümumiyyətlə, 1996-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və kəndlərində 231 elm və təhsil ocağı, 173 səhiyyə müəssisəsi, 272 mədəniyyət obyekti, 393 inzibati bina, 119 yeni körpü, 353 subartezian quyusu, 153 nasos stansiyası, 3374 yeni istehsal, xidmət və əlavə infrastruktur obyektləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Bir cəhəti qeyd etməliyik ki, muxtar respublikanın rayonlarında, qəsəbə və kəndlərində, xüsusilə sərhəd kəndlərində tikinti-abadlıq işlərinə böyük diqqət və qayğı göstərilmişdir. Tədqiq edilən dövrdə istifadəyə verilən orta ümumtəhsil məktəblərinin 35,5 faizi, səhiyyə obyektlərinin 71,4 faizi ucqar dağ və sərhəd kəndlərində inşa edilmişdir. Bütövlükdə bu dövrdə muxtar respublikanın şəhər və rayon mərkəzlərində, habelə kəndlərində abadlıq işləri geniş vüsət almışdır.

Görülən işlərin həcminin artması öz növbəsində tikinti sektoruna qoyulan sərmayənin həcminin ildən-ilə artmasına səbəb oldu. Əgər 2005-ci ildə Naxçıvan Muxtar Respublikasına bütün maliyyə mənbələri hesabına 126510 min manatlıq investisiyadan istifadə edilmişdirsə, 2006-cı ildə tikinti sektorunda 191767 min manatlıq sərmayədən istifadə olunmuşdur [133, s.9]. 2007-ci ildə bu məqsədlə 222948 min manat [134, s.6], 2008-ci ildə 309.598 min manat [135, s.8], 2009-cu ildə 411522 min manat [136, s.10] vəsait xərclənmişdir. 2010-cu ildə 501106 min manat [137, s.8] vəsaitdən istifadə olunmuşdur ki, bu da əvvəlki ilin müvafiq göstəricisindən 22 faiz çoxdur. İnvestisiya qoyuluşlarının 443426 min manatı və ya 88 faizi tikinti-quraşdırma işlərində istifadə edilmişdir.

Muxtar respublikada makroiqtisadi sabitliyin qorunub saxlanılmasına ciddi diqqət yetirilmiş, nailiyyətlərin miqyası davamlı olaraq genişləndirilmişdir. İnkişafda əsas makroiqtisadi göstərici hesab olunan Ümumi Daxili Məhsulun həcmi 2011-ci ildə 2010-cu illə müqayisədə 49,5 faiz artaraq 1.786.342 min manat təşkil etmişdir [138, s.4].

Naxçıvan Muxtar Respublikasında iqtisadi yüksəlişin ilbəil dinamik xarakter almasını yüksək qiymətləndirən ölkə başçısı İlham Əliyev demişdir: "Naxçıvanda çox böyük quruculuq işləri aparılır. Burada gedən quruculuq-abadlıq işləri, yeniləşmə, infrastruktur layihələri – bütün bunlar göstərir ki, Azərbaycanın qədim torpağı Naxçıvan çox sürətlə inkişaf edir və naxçıvanlılar ölkəmizin hərtərəfli inkişafına öz töhfələrini verirlər" [6, 2012, 21 may].

Son illər tikintidə müşahidə olunan əsas istiqamətlərdən biri də yeni yaşayış binalarının tikilməsidir. Təbii ki, bu sahədə də dövlət gənc ailələrə öz köməkliyini göstərir. Belə ki, 2012-ci ildə mənzil almaq istəyən gənc ailələrə dəstək məqsədilə İpoteka Fondunun vəsaiti hesabına 718 min manat həcmində kreditlərin verilməsi təmin olunmuşdur.



Heydər Əliyev Sarayı
2009-cu il

Tikinti sektorundakı fəaliyyətin bir xüsusiyyəti onun çoxşaxəli olması, yəni müxtəlif sahələri əhatə etməsidirsə, digər xarakterik xüsusiyyəti tikintinin qəsəbə və kəndlər arasında mütənasib şəkildə aparılmasıdır. Muxtar respublikada kənd və xidmət mərkəzlərinin tikintisinə diqqət artırılmış, 2011-ci ildə 15, 2012-ci ildə 14, 2013-cü ildə 20, 2014-cü ildə 8 kənd mərkəzi istifadəyə verilmişdir. Kənd mərkəzləri ilə yanaşı xidmət mərkəzləri də tikilmişdir. 2011-2014-cü illərdə 57 xidmət mərkəzi kənd və qəsəbə sakinlərinin ixtiyarına verilmişdir.

2011-2014-cü illərdə də tikinti sektoruna ayrılan vəsait artmışdır. 2011-ci ildə əsas kapitala yönəldilən investisiyanın həcmi 815 milyon manat, 2012-ci ildə 982 milyon manat, 2013-cü ildə 1.038 milyon manat olmuşdur. Həmin illərdə müvafiq olaraq 539, 724, 592 obyekt tikilərək, əsaslı bərpa və ya təmir olunaraq istifadəyə verilmişdir [138, s.11; 139, s.10; 140, s.11]. Görülən işlərin əhatə dairəsinin ildən-ilə genişlənməsi hesabına tikinti-quraşdırma tədbirlərinə sərf olunan maliyyə vəsaitlərinin həcmi də artmışdır. 2011-ci ildə əsas kapitala investisiya qoyuluşlarının 89 faizi (874 milyon manatı), 2012-ci ildə 89 faizi (919 milyon manatı) tikinti-quraşdırma işlərinə sərf olunmuşdur. 2014-cü ildə Ümumi Daxili Məhsulun həcmi də artaraq 2391 milyon manatdan çox olmuşdur [141, s.5]. Onun hər bir nəfərə düşən həcmi 5465,2 manat təşkil etmişdir.

Son illərdə muxtar respublikada aparılan tikinti, quruculuq və abadlıq işləri



Naxçıvan şəhərində Saat Meydanı və parkı.
2013-cü il

nəticəsində Naxçıvan şəhəri, rayon mərkəzləri, qəsəbə və kəndlər göz oxşayır, şərq və qərb memarlıq elementlərini özündə birləşdirən sosial obyektlər, inzibati binalar, yaşayış evləri diyara gözəllik verir, bu işi görənlərin əməyi yüksək qiymətləndirilir. Heydər Əliyev Sarayı, Naxçıvan Beynəlxalq Hava Limanı, "Duzdağ" və "Təbriz" mehmanxanaları, Diaqnostika-Müalicə Mərkəzi, Doğum Mərkəzi, Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və Xarici Dillər fakültəsinin yerləşdiyi korpus, Universitet Konservatoriyası, Elektron Kitabxana, Tələbə Evi, Hüseyn Cavidin türbəsi, Nuh peyğəmbərin türbəsi və yüzlərlə göz oxşayan sosial obyektlər, memarlıq abidələri tikilmiş, yüksək peşəkarlıqla təmir və bərpa edilmişdir. Xan Sarayı, Zaviyyə mədrəsə binası, Came məscidi, Qarabağlar memarlıq kompleksi, İmamzadə kompleksi, Buzxana, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Xanəgah abidəsi kompleksi, Mömінə Xatın və Yusif Küseyir oğlu türbələri restavrasiya olunmuşdur. Hazırda Əlincəqala və Gülüstan türbələrində təmir, bərpa və restavrasiya işləri aparılır. Bu gün Naxçıvanda tarixi-memarlıq abidələrində şərq elementləri ilə müasirlik qovuşur, bu elementlər isə şəhərə xüsusi yaraşıq verir, onu daha da gözəlləşdirir. Bütün bunlar Ali Məclis Sədrinin zövqündən, şəhərsalma sahəsindəki səriştəsindən, memarlıq biliyindən, qurub-yaratmaq həvəsindən xəbər verir.



Naxçıvan şəhərindən görüntü
2014-cü il

4.4. Kənd təsərrüfatının inkişafı

Kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatının mühüm sahələrindən biridir. O, əhalinin ərzaq məhsullarına, emal sənayesi sahələrinin xammal və materiallara olan tələbatının ödənilməsində mühüm yer tutur. Muxtar respublikada il ərzində yaradılan əlavə dəyərin orta hesabla üçdə bir hissəsi kənd təsərrüfatının payına düşür.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında kənd təsərrüfatı hər zaman öncül mövqeyə malik olmuşdur. Muxtar respublikada əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş aqrar islahatların ardıcıl həyata keçirilməsi, kənd təsərrüfatında aparılan struktur dəyişiklikləri aqrar bölmənin inkişafı üçün möhkəm zəmin yaratdı.

Ümummilli lider Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən 1992-ci il aprelin 6-da "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi haqqında" qərar qəbul edilmişdir. İqtisadi islahatların birinci növbədə kənd təsərrüfatında, xüsusilə də dağ və dağətəyi ərazilərdə yerləşmiş kolxoz və sovxozlarda aparılması muxtar respublikanın gələcək iqtisadi inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. 1992-ci il aprelin 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci bir qərarı da qəbul edildi. Bu

qərarda rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər verilmişdir. Hər iki qərar yerli şəraitə uyğun olaraq verilmiş və elmi cəhətdən əsaslandırılmış tövsiyyələrin həyata keçirilməsini nəzərdə tutur və öz əhatəliyinə görə kənd təsərrüfatında əsaslı islahat proqramlarıdır [59, s.60].

Naxçıvan Muxtar Respublikasında torpaq islahatı və özəlləşdirmə prosesi ardıcıl olaraq aparılmışdır. 1992-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan MR-in Culfa rayonunda respublikada ilk dəfə olaraq ictimai təsərrüfatlarda islahata başlanılmış və yeni özəl təsərrüfat qurumları yaradılmışdır. Bu təcrübə sonralar 1993-cü ildə respublikada aqrar islahatların aparılmasına hazırlıq dövründə nümunə rolunu oynadı və müxtəlif bölgələrdə kəndlilərin birləşdiyi kəndli (fermer) təsərrüfatlarının yaradılması ilə nəticələndi. 2005-ci ildə muxtar respublikanın 205 kəndindən 198-də, 132 təsərrüfatda torpaq islahatı başa çatdırılmış, 54,9 min hektar torpaq sahəsi xüsusi mülkiyyətə verilmişdi. Muxtar respublikada özəlləşdirmə prosesi 1996-cı ildən başlamış və beş il ərzində 2145 müəssisə və obyekt özəlləşdirilmişdir. Özəlləşdirilmiş obyekt və müəssisələrin satışından dövlət büdcəsinə 315,7 milyon manat vəsait daxil olmuşdur. 2005-ci ilə qədər isə 3457 kiçik müəssisə və obyekt özəlləşdirilmiş, 46 dövlət müəssisəsi isə səhmdar cəmiyyətə çevrilmişdir. 2007-ci ildə özəlləşdirmədən 351,4 milyon manat vəsait əldə edilmişdir.

Muxtar respublikada kənd təsərrüfatını inkişaf etdirmək üçün əkin sahələrinin strukturunda dəyişikliklər edilir, əkin sahələri artırılırdı. 1999-cu ildən başlayaraq muxtar respublikada əkin sahələrinin ümumi sahəsi artmağa başladı. Əkin sahələri 2003-cü ildə 1990-cı ilə nisbətən 3,2, 1995-ci ilə nisbətən isə 49 faiz artmışdı. Bu artım əsasən birillik əkmələr hesabına olmuşdu. 2006-cı ildə əkin sahələri 49,3 hektar təşkil etmişdi.

Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında aqrar islahatlar həyata keçirilmiş, kolxoz və sovxozlar ləğv edilmiş, onların torpaq və əmlakı kəndlilərə paylanmışdı. Aparılan islahatlar, həyata keçirilmiş tədbirlər kənd təsərrüfatında tənəzzülün qarşısını almış, 1995-ci ildən bu sahədə inkişaf başlamış və bu inkişaf 2000-ci ildə torpaqların özəlləşdirilməsi başa çatdıqdan sonra davamlı xarakter aldı. Əgər 1995-ci ildə muxtar respublikada kənd təsərrüfatı məhsulunun 57 faizi özəl sektorun payına düşürdüsə, 2000-ci ildən bu göstərici 100 faiz təşkil etdi [126, s.25].

Muxtar respublikada uğurla həyata keçirilən aqrar islahatlar nəticəsində özəl mülkiyyətə əsaslanan aqrar münasibətlərin formalaşması prosesinin ilk mərhələsi 2000-ci ildə uğurla başa çatmış, ləğv olunan kolxoz və sovxozların yerində yeni özəl qurumlar yaradılmışdı.

Kənd təsərrüfatının inkişafı istifadəsiz qalmış yararlı torpaqların mənimsənilməsi, mövcud su ehtiyatlarından səmərəli istifadə edilməsi və suvarmanın təkmilləşdirilməsindən asılıdır. Araz çayı üzərində hidrotexniki kompleksin, Arpaçay, Sirab su anbarlarının, Sədərək, Naxçıvan, Əlincəçay suvarma sistemlərinin

işə salınması, Nehrəm su anbarının tikilməsi və genişmiqyaslı meliorasiya-irriqasiya işlərinin görülməsi sayəsində kənd təsərrüfatının suvarma imkanları və təchizatı yaxşılaşmışdır. Vayxır su anbarında tikinti işləri sürətləndirildi. Babək rayonunun Qaraçuq-Nehrəm kanalı bərpa olundu. 1996-2005-ci illər ərzində 37 yeni nasos stansiyası tikilmiş, 239-dan artıq nasos stansiyalarında təmir işləri aparılaraq işlək vəziyyətə gətirilmiş, su çıxmayan ərazilərdə əkin sahələrinin suvarılması üçün mühüm rol oynayan 234-dən artıq subartezian quyuları qazılmış, region üçün ənənəvi su mənbəyi olan bir çox kəhrizlər yenidən bərpa olunaraq istifadəyə verilmişdir [134, s.19]. Sonrakı illərdə də meliorasiya-irriqasiya işləri davam etdirilmişdir. 2007-ci ildə 5 nasos stansiyası tikilmiş, 25 nasos stansiyasında əsaslı təmir və bərpa işləri aparılmış, 6 kəhriz bərpa edilmiş, 19 subartezian quyusu qazılmışdır [134, s.15-16]. 2011-ci ildə 4 nasos stansiyası, 15 subartezian quyusu, 43 kəhriz [138, s.10], 2012-ci ildə müvafiq olaraq 5, 11 və 32 [139, s.10], 2013-cü ildə 4, 3 və 11[140, s.8] və 2014-cü ildə isə 2 nasos stansiyası tikilmiş və 9 kəhriz təmir olunmuşdur [141, s.8].




"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin traktorları 2013-cü il

Aqrar sahədə əməkçilərin zəruri kənd təsərrüfatı texnikası ilə təchizatını yaxşılaşdırmaq məqsədi ilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti (ASC) və onun rayonlarda xidmət bazaları yaradıldı. 2006-cı ildə muxtar respublikaya 82 ədəd, 2007-ci ildə 180 ədəd, 2008-ci ildə 84 ədəd, 2009-cu ildə 108 ədəd, 123 ədədi 2010-cu ildə olmaqla cəmi 577 ədəd müxtəlif təyinatlı texnika alınaraq [137, s.11] muxtar respublikaya gətirilmiş, onlardan 298-i lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 194-ü 2012-ci ildə olmaqla, cəmi 879 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilmişdir. 2012-ci ildə 185 ədəd kənd təsərrüfatı texnikası lizinq yolu ilə məhsul istehsalçılarının istifadəsinə verilmiş, bununla yanaşı məhsul istehsalçıları 3950 ton mineral gübrə

ilə təmin olunmuşdur [139, s.8-9]. 2013-cü ildə 348 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası, 124 ton gübrə, 2014-cü ildə isə 260 ədəd texnika, 3867,3 ton mineral gübrə məhsul istehsalçılarına verilmişdir [141, s.8].

Aqrar sahənin inkişafı üçün müxtəlif layihələr, o cümlədən "Azərbaycanın kənd investisiyası" layihəsi, "Dağ və yüksək dağlıq ərazilərin inkişaf etdirilməsi" proqramı həyata keçirildi.



Heydər Əliyev Su Anbarı
2005-ci il

Muxtar respublikada kənd təsərrüfatını inkişaf etdirmək üçün əkin sahələrinin strukturunda dəyişikliklər edilmiş, əkin sahələri artırılmışdır. 2000-ci ildə muxtar respublikada kənd təsərrüfatına yararlı torpaqlar 148,4 min hektar olmuşdur. Bunun 30 min hektarı əkin sahəsi, 18 min hektarı çoxillik bitkilər, 21 min hektarı xam və dincə qoyulmuş torpaqlar, 79 min hektarı biçənək, çimənlik və otlaqlardır [111, s.120]. Əkin sahələri 2003-cü ildə 1995-ci ilə nisbətən 83,1 faiz artmışdı. 2006-cı ildə əkin sahələri 49275 hektar təşkil etmişdir. 2010-cu ilin məhsulu üçün 59204 hektar sahədə əkin aparılmışdır ki, bu da 1988-ci ilin məhsulu üçün əkilmiş 15328 hektar sahədən 43876 hektar və ya 4 dəfə çoxdur [119, 2011, 29 yanvar]. Muxtar respublikada tarixi ənənələrə malik olan kənd təsərrüfatının inkişafına göstərilən qayğının nəticəsidir ki, 2011-ci ilin məhsulu üçün 60 min hektardan çox, 2012-ci ildə 60118 hektarda, 2013-cü ildə 60127 hektarda, 2014-cü ildə 60829 hektar sahədə əkin aparılmışdır.

Muxtar respublikada kənd təsərrüfatının ümumi məhsulunun strukturunda ciddi dəyişikliklər baş vermişdir. Aparılmış islahatlar kənd təsərrüfatı istehsalı sahəsində mövcud potensialın səmərəli şəkildə reallaşdırılmasına imkan yaratdı.



"Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" MMC-nin un dəyirmanı 2011-ci il

Hər bir rayonun spesifik xüsusiyyətlərinə uyğun kənd təsərrüfatı strukturunun formalaşmasını şərtləndirdi. Bu, özünü kənd təsərrüfatı məhsulları istehsalının strukturunda da göstərdi. Görülən tədbirlər nəticəsində muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı xeyli artdı. 1995-2003-cü illərdə taxıl istehsalı 2,5, kartof istehsalı 5,5, tərəvəz istehsalı 2,7, meyvə və giləmeyvə istehsalı 3,4, bostan məhsulları 7,9 dəfə artmışdır. 2005-ci ildə 98,3 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdursa, 2006-cı ildə bundan 10750 min manat çox – 109 milyon manatlıq məhsul istehsal edilmişdir [37, s.120]. 2009-cu ildə 185 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmiş, 2008-ci illə müqayisədə 13,4 faiz artıma nail olunmuşdur. Həyata keçirilən kompleks tədbirlər nəticəsində muxtar respublikanın kənd təsərrüfatı sahəsində dinamik artım davam etdirilmişdir. 2010-cu ildə 247 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bu da 2009-cu il üzrə müvafiq göstəricini 13 faiz üstələmişdir. Kənd təsərrüfatının inkişafı ilə bağlı görülən tədbirlər aqrar sektorda məhsul istehsalının həcmini də ilbəil artırmışdır. Kənd təsərrüfatı məhsulları istehsalının həcmi 2011-ci ildə 319 milyon manata yaxın, 2013-cü ildə 337 milyon manatdan çox, 2014-cü ildə isə 355157 min manata çatmışdır [119, 2015, 19 may].

Muxtar respublika rəhbərliyinin **taxılçılığa** mühüm əhəmiyyətli sahə kimi yanaşması nəticəsində bu sahədə yüksək artıma nail olunmuşdur. Belə ki, 2000-ci ilə nisbətən 2005-ci ildə taxıl əkini sahəsi 59,3 faiz, məhsul istehsalı isə 71,3 faiz artmışdır. Ümumiyyətlə, muxtar respublikada 1995-ci ildə 23,6 min ton, 2000-ci ildə 54,4 min ton, 2005-ci ildə 93,2 min ton, 2009-cu ildə 94,7 min ton taxıl yığılmışdır. 2010-cu ildə isə taxıl zəmilərindən 96 min ton məhsul toplanmışdır ki, bu da 2009-cu illə müqayisədə 2,4 faiz çoxdur. 1988-ci illə müqayisədə taxıl istehsalının həcmi 2009-cu ildə 67 min ton artmışdır. 2011-ci ildə 101 min ton, 2012-ci ildə 101848 ton, 2013-cü ildə 102960 ton, 2014-cü ildə 103070 ton məhsul toplanmışdır [119, 2014, 28 dekabr; 141, s. 8].

Kənd təsərrüfatının inkişafında taxıl anbarlarının, elevatorların, soyuducu anbarların inşası da mühüm yer tutur. Bu zərurət nəzərə alınaraq 2009-cu ildə 18 min ton taxılı uzun müddətə, 20 min ton taxılı isə qısa müddətə saxlamaq gücünə malik Naxçıvan Muxtar Respublikası Taxıl Ehtiyatı anbarı yaradılmışdır. Anbar kompleksi bir tərəfdən məhsul istehsalçılarının taxıl tədarükü zamanı rastlaşdıqları problemləri aradan qaldırırsa, digər tərəfdən muxtar respublikada taxıl ehtiyatlarının

yaradılmasında müstəsna rol oynayır. 2012-ci ildə tutumu 2 min ton olan daha bir soyuducu anbar fəaliyyətə başlamış, nəticədə anbarların sayı 15-ə, həcmi isə 11720 tona çatdırılmışdır [139, s. 8]. Hazırda muxtar respublikada taxılı uzun müddətə saxlamağa imkan verən anbarların həcmi 27 min tona, kənd təsərrüfatı məhsullarının saxlanılması və satışını təmin edən soyuducu anbarların sayı 20-yə, ümumi tutumu isə 12250 tona çatdırılmışdır.



"Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" MMC-nin yeni taxıl anbarları

Muxtar respublikada məhsuldar və keyfiyyətli buğda toxumlarının istehsalının stimullaşdırılması və daxili tələbatın ödənilməsi məqsədilə 2 min hektar torpaq sahəsi ayrılmış və toxumçuluq təsərrüfatı üçün yeni kompleksin inşasına başlanılmışdır. Muxtar respublikanın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, digər bitki toxumlarının əkininin və satışının da həyata keçirilməsi nəzərdə tutulur.

Muxtar respublikada taxılçılıqla yanaşı **kartofçuluğun** da inkişafına xüsusi diqqət yetirilmişdir. 2005-ci il aprelin 11-də təsdiq olunmuş 2005-2010-cu illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası nəticəsində idxaldan asılılığın aradan qaldırılmasında mühüm irəliləyiş əldə olunmuşdur. Həyata keçirilən tədbirlər nəticəsində 2010-cu ildə 2740,5 hektar sahədə kartof əkilmişdir. Kartof əkini keçirilmiş sahələrdən 37901 ton məhsul tədarük edilmişdir ki, bu da 2004-cü illə müqayisədə 2,2 dəfə və ya 20843 ton, 1988-ci illə müqayisədə idə 38 dəfə və ya 36896 ton artıq deməkdir [137, s.13]. Sonrakı illərdə də bu sahə diqqətdə saxlanılmış, 2014-cü ildə 2962 hektar sahədə kartof əkilmiş, əkin sahələrindən 41405,5 ton məhsul tədarük olunmuşdur [119, 2015, 19 may].

Muxtar respublika özünün həmişə ekoloji cəhətdən saf və təmiz **meyvə-tərəvəz** məhsulları ilə tanınıb. 2012-ci il fevralın 14-də qəbul olunmuş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası bu sahəyə olan marağı daha da artırmışdır. 2013-cü ildə tərəvəz məhsullarının istehsalı məqsədilə 387 min manat, bağçılıq təsərrüfatının inkişafı üçün isə 538 min manat kredit verilmişdir. Görülmüş işlərin nəticəsidir ki, məhsuldarlıq artmış, əkin sahələrindən 67 min tona yaxın tərəvəz, meyvə bağlarından 43 min tondan çox meyvə, 15 min tondan çox üzüm toplanmışdır [140, s.9]. 2014-cü ildə isə 6125 hektar sahədə tərəvəz əkilmiş, sahələrdən 66731,4 ton məhsul yığılmışdır.

Əhalinin ilin bütün fəsillərində tərəvəz məhsulları ilə təchizatı üçün istixana

komplekslərinin yaradılması da davam etdirilmiş, 2014-cü ildə 6 yeni istixana kompleksi fəaliyyətə başlamışdır. İstixana komplekslərinin ümumi sahəsi 105 min kvadratmetrdən çoxdur [119, 2015, 19 may].

2015-ci il mayın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində əkinəyararlı torpaqlardan istifadənin və əhaliyə göstərilən xidmətlərin vəziyyəti barədə müşavirə keçirilib. Müşavirədə aqrar sahədəki vəziyyət və qarşıda duran vəzifələr geniş müzakirə edilib. Kənd təsərrüfatı texnikalarının və mineral gübrələrin güzəştlə əkinçilərə satışının həyata keçirilməsi bu sahənin inkişafına səbəb olduğu vurğulanmışdır. Qeyd olunmuşdur ki, muxtar respublikanın malik olduğu 550275 hektar torpaq sahəsinin 164269 hektarı və ya 30 faizə yaxını kənd təsərrüfatına yararlıdır [47, 2015, 6 may]. Bunun da 40959 hektarı və ya 78 faizi suvarılan torpaqlardır. Əkinə yararlı torpaq sahələrindən düzgün istifadə olunmalı və onlar tam həcmdə əkin dövriyyəsinə cəlb olunmalıdır.



Babək rayonunda heyvandarlıq təsərrüfatı 2013-cü il

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatının inkişafında **heyvandarlığın** xüsusi rolu vardır. Muxtar respublika rəhbərliyinin apardığı məqsədyönlü tədbirlər nəticəsində bu sahədə də böyük nailiyyətlər əldə edilmişdir. Bu sahəyə göstərilən diqqət və qayğının nəticəsidir ki, həm heyvanların baş sayında və heyvandarlıq məhsullarının istehsalında artıma nail olunmuşdur. 1994-cü ilə nisbətən 1998-ci ildə iri buynuzlu mal-qaranın, o cümlədən inək və camışların sayı müvafiq olaraq 24 faiz, qoyun və keçilərin sayı 46 faiz artmışdır. Eyni zamanda kənd təsərrüfatında ümumi məhsul istehsalı və məhsuldarlıq yüksəlmişdir. 1993-cü ilə nisbətən 1998-ci ildə ət istehsalı 10 faiz, süd 59 faiz, yumurta 94 faiz, yun istehsalı 2 dəfə artmışdır [59, s.63]. Heyvanların müxtəlif xəstəliklərdən qorunması, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 noyabr tarixli Fərmanı ilə Dövlət Baytarlıq Xidməti yaradılmışdır. 2000-ci ildə xırdabuynuzlu heyvanların sayı 425,4 min baş olmuşdur ki, bu da 1995-ci illə müqayisədə 146,7 min baş və ya 1,5 dəfə çox idi. Bu artım iribuynuzlu mal-qaranın artımında da özünü göstərirdi. 1995-ci ildə qaramalın baş sayı 55,5 min olduğu halda, 2000-ci ildə bu göstərici artaraq 74 min başa çatmışdır ki, bu da 1995-ci ildəkindən 18,5 min baş çox idi. 2007-ci ildə xırdabuynuzlu heyvanların sayı 563897-ə, iribuynuzlu heyvanların sayı 94044-ə çatmışdır. 2010-cu ilin əvvəllərində muxtar respublikada qaramalın sayı 98,8 min baş, xırdabuynuzlu heyvanların sayı isə 589603 baş olmuşdur. 2011-ci ilin əvvəlində muxtar respublikanın

bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 101160 baş, qoyun və keçilərin sayı isə 603018 baş olmuşdur ki, bu da müvafiq olaraq 2010-cu ilin göstəricilərini 2,4 və 2,3 faiz üstələmişdir. Bu dövr ərzində ət istehsalı 4 dəfə, süd istehsalı isə 3 dəfə artmışdır. 2015-ci ilin məlumatına görə, muxtar respublika üzrə iribuynuzlu malların baş sayı 114137, xırdabuynuzlu heyvanların baş sayı isə 701 min olub [119, 2015, 19 may]. Keçən ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu mal-qarada 1550 baş, xırdabuynuzlu heyvanlarda isə 12792 baş artım olmuşdur.

Heyvandarlıqda məhsuldarlığın yüksəldilməsini, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasını və damazlıq işinin inkişafını təmin etmək üçün 2010 və 2011-ci illərdə muxtar respublikaya 280 baş cins mal-qara gətirilərək lizinq yolu ilə fermerlərə verilmişdir. Ümumiyyətlə, son illərdə muxtar respublikaya 1678 baş yüksək məhsuldarlığa malik cins mal-qara gətirilmiş və lizinq yolu ilə satışı həyata keçirilmişdir [141, s.10].

Muxtar respublikada **quşçuluğun** inkişafı da diqqət mərkəzində saxlanılmışdır. Burada 2005-ci ildə 703485 baş kənd təsərrüfatı quşları olmuşdur ki, bu da 2000-ci ilin göstəricilərindən 61,5 faiz çoxdur [127, s.46-47]. 2010-cu ildə quşçuluq sahəsində 7 təsərrüfat subyekti fəaliyyətə başlamışdır. Bundan başqa, ətlik və yumurtalıq istiqamətində daha 5 quşçuluq təsərrüfatı yaradılmışdır. 2012-ci ildə quşçuluğun inkişafı məqsədilə sahibkarlıq subyektlərinə 2647 min manatdan çox kredit verilmişdir [139, s.9]. Görülmüş tədbirlərin nəticəsində 2012-ci ildə 9, 2013-cü ildə 14, 2014-cü ildə 4 quşçuluq təsərrüfatı yaradılmışdır. Beləliklə, quşçuluq təsərrüfatlarının sayı 64-ə çatdırılmışdır [119, 2014, 28 dekabr]. 2010-cu ilin sonunda quşların sayı 901 min başdan çox olmuşdur. Bu göstərici isə 1989-cu ilin göstəricisindən 3 dəfə çoxdur.

Muxtar respublikada **arıçılığın** inkişafına maraq getdikcə artır. 2005-ci ildə 23083 arı ailəsi olmuşdur ki, bu da 2000-ci ildəkindən 83,3 faiz çoxdur [127, s.47]. 2010-cu ilin sonuna muxtar respublikada 52685 arı ailəsi mövcud olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 52 faiz çoxdur. Yeni arıçılıq təsərrüfatlarının yaradılması məqsədi ilə 2014-cü ildə sahibkarlıq subyektlərinə 525 min manat həcmində kredit verilmişdir. Balın emalı və qablaşdırılması ilə məşğul olan istehsalçıların sayı 2012-ci ildə 3270-ə çatmışdır. 2011-ci ildə 710 ton, 2012-ci ildə isə 1175 ton, 2013-cü ildə 1300 tondan çox bal istehsal edilmişdir [119, 2013, 29 dekabr]. 2014-cü ildə muxtar respublikada 94 arıçılıq təsərrüfatı fəaliyyət göstərib. Arı ailələrinin sayı 69 minə çatmışdır [119, 2014, 28 dekabr].

Muxtar respublikanın zəngin su ehtiyatları **balıqçılığın** inkişafı və qiymətli balıq cinslərinin yetişdirilməsi üçün əlverişli şərait yaradır. Təkcə 2009-cu ildə 5, 2010-cu ildə isə 2 balıqyetişdirmə təsərrüfatı istifadəyə verilmişdir. Ümumilikdə isə hazırda muxtar respublikada 12 balıqçılıq təsərrüfatı fəaliyyət göstərir.

Bütün bunlar bir daha göstərir ki, muxtar respublika rəhbərinin ardıcıl və məqsədyönlü aqrar siyasəti öz müsbət nəticəsini vermiş, kənd təsərrüfatının

bütün sahələrində yüksək nəticələr qazanılmışdır. Belə ki, 1995-ci illə müqayisədə 2014-cü ildə taxıl istehsalı 4,4 dəfə, kartof istehsalı 103,5 dəfə, tərəvəz istehsalı 51,6 dəfə, bostan məhsulları istehsalı 85 dəfə, meyvə və giləmeyvə istehsalı 1,9 dəfə, ət istehsalı 95,9 faiz, süd istehsalı 2,3 dəfə, yumurta istehsalı 82,3 faiz, yun istehsalı 89,4 faiz artmışdır. 2015-ci il Azərbaycanda, eləcə də muxtar respublikada "Kənd təsərrüfatı ili" elan edilmişdir. "Kənd təsərrüfatı ili"ndə təsərrüfat işçilərinin qarşısında daha ciddi və məsul vəzifələr dayanır. Aprelin 6-da "Naxçıvan Aqrolizinq" ASC-də muxtar respublikada "Kənd təsərrüfatı ili"ndə qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilmişdir. Müşavirədə Ali Məclisin Sədri Vasif Talıbov qarşıda duran vəzifələrdən bəhs etmişdir [119, 2015, 7 aprel].

Göründüyü kimi, son 20 il ərzində muxtar respublikanın sosial-iqtisadi həyatının bütün sahələrində, eləcə də kənd təsərrüfatında da çox böyük nailiyyətlər əldə edilmişdir.

4.5. Nəqliyyat və rabitə

Muxtar respublikanın sosial-iqtisadi inkişafının sürətlənməsində nəqliyyat və rabitə sahələrinin də xüsusi yeri vardır. Muxtar respublikada **dəmiryol nəqliyyatının** rolu mühümdür. Araz çayı boyunca Bakı-Yerevan dəmiryolu Naxçıvan Muxtar Respublikasında 190 km-dən artıqdır. Ermənistanın təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə ümumittifaq şəbəkəsinə daxil olan, muxtar respublikanı Azərbaycanla bağlayan dəmiryol xətti 1992-ci il aprelin 24-də tamamilə kəsildi [111, s.126]. Avtomobil yolları ilə də əlaqə pozuldu. Həmin vaxtdan Naxçıvan Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşayır. Lakin buna baxmayaraq, muxtar respublikada dəmir yolu infrastrukturu qorunub saxlanılır və inkişaf etdirilir.

Muxtar respublika ərazisi daxilində dəmir yolu ilə yüklərin daşınması həyata keçirilməklə bərabər İran İslam Respublikası ilə Culfa dəmiryolu vasitəsilə iqtisadi əlaqələr davam etdirilir, yükdaşıma əməliyyatları həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası daxilində Qızılburun, Şərur, Culfa, Ordubad dəmiryolu stansiyaları daxili və xarici yük daşımanın tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir. Əsas yük yaradan mənbələr muxtar respublikanın daxili yük axınları hesabınadır. Daşınan yüklərdən tikinti materialları və kənd təsərrüfatı məhsulları üstünlük təşkil edir. Dəmir yolunun muxtar respublika daxilində yük və sərnişin daşıma əməliyyatlarını yerinə yetirməklə bərabər, sosial-iqtisadi inkişafın formalaşmasında müsbət təsiri vardır. 2000-ci ildə Azərbaycan Dövlət Dəmir Yolu Naxçıvan bölməsi tərəfindən təqribən 1,2 milyon ton yük göndərilmiş, 24455 va-qon boşaldılmışdır. Naxçıvan-Ordubad, Naxçıvan-Şərur, Naxçıvan-Təbriz marşrutları üzrə qatarların hərəkəti təmin edilmiş, yük və sərnişin daşınmışdır.

Dəmir yolunun inkişafı istiqamətində son dövrlər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində Naxçıvan, Şərur,

Şahtaxtı, Culfa sərnişin vağzalı binalarında, Naxçıvan, Dərəşam, Nehrəm, Vəlidağ, Qıvraq, Dəstə, Şahtaxtı, Culfa stansiyaları idarəetmə mərkəzlərində, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin inzibati binasında, əlavə olaraq 20-yə yaxın inzibati və yardımçı binada əsaslı təmir işləri aparılmışdır [119, 2013, 12 oktyabr].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə İnkişaf Proqramı" dəmir yolu nəqliyyatının inkişafına təkan vermişdir. İnkişaf Proqramına uyğun olaraq, mühüm dəmiryol qovşağı olan Culfa stansiyasında Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası, Culfa Lokomotiv Deposu, Lokomotiv Briqadalarının İdarəedilməsi



"Naxçıvan Dəmir Yolları" MMC-nin Yük və Sərnişin Daşımaları İdarəsinin Culfa Lokomotiv Deposu 2011-ci il

Mərkəzi və Radio-Rabitə sexi binası əsaslı təmir edilmişdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadi əlaqələrinin inkişaf etdirilməsində **hava nəqliyyatı** xüsusi əhəmiyyət kəsb edir. Naxçıvanda ilk hava limanı 1974-cü ildə tikilmişdi. O dövrdə hava limanı 1800 metrlik uçuş-enmə zolağına malik idi [24, s.183].

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra, hələ keçən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanda da iqtisadi-siyasi vəziyyət çox ağır idi. İqtisadiyyat dərin böhran içərisində idi. Dəmir yolu işləmirdi. Avtomobil yollarının xarici aləmlə əlaqəsi tamamilə dayandırılmışdı və muxtar respublika Ermənistan Respublikası tərəfindən blokada vəziyyətinə salınmışdı. Naxçıvanın blokada şəraitində olması hava nəqliyyatından daha səmərəli istifadə etmək zərurətini doğurmuşdur.

1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan ulu öndər hava limanının uçuş-enmə zolağının yenidən qurulması təşəbbüsünü

irəli sürmüş və bu iş yerli mütəxəssislər cəlb olunmaqla qısa müddət ərzində həyata keçirilmiş, uzunluğu 3300 metr olan uçuş-enmə zolağı istifadəyə verilmişdir [41, s.65]. O vaxta qədər hava limanı kiçik təyyarələri qəbul edirdisə, uçuş-enmə zolağının yenidən qurulması nəticəsində iritutumlu təyyarələri qəbul etməyə başladı ki, bu da gün ərzində 800-1000 nəfərin hava limanının xidmətindən istifadə etməsi demək idi.

Lakin Azərbaycanın regionda durmadan artan nüfuzu və ölkəmizə olan beynəlxalq maraq respublikamızda müasir tələblərə cavab verən yolların, hava və dəniz limanı komplekslərinin inşasını zərurətə çevirirdi. Bu istiqamətdə son illər ərzində ciddi nailiyyətlər qazanılsa da, Naxçıvan kimi strateji əhəmiyyət kəsb edən bir yerdə müasir hava limanının olmaması və gücünün zəif olması ciddi narahatçılıq yaradırdı. Hələ Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə bütün bunları nəzərə alan ümummilli lider Heydər Əliyev 2002-ci il avqustun 11-də muxtar respublikanın Ali Məclisində keçirdiyi xüsusi müşavirədə demişdir: "Mən çoxdan bu fikirdə idim ki, Naxçıvan hava limanını yenidən quraq, yeni bir hava limanı tikək. Birincisi, gərək elə edək ki, təyyarələr buradan təkcə Bakıya, Gəncəyə yox, bir çox istiqamətlərə uçsun. İkincisi də, Naxçıvan öz coğrafi vəziyyətinə görə elə yer tutur ki, burada beynəlxalq standartlara uyğun hava limanının olması təkcə Naxçıvan üçün yox, bütün qonşu ölkələr üçün də çox əhəmiyyətli olacaqdır" [32, s.202].

2002-ci il oktyabrın 1-də inşasına başlanan hava limanında bölgənin sərt iqlim şəraiti nəzərə alınaraq tikinti-quraşdırma işləri ən müasir tələblər səviyyəsində həyata keçirildi.

Ulu öndərin Naxçıvanda müasir hava limanı yaratmaq haqqındakı fikirləri kerçəkliyə çevrilmiş və 2004-cü il mayın 12-də Naxçıvan Beynəlxalq Hava Limanının təntənəli açılışı olmuşdur. Açılışda nitq edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Bu hava limanı bütün yüksək dünya standartlarına cavab verir. Burada gözəl aerovağzal kompleksi, uçuş-enmə zolağı, digər infrastruktur obyektləri tikilmişdir və bunlar yüksək səviyyədə inşa olunmuşdur... Bu hava limanı, eyni zamanda Naxçıvanı digər yerlərlə, şəhərlərlə bağlayacaqdır" [33, s.92-93].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Naxçıvan hava limanına beynəlxalq status verilmişdir. Bu status Naxçıvandan dünyanın istənilən ölkəsinə uçuşlar yerinə yetirməyə imkan yaratmışdır.

Beynəlxalq hava limanı Türkiyənin "Eren port" şirkəti tərəfindən yüksək səviyyədə, beynəlxalq standartlara uyğun tikilmişdir. Hava limanında eni 45, uzunluğu 3300 metr olan uçuş-enmə zolağı monolit betonla yenidən qurulmuş, müasir işıqlandırma sistemi ilə təchiz olunmuşdur. Mütəxəssislərin fikrincə, belə tikinti işləri MDB məkanında ilk dəfə burada tətbiq edilmişdir. Aerovağzal binası saatda 300 sərnişinə xidmət göstərməyə imkan verəcəkdir. Hava limanında uçuşların

idarəetmə məntəqəsi, sahəsi 2 min kvadrat metr olan yük terminalı, hərəsi 400 ton-luq iki yanacaq anbarı, iki istilik mərkəzi tikilmiş, transformatorlar, dizel generatoru quraşdırılmışdır. 2014-cü ilin aprelində isə hava limanı ərazisində inzibati bina və gömrük işçiləri üçün bina istifadəyə verilmişdir.



Naxçıvan Beynəlxalq Hava Limanının inzibati binası
2014-cü il

Beləliklə, doğma diyarın öz qapılarını dünya dövlətlərinin üzərinə açdığı bir dövrdə nəqliyyat sisteminin, hava limanının, avtovağzalların müasir tələblərə cavab verməsinin əhəmiyyəti bir qədər artıb, Naxçıvan Beynəlxalq Hava Limanının rolu və əhəmiyyəti xeyli yüksəlib. Həm xarici ölkələrə (Rusiya Federasiyası, Türkiyə Cümhuriyyəti) həm də respublikanın Bakı, Gəncə kimi şəhərlərinə gedən sərnişinlər bu limanın xidmətindən istifadə edirlər. Naxçıvan Beynəlxalq Hava Limanı öz gözəlliyi, müasirliyi və rahatlığı ilə sərnişinləri razı salır. Naxçıvanlıların Azərbaycan Respublikası ilə əlaqələri yalnız hava nəqliyyatı ilə həyata keçirilir. Hava limanının yenidən qurulması, Naxçıvan Beynəlxalq Hava Limanının tikilib istifadəyə verilməsi ağır yüklü nəqliyyat təyyarələrinin qəbul olunmasına imkan vermişdir.

Qeyd edildiyi kimi, Naxçıvan Muxtar Respublikasının başqa regionlarla nəqliyyat əlaqələri əsas etibarilə hava nəqliyyatı ilədir. Ona görə də bu nəqliyyat vasitəsilə həm sərnişindaşımalar, həm də yükdaşımalar ildən-ilə artır. Naxçıvan hava limanından təkcə 2000-ci il ərzində 204,9 min sərnişin, 4,8 min ton yük daşınmışdır [111, s.128]. Sonrakı illərdə sərnişin və yük daşınmasının sayı və həcmi artmışdır. 2002-ci ildə muxtar respublikada hava nəqliyyatı ilə 206,3 min sərnişin, 4,3 min ton yük, 2004-cü ildə isə 266 min sərnişin, 5 min ton yük daşınmışdır [24, s.188-189]. 2003-cü ilə nisbətən sərnişin daşınması 14 faiz, yük daşınması isə 31 faiz

artmışdır. Əldə edilən gəlir isə əvvəlki illə müqayisədə 30 faiz artaraq 24 milyard manatdan çox olmuşdur.

Ölkə prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 80 illiyinə həsr edilmiş təntənəli iclasda demişdir: "Artıq Naxçıvanın bütün beynəlxalq standartlara cavab verən hava limanı vardır. Deməliyəm ki, bu hava limanı çox yüksək səviyyədə tikilmişdir. Mən dünyanın bir çox ölkələrində olmuşam və təbii ki, hava limanlarını görmüşəm. Ona görə də deyə bilərəm ki, Naxçıvan hava limanı çox yüksək səviyyədədir və bəlkə də Avropada bir çox hava limanlarından daha keyfiyyətli və gözəldir" [33, s.125].

Muxtar respublikanın sosial-iqtisadi inkişafında, təbii və əmək resurslarının səmərəli istifadəsində **avtomobil nəqliyyatının** və yolların mühüm rolu vardır.

Muxtar respublikada yol infrastrukturunun inkişafı ilə bağlı əhəmiyyətli tədbirlər həyata keçirilmiş, yeni yollar salınmış, körpülər tikilmişdir. 1995-ci ildə cəmi 16 km asfalt yol çəkilmişdirsə, 2010-cu ildə bu 198,6 km-ə çatmışdır. İstifadəyə verilmiş yolların 88,4 km-i magistral, 110,2 km-i isə yerli əhəmiyyətli



Naxçıvan-Sədərək Avtomobil yolunun açılışı
2009-cu il

yollardır. Naxçıvan-Sədərək, Naxçıvan-Culfa, Naxçıvan-Batabat avtomobil yolları ən yüksək səviyyədə qurulmuşdur. 1993-2003-cü illər ərzində muxtar respublikada həyata keçirilmiş tədbirlər nəticəsində 1856 km uzunluğunda yeni avtomobil yolları salınmış və ya əsaslı təmir olunmuş, 34 körpü tikilmiş, 32 halda isə körpülər əsaslı təmir olunmuşdur [41, s.72].

1995-2010-cu illərdə 119 körpü tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Bunların arasında beynəlxalq əhəmiyyətli "Ümid" körpüsünün, Şahtaxtı-Poldəşt körpüsünün çox böyük əhəmiyyəti vardır. Sədərək, Culfa və Şahtaxtı



Naxçıvan-Batabat magistral yolu
2014-cü il

Gömrük idarələrinin sərhədkeçid komplekslərinin istifadəyə verilməsi, "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunun açılması nəqliyyat və iqtisadi əlaqələrin genişlənməsində mühüm mərhələ olmuşdur. 2006-cı ildə 118 km-ə yaxın qəsəbə və kənd yollarına asfalt-beton salınmış, əsaslı bərpa işləri aparılmışdır. Bu yolların 34-km-i şəhər və qəsəbələrin, 84 km-i isə kənd yollarının payına düşmüşdür [24, s.176].



Şahtaxtı gömrük keçid məntəqəsi
2009-cu il

2010-cu ildə yol infrastrukturunun inkişafı ilə bağlı əhəmiyyətli tədbirlər həyata keçirilmiş, 277 km uzunluğunda yeni yollar salınmışdır. İstifadəyə verilmiş yolların 167 km-i magistral, 110 km-i isə yerli əhəmiyyətli yollardır [119, 2011, 29 yanvar]. 8 yeni körpü tikilmiş, 5 körpü bərpa edilmişdir. Böyük İpək yolunun üstündə yerləçən 8 km-dən artıq uzunluğa malik Naxçıvan şəhərətrafı dairəvi yolunun tikintisi başa çatdırılmışdır. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 2 sentyabr tarixli Sərəncamı ilə 57,6 km uzunluğunda Çeşməbasar-Boyəhməd və 39,2 km uzunluğunda Təzəkənd-Çalxanqala-Qıvraq avtomobil yolunun yenidən qurulması üçün 5 milyon manat vəsait ayrılmışdır [6, 2001, 3 sentyabr; 138, s.12]. Həmin yollar vaxtında və yüksək keyfiyyətlə çəkilmişdir.

Yol-nəqliyyat kompleksinin yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir, magistral yollar yenidən qurulur. Artıq muxtar respublikada magistral yolların əksəriyyəti yenidən qurulmuşdur. Belə ki, 88 km-lik Naxçıvan-Sədərək magistralı, 2012-ci ildə bu tədbirlərin davamı olaraq 32 km uzunluğunda Naxçıvan-Culfa magistral yolu istifadəyə verilmişdir. 2012-ci ildə muxtar respublikada 139 km uzunluğunda yeni yollar salınmış, 8 körpü tikilmiş, 3 körpü isə yenidən qurulmuşdur [139, s.12].

Bu gün magistral yolların böyük əksəriyyətinin yenidən qurulduğu muxtar respublikada kənddaxili və kəndlərarası yolların da abadlaşdırılması diqqətdən kənarda qalmır, bu məqsədlə xüsusi maliyyə vəsaitlərinin ayrılması təmin edilir. Ölkə Prezidenti 2013-cü il 5 mart tarixli Sərəncamla Babək rayonunun 13 yaşayış məntəqəsini əhatə edən 25,6 km uzunluğunda Hacıvar-Vayxır-Sirab yolunun tikintisinə 6,3 milyon manat vəsait ayırmışdı [119, 2013, 29 dekabr]. Sərəncam icra olunmuş, tikinti işləri başa çatdırılmışdır. Ümumilikdə isə 2013-cü ildə muxtar respublikada 164 km uzunluğunda yollar salınmış və ya əsaslı təmir olunmuş, 21 körpü tikilərək, 12 körpü isə təmir olunaraq istismara verilmişdir [140, s. 13]. 2014-cü ildə muxtar respublikada 73 km uzunluğunda asfalt yollar salınmış, 5 körpü tikilmişdir [141, s.12-13].

Son illər yol təsərrüfatının yenidən qurulmasında əsas amil olan keyfiyyətli asfalt istehsalı üçün möhkəm zəmin yaradılmış, müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodları, qum-çınqıl karxanaları və bitum anbarları istifadəyə verilmişdir.

Naxçıvan şəhərində şəhərdaxili marşrutlarda sərnişinlərə xidmətin səviyyəsi günbəgün yaxşılaşmaqdadır. Belə ki, bu marşrutlarda işləmək üçün son illər beynəlxalq standartlara uyğun 37 ədəd yeni markalı avtobuslar gətirilmişdir. Hazırda muxtar respublikanın rayon mərkəzlərinə və kəndlərinə 297 ədəd marşrut avtobusları işləyir. Əhalinin rahatlığını təmin etmək üçün Naxçıvan, Şərur, Ordubad, Culfa və Şahbuz şəhərlərində yüksək standartlara uyğun avtovağzallar tikilərək sərnişinlərin xidmətinə verilmişdir.

Ümumiyyətlə, Naxçıvanda 1 beynəlxalq hava limanı, 5 avtovağzal kompleksi,

50 körpü, 797 km uzunluğunda yeni avtomobil yolları çəkilmişdir [110, s.10]. Muxtar respublikada nəqliyyat sektorunda yük daşınması 2003-cü illə müqayisədə 2,6 dəfə, sərnişin daşınması isə 2,5 dəfə artmışdır.

Naxçıvan Muxtar Respublikasının **rabitə** sisteminin rolu da xeyli artmışdır. 1995-2015-ci illərdə muxtar respublikada rabitənin inkişafı yüksək xətlə getmişdir. 1998-ci ildə Cənubi Koreyanın "DEU Telekom" şirkəti ilə bağlanmış müqaviləyə əsasən muxtar respublikada yaşayış məntəqələri telefonlaşdırılaraq abonentlər birbaşa Beynəlxalq Telefon rabitə sisteminə çıxma imkanı əldə etmişlər. Telekommunikasiya sistemində aparılan yenidənqurma işlərinin nəticəsində 35 mindən yuxarı elektron tipli xətt və nömrə, eyni zamanda mobil telefon şəbəkəsi istifadəyə verilmişdir. Ötən dövrdə muxtar respublikada telekommunikasiya sahəsində çox işlər görülüb, əhalinin yeni texnologiyalara olan tələbatı xeyli yüksəlib. Bu gün muxtar respublika üzrə fərdi kompyuterlərin sayı 303 minə çatmış, internetdən istifadə edənlərin sayı 353 mindən çox olmuşdur [119, 2015, 16 may]. Naxçıvanın özünün müstəqil "Naxtel" mobil rabitə sistemi mövcuddur və bunun vasitəsilə muxtar respublika ərazisinin 83 faizi simsiz internetlə təmin olunur. Muxtar respublikada aktiv istifadə olunan mobil telefonların sayı hazırda 358 min ədəddən çoxdur [119, 2015, 29 yanvar]. Əhalinin hər 100 nəfərinə 104 mobil telefon düşür. Hazırda muxtar respublokada mobil telefon abunəçilərinə xidmət edən 4 mobil operator fəaliyyət göstərir və bu da yaşayış ərazilərinin 93 faizindən çoxunu mobil rabitə ilə təmin edir.

Muxtar respublika ərazisində mövcud olan rabitə müəssisələri modernləşdirilmiş, yeni rabitə müəssisələri yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ilə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin yaradılması muxtar respublikada görüləcək işlərin daha dinamik, ardıcıl və sistemli şəkildə həyata keçirilməsinə imkan vermişdir. 2005-ci ildə muxtar respublikada 9 rabitə müəssisəsi və 79 poçt şöbəsi mövcud olmuşdur. Rabitə xidmətindən gələn gəlirlər xeyli artmışdır. 2000-ci il ərzində muxtar respublikanın rabitə müəssisələri tərəfindən 7,8 milyon manatlıq rabitə xidməti göstərilmişdir ki, bu da 1995-ci illə müqayisədə 3,7 dəfə çox idi. 2007-ci ildə rabitə xidmətlərinin həcmi 16,2 milyon manata çatmışdır [37, s.125]. 2009-cu il ərzində 3055 yeni telefon çəkilişi aparılmış, poçt və rabitə xidmətlərinin həcmi 2008-ci illə müqayisədə 34 faiz artaraq 31,1 milyon manat təşkil etmişdir. İnformasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi rabitə xidmətlərinin həcminin də artmasına müsbət təsir göstərmiş, 2010-cu ildə muxtar respublikada informasiya və rabitə xidmətlərinin həcmi 36 milyon manatdan çox olmuşdur ki, bu da 2009-cu illə müqayisədə 18 faiz artım deməkdir. Ümumi rabitə xidmətinin 86 faizi və ya 31.442 min manatı mobil rabitənin payına düşmüşdür [137, s.18]. 2013-cü ildə informasiya və rabitə xidmətlərinin həcmi 45052 min manat olmuşdur ki, bu da 2003-cü ildəki müvafiq göstəricilərdən 10,3 dəfə çoxdur [41, s.95].



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi
2010-cu il

Son illər muxtar respublikada informasiya və rabitə texnologiyalarının inkişafı, poçt xidmətlərinin modernləşdirilməsi və yeni xidmət növlərinin istifadəyə verilməsi istiqamətində əhəmiyyətli tədbirlər görülmüşdür. 2011-ci ildə muxtar respublikanın bütün ərazisində stasionar telefonların 7 rəqəmli nömrəyə keçidi təmin olunmuş, Yeni Nəsil Telekommunikasiya şəbəkəsinin tətbiqi istiqamətində işlər davam etdirilmişdir. Həyata keçirilmiş tədbirlər öz növbəsində informasiya və rabitə xidmətlərinin də həcmini artırmış, 2011-ci ildə bu xidmətlərin həcmi 39 milyon manatdan çox olmuşdur [138, s.13].

2012-ci ildə Naxçıvan şəhəri, Babək rayon mərkəzi, Nehrəm və Yarımca kəndlərində, Şərur və Sədərək rayonlarında yeni nəsil telefon stansiyaları qurulmuş, üçüncü nəsl avtomat telefon stansiyalarından istifadə edənlərin sayı 37 mindən çox olmuşdur. Bu da ümumi nömrə tutumunun 58 faizini təşkil edir. Həyata keçirilən islahatlar rabitə xidmətlərinin keyfiyyətini yaxşılaşdırmaqla bərabər onun həcminə də müsbət təsir göstərmişdir. 2012-ci ildə, ümumilikdə rabitə və informasiya xidmətlərinin həcmi 42 milyon manatdan artıq olmuşdur.

Rabitə və kommunikasiya texnologiyaları sahəsində hər 100 ailəyə düşən stasionar telefon aparatlarının sayı mühüm göstərici sayılır. Həm də bu göstərici əhalinin yaşayış standartlarını xarakterizə edir. Qeyd edək ki, 2010-cu il yanvarın 1-nə hər 100 ailəyə düşən stasionar aparatların sayı 67-yə, mobil telefonların sayı isə 104-ə çatmışdır. Ölkəmizdə 2013-cü il "İnformasiya-kommunikasiya texnolo-

giyaları ili" elan edilmişdir. Naxçıvan Muxtar Respublikasında bununla bağlı tədbirlər planı təsdiq olunmuş və həyata keçirilmişdir. İnformasiya cəmiyyətinin formalaşmasında xüsusi əhəmiyyətə malik olan "Elektron hökumət"in qurulması istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikasında "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən, dövlət orqanlarının göstərəcəyi elektron xidmətlərin reqlamentləri təsdiq edilmiş, reyestr kodları verilmiş və internet saytlarında yerləşdirilmişdir. Dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadənin təşkili məqsədilə "Elektron hökumət" portalı yaradılmış, 34 dövlət orqanının xidmətləri portala inteqrasiya edilmişdir.

Muxtar respublikada keyfiyyətli televiziya və radio yayımının təşkili məqsədilə tədbirlər görülmüş, yaşayış ərazilərində rəqəmli yayım təşkil edilmişdir. "Kanal – 35" televiziyasının və "Naxçıvanın səsi" radiosunun fəaliyyətə başlaması, Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin maddi-texniki bazasanın gücləndirilməsi və efir vaxtının artırılması muxtar respublikada informasiya və kommunikasiya texnologiyalarının ictimai həyatımıza sürətli inteqrasiyasını təmin etmişdir. Azərbaycan-Türkiyə optik kabel magistralının Naxçıvan seqmentinin yaradılması hesabına böyüktutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsi mümkün olmuşdur. Naxçıvan şəhərində, bir sıra qəsəbə və kəndlərdə yeni nəsil avtomat telefon stansiyaları quraşdırılmışdır. 64 telefon stansiyasında birləşdirici xətt əlaqəsi yaratmaq məqsədilə 554,2 km uzunluğunda radiorele xətti və 119 km fiberoptik kabellərdən istifadə etməklə 7470 telefon kanalı yaradılmış, 61 antena qülləsi tikilmişdir.

Poçt xidmətlərinin müasir tələblər səviyyəsində qurulmasını, ənənəvi xidmətlərlə yanaşı, əhaliyə yerlərdə poçt-maliyyə xidmətlərinin də göstərilməsini və kommunal xidmət haqlarının poçtlar vasitəsilə yığılmasını təmin etmək, eləcə də bu sahədə idarəetməni təkmilləşdirmək məqsədi ilə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmışdır. 2002-ci ildən etibarən muxtar respublikada 114 poçt bölməsi, 115 avtomat telefon stansiyası yeni binaya köçürülmüşdür [41, s.91]. Poçt bölmələrindən 74-ü yeni fəaliyyətə başlamış, avtomat telefon stansiyalarından isə 78-i yeni istifadəyə verilmişdir. 2002-ci ildən 2014-cü ilin yanvar ayının 1-nə kimi muxtar respublikada yeni elektrontipli avtomat telefon stansiyalarının və "Naxtel" simsiz rabitə şəbəkəsi üzrə yeni baza stansiyalarının yaradılması ilə 31710 ədəd yeni telefon nömrəsi istismara verilmişdir.

Muxtar respublikanın telekommunikasiya şəbəkəsi beynəlxalq Trans-Asiya-Avropa fiber-optik kabel magistralına qoşulmuş, ilk dəfə Naxçıvanın tranzit telekommunikasiya imkanları yaradılmışdır. Magistralın Naxçıvan-Ordubad, Naxçıvan-Sədərək və Naxçıvan-Şahbuz hissələri üzərində qurulan optik rəqəmsal şəbəkələr elektron hökumət və genişzolaqlı xidmətlərin həyata keçirilməsinə şərait

yaratmışdır. Hazırda muxtar respublikanın mövcud telekommunikasiya şəbəkəsinin 94 faizi optik şəbəkəyə birləşdirilmişdir. Optik şəbəkənin genişləndirilməsi evlərə də optik kabelin çəkilməsinə imkan vermiş, 2012-ci ilin avqust ayından etibarən Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrasına başlanmışdır. Telekommunikasiya əlaqələrinin alternativliyinin təmin edilməsi məqsədilə Naxçıvan-Türkiyə-Gürcüstan-Bakı istiqamətində optik kabel üzərindən rabitə kanalları yaradılmış, Naxçıvan-İran-Bakı istiqamətində yeni STM-16 səviyyəli telekommunikasiya əlaqələri təşkil edilmişdir. 242 km olan Ordubad-Sədərək arası böyüktutumlu fiber-optik kabel magistral xətti çəkilmişdir [119, 2015, 16 may].

Muxtar respublikanın yaşayış ərazilərinin 93 faizində genişzolaqlı internet, 83 faizində isə simsiz internet xidmətləri göstərilir. Muxtar respublikaya daxil olan internet kanalının sürəti 512 kb/san-dən 2 gb/san-dək artırılmış, internet xidmətlərinin faizləri aşağı salınmışdır.

Beləliklə, son iyirmi il ərzində Naxçıvanın blokada vəziyyətində olmasını nəqliyyat sektoru, informasiya-kommunikasiya texnologiyalarının inkişafı aradan qaldırmış, muxtar respublikanın sürətli inkişafı təmin edilmişdir.

4.6. Elektroenergetikanın yenidən qurulması, əhalinin və müəssisələrin qazla təmin edilməsi

Ölkəmizdə elektroenergetikanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Onun Azərbaycana rəhbərliyi dövründə bu sahənin inkişafına xüsusi diqqət yetirilmiş, enerji təminatı ödənilmişdir.

Əvvəllər Naxçıvan Muxtar Respublikası elektrik enerjisi ilə Zaqafqaziyanın vahid energetika sistemindən 220 kilovoltluq Ararat-Babək, 110 kilovoltluq Ararat-Şərur, Araz Su Elektrik Stansiyası vasitəsi ilə təchiz edilirdi. Ermənistan Respublikasının həyata keçirdiyi blokada siyasəti nəticəsində 1990-cı ildən etibarən muxtar respublikaya elektrik enerjisi verilişi dayandırıldı, yalnız Araz SES-də istehsal edilən 20 meqavat gücündə elektrik enerjisi şəbəkələrə ötürüldü.

1991-92-ci illərdə yaranmış çətin şəraitə baxmayaraq, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə blokadada olan Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi ilə təchiz etmək məqsədilə Türkiyədən 154 kilovoltluq və İrandan Naxçıvana 132 kilovoltluq yüksək gərginlikli elektrik verilişi xətləri çəkildi [6, 2010, 20 oktyabr]. Türkiyədən və İrandan elektrik enerjisi alınmağa başlandı. 1993-cü ilin ortalarında muxtar respublikaya Türkiyə Respublikasından 63 meqavat, İran İslam Respublikasından isə 42 meqavat gücündə elektrik enerjisi daxil olurdu [119, 2010, 20 oktyabr]. Muxtar respublikanın elektrik şəbəkələrinin 120 meqavata qədər güclü elektrik enerjisini paylaşdırmaq üçün texniki imkanları yaranmışdır.

Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2005-ci il 2 may tarixli Sərəncamına uyğun olaraq, muxtar respublikada kompleks tədbirlər həyata

keçirilmiş, 2006-cı ilin dekabrında ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərində ümumi gücü 4,5 meqavat olan su elektrik stansiyası və 2010-cu ilin oktyabr ayında Ordubad rayonu ərazisində - Gilançay üzərində gücü 22 meqavat olan Biləv Su Elektrik Stansiyası istifadəyə verilmişdir.



Naxçıvan Qaz-Turbin Elektrik stansiyası 2006-cı il

Ümumi gücü 50 meqavat olan Qaz-Turbin Elektrik Stansiyasının təbii qazla iş rejiminə keçirilməsindən sonra istismara verilməsi də bu istiqamətdə həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Bu da nəinki Naxçıvanın elektrik enerjisi ilə təchizatının idxaldan asılılığını aradan qaldırmış, hətta muxtar respublikanın elektrik enerjisi ixrac etməsinə geniş imkanlar açmışdır.



"Xalçaçılıq" Elektrik yarımstansiyası 2010-cu il

1990-cı illərin ortalarından başlayaraq muxtar respublikaya daxil olan elektrik enerjisinin paylanılmasını yaxşılaşdırmaq, itkiləri azaltmaq, enerji təchizatının etibarlılığını yüksəltmək üçün bir sıra mühüm tədbirlər həyata keçirildi. İlk növbədə "Koroğlu", "Araz", "Culfa", "Çeşməbasar", "Arpaçay", "Sədərək", "Xalxal" yarımstansiyaları tikilib quraşdırılmış və onların gücü artırılmışdır. 2010-cu ildə Naxçıvan şəhərində "Xalçaçılıq", "Xətai" və "Sənaye qovşağı" elektrik yarımstansiyaları qurulmuşdur. Ümumilikdə bu dövr ərzində muxtar respublika üzrə 36 ədəd müxtəlif güclü transformator yarımstansiyasının quraşdırılması və 55,1 km uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətlərinin çəkilişi başa çatdırılmışdır [44, s.104].



Biləv Su Elektrik Stansiyası 2010-cu il

Muxtar respublika əhalisini və istehsal sahələrini elektrik enerjisi ilə təmin etmək üçün 2006-cı ildə görülən tədbirlərin əhəmiyyəti daha böyük olmuşdur. 2005-ci ildə muxtar respublikaya təbii qazın verilməsi yeni elektrik stansiyalarının işə salınmasına səbəb olmuşdur. 2010-cu il oktyabr ayının 5-də Biləv Su Elektrik Stansiyasının açılışında iştirak edən ölkə başçısı İlham Əliyev deyib:

"Bu gün Azərbaycan enerji təhlükəsizliyi məsələlərində nəinki bölgədə, eyni zamanda qitədə öz rolunu oynayır. Bu rol artır və getdikcə imkanlarımız daha da genişlənəcəkdir. Biz artıq ölkə daxilində enerji təhlükəsizliyi məsələlərini yüz faiz həll etmişik... Bu gün Biləv Su Elektrik Stansiyasının açılışı, sadəcə olaraq, görülən işlərin yeni mərhələsidir. Bu stansiyanın çox böyük əhəmiyyəti vardır. Düzdür, Naxçıvanın enerji təhlükəsizliyi tam şəkildə təmin edilibdir. Naxçıvanda enerji potensialının həcmi tələbatdan bir neçə dəfə artıqdır. Ancaq su elektrik stansiyalarının öz xüsusiyyətləri vardır. O, təbiətdən qaynaqlanan bir enerjidir, gücdür. Əminəm ki, gələcəkdə bu sahədə əlavə tədbirlərin görülməsi nəticəsində Naxçıvandan qonşu ölkələrə daha da böyük həcmdə elektrik enerjisinin ixracı mümkün olacaqdır" [6, 2010, 6 oktyabr].



Arpaçay elektrik yarımstansiyası 2013-cü il

Muxtar respublikada təbii resurslardan səmərəli istifadə yeni elektrik stansiyalarının tikintisinə geniş imkanlar açıb. 2011-ci ilin fevralında Şərur rayonu ərazisindəki Arpaçay üzərində gücü 20,5 meqavat, illik elektrik enerjisi istehsalı 60 milyon kilovat-saat olacaq Arpaçay Su Elektrik Stansiyasının tikintisinə başlanılıb [119, 2013, 14 sentyabr]. Arpaçay Su Elektrik Stansiyası Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "2008-2013-cü illər üzrə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində inşa olunmuş və 2013 il sentyabrın 9-da istifadəyə verilmişdir [119, 2013, 10 sentyabr]. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Arpaçay SES-in açılışında çıxış edərək demişdir: "Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənilir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir" [119, 2013, 10 sentyabr].

Qeyd olunduğu kimi, gücü 20,5 meqavat olan su elektrik stansiyası suqəbuledici qurğu, stansiya binası, tunel və transformator yarımstansiyalarından

ibarətdir. Suqəbuledici saniyədə 37 kubmetr su buraxmaq gücünə malikdir. Diametri 3,9 metr olan tunelin uzunluğu isə 1100 metrdir. Tuneldən suyu turbinlərə ötürmək üçün 145 metr uzunluğunda yüksəktəzyiqli boru xətti çəkilmiş, 45 metr dərinliyi olan havaboşaldıcı inşa edilmişdir. Stansiya binasında müasir iş otaqları və idarəetmə mərkəzi yaradılmışdır. Stansiya binasında Avstriyanın "Andritz" şirkətinin istehsalı olan 7,75 meqavat gücə malik 2 ədəd və gücü 5 meqavat olan 1 ədəd Françesktipli turbin quraşdırılmış və onlara üfüqi şəkildə bağlanmış müvafiq güclü generatorlar qoşulmuşdur. Bütün emal prosesi avtomatlaşdırılmış şəkildə həyata keçirilir.

İstehsal olunmuş elektrik enerjisini şəbəkəyə ötürmək üçün 30 meqavoltamper gücə malik transformator yarımstansiyası qurulmuş, 11 kilometr uzunluğunda 110 kilovoltluq elektrik verilişi xətləri çəkilmişdir [6, 2013, 12 sentyabr].



Arpaçay -2 Su Elektrik Stansiyası 2014-cü il

2012-ci ildə Arpaçayın aşağı qolu üzərində tikintisinə başlanmış 1,4 meqavat güclü su elektrik stansiyası da istismara verilmişdir [47, 2014, 10 noyabr]. 2014-cü il martın 14-də Azərbaycan Respublikasının Prezidenti Naxçıvan Muxtar Respublikasında "Arpaçay-2" Su Elektrik Stansiyasının tikintisinin maliyyələşdirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncama əsasən, "Arpaçay-2 SES-in tikintisini başa çatdırmaq məqsədilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 4 milyon manat vəsait ayrılmışdır [119, 2015, 22 yanvar]. 2014-cü ildə ölkə başçısının iştirakı ilə gücü 20,5 meqavat olan "Arpaçay-1" və gücü 1,4 meqavat olan "Arpaçay-2" su elektrik stansiyalarının istifadəyə verilməsi elektrik enerjisinə olan tələbatın bərpa olunan enerji mənbələri hesabına ödənilməsinə şərait yaratmışdır.

Hazırda Ordubad rayonu ərazisində - Araz çayı üzərində gücü 36 meqavat, illik elektrik enerji istehsalı 190 milyon kilovat-saat olacaq derivasiya tipli Ordubad Su Elektrik Stansiyasında tikinti işləri davam etdirilir. Stansiyanın tənzimləyən bəndi Dəstə kəndində, binası isə Ordubad şəhəri yaxınlığında yerləşəcəkdir. Stansiyada hər birinin gücü 12 meqavat olan 3 hidroaqreqat quraşdırılması, elektrik enerjisinin şəbəkələrə ötürülməsi üçün 80 kilometr uzunluğunda 110 kilovoltluq elektrik verilişi xəttinin çəkilməsi nəzərdə tutulmuşdur [47, 2014, 8 yanvar].

Muxtar respublikanın təbii şəraiti burada külək və günəş elektrik stansiyalarının da tikilib quraşdırılmasına imkan verir. Babək rayonu ərazisindəki Xalxal meşəsi yaxınlığında günəş elektrik stansiyasının tikintisinə başlanılıb. Culfa rayonu ərazisində - Araz çayının kənarında külək elektrik stansiyasının tikilməsi məqsədə-

uyğun hesab edilib.

Həyata keçirilən kompleks tədbirlər onu deməyə əsas verir ki, muxtar respublikanın elektrik enerjisinə olan tələbatının su elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi hesabına ödənilməsi mümkün olacaq və yaxın gələcəkdə Naxçıvan Muxtar Respublikası daha çox elektrik enerjisi ixrac edəcəkdir. 1970-ci ildən istismar olunan 22 meqavat gücə malik Araz Su Elektrik Stansiyası nəzərə alınmaqla ümumi istehsal gücü 206 meqavat olan elektrik stansiyalarında hazırda tələbata uyğun olaraq 80-90 meqavat gücündə elektrik enerjisi istehsal olunur.

Yay aylarında nasos stansiyalarının işləməsi ilə əlaqədar olaraq muxtar respublikanın elektrik enerjisinə tələbatı 75-80 meqavat, qalan aylarda isə 45-50 meqavat olur.

İstehsal olunan elektrik enerjisi nəinki daxili tələbatı ödəyir, hətta 25-30 meqavat elektrik enerjisi ixrac etməyə imkan verir. Bu sahədə müvafiq işlər görülmüş, son illər İran İslam Respublikasının "Pars Sakhtar" şirkəti ilə bağlanmış müqaviləyə əsasən, Naxçıvan Modul Elektrik Stansiyası ilə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası arasında dəyəri 1 milyon 680 min avro təşkil edən 24 kilometr uzunluğunda 110 kilovoltluq elektrik verilişi xətti çəkilmişdir. Xəttin istismara verilməsi muxtar respublikanın elektrik şəbəkələrinin dayanıqlığının xeyli yüksəlməsinə, həmçinin qonşu dövlətlərlə enerji mübadiləsinin yaxşılaşdırılmasına texniki imkanlar yaratmışdır. Hazırda İran İslam Respublikası ilə enerji mübadiləsi aparılır, Türkiyə Respublikasına 20-30 meqavat elektrik enerjisi ixrac edilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvanın enerji ilə təminatı məsələsi dəfələrlə müzakirə edilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmiş və muxtar respublikanın elektrik enerjisi ixrac edən bir bölgəyə çevrilməsi məsələsi qoyulmuşdur. Artıq muxtar respublikada enerji təhlükəsizliyi təmin edilmişdir. Sovet hakimiyyəti illərində cəmi 1 elektrik stansiyası olan muxtar respublikada bu gün 7 elektrik stansiyası fəaliyyət göstərir. 1988-ci ildə muxtar respublikada 86 milyon kilovat-saat elektrik enerjisi istehsal olunmuşdursa, 2010-cu ildə bu göstərici 6 dəfə artaraq 534 milyon kilovat-saata çatmışdır.

Muxtar respublikada 11 kilometr uzunluğunda 35 kilovoltuq, 83 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətlərinin çəkilişi başa çatdırılmış, 42 ədəd müxtəlif güclü transformator yarımstansiyası quraşdırılmışdır [119, 2015, 22 yanvar].

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının uğurlu davamının məntiqi nəticəsidir ki, ölkənin ayrı-ayrı bölgələrində olduğu kimi, muxtar respublikada da irimiqyaslı layihələr reallaşır, genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilir. Görülən işlərin bir hissəsini də muxtar respublikada əhalinin və təsərrüfat subyektlərinin **təbii qazla** təmin olunması istiqamətində həyata keçirilən layihələr təşkil edir. Muxtar respublikaya Ermənistan ərazisi vasitəsi ilə 1991-ci ildə qaz verilməsi dayandırıldıqdan sonra əhalinin qazla

təmin edilməsində problemlər yaranmışdı. Muxtar respublikanı vəziyyətdən çıxarmaq üçün 1992-ci il avqustun 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev İran İslam Respublikasında səfərdə olarkən prezident Əli Əkbər Haşimi Rəfsəncani ilə görüşmüş, iqtisadi əlaqələrin genişləndirilməsi, həmçinin muxtar respublikanın qaz tələbatını təmin etmək barədə söhbətlər aparmış və razılıq əldə etmişdi.

İran tərəfi Xoy-Culfa qaz kəmərinin tikintisini öz üzərinə götürmüşdü. Kəmər istifadəyə verildikdən sonra muxtar respublikaya sutkada 1 milyon ton kub metr qaz verilməli idi. Lakin müəyyən səbəblərdən qaz çəkilişi bir qədər yubandı. İran İslam Respublikası Naxçıvan MR-ə ayda 100 ton maye qaz göndərməyi öhdəsinə götürmüşdü. 1998-ci ildə maye qazla qazlaşdırılmış mənzillərin sayı 46274-ə çatdırıldı. Muxtar respublikanın həyatında baş verən ən əlamətdar hadisə uzun illərin fasiləsindən sonra ölkə Prezidenti İlham Əliyevin bilavasitə himayə və qayğısı nəticəsində 2005-ci ildə İran İR-dən mübadilə yolu ilə Naxçıvan MR-ə təbii qaz kəmərinin çəkilişi oldu. Qısa müddət ərzində Culfa-Naxçıvan yüksək təzyiqli, Naxçıvan-Cəhri orta təzyiqli magistral, Naxçıvan şəhər orta təzyiqli dairəvi qaz kəmərinin çəkilişi başa çatdırıldı.



Naxçıvan-Sədərək yüksək təzyiqli magistral qaz kəməri
2005-ci il

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı razılıq əsasında əldə olunmuş layihənin – qazın Naxçıvan Muxtar Respublikasına verilməsi ilə bağlı tənətənəli açılış mərasimində iştirak etmək üçün İran Prezidenti Mahmud Əhmədinejadın başçılığı ilə nümayəndə heyəti 2005-ci il dekabrın 20-də Naxçıvana gəldi. Prezidentlərin görüşləri olmuş, birgə mətbuat konfransında bəyanatla çıxış etmişlər. Dekabrın 20-də hər iki ölkənin prezidentləri Naxçıvan Muxtar Respub-

likasına İran ərazisi ilə təbii qazın verilməsi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak və çıxış etmişlər. Prezident İlham Əliyev demişdir: "Bu gün çox tarixi bir gündür. Uzun fasilədən sonra Naxçıvana təbii qazın verilməsi bərpa olundu, 15 ildən sonra Naxçıvana qaz verildi... Naxçıvana qazın verilməsi iki ölkə arasında olan əlaqələrin təzahürüdür, onun nəticəsidir. İranla Azərbaycan arasında çox yaxın münasibətlər vardır. Bu gün keçirdiyimiz görüşdə bir daha əmin olduq ki, həm siyasi, həm iqtisadi, mədəni, həm də bütün başqa sahələrdə bizim aramızda qarşılıqlı anlaşma var, inam var, gözəl əməkdaşlıq var... Məhz bu münasibətlərin nəticəsində birgə layihələr icra olunur, birgə məsələlər öz həllini tapır" [6, 2005, 21 dekabr].

Təntənəli mərasimdə İran Prezidenti Mahmud Əhmədinejad çıxış edərək dedi: "Çox şadam ki, indi burada qaz şölələndi və bundan sonra Naxçıvan əhalisi bu nemətin rahatlığından tam istifadə edəcəkdir. Mənim burada olmağım iki ölkə arasında olan möhkəm, dərin əlaqələrin daha da genişlənməsini göstərir. Bu əlaqələr nəticəsində iki ölkənin xalqları, hökumətləri arasında münasibətlərin günbəgün genişlənməsinin şahidi olacağıq" [6, 2005, 21 dekabr].

Qısa müddət ərzində Naxçıvan qazlaşdırıldı, Culfa-Ordubad və Şahbuz-Sədərək ötürücü qaz kəmərinin təmiri və bərpası tamamlandı. 2005-ci ildə 6770 mənzilə və 195 fərdi evə qaz çəkildi. Sonrakı illərdə qazlaşdırma prosesi çox sürətlə aparıldı və muxtar respublikada əhalinin və təsərrüfat subyektlərinin qazla təchizatı başa çatdırıldı. 2011-ci ilin yanvarınadək 220 yaşayış məntəqəsində 78157 mənzil qazlaşdırılmış, abunəçilərə pulsuz olaraq mətbəx sobaları verilmiş, qaz sayğacları quraşdırılmışdır. 2011-ci ilin sonunda isə ən ucqar dağ kəndləri də əhatə olunmaqla muxtar respublikanın bütün ərazisi tamamilə qazlaşdırılmışdır [138, s.13-14]. İstehlakçıların təbii qazla fasiləsiz təmin edilməsi ilə yanaşı, bu sahədə infrastrukturun təkmilləşdirilməsi məsələləri də diqqət mərkəzində saxlanılır, mövcud qaz xətlərində təmir işləri aparılır, istismar müddəti başa çatan xətlər yeniləri ilə əvəz olunur. 2012-ci ildə uzunluğu 27 kilometr olan Cəhru-Şahbuz orta təzyiqli qaz xəttində, uzunluğu 81,6 kilometr olan Naxçıvan-Sədərək yüksək təzyiqli qaz xəttində tikinti işləri başa çatdırılmışdır [140, s.15].

4.7. Ekologiya və yaşıllaşdırma tədbirləri

Muxtar respublikada təbii meşə ehtiyatlarının az olması, son illərdə sənaye potensialının inkişafı, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, keçən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikanın blokadaya düşməsi nəticəsində yanacağın çatışmaması ucbatından ağacların kütləvi şəkildə qırılması muxtar respublikanın ekologiyasına ciddi ziyan vurmuşdu. Ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən təbiətə dəyən ziyanın aradan qaldırılması üçün ardıcıl tədbirlər müəyyənləşdirmiş, yaşıllaşdırma aylığının keçirilməsini taleyüklü məsələ kimi irəli sürmüşdü. Həmin

illərdə blokadanın çətinliklərinə baxmayaraq, ümummilli liderin səyi nəticəsində burada yaşıllaşdırma iməciliklərinin keçirilməsinə başlanılmış, təbiətin, yaşıllıqların qorunması və bərpası işlərinə diqqət artırılmışdır.

1996-cı ildən muxtar respublikada ümummilli liderin müəyyənləşdirdiyi quruculuq xəttinə, o cümlədən yaşıllaşdırma aylığının keçirilməsi barədə qəbul etdiyi qərara ardıcıl əməl edilməsi nəticəsində təbii meşə sahələri artırılmış, parklar, yaşıllıq zolaqları, gülkarlıqlar salınmış, həmişəyaşıl ağaclar əkilmişdir. Qeyd etməliyik ki, Naxçıvan Muxtar Respublikasının ərazisi flora müxtəlifliyinin zənginliyinə görə Azərbaycan florasının 62,4 faizini təşkil edir. Amma bununla yanaşı burada meşə ehtiyatları olduqca azdır.

Ulu öndərin 2001-ci il 23 may tarixli Sərəncamına əsasən, ölkəmizdə ekoloji siyasəti həyata keçirən vahid dövlət idarəetmə strukturunun – Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması bu sahəyə göstərilən dövlət qayğısının daha bir ifadəsinə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında yaşıllaşdırma, təmizlik və abadlıq aylığının keçirilməsi haqqında" 2001-ci il 1 mart tarixli Sərəncamını xüsusilə qeyd etmək lazımdır. Həmin sərəncamdan sonra muxtar respublikada hər ilin yaz və payız aylarında yaşıllaşdırma, təmizlik və abadlıq aylığı elan olunmuş, iməciliklərin keçirilməsi ənənə halını almışdır. Həmçinin, Ali Məclis Sədrinin "2007-ci ilin yazında və payızında yaşıllaşdırma, təmizlik və abadlıq aylığının keçirilməsi haqqında" 2007-ci il 24 fevral tarixli Sərəncamı ilə əlavə tədbirlər keçirildi. Keçirilən iməciliklərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirak etməsi, müvafiq tapşırıqlar verməsi bu gün muxtar respublikanın yaşıllıqlar diyarına çevrilməsində böyük rol oynadı. 2009-cu ildə yaşıllaşdırma tədbirlərinin uğurla davam etdirilməsi nəticəsində muxtar respublika ərazisində 497,3 hektar sahədə meşəsalma, meşəbərpa tədbirləri həyata keçirilmişdir ki, bu da 2008-ci illə müqayisədə 2 faiz çoxdur. Həyata keçirilən yaşıllaşdırma tədbirlərində 206718 ədəd meşə tingi, 280140 ədəd meyvə tingi, 12983 ədəd həmişəyaşıl ağac, 49430 ədəd bəzək və gül kolu olmaqla 549271 ədəd ting əkin dövriyyəsinə daxil edilmişdir. Naxçıvan diyarının iqlim şəraiti nəzərə alınaraq damcı üsulu ilə suvarmanın tətbiqinə başlanılmışdır. 2009-cu ildə Naxçıvan-Sədərək magistral yolunun 6-10 kilometrliyində yeni salınmış 50 hektarlıq yaşıllıq sahəsi, Culfa rayonu ərazisində 26 hektar sahə damcı üsulu ilə suvarılır. Ümumiyyətlə, 156 hektar sahədə damcı üsulu ilə suvarmadan istifadə edilir ki, bu da su itkisini aradan qaldırır. 2001-ci ildən yeni yaşıllıq zolaqlarının yaradılması, yaşıllaşdırma tədbirlərinin görülməsi təsdiq olunmuş plan əsasında aparılmış, muxtar respublikada 522,5 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 585 mindən çox ağac və bəzək kolu əkilmişdir [119, 2011, 29 yanvar].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 25 may tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii

Sərvətlər Nazirliyi də muxtar respublika ərazisində təbiətin qorunması, əlverişli ekoloji mühitin yaradılması və mövcud ekoloji tarazlığın saxlanılması sahəsində mühüm tədbirlər həyata keçirir. Nazirlik tərəfindən təkcə 2009-cu ildə 145,2 hektar sahədə yeni yaşıllıqlar, meşə massivləri, meyvə bağları salınmış və meşəbərpa tədbirləri həyata keçirilmişdir. Bütövlükdə, muxtar respublikada ekoloji vəziyyətin daha da yaxşılaşdırılması istiqamətində 2004-2013-cü illər ərzində 8480 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 5 milyon 512 mindən çox ağac və gül kolu əkilmişdir [41, s.90]. Yaşıllaşdırma tədbirlərinə sonrakı illərdə də diqqət yetirilmişdir. 2013-cü ildə 531 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 400 mindən çox ağac və gül kolu əkilmişdir. 2014-cü ildə isə müvafiq olaraq bu, 536,5 hektar və 440,7 min ədəd olmuşdur [141, s.11].

Muxtar respublikada həyata keçirilən yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirləri öz nəticəsini vermiş, yaşıllıq ərazilər artmışdır. Belə ki, əgər 1990-cı ilin əvvəllərində yaşıllıq sahələri muxtar respublika ərazisinin cəmi 0,6 faizini təşkil edirdisə, 2014-cü ildə bu göstərici 11 faizə yaxın olmuşdur. Bu müddətdə adambaşına düşən yaşıllığın həcmi isə 0,012 hektardan 0,21 hektara yüksəlib. Halbuki ölkə ərazisində adambaşına 0,14 hektar meşə örtüyü düşür. Son 15 ildə muxtar respublika ərazisində təkcə dövlət strukturlarının dəstəyi ilə 10124 hektar sahədə yaşıllıqlar – meşə massivləri, meyvə bağları, yaşıllıq zolaqları salınmışdır [44, s.127].

Naxçıvan Muxtar Respublikasında ətraf mühitin mühafizəsi, nadir nəsli kəsilmək təhlükəsi olan flora və fauna növlərinin, təbiət komplekslərı və abidələrin qorunub saxlanılması, insanların ətraf mühitdən sağlamlıq, istirahət və turizm məqsədilə istifadəsinin təmin edilməsi üçün xüsusi mühafizə statuslu təbiət ərazilərinin genişləndirilməsi və inkişaf etdirilməsinə əhəmiyyət verilir.

Naxçıvan Muxtar Respublikasında ilk xüsusi mühafizə olunan təbiət ərazisi ümummilli lider Heydər Əliyevin diqqət və qayığısı ilə 1969-cu ildə yaradılmış Ordubad Dövlət Yasaqlığıdır. Muxtar respublikanın xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 16 iyun tarixli Sərəncamı ilə Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu yaradıldı [46, 2010, 10 oktyabr].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr tarixli Sərəncamı ilə "Arazboyu" Dövlət Təbiət Yasaqlığı (ərazisi 9118 hektar), 2009-cu il 22 iyun tarixli Fərmanı ilə "Arpaçay" Dövlət Təbiət Yasaqlığı (ərazisi 68911, 18 hektar) yaradıldı [44, s.128-129].

Muxtar respublika ərazisində mövcud olan ekoturizm potensialından səmərəli istifadə edilməsi, elmi-tədqiqat işlərinin aparılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı yaradıldı. Milli Parkın ərazisinə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Culfa

və Ordubad rayonlarının inzibati ərazilərində olan dövlət meşə fondu və Şahbuz, Culfa, Ordubad rayonlarının inzibati ərazisində yerləşən yay otlaqlarının torpaqları daxil edildi. Beləliklə, 1995-ci illə müqayisədə xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 3,7 dəfədən çox artdı. Nəticədə muxtar respublikanın 148816,6 hektar ərazisi xüsusi mühafizə olunan təbiət əraziləridir. Bu göstərici öz növbəsində beynəlxalq normaları da üstələyir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə 2010-cu il ölkəmizdə "Ekologiya ili" elan edilmişdir. "Ekologiya ili"ndə muxtar respublikada yaşıllaşdırma, təmizlik və abadlıq sahəsində həyata keçirilən tədbirlər daha geniş miqyasda davam etdirilmişdir. 2010-cu ilin yaz əkini dövründə yeni yaşıllıq zolaqları yaradılmış, yaşıllaşdırma tədbirləri aparılmış, muxtar respublika üzrə 248 hektar sahədə meşəsalma və meşəbərpa işləri həyata keçirilmiş, 250 mindən çox ağac əkilmişdir.



Şahbuz Dövlət Təbiət Qoruğu
2009-cu il

Yaşıllaşdırma, təmizlik və abadlıq sahəsində həyata keçirilən tədbirlər muxtar respublikanın simasını tamamilə dəyişib. Bu dəyişikliklərin ilkin şərti isə təmizlik və yaşıllıqdır.

Naxçıvan Muxtar Respublikasında əlverişli ekoloji mühitin yaradılması sahəsində ardıcıl tədbirlər görülür. Görülən işlərin nəticəsidir ki, beynəlxalq ekoloji təşkilatlar tərəfindən muxtar respublikada həyata keçirilən tədbirlər yüksək qiymətləndirilir. Belə ki, muxtar respublika ərazisinin 27 faizindən çoxunun xüsusi mühafizə olunan ərazi olması, fauna ehtiyatlarının qorunması məqsədilə ova qadağaların qoyulması, yaşıllıqların artırılması sahəsində görülən işlər nüfuzlu təşkilat və ekspertlər tərəfindən nümunə kimi qəbul edilir. Ona görə də ABŞ, Rusiya, Fransa, Almaniya, İtaliya və başqa ölkələrin alimləri Naxçıvanın biomüxtəlifliyinin zənginliyinə görə Naxçıvana gəlmiş, yerli alimlərlə müştərək tədqiqatlar aparmışlar. Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun Qafqaz Təmsilçiliyinin direktoru Georgi Sanadiradze Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə ünvanladığı məktubda muxtar respublikada təbiəti mühafizə sahəsində görülən işlərə yüksək qiymət verərək qeyd etmişdir ki, " Muxtar respublikada ova qoyulmuş moratoriumun 10 ilə yaxın müddətdə fəaliyyətdə olması, xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması və gücləndirilməsi, yerli əhalinin məlumatlandırılması tədbirləri, təbiət komplekslərinin tədqiqi və monitorinqi artıq öz bəhrələrini verməkdədir... Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkında keçirilən

biomüxtəlifliyin monitorinqi nadir və nəsli kəsilməkdə olan növlərin artım dinamikasında baş verən müsbət meyilləri göstərir... Bütün bu faktlar Naxçıvan Muxtar Respublikasında Sizin tərəfinizdən həyata keçirilən təbiəti mühafizə siyasətinin düzgünlüyünü bir daha təsdiq edir" [119, 2014,5 iyun].

Muxtar respublika təbiətinin zənginliyi həm də burada nadir bitki və heyvan növlərinin mövcudluğu ilə ölçülür. AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun əməkdaşları muxtar respublika ərazisində nadir bitki və heyvan növlərini müəyyənləşdirmişlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair iki cilddən ibarət "Qırmızı kitab" çap edilmişdir. Bu da sayı azalmaqda olan növlərin mühafizə edilməsi və artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

4.8. Əhalinin sosial müdafiəsinin təmin edilməsi

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə görülən işlər, həyata keçirilən tədbirlər əhalinin sosial problemlərinin həll edilməsinə kömək etmişdir. Əhalinin işlə təminatı sahəsində əməli addımlar atılmağa başlanılmış, sənaye müəssisələrinin bərpası sayəsində minlərlə yeni iş yerləri açılmışdır. Əhalinin pul gəlirləri, işçilərin orta aylıq əməkhaqqı və müavinətlər durmadan artmışdır. Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın müxtəlif sahələri üzrə muzdla işləyənlərin orta aylıq əməkhaqqı 1998-ci ildə 163,2 manat təşkil etmişdi ki, bu da 1995-ci ildəki müvafiq göstəricidən 83,7 manat və ya 2,1 dəfə yüksək idi. 2005-ci ildə sənayedə işləyənlərin nominal əmək haqqı 221 manat, tikintidə 210,9 manat, rabitədə 220,2 manat təşkil etmişdi ki, bu da 1995-ci ildəkindən 2,2 dəfə yüksək idi. 2005-ci ildə 2000-ci ilə nisbətən əhalinin nominal pul gəlirləri 2,7 dəfə, adambaşına düşən pul gəliri isə 2,6 dəfə artmışdı [127, s.65]. Əhalinin real gəlirlərinin artmasını belə bir göstərici də sübut edir ki, 1995-ci ildə əhalinin istifadəsində 11760 ədəd avtomobil var idisə, 2001-ci ildə şəxsi avtomobillərin sayı 17 min, 2014-cü ildə isə 38541 ədəd olmuşdur.

Görülən məqsədyönlü tədbirlər əhalinin rifahının və gəlirlərinin yüksəlməsinə səbəb olmuşdur. 2009-cu ildə bir işçiyə hesablanmış orta aylıq əmək haqqının məbləği 2008-ci ilə nisbətən 15,8 faiz çox olmuşdur. 2010-cu ildə orta aylıq əməkhaqqının məbləği 303 manat olmuşdu. Ümumiyyətlə, 1994-cü illə müqayisədə 2009-cu ildə əhali gəlirlərinin həcmi 36 dəfə artaraq 25,6 milyon manatdan 913,4 milyon manata çatmışdır [136, s.26].

Əhalinin tələbatını ödəmək üçün 2010-cu ildə muxtar respublikada 108 növdə, 319 çeşiddə ərzaq, 184 növdə, 461 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 292 növdə, 780 çeşiddə məhsul istehsal olunmuşdur [119, 2011, 29 yanvar].

İstehsal olunan 89 növdə ərzaq, 158 növdə qeyri-ərzaq olmaqla, cəmi 247 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilmişdir. Bu gün isə

muxtar respublikada 352 növdə məhsul istehsal olunur, 107 növdə ərzaq, 229 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə, 336 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir [119, 2014, 16 dekabr].

Muxtar respublika üzrə iqtisadi sahədə əldə edilmiş inkişaf meyilləri əhalinin rifah halının da yüksəlməsinə səbəb olmuşdur. Belə ki, 2003-cü ildə muxtar respublikada əhalinin gəlirləri 1993-cü ilə nisbətən 10,5 dəfə artaraq 170397 min manata, onun hər bir nəfərə düşən həcmi isə 9 dəfəlik artımla 458 manata çatmışdır [41, s.73]. Sonrakı illərdə əhali gəlirləri daha da artmışdır. 2010-cu ilə nisbətən 2011-ci ildə əhali gəlirlərinin həcmi 44 faiz artaraq 1446 milyon manat təşkil etmişdir [138, s.15]. Əhali gəlirlərinin həcminin artmasına "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliklər də öz təsirini göstərmişdir. Həmin dəyişikliklərə əsasən muxtar respublika ərazisində 2010-cu il yanvarın 1-dən pensiyaya çıxmış şəxslərdən 80 faizinin pensiyalarının məbləği orta hesabla 40 faizədək artmışdır. Bir işçiyə orta aylıq əməkhaqqının məbləği isə 13 faiz artaraq 341 manat olmuşdur. Minimum əməkhaqqının və müxtəlif sahələrdə çalışan işçilərin əməkdaşlarının 10 faiz artması da əhali gəlirlərinə müsbət təsir göstərmişdir. Yeni istehsal və xidmət sahələrinin yaradılması da öz təsirini göstərmişdir. 2013-cü ildə muxtar respublikada əhalinin gəlirləri 2012-ci ilə nisbətən 7 faiz artmış və 1737 milyon manatdan çox olmuşdur [140, s.16]. Əhali gəlirləri üzrə müsbət dinamika davam etməkdədir. 2015-ci ilin yanvar-aprel aylarında muxtar respublikada əhalinin gəlirləri 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz artaraq 466985 min manat, onun hər bir nəfərə düşən həcmi isə 3,2 faiz yüksələrək 1060,4 manat təşkil etmişdir [119, 2015, 21 may]. Qeyd olunan dövrdə muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 392,2 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,7 faiz artmışdır.


Muxtar respublika iqtisadiyyatında əldə olunmuş sabit artım tempi səmərəli məşğulluğun təşkili və yeni iş yerlərinin yaradılması üçün də əlverişli mühit formalaşdırmışdır. 1993-cü ildən 2003-cü ilin sonunadək olan dövr ərzində muxtar respublikada 21851 yeni iş yeri yaradılmışdır ki, bunun da 11377-si və ya 52,1 faizi daimi iş yerləridir. 2000-2005-ci illər ərzində məşğulluq mərkəzləri tərəfindən 6915 nəfər işlə təmin olunmuşdur [127, s.65]. Sonrakı illərdə bu məsələyə daha böyük diqqət yetirilmişdir. 2006-cı ildə 8044 yeni iş yeri, 2007-ci ildə 5827, 2008-ci ildə 6434, 2009-cu ildə 4742, 2010-cu ildə 3556 yeni iş yerləri açılmışdır. Ümumiyyətlə, 1995-2010-cu illərdə 64 mindən çox yeni iş yeri yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 30 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" müvəffəqiyyətlə yerinə yetirilmişdir. 2003-2013-cü illərdə 58460 yeni iş yeri açılmışdır [110, s.10]. İqtisadi fəal əhalinin sayı 24,7 faiz, məşğul əhalinin sayı isə 30,1 faiz

artmışdır. 2014-cü ildə 3805 iş yeri açılmışdır ki, bunun da 97,5 faizi və ya 3709-u daimi iş yerləridir.

Muxtar respublika sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, içməli su ilə təchizatı məsələsinə də xüsusi əhəmiyyət verilmişdir. Bu illərdə muxtar respublikanın əhalisi 70 min nəfər artmışdır. 2003-2013-cü illərdə əhalinin sayı 57,7 min nəfər artaraq 2013-cü il iyulun 1-nə 431618 nəfər olmuş, ömür uzunluğu 4,5 yaş artaraq 75,9 yaşa çatmışdır. Hazırda Naxçıvan Muxtar Respublikasının əhalisi 441 min nəfərdən çoxdur. 1991-2000-ci illərdə muxtar respublikada 152,9 min kv metr mənzil sahəsi tikilmişdi. 2007-ci ildə muxtar respublika əhalisi 66,6 min kv metr yaşayış evləri inşa etmişdir. 2011-ci ildə əhalinin şəxsi vəsaiti hesabına ümumilikdə 339468 kv metr yaşayış sahəsi tikilmişdir ki, bu da 2010-cu illə müqayisədə 80054 kv metr və ya 31 faiz çoxdur [138, s.16]. Ümumiyyətlə 2003-2013-cü illərdə 1451 min kvadratmetr olan yeni evlər inşa edilmişdir [41, s.11]. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 36 mənzilli yaşayış binası və 116 fərdi ev tikilmişdir. Böyük Vətən müharibəsi veteranları, Qarabağ müharibəsi və Çernobıl əlillərinə 429 minik avtomobili verilmişdir.

Son illərdə inzibati, sosial və yaşayış binalarının təmirinə, yenidən qurulmasına, su, istilik və kanalizasiya sistemlərinin dəyişdirilməsinə və çəkilməsinə çox böyük diqqət yetirilir. 2003-cü ildə dövlət, ictimai və mənzil-tikinti kooperativləri mənzillərinin su kəməri ilə təminatı 94 faiz, mərkəzi istilik sistemləri ilə təminatı 81,1 faiz, qaz kəməri ilə təminatı 92 faiz, kanalizasiya ilə təminatı 91,2 faiz olmuşdur.

Naxçıvan Muxtar Respublikasının, onun şəhər, qəsəbə və kəndlərinin böyük əksəriyyətinin su sistemi tamamilə yenidən qurulmuş, əsaslı təmir işləri görülmüşdür. Şərur-Naxçıvan su kəməri bərpa edilmiş, Naxçıvan şəhərinə yeni su xətti çəkilmiş, Ordubad şəhərinin su xətti bərpa edilmişdir. Onlarla kəndə (Nehrəm, Sirab, Bənəniyar, Qarababa, Göydərə, Əlincə, Xoşkeşin, Xanəgah, Ərəfsə, Əylis, Düylün və b.) içməli su xətti çəkilmişdir. 1993-2001-ci illərdə rayonlarda 32 su nasos stansiyası tikilmiş, çoxlu sayda subartezian quyuları qazılmışdır. Əhalinin içməli suya və suvarma suyuna tələbatını ödəmək üçün son illərdə 148 nasos stansiyası qurulmuş, 331 subartezian quyusu qazılmışdır. 2000-2005-ci illərdə Şərur, Babək, Ordubad, Culfa, Kəngərli və Şahbuz rayonunun 18 kəndinə (Tənənəm, Qaraxanbəyli, Çalxanqala, Qabıllı, Parağa, Dəstə, Zeyvə, Aşağı Yaycı, Bulqan, Tumbul, Qarabağlar, Yuxarı Əylis və s.) içməli su xətləri çəkilmiş,



Naxçıvan şəhərində Sutəmizləyici Qurğular Kompleksi 2014-cü il

kəhrizlər bərpa edilmişdir. 2009-cu il ərzində 14 nasos stansiyası, 22 subartezian quyusu və 22 kəhriz istifadəyə verilmişdir. Naxçıvan şəhərində Su anbarı və Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilmiş, 1 yanvar 2015-ci il tarixə Naxçıvan şəhərində 214 kilometr məsafədə kanalizasiya və 224,4 kilometr məsafədə içməli su xətləri çəkilmişdir [119, 2015, 22 yanvar]. Bundan əlavə rayon mərkəzləri və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya şəbəkələrinin tikintisi layihələri üzrə, ümumilikdə, 542 kilometr məsafədə içməli su və 331 kilometr məsafədə kanalizasiya xətləri çəkilmişdir.

Muxtar respublika əhalisinin sosial müdafiəsi və təminatına çəkilən xərclər 55,1 dəfə artmışdır. Əhalinin gəlirləri 9,5 dəfə, əməkhaqqı 9,5 dəfə yüksəlmişdir. Onların əmanətləri 17,1 dəfə artmışdır. Yoxsulluğun səviyyəsi 35,1 faizdən 4,5 faizə, yoxsul əhalinin sayı 6,8 dəfə azalmışdır.

Muxtar respublikada pensiyaçı və müharibə əlillərinin, şəhid və aztəminatlı ailələrin sosial müdafiəsinə diqqət xeyli artırılmışdır. 2000-ci ildə muxtar respublikada 52254 pensiyaçı var idi. Onlar hər cür diqqət və qayğı ilə əhatə olunmuş, aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan vətəndaşlara da qayğı göstərilmişdir. Əvvəlki illərdə olduğu kimi, 2009-cu ildə də müharibə və hərbi əlillərdən, veteranlardan 50 nəfərinə avtomobil, 152 nəfərə isə müxtəlif sanatoriya və pansionatlara göndəriş verilmişdir. 2009-cu ildə ailələrə 3447 min manatdan artıq ünvanlı dövlət sosial yardımı ödənilmişdir [136, s.35]. Ünvanlı dövlət sosial yardımının verilməsinə başlanılmış 2006-cı ildən 2013-cü ilin sonuna olan dövr ərzində muxtar respublikada hər bir nəfərə düşən aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə 22331 min manatdan çox ünvanlı dövlət sosial yardımı ödənilmişdir [41, s.101]. 2014-cü ildə isə 34430 min manat olmuşdur. Ünvanlı dövlət sosial yardımı alanların sayı ümumi əhalinin 2,7 faizini təşkil etmişdir.

Səhiyyə. Son 20 ildə muxtar respublikada bütün sahələr öz dinamik yüksəlişi ilə diqqəti cəlb edir. Belə sahələrdən biri də səhiyyə sistemidir. Səhiyyə sisteminin yenidən qurulmasını, əhalinin sağlamlığının daha yaxşı təşkilini, bu sahədə yeni texnologiyaların tətbiqini və kadr potensialının hazırlanmasını özündə əks etdirən dövlət proqramları muxtar respublikada uğurla həyata keçirilir. 1996-cı ildən başlayaraq muxtar respublikanın sosial-iqtisadi həyatında baş verən müsbət irəliləyişlər səhiyyə sisteminin fəaliyyətinə də təsir göstərmiş və əhaliyə göstərilən tibbi xidməti yaxşılaşdırmaq üçün tədbirlər həyata keçirilmişdir.

Səhiyyənin inkişafı, insanların sağlamlığının qorunması ilk növbədə müasir tələblərə cavab verən, lazımi maddi-texniki imkanları və ixtisaslı həkimləri olan səhiyyə müəssisələrinin olmasıdır. Muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər görülmüş, müasir tibb mərkəzləri, xəstəxanalar, ambulatoriyalar, dispanserlər, feldşer-mama məntəqələri və digər xarakterli səhiyyə müəssisələri tikilmiş, yaxud yenidən qurulmuş və təmir olunmuşdur. 1995-2015-ci illərdə muxtar respublikada 230 səhiyyə obyekti tikilərək, yaxud yenidən qurularaq istifadəyə veril-



Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi
2009-cu il

mişdir. Bu illərdə Naxçıvan Muxtar Respublikasında Duzdağ Fizioterapiya Mərkəzi, Doğum Mərkəzi, Diaqnostika-Müalicə Mərkəzi, Onkoloji Mərkəz, Əlillərin Bərpa Mərkəzi, Uşaq Bərpa Mərkəzi, Kardioloji Mərkəz, Yoluxucu Xəstəliklər Mərkəzi, Şərur, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayon Mərkəzi xəstəxanaları, Ə.Əliyev adına Naxçıvan MR Mərkəzi Uşaq Xəstəxanası, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası və ümumilikdə 175 səhiyyə obyektinin tikintisi, 52 səhiyyə obyektinin isə yenidən qurulması və ya əsaslı təmiri başa çatdırılıb [41, s. 146-147]. 1995-2000-ci illərdə 21 səhiyyə müəssisəsi əsaslı şəkildə təmir edilərək istifadəyə verilmişdir. 2013-cü ildə isə 22 səhiyyə müəssisəsi tikilmiş və yenidən qurulmuşdur [119, 2014, 17 yanvar].

1994-97-ci illərdə ABŞ-ın "AMOKO" şirkəti ilə "Amerikez" xeyriyyə cəmiyyəti Naxçıvan Muxtar Respublikasında yoluxucu xəstəliklərə qarşı planlı "Soyuq zəncir" adlı immunlaşdırma proqramı həyata keçirmişlər. İmmunlaşdırma proqramı sayəsində muxtar respublikada difteriya, poliomelit, göyöskürək xəstəliklərinin və idarə olunan digər yoluxucu xəstəliklərin miqdarı kəskin surətdə azaldı. 1998-ci ildən vərəm xəstəliyinə qarşı mübarizəni gücləndirmək məqsədilə "AMOKO" neft şirkəti ilə "Amerikez" xeyriyyə cəmiyyəti vasitəsilə 110 min doza tuberkulin şirəsi Naxçıvana gətirildi. Bundan başqa həmin il Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş Konsulluğunun vasitəsi ilə 50 min doza tuberkulin, 1999-cu ildə isə 30 min ABŞ dolları dəyərində vərəmə qarşı spesifik dərman preparatları alındı. 1998-ci ildə 80 min nəfərdən artıq 1-17 yaşadək uşaqlara tuberkulin sınağı aparıldı.

1998-ci ildə Şərur rayonunda ilk dəfə olaraq "Əfsanə" özəl müayinə və

diaqnostika müəssisəsi açıldı. 1999-cu ilin noyabrında Naxçıvan şəhərində "Şəfa" özəl sağlamlıq ocağı-xəstəxana fəaliyyətə başladı. Zərifə Əliyeva adına Naxçıvan şəhər poliklinikası, onkoloji və nevroloji dispanserlər, şəhər xəstəxanası əsaslı təmir olunmuş, bu müalicə ocaqları müasir diaqnostik və digər avadanlıqlarla təmin olunmuşdur. Xəstəxanalar kompleksinə tranzit elektrik xətti çəkilmiş, bütün xəstəxanalar mərkəzləşmiş istilik sisteminə qoşulmuşdur.

Ölkə Prezidenti Heydər Əliyev prezidentin ehtiyat fondundan 700 min manat vəsait ayırmış, ən müasir rentgen aparatı alınaraq quraşdırılmışdır. Respublika xəstəxanasında hemodializ aparatı qurulmuş, ultrasəslə müayinə kabineti yaradılmışdır. Rayon mərkəzi xəstəxanalarına ən müasir ultrasəs tibbi müayinə aparatı, avadanlıqlar, təcili yardım maşını verilmişdir. Muxtar respublikanın iri yaşayış yerlərində, kənd və qəsəbələrində xəstəxanalar, əksər kəndlərində isə feldşer-mama məntəqələri yaradılmışdır.

2001-2005-ci illərdə muxtar respublikada Özəl Tibb Mərkəzi, Gigiyena və Epidemiologiya Mərkəzi, Ağciyər Xəstəlikləri Dispanseri, "İmplant-dent" Stomatoloji Klinikası, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi üçün tədris binası və xəstəxana tikilmiş və ya əsaslı surətdə yenidən qurularaq istifadəyə verilmişdir. Ümumiyyətlə, 2001-2005-ci illərdə 48 səhiyyə obyekti tikilmiş, 35 səhiyyə obyekti əsaslı təmir olunmuşdur [37, s.171].

2001-ci ildə tibbi xidmətin səviyyəsinin yaxşılaşdırılması məqsədilə kardioloji, endokrinoloji, dəri-zöhrəvi dispanseri, göz xəstəxanası tibb şəhərciyinə, vərəm əleyhinə dispanser isə yeni təmir edilmiş binaya köçürülmüşdür. Naxçıvan MR Narkoloji dispanserinə alkometr aparatı, Respublika Göz xəstəxanasına oftolmoloji mikroskop alınmış, 2002-2003-cü illərdə yeni cihaz və avadanlıqların alınması davam etdirilmiş, Respublika xəstəxanasına USM aparatı, 2 dializ, 1 kompyuter tomoqraf, 2 ədəd rentgen aparatı alınmış və quraşdırılmış, Naftalanla müalicə şöbəsi yaradılmışdır. 15 ədəd QAZEL tipli avtomaşınlar alınmış, tibb müəssisələrinə verilmişdir.

2005-ci ildə Darıdağ arsenli su müalicəxanası üçün yeni bina tikilib istifadəyə verilmiş, avadanlıqlarla təchiz edilmişdir. Muxtar respublikanın tibb müəssisələrinə 20 ədəd sanitar avtomobili verilmişdir. Ağciyər xəstəlikləri dispanserinə səyyar flüoroterapiya aparatı, laboratoriya alətləri verilmişdir.

Dövlət başçısı İlham Əliyevin himayəsi ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin istifadəyə verilməsi səhiyyəyə göstərilən qayğının nəticəsidir. 2014-cü ildə də muxtar respublikada səhiyyənin inkişafı diqqətdə saxlanılıb. Yenidən qurulması davam etdirilən Naxçıvan Muxtar Respublika Xəstəxanasının müasir tibbi avadanlıqla təchiz olunması məqsədilə ölkə başçısı İlham Əliyevin 2014-cü il 11 aprel tarixli Sərəncamı ilə 2014-cü ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Naxçıvan MR Nazirlər Kabinetinə 9 milyon manat vəsait ayrılıb [6, 2014, 12 aprel]. Bütün göstərilən faktlar onu deməyə əsas verir

ki, Azərbaycanda, o cümlədən Naxçıvanda səhiyyə sektorunun inkişafı ilə bağlı aparılan davamlı və kompleks islahatlar ulu öndərin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir.

2006-cı ildə səhiyyə müəssisələrinin əsaslı təmiri və tikintisi davam etdirilmiş, bir müalicə və diaqnostika mərkəzi, bir xəstəxana, kəndlərdə 11 həkim ambulatoriyası, 2 feldşer-mama məntəqəsi tkilmiş, 2 xəstəxana əsaslı şəkildə yenidən qurulmuşdur [127, s.41]. Ambulatoriya, hemodializ aparatı, "Dopler" aparatı və başqa avadanlıqlar alınaraq səhiyyə müəssisələrinə verilmişdir. Onlarla kənddə (Tənənəm, Xıncab, Bənəniyar, Qaraqala, Mahmudoba və b.) feldşer-mama məntəqəsi yaradılmış, avadanlıqlarla təchiz edilmişdir.

1993-2003-cü illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkədə səhiyyənin qanunvericilik bazası təkmilləşdirilmiş, tibb müəssisələrinin ən yeni texnologiyalarla təmin edilməsi ön plana çəkilmişdir. Bu proses Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilmişdir. Son altı ilə nəzər salsaq görərik ki (2009-2015-ci illər), dövlət büdcəsinin cari xərclərində səhiyyə xərcləri 70 faizədək artmışdır. 2010-cu ildə səhiyyəyə dövlət büdcəsindən ayrılan xərclər 429,2 milyon, 2011-ci ildə 493,4 milyon, 2012-ci ildə 725,6 milyon, 2013-cü ildə 669,2 milyon, 2014-cü ildə 725,6 milyon manat artmışdır. Səhiyyə xərcləri üçün 2015-ci ilin



Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan şəhər Poliklinikası
2012-ci il

dövlət büdcəsində 777,7 milyon manat [6, 2015, 17 iyun], 2014-cü illə müqayisədə 52,1 milyon manat və ya 24,6 faiz çox vəsait ayrılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yüksək diqqət və qayğısı nəticəsində səhiyyə sistemində həyata keçirilən islahatlar özünün keyfiyyətcə yeni mərhələsinə yüksəlmişdir. Əhalinin sağlamlığının qorunması, səhiyyə xidməti səviyyəsinin daha da yaxşılaşdırılması, yeni səhiyyə müəssisələrinin istifadəyə verilməsi muxtar respublikada uğurla həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən biridir. Tikilən yeni xəstəxanaların, həkim anbulatoriya-larının, feldşer-mama məntəqələrinin müasir tibbi avadanlıqlarla təchiz edilməsi əhalinin sağlamlığının qorunması işində əsaslı dönüş yaratmışdır. Səhiyyə müəssisələrində keyfiyyətli dərman və tibbi preparatlarla təchizat yaxşılaşdırılmış, ixtisaslı kadrların hazırlanması, əhali arasında yoluxucu xəstəliklərin profilaktikası, ana və uşaqların, ahıl vətəndaşların sağlamlıqlarının qorunması prioritet məsələyə çevrilmişdir.

Naxçıvan səhiyyəsinin intensiv inkişaf dövrü kimi xarakterizə olunan 1995-2015-ci illərdə istifadəyə verilən səhiyyə müəssisələri bütün yaşayış məntəqələrini əhatə etmişdir. Ölkədə ilk dəfə olaraq pullu tibbi xidmətin məhz muxtar respublikada ləğv edilməsi, əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən mühüm islahatlar öz faydasını verməkdədir.

Ötən müddətdə səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi diqqət mərkəzində saxlanılmış, dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin, ümumilikdə, tibb xidmətinin səviyyəsinin yüksəldilməsinə səbəb olmuşdur.

Muxtar respublikada 56 xəstəxana, 5 poliklinika, 49 ambulatoriya, 123 feld-şer-mama məntəqəsi, 8 gigiyena və epidemiologiya mərkəzi, 5 təcili-tibbi yardım köməkçi stansiyası, 62 aptek və aptek məntəqəsi vardır. Tibb xidməti müəssisələrində 762 həkim, 2891 orta tibb işçisi çalışır [119, 2013, 18 yanvar]. Əhalinin hər 10 min nəfərinə 102 xəstəxana çarpayısı, 19 həkim, 80 orta tibb işçisi düşür. Xəstəxana çarpayılarının 24,4 faizi kəndlərdə, 75,6 faizi şəhər və rayonların mərkəzlərindədir.

Səhiyyə sahəsinə göstərilən qayğı sonrakı illərdə də davam etmişdir. Bunun nəticəsidir ki, muxtar respublikada Doğum Mərkəzi, Onkoloji Mərkəz, Psixi Xəs-təliklər Dispanseri, Yoluxucu Xəstəliklər Mərkəzi tikilib istifadəyə verilmişdir. Bu səhiyyə müəssisələri içərisində öz möhtəşəmliyi və gözəlliyi ilə diqqəti cəlb edən Doğum Mərkəzinin binasıdır. Ölkə başçısı İlham Əliyev binanın açılış mərasimində iştirak etmişdir. Bu mərkəzdəki şöbələr, kabinələr, kabinetlər, əməliyyat otaqları dün-ya standartları səviyyəsində qurulmuşdur. Son 15 ildə 173 səhiyyə obyektinin isti-fadəyə verilməsi [44, s.115] səhiyyənin inkişaf səviyyəsi haqqında hər şeyi deyir.

Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində dövlət siyasətinin mühüm bir istiqaməti də yüksək ixtisaslı həkim briqadalarının muxtar respublikaya

gətirilməsi və xüsusilə aztəminatlı ailələrdən olan xəstələrin dövlət vəsaiti hesabına müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkilidir. Bunun üçün muxtar respublikada hər cür şərait yaradılmış, ən müasir cihaz və avadanlıqlarla təchiz edilmiş Müalicə və Diaqnostika Mərkəzi istifadəyə verilmişdir. Türkiyə Cümhuriyyətindən və Bakı şəhərindən Mərkəzi Neftçilər xəstəxanasının həkim və orta tibb işçiləri Naxçıvana gəlir, xəstələrin müayinə və müalicəsində iştirak edirlər. Təkcə 2013-cü ildə yüksəkixtisaslı həkim heyəti tərəfindən, ümumilikdə, muxtar respublikada 319 cərrahi əməliyyat, o cümlədən 67 xəstədə açıq ürək, 7 xəstədə periferik damar, 77 xəstədə angioqrafiya, 75 xəstədə göz və 64 xəstədə müxtəlif əməliyyatlar aparılmışdır [119, 2014, 05 aprel].

Tibb işçilərinin peşə səviyyələrinin artırılmasına həmişə diqqət yetirilmişdir. Bu məqsədlə 2014-cü ilin birinci yarısında Bakı şəhərinə, Türkiyə Cümhuriyyətinə təkmilləşdirmə kurslarına göndərişlər davam etdirilmişdir. 30 həkim, 8 orta tibb işçisi Türkiyə Cümhuriyyətinin müxtəlif xəstəxanalarına, 28 həkim, 1 orta tibb işçisi Bakı şəhərinə, 203 orta tibb işçisi Naxçıvan Tibb Kollecinə təkmilləşdirmə kursuna göndərilmişdir.

Ölkə Prezidendi cənab İlham Əliyevin əhalinin kütləvi tibbi müayinədən keçirilməsi barədə verdiyi tapşırığa əsasən, muxtar respublikanın səhiyyə müəssisələri xüsusi iş rejimində fəaliyyət göstərir. 2014-cü ilin fevral ayında başlanan kütləvi müayinələr zamanı muxtar respublikada 273555 vətəndaş tibbi müayinədən keçirilmişdir [119, 2014, 05 aprel].

Ümumiyyətlə, muxtar respublikada səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi və bu sahədə aparılan islahatlar əhalinin sağlamlığının etibarlı qorunmasına şərait yaratmışdır.

4.9. Beynəlxalq əlaqələrin inkişafı

Naxçıvan Muxtar Respublikası müstəqillik illərində bütün sahələrdə olduğu kimi, beynəlxalq əlaqələrin, xüsusilə də xarici iqtisadi əlaqələrin genişlənməsində mühüm nailiyyətlər əldə etdi.

Türkiyə Cümhuriyyəti ilə birgə "Ümid körpüsü"nün tikilib istifadəyə verilməsi, muxtar respublika ilə Türkiyə və İran arasında üç gömrükxananın və keçid məntəqələrinin yaradılması əlaqələrin genişlənməsinə əsaslı təsir göstərdi. Həmin ölkələrdən Naxçıvan Muxtar Respublikasına yüksək gərginlikli elektrik xətləri sistemi qoşulmuş və enerji nəql olunması təmin edilmişdir. Cənubi Koreyanın "DEU Telekom" şirkəti ilə bağlanmış müqaviləyə əsasən muxtar respublikanın bütün yaşayış məntəqələri telefonlaşdırılmış və abonentlər birbaşa beynəlxalq telefon rabitəsi sisteminə çıxmaq imkanı əldə etmişlər.

XX əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan Muxtar Respublikasının xarici əlaqələri daha çox qonşu dövlətlərin muxtar respublikaya humanitar və digər yardımları formasında inkişaf edirdisə, 1995-ci ildən başlayaraq bu əlaqələr praktiki

xarakter almış, Naxçıvana xarici investisiyalar daxil olmağa, birgə layihələr həyata keçirməyə başlanmışdı. Muxtar respublikada iqtisadi əlaqələrin inkişafı da müsbət təsir göstərirdi. 1995-ci ilin payızında o vaxt Muxtar Respublika Baş nazirinin xarici iqtisadi əlaqələr üzrə birinci müavini işləyən Vasif Talıbovun rəhbərliyi ilə Türkiyənin müvafiq şirkətləri ilə işgüzar əlaqələr öz nəticəsini vermiş, Türkiyənin "Tekel" firması ilə Muxtar Respublikanın Nazirlər Kabineti arasında bağlanmış protokola əsasən emal müəssisələrində mövcud olan 400 min dekalitr susuz spirt hesabı ilə xam və konyak məhsullarının kənara satılması haqqında razılığa gəlinmişdir.

Vasif Talıbovun Ali Məclisin sədri kimi ilk rəsmi səfəri 1996-cı il martın 12-17-də Türkiyə Cümhuriyyətinə oldu. Ali Məclis Sədrinin səfər müddətində Türkiyənin bütün ali rəhbərliyi tərəfindən yüksək səviyyədə qəbul edilməsi dost ölkənin muxtar respublikaya olan diqqət və qayğısının sübutu oldu.

Səfər müddətində qarşılıqlı əlaqələrin konkret istiqamətləri müəyyənləşdirilmiş, Naxçıvana humanitar yardımın gücləndirilməsi, enerji probleminin həlli, şəkər zavodunun tikilməsi barədə razılıq əldə edilmişdi [119, 1996, 25 mart].

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Türkiyənin "Qızıl Ay" cəmiyyətində, Xarici İşlər Nazirliyinin Qafqaz idarəsindəki görüşlərində humanitar yardım imkanları, siyasi və iqtisadi əməkdaşlıq məsələləri geniş müzakirə edilmiş, türk iş adamları ilə söhbətlərdə onları Naxçıvan iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoymağa dəvət etmişdi. Türkiyə İş Birliyi İnkişaf Agentliyinin müdiri Umid Arıq, Türk İşçi Bankının müdiri İnal Korukçu ilə görüşlərdə muxtar respublika bank-maliyyə, telekommunikasiya sisteminin inkişafı, sənaye müəssisələrinin tikintisi və b. sahələr üçün maliyyə, texniki yardım göstərilməsi barədə razılıq əldə edilmişdi.

Türkiyə ilə iqtisadi əməkdaşlığın ən uğurlu nəticələrindən biri muxtar respublikada şəkər çuğunduru istehsalının inkişafı olmuşdur. 1992-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə bu qiymətli bitkinin istehsalına başlanmış, həmin il 290 ton məhsul, 1995-ci ildə 7951 ton, 2000-ci ildə 45 min ton çuğundur tədarük edilmişdir [56, s.169]. 2003-cü ildə isə rekord miqdarda – 129 min ton məhsul götürülmüşdür [130, s. 28]. Xammal əsasən Türkiyənin Ağrı və İranın Xoy şəkər zavodlarına göndərilir, əvəzində muxtar respublikaya şəkər tozu gətirilirdi.

Türkiyə ilə genişlənən iqtisadi əlaqələr kənd təsərrüfatının digər sahələrinə də müsbət təsir göstərmişdir. Muxtar respublika qonşu dövlətlərdən toxum, mineral gübrə, səpin aqreqatları, sudartan nasoslar, traktor və kombaynlar almışdır.

1998-ci ildə Türkiyənin müvafiq dövlət orqanları ilə bağlanmış 35 milyard manatlıq müqavilə əsasında Alt Trikotaj Paltarları Fabrikinin işi bərpa edilmiş və 500 adam burada işlə təmin edilmişdir [46, 1998, 10 noyabr]. Naxçıvan Muxtar Respublikasında bir neçə istehsal müəssisəsinin müştərək işlədilməsinə başlanılmışdır. Litvanın elektrotexnika müəssisələrindən çoxlu avadanlıq alınmışdır. 1999-cu

ildə muxtar respublikada xarici ticarət dövriyyəsi 15,2 milyon ABŞ dolları təşkil etmişdir [111, s.131].

2000-ci ildə muxtar respublikaya xalq təsərrüfatına və əhalinin tələbatına uyğun müxtəlif texniki və istehlak təyinatlı məhsullar idxal edilmiş, buradan isə şəkər çuğunduru, qurudulmuş lobya, xammal və materiallar ixrac olunmuşdur. Bütövlükdə, 32130,7 ton mal ixrac olunmuş, 750623 ton mal isə idxal olunmuşdur [111, s.131]. Aparılan məqsədyönlü tədbirlər Naxçıvan Muxtar Respublikasının xarici ticarət dövriyyəsinin genişlənməsinə, ticarət tərəfdaşlarının artmasına səbəb olmuşdur. 2005-ci ildə muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən xarici dövlətlərlə aparılan ticarət əməliyyatları nəticəsində 53535,6 min ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranmışdır. 2004-cü ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsinin ümumi həcmi 37 faiz artmışdır [132, s.48].

Ümummilli lider Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə qayıdışından sonra İran-Azərbaycan əlaqələrində dönüş baş verdi. Onun İran İslam Respublikasının ali rəhbərləri ilə müntəzəm görüşləri, qarşılqlı səfərlər bu əlaqələrin bərabərhüquqlu əməkdaşlıq səviyyəsinə qalxmasına səbəb oldu.

Azərbaycan – İran münasibətlərinin yaxşılaşması Naxçıvan – İran əlaqələrinin də inkişafına təkan verdi. Bu istiqamətdə mühüm addım 1994-cü ilin fevralında Naxçıvanda İran İslam Respublikası Baş Konsulluğunun açılması oldu. Açılış mərasimində İran İslam Respublikasının xarici işlər nazirinin müavini M.Vaizi, İranın Azərbaycandakı səfiri Nahavəndiyan, Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbərləri iştirak etmişdilər. Konsulluğun açılışı İran-Naxçıvan iqtisadi, mədəni əlaqələrinin inkişafına, gediş-gəliş, viza məsələlərinin operativ həllinə şərait yaratdı.

Azərbaycan – İran, Naxçıvan – İran əlaqələrinin inkişafına Azərbaycan prezidenti Heydər Əliyevin 1994-cü il 28 iyun – 2 iyul tarixində qonşu ölkəyə səfəri də mühüm təsir göstərdi. Səfərdə Heydər Əliyevi Naxçıvan Muxtar Respublikası rəhbərliyinin müşaiyət etməsi, İranın ali rəhbərliyi ilə muxtar respublikanı elektrik, qaz, nəqliyyat, ərzaq problemlərinin müzakirəsi göstərdi ki, Naxçıvanla bağlı məsələlər İran – Azərbaycan münasibətlərinin prioritet istiqamətlərindən biridir. Yüksək səviyyədə keçirilən görüşlərdə Naxçıvanın enerji problemi ən çox müzakirə olunan məsələlərdən idi.

1994-cü ildə İran parlamentinin sədri İ.Nuri, neft naziri Q.Ağazadə, sənaye naziri Ə.Nemətzadə Azərbaycanda səfərdə olarkən Naxçıvanın neft, qaz, elektrik təchizatı, eləcə də muxtar respublikaya qaz kəmərinin çəkilməsi, sement zavodunun tikilməsi ilə bağlı bir sıra razılaşmalar əldə edilmişdi [46, 1994, 12 noyabr].

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 1996-cı ilin iyununda İran İslam Respublikasında səfərdə olmuş, ölkə rəhbərləri ilə görüşmüş, İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında ikitərəfli

əməkdaşlığın genişləndirilməsinə dair niyyət protokolu imzalanmışdı. Səfər zamanı Xoy-Naxçıvan qaz kəmərinin çəkilməsi, Naxçıvana verilən elektrik enerjisinin həcminin artırılması, İran ərazisindən yüklərin daşınması məqsədi ilə tranzit keçidin sadələşdirilməsi və s. məsələlər müzakirə edilmişdi [119, 1996, 15 iyul]. Naxçıvan tərəfinin təklifi ilə Naxçıvan-Mərənd-Təbriz və əks istiqamətdə qatarların fəaliyyətə başlaması barədə maddə də protokola salınmışdı. 1997-ci il fevralın 9-da Naxçıvan-Təbriz qatarı fəaliyyətə başladı. Qatarın ilk sərnişinləri muxtar respublikanın rəhbərləri oldu [119, 1997, 11 fevral].

Niyyət protokolunun bir sıra maddələri qısa müddətdə yerinə yetirilmiş, muxtar respublikanın əhalisinə pasport verilməsi İranın baş konsulluğu tərəfindən təmin edilmiş, sərhədyanı müştərək bazarların fəaliyyəti genişləndirilmiş, muxtar respublikaya elektrik enerjisi 10 meqavat artırılmışdı.

Ali Məclisin Sədri Vasif Talıbov 1997-ci ilin fevralında İran İslam Respublikasında işgüzar səfərdə oldu. Səfər dövründə o, İran rəsmiləri – prezident Ə.Ə.Haşimi-Rəfsəncani, parlamentin sədri İ.Nuri, xarici işlər naziri Ə.Ə.Vilayəti, neft naziri Q.Ağazadə, xarici işlər nazirinin müavini Mürsəli, koordinasiya naziri Şəfai ilə görüşmüş, müzakirələr aparmış və bir sıra razılaşmalar əldə edilmişdi. Səfərin sonunda Ali Məclisin Sədri Vasif Talıbov və İran İslam Respublikasının xarici işlər nazirinin müavini M.Vaizi arasında əməkdaşlıq haqqında protokol imzalanmışdı [119,1997, 22 fevral].

Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikasının şimal əyalətləri ilə əlaqələrinə xüsusi diqqət yetirilirdi. Bu əyalətlər arasında Şərqi Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə əlaqələrinin xüsusi rolu var idi. İki tərəf arasında əməkdaşlıq haqqında bir neçə müqavilə bağlanmış, onların bir çox müddəaları yerinə yetirilmişdi.

Ali Məclisin Sədri 1997 və 1999-cu illərdə Təbrizə səfər etmiş, Şərqi Azərbaycan ostandarı isə Naxçıvanda olmuşdu. Ötən dövr ərzində Culfa gömrükxanasının iş rejimi 24 saata qədər uzadılmış, sərhəd bazarının fəaliyyəti genişlənmişdir [46, 1999, 24 iyun, 13 avqust].

Şahtaxtı gömrük postunun açılması Culfa gömrükxanasında sıxlığın azalmasına, Naxçıvan Muxtar Respublikasının Şərur, Sədərək rayonlarının xarici əlaqələrdə daha da yaxından iştirakının təmin olunmasına, İranın Qərbi Azərbaycan ostandarlığı ilə əlaqələrin formalaşmasına şərait yaratmışdır.

Muxtar respublikada 1996-2000-ci illər planlı xarici ticarətin formalaşdırılması ilə səciyyələnir. Lakin bu dövrdə əhalinin istehsal sahələrinə olan marağı, dövlət tərəfindən sahibkarlığa yaradılan şərait çoxnövlü və çoxçeşidli yerli məhsul istehsalına rəvac verməkdəydi. 1996-2000-ci illərdə ixrac əməliyyatlarının əsasını şəkər çuğunduru və emal müəssisələrinin məhsulları olan xam spirt, tütün, qara metal məmulatları təşkil etmişdir.

Naxçıvanın İranla iqtisadi əlaqələrində Azərbaycan – İran dövlətlərarası

müştərək komissiyası xüsusi rol oynayırdı. Komissiyada Naxçıvanla bağlı məsələlər müzakirə edilirdi. 1997-ci il noyabrın 21-də Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əməkdaşlığın genişləndirilməsi haqqında memorandum imzalanmışdı [119, 1997, 27 noyabr]. 1999-cu ilin iyulunda ikinci memorandum imzalanmış və onların bir sıra müddəaları öz həllini tapmışdı.

Muxtar respublikada 2001-ci ildən xarici ticarət əlaqələrində qanunvericiliyin təkmilləşməsi, gömrük işinin kompüterləşməsi, yerli sahibkarlığın nəzərə alınması və daxili bazarın qorunması, idxalın istehlak yönümlülüyünün avadanlıq və xammala dəyişdirilməsi prosesi başlanmışdır. Bu dövrdə muxtar respublika iqtisadiyyatı, ona bilavasitə təsir göstərən xarici ticarət əlaqələrilə paralel surətdə inkişaf etmişdir.

Muxtar respublikanın xarici ticarət dövriyyəsinin artan templə böyüməsi və şaxələnməsi Naxçıvanın dinamik sosial-iqtisadi inkişafı, dünyaya açılması, yerli istehsal məhsulları ilə yaxın və uzaq ölkələrin sahibkarlarının maraq dairəsinə düşməsi, yerli sahibkarlığın inkişafı ilə müstəqil iqtisadiyyatın formalaşması fonunda baş vermişdir. Məhz 2001-ci ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 31,9 milyon ABŞ dolları olduğu halda, 8 il sonra bu göstərici 3,3 dəfə artaraq 103,7 milyon ABŞ dollarına çatmışdır [41, s.154]. İlk dəfə olaraq 2009-cu ildə xarici ticarət dövriyyəsində müsbət saldo yaranmışdır [26, s.305].

Muxtar respublikada aparılan sənayeləşmə və ixracyönümlü məhsul istehsalı uğurlu nəticələr vermişdir. 2009-cu ildən başlayaraq ixracın həcminin idxalı üstələməsi sonrakı dövrlərdə də davam etmişdir. Kənd təsərrüfatı regionu olan Naxçıvan Muxtar Respublikasında sənaye istehsalının genişlənməsi, öz növbəsində, 2009-2015-ci illərdə ixracın da həcminin sürətlə artmasına və xarici ticarət əlaqələrinin arealının genişlənməsinə müsbət təsir göstərmişdir. Belə ki, 2009-cu ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 220 milyon olduğu halda, 2013-cü ildə bu göstərici 2,3 dəfə artaraq 512 milyon ABŞ dolları olmuşdur. Bu dövrdə ixracın həcmi 3,6 dəfə artdığı halda, idxalın həcmi cəmi 1,7 faiz artmışdır. Bir il sonra – 2014-cü ildə isə muxtar respublikada xarici ticarət dövriyyəsinin həcmi 517427 min ABŞ dollarına çatmışdır [119, 2015, 22 yanvar] ki, bu da bir il öncəki müvafiq göstəricidən 1,1 faiz çoxdur. Xarici ticarət dövriyyəsinin 408640 min ABŞ dollarını və ya 79 faizini ixrac, 108787 min ABŞ dollarını və ya 21 faizini isə idxal təşkil etmiş və 299853 min ABŞ dolları həcmində müsbət saldo yaranmışdır [141, s.15]. Son bir il ərzində ixracın həcmi 1,5 faiz artmış, idxalın həcmi isə 0,7 faiz azalmışdır. Xarici ticarət əlaqələrində iştirak edən dövlətlərin sayı beş il ərzində artaraq 45-ə çatmışdır. Özəl sektor və fiziki şəxslərin xarici ticarət dövriyyəsində payı 2009-cu ildə 90,3 faiz olduğu halda, 2013-cü ildə 80,8 faiz olmuşdur [41, s.154-155].

Muxtar respublikada bazarın tənzimlənməsinə baxmayaraq, həyata keçirilən böyük quruculuq işləri idxalın həcminin çoxalması ilə dövlət büdcəsinə köçürülən

gömrük ödənişlərinin artan dinamika ilə inkişafını təmin edir. Dövlət büdcəsinə toplanan gömrük rüsumu və vergilərin həcmi 1992-ci ildə 7326 manat olduğu halda, bu göstərici 2013-cü ildə 8354793 manat olmuş, 1140 dəfə artım müşahidə edilmişdir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş muxtar respublikanın dünyanın aparıcı dövlətləri, beynəlxalq iqtisadi qurumları ilə əlaqələri 1993-cü ildən sonra çoxşaxəli istiqamət almışdı. Naxçıvan Muxtar Respublikası intensiv şəkildə dünya bazarına çıxmağa başlamışdı.

1996-cı ildə BMT-nin İP Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi problemlərinin həlli məqsədi ilə regional inkişaf planı hazırlanmışdı. Bu məqsədlə Ekspert qrupu 1997-ci ilin martında Naxçıvana gəlmiş, muxtar respublikanın rəhbərliyi ilə görüşmüşdü. Proqramda kənd yerlərində kiçik və orta müəssisələrin yaradılmasına yardım göstərilməsi, özəl fermerlərə mikrokreditlərin verilməsi nəzərdə tutulmuş, muxtar respublikaya 1.200 min ABŞ dolları kredit ayrılmışdı [6, 1997, 17 may].

1998-ci ilin sentyabrında muxtar respublikada keçirilmiş "Naxçıvan. Açıq qapı" tədbirinin təşkili muxtar respublikanın xarici ölkələrlə, beynəlxalq iqtisadi qurumlarla əlaqələrinin inkişafında xüsusi rol oynadı. BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Murad Ercanın başçılıq etdiyi 120 nəfərlik heyətə ölkəmizdə akreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların nümayəndələri daxil idi. Tədbirin əsas məqsədi onları muxtar respublika ilə ətraflı tanış etmək, bölgə iqtisadiyyatına investisiyaya cəlb etməkdən ibarət idi. Ali Məclisdə qonaqlara diyarın iqtisadi və mədəni həyatı barədə məlumat verilmiş, biznes qurumlarının nümayəndələrinə muxtar respublikada hansı sahələrə sərmayə qoyulmasına ehtiyac olduğu izah edilmişdi.

BMT İP çərçivəsində Beynəlxalq Miqrasiya Təşkilatı ilə Naxçıvan Muxtar Respublikası hökuməti arasında 956 min dollarlıq layihə sənədi imzalanmışdı. Əsas məqsəd muxtar respublikada infrastrukturun yaradılması, yeni iş yerlərinin açılması və kənddə yaşayan imkansız ailələrə köməklik göstərilməsindən ibarət idi.

1999-cu ilin sonunda Naxçıvanda Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndəliyi yaradıldı. Əsas məqsədi muxtar respublikada miqrasiyanın qarşısını almaq olan bu təşkilat muxtar respublikada fermerlərə və iş adamlarına kreditlərin verilməsi ilə məşğul olurdu. ABŞ-ın ADRA təşkilatı da muxtar respublikada öz nümayəndəliyi vasitəsilə əhaliyə mikrokredit verirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin Demokratiya Mərkəzi İnstitutunun dəvəti ilə 1997-ci ilin yayında ABŞ-a səfəri bu ölkədə Naxçıvan haqqında obyektiv məlumat yayılmasında mühüm rol oynadı. Səfər müddətində Konqresin, Senatın üzvləri ilə görüşlər keçirilmiş, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi, Naxçıvan Muxtar

Respublikasının düşdüyü vəziyyət barədə əsl həqiqət onların diqqətinə çatdırılmışdı.

Ötən dövrlərdə ABŞ-ın Azərbaycandakı səfirləri Naxçıvanda olmuş, muxtar respublikaya humanitar yardımların göstərilməsi, investisiya qoyuluşu imkanlarını nəzərdən keçirmiş, muxtar respublikanın rəhbərləri, ictimai təşkilatlarla bölgənin digər problemləri müzakirə edilmişdir.

Naxçıvan Muxtar Respublikasında aqrar islahatların uğurla başa çatdırılmasında beynəlxalq maliyyə təşkilatları yaxından iştirak edirdilər. Beynəlxalq İnkişaf Assosiasiyası (BİA) və Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (BKTİF), Dünya Bankı, Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti bu işə fəal yardım göstərirdi. Dünya Bankı muxtar respublikada kəndli təsərrüfatlarının yaradılmasına 3 milyon dollar ayırmış [119, 1997, 27 mart], Regional Məsləhət Mərkəzinin açılmasında iştirak etmişdi.

Naxçıvanın beynəlxalq əlaqələrində ABŞ, Avropa ölkələri ilə siyasi, iqtisadi əlaqələr getdikcə önəmli yer tutmağa başlayırdı. Həmin ölkələrin Azərbaycandakı səfirlərinin muxtar respublikaya səfərləri, muxtar respublikanın rəhbərləri ilə görüşləri artıq ənənə halını almışdır.

Naxçıvanın beynəlxalq əlaqələrinin mühüm sahəsini regionun elektrik enerjisi ilə təmin edilməsi və telekommunikasiya sisteminin modernləşdirilməsi təşkil edirdi. Kiçik həcmli SES-lərin tikilməsi üçün Fransanın "Entropose LTD", İsrailin "Betmen", Yaponiyanın "Tohoko", "Hippon Koel" şirkətlərinin nümayəndələri Naxçıvanda olmuş və araşdırmalar aparmışlar [56, s.178]. Muxtar respublikanın telekommunikasiya sistemini modernləşdirmək üçün 1996-cı ildə yerüstü peyk stansiyası quraşdırılmış, Naxçıvan-Bakı birbaşa peyk rabitəsi təşkil olunmuşdu. 1998-ci il fevralın 18-də Muxtar Respublikanın Ali Məclisində telekommunikasiya sisteminin modernləşdirilməsi barədə üçtərəfli – "DEU Telekom" (Cənubi Koreya), Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası hökumətləri arasında müqavilə imzalandı. Dəyəri 16.500 min ABŞ dolları həcmində olan müqavilə vaxtında yerinə yetirilmiş və 34.136 nömrəli yeni stansiya muxtar respublika əhalisinin telefon rabitəsinə olan ehtiyacını tam ödəmişdir [46, 1997, 10 oktyabr].

XX əsrin 90-cı illərinin ortalarından Naxçıvan Muxtar Respublikasının xarici əlaqələrinin mühüm istiqamətlərindən birini yenə əvvəlki kimi elmi, mədəni sahələrdə əməkdaşlıq təşkil edirdi. Naxçıvanlı alimlər dünyanın bir sıra ölkələrinin elm və təhsil mərkəzləri ilə sıx əlaqələr yaradır, elmi ezamiyyətlərdə olur, konfrans və simpoziumlarda elmi məruzələrlə çıxış edirlər. ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Türkiyə, Rusiya, Ukrayna, İrandan gələn alimlər Naxçıvanda keçirilən beynəlxalq simpoziumlara qatılır, elmi məruzələr edirlər. Artıq on ilə yaxındır ki, ABŞ, Fransa, Türkiyə arxeoloqları Naxçıvanda aparılan arxeoloji tədqiqatlarda iştirak edirlər. Böyük Britaniya, İtaliya, Rusiya ornitoloqları naxçıvanlı alimlərlə birgə tədqiqat işləri aparırlar. Atatürk Araşdırmalar Mərkəzi, Amerika ilə

Əlaqə Mərkəzi, Amerika Beynəlxalq Tədqiqatlar və Mübadilə Mərkəzi, Fransa Elmi-Tədqiqat Mərkəzləri ilə yaradılan elmi əlaqələr hər iki tərəf üçün faydalı olmuşdur. Naxçıvanın elm və ali təhsil müəssisələri ilə onlarla xarici ölkənin elm və təhsil mərkəzləri arasında işbirliyi protokolları imzalanmışdır. Müştərək elmi tədqiqatlar, müəllim və tələbə mübadiləsi, idman və mədəni tədbirlərin keçirilməsi haqqında razılaşmalar əldə edilmiş və onlar ardıcıl olaraq yerinə yetirilmişdi.

Naxçıvan Muxtar Respublikasının beynəlxalq əlaqələrində mədəni əlaqələrin özünəməxsus yeri vardır. Muxtar respublikanın ən iri incəsənət kollektivləri Türkiyə və İran İslam Respublikasında mədəni tədbirlərdə iştirak etmiş, maraqlı proqramlarla çıxış etmişlər. Naxçıvanlı rəssamlardan Fəxrəddin Qəhrəmanov, Telman Abdinov və b. əsərləri Türkiyənin İzmir və Qars şəhərlərində nümayiş etdirilmişdi.

Türkiyə və Naxçıvanın folklor kollektivlərinin qarşılıqlı səfərləri ənənəvi xarakter daşımışdır. "Araz", "Firuzə", Şərur yallısı, Naxçıvan Dövlət Kukla Teatrının kollektivi qonşu ölkədə Naxçıvan mədəniyyətini layiqincə təmsil etmişlər. Dost ölkənin teatr kollektivləri də öz növbəsində Naxçıvan teatrsevərləri qarşısında çıxış etmişdilər.

Naxçıvanın beynəlxalq əlaqələrində qonşu dövlətlərin sərhəd vilayətləri ilə muxtar respublika arasında yaradılan münasibətlərin və keçirilən tədbirlərin mühüm əhəmiyyəti olmuşdur. 1998-ci ilin oktyabrında İqdır şəhərində təşkil edilmiş "XXI əsrin ərəfəsində tarixə nəzər: türk-erməni münasibətləri" mövzusunda beynəlxalq simpoziumda naxçıvanlı tədqiqatçılar da iştirak və çıxış etmişlər. Həmin ilin dekabrında yenə İqdır vilayəti rəhbərlərinin də qatıldığı Türkiyə-Naxçıvan əlaqələrinin tarixi, müasir vəziyyəti, gələcək perspektivləri təhlil edilmiş, əlaqələrin daha da yaxşılaşdırılması üçün tövsiyələr irəli sürülmüşdü.

Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə, onun Naxçıvana yaxın bölgə və şəhərləri ilə elmi və mədəni əlaqələri genişlənmişdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun qonşu ölkəyə səfərləri bu əlaqələrin genişlənməsinə əsaslı təsir göstərmişdir. AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət Universitetinin İranın elmi mərkəzləri və universitetləri ilə elmi əməkdaşlığı genişlənmişdir. Naxçıvanlı alimlər İran İslam Respublikasının Tehran, Şiraz, Təbriz, Urmiya və b. şəhərlərində keçirilən beynəlxalq səviyyəli konfranslarda iştirak etmişlər. Naxçıvan Dövlət Universitetinin bir qrup tələbəsi Təbriz şəhərindəki traktor zavodunda istehsalat təcrübəsi keçmişlər. İranlı alimlər Naxçıvanda keçirilən "Nəsrəddin Tusi və müasirlik", "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" konfranslarda iştirak etmişlər [46, 2001, 31 yanvar].

İran İslam Respublikasının "Sivilizasiyalararası dialoq" mərkəzinin 2000-ci ildə keçirdiyi musiqi festivalında rəsm və kitab sərgilərində Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyinin nümayəndələri də iştirak etmişdilər.

İranın bir çox xeyriyyə cəmiyyətləri, xüsusən "İmam Xomeyni adına İmdad komitəsi" muxtar respublikanın imkansız təbəqələrinə, əlillərə, uşaq evlərinə humanitar yardım göstərilməsində fəal iştirak edirdilər. Öz növbəsində naxçıvanlılar da İranın Ərdəbil və Xorasanda təbii fəlakət zamanı öz din qardaşlarına mümkün köməyi əsirgəmədilər [119, 1997, 5 mart].

Naxçıvan-İran dini və mədəni əlaqələrində müqəddəs yerlərə ziyarətlərin təşkili, idman, səhiyyə əlaqələri, qadın təşkilatları, gənclər təşkilatları arasında əlaqələr də inkişaf edirdi. Ədəbi-mədəni əlaqələr nəticəsində Azərbaycan və fars dillərində naxçıvanlı şairlərin şeirlərindən ibarət antologiyalar nəşr edilmişdi.

Naxçıvan Muxtar Respublikasının beynəlxalq təşkilatlarla, xarici ölkələrlə mədəniyyət, elm, təhsil sahəsində əlaqələrin inkişafı 90-cı illərin ikinci yarısına təsadüf edir. Bu dövrdə dünyanın bir çox xeyriyyə təşkilatları Naxçıvanda öz bölmələrini açaraq, bir sıra sosial proqramlar həyata keçirməyə başlamışdılar. Bu təşkilatlar içərisində ABŞ-ın "ADRA", "Amerikares" xeyriyyə təşkilatları, Fransanın "Ekilibr", İngiltərənin "Leonard Çeşar" xeyriyyə fondları, "Beynəlxalq memorial" fondu mühüm yer tuturdu. "ADRA" təşkilatı aztəminatlı ailələrə, əlillərə müxtəlif xeyriyyə yardımı göstərmiş, "Amerikares" isə muxtar respublikada immunlaşdırma kampaniyasında iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramına uyğun olaraq BMT İP və YUNESKO tərəfindən Naxçıvanda kompüter mərkəzinin yaradılması üzrə layihə hazırlanmış və 1999-cu ilin sentyabrında Mərkəzin açılışı olmuşdu [119, 1999, 15 sentyabr].

Naxçıvan Dövlət Universitetinin Avropanın bir sıra universitetləri ilə "TEMPUS" (Ali Təhsil sahəsində "Avropa" əməkdaşlıq proqramı) xətti əlaqələri genişlənmiş, müəllim və tələbə mübadiləsi həyata keçirilmiş, Avropa elmi və təhsilin ən müasir naliyyələri ilə tanış olmuş, ingilis və fransız dili müəllimləri kurslara cəlb olunmuş və ali məktəblərdə təcrübə keçmişlər.

Xarici ölkə mütəxəssislərinə ehtiyac olan sahələr üzrə universitetdə mühazirə oxumaq üçün müəllimlər dəvət olunurdular. Amerikanın Perdu Universitetinin müəllimləri Harri Lepinski, Camal Hüseyn, Fonibi Tobias, Tobison, İngiltərənin Brayti Universitetinin müəllimi Ceyms Moklokinq müxtəlif vaxtlarda iqtisadiyyat, biznez, tibbdən mühazirə oxumuşlar. Fransa, Britaniya səfirləri, İranın Naxçıvandakı baş konsulları kitab zalları, fənn kabinələri, siniflərin müasir texnika ilə təchiz olunmasında iştirak etmişlər. Amerika, Fransa, Türkiyə, İran ilə mədəni əlaqələrin səviyyəsi günbəgün inkişaf edirdi. Amerika ilə Əlaqə Mərkəzi, Fransız dili və ədəbiyyatı mərkəzi bu əlaqələrin inkişafında xüsusi rol oynayırdı.

Naxçıvanın mədəniyyət xadimləri və onların təmsil olunduqları mədəniyyət kollektivləri – filarmoniya, dram teatr, musiqi və özfəaliyyət kollektivləri bir çox ölkələrdə - ABŞ-da, Rusiyada, İraqda, Fransada, Türkiyədə, İranda öz ustalıqlarını nümayiş etdirmişlər.

Beynəlxalq əlaqələrin yaradılmasında idman yarışlarının özünəməxsus yeri vardır. Naxçıvanlı idmançılar dünyanın bir sıra ölkələrində keçirilən idman yarışlarına qoşulmuş, müvəffəqiyyətlə çıxış etmişlər.

Naxçıvanda keçirilən idman yarışlarına isə xarici ölkələrin onlarla idmançısı qatılmışlar. Burada şahmatla bağlı keçirilən və bir növ ənənə şəklini almış Beynəlxalq şahmat və güləş yarışları ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilir. 2015-ci ildə keçirilmiş bu idman yarışında 13 ölkədən 360 nəfər şahmatçı iştirak etmişdir [119, 2015, 3 may]. Bu yarışlar naxçıvanlı şahmatçılardan beynəlxalq qrossmeyster, beynəlxalq dərəcəli hakim və FİDE ustası yetişməsinə imkan vermişdir.

Muxtar respublikanın gənclər təşkilatlarının, qadın cəmiyyətlərinin beynəlxalq əlaqələri də intensiv xarakter almışdır. Naxçıvanlı gənclər Lissabonda keçirilmiş dünya gənclər festivalında, qadınlar isə Qadınların Beynəlxalq Pekin Konfransında iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikasının beynəlxalq və xarici iqtisadi əlaqələri ildən-ilə artır, dərinləşir və onun coğrafiyası genişlənir. Şərqlə-Qərbi birləşdirən tarixi Böyük İpək Yolunun bərpası beynəlxalq əlaqələr sahəsində Naxçıvan Muxtar Respublikasının rol və əhəmiyyətini artıracaq və bu əlaqələrdən bəhrələnmək üçün yeni imkanlar yaranacaqdır.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYATLAR

1. Azərbaycan 2013-2003. Əsrə bərabər illər. Dövlət quruculuğu: peşəkarlıq, kreativlik və demokratizm Bakı: Şərq-Qərb, 2013, 240 s.
2. Azərbaycan 2013-2003. Əsrə bərabər illər. Regional inkişaf: modernləşmə və sahəvi ənənələrin qorunması. Bakı: Şərq-Qərb, 2013, 492 s.
3. Azərbaycan 2013-2003. Əsrə bərabər illər. İqtisadiyyat inkişaf və tərəqqi amili kimi. Bakı: Şərq-Qərb, 2013, 276 s.
4. Azərbaycanın regionları. Yeni inkişaf dövrü. Üç cilddə, I cild. Bakı, 2014, s.115-190.
5. Azərbaycan tarixi. Yeddi cilddə, VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, 608 s.
6. "Azərbaycan" qəzeti.
7. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Elmi Arxivi (AMEA TİEA), f.1, siy. 19, iş 8953.
8. AMEA TİEA, f. 1, siy 19, iş 8961.
9. Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI –Yeni Nəşrlər Evi, 2001, 360 s.
10. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 68 s.
11. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi, f. 2941, siy. 1, iş 312.
12. AR MMA, f. 2941, siy. 1, iş, 316.
13. AR MMA, f. 2941, siy. 1, iş 380.
14. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). Bakı: Nurlar NPM, 2004, 160 s.

15. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı: Azərdəmiryolbank ASC, 2009, 156 s.
16. *Bağırov E.A.* Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı. Bakı: Avropa, 2015, 332 s.
17. "Bizim əsr" qəzeti.
18. *Cəfərli E.Y.* Naxçıvan Muxtar Respublikası Konstitusiyalarda. Bakı: Elm və təhsil, 2014, 208 s.
19. "Dirçəliş-XXI əsr" jurnalı.
20. "Ekspress" qəzeti.
21. *Elman Həbib.* Naxçıvan Muxtar Respublikası: 85 ilin 15 ili. Bakı: Şirvannəşr, 2009, 438 s.
22. *Əhmədov E.* Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı: Letterpress, 2012, 912 s.
23. *Əhmədov N.H.* Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı: Elm, 2005, 308 s.
24. *Əhmədov N.H.* Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, 452 s.
25. *Əhmədov N.H.* Heydər Əliyevin inkişaf modeli və Naxçıvanda dinamik inkişaf. Bakı: Elm və təhsil, 2010, 148 s.
26. *Əhmədov N.H.* Müstəqillik illərində Azərbaycanın xarici iqtisadi əlaqələri və onun regional problemləri. Bakı: Elm, 2012, 345 s.
27. *Əhmədov N.H.* Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə. Naxçıvan: Əcəmi NPB, 2015, 272 s.
28. *Əliyev Heydər.* Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, Yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət. Naxçıvan: Əcəmi NPB, 2001, 190 s.
29. *Əliyev Heydər.* Müstəqilliyimiz əbədidir. 14-cü kitab (dekabr 1997- fevral 1998). Bakı: Azərnəşr, 2005, 520 s.
30. *Əliyev Heydər.* Müstəqilliyimiz əbədidir. 22-ci kitab (sentyabr 1999 – noyabr 1999). Bakı: Azərnəşr, 2007, 528 s.
31. *Əliyev Heydər.* Müstəqilliyimiz əbədidir. 39-cu kitab (iyun 2002 – iyul 2002). Bakı: Azərnəşr, 2012, 480 s.
32. *Əliyev Heydər.* Müstəqilliyimiz əbədidir. 40-cı kitab (iyul 2002 – sentyabr 2002). Bakı: Azərnəşr, 2012, 512 s.
33. *Əliyev İlham.* İnkişaf məqsədimizdir. 4-cü kitab (aprel 2004 – iyun 2004). Bakı: Azərnəşr, 2009, 400 s.
34. *Əliyev İlham.* İnkişaf məqsədimizdir. 6-cı kitab (sentyabr 2004 – oktyabr 2004). Bakı: Azərnəşr, 2011, 416 s.
35. *Əliyev İlham.* İnkişaf məqsədimizdir. 14-cü kitab (oktyabr 2005 - dekabr 2005). Bakı: Azərnəşr, 2013, 400 s.
36. *Əliyev İlham.* İnkişaf məqsədimizdir. 21-ci kitab (noyabr 2006 – dekabr 2006). Bakı: Azərnəşr, 2015, 392 s.

37. *Hacıyev İ.M.* Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafi (1991-2011-ci illər). Naxçıvan, Əcəmi NPB, 2011, 272 s.
38. *Hacıyev İ.M.* Naxçıvanda parlament seçkiləri // "Milli Məclis". Analitik informasiya jurnalı. Bakı, 2011, may-iyun, s. 48-53.
39. *Hacıyev İ.M.* Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: Əcəmi NPB, 2012, 192 s.
40. *Hacıyev İ.M.* Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə. Naxçıvan: Əcəmi NPB, 2013, 296 s.
41. *Hacıyev İ., İsmayılov B.* Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, 184 s.
42. Heydər Əliyev. İki cilddə. 1-ci cild. Bakı: Turxan NPB, 2013, 500 s.
43. Heydər Əliyev. İki cilddə. 2-ci cild. Bakı: Turxan NPB, 2013, 704 s.
44. *Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B.* İntibahın 15 ili. Naxçıvan: Əcəmi NPB, 2014, 184 s.
45. *Hüseynov X.A.* Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı (1950-2004-cü illər). Bakı: ADPU, 2012, 160 s.
46. "Xalq qəzeti".
47. "İki sahil" qəzeti.
48. "Kommunist" qəzeti.
49. *Qaffarov T.B.* Azərbaycan tarixi. XX əsrin 80 – 90-cı illəri. Bakı: Mütərcim, 1997, 141 s.
50. *Qaffarov T.B.* Azərbaycanın ən yeni tarixi. XX əsrin sonları – XXI əsrin əvvəlləri. Bakı: GİSO Enterprise KRİNB, 2005, 275 s.
51. *Qarayev S.* Muxtariyyət illərində Naxçıvanda Konstitusiya qəbulu tarixindən // "Şərq qapısı" qəzeti, 2014, 3 aprel.
52. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: "Azərbaycan", 2008, 840 s.
53. Qədim Naxçıvanda bayram. Naxçıvan Muxtar Respublikası – 75. Bakı: Azərbaycan, 1999, 288 s.
54. Qətiyyətin təntənəsi (Sənədli xronika). Müəllif-tərtibçi Şakir Yaqubov. Bakı: Səhər, 1995, 848 s.
55. *Mahmudov Y.M., Şükürov K.M.* Naxçıvan: tarixi və abidələri. Bakı: Təhsil, 2007, 216 s.
56. *Məmmədov M.* Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, 208 s.
57. *Məmmədov M.* Siyasətdə Naxçıvan dərsləri. Bakı: Araz, 2009, 416 s.
58. *Məmmədov M.* Naxçıvan: dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı. Bakı: Şirvannəşr, 2011, 302 s.
59. *Nadırov A.A., Nuriyev Ə.X., Muradov Ş.M.* Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, 104 s.
60. "Naxçıvan" jurnalı.

61. Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Nurlan, 2008, 548 s.
62. Naxçıvan ensiklopediyası. İki cilddə. c.2. İstanbul: Bakanlar Medya, 2005, 376 s.
63. Naxçıvan: inkişafın 16 ili. Naxçıvan: Əcəmi NPB, 2011, 48 s.
64. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 1996-2011. Naxçıvan: Əcəmi NPB, 2012, 536 s.
65. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 2012. Naxçıvan: Əcəmi NPB, 2013, 80 s.
66. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 2013. Naxçıvan: Əcəmi NPB, 2014, 80 s.
67. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 2014. Naxçıvan: Əcəmi NPB, 2015, 158 s.
68. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMR DA), f.2, siy. 9, iş 1093.
69. NMR DA, f.2, siy. 9, iş 1094.
70. NMR DA, f.2, siy. 9, iş 1100.
71. NMR DA, f.2, siy. 9, iş 1103.
72. NMR DA, f.2, siy. 9, iş 1109.
73. NMR DA, f.2, siy. 9, iş 1117.
74. NMR DA, f.2, siy. 9, iş 1118.
75. NMR DA, f.32, siy. 2, iş 33.
76. NMR DA, f.32, siy. 2, iş 34.
77. NMR DA, f.32, siy. 2, iş 36.
78. NMR DA, f.32, siy. 2, iş 37.
79. NMR DA, f.32, siy. 2, iş 38.
80. NMR DA, f.613, siy. 13, iş 608.
81. NMR DA, f.613, siy. 13, iş 613.
82. NMR DA, f.613, siy. 13, iş 615a.
83. NMR DA, f.613, siy. 13, iş 616.
84. NMR DA, f.613, siy. 13, iş 616a.
85. NMR DA, f.613, siy. 13, iş 618.
86. NMR DA, f.613, siy. 13, iş 618a.
87. NMR DA, f.613, siy. 13, iş 619.
88. NMR DA, f.613, siy. 13, iş 632.
89. NMR DA, f.613, siy. 13, iş 637.
90. NMR DA, f.613, siy. 13, iş 639.
91. NMR DA, f.613, siy. 13, iş 651.
92. NMR DA, f.613, siy. 13, iş 655.
93. NMR DA, f.613, siy. 13, iş 656.
94. NMR DA, f.613, siy. 13, iş 662.
95. NMR DA, f.613, siy. 13, iş 681.
96. NMR DA, f.613, siy. 13, iş 697.

97. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Cari Arxivi. İqtisadiyyatda muzdla işləyənlərin orta aylıq əmək haqqı üzrə illik hesabatlar. 1995-2000-ci illər üzrə.
98. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Cari Arxivi. 2001-2005-ci illər üzrə kənd təsərrüfatının Statistika şöbəsinin materialları.
99. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Cari Arxivi. 2007.
100. Naxçıvan Muxtar Respublikası – 75. Yubiley statistik məcmuə. Naxçıvan, 1999, 96 s.
101. Naxçıvan Muxtar Respublikası – 80. Tarixi-statistik məcmuə (Məcmuənin ümumi rəhbəri Vasif Talıbov). Bakı: Səda, 2004, 222 s.
102. Naxçıvan Muxtar Respublikası – 85. Naxçıvan: Əcəmi NPB, 2009, 102 s.
103. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, 102 s.
104. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası. Naxçıvan: Əcəmi NPB, 2012, 40 s.
105. Naxçıvan 2003 -2013: hədəflər, inkişaf, nəticələr. Naxçıvan, 2014, 200 s.
106. Naxçıvanda seçkilərin tarixi (1937-2002). Ensiklopedik toplu. Bakı: Qanun, 2003, 562 s.
107. Naxçıvanda parlament seçkiləri (Tərtib edən M.Qasımov). Bakı: Nasir, 2006, 287 s.
108. Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunmuş təntənəli mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri Vasif Talıbovun çıxışı/ "Xalq qəzeti", 2009, 5 avqust.
109. Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş təntənəli mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri Vasif Talıbovun çıxışı/ "Azərbaycan" qəzeti, 2014, 9 aprel.
110. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Naxçıvan: Əcəmi NPB, 2001, 92 s.
111. Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, 222 s.
112. *Nuriyev Ə.* Regional siyasət və idarəetmənin əsasları. İkinci nəşr. Bakı: Elm və təhsil, 2011, 516 s.
113. Ömrün üç günü. Bakı: Ergün, 1997, 94 s.
114. Regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər). Bakı, 2006, 416 s.
115. "Respublika" qəzeti.
116. *Rəhimov R.V.* Naxçıvan Muxtar Respublikasının xarici əlaqələri (1991-2001-ci illər). Tarix üzrə fəls. dokt. diss. avtoreferatı. Naxçıvan, 2002, 25 s.
117. *Sadıqov S.H.* Naxçıvan Muxtar Respublikasının tarixindən. Bakı: Elm, 1995, 144 s.
118. "Səs" qəzeti.
119. "Şərq qapısı" qəzeti.
120. *Talıbov V.Y.* Yüzillik inkişafın zirvəsi. 1969-1999-cu illər./ "Azərbaycan" qəzeti, 1999, 16 iyul.
121. *Talıbov V.Y.* Azərbaycanın bütün bölgələri kimi Naxçıvan da çox sürətlə inkişaf edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Prezident İlham Əliyevin sədrliyi ilə Naxçıvan MR Ali Məclisində keçirilən müşavirədə məruzəsi. / "Azərbaycan" qəzeti, 2006, 23 dekabr.

122. "Yeni Azərbaycan" qəzeti.
123. 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı haqqında. Naxçıvan: Əcəmi NPB, 1998, 29 s.
124. 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı haqqında. Naxçıvan: Əcəmi NPB, 1999, 34 s.
125. 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı haqqında. Naxçıvan: Əcəmi NPB, 2000, 32 s.
126. 2000-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2001, 46 s.
127. 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: "Əcəmi" NPB, 2006, 70 s.
128. 2001-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2002, 56 s.
129. 2002-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2003, 64 s.
130. 2003-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2004, 60 s.
131. 2004-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2005, 75 s.
132. 2005-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2006, 48 s.
133. 2006-cı ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2007, 52 s.
134. 2007-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2008, 28 s.
135. 2008-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2009, 34 s.
136. 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2010, 38 s.
137. 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2011, 96 s.
138. 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2012, 88 s.
139. 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2013, 88 s.
140. 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2014, 96 s.
141. 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi.Naxçıvan: Əcəmi NPB, 2015, 72 s.

VII FƏSİL

MƏDƏNİYYƏT

Təhsil. Təhsil hər bir millətin gələcəyini müəyyən edir. Millət təhsillə irəli gedir, milli şüuru artır, intellektual potensialı yüksəlir. Dünyanın inkişaf etmiş ölkələrinin tarixi təcrübəsi təsdiq edir ki, təhsilə böyük əhəmiyyət vermiş hər hansı millət daha çox inkişaf etmiş, irəli getmiş hesab olunur.

Xalqların və dövlətlərin sürətli inkişaf yolu təhsildən keçir. Təsadüfi deyildir ki, hələ vaxtı ilə ulu öndər Heydər Əliyev cəmiyyət həyatında təhsilin rolunu yüksək qiymətləndirərək demişdir ki, təhsil millətin gələcəyidir. Ölkə Prezidenti İlham Əliyev təhsilə "Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahə" kimi yüksək dəyər vermişdir. Təhsilə, onun inkişafına xüsusi əhəmiyyət verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov 2015-ci il martın 14-də "Naxçıvan Muxtar Respublikasında elm və təhsilin vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirədə həmin sahələrin vəziyyətini geniş təhlil edərək demişdir: "Təhsil elə səviyyədə olmalıdır ki, o, insanlara yeni texnologiyaları çevik mənimsəmək, əmək bazarında və şəxsi həyatda layiqli yer tutmaq, sağlam həyat tərzi, ətraf mühitə və cəmiyyətdə gedən proseslərə münasibətdə düzgün mövqe seçmək imkanı yaratsın" [76, 2015, 15 mart].

1990-cı illərin əvvəllərindən başlayaraq muxtar respublikanın ümumtəhsil məktəbləri sistemində müəyyən dəyişikliklər baş verdi, liseylər, gimnaziyalar, kolleclər yaradıldı. Naxçıvan şəhərində Naxçıvan Qızlar Liseyi (1992), Babək rayonunun Zeynəddin kəndində Kənd təsərrüfatı təmayüllü məktəb-müəssisə kompleksi (1993), C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı fəaliyyətə başladı (1998).



Naxçıvan şəhərində Heydər Əliyev adına tam orta məktəb

1993-cü ildə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev gənc, müstəqil Azərbaycan Respublikasının üzləşdiyi böyük çətinliklərə baxmayaraq, təhsil sahəsindəki mövqeyini xalq arasında belə bəyan etdi: "Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. Hesab edirəm ki, cəmiyyət harada olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir" [32, s.112].

Ümummilli lider Heydər Əliyev təhsilin milli tərəqqinin gerçək amilinə çevrilməsi üçün geniş islahatların həyata keçirilməsi vəzifəsini qarşıya qoydu. Bu baxımdan 1999-cu ilin iyununda imzalanmış "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı" xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bu proqram Azərbaycanın milli təhsil sisteminin aydın strategiya və konsepsiyasını, təhsilin idarə olunmasında yeni prinsiplərin tətbiq olunmasını, onun beynəlxalq normalara uyğunlaşdırılmasını və dünya təhsil sisteminə inteqrasiyasının sürətləndirilməsini özündə əks etdirir. İslahat proqramının tələblərinin yerinə yetirilməsinin təmin olunması, onun səmərəliliyinin yüksəldilməsi və təhsil sisteminin strukturunun yeniləşdirilməsi məqsədilə ulu öndər Heydər Əliyev "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun tarixində 349 nömrəli Fərman imzalamışdır. Bu fərman təhsilin inkişaf istiqamətlərini müəyyən etməklə təhsil işçilərinin fəaliyyəti üçün stimul yaratmışdır.

Ümummilli lider Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli, "Azərbaycan əlifbası, Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli fərmanları və digər qərarlar təhsilin və elmin inkişafında, milli şüurun formalaşmasında müstəsna əhəmiyyətə malikdir.

Muxtar respublikada təhsilin məzmunca yeniləşdirilməsi və keyfiyyətə nail olunması, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, təhsil sahəsində müxtəlif proqramların həyata keçirilməsi istiqamətində fəal iş aparılır və nəticədə zəngin biliyə, hərtərəfli intellektual səviyyəyə malik, fiziki və mənəvi cəhətdən sağlam gənclər yetişir.

Naxçıvan Muxtar Respublikasının hərtərəfli və sürətli inkişafında təhsilin xüsusi yeri vardır. Muxtar respublikanın rəhbəri diyarı irəli aparmaq, modernləşdirmək üçün məqsədyönlü, irimiqyaslı, ardıcıl təhsil siyasəti aparır. İlk növbədə təhsil müəssisələri üçün yeni binalar tikməyə başlanılmış, təmir olunmuş və onların maddi-texniki bazası möhkəmləndirilmişdir. Muxtar respublikada yeni məktəblərin tikilməsi, onların texniki və kadr təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları və pulsuz dərsliklərlə təmin edilməsi sahəsində ardıcıl iş aparılmışdır.

Müstəqilliyin ilk on ili ərzində muxtar respublikada 45 yeni orta ümumtəhsil məktəbi üçün bina tikilmiş, 16 məktəb binası isə əsaslı şəkildə yenidən qurulmuşdur [67, s.76-77]. Həmin illərdə 3 uşaq bağçası üçün bina tikilmiş, 1-i isə əsaslı təmir

edilmişdir. 2000-2005-ci illərdə isə tikilən məktəblərin sayı 59, şagird yerlərinin sayı 17770 nəfər olmuşdur [85, s.19]. Məktəb tikintisi sonrakı illərdə də davam etdirilmişdir. 2003-2013-cü illərdə muxtar respublikada 84 ümumtəhsil məktəbi, 226 yerlik 11 məktəbəqədər təhsil müssisəsi tikilmişdir [64, s.10].



Şərur şəhərində 1 saylı tam orta məktəb
2010-cu il

Təkcə 2014-cü ildə 19 tam orta məktəb binasında tikinti, yenidənqurma və əsaslı təmir işləri həyata keçirilmişdir [91, s.16]. Ümumiyyətlə, 1995-ci ildən ötən dövr ərzində muxtar respublikada 40182 şagird yerlik 129 ümumtəhsil məktəbi tikilmiş, 34024 şagird yerlik 52 ümumtəhsil məktəbi, eləcə də 19 məktəbəqədər təhsil müəssisəsi, 23 uşaq musiqi və bədii sənətkarlıq məktəbi və 3 orta ixtisas təhsil müəssisəsi yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur [76, 2015, 15 mart].

1995-2010-cu il ərzində muxtar respublikada yeni təhsil obyektlərinin inşası prosesinin yüksək dinamikası ümumilikdə cəmiyyətimizin tərəqqisi ilə bağlı pozitiv meylləri konkret faktlarla xarakterizə etməyə imkan verir. 1995-2010-cu illərdə muxtar respublikada ümumilikdə 225 təhsil ocağı, o cümlədən 8 ali təhsil infrastruktur obyekti, 68374 şagird yerlik 168 orta məktəb, 1835 yerlik 15 uşaq



Şahbuz şəhər 2 nömrəli tam orta məktəbi
2014-cü il



Culfa şəhərində 3 saylı tam orta məktəb
2010-cu il

bağçası, 20 musiqi məktəbi və 14 digər təhsil ocağı tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir [35, s.154].

2003-cü ildə muxtar respublikada 232 gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərirdi ki, bunun da tərkibində 10 ibtidai, 19 əsas, 202 orta təhsil və 1 xüsusi məktəb var idi. Şagirdlərin sayı isə 72179-a çatırdı [19, s.106-107].

Hazırda isə muxtar respublikada 215 ümumtəhsil, 6 peşə təhsili və peşə tədrisi mərkəzi, 19 məktəbəqədər, 44 məktəbdənkənar tərbiyə və təhsil müəssisəsi, 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi və Heydər Əliyev adına Hərbi Lisey fəaliyyət göstərir [76, 2015, 15 mart].

Təhsildə keyfiyyət dəyişiklikləri hər il artmaqda davam edir. Bunlar ali məktəblərə qəbulda və bu zaman yüksək bal toplayan abituriyentlərin sayında özünü göstərir. 2004-2005-ci tədris ilində 5409 nəfər məzun olmuş, bunlardan 3074-ü ali məktəblərə sənəd vermiş, 1024-ü qəbul olmuşdur (33,3 faiz). 2006-cı ildə 3312 abituriyentdən 1110-u (35 faizi), 2007-ci ildə 3099-dan 1183-ü (38 faizi) tələbə adını qazanmışdır. 2008-ci ildə muxtar respublikanın ümumtəhsil məktəblərinin 4714 məzunundan 3216-sı ali məktəblərə sənəd vermiş və onlardan 1270-i (35,6 faizi) ali məktəblərə qəbul olmuşdur. 2009-cu ildə 4390 məzundan 3230-u ali məktəblərə sənəd vermiş və onlardan 1348-i (41,7 faizi) qəbul olmuşdur [19, s.161]. 2010-cu ildə 4341 məzundan 3293-ü ali məktəblərə sənəd vermiş və 1622-si (49 faizi) tələbə adına layiq görülmüşdür [76, 2010, 20 avqust].

2013-cü ildə ümumtəhsil məktəblərini 4186 məzun bitirmiş, onlardan 3238-i ali məktəblərə sənəd vermiş və 1676-sı qəbul olmuşdur (51,8 faizi) [32, s.117]. 2014-cü ildə 3993 nəfər məzun olmuş, bunlardan 3115-i ali məktəblərə sənəd vermiş və qəbul imtahanlarında iştirak edən abituriyentlərdən 1725-i ali məktəblərin, 519-u isə orta ixtisas məktəblərinin tələbəsi adını qazanmışlar [91, s.16-17].



Babək rayonu Şıxmahmud kənd tam orta məktəbi
2008-ci il

2015-ci ildə 3331 nəfər məzun bitirmiş, onlardan 2638-i ali məktəblərə sənəd vermiş və 1582-si tələbə adına layiq görülmüşdür [76, 2015, 22 avqust]. Ümumiyyətlə, son 20 ildə ümumtəhsil məktəblərini 89305 şagird bitirmiş, onlardan 52265-i ali təhsil müəssisələrinə sənəd vermişdir. Sənəd verənlərin 23405-i tələbə adını qazanmışdır. Göründüyü kimi, ilbəil tələbə adını qazanan abituriyentlərin sayı artmışdır. Bu isə şagirdlərin bilik səviyyəsinin artdığını göstərir. Gətirilən müqayisə deyilənləri daha əyani sübut edir. 1995-1996-cı tədris ilində ümumtəhsil məktəblərini bitirmiş 3512 məzundan 1301-i ali təhsil müəssisələrinə sənəd vermiş və onlardan 401-i ali məktəblərə qəbul olmuşdur. Göründüyü kimi, 2014-cü illə müqayisədə fərq çox böyükdür.

Keyfiyyət dəyişiklikləri ali məktəblərə qəbulda yüksək bal toplayan abituriyentlərin sayında da özünü göstərir. Əgər 1996-cı ildə 500-700 arası bal toplayan abituriyentlərin sayı 5 nəfər olmuşdursa, 2014-cü ildə bunların sayı 347-yə çatmışdır [76, 2015, 15 mart]. 2004-cü ildə 64, 2005-ci ildə 87, 2006-cı ildə 135, 2007-ci ildə 160, 2008-ci ildə 219, 2009-cu ildə 232, 2010-cu ildə 280, 2011-ci ildə 296, 2012-ci ildə 267, 2013-cü ildə 312, 2014-cü ildə 347 abituriyent ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplamışdır.

2010-cu ildə yüksək bal toplayan tələbələrdən 9-u, 2011-ci ildə 8-i, 2012-ci ildə 7-si, 2013-cü ildə 6-sı, 2014-cü ildə 2-si, 2015-ci ildə 8 nəfəri Prezident təqaüdünə layiq görülmüşdür. Ümumiyyətlə, muxtar respublikadan 61 məzun Prezident təqaüdü almışdır. Keyfiyyət dəyişiklikləri orta ümumtəhsil məktəblərini bitirəndə də özünü göstərir. Belə ki, 1995-2010-cu illər ərzində 1557 məzun fərqlənmə attestatına, 2011-2013-cü illər ərzində isə təhsili yüksək nailiyyətlərlə



Akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbi
2005-ci il

başa vuran 71 məzun "qızıl" və "gümüş" medallara layiq görülmüşdür [32, s.118].

Həmin şagirdlər onlara göstərilən etimadı doğrultmuş və ali məktəblərə qəbulda yüksək nəticələrə nail olmuşlar. Azərbaycan Prezidenti tərəfindən 2004-cü il 21 avqust tarixində təsdiq olunmuş "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı" və 2008-ci il 10 iyun tarixində təsdiq olunmuş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" ölkəmizdə, o cümlədən muxtar respublikada yeni informasiya texnologiyalarından istifadə olunmaqla təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən və dünya



Ordubad rayonu Gənzə kənd tam orta məktəbi
2011-ci il

təhsil sisteminə inteqrasiya imkanı verən vahid təhsil informasiya mühitini yaratmaq və əhalini informasiya cəmiyyətinə hazırlamaq məqsədi daşımışdır. Bu dövr ərzində muxtar respublikada təhsilin maddi-texniki bazası gücləndirilmiş, o cümlədən yeni müasirtipli məktəb binaları inşa edilmiş, mövcud təhsil ocaqları isə yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur. Son illərdə muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində hər cür avadanlıqlarla təchiz edilən, ən yeni kompyuter dəstləri ilə təmin olunan 322 təhsil müəssisəsi tikilərək və ya yenidən qurularaq şagirdlərin istifadəsinə verilmişdir.

Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramına uyğun olaraq 1 yanvar 2015-ci il tarixə muxtar respublikanın ümumtəhsil məktəblərində 3640 dəst kompyuter quraşdırılmış, hər 13 şagird bir dəst kompyuterlə təmin olunmuşdur.



Sədərək kənd 2 saylı tam orta məktəbi
2010-cu il

İstifadədə olan həmin kompyuterlərin 3057-si və ya 84 faizi internetə qoşulmuşdur [91, s.16]. Bununla yanaşı, təhsilin informasiya mühitinin yaradılması məqsədilə ümumtəhsil məktəblərində 600-ə yaxın elektron lövhə quraşdırılmışdır. "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq 2014-2015-ci tədris ilindən etibarən muxtar respublikanın ümumtəhsil məktəblərində Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr yaradıldı ki, bu da şagirdlərin biliklərinin və milli-mənəvi irsimizə marağının artmasında mühüm rol oynayır.

Muxtar respublikada məktəblərə, məktəblilərə, onların hərtərəfli inkişafına hər cür qayğı göstərilir. Məktəb kitabxanaları zənginləşdirilir, məktəblilər pulsuz dərs-

liklərlə təmin olunur. 2005-2009-cu illərdə məktəb kitabxanalarına 1013539 nüsxə dərslik, 394 adda 539639 ədəd bədii ədəbiyyat, 1450 ədəd Azərbaycan Milli Ensiklopediyasının xüsusi nəşri, 450 ədəd Naxçıvan abidələri ensiklopediyası, 15 fənn üzrə 140 adda 74510 ədəd əyani vəsait, 440 ədəd "Naxçıvan xanlığı" kitabı verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində 2005-ci il avqust ayından ümumtəhsil məktəblərinin I-XI sinif şagirdləri dərsliklərlə pulsuz təmin edilmişdir. Sonrakı illərdə də bu iş davam etdirilmişdir. Ali Məclis Sədrinin təşəbbüsü və şəxsi himayəsi sayəsində bir neçə ildir ki, valideyn himayəsindən məhrum olan uşaqlara hədiyyələr verilir. Ata və ana nəvazişindən məhrum olan kimsəsiz şagirdlər geyim, dərslik və digər ləvazimatlarla təmin olunurlar.

Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin vahid məktəbli forması ilə təmin olunması muxtar respublika rəhbərliyinin həmişə diqqət mərkəzində olmuşdur. Muxtar respublikanın ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri və şagirdləri uyğun formadan istifadə edirlər. Bu da öz növbəsində həm təlimdə, həm də tərbiyədə müsbət rol oynayır.

2005-ci ildən başlayaraq hər il muxtar respublikada təhsil yarmarkaları keçirilir. Həmin il keçirilən təhsil yarmarkasında 119 gənc mütəxəssis işlə təmin olunmuş və ucqar dağ kəndlərinə göndəriş almışdır. 2006 və 2007-ci illərdə də belə yarmarka keçirilmişdir. 2007-ci il təhsil yarmarkasına 178 ixtisaslı mütəxəssis müraciət etmiş, bunlardan 144-ü kənd məktəblərində işlə təmin olunmuşlar.



Naxçıvan şəhərində 3 saylı uşaq bağçası
2012-ci il

Naxçıvan Muxtar Respublikasında məktəbəqədər tərbiyə müəssisələrinin – körpələr evi uşaq bağçalarının geniş şəbəkəsi mövcud olmuşdur. 1994-cü ildə Naxçıvan şəhərində 15, Şərur rayonunda 38, Babək rayonunda 11, Ordubad rayonunda 18, Şahbuz rayonunda 14, Culfa rayonunda 10, Sədərək rayonunda 2,



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov
11 saylı uşaq bağçasında
2010-cu il

bütövlükdə muxtar respublikada 108 belə müəssisə olmuşdur [69, v.8-11]. 1995-2010-cu illərdə məktəbəqədər müəssisələrin geniş şəbəkəsi yaradılmış, yeni binalar tikilmiş və ya mövcud olanlar əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir.



Şahbuz şəhərində uşaq bağçası
2015-ci il

Məktəbəqədər müəssisələrin 87 faizi yenidən qurulmuşdur. 2003-2013-cü illərdə 2260 yerlik 11 məktəbəqədər təhsil müəssisəsi tikilmişdir [64, s.10]. Son illər muxtar respublikada 17 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilmişdir. 17-ci məktəbəqədər təhsil müəssisəsi 2015-ci il 25 iyunda Şahbuz şəhərində

uşaqların istifadəsinə verilmişdir. Burada 13 qrupda 242 uşaq təlim-tərbiyə alacaq, məktəbə hazırlıq kursları keçəcəklər [38, 2015, 26 iyun].

Şahbuz şəhər Uşaq Bağçasının açılışında iştirak və çıxış edən Ali Məclisin Sədri demişdir: "Uşaq bağçalarının yaradılması, onların fəaliyyətinin təmin olunması məktəbəqədər təhsilin düzgün təşkili ilə yanaşı, həm də ailələrə dəstəkdir. Valideyinləri işləyən uşaqlar eyni zamanda xüsusi qayğıya ehtiyacı olan ailələrdə böyüyən uşaqlar bağçada təlim-tərbiyə alır, onların məktəbəqədər tərbiyəsi düzgün təşkil olunur. Bu mənada bağçaların yaradılması və fəaliyyətinin təmin edilməsi həm də işləyən və xüsusi qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı kimi mühüm əhəmiyyət daşıyır. Ona görə də kollektiv uşaqların məktəbə hazırlığına, qidalanmasına və sağlamlığına xüsusi diqqət yetirməlidir" [76, 2015, 26 iyun]. Muxtar respublikada 44 məktəbdənkənar uşaq müəssisəsi, o cümlədən gənc təbiətçilər, rəsm, idman, şahmat məktəbləri və başqa müəssisələr fəaliyyət göstərir. Bu müəssisələrdə çoxlu sayda şagird müxtəlif maraq sahələri üzrə qruplara cəlb olunmuşdur. Şahbuz şəhərində Uşaq Yaradıcılıq Mərkəzi, Şahmat məktəbi, Şərur və Culfa rayonlarında Şahmat məktəbi tikilmiş və müasir avadanlıqlarla təchiz olunmuşdur. Bunlardan başqa muxtar respublikada Texniki Yaradıcılıq, Turist-Diyarşünaslıq və Ekoloji Tərbiyə Mərkəzlərinin daha yaxşı fəaliyyəti üçün müvafiq binalar ayrılmış, onlar yüksək səviyyədə təmir edilərək şagirdlərin ixtiyarına verilmişdir. Muxtar respublikada 8 məktəbdənkənar tədris müəssisəsi tikilmiş və ya yenidən qurulmuşdur. Naxçıvan şəhərindəki Şahmat mərkəzində beynəlxalq yarışların keçirilməsi üçün hər cür şərait vardır. Artıq 5 ildir ki, burada ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş beynəlxalq şahmat yarışları keçirilir.



Naxçıvan şəhərində Heydər Əliyev adına Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi 2009-cu il

2015-ci il yarışlarında dünyanın 13 ölkəsindən 350-ə qədər şahmatçı bu turnirdə iştirak edib [76, 2015, 3 may]. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, Naxçıvan Regional Peşə-Tədris Mərkəzinin binaları yenidən qurularaq istifadəyə verilmişdir. 2010-cu ilin sentyabrında Culfa şəhərində 2 məktəb, 1 uşaq bağçası və 1 məktəbdənkənar müəssisə tikilmiş və ya əsaslı təmirdən sonra istifadəyə verilmişdir. Texniki Yaradıcılıq Mərkəzində, Ekoloji Tərbiyə Mərkəzində və Uşaq Yaradıcılıq Mərkəzində hər cür şərait yaradılmışdır.

Muxtar respublikada 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində 7204 şagird və 1679 müəllim, texniki peşə və peşə tədris müəssisələrində 874 şagird, 46 müəllim və 39 istehsalat-təlim ustası təhsilə və tədris prosesinə cəlb olunmuşdur [76, 2015, 15 mart].

Respublikamızda ümumtəhsil məktəbləri müəllimlərinin həyat səviyyəsi və onların əməyinin qiymətləndirilməsi də dövlətimizin diqqət mərkəzində saxlanılır və onlara qayğı göstərilir. Son bir neçə ildə təhsil işçilərinin əmək haqları bir neçə dəfə artırılmışdır. Ən qabaqcıl 50 məktəb və 100 müəllim ölkə rəhbəri tərəfindən mükafatlandırılmışdır. 2007-ci ildən bügünədək muxtar respublikadan 21 məktəb ölkə Prezidentinin sərəncamı ilə "İlin ən yaxşı ümumtəhsil məktəbi" və 35 müəllim isə "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi adına layiq görülərək mükafatlandırılmışdır. Həmçinin müəllimlərdən 65-i "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 83-ü "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adlarına layiq görülmüş, 60 müəllim isə "Tərəqqi" medalı ilə təltif edilmişdir [76, 2015, 6 oktyabr].

Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin artırılmasına xüsusi əhəmiyyət verilir. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov 2015-ci il 14 martda Sərəncam imzalamışdır [76, 2015, 15 mart].



Heydər Əliyev adına Hərbi Lisey
1998-ci il

Sərəncama görə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, ali və orta ixtisas təhsili müəssisələrinin professor-müəllim heyətinin iştirakı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində ayda bir dəfə nümunəvi dərslərin aparılması nəzərdə tutulmuşdur.

Təhsil müəssisələri arasında Heydər Əliyev adına Hərbi Liseyin öz yeri vardır. Bu Lisey ulu öndər Heydər Əliyevin 1998-ci il 13 mart tarixli sərəncamı ilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı kimi yaradılmışdı [76, 2010, 27 fevral].

1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illiyi münasibətilə yubiley şənliklərinə gəlmiş ümummilli lider Hərbi Liseyin Naxçıvan filialının da açılmasında iştirak etmiş, işlərin gedişi ilə tanış olmuş, qarşıya çıxan problemlərlə maraqlanmış, yaxın gələcəkdə bu tədris ocağının ərazisini daha da genişləndirmək, kontigent sayını artırmaq barədə tövsiyə və tapşırıqlarını vermişdir.

Ümummilli lider Heydər Əliyev C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının yaradılmasının əhəmiyyətindən danışarkən demişdir: "Naxçıvanın Azərbaycandan aralı düşməsi və bir çox sahələrdə əlaqələrin çox çətin olması, əlbəttə, buradakı gənclərin gedib Bakıdakı Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olması üçün çətinliklər yaradır.... Hərbi Liseyin burada filialın yaradılması zərurəti bir də ondan irəli gəlir ki, tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları – Kəngərlilər sülaləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, Sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. ... Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün Hərbi Liseyin filialının yaradılması çox zəruri idi" [24, s.147, 149-150].

2001-ci ildə Naxçıvan filialının ilk buraxılışı oldu. 50 məzundan 49-u ali hərbi məktəblərə daxil oldu. Buraxılışa həsr olunmuş təntənəli mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov ilk məzunları, onların valideyinlərini, müəllimləri və zabit heyətini təbrik etdi. Fərəhli haldır ki, Ali Məclis Sədrinin hər il buraxılış günündə məzun-kursantlarla, o cümlədən müəllim və zabit heyətilə görüşü həmin vaxtdan bir ənənəyə çevrilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün hərbi kadr hazırlığı sistemini təkmilləşdirmək və Milli Ordunun peşəkar kadrlara olan tələbatının ödənilməsi işini yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Heydər Əliyev adına Hərbi Liseyin yaradılması haqqında" 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında müstəqil Hərbi Lisey yaradıldı [17, 2004, 28 fevral].

2005-ci il dekabrın 19-da ölkə başçısı İlham Əliyev Liseydə olmuş, burada

yaradılan şəraitdən razılığını bildirmiş, kursantlara öz tövsiyyələrini verərək demişdir: "Bu liseydə dərs alan, təhsil alan gənclər gələcəkdə bizim ordumuzda xidmət edəcəklər. Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar, lazım gələrsə, Azərbaycanın ərazi bütövlüyünün hərb yolu ilə bərpa olunmasında iştirak edəcəklər [28, s.235].

2005-ci ildə Hərbi Liseyi qurtaran 30 məzunu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri qəbul etdi. Görüşdən razılığını bildirən Ali Məclisin Sədri demişdir: "Azərbaycan torpağına hər birimiz harada xidmət etməyimizdən, işləməyimizdən, yaşamağımızdan asılı olmayaraq müqəddəs baxmalıyıq və onun inkişafı üçün, qorunmağı üçün əlimizdən gələni əsirgəməməliyik.



Heydər Əliyev adına Hərbi Lisey
2013-cü il

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı yaranan zaman sizinlə - ilk qəbul olunanlarla və sizin ilk buraxılışınızla da görüşdük. Bu filial yarananda mən bilirdim ki, bunun çətinlikləri var, qarşıda problemlərimiz olacaq. Hərbi məktəb yaratmaq adi məktəb yaratmaq kimi asan deyil. Hərbi məktəbə birinci, gərək vətənpərvər uşaqlar seçilsin, ikincisi, onlara digər məktəblərdən fərqli olaraq daha yaxşı təhsil verilsin, üçüncüsü isə kursantlara diqqət, qayğı göstərilsin, şərait yaradılsın" [76, 2010, 27 fevral]. On ildən çoxdur ki, müstəqil fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Lisey ötən dövr ərzində böyük inkişaf yolu keçmişdir.

Ötən dövrdə Hərbi Liseyi bitirən 2161 kursantdan 2027-si ali hərbi məktəblərə qəbul olmuşdur [76, 2015, 18 iyun]. Liseyin məzunlarından 1000-ə yaxını Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi xidmət edirlər. Hazırda Liseydə 657 kursant təhsil alır. 2015-2016-cı tədris ilində Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmaq üçün 977 gənc sənəd vermiş, onlardan 603-ü qəbul im-

tahanlarında iştirak etmək hüququ qazanmışdır.

1996-cı ildən orta ixtisas və ali təhsil müəssisələrinin inkişafına da diqqət artırılmış, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə fikir verilmişdir.

Muxtar respublikada Naxçıvan Tibb Kolleci, Naxçıvan Musiqi Kolleci və Naxçıvan Dövlət Texniki Kolleci fəaliyyət göstərir. Naxçıvan Tibb Kolleci Tibb Texnikumunun bazası əsasında yaradılmışdır. Naxçıvan Tibb Texnikumu isə 1931-ci il sentyabrın 5-də təsis edilmişdir. Bu təhsil müəssisəsi 1931-1932-ci tədris ilində feldşer ixtisası ilə fəaliyyətə başlayıb. Texnikuma ilk qəbul olanlar isə 32 nəfər idi. 1933-1934-cü tədris ilində 3 yeni şöbə açılır: mamalıq, tibb bacısı və farmaseft.



Naxçıvan Tibb Kolleci
2007-ci il

Texnikumda 4 şöbədə 89 nəfər təhsil alırdı. 1935-ci ildə Tibb Texnikumu Tibb Bacısı Məktəbi adlandırılmışdır. 1936-1937-ci ildə 144, 1940-1941-ci ildə 124 tələbə təhsil almışdı. 1947-ci ildə Naxçıvan Tibb Bacısı Məktəbi Feldşer Məktəbi, 1954-cü ildə Feldşer-Mamalıq məktəbi adlandırılmışdır. 1946-1956-cı illərdə feldşer ixtisasını 455 nəfər, mamalıq ixtisasını isə 161 nəfər bitirmişdi.

1974-cü ilin ortalarında Naxçıvan MSSR-in 50 illik yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana gəlmiş ümummilli lider Heydər Əliyev Naxçıvan Tibb Məktəbində də olmuşdur.

Tibb məktəbinin yerləşdiyi binada əvvəllər Naxçıvan Pedaqoji Texnikumu fəaliyyət göstərmişdir.

Ümummilli lider Heydər Əliyev isə Naxçıvan Pedaqoji Texnikumunun məzunu olmuşdur. Ulu öndər oxuduğu sinfə gəlmiş, tələbə olarkən oturduğu partada oğlu İlhamla birlikdə şəkil çəkdirmiş, keçən günləri xatırlamışdır. Heydər Əliyev məktəbdə tədrisin səviyyəsi və dərslərin keyfiyyəti ilə maraqlanmış, Naxçıvan Tibb Məktəbinin Naxçıvanda, eləcə də Azərbaycanda orta ixtisaslı tibb kadrlarının hazırlanmasında müstəsna rolunu qeyd etmişdir. 1956-1976-cı illərdə - 20 il ərzində Naxçıvan Tibb Məktəbini bütün şöbələr üzrə 1115 tələbə bitirmişdir.



Ümummilli lider Heydər Əliyev Naxçıvan Tibb Kolecinin 50 illik yubiley tədbirində 1981-ci il

Bunlardan 247-si feldşer və feldşer-laborant, 314-ü mamalıq və 555-i isə tibb bacısı şöbələrinin məzunları olmuşlar.

1980-1990-cı illərdə məktəbdə 3 ixtisas üzrə kadrlar hazırlanmış, onların təlim-tərbiyəsi ilə 21 müəllim, 67 həkim məşğul olmuşdur.

2001-ci ildə Naxçıvan Tibb Məktəbinin 70 illik yubileyinin keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Sərəncam imzalamış, həmin il oktyabrın 2-də yubiley qeyd edilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Naxçıvan Tibb Məktəbinin 70 illik yubileyini təbrik etmişdir: "Yetmiş il bundan əvvəl təsis edilmiş Naxçıvan Tibb Məktəbi Muxtar Respublikada səhiyyənin inkişafında və orta ixtisaslı tibb kadrlarının hazırlanması işində xüsusi rol oynamışdır. Bütün bu illər ərzində onun yetirmələri xalqımızın sağlamlığının keşiyində durmaqla əhali arasında sanitar-maarifi işinin gücləndirilməsində böyük xidmətlər göstərmişlər".

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 iyun tarixli sərəncamı ilə Naxçıvan Tibb Məktəbi – Naxçıvan Tibb Kolleci adlandırılmışdır. 2009-2010-cu tədris ilindən Kollecdə "Ortopedik stomotologiya" ixtisası açılmışdır. Kollecdə aşağıdakı ixtisaslar üzrə mütəxəssislər hazırlanır: Müalicə işi, Mamalıq işi, Əczaçılıq, Tibb bacısı işi, Ortopedik stomotologiya. Kollecdə 3 laboratoriya, 2 şöbə, 9 fənn kabinəsi, 7 fənn birləşməsi, tyutorlar və qrup rəhbərləri fəaliyyət göstərir.

Naxçıvan Musiqi Kolleci 1975-ci il aprelin 18-də Naxçıvan Orta İxtisas Musiqi Məktəbi adı ilə fəaliyyətə başlamışdır. 1992-ci ildən Naxçıvan Musiqi



Naxçıvan Musiqi Kolleci
2005-ci il

Texnikumu, 2005-ci ildən isə Naxçıvan Musiqi Kolleci kimi Naxçıvan musiqi mədəniyyətinə dəyərli töhfələr verir. Dörd ixtisas ("fortepiano", "xalq çalğı alətləri", "xalq mahnıları və muğam", "simli alətlər") üzrə fəaliyyətə başlayan Musiqi Məktəbində 1995-ci ildə 6, 2005-ci ildə 8, 2014-cü ildə isə 11 ixtisas üzrə kadrlar hazırlanır. Bu gün Musiqi Kollecində 552 tələbə təhsil alır. Onların təlim-tərbiyəsi ilə 181 müəllim və konsertmeyster məşğul olur [76, 2015, 9 iyul]. 1975-ci ildən ötən dövr ərzində Naxçıvan Musiqi Kollecinin 2500-dən çox məzunu olub. Kollecdə xalq çalğı alətləri, simfonik, nəfəs alətləri, estrada orkestrləri, qədim musiqi alətləri, "Dilrüba muğam", "Gənclik" instrumental ansamblları, xor kollektivi, "Naxçıvanqala" ritm qrupu, sazçalanlar ansamblı və yallı qrupu fəaliyyət göstərir [76, 2015, 3 aprel].

2001-ci ildən kollecdə "fortepiano", "xalq çalğı alətləri", "musiqi nəzəriyyəsi" ixtisasları üzrə qiyabi şöbə fəaliyyətə başlayıb. Kollec 2000 və 2004-cü illərdə keçirilən VIII və IX respublika müsabiqələrində Naxçıvanı yüksək səviyyədə təmsil edib. Son 20 ildə kollecin 17 müəllimi Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülüb.

Naxçıvan Dövlət Texniki Kolleci 1925-ci ildə yaradılan Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun bazası əsasında 2002-ci ildə yaradılıb. Həmin dövrdə Kollecdə 2 ixtisas - Aqronomluq və Kənd təsərrüfatının mexanikləşdirilməsi ixtisasları üzrə kadrlar hazırlanırdı. Bu təhsil müəssisəsi 37 tələbə ilə fəaliyyətə başlayıb. Hazırda Kollecdə əyani və qiyabi şöbələr üzrə 6 ixtisas mövcuddur: Baytarlıq, Nəqliyyatda daşınmaların təşkili (dəmiryol nəqliyyatı), Nəqliyyat

vasitələrinin texniki istismarı, Yol hərəkətinin təşkili, Mühasibat uçotu, Bank işi. Əyani şöbənin 6 ixtisasında 306, qiyabi şöbənin 1 ixtisasında 56 tələbə təhsil alır. Onların təlim-tərbiyəsi ilə 33 müəllim məşğul olur. Vaxtı ilə Naxçıvan Kənd Təsərrüfatı Texnikumunu bitirmiş məzunlar arasından görkəmli elm adamları, müharibə və əmək qəhrəmanları çıxmışdır.

Orta ixtisas məktəblərində 1642 tələbə və 218 müəllim təhsilə və tədris prosesinə cəlb olunmuşdur [76, 2015, 15 mart].

Son 20 ildə muxtar respublikada ali təhsil müəssisələrinin həyatında da ciddi dəyişikliklər baş vermişdir. 1967-ci ildən Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi yaranan, 1972-ci ildən müstəqil ali təhsil müəssisəsinə - Naxçıvan Dövlət Pedaqoji İnstitutuna çevrilən və 1990-cı ildən Naxçıvan Dövlət Universiteti adlandırılan bu təhsil ocağının inkişafı ulu öndər Heydər Əliyevin qayğısı nəticəsində baş vermişdir.

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 iyun tarixli sərəncamı ilə Naxçıvan Dövlət Universiteti yüksək özünüidarəetmə, muxtariyyət statusu qazanmışdır [17, 2002, 13 iyun].



Naxçıvan Dövlət Universiteti
2007-ci il

Universitetin yaradılması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi lider Heydər Əliyev dörd dəfə Naxçıvan Dövlət Universitetində olmuşdur. Bu ali təhsil ocağı Naxçıvan Muxtar Respublikasının əsas elm, təhsil, ictimai fikir və mədəniyyət mərkəzlərindəndir [51, 2007, №5, s.9]. Naxçıvan Dövlət Universiteti Azərbaycan elminə, dövlət quruculuğuna və milli ali təhsilinə sanballı töhfələr vermişdir.

Naxçıvan Dövlət Universiteti 1967-ci ildə cəmi 3 ixtisas üzrə təhsil alan 102 tələbə və 3 müəllimlə fəaliyyətə başlamışdır [55, s.15]. Hazırda universitetin



Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr və xarici dillər fakültəsi 2009-cu il

12 fakültəsində 58 ixtisas üzrə 5 mindən artıq bakalavr, magistr və doktorant təhsil alır. Bu ali təhsil ocağında 12 ölkədən 300-dən çox tələbə təhsil prosesinə cəlb olunmuşdur. Universitetdə elmi-pedaqoji fəaliyyətini davam etdirən 407 müəllimdən 3-ü AMEA-nın həqiqi üzvü (akademik), 10-u müxbir üzvü, 35-i elmlər doktoru, professor, 177-si isə fəlsəfə doktoru, dosentdir [55, s. 17; 76, 2015, 15 mart].

Naxçıvan Dövlət Universitetinin əsl inkişaf dövrü 1996-cı ildən sonra baş vermişdir. Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildikdən sonra bu ali təhsil müəssisəsinin həyatında ciddi dəyişiklik baş vermişdir. 1996-cı ilin oktyabrında prof. İsa Həbibbəylinin (hazırda AMEA-nın



Naxçıvan Dövlət Universitetinin tələbə yataqxanası və qonaq evi 2011-ci il



Naxçıvan Dövlət Universitetinin Tələbə Sosial Xidmət Mərkəzi
2011-ci il

vitse-prezidenti, akademik) universitetin rektoru təyin edilməsi ilə ali təhsil müəssisəsinin gələcək uğurları üçün əsas yaradılmışdır. Ali Məclis Sədrinin dəfələrlə universitetə gəlməsi, problemlərlə tanış olması, kollektiv üzvləri ilə görüşməsi, tövsiyyə və tapşırıqlarını verməsi universitetin inkişafını sürətləndirmişdir. Onlarla yeni tədris korpusları – 1600 yerlik əsas korpus, Tibb fakültəsi, Sosial-idarəetmə və hüquq, Xarici dillər və beynəlxalq münasibətlər korpusları, Olimpiya-İdman Kompleksi, Konservatoriya, Elektron kitabxana üçün binalar tikilmiş,



Elektron Naxçıvan –10
2015-ci il

Magistratura, Memarlıq və Mühəndislik, Baytarlıq, Xarici tələbələr, Pedaqoji və Kənd təsərrüfatı fakültələrinin yerləşdiyi binalar isə yenidən qurularaq əsaslı təmir edilmişdir. Naxçıvan Dövlət Universitetinin 108 hektarlıq ərazisində 12 tədris korpusu, Elektron kitabxana, Konservatoriya, Sosial Xidmət Mərkəzi, Universitet klinikası, 2 stadion, Botanika bağı, "Qeyrət" nəşriyyatı, Universitet televiziyası, Media Mərkəzi, 3 internet mərkəzi və bir neçə muzey yerləşir. Tələbələrin yaşayış və məişət şəraitinin yaxşılaşdırılması üçün 462 yerlik Tələbə yataqxanası, Sosial Xidmət Mərkəzi və Qonaq evi ən yüksək səviyyədə tikilərək və yenidən qurularaq tələbələrin və müəllimlərin istifadəsinə verilmişdir. Universitetin maddi-texniki bazası möhkəmləndirilmiş, yeni-yeni kabinə və laboratoriyalar, ixtisaslaşdırılmış otaqlar yaradılmışdır.

Naxçıvan Dövlət Universiteti geniş beynəlxalq əlaqələrə malikdir. Universitet dünyanın 80-dən çox universitet və beynəlxalq elm və təhsil mərkəzləri ilə sıx əlaqə saxlayır. Həmin universitet və mərkəzlərlə formalaşan çoxcəhətli əlaqələr dünya təhsil sistemi ilə inteqrasiyanın genişləndirilməsinə və regionda müstəqil Azərbaycanın yeni tipli mütəxəssislər nəslini formalaşdırmağa təkan verir. Universitet onlarla beynəlxalq layihələrdə iştirak edir.

Naxçıvan Dövlət Universitetinin 30 və 40 illik yubileyləri böyük təntənə ilə qeyd edilmişdir.

Ümummilli lider Heydər Əliyevin 2000-ci il 13 iyun tarixli Sərəncamı ilə Azərbaycan Müəllimlər İnstitutu və bölgələrdə filialları yaradıldı. Naxçıvan Müəllimlər İnstitutu da həmin dövrdə Azərbaycan Müəllimlər İnstitutunun filialı kimi təsis edildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə bu filial 2003-cü ildə müstəqil ali məktəbə çevrildi.



Naxçıvan Müəllimlər İnstitutu
2011-ci il

İki ixtisasla fəaliyyətə başlayan Naxçıvan Müəllimlər İnstitutunda hazırda 5 ixtisas üzrə (İbtidai sinif, Məktəbəqədər təlim və tərbiyə, Riyaziyyat və informatika, Təhsildə sosial-psixoloji xidmət və Təsviri incəsənət) yüksək ixtisaslı

kadrlar hazırlanır. İnstitutun əyani və qiyabi şöbələrində 1067 tələbə təhsil alır. İnstitutda magistr hazırlığı da həyata keçirilir. İki ixtisas üzrə (İbtidai sinif müəllimliyi və Təhsildə sosial-psixoloji xidmət) 29 magistr yüksək ixtisaslı kadrlar kimi formalaşır. Onların təlim-tərbiyəsi ilə 89 professor-müəllim heyəti məşğul olur.

Müəllimlərdən 8-i elmlər doktoru, 38-i fəlsəfə doktorudur. Professor-müəllim heyətinin tərkibində 5 professor, 27 dosent vardır. Son illərdə institutun maddi-texniki bazası möhkəmləndirilmiş, onun beynəlxalq əlaqələri artmışdır.

Naxçıvan Müəllimlər İnstitutunun "Xəbərlər" elmi-metodik jurnalı çap olunur. Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyyə edilən elmi nəşrlər siyahısına daxil edilmiş və beynəlxalq kod almışdır.

"Naxçıvan" Univerisiteti 1994-cü ildə Bakı Özəl Ali Kollecinin Naxçıvan Filialı kimi fəaliyyətə başlayan, 11 sentyabr 1999-cu ildən müstəqil ali təhsil müəssisəsi kimi dövlət qeydiyyatına alınan, 2015-ci il yanvarın 22-dən "Naxçıvan" Universiteti kimi fəaliyyət göstərən universitetdə ali təhsilin bakalavriatura və magistratura səviyyələri üzrə mindən çox tələbə təhsil alır. Bakalavr hazırlığı 15 ixtisas üzrə aparılır (Azərbaycan dili və ədəbiyyat, xarici dil (ingilis), riyaziyyat və informatika, tarix, coğrafiya, informatika, beynəlxalq münasibətlər, maliyyə, iqtisadiyyat, dinşünaslıq və s.). Dörd ixtisas üzrə magistr hazırlığı aparılır (Azərbaycan dili və ədəbiyyat müəllimliyi, tarix müəllimliyi, pedaqogika, iqtisadiyyat). Universitetdə 4 fakültə fəaliyyət göstərir (Pedaqoji, xarici dillər, iqtisadiyyat və idarəetmə fakültələri). Həmin fakültələrdə 9 kafedra fəaliyyət göstərir ki, burada 80 professor-müəllim heyəti çalışır.

Tədris prosesinin səmərəli təşkilində 5 şöbə, 5 mərkəz, 7 kabinə və laboratoriyalar da iştirak edir.



"Naxçıvan" Universiteti
2015-ci il

Bugünədək universiteti 3245 nəfər bitirmişdir. Məzunların əksəriyyəti öz ixtisasları üzrə, həmçinin muxtar respublikanin dövlət və idrəetmə orqanlarında çalışır.

"Naxçıvan" Universiteti yüksək dünya standartlarına uyğun maddi-texniki bazaya malikdir. Universitetin 4 hektara yaxın özəlləşdirilmiş ərazisində 7 binadan və idman qurğularından ibarət müasir universitet şəhərciyi yerləşir. Eyni vaxtda iki min nəfər tələbənin təhsil ala biləcəyi tədris korpusları, rektorluq binası, dünya standartlarına uyğun müasir idman kompleksi, kitabxana, yüksək zövqlə tikilmiş sosial mərkəz binası, ən müasir tələblərə cavab verən çoxmərtəbəli yataqxana binası bu kampusa daxildir.

Universitetdə tədrisin təşkili yüksək texnologiyalar üzərində qurulmuş elektron təhsil infrastrukturu əsasında aparılır. 350-dən çox kompüter, 20 ədəd elektron lövhə, virtual tədris və distant təhsil avadanlıqları olan auditoriya və kabinələr, geniş zolaqlı internet xidməti, müasir rəqəmsal avadanlıqlara malik mətbəə tələbə və müəllimlərin istifadəsinə verilmişdir.

Universitetin geniş beynəlxalq əlaqələri vardır. O, "Qafqaz Universiteti Birliyi", "Avraasiya Universitetlər Birliyi" və "Şərqi Asiya Universitetlər Birliyi"nin üzvüdür. TEMPUS xətti ilə indiyədək iki layihə partnyor universitet olaraq qazanılmışdır.

Universitet dünyanın 51 universiteti ilə əməkdaşlıq edir. "Mövlana" mübadilə proqramı üzrə 20 universitetlə əlaqə saxlayır. Almaniyanın Lüdviq Maksimilians Universiteti ilə eyniləşdirilmiş proqramla alman filologiyası üzrə mütəxəssis hazırlığı aparılır. Tədrisə yüksək ixtisaslı xarici mütəxəssislərin cəlbi təcrübəsindən istifadə edilir.

Ümumiyyətlə, muxtar respublikada 3 ali təhsil müəssisəsi fəaliyyət göstərir. Hazırda ali təhsil müəssisələrində 66 ixtisas üzrə 7420 tələbə təhsil alır ki, onların təlim-tərbiyəsi ilə 462 professor-müəllim heyəti məşğul olur [31, s.166]. Əgər 1995-ci ildə muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində, ümumilikdə 43 ixtisas üzrə kadr hazırlanırdısa, son iyirmi ildə bu təhsil müəssisələrində 41 yeni ixtisas açılmışdır. Hazırda muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində 84 ixtisas üzrə kadr hazırlanır [76, 2015, 15 mart]. Ali və orta ixtisas təhsili məktəblərində 534 professor-müəllim heyəti fəaliyyət göstərir.

Bütövlükdə, Naxçıvan Muxtar Respublikasında yeni ali məktəblərin yaranması və universitet quruculuğunun sürətlə inkişaf etdirilməsi burada yüksək ixtisaslı, milli və bəşəri dəyərləri vəhdətdə daşıyan, geniş dünyagörüşə malik mütəxəssislərin, yeni elmi nəsillərin yetişib formalaşmasına ciddi təkan verir.

Ümumumiyyətlə, bu gün muxtar respublikanın bütün pillədən olan təhsil müəssisələrində 58 minə yaxın uşaq, şagird, tələbə və kursant, 10 minə yaxın müəllim vardır [76, 2015, 15 mart].

Elm. XX əsrin 90-cı illərinin ortalarında ölkə iqtisadiyyatında baş verən müsbət irəliləyişlər elm sahəsində də mühüm dəyişikliklərin baş verməsinə səbəb oldu. Azərbaycan milli elminə həmişə hamilik etmiş ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə qayıdandan sonra elmə dövlət qayğısı artdı. 1997-ci il yanvarın 31-də ulu öndər Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi və aparıcı alimlərin bir qrupu ilə görüşərək elm sahəsində mövcud problemləri müzakirə etdi: "Elmin strateji inkişafi və Azərbaycan Milli Elmlər Akademiyasında islahatların konsepsiyası" hazırlandı. Alimlərin əmək haqqı artırıldı. 1997-ci ilin fevralında əmək haqqı Elmlər Akademiyasında 50 faiz, habelə Akademiyanın həqiqi və müxbir üzvlərinin elmi rütbə haqqı 10 dəfə yüksəldi. Sonrakı illərdə də elm sahəsi ilə məşğul olan işçilərin əmək haqqı artırıldı. 2002-ci ilin iyul ayından Akademiya əməkdaşlarının əmək haqqı orta hesabla iki dəfə, akademiklərin 3 dəfə, müxbir üzvlərinin isə 3 dəfədən çox artırıldı.

Ölkə Prezidentinin 2001-ci il 15 may tarixli fərmanına əsasən Azərbaycan Elmlər Akademiyası "Azərbaycan Milli Elmlər Akademiyası" adlandırıldı [50, s.6]. Prezidentin sərəncamı ilə Akademiya üzvlərinin ümumi sayı 200 nəfər müəyyən edildi [50, s.38]. Həmin il iyunun 29-da Akademiyaya yeni seçkilər keçirildi: 29 nəfər həqiqi üzv (akademik) və 89 nəfər müxbir üzv seçildi. Naxçıvan Dövlət Universitetinin rektoru İsa Həbibbəyli müxbir üzv seçilənlər arasında idi. Naxçıvanda yaşayıb fəaliyyət göstərən alim ilk dəfə idi ki, akademiyanın müxbir üzvü seçilirdi. 2003-cü ilin əvvəllərində Azərbaycan MEA-da 60 akademik, 113 müxbir üzv, 4318 işçi, 446 elmlər doktoru və 1932 fəlsəfə doktoru çalışırdı [41, s. 236].

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında bir sıra elmi müəssisələr fəaliyyət göstərirdi: Naxçıvan Regional Elmi Mərkəzi, Naxçıvan Kompleks Zona Təcrübə Stansiyası, Naxçıvan "Araz" Elm İstehsalat Birliyi, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Stansiyası, Elm və Texnika Mərkəzi, Şamaxı Asrtofizika Rəsədxanasının Batabat Stansiyası. Muxtar respublikanın elmi idarə və müəssisələrində fundamental elmin müxtəlif sahələri üzrə tədqiqatlar aparılmış, faydalı elmi nəticələr əldə edilmişdi. Bununla belə, elmi müəssisələrin maddi-texniki bazalarının məhdudluğu, bütün sahələr üzrə ixtisaslı kadrların olmaması elmi-tədqiqat işlərinin səviyyəsinə mənfi təsir edirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun təşəbbüsü və rəhbərliyi ilə 1996-cı ilin iyulunda "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumun keçirilməsi Naxçıvanda elmi mühitin inkişafına əsaslı təsir göstərdi, Naxçıvanın hərtərəfli və elmi cəhətdən öyrənilməsinə təkan verdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin simpozium iştirakçılarına göndərdiyi təbrik məktubunda deyilirdi: "Öz əlverişli coğrafi mövqeyi, təkrarolunmaz mədəniyyət və incəsənət abidələri, istedadlı alim və ədibləri ilə seçilən bu diyar dünyanın bir çox tarixçi, səyyah və alimlərinin diqqətini cəlb



"Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" beynəlxalq simpoziumu
21 iyul 2011-ci il



"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" beynəlxalq konfransı
4-5 iyul 2014-ci il

etmiş, onların əsərlərində dərin iz qoymuş və özünəməxsus yer tutmuşdur. Həmin qaynaqların araşdırılması, onlarda Naxçıvan haqqında qeyd olunmuş məlumatların toplanıb tədqiq və nəşr olunması Azərbaycan tarixinin obyektiv, elmi şəkildə işlənib hazırlanması üçün misilsiz əhəmiyyət kəsb edir" [50, s.115].

Məhz bundan sonra Naxçıvan Dövlət Universitetində, Naxçıvan Regional Elmi Mərkəzində qədim diyarın hərtərəfli araşdırılması, xüsusən tarix və mədəniyyət sahələri üzrə geniş miqyaslı tədqiqatların aparılması sahəsində ciddi dirçəliş və irəliləyiş dövrü başlanmışdır. Qısa müddətdə "Azərbaycan tarixində Naxçıvan",

"Naxçıvan tarixinin səhifələri" məqalələr toplularının nəşr olunması, tarix üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsi, çoxsaylı kitabların, elmi məqalələrin meydana çıxması regionda elmin inkişafında böyük potensialın mövcudluğunu aşkara çıxartmışdır. Sonrakı illərdə də beynəlxalq səviyyəli simpozium və konfranslar keçirildi. "Naxçıvanda ilk məktəbin yaranması və maarifçilik hərəkatının inkişafı" (1997), "Uluslararası Dədə Qorqud simpoziumu" (1998, Van Yüzüncü il Universiteti ilə birlikdə), "Yaxın tariximizdə Naxçıvan və Qars" (1999, Qars Qafqaz Universiteti ilə birlikdə), "Naxçıvanda kiçik biznesin və sahibkarlığın inkişafı" (2000, ABŞ-ın Perdu Universiteti ilə birlikdə), "Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları və onlardan istifadənin səmərəli yolları" (2001, Azərbaycan Respublikasının Elm və Texnika Komitəsi ilə birlikdə), "Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyəti, təbii sərvətlərinin öyrənilməsi" (2004), "Azərbaycanda elmin inkişafı və regional problemlər" (2005), "Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri" (2006), "Naxçıvan bu gün: islahatlar, perspektivlər" (2007), "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan" (2009), "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" (2011) beynəlxalq simpozium və konfranslar elmin müxtəlif problemlərinə həsr edilmiş, elmi əlaqələrin genişlənməsinə səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri Vasif Talıbovun elmin, təhsilin və mədəniyyətin inkişafına üstün münasibəti və həmin istiqamətdə regionda apardığı fədakar iş müəyyən olunmuş dövlət siyasətinin uğurla həyata keçirilməsinə səbəb olmuşdur. Azərbaycan Milli Elmlər Akademiyası sistemində olan elmi-tədqiqat müəssisələrinin strukturunun təkmilləşdirilməsinə xüsusi əhəmiyyət verildi. AMEA-nın Rəyasət Heyəti Ölkə Prezidentinin tövsiyələrini rəhbər tutaraq Elmlər Akademiyasında islahatların aparılması, onun idarəetmə və təşkilat sisteminin təkmilləşdirilməsi, elmi-tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi, elmi-təşkilati bazanın hazırlanması, elmi idarə və elmi xidmət müəssisələrinin işinin səmərəliliyinin yüksəldilməsi məqsədi ilə bir sıra qərarlar qəbul etdi və tədbirlər həyata keçirdi; "Elmin strateji inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatların konsepsiyası" hazırlandı.

"Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" Azərbaycan Prezidentinin 12 fevral 1999-cu il tarixli sərəncamı müvafiq olaraq AMEA-nın Rəyasət Heyətinin 4 mart və 8 sentyabr 1999-cu il tarixli qərarları ilə Rəyasət Heyəti nəzdində "Naxçıvan ensiklopediyası"nın 7 nəfərdən ibarət redaksiya heyəti və Tarix İnstitutunun nəzdində 5 nəfərdən ibarət Naxçıvan tarixini və mədəniyyətini tədqiq edən elmi qurum yaradıldı.

1999-cu ildə yaradılmış Naxçıvan Elm və Texnika Mərkəzində muxtar respublikada yayılmış dərman bitkilərinin toplanması, öyrənilməsi, onlardan dərman pereparatları, tibbdə və məişətdə geniş istifadə edilən cövhər, krem və yağlar, habelə bölgənin mineral xammallarının kimyəvi emalı yolu ilə müxtəlif tərkibli duzlar alınması sahəsində önəmli tədqiqatlar aparılmış, nəticələr əldə olunmuşdur.



AMEA Naxçıvan Bölməsi
2002-ci il

Elmi kadrlar hazırlanmasına da başlanılmışdı. Bu məqsədlə 1998-ci ildə Naxçıvan Dövlət Universitetndə dörd ixtisas üzrə Dissertasiya Şurası yaradıldı.

Naxçıvan Dövlət Universitetinin prorektoru İsa Həbibbəyli Nizami adına Ədəbiyyat İnstitutunda "Azərbaycan ədəbiyyatı" ixtisasından (10.01.03) "Cəlil Məmmədquluzadə:mühiti və müasirləri" mövzusunda elmlər doktoru dissertasiyası müdafiə etdi. İ.Həbibbəylinin sədri olduğu Dissertasiya Şurası Naxçıvanda yüksək ixtisaslı elmi kadrların hazırlanmasında böyük rol oynadı. 1999-cu ildə Fizikadan və Vətən tarixindən doktorluq dissertasiyası müdafiəsi üçün Naxçıvan Dövlət Universitetinə birdəfəlik Dissertasiya Şurası verilmişdir. Universitetin prorektorları Zöhrab Vəliyev və İsmayıl Hacıyev doktorluq dissertasiyaları müdafiə etmişlər. Hər iki şuranın işində Ali Attestasiya Komissiyasının sədri akademik Azad Mirzəcanzadə iştirak etmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvanda elmi qurumların statusunun artırılması, Naxçıvanın hərtərəfli öyrənilməsi üçün yeni elmi müəssisənin yaradılması ilə bağlı ölkə prezidentinə müraciət etmişdi. Müraciət və təklif təqdir olunmuş və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə AMEA Naxçıvan Bölməsi yaradıldı [22, 2002, 8 avqust].

Bu bölmənin yaradılması strateji məqsədlərə hesablanmış və muxtar respublikada elmin daha da inkişaf etməsinə geniş imkanlar açmışdır. Naxçıvan Bölməsinin yaradılmasına sərəncam verən ulu öndər həm də onun qarşısında ciddi



AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutu
2002-ci il

vəzifələr qoyaraq demişdir: "Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda, Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var. Ona görə ki, Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq, Azərbaycan xalqının tarixində, ümumiyyətlə, Azərbaycan anlayışında çox böyük yer tutur" [18, 2002, №54, s.11].

AMEA Naxçıvan Bölməsinin tərkibində Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat, Təbii Ehtiyatlar, Bioresurslar institutları, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanası yaradıldı. AMEA Naxçıvan Bölməsinin yaradılması Naxçıvanda elmi mühitin canlanmasına və elmin inkişafına əsaslı təsir göstərdi. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universitetinin professor-müəllim heyətinin üzvləri də Naxçıvanda elmin inkişafında, elmi kadrların hazırlanmasında yaxından iştirak edirlər.

Elmin inkişafı bilavasitə yüksək ixtisaslı elmi kadrların səviyyəsindən, onların elmi fəaliyyətindən asılıdır. Naxçıvan Dövlət Universitetində və AMEA Naxçıvan Bölməsində doktorantura və dissertantura yolu ilə elmi kadrların hazırlanmasına

diqqət yetirilmişdir. 1998-ci ildən Naxçıvan Dövlət Universitetində 4 ixtisas (Azərbaycan ədəbiyyatı, Vətən tarixi, Dilçilik, Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi) üzrə Dissertasiya Şurasının fəaliyyəti yüksək ixtisaslı elmi kadrların hazırlanmasına öz müsbət təsirini göstərmişdir. 1998-2010-cu illərdə bu Şurada 104 nəfər namizədlik və doktorluq dissertasiyası müdafiə etmişdir [19, s.228-240]. Həmin Şurada və bu Şuranın əsasında yaradılan Birdəfəlik Dissertasiya Şurasında Hüseyn Həşimli, Fərman Xəlilov, Sevindik Vəliyev, Sədaqət Həsənova, Əbülfəz Quliyev, Akif İmanlı, Həmid Arzulu, Qadir Qədirzadə, Fəxrəddin Səfərli, Həmzə Cəfərov, Oruc Həsənli, Məhərrəm Cəfərov, Yusif Səfərov elmlər doktoru dissertasiyası müdafiə etmişlər. İsmayıl Əliyev (pedaqogikanın nəzəriyyəsi və tarixi), Vəli Baxşəliyev (Arxeologiya), Adil Bağırov (Azərbaycan dili) isə doktorluq dissertasiyalarını müvafiq olaraq Azərbaycan Dövlət Pedaqoji Universitetində, Arxeologiya və Etnoqrafiya İnstitutunda, Nəsimi adına Dilçilik İnstitutunda müdafiə etmişlər. İqdisadi nəzəriyyə, xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi ixtisasları üzrə Asif Şirəliyev, Nazim Əhmədov, Ağarza Rüstəmov doktorluq dissertasiyalarını müvəffəqiyyətlə başa çatdırmışlar. Müxtəlif elm sahələrinin nümayəndələri də apardıqları elmi-tədqiqat işlərini yekunlaşdırmış və doktorluq dissertasiyaları müdafiə etmişlər: biologiya üzrə Tariyel Talıbov, Saleh Məhərrəmov, Əliyar İbrahimov, kimya üzrə Əliəddin Abbasov, Bayram Rzayev, Yasin Babayev, Tofiq Əliyev, fizika üzrə Vəli Hüseynov, riyaziyyat üzrə Sadıq Vəliyev, Yaqub Məmmədov, fəlsəfə üzrə Məmməd Rzayev, Qərib Allahverdiyev, Azərbaycan ədəbiyyatı üzrə Əsgər Qədimov, Azərbaycan dilinin tədrisi metodikası üzrə Elbəyi Maqsudov və b.



AMEA Naxçıvan Bölməsinin Batabat Astrofizika Rəsədxanası

2006-cı ildən isə AMEA Naxçıvan Bölməsində 3 ixtisas (Vətən tarixi, Müəssisələrin təşkili və idarə edilməsi, Arxeologiya) üzrə Dissertasiya Şurası yaradılmışdır. Fəaliyyəti dövründə bu şurada 80 nəfər fəlsəfə doktoru, o cümlədən 10 nəfər elmlər doktoru dissertasiyası müdafiə etmişdir. 2013-cü ildən həmin şuraya doktorluq Müdafiə Şurası səlahiyyəti verilmişdir. Bu şurada muxtar respublikanın elmi iş aparan tədqiqatçıları da fəlsəfə doktoru və elmlər doktoru dissertasiyasının müdafiəsi həyata keçirilmişdir.

1998-2010-cu illərdə muxtar respublikamızda yaşayan tədqiqatçılardan 102-si namizədlik dissertasiyası müdafiə edərək elmi dərəcə almışlar. 16-sı isə doktorluq dissertasiyası müdafiə etmişdir. Hazırda muxtar respublikada 35 elmlər doktoru, 178 fəlsəfə doktoru fəaliyyət göstərir [85, 2015, 15 mart]. Azərbaycan Milli Elmlər Akademiyasına 2003, 2007 və 2014-cü illərdə keçirilən seçkilərdə Naxçıvandan olan elm adamlarından 3-ü akademik, 13-ü müxbir üzv seçilmişdir [10, s.119-121; 19, s.215].

Elmi-tədqiqat işlərinin səmərəliliyi onun üçün yaradılmış maddi-texniki baza ilə bilavasitə əlaqədardır. Müasir elm texnika və texnologiyanın ən son nailiyyətlərinə istinad ediləndə uğur qazana bilir. Bu cəhətdən həm Naxçıvan Bölməsində, həm də ali təhsil müəssisələrində, xüsusilə Naxçıvan Dövlət Universitetində olan şöbə və laboratoriyaların cihaz və avadanlıqlarla təchizi məsələsi diqqəti cəlb edir. Artıq hər bir elmi işçinin kompüter texnologiyası ilə təmin edilməsi, internet şəbəkəsindən istifadə etməsi ən son istehsal edilmiş cihazlar əsasında tədqiqat aparmaq imkanları reallaşır. Hər il bu məqsədlə xeyli vəsait sərf edilir. Təkcə 2010-cu ilin I yarısında AMEA Naxçıvan Bölməsinin Kimya və Biokimya laboratoriyaları üçün 32 adda cihaz və avadanlıq alınmışdır [13, s.101-102]. Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin tədqiqatçıları üçün ən yaxşı təchiz edilmiş şöbə və laboratoriyalar qurulmuşdur.

AMEA Naxçıvan Bölməsinin 6 elmi-tədqiqat müəssisəsinin 100-ə yaxın elmi işçisi, ali təhsil müəssisələrinin 420 professor-müəllim heyəti elmi-tədqiqat işləri ilə bu və ya digər səviyyədə məşğuldurlar. Onların apardıqları elmi-tədqiqat işlərinin nəticələri dünyanın müxtəlif ölkələrinin ən nüfuzlu jurnallarında, ölkəmizin və muxtar respublikamızın elmi jurnallarında, "Xəbərlər"ində dərc edilir. 1995-2015-ci illərdə muxtar respublika tədqiqatçılarının 208 monoqrafiyası, 750-yə yaxın kitabı, 320-dən çox dərslik, dərs və tədris vəsaiti, 18342 məqalə və tezisi nəşr edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təsis etdiyi "Naxçıvan" (ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik) jurnalı, AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Axtarışlar"ı, Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər"i və Naxçıvan Müəllimlər İnstitutunun "Xəbərlər" jurnalı həm beynəlxalq kod almış, həm də Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qəbul etdiyi dövri nəşrlər siyahısına daxil edilmişdir.

Naxçıvanlı alimlər hər il dünyanın müxtəlif nüfuzlu jurnallarında elmi məqalələrini nəşr etdirirlər. Bir sıra jurnalların xüsusi nömrələri Naxçıvana həsr olunur.

Ali Məclis Sədrinin bilavasitə dəstəyi, qayğısı və himayəsi ilə Naxçıvan Muxtar Respublikasının tarixinin, abidələrinin, folklorunun, ədəbi-mədəni mühitinin, biomüxtəlifliyinin, təbii sərvətlərinin öyrənilməsi istiqamətində tədqiqat işləri aparılmış, bir sıra ümumiləşdirici əsərlər, kitab və monoqrafiyalar çap edilmişdir. Naxçıvanlı tədqiqatçıların yaxından iştirakı ilə 2002-ci ildə "Naxçıvan ensiklopediyası" nəşr olundu. Bir neçə ildən sonra AMEA Naxçıvan Bölməsi həmin ensiklopediyaya xeyli əlavələr etməklə yenidən işlədi və iki cilddə işıq üzü gördü. "Naxçıvan abidələri" ensiklopediyası (Azərbaycan və ingilis dillərində), "Naxçıvan: tarixi və abidələri" (Azərbaycan və ingilis dillərində), "Naxçıvanın Tarixi Atlası", "Naxçıvanın Folklor Antologiyası" (üç cilddə), "Naxçıvan teatrının salnaməsi" (1883-2008-ci illər), Naxçıvan Muxtar Respublikası flora və faunasının "Qırmızı kitab"ları (I və II cildlər), "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası", "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri: mövcud vəziyyəti və perspektivləri", "Naxçıvan dialektləri", "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri", "Naxçıvan arxeologiyası", "Naxçıvan tarixi" (üç cilddə) və başqaları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Elm və ali təhsil müəssisələrində aparılan elmi-tədqiqat işlərinin nəticələri geniş müzakirə edilir, uğurlar təqdir edilir, "İlin alimi" adına layiq görülən tədqiqatçılar mükafatlandırılır, nöqsanların, çatışmazlıqların aradan qaldırılması yolları müəyyənləşdirilir. İlk dəfə olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiya iclası və AMEA Rəyasət Heyətinin üzvlərinin iştirakı ilə AMEA Naxçıvan Bölməsinin 2008-ci ilin elmi və elmi-təşkilati fəaliyyətinin yekunlarına həsr edilmiş hesabat yığıncağı 2009-cu ilin fevralında və AMEA Rəyasət Heyətinin səyyar iclası 2015-ci ilin iyulunda Naxçıvanda keçirilmişdir.

Hər iki iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov proqram xarakterli çıxış etmişdir. AMEA Rəyasət Heyətinin səyyar iclasında çıxış edən Ali Məclis Sədri demişdir: "Elmi tədqiqatlar o vaxt ideyadan əməli işə keçir ki, onun reallaşmasına şərait yaradılsın. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə və onun Naxçıvan Muxtar Respubikasında elm infrastrukturu tamamilə yenidən qurulub. Azərbaycan elmi qabaqcıl dünya təcrübəsi əsas götürülərək inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikasında da elmin iqtisadiyyata tətbiqi dayanıqlı inkişafın əsas şərtidir. Artıq muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar ciddi elmi-nəzəri əsaslara söykənir" [76, 2015, 7 iyul].

AMEA-nın prezidenti akademik Akif Əlizadə çıxışında qeyd etmişdir ki, son illər Akademiyanın Naxçıvan Bölməsinin maddi-texniki bazasının gücləndirilməsi, strukturunun, elmi prioritetlərinin müəyyənləşdirilməsi sahəsində də kompleks tədbirlər görülmüşdür.

Artıq Naxçıvan Bölməsinin elmi nəticələrinin məhsulu olan akademik nəşrləri

ölkəmizdə rəğbətlə qarşılanan qiymətli elmi əsərlərdir. Burada elmdən təcrübəyə istiqamətində görülən işlər bir nümunə gücündədir [76, 2015, 7 iyul]. Naxçıvanda elmi mühitin yaranması, yüksək ixtisaslı elmi kadrların formalaşması müxtəlif elm sahələrinin inkişafına səbəb olmuşdur.



AMEA Rəyasət Heyətinin üzvləri Heydər Əliyev Muzeyi qarşısında
6 iyul 2015-ci il

Naxçıvan elm adamlarının fəallığı Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası, mədəniyyəti, ədəbiyyatı, dialekt və şivələri, təbii və bioloji müxtəlifllikləri, təbii sərvətləri və sair sahələri dərin araşdırmalara cəlb etmişdir. Aparılan ciddi



"Elmdən təcrübəyə" sərgisi ilə tanışlıq
6 iyul 2015-ci il

elmi fəaliyyətlər Naxçıvanda tarix, ədəbiyyat, dilçilik, arxeologiya, botanika və başqa sahələrdə məktəblərin formalaşmasına da uyğun töhfələrini vermişdir. Alimlərin ciddi tədqiqatlarının nəticəsidir ki, Naxçıvanın tarixi və arxeologiyası sahəsində daha sanballı nəticələr əldə edilmiş, Naxçıvanın yaşayış tarixi 500-300 min ilə, ilkin şəhər mədəniyyətinin yaranmasının 5 min ildən artıq tarixə malik olması, Naxçıvanın Kür-Araz mədəniyyətinin ilk beşiklərindən biri, boyalı qablar mədəniyyətinin bu ərazidə formalaşması, eləcə də bu mədəniyyəti yaradan tayfaların Naxçıvan ərazisində yaşaması [76, 2015, 26 iyun], Naxçıvan ərazisində II Kültəpə, Şahtaxtı, Nuhdaban, Oğlanqala və Naxçıvan şəhər dövlətlərinin, Duzdağın mədən üsulu ilə dünyada duz çıxarılan (e.ə.V-IV minillik) ilk duz mədəni, Naxçıvan



AMEA Rəyasət Heyətinin səyyar iclası
6 iyul 2015-ci il

ərazisində çoxsaylı tarix və mədəniyyət abidələrinin aşkar edilməsi və başqalarını göstərə bilərik. Xüsusilə qeyd etmək lazımdır ki, ulu öndərimizin böyük tarixi məkan hesab etdiyi və həmişə vurguladığı, alimlərə tövsiyə edərək bildirdiyi Gəmiqaya abidələrində alimlərimizin apardığı araşdırmalar, habelə Naxçıvandakı Ovçulartəpəsi, Oğlanqala, Qızqalası, I Kültəpə, Xaraba Gilan, Duzdağ, Sirab ətrafı və başqa ərazilərdə aparılmış arxeoloji tədqiqatlar zamanı tarixi əhəmiyyət kəsb edən maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Uğurlu tədqiqatlar aparan naxçıvanlı alimlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında", "Naxçıvan şəhərindəki "Əcəmi seyrangahı"nda Açıq Səma Altında Muzey yaradılması haqqında", "Naxçıvan Muxtar Respublikasının ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında", "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında"

və başqa sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsində mühüm rol oynamışlar. Naxçıvan ərazisində bizə hələlik məlum olan tarix və mədəniyyət abidələri müəyyənləşdirilmiş, öyrənilmiş və pasportlaşdırılmışdır. Muxtar respublika ərazisində bu günədək 1202 tarix və mədəniyyət abidəsi qeydə alınmışdır [57, s.380, 501; 60, s.15]. Dünya və ölkə əhəmiyyətli 550-yə yaxın abidə əsasında "Naxçıvan abidələri" ensiklopediyası hazırlanmışdır.

Əvvəlki illərdə olduğu kimi, 2011-2015-ci illərdə də beynəlxalq və respublika səviyyəli elmi konfranslar, simpoziumlar keçirilmiş, bu elmi tədbirlərdəki məruzələr toplu halında nəşr edilmişdir. "Behbud ağa Şahtaxtinski və Qars müqaviləsi"



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Qız qalası (Şərur rayonu) abidəsindən əldə olunmuş maddi-mədəniyyət nümunələri ilə tanış olarkən 2015-ci il

(2011), "Naxçıvan: ilkin şəhər və Duzdağ" (2012), "Ümummilli lider Heydər Əliyev və Naxçıvan" (2013), "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" (2014), "Azərbaycanın tarixi coğrafiyasının aktual problemləri" (2015), "Tarixi İpək yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri" (2015), "Naxçıvanda Dədə Qorqud" (2015), "Şərqin böyük dahisi: Nəsirəddin Tusi" (2015) mövzularında keçirilən elmi konfrans və simpoziumlar elmin inkişafına, bir sıra fakt və hadisələrin dəqiqləşdirilməsinə təsir etmişdir. Naxçıvanda elmin qayğıkeşi və himayəçisi olan Ali Məclisin Sədri bu simpoziumların keçirilməsinə dəstək verdiyi kimi, həmin tədbirlərin bir çoxunda iştirak etmiş və proqram xarakterli çıxışlar etmişdir.

Çıxışlarda əldə olunan uğurlar qeyd edilməklə yanaşı, çatışmazlıqlar da göstərilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir [57, s.234-240, 404-410, 514-515; 58, s.40-43; 60, s.104-108]. Ali Məclis Sədrinin çıxışlarında elmi-tədqiqatların faydalı iş əmsalının daha da artırılması, yeni elmi istiqamətlərin müəyyənləşdirilməsi, elmi tədqiqatların davamlı və sistemli xarakter alması mühüm vəzifə kimi tədqiqatçıların qarşısında qoyulmuşdur.

Naxçıvanda elmin inkişafı elmi əlaqələrin də genişlənməsinə səbəb olmuşdur. Naxçıvanın elm adamları dünyanın müxtəlif ölkələrində keçirilən elmi tədbirlərdə, beynəlxalq səviyyəli simpoziumlarda iştirak və çıxış edirlər. Naxçıvanlı alimlərdən hər il 70-75 nəfərə yaxını 60-a yaxın beynəlxalq simpoziumlara qatılırlar. Təkcə belə bir faktı qeyd etməliyik ki, AMEA Naxçıvan Bölməsinin əməkdaşlarından son üç ildə 102 nəfər 142 beynəlxalq səviyyəli elmi simpoziumlara qatılmış və maraqlı məruzələrlə çıxış etmişlər [14, 15, 16]. Bu isə elmi əlaqələrin genişlənməsinə və elmi potensialın inkişafına müsbət təsir göstərir. Son illərdə Naxçıvanda 50-dən çox beynəlxalq simpozium keçirilmiş, həmin simpoziumlarda ABŞ, Rusiya, Ukrayna, Türkiyə, İran, Gürcüstan, Fransa və b. ölkələrdən gələn alimlər iştirak etmişlər.

Ümummilli lider Heydər Əliyev həm 70-80-ci illərdə, həm də ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra həmişə elm adamlarının, respublika ziyalılarının rəğbətləndirilməsinə diqqət və qayğı göstərmişdir. Ulu öndərin bu siyasəti ölkə rəhbəri İlham Əliyev tərəfindən ən yüksək səviyyədə davam etdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 23 avqust 2014-cü il tarixli Fərmanı ilə elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika mükafatları təsis edilmişdir [76, 2014, 26 avqust]. Burada əsas məqsəd elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat sahələrində ən dəyərli əsərləri (işləri, layihələri) qiymətləndirmək və yaradıcı ziyalıları müasir tələblərə cavab verən yüksək səviyyəli əsərlər yaratmağa təşviq etməkdən ibarətdir.

Naxçıvanın maarifçi ziyalıları və elm adamları dövlətimizin göstərdiyi qayğını daim hiss etmişlər. Naxçıvanın bir qrup elm və təhsil işçisi orden və medallarla təltif olunmuş, yüksək fəxri adlara layiq görülmüş, 2 nəfəri Azərbaycan Respublikası Milli Məclisinə, 15 nəfəri isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmişdir. 6 nəfər Azərbaycan Respublikasının "Əməkdar elm xadimi", 2 nəfər "Şöhrət" və "Şərəf" ordenlərinə, onlarla tədqiqatçı "Tərəqqi" medalına və fəxri adlara layiq görülmüşdür.

Ölkə Prezidenti İlham Əliyevin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun ziyalılara, elm adamlarına göstərdiyi diqqət və qayğı Azərbaycanın hər yerində, o cümlədən muxtar respublikada yeni mərhələdə elmin, milli ziyalılığın inkişafına öz müsbət təsirini göstərməkdədir.

Mədəni-maarif. Qədim tarixə, zəngin mədəniyyətə malik Naxçıvan Muxtar Respublikası sürətlə inkişaf edir. İnkişaf səviyyəsinə görə muxtar respublikanın

heç bir dövrünü 1996-2015-ci illərlə müqayisə etmək olmaz. Bu, mədəni-maarif müəssisələrinin inkişafına da aiddir. Muxtar respublika rəhbərliyinin apardığı məqsədyönlü işin nəticəsidir ki, bu tərəqqi mədəniyyətin inkişafında da özünü göstərməkdədir. Bu illərdə muxtar respublikada mədəni-maarif müəssisələrinin geniş şəbəkəsi yaradılmışdır. Naxçıvan Muxtar Respublikasının mədəni-maarif müəssisələri, tarix və mədəniyyət abidələri heç vaxt indiki qayğını görməmiş və bu səviyyədə nə inkişaf etmiş, nə də qorunmuşdur. Tarixi-mədəni irsin qorunması və təbliği, mədəni potensialın daha da inkişaf etdirilməsi son illər ərzində diqqət mərkəzində saxlanılmış, mədəniyyət obyektlərinin inşası və yenidən qurulması davamlı xarakter almışdır. Ümummilli liderimizin xatirəsini əbədiləşdirmək məqsədilə möhtəşəm abidələr ucaldılmışdır. Muxtar respublikanın şəhər və rayonlarında yeni parklar, bulaq-abidə kompleksləri, mədəniyyət evləri, klub və kitabxanalar, şəhidlərin xatirələrinə ucaldılmış abidələr istifadəyə verilmişdir.

Muxtar respublikada kitabxanalar və orada saxlanılan kitab və jurnal fondu artmışdır. 1970-ci ildə muxtar respublikada 1286 min kitab və jurnal fondu olan 232 kütləvi kitabxana var idisə, 2000-ci ildə bu, 2399 min nüsxə kitab və jurnal fondu olan 295-ə çatmış və ya 1970-ci illə müqayisədə müvafiq olaraq 28,4 faiz və 1,9 dəfə artmışdır [68, s.147]. Kitabxanaların 88,6 faizi, onlardakı kitab və jurnalların isə 66,6 faizi kənd yaşayış məntəqələrinin payına düşür. Kitabxanalar hər il 150-160 min nəfərə kitabxana xidməti göstərir.

Muxtar respublikanın bölgələrində inşa olunan 100-dən çox kənd mərkəzlərində kitabxanalar üçün nümunəvi şərait yaradılmışdır. 2009-cu ildə inşa olunmuş kənd mərkəzlərində 11 kitabxana, 11 mədəniyyət evi və klub əhalinin istifadəsinə verilmişdir [87, s.36]. 2005-ci ildən başlayaraq Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 yanvar tarixli sərəncamı ilə nəşr olunan latın qrafikalı 400 mindən çox kitab kitabxanalara hədiyyə olunmuşdur [76, 2014, 25 aprel]. 2006-cı ildə 139293, 2007-ci ildə isə 46650 nüsxə latın qrafikalı kitab və digər çap məhsulları kitabxanalara paylanmışdır. Ölkə Prezidenti İlham Əliyevin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" 2007-ci il 20 aprel tarixli Sərəncamının nəticəsi olaraq, əksər ölkə kitabxanaları kimi muxtar respublika kitabxanalarının da inkişafında yeni üfüqlər açılmışdır.

Muxtar respublikanın kitabxanaları içərisində 93 illik tarixi olan M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası fəaliyyəti ilə diqqəti həmişə cəlb etmişdir. 1922-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən Naxçıvan Şəhər Kitabxanası təsis edilmiş, 1930-cu ildə həmin kitabxananın bazasında Naxçıvan Muxtar Respublika Kitabxanası yaradılmışdır [76, 2012, 28 sentyabr]. Kitabxanaya 1953-cü ildə görkəmli ədib Məmməd Səid Ordubadinin adı verilmişdir. Kitabxananın indiki binası 1957-ci ildə tikilmişdir. Kitabxana binası əsaslı təmir və yenidənqurmadan sonra 2007-ci il sentyabrın 17-də istifadəyə verilmişdir. Elə həmin il kitabxanaya "Respublika əhəmiyyətli kitabxana" statusu verilmişdir.



M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası
2007-ci il

Kitabxanada 4 bölmə və 10 şöbə: Metodika və biblioqrafiya, İnformasiya-resurs, Komplektləşdirmə, Kitabişləmə və kataloqlaşdırma, Musiqi-not və Abonoment, Xidmət, Kitabsaxlayıcı, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, Kütləvi iş şöbələri, Oxu, Dövri mətbuat və elektron oxu zalları, Depozitor fond fəaliyyət göstərir [76, 2012, 28 sentyabr]. 2014-cü ilin dekabrında Miniatür kitab şöbəsi açılmışdır ki, burda 1000-dən çox miniatür kitabın sərgilənməsi təşkil edilib [76, 2014, 19 dekabr]. Hazırda kitabxanada 285 mindən artıq kitab saxlanılır. Kitabxananın 57 əməkdaşı 21 min oxucuya xidmət göstərir [6, 2012, 24 aprel].

Muxtar respublikada bütün sahələr kimi, kitabxanalar da qayğı ilə əhatə olunub. Kitabxanalar yeni kitablarla zənginləşdirilir, onların maddi-texniki bazaları yaxşılaşdırılır, yeni elektron kitabxanalar yaradılır. Naxçıvan Muxtar Respublika Kitabxanasında, Ali Məclisin Naxçıvanşünaslıq Mərkəzində, Naxçıvan Dövlət Universitetində, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunda elektron kitabxanaların, həmçinin Naxçı- van Regional İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana xidmətinin yaradılması muxtar respublikada kitabxanalara, kitab mütaliəsinə göstərilən diqqət və qayğının əyani ifadəsidir. Mədəni-maarif müəssisələri arasında klubların özünəməxsus yeri vardır. Muxtar respublikada klubların fəaliyyəti canlandırılmış və onların işi təmin edilmişdir.

1970-ci ildə muxtar respublikada 166 klub müəssisəsi fəaliyyət göstərirdisə, 2000-ci ildə onların sayı 265-ə çatmış və ya həmin illərlə müqayisədə 1,6 dəfə artmışdır. Klubların 19-u, yaxud 7,2 faizi şəhərlərdə, 246-sı, yaxud 92,8 faizi kənd yerlərindədir [68, s.147-148].

Muxtar respublikada 1996-2010-cu illərdə 272 mədəniyyət obyekti tikilmiş və ya əsaslı təmir olunmuşdur [34, s.158]. Bu illər ərzində mədəniyyət müəssisələrinin




Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov AMEA Naxçıvan Bölməsinin Elektron Kitabxanasının açılış mərasimində çıxış edərkən 2013-cü il

şəbəkəsinin genişləndirilməsi ilə bağlı mühüm addımlar atılmışdır. Belə ki, 1997-2002-ci illər ərzində muxtar respublikada 8 muzey yaradılmış, muzeylərin sayı 13-dən 28-ə çatdırılmış [76, 2015, 21 aprel], maddi-mədəniyyət nümunələrinin sayı 80 mindən 110 minə qaldırılmışdır [31, s.176; 76, 2014, 25 aprel].



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov AMEA Naxçıvan Bölməsinin Elektron Kitabxanasında quraşdırılan avadanlıqlarla tanış olarkən 2013-cü il

Naxçıvan şəhərində Heydər Əliyev Muzeyi, Heydər Əliyev Sarayı, Xatirə Muzeyi, Xalça Muzeyi, Naxçıvan Dövlət Tarix Muzeyi, C.Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi, Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin, Cəmşid Naxçıvanskinin, Məmməd Səid Ordubadinin, Yusif Məmmədəliyevin ev muzeyləri, Bəhruz Kəngərli Muzeyi, Babək və Sədərək rayonlarında tarix-diyarşünaslıq muzeyləri, "Xan Sarayı" Dövlət-Tarix-Memarlıq, Mömünə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi və b. yaradılmış, yaxud yenidən qurulmuşdur. C.Məmmədquluzadənin ev muzeyinin və Bəhruz Kəngərli Muzeyinin açılışında ulu öndər Heydər Əliyev iştirak etmiş və geniş nitq söyləmişdir [39, s.53-61, 67-76].



Açıq Səma Altında Muzey
2012-ci il

Muzeylər üçün yeni binaların ayrılması, təmiri və yenidən qurulması sonrakı illərdə də davam etdirilmişdir. Muzeylər tarixi keçmişimizi gələcəyə aparan əsas vasitədir. Bu vasitə hər cür qorunmalı və inkişaf etdirilməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 11 iyul tarixli Sərəncamı ilə Əcəmi Seyrangahında Açıq Səma Altında Muzey yaradıldı [57, s.118].

Muzeyin yaradılmasında əsas məqsəd isə qədim tarixə malik olan diyarımızın daş kitabələri, qoç heykəlləri, qəbirüsü daşları mühafizə və nümayiş etdirmək, mədəniyyət nümunələri vasitəsilə tariximizin qədimliyini göstərməkdir. Muzey 80 eksponatla fəaliyyətə başlasa da, bu gün onların sayı 300-dən çoxdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart tarixli Sərəncamı ölkəmizdə bu sahənin inkişafına əlavə stimul vermişdir. Muxtar respublikada muzeylərin şəbəkəsinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və iş

şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, Naxçıvan Dövlət Tarix Muzeyi, Ordubad, Kəngərli, Şahbuz və Heydərabad qəsəbələrindəki tarix-diyarşünaslıq muzeyləri, Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi yeni binalara köçürülmüş, bir sıra muzeylər əsaslı təmir olunmuş, ekspozisiyaları yenidən qurulmuşdur.

Ölkə başçısı 22 may 2009-cu il tarixdə "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planının təsdiq edilməsi haqqında" Sərəncam imzalamışdır.

Həmin sərəncamdan sonra Ordubad şəhərində M.S.Ordubadinin ev muzeyi yenidən qurulmuşdur. Naxçıvan Dövlət Xalça Muzeyi yeni binaya köçürülmüş, Kəngərli rayonunun Şahtaxtı kəndində Şahtaxtinskilərin ev muzeyi yaradılmışdır. Muzeylərin işindən bəhs edən Ali Məclisin Sədri demişdir: "...İş muzeylərin yaranması ilə bitmir, onların daim zənginləşdirilməsi, tamaşaçıların muzeylərə cəlb olunması işinə də ciddi diqqət yetirilməlidir. Çünki muzey eksponatları bizim tariximizdir, tariximizi qorumaq, öyrənmək, təbliğ etmək isə ən vacib məsələlərdən biridir" [76, 2010, 20 mart].

2010-cu ildə muxtar respublikada 2 muzey yaradılmışdır. Ali Məclis Sədrinin 2010-cu il 9 fevral tarixli Sərəncamı ilə yaradılan Şahtaxtinskilər Muzeyi, 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılan "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi qədim yurdun görkəmli şəxsiyyətlərinə ehtiramın ifadəsidir. Muxtar respublikamızda dəniz səviyyəsindən 3906 metr yüksəklikdə Gəmiqaya Muzeyi yaradılmışdır. Ali Məclis Sədrinin 2013-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında", yenə həmin il 28



"Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi
2010-cu il

iyunda "Xalq şairi Məmməd Arazın ev muzeyinin yaradılması haqqında", 2014-cü il 11 fevralda "Əlincəqala" tarixi abidələrinin bərpa edilməsi haqqında", 2014-cü 17 sentyabrda "Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev muzeyinin yaradılması haqqında" sərəncamları bu sahədə aparılan işlərin ardıcıllığını və davam etdirildiyini göstərir [Bax: 57, s.474, 482; 59, s.10-11, 16; 60, s.15-16].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada "Muzey günləri"nin təşkil olunması bu baxımdan böyük əhəmiyyət daşıyır. Muzeylər elə ünvanlardır ki, buraya üz tutanlar mənsub olduqları xalqın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri haqqında mütləq yeni məlumatlar əldə etmək imkanı qazanırlar. Bu amil nəzərə alınaraq muxtar respublikada keçirilən "Muzey günləri"ndə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, müxtəlif təşkilatların əməkdaşları muzeylərə gedir, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi özündə əks etdirən eksponatlarla tanış olurlar.



Naxçıvan Dövlət Xalça Muzeyi
2010-cu il

Son illər muxtar respublikada xalçaçılıq sənətinin inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmiş, mədəni irsimizin qorunması işinə diqqət artırılmışdır. Muxtar respublikada xalçaçılıq sənətinin yaşadılması istiqamətində görülən işlər bu sahə üzrə yeni elmi araşdırmaların aparılmasına stimul olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 1998-ci ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin edilmiş, 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulmuşdur.

Hazırda muzeydə 3292 eksponat vardır [76, 2015, 30 iyun].

Mədəni-maarif müəssisələri arasında teatrların öz yeri və rolu vardır. Teatrlarımıza dövlət qayğısını muxtar respublikamızda fəaliyyət göstərən sənət ocaqlarının timsalında aydın görmək mümkündür. Naxçıvanın mədəni həyatında mühüm rol oynayan teatrlarımız yüksək dövlət qayğısı ilə əhatə olunmuşdur. Muxtar respublikamızda teatrın zəngin ənənələrinin qorunması, milli teatr sənətinin davamlı inkişafının təmin edilməsi, teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2005-ci ildə muxtar respublikada 2 peşəkar teatr (C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı və M.T.Sidqi adına Naxçıvan Kukla Teatrı), Naxçıvan Ordubad və Şərur xalq teatrları, Hüseyn Cavid poeziya teatrı fəaliyyət göstərmişdir. "Şərur" Xalq Yallı Ansamblı müxtəlif illərdə Türkiyədə, Misirdə, "Şərur qönçələri" yallı qrupu isə bir sıra ölkələrdə ölkəmizi müvəffəqiyyətlə təmsil etmişlər. Naxçıvan Dövlət Musiqili Dram Teatrı bu illərdə Türkiyə Respublikasının, İran İslam Respublikasının müxtəlif şəhərlərində, Bakı şəhərində, respublikamızın digər bölgələrində dəfələrlə qastrol səfərlərində olmuşdur.



C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı
2010-cu il

Prezident İlham Əliyevin 2008-ci il 31 yanvar tarixli Sərəncamı ilə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illiyi təntənə ilə qeyd edilmişdir. Teatr kollektivinin bir qrup əməkdaşı ən yüksək mükafatlara, fəxri adlara layiq görülmüşdür. Ş.Abutalıbov, R.Hüseynov, R.Xudiyev, T.Mövləvi, Y.Ramazanova Azərbaycan Respublikasının xalq artisti, Y.Allahverdiyev, Ə.Əliyev, E.Kərimova, V.Rəcəbli Azərbaycan Respublikasının əməkdar artisti,

H.Ağasoy, N.Xudiyeva, K.Quliyev isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur [47, s.7-8]. 2012-ci il fevralın 3-də teatrın binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 4 oktyabr tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Teatrı ölkəmizdə fəaliyyət göstərən 2 uşaq teatrından biri kimi balaca tamaşaçıların sevimli ünvanına çevrilmişdir. Qısa zaman ərzində bu teatr muxtar respublikanın mədəni həyatında layiqli yer tuta bilmişdir.

Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı müxtəlif illərdə Bakıda, İran və Türkiyənin müxtəlif şəhərlərində qastrol səfərlərində olmuşdur.

Naxçıvan Dövlət Universitetinin Tələbə teatr studiyası, Tələbə opera studiyasının hazırladığı tamaşalar və operalar Azərbaycan tamaşaçıları ilə yanaşı, Rusiya, Türkiyə və Gürcüstan tamaşaçılarına da yüksək səviyyədə təqdim edilmişdir.

Ümumiyyətlə, 1950-ci ildə Naxçıvanda 1 teatr fəaliyyət göstərmişsə, artıq bu gün Naxçıvan Muxtar Respublikasında 3 dövlət teatrı və 4 xalq teatrı, 1 dövlət filarmoniyası, 1 uşaq dövlət filarmoniyası, Aşıqlar Birliyi fəaliyyət göstərir [34, s.158-159].

Naxçıvan Muxtar Respublikasının ərazisi tarix və mədəniyyət abidələri ilə zəngindir. Tarix və mədəniyyət abidələri özlərinin ikinci həyatını yaşayır. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 6 dekabr 2005-ci il tarixli Sərəncamından sonra bu sahəyə diqqət artırılmışdır. Naxçıvan diyarının tarixi və arxeologiyasının öyrənilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 20-yə yaxın fərman və sərəncamı olmuşdur. "Uluslararası qaynaqlarda Naxçıvan" mövzusunda simpoziumun keçirilməsi haqqında" (1996, 24 mart), "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" (2001, 26 aprel), "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" (2006, 28 iyun), "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında" (2010, 23 oktyabr), "Nuh peygəmbər: dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında" (2003, 10 fevral), "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında" (2011, 7 iyun), "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında" (2012, 20 aprel), "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" (2012, 6 avqust), "Naxçıvanqala" Tarix-Memarlıq Kompleksinin yaradılması haqqında" (2013, 5 iyun), "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" (2014, 11 fevral) sərəncamları tariximizə, tarix və mədəniyyət abidələrimizə qayğı və diqqətin ən bariz nümunəsidir. Bu sərəncamlardan sonra 50-dən artıq tarixi abidə bərpa və restavrasiya edilmişdir. Bunlara Mömin



Dövlət Bayrağı Meydanı və Muzeyi
2014-cü il

Xatın və Qarabağlar memarlıq kompleksini, Əshabi-Kəhf, İmamzadə, Buzxana abidələrini, Came məscidini, Zaviyyə mədrəsə binasını, İsmayılxan hamamını, Yusif Küseyr oğlu türbəsini, Xan Sarayını, Ordubadda Aza körpüsünü, Şərq hamamını, qədim Zorxana (Qeysəriyyə) abidəsini, Buzxananı, Culfadakı Xanəgah kompleksini və b. aid etmək olar. Naxçıvan şəhərində Heydər Əliyevin, Dədə Qorqudun, Babəkin, Koroğlunun, Cəlil Məmmədquluzadənin, Əcəmi Naxçıvaninin, Mustafa Kamal Atatürkün abidələri ucaldılmış, abidələrin yerləşdiyi meydanlar yenidən qurulmuş, "Nuh peyğəmbər"in məzarüstü türbəsi bərpa olunmuş, Hüseyn Cavidin möhtəşəm məqbərəsi tikilmiş, "Ana dili" abidəsi, Dövlət Bayrağı Meydanı və Muzeyi yaradılmışdır. Naxçıvan şəhərində qədim Qala tarixi abidəsi bərpa edilmiş, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılmışdır.

Mədəniyyət və istirahət parkları təmir olunmuş, yenidən qurulmuşdur. Naxçıvan şəhərində Heydər Əliyev Sarayı, Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı, Şərur şəhərində Heydər Parkı və bir sıra ev muzeylərinin tikintisi başa çatdırılmışdır. Beləliklə, mədəni-maarif sahəsindəki dəyişikliklər və inkişaf Muxtar Respublika Ali Məclisi Sədrinin məqsədyönlü fəaliyyətinin, qətiyyətli və prinsipial mövqeyinin və fədakar işinin nəticəsi kimi ortaya çıxmışdır.

Ədəbiyyat. Naxçıvan diyarı zəngin ədəbi ənənələrə malikdir. Xalq ədəbiyyatında Naxçıvan motivləri əhəmiyyətli yer tutur. "Kitabi-Dədə Qorqud" dastanının boylarında Naxçıvan bölgəsi ilə səsləşən süjetlərə və yer-yurd adlarına rast gəlinir [68, s.157].

Naxçıvan folklorunda Azərbaycan şifahi xalq ədəbiyyatının bütün janrları təmsil olunmuşdur. Əsasən, bu diyara xas olan janrlara aid xeyli nümunələr də var. Diyarda xalq ədəbiyyatının mühüm qollarından olan aşıq sənəti də inkişaf etmişdir.

XIX əsrdə maarifçilik hərəkatının geniş yayılması bu bölgədə də ədəbiyyat və mədəniyyətin sürətli inkişafına təkan vermişdi. XIX əsrin 80-ci illərindən Naxçıvan ədəbi-mədəni mühitinə başçılıq edən Eynəli bəy Sultanov "Ziyalı məclisi", "Müsəlman şiə dram incəsənəti cəmiyyəti" yaratmış və yerli ziyalılar həmin cəmiyyətlərin ətrafında toplaşmışdı.

XX əsrdə Naxçıvan diyarı Azərbaycan ictimai, ədəbi-bədii fikrinə və mədəniyyətinə Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Hüseyn Cavid, Əliqulu Qəmküsar, İslam Səfərli, Məmməd Araz kimi böyük şəxsiyyətlər, dahi yazıçı, dramaturq, şair bəxş etmişdir.

Azərbaycan yazıçılarının böyük bir dəstəsi Naxçıvanda yaşayıb yaradır. Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan şöbəsinin yaradılması, "Şərq qapısı" qəzetinin nəşri, yerli radio və televiziya verlişləri Naxçıvanda ədəbi mühitin canlanmasına ciddi təkan vermişdir. XX əsrin 80-ci illərində ədəbiyyata yeni qüvvələr gəlmişdir. Elmira Qasımova, Validə Hüseynova, Adil Qasımov, Güllü Məmmədova, Akif Axundov, Həmid Arzulu, Altay Tağızadə, Həsən Valeh, Elman Həbib, Bayram İsgəndərli, Muxtar Qasımzadə, Vaqif Məmmədov, Asim Yadigar, Rafiq Babayev, Məmməd Tahir, Rahilə Elçin, Fərəc Fərəcov, Həsənəli Eyvazlı, İbrahim Yusifoğlu, Cavanşir Eloğlu, Budaq Təhməzov, İnqilab Orxan, Vaqif Kərimov və başqaları bu illər ərzində mərkəzi və yerli qəzetlərdə çıxışlar edir, bəziləri ilk kitablarını oxucuların ixtiyarına verirlər. Bu illərdə "Odlu ürəklər", "Arazın işıqları", "Arazın nəğmələri", "Arpa çayı aşdı-daşdı" almanaxları çap olunur [76, 2014, 8 fevral]. Həmin almanaxlarda yaşlı şair və yazıçılarla yanaşı, adlarını yuxarıda qeyd etdiyimiz müəlliflərin də şeir və hekayələri işıq üzü görür.

80-ci illərdə artıq Naxçıvanda yeni ədəbi qüvvələr yetişirdi. Bu dövrdə ədəbiyyata Kəmaləddin Qədim, Xanəli Kərimli, Allahverdi Aqil, Rafiq Oday, Səhlab Məmmədov, Nəriman Zeynalzadə, Elbəyi Maqsudov, Sərdar Zeynalov, Kəmalə Nəsrin, Sərvər Məsum, Zeyqəm Vüqar, Hüseyn Bağır, Maarif Təmkin kimi istedadlı qələm sahibləri gəlirlər.

Həmin dövrdə şöbədə ayda bir dəfə "Gənc istedadlar klubu"nun məşğələsi keçirilirdi. Bəyənilən yazılar "Araz-1", "Araz - 2", "Araz - 3", "Yaşıl pöhrələr", "Qoy tanısın dünya səni" almanaxlarında çap edilirdi. XX əsrin 90-cı illərində və sonra Xalq yazıçısı Hüseyn İbrahimovun qayğısı ilə "Şəhidlik – ömrün nur çayı", "Araz - 4", "Tərənnüm", "Səhər nəğmələri" almanaxları çap olunub.

1980-ci illərdə SSRİ Yazıçılar İttifaqının Naxçıvandan cəmi 13 nəfər üzvü var idi. 1998-ci ildə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi müstəqil təşkilat kimi fəaliyyətə başlayıb. Birliyə yeni üzvlər qəbul olunub. Hal-hazırda Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin 80 üzvü vardı [76, 2014,

8 fevral]. Sovet dövründə Naxçıvanda yaşayıb-yaradan şair və yazıçıların 150-yə qədər kitabı çap olunduğu halda, son 15-20 ildə 800-ə qədər kitab işıq üzü görüb [17, 2012, 21 oktyabr].

80-ci illərin sonu –90-cı illərin əvvəllərində respublikanın qarşılaşdığı hadisələrlə əlaqədar ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatındakı geriləmələr ədəbi mühitə də öz mənfi təsirini göstərmişdi. Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə həyatın bütün sahələrində dəyişikliklər baş verdi, mədəni həyatımız canlandı.

70-80-ci illərdə olduğu kimi, müstəqillik dövründə də ümummilli lider Heydər Əliyev yaradıcı adamların fəaliyyəti üçün lazım olan şəraiti yaradırdı. 80-ci illər ədəbiyyatının əsas vəzifəsi xalqı öz ardınca irəli aparmaq idi. Ulu öndərimiz ədəbiyyatımızın bu vəzifənin öhdəsindən gəldiyini xüsusi vurğulayaraq deyirdi: "Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa, xalqı irəli aparmağa çalışmışlar. Milli özünüdərk, milli dirçəliş prosesləri xalqımıza birinci növbədə ədəbiyyatdan keçib" [17, 2012, 21 oktyabr].

Artıq uzun əsrlər boyu Azərbaycan ədəbiyyatında tərənnüm olunan və xalqın ürəyində yaşadılaraq nəsildən-nəsilə ötürülən dövlət müstəqilliyi arzudan həqiqətə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin konfransında "Müstəqillik dövrünün özünəməxsus ədəbiyyatı olmalıdır" – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu dövr əvvəlki dövrlərdən tamamilə fərqlənir. Əsas fərq bundan ibarətdir ki, sovetlər birliyi dövründəki kimi indi ədəbiyyatın üzərində senzura yoxdur. Müxtəlif mövzular üzrə dövlət sifarişləri aradan qaldırılmış, mövzu seçimində tam sərbəstlik verilmişdir. İkinci fərq budur ki, bu gün bədii yaradıcılıqda "Vətən" anlayışı öz real məzmununa qovuşmuş, Azərbaycan müstəqil dövlət olmuşdur. Əgər əvvəllər şair və yazıçı "Vətən" deyərkən fikrində xəyali sərhədlər cızır və ya keçmiş sovetlər birliyini nəzərdə tuturdusa, bu gün real sərhədlər hüdudunda müstəqil Azərbaycanımız – öz doğma Vətənimiz mövcuddur [76, 2012, 20 oktyabr].

Müstəqillik illərində Naxçıvan ədəbi mühiti xeyli canlanmış, təcrübəli şair və yazıçı, tənqidçilərlə yanaşı gənc ədəbi simalar da ədəbiyyata gəlmiş, öz sözü və qələmi ilə yaradıcılıq qabiliyyətini göstərmişdir. Naxçıvan ədəbi mühitində şeir həmişə üstünlüyə malik olmuşdur. Hüseyn Razi, Kəmalə Ağayeva, Adil Qasımov, Ramiq Muxtar, Elmira Qasımova, Həsən Valeh, Elman Həbib, Vaqif Məmmədov, Xanəli Kərimli, Muxtar Qasımzadə, Əhməd Sədərəkli, İnqilab Orxan, Budaq Təhməz, Vaqif Əsrər, Əbülfəz Ülvi, Qafar Qərib və başqalarının şeir və poemaları ümumazərbaycan poeziyasında özünəməxsus yer tutmuşdur.

Naxçıvan ədəbi mühitində yetişən Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi Hüseyn Razi (1924-1998) özünəməxsus duyum və deyim tərzi

ilə seçilən şairlərimizdəndir. Onun yaradıcılığında vətən mövzusu, təbiət təsvirləri, Araz həsrəti əsas motivlərdən biridir. H.Razinin əsərlərində Azərbaycan təbiətinin füsunkar gözəlliyi, tarixi abidələrimizin möhtəşəmliyi, başı göydən nəm çəkən dağların vüqarı, qalaların canına hopan igidlərin nərələri vəsf edilmişdir. Respublikamızın elə guşəsi yoxdur ki, şair onları vəsf etməsin, qələmi ilə, sənətkarlıq qüdrəti ilə ona söz çələngi düzməsin.

Vətən aşiqi olan şairin 14 sanballı şeir kitabı [2, s.142] çapdan çıxıb, 6 dram əsəri tamaşaya qoyulub, publisist əsərləri və qəzəlləri oxucu marağına səbəb olub. Müxtəlif nəşriyyatlar tərəfindən "Kəndimizin səhəri", "Ana məhəbbəti", "Ömür yolları", "Səslənən dağlar", "Həmişə bahar", "Araz sahilində", "Canlı tonqal", "Ayrılmaram", "Sevək bu torpağı..." şeir kitabları, povest və pyeslərdən ibarət "Buludlar arasında", "Həyəcanlı gecə", "Tarla gözəli" topluları çapdan buraxılıb [1, s.387]. Onun son qələm məhsullarından olan "İnsanlar, tələsin xeyirxahlığa" poeması görkəmli elm xadimi, dünya şöhrətli Yusif Məmmədəliyevin ömür yoluna həsr edilmişdir. H.Razinin poeziyasında həm incə, zərif lirika var, həm də düşündürən dərin həyat fəlsəfəsi. Şairin həyat yolu görüb eşitdikləri ilə bağlı şeirləri bir silsilə təşkil edir. Onun etiraz motivləri isə həyatın özündən doğmuşdur. Ermənilər Qarabağda fitnə-fəsad törətdikləri, azərbaycanlıları dədə-baba torpaqlarından qovub çıxartdıqları "böyük Ermənistan" yaratmaq xülyalarını həyata keçirmək üçün hər cür çirkinliklərə əl atırdılar. Başabəla rəhbərlərimiz isə bizi təmkinli olmağa çağırırdı.

Hüseyn Razi bu hadisələri nigarançılıqla izləyir, susmur, narahat duyğularını belə ifadə edirdi.

...Misri qılınc pas atıbdır qınında,
Mərdlik susar namərdliyin yanında.
Qara iblis ehtiyaclar donunda
Əjdahalar qabağına çıxan yox.
... Səksəkələr odundadır zaman da
Qalacayıq çox həsrətdə, amanda.
Nə qədər ki, gözlərimiz dumanda
Üfiqlərdə şimşək kimi çaxan yox.

Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, şairə, dramaturq Kəmalə Ağayevanın (1936) yaradıcılığında müasirlərimizi düşündürən sosial-mənəvi problemlər bədii əksini tapmışdır. O, bir neçə poemanın, tarixi və müasir mövzularda 11 pyesin müəllifidir. Onun ən gözəl əsərləri ötən əsrin səksəninci və doxsanıncı illərində qələmə alınmışdır: "Daş piyalə", "Gül yarpağı", "O dağlarda gözüm qaldı", "Tanrıya heyranam mən" və başqaları. Şairənin "Əlixan məhəlləsi" kitabında uşaqlıq xatirələri, ilk qələm təcrübələrindən nümunələr və seçmə şerlər toplanmışdır.

Kəmalə Ağayevanın yaradıcılığında vətən, ana, sevgi anlayışlarına elə bən-

zətmələr, təsvir vasitələri gətirilir ki, oxucu qəlbi onunla həyat eşqi yaşayır. Vətən torpağının bir hissəsinin düşmən tapdağı altında qalması, verdiyimiz itkilər Kəmalə Ağayevanın da şair qəlbini sızladır. O, Şuşa, Kəlbəcər, Sədərək uğrunda canlarını qurban edənlərin adlarını uca tutur, onların müqəddəs ruhu qarşısında baş əyir:

Bu millətin qeyrət adı tacı var,
Bu şöhrətin dövrəsində acı var.
Qəlbi yara neçə ana-bacı var
Şərbətini acı içən şəhidlər.
Torpaq üçün ölənlərə ölüm yox,
Qəlbimizə yaş tökürəm, gülüm yox.
Yanınıza gəlmək üçün yolum yox,
Ürəyimə axıb keçir şəhidlər.

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, şair Elman Həbib (Elman Hacıyev – 1949-2010) əsas əsərlərini 90-cı illərdə və XXI əsrin əvvəllərində qələmə almışdır. Şair Asim Yadigarın qeyd etdiyi kimi, doğma Naxçıvanın tərənnümü Elman Həbibin yaradıcılığından qırmızı xətlə keçir. Onun "Ömrümün göy qurşağı", "Hərənin öz işi", "Ömrüm, günüm mənim", "Sənli, sənsiz günlərim", "Sevən ömrü", "Məmləkətim, məhəbbətim" kimi poetik topluları ona şöhrət qazandırmışdır. Şairin müxtəlif illərdə işıq üzü görən "Günəşin vətəni", "Həqiqət günəşi", "Bu, mən görən şəhər deyil", "Mənəmliyin süqutu", "Naxçıvannamə", "Heydərnamə", "İlham – xalqın İlhamı" kitablarında qədim Naxçıvan, onun tarixi keçmişi, bu günü, sabahı övlad sevgisi ilə qələmə alınmış, bu qədim diyarın gündən-günə gözəlləşməsində, yeniləşməsində ümummilli lider Heydər Əliyevin böyük zəhməti, yurda sonsuz sevgisi böyük ilhamla tərənnüm olunmuşdur. Şair öz kitablarında ulu öndərin quruculuq missiyasını böyük sevgi və məhəbbətlə davam etdirən ölkə Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun doğma torpağımızın simasının başdan-başa dəyişilməsində həyata keçirdikləri genişmiqyaslı quruculuq və abadlıq işlərini səmimi yazıları ilə bir daha oxuculara çatdırmışdır. Şair Elman Həbibin 2009-cu ildə çapdan çıxan "Naxçıvan Muxtar Respublikası: 85 ilin 15 ili" kitabı muxtar respublikanın yaradılmasının 85 illiyinə ən gözəl töhfə olmuşdur. Müəllif kitaba daxil olunan yazıları "Ədəbi-publisistik düşüncələr, statistik həqiqətlər" kimi oxucuya təqdim edir.

Elman Həbib doğma torpağın əsrarəngiz gözəlliklərini, orada yaşayan insanların saflığını böyük məhəbbətlə tərənnüm edirdi. Onun şeirlərini oxuyan hər bir oxucu şairin doğulduğu el-obaya ürəklə bağlılığının, vətənpərvərliyinin, torpaqsevərliliyinin şahidi olur.

Elman Həbib sözdən məharətlə, yerində istifadə edən şair idi. Sözün qədir-qiymətini bilən şair ana dilimizin çox böyük dəyərə malik olduğunu, bu dili qorumağın, inkişaf etdirməyin şan-şöhrət işi olduğunu göstərirdi. Bu cəhətdən

"Dilimizdə danışmağı utanmayaq" şeri xüsusi əhəmiyyətə malikdir.

Doğma ana laylasından mayalanıb,
Qopuzların havasından mayalanıb,
Qılıncların davasından mayalanıb
Ana dilim!
Hər vaxt onu şərəf sayaq.
Dilimizdə danışmağa utanmayaq.
Daş dilimdir "Gəmiqaya"m, "Qobustan"ım,
Tufanlardan qorumuşdur onu qanım.
Namusumdur, şərəfimdir, həm vicdanım,
Keşiyində kişi kimi duraq oyaq, -
Dilimizdə danışmağa utanmayaq.

Ədəbi yaradıcılığa keçən əsrin 70-ci illərində başlayan Muxtar Qasımzadə (1951) ilk şerlərindən oxucuların diqqətini cəlb etmişdir. Müasir ədəbiyyatımızın orta nəslinə mənsub olan Muxtar Qasımzadənin yaradıcılığında Naxçıvan ədəbi mühitini düşündürən məsələlərin daha geniş mənzərəsi müşahidə edilir.

Şairin ilk kitabı "Bu həmin sevgidir" adlanır. Bu kitabdakı şerlərdə poetik mükəmməllik, ahəngdarlıq, lirik-fəlsəfi duyum oxucu ilə şair arasında etibarlı körpü yaradır, onlar 80-ci illər Naxçıvanda yazılan şeirlərə örnək kimi qiymətləndirilir.

Sadəlik, lakoniklik, düşündürücülük Muxtar Qasımzadənin "Sənə sarı gələn səs" (1999) kitabının başlıca məziyyətləridir. Kitabdakı şerlərin ayrı-ayrılıqda öz söz mühiti vardır. Bu mühitdə ilhamlı bir şair sözə bəndəlik edir; onun içində həsrət ağrısı, hicran nisgili var, yaralı bir sevda var. Hisslərin tufanı, duyğuların tüğyanı, həyəcan seli Muxtar Qasımzadə şeirlərinə hopmuş fikir və düşüncələridir.

Şair tarixi həqiqətlərə "Yaddaş çırağı" (2000) kitabının işığında üz tutur, Gəmiqaya yüksəkliyindən, Əshabi-Kəhf qüdsiyyətindən, Əlincə dönməzliyindən, Gülüstan gözəlliyindən bəhs edir (Y.Axundlu).

Öz poetik imkanlarını ölçüb-biçən, sözə tələbkarlıq və qənaətlə yanaşan şair kimi tanıdığımız Muxtar Qasımzadənin "Gülü xəlvət açan dünya" (2004) kitabı şairin yeni uğuru kimi qiymətləndirilir. Buradakı şeirlər mövzularına uyğun olaraq "Gülü xəlvət açan dünya", "Ləçəklərə yazılan sevgi", "Nuhçıxandan gəlirəm", "Uşaqlar üçün", "Təbiət şeirləri", "Ədəbi fraqmentlər" başlıqları altında qruplaşdırılıb. Kitabın "Nuhçıxandan gəlirəm" bölməsi isə başdan-başa tarixi mövzuya həsr edilmişdir. Həmin kitab barədə rəyini bildirən şair Adil Cəmil bu bölmə ilə bağlı düşüncələrini belə ifadə edir: "Kitabın "Nuhçıxandan gəlirəm" adlı bölməsi mənə görə daha artıq maraq doğurur. Özünəməxsus etnotoponimiya və etnoqrafiyaya malik Naxçıvan torpağında bütün dünyanın diqqətini çəkən Gəmiqaya, Əshabi-Kəhf, Duz sarayı, Çalxanqala, Əlincə, Xaraba Gilan, Gülüstan, Qarabağlar türbəsi kimi çox qədim və dəyərli tarixi abidə və ziyarətgahlara ayrılıqda həsr olunmuş şeirlər məzmunlu və təsirli poetik parçalar kimi yadda qalır...".

Vətən və xalq taleyi Muxtar Qasımzadə yaradıcılığının əsas mövzusudur. Ulu diyarın təbiəti, uca dağları, tarixi yadigarları, füsunkar gözəllikləri yaradıcılığa başlayan dövrdən şairin ilham mənbəyinə çevrilmişdir. Vətən mövzusunda yazdığı şeirlərdə şair Vətən sevgisini ən böyük dövlət hesab edir:

Qorunub həmişə yer kürəsində,
Yaşayır hər kəsin öz nəfəsində,
Ürəyin məhəbbət xatirəsində
Ən böyük dövlətdir Vətən sevgisi.

Muxtar Qasımzadənin son kitablarından biri "Nuhçıxandan gəlirəm" (2013) adlanır. Bu kitab şairin oxuculara yeddinci ədəbi töhfəsidir. "Yaddaş çırağı", "Günəş çəkə bilmirəm", "Daşar gözəllikdən daşar bu yerlər" və "Məqalələr" başlığı altında qruplaşdırılan şeir və məqalələr M.Qasımzadə yaradıcılığına işıq salır, ədəbiyyatımızda onun yeri və rolunu göstərmiş olur.

Naxçıvanda yaşayıb, yazıb-yaradan şairlər arasında Vaqif Məmmədov (1948) öz dəsti-xətti, deyim tərzi, sözlə işləmək bacarığı ilə həmişə diqqəti cəlb etmiş, oxucu hörməti qazanmışdır. Vaqif Məmmədovun yaradıcılığını izləyənlər, onun "bənzərsiz sənətkarlıq imkanları, özünəməxsus istedad və ilham, ədəbiyyata, şeirə-sənətə vaqiflik" (İsa Həbibbəyli) keyfiyyətlərini görməmiş deyillər. Vaqif Məmmədovun şeirlərinin əsas leytmotivini Vətən, torpaq sevgisi və insan həyatı təşkil edir. Onun üç cilddə olacaq "Seçilmiş əsərləri"nin iki cildində verilmiş şeir və poemalarının bir qismi müstəqillik illərində gələmə alınmışdır.

V.Məmmədovun bədii yaradıcılığı əsasən ictimai motivlər üstündə köklənmişdir. Bunun da əsas səbəbi onun Araz çayının sahilində yerləşən qədim Sədərək kəndində yaşayıb-işləməsi, bu coğrafiyanın doğurduğu milli və ictimai düşüncələrin əsasında formalaşması ilə bağlıdır. Mənfur düşmən Sədərəyi top-tüfəngə tutmuş, yüzlərlə vətən övladı namərd gülləsinə tuş gəlmişdir. V.Məmmədovun "cəbhə şeirləri" həmin hadisələrin canlı şahidi kimi düşmən gülləsinin səsi altında qələmə alınmışdır. "Sədərək harayı" (1994), "Qeyrət qalası" (1999), "Heydər Əliyev və Sədərək rayonu" (2003), "Sədərəkdə yazılan gündəlik" (2010) kimi əsərləri "qeyrət qalası" (Heydər Əliyev) adlandırılan Sədərəkdə baş verən hadisələr şairin fikir və düşüncələri fövqündə təqdim edilir. Hadisələrin qaynar dövründə - 1992-ci ildə Xalq şairi Bəxtiyar Vahabzadə Vaqif Məmmədovun "cəbhə şeirləri"ndən bəhs edərkən demişdir: "Sədərəkdən Vaqif Məmmədovdan bir məktub aldım. İçində bir neçə şeir vardı. Ah dolu, aman dolu bu şeirlərdən üzümə alov vurdu, varaqlar əlimi yandırdı. Bu şeirlər Sədərəyin bugünkü müsibətinin sabah üçün tarixidir. Bu gün başımıza gətirilən müsibətlərin bədii aynası olan bu şeirləri biz indi çap etməli, gələcək nəslə yadigar qoymalıyıq ki, onlar da dədələrimiz və bizim kimi unutqan olmasınlar".

Akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi, Vaqif Məmmədovun Azərbaycanın müstəqilliyi uğrunda Vətən sərhədlərində gedən döyüşlərə, aparılan mübarizəyə

həsr olunmuş şeirlərinin uğurlu olmasının bir səbəbi şairin özünün həmin prosesin ön cərgəsində olması ilə bağlıdır.

Vaqif Məmmədov geniş yaradıcılıq və iş qabiliyyətinə malik təcrübəli pedaqoq, ciddi tədqiqatçı, qəzet redaktoru, nəşriyyat rəhbəri, şair və publisistdir. Bütün bunlar onun yaradıcılığında izsiz keçmir.

Vaqif Məmmədov ictimai motivli şeirlərində mövzunun aktuallığının arxasında gizlənmir, əksinə aktual həyat hadisəsini poetik biçimdə təqdim etməyə üstünlük verir. İctimai mətləbləri poetikləşdirmək, obrazlı düşüncə vasitəsilə mənalandırmaq V.Məmmədovun şeir yaradıcılığının əsasını təşkil edir. O, yetkin ictimai baxışlara malik olan milli təfəkkürlü Azərbaycan şairidir.

V.Məmmədovun "Salam, oğuz elləri" (2001), "Arazdan keçə bildim" (2002), "Mənə çiçək borclusan" (2003), "Bu dünyanın sevinci nə, qəmi nə? (2004) və başqa şeir və publisistik əsərləri onun yetkin, püxtələşmiş bir şair və nasir olduğunu təsdiq edir. O, hansı mövzuya müraciət etməsindən asılı olmayaraq onun dili sadə, axıcı və qəlbəyatandır. Təsadüfi deyildir ki, hələ vaxtı ilə Xalq şairi Nəbi Xəzri Vaqif Məmmədovdan söz açarkən demişdir: "Dil, üslub və ifadə orijinallığı, poetik təfəkkür lazımi profesional səviyyədədir. Vaqif Məmmədovun... yaxşı qələm təcrübəsi var. Şeirin sirlərinə vaqifdir".

Asim Yadigar (1954) qırx ildən artıqdır ki, bədii yaradıcılıqla məşğuldur. Onun 30-a qədər qəzet və jurnalda, 20-dən çox ədəbi almanaxda şeirləri dərc olunub. Şairin indiyə qədər 9 kitabı işıq üzü görüb. O, 20-yə qədər poemanın (bunun 10-dan çoxu müstəqillik illərində yazılıb), 6 dram əsərinin (hamısı müstəqillik illərində qələmə alınıb) müəllifidir.

Naxçıvanlı şairlər arasında öz istedadı ilə seçilən, böyük sənət yolunda qürurla addımlayan Asim Yadigarın ilk kitabı "Zirvə yolu" (1988) adlanır. Çoxsaylı əsərləri və burada toplanan maraqlı şeirləri ilə diqqəti cəlb edən Asim Yadıgarın yaradıcılığı mövzu rəngarəngliyi ilə həmişə seçilmişdir. Poeziyanın neçə-neçə naxışından biri olan həssaslıq, incə, saf duyğular, vətəndaşlıq pafosu Asim Yadigarın bütün şeirlərinin ana xəttini təşkil edir.

Asim Yadigarın "Unut bu sevdanı" (2001) kitabında qəlb oxşayan şeirlər kifayət qədərdir. Şair şeirlərində mənəviyyatı çox üstün tutur və insanlarda bu keyfiyyətləri görmək arzusundadır. "Mən böyük adamam" şeiri şairin özünü nişan verən, şəxsiyyətini açan bir nəzm parçası olsa da, bütövlükdə insanlarda görmək istədiyi ləyaqətliliyə çağırışdır. Bu cəhətdən şeir böyük tərbiyəvi xarakterə malikdir.

Bir qarın çörəkçin alçalmamışam,
Alçağa züy tutub əl çalmamışam.
Alçala-alçala ucalmamışam,
Mən böyük adamam, atam balası.

Şairin "Qisas qiyamətə qalmaz", "Mənə söz verin", "Bir gecənin ağrısı", "Bir bayraq altında", "Bahar", "Naxçıvanım – göz nurum", "Mən vətənin oğluyam"

kimi poemalarında tarixi şəxsiyyətlər, tarixi hadisələr, Azərbaycan övladının əməyə bağlılığı və vətənpərvəlik duyğuları şair hissiyatı ilə qələmə alınmışdır. "Bir nurlu heykəl yarat" kitabı şairin oxucularla 9-cu görüşüdür. Kitab "Heydər zirvəsi", "Sevgi nağılı", "Poemalar" və "Mənzum dramlar" başlığı altında verilmişdir.

Asim Yadıgar Naxçıvan televiziyasında redaktor, baş redaktor vəzifələrində çalışıb (1989-2007). O, 2007-ci ildən Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədridir. Asim Yadigar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, əməkdar mədəniyyət işçisidir. O, Prezident mükafatına və "Tərəqqi" medalına layiq görülmüşdür.

Azərbaycan şairlərindən Bəxtiyar Vahabzadə, Məmməd Araz, Hüseyn Razi şeirlərinin mahiyyətində, cövhərində dünyanı dərk etmək, həyat hadisələrini düzgün qiymətləndirmək kimi məsələlər xüsusi yer tutmuşdur. Onları filosof şair kimi də yüksək qiymətləndirirlər. Bu sıraya Naxçıvanda yaşayıb fəaliyyət göstərən şair Xanəli Kərimlini də aid etmək olar. Xanəli Kərimli (1951) şeir yaradıcılığı ilə çox erkən məşğul olsa da, ilk kitabı 1998-ci ildə işıq üzü görüb. "Ay işığında" (1998), "Anamdan məktub" (2001), "Bu da bir nağıldır" (2004) şeir və poema topluları nəşr olunmuşdur. X.Kərimli həm bir alim, həm bir şair kimi sözün məsuliyyətini dərindən dərk edən, özünə və sözünə tələbkarlıqla yanaşan şairlərdəndir. Onun şeirləri sadə və səmimidir. Gördüklərini, duyduqlarını şeirə çevirməyi bacarır, yeni söz deyə bilir. Xanəli Kərimli yeni dövr Azərbaycan şeirində vətəndaşlıq lirikasının əsas yaradıcılarından biridir (İsa Həbibbəyli). "Vətəndaşlıq lirikası təkcə mövzu xüsusiyyətlərinə görə deyil, eyni zamanda vətəndaşlıq haqqı qazanmış dilin üslubu umkanlarından bacarıqla istifadə etmək yolu ilə yaranır" [2, s.182]. X.Kərimlinin şeirlərində xalq dilinin üslubu imkanları həmişə təzə və yeni çalarlarla təzahür etdiyindən poetik dili canlı və təravətlidir. Çünki o, bir şair kimi hər bir sözün daxili anlamına, gizli qatlarına müraciət etməyi bacarır. O, sözlə insanla davranan kimi davranır.

X.Kərimlinin yaradıcılığı xalqımızın milli-mənəvi dəyərlərinin tarixi yaddaşının yaşantısıdır. Şairin şəhidlərimizlə bağlı yazdığı "Ağrı", "Bütövlük", tariximizin və günümüzün gerçəkliklərini əks etdirən "İnam", "Təbil" poemaları və bir çox şeirləri bu reallığı əks etdirir. Onun "Azərbaycan bayrağı" şeirində dövlətimizin atributlarından olan bayrağımızın simasında xalqımızın milli qürur və əzəməti ön plana çəkilir.

Şairin ümummilli liderimiz Heydər Əliyevə həsr etdiyi "Onu zaman doğmuşdu" şeiri də bu mövzuda yazılmış şeirlər sırasında milli-mənəvi yaddaşımızı əks etdirən layiqli poetik nümunələrdən biridir.

O, dünyaya gələndə
Təkcə özü ağladı.
Dünyadan köçəndəsə,
Cahan qara bağladı.

...Heydər kimi bir düha
Yetiribdirsə xalq,
Bu xalqa ölüm yoxdur,
Əbədi yaşayacaq.

Ədəbi tənqidin fikrincə X.Kərimli poeziyası, sözün gerçək mənasında əbədiyaşar poeziyadır. Xanəli Kərimlinin yaradıcılığı haqqında S.Bəşirovun "Xanəli Kərimli: bir ömrün nağılı" (2011) monoqrafiyası, "Şairə məktub" (2007) və "Xanəli Kərimli: sözün Əlincə qalası" (2011) məqalələr toplusu çap edilmişdir.

Naxçıvan ədəbi mühitində iki gənc şair deyim tərzi, öz sözləri, dəsti-xətti, fəlsəfi yozumları ilə fərqlənir. Bunlar Qafar Qərib (1976) və Elxan Yurdoğludur (1980). Hər ikisi Naxçıvan Dövlət Universitetinin məzunudur. Qafar Qəribin "Gözlərsən məni" (1998) ilk şeir kitabı tələbəlik illərində işıq üzü görüb. Q.Qərib bəlkə də çox universitetlərin tarixində tələbə ikən kitabı çıxan çox azsaylı tələbə-şairlərdən biridir (İ.Həbibbəyli). Gənc şairin ilk kitabındakı şeirlərdən aydın duyulurdu ki, zaman onu bu keçməkeşli dövrdə xalqının dərdinə şərik göndərib. Siyasi-ictimai həyatın, etnik dəyərlərimizin, əxlaqımızın elə sahəsi yoxdur ki, gənc şair o barədə öz sevincini-qüssəsini tərənnüm etməmiş olsun.

Q.Qəribin "Gözümə döydüyüm şəkil" (2000) adlı ikinci kitabı onun birinci kitabındakı Vətən duyğulu misraların bir növ davamıdır. Kitabda toplanan şeirlər bir daha sübut edir ki, Vətən dərdini şair öz dərdi hesab edir. Şairin "İçimizdəki qəhrəman" (2002), "Dünya üçbucaq imiş" (2004) kimi kitablarında özünə yer almış şeirləri ilə şair mövzu rəngarəngliyi, fikir lakonikliyi ilə ədəbiyyatda müəyyən qədər öz yolunu seçmişdir. Onun şeirləri özünəməxsus xüsusiyyətləri, səmimiliyi və yüksək şeriyyəti ilə diqqəti cəlb edir. Q.Qəribin yaradıcılığında "Vətənpərvərlik mövzusu, ictimai-siyasi mövzulu şeirlər, həyat fəlsəfəsi, sevgi-məhəbbət şeirləri, ilahi şeirlər, təbiət mövzusu" qırmızı xətt kimi keçir. Şair milli mətbuatın 140 illiyi bayram edildiyi günlərdə "Tərəqqi" medalı ilə təltif edildi.

Tələbəlik illərində "Qızlar gözlərində sevgi gəzdirir" (2002) kitabını çap etdirən Elxan Yurdoğlu mövzu rəngarəngliyi ilə diqqəti cəlb etmişdir. Müəllifin 2004-cü ildə "Mən sevginin bəndəsiyəm", 2008-ci ildə "Ən gözəl sevgidi ölüm", 2013-cü ildə "20+13" adlı şeir kitabları nəşr olunub. Həmin əsərlərdə toplanan şeirlər Elxan Yurdoğlu yaradıcılığını geniş təhlil etməyə imkan verir. Onun 2015-ci ildə işıq üzü görən növbəti kitabı "Ömrüm - ədəbi kitab" adlanır. Gənc tədqiqatçı, şair və publisist E.Yurdoğlunun bu kitabında onun daha çox ədəbi-bədii məqalələri, portret yazıları, bir neçə hekayə və essesi özünə yer almışdır. Buradakı yazılarla Elxan Yurdoğlu həm də özünün istedadlı publisist, folklorşünas olduğunu təsdiq edir. E.Yurdoğlu "Azərbaycan" qəzetinin bölgə müxbiridir. O, ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görüldü.

90-cı illərdə və sonrakı dövrdə Kəmaləddin Qədim, İbrahim Yusifoğlu, Budaq Təhməz, Ələddin Eyvazov, Məmməd Tahir, Nadir Əlincə, Əbülfəz

Muxtaroğlu, Maarif Təmkin, Əbülfəz Ülvi, Zeyqəm Vüqar, Səhlab Məmmədov, Cavanşir Eloğlu, Elbəyi Maqsudov, Hüseyn Bağıroğlu, Rahil Tahirlinin şeirləri dərin məzmunu və lirizmi ilə fərqlənir. Günümüzün aktual problemləri, cəmiyyəti düşündürən mövzular, Vətən, təbiət, Azərbaycana tükənməz sevgi şairlərin yaradıcılığında özünün dolğun əksini tapırdı. Pedaqoji elmlər doktoru Elbəyi Maqsudovun "Ürək bir dünyadır" (2001), "Poetik-praktik Azərbaycan dili" (2012) kitablarında ana, Vətən, vətənpərvərlik, dil, millət, sevgi motivli şeirləri üstünlük təşkil edir. E.Maqsudov şeirlərində dilimizin müxtəlif bölmələri poetik şəkildə verilmiş, dillə, nəzəri və elmi biliklərlə poeziya nümunələrinin sintezi yeni, düşündürücü formada oxucuya təqdim olunur. Onun şeirlərində bir saitin iştirak etdiyi bayatılar, qoşmalar, dodaqdəyməzlər, paronimlər və omonimli yanıltmacalar oxucuda böyük maraq doğurur.

Naxçıvanın qadın şairlərindən Aləmzər Sadıqqızı, Mətanət Hüseynxanqızı, Kamilə Dönməz və b. yaddaqalan şeirləri ilə oxucuların rəğbətini qazanıblar. Aləmzərin 1998-ci ildə "Bu gün toyundur sənin", 1999-cu ildə "Qəmi özündən böyük", Mətanətin 1997-ci ildə "Gündoğana gedən karvan", 2000-ci ildə "Payız yarpağı", Kamilə Dönməzin həmin ildə "Qardaş həsrəti" kitabları çapdan buraxılmışdır. Nazlı Hacılının, Sədaqət Nemətin, Aybəniz Güllərin, Nafilə Həsənəliyevanın, Rəna Rüstəmovanın, Səbinə Əlincənin, Güllər Qəmlinin və başqalarının da uğurlu, yaddaqalan şeirləri az deyildir.

XX əsrin 70-80-ci illərindən başlayaraq naxçıvanda bir neçə dəfə Azərbaycan Yazıçılar İttifaqının səyyar plenumlarının keçirilməsi, diyarın ədəbi qüvvələrinə diqqətin artırılması, Naxçıvanın şair və yazıçılarının əsərlərindən ibarət müxtəlif almanaxların buraxılması, ədəbi məcmuələrdə və nəşriyyatlarda Naxçıvan yazıçılarına geniş yer ayrılması sayəsində qədim diyar öz ədəbi inkişafında yeni mərhələyə qədəm qoymuşdu. Naxçıvan yazıçılarının sırası ədəbiyyata yeni gələn gənclər hesabına da get-gedə möhkəmlənməkdə idi.

Azərbaycan ədəbiyyatının inkişafında unudulmaz xidmətləri olan Hüseyn İbrahimov (1919-2008) ömrü boyu Naxçıvandan ayrı düşməyib. O, Naxçıvanda yazıb-yaradıb, buradakı ədəbi qüvvələrin dayağı olub. "Onun yaradıcılığı "məhəlli ölçü" tanımır. O, bütöv Azərbaycan yazıçısıdır" (Süleyman Rəhimov).

H.İbrahimov 1941-1975-ci illərdə Naxçıvanda komsomol, partiya, dövlət orqanlarında və mətbuat sahəsində çalışmışdır. 1980-ci ildən Azərbaycan Yazıçılar Birliyi Naxçıvan şöbəsinin məsul katibi, Naxçıvan Yazıçılar Birliyinin sədri olmuşdur [53, s.260]. H.İbrahimovun müxtəlif illərdə yazdığı hekayə, novella, povest, kinopovest, sənədli povest, tarixi və müasir romanlar onun nəsr yaradıcılığı sahəsindəki özünəməxsus ideya-sənətkarlıq imkanlarını bütün gücü ilə nümayiş etdirir. Yazıçının 80 illiyi qeyd olunanda onun 19 kitabı, 70-dən çox hekayə və novellası, 9 povesti, 6 romanı oxucuların mütaliəsində möhkəm yer tuturdu [22, 1999, 28 may].

H.İbrahimov həyatının müdrik dövründə - 1998-ci ildə Hüseyn Cavidə həsr etdiyi "Böhtan" romanını və "Qu quşları öləndə oxuyurlar" (1998) povestini yazmışdır. Nəsr sahəsində çox böyük uğurlar qazanan Hüseyn İbraimovun bu əsərləri Azərbaycan nəsrinin nailiyyətlərindəndir.

Hüseyn İbrahimov Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə 1994-cü ildə "Şöhrət" ordeni ilə təltif olunmuş, 1998-ci ildə isə "xalq yazıçısı" fəxri adına layiq görülmüşdür. O, 2003-cü ildən Prezident təqaüdçüsü idi [53, s.260].

1980-1990-cı illərdə nəsr sahəsində diqqətəlayiq əsərlər yaranmışdır. Möhsün Möhsünov, Həmid Arzulu, Novruz Nehrəmli ən maraqlı hekayə və povestlərini bu illərdə yazmışdır. Həmid Arzulu şeir və dramaturgiya ilə yanaşı, nəsrlə də məşğul olmağı davam etdirmişdir. Onun "Sevgi nağılı" povesti, "Qaçaq Quşdan", "Qara xəncər" tarixi romanları oxucular və ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. O, "Əlincə qalası", "Məhəbbət mərhəmət deyil" adlı pyeslər də yazmış, onlar müvəffəqiyyətlə Naxçıvan teatrında tamaşaya qoyulmuşdur. Novruz Nehrəmlinin "Zülmətdə işıq" povesti, "Vətən həsrəti", "Narahat ürək", "Ləyaqət" və digər kitablarına daxil olan əsərləri yığcam süjeti, obrazlılığı ilə diqqəti cəlb edir [2, s.163].

Ötən iyirmi ildə Naxçıvanda nəsrlə yazan qələm sahiblərinin sırası xeyli genişlənmişdir. Onlardan Bayram İsgəndərli, Akif Axundov, Güllü Məmmədova, Rafiq Babayev və başqaları Azərbaycan nəsrinə yeni nəfəs gətirmişlər.

Bayran İsgəndərlinin "Bir payız günü"ndən başlanan yaradıcılıq yolu "Günəş həmişə olacaq", "Balaca nağılçı", "Yeddi ilin ayrılığı" və "Vaxtla üz-üzə"dən keçən yazıçı taleyi ona həmişə uğur gətirib. Onun bütün hekayələri nikbin bir sonluqla bitir.

Yazıçının "Sevgi məktubları" onun oxucularla altıncı görüşüdür. Lirik düşüncələr üzərində köklənən yeni kitabında da yazıçı öz yaradıcılıq ənənəsinə sadiq qalır, insana, insanlığa olan dərin sevgisini bir az da qabarıq verməyə çalışır.

Akif Axundov hekayə janrı ilə yaradıcılığa başlamış və "Axşam düşürdü" kitabında onun hekayələri toplanmışdır. Sonrakı illərdə onun povest və hekayələrdən ibarət "Ömrün üç anı", "Yüksəliş", "Molla-Nəsrəddin-2000", "İşıqlı adamlar" kitabları nəşr edilib. "Çətin günün dostu" (2003) kitabı yazıçının sayca 6-cı əsəridir. Mirzə Cəlil ənənələrinə söykənən Akif Axundov özünəməxsus sənətkarlardandır. İnsan psixologiyasını gözəl bilən yazıçının əsərləri təbii və səmimidir. Yazıçı nikbin dünyagörüşə malik bir ziyalıdır. Bu nikbinlik onun əsərlərinə də hopub. "İnad bəlası", "Ağ göyərçin", "Çətin günün dostu", "Miras", "Gərəkli adam" və digər hekayələri, "Bal arısının şəhər sərgüzəşti", "Ömrün üç günü", "Sənsiz də səninləyəm", "Fatmanın hekayələri", povestləri, uşaqlar və böyüklər üçün yazdığı pyeslər, satirik və fantastik mövzularda yazdığı əsərlər mövzu rəngarəngliyindən xəbər verir. Sonrakı illərdə yazıçının daha iki kitabı –

"Sənsiz də səninləyəm" və "Qisas" kitabları çapdan buraxılıb.

İstedadlı nasir Rafiq Babayev keçən əsrin 70-ci illərindən hekayələrini çap etdirir. "Axırıncı axşam" adlı ilk kitabı 1986-cı ildə işıq üzü görüb. Rafiq Babayevin maraqlı hekayələri oxucular tərəfindən həmişə rəğbətlə qarşılanır. Rafiqin heç bir əsərini həyacansız oxumaq olmur. Onun hekayələrində və "Yolçu daşı", "Zühur" kitablarında verilən povestlərində daxili təhkiyə olduqca güclüdür. Dərin müşahidə qabiliyyətinə malik olan Rafiq Babayev dövrün gerçəkliklərini məharətlə əks etdirməyi bacarır. Sadə insanların zəngin mənəvi aləminin bədii təsviri onun bütün əsərlərinin başlıca qayəsidir. Müəllif 2013-cü ildə "Ölüm mələyi" romanını və əvvəllər yazdığı "Təkbətək" povestini oxucuların mühakiməsinə verib. Hər iki əsərdə fərqli taleli adamların adi həyat dramlarının qeyri-adi tərəflərindən söz açılır.

Yazıçı Güllü Məmmədovanın imzası ədəbi ictimaiyyətə yaxşı tanışdır. Onun nəsri üçün lirik-psixoloji üslub daha səciyyəvidir. İstedadlı yazıçının yaradıcılıq diapazonu son illərdə daha da genişlənmiş, o, epik növün daha irihəcmli janrlarında – povest və roman sahəsində də uğurlu sənət axtarışları aparmağa başlamışdır. Bu baxımdan G.Məmmədovanın son illərdə qələmə aldığı üç əsərini ayrıca qeyd etmək gərəkdir. Bunların hər üçü tarixi mövzuda olub, bədii nəsrimizin demək olar ki, müraciət etmədiyi tarixi sahəyə və şəxsiyyətlərə həsr olunmuşdur. "Qaçaq Quşdan" povesti sovet hakimiyyətinin ilk illərində Naxçıvanda rus işğalına qarşı mərdliklə mübarizə aparan el qəhrəmanına, şahbuzlu Qaçaq Quşdanın ömür yoluna həsr olunmuşdur.

"Qarabəkir əfsanəsi" tarixi sənədli roman (2001) və "Kalbalı xan" tarixi romanı (2007) Güllü Məmmədovanın tariximizə marağından və Azərbaycana qarşı haqsız iddiaların əsassızlığının ortaya çıxarılmasından irəli gəlmişdir. Birinci romanda hadisələr əsasən XX əsrin 20-ci illərindən, "Kalbalı xan" romanında isə XVIII-XIX əsrlərin siyasi hadisələrindən bəhs edilir. Muxtariyyət ərəfəsində Naxçıvanda baş verən siyasi-hərbi proseslər, erməni basqını, belə bir məqamda həmvətənlərinin köməyinə çatan qardaş türk ordusu, onun Kazım Qarabəkir paşa kimi qeyrətli rəhbərlərinin Naxçıvanın xilası naminə fədakar fəaliyyəti romanda dolğun, bədii təqdimini tapmışdır. "Kalbalı xan" romanında isə Naxçıvan xanlığının tarixi, rus ordusunun Azərbaycanı, eləcə də Naxçıvanı işğal etməsi, Naxçıvan xanı Kalbalı xanın ağıllı siyasəti öz dolğun həllini tapmışdır.

Naxçıvanda ədəbi tənqidin inkişafında tədqiqatçı alimlərdən Yavuz Axundlunun, İsa Həbibbəylinin, Əbülfəz Quliyevin, Əjdər İsmayılovun, Hüseyn Həşimlinin, Akif İmanlının, Əsgər Qədimovun, Fərman Xəlilovun, Əbülfəz Əzimlinin, Fərqanə Kazımovanın, İman Cəfərlinin, Hikmət Mehdiyevin, Elxan Məmmədovun və başqalarının böyük xidmətləri olmuşdur. Onların Naxçıvan ədəbi mühitinin tarixinə, çağdaş ədəbi prosesə dair uğurlu tədqiqatları diqqəti cəlb edir.

Naxçıvanda filologiya üzrə elmi mühitin, ədəbiyyatşünaslğın ağsaqqalı

sayılan professor Yavuz Axundlu elmə sədaqəti, zəhmətsevərliyi ilə bütöv bir nəslin taleyində mühüm rol oynamışdır. Y. Axundlu ədəbiyyatşünaslığa dair 15-dən çox kitabın, 120-yə qədər məqalənin müəllifidir. Onun 1997-ci ildə "İstiqlalın əzablı yolu" iri həcmli kitabı Ankarada türk dilində çap edilmişdir.

Akademik İsa Həbibbəylinin adı ölkəmizdə və bir sıra xarici ölkələrdə çox məhşurdur. O, uzunmüddətdir ki, (1980-2015) ədəbiyyat tarixi, ədəbiyyatşünaslıq, ədəbiyyat nəzəriyyəsi və başqa istiqamətlərdə ciddi və nəzəri əsərləri ilə şöhrət qazanmışdır. İ.Həbibbəyli XIX əsrin 50-ci illərindən elə bir ədəbi simamız olmamışdır ki, onun haqqında elmi və nəzəri fikirlərini söyləməsin, ona əsər həsr etməmiş olsun. O, ədəbiyyatşünaslığa dair qeyri-adi sayda əsərlərin müəllifidir. "İsa Həbibbəyli hazırda Azərbaycan ədəbiyyatşünaslığının elmi fikrinin əsas yükünü çəkən, ciddi qayğıları ilə yaşayan aparıcı nümayəndələrindən biridir" (Əziz Mirəhmədov).

Ümumiyyətlə, müstəqillik illərində Naxçıvanda ədəbi mühit inkişaf etmiş, görkəmli şair və yazıçılar, tədqiqatçı alimlər, tənqidçilər formalaşmışdır.

Mətbuat. Əhalinin maariflənməsində, mədəni səviyyəsinin yüksəlməsində, ictimai-siyasi fəallığının artmasında mətbuat əhəmiyyətli rol oynayır. Bu cəhətdən muxtar respublikada nəşr olunan "Şərq qapısı" qəzeti və digər mətbu orqanlar üzərinə düşən vəzifələri şərəflə doğruldur. "Şərq qapısı" qəzeti 1980-1990-cı illərdə "Sovet Naxçıvanı" və "Sovetskaya Naxiçevan" adları ilə Azərbaycan və rus dillərində çıxmışdı [75, s.68]. 1996-cı ildən Naxçıvan şəhər İcra Hakimiyyətinin "Nuh yurdu" qəzeti nəşr edilir. 30-cu illərdən muxtar respublikada yaradılmış inzibati rayonlarda da müvafiq olaraq Rayon İcra Hakimiyyətlərinin orqanı olan "Şərurun səsi" (Şərur), "El həyatı" (Ordubad), "Şərqin səhəri" (Babək), "Arazın səsi" (Culfa), "Oğuz səsi" (Şahbuz), "Oğuz yurdu" (Sədərək), "Yeni həyat" (Kəngərli) qəzetləri çıxır. Muxtar respublika mətbuatı diyarın ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatını işıqlandırır, onun tərəqqisində əhəmiyyətli rol oynayır. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov demişdir: "Mətbuat dövrün güzgüsüdür. Gələcək nəsillər tariximizi öyrənmək üçün indiki qəzetlərə, televiziya verilişlərinə müraciət edəcəklər. Odur ki, tariximiz öz əksini düzgün tapmalıdır. Hər bir kütləvi informasiya vasitəsi işçisi bilməlidir ki, o, bu günün gələcək nəsillərə daşıyıcısıdır. Ona görə də hər günün tarixi yazılmalı, gedən proseslər düzgün işıqlandırılmalıdır..." [74, s.4].

Bu cəhətdən mətbu orqanlar qəzeti muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatını vaxtında və əhatəli verə bilmişdir.

"Şərq qapısı" qəzeti ulu öndər Heydər Əliyevin müstəqillik illərində Naxçıvandakı həyat və fəaliyyətinin güzgüsü olmaqla yanaşı, onun müharibə şəraitində Naxçıvanda blokadanın yaratdığı ağır sosial-iqtisadi durumdan yaxa qurtaran tədbirlərini, imzaladığı fərman və sərəncamları, apardığı beynəlxalq səviyyəli danışıqları dolğun əks etdirmişdir.

Ümummilli lider Heydər Əliyevin "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" 2000-ci il 27 mart tarixli fərmanını rəhbər tutaraq Muxtar Respublika Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasının Dövlət Mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 29 mart 2000-ci il tarixdə sərəncam vermişdir. Sərəncamda muxtar respublikanın aparıcı mətbuat orqanı olan "Şərq qapısı" qəzetinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması ilə yanaşı, şəhər və rayon icra hakimiyyətlərinin orqanları olan qəzetlərin də bu sahədəki problemlərinin həlli istiqamətində müəyyən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu.



"Şərq qapısı" qəzetinin inzibati binası
2010-cu il

Naxçıvan mətbuatının inkişafına yönəlmiş tədbirlər – qəzet redaksiyalarının maddi texniki bazasının gücləndirilməsi, mətbuat işçilərinin sosial vəziyyətlərinin yaxşılaşdırılması, onlara fəxri adların və mükafatların verilməsi ardıcıl olaraq həyata keçirilirdi. 2005-ci ildən jurnalistlərin səmərəli fəaliyyətini təşkil etmək, bu sahədə mövcud problemləri həll etmək üçün Naxçıvan Mətbuat Şurası yaradıldı [74, s.63].

"Şərq qapısı" qəzetinin yubileylərinin qeyd edilməsi, bununla əlaqədar Ali Məclis Sədrinin qəzetin əməkdaşları ilə görüşlərində, mətbuatın rol və əhəmiyyətinin artması qeyd edilmiş, onun bir universitet və məktəb qədər cəmiyyət həyatı üçün əhəmiyyətindən söz açılmışdır.

Naxçıvanda mətbuatın maddi təminatına, mətbuat işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılmasına ardıcıl qayğısı və diqqəti ilə fərqlənən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov gördüyü işlərə və mətbuata himayəsinə görə 2010-cu ildə Naxçıvan Muxtar Respublikası Mətbuat Şurası tərəfindən "Mətbuatın dostu" fəxri adına layiq görülmüşdür [74, s.66].

Azərbaycan milli mətbuatının 135 və 140 illik yubileyləri münasibətilə Azərbaycan Respublikası Prezidentinin, Naxçıvan MR Ali Məclisi Sədrinin sərəncamları ilə Naxçıvan MR kütləvi informasiya vasitələrinin əməkdaşlarından 9-u "Tərəqqi" medalı, 3-ü Azərbaycan Respublikasının "Əməkdar jurnalisti" və 3-ü isə Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adlarına layiq görülmüşdür [74, s.66; 75, 2015, 23 iyul]. Naxçıvan MR Ali Məclisi Sədrinin sərəncamı ilə 3 nəfər "Əməkdar jurnalist", 5 nəfər isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuşdur [85, 2015, 23 iyul].



"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi
2010-cu il

Muxtar respublikada Naxçıvan şəhər Poliqrafiya Müəssisəsi fəaliyyət göstərirdi. 1991-ci ildə mətbəədə ofset dəzgahı quraşdırılmış, muxtar respublika qəzetlərinin bu üsulla çapına başlanmışdır.1997-ci ildən isə müəssisə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi kimi fəaliyyət göstərir. 2010-cu ildə "Şərq qapısı" qəzeti redaksiyası, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi yeni binaya köçmüşdür. Nəşriyyat ən müasir avadanlıqlarla təchiz edilmişdir. Ötən beş ildə "Əcəmi" NPB-də yüzlərlə kitab və jurnal, minlərlə qəzet nüsxələri keyfiyyətlə çap olunmuşdur. 2015-ci ildə nəşriyyata Almaniya istehsalı olan ikinci ən müasir çap maşını alınaraq quraşdırılmışdır. Bundan əlavə, AMEA Naxçıvan Bölməsinin "Tusi", Naxçıvan Dövlət Universitetinin "Qeyrət", Naxçıvan Müəllimlər İnstitutunun "Məktəb" və özəl "Qızıl dağ" mətbəə-nəşriyyatları da fəaliyyət göstərir.



Naxçıvan Muxtar Respublikası
Dövlət Televiziya və Radio Verilişləri Komitəsi
2009-cu il

Naxçıvan Muxtar Respublikasında yerli radio verilişlərinə 1930-cu ildən başlanılmış, iki ildən sonra Radio Verilişləri Komitəsi yaradılmışdır. 1963-cü ildən televiziya mərkəzi işə salınmışdır. Həmin ildə muxtar respublika Nazirlər Sovetinin qərarı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Komitəsi yaradılmışdır. Komitə fəaliyyət göstərdiyi dövrdə muxtar respublikanın ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatının işıqlandırılmasında mühüm rol oynamış, 1988-1990-cı illərdə informasiya blokadasını yararaq, Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmışdır. Komitənin yerləşdiyi bina əsaslı sürətdə yenidən qurulmuş və təmirdən sonra müasir səviyyəyə gətirilmişdir. Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin verilişləri ilə yanaşı, tamaşaçı və dinləyicilərə hər gün televiziya ilə 17 saat, radio ilə 16 saat rəngarəng yerli proqramlar təqdim edilir. 2001-ci ildə "Lider" televiziyası və radio kanallarının, "Space" televiziya kanalının peyk vasitəsilə muxtar respublikaya translyasiyası təmin olundu. "Naxçıvanın səsi" radio kanalı və elmi-publisistik

proqramları nümayiş etdirən "Kanal-35" televiziya kanalı müstəqil yayıma başladı. Televiziya və radio yayımları Naxçıvan Muxtar Respublikasını əhatə etməklə maraqlı verilişlər ilə tamaşaçıların və dinləyicilərin qəlbinə daxil olurlar. Naxçıvan Televiziya və Radiosu 2003-cü il iyun ayının 15-də - Milli Qurtuluş Günündə öz verilişlərini müstəqil kanal vasitəsilə yayımlamağa başlamışdır.

2009-cu ildən quraşdırılmış yeni avadanlıq verilişlərin texniki səviyyəsini və keyfiyyətini xeyli yüksəltməyə imkan yaratmışdır. 2011-ci ildən isə yeni nəsil teleradio avadanlıqları quraşdırılmış, daha müasir iş və efir şəraiti yaradılmışdır. Burada 12 kanallı rəqəmsal videomikser, 24 kanallı səs mikseri, 2 dəst efirin avtomatlaşdırılması sistemi, efirə göndərilən siqnalların keyfiyyətinə nəzarət edən rəqəmsal qurğular quraşdırılmışdır. Televiziyada yeni quraşdırılan avadanlıqların mərkəzi idarəetmə sistemi, 15 montaj avadanlığı, qrafik və animasiya keçidlərinin hazırlanması üçün 2 dəst kompüter bazalı sistemi, 40 terebayt həcmində rəqəmsal arxiv sistemi istifadəyə verilmişdir. Yeni televiziya avadanlıqları HD formatlı yüksək keyfiyyətli son texnologiyaya əsaslanır. Müasir dövrdə HD formatı televiziyalarda yüksək keyfiyyətli ən yeni standart hesab olunur. Naxçıvan televiziyasının iki studiyasında 7 çəkiliş pavilyonu vardır ki, onlardan biri virtual studiyadır.

Ölkəmizdə, o cümlədən muxtar respublikamızda baş verən ən mühüm hadisələri, xəbərləri peşəkarlıq və operativliklə tamaşaçı və dinləyicilərə təqdim edən teleradio jurnalistləri həm də Naxçıvanın sosial-iqtisadi inkişafının, tarixinin, elminin, təhsilinin, mədəniyyətinin, xalq yaradıcılığının təbliğatçısına çevrilmişdir.

1997-ci ildə quraşdırılmış yeni avadanlıq verilişlərin texniki səviyyəsini və keyfiyyətini xeyli yüksəltməyə imkan yaratmışdır.

2001-ci ildə Ordubad rayonunda quraşdırılan yeni ötürücü Ordubad və Culfa rayonları ərazisində Azərbaycan televiziyasının birinci kanalı və Naxçıvan televiziyası proqramlarının yayım keyfiyyətini daha da yaxşılaşdırmağa imkan vermişdir.

Son illərdə yeni televiziya ötürücüləri quraşdırılmış, Azərbaycan radiosunun FM dalğasında yayımlanmasına başlanılmışdır. Bunların və birbaşa İnternetə qoşulmaq imkanı verən kompüter-təfris mərkəzinin istifadəyə verilməsi ilə muxtar respublikanın informasiya blokadasına son qoyulmuşdur.

İncəsənət. Müstəqillik illərində Azərbaycan incəsənətində formaca ənənəyə bağlılıq və müasirlik, məzmunca milli və bəşəri dəyərlərin tərənnümü üstünlük təşkil edirdi. Muxtar respublika əhalisinin dünyagörüşünün genişlənməsində və mədəni səviyyələrinin daha da yüksəlməsində incəsənət müəssisələri mühüm rol oynayırdı.

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Naxçıvan Kukla Teatrı, Naxçıvan, Ordubad və Şərur Xalq Teatrları, Hüseyn Cavid Poeziya Teatrı kimi incəsənət müəssisələri səmərəli fəaliyyət göstərirdi. C.Məmmədquluzadə adına Naxçıvan Musiqili Dram Teatrında bu dövrdə M.Quliyev, Z.Həmzəyeva, S.Hüseynova, Ə.Qardaşbəyov,

A.Şahsuvarov, R.Cəfərxanova, İ.Məmmədov, T.Məmmədova, H.Ağayev, K.Quliyev, Y.Haqverdiyev, İ.Bənəniyarlı, T.Mövləvi, M.Səfərov, N.Həmzəyev və başqa görkəmli səhnə ustaları və gənc istedadlı aktyorlar çalışırdı.



Naxçıvan Dövlət Kukla Teatrı

Naxçıvan Dövlət Kukla Teatrı muxtar respublikada uşaq və yeniyetmələrin milli, mənəvi-əxlaqi dəyərlər uğrunda tərbiyəsində, dünyagörüşlərinin formalaşmasında mühüm rol oynayır. Bu illər ərzində teatrda Ə.Abbasovun "Keçinin qisası", T.Ağayevin "Cırtdanın kələyi", Ç.Ələsgərovun "İbrət dərsi", C.Məmmədquluzadənin alleqorik "Çay dəstgahı", Ə.Qasımovun "İnanmayaq tülkülərə", K.Ağayevanın "Göyçək fatma", "Tıqtıq xanım" və "Məlikməmməd", C.Kərimovun "Nəğməkar bülbül", A.Ağaqızının "Tənbəl Əhməd", V.Rzayevin "Cəsur dovşan" əsərləri tamaşaya qoyulmuşdur.

Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı musiqidə də özünü göstərirdi. Bu isə insanlarda musiqi mədəniyyətini formalaşdırırdı.

Musiqi mədəniyyətinin inkişafı isə musiqi təhsilindən və peşəkar musiqi kollektivlərinin yaranması ilə əlaqədardır. 1937-ci ildə Naxçıvan şəhər uşaq musiqi məktəbinin, sonralar isə bir çox şəhər və kəndlərdə uşaq musiqi məktəblərinin açılması Naxçıvanda musiqi mədəniyyətinin formalaşmasına təsir göstərdi. 1975-ci ildə Ü.Hacıbəyli adına Naxçıvan orta-ixtisas musiqi məktəbinin, 1988-ci ildə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunda "Musiqi" kafedrasının açılması peşəkar musiqiçilərin yetişməsinə imkan yaratdı. 1994-cü ildən Naxçıvan Dövlət Universitetində musiqi ixtisası üzrə mütəxəssislər hazırlanmağa başlandı [68, s.190]. 1998-ci ildə universitetin İncəsənət fakültəsi nəzdində konservatoriya açılmışdır. Konservatoriyanın fortepiano, skripka, xalq çalğı alətləri, ifaçılıq sinifləri, konsert salonu var idi. 2000-ci ildən burada opera studiyası fəaliyyət göstərirdi.

Hər bir xalqın musiqisi həmin xalqın tarixinin səslər vasitəsilə əks etdirilməsidir. Musiqi mədəniyyətinin inkişafında xalq yaradıcılığının – xalq mahnı və rəqs havalarının, aşıq sənətinin mühüm rolu olmuşdur. Xalq mahnıları, habelə toy mərasimi ilə bağlı haxıştalar, gülümeylər, rəqs havaları, xüsusilə xalq yaradıcılığının sintetik janrı, vokal və instrumental musiqini özündə birləşdirən yallı və mahnılar geniş yayılmışdı. Xalq yaradıcılığında özünəməxsus yeri olan aşıq sənəti, əsasən, Şərur və Şahbuz rayonlarında yayılmışdı.

Naxçıvan musiqi mədəniyyətinin əsas inkişaf dövrlərindən biri şərq üçlüklərinin fəaliyyətləri ilə sıx bağlı olmuşdur. 50-ci illərdə tarzən Rəşid Məmmədovun üçlüyü (xanəndə Abdulla Babayev, kamança çalan Aydın Camalbəyov idilər), 70-ci

illərdə xanəndə Zöhrab İsmayılovun üçlüyü (tarda Zöhrab Axundov, kamançada isə Kamal Əliyev çalırdılar) və bir sıra şərq üçlükləri fəaliyyət göstərirdi. Müstəqillik illərində xanəndə Qurban Qasımovun yaratdığı şərq üçlüyü, xüsusilə diqqəti cəlb edirdi. Şair Əbülfəzin "Qurbanın səsi" adlı yazdığı şeir Qurbanın sənətinə böyük mükafat, gələcəyinə etibar, inam kimi səslənirdi. Üçlüyün, Qurban kimi istedadlı musiqiçiləri olan tarzən Elman Əliyev və kamança çalan Nizami Hüseynovun hər biri ayrı-ayrılıqda professional musiqiçilərdir. Üçlüyün repertuarını əsasən muğam dəsgahları və qədim, unudulmaqda olan el havaları bəzəyirdi. 90-cı illərdə və sonrakı dövrdə bir sıra yaddaqalan ifaçılar Naxçıvan musiqi mədəniyyəti tarixinə adlarını yazmışlar. Xalq artistləri Abdulla Babayev, Əzizağa Məmmədov, əməkdar artistlər Qurban Qasımov, Vilayət İsmayılov, istedadlı müğənni Hünər Əliyev və başqaları peşəkar ifaçılar kimi xalqın rəğbətini qazanmışlar. Onların istər xalq çalğı alətləri orkestri, istərsə də kamera orkestri ilə çıxışları əsl sənət nümunələri idi.

Xanəndə Abdulla Babayevin adı 1950-ci illərdən başlayaraq xalq şənliklərində, konsert salonlarında tez-tez səslənirdi. Geniş səs diapozonuna malik xanəndə, dəfələrlə Naxçıvan xanəndəlik sənətini Bakı şəhərində keçirilən Naxçıvan günlərində, eləcə də ittifaqın bir çox böyük konsert salonlarında alqışların sədası altında nümayiş etdirmişdir. Onun heyranlıqla oxuduğu C.Cahangirovun "Koroğlu" kino filminə yazdığı "Dəli Həsənin mahnısı", M.Cavadovun "Naxçıvan", V.Axundovun "O Naxçıvandır", Ş.Əbdülkərimovun "Təki sən səslə məni" mahnıları, "Qatar", "Zabul-segah" muğamları, eləcə də bir çox xalq mahnıları və təsnifləri, bir sözlə, xalqın sevimli xanəndəsi Abdulla Babayevin səsi tamaşaçılar tərəfindən həmişə hörmətlə qarşılanmışdır. Azərbaycan Respublikasının xalq artisti, "Şöhrət" ordenli A.Babayevin yaradıcılığı gənc xanəndələr üçün əsl mənada örnək olmuşdur.

Azərbaycan Respublikasının xalq artisti Əzizağa Məmmədov oxuduğu muğam, təsnif, bəstəkar və xalq mahnıları onu dinləyən tamaşaçı və dinləyicilər tərəfindən rəğbətlə qarşılanır. Ölməz bəstəkarımız Üzeyir bəy Hacıbəylinin "Sənsiz", "Sevgili canan" romansları, Tofiq Quliyevin "Qızıl üzük" və "Sənə də qalmaz" mahnıları Əzizağanın repertuarının əsas özəyini təşkil edir. O, oxuduğu Azərbaycan bəstəkarlarının mahnılarına yeni nəfəs, yeni təravət gətirib. Əzizağanı dinləyənlər qeyd edirlər ki, o, xalq mahnılarını həm gözəl oxuyur, həm də onları yaşadır. "Aman ovçu, vurma məni", "Ay bəri bax", "Almanı atdım xarala", "Süsən", "İrəvanda xal qalmadı"... kimi xalq mahnıları Əzizağanın ifasında məlahətlə səslənir. Ə.Məmmədov Naxçıvan Dövlət Filarmoniyasının ən öncül solistlərindən biridir.

Naxçıvanda bəstəkarlıq sənəti də inkişaf etmişdi. Gənc musiqiçilər, musiqi aləmində ilk sözlərini cəsarətlə deməyə hazır olan Nəriman Məmmədov, Ramiz Mirişli, Məmməd Məmmədov, Məmməd Ələkbərov, Rəşid Məmmədov, Səfər Rəcəbov, Vahid Axundov ilk, sonradan populyar olan əsərlərini yaradırdılar.

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi Nəriman Məmmədov yaradıcılığının Azərbaycan musiqi mədəniyyətinin, eləcə də Naxçıvan musiqi mədəniyyətinin inkişafında xüsusi yeri vardır. O musiqinin müxtəlif janrlarında əsərlər yazmışdır. Bəstəkar – balet, 7 simfoniya, simfonik poema, 3 musiqili komediya, fortepiano və orkestr üçün 5 konsert, tar və orkestr üçün konsert, iki oratoriya, xalq çalğı alətləri orkestri üçün "simfoniyyetta", süitalar, kamera musiqisi janrında bir sıra əsərlər, 25-dən artıq dram tamaşalarına musiqi, 300-dən artıq mahnı və romansların müəllifidir [46, s.85].

1996-cı ildə bəstəkar dahi şair Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə "Məhəmməd Füzuli" oratoriyasını bəstələmişdir. O, musiqişünas və pedaqoq kimi də şöhrət qazanmışdır.

Naxçıvan bəstəkarlıq məktəbinin tanınmış nümayəndələrindən biri də Ramiz Mirişlidir. O, bir sıra fortepiano üçün prelüdiyalar, variasiyalar, pyeslər, simli kvartetlər yaratmışdı. Sonralar isə kamera orkestri üçün "Simfoniya", "Tar və kamera" orkestri üçün "Konsert" və bir sıra iri həcmli əsərlərini yaratmasına baxmayaraq, mahnı janrı bəstəkar R.Mirişlinin yaradıcılığında əsas yer tutur.

R.Mirişli Naxçıvan musiqi həyatının inkişafında, 1994-1998-ci illərdə Naxçıvan Bəstəkarlar İttifaqının formalaşmasında və bir çox yubiley konsertlərinin hazırlanmasında xidmətlər göstərmişdir. C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində qoyulan tamaşalar üçün yaddaqalan musiqilər yaratmışdır.

Naxçıvan bəstəkarlıq məktəbinin tanınmış nümayəndələrindən Rəşid Məmmədov, Nazim Quliyev, Səidə Məmmədova, Əkrəm Məmmədov, Nizami Məmmədov, Yaşar Xəlilov, Kamal Əhmədov, Şəmsəddin Qasımov, Yusif Məmmədov və başqaları yeni-yeni əsərlər yaratmışlar.

Bəstəkar, drijor, tarzən-pedaqoq Rəşid Məmmədov bir sıra musiqi əsərlərinin müəllifi, Naxçıvanın musiqi həyatı üçün istedadlı musiqiçilər yetirən görkəmli müəllim kimi tanınmışdır. O, mahnı janrına xüsusi diqqətlə yanaşmış və demək olar ki, mahnı janrı onun yaradıcılığında mühüm yer tutmuşdur. Onun "Doğma Naxçıvan", "Ürək pıçıldayır", "Küsmə, ay qız", "Baxma oğlan" mahnıları "Naxçıvan təranələri" adlı not məcmuəsinə daxil edilmişdir. Bəstəkarın mahnı yaradıcılığında əmək qəhrəmanları Əli Əliyev, İsa Əliyev, Yusif İsmayılov, Zakir Nəsirov, Tərlan İmamverdiyeva haqqında bəstələdiyi mahnılar əmək coşğunluğu yaratmış, onları əməyə, quruculuğa səsləmişdir.

Bir neçə süitanın, xor əsərlərinin müəllifi olan R.Məmmədov C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının bir sıra tamaşalarına ("Səyavuş", "Od gəlini", "Odlu diyar", "Alınmaz qala", "İtilənən xəncərlər") musiqi bəstələmişdir [54, s.34].

1999-cu ildə Rəşid Məmmədovun Həmid Arzulunun və Aşıq Şəmkirin sözlərinə yazdığı mahnılar Azərbaycan üzrə keçirilən müsabiqədə I və III mükafata

layiq görülmüşdür. R.Məmmədov 1996-2001-ci illərdə Naxçıvan şəhər Mədəniyyət şöbəsinə rəhbərlik etmişdir. R.Məmmədov 1999-cu ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

1998-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun yaradıcı ziyalılarla görüşündən sonra Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan təşkilatının fəaliyyətində ciddi dönüş yarandı. Üç bəstəkar və dörd müsiqişünası öz ətrafında birləşdirən təşkilat 2001, 2005, 2007 və müvafiq olaraq sonrakı illərdə hesabat konserti keçirmişdir.

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının üzvü olan bəstəkar və musiqişünaslar yaradıcılıq imkanlarından geniş istifadə edərək milli musiqi mədəniyyətimizin inkişafı naminə var qüvvələrini sərf edirlər.

Kamal Əhmədov professional təhsilli bəstəkardır. O, Dövlət Filormoniyasının Xalq Çalğı Alətləri orkestrinin bədii rəhbəri və baş drijoru vəzifəsində fəaliyyətə başlamışdır. 1985-1997-ci illərdə qeyd olunan orkestrin formalaşmasında və inkişafında böyük zəhmət çəkmişdir. O, hazırda Bəstəkarlar Təşkilatının məsul katibi və Naxçıvan Dövlət Universitetinin müəllimidir. Prezident mükafatçısıdır.

Kamal Əhmədov musiqinin bir çox janrlarında əsərlər yazmışdır. Mahnı yaradıcılığında əsasən naxçıvanlı şairlərin sözlərinə müraciət etmişdir: "Qızlar bulağı" (M.Nəsirli), "Qoşa çinar" (H.Valeh), "Gözlərinə baxan zaman" (Y.Şirinoğlu), "Milli ordumuz" (R.Əhmədov), "Bənövşə" (T.Şükür qızı) və b. Onun "Cəngi", "Süita", "Naxçıvan eskizləri", "Rekviyem" kimi orkest əsərləri öz orijinallığı ilə fərqlənir. O, bir sıra vokal, instrumental və simfonik əsərlərə müraciət etmişdir. Bəstəkarın kamera orkestri üçün yazdığı "Simfoniya" İstanbul-Borusan Oda Orkestri tərəfindən səslənmiş və orkestrin daimi repertuarına salınmışdır. Onun son illərdə Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulan "Dəli yığıncağı", "Dirilən adam", "Fərhad və Şirin" tamaşalarına yazdığı orijinal musiqilər rəğbətlə qarşılanmışdır.

Əsasən lirik mahnıları və xor əsərləri ilə tanınan bəstəkar Şəmsəddin Qasımovun yaradıcılığında mahnı janrı mühüm yer tutur. Tanınmış şairlərin sözlərinə yazılmış mahnılarda bəstəkar doğma Vətəni, onun gözəlliklərini, bu yurdun şəhid övladlarını, əməksevər insanlarını vəsf etməklə yanaşı, lirik məhəbbət mövzularına da geniş yer vermişdir.

Şəmsəddin Qasımovun yaradıcılığının böyük bir hissəsini teatr tamaşalarına yazılan musiqi təşkil edir.

O, Naxçıvan Şəhər Gənclik Xalq Teatrında tamaşaya qoyulan 8 əsərə, Naxçıvan Dövlət Kukla Teatrının 10-dan çox tamaşasına, Naxçıvan Dövlət Uşaq Teatrının bir tamaşasına orijinal musiqilər bəstələmişdir. Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulan 15 əsərə musiqi yazmış və musiqi tərtibatı vermişdir.

Ş.Qasımov bəstəkarlıq işi ilə yanaşı pedaqoji fəaliyyətini Naxçıvan Dövlət

Universitetində davam etdirir. O, həm də Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Təşkilatının sədridir.

Naxçıvan bəstəkarları içərisində Yaşar Xəlilovun son illərdəki yaradıcılığı xüsusi ilə diqqəti cəlb edir. Y.Xəlilov musiqinin müxtəlif janrlarında yazdığı əsərlər bəstəkarın profesional yaradıcılığından xəbər verir. Bəstəkar simfonik xalq çalğı alətləri, kamera orkestrləri və həmçinin xor və instrumental alətlər üçün yazılan bir sıra yaddaqalan əsərlərin müəllifidir. 1991-ci ildə yazdığı tar və orkestr üçün "Konsert"də xalq yaradıcılığından bəhrələnən bəstəkarın özünəməxsus musiqi dili, üslubu, fərdi yaradıcılıq prinsipləri özünü parlaq şəkildə göstərir.

Naxçıvanın musiqi mədəniyyəti tarixində qadın musiqiçilərin böyük əməyi olmuşdur.



Naxçıvan Dövlət Filarmoniyası
2006-cı il

Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, professor, drijor Səidə Məmmədova Naxçıvanda ilk xor kollektivinin əsasını qoymuş [81, s.64], bu sənətin inkişafına xeyli əmək sərf etmişdir. O, 1994-cü ildən Naxçıvan Dövlət Universitetində "İfaçılıq" kafedrasının müdiridir. S.Məmmədova Azərbaycan Dövlət sinfonik orkestrinin yüksək tərkibli heyətinə drijorluq edən ilk qadın idi. Onun bir sıra mahnıları – "Sevirəm yurdumu", "Ürəkdir sevən məni", "Ayrılıq", "Ölkəmiz", "Könlümdəsən həmişə", "Görüş" – ilə də könülləri fəth etməyi bacarmışdır.

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi, dosent Əqidə Ələkbərova Naxçıvanın ilk qadın musiqişünasıdır. O, bəstəkar Məmməd Ələkbərovun ailəsində dünyaya göz açıb. Ə.Ələkbərova 1983-1999-cu illərdə Naxçıvan orta ixtisas musiqi məktəbində müəllim, şöbə müdiri, direktor vəzifələrində çalışıb. 1996-cı ildən isə Naxçıvan Dövlət Universitetində müəllim, dekan müavini və dekan işləyib. O, Naxçıvan yallıları haqqında tədqiqatlar aparmış və 1994-cü ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1992-ci ildə Kanadada "Heyvagülü" adlanan kompakt diskini yazdırmışdır.

Naxçıvan Muxtar Respublikasında bəstəkar kimi formalaşan Nazim Quliyev, Vaqif Allahverdiyev, musiqişünaslardan Sevda Əliyeva, Vasif Allahverdiyev, Jalə Əliyeva hazırda Bakı şəhərində yaradıcılıq fəaliyyətlərini davam etdirirlər.

Naxçıvanda musiqi mədəniyyətinin inkişafında "Araz" Dövlət Mahnı və Rəqs Ansamblının xüsusi rolu olmuşdur. "Araz" Mahnı və Rəqs Ansamblı 1991-ci ildə Türkiyənin İstanbul şəhərində keçirilən I Ümumdünya Folklor festivalında, 1994-cü ildə Avstriyanın Vyana şəhərində, 1995-ci ildə İsveçrədə, 1996-cı ildə Almaniyanın Köln şəhərində, Orta Asiyada və bir çox geniş konsert salonlarında

çıxış edərək sənət uğurları qazanmışdır.

Naxçıvan Dövlət Filarmoniyasının fəaliyyəti Naxçıvan Muxtar Respublikasının mədəni həyatında özünəməxsus yer tutur. Dövlət qayğısı sayəsində filarmoniyanın maddi-texniki bazası möhkəmlənmiş, filarmoniya üçün səs avadanlıqları, musiqi alətləri, musiqi ədəbiyyatı, geyimlər alınmışdır. 2001-ci ildə Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivləri Türkiyə Respublikasında, Rusiya Federasiyasında, Türkmənistan Respublikasında keçirilən müxtəlif tədbirlərdə uğurla çıxış etmişlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 10 yanvar 2012-ci il tarixli "Naxçıvan Dövlət Filarmoniyası Estrada Orkestrinin yaradılması haqqında" Sərəncamından sonra Estrada Orkestrinin yaradılması başa çatmış və orkestrin repertuar zənginliyinə diqqət artırılmış, kollektiv üçün 20 dəst geyim alınmışdır. Xalq artisti Çingiz Axundovun rəhbərliyi ilə Estrada Orkestri formalaşmış və bir sıra rəsmi dövlət tədbirlərində özünü ən yüksək səviyyədə təsdiq etmişdir. 2012-ci ildə Respublika Günü ərəfəsində Naxçıvan teatrı ilə filarmoniya kollektivinin Ü.Hacıbəylinin "Koroğlu" operası əsasında birgə hazırladığı kompozisiya mədəniyyət hadisəsi kimi dəyərləndirilmişdir [76, 2014, 25 aprel].

Ali Məclis Sədrinin 19 aprel 2010-cu il tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyası musiqi mədəniyyətimizdə mühüm hadisədir. Qeyd edək ki, filarmoniyanın xalq çalğı alətləri, kamera orkestrləri, mahnı və rəqs ansamblı, xor kollektivi istedadlı uşaqları öz ətrafında birləşdirmişdir.

Naxçıvan Muxtar Respublikasında uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə göstərilən qayğı və diqqəti xüsusilə qeyd etmək lazımdır. Muxtar respublikada gedən quruculuq işləri bu mədəniyyət ocaqlarını da əhatə etmiş, son illərdə 20-dən çox uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri üçün yeni binalar tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Qədim diyarda mədəniyyətin və incəsənətin bütün sahələri qayğı ilə əhatə olunmuşdur. 1970-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi yaradılmışdır. Birlik 2005-ci ildə Azərbaycan Rəssamlar İttifaqının 17 üzvünü öz ətrafında birləşdirmişdi [54, s.155]. Hazırda Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50-dən çox üzvü vardır. Moskvada (1985), Türkiyənin Qars şəhərində (1993), İğdır şəhərində (2001), İran İslam Respublikasının Urmiya, Xoy, Mehabad şəhərlərində (1995), Azərbaycan Respublikasının bir çox şəhər və rayonlarında Naxçıvan rassamlarının əsərlərindən ibarət sərgilər nümayiş etdirilmişdir.

Naxçıvan şəhərində "Naxçıvan – bəşəriyyətin beşiyi" mövzusunda 2012-ci I, 2014-cü ildə isə II Beynəlxalq Rəsm Festivalı keçirilmişdir. Naxçıvanda boyakar rəssamlardan Yuran Məmmədov, Mircəlil Seyidov, Şəmil Mustafayev, Məmməd Şirzadov, Sabir Qədimov, Məmmədəli Ələkbərov, Telman Abdinov və başqaları öz ardıcıllarını yetirmişlər. Xalq rəssamı Hüseynqulu Əliyevin "Göygöl" (2007), Qədrulla Bağırovun "Əshabi-Kəhf" (1999), Həmzə Sadiqovun "Əlincə qalası" (2009),



Naxçıvan Muxtar Respublikası
Rəssamlar Birliyi
2013-cü il

Telman Abdinovun "Darı dağ" (2005), Məmmədəli Ələkbərovun "Yuxu" (2009), Əli Səfərlinin "Gəmiqaya" (2007) əsərləri Naxçıvanın daha çox tarixi ziyarətgahları, qalaları, tarixi yerləri haqqında bənzərsiz təsvirləri təqdim edirlər.

Əməkdar artist Mircəlil Seyidovun "Melodiya" (1994), "Günorta" (1998), "Həyacanlı gün" (2001), "Xatirə" (2003), "Emalatxana" (2004), "Bürkü" (2005), "Yay" (2005), "Dialoq" (2006) kimi ranglər dünyası insanı dünyanı dərk etməyə səsləyir [48].

Naxçıvan Dövlət Universitetində "Təsviri incəsənət" və "Memarlıq" ixtisaslarının olması bu sahənin inkişafına əsaslı təsir etmişdir. Xüsusilə həmin ixtisasları bitirmiş Ülviyyə Həmzəyeva, Həbibə Allahverdiyeva, Cavid İsmayılov və başqaları özlərini sənətdə təsdiq edə bilmişlər.

Ülviyyə Həmzəyeva qısa müddət ərzində rəssamlıq mühitində özünü təsdiq etmişdir. O, 2002-ci ildə Naxçıvanda soyqırım qurbanlarının xatirəsinə ucaldılan abidələrin layihə müəllifidir. Əsərləri bir çox beynəlxalq və ölkəmiqyaslı müsabiqələrdə ən yüksək mükafata layiq görülmüşdür. 2009-cu ildə Azərbaycan Respublikasının əməkdar rəssamı fəxri adına layiq görülmüşdür [36, s.3]. Naxçıvan Dövlət Universitetinin baş müəllimi, Naxçıvan Rəssamlar Birliyinin sədridir (2011). Əsərlərində əsasən millilik, qədimlik, mifologiya və real həyatın fəlsəfəsi özünəməxsus tərzdə əks olunur. "Həyat həqiqəti" (2009), "Həyat ağacı" (2009), "Naxçıvan bəşəriyyətin beşiyidir" (2011), "İtmiş cənnət" (2011), "Məqam" (2012) kimi əsərləri fəlsəfi dərinliyi ilə tamaşaçını düşündürür.

Ü.Həmzəyevanın Türkiyə Respublikasının Fırat və Van Universitetlərində, bir sıra əsərləri ABŞ-da keçirilən tədbirlərdə - Avrasiya Konfransında (2001), Dünya Ticarət Birliyində (2001), Ticarət Sərgisində (2001), Ford Xatirə Kitabxanasında (2000), V.Səmədova adına sərgi salonunda (2011, 2012), Naxçıvan Rəssamlar Birliyi B.Kəngərli adına sərgi salonunda sərgilənmişdir.

Qədim diyarda mədəniyyətin və incəsənətin bütün sahələri qayğı ilə əhatə olunmuşdur. Bu da həmin sahələrin inkişafına şərait yaradır. 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 40 illik yubileyi dövlət səviyyəsində qeyd edilmişdir. 2013-cü ildə isə Rəssamlar Birliyinin yeni binası və Bəhruz Kəngərli adına Sərgi Salonu istifadəyə verilmişdir.

Beləliklə, müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında elm, təhsil, ədəbiyyat, mətbuat, mədəni-maarif müəssisələri ən yüksək səviyədə inkişaf etmiş, nəticədə bu sahələrin mükəmməl və peşəkar nümayəndələri fomalaşmışdır.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYATLAR

1. *Axundov A., Əfəndiyev E.* İşıqlı adamlar (Naxçıvanın görkəmli adamları haqqında). Bakı: Hüquq ədəbiyyatı, 2002, 480 s.
2. *Axundov A., Vəliyev S.* Naxçıvan ədəbi mühiti. Bakı: Nurlan, 2008, 216 s.
3. *Allahverdiyeva H.* Rənglərin sehri. Bakı: Elm və təhsil, 2011, 64 s.
4. Azərbaycanın regionları. Yeni inkişaf dövrü. Üç cilddə, I cild. Bakı, 2014, s. 115-190.
5. Azərbaycan tarixi. Yeddi cilddə, VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, 608 s.
6. "Azad Azərbaycan" qəzeti.
7. Azərbaycan Milli Elmlər Akademiyasının 2008-ci ildəki fəaliyyəti haqqında hesabat. Bakı: Elm, 2009, 307 s.
8. Azərbaycan Milli Elmlər Akademiyasının 2009-cu ildəki fəaliyyəti haqqında hesabat. Bakı: Elm, 2010, 294 s.
9. Azərbaycan Milli Elmlər Akademiyasının 2013-cü ildəki fəaliyyəti haqqında hesabat. Bakı: Elm, 2014, 372 s.
10. Azərbaycan Milli Elmlər Akademiyasının 2014-cü ildəki fəaliyyəti haqqında hesabat. Bakı: Elm, 2015, 450 s.
11. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2008-ci ilə aid elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxşıvan: Tusi, 2008, 86 s.
12. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2009-cu ilə aid elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxşıvan: Tusi, 2009, 106 s.
13. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2010-cu ilə aid elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxşıvan: Tusi, 2010, 106 s.
14. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2012-ci ilə aid elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxşıvan: Tusi, 2012, 120 s.
15. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2013-cü ilə aid elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxşıvan: Tusi, 2013, 124 s.
16. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2014-cü ilə aid elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxşıvan: Tusi, 2014, 112 s.
17. "Azərbaycan" qəzeti.
18. "Dirçəliş – XXI əsr" jurnalı
19. *Cəfərov H.* Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: Elm və təhsil, 2011, 544 s.
20. "Elm" qəzeti
21. *Elman Həbib.* Naxçıvan Muxtar Respublikası: 85 ilin 15 ili. Ədəbi-publisistik düşüncələr, statistik həqiqətlər. Bakı: Şirvannəşr, 2009, 438 s.
22. "Ədəbiyyat" qəzeti

23. *Əliyev Heydər.* Müstəqilliyimiz əbədidir. 22-ci kitab (sentyabr 1999 – noyabr 1999). Bakı: Azərnəşr, 2007, 528 s.
24. *Əliyev Heydər.* Müstəqilliyimiz əbədidir. 39-cu kitab (iyun 2002 – iyul 2002). Bakı: Azərnəşr, 2012, 480 s.
25. *Əliyev Heydər.* Müstəqilliyimiz əbədidir. 40-cı kitab (iyul 2002 – sentyabr 2002). Bakı: Azərnəşr, 2012, 512 s.
26. *Əliyev İlham.* İnkişaf məqsədimizdir. 4-cü kitab (aprel 2004 – iyun 2004). Bakı: Azərnəşr, 2009, 400 s.
27. *Əliyev İlham.* İnkişaf məqsədimizdir. 6-cı kitab (sentyabr 2004 – oktyabr 2004). Bakı: Azərnəşr, 2011, 416 s.
28. *Əliyev İlham.* İnkişaf məqsədimizdir. 14-cü kitab (oktyabr 2005 - dekabr 2005). Bakı: Azərnəşr, 2013, 400 s.
29. *Əliyev İlham.* İnkişaf məqsədimizdir. 21-ci kitab (noyabr 2006 – dekabr 2006). Bakı: Azərnəşr, 2015, 392 s.
30. "Fikir" informasiya jurnalı. Naxçıvan Dövlət Universitetinin xəbərləri. Naxçıvan, 1998-2014-cü illər.
31. *Hacıyev İ.M.* Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafi (1991-2011-ci illər). Naxçıvan, Əcəmi NPB, 2011, 272 s.
32. *Hacıyev İ., İsmayılov B.* Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, 184 s.
33. *Haciyev İ., Həbibbəyli İ.* Heydər Əliyev və Naxçıvanda elmin inkişafı // Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. Xüsusi buraxılış. Bakı, Elm, 2003, s.111-120.
34. *Həbibbəyli İ.Ə, Hacıyev İ.M., İsmayılov B.* İntibahın 15 ili. Naxçıvan: Əcəmi NPB, 2011, 279 s.
35. *Həbibbəyli İ.Ə.* Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti. Naxçıvan: Qeyrət, 2002, 80 s.
36. *Həmzəyeva Ü.* Nöqtədən nöqtəyə. Naxçıvan: "Əcəmi" NPB, 2012, 44 s.
37. "Xalq qəzeti".
38. "İki sahil" qəzeti.
39. *Kəngərli S.F.* Heydər Əliyev muzeylərimizin yaradıcısı və memarıdır. Naxşıvan: Əcəmi NPB, 2003, 92 s.
40. "Kommunist" qəzeti.
41. *Qaffarov T.B.* Azərbaycanın ən yeni tarixi. XX əsrin sonları – XXI əsrin əvvəlləri. Bakı: "GİSO Enterprise" KRİNB, 2005, 275 s.
42. *Qasımov Ə.* Naxçıvan Muxtar Respublikasında mədəniyyətin inkişafı (1946-1991-ci illər). Naxçıvan Muxtar Respublikası Məqalələr toplusu. Bakı: Elm, 1999, 184 s.

43. *Qasımov Ə.* Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər). Bakı: "Turxan" NPB, 264 s.
44. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, 840 s.
45. "Qobustan" jurnalı.
46. *Quliyev N.* Naxçıvan musiqi mədəniyyəti tarixindən (XX əsr). Bakı: Elm, 1999, 140 s.
47. *Qəhrəmanov Ə., İbrahimov S., Səfərov F.* Naxçıvan teatrının salnaməsi. Naxçıvan: Əcəmi NPB, 2010, 736 s.
48. *Mehdiyeva T.* Mircəlal Seyidovun rənglər dünyası. Naxçıvan: Əcəmi NPB, 2011, 80 s.
49. *Məmmədov M.* Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, 208 s.
50. Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. "Elm" qəzetinin xüsusi buraxılışı. Bakı: Elm, 2003, 288 s.
51. "Naxçıvan" jurnalı.
52. Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Nurlan, 2008, 548 s.
53. Naxçıvan ensiklopediyası. İki cilddə. c.1. İstanbul: Bakanlar Medya, 2005, 376 s.
54. Naxçıvan ensiklopediyası. İki cilddə. c.2. İstanbul: Bakanlar Medya, 2005, 376 s.
55. Naxçıvan Dövlət Universiteti. Bakı: Elm və təhsil, 2014, 106 s.
56. Naxçıvan: inkişafın 16 ili. Naxçıvan: Əcəmi NPB, 2011, 48 s.
57. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 1996-2011. Naxçıvan: Əcəmi NPB, 2012, 536 s.
58. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 2012. Naxçıvan: Əcəmi NPB, 2013, 80 s.
59. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 2013. Naxçıvan: Əcəmi NPB, 2014, 80 s.
60. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 2014. Naxçıvan: Əcəmi NPB, 2015, 158 s.
61. Naxçıvan Muxtar Respublikası – 80. Tarixi-statistik məcmuə (Məcmuənin ümumi rəhbəri V.Talıbov, İ.Hacıyev, B.İsmayılov). Bakı: Səda, 2004, 222 s.
62. Naxçıvan Muxtar Respublikası – 85. Naxçıvan: Əcəmi NPB, 2009, 102 s.
63. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, 102 s.
64. Naxçıvan 2003 -2013: hədəflər, inkişaf, nəticələr. Naxçıvan, 2014, 200 s.
65. Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunmuş təntənəli mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı/ "Xalq qəzeti", 2009, 5 avqust.

66. Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş təntənəli mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı/ "Azərbaycan" qəzeti, 2014, 9 aprel.
67. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Naxçıvan: Əcəmi NPB, 2001, 92 s.
68. Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, 222 s.
69. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMR DA), f. 32, siy.2, iş 37.
70. NMR DA, f.32, siy.2, iş 38.
71. Ömrün üç günü. Bakı: Ergün, 1997, 94 s.
72. Regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər). Bakı, 2006, 416 s.
73. "Respublika" qəzeti.
74. *Seyid Surə*. "Şərq qapısı" qəzeti və Naxçıvanda ədəbi mühit. Bakı: Elm və təhsil, 2010, 208 s.
75. *Şahverdiyev Z., Zeynalov İ.* Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Bakı: Qismət, 2002, 168 s.
76. "Şərq qapısı" qəzeti.
77. *Talıbov V.Y.* Heydər Əliyev cənablarının siyasi fəaliyyətinin Naxçıvan dövrünün elm və maarifçilik məsələləri// Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. 1997, №1, s. 5-6.
78. *Talıbov V.Y.* Muxtar Respublika ümumtəhsil işçilərinin 9 aprel 2002-ci il tarixdə keçirilmiş müşavirədə çıxışı// "Şərq qapısı" qəzeti, 2002, 11 aprel.
79. *Talıbov V.Y.* Naxçıvan Muxtar Respublikası təhsil işçilərinin 9 sentyabr 2008-ci il tarixdə keçirilmiş konfransında çıxışı// "Şərq qapısı" qəzeti, 2008, 10 sentyabr.
80. *Talıbov V.Y.* Yüzillik inkişafın zirvəsi. 1969-1999-cu illər// "Azərbaycan" qəzeti, 1999, 16 iyul.
81. *Vəzirov C., Əliyeva J.* Sözlü, nəğməli Naxçıvan. Bakı: Sabah, 2003, 140 s.
82. "Yeni Azərbaycan" qəzeti.
83. "Yeni fikir" qəzeti.
84. 2000-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2001, 46 s.
85. 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: Əcəmi NPB, 2006, 70 s.
86. 2005-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: "Əcəmi" NPB, 2006, 48 s.
87. 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2010, 38 s.

88. 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2011, 96 s.
89. 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2013, 88 s.
90. 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2014, 96 s.
91. 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2015, 72 s.

1944, 26 sentyabr – Nəcəfqulu Rəfiyevin Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi

1944, 26 oktyabr – Qəzənfər Əkbərovun Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi

1945, 25 fevral – Abbas Quliyevin Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi

1971 – Araz Su Elektrik Stansiyasının tikilməsi

1974 – Naxçıvan şəhərində böyük dramaturq Cəlil Məmmədquluzadənin heykəlinin qoyulması

1974, 21-22 fevral – Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Naxçıvan MSSR-ə "Xalqlar dostluğu" ordenini təqdim etmək üçün Naxçıvana gəlməsi

1974, 4-5 oktyabr – Naxçıvan MSSR-in 50 illik yubiley tədbirlərində iştirak və "Oktyabr inqilabı" ordeninin Naxçıvan MSSR-ə təqdim etmək üçün Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Naxçıvana ikinci səfəri

1978, 30 may – Naxçıvan MSSR-in ikinci Konstitusiyasının qəbul edilməsi

1978, oktyabr – Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Naxçıvana üçüncü səfəri

1978, 23 oktyabr – Babək rayonunun yaradılması

1979 – Arpaçay dəryaçasının tikilməsi

1979 – Sirab su anbarının tikilməsi

1980, 21-24 may – Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Naxçıvana dördüncü səfəri

1982, 1-2 oktyabr – Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Naxçıvana beşinci səfəri

1984 – "Təbriz" mehmanxanası binasının tikilməsi

1987 – Bənəniyar su anbarının tikilməsi

1987 – Naxçıvan Respublika xəstəxanasının istifadəyə verilməsi

1987 – Naxçıvan şəhərində Koroğlunun heykəlinin qoyulması

1988 – Naxçıvan şəhərində Babəkin heykəlinin qoyulması

1989 – Dahi memar Əcəmi Naxçıvaninin abidəsinin qoyulması

1989, 31 dekabr – "Sərhəd hərəkatı". Naxçıvan MR-də Ordubaddan Sədərəyədək SSRİ dövlət sərhədi boyunca tikanlı məftillərin sökülməsi

1990, 18-19 yanvar – Kərki kəndinin SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyilə ermənilər tərəfindən işğal olunması

1990, 19 yanvar – Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxması və özünü müstəqil respublika elan etməsi

1990, 22 iyul – Heydər Əliyevin Naxçıvana gəlməsi

1990, 30 sentyabr –Heydər Əliyevin Azərbaycan SSR və Naxçıvan MSSR xalq deputatı seçilməsi

1990, 17 noyabr – Heydər Əliyevin sədrliyi ilə Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasının öz işinə başlaması, Naxçıvan MSSR-in Naxçıvan Muxtar Respublikası adlanması

1991, 14 mart – Naxçıvan MR Ali Məclisi sessiyasında SSRİ-nin saxlanılmasına dair ümumittifaq referendumunda Naxçıvan MR-in iştirak etməməsi barədə qərarın qəbul edilməsi

1991, 3 sentyabr – Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi

1991, 7 sentyabr – Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin təşkil olunması

1991, 29 oktyabr – Naxçıvanla Türkiyə arasında müvəqqəti körpünün açılması

1991, 16 dekabr – "Dünya Azərbaycanlılarının Birliyi və Həmrəyliyi Günü"nün qeyd edilməsi haqqında Naxçıvan MR Ali Məclisinin qərarı

1992, 22-25 mart – Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri

1992, 28 may – Naxçıvanla Türkiyə arasında körpünün ("Ümid" körpüsü) açılışı

1992, 10-14 avqust – Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin Türkiyəyə səfəri

1992, 18 avqust – Naxçıvanda yerləşən 75-ci motaatıcı diviziyanın yola salınması

1992, 22-26 avqust – Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin İrana səfəri

1992, 24 oktyabr – Naxçıvanda Dövlət çevrilişinə cəhd göstərilməsi

1992, 21 noyabr – Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması

1992 – Naxçıvanda ilk milli sərhəd dəstəsinin yaradılması

1993, 5 fevral – Naxçıvanda Türkiyə Respublikasının Konsulluğunun fəaliyyətə başlaması

1993, 8 mart – Naxçıvanda İran İslam Respublikasının Konsulluğunun açılması

1993, 10 mart – ABŞ-ın Naxçıvana humanitar yardım göstərməsi ("Boinq" təyyarəsinin Naxçıvana gəlməsi)

1993, 16-19 mart – Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin İrana rəsmi səfərə getməsi

1993, 21 mart – Fransadan Naxçıvana humanitar yardım göndərilməsi

1993, 19-25 aprel – Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin Türkiyəyə səfəri

1993, 9 iyun – Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin Bakıya gəlməsi

1993, 15 iyun – Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı – Azərbaycan Ali Sovetinin Sədri seçilməsi

1995, 12 noyabr – Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında mövcud siyasi-coğrafi mövqeyi beynəlxalq Moskva və Qars müqavilələri nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikasına Muxtar Dövlət statusu verilməsi

1995, 16 dekabr – Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi

1996, 11-13 iyul – "Uluslararası qaynaqlarda Naxçıvan" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi

1996, 29-31 oktyabr –Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Hüseyn Cavid abidəsinin açılışında iştirak etmək üçün Naxçıvana üç günlük tarixi səfər etməsi

1996, 29 oktyabr – Hüseyn Cavidin məqbərəsinin açılışı

1998, 14 yanvar – Azərbaycan Prezidenti Heydər Əliyevin sədrliyi ilə keçirilmiş

Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsinin müzakirəsi

1998, 13 mart – C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının açılması

1998, 28 aprel – Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının Naxçıvan Muxtar Respublikası Ali Məclisində qəbul edilməsi

1998, 30 iyun, 29 dekabr – Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Naxçıvan Muxtar Respublikası Konstitusiyasının təsdiq edilməsi

1999, 8 yanvar – Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının qüvvəyə minməsi

1999, 4 fevral – Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı

1999, 18 fevral – Heydər Əliyev Muzeyinin yaradılması

1999, 10-15 oktyabr – Azərbaycan Prezidenti Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının 75 illik yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana ikinci tarixi səfər etməsi

1999 – Naxçıvan şəhərində Dədə Qorqud abidəsinin qoyulması

2000, 23 mart – Heydərabad qəsəbəsinin yaradılması

2002, 15-19 iyun – Azərbaycan Prezidenti Heydər Əliyevin Naxçıvana üçüncü tarixi səfəri

2002, 7 avqust – Azərbaycan Prezidenti Heydər Əliyevin sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılması

2002, 10-15 avqust - Azərbaycan Prezidenti Heydər Əliyevin Naxçıvana dördüncü tarixi səfəri

2004, 9 fevral – Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı

2004, 27 fevral – Heydər Əliyev adına Hərbi Liseyin yaradılması

2004, 19 mart – Kəngərli rayonunun təşkili

2004, 12-14 may – Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 80 illik yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana birinci tarixi səfəri

2004, 02 sentyabr – Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvana ikinci tarixi səfəri

2005, 31 oktyabr – Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yaradılması

2005, 19-20 dekabr - Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvana üçüncü tarixi səfəri

2006, 28 iyun – Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi

2006, 20-21 dekabr – Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvana dördüncü tarixi səfəri

2007, 16-17 oktyabr - Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvana beşinci tarixi səfəri

2007, 14-17 noyabr – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Şimali Kipr Türk Respublikasında səfərdə olması

2007 – Şahtaxtı-Poldəşt körpüsünün açılışı

2008 – Naxçıvan Muxtar Respublikasında "İnkişaf və tərəqqi ili"

2008, 3-4 iyun - Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvana altıncı tarixi səfəri

2009 – Naxçıvan Muxtar Respublikasında "Nizam-intizam ili"

2009, 6 fevral – Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı

2009, 24-25 aprel – "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi

2009, 3-5 avqust – Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 85 illik yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana yeddinci tarixi səfəri

2009, 2-3 oktyabr – Azərbaycan Prezidenti İlham Əliyevin Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə Görüşündə iştirak etmək üçün Naxçıvana səkkizinci tarixi səfəri

2009, 3 oktyabr – Naxçıvanda Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə Görüşünün keçirilməsi

2009, 14 oktyabr – Bakıda İslam ölkələrinin mədəniyyət nazirlərinin VI konfransında qəbul edilmiş qərara əsasən, Naxçıvanın 2018-ci il üçün "İslam mədəniyyətinin paytaxtı" elan edilməsi

2009, 22 oktyabr – Naxçıvan Muxtar Respublikası Şahtaxtı Gömrük İdarəsinin yeni sərhəd-keçid kompleksinin açılışı

2010 – Naxçıvan Muxtar Respublikasında "Yeniləşmə ili"

2010, 11 yanvar – Naxçıvan Avtomobil Zavodunun istifadəyə verilməsi

2010, 26-29 aprel – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Türkiyə Cümhuriyyətinə səfəri

2010, 5-6 oktyabr - Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvana doqquzuncu tarixi səfəri

2011 – Naxçıvan Muxtar Respublikasında "Turizm ili"

2011, 17 fevral – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması

2011, 15 mart – İsveçrə Konfederasiyasının Prezidenti xanım Mişelin Kalmi-Reyin Naxçıvanda olması

2011, 29 dekabr – Naxçıvan şəhərində Türkiyə Cümhuriyyətinin qurucusu və memarı Mustafa Kamal Atatürkün abidəsinin açılışı

2011, 29 dekabr – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü çağırış dördüncü sessiyasında 2012-ci ili muxtar respublikada "Milli dəyərlər ili" elan edilməsi

2012 – Naxçıvan Muxtar Respublikasında "Milli dəyərlər ili"

2012, 27-29 yanvar – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Gürcüstanın Acarıstan Muxtar Respublikasına səfəri

2012, 7 mart – Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin Naxçıvanda görüşü

2012, 6-9 may – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Avstriyanın Ştiriya Federal Əyalətinə işgüzar səfəri

2012, 30 may – Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvana onuncu tarixi səfəri

2012, 5 oktyabr – Naxçıvanda Türkdilli dövlətlərin gömrük xidməti rəhbərlərinin görüşü

2012, 22 dekabr – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü çağırış altıncı sessiyasında 2013-cü ilin "Heydər Əliyev ili" elan edilməsi

2013 – Naxçıvan Muxtar Respublikasında "Heydər Əliyev ili"

2013, 28 fevral – Gürcüstan Respublikasının Prezidenti Mixael Saakaşvilinin Naxçıvana səfəri

2013, 28 dekabr – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü çağırış səkkizinci sessiyasında 2014-cü ilin muxtar respublikada "Muxtariyyət ili" elan edilməsi

2014 – Naxçıvan Muxtar Respublikasında "Muxtariyyət ili"

2014, 14 yanvar – Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı

2014, 7-8 aprel – Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illik yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana on birinci tarixi səfəri

2014, 4-5 iyul – Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr edilmiş "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda beynəlxalq konfransın keçirilməsi

2014, 19 avqust – Azərbaycan, Türkiyə, Gürcüstan müdafiə nazirlərinin Naxçıvan görüşü

2014, 24 oktyabr – Naxçıvan şəhərində Türkdilli dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumunun keçirilməsi

2014, 28 noyabr – Göynük və Nəhəcir kənd inzibati ərazi dairələrinin Babək rayonunun tabeliyinə verilməsi

2015 – Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili"

MÜNDƏRİCAT

Giriş..... 8
Fəsil və paraqrafların müəllifləri..... 16

I FƏSİL
NAXÇIVAN İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ

1.İkinci Dünya müharibəsinin başlanması..... 18
2.Naxçıvan MSSR-də hərbi səfərbərlik..... 21
3.Naxçıvanlılar müharibə cəbhələrində..... 23
4.Naxçıvanlılar partizan döyüşlərində və antifaşist müqavimət hərəkatında 29
5.Naxçıvanlılar arxa cəbhədə 30
6.Sosial-iqtisadi həyat..... 39
7.Mədəniyyət..... 43

II FƏSİL
NAXÇIVAN MÜHARİBƏDƏN SONRAKI BƏRPA DÖVRÜNDƏ VƏ 50-60-CI İLLƏRDƏ

1. Naxçıvan müharibədən sonrakı bərpa illərində..... 64
2. Azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiyası (1948-1953-cü illər) və Naxçıvan 68
3. Sosial-iqtisadi həyat..... 76
4. Kənd təsərrüfatı, sənayenin inkişafı..... 85
5. Mədəniyyət..... 118

III FƏSİL
NAXÇIVAN 1970-80-Cİ İLLƏRDƏ

1. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi. Dönüş və inkişaf mərhələsi..... 145
2. 70-80-ci illərdə Naxçıvanda ictimai-siyasi həyat..... 152
3. Naxçıvanda iqtisadi yüksəlişin başlanması..... 178
4. Sosial inkişaf..... 207
5. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Konstitusiyası (1978)..... 217
6. Mədəniyyət..... 235

IV FƏSİL
NAXÇIVANIN İCTİMAİ-SİYASİ VƏ SOSİAL-İQTİSADİ HƏYATI (1988-1990-CI İLLƏR)

1. Dağlıq Qarabağ münaqişəsi və bunun Naxçıvanın ictimai-siyasi həyatına təsiri 275
2. Sosial-iqtisadi həyat 283
3. "Sərhəd hərəkatı" 286
4. Naxçıvana erməni təcavüzü. Naxçıvanlıların ermənilərə qarşı mübarizəsi.... 290
5. Naxçıvan MSSR-in SSRİ tərkibindən çıxması 295
6. Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıdışı 298
7. Naxçıvanda xalq hərəkatı 300
8. Naxçıvanda həyata keçirilən ilk demokratik dəyişikliklər 301

V FƏSİL
NAXÇIVAN MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ (1991-1993-CÜ İLLƏR)

1. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi 314
2. İqtisadi islahatlar 317
3. Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən müdafiəsi 320
4. Naxçıvandan rus qoşunlarının çıxarılması və milli ordunun formalaşması.... 328
5. Blokadanın aradan qaldırılması və Naxçıvan Muxtar Respublikasının beynəlxalq əlaqələri 332
6. Naxçıvanda dövlət çevrilişinə cəhd 347
7. Naxçıvanın muxtariyyət statusunun ləğv edilməsinə cəhd 352
8. Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması 354

VI FƏSİL
NAXÇIVAN MÜSTƏQİLLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ DÖVRÜNDƏ (1993-2015-Cİ İLLƏR)

1. Naxçıvanın ictimai-siyasi həyatı 363
2. Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının qəbul edilməsi.... 396
3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsi 403
4. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı 411

VII FƏSİL
MƏDƏNİYYƏT

1. Təhsil 479
2. Elm 501
3. Mədəni-maarif..... 512
4. Ədəbiyyat 521
5. Mətbuat..... 534
6. İncəsənət..... 537
Tarixi-siyasi xronologiya 550

NAXÇIVAN TARİXİ

XX ƏSRİN 40-CI İLLƏRİNDƏN MÜASİR DÖVRƏDƏK

Üç cilddə,
III cild

Yığılmağa verilmiş 09.10.2015.
Çapa imzalanmış 25.11.2015.
Formatı 60X84 1/8 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 70.0 ç.v.
Sifariş № 892. Tiraj 2000 nüsxə.



Naxçıvan şəhəri, Təbriz küçəsi,1